# ƏBƏDİYYƏT NURU




# HƏZRƏT .

# MUHƏMMƏD

## İSLAM PEYĞƏMBƏRİNİN HƏYATI BARƏDƏ MÜKƏMMƏL ARAŞDIRMA

BAKI-2010

# ƏBƏDİYYƏT NURU
## İslam peyğəmbərinin həyatı barədə mükəmməl araşdırma

ORİJİNAL ADI:
**FURUĞE - ƏBƏDİYYƏT**

Müəllif:
**Dr. Cəfər Sübhani**

Tərcümə edən:
**Mais Ağaverdiyev**

Redaktor:
**Aftandil Babayev**

Texniki redaktorlar:
**Azər Yusubov**
**Müşfiq Əsgərov**

Azərbaycan Respublikası Dini Qurumlarla
İş Üzrə Dövlət komitəsinin 12 fevral 2010-cu il tarixli
DK-53/B saylı məktubu ilə nəşrinə razılıq verilmişdir.

**Həzrət Muhəmməd(s).** Bakı, «Şərq-Qərb», 2010. 656 səh.

© QüdsDekor, 2010

# ÖN SÖZ

Bəşəriyyətin ən kamil insanı həzrət Mühəmmədin (s) həyatı bilavasitə İslam tarixi ilə əlaqədar olduğundan, təbii ki, onun həyatı tarixi baxımdan diqqətdən kənar qala bilməz.

Qurani-Kərimdə Allah-taala Həzrət Mühəmmədi (s) insanlara gözəl bir örnək kimi təqdim edərək buyurur: "Həqiqətən, Allahın rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər və Allahı çox zikr edənlər üçün gözəl nümunədir." (Əhzab surəsi, ayə-23) Quranın bu ayəsi Peyğəmbərin(s) həyatını öyrənməyin nə dərəcədə əhəmiyyətli olduğunu göstərir. İslam dini Allahın göndərdiyi dinlər arasında sonuncusu və ən mükəmməli olduğu üçün bu dinin banisinin həyatı da dıgər peyğəmbərlərin həyatı ilə müqayisədə daha geniş şəkildə tədqiq edilmişdir. Təsadüfi deyil ki, orta əsr müsəlman tarixçiləri o həzrətin həyatındakı bütün xırdalıqları da qələmə almış və onu nəsildən-nəsilə çatdırmışlar. Bununla əlaqədar olaraq Peyğəmbərin (s) həyatını özündə əks etdirən onlarla kitab yazılmış, hətta onların bəzisi bir çox qərb dillərinə də tərcümə edilmişdir. Belə əsərlər arasında Ayətullah Cəfər Sübhaninin "Əbədiyyət nuru" əsəri özünə-məxsus yer tutur. İslam peyğəmbərinin həyatının mükəmməl şəkildə araşdırıldığı bu kitabda müəllif həm də bir sıra avropalı şərqşünasların əsassız iddialarına tutarlı cavablar vermişdir. Ayətullah Cəfər Sübhani əsərdə İslam dininin meydana gəlməsi, İslamı qəbul etmiş ilk şəxs, Quranın ecazı, Ğəraniq əfsanəsi, hicrət, müsəlmanlarla kafirlər arasında baş vermiş döyüşlər, qiblənin dəyişdirilməsi kimi olduqca maraqlı mövzulara toxunmuşdur. Diqqəti daha çox cəlb edən məqam isə müəllifin dilinin çox səlis olması, mövzuları sadə dildə oxucuya çatdırmasıdır.

Əsəri doğma dilimizə tərcümə etmiş Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb dili müəllimi Mais Ağaverdiyev də kitabın oxunaqlı olması üçün bütün qüvvəsini səfərbər etmiş, əlindən gələni əsirgəməmişdir.

Sonda kitabın nəşr edilib geniş oxucu kütləsinə təqdim edilməsini məsləhət görür və ümid edirəm ki, "Əbədiyyət nuru" kitabı qısa müddət ərzində bir çoxlarının stolüstü kitabına çevriləcəkdir.

**Vasim Məmmədəliyev**
*Akademik*
*Bakı şəhəri, 19 yanvar 2010-cu il*

## ƏRƏBİSTAN YARIMADASI VƏ YAXUD İSLAM MƏDƏNİYYƏTİNİN BEŞİYİ

Ərəbistan, Asiya qitəsinin cənub-qərbində yerləşən böyük bir yarımadadır. Yarımadanın sahəsi $3.000.000^2$ (üç milyon kvadrat) kilometrdir. Müqayisə üçün desək, İran ərazisindən iki, Fransadan altı, İtaliyadan on, İsveçrədən isə səksən dəfə böyükdür.

Yarımada, Şimaldan Fələstin və Şam səhrası, Şərqdən Hirə, Dəclə, Fərat və Fars körfəzi, Cənubdan Hind okeanı və Oman körfəzi, Qərbdən isə Qırmızı dənizlə həmsərhəddir.

Deməli, yarımada Qərb və Cənub istiqamətindən dənizlə, Şimal və Şərqdən səhralıq və körfəzlə əhatə edilmişdir.

Qədim dövrlərdə yarımadanı üç əsas hissəyə ayırırdılar:

1. «Hicaz» adlanan Şimal və Qərb hissəsi. 2. «Ərəb səhrası» adlanan Mərkəzi və Şərq hissəsi. 3. «Yəmən» adlanan Cənub hissəsi.

Yarımadada yaşamaq mümkün olmayan xeyli sayda böyük səhralar mövcuddur. Bunlardan biri «Səmavə» vadisidir ki, hazırda onu «Nüfuz» adlandırırlar. Digər bir səhra Fars körfəzinədək uzanan və hazırda «Ər-Rubul-Xali» adlanan böyük səhradır. Əvvəllər buranın bir hissəsinə «Əhqaf», digər bir hissəsinə «Dəhna» deyilirdi.

Bu səhralıqlar ümumilikdə yarımadanın üçdə birini təşkil edir ki, burada da yaşayış yoxdur. Çox nadir hallarda buraya az miqdarda yağıntı düşür və bunun nəticəsində bəzi qəbilələr heyvanatı otarmaq üçün buraya gətirirlər.

Yarımadanın havası səhralıq və mərkəzi hissədə olduqca isti və quru, sahillərdə rütubətli, çox az hissədə isə mülayimdir. Susuzluq və havasızlığın nəticəsidir ki, yarımadanın əhalisi on beş milyondan artıq deyil.

Ərəbistan yarımadasında Cənubdan Şimala doğru uzanan böyük dağ silsiləsi mövcuddur ki, onlardan ən hündürü 2470 (iki min dörd yüz yetmiş) metrdir.

Hələ qədim dövrlərdən qızıl-gümüş və eləcə də digər qiymətli daş mədənləri buranın əsas təbii sərvəti olmuşdur. Heyvanlara gəlincə

yarımadada əsasən at və dəvə bəslənilir. Quşlardan isə göyərçin və dəvəquşuna üstünlük verilir.

Bu gün Ərəbistanın ən böyük sərvəti neftdir. Yarımadanın əsas neft ehtiyatları, «Zəhran» şəhərindədir. Bu şəhər Fars körfəzinə yaxın olan «Əhsa»nın yanında yerləşir və avropalılar onu «Dəhran» adlandırırlar.

Ərəbistan yarımadasının coğrafi mövqeyi ilə bir qədər daha yaxından tanış olmaq üçün qeyd etdiymiz üç hissə barədə məlumat vermək məqsədəuyğun olar.

1. «Hicaz» dağlıq və əkinçiliyə yararlı olmayan səhralıqdan ibarət bir yer olub Ərəbistanın Şimal və Qərb hissəsini təşkil edir. Bu ərazi bütünlüklə- Fələstindən tutmuş Yəmən sərhədlərinədək Qırmızı dənizin sahilində yerləşir.

Tarixdə Hicazın adı digər bölgələrlə müqayisədə daha çox hallanır. Təbii ki, bu da bir sıra mənəvi və dini amillərlə bağlıdır. Hal-hazırda, milyonlarla müsəlmanın qibləgahı sayılan Kəbə evi də məhz burada yerləşir.

Kəbənin yerləşdiyi əraziyə uzun illərdən bəri, hələ İslamın gəlişindən də çox-çox qabaq, müxtəlif ərəb və qeyri-ərəb qəbilələri böyük hörmət bəsləmiş, ehtiram əlaməti olaraq orada müharibə aparmağı qadağan bilmişlər. İslam dini də bu qadağanı öz qüvvəsində saxlamışdır.

Hicazın ən mühüm şəhərləri, «Məkkə», «Mədinə» və «Taifdir». Burada hələ qədim dövrlərdən iki liman olmuşdur. Biri əsasən məkkəlilərin istfiadə etdiyi «Cəddə» limanı, digəri də mədinəlilərin istifadə etdiyi «Yənbu» limanı. Hər iki liman «Qırmızı dəniz» sahillərində yerləşir.

***Müqəddəs Məkkə şəhəri***

Məkkə dünyanın ən məşhur və Ərəbistan əhalisinin ən sıx olduğu şəhərlərdən biridir. Bu şəhər dəniz səviyyəsindən təxminən üç yüz metr hündürdə yerləşir.

Məkkə şəhəri iki dağ silsiləsi arasında yerləşdiyindən onu uzaqdan görmək olmur. Hal-hazırda orada yüz əlli min əhali yaşayır.

***Məkkə şəhərinin tarixi***

Məkkənin tarixi İbrahim(ə) peyğəmbərlə başlayır. Belə ki, o, öz oğlu İsmaili(ə) anası Hacərlə birlikdə yaşamaq üçün Məkkəyə gətirir. İsmail(ə)

ətrafda yaşayan qəbilələrdən qız alıb evlənir. İbrahim(ə) Allahın göstərişi ilə Kəbəni tikir. Bir sıra səhih hədislərə əsasən Nuh(ə) peyğəmbərdən yadigar qalmış Kəbəni təmir edib, yenidənqurma işləri aparır. Məhz bundan sonra Məkkə şəhərinin əsası qoyulur.

Məkkənin ətraf torpaqları o qədər şoranlıqdır ki, burada heç bir vəchlə əkinçilik mümkün deyil. Bəzi şərqşünasların fikrincə dünyada coğrafi mövqeyinin əlverişsizliyinə görə Məkkə kimi ikinci şəhər yoxdur.

***Müqəddəs Mədinə şəhəri***

Mədinə şəhəri Məkkədən təxminən doxsan fərsəx Şimalda yerləşir. Şəhərin ətrafı bağlar və xurmalıqlarla əhatə edilmişdir. Buranın torpağı olduqca münbit və əkinçiliyə yararlıdır.

İslamdan əvvəl şəhərin adı «Yəsrib», həzrət Peyğəmbərin(s) bura hicrətindən sonra isə «Mədinətur-Rəsul» (Peyğəmbər şəhəri) olmuşdur. Sonralar bir qədər də qısaldılaraq, «Mədinə» kimi səsləndirilmişdir. Tarixi mənbələrə əsasən ilk olaraq burada «Əmaliqə» qəbilələri məskən salmış, sonra isə yəhudi, Ovs və Xəzrəc tayfaları məskunlaşmışlar.

Hicaz ərazisi digər bölgələrdən fərqli olaraq fatehlərin hücumlarına məruz qalmamış, elə buna görə də orada, o dövrün iki əsas imperiyalarından olan Bizans və İran imperiyalarının mədəniyyət nümunələri gözə dəymir. Çünki Hicaz ərazisi çox yararsız, yaşamaq üçün əlverişsiz olduğundan oraya qoşun çəkməyə lüzum yox idi. Hansısa qoşun gəlsəydi də, hətta fəth edəcəyi təqdirdə belə, kor-peşman geri dönəcəkdi.

Bu barədə «Deodor» belə bir əhvalat qeyd edir:

«Böyük yunan sərkərdəsi Dmitriyas Ərəbistanı ələ keçirmək məqsədilə Petraya (Hicazın qədim şəhərlərindən biridir) daxil olarkən yerli əhali ona belə demişdi: «Ey yunan sərkərdəsi, bizimlə vuruşmaqda məqsədin nədir? Bizim yaşadığımız torpaqlarda həyat üçün lazım olan heç bir şərait yoxdur. Biz kiminsə tabeçiliyində, boyunduruğunda olmayaq deyə, belə bir susuz, quraqlıq ərazini seçmişik. Sən gəl bizim sizə layiq olmayan hədiyyələrimizi qəbul et və buranı işğal etməkdən vaz keç. Yox əgər öz işğalçı fikrində qalsan, onda biz səni indidən xəbərdar edirik ki, yaxın gələcəkdə minlərlə problemlə üzləşəcəksən.

Biz öz həyat tərzimizdən əl çəkən deyilik. Bir neçə ildən sonra bir neçə nəfərimizi ələ alıb özünlə aparmaq istəsən də onlardan sənə bir xeyir gəlməyəcək. Çünki onlar sənə düşüncəsiz, bədəxlaq nökərlər olacaq və öz həyat tərzlərini dəyişməyəcəklər. Yunanlı sərkərdə onların bu sülhməramlı mesajından sonra öz işğalçılıq fikrindən vaz keçib geri dönür».[1]

2. «Ərəb səhrası» adlanan və «Nəcd» məntəqəsinin də yerləşdiyi Mərkəzi və Şərqi hissə, yüksəklikdə olan və azsaylı abadlıqlardan ibarət bir yerdir. Səud nəsli hakimiyyətə gəldikdən sonra hazırki paytaxt olan «ər-Riyad» Ərəbistanın ən mühüm bölgəsi sayılır.

3. Ərəbistan yarımadasının «Yəmən» adlanan Cənub-Qərb hissəsinin uzunluğu Şimaldan Cənuba doğru təxminən 750 kilometr, Qərbdən Şərq istiqamətinə doğru isə təxminən 400 km-dir. Bu hissənin sahəsinin altmış min mil kvadrat olduğu güman edilir. Əvvəllər isə bu rəqəm daha artıq olmuşdur. Buranın bir hissəsi (Ədən) son yarım əsrdə ingilislərin himayəsi altında olmuşdur. Buranın Şimal sərhədi «Nəcdə», Cənub sərhədi «Ədənə», Qərbdən (Qırmızı dənizə), Şərqdən isə «ər-Rubul-xali» səhrasınadək uzanır.

Yəmənin ən məşhur şəhərlərindən tarixi «Səna» şəhərini, limanlarından isə Qırmızı dəniz sahilindəki «əl-Hədidə» limanını qeyd etmək olar.

Yəmən, yarımadanın ən bərəkətli hissəsidir. Buranın böyük parlaq mədəniyyəti olmuşdur. Burada uzun müddət şahlıq hökm sürmüşdür. Yəmən, İslamdan öncə mühüm ticarət mərkəzi sayılırdı. Demək olar ki, bura Ərəbistan yarımadasının ən get-gəlli sahəsi olmuşdur. Burada irihəcmli qızıl-gümüş və qiymətli daş mədənləri olmuş və bunlar digər bölgələrə ixrac edilirmiş.

O dövrün mədəniyyət nişanələri indi də qalmaqdadır. Yəmən camaatı heç bir imkan, lazımi şərait olmadığı bir dövrdə öz bacarıqları sayəsində yaraşıqlı hündür binalar tikməyə müvəffəq olmuşdular.

Yəmən sultanları, öz hakimiyyətlərini münaqişəsiz yola verirdilər. Onlar yəmənli alimlər tərəfindən hazırlanmış dövlət qanunlarını lazımi şəkildə icra edir, əkinçilik, kənd təsərrüfatı sahəsində başqa xalqları çox

[1] Qustav Lobon, İslam və ərəb mədəniyyəti, s-93-94

üstələyirdilər. Sanki kənd təsərrüfatı sahəsində xüsusi dövlət proqramı hazırlanmışdı. Buna görə də Yəmən çox inkişaf etmiş bir ölkə sayılırdı.

Tanınmış fransız tarixçisi «Qustav Lobon» Yəmən haqqında yazır:

«Bütün Ərəbistanda Yəməndən təravətli, münbit yer olmamışdır».

On ikinci əsr tarixçisi İdrisi, «Səna» şəhəri haqqında deyir:

«Ora Ərəbistanın hakimiyyət mərkəzi və Yəmənin paytaxtıdır. Bu şəhərin bina və sarayları bütün dünyada şöhrət qazanmışdır. Şəhərin hətta adi evləri də yonulmuş daşlardan tikilmişdir».

Şərqşünasların araşdırmaları və aparılmış arxeoloji qazıntılar nəticəsində üzə çıxmış mədəniyyət nümunələri Yəmənin «Mərəb», «Səna», «Bilqeys» kimi bölgələrinin keçmiş dövr mədəniyyətlərindən xəbər verir.

Mərəb (keçmiş Səba) şəhərində, qapı və tağları qızılla bəzədilmiş, içərisində qızıl və gümüşdən qab-qacaqları və filiz çarpayıları olan hündür göydələnlər mövcud olmuşdur.[1]

«Mərəb» şəhərinin tarixi incilərindən biri də «Mərəb» bəndi olmuşdur. Dağıntıları hələ də qalmaqda olan bu bəndi Quranda adı çəkilmiş «Ərim» seli uçurmuşdur.

[1] Qustav Lobon, İslam və ərəb mədəniyyəti, s-96

## ƏRƏBLƏRİN İSLAMDAN QABAQKI VƏZİYYƏTİ

İslamdan qabaqkı ərəblərin vəziyyətini öyrənmək üçün aşağıdakı mənbələrdən istifadə etmək olar:

1) Tövrat (onda edilmiş bütün təhriflərə rəğmən)
2) Yunan və bizanslıların orta əsr mənbələri
3) İslam tarixi haqqında müsəlman alimlərin yazdığı kitablar
4) Şərqşünasların araşdırmaları və arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş kitablar.

Bütün bu mənbələrin olmasına baxmayaraq ərəblərlə bağlı bir çox məsələlər hələ də qaranlıq qalmışdır. Məqsədimiz İslam peyğəmbərinin həyatını araşdırmaq olduğundan, ərəblərin İslamdan qabaqkı vəziyyətini öyrənmək bizim üçün bir müqəddimə rolunu daşıyır. Buna görə də biz yalnız diqqətçəkən məqamlara toxunacağıq.

Heç şübhə yoxdur ki, qədim zamanlardan bəri Ərəbistan yarımadasında bir çox qəbilələr yaşamış və onlardan bəzisi zaman keçdikdə məhv olaraq tarixin yaddaşına köçmüşlər. Bu qəbilələr arasında əsasən üçünün adı xüsusilə hallanır ki, onlardan da bəzi tayfalar ayrılmışdır. Bu üç qəbilə aşağıdakılar olmuşlar.

**1) Baidə:** Sözün mənası məhv olmuş deməkdir. Bu qəbilə öz mütəmadi itaətsizlikləri üzündən göydən və yerdən gəlmiş bəlalar nəticəsində məhv olub getmişdir. Bəlkə də bu Quranda dəfələrlə adı çəkilmiş Ad və Səmud qövmləri olmuşdur.

**2) Qəhtanilər:** Bunlar Yəmən və Ərəbistanın digər Cənub bölgələrində yaşamış Yərəb ibn Qəhtanın övladları olmuşlar. Onlar əsl ərəblər sayılırlar. İndiki yəmənlilər, həmçinin İslamın ilk çağlarında Mədinədə yaşamış Ovs və Xəzrəc qəbilələri Qəhtanın nəslindəndirlər. Onlar uzun müddət hakimiyyətdə olmuş və Yəmənin abadlaşdırılmasında çox çalışmış, özlərindən sonra böyük bir mədəniyyət irs qoymuşlar. Hazırki dövrdə onlardan qalmış kitabələr mütəxəssislər tərəfindən oxunularaq, qəhtanilərin tarixi barədə xeyli məlumatlar üzə

çıxır. İslamdan qabaqkı ərəblərin tarixi haqqında deyilən bütün məlumatların hamısı bu dəstəyə, özü də Yəmənə aiddir.

*3)* **Ədnanilər:** Bu dəstə İbrahim (ə) peyğəmbərin oğlu Həzrət İsmailin(ə) övladlarıdır. Bu barədə növbəti səhifələrdə ətraflı bəhs edəcəyik. Qısaca olaraq qeyd edək ki, İbrahim(ə) oğlu İsmaili(ə) anası Hacərlə birlikdə Məkkə ərazisinə aparmaq məcburiyyətində qalır. İbrahim(ə) onları Fələstin torpaqlarından susuz, quraq Məkkə torpaqlarına gətirdikdən sonra Allahın mərhəmət əli onlara tərəf uzanır. Orada Zəmzəm bulağı qaynayır. İsmail(ə) çadırlarını Məkkə yaxınlığında qurmuş «Cərhəm» qəbiləsindən qız alaraq onlarla qohum olur. Yavaş-yavaş onun nəsli artmağa başlayır. Onun övladlarından biri də bir neçə vasitə ilə ona gedib çıxan «Ədnan» olmuşdur. Ədnanın da övladları müxtəlif qəbilələrə ayrılır ki, onların arasında ən məşhur Qüreyş, Qüreyşdə də ən məşhur tayfa «Bəni-Haşim» olmuşdur.

***Ərəblərin ümumi əxlaqı***

Əxlaq dedikdə burada İslamdan qabaq ərəblər arasında yayılmış müsbət adət-ənənələr nəzərdə tutulur. Ümumi olaraq İslamdan qabaqkı ərəblərin bəyənilən adət-ənənələrini belə xarakterizə etmək olar.

Cahiliyyət dövr ərəbləri, xüsusilə Ədnan övladları çox qonaqpərvər, əmanətə xəyanət etməyən olmuşlar. Onlar əhd-peymana sadiq qalmamağı bağışlanılmaz günah sayırdılar. Əqidə uğrunda çox fədakar, ləhcələri olduqca fəsahətli, şer və xütbə əzbərləməkdə iti yaddaşa malik olmuşlar. Şer və xütbə deməkdə tayı-bərabərləri yox idi. Onların şücaəti dillər əzbərinə çevrilmişdi. At çapıb ox atmaqda ad çıxarmışdılar. Düşmənə arxa çevirmək ağıllarından belə keçməzdi.

Ancaq bütün bunlarla yanaşı ərəblər arasında bir sıra mənfi adət-ənənələr də var idi ki, yuxarıda sadaladıqlarımızın hamısını heçə endirirdi. Əgər yeddinci əsrdə İslam dini öz qucağını onların üzünə açmasaydı, şübhəsiz ki, Ədnan ərəbləri də tarixin yaddaşına həkk olub itib batacaqdı.

Bir tərəfdən doğru-dürüst mədəniyyətin və sağlam düşüncəli bir başçının olmaması, digər tərəfdən isə əqidə pozğunluğunun, xurafatın, vəhşiliklərin baş alıb getməsi ərəblərin həyatını sözün əsl mənasında heyvan həyatına çevirmişdi. Heç bir əhəmiyyət daşımayan məsələ

üstündə əlli illik, yüz illik müharibələr aparmaları haqqında tarixdə kifayət qədər məlumat var.

Hərc-mərcliyin baş alıb getməsi, özbaşınalıq edənləri yerində oturda biləcək nizam-intizamlı hakimiyyətin olmaması ərəbləri köçəri həyat tərzi keçirməyə vadar etmişdi. Harada azacıq yaşıllıq, su görürdülərsə, dərhal ora köçüb məskən salırdılar.

Belə köçəri həyat keçirməyin iki əsas səbəbi olmuşdur. Biri Ərəbistanın olduqca əlverişsiz coğrafi mövqeyi, digəri isə amansız müharibələr.

***Cahiliyyət dövr ərəblərinin mədəniyyəti olmuşdurmu?***

Qustav Lobon, Cahiliyyət dövr ərəblərinin vəziyyəti haqqında apardığı araşdırmalardan belə nəticəyə gəlir ki, onların neçə əsrlik mədəniyyəti olmuşdur. Ərəblərin, Ərəbistan yarımadasının müxtəlif yerlərindəki böyük və hündür binalarının olması, o dövrün mədəniyyətə sahib xalqları ilə ticarət əlaqələri qurması onların mədəniyyətə malik olduqlarından xəbər verir. Hələ bizanslıların varlığından öncə böyük şəhərlər salmış, inkişaf etmiş müxtəlif xalqlarla əlaqələr qurmuş insanları heç bir vəchlə vəhşi adlandırmaq olmaz.

O, daha sonra ərəb ədəbiyyatını və ərəblərin mükəmməl bir dilə sahib olmalarını, onların böyük bir mədəniyyətə sahib olduqlarını əldə rəhbər tutaraq deyir ki, əgər Ərəbistanın qədim tarixinə dair əlimizdə heç bir məlumat olmasaydı da yenə ərəbləri vəhşi adlandıra bilməzdik. Çünki ərəblərin təkcə mükəmməl bir dillərinin olması onların mədəniyyətindən xəbər verir. Axı hansısa dilin formalaşmasının uzun müddət zamana ehtiyacı var. Hansısa bir dil müqəddiməsiz formalaşa bilməz. Üstəlik digər xalqlarla əlaqələrin qurulması da həmin xalqın inkişafına səbəb olur.

Qustav Lobon öz əsərinin bir neçə səhifəsini Cahiliyyət dövr ərəblərinin zəngin bir mədəniyyətə malik olduqlarını sübut etməyə həsr etmişdir. O, ərəblərin mədəniyyət sahibi olmalarını üç şeylə isbatlayır:

1. Ərəblərin mükəmməl bir dilə malik olmaları
2. Ərəblərin inkişaf etmiş xalqlarla əlaqələr qurması
3. Miladdan əvvəl yaşamış tarixçilər Herodot və Ertmidorun, eləcə də Məsudi kimi müsəlman tarixçilərin dediyinə görə Yəməndə möhtəşəm binaların tikilməsi.[1]

[1] Qustav Lobon, İslam və ərəb mədəniyyəti, s-78-102

Heç bir şübhə yoxdur ki, Ərəbistanın müxtəlif bölgələrində cüzi mədəniyyətlər olmuşdur. Ancaq Qustav Lobonun gətirdiyi sübutlar Ərəbistanın bütün bölgələrində mədəniyyət olduğuna əsas ola bilməz.

Düzdür, hansısa dilin formalaşması mədəniyyət nümunələrinin inkişafı ilə əlaqədardır. Lakin ərəb dilinin inkişafını müstəqil bir dil olaraq deyil, ibri, siryani, aşşur və kildani dillərinin inkişafı ilə birlikdə inkişaf etdiyini qeyd etməliyik. Bu dillərin hamısı nə vaxtsa Sami dillər qurupuna daxil bir dil olmuşlar, zaman keçdikcə ərəb dili təkmilləşərək onlardan ayrılaraq müstəqil dilə çevrilmişdir.

O da doğrudur ki, inkişaf etmiş xalqlarla ticarət əlaqələri qurmaq həmin xalqın öz inkişafına təsir edir. Lakin gəlin görək Ərəbistan yarımadasının bütün bölgələrimi belə əlaqələr qurmuşlar? Digər tərəfdən Hicazda mövcud olmuş Hirə və Qəssanilər dövlətlərinin İran və Bizansla qurduğu əlaqələr ərəblərin mədəniyyətinə sübut ola bilməz. Çünki bu dövlətlər demək olar ki, vassallıq xarakteri daşıyırdı. Hal-hazırda da Afrikada Qərb dövlətlərinin müstəmləkəsində olan ölkələr var, ancaq həmin ölkələrdə heç də Qərb mədəniyyətindən əsər-əlamət yoxdur.

Sözsüz ki, Yəməndəki «Səba və Mərəb» mədəniyyətlərini inkar etmək olmaz. Çünki Tövratda deyilənlər, eləcə də «Herodot» və başqalarının dediklərindən əlavə, görkəmli müsəlman tarixçisi Məsudi «Mərəb» haqqında belə yazır:

«Ölkə bütünlüklə gözəl binalar, kölgə salmış ağaclar, axan bulaqlarla əhatə olunmuşdu. «Ölkənin ərazisi elə böyük idi ki, süvari şəxs onu bir aya gəzib qurtara bilməzdi. Ölkənin bu başından o başına gedən yolçu heç vaxt Günəşi görməzdi. Çünki yolun hər iki tərəfində əkilmiş ağaclar yola bütünlüklə kölgə salırdı. Oranın yaşıllığı, səliqə-sahmanı, axar suları, xüsusilə də sabit höküməti bütün dünyaya səs salmışdı.»[1]

Bir sözlə Lobonun gətirdiyi əsaslar Ərəbistanın hər bir yerində mədəniyyət olduğuna dəlalət etmir. Xüsusilə Hicazda bu mədəniyyətdən əsər-əlamət olmamışdır. Hətta Qustav Lobon özü də bu barədə yazır ki, Ərəbistanın Şimal sərhədləri istisna olmaqla yarımada bütünlüklə yadelli işğalçıların işğalından amanda qaldı. Az qala bütün

[1] Murucuz-Zəhəb, c-3, s-373

dünyanı fəth etmiş İran, Bizans və Yunan sərkərdələri Ərəbistana qətiyyən diqqət yetirmirdilər.[1]

Ən azı bunu qətiyyətlə söyləyə bilərik ki, hətta bu əfsanəvi mədəniyyətlər yarımadanın bütün bölgələrinə yayılmışdısa da İslam dini gələrkən Hicazda həmin mədəniyyətlərdən heç nə qalmamışdı. Necə ki, Quran bu məsələyə toxunaraq buyurur: ***«(İslamı qəbul etməz-dən öncə) od uçurumunun astanasında idiniz, (Allah İslam sayəsində) sizi ondan xilas etdi».***[2]

Əmirəl-möminin Əlinin(ə) Cahiliyyət dövr ərəblərinin ümumi həyat tərzi, əqidə və əxlaqi pozuntularını təsvir edən kəlamları da onların vəziyyətinin çox acınacaqlı olduğundan xəbər verir: **«Siz ərəblər ən pis əqidə və ən pis yerlərdə yaşadığınız zaman Allah-Təala Mühəmmədi(s) peyğəmbər olaraq göndərdi. Qayalar arasında, ilanların içərisində gün keçirirdiniz. Çirkab sular içir, (kərtənkələ kimi) çirkin yeməklər yeyirdiniz. Bir-birinizin qanını tökür, qohumlarla əlaqəni kəsirdiniz. İbadət etdiyniz yalnız bütlər idi. Günahlardan qətiyyən çəkinmirdiniz».**[3]

Aşağıda qeyd edəcəyimiz «Əsəd ibn Zürarə» ilə bağlı əhvalat, Hicaz əhalisinin həyatı barədə müəyyən təsəvvür yarada bilər.

Belə ki, Mədinədə yaşayan Ovs və Xəzrəc qəbilələri arasında uzun sürən müharibə davam edirdi. Bir gün Xəzrəc qəbilə başçılarından olan Əsəd ibn Zürarə Qüreyş tayfasından hərbi və maddi dəstək alaraq yüzillik düşmənləri olan Ovs qəbiləsini məğlub etmək məqsədilə Məkkəyə səfər edir. O, Ütbə ibn Rəbiə ilə arasındakı dostluq münasibətlərini nəzərə alıb onun evinə gedərək məsələni onunla müzakirə edir. Köhnə dostu Ütbə ona belə cavab verir: «Biz sizin istəyinizə müsbət cavab verə bilmərik. Çünki indi özümüz çox müəmmalı bir vəziyyətlə rastlaşmışıq. Aramızdan bir nəfər çıxıb tanrılarımızı pisləyir, əcdadlarımızın səhv etdiyini bildirir, öz cazibəli sözləri ilə gənclərimizi yoldan çıxartmaqla aramızda boşluq yaradır. O, həcc mövsümündən

[1] İslam və ərəb mədəniyyəti, s-96
[2] Ali-İmran-103
[3] Nəhcül-bəlağə, xütbə-26

başqa vaxtları «Əbütalib dərəsində» keçirir. Həcc mövsümündə isə Hicri-İsmaildə oturub camaatı öz dininə dəvət edir.»

Əsəd daha Qüreyşin digər başbilənləri ilə görüşmədən Mədinəyə qayıtmaq qərarına gəlir. Lakin o, ərəblərin adət-ənənəsinə əsasən Məkkədən çıxmazdan qabaq Kəbəni ziyarət etmək qərarına gəlir. Ütbə isə bu işin təhlükəli olduğunu ona xatırladaraq bildirdi ki, Kəbəni ziyarət edəcəyi təqdirdə o kişinin sözlərini eşidib təsirlənə bilər. Kəbəni ziyarət etmədən Məkkəni tərk etmək pis və bəyənilməz iş olduğundan Ütbə Əsədə təklif edir ki, onda qulaqlarına pambıq tıxasın ki, qoy həmin kişinin sözlərini eşitməsin.

Əsəd sakitcə Məscidül-harama daxil olub Kəbə evini təvaf etməyə başlayır. Birinci dövrəni vurduqda gözü Hicri-İsmaildə oturmuş və Bəni-Haşimdən bir neçə nəfərin mühafizə etdiyi bir kişiyə sataşır. Onun sözlərindən təsirlənməsin deyə, heç yaxına da getmir. Təvaf əsnasında öz-özünə fikirləşir ki, onun bu hərəkəti ağılsızlıqdır. Mədinəyə qayıtdıqda camaat ondan bu hadisə ilə bağlı soruşarsa, nə cavab verəcək? Ona görə də bu hadisə haqqında ətraflı məlumat toplamaq qərarına gəlir.

Bu məqsədlə Əsəd bir qədər yaxına gəlib: «Sabahınız xeyir!»- deyə salam verdi. Həzrət cavabında buyurdu ki, mənim Rəbbim bundan daha gözəl salam göndərmişdir. O da budur ki, «Salamun əleykum» deyəsiniz. Sonra Əsəd Peyğəmbərdən(s) məqsədi, məramı barədə soruşdu. Həzrət onun cavabında Cahiliyyət dövrünün adət-ənənələrini ehtiva edən Ənam surəsinin 152 və 153-cü ayələrini oxudu. Yüz iyirmi ilədək davam edən müharibənin iştirakçısı olan şəxsin dərdinə dərman olan bu ayələr Əsədə çox təsir edir və dərhal iman gətirir. Üstəlik Peyğəmbərdən (s) istəyir ki, təbliğ üçün bir nəfəri onunla Mədinəyə göndərsin. Həzrət də bu məqsədlə Məsəb ibn Ümeyri Mədinəyə göndərir.

Bu iki ayənin məzmununa diqqət yetirmək Cahiliyyət dövr ərəbləri haqqında kifayət qədər məlumat əldə etməyə imkan verir. Ayələr göstərir ki, əxlaqi əyriliklərlə əlaqədar çatışmazlıqlar ərəblərin həyatını sual altına qoyubmuş. Peyğəmbər(s) Əsədə buyurur ki, mənim məqsədim aşağıdakılardan ibarətdir:

1) Mən şirk və bütpərəstliyi aradan qaldırmaq üçün göndərilmişəm.

2) Mənim missiyamın başında ata-anaya yaxşılıq etmək şüarı durur.

3) Mənim dinimdə aclıq üzündən uşaq öldürmək ən pis əməllərdən sayılır.

4) Mən ona görə göndərilmişəm ki, insanları bütün çirkinliklərdən uzaqlaşdırım.

5) Mənim şəriətimdə insan öldürmək, haqsız yerə qan tökmək qəti qadağandır. Bunlar Allahın sizə tövsiyələridir ki, bəlkə düşünəsiniz.

6) Yetim malına əl uzatmaq haramdır.

7) Mənim dinimin əsasını ədalət təşkil edir. Çəkidə aldatmaq haramdır.

8) Heç kəs gücü çatdığndan artığına məcbur edilə bilməz.

9) Yalnız düz sözlər danışılmalı, hətta ziyanınıza da olsa, ədalətdən kənara çıxmamalısınız.

10) Allahla bağladığınız əhd-peymanlarınıza sadiq qalın. Bunlar Allahın sizə tövsiyələridir, onlara əməl etmək lazımdır.

Ayələrin məzmunundan və Peyğəmbərlə(s) Əsədin danışıq tərzindən belə başa düşülür ki, sadalanan bütün bu mənfi xüsusiyyətlər ərəblər arasında yayılıbmış. Elə bu səbəbdən Həzrət, Əsədlə ilk görüşdəcə həmin ayələri oxumaqla onu öz vəzifəsindən xəbərdar edir.[1]

***Ərəbistanda din***

İbrahim(ə) peyğəmbər oğlu İsmailin(ə) köməyi ilə Hicazda Kəbəni təmir edib təkallahlıq bayrağını ucaltdıqdan sonra bir dəstə insan onun yolunu tutaraq iman gətirdi. Əlbəttə bu azsaylı dəstənin neçə nəfər olduğu dəqiq məlum deyil.

Əmirəl-möminin Əli(ə) Cahilyyət dövr ərəblərinin dini vəziyyətini belə açıqlayır: **«O dövrdə insanlar ayrı-ayrı dəstələrə ayrılmış, müxtəlif məzhəblərə qulluq edir, əsassız bidətlərə inanırdılar. Bəziləri Allahı məxluqata bənzədir, bəziləri Allahın adlarından istifadə edərək bütlərə həmin adları qoyur, bəziləri də tamam başqa tanrılara sitayiş edirdi. Allah-təala həzrət Peyğəmbərin(s) vasitəsilə onları hidayət edib haqqa qovuşdurdu».[2]**

[1] Təbərsi, Əlamul-vəra, s - 35-40; Biharul-ənvar, c-19, s-8-11

[2] Nəhcül-bəlağə, Xütbə-1

Ərəblər arasında nadir tapılan ziyalılar ulduzlara, Aya pərəstiş edirdilər. Hicri 206-cı ildə vəfat etmiş məşhur ərəb tarixçisi Kəlbi yazır:

«Bəni-Məlih» qəbiləsi cinlərə, «Himyər» qəbiləsi Günəşə, «Kənanə» qəbiləsi Aya, «Təmim» qəbiləsi Buğa bürcünə, «Ləxim» qəbiləsi Yupiterə, «Teyy» qəbiləsi Süheyl ulduzuna, «Qeys» qəbiləsi Şəri ulduzuna, «Əsəd» qəbiləsi isə Merkuriyə sitayiş edirdi.

Ərəbistan əhalisinin əksəriyyətini təşkil edən adi təbəqə isə qəbilə bütləri ilə yanaşı ilin günlərinin sayına bərabər olan 360 bütə pərəstiş edir və hər günün hadisəsini həmin günün bütü ilə əlaqələndirirdilər.

İbrahim(ə) peyğəmbərin vəfatından sonra Məkkədə «Əmr ibn Quseyy» adlı şəxs bütpərəstliyi yaymağa başlayır. Düzdür, əvvəlcə o, bunu geniş şəkildə yaya bilmir. İlk olaraq Əmr, bütləri şəfaətçi, vasitəçi kimi qələmə verir. Get-gedə qəbilə başçıları bu haqda düşünməyə başlayırlar. Kəbə ətrafında yığılmış bütlərə bütün qəbilələr hörmət edir, qəbilə bütlərinə isə yalnız həmin qəbilə rəğbət bəsləyirdi. Qəbilə bütləri müəyyən yerdə saxlanılır, oranın açarı irsi olaraq nəsildən-nəsilə keçirdi.

Ailə bütlərinə ailə çərçivəsində gecə-gündüz ibadət edilir, kimsə səfərə çıxdıqda, özünü ailə bütünə sürtərdi. Səfərdə olduğu müddət ərzində isə səhra daşlarına ibadət edərdi. Hansısa mənzil başına çatdıqda dörd daş seçib ən yaxşısına ibadət edərdi.

Məkkə əhalisinin Kəbəyə böyük hörməti var idi. Hətta səfərə gedərkən də Kəbə ətrafından özləri ilə daşlar götürüb, onlara pərəstiş edərdilər. Quranda qeyd edilmiş «Ənsab» (sadə daşlar) ifadəsindən məqsəd də bəlkə elə bu daşlar imiş. «Əvsan» isə müəyyən formada yonulub bəzədilmiş daşlar, «Əsnam»da taxta və ya zinətli əşyalardan hazırlanmış bütlərdir.

Ərəblər bütlərə inanılmaz dərəcədə bağlanmışdılar. Onlar hesab edirdilər ki, bütlər üçün qurbanlar kəsməklə onların razılığını cəlb edə bilərlər. Qurban kəsildikdən sonra heyvanın qanını bütə sürtür, böyük işlərdə bütlərlə məsləhətləşirdilər. Məsləhətləşmə belə olurdu ki, bir çubuğa «et», digər çubuğa «etmə» yazıb bütlərin yanına qoyur, sonra sanki püşk atırlarmış kimi, çubuqlardan birini seçərək onda yazılana əsasən hərəkət edərdilər.

Bir sözlə, bütpərəstlik müxtəlif formalarda onların arasında baş alıb gedirdi. Kəbə, cahiliyyət ərəblərinin bütxanasına çevrilmişdi. Demək olar ki, orada hər qəbiləyə məxsus bir büt var idi ki, bu da təxminən 360 büt edirdi. Hətta xristianlar da Kəbə divarına Məryəmin(s.ə.), İsanın(ə), mələklərin şəkillərini çəkmişdilər.

Bütlər arasında Qüreyşin, Allahın qızları hesab etdikləri «Lat», «Üzza» və «Mənat»ın xüsusi çəkisi var idi. «Lat», digər bütlərin anası sayılırdı. Onu «Taif» yaxınlığında bir məbəddə saxlayırdılar. O, ağ daşdan ibarət bir büt idi. «Mənat» isə tale, əcəl və ölüm tanrısı sayılırdı. Onu Məkkə ilə Mədinə yolu arasında saxlayırdılar.

Əbu Süfyan Ühüd döyüşündə «Lat» ilə «Üzza»nı özü ilə gətirib onlardan yardım diləyirdi. Deyilənlərə görə Bəni-Üməyyədən olan «Əbu Üheyhə Səid ibn As» adlı şəxs ölüm yatağında olarkən ağlayırmış. Onun görüşünə gələn Əbu Cəhl, ondan ağlamağının səbəbini soruşduqda deyir ki, ölməyimə görə ağlamıram. Qorxuram ki, birdən məndən sonra camaat «Üzza»ya ibadət etməz. Əbu Cəhl ona deyir: Camaat «Üzza»ya sənə görə ibadət etmir ki, sən öləndən sonra ibadətdən əl çəksinlər.[1]

Kəbədə ən çox pərəstiş edilən bütlərdən biri də «Hübəl» olmuşdur. İl ərzində hər qəbilə bir nəfəri seçib təm-təraqla, bəzədilmiş halda gətirərək bütlərin qarşısında qurban kəsir, elə orada da dəfn edirdilər.

Bütlərə edilən bu pərəstişin nəticəsi idi ki, ərəblər arasında amansız müharibələr, soyğunlar, qarətlər, maddi və mənəvi ziyanlar səngimək bilmirdi.

Əli(ə) xütbələrindən birində bu barədə buyurur: **«Allah-təala həzrət Mühəmmədi (s) bəşəriyyəti pis işlərdən çəkindirsin deyə, peyğəmbər göndərdi. Onu Öz vəhyinin daşıyıcısı qərar verdi. Həmin vaxt siz ərəblər ən pis dinə sitayiş edir, qayalar arasında, ilanların içərisində gün keçirirdiniz. Çirkab sular içir, (kərtənkələ kimi) çirkin yeməklər yeyir, bir-birinizin qanını axıdır, qohumlarla əlaqəni kəsirdiniz. İbadət etdiyiniz yalnız bütlər idi. Günahlardan qətiyyən çəkinmirdiniz.**[2]

[1] Kəlbi, əl-Əsnam, s-23

[2] Nəhcül-bəlağə, Xütbə-26

***Ərəblərin insanın ölümdən sonrakı həyatı barədə düşüncələri***

Ərəblər belə hesab edirdilər ki, insan öldükdən sonra onun ruhu «Hamə və Sədiyy» adlı bir bayquşa çevrilib nəşin kənarında şivən edir. Ölü basdırıldıqdan sonra isə bayquş da qəbirə girib həmişəlik orada qalır. Arabir ölünün ailəsindən xəbər gətirmək üçün gedib onun evinə baş çəkir. Əgər ölən şəxs qeyri-təbii ölümlə vəfat edibsə bayquş dayanmadan: «Qatilimin qanını tökməklə məni sakitləşdirin!»-deyə fəryad edir. Qisas alınmayınca bayquş sakit olmur.

Buradan ərəblərin İslamdan qabaqkı tarixi ilə İslamdan sonrakı tarixi arasındakı təzadlı əqidələr üzə çıxır. Qız uşağını diri-diri torpağa gömmək hara, yetimlərə qayğı göstərmək hara? Qarət, bütpərəstlik hara, Allah-təalaya ibadət etmək hara?

***Bir millətin psixologiyasını əks etdirən ədəbiyyat***

Hər hansı millətin düşüncəsini, psixologiyasını təhlil etmək üçün ən gözəl vasitə onlardan miras qalmış ədəbiyyatdır. Millət haqqındakı şer, hekayə, qəsidələr onların psixologiyasından xəbər verir. Bir millətin psixologiyasını tədqiq etmək istəyən tədqiqatçı həmin millətlə bağlı ədəbiyyat nümunələrini diqqətdən kənar qoymamalıdır. Sevindirici haldır ki, müsəlman alimlər Cahiliyyət dövr ərəblərinin ədəbiyyat nümunələrini imkan daxilində qələmə almışlar.

Şiə ədiblərindən olub hicri 231-ci ildə vəfat etmiş Əbu Təmmam Həbib ibn Ovs cahiliyyət dövrünün şerlərini toplayaraq onları aşağıdakı on bölməyə ayırmışdır:

1) Qəhrəmanlıq mövzusunda yazılmış şerlər
2) Mərsiyələr
3) Əxlaqi şerlər
4) Gənclik illəri ilə bağlı qəzəllər
5) Müxtəlif qəbilə və şəxslərin həcvi
6) Səxavət və qonaqpərvərlik mövzusunda yazılmış şerlər
7) Mədhiyyələr
8) Gəzinti və müxtəlif xüsusiyyətlərlə bağlı şerlər
9) Lətifə və məzəli əhvalatlar
10) Qadınların məzəmməti zəminində yazılmış şerlər

Bu şerlərdə işlədilmiş söz və ifadələrin izahı ilə bağlı müsəlman alimləri tərəfindən şərhlər yazılmışdır.[1]

***Ərəblər arasında qadının mövqeyi***

Ərəblər arasında qadının heç bir əhəmiyyəti, rolu yox idi. Qadın olduqca acınacaqlı şəraitdə yaşayırdı. Ərəblərin qadınlarla bağlı bəyənilməz əməlləri haqqındakı Quran ayələri, ərəblərin əxlaqi vəziyyətinin necə olduğundan xəbər verir. Quran onların qız uşaqlarını diri-diri torpağa basdırmalarına dair buyurur:

***«Qiyamət günü diri-diri torpağa basdırılmış qız uşaqlarından soruşulacağı zaman….»***[2]

Doğrudan da gör insan necə azğınlaşmalıdır ki, əti ətindən, qanı qanından olan övladını gözü görə-görə, öz əli ilə torpağa basdırsın, onun fəryadına məhəl də qoymasın.

Qız uşaqlarını diri-diri torpağa basdırmağı ilk olaraq «Bəni-Təmim» qəbiləsi adət salmışdır. Belə ki, İraq hakimi «Noman ibn Münzir» öz müxaliflərini əzmək üçün böyük bir qoşun çəkir. Müxalifləri tar-mar salıb əmlaklarını müsadirə, qız-gəlinlərini isə əsir edir. «Bəni-Təmim» qəbiləsinin nümayəndələri onun hüzuruna gəlib, qız-gəlinlərinin azad buraxılmalarını xahiş edirlər. Əsir düşənlərdən bəzisi əsirlik müddətində evləndikləri üçün Noman ibn Münzir onlara seçim ixtiyarı verir ki, ya ailələri ilə əlaqəni birdəfəlik kəsib ər evində qalsınlar, ya da boşanıb öz yurd-yuvalarına dönsünlər. Bəni-Təmimli Qeys ibn Asimin qızı evlilik həyatına üstünlük verir. Atası onun bu hərəkətindən bərk narahat olub söz verir ki, bundan sonra nə qədər qızı olarsa, doğulan kimi onları məhv edəcək. Yavaş-yavaş bu adət bütün qəbilələrə sirayət edir.

Sonralar Qeys ibn Asim həzrət Peyğəmbərin (s) hüzuruna gəldikdə səhabələrdən biri ondan qızları barədə soruşur. O da belə cavab verir: «Mən bütün qızlarımı diri-diri torpağa basdırmış və qətiyyən kədərlənməmişəm. Yalınz bircə dəfə narahat oldum. Yoldaşımın doğuş zamanı səfərdə idim. Səfərdə olarkən yoldaşım azad olmuşdu. Qayıtdıqdan sonra ondan uşağın nə olduğunu soruşdum. O, uşağın qız

---

[1] Mucəmul-mətbuat, s-297

[2] Təkvir-8

olduğunu, lakin müəyyən səbəblər üzündən uşaqın ölü doğulduğunu bildirdi. Sən demə mənim qorxumdan körpəni bacılarına veribmiş. İllər ötür, qız artıq yetkinlik yaşına çatır. Mən hələ onun varlığından xəbərsiz idim. Bir gün evdə oturduğum vaxt evə gözəl bir qız daxil olub, anasını səslədi. Qız çox gözəl idi, uzun saçlarını hörükləmiş, boynuna boyunbağı salmışdı. Yoldaşımdan onun kim olduğunu soruşduqda gözləri yaşarmış halda cavab verdi ki, bu, sən səfərdə olarkən doğduğum qızdır. Sadəcə, sənin qorxundan onu gizlətdim. Mən heç nə deməyib sükut etdim və yoldaşım bu sükutumu razılıq əlaməti kimi qəbul etdi. Bir gün yoldaşım arxayın şəkildə evdən çıxıb harasa getdi. Mən verdiyim sözümə görə qızın əlindən tutub onu gözdən uzaq bir yerə aparıb çala qazmağa başladım. Çalanı qazarkən qız ardıcıl olaraq qazmağımın səbəbini soruşurdu. Qazıb qurtardıqdan sonra qızı sürüyə-sürüyə çalaya atıb üstünü torpaqlamağa başladım. Tükürpədən fəryadlarına əsla məhəl qoymadım.

O ağlayaraq deyirdi: «Atacan, məni torpağa basdırıb burada tək qoyaraq anamın yanınamı qayıdırsan?» mən isə dayanmadan torpağı onun üstünə tökürdüm. Nəhayət, qız torpaqların altında gözdən itdi.

Bax, yalnız bu zaman mən kədərlənmişəm. Qeysin sözləri başa çatdıqdan sonra həzrət Peyğəmbər(s) gözləri yaşarmış halda buyurdu: «Bu, çox böyük insafsızlıq, sərtlikdir. Rəhm etməyənə rəhm olunmaz».[1]

### *Ərəblər arasında qadının ictimai mövqeyi*

Ərəblər arasında qadın əmtəə malı kimi alınıb-satılır, bütün fərdi, ictimai, hətta vərəsilik hüquqlarından məhrum idi. Nisbətən ziyalılar qadını heyvanlar sırasına aid edirdilər. Bu baxımdan qadını yaşayış üçün lazımi vasitələrdən hesab edirdilər.

Ərəblər adətən yoxsulluq, bəzən də pozğunluq qorxusundan qız uşaqlarının doğulduğu ilk gündəcə başını kəsir və ya onu hündür bir dağın təpəsindən aşağı yuvarladır, yaxud da suda boğurdular. Avropalı qeyri-müsəlman alimlərin fikrində ən azı təhrif edilməmiş tarixi-elmi kitab kimi qəbul edilən Quran, bu barədə belə buyurur:

---

[1] İbn Əsir, Usdul-qabə

*«Onlardan hər hansı birinə qızı olduğu barədə müjdə verildikdə qəzəblənib rəngi qaralardı. Bu xəbər nəticəsində o, öz qövmündən uzaqlaşır, yeni doğulmuş körpəni zəlilliklə qəbul etməsi və ya onu diri-diri torpağa gömməsi haqqında düşünərdi. Onlar necə də pis mühakimə yürüdürlər».*[1]

Daha acınacaqlı hal, onların dünyada analoqu olmayan evlənmək qanunları idi. Onlar qadına hər hansı bir hüquq vermir, başlıq məsuliyyətini boyunlarından atmaq üçün qadına işgəncələr verirdilər. Hansısa qadın pozğunluq edərdisə, o, başlıq pulundan tamamilə məhrum edilirdi. Bəzən isə bu məqsədlə iffətli qadını əxlaqsızlıqda ittiham edib bu yolla onun başlıq pulunu ödəməkdən imtina edirdilər. Ata öldüyü və ya arvadını boşadığı təqdirdə övladı onunla ailə qura bilərdi. Hər hansı qadın ərindən boşanardısa, növbəti dəfə ərə getmək üçün mütləq birinci ərin icazəsi lazım idi. Birinci ər isə bu icazəni başlıq pulunu ödəməmək şərti ilə verməyə razı olurdu. Vərəsələr qadını da mərhumdan qalmış əşyalar kimi əldə edir, onun başına yaylıq atmaqla onun üzərindəki mülkiyyətlərini bildirmiş olurdular.

### *Kiçik bir müqayisə*

Hörmətli oxucu İslam dinində qadına verilmiş hüquqları nəzərə aldıqda Həzrət Peyğəmbərin(s) həqiqətən də vəhy aləmi ilə bağlılığının şahidi olur. Çünki ayə və hədislərdə qadınlar üçün müəyyən hüquqların təsbit edilməsi ilə yanaşı, o həzrət vida həccində kişilərə bir daha bu hüquqları xatırladaraq buyurur:

«Camaat, sizin qadınların boynunda, qadınların da sizin boynunuzda haqqı vardır. Qadınlarınızla yaxşı davranın! Çünki onlar sizin köməkçilərinizdirlər… Özünüz yediyinizdən onlara da yedirin, özünüz geydiyinizdən onlara da geyindirin!».[2]

### *Ərəblərin cəngavərliyi*

Tam əminliklə söyləyə bilərik ki, İslamdan qabaqkı ərəblər sözün əsl mənasında tamahkar, maddiyyata bağlı insanlar olmuşlar. Onlar hər şeydən mənfəət güdür, özlərini başqlarından üstün sayırdılar. Azadlığı

---

[1] Nəhl-60-61

[2] Tuhəful-uqul, s-33-34

həddən artıq sevdikləri üçün azadlığı məhdudlaşdıran hər bir şeyə nifrət edirdilər.[1]

İbn Xəldun, Cahiliyyət dövr ərəbləri haqında yazır:

«Vəhşilik, zorakılıq, qarət hissi onların təbiətində idi. Bu xüsusiyyətlər onların qanına hopmuşdu. Onlar bundan zövq alırdılar. Çünki bu yolla bütün qanunlardan azad olur, heç kimin tabeçiliyinə boyun əymirdilər. Aydın məsələdir ki, belə vəziyyətin hökm sürdüyü mühitdə mədəniyyətdən söhbət gedə bilməz...»

İbn Xəldun daha sonra əlavə edərək deyir:

«Onların işi qarətçilikdən ibarət idi. Kimdə bir şey görərdilərsə, mütləq onu qarət edirdilər. Onların dolanışığı qılınc sayəsində təmin olunurdu. Qarətçilikdə heç bir sərhəd tanımırdılar.»[2]

Həqiqətən döyüş, müharibə, qarət ərəblərdə adət halını almışdı. Deyilənlərə görə bir ərəb həzrət Peyğəmbərdən(s) Cənnət haqqında eşitdikdə soruşur ki, orada da döyüş olacaqmı? Ona «xeyr» cavabı verildikdə bildirir ki, elə isə Cənnət nəyə gərəkdir? Ərəblərin tarixində 1700-dən artıq döyüş qeyd edilib. Bu döyüşlərdən bəzisi hətta yüz ildən də artıq sürüb. Bəzən hətta ən adi məsələ böyük müharibəyə səbəb olub.[3]

Cahiliyyət dövrünün ərəbləri düşünürdülər ki, qanı yalnız qanla yumaq olar. Daha çox əfsanəyə bənzəyən «Şənfərə» dastanı o dövrü xarakterizə etməkdə gözəl vasitə ola bilər. Bəni-Salman qəbiləsindən bir nəfər Şənfərəyə xəyanət etdiyi üçün o, intiqam almaq məqsədilə söz verir ki, həmin qəbilədən yüz nəfəri qətlə yetirəcək. Uzun müddət pusquda durduqdan sonra Şənfərə doxsan doqquz nəfəri öldürməyə müvəffəq olur. Axırda isə onun özünü bir quyu başında olarkən oğrular yaxalıyıb qətlə yetirirlər. Lakin neçə illərdən sonra Şənfərənin kəllə çanağı Bəni-Salmandan olan yüzüncü adamı da öldürür. Belə ki, Bəni-Salmandan olan şəxs yolla gedərkən güclü külək qalxıb Şənfərənin kəllə çanağını onun ayağına çırpır. Həmin şəxs ayağındakı möhkəm küt ağrı nəticəsində dünyasını dəyişir.[4]

---

[1] İslam və Cahiliyyət, s-245

[2] İbn Xəldunun müqəddiməsi, c-1, s-285-286

[3] əl-Ərəb qəbləl-İslam, s-128

[4] Filipp Heti, Ərəblərin tarixi, c-1, s-111

Ərəblər qarətçiliyə o qədər aludə olmuşdular ki başqalarının əmlakını talan etməklə öyünürdülər. Qurani-Kərim də məhz bunları nəzərə alaraq buyurmuşdur: ***«(İslamı qəbul etməzdən öncə) od uçurumunun astanasında idiniz, (Allah İslam sayəsində) sizi ondan xilas etdi».***[1]

***Cahiliyyət dövründəki ərəblərin ümumi əxlaqı***

Cəhalət, nadanlıq, məişət qayğısı, cəmiyyətdə düzgün nizamın olmaması, vəhşilik, qarət, tənbəllik və digər mənfi amillər, Ərəbistan mühitini açıq-aşkar səfalət və laqeydsizliyə sürükləmiş və utanc gətirən əməllər get-gedə adi hal almışdı. Artıq bu cəmiyyətdə qumar, sələm, kimlərisə əsir götürmək normal bir şey idi. Ərəblərin bəyənilməz əməllərindən biri də içkiyə aludə olmaları idi. Bu mənfi hal cəmiyyətə elə güclü sirayət etmişdi ki, şairlər öz şerlərinin əksəriyyətini şəraba həsr edirdilər. Günün istənilən vaxtında şərabxanalar müştərilərin üzünə açıq idi. Şərab onlar üçün ticarətə bərabər işə çevrilmişdi.

Cahiliyyət dövrünün ərəbləri əxlaqı başqa cür başa düşürdülər. Onlar məsələn qeyrət, şücaət, mərdliyi tərifləsələr də şücaəti daha çox qan tökmək, döyüşlərdə daha çox adam öldürməkdə, qeyrəti qız uşaqlarını diri-diri basdırmaqda, mərdliyi isə öz qəbilələrindən olan şəxsə kömək etməkdə görürdülər. İstər qəbilə nümayəndəsi haqlı olsun, istərsə də haqsız. Onlar bütün diqqətlərini yalnız qadına, şəraba və döyüşə yönəltmişdilər.

***Ərəblərin mövhumat və əfsanələrə meylliliyi***

Qurani-Kərim, Həzrət Mühəmmədin(s) peyğəmbər olaraq göndərilməsinin səbəblərini çox qısa, lakin konkret cümlələrlə bəyan edir. Bu haqda olan ayələrdən birində deyilir:

***«(O peyğəmbər) onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar (şəriətin çətin hökmlərini götürər)».***[2]

İndi bilmək lazımdır ki, Quranda qeyd olunmuş ağır yük və buxovlardan məqsəd nədir? Sözsüz ki, söhbət dəmir zəncir və

---

[1] Ali-İmran-103

[2] Əraf-157

buxovlardan getmir. Əsas məqsəd ərəblərin fikir və düşüncələrinə hakim kəsilib onları inkişafdan, tərəqqidən saxlayan mövhümat buxovlarıdır. İnsanı düşünməkdən saxlayan belə buxovlar dəmir zəncirlərdən qat-qat pis və ziyanvericidir. Çünki həbs edilmiş şəxsin əl-qoluna bağlanmış dəmir zəncirlər bir müddətdən sonra açılır və şəxs sağlam düşüncə ilə yeni həyata başlayır. İnsan düşüncəsinə bağlanmış mövhumat buxovları isə ola bilər şəxs ölənə qədər onu müşayiət etsin. İnsan sağlam düşüncə sayəsində dəmir zəncirlərdən azad ola bilər, lakin mənəviyyat düşüncəsi buxovlanmış şəxs səadətə çatması üçün bircə addım da ata bilməz.

Həzrət Peyğəmbərin(s) ən böyük fəxrlərindən biri də odur ki, o, cəhalət, mövhümat və xurafata qarşı mübarizə aparıb insan ağlını bu əsarətdən qurtardı. Həzrət buyururdu ki, mən bəşəriyyətin düşüncə tərzini möhkəmləndirmək üçün göndərilmişəm. İstənilən mövhümata qarşı mübarizə aparacağam. Hətta bu mövhümat mənə öz məqsədimə çatmaqda kömək olsa belə.

Hökümət sahibləri insanlar üzərində öz hakimiyyətlərini daim qorumağa can atırlar, istənilən hadisədə öz mənafelərini qoruyurlar. Bu yolda hətta mövhümatlar da onların hakimiyyətinin qorunmasına xidmət edərsə ondan çəkinmirlər.

İslam Peyğəmbəri isə özünün və cəmiyyətin ziyanına olduqda belə mövhümatdan çəkinir və ona qarşı bütün qüvvəsi ilə mübarizə aparırdı. O, çalışırdı ki, insanlar xurafat, əfsanələr dalınca yox, həqiqət ardınca getsinlər. Aşağıdakı əhvalat, o həzrətin bu sahədə atdığı addımlardan bariz nümunədir.

Peyğəmbərin(s) yeganə oğlan övladı İbrahim vəfat etdikdə həzrət çox kədərlənir, ixtiyarsız olaraq gözlərindən yaş axır. İbrahim vəfat edən gün Günəş tutulur. Əfsanə və mövhümata inanan şəxslər günün tutulmasını Peyğəmbərə(s) üz vermiş bu ağır müsibətlə əlaqələndirib deyirlər ki Günəş, Peyğəmbərin(s) oğlunun vəfat etməsinə görə tutulub. Həzrət bunu eşitcək məscidə gedib minbərə qalxaraq buyurur:

**«Günəş və Ay Allahın sonsuz qüdrətinə dəlalət edən iki böyük nişanədir. Onlar daim Allahın əmrinə tabedirlər və kiminsə ölüb və ya sağ qalmasına görə tutulmazlar. Nə vaxt Ay və Günəş tutularsa,**

**ayət namazı qılın!»** Peyğəmbər(s) bunu deyib minbərdən aşağı enərək camaatla birlikdə ayət namazı qıldı.[1]

Günəşin Peyğəmbərin(s) oğlunun vəfatı ilə əlaqədar tutulması, camaatı o həzrətə daha çox bağlayar, nüfuzunu bir qədər də artırardı. Lakin Peyğəmbər(s) mövhümat yolu ilə olacaq bu işə qətiyyən imkan vermir. O həzrət təkcə peyğəmbərliyi dövründə deyil, bütün həyatı boyu, hətta uşaqlığında da mövhümata qarşı mübarizə aparmışdır.

Dörd yaşı olarkən səhrada dayəsi və süd anası sayılan Həlimə ilə yaşadığı zaman anasından süd qardaşları ilə birlikdə çölə getməyə icazə verməsini istəyir. Həlimə deyir ki, həmin günün səhərisi Mühəmmədi(s) yuyundurub saçlarına yağ, gözlərinə sürmə çəkdim. Ona çöl cinlərindən bir xələl dəyməsin deyə ipə düzlənmiş Yəmən gözmuncuğusunu boynundan asdım. Mühəmməd(s) gözmuncuğunu boynundan çıxarıb mənə dedi: «Anacan, narahat olma, Allahım həmişə mənimlədir, o məni qoruyar».[2]

***Cahiliyyət dövr ərəblərinin xurafi əqidələri***

İslam dini meydana gəldiyi zaman bütün xalqların əqidələri mövhümatla qarışmışdı. Dövrün inkişaf etmiş cəmiyyətlərində Yunan və Sasani əfsanələri gəzib dolaşırdı. Hətta müasir dövrdə də bir sıra şərq xalqlarında bəzi mövhümatlar qalmaqdadır. Təbii ki, elm və mədəniyyətin az inkişaf etdiyi yerdə xurafat, mövhümat artacaqdır.

Tarixdə, Ərəbistan yarımadasında yaşayan insanlarla bağlı çoxlu sayda əfsanələr qeyd edilmişdir. Alusi[3] və digərlərinin bu sahədə yazdığı kitablara diqqət yetirdikdə görürük ki, ərəblərin digər millətlərdən geri qalmasının əsas səbəblərindən biri də məhz əsassız mövhümata inanmaq olmuşdur. İslam dininin inkişafının qarşısında duran ən böyük maneə də belə əfsanələr idi. Bu baxımdan Peyğəmbər(s) bütün qüvvəsini ona qarşı mübarizəyə yönəltmişdi. O həzrət, Məaz ibn Cəbəli Yəmənə təbliğə göndərərkən ona belə buyurmuşdu:

---

[1] Biharul-ənvar, c-22, s-155

[2] Biharul-ənvar, c-15, s - 392

[3] Seyid Mühəmməd Alusi, Buluğul-ərəb fi mərifəti əhvalul-ərəb, c-2, s-286-369

**«Cahiliyyət əqidə və düşüncələrini aradan qaldır, islam sünnəsini isə kiçiyindən tutmuş böyüyünədək bərpa et!»**[1] Məaz neçə illərin cahiliyyət düşüncələri ilə yaşamış kütlə qarşısında deyirdi ki, İslamın gəlişi ilə cahiliyyətin bütün adət-ənənələri qüvvədən düşmüşdür.[2]

İndi isə İslam maarifinin dəyərini daha yaxşı anlamaq üçün Cahiliyyət adət-ənənələrindən bir neçə nümunə gətiririk.

***1. Yağış yağmaqdan ötrü od qalamaq***

Ərəbistan yarımadasında ilin əksər günləri quraq keçir. Oranın əhalisi yağış yağmasından ötrü tez alışan «Sil» və «Əşir» ağaclarının budaqlarını toplayıb bir inəyin quyruğuna bağlayaraq dağın təpəsinə qaldırırdılar. Sonra budaqları yandırmağa başlayırdılar. Ağaclar yanmağa başladıqda alovun təsirindən inək nərə çəkib qaçmağa üz tuturdu. Ərəblər alovu şimşəyə, inəyin nərəsini isə göy gurultusuna bənzədərək bu işi yağış yağması üçün təsirli vasitə hesab edirdilər.

***2. Dişi inək su içmədikdə öküz döyülürdü***

Ərəblər inəklərlə öküzləri birlikdə su içməyə aparırdılar. Bəzi hallarda öküzlər su içsə də inəklər ağızlarını suya vurmurdular. Ərəblər elə hesab edirlər ki, guya öküzlərin buynuzları arasında məskunlaşmış əcaib məxluqat inəkləri su içməyə qoymur. Buna görə də həmin əcaib məxluqatı qovmaqdan ötrü öküzlərin başlarına döyəcləyirdilər.

***3. Xəstə dəvənin sağalması üçün sağlam dəvə dağlanırdı***

Əgər dəvələr arasında xəstəlik yayılardısa, onun qarşısını almaq məqsədi ilə sağlam bir dəvə gətirib onun dodaq, əl və qollarını dağlayırdılar. Əlbəttə bunun səbəbi məlum deyil. Bəlkə də bu, xəstəliyin həmin dəvəyə keçməsinin qarşısını almağa xidmət edirmiş. Lakin o qədər dəvə arasından təkcə birini dağlamaq onu göstərir ki, onların bu hərəkəti mövhümatdan başqa bir şey olmayıb.

---

[1] Tuhəful-uqul, s-25

[2] Sireyi İbn Hişam, c-3, s-412

**_4. Ölmüş şəxs qiyamətə piyada gəlməsin deyə, onun qəbri kənarında bir dəvə saxlanılırdı_**

Ərəblər arasında hörmətli bir şəxs dünyasını dəyişərdisə onun qəbri kənarında çala qazıb bir dəvəni orada saxlayırdılar. Dəvə tez ölsün deyə, ona yemək-içmək vermirdilər ki, qoy qiyamət günü qəbir sahibi piyada gəlməsin.

**_5. Qəbir kənarında dəvə kəsmək_**

Vəfat etmiş şəxs öz sağlığında qohum-əqrabası, qonaqları üçün dəvə kəsibmişsə, yaxınları ona təşəkkür əlaməti olaraq qəbri kənarında acınacaqlı şəkildə bir dəvə kəsirdilər.

**_İslam dini bu mövhümata qarşı necə mübarizə aparmışdır?_**

Sadalanan bu əməllər heyvanlara əziyyətdən başqa bir şey olmayıb. Bu hərəkətləri İslamda heyvanlarla ünsiyyətlə bağlı deyilənlərlə müqayisə etdikdə onların tam təzadlı oldğunu görürük. İndi heyvanlarla bağlı İslamda olan, onlarla məsələdən yalnız birinə diqqət yetirək. Həzrət Peyğəmbər(s) buyurmuşdur:

«Hər minik heyvanının öz sahibinin boynunda altı haqqı var. 1. Endiyi hər mənzil başında onu yemləməli. 2. Su başından keçdikdə heyvanı suya aparmalı. 3. Onun üzünə qamçı vurmamalı. 4. Uzun-uzadı dayanıb söhbət edərkən onun üstündə oturmamalı. 5. Gücü çatdığından artıq onu yükləməməli. 6. Taqəti çatmadığı məsafəyə onu qovmamalıdır.»[1]

**_6. Xəstələri müalicə üsulu_**

Kimisə əqrəb və ya ilan sancardısa, həmin heyvanın boynundan qızıl zinət əşyası asar və belə hesab edərdilər ki, qızılın tərkibində mis varsa, deməli, heyvan mütləq ölməlidir. Adətən xəstə itlərin dişləməsi nəticəsində əmələ gələn quduzluq xəstəliyinə tutulmuş şəxsə qəbilə başçısının qanından bir qədər sürtməklə onu müalicə edirdilər.

[1] Mən la yəhzuruhul-fəqih, s-228

Kimsə dəli olardısa, pis ruhları ondan uzaqlaşdırmaq məqsədi ilə onun boynundan nəcasət və ölü kəlləsi asardılar. Uşaqlarını cin tutmasın deyə, boyunlarından tülkü və pişik dişləri asardılar.

Uşaqlar nə vaxt səpərdilərsə, uşağın anası əlinə bir tabaq alıb qəbilənin digər evlərindən çörək və xurma yığıb onu itlərə verərdi ki, uşağı sağalsın. Qəbilə qadınları isə uşaqları səpməsin deyə, onları həmin xurma-çörəyə yaxın durmaqdan çəkindirirdilər.

Dəri xəstəliklərinin sağalması üçün dəriyə ağız suyu sürtərdilər. Kiminsə xəstəliyi davam edərdisə, belə təsəvvür edirdilər ki, xəstə əcinnələrə xas olan ilan və ya qeyri heyvanı öldürüb. Ondan üzr istəmək məqsədilə torpaqdan dəvə formasında heykəl düzəldib üstünə buğda, xurma yığaraq ilan yuvasının ağzına gətirirdilər. Səhərisi gün həmin yerə gedib baxardılar. Əgər gətirdikləri fərqlənibsə, bunu razılıq əlaməti kimi qəbul edir və xəstənin sağalacağını bildirirdilər. Yox əgər apardıqlarına əl dəyilməyibsə, deməli əcinnələr onu qəbul etməyib.

***İslamın bu mövhumatlara qarşı mübarizəsi***

İslam bu mövhümatlara qarşı müxtəlif mübarizə taktikaları seçmişdi. Xəstələrin sağalması üçün daş və sümüklərdən ibarət gözmuncuğundan istifadə edən bir dəstə çöl ərəbi, Peyğəmbərin(s) hüzuruna yetişib bitkilər vasitəsi ilə müalicə haqqında soruşduqda həzrət onlara belə cavab verir: **«Hər bir xəstə şəxs dava-dərmandan istifadə etməlidir. Dərdi yaratmış Allah onun dərmanını da vermişdir».**[1]

Hətta Səd ibn Əbu Vəqqas ürək xəstəliyinə tutulduğu zaman Peyğəmbər(s) ona bildirir ki, Səqif qəbiləsindəki məşhur həkim Haris Kildəyə müraciət etmək lazımdır. Daha sonra isə həzrət ona xüsusi bir dərman vasitəsindən istifadə etməyi tövsiyə edir.[2]

Yuxarıda qeyd etdiyimizdən əlavə heç bir təsirə malik olmayan gözmuncuğu ilə bağlı daha iki əhvalatı diqqətinizə çatdırırıq.

Oğlunun boğazı ağrıdığı üçün uşağın boynundan gözmuncuğu asmış bir kişi uşaqla birlikdə Peyğəmbərin(s) hüzuruna gəlir. Həzrət ona buyurur ki, uşaqlarınızı bu cür gözmuncuğularla qorxutmayın. Bu

---

[1] Ət-Tac, c-3, s - 178
[2] Ət-Tac, c-3, s - 179

xəstəliyin aradan qalxması üçün hind buxurunun şirəsindən istifadə etmək lazımdır.[1]

İmam Sadiq(ə) buyurardı:

**«Əksər gözmuncuğular şirkdir»**[2]

İstər Peyğəmbər(s), istərsə də məsum imamlar cahil ərəblərə hakim kəsilmiş bu cür mövhümata qarşı kəskin mübarizə aparmış, xəstəliklərin müalicəsi üçün çox dəyərli tövsiyələr vermişlər. Onların verdiyi tövsiyələr hədis şəklində Tibbun-nəbi, Tibbur-Rza kimi əsərlərdə toplu halına salınmışdır.

### *7-Digər mövhumatlar*

Ərəblər nigarançılıq və qorxunun çəkilməsi üçün aşağıdakı üsullardan istifadə edirdilər. Hər hansı bir kəndə getdikdə, vəba xəstəliyi və ya cin qorxusu olardısa, kəndin giriş qapısında durub on dəfə ulaq səsi çıxarardılar. Bəzən boyunlarına tülkü sümüyü də asardılar. Çöldə azdıqları zaman, köynəklərini tərsinə geyərdilər. Səfərə getdikləri zaman qadının onlara xəyanət edib-etməməsini bilmək üçün ağacın budağına sap bağlayardılar. Qayıtdıqda sapa əl dəyməmişdisə, deməli, qadın xəyanət etməmiş, yox əgər sap açılmışsa və ya ümumiyyətlə yerində qalmamışdısa, deməli qadın onlara xəyanət edib.

Uşağın dişi düşdükdə bunu iki barmaqla götürüb günə tərəf ataraq deyirdilər ki, ey Günəş, bundan daha yaxşı diş yetir! Hansısa qadının uşağı qalmırdısa, ayağını yeddi dəfə tanınmış bir kişinin cənazəsi üstə qoyduqda guya uşağı qalacaqdı.

Bütün bunlar Cahiliyyət dövr ərəblərinin düşüncəsi ilə məhdudlaşdırılmış mövhümatdan nümunələr idi.

### *İslamın gəlişi ərəfəsində Ərəbistanda ictimai vəziyyət*

Bəşərin ictimai həyat tərzi zəminində atdığı ilk addım qəbilə halında yaşamaq olmuşdur. Bir neçə ailə, nəsil birləşib qəbiləni təşkil edir və hamı qəbilə başçısı seçilən şəxsə tabe olurdu. Ərəblər də o vaxt məhz bu şəkildə yaşayırdılar. Onları bir-birinə birləşdirən yalnız qəbilə

---

[1] Ət-Tac, c-3, s-184

[2] Səfinətul-bihar

əlaqələri idi. Qəbilələr bir-birindən tamamilə fərqlənir, hərənin özünəməxsus qanunları, adət-ənənələri var idi. Bir qəbilə digərinə qətiyyən hörmət qoymur, bir-birinin əmlakını, arvad-uşağını qarət edirdilər. Yalnız aralarında ittifaq bağlamış qəbilələr bu haldan istisna idi. Hansısa qəbilədən bir nəfər öldürülərdisə, öldürülənin qəbiləsi qatilin qəbiləsinin bütün üzvlərini öldürməyə hazır idi. Çünki onların fikrincə qanı qandan başqa heç nə yuya bilməzdi.

Ərəblər İslamı qəbul etməklə qəbilə hakimiyyətindən dünyəvi hakimiyyətə keçirdilər. Həzrət Peyğəmbər(s) müxtəlif ərəb qəbilələrini birləşdirib vahid bir millət yaratmağa müvəffəq oldu. Şübhəsiz ki, ömrü boyu bir-biri ilə müharibə şəraitində gün keçirən müxtəlif qəbilələri qısa müddət ərzində birləşdirmək misilsiz bir hünərdir. Bu haqda Tomas Karolayl yazır: «Allah ərəbləri İslam sayəsində zülmətdən nura doğru yönəltdi. Heç bir səs-sorağı olmayan millət qısa müddət ərzində bütün dünyaya səs saldı. İslamın meydana gəlməsindən heç bir əsr keçməmişdi ki, ərəblərin bir ayağı Hindistanda, digər ayağı Əndəlusda (İspanyiada) idi.»[1]

Görkəmli Qərb tarixçilərindən Mesyurnan yazır: «Ərəbləri bütün dünyaya tanıdan bu hadisədən (İslamın gəlişindən) qabaq Ərəbistan dünyanın nə mədəni, nə də elmi həyatında tanınmırdı.»[2]

Həqiqətən də Cahiliyyət dövr ərəblərinin nə mədəniyyəti var idi, nə də qayda-qanunları. Onlar cəmiyyətin inkişaf və tərəqqisinə səbəb olan bütün amillərdən məhrum idilər. Buna görə də belə qısa müddət ərzində onların bu cür inkişaf edəcəyi, heç kimin təsəvvürünə belə gəlməzdi.

Dünya millətlərinin hər biri hündür bir binaya bənzəyir. Binanın möhkəm və davamlı olması üçün özülə ehtyiacı olduğu kimi, millətin yaşaması üçün sağlam düşüncəyə, əxlaqi dəyərlərə ehtiyacı var. Məhz belə olduqda həmin millət yaşayıb tərəqqiyə nail ola bilər. Bəs görəsən cahil ərəblərin bu misilsiz irəliləyişinin səbəbi nə olmuşdur? Dünənədək bir-birinin qanını tökməklə məşğul olub, pərakəndə şəkildə yaşayan

---

[1] İslama qarşı mübarizədə istismarçıların planları, s-38

[2] İslam və ərəb mədəniyyəti, s-87

millət necə oldu ki birləşib qısa müddət ərzində dövrün ən nəhəng imperiyalarını özünə tabe edə bildi? Əgər bu şərəf ərəblərə qismət olasıydısa, nəyə görə uzun müddət böyük mədəniyyətə malik olan Yəmən ərəbləri buna çata bilmirdilər? Nəyə görə mütərəqqi Bizans imperiyasının himayəsi altında yaşayan Qəssanilər (onlar da ərəb idilər) bu yüksəlişə nail ola bilmədilər? Həmin sual böyük İran imperiyasının himayəsindəki Hirəlilərə də aiddir. Onlar bu yüksəlişə nail olsaydılar, elə də təəccüblü olmazdı. Ancaq heç bir tarixi olmayan Hicaz ərəblərinin bu yüksəlişə çatması doğurdan da təəccübləndiricidir.

***Hirə və Qəssam dövlətləri***

Ərəbistanın nisbətən gözəgəlimli yerləri, İslamdan qabaqkı son əsrdə, o dövrün üç böyük dövləti, İran, Bizans və Həbəşistanın nüfuz dairəsi olmuşdur. Yarımadanın Şərq və Şimal-Şərq hissəsi İranın, Şimal-Qərb hissəsi Bizansın, Mərkəzi və Cənub hissəsi isə Həbəşistanın təsiri altında idi. Bu dövlətlərin həmsərhəd olması və aralarında daim mübarizə getdiyi üçün yarımadanın sərhədlərində yarımmüstəqil dövlətlər (buna vassallıq da demək olar) meydana gəlmişdi ki, onlardan hər biri qonşuluğundakı böyük dövlətin tabeçiliyində idi. Bu dövlətlərə əsasən Hirə, Qəssanilər və Kindəni aid etmək olar. Onlar müvafiq olaraq İran, Bizans və Həbəşistanın tabeçiliyində idilər.[1]

**Hirə:** Tarixi mənbələrdən məlum olur ki, eramızın üçüncü əsrində bəzi ərəb tayfaları Fərat sahillərinə gələrək İraqın bir hissəsini ələ keçirir. Get-gedə onlar bu ərazidə bina və qalalar tikərək şəhərlər salmağa başlayırdılar ki, onlardan ən əsası Hirə olmuşdur. Hirə indiki Kufəyə yaxın yerdə, səhralıqda salınmışdır.

Hirə şəhəri, adından da bəlli olduğu kimi[2] əvvəlcə ərəblərin sığındığı qala olmuş, tədricən şəhərə çevrilmişdir. İqlim şəraitinin yaxşı olması və Fərat yaxınlığında yerləşməsinin, Hirənin abadlaşdırılmasında olduqca önəmli rolu olmuşdur. Hirə dövləti səhra ərəblərini öz hakimiyyəti altına ala bilir. İranla həmsərhəd olduğundan Hirə oranın mədəniyyətindən faydalanırdı. Şəhər yaxınlığında tikilmiş «Xurəng»

[1] Pərvizdən Çingizədək, s-120-121
[2] Siryani dilində Hirə qalaya, məbədə deyilir

kimi möhtəşəm saraylar Hirəyə xüsusi gözəllik verirdi. Bu yerlərin əhalisi yazıb-oxumağı da bacarırdı. Bəlkə də yarımadanın digər bölgələrinə yazıb-oxumaq məhz buradan sirayət etmişdir.[1]

Hirə əmirləri «Bəni-Ləxim» qəbiləsindən seçilirdilər. Sasanilər onları son dərəcə himayə edirdilər. Əlbəttə bu da səbəbsiz olmamışdır. Sasani hökmdarları onların vasitəsi ilə əslində öz ərazilərini səhra ərəblərinin hücumlarından qoruyurdular. Hirə əmirlərinin adı tarixdə qeyd olunmuş, Həmzə İsfahani onların hamısının ad, yaşadığı müddət və həmzaman olduqları Sasani hökmdarlarının adını göstərmişdir.[2] Hirənin son əmiri «Noman ibn Münzir» Xosrov Pərvizin göstərişi ilə qətlə yetirilib taxtdan salınmışdır.[3]

**Qəssanilər:** Beşinci əsrin sonu, altıncı əsrin əvvəllərində Ərəbistanın müxtəlif yerlərindən Şimal-qərbə köçüb gəlmiş ərəblər Bizans imperiyası ilə sərhəd bölgələrdə Qəssanilər dövlətinin əsasını qoyurlar. Dövlət Bizans tərəfindən himayə olunur, əmirlər Konstantinopol imperatorları tərəfindən təyin edilirdi. Qəssanilər dövləti Dəməşqlə həmsərhəd və Bizansın tabeçiliyində olduğundan, burada Bizans mədəniyyəti hökm sürürdü. Bu dövlətlə Hirə, eləcə də İran arasında münasibətlərin gərgin olması səbəbindən Qəssanilər Bizansla müttəfiq idi. Qəssanilərə üst-üstə doqquz, ya on əmir başçılıq etmişdir.

### *Hicazda yayılmış din*

Hicazda əsasən bütpərəstlik geniş yayılmışdı. Yəsrib və Xeybərdə çox az sayda yəhudi yaşayırdı. Yəmənlə sərhəd olan Nəcranda isə xristianlığa itaət olunurdu. Bizansla həmsərhəd olduğundan Şimal bölgələri də xristianlığa üz tutmuşdu. Qalan bütün yerlərdə ancaq bütpərəstlik hökm sürürdü. Nadir sayda insanlar da var idi ki, özlərini hənif adlandıraraq İbrahim(ə) peyğəmbərin dini ilə getdiklərini bildirirdilər.[4]

İbrahim(ə) və İsmail(ə) peyğəmbərin dövründən etibarən Hicazda bir sıra dini-məzhəbi, əxlaqi ayinlər yayılmağa başlamışdı ki, onlardan

---

[1] Futuhul-Buldan, s-457

[2] Səniyyu mulukil-ərz, s-73-76

[3] Əl-əxbarut-tival, s-109

[4] Sireyi İbn Hişam, c-1, s-122-123

biri də həcc ziyarəti olmuşdur. Sonralar «Xüzaə» qəbiləsinin başçısı Əmr ibn Qüseyy Məkkəyə bütpərəstliyi gətirib çıxarır. O, Şamda səfərdə olarkən Əmaliqə tayfalarının gözəl heykəllərə sitayiş etdiklərini görüb bundan xoşlanır. Qayıdarkən özü ilə Hübəl adlı bütü Məkkəyə gətirib camaatı ona sitayiş etməyə çağırır.[1]

Ərəblərin ən məşhur bütləri aşağıdakılar olmuşdur:

1. Hübəl 2. Əsaf 3. Nailə 4. Lat 5. Üzza 6. Mənat 7. Əmyanis 8. Suəd 9. Zul-xuləsə 10. Mənaf

### *Hicazda elm*

Hicaz əhalisini ümmi adlandırırdılar. Ümmi sözünün mənası dərs oxumamış, məktəb görməmiş deməkdir. Hicazın elmi səviyyəsini öyrənmək üçün bunu demək kifayətdir ki, İslamın meydana gəldiyi vaxt Qüreyşdə vur-tut on yeddi nəfər yazıb-oxumağı bacarırdı. Mədinədə isə Ovs və Xəzrəc qəbilələri arasında savadı olan on bir nəfər şəxs var idi.[2]

Ərəbistan əhalisinin ümumi vəziyyəti barədə verdiymiz bu qısa məlumatdan sonra İslamın etiqadi, iqtisadi, əxlaqi, mədəni və digər sahələrdəki maarifinin əhəmiyyəti aydın olur.

[1] Sireyi İbn Hişam, c-1, s-78-81

[2] Futuhul-Buldan, s-457-459

## İRAN VƏ BİZANS İMPERİYALARININ DURUMU

İslam dininin dəyərini daha yaxşı anlamaqdan ötrü Quranın nazil olduğu mühiti, yəni Ərəbistan yarımadasının vəziyyətini, eləcə də o dövrün ən mütərəqqi cəmiyyətlərindəki düşüncəni, ötəri də olsa araşdırmaq lazımdır. Tarixdən belə məlum olur ki, o dövrün ən qabaqcıl cəmiyyətləri Bizans və İran imperiyaları olmuşdur. Mövzunu daha dərindən tədqiq etmək üçün hər iki ölkənin vəziyyətini müxtəlif cəhətlərdən araşdırmaq lazımdır.

Bizans imperiyasının vəziyyəti əzəli İrandan heç də fərqlənmirdi. Bir tərəfdən ölkədaxili münaqişələr, digər tərəfdən də İranla aparılan müharibələr ölkə əhalisini yeni bir quruluşu qəbul etməyə hazır vəziyyətə gətirmişdi. Dini sahədə olan ixtilaflar da bu məsələdə böyük rol oynayırdı. Xaçpərəstlərlə bütpərəstlər arasında münaqişələr səngimək bilmirdi. Kilsə, hakimiyyəti ələ keçirdikdən sonra ölkədə müxaliflərin meydana gəlməsi üçün əlverişli zəmin yarandı. Bu isə müxaliflərin İslam dinini qəbul etməsində müstəsna əhəmiyyət daşıyırdı. Kilsə nümayəndələrinin təzyiqləri nəticəsində müxtəlif dəstələr çeşidli məhrumiyyətlərlə üzləşirdi. Keşişlər arasındakı fikir ayrılığı bir tərəfdən, müxtəlif məzhəblər arasındakı mübahisələr də digər tərəfdən günbəgün Bizans imperiyasını tənəzzülə aparırdı.

Hələ bu azmış kimi, şimal və şərq bölgələrində yaşayan ağdərililərlə sarıdərililər, Avropanın təbiət baxımından əlverişli və münbit ərazilərini ələ keçirmək uğrunda bir-biri ilə rəqabət aparırdılar ki, bu da əksər hallarda toqquşmalar və hər iki tərəfə dəyən böyük xəsarətlərlə nəticələnirdi. Bütün bu amillər axırda Bizans imperiyasının iki hissəyə-Şərqi və Qərbi hissələrinə bölünməsinə gətirib çıxartdı. Tarixçilər belə hesab edirdilər ki, altıncı əsrdə Bizansın siyasi, ictimai və maddi durumu olduqca gərgin imiş. Hətta Bizansın İran üzərindəki qələbəsini də bizanslıların qüvvətli nizami orduya malik olmaları ilə deyil, İran imperiyasındakı nizam-intizamsızlıqla əlaqələndirirlər. O

dövrdə sanki bütün dünyaya ağalıq edən bu iki dövlətdə, İslamın ərsəyə gəldiyi vaxt hərc-mərclik baş alıb gedirdi. Aydın məsələdir ki, bu amil onların əhalisində, güzəranlarını yaxşılaşdırıb, səliqə-sahmana salacaq yeni və düzgün dini təlimləri qəbul etməyə şərait yaradırdı.

*Bizans imperiyasında gündəmdə olan müxtəlif mövzular*

Bir sıra ölkələrdə işsiz və avara insanlar heç bir mənası və əhəmiyyəti olmayan mövzuları qərəzli şəkildə ortaya atmaqla camaatın diqqətini ona yönəltməyə çalışırdılar. O vaxtkı Bizans imperiyasında bu məsələ daha qabarıq şəkildə özünü göstərirdi. Məsələn Bizans imperatorları və həmçinin siyasi xadimlər bəzi dini cərəyanlardan təsirlənərək belə hesab edirdilər ki, İsanın(ə) iki təbiəti var. Lakin digər xristianlar, xüsusilə də Yəqubi cərəyanının nümayəndələri İsanın(ə) bir təbiətə malik olduğunu düşünürdülər. Bu yersiz mübahisə bizanslılar arasında böyük təfriqəyə səbəb olub, Bizansın istiqlaliyyətinə böyük zərbə vurdu.

Belə ki, hakim dairələr öz əqidələrini qorumaq məcburiyyətində qaldığından müxaliflərə böyük təzyiqlər göstərirdi. Bunun nəticəsində müxaliflərin böyük əksəriyyəti İrana hicrət edir. Həmin müxaliflər sonralar İslam döyüşçülərinə qətiyyən müqavimət göstərməmiş və könüllü olaraq müsəlmançılığı qəbul etmişlər.

Bizans imperiyasındakı vəziyyət eyni ilə Avropanın orta əsrlərdəki vəziyyətinə bənzəyirdi. Tanınmış astroloq Flamaryun Avropanın o vaxtkı mədəni səviyyəsi haqqında danışarkən bildirir ki, Lahutiye kitab toplusu, orta əsrlərdə sxolastika fəlsəfəsinin təzahürü idi. Bu kitab dörd yüz ilə qədər rəsmi dərs vəsaiti kimi istifadə edilmişdir. Həmin kitabda belə mövzular var idi ki, bir neçə mələk iynənin ucuna yerləşə bilərmi? Və yaxud müqəddəs atanın sol göz bəbəyindən sağ göz bəbəyinədək nə qədər məsafə var?

Zavallı Bizans imperiyasının başı bir tərəfdən xarici müharibələrə qarışmışdısa, digər tərəfdən də ölkəni günbəgün uçuruma sürükləyən və əsasən də məzhəbi xarakater daşıyan daxili münaqişələrin arası kəsilmirdi. Həmişə məkrli niyyətlər güdən yəhudilər, Bizansın xaçpərəst imperatorunun təzyiqlərinin həddən aşdığını görüb ölkəni ələ

keçirmək üçün planlar hazırlamağa başladılar. Onlar hətta Antakya şəhərini ələ keçirməyə müvəffəq olub, şəhər yepiskopunun burun, qulaq və dodaqlarını kəsdilər. Sonradan Bizans hökuməti intiqam almaq məqsədi ilə Antakya yəhudilərinə qarşı kütləvi qırğın törədir. İnsanlığa yaraşmayan bu qırğın xristianlarla yəhudilər arasında bir neçə dəfə təkrarlandı. İki millət arasında gedən bu çəkişmə hətta ölkə hüdudlarını da aşırdı. Məsələn yəhudilər Bizansdan köçüb İranda mühacir həyatı yaşayan səksən min xristianı pulla İran hökümətindən alıb qoyun kimi başlarını kəsirlər.

Yuxarıda deyilənləri diqqətlə araşdırdıqda İslamın meydana gəldiyi dövrdə dünyada hansı hərc-mərcliyin hökm sürdüyünün şahidi olur və etiraf etmək məcburiyyətində qalırıq ki, deməli, bəşəriyyətə nicat vermiş yüksək dini təlimlər o dövrün zülmət mühitində yaşayan insan fikrinin məhsulu deyil. Əsas şüarı bərabərlik, vəhdət, sülh olan, hətta heyvanlara da hüquq verən İslam dini belə bir keşməkeşli mühitdən qaynaqlana bilərmi? Belə çıxır ki, o yalnız və yalnız qeyb aləmindən qaynaqlanmışdır.

İsa(ə) haqqında az öncə qeyd edilmiş bir və ya ikili təbiətə malik olmaq məsələsinə gəlincə İslam dini bu əsassız iddianı rədd edərək, o həzrəti camaata belə tanıtdırdı: ***«Məryəm oğlu Məsih ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib getmişdir. Onun anası isə çox pak bir qadın idi. Onların hər ikisi (adi insanlar kimi) yemək yeyirdi».***[1]

### *O dövrün mədəniyyət beşiyi sayılan İran*

O vaxtkı İran dövlətinin mənfi və zəif cəhəti onun imperiya olması olmuşdur. Sözsüz ki, bir nəfərin ağlı, düşüncəsi və tədbiri ilə böyük bir dəstənin ağıl, düşüncə və tədbiri bir deyil. İranın zəif cəhəti də elə ondan ibarət idi ki, bütün məsələləri yalnız bircə nəfər, yəni, imperator (şah) həll edirdi. Sasanilər dövlətinin tarixini mütaliə etdikdə bu həqiqət aydın şəkildə üzə çıxır.

### *İslam dininin ərsəyə gəldiyi zaman İranın ümumi vəziyyəti*

---

[1] Maidə-75

İslam dininin meydana gəldiyi vaxt (611-ci miladi ili) İranda Xosrov Pərviz hakimiyyət başında olmuşdur (590-628-ci illər), Həzrət peyğəmbər(s) Məkkədən Mədinəyə hicrət edərkən də İrana o başçılıq edirdi (622-ci il, iyul ayının on altısı). Həmin gündən etibarən hicri tarixi başlamışdır. Həmin ərəfədə dünyanın böyük hissəsinə iki imperiya-İran və Bizans imperiyaları hakim kəsilmiş və aralarında mütəmadi olaraq mübarizə gedirdi.[1] Bu mübarizə hələ Ənuşirəvanın hakimiyyəti dövründən (531-589) başlanmışdır. Uzun sürən müharibələrin hər iki ölkəyə vurduğu ziyan bu dövlətləri olduqca sarsıtmışdı.

İranın o vaxtkı vəziyyətini daha yaxşı tədqiq etməkdən ötrü Ənuşirəvanın hakimiyyəti dövründən başlayaraq müsəlmanların İranı fəth etməsinə qədərki vəziyyətə nəzər salmaq lazımdır.

***Sasanilərin bər-bəzəyə meyilli olması***

Sasani hökmdarları bir qayda olaraq həddən artıq bər-bəzəyə aludə idilər. Sasanilər sarayının təm-tərağı, orada işlənmiş daş-qaşlar baxanları heyran qoyurdu. Onların «Kavyan dürrü» adlanan bir bayrağı var imiş. Bu bayraq yalnız döyüş meydanlarında, bir də Sasanilərə məxsus bayram günlərində sarayın üstündə dalğalanarmış. Bayraq olduqca qiymətli ləl-cəvahiratla bəzədilibmiş. Deyilənlərə görə bu misilsiz bayrağın üzərindəki ləl-cəvahiratın qiyməti bir milyon iki yüz min dirhəm və yaxud otuz min funta bərabər imiş.[2]

Sasanilər sarayındakı qeyri-adi, əfsanəvi bər-bəzək haqqında təsəvvür yaratmaq üçün bunu demək kifayətdir ki, saray eyvanlarından birində «Kəsra baharı» adlanan ağ rəngli böyük bir xalça yerə salınıbmış. Sasani hökmdarları bu xalçanı eyş-işrət zamanı onlara xoş ovqat bağışlamaq və ilin istənilən fəslində bahar təravətini görməkdən ötrü hazırlatdırıblarmış.[3] Xalçanın uzunluğu 150 zira, eni isə 70 zira olmuş, başdan-başa zinət əşyaları ilə bəzədilmişdir.[4]

---

[1] Kristenson, İran Sasanilər dövründə, s-267
[2] Zeynülabidin Rahnəma, Peyğəmbər, c-1, s-42-43
[3] Zeynülabidin Rahnəma, Peyğəmbər, c-1, s-42-43
[4] Zeynülabidin Rahnəma, Peyğəmbər, c-1, s-42-43

Sasani hökmdarları arasında hamıdan çox Xosrov Pərviz eyş-işrət, bər-bəzək həvəskarı olmuşdur. Onun arvadlarının, kənizlərinin, müğənni və rəqqasələrinin sayı bir neçə min imiş. Həmzə İsfahani «Səniyyu mulukil-ərz» əsərində bu barədə yazır: «Xosrov Pərvizin üç min arvadı, on iki min kəniz və rəqqasəsi, altı min gözətçisi olmuşdur. Səkkiz min beş yüz atı, doqquz yüz altmış fili, on iki min qatırı, min baş da dəvəsi var idi.»[1]

Təbəri də onun ləl-cəvahirata, qiymətli qab-qacağa və bu kimi şeylərə həddən artıq aludə olduğunu bildirir.[2]

### *İranın ictimai vəziyyəti*

Sasanilər dövründə İrandakı ictimai vəziyyət heç də ürəkaçan deyildi. Hələ lap qədimdən mövcud olmuş təbəqələnmə siyasəti Sasanilər dövründə öz kuliminasiya nöqtəsinə çatmışdı. Zadəganlarla ruhanilər digər təbəqələrdən müqayisə olunmaz dərəcədə fərqlənirdilər. Cəmiyyətdəki əsas vəzifə və peşələr onlara məxsus idi. Fəhlə və kəndli sinfi bütün ictimai hüquqlardan məhrum edilmişdi. Onlar yalnız vergi ödəmək və döyüşlərə getməkdə nəzərə alınırdı. «Nəfisi» bu təbəqələnmə siyasəti haqqında yazır:

«İran xalqı arasında təfriqəyə səbəb olan ən böyük amil təbəqələnmə idi. Bu, hələ qədim zamanlarda da mövcud olmuşdu, Sasanilər dövründə isə daha kəskin hal almışdı. İlk növbədə yeddi zadəgan ailəsi gəlirdi. Onlardan sonra isə beş təbəqə üstünlüyə malik idi. Ümumi kütlə bu özəlliklərdən məhrum edilmişdi. Mülkiyyət hüququ ancaq yeddi ailəyə (nəsilə) məxsus idi. O vaxt Sasanilər hökümətində yüz qırx milyon əhali yaşayırdı. Bu yeddi nəsildən hər birinin üzvlərinin yüz min nəfər olduğunu nəzərə alsaq, ümumilikdə bu, yeddi yüz min nəfər deməkdir. (Nisbətən mülkiyyət hüququ olan) mərzbanları və onların nəsillərinin də yeddi yüz min olduğunu təxmin etsək, belə çıxır ki, yüz qırx milyondan vur-tut bir milyon yarım insan

---

[1] Səniyyu mulukil-ərz, s-420

[2] Tarixi Təbəriyə istinadən Kristenson, s-327

mülkiyyət hüququna malik olubmuş. Yerdə qalan bütün əhali isə Allahın onlara verdiyi bu təbii haqlarından məhrum edilmişdi»[1]

Bütün hüquqlardan məhrum edilmiş sənətkarlarla əkinçilər, zadəganların eyş-işrətinin xərcini təmin etmək üçün ağır vergi ödəmək məcburiyyətində qalmışdılar. Ağır vergi sisteminin tətbiq edilməsi nəticəsində onların bir çoxu öz işindən əl çəkib məbədlərə üz tuturdular.

«İran Sasanilər dövründə» əsərinin müəllifi, iranlı fəhlə və kəndli sinfinin bədbəxtliklərini qeyd etdikdən sonra Qərb tarixçilərindən olan İmyan Marselinusdan belə bir sitat gətirir:

«İran fəhlə və kəndliləri olduqca acınacaqlı həyat tərzi keçirirdilər. Döyüş zamanı onlar ordunun ardınca piyada gedirdilər. Onlar elə alçaldılmışdı ki, sanki talelərinə əbədi köləlik yazılıbmış. Gördükləri işin müqabilində onlara heç nə verilmirdi.»[2]

***Təhsil yalnız xüsusi təbəqələrə aid idi***

Sasanilər dövründə İranda yalnız zadəgan ailələrin övladları təhsil almaq hüququna malik idi. Orta təbəqənin belə bir hüququ olmamışdır.

Qədim İran tarixindəki bu böyük nöqsan o qədər danılmaz idi ki, işi-gücü ancaq qəhrəmanlıq yazmaqdan ibarət Şahnamə müəllifləri də onu etiraf etmək məcburiyyətində qalmışlar. Dünya şöhrətli Şahnamə müəllifi Firdovsinin nəzmə çəkdiyi bir əhvalat dediklərimizin bariz nümunəsidir. Bu əhvalat Sasanilər dövlətinin çiçəkləndiyi bir vaxtda, Ənuşirəvan hakimiyyətdə olarkən baş vermişdir. Firdovsinin dediklərindən belə başa düşülür ki, hələ o vaxt da əksər əhali təhsil almaq hüququndan məhrum imiş. Hətta təhsil, elm tərəfdarı olan Ənuşirəvan da xalqa belə bir hüquq verməyib. Firdovsi yazır: «İran ordusunda böyük maliyyə problemi yaranmışdı. Üç yüz minlik orduda yemək və silah çatışmazlığı var idi. Bu xəbər hökmdara çatdırıldıqda dərhal tədbirli vəziri Büzürgmehri yanına çağırtdırıb onunla məsləhətləşir. Ənuşirəvan ona Mazandaran vilayətinə gedib lazımi xərcləri toplamağı tapşırır. Lakin Büzürgmehr vaxtın az olduğunu bildirərək məsələni yerindəcə həll etməyin lazım olduğunu söyləyir. Daha sonra hökmdara

[1] İranın ictimai tarixi, c-2, s-6-24
[2] İran Sasanilər dövründə, s-424

xalqdan borc almağı tövsiyə edir. Ənuşirəvan onun təklifini bəyənir. Büzürgmehr də öz növbəsində də yaxın şəhər və kəndlərə elçilər göndərib oraların tacir və sənətkarlarını məsələdən xəbərdar edir. Bir pinəçi döyüş üçün ordunun bütün xərclərini öz öhdəsinə götürməyə hazır olduğunu, bunun müqabilində isə oxumaq həvəsində olan yeganə oğluna təhsil almaq icazəsi verilməsini istədiyini bildirir. Büzürgmehr onun verdiyi pulun qarşılığı olaraq bu istəyin çox kiçik olduğunu söyləyir. Hökmdarın yanına qayıdıb pinəçinin istəyini ona çatdırır. Ənuşirəvan qəzəblənib vəzirinə deyir ki, bu nə istəkdir? Bu iş heç məsləhət deyil. O, öz təbəqəsindən çıxmaqla ölkədəki təbəqələnmə prinsipini pozur. Onun ziyanı bu qır-qızılın dəyərindən daha artıqdır. Sabah pinəçinin oğlu oxuyub savadlı olarsa, gəlib bizim uşaqlarımızın vəziri olar. Uşaqlarımız da onların dediyi ilə oturub durar.

Beləliklə, «ədalətli» Ənuşirəvanın göstərişinə əsasən pinəçinin verdiyi pullar geri qaytarılır. Zavallı pinəçi də əli hər yerdən üzülərək əllərini Allah dərgahına qaldırıb şikayətini ancaq Ona edə bilir».[1]

Bütün bunlara baxmayaraq Ənuşirəvanın adamları onu, cəmiyyətə ədalətli bir şəxs kimi tanıtmışdılar. Halbuki bu «ədalətli» hökmdar o vaxtkı problemləri həll etməməklə İranın ictimai vəziyyətini bədbəxtliyə sürüklədi. Təkcə elə Məzdək problemi ortaya çıxdıqda səksən min (deyilənlərə görə yüz min) nəfəri diri-diri qəbrə basdırdı.[2] O, bu yolla problemin aradan qaldırılacağını güman edirdi. Halbuki təzyiqlə heç bir məsələ öz həllini tapmır.

Eduard Braun, ədalətli olduğu iddia edilən Ənuşirəvan haqqında yazır: «O, zındıqlara qarşı sərt tədbirlər görməklə atəşpərəst kahinlərin rəğbətini qazandı. Milli tarix də məhz həmin atəşpərəst kahinlərin vasitəsilə tənzimlənirdi…»[3]

Yazılmış həmin tarixlərdə Ənuşirəvan olduqca ədalətli hökmdar kimi qələmə verilmişdir. Nəql edilmiş hekayələrə görə o, sarayın qarşısından uzun bir zəncir asıbmış ki, məzlumlar onu silkələməklə

---

[1] Murucuz-zəhəb, c-1, s-263-264

[2] İranın ictimai tarixi, s-618

[3] İran ədəbiyyatı tarixi, c-1, s-246

hökmdarı köməyə çağırsınlar.[1] Nə qədər təəccüblü olsa da qoca bir kişinin ulağı istisna olmaqla, Ənuşirəvan hakimiyyəti dövründə həmin zəncirə toxunan olmayıb.

Deyilənlərə görə günlərin birində Bizans imperiyasından Ənuşirəvanın sarayına bir elçi gəlir. Elçinin gözü Kəsra sarayının əzəmətinə, onun möhtəşəm tağlarına sataşdıqda tağlardan birində azacıq əyrilik görür. Saraydakılardan bunun səbəbini soruşduqda ona deyirlər ki, tağın arxası qoca bir qarının evi olub. Hökmdar onun evini alıb saraya qatmaq istəsə də, qarı razılıq vermədiyindən Ənuşirəvan da onu məcbur etməyib. Tağın əyriliyinə səbəb də həmin qarının evi olmuşdur. Bizans elçisi and içib ki, bu əyrilik onun düz olmasından daha yaxşıdır.[2]

Doğrudan da təəccübləndiricidir, bu cür əzəmətli saray tikdirən şəxs məgər qabaqcadan onun layihəsini, tikiləcək yerini hazırlamır? Buna inanmaq olarmı? Çox güman ki, belə qondarma hekayələri Məzdək tərəfdarlarını qırmış Xosrov Pərvizin razılığını cəlb etmək məqsədi ilə saray xidmətçiləri və atəşpərəst kahinlər uydurmuşlar. «İran və İslam» əsərinin müəllifi yazır ki, hətta bəziləri onun ədalətli olduğunu şəriət qaydası ilə əsaslandırmaqdan ötrü Ənuşirəvan barədə həzrət Peyğəmbərdən(s) və imamlardan hədislər də qoşmuşlar.

Həmin hədislərdən birində göstərilir ki, guya Peyğəmbər(s): «Mən ədalətli hökmdar dövründə anadan olmuşam» deyə buyurmuşdur. Sanki o həzrət bununla fəxr edirmiş. Halbuki, Ənuşirəvan hətta ədalətli olsaydı da bunun Peyğəmbərə(s) nə aidiyyatı olacaqdı? Qondarılmış digər bir hədisdə deyilir: «Əli(ə) Mədainə gəlib Kəsra sarayının yaxınlığında dayanır. Ənuşirəvanı qəbrindən qaldırıb vəziyyətini soruşur. O, Əmirəl-mömininə cavab verir ki, Allaha küfr etdiyinə görə Cənnətdən məhrum olsa da ədaləti icra etdiyindən Cəhənnəmdə də yanmır.»

İndi isə gəlin Sasanilərin cəmiyyətə etdiyi zülm və haqsızlıqlara ötəri nəzər salaq.

### *Xosrov Pərviz cinayətlərindən bir nümunə*

---

[1] İranın ictimai tarixi, c-1, s-618

[2] Murucuz-zəhəb, c-1, s-264

Xosrov Pərvizin haqsız və ağılsız hərəkətlərindən biri də on üç il Ənuşirəvanın vəziri olmaqla onun rəğbətini, ona şan-şöhrət gətirmiş Büzürgmehri həbs etməsi olmuşdur. Büzürgmehr həbsdə olarkən Xosrov Pərviz ona belə bir məktub yazır: «Ağıllı və tədbirli olmağın səni ölümə sürüklədi.» Büzürgmehr onun cavabında bildirir: «Nə qədər ki, tale üzümə gülürdü, öz ağlımdan istifadə edirdim. Bu imkan əlimdən çıxdığı üçün indi də öz səbr, dözümümdən faydalanıram. Bir çox yaxşılıqlardan məhrum olmuşamsada xeyli pisliklərdən də asudəyəm. Vəzirliyimi itirmişəmsə də onun zülmkarlığının əziyyətindən rahatlanmışam. Elə isə daha mənim nə qorxum var?» məktub Xosrov Pərvizə yetişcək əmr edir ki, Büzürgmehrin burnu və dodaqları kəsilsin. Büzürgmehr bu xəbəri eşitdikdə deyir: «mənim dodaqlarım bundan da artığına layiqdir». Xosrov ondan səbəbini soruşduqda deyir: «Çünki camaatın arasında layiq olmadığın halda səni çox təriflədim. Etmədiyin yaxşılıqları sənə nisbət verdim. Ey alçaq hökmdar, sən mənim yaxşı bir vəzir olduğumu bildiyin halda məni pis gümanlamı öldürürsən? Daha bundan sonra kim sənin ədalətinə ümid edə bilər?» Xosrov Pərviz bu sözlərdən bərk qəzəblənib, onun boynunun vurulmasını əmr edir.

Özü nasionalizm ideyasının qabaqcıllarından olan «İranın ictimai tarixi» əsərinin müəllifi, Sasanilər dövründə cəmiyyətdəki hərcmərclikdən, haqsızlıqdan danışarkən təhsil hüququnun yalnız yuxarı təbəqəyə xas olması barədə yazır:

«…O vaxt yalnız atəşpərəst kahinlərlə zadəganların uşaqları təhsil ala bilərdi. İranın yerdə qalan bütün övladları isə bu hüquqdan məhrum idi.»[1]

Sasanilər ümumi əhali ilə müqayisədə həddən artıq azlıq təşkil edən öz övladlarının əsassız istəklərini təmin etməkdən ötrü başqalarına təhsil almaq hüququ verməmişdi.

### *Sasani hökmdarlarına qarşı tarixin mühakiməsi*

[1] İranın ictimai tarixi, c-2, s-26

Sasani hökmdarlarının əksəriyyəti öz hakimiyyətlərini qılınc gücünə saxlayır, camaatı zorakılıq sayəsində tabeçiliklərində saxlaya bilirdilər.

Əhali arasında həddən artıq ağır və dözülməz vergi sistemi tətbiq edilirdi. Bundan bütün əhali narazı olsa da, canının qorxusundan kimsə ağzını açıb etiraz bildirməyə cürət etmirdi. Hətta saray məmurları da söz sahibi deyildilər.

Hakimiyyət başında duranlar həmişə tarixi təhrif edib dəyişsələr də, Sasanilərin özbaşınalıqları o qədər vüsət almışdı ki, hökümət nümayəndələrinin zülmü haqqında bəzi əhvalatlar tarixi mənbələrdə də öz əksini tapmışdır. Səalibi yazır:

«Xosrova deyirdilər ki, filan mərzbanı saraya çağırdıq, lakin o gəlməkdən imtina etdi. Hökmdar heç fikirləşmədən deyirmiş ki, onun bütün bədəni ilə bura gəlməsi əziyyətdirsə, narahat etməyin. Biz onun bədəninin yalnız bir hissəsini bura gətizdirərik, rahat olar. Deyin ki, təkcə başını göndərsələr, kifayət edər».[1]

***Sasani dövlətindəki qarışıqlıq***

Sasanilər dövlətinin son vaxtlarında istər sarayda, istərsə də əhali arasında hərc-mərclik, özbaşınalıq daha kəskin hal almışdı.

Şahzadələr, sərkərdələr bir-biri ilə yola getmirdilər. Bir şahzadə vəliəhd seçilir, kimlərsə onu qəbul etməyib digərini təyin edirdilər.

Müsəlmanlar İranı ələ keçirmək istədiyi zaman ölkə son dərəcə zəifləmiş, ikitirəlik yaranmışdı. Xosrov Pərviz qətlə yetirildikdən sonra dörd il ərzində «Şiruyədən» başlayaraq sonuncu Sasani hökmdarı «Yəzdigürdə» qədər hakimiyyət taxtına əyləşənlərin sayı altıdan on dördə kimi göstərilmişdir.

Dörd il ərzində on dörd dövlət çevrilişi olmuş bir ölkədə vəziyyətin necə olduğunu təxmin etmək elə də çətin məsələ deyil.

Hakimiyyətə gələn yeni hökmdar taxt-tac iddiasında gözü olanları öldürür, öz hakimiyyətini möhkəmləndirmək üçün istədiyi işi görürdü. Ata oğulu, oğul atanı, qardaş qardaşı öldürməkdən çəkinmirdi.

---

[1] İran Sasanilər dövründə, s-318

Şiruyə də məhz atasını[1] və Xosrov Pərvizin qırx oğlunu,[2] yəni, öz qardaşlarını öldürüb hakimiyyət başına keçmişdi.

«Şəhrbəraz» etibar etmədiyi bütün adamları öldürürdü ki, qoy kimsə onun hakimiyyətinə göz dikməsin.

Elə acınacaqlı vəziyyət yaranmışdı ki, axırda arvad-uşaq hakimiyyətə gətirilir, bir neçə həftədən sonra taxtdan salınırdı.

Beləliklə də zahirdə əzəmətli görünən Sasanilər dövləti surətlə tənəzzülə uğramağa başlayır.

***Sasanilər dövlətində dini sahədə fikir ayrılığı***

Sasanilər dövründə İranda ictimai gərginliyin əsas amillərindən biri də dini sahədəki pərakəndəlik olmuşdur.

Sasanilərin təməlini qoymuş Ərdəşirin atası atəşpərəst kahinlərindən olduğu və özü də atəşpərəst ruhanilərin dəstəyi nəticəsində hakimiyyətə gəldiyi üçün əcdadlarının dinini yaşatmaq naminə istənilən vasitəyə əl atırdı. Buna görə də ölkədə ümummilli din zərdüştlük dini qəbul edilmişdi. Atəşpərəst ruhanilər sarayın tam himayəsində idilər və demək olar ki, ölkənin ən yüksək təbəqələrindən sayılırdılar. Hakimiyyətə gələn hökmdar mütləq ruhanilərin rəğbətini qazanmalı idi. Hökmdarlar da öz növbəsində onların nazı ilə oynayır, ölkənin müxtəlif yerlərində atəşgahlar tikdirirdilər. Bu atəşgahlarda xeyli sayda ruhani fəaliyyət göstərirdi. Deyilənlərə görə Xosrov Pərviz tikdirdiyi atəşgahlardan birinə on iki min ruhani yerləşdirmişdi.[3]

Atəşpərəstlik sözün əsl mənasında saray dininə çevrilmişdi. Ruhanilər bütün qüvvələri ilə çalışırdılar ki, hüquqlarından məhrum edilmiş zəhmətkeş xalq kütləsini sakit saxlasınlar. Ruhanilərin xalqa təzyiqləri və geniş səlahiyyətləri camaatı atəşpərəstlikdən uzaqlaşmağa cəlb edir və sadə insanlar sitayiş etmək üçün saray dinindən başqa bir din axtarışında idilər. «İranın ictimai tarixi» kitabının müəllifi yazır: «Xalq

[1] Murucuz-zəhəb, c-1, s-281
[2] İranın ictimai tarixi, c-2, s-15-19
[3] Sasanilərin mədəniyyət tarixi, c-1, s-1

saray adamlarından canlarını qurtarmaqdan ötrü başqa bir din axtarışında idi. Bu səbəbdən artıq zərdüştlükdə iki yeni cərəyan yayılmışdı.»[1]

Atəşpərəst saray ruhanilərinin təzyiqləri nəticəsində İranda günbəgün yeni məzhəblər peyda olurdu. Məzdək və ondan qabaq Mani[2] İranın dini sahəsində dəyişiklik yaratmağa çalışsa da heç bir nəticə vermədi. Təxminən Miladi 497-ci ildə Məzdək qiyam qaldırır. Mülkiyyət inhisarı və çoxarvadlılığın ləğv edilməsi onun platformasının əsasını təşkil edirdi. Sadə xalq kütləsi onun şüarlarını eşitdikdə pərvanə tək onun ətrafına toplaşıb böyük bir qiyam qaldırır. Onlar öz hüqüqlarını tələb edirdilər. Saray ruhaniləri və ordunun işə qarışması ilə İranda vəziyyət olduqca gərginləşdi.

Sasanilər dövlətinin son vaxtlarında zərdüştlük öz həqiqi mahiyyətini tamamilə itirmişdi. İş o yerə çatmışdı ki, dəmirçilər də odda dəmir qızdırıb döyəcləməyi özlərinə sığışdırmırdılar. Zərdüştlük artıq xurafata, əfsanəyə çevrilmişdi. Bu gedişatdan atəşpərəst ruhanilər də narahat idilər. Onlar da zərdüştlüyün puç olduğunu anlamağa başlamış, ruhanilərdən əl çəkənləri də olmuşdu. Digər tərəfdən, Ənuşirəvanın dövründən etibarən qədim yunan və hind mədəniyyətləri İrana öz təsirini göstərməyə, eləcə də zərdüştlüyə xristianlıq və digər məzhəb əqidələri qarışmağa başlamışdı ki, bu da camaatın qəflətdən oyanmasında müstəsna rol oynadı. İranın dini həyatını bürümüş belə əsassız əfsanə, xürafat və uydurmalar camaat arasında dini təfriqəyə gətirib çıxartmışdı. Nəticədə camaatda olan iman tamam itib batır.

Sasanilər dövrünün görkəmli təbibi Bərzveyh ölkədəki bu hərc-mərcliyi, camaat arasındakı dini parçalanmanı Kəlilə və Dimnənin müqəddiməsində canlandırmışdır.

### *İran-Bizans müharibələri*

Büzürgmehr çox tədbirli, ağıllı, fərasətli bir vəzir olaraq Ənuşirəvanın böyük rəğbətini qazanmışdı. O, öz tədbirləri sayəsində əksər hallarda İranı böyük təhlükələrdən qurtara bilirdi. Amma bəzi hallarda sözgəzdirənlər onunla Ənuşirəvanın arasını vurmağa çalışır,

---

[1] İranın ictimai tarixi, c-2, s-20

[2] Manilik atəşpərəstliklə xristianlığın sintezindən yaradılmış bir dini cərəyan olmuşdur.

ara-sıra buna nail də olurdular. Həmin aravuranlar Ənuşirəvanı ölkə hüdudlarını genişləndirmək və əzəli rəqibləri Bizansı zəiflətmək məqsədi ilə iki dövlət arasında bağlanmış əbədi sülh müqaviləsini pozmağa təhrik edirdilər. Beləliklə də iki ölkə arasında amansız müharibə başlayır. Qısa müddət ərzində İran ordusu Suriyanı ələ keçirir, Antakyaya od vurub yandırır, Kiçik Asiyanı darmadağın edir. Hər iki tərəfə külli miqdarda ziyan vurmuş iyirmi il davam edən müharibədən sonra yenidən sülh müqaviləsi bağlanır. Bizans imperiyası ildə iyirmi min dinar vermək şərti ilə hər iki dövlətin sərhədləri əvvəlki kimi bərpa edilir.

Məlum məsələdir ki, bu qədər davam etmiş müharibə, ölkə iqtisadiyyatına böyük ziyan vuraraq İranın tənəzzülünə səbəb oldu. Hələ iyirmi illik müharibənin nəticələri aradan qaldırılmamış yeddi illik bir döyüş başlayır. Belə ki, yenicə hakimiyyət kürsüsünə əyləşmiş imperator Tibariyus intiqam almaq məqsədi ilə İranı hədələyir. Bu döyüş zamanı Ənuşirəvan vəfat edir və oğlu Xosrov Pərviz hökmdar olur. O da bəzi şeyləri bəhanə gətirərək 614-cü ildə Bizansa hücum edir. İlk hücum nəticəsində Şam, Fələstin və Afrikanı ələ keçirir. Yerusəlim qarət edilir, Qiyamət kilsəsi və İsanın(ə) qəbri (xristianların fikrincə) yandırılır, şəhərlər yerlə yeksan olunur. Doxsan min xaçpərəstin öldüyü bu döyüş iranlıların qələbəsi ilə başa çatır.

O vaxtkı dünyanın ən mütərəqqi və qabaqcıl ölkələrinin başı qızğın döyüşlərə qarışdığı bir vaxtda 610-cu ildə həzrət Mühəmməd(s) peyğəmbər seçilməklə bütün dünyanı sülh, səfa, səmimiyyət və dostluğa çağırır.

Təkallahlıq əqidəsində olan xristianların atəşpərəst iranlılara məğlub olmasını Məkkə bütpərəstləri müsbət mənaya yozmaqla, özlərinin də tezliklə Məkkədəki təkallahlılıq əqidəsində olanlara (yəni, müsəlmanlara) qalib gələcəklərini bildirdilər. Müsəlmanlar bunu eşitdikdə çox kədərlənirlər. İslam Peyğəmbəri(s) isə bu barədə İlahi vəhyin gəlişini gözləyirdi.

Nəhayət, baş vermiş hadisəyə münasibətini bildirən aşağıdakı ayələr nazil olur: *«Bizanslılar (iranlılara) məğlub oldular. (Ərəbistana) ən*

***yaxın bir yerdə (Şamda və ya İordaniyada). Lakin onlar (bu) məğlubiyyətlərindən sonra qalib gələcəklər».***[1]

Quranın qabaqcadan verdiyi bu xəbər, 627-ci ildə öz gerçəkliyini tapdı. Belə ki, Bizans imperatoru Herakl İran ərazilərinə hücum edib Neynəvanı ələ keçirir. Hər iki ordunun gücü tükənmək üzrə idi. Allah-Təala hər iki ölkədə yalnız Ona sitayiş olunmasını istədiyi üçün çox çəkmir ki, Xosrov Pərviz oğlu Şiruyə tərəfindən qətlə yetirilir. Onun özü də səkkiz aydan sonra vəfat edir.

Həmin ərəfədə İranda baş alıb gedən hərc-mərclik nəticəsində Şiruyədən sonra dörd il ərzində bir çox hökmdarlar taxta əyləşirlər ki, onlardan dördü qadın olmuşdur.

Nəhayət, İslam ordusu öz hücumları ilə bu gedişata son qoyur. İranda təxminən əlli il davam edən keşməkeşlər də müsəlmanların qələbələrinə yardımçı olur.

[1] Rum-2-3

# İSLAM PEYĞƏMBƏRİNİN ƏCDADI

### *1. Tövhid qəhrəmanı Həzrət İbrahim(ə)*

İbrahim(ə) peyğəmbərin həyatını şərh etməkdə məqsədimiz həzrət Mühəmmədin(s) əcdadlarını tanıtdırmaqdır. Belə ki, Peyğəmbərin(s) nəsli İbrahimin(ə) oğlu İsmailə(ə) gedib çatdığından və eləcə də bu iki şəxs, habelə həzrət peyğəmbərin(s) əcdadlarından bəziləri ərəblərin tarixində mühüm rol oynadığından, qısaca da olsa onların həyatını araşdırmaq məqsədəuyğun olar. Onu da nəzərə almaq lazımdır ki, İslam tarixindəki hadisələr, zəncir halqaları kimi özündən qabaqkı hadisələrlə bilavasitə əlaqədardır.

Məsələn, Əbdülmüttəlibin Həzrət peyğəmbəri(s) himayə etməsi, Əbutalibin o həzrətə dəstəyi, Bəni-Haşim sülaləsinin əzəməti, Bəni-Üməyyə ədavətinin kökü İslam tarixindəki hadisələrin təməl daşını təşikl edir. Bu baxımdan İslam tarixində bu mövzulara xüsusi fəsillər həsr edilir.

İbrahim(ə) peyğəmbərin həyatı olduqca maraqlı hadisələrlə zəngindir. Onun tövhid yolundakı mübarizələri, bütpərəstliyin kökünü kəsmə cəhdləri unudulası deyil. Ulduzpərəstlərlə apardığı məntiqi mübahisə həqiqət axtarışında olanlar üçün ən böyük tövhid dərsidir.

### *İbrahim(ə) peyğəmbərin vətəni*

İbrahim(ə) peyğəmbər bütpərəstlik və bəşərpərəstliyin baş alıb getdiyi bir mühitdə dünyaya gəlmişdir. Onun anadan olduğu yer Babil şəhəridir. Vaxtilə bu şəhərin adı dünyanın yeddi möcüzəsi sırasında çəkilirdi. Oradakı mədəniyyət haqqında tarixdə çox şeylər yazılıb. Hirodens bu haqda yazır:

«Babil şəhəri kvadrat formasında salınmışdı. Hər bir sahəsinin uzunluğu 120 fərsəx, ümumi ərazisi isə 480 fərsəx olmuşdur».[1]

---

[1] Müqəddəs kitabın lüğəti, Babil sözü

Bu rəqəm nə qədər şişirdilmiş olsa belə, yenə də Babilin əzəmətindən xəbər verir. Bu gün isə oradan əsər-əlamət qalmamış, yalnız Dəclə və Fərat arasında aparılan arxeoloji qazıntılar zamanı Babilin adı yada düşür.

İbrahim(ə) peyğəmbər «Nəmrud ibn Kənanın» hakimiyyəti dövründə anadan olmuşdur. Nəmrud özü bütpərəst olsa da Allahlıq iddiasında idi. Bəlkə də bir qədər qəribə səslənir. Necə yəni, insan özü həm bütə ibadət etsin, həm də Allahlıq iddiasında olsun? Lakin bunun bənzərini Qurani-Kərim Firon haqqında da qeyd edir. Musa(ə) peyğəmbər öz məntiqi ilə Firon tərəfdarlarını susdurduqda tərəfdarları etiraz dolu baxışlarla Firona dedilər:

***«Musanı və tayfasını fəsad törətmək, həm səni, həm də sənin tanrılarını atıb getmək üçünmü buraxacaqsan?»***[1] Fironun Allahlıq iddiasında olduğu hamıya bəllidir. ***O, açıq-aşkar: «Həqiqətən mən sizin ən uca rəbbinizəm!»***[2]***, «Mən sizin üçün özümdən başqa bir tanrı olduğunu bilmirəm»***[3] deyirdi. Ancaq buna baxmayaraq həm də bütpərəst idi. Bütpərəstlərin məntiqinə görə kimsə bir dəstənin tanrısı olduğu halda özü daha böyük tanrıya sitayiş edə bilər. Çünki onun fikrincə tanrıdan məqsəd Allah yox, işləri idarə edəndir.

Nəmrud öz dövrünün alim və kahinləri sayılan münəccimləri öz ətrafına toplamışdı. Onların Nəmruda sitayiş etmələri sıravi insanların fikrini arxayın etmişdi. Üstəlik İbrahimin(ə) qohumu olan, ulduzlardan da başı çıxan Azər də Nəmrudun yaxın adamlarından sayılırdı. Bu isə İbrahim(ə) üçün daha böyük maneə idi. Çünki, o həzrət ümumi xalqa qarşı mübarizə aparmaqla yanaşı, eyni zamanda qohumları ilə də mübarizə etmək məcburiyyətində idi.

Nəmrud hər şeydən arxayın şəkildə günlərini asudə keçirirdi. Birdən münəccimlər ilk xətər zəngini vuraraq bildirirdilər ki, sənin taxt-tacını bu mühitdə doğulacaq bir körpə dağıdacaq. Nəmrudun yatmış düşüncələri oyanır və soruşur ki, həmin uşaq doğulubmu? Münəc-

[1] Əraf-127
[2] Naziat-24
[3] Qəsəs -38

cimlər mənfi cavab verdikdə kişilərin qadınlardan uzaqlaşdırılmasını əmr edir.

Əgər təzə körpə doğulardısa Nəmrudun adamları körpəni dərhal qətlə yetirirdilər. Nəmrudun kişilərin qadınlardan ayrılması əmrini verdiyi gün Allahın istəyi ilə İbrahimin(ə) anası ona hamilə qalır. O, hamiləliyini gizli saxlayır. Uşaq doğulduqdan sonra onu qorumaq məqsədilə götürüb şəhərin kənarında yerləşən bir mağaraya qoyur.

Günlər-aylar keçir, Nəmrud isə yavaş-yavaş arxayınlaşmağa başlayırdı. İbrahim(ə) düz on üç ildən çox darısqal girişi olan bu mağarada yaşayır. On üç ildən sonra anası onu mağaradan çıxarır. Nəmrudun adamları onu gördükdə anası bildirir ki, o, Nəmrudun əmrindən qabaq dünyaya gəlib.

İbrahim(ə) mağaradan çıxdıqdan sonra təbiətdəki İlahi nişanələri görüb fitri tövhidini daha da gücləndirir. O, bəzilərinin ulduza, bəzilərinin bütlərə, bəzilərinin də özləri kimi insana sitayiş etdiyini görür. İbrahimi(ə) qarşıda bu üç dəstə ilə gərgin mübarizə gözləyirdi.

***İbrahimin(ə) bütpərəstliyə qarşı mübarizəsi***

Bütpərəstlik bütün Babili zülmətə qərq etmişdi. Yerdə və göydəki çoxsaylı yalançı tanrılar camaatın diqqətini özünə cəlb etmişdi. Peyğəmbərlər öz mübarizələrində həmişə məntiqə əsaslanmışlar. Çünki onlar camaatın qəlbini ələ almalı idilər. İman və yəqin təməli əsasında bərpa edilmiş hökümət qurmaq istəmişlər. Belə bir höküməti isə zor gücünə qurmaq mümkünsüzdür. Biz fironların, nəmrudların höküməti ilə peyğəmbərlərin hökümətini bir-birinə qarışdırmamalıyıq. Firon və ya Nəmrud sağ olduğu müddətdə nəyin bahasına olursa olsun, öz hakimiyyətini qorumağa çalışır. Öldükdən sonra isə daha hökümət onun marağında deyil. Peyğəmbərlər isə elə bir hökümət qurmağa çalışırdılar ki, həm sağlıqlarında, həm də vəfat etdikdən sonra davam etsin.

İbrahim(ə) mübarizənin əvvəlində Azərin başçılıq etdiyi öz qohum-əqrabası ilə üzləşməli olur. Onlarla mübarizə başa çatmamış başqa bir dəstə ilə rastlaşır. İkinci dəstə birincidən nisbətən məntiqli idi. Çünki onlar yerin cansız məxluqatına deyil, göy cismlərinə pərəstiş edirdilər.

İbrahim(ə) onlara qarşı fəlsəfi və məntiqi mülahizələri, sadə dildə irəli sürür. Onun o vaxtkı dəlil-sübutu indi də filosofları heyran qoymuşdur. Qurani-Kərim də bu fəlsəfi diskussiyanı tam dəqiqliyi ilə qeyd etmişdir.

Bir gecə İbrahim(ə) camaatı hidayət etmək məqsədi ilə üç müxtəlif dəstə ilə dialoqa girib hər üçünü tutarlı dəlillərlə susdurur. İlk olaraq hava qaralcaq, Zöhrə ulduzu parlaqlığını büruzə verir. İbrahim(ə) ilk öncə ona pərəstiş edənlərlə həmfikir olduğunu bildirmək üçün deyir ki, bu mənim tanrımdır. Lakin Zöhrə ulduzu batdıqda o həzrət buyurur ki, mən batan tanrını xoşlamıram. Bu yolla o, Zöhrəyə sitayiş edənlərin əqidəsinin puç və batil olduğunu bildirir.

Daha sonra İbrahimin(ə) gözü, gözləri heyran qoymuş Ayın parlaq dairəsinə sataşır. O, Aya sitayiş edənlərin diqqətini cəlb etmək məqsədi ilə Ayın tanrı olduğunu söyləyir. Ay batdıqda isə Aya sitayiş edənlərin xətrinə dəymədən, çox mülaiym tərzdə bildirir ki, Rəbbim məni hidayət etməsə, mən bədbəxt olaram. İndi isə tanrım yoxdur ki, məni hidayət də etsin. Beləliklə, o, Aya sitayiş edənlərin də əqidəsinin batil olduğunu üzə çıxarır.

Səhər açılıb Günəş üfüqdən boylandıqda Günəşə pərəstiş edənlər üzlərini tanrılarına doğru çevirirlər. İbrahim(ə) də sanki onlardan biri imiş kimi Günəşin tanrı olduğunu bildirir. Lakin Günəş batdığı zaman İbrahim(ə) onun da tanrı olduğunu inkar etdi. Hər üç dəstədən üz çevirərək buyurdu: ***«Mən, həqiqətən, batildən haqqa tapınaraq (dönərək) üzümü göyləri və yeri yaradana çevirdim. Mən (Allaha) şərik qoşanlardan deyiləm».[1]***

İbrahimin(ə) dialoqa girdiyi şəxslər belə hesab edirdilər ki, insan da daxil olmaqla yerdəki bütün məxluqat, göy cismləri tərəfindən idarə olunur. Bundan belə başa düşülür ki, deməli, həzrət İbrahim(ə) heç də aşağıdakı məsələləri isbat etməyə çalışmırmış.

1) Allahın isbatı

2) Allahın zatındakı tövhid. Yəni, Allah təkdir və heç bir şəriki yoxdur.

3) Xaliqdəki tövhid. Yəni, Allahdan başqa yaradan və xaliq yoxdur.

---

[1] Ənam-79

İbrahim(ə) peyğəmbər heç də bu məsələlərin isbatına çalışmırmış. Onun əsas müzakirə obyekti idarəçilikdəki tövhid olmuşdur. O, sübut etməyə çalışırmış ki, yeri, göyü və bütün məxluqatı idarə edən yalnız və yalnız Allahdır. Elə buna görə səma cismlərinin tanrılığını inkar etdikdən sonra dərhal: «Mən üzümü göyləri və yeri yaradana çevirdim» deyir. Yeri-göyü yaradan Allah həm də onları idarə edəndir. Dünyanın hansısa sahəsini idarə etmək heç də səma cismlərinə həvalə edilməyib. Deməli, həm yaradan, həm də idarə edən eyni varlıqdır, nəinki yaradan Allah, idarə edən isə başqa varlıqdır.

Qurani-Kərimi açıqlamağa, çalışmış təfsirçi və İslam sxolastiklərindən bəziləri həzrət İbrahimin(ə) məntiqini açıqlayarkən bəzi səhvlərə yol vermişlər. Onlar belə hesab etmişlər ki, İbrahimin(ə) məqsədi göy cismlərinin tanrı olduğunu inkar etmək olmuşdur. Bəziləri də belə güman etmişəlr ki, İbrahim(ə) peyğəmbərin məqsədi göy cismlərinin xaliq olmadığını sübut etmək olmuşdur. Çünki ola bilər Allah-təala hansısa varlığı yaratdıqdan sonra ona xaliqlik funksiyasını vermiş olsun.

Təəssüflər olsun ki, hər iki təfsir yanlışdır. İbrahim(ə) peyğəmbərin əsl məqsədi işləri idarə edənlə yaradanın eyni varlıq olduğunu sübut etmək olmuşdur. Qeyd etdiymiz Ənam surəsinin 79-cu ayəsi buna ən gözəl şahiddir. İbrahimin(ə) söhbətinin əhatə dairəsi Ulduz, Günəş və Ayın idarəçilik funksiyasına malik olmadığını sübut etməyə yönəlmişdir. Mövzunu tamamlamaq üçün İbrahimin(ə) məntiqini başqa formada izah edirik.

İbarhim(ə) peyğəmbər hər üç halda göy cismlərinin batmasını onların yer işlərini idarə etmək qabiliyyətinə malik olmadığına əsas gətirir. İndi belə bir sual yaranır ki, bu cismlərin batması onların işləri idarə edə bilmək qabiliyyətinə necə mane olur? Buna müxtəlif formalarda cavab vermək olar və bu cavablardan hər bir müəyyən dəstələr faydalıdır. Bu da onu göstərir ki, Quran çoxşaxəli bir kitabdan və cəmiyyətdəki müxtəlif dəstələrin hamısını nəzərə almışdır. İndi gəlin həmin müxtəlif cavablara nəzərə salaq.

1) Hər hansı bir tanrı qəbul etməkdə əsas məqsəd odur ki, zəif məxluq seçdiyi tanrının qüdrəti, bacarığı sayəsində kamala çatsın. Belə bir tanrı həmişə idarə etdiyi varlığın vəziyyətindən xəbərdar olmalı,

necə deyərlər, həmişə onun yanında olmalıdır. Günün müəyyən saatlarında məxluqatdan hansısa göy cismi yerdəki varlıqların işini necə idarə edə bilər? Deməli, onlar müəyyən saatlarda məxluqatdan xəbərsiz qalırlar və təbii ki, onların işlərini də idarə edə bilməzlər. Onda işləri idarə edən başqa bir varlıq var ki, məxluqatdan heç vaxt qafil qalmır.

2) Səma cismlərinin çıxıb-batması, müəyyən orbit ətrafındakı sabit hərəkətləri onların özünün bir qanuna tabe olduğundan, həmin qanunun onların üzərində hakim olmasından xəbər verir. Əgər onlar özləri müəyyən qanuna tabedirsə, bu, onlardakı zəifliyin nişanəsidir. Zəif bir varlıq yerdəki məxluqatın işini necə idarə edə bilər? Sadəcə olaraq onlar öz funksiyalarını yerinə yetirməklə yeri işıqlandırırlar. Bu isə heç də onların idarə edən olduqları anlamına gəlmir.

3) Ümumiyyətlə, göy cismlərinin hərəkətində məqsəd nədir? Onlar öz hərəkətləri ilə kamala doğrumu irəliləyir, yoxsa kamaldan nöqsana doğru? İkinci variant təsəvvüredilməzdir. Çünki məxluqatın idarəçiliyini edən varlıq necə ola bilər ki, kamaldan nöqsana doğru irəliləsin? İkinci variantla razılaşacağımız təqdirdə isə, bu onu göstərir ki, zahirən güclü görünən bu cismləri kamala doğru aparan başqa bir varlıq var və dünyanın bütün işlərinin idarəçiliyi də məhz onun ixtiyarındadır.

### *Peyğəmbərin dəvət metodu*

Az öncə qeyd etdiyimiz kimi İbrahim(ə) peyğəmbər mağaradan çıxdıqdan sonra bütpərəstlər və səma cismlərinə sitayiş edənlərlə rastlaşır. O həzrətin səma cismlərinə sitayiş edənlərlə mübahisəsini, dialoqunu öyrəndik. İndi gəlin görək bütpərəstlərə qarşı hansı mübarizə taktikasını seçmişdir.

Peyğəmbərlərin tarixi ilə tanış olduqda görürük ki, onlar ilk öncə öz yaxınlarını haqqa dəvət etməyə başlamış, ondan sonra geniş kütlə arasına girmişlər. Necə ki, İslam peyğəmbəri də ***«Və ən yaxın qohumlarını qorxut!»***[1] ayəsini müvafiq olaraq öz missiyasına yaxın qohumlarını İslama dəvət etməklə başlayır. İbrahim(ə) peyğəmbər də eyni ilə bu taktikadan istifadə etmişdir. İlk növbədə öz qohumlarını

---

[1] Şüəra-214

haqqa dəvət etməyə başlayır. Qohumları arasında Azərin böyük mövqeyi var idi. Çünki o, sənətkar olmaqla yanaşı, həm də məharətli münəccim idi. Nəmrudun sarayında böyük nüfuza malik olan Azərin münəccimlik sahəsində dedikləri məmnuniyyətlə qəbul edilirdi. İbrahim(ə) çox yaxşı anlayırdı ki, Azəri öz tərəfinə çəkməklə bütpərəstlərə qarşı çox böyük addım atmış olar. Bunu nəzərə alaraq, o həzrət səmimi şəkildə Azəri bütlərə ibadət etməməyə çağırır. Lakin müəyyən səbəblər üzündən Azər onun təklifindən imtina edir. Diqqəti cəlb edən məqam İbrahimlə(ə) Azərin danışığındakı həlimlik, mülayimlikdir.

Bu dialoqu özündə ehtiva edən ayələrdə peyğəmbərlərin öz dəvətlərində necə də gözəl metod seçdiklərini ortaya qoyur: ***O, bir zaman atasına belə demişdi: «Atacan! Nə üçün eşitməyən, görməyən və sənə heç bir fayda və zərər verə bilməyən bütlərə ibadət edirsən? Atacan! Həqiqətən, sənə gəlməyən bir elm (peyğəmbərlik) mənə gəlmişdir. Ardımca gəl ki, səni (Allahın buyurduğu) doğru bir yola çıxardım! Atacan! Şeytana ibadət etmə, həqiqətən şeytan Rəhmana (Allaha) çox asi olmuşdur! Atacan! Qorxuram ki, (tövbə etməsən) Rəhmandan sənə bir əzab toxunsun və beləcə (Cəhənnəmdə) şeytana yoldaş olasan!»***[1] Azər isə İbrahimin(ə) dəvətinə belə cavab verdi: ***«İbarhimim, sən mənim tapındığım tanrılardan üzmü çevirirsən? Əgər (onlara qarşı pis hərəkətlərinə) son qoymazsan, səni mütləq daşqalaq edəcəyəm. Bir müddət məndən uzaq ol (gözlərim səni görməsin)!»***[2] İbrahimin(ə) böyük və geniş ürəyi Azərin pis sözlərini həzm edir, onun cavabında buyurur: ***«Sənə salam olsun! (Allah Özü sənə rəhm eləsin!) Mən Rəbbimdən sənin bağışlanmağını diləyəcəyəm».***[3] Bundan daha gözəl, daha şəfqətli bir cavab ola bilərmi?

### *Azər doğrudanmı İbrahimin(ə) atası olmuşdur?*

Məryəm surəsindən qeyd etdiymiz ayələr, eləcə də Tövbə surəsinin 115 və Mumtəhənə surəsinin 4-cü ayələri Azərin İbrahimin(ə) atası olduğunu göstərir. Lakin məsələ burasındadır ki, şiə alimlərinin yekdil

---

[1] Məryəm-42-45

[2] Məryəm-46

[3] Məryəm-47

fikrinə əsasən İslam peyğəmbərinin bütün əcdadı, eləcə də bütün peyğəmbərlərin əcdadı təkallahlıq əqidəsində olmuşlar. Bu məsələdə hətta bəzi sünni alimləri də onlarla həmfikirdir. Belə olduqda isə bütpərəst Azərin həzrət İbarhimin(ə) atası olması ilə uyğun gəlmir. Bəs onda qeyd edilən ayələri necə başa düşək?

Əksər təfsirçilərin fikrincə ərəb dilində «əban» sözü adətən «ata» mənasında işlədilir. Bəzən isə əmi haqqında da bu sözdən istifadə edilir. Aşağıdakı ayədə gəlmiş «əbun» (ata) sözü məhz «əmi» mənasında nəzərdə tutulmuşdur: ***«...O (Yəqub): «Məndən sonra nəyə ibadət edəcəksiniz?» deyə oğlanlarından soruşduğu zaman, onlar: «sənin Allahına və ataların-İbrahimin, İsmailin və İshaqın Allahı olan tək Allaha təslim olacağıq (Ona ibadət edəcəyik)»-dedilər».***[1]

İsmailin(ə) Yəqubun (ə) atası deyil, əmisi olmasında heç kəsin şübhəsi yoxdur. Çünki Yəqub(ə) İshaqın(ə) oğlu idi, İsmail(ə) isə İshaqın(ə) qardaşı olmuşdur. Buradan belə bir ehtimal çıxır ki, Azərlə bağlı İbrahimin(ə) ona «ata» dediyi ayələrdə də əmi nəzərdə tutulmuşdur. Sadəcə olaraq İbrahim(ə) uzun müddət onun himayəsində qaldığına görə o həzrət Azərə «ata» demiş və ona ata gözü ilə baxmışdır.

### *Quran Azəri İbrahimin(ə) atası hesab etmir*

İbrahim(ə) ilə Azərin qohumluq münasibətlərinə dair Quranın mövqeyini öyrənmək üçün aşağıdakı iki ayəni araşdırmaq məcburiyyətindəyik.

1) Həzrət Mühəmmədin(s) fədakar səyləri nəticəsində Ərəbistan mühiti demək olar ki, bütünlüklə İslam nuruna bələndi. Camaatın əksəriyyəti səmimi qəlbdən iman gətirib anladı ki, şirk və bütpərəstliyin aqibəti Cəhənnəmdir. Onlar iman gətirdiklərinə görə xoşhal olsalar da valideynlərinin bütpərəst olaraq ölüb getdiklərinə görə kədərlənirdilər. Çünki müşriklərin Cəhənnəmdə əzab çəkəcəkləri haqqında kifayət qədər ayə eşitmişdilər. Bu ağrılı-acılı hisslərdən yaxa qurtarmaq üçün həzrət Peyğəmbərdən(s) onların kafir halda dünyadan getmiş

[1] Bəqərə-133

valideynlərinin bağışlanmasına dua etməsini xahiş edirdilər. Necə ki, İbrahim(ə) Azərin bağışlanmasını diləmişdi. Möminlərin xahişinə cavab olaraq aşağıdakı ayələr nazil olur: «Müşriklərin cəhənnəmlik olduqları (müsəlmanlara) bəlli olduqdan sonra onlarla qohum olsalar belə, Peyğəmbərlərə və iman gətirənlərə onlar üçün bağışlanmaq diləmək yaraşmaz! İbrahimin öz atası üçün bağışlanma diləməsi isə ancaq ona verdiyi bir vədə görə idi. Atasının Allaha düşmən olması İbrahimə aydın olduqda o öz atasından uzaqlaşdı (onunla bütün əlaqələrini kəsdi). ***Həqiqətən, İbrahim (Allaha çox dua edərək) yalvarıb-yaxaran və həlim xasiyyətli bir zat idi».***[1]

Bir çox sübutlardan aydın olur ki, İbrahimin(ə) Azərlə dialoqu, onun bağışlanması üçün dua etməsi haqda vədə verməsi və nəticədə onun bütün əlaqələrini kəsməsi o həzrətin cavanlıq dövründə baş vermişdir. Belə ki, İbrahimin(ə) hələ o vaxt doğulub boya-başa çatdığı Babildən Fələstin, Misir və Hicaz torpaqlarına köçməmişdi. Bu ayədən belə bir nəticə əldə edilir ki, Azər bütpərəstlikdə israrlı olub kafir qaldığına görə İbrahim(ə) peyğəmbər hələ cavan olmasına rəğmən ömrünün sonunadək bir daha onunla əlaqə saxlamamış, heç onu xatırlamamışdır da.

2) İbrahim(ə) ömrünün son vaxtlarında arvad-uşağını quraq Məkkə diyarına gətirdikdən və Kəbə evini təmir etdikdən sonra bir qrup şəxs, o cümlədən ata-anası üçün səmimi qəlbdən dua edərək buyurmuşdur: ***«Ey Rəbbim! Haqq-hesab çəkilən gün (Qiyamət günü) məni, ata-anamı və möminləri bağışla!»***[2] bu ayə İbrahimin(ə) qocalıq çağlarında, kəbəni təmir etdikdən sonra dua etdiyini bildirir. Əgər ayədəki atadan məqsəd Azərdirsə, onda belə çıxır ki, İbrahim(ə) ömrünün sonunadək onunla əlaqəni kəsməmiş, onu yaxşı mənada yad etmiş, hətta bağışlanmasını da arzulamışdır. Halbuki əvvəlcə haqqında danışdığımız birinci ayə (Tövbə surəsinin 113 və 114-cü ayələri) İbrahimin(ə) cavanlıq dövründə Azərlə əlaqələri kəsdiyini, ondan uzaqlaşdığını bildirir. Əlaqələri kəsib tamam uzaqlaşmaqla onun üçün bağışlanma diləmək heç bir vəchlə

[1] Tövbə-113-114
[2] İbrahim-41

uyğun gəlmir. Deməli, iki ayəni bir-biri ilə müqayisə edib, belə bir nəticəyə gəlmək olar ki, İbrahimin(ə) cavanlıq illərində əlaqələrini kəsib uzaqlaşdığı şəxslə o həzrətin qoca ikən haqqında bağışlanma dilədiyi şəxs ayrı-ayrı insanlar olmuşlar.[1]

***İbrahim(ə) bütləri sındırır***

Bayram günləri yetişmişdi. Haqdan uzaq düşmüş Babil camaatı bayram mərasimini qeyd edib əylənmək üçün çölə getmişdi. Şəhər bom-boş idi. İbrahimin(ə) hərəkətləri camaatda nigarançılıq yaratdığından onun da mərasimdə iştirak etməsi üçün çölə getməsi təklif olundu. Nə qədər işrar etsələr də İbrahim(ə) xəstə olduğunu bəhanə gətirib onlarla birlikdə çölə getməkdən boyun qaçırdı.

Həmin gün həm müşriklər, həm də həzrət İbrahim(ə) üçün çox xoş gün idi. Müşriklər üçün xoş gün idi ona görə ki, yamyaşıl sahələrə gedib bayram mərasimini keçirməklə ata-babalarının adət-ənənəsini davam etdirirdilər. Həzrət İbrahim(ə) üçün isə ona görə xoş gün idi ki, nə vaxtdan bəri arzuladığı fursəti yaxalamışdı. O həzrət uzun zamandan bütləri sındırmaqdan ötrü şəhərin boşalmasını gözləyirdi. Nəhayət, həmin gün gəlib çatmışdı.

Camaatın son dəstəsi də şəhərdən çıxcaq İbrahim(ə) fürsəti əldən verməyib Allaha arxayın və iman dolu qəlblə bütxanaya üz tutur. Məbəd cansız və taxtadan yonulmuş bütlərlə dolu idi. Təsadüfən İbrahimin(ə) gözü camaatın nəzir-niyaz kimi gətirdiyi yeməklərə toxunur. Əlinə bir qədər yemək götürüb üzünü bütlərə tutaraq istehzalı şəkildə deyir: «Nəyə görə bu ləziz yeməklərdən yemirsiniz?» Məlum məsələdir ki, heç nəyə qadir olmayan bütlər yemək iqtidarında deyildi. Bütxana sanki ölüm sükutuna qərq olmuşdu. Bu sükutu yalnız İbrahimin(ə) bütlərin baş-gözünə, əl-ayağına endirdiyi balta zərbələri pozdu. Bütləri qırıq-qırıq edib bütxananın ortasında böyük bir təpə yaratdı. Təkcə ən böyük bütə əl vurmayıb baltanı da onun çiyninə qoydu. O, bu hərəkəti ilə sanki bütlərin böyük büt tərəfindən sındırıldığını bildirmək istəyirdi. Bunu etməkdə də məqsədi var idi. O

[1] Məcməul-bəyan, c-3, s-319, əl-Mizan, c-7, s-170

bildirdi ki, müşriklər çöldən qayıtdıqdan sonra baş vermiş hadisənin səbəbkarını axtaracaq və bütlərin böyük büt tərəfindən sındırıldığına inanmayacaqlar. Çünki onlar bütlərin hər hansı hərəkət iqtidarında olmadığını çox yaxşı bilirdilər. Belə olan halda İbrahim(ə) onlara qarşı hücum taktikasından yararlanıb soruşacaqdı ki, əgər bu bütlər heç nəyə qadir deyilsə, bəs onda nə üçün onlara ibadət edirsiniz?

Hava yavaş-yavaş qaralmağa doğru gedirdi. Camaat çöldən şəhərə qayıtmağa başladı. Bütlərə ibadət zamanı çatdıqda bir dəstə adam bütxanaya girib gördükləri səhnədən dəhşətə gəlir. Tanrılarına qarşı edilmiş bu böyük təhqiri görüb hamı çaşqınlıq içərisində qalmışdı. Nəhayət, bir nəfər sükutu pozub deyir: «Bu işi kim görmüşdür?» İbrahimin(ə) bütlərə qarşı pis sözləri hamını əmin etdi ki, bu işi görən mütləq İbrahimdir. Nəmrudun başçılığı ilə mühakimə iclası təşkil olundu. Gənc İbrahim(ə) anası ilə birlikdə ümumxalq mühakiməsinə tuş gəlmişdi. Anası ona görə mühakimə olunurdu ki, nəyə görə bu uşağın anadan olduğunu gizlətmiş və bu barədə vaxtında məlumat verməmişdir? İbrahimin(ə) anası cavab verir ki, mən bu gedişatla camaatın nəslinin kəsiləcəyini görürdüm. Bu uşağın doğulması haqqında isə ona görə xəbər vermədim ki, gözlədim görüm işin aqibəti necə olacaq. Əgər bu uşaq böyüyüb həqiqətən də münəccimlərin dediyi kimi başqalarının qanını töksəydi, dərhal dövlət məmurlarına məlumat verəcəkdim. Belə olmadığı təqdirdə isə millətin bir nəslini qorumuş olacaqdım.

İbrahimin(ə) anasının bu məntiqi hakimləri tam qane etdi. Sonra növbə İbrahimə(ə) çatdı. O bildirdi ki, belə görünür hadisənin törədən böyük bütdür. Yaxşı olar ki, hadisə haqqında onun özündən soruşasınız. Onun bu cür ötkəm, təhqiramiz və istehza dolu cavab verməkdə məqsədi var idi. O bildirdi ki, qazilər şurası ona deyəcəklər: İbrahim, sən axı bütlərin danışmaq iqtidarında olmadıqlarını bilirsən. Belə olan halda İbrahim(ə) hakimlərin diqqətini başqa bir məqama yönəltməyə çalışacaqdı. Məhkəmənin gedişatı İbrahimin(ə) təxmin etdiyi kimi oldu. Hakimlərdən təxmin etdiyi cavabı aldıqda buyurur: «Əgər doğrudan da siz dediyiniz kimi bütlər danışmağa qadir deyillərsə, bəs onda nə üçün onlara ibadət edir və istəklərinizi ondan diləyirsiniz?» Cəhalət, inadkarlıq və ata-babalarından etdiyi kor-koranə

təqlid içərisində çabalayan hakimlər İbrahimin(ə) bu tutarlı sualı qarşısında aciz qalıb onun odda yandırılması hökmünü verdilər. Böyük bir tonqal qalandı, tövhid qəhrəmanı tonqalın içinə atıldı. Lakin Allah öz mərhəmətini İbrahimdən(ə) əsirgəmədi və insanların yaratdığı süni cəhənnəmi gülüstana çevirdi.[1]

***Bu hədisdəki ibrətamiz məqamlar***

Yəhudilər özlərini təkallahlılar dəstəsinin lideri sayaraq bu hadisəni qəbul etsələr də hazırki Tövratda bu barədə heç bir məlumat yoxdur. Səmavi kitablar arasında yalnız Quranda bu hadisə öz əksini tapmışdır. Bu baxımdan hədisdəki bəzi ibrətamiz məqamları qeyd edirik. (Quranın peyğəmbərlərin sərgüzəştlərini qeyd etməkdə əsas məqsədi də məhz bu ibrətamiz məqamları nəzərə çarpdırmaqdır.)

1. Bu əhvalat İbrahim(ə) peyğəmbərin şücaətinə dəlalət edən əyani sübutdur. İbrahimin(ə) bütləri sındırması Nəmrud və rəiyyəti üçün qaranlıq qalmış bir məsələ deyildi. Çünki o həzrət dəfələrlə bütlər haqqında pis danışmış, bütpərəstliyə öz kəskin etirazını bildirmişdi. O açıq-aşkar deyirdi ki, bütpərəstlər bu çirkin əməllərindən əl çəkməyəcəkləri təqdirdə onların barəsində başqa qərara gələcək. Camaat çölə getdiyi gün o açıq şəkildə bildirmişdi ki: ***«Allaha and olsun ki, siz çıxıb getdikdən sonra bütlərinizə bir hiylə quracağam! (Başlarına bir oyun açacağam)».***[2] İmam Sadiq(ə) buyurmuşdur: «Sayı minlərlə olan kafirlər qarşısında təkallahlı bir şəxsin mübarizəsi İbrahimin(ə) şücaətli, sabitqədəm olduğundan xəbər verir, o, təkallahlıq əsaslarını möhkəmləndirmək uğrunda heçnədən çəkinməmişdir.»[3]

2. İbrahimin bütləri sındırması silahlı və düşməncəsinə atılmış bir addım kimi görünsə də o həzrətin hakimlərlə söhbətindən də aydın olur ki, bu, sırf təbliğat xarakteri daşıyan bir hərəkət olmuşdur. Belə ki, camaatın qəflətdə yatmış fitrətini oyatmaq üçün sonuncu çıxış yolunu bütləri sındırıb ən böyük bütü saxlamaqda və baltanı da onun çiyninə qoymaqda görür. Bəlkə onda müşriklər məsələnin mahiyyətini bir

[1] Əl-Kamilu fit-tarix, s-53-62; Biharul-ənvar, c-12, s-14-55; Ənbiya-51-70
[2] Ənbiya -57
[3] Biharul-ənvar, c-5, s-130

qədər dərindən araşdırıb axırda belə qərara gələlər ki, bu hadisəni heç vaxt böyük büt törədə bilməz. Belə olan halda İbrahim(ə) onların gəldiyi nəticədən istifadə edib təbliğata başlayacaq və onlara deyəcəkdi: siz özünüz etiraf edirsiniz ki, bu büt heç bir hərəkət etmək iqtidarında deyil. Bəs onda nəyə görə onlara ibadət edirsiniz? Məclisdəkilər İbrahimin(ə) sözlərini eşitdikdən sonra vicdanlarına müraciət edib özlərini zülümkar (özlərinə zülm edən) adlandırırlar. Quran bu həqiqəti belə açıqlayır: ***«Bunun nəticəsində onlar (ağıllarını başlarına yığıb) öz-özlərinə müraciətlə: «Siz, doğrudan da zalimlərsiniz (dilsiz-ağılsız, heç özlərini belə qorumağa qadir olmayan bütlərə tapınmaqla özünüz-özünüzə zülm edirsiniz)-dedilər.»***[1] Buradan başa düşmək olar ki, peyğəmbərlər təbliğat zamanı yalnız məntiqə, dəlil-sübuta əsaslanırlar-mış. Sadəcə hər dövrün özünəməxsus məntiq forması var imiş. Yoxsa bir neçə taxta bütü sındırmaqdan ötrü İbrahim(ə) canını nəyə görə təhlükəyə atmalı idi.

3. İbrahim(ə) bu işin onun həyatının sonu ilə nəticələnəcəyini bilirdi. Buna görə də o, çox narahat olmalı, zarafatyana sözlərindən əl çəkməliydi. Anaq o həzrət, bütxanaya girdkidə sanki zarafat edirmiş kimi, istehzalı şəkildə bütlərə yemək təklif edir. Sonra isə bütləri sındırıb bütxananın ortasına toplayır. Ancaq İbarhimdə(ə) qətiyyən narahatçılıq yoxdur. Sanki bu işin ardınca heç ölüm hökmü veril-məyəcək. Mühakimə zamanı hakimlərin sualına verdiyi: «Bu mənim işim deyil, onları böyük büt sındırıb, gedin ondan soruşun!» cavabı hər şeyi göz önünə almış, heç nədən qorxmayan adamın cavabıdır. Daha maraqlısı odur ki, İbrahimi(ə) sapand daşına qoyub uzaqdan oda atdıqda, bir neçə dəqiqədən sonra üzərindən quşun da uça bilmədiyi tonqala düşəcəyinə əmin olmasına baxmayaraq havada gələrkən həzrət Cəbrayıl(ə) ondan soruşur ki, bir istəyin varmı? İbrahim(ə) cavab verir ki, bəli, var, ancaq səndən yox, Allahımdan.[2] Bu cavab İbrahimin(ə) necə böyük ruha sahib olduğunu göstərir.

---

[1] Ənbiya-64
[2] Uyuni əxbarir-Rza, s-136; Əmali, s-274; Biharul-ənvar, c-12, s-35

Nəmrud tonqaldan bir neçə mil məsafədə yerləşən sarayında oturub İbrahimin(ə) odda yanmasını səbirsizliklə gözləyirdi. Sapand daşı hərəkətə gəlib İbrahimi(ə) oda tərəf tulladı. Ancaq Allahın istəyi ilə bu süni cəhənnəm gülüstana çevrildi. Hamı çaş-baş qalıb bu mənzərəni seyr edirdi. Axırda Nəmrud özündən ixtiyarsız olaraq üzünü Azərə tutub dedi: «İbrahim öz Allahının yanında çox hörmətlidir.»[1]

Tonqalın gülüstana çevrilməsi Allahın əmrinə əsasən oldu. Oda yandırmaq, Günəşə saçmaq, Aya işıqlandırmaq qabiliyyəti vermiş Allah həmin qabiliyyəti onlardan ala da bilər.

Bütün bu baş verənlərdən sonra yenə də İbrahim(ə) rahat şəkildə təbliğat apara bilmədi. Axırda yerli hökümət onu sürgün etmək qərarına gəlir. Bu isə İbrahimin(ə) həyatında yeni bir səhifənin açılması demək idi. Beləliklə, o, Şam, Fələstin, Misir və Hicaz torpaqlarına köçməyə hazırlaşır.

***İbrahim(ə) peyğəmbərin mühacirəti***

Babil məhkəməsi tərəfindən İbrahimin(ə) sürgün edilməsi hökmü verildikdən sonra o həzrət doğma vətənindən Fələstin və Misir torpaqlarına köçmək məcburiyyətində qalır. İbrahimi(ə) oralarda hakimiyyətdə olan Əmaliqə tayfaları çox mehriban qarşılayır, ona xeyli hədiyyələr verirlər. Verilmiş hədiyyələr arasında Hacər adlı bir kəniz də var idi.

İbrahimin(ə) həyat yoldaşı Saranın o vaxtadək uşağı olmamışdı. O, yoldaşına təklif edir ki, uşağı olsun deyə, Hacərlə evlənsin. İbrahim(ə) də bu təklifi qəbul edir. Bir müddət sonra Hacərin bir oğlu olur. Uşağın adını İsmail qoyurlar. Çox çəkmir ki, Allahın mərhəməti sayəsində Sara da hamilə qalır. Doğulan körpəyə İshaq adı verilir.[2]

Bir müddət keçdikdən sonra İbrahim(ə) Allah tərəfindən İsmaili(ə) anası Hacərlə birlikdə Cənub tərəfə (Məkkəyə) aparıb gözdən uzaq bir dərədə yerləşdirmək əmri alır. Orada heç bir yaşayış yox idi. Yalnız Məkkədən Yəmənə get-gəl edən ticarət karvanları arabir həmin yerdə istirahət edirdi. Ora susuz, quraq bir yer idi. Əmaliqə tayfası arasında yaşamış bir qadın üçün belə bir qorxulu yerdə yaşamaq olduqca çətin

---

[1] Təfsiri Burhan, c-3, s-64

[2] Sədus-suud, 41-42; Biharul-ənvar, c-12, s-118

idi. Səhranın yandırıcı istisi Hacərin gözləri önündə ölümü canlandırırdı. İbrahim(ə) özü də bundan çox əndişələnirdi. O, miniyin yüyənindən yapışıb gözlərindən yaş sel kimi axa-axa arvad-uşağından ayrılmaq istərkən Hacərə deyir: «Hacər, bütün bunlar Allahın istəyinə əsasəndir. Allahın istəyindən qaçmaq olmaz. Allaha arxalan və əmin ol ki, O bizi xar etməyəcək.» Sonra xüsusi diqqətlə üzünü Allaha tutub buyurdu: ***«Ey rəbbim, buranı bəladan asudə (uzaq) bir şəhər et, əhalisinin Allaha və axirət gününə inananlarına cürbəcür meyvələrdən ruzi ver!».***[1] Təpədən üzüaşağı endikdə çevrilib arxaya baxaraq onlar üçün Allahdan mərhəmət dilədi.

Bu səfər ilk baxışda çox çətin görünsə də sonradan böyük nəticələr doğurduğu məlum oldu. Çünki Kəbə evinin tikilib oradan tövhid səsinin ucalması, sonuncu peyğəmbərin məhz orada zühur edəcəyi bu səfərin nəticələrindən olmuşdur.

***Zəmzəm quyusunun aşkar olması***

İbrahim(ə) arvad-uşağından ayrılıb getdikdən sonra çox çəkmir ki, onların özləri ilə götürdüyü yemək azuqəsi qurtarır. Hacərin döşlərindən süd də kəsilmişdi. Körpənin halı get-gedə pisləşirdi. Anası isə göz yaşlarını saxlaya bilmirdi. Birdən yerindən qalxıb səfa dağına tərəf getməyə başlayır. Uzaqdan Mərvə dağı tərəfindən gözünə su sataşdı. Dərhal suya tərəf qaçmağa başladı. Yetişdikdə bunun ilğım olduğunu anlayıb təəssüfləndi. Səfa və Mərvə dağları arasında bu hadisə yeddi dəfə təkrarlandı. Axırda hər yerdən ümidi üzülmüş ana kor-peşman oğlunun yanına qayıdır.

Uşağın nəfəsi sayılmağa başlamışdı. Artıq ağlamğa da halı qalmamışdı. Məhz bu anda İbrahimin(ə) duası qəbul edildi. Hacər oğlunun ayaqları altından su axdığının şahidi olur. Az sonra oğlunun gözlərinin əbədi yumulacağını qət etmiş ana üçün bundan böyük sevinc ola bilməzdi. Hacərin sevincinin həddi-hüdudu yox idi. Axan sudan Hacər də, İsmail(ə) də doyunca içdilər.[2]

---

[1] Bəqərə-126

[2] Təfsiri-Qummi, s-52

O gündən etibarən «Zəmzəm» adlanan bu quyunun çıxmasından sonra həmin məntəqənin üzərində quşlar uçuşmağa başladı. Oradan xeyli aralıda yaşayan Cərhəm qəbiləsi quşların uçuşundan su tapıldığına əmin oldu. Məsələni öyrənmək üçün iki nəfəri oraya göndərdilər. Onlar xeyli gəzdikdən sonra gəlib Hacərlə İsmaili gördülər. Qayıdıb gördüklərini qəbilə başçısına danışdılar. Bundan sonra Cərhəm qəbiləsi çadırlarını Zəmzəmin ətrafında qurmağa başladılar. Artıq Hacərlə İsmail tənha deyildilər. Yavaş-yavaş İsmail(ə) böyüyür, yetkinlik yaşına çatır. Cərhəm qəbiləsindən qız alaraq onlarla münasibətlərini daha da möhkəmləndirir. Buna görə də İsmailin(ə) övladları ana tərəfdən Cərhəm qəbiləsinə gedib çıxır.

***İbrahim(ə) İsmailin(ə) görüşünə gəlir***

İbrahim(ə) əziz oğlunu anası ilə birlikdə Məkkədə qoyub getdikdən sonra arabir onların görüşünə gəlirdi. Bir dəfə Məkkəyə gələrkən (bəlkə də bu, onun birinci səfəri idi) İsmailin evinə daxil olub onu evdə görmədi. İsmail(ə) o vaxt artıq böyüyüb ailə də qurmuşdu. İbrahim(ə) gəlinindən oğlunun harada olduğunu soruşduqda gəlin İsmailin(ə) ova getdiyini bildirir. İbrahim(ə) ondan yemək olub-olmadığını soruşdu. Gəlin bir qədər sərt şəkildə «yox» cavabı verdikdə İbrahim(ə) bu sərtlikdən narahat olub, gəlinə deyir: «İsmail evə döndükdə məndən salam çatdır və de ki, evinin sütununu dəyişsin». Bunu deyib Məkkəni tərk edir.

İsmail(ə) ovdan qayıtdıqda atasının iyini hiss edir. Arvadının dediklərindən gələn şəxsin atası olduğuna əmin olur. Onu da başa düşür ki, atası «evinin sütununu dəyişsin» deməklə arvadını boşamasını istəmişdir. Çünki belə bir qadının ona arvadlıq etməyə ləyaqəti yoxdur.[1]

Qarşıya belə bir süal çıxa bilər ki, İbrahim(ə) o qədər yol gəlib İsmaili(ə) evdə görmədikdə nəyə görə bir qədər dayanıb onun gəlişini gözləmir və oğlunu görmədən geri dönür? Tarixçilərin yazdığına görə, İbrahim(ə) belə tələsik gəlib getməsi Saraya verdiyi söz üçün olmuşdur. O, sözünün üstə dursun deyə, Məkkədə çox dayanmır.

[1] Biharul-ənvar, c-12-112

İbrahim(ə) növbəti dəfə Allah tərəfindən Məkkəyə getmək əmri alır. Bu dəfəki səfərdən məqsəd həzrət Nuhun(ə) tufanında uçulub dağılmış Kəbəni təmir etmək idi.

Quranın verdiyi məlumata əsasən, Məkkə İbrahimin(ə) ömrünün son vaxtlarında, Kəbə evi təmir edildikdən sonra artıq şəhər halını almışdı. İbrahim(ə) Kəbəni təmir edib işi bitirdikdən sonra Allaha belə dua edir: ***«Ey Rəbbim! Bu şəhəri (Məkkəni) əmin-amanlıq yurdu et! Məni və oğullarımı bütlərə tapınmaqdan uzaq elə!»***[1] Halbuki Məkkəyə ilk dəfə getdiyi zaman (arvad-uşağını orada qoyarkən) belə dua etmişdi: ***«İlahi, buranı bəladan uzaq bir şəhər et!»***[2]

Yaxşı olardı ki, mövzunun təkmil olması üçün kəbənin tikilməsi və onun qısa tarixi haqda danışaq. Lakin mövzumuz ayrı şey olduğundan İslam peyğəmbərinin əcdadları arasında adı tarixə düşənlər barədə bəhs etmək istəyirik.

### 2. *Qüseyy ibn Kilab*

Həzrət Mühəmmədin(s) əcdadları aşağıdakı ardıcıllıqladır: Abdullah, Əbdülmüttəlib, Haşim, Əbdmanaf, Qüseyy, Kilab, Mərrə, Kəb, Luva, Qalib, Fəhr, Malik, Nəzr, Kənanə, Xüzeymə, Müdrikə, Əlyəs, Muzirr, Nizar, Məədd, Ədnan.[3]

Həzrət peyğəmbərin(s) əcdadları Məədd İbn Ədnana qədər məhz qeyd etdiyimiz ardıcıllıqladır. Ədnandan İsmail(ə) peyğəmbərə qədər isə mübahisəlidir. İbn Abbasın Peyğəmbərdən(s) nəql etdiyi hədisdə bildirilir: «Əcdadımı sayarkən Ədnandan o tərəfə keçməyin.»

Adı çəkilən şəxslər ərəb tarixində mühüm rol oynamışlar. İslam tarixinin isə bəziləri ilə bilavasitə əlaqəsi vardır. Buna görə də yalnız Qüseyydən başlayaraq Abdullaha qədər olanlar haqqında qısaca məlumat verəcəyik.

Qüseyy Peyğəmbərin(s) dördüncü babasıdır. Anası Fatimə, Kilab qəbiləsindən olan Kilaba ərə gedir. Onun Zöhrə və Qüseyy adlı iki uşağı olur. Qüseyy hələ bələkdə ikən atası vəfat edir. Fatimə sonra Rəbiə adlı

---

[1] İbrahim-35

[2] Bəqərə-126

[3] Əl-Kamilu fit-tarix, c-2, s-1-21

kişi ilə ailə qurub onunla birlikdə Şama gedir. Qüseyy ilə Rəbiənin qəbiləsi arasında ixtilaf yaranana qədər Rəbiə Qüseyyə atalıq edir. Yaranmış ixtilafdan sonra Rəbiə Qüseyyi himayəsindən çıxarır. Fatimə məcbur olub Qüseyyi Məkkəyə qaytarır. O, şəxsi bacarıqları sayəsində qısa müddət ərzində məkkəlilərin, xüsusilə Qüreyş qəbiləsinin diqqətini özünə cəlb etməyi bacarır. Çox çəkmir o, yüksək vəzifələrə-Məkkə rəhbərliyinə və  Kəbənin açarlarını saxlamaq şərəfinə nail olur. O, Məkkədə bir sıra yeniliklər edir. Belə ki, camaatı Kəbə ətrafında evlər tikməyə təhrik edir, Məkkə böyükləri bir yerə toplaşıb problemlərini həll etmək üçün Darun-nüdvə adlı məsləhətləşmə yeri tikdirir. Qüseyy beşinci əsrdə vəfat etmiş özündən sonra Əbdüddar və Əbdmanaf adlı iki oğlu qalır.

***3. Əbdmanaf ibn Quseyy***

Peyğəmbərin(s) üçüncü babası sayılan Əbdmanafın əsl adı Mügeyrə, ləqəbi isə Qəmərül-Bətha olmuşdur. O, qardaşı Əbdüddardan kiçik olsa da, camaatın yanında xüsusi hörməti var idi. Camaatı təqvalı olmağa, bir-biri ilə xoş ünsiyyət qurmağa, qohumluq əlaqələrini möhkəmləndirməyə çağırırdı. Bu işləri ilə o, heç də Kəbə rəhbərliyini qardaşının əlindən almağa çalışmırdı. Atasının vəsiyyətinə əsasən rəhbərlik Əbdüddarın ixtiyarında idi. Lakin hər iki qardaş vəfat etdikdən sonra onların övladları arasında rəhbərlik üstündə mübahisə yaranır. Çox müzakirələrdən sonra vəzifə bölgüsü məsləhət görülür. Belə qərar qəbul edilir ki, Kəbə və Darun-nüdvəyə rəhbərlik Əbdüddarın övladlarının, hacılara su paylanılması və onların yerləşdirilməsi isə Əbdmanafın övladlarının ixtiyarında olsun. Bu vəzifə bölgüsü İslam dini meydana gələnədək davam etmişdir.

***4. Haşim ibn Əbdmanaf***

Peyğəmbərin(s) ikinci babası Haşimin əsl adı Əmr, ləqəbi isə Əla olmuşdur. O, Əbdüşəmslə əkiz doğulmuşdur. Digər iki qardaşının adı Müttəlib və Nofəl idi.

Tarixçilərin dediyinə görə Haşimlə Əbdüşəms əkiz olmuşlar. Onlar anadan olarkən Haşimin barmağı qardaşı Əbdüşəmsin alnına yapışıq

vəziyyətdə imiş. Onları bir-birindən ayırarkən qanaxma baş vermiş, camaat da bunu (gələcəkdə bunların övladları arasında qan düşəcəyi) kimi pis yerə yozmuşdur.[1] Hələbi yazır: «Bu pis yozum öz nəticəsini göstərir. Belə ki, Haşim övladlarından olan Bəni-Abbasla Əbdüşəms övladlarından olan Bəni-Üməyyə arasında qanlı toqquşmalar baş vermişdir».[2]

Maraqlıdır, sanki Hələbi, Əli(ə) övladlarının Bəni-Üməyyə tərəfindən haqsız yerə öldürüldüklərindən xəbərsiz imiş. Bütün bunlar bu iki tayfa arasındakı qan düşmənçiliyinin bariz nümunəsidir. Bəs görəsən nəyə görə Hələbi bu haqda heç nə yazmayıb?

Əbdümanaf övladlarını başqalarından fərqləndirən cəhət o olmuşdur ki, onların dördü də müxtəlif yerlərdə vəfat etmişlər. Haşim Qəzvədə, Əbdüşəms Məkkədə, Nofəl İraqda, Müttəlib isə Yəməndə dünyasını dəyişmişdir.[3]

Haşimin əxlaqi nümunələrindən biri də o olmuşdur ki, zilhiccə ayının hilalı göründükdə o sübh çağları Kəbəyə gələrək Kəbə divarına söykənib, aşağıdakı məzmunda bir xütbə oxuyarmış: «Ey Qüreyş camaatı! Siz ərəblər arasında ən nəcib və ağıllı adamlarsınız. Allah sizi Öz evinin kənarında yerləşdirib. Bu şərəf İsmail(ə) övladlarından yalnız sizə qismət olub. Ey mənim qövmüm! Bu ay Allah evinin zəvvarları böyük həvəslə buraya gələcəklər. Onlar Allahın qonaqlarıdırlar. Onlara qulluq etmək sizin boynunuza düşür. Onların arasında (uzaq yerlərdən gələn) çoxsaylı imkansızlar var. And olsun bu evin sahibinə, mənim Allah qonaqlarının hamısını qəbul etməyə imkanım olsaydı, heç vaxt sizdən kömək istəməzdim. Halal yolla qazandığım bütün əlimdə olanı bu yolda xərcləyəcəyəm. Sizi and verirəm bu evin hörmətinə kimsə haramdan qazandığı pulu bu yolda xərcləməsin, qonaqlara riyakarlıq üzündən xidmət etməyin. Kimsə zəvvarlara xidmət etməyə məcbur edilə bilməz. Hər kim bu işdə həmkarlıq etmək istəmirsə, buyurub gedə bilər»[4]

[1] Tarixi Təbəri, c-2, s-13
[2] Sireyi Hələbi, c-1, s-5
[3] Sireyi Hələbi, c-1, s-5
[4] Sireyi Hələbi, c-1, s-6-7

Haşimin rəhbərlik etməsi məkkəliləri hərtərəfli qane edirdi. O, maddi vəziyyətinin yaxşılaşmasında, çox böyük işlər görmüşdür. Qəhətlik illərində onun səxavəti sayəsində camaat əziyyət nə olduğunu bilmirdi.

Məkkəlilərin ticarət sahəsindəki fəaliyyətlərinin genişləndirilməsi zəminində həyata keçirdiyi işlərdən biri də Haşimin Qəssanilər hökmdarı ilə bağladığı müqavilə olmuşdur. Onun bu hərəkəti qardaşı Əbdüşəmsin Həbəşistan əmiri, digər iki qardaşı Müttəlib və Nofəlin isə Yəmən əmiri və İran hökümdarı ilə sərbəst ticarət etmək haqqında anlaşma imzalamalarına səbəb oldu. Bu anlaşmalar bir çox problemləri həll edib Məkkə bazarlarını xeyli canlandırır. Bu vəziyyət İslam dini meydana gələnədək davam etmişdir.

Haşimin təqdirəlayiq işlərindən biri də o idi ki, Qüreyş tacirlərinin yay mövsümündə Şama, qış mövsümündə isə Yəmənə ticarət səfərlərini səxsən özü tənzimləyirdi.

***Üməyyə ibn Əbdşəmsin paxıllığı***

Haşimin qardaşı oğlu Üməyyənin öz əmisinin şan-şöhrətinə paxıllığı tutur və riyakarlıq üzündən etdiyi səxavətlərlə onu camaatın gözündən salmağa çalışırdı. Onun bu səyləri Haşimin şan-şöhrətini, hörmətini daha da artırdı.

Üməyyə paxıllıqdan od tutub yanırdı. Axırda əmisini ərəb kahinlərinin yanına gedərək onların seçiminə tabe olmağa məcbur edir. Belə ki, kahinlər onların zahiri görkəmlərinə əsasən hansını bəyənsəydilər, hakimiyyət onun ixtiyarında olacaqdı. Haşim qardaşı oğlu ilə qətiyyən mübahisə etmək niyyətində deyildi. Lakin Üməyyənin israrı nəticəsində bu işə razılıq verir. Üməyyə iki şərt qoyur:

1. Məğlub olacaq şəxs həcc mövsümündə yüz baş qaragözlü dəvə qurban kəsəcək.
2. Məğlub olacaq şəxs on il Məkkədən kənarda yaşayacaq.

Haşimlə Üməyyə Əsfan kahininin yanına gedirdilər. Kahinin gözü Haşimə sataşcaq onu tərifləməyə başlayır. Şərtlərə əsasən Üməyyə on il Məkkədən çıxıb Şamda yaşamalı olur.[1]

[1] Əl-Kamilu fit-tarix, c-2, s-10

Bu irsi paxıllığın nəticəsi 130 il davam edir, tarixdə misli görünməmiş cinayətlərə səbəb olur. Bu hadisə iki nəsil arasında gedən ədavəti göstərməklə yanaşı, Əməvilər sülaləsinin Şamdakı nüfuzunun səbəblərini açıqlayır. Məlum olur ki, Əməvilərin Şam əhalisi ilə köhnə münasibətləri, bu bölgələrdə Əməvilər hakimiyyətinin qurulmasına əlverişli şərait yaradırmış.

***Haşimin evlənməsi***

Əmr Xəzrəcinin qızı Səlma çox nəcabətli bir xanım idi. Ərindən ayrıldıqdan sonra heç kimə ərə getməyə razılıq verməmişdi. Haşim Şama etdiyi səfərlərdən birində, qayıdarkən bir neçə günlük Yəsribdə (Mədinədə) dayanası olur. Bu zaman o, Səlmaya elçilik edir. Haşimin Qüreyş arasındakı şan-şöhrəti, mal-dövləti, mərdliyi Səlmanın diqqətini cəlb edir və iki şərtlə ona ərə gedəcəyinə razılıq verir. Şərtlərdən biri o idi ki, doğuş zamanı öz qəbiləsinin yanında olacaq. Bu şərtə əsasən Səlma bir müddət Haşimlə Məkkədə qaldıqdan sonra, doğuş ərəfəsində Yəsribə qayıdır. Onun doğduğu oğlana Şeybə adı qoyulsa da camaat arasında Əbdülmüttəlib kimi tanınır. Onun bu cür tanınmasını tarixçilər belə izah edirlər. «Haşim ömrünün son anlarında qardaşı Müttəlibi yanına çağırıb deyir: «Qardaş nökərin Şeybədən göz-qulaq ol!» Haşim oğlu Şeybəni Müttəlibin nökəri adlandırdığına görə camaat arasında Əbdülmüttəlib (Müttəlibin qulu) kimi tanınmışdır.»

Başqa bir rəvayətdə deyirlər ki, bir gün Məkkəli bir kişi Yəsrib küçələrindən keçərkən uşaqların ox atma yarışı keçirdiklərini görür. Yarışın qalibi olmuş uşaq dərhal deyir ki, mən Məkkə ağasının oğluyam. Məkkəli şəxs irəli gedib onun kim olduğunu soruşduqda uşaq deyir: mən Əbdümanaf oğlu Haşimin oğluyam. Məkkəli kişi Yəsribdən Məkkəyə qayıtdıqdan sonra əhvalatı Haşimin qardaşı Müttəlibə danışır. Əmisi qardaşı oğlunun qayğısına qalıb Yəsribə gedir. Uşağı gördükdə gözləri önündə qardaşı canlanan Müttəlibin ixtiyarsız olaraq gözlərindən yaş axmağa başlayır. Əmi-qardaşoğlu qol-boyun olub qucaqlaşırlar. Uşağın getməsinin qarşısını almaq istəyən anasının müqaviməti əminin cəsarətini bir qədər də artırır. Nəhayət, Şeybənin anasından icazə alıb onu Məkkəyə aparmağa razı saldıqdan sonra

Müttəlib öz istəyinə çatır. Şeybəni atın tərkinə mindirib Məkkəyə doğru hərəkət edir. Yol boyu Ərəbistanın qızmar günəşi uşağın gümüşü simasını, pal-paltarını yandırıb qaraldır. Məkkəyə çatdıqda camaat elə bilir ki, Müttəlib bu uşağı özü üçün nökər alıb gətirmişdir. Müttəlib dəfələrlə «bu, mənim qardaşım oğludur» desə də camaat bir-birinə «bu, Müttəlibin nökəridir» deyirdi. Beləliklə də Şeybə camaat tərəfindən Əbdülmüttəlib kimi tanınır.[1]

Bəzən də belə bir ehtimal irəli sürülür ki, o, əmisi Müttəlibin qucağında böyüyüb boya-başa çatmışdır. Ərəblər də tərbiyəçinin zəhmətlərinin qarşılığı olaraq elə şəxsləri tərbiyəçinin nökəri adlandırırmışlar.

### *5. Əbdülmüttəlib ibn Haşim*

Peyğəmbərin(s) ilk babası olan Əbdülmüttəlib qüreyşin başçısı olmuşdur. Onun hakimiyyət illəri İslam tarixinin başlanğıcı ilə bilavasitə əlaqədar olduğuna görə həyatındakı bəzi hadisələrə nəzər salacağıq.

Heç bir şübhə yoxdur ki, insanın ruhiyyəsi nə qədər böyük olursa-olsun, gec-tez mühitin adət-ənənəsinə öyrəşir və mühit onda öz təsirini qoyur. Ancaq elə insanlar da var ki, mühit onda qətiyyən təsir qoya bilmir və o, cəmiyyətdəki çirkinliklərdən özünü qoruyub saxlaya bilir. Əbdülmüttəlib də məhz belə şəxslərdən biri olmuşdur. Bütpərəstliyin, şərabxorluğun, sələmin, insan öldürməyin və daha nələrin baş alıb getdiyi bir mühitdə səksən ildən artıq yaşayıb bircə dəfə də olsun dilinə şərab vurmayan, camaatı da şərab içməkdən, sələmçilikdən, insan öldürməkdən, məhrəmlərlə evlənməkdən, lüt bədənlə təvaf etməkdən çəkindirən, ömrünün sonunadək əhd-peymanlarına sadiq qalan bir insan təbii ki, nadir tapılan nümunəvi şəxsdir. Bəli, sülbündə əziz peyğəmbərimiz (dünyanın ən böyük rəhbəri) əmanət olaraq saxlanılan insan bütün çirkinliklərdən uzaq olmalıdır.

Əbdülmüttəlibin dilindən nəql edilmiş qısa kəlamlardan aydın olur ki, o, günahın hakim olduğu mühitdə təkallahlıq əqidəsində və məada inananlardan olmuşdur. O, həmişə deyərmiş: «Zülmkar şəxs bu

[1] Əl-Kamilu fit-tarix, c-2, s-6; Tarixi Təbəri, c-2, s-8-9

dünayda öz əməlinin cəzasını çəkməlidir. Əgər bu dünyada da cəzalanmasa, o biri dünyada mütləq əməlinin cəzasına çatmalıdır».[1]

Hərb ibn Üməyyə Əbdülmüttəliblə qohum və Qüreyşin sayılıb seçilən adamlarından idi. Onun qonşuluğunda bir yəhudi yaşayırmış. Bir gün Təhamə bazarlarından birində bir yəhudi ilə Hərb arasında mübahisə yaranır və onlar bir-birinə nalayiq sözlər deyirlər. Hərbin təhriki nəticəsində yəhudi qətlə yetirilir. Bundan xəbər tutan Əbdülmüttəlib Hərblə əlaqələrini kəsir və yəhudinin ailəsinə çatdırmaq üçün qan pulunu ondan almağa çalışır. Bu, Əbdülmüttəlibin ədalət tərəfdarı olduğuna dəlalət edən bir sübutdur.

***Zəmzəm quyusunun qazılması***

Zəmzəm quyusu aşkar olduqdan sonra Cərhəm qəbiləsi onun ətrafında məskunlaşıb, uzun müddət Məkkədə hakimiyyətlərini davam etdirirlər. Lakin Məkkənin bir ticarət mərkəzinə çevrilərək camaatın güzəranının yaxşılaşması nəticəsində Cərhəmlilər yollarından çıxmağa başlayırlar. Bunun da nəticəsində Zəmzəm quyusu qurumağa başlayır.

Deyilənlərə görə Məkkədə yaşayan Cərhəm qəbiləsi Xüzaə qəbiləsi tərəfindən təhdid edildiyindən, Bəni-Cərhəm öz yurd-yuvasından köçüb getməyə məcbur olur. Cərhəm qəbiləsinin başçısı Məzaz ibn Əmr tezliklə düşmənin hücum edəcəyinə əmin olub əmr edir ki, Kəbəyə hədiyyə gətirilmiş iki qızıl ceyran və bir neçə qiymətli qılıncı, düşmənin əlinə keçməsin deyə, Zəmzəm quyusuna atıb üstünü örtsünlər. Əgər nə vaxtsa Cərhəm qəbiləsi yenidən Məkkəyə qayıdardısa, yenidən onları quyudan çıxara bilərdilər. Bir qədər sonra Xüzaə qəbiləsinin hücumları başlayır. Cərhəm qəbiləsi və İsmail(ə) övladlarından bir çoxu Məkkədən çıxıb bir daha geri dönmədilər. O vaxtdan etibarən Məkkə hakimiyyəti Xüzaə qəbiləsinin əlinə keçir. Nəhayət, (Peyğəmbərin(s) dördüncü babası) Qüseyy ibn Kilab iş başına gəlməklə tale Qüreyşin üzünə gülür. Bir xeyli keçdikdən sonra Əbdülmütəllib hakimiyyət başına gəlir. O, Zəmzəm quyusunu yenidən qazmaq fikrinə düşür. Ancaq quyunun əsl yeri məlum deyildi. Uzun-uzadı aparılan qazıntılardan sonra axır ki,

---

[1] Sireyi Hələbi, c-1, s-4

Zəmzəmin əsl yeri tapılır. Əbdülmüttəlib oranı oğlu Harislə birlikdə şəxsən özü qazmaq qərarına gəlir.

Hər bir qəbilədə boşboğaz və yaxşı işlərin qarşısını almağa çalışan adamlar olur. Bu baxımdan Qüreyş də istisna edilmirdi. Əbdülmüttəlibin rəqibləri bu şərəf ona nail olmasın deyə, ona etiraz edərək bildirdilər: «Ey Qüreyş başçısı! Bu quyu céddimiz İsmailin(ə) yadigarıdır. Biz hamımız onun övladları sayıldığımız üçün bu işdə hamımız iştirak etməliyik.»

Əbdülmüttəlib müəyyən səbəblər üzündən onların təklifini qəbul etmir. O istəyirdi ki, quyunu təkbaşına qazmaqla oradan çıxacaq suyu təmənnasız camaatın istifadəsinə versin. Həm də Allah evini ziyarətə gələnlərin su ilə təmin edilməsində heç bir problem yaranmasın. Bu isə onun, yalnız quyunu təkbaşına qazacağı təqdirdə müyəssər ola bilərdi. Ancaq etiraz edənlər də öz istəklərindən dönmək fikrində deyildilər. Belə qərara gəldilər ki, ərəb kahinlərindən birinin yanına gedib onun verəcəyi hökmlə razılaşsınlar. Əbdülmüttəliblə rəqibləri səfər tədarükünü görüb yola çıxırlar. Hicazla Şam arasındakı susuz səhralar bir-bir arxada qalırdı. Yolun yarısında susuzluq onları artıq əldən salmışdı. Demək olar ki, hamı ölümünü göz önünə almışdı. Əbdülmüttəlib təklif edir ki, hərə özü üçün qəbir qazsın. Əgər susuzluq bu minvalla davam edərsə, hamı öləcək, əvvəlcə öləni sağ qalanlar dəfn edəcəklər. Beləcə, sonuncu öləcək şəxs istisna olmaqla onların cənazələri qurd-quşa yem olmayacaq.

Əbdülmüttəlibin təklifini hamı bəyənir və hərə özü üçün qəbir qazır. Bir-birinin üzünə qəmli baxışlarla baxıb ölümü gözləyirdilər. Birdən Əbdülmüttəlib ayağa qalxaraq deyir ki, hamımız qalxıb səhranın müxtəlif yerlərində su axtarmağa başlayaq. Bəlkə Allah öz mərhəmətini bizlərə göstərəcək. Hamı miniyinə minib su axtarmağa başlayır. Bir qədər sonra bir bulağa rast gəldilər. Yüzfaizlik ölümdən yaxa qurtarmış rəqiblər gəldikləri yolla Məkkəyə qayıdıb quyunun qazılmasında Əbdülmüttəlibin fikri ilə razılaşdılar. Bu məsələdə Əbdülmüttəlib mütləq ixtiyar sahibi olur.[1]

---

[1] Tarixi Yəqubi, c-1, s-206

Əbdülmüttəlib yeganə oğlu Harislə birlikdə quyunu qazmağa başlayır. Bir qədər qazdıqdan sonra quyudan iki qızıl ceyran və bir neçə qiymətli qılınc çıxır. Qüreyş nümayəndələri bu dəfə də böyük səs-küy qaldırıb aşkar edilmiş qiymətli əşyalara şərik olduqlarını bildirirlər. Axırda belə razılığa gəlirlər ki, məsələnin həlli üçün püşk atılsın. Püşkün nəticəsinə görə iki qızıl ceyran Kəbənin, qiymətli qılınclar isə Əbdülmüttəlibin payına düşür. Qüreyş nümayəndələrinə isə heç nə çatmır. Səxavəti dillər əzbəri olmuş Əbdülmüttəlib payına düşən qılınclardan Kəbə evi üçün bir qapı düzəltdirib qızıl ceyranları da onun qarşısından asdırır.

***Əbdülmüttəlibin öz əhdinə sadiq qalması***

Cahiliyyət dövr ərəbləri arasında mənəvi pozğunluğun baş alıb getməsinə rəğmən onların bir bəyənilən xüsusiyyətləri də var idi. Məsələn, əhdi pozmaq ən pis əməllərdən sayılırdı. Bəzən onlar çox çətin əhdlər bağlayır və ömürlərinin sonuna qədər ona sadiq qalırdılar. Və yaxud olduqca böyük nəzirlər edir, nəyin bahasına olursa olsun, ona əməl edirdilər.

Əbdülmüttəlib Zəmzəm quyusunu qazarkən vur-tut bir övladı olduğuna görə çox çətinlik çəkir. Buna görə də nəzir edir ki, nə vaxt uşaqlarının sayı ona çatarsa, birini Kəbə kənarında qurban kəsəcək. Özü də bu nəzir barədə heç kimə məlumat vermir. İllər ötüb keçir, Əbdülmüttəlibin uşaqlarının sayı ona çatır. İndi o, öz nəzrinə əməl etməli idi. Bu nəziri həyata keçirmək olduqca çətin idi. Ancaq Əbdülmüttəlib nəzrinə əməl etməməklə əhdini pozanlar sırasına düşməkdən qorxurdu. Axırda, o, belə qərara gəlir ki, məsələni övladlarına açıb danışsın. Onların razılığını aldıqdan sonra püşk yolu ilə seçim etsin. O, uşaqlarının razılığını aldıqdan sonra püşk atır. Püşk Abdullahın (həzrət Peyğəmbərin atasının) adına çıxır. Əbdülmüttəlib dərhal onun əlindən tutub qurbangaha doğru aparır. Bütün Qüreyş əhli, kişili-qadınlı, hamı Əbdülmüttəlibin nəzir etməsindən və püşk atmasından xəbərdar olur. Gənclərin gözündən yaş sel kimi axırdı. Hətta «kaş bu gəncin yerinə məni kəsəydilər!» deyənlər də var idi. Qüreyş böyükləri də öz növbələrində bildirirdilər ki, əgər nəzri malla,

pulla dəyişmək mümkündürsə, biz mal-dövlətimizin hamısını onun yolunda verməyə hazırıq. Əbdülmüttəlib camaatın bu hissləri qarşısında heyran qalmış və nəzrinə sadiq qalmayacağından ehtiyat edirdi. Ancaq yenə də çıxış yolu fikirləşirdi. Birdən izdiham arasından kimsə dilləndi: «Bu işdə ərəb kahinlərindən birinə müraciət edin! Bəlkə o, bir çıxış yolu göstərdi.» Əbdülmüttəlib və Qüreyş böyükləri bu təkliflə razılaşıb Yəsrib istiqamətinə gedirlər. Kahinin yanına çatıb onu məsələdən xəbərdar etdikdə kahin onlardan bir gün möhlət istəyir. Növbəti gün kahin onlardan soruşdu: «Siz tərəflərdə bir insanın qan bahası nə qədərdir?» Cavab verdilər ki, on baş dəvə. Kahin dedi: «Elə isə on dəvə ilə qurban kəsilmək üçün seçilmiş şəxs arasında püşk atın. Əgər püşk yenə də onun adına çıxarsa, dəvələrin sayını iyirmiyə qaldırın. Püşk təkrarən həmin şəxsin adına çıxarsa, dəvələri otuza qaldırın. Bu minvalla püşk dəvələrin adına çıxana qədər dəvələrin sayını on-on artırın!»

Camaat kahinin təklifindən çox məmnun qaldı. Çünki Abdullah kimi bir gəncin öz qanı içərisində çabaladığını görməkdənsə yüzlərlə dəvəni onun əvəzinə kəsmək çox rahat idi. Nümayəndələr Məkkəyə qayıtdıqdan sonra bir gün bütün camaatın iştirakı ilə püşk atma mərasimi keçirilir. Dəfələrlə püşk atılsa da həmişə Abdullahın adı çıxırdı. Yalnız dəvələrin sayının yüzə çatdığı onuncu cəhddə püşk dəvələrin adına çıxır. Camaat hamı sevinc içərisində idi. Birdən Əbdülmüttəlib püşkün təkrar atılmasını tələb edərək deyir ki, mən Allahın bu işdən razı qaldığına əmin olmalıyam. Püşk üç dəfə təkrarlandı və hər üç dəfədə dəvələrin adına çıxdı. Ondan sonra Əbdülmüttəlibdə Allahın, Abdullahın əvəzinə yüz dəvə qurban kəsilməsinə razı olduğuna arxayınlıq yarandı. O, dərhal göstəriş verir ki, onun şəxsi dəvələrindən yüz baş tutub Kəbə kənarında qurban kəssinlər. Özü də həmin dəvələrin ətindən yeməyi nə bir insana, nə də bir heyvana qadağan etməsinlər.[1]

[1] Sireyi İbn Hişam, c-1, s-153; Biharul-ənvar, c-16, s-74-90

***Amul-fil hadisəsi***

Bir millətin həyatında baş verən böyük əhəmiyyətə malik hadisə həmin millətin tarix başlanğıcı götürülür. Məsələn, həzrət Musanın(ə) mübarizəsinin başlanması yəhudilərin, həzrət İsanın(ə) anadan olması xaçpərəstlərin, həzrət Mühəmmədin(s) hicrəti də müsəlmanların tarixinin başlanğıcı götürülmüşdür. Bəzən isə millətin əsas tarixi ola-ola hansısa əlamətdar hadisə də tarix kimi götürülür. Buna misal olaraq Böyük Fransa İnqilabı, sovetlər birliyində böyük Oktyabr inqilabını göstərmək olar. Cahiliyyat dövr ərəblərində isə doğru-dürüst bir mədəniyyət olmadığı üçün onlar bu və digər əlamətdar hadisələri özləri üçün tarix başlanğıcı kimi qəbul etmişlər. Buna görə də ərəb tarixində müxtəlif tarixi başlanğıclara rast gəlmək olar ki, bunların ən sonuncusu Amul-fil (fil ili) və Əbrəhənin Kəbəni dağıtmaq məqsədi ilə Məkkəyə hücumu olmuşdur. İndi gəlin həzrət Mühəmmədin(s) anadan olduğu 570-ci ildə baş vermiş bu böyük hadisənin mahiyyətini nəzərdən keçirək.

***Hadisənin baş vermə səbəbi***

«Fil süvariləri» əhvalatı Quranda çox qısa şəkildə göstərilmişdir. Hadisəni qeyd etdikdən sonra bu haqda olan ayələri oxucuların diqqətinə çatdıracağıq.

Tarixçilər hadisənin baş vermə səbəbini belə yazırlar: «Yəmən hökmdarı Zunəvas hakimiyyətini möhkəmlətdikdən sonra səfərlərindən birində Yəsribə yola düşür. O vaxt Yəsrib gözəl dini mövqeyə malik idi. Bir çox yəhudi oraya toplaşıb özləri üçün şəhərin müxtəlif yerlərində məbədlər düzəltmişdilər. Yəhudilər, hökmdarı çox səmimiyyətlə qarşılayıb, onu da yəhudiliyə dəvət etdilər ki, onun sayəsində Bizans xaçpərəstləri və ərəb bütpərəstlərinin hücumlarından amanda qalsınlar. Onların apardığı təbliğat öz nəticəsini verdi və Zünəvas yəhudiliyi qəbul etdi. O, yəhudiliyin inkişafında çox çalışdı. Kimlərsə canının qorxusundan yəhudi olmağa başladı, kimlərsə də onunla müxalif olduqlarına görə təzyiqlərə məruz qaldılar. Xaçpərəstliyi yenicə qəbul etmiş Nəcran əhalisi öz dinlərindən əl çəkib yəhudi olmağı qəbul etmədi. Onların bu hərəkətindən qəzəblənən Yəmən hökmdarı onları

qırmaq qərarına gəlir və bu məqsədlə Nəcrana yaxınlaşan ordu şəhərin dörd tərəfində xəndək qazıb böyük bir tonqal qalayır. Ordu başçısı müxalifləri yandıracağı ilə hədələsə də xaçpərəstəliyə cani-dildən bağlanmış nəcranlılar bundan qətiyyən çəkinmədilər. Beləliklə də onların hamısı odda yandırıldı».[1]

Görkəmli müsəlman tarixçisi İbn Əsir Cəzəri yazır: «Bu hadisədən yalnız Duvəs adlı bir nəcranlı canını qurtarıb özünü xaçpərəst Bizans imperatoruna çatdırır. O, hadisəni imperatora danışıb cinayətkarların cəzalandırılmasını və Yəməndə xristianlığın yayılmasını xahiş edir. Bizans imperatoru onun dərdinə şərik olub təəssüfləndiyini bildirərək deyir: «Mənim hökümət mərkəzim sizin yerlərdən çox uzaqdır. Ancaq bu haqsızlığın cavabını vermək üçün Həbəşistan kralı Nəcaşiyə xəbər göndərirəm ki, nəcranlıların intiqamını alsın. Nəcranlı şəxs imperatorun Nəcaşiyə yazdığı məktubu götürüb dərhal özünü Həbəşistana çatdırır. Baş verənləri olduğu kimi Nəcaşiyə danışır. Onun qeyrəti cuşa gəlib Əbrəhətül-Əşram adlı sərkərdənin başçılığı altında yetmiş minlik bir ordunu Yəmənə göndərir. Ordu dəniz yolu ilə Yəmən sahillərinə çıxıb orada düşərgə salır. Zünəvas nə qədər çalışsa da bir nəticəyə çatmır, qəbilə başçılarını mübarizəyə səsləsə də onlardan müsbət cavab ala bilmir. Həbəşistan ordusu kiçik bir hücumla onu taxtdan salıb Yəməni ələ keçirir. Ordu sərkərdəsi Əbrəhə, Həbəşistan kralı tərəfindən Yəmən hakimi təyin edilir.»

Əbrəhə qələbə qazandığına görə başı bir neçə gün əyləncəyə qarışır. O, Həbəşistan kralının rəğbətini qazanmaq məqsədilə Səna şəhərində olduqca əzəmətli bir kilsə tikdirir. Kilsə hazır olduqdan sonra Nəcaşiyə aşağıdakı məzmunda bir məktub yazır: «Kilsənin tikintisi başa çatmışdır. Yəmən əhalisini Kəbəni ziyarət etməyə getməkdən çəkindirib bu kilsəyə ziyarətə çağırmaq istəyirəm.» Məktubun məzmunu ərəb qəbilələri arasında pis əks-səda doğurur. Hətta gecələrin birində Bəni-Əfqəm qəbiləsindən olan bir qadın kilsəni nəcisə bulaşdırır. Əbrəhənin tikdirdiyi kilsəyə ərəb qəbilələrinin hörmətsizliyindən xəbər verən bu hadisə onu çox narahat edir. Üstəlik o, kilsəni nə qədər bəzəyirdisə,

[1] Əl-Kamilu fit-tarix, c-1, s-253

camaatın Kəbəyə rəğbəti bir o qədər artırdı. Bütün bunlar ona gətirib çıxarır ki, Əbrəhə Kəbəni yerlə yeksan edəcəyinə and içir. Bu məqsədlə o böyük bir ordu hazırlayır. Ordunun qarşısına döyüşkən fillər qoyulmuşdu. Ərəb qəbilə başçıları vəzəiyyətin gərgin olduğunu anlasalar da Əbrəhənin hücumuna qarşı hər hansı tədbir görməkdə aciz idilər. Bununla belə bəzi cəsarətli qəbilə başçıları ona müqavimət göstərirdilər. Yəmən zadəganlarından olan Zunəfər odlu çıxışları ilə öz qəbiləsini mübarizəyə səsləyir. Lakin Əbrəhənin ordusu onların sıralarını pərən-pərən salır. Onun ardınca Nüfeyl ibn Həbib mübarizəyə qalxır. Çox çəkmir ki, o da məğlub olur. Nüfeyl özü isə əsir düşür. O, Əbrəhədən bağışlanmasını xahiş edir. Əbrəhə ona deyir ki, bizə Məkkəyə getmək üçün bələdçilik edəcəyin təqdirdə səni əfv edərəm. Nüfeyl Əbrəhənin ordusunu Taifə qədər aparıb çıxarır. Qalan yolun bələdçiliyini də dostu Eyvərqala tapşırır. Yeni bələdçi ordunu Məkkə yaxınlığındakı Məğməsədək gətirir. Əbrəhə orada düşərgə salıb adəti üzrə ətrafdakı dəvələri qarət etməyi tapşırır. Qarət olunmuş dəvələrdən iki yüzü Əbdülmüttəlibə məxsus idi. Sonra Əbrəhə Hənatə adlı sərkərdəsini Məkkəyə göndərir ki, gedib onun məqsədini Qüreyş başçısına çatdırsın, Əbrəhə Hənatəyə deyir: «Gəlişimin məqsədi Kəbəni dağıtmaqdır. Bilirəm ki, Qüreyş qəbiləsi Kəbənin müdafiəsinə qalxıb müqavimət göstərəcək. Onların qanı axıdılmasın deyə, özünü dərhal Məkkəyə çatdır. Qüreyş başçısını tap və ona de ki, məqsədimiz Kəbəni dağıtmaqdır. Əgər müqavimət göstərməsəz, sizinlə heç bir işimiz olmayacaq.»

Əbrəhənin nümayəndəsi Məkkəyə daxil olub Qüreyş başçısını soraqlayır. Onu Əbdülmüttəlibin evinə gətirirlər. Əbdülmüttəlib Əbrəhənin göndərdiyi xəbəri dinləyib deyir: «Biz müqavimət göstərməyəcəyik. Kəbə Allahın evidir. Oranı İbrahim(ə) təmir edib. Allah nə istəyirsə, o da olacaq.» Əbrəhənin nümayəndəsi daxili imanından xəbər verən Əbdülmüttəlibin bu səmimi cavabından məmnun qalıb Əbdülmüttəlibdən onunla birgə Əbrəhənin düşərgəsinə getməsini rica edir.

***Əbdülmüttəlib Əbrəhənin düşərgəsində***

Əbdülmüttəlib bir neçə oğlunun müşayiəti ilə Əbrəhənin düşərgəsinə gedir. Əbrəhə Qüreyş başçısının əzəmətindən heyrətə gəlir. Hətta

öz yerindən qalxıb onun əlindən tutaraq öz yanında əyləşdirir. Sonra tərcüməçi vasitəsi ilə Əbdülmüttəlibdən gəlişinin səbəbini və nə istədiyini soruşur. Əbdülmüttəlib onun cavabında deyir: «Sənin ordun Təhamə dəvələrini qarət etmişdir. Dəvələrdən iki yüzü mənə məxsusdur. Sizdən xahişim odur ki, dəvələri sahiblərinə qaytarasınız!» Əbrəhə deyir: «İlk gördüyümdə nurani siman səni gözümdə dünyalar qədər ucaltmışdı. Ancaq bu kiçik istəyin səni gözümdən saldı. Mən gözləyirdim ki, sən Kəbə barədə söz açıb məni fikrimdən döndərməyə çalışacaqsan, sən isə gəlib məndən dəvələrini istəyirsən.» Əbdülmüttəlib onun cavabında tarixə qızıl hərflərlə yazılmış bircə cümlə buyurdu: «Mən dəvələrin sahibiyəm. Evin (Kəbənin) də onu təhlükələrdən qoruyacaq öz sahibi vardır». Əbrəhə etiraz əlaməti olaraq başını yelləyib məğrurcasına deyir: «Bu yolda heç kəs məni öz fikrimdən döndərə bilməz.» Sonra Əbrəhə qarət edilmiş dəvələrin sahiblərinə qaytarılmasını əmr edir.»

*Qüreyşin intizarı*

Qüreyş qəbiləsi səbirsizliklə Əbdülmüttəlibin hansı xəbərlə geri dönəcəyini gözləyirdi. Əbdülmüttəlib qayıtdıqda camaat deyir: «Arvad-uşağınızı, heyvanatınızı götürüb tez dağlara çəkilin ki, Əbrəhənin hücumuna məruz qalmayasınız!» Çox çəkmir bütün camaat ev-eşiyi boşaldıb dağa, dərəyə sığınır. Gecə bütün dağ-dərəni uşaqların, heyvanatın səsi bürümüşdü. Gecə yarısı Əbdülmüttəlib bir neçə nəfərlə birlikdə dağın başından aşağı enib özünü Kəbəyə çatdırır. Gözləri yaşarmış halda Kəbə qapısının halqasından yapışan Əbdülmüttəlib Allahla razu-niyaz edib aşağıdakı məzmunda bir neçə beyt oxuyur: «İlahi, onların şərrindən Səndən başqa bir sığınacaq yeri yoxdur. İLahi, onları Öz evindən uzaqlaşdır. Kəbənin düşməni Sənin düşməinindir. İlahi, Kəbəni viran qoymaqda onlara mane ol! İlahi, bəndən öz evini qoruyur, Sən də öz evini qoru! Onların qalib gəlib öz istəklərinə çatdığı günü bizə göstərmə!» Əbdülmüttəlib əlini Kəbə qapısının halqasından çəkib baş verəcək hadisəni izləmək üçün dağa geri dönür.

Sübh tezdən hücuma hazırlaşan Əbrəhə gözlənilməz bir hadisə ilə üzləşir. Qəflətən dimdik və caynaqlarında xırda daşlar tutmuş quşlar

dəniz tərəfdən göy üzünü əhatə edir. Quşların kölgəsi ordunun başının üstünü zülmətə çevirir. Xırda daşlarla təchiz olunmuş quşlar Allahın əmri ilə Əbrəhənin qoşununu daşqalaq edir. Üzərinə daş düşən əskərlərin başı parçalanır, bədəninin əti tökülməyə başlayırdı. Daşlardan biri də Əbrəhənin başına düşür. Onu vahimə bürüyür. Allahın qəzəbinə tuş gəldiyinə əmin olur. Orduya nəzər saldıqda, payız yarpaqları kimi yerə səpildiklərinin şahidi olur. Sağ qalanlara tez Sənaya dönmək əmri verir. Sağ qalanların əksəriyyəti aldıqları yara və xəsarət üzündən yolda canını tapşırır. Əbrəhənin özü isə Sənaya çatdıqda bədəninin bütün əti tökülür və acınacaqlı şəkildə can verir. Bu qorxulu əhvalat bütün dünyaya yayılır. Qurani-Kərim bu hadisəyə ayrıca bir surə həsr edərək buyurur: *«(Ya Peyğəmbər!) Məgər Rəbbinin fil sahiblərinə (Kəbəni dağıtmaq üçün fillərlə Məkkənin üstünə gələn həbəş ordusuna) nələr etdiyini görmədinmi? Məgər (Rəbbin) onların hiyləsini boşa çıxarmadımı? Onların üstünə qatar-qatar quşlar (əbabil quşları) göndərdi. (O quşlar) onlara gildən düzəldilmiş (möhkəm xırda) daşlar atırdı. (Rəbbin) onları (həşərat tərəfindən) yeyilmiş əkin yarpağına (saman çöpünə) döndərdi!»*[1]

Dediklərimiz İslami tarixi mənbələrdə[2] qeyd olunanların xülasəsi və Quranın etirafıdır. İndi isə görkəmli Misir təfsirçisi Məhəmməd Əbduhun və vaxtilə Misirin mədəniyyət naziri olmuş doktor Heykəlin irəli sürdüyü nəzəriyyəni diqqətinizə çatdırmaq istərdik.

### *Möcüzə haqqında qısa araşdırma*

Bəşəriyyətin müasir dövrdə əldə etdiyi elmi nailiyyətlər Qərb dünyasında böyük əks-səda doğurmuşdur. Bunun dini etiqadlarla heç bir bağlılığı olmasa da bu nailiyyətlər dini ideologiyaya qarşı bədbinliyə səbəb olmuş, kimlərdəsə bu haqqda şəkk-şübhə yaratmışdır. Bunun səbəbi o idi ki, yüz illərlə insanların düşüncəsini və elmi məclislərə hakimlik edən köhnə nəzəriyyələr elmin inkişaf etməsi nəticəsində öz qüvvəsini itirməyə başladı. Belə olduqda sual yaranır ki, digər dini əqidələrin də belə olmayacağını kim deyə bilər? Beləliklə də camaat,

[1] Fil surəsi
[2] Sireyi İbn Hişam, c-1, s-43-62; Biharul-ənvar, c-15, s-130-146; Əl-Kamilu fit-tarix, c-1, s-260-261

xüsusi ilə elm nümayəndələri arasında bütün dini əqidələrə şübhə yarandı. Get-gedə bu şübhələr elmi məclislərin müzakirə obyektinə çevrildi.

Digər tərəfdən inkvizisiyanın (kilsə məhkəməsinin) və kilsə xadimlərinin təzyiqləri də dini ideologiyaya qarşı yaranmış bu bədbinliyin inkişafında böyük rol oynayır. Belə ki, kilsə məhkəməsi alimləri elmi kəşflərinə görə müqəddəs kitaba qarşı çıxmaları bəhanələri ilə edam edirdi. Məlum məsələdir ki, belə təzyiqlər reaksiyasız qala bilməzdi. Buna görə də elə ilk gündən təxmin etmək olardı ki, nə vaxtsa alimlər imkan əldə etsələr, mütləq dinin «fatihəsini» oxuyacaqlar. Vəziyyət elə təxmin edildiyi kimi də oldu. Alimlər nə qədər elmi nailiyyətlər əldə edirdisə, təbii hadisələr və xəstəliklərin səbəblərini nə qədər çox öyrənirdilərsə, dini məsələlərə başlanğıc və məada, möcüzələrə və s. qarşı inam bir o qədər azalırdı. Alimlərin elmi cəhətdən irəliləməsi, bəzilərinin ümumiyyətlə, bütün dini məsələlərə kiçik gözlə baxmasına, İncil və Tövratdakı möcüzələri qəbul etməməsinə gətirib çıxartdı. Artıq Musanın(ə) əsasının əjdahaya çevrilməsini, İsanın(ə) ölüləri diriltməsini qəbul etmir, bunları yalnız əfsanə adlandırırdılar. Onlar belə hesab edirdilər ki, heç bir təbii amil olmadan taxta parçası əjdahaya çevrilə bilməz və ya hər hansı dua ilə ölünü diriltmək olmaz. Öz nailiyyətləri ilə məst olmuş alimlər bütün elmlərin açarını əldə etdiklərini düşünürdülər. Buna görə də onlar artıq möcüzəni ya heç qəbul etmirdilər, ya da ən azından ona şübhə ilə yanaşırdılar.

Bu qəbildən olan düşüncələr bəzi Misir alimlərinin də elmi məclislərinə yol tapır. Onlar başqalarından daha çox bu fikirlərin təsirinə düşürlər. Tarixi və elmi məsələləri araşdırarkən məhz bu metoddan istifadə etməyə başlayırlar. Onlar hər şeydən öncə Qərb alimlərinin fikirləri ilə tanış olur, daha sonra bəzi Qərb düşüncələrinin müsəlman ölkələrində yayılmasına şərait yaradırdılar. Onlar elə bir yol seçmişdilər ki, həm Quran ayələri və hədisləri qəbul etmək, həm də alimlərin fikri ilə razılaşmaq istəyirdilər. Bu alimlər Quranda elmin açıqlaya bilmədiyi bəzi möcüzələri, məsələn, əsanın əjdahaya çevrilməsini görüb ortaq bir məxrəcə gəlmək istəyirlər. Buna görə də

möcüzələri elmi yolla sübut etməyə çalışırlar. Bu üsulla onlar həm Quranın, həm də elmin hörmətini qorumağa səy göstərirlər. Nümunə olaraq görkəmli Misir alimi Məhəmməd Əbduhun «fil süvarilərinin sərgüzəşti» haqqında irəli sürdüyü nəzəriyyəni diqqətinizə çatdırırıq. Onun fikrincə ağcaqanad və ya milçəyə bənzər bu quşlar Əbrəhənin ordusunda epidemiya xəstəliyi yayır. Ayədəki «gildən düzəldilmiş daşlar» ifadəsindən məqsəd zəhərli (mikroblu) gil daşlarıdır ki, həmin quşların əskərlərə təması nəticəsində mikroblar onların bədənlərinə keçərək onlarda epidemiya yaradır. Bunlar müasir elmi dildə mikrob adlandırılan Allahın qoşunudur.

Müasir yazarlardan biri, Məhəmməd Əbduhun nəzəriyyəsinə dəstək olaraq yazır: «Quranda işlədilmiş quş sözü ümumi mənadadır və hətta milçək və ağcaqanada da şamil olur.»

Fil surəsindəki ayələrin zahirindən belə məlum olur ki, Əbrəhənin qoşunu İlahi qəzəbə düçar olmuş və onların ölümünə səbəb yeganə amil quşların dimdik və caynaqlarında gətirdiyi xırda daşlar olmuşdur. Buna görə də ayənin zahiri ilə ziddiyyət təşkil edən hər hansı ehtimal, onu təsdiqləyəcək bir sübut olmayınca, ayəni həmin mənaya yozmaq olmaz.

***Qeyd edilmiş nəzəriyyəyə tutulmuş iradlar***

1. Məhəmməd Əbdühün irəli sürdüyü nəzəriyyə də baş vermiş hadisəni tam təbii hadisə kimi qələmə verə bilməz. Hadisədəki bəzi özəllikləri yalnız qeybi amillərlə əlaqələndirmək mümkündür. Tutaq ki, bəzi alimlərin dediyi kimi, həqiqətən də quşların gətirdiyi xırda daşlarda paratif və suçiçəyi mikrobları var imiş. Bəs quşlar haradan bildi ki, daşlar mikrobludur və özlərinə yem axtarmaq əvəzinə nə üçün hamı bu daşların sorağına gedir? Bunu adi və təbii bir hal kimi qəbul etmək olarmı? Yox əgər bunu qeyb aləmi ilə əlaqədar hal kimi qəbul ediriksə, daha təbii amillər axtarmaq nəyə lazım?

2. Deyildiyi kimi, əgər daşlar mikroblu olmuşdusa, bəs onda nəyə görə bu mikroblar yalnız Əbrəhənin ordusuna hücum çəkir və Məkkə əhalisindən bircə nəfər olsun belə, xəstəliyə tutulmur? Olmaya mikroblar ayrıseçkilik salıbmış? Halbuki paratif və suçiçəyi mikrobları

keçici epidemiyadır və hətta külək vasitəsilə də bir yerdən digər yerə köçür. Bütün bunları təbii adlandırmaq olarmı?

3. Alimlərin qeyd olunmuş mikroblar haqqında müxtəlif fikirlər söyləmələri də, bu nəzəriyyənin əsassız olduğundan xəbər verir. Bəziləri qeyd olunmuş mikrobun paratif və ya suçiçəyi mikrobu deyil, vəba mikrobu olduğunu söyləmişdir. Təfsirçilər arasında yalnız Əkrəmə mikrobun paratif və ya suçiçəyi oldğunu qeyd etmişdir. Tarixçilərdən isə İbn Əsir bu fikri zəif bir versiya olaraq nəql etmiş, dərhal da inkar etmişdir.[1]

Hamısından təəccüblüsü odur ki, «Mühəmmədin həyatı» kitabının müəllifi, vaxtilə Misirin Mədəniyyət Naziri olmuş doktor Heykəl, haqqında danışılan hadisəni qeyd edərək bildirir ki, bəlkə də Əbrəhənin qoşununun qırılmasına səbəb, dəniz tərəfdən küləyin gətirdiyi vəba epidemiyası olmuşdur.

Bu nəzəriyyəyə cavab olaraq qeyd etmək istəyirik ki, əgər həqiqətən də səbəb küləyin gətirdiyi vəba epidemiyası olubsa, bəs onda quşların orada nə işi var imiş? Nəyə görə quşlar ordunun üstünə xırda daş parçaları atırmış.

Məsələyə obyektiv yanaşdıqda gərək belə əsassız nəzəriyyələrlə razılaşmayaq və peyğəmbərlərin Allah tərəfindən gətirdikləri möcüzələri inkar etməyək. Ümumiyyətlə möcüzə ilə elm iki ayrı yoldur və onları bir-biri ilə qarışdırmaq olmaz. Elmin əhatə dairəsi yalnız təbii aləmdir. Dini sahədə məlumatı az olan və ya heç olmayanları razı salmaq məqsədi ilə, öz dini etiqadlarımızdan əl çəkməməliyik. Buna heç lüzum da yoxdur.

İndi isə oxucuların diqqətini iki məqama cəlb etmək istəyirik:

1. Biz dediklərimizlə heç də peyğəmbərlərə istinad edilən və qətiyyən əsası olmayan işlərə bəraət qazandırmaq niyyətində deyilik. Biz onu bildirmək istəyirik ki, peyğəmbərlər Allah-taala ilə aralarında olan əlaqəni camaata sübut etmək üçün, möcüzə adlanan fövqəl-bəşər və müasir elmin açıqlamaqda aciz qaldığı işlərdən istifadə etmişlər.

---

[1] Əl-Kamilu fit-tarix, c-1, s-263

2. Biz onu da iddia etmirik ki, möcüzə determinizm qanununda bir istisnadır. Biz determinizm qanuna hörmətlə yanaşır, bütün hadisələrin səbəb-nəticə əlaqələri üzrə həyata keçdiyini qəbul edirik. Lakin möcüzənin də qeyri-təbii səbəblərə əsaslandığını bildiririk. Müasir elm və ya təcrübənin, onun sirlərini aça bilmədiyini əsas götürüb möcüzəni inkar edə bilmərik. Möcüzə də səbəb-nəticə əlaqəsinə əsaslanır, sadəcə, bu səbəb adi və təbii səbəblərdən fərqlənir. Əgər möcüzənin səbəb nəticəsi adi və təbii səbəblərdən olsaydı, onda onu möcüzə adlandırmazdılar.

*Əbrəhənin məğlubiyyətindən sonra*

Əbrəhənin məğlubiyyəti məkkəlilərin və Kəbənin əzəmətini ərəblərin gözündə daha da artırır. Daha kiminsə ağlından Məkkəyə hücum etmək fikri keçmirdi. Hamı elə düşünürdü ki, Allah-taala Öz evinin və Qüreyşin hörmətinə görə Əbrəhənin qoşununu məhv etmişdir. Çox az sayda insan bu işin yalnız Kəbənin qorunmasına görə baş verdiyinə inanırdı. Onların fikirincə bu hadisənin Qüreyşə heç bir aidiyyatı olmamışdır. Çünki o vaxtadək Qüreyş bir çox hücumlara məruz qalmış və heç zaman belə bir hadisə baş verməmişdir.

Qüreyşdən bircə damcı da olsun qan tökülməməsi ilə nəticələnmiş bu qələbə onların cəsarətini, təkəbbürünü daha da artırır. Beləliklə də onlar başqalarına aşağı gözlə baxmağa, özlərindən qeyrilərinə müəyyən məhdudiyyətlər qoymaq qərarına gəlirlər. Onlar özlərini başqalarından üstün sayır və yalnız özlərini ibadət etdikləri bütlərin diqqət mərkəzində olduğlarını düşünürdülər. Bu səbəbdən onlar eyş-işrət məclislərini artırır, hətta Kəbə kənarında da şərab içməkdən çəkinmirdilər. Hər kəs Kəbədə düzülmüş bütlərin kənarında dayanıb Şam qəssaniləri, Yəmən qəbilələri və başqaları haqqında eşitdikləri əhvalatları danışırdılar. Onlar, bütlərin sayəsində belə xoş günlər keçirdiklərinə inanırdılar.

*Qüreyşin təxəyyülatı*

İnsan nə vaxtsa həyatının istədiyi kimi getdiyini görərsə, təbii ki, özü üçün müəyyən xəyallar qurmağa başlayıb başqalarına kiçik gözlə baxmaq

qərarına gələcək. Əbrəhənin məğlubiyyətindən sonra Qüreyş öz üstünlüyünü başqalarına sübut etmək məqsədi ilə hərəmdən kənarda yaşayan[1] əhaliyə heç bir hörmət qoymamağa başlayır. Onlar deyirdilər ki, bütün ərəblər bizim məbədə möhtacdır. Ərəblər özləri də gördülər ki, biz tanrılarımızın diqqət mərkəzindəyik. Beləliklə də Qüreyş, başqalarına qarşı əsl diktatorluq etməyə başlayır. Ətraf yerlərdən həccə gələnləri məcbur edirdilər ki, Məkkədə özləri ilə gətirdikləri yeməkdən deyil, Məkkə camaatının yeməyindən yesinlər. Təvaf zamanı məkkəlilərin milli geyimlərindən isitifadə etsinlər. Bu cür paltar tapa bilmədikdə isə Kəbəni lüt-üryan təvaf etməli idi. Hansısa qəbilə başçısı öz paltarı ilə təvaf edərdisə, təvafdan sonra həmin paltarı mütləq soyunub kənara atmalı idi və heç kimin o paltarlara əl vurmağa ixtiyarı yox idi. Qadınlara gəlincə isə, onlar istənilən halda Kəbəni lüt vəziyyətdə təvaf etməli, yalnız başlarına bir parça örtüb müəyyən şeri oxumalı idilər.

Xaçpərəst Əbrəhənin hücumundan sonra nə bir yəhudinin, nə də xaçpərəstin Məkkəyə girməyə haqqı yox idi. Ancaq hansısa məkkəlinin nökəri olduğu təqdirdə yəhudi və ya xaçpərəst Məkkəyə daxil ola bilərdi. O da bu şərtlə ki, öz dinindən bircə kəlmə də danışmasın.

Qüreyşin təkəbbürü o həddə gəlib çatmışdı ki, hərəm ərazisindən kənarda yerinə yetirilməsi lazım olan bəzi həcc əməllərinə riayət olunmurdu. Məsələn, qüreyşlilər daha Ərafat çölünə getmirdilər.[2] Halbuki onların əcdadları (İsmail(ə) övladları) Ərafata getməyi həcc əməllərindən biri kimi vacib sayırdılar. Qüreyş isə bütün diqqətini ancaq Kəbəyə yönəltmişdi və camaat da Kəbənin hörmətinə hər il Məkkəyə gəlmək məcburiyyətində idi. Əgər Məkkədə Kəbə olmasaydı, heç kim oraya ayağını belə basmazdı.

Sosioloji hesablamalar baxımından bu pozuntuların meydana gəlməsi qaçılmaz olmuşdur. Dünya köklü bir dəyişikliyə uğramaq üçün Məkkə mühiti mütləq çirkinliklər girdabına çevrilməli idi. Bütün bunlar yeni ümumdunya xilaskarının gəlməsinə əlverişli şərait yaradırdı. Təsadüfi deyil ki, ömrünün sonlarında xristian olub İncildən çoxlu

---

[1] Kəbənin hər dörd tərəfindən dörd fərsəxə qədər olan ərazi hərəm (yəni, toxunulmazlıq hüququ olan ərazi sayılırdı).
[2] Əl-Kamilu fit-tarix, c-1, s-266

məlumatlar əldə etmiş Vərəqə ibn Nofəl hər dəfə Allah və peyğəmbərlər haqqında danışdıqda, Əbu Süfyanın etirazı ilə üzləşirdi Əbu Süfyan deyirdi ki, biz məkkəlilərin belə bir Allaha və peyğəmbərə ehtiyacımız yoxdur. Çünki bütlərin lütf və mərhəmətindən yararlanırıq.

### *6. Həzrət peyğəmbərin atası Abdullah*

Abdullahın qurban kəsiləcəyi gün onun vur-tut iyirmi dörd yaşı var idi. Lakin Əbdülmüttəlib onun əvəzinə yüz dəvə qurban kəsdikdən sonra Abdullahın hörməti bütün Qüreyş arasında, xüsusən qohum-əqrabası və Əbdülmüttəlibin yanında birə on artır. O, sanki dünyaya təzədən gəlmişdi.

Abdullah, atası ilə birlikdə qurbangaha getdiyi üçün onun vücudunu təzadlı hisslər bürümüşdü. Bir tərəfdən atasının zəhmətlərini qiymətləndirib ona tabe olduğu üçün ataya hörmət hissi onu atasının əmrindən çıxmamağa səsləyirdi. Buna görə Abdullah özünü çox xoşbəxt hiss edirdi. Digər tərəfdən isə həyatının sona yaxınlaşdığını duyub bütün varlığını kədər hissi bürümüşdü. Əbdülmüttəlib də eyni hisslərə malik idi. Bir tərəfdən övlad sevgisi, digər tərəfdən isə Allahla bağladığı əhd arasında qaldığından çox narahat idi. Bu narahatlıq aradan qaldırıldıqdan sonra Əbdülmüttəlib Abdullahı dərhal evləndirmək qərarına gəlir. Buna görə də qurbangahdan qayıtdıqdan sonra o, oğlunun əlindən tutub bir başa Vəhəb ibn Əbdmanaf ibn Zöhrənin evinə gedir. Onun namus və iffətdə ad çıxarmış qızı Aminəyə elçilik edib onu Abdullaha alır. Elə həmin məclisdə Aminənin əmisi qızı Dəlaləni də özü üçün alır. Peyğəmbərin yaşıdı olan əmisi Həmzə məhz Dəlalədən dünyaya gəlmişdi.[1]

Müasir tarixçilərdən olan Əbdülvəhhab yuxarıdakı hadisəni qeyri-adi bir iş kimi dəyərləndirərək yazır: «Həmin gün Əbdülmüttəlibin iki qıza elçilik etmək məqsədi ilə Vəhəbin evinə getməsi adətdən kənar bir haldır. O tarixi gündə ona yaraşan o idi ki, mənəvi yorğunluğunu çıxartsın, yalnız bundan sonra başqa iş ardınca getsin.»[2]

---

[1] Tarixi Təbəri, c-2, s-4

[2] Tarixi İbn Əsir, c-2, s-4, haşiyədə

Ancaq biz belə hesab edirik ki, adı çəkilən tarixçi məsələyə başqa cəhətdən yanaşsaydı, onun mahiyyətini asanlıqla başa düşə bilərdi.

Əbdülmüttəlib toy gününü təyin edir. Vaxt yetişdikdə Qureyşdəki adət-ənənəyə görə toy mərasimi Aminənin evində keçirilir. Bir müddət Abdullahla Aminə birlikdə yaşayırlar. Lakin o, ticarət məqsədi ilə Şama gedib qayıdarkən yolda vəfat edir.

***İslam tarixindəki təhrif izləri***

Heç bir şübhə yoxdur ki, qədim xalqların mənfi və müsbət cəhətləri tarixdə öz əksini tapmış və bunlar hamı üçün ibrət olmuşdur. Lakin bütün əsrlər boyu sevgi və ya nifrət, səhlənkarlıq və digər onlarla amil üzündən tarixdə müəyyən təhriflərə yol verilmiş, həqiqətlə yalan bir-birinə qarışmışdır. Bu, tarixçidən haqqı nahaqdan ayırmaqda böyük məharət tələb edir.

Bu amillər İslam tarixində də öz işini görmüşdür. Hətta bəzən Həzrət Peyğəmbərin(s) məqamını daha da ucaltmaq məqsədi ilə tarixə müəyyən uydurmalar əlavə edilmişdir. Lakin onların uydurma olduğu elə ilk baxışdaca üzə çıxır.

Tarixdə qeyd olduğuna əsasən Abdullahın alnında həmişə peyğəmbərlik nuru hiss olunurmuş.[1] Hətta o da göstərilir ki, qəhətlik illərində Əbdülmüttəlib Abdullahın əlindən tutaraq onu dağa aparır və onun alnındakı nuru şəfaətçi qərar verib Allahdan mərhəmət diləyirmiş. Bunu şiə və sünni alimlərinin əksəriyyəti nəql etmiş və onun doğru olmamasına dair əldə heç bir sübut yoxdur. Lakin bəzi tarixi mənbələrdə bu həqiqət bir sıra uydurmalara səbəb olmuşdur ki, aşağıda onlardan bir nümunə qeyd edirik.

***Fatimə Xüsemiyə dastanı***

Fatimə Xüsemiyə ərəb bilicilərindən sayılan, ömrünün sonlarında xaçpərəst olub İncildən xeyli məlumatlara malik, Vərəqə ibn Nofəlin bacısı idi. Onun (Vərəqənin) həzrət Mühəmməd(s) təzəcə peyğəmbər seçilərkən Xədicə(s.ə) ilə söhbəti tarixi mənbələrdə qeyd olunmuş və vaxtı çatdıqda biz bu barədə danışacağıq.

[1] Sireyi Hələbi, c-1, s-37

Fatimə qardaşı Vərəqədən eşitmişdi ki, İsmail(ə) övladlarından bir nəfər peyğəmbərlik məqamına çatacaq. Buna görə də o, daim göz-qulaqda idi. Əbdülmüttəlib Abdullahın əlindən tutub qurbangahdan Aminənin evinə gedərkən Fatimə öz evinin kənarında dayanmışdı. Birdən onun gözü uzun illər sorağında olduğu nura sataşır. Abdullahdan hara getdiyini soruşaraq ona deyir: «Mən atanın sənin əvəzinə qurban kəsdiyi yüz dəvəni ödəməyə hazıram. Bu şərtlə ki, mənimlə bir yastığa baş qoyasan.» Abdullah onun cavabında bildirir ki, indi atam yanımdadır və bu iş qeyri-mümkündür. Həmin gün Abdullah, Aminə ilə evlənib, gecəni onun yanında keçirir. Səhərisi gün Fatimənin evinə gedib onun təklifi ilə razı olduğunu bildirir. Fatimə onun cavabında deyir: «Artıq mənim sənə ehtiyacım yoxdur. Çünki sənin alnında hiss etdiyim nur daha səndən ayrılıb.[1]»

Bəzi mənbələrdə göstərilir ki, Fatimə istəyini Abdullaha bildirdikdə o, bədahətən bu beytləri deyir: «Haram işi görməkdənsə, ölüm daha rahatdır. Halal haqqında isə düşünməyə ehtiyac yoxdur. Mən axı sənin istəyini necə qəbul edə bilərəm? Özünə hörmət edən şəxs dinini (abır-həyasını) qoruyar.»

Abdullahın Aminə ilə evlənməsindən üç gün keçmiş, daxili hisslər onu Fatimənin evinə doğru aparır. Lakin Fatimə ona cavab verir ki, mənim sənə olan istəyim alnındakı nura görə idi. İndi[2] o nur sənin alnında yoxdur və Allah onu istədiyi yerdə yerləşdirmişdir. Abdullah ona deyir ki, bəli, mən artıq Aminə ilə evlənmişəm.

***Dastanın saxta olduğunu göstərən dəlillər***

Dastanı uyduran şəxs onun saxta olduğunu göstərən dəlilləri aradan qaldırmağı bacarmamışdır. Belə ki, aşağıdakı dəlillər onun tam saxta olduğunu söyləməyə əsas verir:

1. Dastanda qeyd olunur ki, Fatimə Abdullahla danışarkən atası Əbdülmüttəlib onun əlindən tutmuşdu. Belə olduğu halda necə oldu ki, Fatimə Əbdülmüttəlibdən utanmayıb istəyini Abdullaha bildirir?

---

[1] Tarixi Təbəri, c-2, s-6; əl-Kamilu fit-tarix, c-2, s-4; Sireyi Hələbi, c-1, s-47

[2] Tarixi Təbəri, c-2, s-6; əl-Kamilu fit-tarix, c-2, s-4

2. Atasının əmrinə tam müti olub, hətta ölümə də getməyə razı olan Abdullah atası yanında ola-ola belə sözlər deyə bilərmi? Ölüm pəncəsindən bir an öncə yaxa qurtarmış şəxs bu cür psixoloji gərginlikdə olduğu halda hansısa qadının istəyinə cavab verə bilərmi? Olmaya o qadın münasib vaxt tapmağı bacarmayıb, yoxsa dastanı uyduran şəxs bu cəhəti nəzərdən qaçırıb?

Az öncə qeyd oldunduğu kimi, Abdullah Fatimənin cavabında iki beyt şer oxuyaraq haram işə əl atmaqdansa ölümün daha yaxşı olduğunu bildirərək faktiki olaraq Fatiməyə yox cavabı verir. Bəs sonra necə olur ki, belə pak, qeyrətli bir gənc hələ toy gecəsindən üç gün keçməmiş durub yenə Fatimənin evinə gəlir? Biz Bəni-Haşimdə yüksək əxlaqa yiyələnmiş, təqvalı, həzrət Peyğəmbərin(s) atası olacaq bu şəxsin belə pis fikrə düşməsini qətiyyən qəbul edə bilmərik. Digər tərəfdən həm şiə, həm də sünni alimlərinin Peyğəmbərin(s) ata-babalarının paklığına dair gətirdiyi dəlillər də dastanın uydurma olduğunu deməyə əsas verir.

### *«Peyğəmbər» kitabına bir baxış*

Yuxarıda qeyd etdiyimiz dastanı da ehtiva edən «Peyğəmbər» kitabına diqqət yetirib bir qədər fikirləşsəniz, müəllifin əsl məqsədini öyrənə bilərsiniz. Müəllifin məqsədi odur ki, Peyğəmbərin(s) həyatını dastan şəklində yazmaqla dastan oxumağa marağı olan gəncləri o həzrətin həyatını oxumağa həvəsləndirsin. Əlbəttə, bu təqdirəlayiq bir haldır. Lakin bu şərtlə ki, dini ölçülərlə uyğun gəlsin. Lakin təəssüflər olsun ki, kitabı səhifələdikdə müəllifin ən zəif hədislərə, uydurma dastanlara əsaslandığının şahidi oluruq. Hətta müəllifin özü də onlara müəyyən qədər əl gəzdirib. Belə ki, Bəni-Haşim nəslinin, xüsusilə də Peyğəmbərin(s) atası Abdullahın əzəmətini azaldan «Peyğəmbər» əsərinin müəllifi özündən onlarla əlavələr qondarmış və bu yolla da tədqiqatçıların əhəmiyyət vermədiyi kitabı oxunaqlı kitab kimi qələmə verməyə çalışmışdır. Sadəlövh ərəb qızı Fatimə haqqında elə fikirlər söylənilir ki, sanki o, uzun illərin planını hazırlayıbmış. Abdullahın ona olan meylini isə elə qələmə verib ki, heç onun uca məqamı ilə uyğun gəlmir. Halbuki Allah-taala gələcək peyğəmbəri onun belində yerləşdirmişdi.

***Abdullahın vəfatı***

Abdullah evlənməklə həyatında yeni bir səhifə açır. Aminə kimi həyat yoldaşı onun qış ömrünə bahar təravəti gətirmişdi. Ailə qurduqdan bir neçə ay sonra Abdullah ticarət məqsədi ilə Məkkədən Şama gedən karvana qoşulur. Karvan yola düşməklə yüzlərlə insanın qəlbini də özü ilə aparır. O vaxt Aminə hamiləlik dövrünü keçirirdi. Bir neçə aydan sonra karvanın geri dönməsi xəbəri çıxır. Karvanda onların qohum-əqrəbası öz yaxınlarını qarşılamaqdan ötrü şəhərin kənarına çıxırlar. Abdullahın yaşlı atası oğlunun intizarını çəkirdi. Gəlini də həsrət dolu gözlərlə həyat yoldaşını axtarırdı. Axırda məlum olur ki, karvan geri dönərkən Abdullah yolda xəstələnmiş və bir qədər dincəlib sağalmaqdan ötrü Yəsribdə qohumlarının yanında qalmışdır. Bu xəbəri eşitdikdə həm Əbdülmüttəlibin, həm də Aminənin vücuduna qəm-qüssə hakim olur və hər ikisinin göz yaşları sel kimi axmağa başlayır.

Əbdülmüttəlib böyük oğlu Harisi Yəsribə göndərir ki, gedib Abdullahı gətirsin. Haris Yəsribə çatdıqda öyrənir ki, karvan getdikdən bir ay sonra Abdullah vəfat etmişdir. Haris Məkkəyə qayıdıb Əbdülmüttəliblə qardaşı arvadını məsələdən xəbərdar edir. Abdullahdan qalan miras yalnız beş baş dəvə, bir sürü qoyun, bir də sonralar Peyğəmbərə(s) dayəlik etmiş Ümmü Əymən adlı bir kəniz olur.[1]

---

[1] Tarixi Təbəri, c-2, s-7-8; Sireyi Hələbi, c-1, s-59

## HƏZRƏT MÜHƏMMƏDİN(S) ANADAN OLMASI

Bütün Ərəbistanı cahiliyyət zülməti bürümüşdü. Amansız döyüşlər, qarətçilik, uşaqları öldürmək və digər mənfi əməllər bütün əxlaqi dəyərləri aradan aparmış, ərəb dünyası bədbəxtliyə qərq olmuşdu. Onların olum-ölüm arasındakı məsafəsi həddən artıq qısalmışdı. Lakin belə bir vaxtda onların ulduzu parlayır, yarımadanın zülmətdə çabalayan mühiti həzrət Mühəmmədin(s) dünyaya gəlməsi ilə nura boyanır. Beləliklə də geridə qalmış bir millətin inkişaf prosesinin təməli qoyulur. Çox çəkmir ki, bu nur bütün dünyanı işıqlandırır və böyük bir mədəniyyətin əsasını qoyur.

***Dahi şəxslərin uşaqlıq dövrü***

Dahi şəxsiyyətlərin həyatının hər anı mütaliə edilməyə layiqdir. Elə insanlar var ki, onların həyatının hər bir səhifəsi, hətta uşaqlıq, südəmərlik dövrü də oxunulasıdır. Belə insanların həyat dəftəri sirlərlə, qeyri-adiliklərlə doludur. Bunları dünyanın dahi şəxslərinə aid edə biliriksə, peyğəmbərlər, İlahi övliyaların həyatında daha asanlıqla qəbul etmək olar.

Qurani-Kərim həzrət Musanın(ə) uşaqlıq illərinin əsrarəngiz keçdiyini xatırladaraq buyurur. ***«Ey Musa! anana vəhy etdik ki, (Musanı) bir sandığa qoyub çaya (Nilə) at. Qoy çay onu sahilə çıxartsın və Mənə də, ona da düşmən olan birisi (Firon) onu (sudan tapıb) götürsün». (Ya Musa!) Gözümün qabağında boya-başa çatdırılasan deyə, Öz tərəfimdən (insanların ürəyində) sənə (qarşı) bir sevgi yaratdım. O zaman bacın (sənin ardınca guya yad bir adam kimi saraya) gedib (oradakılara) deyirdi: «Sizə ona baxa biləcək (süd verəcək) birisini göstərimmi?» (Onlar razılıq verdilər, anan saraya gəldi). Artıq (salamat***

***qalmağına görə) gözün aydın olsun və kədərlənməsin deyə, səni anana qaytardıq...»***[1]

Həzrət İsanın(ə) dünyaya gəlişi, anasının ona hamilə qalması Musanınkından(ə) da əsrarəngizdir. Quran bu barədə buyurur: ***«O zaman o (Məryəm) ailəsindən ayrılıb şərq tərəfdə bir yerə çəkilmişdi. Biz Öz ruhumuzu (Cəbraili) göndərdik. O, kamil bir insan qiyafəsində göründü. (Məryəm) dedi: «Mən səndən Allaha pənah aparıram. Əgər Allahdan qorxansansa (mənə toxunma)!» (Cəbrail) «Mən sənə ancaq təmiz (məsum) bir oğlan bağışlamaq üçün Rəbbinin (göndərdiyi) elçiyəm!» -dedi. (Məryəm) dedi: «Mənim necə oğlum ola bilər ki, mənə indiyədək bir insan əli belə toxunmamışdır. Mən zinakar da deyiləm!» (Cəbrail) dedi: «Elədir, lakin Rəbbin buyurdu ki, bu Mənim üçün asandır. Biz onu insanlar üçün bir möcüzə, (sənə isə) dərgahımızdan olan bir mərhəmət kimi edəcəyik. Bu, əzəldən təqdir olunmuş bir hökmdür!» (Məryəm) artıq (Cəbrailin üfürməsi ilə İsaya) hamilə oldu və onunla birilkdə uzaq bir yerə çəkildi. Doğuş sancısı onu bir xurma ağacının gövdəsinə söykənməyə məcbur etdi. (Məryəm) dedi: «Kaş ki, mən bundan əvvəl ölüb qurtaraydım və ya tamamilə unudulub getmiş olaydım!» Dərhal alt tərəfdən ona belə bir nida gəldi: Kədərlənmə, Rəbbin sənin üçün (ayağının) altından bir irmaq axıtdı. (Qurumuş) xurma ağacını özünə tərəf silkələ, üstünə təzə yetişmiş (xurma) tökülsün! Ye-iç, gözün aydın olsun. Əgər bir adam görəcək olsan, belə de: «Mən Rəhmanın yolunda oruc (sükut orucu) tutmağı nəzr eləmişəm ona görə də bu gün heç kəslə danışmayacağam!» Uşağı götürüb öz adamlarının yanına gəldi. Onlar dedilər: «Ey Məryəm! Sən çox əcaib bir şeylə gəldin. Ey Harunun bacısı! Atan pis kişi, anan da zinakar deyildi!» (Məryəm onun özü ilə danışın, deyə) ona (uşağa) işarə etdi: Onlar: «Beşikdə olan uşaqla necə danışaq?»-dedilər. (Allahdan bir möcüzə olaraq körpə dilə gəlib) dedi: «Mən, həqiqətən, Allahın quluyam. O mənə kitab (İncil) verdi, özümü də peyğəmbər etdi.»***[2]

---

[1] Taha-38-41

[2] Məryəm-16-30

Quran, Tövrat və İncil ardıcılları həzrət Musa(ə) ilə həzrət İsa(ə) haqqında deyilənləri qəbul edirlərsə, onda İslam peyğəmbərinin anadan olduğu zaman baş vermiş qeyri-adiliklərə də şübhə ilə yanaşmamalıdırlar. Tarixi mənbələrdə deyilir: «Həzrət Mühəmməd(s) dünyaya gələrkən Kəsra sarayının eyvanı çatlayır, sarayın bir neçə tağı uçulur. Fars atəşgahının odu sönür, Savə gölü quruyur, Məkkə bütxanasında bütlər yerə tökülür. O həzrətdən bir nur göyə qalxıb bir neçə fərsəx məsafəni işıqlandırır. Ənuşirəvan və atəşpərəst kahinlər qorxulu yuxu görürlər. Həzrət Mühəmməd(s) sünnət olunmuş və göbəyi kəsilmiş vəziyyətdə dünyaya gəlir. Anadan olarkən belə deyir: **Allahu əkbəru vəl-həmdu lillahi kəsira, subhanəllahi bukrətən və əsila (Allah böyükdür, Ona çox-çox həmd-səna olsun, o, gecə-gündüz hər şeydən pakdır).»**[1]

İndi qarşımıza belə bir sual çıxır ki, görəsən bu hadisələrin baş verməsinə səbəb nə olmuşdur? Az öncə qeyd etdiyimiz kimi, belə qeyri-adi hadisələr yalnız İslam peyğəmbərinə aid deyil. Digər peyğəmbərlər də dünyaya gələrkən belə hallar baş vermişdir. Quranla yanaşı, yəhudi və xaçpərəst millətlərin tarixi də öz peyğəmbərləri ilə əlaqədar belə hadisələrin baş verdiyini xatırladır.

Belə hadisələrin baş verməsi camaatı özlərinə tabe etmiş zülmkar başçıları həmin olaylara diqqət yetirməyə səsləyir ki, nəyə görə qoca bir qarının palçıqdan düzəlmiş evi çatlamadığı halda, möhtəşəm Kəsra sarayının bir neçə tağı uçulur? Bütün şərait mövcud olduğu halda nə üçün Fars atəşgahının odu sönür? Hər şey öz axarı ilə getdiyi halda nəyə görə Kəbədəki bütlər yerə tökülür? Bu baş verənlər haqqında yaxşı düşündükdə anlayırlar ki, artıq bütpərəstlik dövrü arxada qalmış və haqsız qüvvələrin sonu gəlib çatmışdır.

Ümumiyyətlə, baş vermiş hadisələrin məhz həmin gün üçün ibrət olması şərt deyil. Ola bilər ki, nə vaxtsa bir hadisə baş versin, lakin həmin hadisə uzun müddətdən sonra ibrət sayılsın. Peyğəmbərin(s) anadan olduğu gün baş verən hadisələri də belə qəbul etmək olar.

---

[1] Tarixi Yəqubi, c-2, s-5; Biharul-ənvar, c-15, s-248; Sireyi Hələbi, c-1, s-64

Peyğəmbərlik dönəmi və ya ondan sonra yaranmış insanlar, bütün qüvvəsi ilə bütpərəstliyə qarşı mübarizə aparan bir şəxsin çağırışını eşidib onun həyatını araşdırdıqda görürlər ki, o dünyaya gələrkən bəzi qeyri-adi hadisələr baş vermişdir ki, onun dəvəti ilə üst-üstə düşür. Təbii ki, bu uyğunluğu onun haqq olduğu ilə əlaqələndirib dəvətini qəbul edirlər. Deməli İbrahim(ə), Musa(ə), İsa(ə), Mühəmmədin(s) dünyaya gəldikləri gün baş verən hadisələr camaatın diqqətini onlara yönəldib hidayət olunmalarına xidmət etmişdir.

***Həzrət Mühəmmədin(s) anadan olduğu il, ay, gün***

Bütün tarixçilərin fikrincə həzrət Mühəmməd(s) Amul-fildə-570-ci miladi ilində anadan olmuşdur. Belə ki, o həzrətin 632-ci miladi ilində vəfat etməsi və vəfat edərkən 62-63 yaş arasında olduğunda heç bir şübhə yoxdur, deməli, anadan olması təxminən 570-ci ilə düşür.

Həm hədis alimləri, həm də tarixçilər bu fikirdədirlər ki, Peyğəmbər(s) rəbiül-əvvəl ayında dünyaya gəlmişdir. Lakin hansı gündə anadan olduğu mübahisəlidir. Şiə məzhəbinin nümayəndələrinin fikrincə o həzrət rəbiül-əvvəl ayının on yeddisi, cümə günü, səhər çağı dünyaya gəlmişdir. Sünni məzhəbinin nümayəndələri isə belə hesab edirlər ki, həzrət rəbiül-əvvəl ayının on ikisi, bazar ertəsi anadan olmuşdur.[1]

Təssüfləndirici haldır ki, Həzrət peyğəmbərin(s), eləcə də imamların mövlud və vəfat günləri konkret olaraq müəyyən edilməyib. İslamın ilk əsrlərində alimlər bütün hadisələri dəqiqliklə qeydə aldıqlarını nəzərə alsaq, sonradan belə anlaşılmazlığın hansı səbəblərdən baş verdiyi müəmmaya çevrilir.

Heç yadımdan çıxmaz ki, bir gün dəyərli yoldaşlardan biri bu məsələyə toxunub kədərləndiyini bildirdi. Mən qeyd etdim ki, əgər bir nəfər vəfat edib özündən sonra ailə üzvləri qalarsa, mərhum haqqında hər hansı məlumatı onun ailə üzvlərindən yaxşı heç kim bilə bilməz. Heç ağılabatan da deyil ki, onun haqqında hər hansı bir məsələyə aydınlıq gətirmək üçün ailə üzvlərini qoyub gedib yad adamlara müraciət edək.

[1] Əmtaul-əsma, s-3

Həzrət Peyğəmbər(s) də vəfat etdikdən sonra ailə üzvləri camaatın arasında idi. Onlar deyirlər ki, atamız, babamız filan gün anadan olub, filan gün də vəfat edib. Daha nə lüzum var ki, onların dediyini qoyub başqalarının sözünü qəbul edək? Mən belə hesab edirəm ki, şiələrin Peyğəmbərlə(s) bağlı imamlardan nəql etdikləri həqiqətə daha uyğundur.

***Aminənin Peyğəmbərə hamilə qalması***

Qəbul edilmiş nəzəriyyəyə görə Aminə həzrət peyğəmbərə(s) təşriq günlərində (həcc ziyarəti yerinə yetirilən ayın on biri, on iki və on üçüncü günləri) hamilə qalmışdır.[1] Lakin bu nəzəriyyə o həzrətin rəbiül-əvvəl ayında dünyaya gəlməsi ilə uyğun gəlmir. Çünki belə olan halda Aminənin hamiləlik dövrü ya üç ay, ya da bir il üç ay olmuşdur. Bu isə təbii haldan kənardır və Peyğəmbərin(s) xüsusiyyətləri ilə bağlı kimsə belə bir qeyri-adilik nəql etməmişdir.

Böyük tədqiqatçı mərhum Şəhid Sani bu məsələyə belə aydınlıq gətirməyə çalışmışdır. İsmail(ə) övladları öz əcdadlarının yolu ilə gedərək həcc ayinlərini zil-həccə ayında icra edirdilər. Lakin sonralar müəyyən səbəblər üzündən həcc ayinlərini iki il bir ayda, növbəti iki il isə başqa ayda icra etmək qərarına gəldilər. Beləliklə, həcc ayinləri iki il zil-həccə, növbəti iki il isə məhərrəm ayında icra olunurdu. Belə olan halda 24 ildən sonra həcc ziyarəti əvvəlki vaxtına qayıtmış olurdu. Vəziyyət bu minvalla davam etmiş, nəhayət, hicrətin onuncu ilində ilk dəfə olaraq həcc mövsümü zil-həccə ayına təsadüf etmişdir. Həzrət peyğəmbər(s) xütbə oxuyaraq bundan sonra həcc mövsümünün bir daha dəyişdirilməyəcəyini, həmişə zil-həccə ayında keçiriləcəyini bildirir. Aşağıdakı ayə də məhz Cahiliyyət ərəblərinin adətlərindən olan haram ayların təxirə salınmasını qadağan edir: «***Həqiqətən, (haram ayları) gecikdirmək ancaq küfrü artırmaqdır ki, bununla kafir olanlar azdırılarlar. Onlar Allahın haram etdiyi ayların sayını düzəltmək, Allahın haram buyurduğunu halal etmək məqsədilə onu bir il halal, bir il haram sayarlar***»[2]. Bu hesablamaya əsasən, təşriq günləri hər il

---

[1] Kafi, c-1, s-439
[2] Tövbə -37

müxtəlif vaxta düşürmüş. Hədislərdə Aminənin həzrət peyğəmbərə(s) təşriq günlərində hamilə qalması və həzrətin rəbiül-əvvəl ayında dünyaya gəlməsi göstərilirsə, bunlar bir-biri ilə ziddiyyət təşkil etmir. Ziddiyyət yalnız o vaxt ola bilərdi ki, təşriq günlərinin ancaq zil-həccə ayının on bir, on iki və on üçüncü günlərində olduğunu söyləyək. Lakin təşriq günləri hər il müxtəlif vaxtlara düşdüyündən, hesablamalarla belə nəticəyə gəlirik ki, Aminənin Peyğəmbərə hamilə qaldığı və həzrətin dünyaya gəldiyi il təşriq günləri cəmadil-əvvəl ayına düşübmüş. Peyğəmbərin(s) rəbiül-əvvəl ayında dünyaya gəldiyini nəzərə aldıqda məlum olur ki, Aminənin hamiləlik dövrü təxminən on ayadək davam etmişdir.[1]

Mərhum şəhid Saninin bu nəzəriyyədən əldə etdiyi nəticə düzgün deyil. Onun ayəyə verdiyi təfsiri yalnız Mücahid nəql etmişdir. Bu təfsir isə aşağıdakı cəhətlərə görə məqbul sayıla bilməz:

1. Məkkə bütün cəmiyyətin toplandığı mərkəz, bütün ərəblərin ibadətgahı olmuşdur. Məlum məsələdir ki, iki ildən bir həcc mövsümünün dəyişdirilməsi camaatı çaşbaş qoyar və bu kollektiv ibadətin əzəmətini azaldardı. Bu baxımdan Qüreyş və bütün məkkəlilər onların şərəfinə səbəb olmuş bu ayinin vaxtının dəyişməsinə çətin ki, razı olardılar.

2. Diqqətlə hesablama aparsaq, görərik ki, bu nəzəriyyəyə əsasən hicrətin doqquzuncu ilində həcc mövsümü zil-qədə ayına düşməli idi. Həmin il Əliyə(ə) peyğəmbər(s) tərəfindən Məkkəyə gedib həcc mövsümündə Bəraət (Tövbə) surəsini müşriklərə oxumaq vəzifəsi tapşırılmışdı. Bütün təfsirçilər və hədis elminin nümayəndələri yekdilliklə söyləmişlər ki, Əli(ə) Bəraət surəsini zil-həccə ayının onunda oxumuş və müşriklərə dörd ay möhlət vermişdir. Möhlətin əvvəli zil-həccə ayının onundan hesablanılmışdır.

3. Haram ayları təxirə salmağın mənası odur ki, ərəblər o vaxt normal həyat sürmədiyindən, gündəlik tələbatlarını yalnız qarət yolu ilə əldə etdiklərindən, onlar üçün ardıcıl olaraq üç ay (zil-qədə, zilhəccə və məhərrəm aylarını) döyüşdən əl çəkmək olduqca müşkül məsələ idi.

---

[1] Biharul-ənvar, c-15, s-252

Buna görə də bəzən onlar Kəbəyə nəzarət edən şəxslərdən məhərrəm ayında döyüşüb onun yerinə səfər ayında döyüşü saxlamaq icazəsi alırdılar. Haram ayları təxirə salmağın mənası da məhz budur. Bu hal yalnız məhərrəm ayında baş verərmiş, məhərrəmdən başqa vaxt isə belə hala rast gəlinməyib.

Bizim fikrimizcə məsələnin həlli yolu belədir: Ərəblər həcc ayinlərini iki dəfə yerinə yetirirlərmiş. Biri zil-həccə, digəri isə rəcəb ayında. Belə olan halda Aminənin Peyğəmbərə təşriq günlərində hamilə qalmasından məqsəd rəcəb ayi ola bilər. O həzrətin rəbiül-əvvəl ayında anadan olduğunu nəzərə alsaq, onda Aminənin hamiləlik dövrünün səkkiz ay, bir neçə gün olduğu məlum olur.

***İslam peyğəmbərinin(s) ad qoyma mərasimi***

Peyğəmbər(s) anadan olduqdan yeddi gün sonra Əbdülmüttəlib bir qoyun kəsib qonaqlıq verir. Bütün Qüreyşin iştirak etdiyi qonaqlıqda o, nəvəsinin adını Mühəmməd(s) qoyur. Ondan soruşurlar ki, ərəblər arasında Mühəmməd adı çox az işlədildiyi halda nəyə görə uşağın adını Mühəmməd qoydun? Cavab olaraq bildirir ki, onun göydə və yerdə tərifl ənilməsini istədiyim üçün belə ad qoydum. Peyğəmbərin(s) şairi olmuş Həssan ibn Sabit bu haqda deyir: «Allah Öz adından Peyğəmbəri üçün bir ad seçdi: Allah Özü Mahmud idi, bunu da Mühəmməd adlandırdı. Hər iki sözün kökü də, mənası da eynidir».[1]

Sözsüz ki, Peyğəmbərin Mühəmməd(s) adlandırılmasında İlahi ilhamın təsiri olmuşdur. Bəzi tarixçilərin verdiyi statistik məlumata görə o vaxtadək cəmi on altı nəfər Mühəmməd adlandırılıbmış. Şair də bu rəqəmə öz şerində işarə edir: «İslam peyğəmbərindən qabaq cəmi on altı nəfər Mühəmməd adlandırılmışdı.»[2]

Bir addan nə qədər az olarsa, onun haqqında səhvə yol vermək bir o qədər azalar. Əvvəlki səmavi kitabların o həzrətin əlamətləri haqqında məlumat verdiyini nəzərə alsaq, həmin əlamətlərin Peyğəmbərlərlə(s) üst-üstə düşməsində hər hansı bir yalnışlıq, uyğunsuzluq olma-

[1] Sireyi Hələbi, c-1, s-78
[2] Sireyi Hələbi, c-1, s-82

malı idi. Əlamətlərdən biri də həzrətin adı olmuşdur. Buna görə də bu addan o qədər az olmalı idi ki, Peyğəmbər(s) dəqiqliklə tanınmalıydı.

*Şərqşünasların səhvi*

Qurani-Kərim İslam peyğəmbərini bir neçə adla tanıtdırmışdır. Ali-İmran surəsinin 144, Mühəmməd surəsinin 2, Fəth surəsinin 29 və Əhzab surəsinin 40-cı ayələrində Allah-taala o həzrəti Mühəmməd(s), Səff surəsinin 6-cı ayəsində isə Əhməd kimi qələmə vermişdir. Həzrətin iki adla adlandırılması onunla əlaqədardır ki, babası Əbdülmüttəlibdən qabaq anası Aminə həzrəti Əhməd adlandırmışdır.[1] Bununla da şərqşunasların səhvə yol verdikləri ortaya çıxır. Belə ki, onlar Quranın dediyinə görə (Səff surəsi, 6-cı ayə) İncildə Əhməd adlı peyğəmbərin gələcəyi barədə müjdə verilmişdir. Müsəlmanların peyğəmbər olaraq qəbul etdikləri şəxsin adı isə Əhməd yox, Mühəmməd olmuşdur. Peyğəmbəri(s) Əhməd kimi tanıtdıran Quran, onu həm də Mühəmməd adlandırmışdır. Şərqşunaslar öz iddialarında Qurana əsaslanırsa, həmin mənbə Peyğəmbəri(s) hər iki adla təqdim etmişdir.

Şərqşünasların iradına cavab olaraq bir qədər ətraflı məlumat veririk.

***«Əhməd» İslam peyğəmbərinin(s) ən məşhur adlarından olmuşdur***

İslam peyğəmbərinin(s) həyatı barədə azacıq mütaliə etmiş şəxs bilir ki, o həzrətin hələ uşaqlıqdan iki adı olmuşdur. Biri anası Aminənin qoyduğu Əhməd, digəri isə babası Əbdülmüttəlibin qoyduğu Mühəmməd. Bu, İslam tarixində inkarolunmaz bir həqiqətdir.[2]

Əbdülmüttəlibin vəfatından sonra Peyğəmbəri(s) 42 il himayəsində saxlamış əmisi Əbutalib həzrətin şəninə söylədiyi bəzi şerlərində onu gah Əhməd, gah da Mühəmməd adlandırmışdır. Bu da onu göstərir ki, deməli, o vaxt Əhməd həzrətin məşhur adlarından biri olubmuş. İndi isə Əbutalibin peyğəmbəri(s) Əhməd adlandırdığı bəzi beytləri təqdim edirik:

Bu gün Əhmədin dedikləri nur, axirətdə isə savabdır.

Düşmən isə deyir ki, Əhmədin sözləri əbəs, nəsli isə aşağı təbəqədəndir.

---

[1] Sireyi Hələbi, c-1, s-93

[2] İnsanul-uyun fi siratil-əmini vəl-məmun, c-1, s-93-100

Həqiqətən də Əhməd onlar üçün haqq din gətirdi, yalançı din gətirmədi.

Əhmədə zülm edənlər onu öldürmək istədilər, ancaq bu işdə onlara rəhbərlik edə biləcək bir şəxs olmadı[1].

*Həzrət peyğəmbərin(s) südəmərlik dövrü*

Həzrət Mühəmməd(s) öz anasından cəmi üç gün süd əmir. Sonra isə iki xanım o həzrətə dayəlik şərəfinə nail olmuşdur.

**1. Subiyə:** Əbuləhəbin kənizi olmuş bu xanım dörd ay Peyğəmbərə(s) süd vermişdir. Onun zəhmətlərini Peyğəmbər(s) də, həyat yoldaşı Xədicə(s.ə) də ömürlərinin sonunadək yüksək qiymətləndirmişlər. Subiyə Peğəmbərin(s) əmisi Həmzəyə də süd vermişdir. Həzrət Mühəmməd(s) peyğəmbər seçildikdən sonra onu alıb azad etməkdən ötrü adam göndərsə də, Əbuləhəb razı olmur. Peyğəmbər(s) Subiyənin ömrünün sonunadək yaxşılıqlarını ondan əsirgəməmişdi. Peyğəmbər(s) Xeybər döyüşündən qayıdan zaman Subiyənin vəfat etdiyini eşidib çox kədərlənir. Əlindən gələn yaxşılığı etmək üçün onun övladını soraqlaşsa da, məlum olur ki, övladı anasından qabaq vəfat edibmiş[2].

**2. Həlimə:** «Səd ibn Bəkr ibn Həvazən» qəbiləsindən Əbu Züeybin qızı Həlimənin Abdullah, Ənisə və Şeyma adlı uşaqları olmuşdur. Onun sonuncu övladı hətta Peyğəmbərə(s) də bir qədər baxmışdır.

Ərəblər arasında belə bir adət var idi ki, imkanlı adamlar uşaqlarına dayə tuturlarmış. Uşaqlar yaxşı inkişaf edib sümükləri möhkəmlənsin, uşaqlara daha tez yoluxma ehtimalı olan vəba xəstəliyindən uzaq olsun və ərəb dilini ləhcələrə qarışmadan yaxşı öyrənə bilsinlər deyə, dayələr adətən uşaqları Məkkədən kənarda səhralıqda saxlayırdılar. Bəni Səd qəbiləsinin qadınları dayəlikdə ad çıxarmışdılar. Onlar müəyyən vaxtlarda Məkkəyə gəlib hərəsi bir uşaq götürərək geri dönürdülər. Peyğəmbərin(s) anadan olmasından dörd ay sonra Bəni-Səd qadınları Məkkəyə gəlirlər. Həmin il güclü qəhətlik olduğu üçün onların Məkkə zadəganlarının köməyinə həmişəkindən daha çox ehtiyacı var idi.

---

[1] Cəfər Sübhani, Əhməd Məvudu İncil, s-101-107

[2] Biharul-ənvar, c-15, s-384

Tarixçilər yazırlar ki, Mühəmməd(s) yetim olduğu üçün dayələrin əksəriyyəti onu qəbul etməkdən imtina etdi. Çünki onlar uşağın valideyinlərindən daha çox gəlir əldə etmək istəyirdilər. İmtina edənlər arasında Həlimə də var idi. Lakin o zəif olduğuna görə heç kim uşağını ona tapşırmaq istəmir. Axırda Əbdülmüttəlibin nəvəsini qəbul etmək məcburiyyətində qalır. Həlimə ərinə deyir ki, əliboş qayıtmayaq deyə, gedək o yetim uşağı götürək, bəlkə Allahın da bizə rəhmi gəldi. Həlimənin düşüncələri özünü doğruldur. O, yetim Mühəmmədə(s) dayəlik etməyə razılıq verdikdən sonra bütün həyatı İlahi mərhəmətə qərq olur.[1]

Deyilənlərin ilk hissəsi əfsanə uydurmadan başqa bir şey deyil. Çünki Bəni-Haşim sülaləsinin əzəməti, imkansızlara əl tutmaqda dillər əzbərinə çevrilmiş Əbdülmüttəlib kimi bir şəxs ola-ola dayələr nəinki həzrət Mühəmmədi(s) qəbul etməkdən imtina eiməz, əksinə, onu qəbul etmək üçün bir-biri ilə yarışa girərdilər.

Peyğəmbərin(s) digər dayələrə deyil, məhz Həliməyə həvalə edilməsi onunla əlaqədardır ki, həzrət yalnız onun döşünü qəbul edir, digər dayələrin döşünə isə heç yaxın da durmur[2]. Peyğəmbər(s) Həlimənin döşünü qəbul etdikdə Əbdülmüttəlib ondan hansı qəbilədən olduğunu və adını soruşur. O, Bəni-Səd qəbiləsindən, adının isə Həlimə olduğunu bildirdikdə Əbdülmüttəlib deyir: Afərin bəh-bəh! Nə gözəl, iki bəyənilmiş xislət! Biri səadət, digəri də həlimlik[3].

---

[1] Sireyi ibn Hişam, c-1, s-172-173

[2] Biharul-ənvar, c-15, s-442

[3] Sireyi Hələbi, c-1, s-89

## PEYĞƏMBƏRİN (S) UŞAQLIQ DÖVRÜ

Tarixi faktlar göstərir ki, İslam peyğəmbərinin(s) həyatı uşaqlığından peyğəmbər seçilənədək bir sıra qeyri-adi hadisələrlə müşayiət olunmuşdur. Bütün bu qeyri-adiliklər kəramət xarakteri daşımışdır ki, bu da Peyğəmbərin(s) həyatının adi bir həyat olmadığından xəbər verir. Bu barədə alimlər iki dəstəyə bölünürlər:

1. Materialist və bir sıra şərqşünaslar. Dünyanı sırf materialist nöqteyi nəzərindən görən alimlər bu kimi hadisələrə əhəmiyyət vermirlər. Çünki materialist əqidələrinə görə belə halların baş verməsi qeyri-mümkündür. Baş vermiş belə hadisələri də insan düşüncəsinin və müsəlmanların fikrinin məhsulu kimi qəbul edirlər.

Özlərini üzdə dindar kimi qələmə verən bir sıra şərqşünaslar təbiətin fövqündə duran bir qüvvənin olduğunu qəbul etsələr də imanlarının zəif olduğuna görə bu cür hadisələri təhlil edərkən materialist düşüncələrindən kənara çıxa bilmirlər. Onlar peyğəmbərliyin bəşər nabiğəliyi, Peyğəmbərin(s) də dahi bir şəxs olduğnu bildirirlər.

Bu düşüncə tərzi materialist əqidələrindən irəli gəlir. Halbuki İslam ideoloqları peyğəmbərliyin İlahi bir mərhəmət olduğunu sübut etmişlər. Peyğəmbərlərin gördüyü işlər insan düşüncəsinin məhsulu deyil, qeyb aləmi ilə əlaqədardır. Materialist şərqşünas isə bütün bunlara maddi gözlə baxır, fövqəl-bəşər işləri (möcüzəni) ya ümumiyyətlə qəbul etmir, ya da tənqidlə qarşılayır.

2. Allahı qəbul edənlər. Maddi aləmin kənar bir qüvvə tərəfindən idarə olunduğunu qəbul edən alimlər, elmi qanunlara hörmət etməklə yanaşı dünyadakı təbii qanunların dəyişə biləcəyini də mümkün hesab edirlər. Onların fikrincə dünyanı idarə edən qüvvə məsləhət bildiyi vaxt təbii qanunları dəyişə bilər və hətta dəyişmişdir. Başqa sözlə desək, möcüzə səbəsiz olan bir iş deyil, sadəcə bu səbəb təbii səbəblərdən fərqlənir. Təbii səbəbin olmaması isə ümumiyyətlə onun səbəbsiz olması anlamına gəlmir. Digər tərəfdən də yaradılışdakı qanunlar elə

deyil ki, onları yaradanın dəyişikliyini qəbul edə bilməsin. Bu alimlər belə hesab edirlər ki, təbii qanunlar çərçivəsindən kənara çıxan möcüzələr məhz bu yolla həyata keçir. Onlar Quran və hədislərdə deyilmiş, dəqiq tarixi mənbələrdə öz əksini tapmış möcüzələri təbii qanunlarla uyğun gəlmir deyə, inkar etməmişlər. Aşağıda İslam peyğəmbərinin uşaqlıq dövründə baş vermiş belə qeyri-adi hallardan bir neçəsini diqqətinizə çatdırırıq. Yuxarıda deyilənləri nəzərə almaqla bu hadisələri qəbul etmək üçün heç bir şübhə yeri qalmır.

1. Tarixçilər Həlimənin dilindən belə yazırlar: «Aminənin uşağına dayəliyi qəbul etdikdən sonra elə anasının hüzrundaca ona süd vermək istədim. Südlə dolu olan sol döşümü onun ağzına qoydum. Lakin körpə daha çox sağ döşümə əl atırdı. Mənim uşağım olandan bəri sağ döşümdə süd olmamışdı. Uşaq israr etdiyi üçün sağ döşümü onun ağzına qoymaq məcburiyyətində qaldım. Uşaq döşümü əmməyə başlayan kimi sağ döşümün qurumuş damarları südlə doldu. Bu hadisə orada olanların hamısını heyrətləndirdi.»[1]

2. Həlimə deyir: «Mühəmmədi(ə) evimə apardığım gündən başlayaraq ailəmizin ruzisi, xeyir-bərəkəti artdı.»[2]

Məlum məsələdir ki, bu cür məsələlərdə materialist fikirli şəxslərlə dindarların fikri fərqli olur. Belə hadisələri təbii yolla açıqlaya bilməyən materialistlər bunların insan beyninin məhsulu olduğunu bildirirlər. Bir qədər nəzakətli olanları isə deyir ki, peyğəmbərin belə möcüzələrə ehtiyacı olmaz. Düzdür, İslam peyğəmbərinin möcüzəyə ehtiyacı olmayıb, lakin möcüzəyə ehtiyacı olmamaq bir şeydir, hadisənin doğru və ya yalan olması haqqında fikir bildirmək ayrı şey. Dindar şəxs isə dünyadakı ən kiçik varlıqdan (atomdan) tutmuş ən böyük varlığadək- hamısının Allahın istəyi ilə hərəkət etdiyinə inanır. O, bu hadisələri araşdırıb mənbələrin doğru olduğuna yəqin etdikdən sonra onlara hörmətlə yanaşır. Hətta qəbul etməsə də, bir mənalı olaraq inkar da etmir. Bu qəbildən olan hadisələr Quranda da vardır. Allah-taala həzrət Məryəm(s.ə) haqqında buyurur: ***«Doğuş sancısı onu bir xurma ağacının***

---

[1] Biharul-ənvar, c-15, s-345

[2] Mənaqibi İbn Şəhraşub, c-1, s-24

***gövdəsinə söykənməyə məcbur etdi. (Məryəm) dedi: «Kaş ki, mən bundan əvvəl ölüb qurtaraydım və ya tamamilə unudulub getmiş olaydım!» Dərhal alt tərəfindən ona belə bir nida gəldi: «Kədərlənmə, Rəbbin sənin üçün (ayağının) altında bir irmaq axıtdı. (Qurumuş) xurma ağacını özünə tərəf silkələ, üstünə təzə yetişmiş (xurma) tökülsün!»***[1]

Həzrət Məryəmlə(s.ə) Həlimə arasında böyük fərq ola bilər. Həzrət Məryəmin(s.ə) Allah dərgahında hörmət-izzəti olduğuna görə belə bir qeyri-adilik baş veribsə, burada da bu körpəyə görə Allahın mərhəməti onun dayəsinə aid ola bilər.

Quranda həzrət Məryəmlə(s.ə) bağlı başqa məqamlar da vardır. Onun isməti, təqvası o qədər yüksək imiş ki, Zəkəriyya(ə) peyğəmbər hər dəfə onun mehrabına daxil olduqda onun yanında Cənnət yeməkləri görürdü. Məryəmdən(s.ə) bunun haradan gəldiyini soruşduqda cavab verirmiş ki, bunlar Allah dərgahından göndərilib.[2]

Bunlara əsasən belə qeyri-adi işlərin gerçək olduğunu qəbul etməməyə haqqımız yoxdur.

***Beş il səhrada***

Həzrət Mühəmməd(s) beş il Bəni-Səd qəbiləsində qalıb böyüyür. Bu müddət ərzində Həlimə o həzrəti iki, ya da üç dəfə anasının yanına gətirir. İlk dəfə onu südəmərlik dövrü başa çatdıqdan sonra Məkkəyə gətirir. Lakin bir neçə gündən sonra yenidən özü ilə geri qaytarır. Aminə Mühəmmədi(s) buraxmaq istəməsə də Həlimə israr edir. İsrar etməsinə səbəb də o idi ki, öz dediyinə görə uşağı götürdükdən sonra ailəsinin ruzi-bərəkəti artmışdı. Məkkədə vəba xəstəliyinin yayılması da, Aminəni uşağı təkrarən Həlimə ilə göndərməsində az rol oynamadı. Həlimənin Mühəmmədi(s) ikinci dəfə Məkkəyə gətirməsi Həbəşistan ruhanilərinin Bəni-Səd qəbiləsinə gəldiyi vaxt olmuşdur. Onlar səmavi kitablarda yazılmış həzrət İsadan(ə) sonra gələcək peyğəmbərin nişanələrini Mühəmməddə(s) görüb onu oğurlayaraq özləri ilə Həbəşistana aparmaq

[1] Məryəm-23-25
[2] Ali-İmran-37

istəmişdilər ki, qoy bu iftixar onlara nəsib olsun[1]. Bunu müəyyən qədər həqiqətə uyğun hesab etmək olar. Çünki Quranın dediyinə görə İncildə həzrət Mühəmmədin(s) nişanələri qeyd olunubmuş. Belə olduqda o dövrün ruhani alimlərinin həmin nişanələrə əsasən onu tanımaları mümkündür. Qurani-Kərim bu barədə belə buyurur: ***«Onu da xatırla ki, bir vaxt Məryəm oğlu İsa belə demişdi: «Ey İsrail oğulları! Həqiqətən, mən özümdən əvvəl nazil olmuş Tövratı təsdiq edən və məndən sonra gələcək Əhməd adlı bir peyğəmbərlə (sizə) müjdə verən Allahın elçisiyəm!» Sonra onlara aşkar möcüzələrlə gəldikdə onlar: «Bu, açıq-aydın sehrdir!» -dedilər.»***[2] Bu haqda digər ayələr də mövcuddur ki, İslam peyğəmbərinin(s) nişanələrinin əvvəlki səmavi kitablarda açıq-aşkar söyləndiyini və keçmiş ümmətlərin də bundan xəbərdar olduqlarını göstərir.[3]

---

[1] Sireyi İbn Hişam c-1, s-167
[2] Səff-6
[3] Əraf-157

## HƏZRƏT MÜHƏMMƏDİN(S) AİLƏYƏ QAYIDIŞI

Allah-taala hərəyə bir işdə xüsusi bacarıq vermişdir. Kimisi elm, kimisi siyasət, kimisi idman sahəsində nailiyyət əldə edir. Cəmiyyətin inkişaf və səadətini istəyən rəhbərlər hansısa fərdi, bir işə təyin etməzdən əvvəl onun bacarığını yoxlayır. Hansı sahədə bacarığı varsa, məhz həmin sahədə onu çalışdırır. Əks təqdirdə onun görəcəyi işin cəmiyyətə heç bir xeyri dəyməyəcək. Belə bir deyim var ki, hər başda bir ağıl var. Xoşbəxt o şəxsdir ki, ağıl və bacarığından düzgün istifadə edə bilsin. Bir müəllimin tənbəl şagirdi var imiş. Müəllim onu nə qədər danlayıb nəsihət etsə də xeyri olmur. Bir gün yenə də müəllim ona iradlarını bildirərkən görür ki, şagird onun nəsihətlərini dinlədiyi halda kömür parçası ilə yerdə nəsə şəkil çəkir. Müəllim şagirdin valideyinini çağırtdırıb deyir ki, bu uşaq elm üçün deyil, rəssamlıq üçün yaradılıb. Siz onu bu sahədə çalışdırsanız, uğur qazana bilər. Valideyinlər müəllimlə razılaşıb uşağı rəssamlığa qoyur və sonradan o, dövrünün ən mahir rəssamlarından biri olur.

Övladın istedad, bacarığını ortaya çıxarmaqdan ötrü uşaqlıq dövrü valideyinlər üçün gözəl fürsətdir. Çünki uşağın fikri, düşüncəsi, hərəkətləri, danışığı onun gələcəkdə nəyə qadir ola biləcəyindən xəbər verir. Həzrət peyğəmbərin(s) də uşaqlıq dövründən tutmuş peyğəmbər seçilənə qədərki müddətdə həyatını mütaliə etdikdə onun ali məqsədlərindən xəbərdar oluruq. Onun həyatını oxuduqda parlaq gələcəyi, onun cəmiyyət üçün rəhbər, lider seçiləcəyi məlum olur. Başqa sözlə desək, peyğəmbərlikdən qabaqkı qırx ildə gördüyü işləri, davranışı, sözləri peyğəmbərlik iddiası ilə uyğun gəlirmi? Bu məqsədlə o həzrətin həyatından bəzi nüanslara diqqət yetirmək məqsədə uyğun olar.

Həzrət Mühəmmədin(s) mehriban dayəsi onu beş il yanında saxlayır. Bu müddət ərzində həzrət bədii ərəb dilini heç bir ləhcəyə qarışmadan təmiz şəkildə mənimsəyir. Sonralar Peyğəmbər(s) bununla fəxr edirmiş. Beş ildən sonra Həlimə həzrəti Məkkəyə qaytarır. O, anası ilə birlikdə

babası Əbdülmüttəlibin himayəsində yaşayır. Peyğəmbər(s) Abdullahın yeganə yadigarı idi.[1]

***Yəsrib səfəri***

Əbdülmüttəlibin gəlini Aminə cavan ərini itirdikdən sonra Yəsribə gedib onun qəbrini ziyarət etmək üçün fürsət axtarırdı. O, eyni zamanda Yəsribdəki qohumları ilə də görüşmək şansı qazanardı. Mühəmməd(s) yanına qayıtdıqdan sonra Aminə onunla birlikdə Yəsribə getmək qərarına gəlir. Ümmü Əymənlə birlikdə yola çıxıb Yəsribə gedirlər. Düz bir ay orada qalırlar. Bu səfər Peyğəmbər(s) üçün acı xatirələrlə yadda qalır. Çünki atasının vəfat etdiyi evi ilk dəfə idi ki, görürdü. Təbii ki, o vaxtadək atası barədə anası ona çox şeylər danışmışdı. Ata niskili hələ ürəyindən çıxmamış digər bir kədərləndirici hadisə baş verir. Məkkəyə qayıdarkən Əbva adlı yerdə mehriban anası da ömrünü başa vurur.[2] Bundan sonra Mühəmməd(s) qəbiləsində daha çox sevilir, hamı onun nazını çəkirdi. Əbdülmüttəlib onu daha çox, hətta öz övladlarından da artıq sevirdi. Kəbə yaxınlığında gözü Mühəmmədə(s) sataşcaq yolu açdırıb onu öz yanına gətizdirər, oturduğu taxtda otuzdurardı.[3] Qurani-Kərim həzrətin yetimlik illərini xatırlayaraq buyurur: ***«Məgər O (Allah) səni yetim ikən tapıb sığınacaq vermədimi?»***[4]

Həzrət Mühəmmədin(s) yetim qalmasının hikməti bizim üçün məlum deyil. Bircə onu deyə bilərik ki, dünyada heç bir hadisə hikmətsiz olmur. Ancaq təxmin etmək olar ki, Allah-taala o həzrəti bütün bəşəriyyətin rəhbəri təyin etməzdən qabaq onun həyatın acısını, şirinliyini dadmasını, həyatın eniş-yoxuşunu görməsini və bunun nəticəsində böyük ruha malik olub çətinliklərlə tanış olaraq özünü daha böyük çətinliklərə hazırlamasını istəmişdir.

Allah-taala onun kiməsə tabe olmasını istəməmiş, elə uşaqlıq illərindən azad böyüyüb, gələcəyinin özü tərəfindən qurulmasını

[1] Sireyi İbn Hişam, c-1, s-167
[2] Sireyi Hələbi, c-1, s-125
[3] Sireyi İbn Hişam, c-1, s-168
[4] Zuha-6

istəyirmiş. Qoy hamı bilsin ki, bu düha bəşər istedadı, nabiğəliyi deyil, vəhy mənbəyindən qaynaqlanan bir hərəkatdır.

### *Əbdülmüttəlibin vəfatı*

İnsan həyatı daim acı hadisələrin hədəfinə tuş gəlir. Anasının ayrılığını hələ yaddan çıxarmayan Peyğəmbər(s) bu dəfə daha böyük bir itki ilə üzləşir. Ömrünün səkkizinci baharında himayəsində olduğu babası Əbdülmüttəlibi itirir. Əbdülmüttəlibin vəfatından hədsiz dərəcədə kədərlənən Mühəmməd(s) babasının dəfnində onun qəbrinin kənarına qədər ağlar gözlə gəlir. Peyğəmbər(s) həyatı boyu heç vaxt Əbdülmüttəlibi unutmur.

### *Əbutalibin himayəsində*

Əbutalibin şəxsiyyəti, onun imanı haqqında düzgün mənbələrə əsasən növbəti səhifələrdə ətraflı məlumat verəcəyik. İndi isə sadəcə onun, Peyğəmbəri(s) himayəsində saxladığı müddətdəki bəzi hadisələrə nəzər salmaq istəyirik.

Əbutalib müəyyən səbəblərə görə Peyğəmbəri(s) fəxrlə himayəsinə götürür. O, Abdullahın eyni anadan olan qardaşı idi.[1] O, səxavətdə ad çıxarmışdı. Buna görə də Peyğəmbəri(s) himayəyə götürməyi Əbdülmüttəlib ona vəsiyyət edir. Tarix onun xidmətlərinin şahididir.

Deyilənlərə görə Mühəmməd(s) on yaşında olarkən əmisi ilə birlikdə bir döyüşdə iştirak edir.[2] Bu döyüş haram aylara təsadüf etdiyindən onu Ficar döyüşü adlandırmışdılar. Bu barədə tarix kitablarında ətraflı məlumat verilmişdir.

### *Şam səfəri*

Adəti üzrə Qüreyş tacirləri ildə bir dəfə Şama səfər edirdilər. Bu dəfəki səfərdə Əbutalib də iştirak etməyi planlaşdırırdı. O, bir an da gözündən qoymayan qardaşı oğlunu Məkkədə saxlamaq qərarına gəlib, bir neçə nəfərə onu qorumağı tapşırır. Lakin karvan hərəkət etdikdə

---

[1] Sireyi İbn Hişam, c-1, s-179

[2] Tarixi Yəqubidə (c-1, s-12, Nəcəf çapı) yazılır ki, Əbutalib bu döyüşdə iştirak etməmiş, Bəni-Haşimdən də heç kimi bu döyüşə buraxmamışdır.

Mühəmməd(s), əmisinin ayrılığına dayana bilməyib ağlamağa başlayır. Əbutalib onun bu vəziyyətinə tab gətirə bilmədiyinə görə onu da özü ilə Şama aparmağa qərar verir.

Peyğəmbərin(s) on iki yaşında baş tutmuş bu səfər onun həyatının şirin xatirələrindən sayılır. Çünki səfər boyu o Mədyəni, Vadil-qurani, Səmud diyarını və Şamın gözəl təbii mənzərələrini görmüşdü.

Qüreyş karvanı hələ mənzil başına çatmamış Busra adlı yerdə bir hadisə baş verir ki, bu hadisə Əbutalibin müəyyən qədər narahatlığına səbəb olur. Belə ki, Busra məntəqəsində uzun müddətdən bəri Bəhira (və ya Büheyra) adlı xaçpərəst keşiş özünəməxsus məbəddə ibadətlə məşğul idi. Oradan keçən bütün karvanlar məbəddə dayanıb ona ehtiram edirdilər. Qüreyş karvanı da həmin yerdə dayandıqda Bəhiranın gözü Mühəmmədə(s) sataşır. Onun iti baxışları nədənsə xəbər verirdi. Bir qədər səssizcə durub uşağa baxdıqdan sonra onun kimin uşağı olduğunu soruşur. Uşağın Əbutalibin himayəsində olduğu bildirilir. Bəhira onun parlağ gələcəyi və səmavi kitablarda haqqında müjdə verilmiş peyğəmbər olduğunu bildirərərək deyir: «Bu, öz dini kitablarımızda adını, atasının adını, haradan peyğəmbər çıxacağını, öz dinini dünyada necə yayacağını oxuduğum peyğəmbərdir. Onu yəhudilərin gözündən uzaq saxlayın. Yəhudilər bundan xəbər tutsalar, onu öldürəcəklər»[1].

Əksər tarixçilərin fikrincə Mühəmməd(s) Busradan o tərəfə getməmişdir. Lakin məlum deyil ki, əmisi onu kiminləsə Məkkəyə geri qaytardı, ya yox. Və ya Əbutalib səfəri davam etdirməkdən yayınıb qardaşı oğlu ilə birgə Məkkəyə qayıdır, ya yox?[2] Bəzi mənbələrdə isə göstərilir ki, Əbutalib çox ehtiyatlı şəkildə onu özü ilə Şama aparıb geri dönür.

### *Şərqşünasların uydurması*

Ara-sıra bu kitabda şərqşunasların uydurmalarına münasibət bildirməyimizin səbəbi odur ki, qoy onların sadəlövh insanları qəsdən və ya bilmədən haqdan uzaqlaşdırmaq istəkləri üzə çıxsın. Həzrət peyğəmbərin(s) xaçpərəst rahiblə görüşü sadə bir məsələ olmuşdur.

---

[1] Tarixi Təbəri, c-1, s-33-34; Sireyi İbn Hişam, c-1, s-183

[2] Sireyi İbn Hişam, c-1, s-194

Lakin əsrlər ötdükdən sonra bəzi şərqşünaslar bu görüşü əldə rəhbər tutub iddia edirlər ki, Mühəmməd(s) bu görüşdən 28 il sonra açıqladığı ali təlimlərini Bəhiradan öyrənmiş və bu yolla ölməkdə olan ərəb dünyasına yeni həyat gətirmişdir. Onlar deyirlər ki, Mühəmməd(s) təbiətin ona bəxş etdiyi böyük ruh, güclü hafizə və istedad sayəsində Bəhira ilə görüşü zamanı əvvəlki peyğəmbərlər Ad və Səmud kimi qövmlərin tarixini, eləcə də təlimlərini ondan öyrənmişdir.

Bu fikrin əsassız bir iddia olması gün kimi aydındır və o həzrətin tarixi, həyatı ilə heç cür uyğun gəlmir. Heç ağıl da bunu qəbul etmir. Buna sübut olaraq aşağıdakıları qeyd etmək olar:

1. Bütün tarixçilərin yazdığına əsasən Mühəmməd(s) ümmi, yəni, yazıb-oxumaq savadı olmayan bir şəxs olmuşdur. Onun Şama səfəri zamanı cəmi on iki yaşı var imiş. Belə bir vəziyyətdə ağıl qəbul edərmi ki, on iki yaşı olan heç bir yazıb-oxumaq savadı olmayan uşaq Tövrat və İncildən nələrisə öyrənib onu qırx yaşında açıqlamaqla özündən yeni şəriət icad etsin? Bu ağılasığmaz bir işdir və demək olar ki, mümkünsüzdür.

2. Bu səfərin müddəti qısa olmuşdur və bu müddət ərzində Tövrat və İncildəki məlumatları mənimsəmək mümkün deyil. Məlum olduğu kimi bu səfər ticarət xarakteri daşımış, gedib-qayıtmaq məbəddə qalmaq vur-tut dörd ay çəkmişdir. Dörd ay ərzində isə nəinki 12 yaşlı uşaq, heç dünyanın ən böyük alimi də həmin məlumatları mənimsəyə bilməz. Üstəlik dörd ayın hamısı məbəddə keçməyib. Məbəd karvanın yolu üstə olmuş və karvan yalnız dincəlmək məqsədi ilə orada dayanmışdır. Belə də Mühəmmədin(s) rahiblə görüşü bir neçə saatdan çox olmayıb.

3. Tarixi mənbələr göstərir ki, Əbutalibin məqsədi Mühəmmədi(s) məbədin yerləşdiyi Busraya yox, Şama aparmaq imiş. Belə olan halda Mühəmməd(s) məbəddə necə qala bilərdi?

4. Əgər Mühəmməd(s) xaçpərəst rahibdən nəsə öyrənmiş olsaydı, bütün Qüreyş bundan xəbərdar olar və hamı bu haqda danışardı. Digər tərəfdən heç Peyğəmbər özü ümmi (dərs oxumamış) olduğunu iddia edə bilməzdi. Halbuki o həzrət peyğəmbərlik missiyasına ümmi olduğunu elan etməklə başlamışdır. Heç kim də ona «Ey Mühəmməd, axı sən on iki yaşında olarkən Şam yolundakı məbəddə xaçpərəst rahib-

dən dərs almısan»-deyə etiraz etməmişdir. Məkkə müşrikləri Peyğəmbərə müxtəlif böhtanlar atır, Quranın Allah tərəfindən olmadığını isbatlamaq üçün cürbəcür bəhanələr axtarırdılar. Peyğəmbərin(s) Məkkədə xaçpərəst bir nökərlə oturduğunu gördükdə belə, fürsətdən istifadə edib «Mühəmməd dediklərini ondan öyrənmişdir» deyirdilər. Quran isə buna öz münasibətini bildirərək buyurur: ***«Biz, (müşriklərin): «(Quranı) ona (Mühəmmədə) bir insan (ara-sıra görüb danışdığı Cəbr ər-Rumi adlı xaçpərəst bir gənc) öyrədir!»-dediklərini də bilirik. Onların nəzərdə tutduqları adamın dili başqa dildir. Bu (Quranın dili) isə açıq-aşkar ərəb dilidir!»***[1] Peyğəmbərin xaçpərəst rahibin yanında təlim keçməsi iddiasına isə nə Quran toxunub, nə də bəhanə axtaran Qüreyş müşrikləri. Bütün bunlar onu göstərir ki, bu iddia yalandan başqa bir şey deyil.

5. Qurani-Kərimdə peyğəmbərlərin əhvalatları haqqında deyilənlərlə Tövrat və İncildə deyilənlər arasında böyük ziddiyyətlər vardır. Bu barədə Tövrat və İncildə deyilənlər elm, ağıl, məntiqlə əsla uyğun gəlmir. Quranla bu iki kitabı müqayisə etdikdə böyük fərq görürük. Əgər Mühəmməd(s) öz məlumatını xaçpərəst rahibdən öyrənibsə, onda gərək Quranla Tövrat və İncil arasında ziddiyyət olmasın və Quranda da bir çox mövhumatlar, xurafatlar olsun.

6. Xaçpərəst rahib Mühəmməd(s) kimi bir şəxsi yetişdirib cəmiyyətə təqdim etmək iqtidarında olubsa, bəs nəyə görə özü elə də ad-san qazanmayıb? Və ya nəyə görə Mühəmməddən(s) başqasını yetişdirə bilmədi? Halbuki onun məbədi həmişə get-gəl yeri olmuşdur.

7. Xaçpərəst müəlliflər Mühəmmədin(s) düzgün, yalan danışmayan bir adam olduğunu yazırlar. Qurani-Kərim də onun əvvəlki peyğəmbər və ümmətlərin tarixindən xəbərsiz olduğunu, bu barədə bütün məlumatlarını vəhy yolu ilə əldə etdiyini bildirir. Allah-taala buyurur: ***«Ya Rəsulum! Biz Musaya vəhy etdiyimiz zaman sən (Tur dağının) qərb tərəfində (Musanı gözləyənlər arasında) deyildin. Sən (buna) şahid olanlardan da deyildin»!***[2] Quran Nuh(ə) peyğəmbərin əhvalatını bəyan etdikdən sonra buyurur: ***«Bunlar (bu əhvalatlar) sənə vəhy etdiyimiz***

[1] Nəhl-103
[2] Qəsəs-44

***(vəhylə bildirdiyimiz) qeyb xəbərlərindəndir. Bundan qabaq onları nə sən, nə də ümmətin bilirdi…»***[1] Digər bir ayədə deyilir: ***(Ya Rəsulum!) Bunlar qeyb xəbərlərindəndir ki, vəhy ilə sənə bildiririk. Onlar: «Məryəmi kim öz himayəsinə alacaq?»-deyə, qələmlərini (suya) atdıqları (qələmləri ilə püşk atdıqları) və bir-birilə mübahisə etdikləri zaman sən ki, onların yanında deyildin.»***[2]

***Hazırkı Tövrata ötəri baxış***

Tövratda peyğəmbərlərin həyatı ilə bağlı elə əhvalatlar öz əksini tapıb ki, onu vəhy adlandırmağa adamın dili gəlmir. Əgər Mühəmməd(s) öz təlimlərini xaçpərəst rahibdən mənimsəmişdisə, bəs nəyə görə Quranda belə əhvalatlar əks olunmayıb? İndi Tövratdan bəzi nümunələri diqqətinizə çatdırırıq.

1. Yaradılış fəslinin 32-ci bölməsinin 25-30-cu cümlələrində deyilir:

«Bir gecə Allah-taala səhərə qədər Yaqubla güləşdi.»

2. Allah-taala Adəmə: «Bu ağacın meyvəsindən yesən, ölərsən»-deyərkən yalan danışmışdır. Əslində isə həmin meyvədən yeyəcəkləri təqdirdə onlar (Adəmlə Həvva) da Allah kimi yaxşı və pisdən xəbərdar olardılar. Necə ki, onlar meyvədən yedilər və xəbərdar da oldular.

3. İbrahimin yanına iki mələyin gəlməsi barədə belə deyilir: «Allah-taala ona gələn xəbərlərin doğru, yoxsa yalan olduğunu öyrənməkdən ötrü iki mələklə birlikdə İbrahimin yanına gəldi. İbrahim dedi ki, su gətirim ayaqlarını yuyum. Sonra Allahla mələklər yorğun olduqlarına görə bir qədər istirahət edib yemək yedilər.»[3]

Hörmətli oxucu Quran ayələrini də diqqətlə oxuduqdan sonra özü qərar verə bilər ki, Quranın peyğəmbərlər barədə dedikləri Tövratdan götürülüb ya yox. Əgər Tövratdan götürülübsə, bəs nə üçün Quranda belə xurafatlar yoxdur?

***Hazırki İncilə ötəri baxış***

---

[1] Hud-49

[2] Ali-İmran-44

[3] Tövrat, 18-ci fəsil, 1-9-cu cümlələr

İndi İncildən də bəzi məqamlara toxunmaqla Quranın İncildən götürülüb-götürülmədiyinə aydınlıq gətirmək istəyirik.

İsa(ə) anası və şagirdləri ilə birlikdə toy mərasiminə gedir. Məclisdə şərab qurtardığı üçün o, su ilə dolu yeddi küpü möcüzə vasitəsilə şəraba döndərir.[1] İsa piyalələri götürüb onlara verərək deyir: «İçin, bu, mənim qanımdır.»[2] Şərab haqqında Quranın məntiqi isə fərqlidir. Quran buyurur: ***«Şərab da, qumar da şeytan əməlindən olan murdardır. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız!»***[3] Belə olduğu bir halda Mühəmməd(s) Quran təlimlərini xaçpərəst rahibdən mənimsəyə bilərmi? İsanı(ə) anasına qarşı çox mehriban bir insan kimi təqdim edən Quran[4], onu anasına qarşı olduqca kobud qələmə verən İncillə uyğun gəlirmi?[5] Ədalətli olub bütün təəssübkeşlikəri kənar qoyan şəxs Quranla digər səmavi kitabları müqayisə etdikdə Quran təlimlərinin onlardan götürülmədiyi qənaətinə gəlir.

---

[1] İohanın İncili 2-ci fəsil, 1-11-ci cümlələr

[2] Motveyin İncili 26-cı fəsil, 27-ci cümlə

[3] Maidə-90

[4] Məryəm-32

[5] Matveyin İncili, 12-ci fəsil; Markın İncili, 13-cü fəsil; Lukanın İncili, 8-c fəsil

## HƏZRƏT MÜHƏMMƏDİN(S) GƏNCLİK DÖVRÜ

Cəmiyyətə rəhbərlik edən şəxs dözümlü, iradəli, qüvvətli, şücaətli və qorxmaz olmalıdır.

Qorxaq, iradəsiz, zəif insan öz ardıcıllarını həyatın keşməkeşlərindən necə çıxara bilər?

Rəhbərin böyük ruhiyyəyə malik olmasının onun ardıcıllarında olduqca böyük təsiri vardır. Əmirəl-möminin Əli(ə) ən yaxın silahdaşlarından birini Misirə vali göndərərkən oranın əhalisinə bir məktub yazır. Həmin məktubda Əli(ə) göndərdiyi valini şücaətdə vəsf edir. Əsl valilik xüsusiyyətlərini özündə əks etdirən məktubdan sıtatlara nəzər salaq: **«....Qorxulu (təhlükəli) günlərdə gözünə yuxu getməyən, düşməndən əl çəkməyən Allah bəndələrindən birini sizin üçün vali göndərirəm. O, pis insanlar üçün yandırcı oddan da betərdir. O, Məzhəc qəbiləsindən olan Malik ibn Harisdir. Sözlərinə qulaq asıb əmrlərinə tabe olun! O, bir Allah qılıncıdır ki, itiliyi heç vaxt kütləşmir, zərbəsi heç vaxt hədəfdən yayınmır.»**[1]

*Həzrət Mühəmmədin(s) böyük ruhiyyəsi*

Hələ uşaq vaxtlarından həzrət Mühəmməddə(s) şücaət, cəsarət hiss olunurdu. O, yeniyetmə yaşlarında Qüreyşlə Həvazən qəbilələri arasında getmiş Ficar döyüşlərində iştirak etmişdir. Döyüşdə onun boynuna əmilərini oxla təmin etmək vəzifəsi düşmüşdü. Bunu İbn Hişam o həzrətin öz dilindən nəql etmişdir.[2] Peyğəmbərin(s) yeniyetməlik dövründə bu döyüşdə iştirak etməsi onun cəsarətindən xəbər verir və başa düşürük nəyə görə Əli(ə) o həzrət barədə: **«Döyüş vaxtı dara düşdükdə Peyğəmbərə üz tuturduq. Aramızda düşmənə ondan yaxın adam yox idi»-deyə buyururmuş.**[3]

[1] Nəhcül-bəlağə (Əbduh), c-3, s-92
[2] Sireyi İbn Hişam, c-1, s-186
[3] Nəhcül-bəlağə (Əbduh), c-3, s-214

Müsəlmanlarla müşriklər arasında getmiş döyüşlərdən danışarkən Peyğəmbərin(s) döyüş sistemi, müdafiə taktikası haqqında ətraflı şəkildə bəhs edəcəyik.

***Ficar döyüşləri***

Bu barədə danışmaq mövzumuzdan xaric olsa da oxucular üçün Ficar döyüşləri haqqında qısaca məlumat vermək istərdik. (Yeri gəlmişkən xatırladaq ki, bəzi tarixçilərin yazdığına görə Peyğəmbər(s) bu döyüşlərdən birində iştirak etmişdir.)

Cahiliyyət dövründə demək olar ki, bütün il boyu ərəblərin başı döyüşə qarışır, yalnız dörd ay - rəcəb, zilqədə, zilhəccə və məhərrəmdə döyüşü saxlayırdılar ki, bu aylarda da ticarətlə məşğul olurdular. Bu dörd ayda Okaz, Məcnə və Zil-məcaz bazarları canlanır, dost-düşmən bir-birini ədalətli olmağa səsləyirdi. Bazarlarda həmçinin şer məclisləri qurulur, natiqlər xütbələr oxuyurdular. Həm yəhudi, həm xaçpərəst, həm də bütpərəstlər çox rahat şəkildə öz əqidələrindən danışırdılar. Lakin ərəblərin tarixində dörd dəfə bu adət pozulmuş və haram sayılan aylar dava-dalaşla, müharibə ilə yadda qalmışdır. Haram aylarda baş verdiyinə görə həmin döyüşlər Ficar döyüşləri kimi tarixə düşmüşdür. İndi bu döyüşlərə ötəri nəzər salaq:

1. Kənanə və Həvazən qəbilələri arasında yaranmış bu münaqişənin səbəbi belə olub: Bədr ibn Məşər adlı bir kişi Okaz bazarında özünə yer düzəldib lovğalıq edirmiş. Bir gün əlinə qılınc alıb deyir ki, camaat hamıdan yaxşı adam mənəm. Dediyimi kim qəbul etmirsə, bu qılıncla öldürülməlidir. Bu zaman bir kişi ayağa qalxıb onun ayağına bir qılınc zərbəsi endirərək ayağını üzür. Bu səbəbdən hər iki şəxsin qəbiləsi ayağa qalxır. Xoşbəxtlikdən qan tökülmədən münaqişəyə son qoyulur.

2. Bir gəncin gözü Bəni-Amirdən olan gözəl bir xanıma sataşır. Oğlan qadından örtüyünü üzündən götürməsini istəyir, qadın isə buna etiraz edir. Gənc oğlan qadının arxasına keçib onun balaqlarını tikanla bir-birinə yapışdırır və qadın ayağa qalxarkən üzü açılır. Hər iki tərəf öz qəbiləsini səsləyir. Qarşılıqlı itkilərdən sonra məsələ öz həllini tapır.

3. Kənanə qəbiləsindən bir kişinin Bəni-Amirdən bir nəfərə borcu var idi. Lakin borclu şəxs bu gün-sabah deyərək borcu ödəməkdən

imtina edirdi. İki qəbilə arasında münasibətlər gərginləşdikdən sonra mübahisəyə son qoyulur.

4. Peyğəmbər(s) məhz dördüncü döyüşdə iştirak etmişdir. Tarixçilər bu zaman Peyğəmbərin 14-15 və ya 20 yaşında olduğunu söyləyirlər. Döyüş dörd il davam etdiyinə görə hər iki ehtimalı qəbul etmək mümkündür.[1] Döyüşün səbəbi belə göstərilir: Noman ibn Münzir hər il Okaz bazarına bir karvan göndərib satılan malların əvəzində ona dəri, qızılı parça və ip almağı tapşırırmış. Karvana Həvazən qəbiləsindən Urvətur-rical adlı bir kişi başçılıq edirmiş. Bəraz ibn Qeys Kənani onun karvana başçılıq etməsindən narazı qalıb Nomana şikayət etsə də nəticəsi olmur. Axırda o, səfərlərin birində Bəni-Mərrə məntəqəsində Urvətur-ricalı qətlə yetirir. Həmin vaxt Qüreyşlə Kənanə qəbilələri müttəfiq idi. Bir nəfər gəlib Qüreyşi baş verən hadisədən xəbərdar edir. Okaz bazarında toplaşmış bütün insanlar hadisədən xəbər tutur. Qureyş və Kənanədən olanlar Həvazən qəbiləsinin adamları gəlib çıxmamış tez hərəmə doğru tələsirlər. (Xatırladaq ki, Kəbənin hər dörd tərəfindən dörd fərsəx məsafədəki ərazini hərəm adlandırır və orada döyüşməyi qadağan hesab edirdilər). Lakin Həvazən qəbiləsi dərhal onları təqib etməyə başlayır və hərəmə çatmazdan qabaq iki qəbilə arasında döyüş başlayır. Havanın qaralması ilə döyüş sakitləşir. Bu fürsətdən istifadə edən Qüreyş və Kənanə qəbilələri hərəm ərazisinə daxil olur. O gündən etibarən Qüreyş və Kənanə nümayəndələri arabir hərəm ərazisindən kənara çıxıb döyüşür, yenidən geri dönürdülər. Bəzən peyğəmbər(s) də əmiləri ilə birlikdə döyüşdə iştirak edirdi. Bu vəziyyət dörd il davam edir, nəhayət, Həvazən qəbiləsindən öldürülənlərin qan bahası ödənilməklə (Həvazəndən öldürülənlərin sayı Qüreyşdəkindən çox idi) döyüş başa çatır.[2]

### *Haqsızlığa qarşı ittifaq*

Hələ qədim dövrlərdə cərhəmlilər arasında «Həlful-Füzul» adlı bir ittifaq bağlanıbmış. Bu ittifaq məzlumların hüquqlarını qorumağa xidmət edirmiş. İttifaqı bağlayanların hər üçünün adı Fəzl olduğu üçün

---

[1] Əl-Kamilu fit-tarix, c-1, s-358-359

[2] Sireyi ibn Hişam, c-1, s-184-187

«Həlful-Füzul» (Fəzllər ittifaqı) adlandırılmışdır. Onlar İbn Əsirin yazdığına görə Fəzl ibn Fəzalə, Fəzl ibn əl-Haris və Fəzl ibn Vədaə olmuşlar[1].

Qüreyşlilərin də bir-biri ilə bağladığı ittifaqın məzmunu eyni olduğundan, onu da «Həlful-Füzul» adlandırmışdılar. Belə ki, həzrət Mühəmməd(s) peyğəmbər seçilməzdən iyirmi il qabaq zilqədə ayında bir kişi ticarət məqsədi ilə Məkkəyə gəlir. Ondan mal alan As ibn Vail əvvəlcədən razılaşdırılmış məbləği ödəmədiyinə görə arada mübahisə yaranır. Satıcının gözü Kəbə kənarında əyləşmiş Qüreyşlilərə düşcək onlardan yardım diləyib bir neçə beyt şer deyir. Qeyrətli olanların damarlarında qan cuşa gəlir. Zübeyr ibn Əbdülmüttəlib ayağa qalxıb haqsızlığa öz etirazını bildirir. Bir neçə nəfər də ona qoşulub Abdullah ibn Cədanın evində toplaşırlar. Onlar and içərək haqsızlığa qarşı mübarizə və imkan daxilində məzlumlara kömək edəcəkləri haqda ittifaq bağlayırlar. Oradan qalxıb As ibn Vailin yanına gəlir və pulunu ödəmədiyi malı ondan geri alıb sahibinə qaytarırlar. Ərəb şairləri bu ittifaqla bağlı çoxlu şerlər yazmışlar.

Məzlumların hüquqlarının qorunmasına xidmət edən bu mərasimdə həzrət peyğəmbər(s) də iştirak etmişdir. Həzrət bu ittifaq barədə buyurmuşdur: «Abdullah ibn Cədanın evində bağlanmış ittifaqa məni indi də dəvət etsələr, yenə qəbul edərəm.» Yəni, mən indi də bu əhd-peymana sadiqəm.

İbn Hişam həzrət peyğəmbərin(s) həmin əhd-peyman haqqında belə buyurduğunu nəql edir: «Mən bu əhd-peymanı qırmızıyunlu dəvələrlə də dəyişmərəm.»

Bağlanmış bu ittifaq o qədər mötəbər sayılırmış ki, hətta sonrakı nəsillər də ona əməl etməyə çalışmışdır. Buna sübut olaraq Müaviyə tərəfindən Mədinəyə vali təyin edilmiş qardaşı oğlu Vəlid ibn Ütbə ibn Əbu Süfyanın valiliyi dövründə baş vermiş bir hadisəni göstərmək olar. Ömründə bircə dəfə də olsun haqsızlığa göz yummayan Hüseyn ibn Əli(ə) nəyə görəsə Mədinə valisi ilə mübahisə edir. İmam Hüseyn(ə) zülmə qarşı mübarizə və camaatı öz haqlarını tələb etməyə həvəsləndirmək məqsədilə üzünü valiyə tutub deyir: «And olsun Allaha,

[1] Əl-Bidayətu vən-nihayə, c-2, s-292

mənə qarşı haqsızlıq etsən, qılınca əl ataraq gedib Peyğəmbər məscidində dayanacaq və camaatı ata-babalarının bağladığı ittifaqa sadiq qalmağa səsləyəcəyəm». Sonra Abdullah ibn Zübeyr də ayağa qalxıb həmin sözləri təkrar edir. Daha-sonra isə əlavə edir: «hamımız ayağa qalxıb ya onun (Hüseyn ibn Əlinin) haqqını alacaq, ya da hamımız bu yolda şəhid olacağıq». Yavaş-yavaş İmam Hüseynin(ə) dəvəti Müsəvvər ibn Müxrimə və Əbdürrəhman ibn Osman kimi qeyrətli adamların da qulağına çatır və dəvəti qəbul edənlərin hamısı İmamın(ə) hüzuruna tələsir. Nəticədə Mədinə valisi vəziyyətin çıxılmaz olduğunu görüb haqsızlıqdan əl çəkmək məcburiyyətində qalır.[1]

[1] Sireyi Hələbi, c-1, s-155-157

## ÇOBANLIQDAN TİCARƏTƏDƏK

Peyğəmbərlik olduqca böyük və məsuliyyətli vəzifədir. Bu yolda insanı əzab-əziyyət, qətl, təhlükəli və müxtəlif çətinliklər gözləyir. Qarşıya qoyulan məqsəd nə qədər böyük olarsa, bu yoldakı çətinliklər də bir o qədər artacaq.

Buna görə də peyğəmbərlərin uğur qazanmalarının əsas səbəbi çətinliklər, haqsızlıqlar qarşısında səbr edib dözmək olmuşdur. İnsanın öz məqsədinə çatmasında səbr ən önəmli amildir. İlahi bir rəhbər düşmənin çoxluğundan, tərəfdarın azlığından qorxub geri çəkilməməlidir.

Peyğəmbərlərin tarixi ilə bağlı elə şeylər oxuyuruq ki, biz adi insanlar onları başa düşməkdə çətinlik çəkirik. Həzrət Nuhla(ə) bağlı deyilir ki, 950 il peyğəmbərlik etmiş və bu müddətdə yalnız 81 nəfəri düz yola çəkə bilmişdir. Bu o deməkdir ki, on iki ilə bircə nəfər ona iman gətirmişdir.

Səbr və dözüm insanda yavaş-yavaş formalaşır. Xoşagəlməz hallar baş verməlidir ki, insan da həmin hadisələrə alışıb səbrli olsun.

Peyğəmbərlər peyğəmbərliyə başlamazdan əvvəl bir müddət çobanlıqla məşğul olmuşdur. Onlar insanların təlim-tərbiyəsi ilə məşğul olmazdan əvvəl heyvanları tərbiyələndirməyə başlamışlar ki, sonradan insanları tərbiyələndirərkən dözümlü, iradəli, səbrli olsunlar. Düşüncə, dərrakə baxımından insanla müqayisə edilə bilməyən heyvanlarla məşğul olmuş şəxs üçün insanlarla məşğul olmaq elə də çətin olmaz.

Hədislərdən birində deyilir: «İnsanlara rəhbərlik etməyi öyrənmək üçün çobanlıq etmədən Allah heç kimi peyğəmbər seçməmişdir».[1]

İslam peyğəmbəri də ömrünün bir hissəsini çobanlıqla keçirmişdir. Əksər tarixçilərin yazdığına görə həzrət buyurmuşdur: **«Bütün peyğəmbərlər peyğəmbərlikdən qabaq çobanlıq etmişlər». Bir nəfər ondan**

[1] Səfinətül-bihar

**soruşur ki, siz də çobanlıq etmisiniz? Buyurur ki, bəli, mən bir müddət Məkkə camaatının sürüsünü aparıb Qəraritdə otarardım.**[1]

Əbu Cəhllər, Əbuləhəblər kimi ağılsız inadkar adamlarla üzləşəcək bir şəxs mütləq qabaqcadan müxtəif yollarla səbr dərsi öyrənməlidir.

Çobanlığın başqa bir səbəbi də odur ki, azad fikirli, mənliyi olan şəxsin haqsız adamların haqsızlıqlarını görməsi çox dözülməzdir. O, Məkkə camaatının haqdan üz döndərməsini, cansız bütlər qarşısında səcdəyə düşmələrini təbii ki, qəbul edə bilməz. Buna görə də Peyğəmbər(s) belə məsləhət görür ki, bir müddət cəmiyyətdəki çirkinliklərdən uzaqlaşıb çobanlıq etsin, bu vasitə ilə mühitdən doğan narahatlıqlardan asudə olsun. Əlbəttə bu o demək deyil ki, təqvalı insan fəsada qarşı sakit durmalı, mübarizə aparmamalı və yalnız özünü düşünməlidir. Sadəcə Peyğəmbər(s) peyğəmbərlik üçün münasib şərait yaranana qədər sükut etmək məcburiyyətində qalmışdı. Çobanlıq etməyi də məhz bu səbəbdən qəbul edir.

Çobanlıq etməyin başqa bir amili də o idi ki, bu iş Allahın nişanələri olan Ayı, Günəşi, ulduzları şeyr etmək üçün gözəl fürsət idi. Peyğəmbərlər hələ anadan olduqda qəlbləri iman nuru ilə dolu olmasına rəğmən İlahi nişanələri seyr etməkdən yayınmırdılar və bu yolla yəqinin son həddinə çatmış olurdular.

### *Əbutalibin təklifi*

Qüreyşə başçılıq edən, səxavəti ilə tanınan Əbutalib, qardaşı oğlunun maddi vəziyyətinin yaxşı olmadığını görüb onun üçün münasib bir iş tapmaq qərarına gəlir. Bu məqsədlə o, qardaşı oğluna təklif edir ki, Qüreyşin imkanlı qadınlarından olan Xüveylid qızı Xədicə, onun ticarət işlərinə başçılıq edəcək və mallarını Şam bazarına aparıb satacaq etibarlı bir adam axtarışındadır. Yaxşı olar ki, Mühəmməd özünü ona təqdim etsin.[2]

Lakin Peyğəmbərin(s) böyük ruhu, mənliyi bu işi heç bir vasitəçisiz etməyə imkan vermir. Buna görə də əmisinə deyir ki, bəlkə Xədicə özü mənim ardımca adam göndərsin? Peyğəmbərin(s) camaat arasında

---

[1] Sireyi ibn Hişam, c-1, s-166

[2] Biharul-ənvar, c-16, s-22

«Əmin» (əmanətdar) ləqəbi ilə ad çıxarmasını yaxşı bilən Xədicə bu məsələdən xəbər tutcaq ardınca adam göndərib bildirir ki, sənin düzgünlük, gözəl əxlaq və etibarın məni heyran qoyub. Mən başqalarına verdiyim məbləğin iki qatını sənə ödəməyə, üstəlik iki nökərimi də sənin ixtiyarında qoyub Şama göndərməyə hazıram.[1]

Peyğəmbər(s) əmisini hadisədən xəbərdar edir. Əbutalib deyir ki, bu sənin həyatının dəyişməsi üçün əla bir fürsətdir.

Bir məsələni qeyd etmək lazımdır ki, Mühəmməd(s) Qüreyş karvanında Xədicənin işçisi kimi iştirak etmişdir, yoxsa Xədicə ilə şərik olub?

Bəni-Haşim nəslinin izzəti, xüsusən də Peyğəmbərin(s) məqamı ikinci variantın həqiqətəuyğun olduğundan xəbər verir.

Çünki əvvəla, Əbutalibin sözlərində qardaşı oğlunun Xədicənin işçisi olmasına dəlalət edəcək bircə kəlmə də yoxdur. O, hələ daha əvvəl də qardaşları ilə məsləhətləşib demişdir ki, qalxın gedək Xədicədən Mühəmməd üçün bir qədər mal götürək, qoy onunla ticarət etsin.[2]

İkincisi də Yəqubinin yazdığına görə Peyğəmbər(s) ömründə kiminsə işçisi olmayıb.[3]

Qureyşin ticarət karvanı səfərə hazır vəziyyətdə idi: Xədicə Mühəmmədə (şərikinə) qiymətli mallarla dolu bir dəvə verir. İki nökərini də ona qoşub onlara tapşırır ki, Mühəmmədin əmrinə tabe olsunlar.

Karvan yola düşüb mənzil başına çatır. Demək olar ki, bu səfərdən hamı qazanc əldə edir. Mühəmmədin(s) qazancı isə başqalarından daha artıq olur. O, eyni zamanda Təhamə bazarında satmaq üçün Şamdan bir qədər mal da alıb gətirir.

Bu səfər zamanı Mühəmməd(s) bir daha Ad və Səmud qövmünün yaşadığı yerləri seyr edir, oralarda hökm sürən ölüm sükutunun şahidi olur. Bu Mühəmmədi(s) başqa bir aləmə çəkib aparır, həm də onun əvvəlki səfər xatirələrini yenidən canlandırırdı. Karvan Məkkəyə yaxınlaşdıqda Xədicənin nökəri Meysərə üzünü Mühəmmədə tutub deyir ki, yaxşı olar sən bizdən qabaq Xədicənin yanına gedib səfərimiz və misli

---

[1] Sireyi ibn Hişam, c-1, s-189; əl-Kamilu fit-tarix, c-2, s-24

[2] Biharul-ənvar, c-16, s-22

[3] Tarixi-Yəqubi, c-2, s-16

görünməmiş qazancımız haqda məlumat verəsən. Mühəmməd(s) bütün olanları Xədicəyə danışır. Çox çəkmir ki, Meysərə də gəlib çatır.[1]

Meysərə səfər boyu baş vermiş və Mühəmmədin(s) yüksək mənəviyyatından xəbər verən bütün hadisələri xırdalıqlarına qədər Xədicəyə danışır. Onu da bildirir ki, Mühəmmədlə bir tacir arasında hansısa mala görə mübahisə yaranmışdır. Tacir Mühəmmədə dedi ki, Lat və Üzzaya and içsən, sözünü qəbul edərəm. Mühəmməd isə dedi ki, mənim yanımda ən alçaq varlıq sənin ibadət etdiyin Lat və Üzzadır.[2] Meysərə Xədicəyə onu da çatdırdı ki, Busra məntəqəsində Mühəmməd bir ağacın kölgəsində oturub dincələrkən yaxınlıqdakı məbəddə ibadət edən rahibin gözü ona sataşır. Gəlib məndən onun adını soruşdu. Sonra da dedi ki, ağacın altında, oturan bu kişi Tövrat və İncildə gəlişi barədə müjdələr verilmiş peyğəmbərdir.[3]

### *İslam xanımı Xədicə*

O vaxtadək Mühəmmədin(s) maddi vəziyyəti elə də ürəkaçan deyildi və əmisinin köməyinə ehtiyacı var idi. Hələ ki, durumu ona evlənib, ailə qurmağa imkan vermirdi.

Lakin onun Qüreyşin ən imkanlı xanımı Xədicənin vəkili olaraq son Şam səfərində iştirak etməsi maddi vəziyyətini xeyli yaxşılaşdırdı. Onun bu iş bacarığı Xədicəni heyran qoymuşdu. Xədicə ona bir qədər artıq pul vermək istəsə də Mühəmməd(s) yalnız əvvəlcədən razılaşdırılmış məbləği götürür. Əbutalibin evinə gələrək onun da vəziyyətini yaxşlaşdırmaq məqsədilə bütün qazancını ona verir. Qardaşı və atasının yeganə yadigarının yolunu həsrətlə gözləyən Əbutalib Mühəmmədi(s) görcək sevincdən gözləri yaşardı. Qardaşı oğlunun ticarətdə uğur qazanması və əldə etdiyi qazancın hamısını onun ixtiyarında qoyması Əbutalibi çox xoşhal etdi. O, iki dəvə alıb ticarəti davam etdirməsi üçün Mühəmmədin(s) ixtiyarına vermək qərarına gəlir. Həm də qazandığı pula onu evləndirmək istəyir.

---

[1] Əl-Xəraic, s-186; Biharul-ənvar, c-16, s-4

[2] Ət-Təbəqatul-kubra, c-1, s-130

[3] Biharul-ənvar, c-16, s-18

Mühəmməd(s) də evlənmək təklifini müsbət qarşılayır. Bəs görəsən necə oldu ki, püşk Xədicənin adına düşdü. Halbuki o vaxtadək Qüreyşin Üqbə ibn Əbu Muit, Əbu Cəhl, Əbu Süfyan kimi imkanlı şəxsləri Xədicədən yox cavabı almışdılar. Bir-biri ilə tam fərqli həyat tərzi keçirən bu iki şəxsi birləşdirən amillər nə idi? Görəsən hansı cəhətlər Xədicəni Mühəmmədlə(s) evlənib bütün sərvətini İslam yolunda xərcləməyə vadar etdi? Fil sümüyündən sədəfdən hazırlanmış oturacaqlarla dolu olan hind ipəkləri, İran zərli pərdələri ilə bəzədilmiş Xədicənin evi nəyə görə sonradan müsəlmanların sığıncağına çevrildi. Bütün bunların səbəbini Xədicənin həyatında axtarmaq lazımdır. Bircə onu deyə bilərik ki, yüksək, pak mənəviyyat olmadan belə böyük addım atmaq qeyri-mümkündür.

Tarix şahiddir ki, bu izdivac Xədicənin pak fitrətə, təqvaya meyilli olmasında, Mühəmmədin(s) isə etibarlı və əmanətdar olduğuna görə baş tutmuşdur. Xədicənin həyatını açıqlayan və onun fəzilətindən bəhs edən hədislər bu məsələni daha da aydınlaşdırır.

Xədicə çox namuslu, pak qadın idi. Həmişə təqvalı, Allahdan qorxan bir ər axtarışında idi. Təsadüfi deyil ki, Peyğəmbər(s) onun barəsində: «Xədicə cənnətin ən fəzilətli xanımlarındandır»-deyə buyurmuşdur. Qadınlar arasında Peyğəmbərə(s) ilk iman gətirən də məhz o olmuşdur. Əmirəl-möminin Əli(ə) İslamın ilk çağlarını əks etdirən bir xütbədə buyurur: **«Peyğəmbərlə Xədicənin ailəsindən savayı heç bir ailə müsəlman deyildi. Mən üçüncü adam idim.»**[1]

İbn Əsir yazır: «Əfif adlı bir tacir Məkkəyə gəlib Məscidül-hərama daxil olur. Məsciddə üç nəfərdən ibarət kiçik bir dəstənin ibadətlə məşğul olduğunu görüb təəccüblənir. O, Mühəmmədin(s) əmisi Abbasla görüşüb gördüklərini ona danışır. Abbas ona deyir ki, gördüyün birinci adam peyğəmbərlik iddiası edir. Arxasındakı qadın onun həyat yoldaşı Xədicə, üçüncü adam da qardaşım oğlu Əlidir. Yer üzündə həmin üç nəfərdən savayı bu dinə qulluq edən adam tanımıram.»[2]

---

[1] Nəhcül-bəlağə, Qasiə xütbəsi
[2] Usdul-qabə

Xədicənin fəziləti haqqında kifayət qədər hədis vardır, lakin biz bu evlənmənin baş tutmasına səbəb olmuş amillərə nəzər yetirmək istəyirik.

*Həzrət Mühəmmədlə(s) Xədicənin evlənməsinin zahiri və mənəvi amilləri*

Hər şeyə maddi aspektdən yanaşan materialistlər belə hesab edirlər ki, Xədicə imkanlı qadın olduğuna görə ticarət işlərində etibarlı bir adama ehtiyac duyurdu. Buna görə də o, Mühəmmədlə evlənir. Mühəmməd də öz növbəsində onun namuslu qadın olduğunu bildiyi üçün aralarındakı yaş fərqinə baxmayaraq Xədicənin təklifini qəbul edir.

Lakin tarixi mənbələrdən məlum olur ki, Xədicə heç də maddi məqsədlərə görə deyil, sırf mənəvi amillər üzündən Mühəmmədə(s) ərə getmişdir. Həmin amillərdən bir neçəsinə diqqət yetirək.

1. Meysərə, Şam səfəri zamanı yolda baş verənlər və xaçpərəst rahibin dediklərini Xədicəyə danışarkən, Mühəmmədin(s) mənəviyyatına vurğunluğundan irəli gələn istək Xədicəni coşdurur və ixtiyarsız olaraq deyir: «Meysərə, yetər, Mühəmmədə olan rəğbətimi ikiqat artırdın. Səni də arvadını da azad edirəm. Özünə də iki yüz dirhəm, iki at və qiymətli geyimlər bağışlayıram.» Sonra Xədicə Meysərədən eşitdiklərini əmisi Vərəqə ibn Nofələ danışır. Vərəqə deyir ki, bu özəlliklər sahibi mütləq peyğəmbərdir.[1]

2. Bir gün Xədicə evində əyləşmiş, qul-qaravaş əhatəsini almışdı. Yəhudi alimlərindən biri də orada idi. Təsadüfən Mühəmməd(s) Xədicənin evi yaxınlığından keçərkən yəhudi alimin gözü ona sataşır. Yəhudi alim Xədicədən xahiş edir ki, bir neçə dəqiqlik Mühəmmədi evə çağırsın. Mühəmməd Xədicənin evinə gəlir. Xədicə yəhudi alimə deyir ki, bunun əmiləri sənin onunla maraqlandığını bilsələr, yaxşı olmaz. Çünki onlar yəhudilərdən çox ehtiyat edirlər. Yəhudi alim deyir: «Allah onu sonuncu peyğəmbər seçdiyi halda ona kim zərər yetirə bilər?» Xədicə: «Sən nədən bilirsən ki, o, sonuncu peyğəmbər olacaq?»-deyə soruşduqda yəhudi alim belə cavab verir: «Mən Tövratda sonuncu peyğəmbərin nişanələrini oxumuşam. Nişanələrdən onu deyə bilərəm ki, ata-anası

[1] Sireyi ibn Hişam, c-1, s-191

ölməli, babası və əmisi onu himayəyə götürməlidir. Evlənəcəyi qadın Qüreyş xanımlarının xanımı olacaq. Xoş o qadının halına ki, ona ərə getmək şərəfinə nail olacaq!»[1]

3. Xədicənin əmisi Vərəqə ibn Nofəl ərəb bilicilərindən idi. O, əhdi-ətiqlə əhdi-qədimdən xeyli məlumatlar öyrənmiş və tez-tez deyirdi ki, Allah camaatı hidayət etmək üçün Qüreyşdən bir nəfər seçəcək. O, Qüreyşin ən imkanlı qadınlarından biri ilə evlənəcək. Xədicə də Qüreyşin imkanlı qadınlarından olduğu üçün Vərəqə ara-sıra ona deyirdi ki, vaxt gələcək sən dünyanın ən şərafətli adamına ərə gedəcəksən.

4. Xədicə bir gecə yuxuda görür ki, günəş Məkkənin üstündə fırlanıb yavaş-yavaş aşağı enir və onun evinə düşür. Yuxusunu Vərəqəyə danışdıqda Vərəqə belə yozur: Sən şöhrəti bütün dünyaya səs salacaq bir kişiyə ərə gedəcəksən.

Bütün bunlar tarixçilərin qeyd etdiyi hadisələrdir. Onlarla tanış olduqdan sonra Xədicənin Mühəmmədə(s) mənəvi bağlılığının səbəbləri üzə çıxır. Mühəmməd(s) əmanətdar, etibarlı adam olduğuna görə Xədicənin ticarət işində ona möhtac olmasının bu evlənmədə elə də böyük təsiri olmayıb.

### *Əbutalibin Xədicədən elçiliyi*

Heç şübhə yoxdur ki, bu səbəbdə ilk addım Xədicə tərəfindən atılmışdır. İbn Hişam yazır: «Xədicə öz ürəyini açıb deyir: «Əmi oğlu, mən aramızdakı qohumluğa, səndə olan gözəl əxlaqa, düz danışmaq və qazandığın etibara görə səninlə ailə qurmaq qərarına gəlmişəm». Mühəmməd(s) onun cavabında buyurur: «Mən bu barədə əmilərimə bildirib onlarla məsləhətləşməliyəm».

Əksər tarixçilər belə hesab edirlər ki, Xədicənin sözünü Əliyyənin qızı Nəfisə Mühəmmədə(s) çatdıraraq demişdir: «Mühəmməd nəyə görə öz həyatını evlənməklə təravətləndirmirsən?. Mən(s) səni gözəllik sərvət, izzət, şərəfə dəvət etsəm qəbul edərsənmi?» Mühəmməd(s) soruşur ki, kimi nəzərdə tutursan? O, Xədicəni nəzərdə tutduğunu

---

[1] Biharul-ənvar, c-16, s-20

bildirdikdə həzrət buyurur: Mənim həyat tərzim onunla uyğun gəlmədiyi halda Xədicə bu işə razı olarmı? Nəfisə deiyr: «Onun ixtiyarı mənim əlimdədir. Sən bir vaxt təyin et, qohumların onun vəkili Əmr ibn Əsədlə bir araya gəlib elçilik etsinlər»

Həzrət Mühəmməd(s) bu barədə məsləhətləşdikdən sonra Qüreyşin tanınmış adamlarının iştirakı ilə böyük bir məclis qurulur. Əbutalib Allaha həmd-səna edərək sözə başlayır: «Qardaşım oğlu Mühəmməd ibn Abdullahı Qüreyş kişilərindən hansı ilə müqayisə etsəniz, o üstün gələr. Düzdür, onun elə də mal-dövləti yoxdur, mal-dövlət kölgə kimi ötüb keçir. Əsl-nəsəb isə qalan şeydir».[1] Əbutalibin çıxışı Qüreyş və Bəni-Haşimi tanıtdırmağa yönəldiyindən Xədicənin qohumu Vərəqə ibn Nofəl dedi: «Qüreyşdən heç kəs sizin fəzilətinizi dana bilməz. Biz məmnuniyyətlə sizinlə qohum olmaq şərəfinə çatmaq istərik.» Beləliklə, nigah mərasimi təşkil olunur və başlıq olaraq dörd yüz dinar mehriyyə təyin edilir. Bəzi mənbələrdə mehriyyənin iyirmi dəvə təyin olunduğu göstərilir.

Tarixçilər arasında nəzəriyyə budur ki, Xədicənin həzrət Mühəmmədə(s) ərə gedərkən 40 yaşı olmuşdur. Bəzi mənbələrdə onun yaşının daha az göstərilməsinə baxmayaraq o, amul-fildən 15 il qabaq anadan olmuşdur. O, əvvəlcə Ətiq ibn Aiz və Əbu Halə Malik ibn Nəbbaş ət-Təmimi ilə ailə qursa da hər ikisi vəfat etmişdir.

---

[1] Biharul-ənvar, c-16, s-16; Mənaqib, c-1, s-30

## EVLƏNMƏKDƏN PEYĞƏMBƏRLİYƏDƏK

İnsan ömrünün ən önəmli mərhələsi gənclik dövrüdür. Çünki məhz bu vaxt insanda şəhvət hissləri baş qaldırır. Şəhvət hissələri insanı hər tərəfdən əhatə edir. İnsanın hətta mal-dövləti olsa belə, həyat bu an çox təhlükəli olur. Çünki bir tərəfdən şəhvani istəklər, digər tərəfdən də maddi imkanlar əl-ələ verib insanı uçuruma aparır. Dini liderlərimiz insan həyatının bu mərhələsini səadətlə bədbəxtliyin sərhədi adlandırmışlar. Bu mərhələdə çox az gənc özünü günahdan qoruyub ağlının sözünə qulaq asar. Belə bir anda günahdan qorunmaq olduqca müşkül məsələdir. Əgər insan düzgün ailə tərbiyəsi görməzsə, şübhə yoxdur ki, gələcəkdə arzuolunmaz aqibətlə üzləşəcək.

*Həzrət Peyğəmbərin gənclik dövrü*

Peyğəmbərin(s) şücaətli, sağlam, qüvvətli olduğuna heç bir şübhə yoxdur. Çünki o, səsli-küylü şəhər mühütindən uzaqda, azad şəraitdə böyümüşdür. Böyüyüb boya-başa çatdığı ailə isə şücaət və cəsarət simvolu idi. Gənclik dövründə də Xədicənin mal-dövləti kimi sərvətə malik olmuşdu və eyş-işrət üçün lazımı şərait yaranmışdı. Lakin gəlin görək o, bu maddi imkanlardan necə istifadə etmişdir? O da digər gənclər kimi keyf-damağ sorağında idi, yoxsa mənəviyyatından da aydın olduğu kimi əlindəki mal-dövləti başqa bir sahədə xərcləyir? Tarix şahiddir ki, Peyğəmbər(s) çox ağıllı həyat sürüb. Eyş-işrətdən həmişə uzaq olub. Təfəkkürə düşüncəyə daldığı həmişə üzündən bəlli olurdu. Hətta cəmiyyətdəki pozğunluqdan uzaq olmaq məqsədilə dağlara, mağaralara çəkilər, Allahın qüdrət nişanələrini seyr edərdi.

***Peyğəmbərin(s) gənclik hissləri***

Məkkə bazarında baş vermiş bir olay Peyğəmbəri(s) çox təsirləndirir. Belə ki, qumar oynayan bir şəxsin dəvəsini, evini, hətta on illik həyatını belə uduzduğunu görən Peyğəmbər(s) bu hadisədən elə

təsirlənir ki, həmin gün Məkkədə qala bilməyib ətraf dağlara çəkilir. Yalnız gecə yarısı keçdikdən sonra evə qayıda bilir. O, həzrət bu cür hadisələri görüb azğın təbəqənin hərəkətlərindən heyrətlənirdi.

Xanım Xədicənin evi həzrət Mühəmmədə(s) ərə getməzdən qabaq yoxsulların ümid yeri idi. Peyğəmbər onunla ailə qurduqdan sonra da bu vəziyyət dəyişmədi. Qəhətlik illərində bəzən həzrətin süd anası Həlimə onun yanına gələr, Peyğəmbər(s) əynindəki əbanı çıxarıb onun ayaqları altına sərərdi. Sadə yaşadığı günləri xatırlayıb Həlimənin dedikləini dinləyərdi. Gedərkən gücü çatdığı qədər Həliməyə kömək edərdi.[1]

### *Peyğəmbərin Xədicədən olan uşaqları*

Uşaq ailə tellərini bir-birinə daha da möhkəm bağlayır. Peyğəmbərin(s) Xədicədən altı uşağı olmuşdur ki, onlardan ikisi oğlan, dördü qız idi. Oğlanları Qasimlə Abdullah (onlara müvafiq olaraq Tahir və Təyyib deyirdilər), qızları isə Rüqəyyə, Zeynəb, Ümmü-Külsüm və Fatimə olmuşlar. Hər iki oğlu peyğəmbər seçilməzdən öncə vəfat etmişdir.[2]

Arzuolunmaz hadisələr zamanı Peyğəmbərin(s) təmkinli olması, səbri dillər əzbərinə çevrilmişdi. Lakin bununla belə bəzən özünü saxlaya bilməyib ağlayardı. (Mariyadan olan oğlu) İbrahimin vəfatından həddən artıq kədərlənib ürəyi yansa da dilindən Allahın şükrü düşmürdü. Hətta heç nədən xəbəri olmayan bir ərəb ağlamasını həzrətə etiraz edərkən, onun cavabında buyurmuşdu ki, bu, mərhəmət üzündən ağlamaqdır. Mərhəmətli olmayan, mərhəmət görməz.[3]

### *Əsassız bir iddia*

Doktor Heykəl yazır: «Uşaqlarının hər biri vəfat etdikdə şübhəsiz, Xədicə bütlərin hüzuruna gedib tanrıların öz mərhəmətini nəyə görə ondan əsirgədiklərini soruşarmış».[4]

---

[1] Sireyi Hələbi, c-1, s-103

[2] Əl-Xisal, c-2, s-37; Qurbul-isnad, s-6-7; Biharul-ənvar, c-22, s-151-152

[3] Əmali Şeyx, s-247

[4] Həyatu Mühəmməd, s-128

Bu iddianı təsdiqləyəcək heç bir sənəd yoxdur və bu, gümandan başqa bir şey deyil. Bu güman da ondan qaynaqlanır ki, o vaxt camaatın əksəriyyəti bütpərəst olduğundan, deməli, Xədicə də bütpərəst olubmuş. Halbuki Peyğəmbər(s) hələ yeniyetməlik dövründən bütlərə nifrət edərdi. Az öncə qeyd etdiyimiz kimi Şama ticarət səfərində yaranmış mübahisəni həll etmək üçün həzrətdən Lat və Üzzaya and içməsini istəyən tacirə «Lat və Üzza ən nifrət etdiyim şeylərdəndir»-deyə buyurmuşdu. Belə olduğu halda ərinə hədsiz sevgisi olan, ərinin bütlərdən zəhləsi getdiyini bilən Xədicə kimi bir xanımın, uşaqlarının ölümündə bütlərə üz tutması nə dərəcədə məntiqəuyğundur? Hələ üstəlik onun Mühəmmədlə(s) ailə qurmasının əsas səbəbi mənəviyyat olmuşdu. Çünki o, Mühəmmədin(s) sonuncu peyğəmbər olduğunu öyrənmişdi. Belə bir vəziyyətdə onun bütlərə şikayət etməsini necə qəbul etmək olar?

***Həzrət Mühəmmədin(s) oğulluğu***

Həzrət Peyğəmbər(s) Zeyd ibn Harisəni hicri-İsmaildə öz oğulluğu elan edir. Zeydi ərəb oğruları Şam sərhədlərindən oğurlayıb gətirmiş və Məkkə bazarında Xədicənin qohumlarından olan Həkim ibn Həzana qul kimi satmışdılar. Lakin sonradan Xədicənin onu necə aldığı məlum deyil. «Mühəmmədin həyatı» kitabının müəllifi doktor Heykəl yazır: «Peyğəmbər(s) oğlanlarının vəfatına çox narahat olduğu və bir qədər təskinlik tapması üçün Xədicədən Zeydi almasını istəyir. Sonra da həzrət onu azad edib oğulluğa götürür.»[1] Lakin əksər tarixçilər belə hesab edirlər ki, Həkim ibn Məzahim Zeydi bibisi Xədicə üçün almışdır. Xədicə Peyğəmbərə ərə getdikdən sonra onu da həzrətə bağışlayır. Zeyd çox təmiz ağıllı bir gənc idi. Peyğəmbər ona həddən artıq rəğbət bəslədiyinə görə Xədicə onu həzrətə bağışlamışdır. Bir müddət keçdikdən sonra Zeydin atası oğlunu soraqlaya-soraqlaya gəlib Məkkəyə çıxır. Peyğəmbərdən(s) oğlunu buraxmasını xahiş etdikdə, həzrət, Zeydə Məkkədə qalmaqla atası ilə getmək arasında seçim ixtiyarı verir. Zeyd, peyğəmbərin(s) ona göstərdiyi qayğıya görə o həzrətin yanında qalmağa

[1] Həyatu Mühəmməd, s-203

üstünlük verir. Bundan sonra Peyğəmbər də onu azad edib oğulluğa götürür və Cəhşin qızı Zeynəbi ona alır.[1]

***Bütpərəstlər arasında fikir ayrılığı***

Həzrət Mühəmmədin(s) peyğəmbər seçilməsi Qüreyşdə fikir ayrılığına səbəb olur. Lakin bunun kökləri daha əvvəllərə gedib çıxır. Hələ Mühəmmədin(s) peyğəmbər seçilməsindən qabaq bir çoxları ərəblərin dininə nifrət etdiyini bildirir, künc-bucaqda ərəblərin arasından bir peyğəmbər çıxıb təkallahlıq dinini yayacağından danışılırdı. Yəhudilər deyirdilər ki, biz onun dininə tabe olacağıq. Çünki bizim dinlə onun gətirəcəyi yeni dinin kökləri eyni olacaq. Onun rəhbərliyi ilə biz bütləri yıxıb bütpərəstliyə son qoyacağıq.

İbn Hişam yazır: «Yəhudilər bütpərəst ərəbləri (bütpərəstliyə son qoyacaq) yeni bir ərəb peyğəmbərin gəlişi ilə hədələyirdilər. Bu söhbətlər bütpərəstliyin sonunun yaxınlaşdığından xəbər verirdi. İş o yerə çatmışdı ki, bəzi ərəb qəbilələri yəhudilərin əvvəlki təbliğatları nəticəsində İslam peyğəmbərinə iman gətirmiş, yəhudilər isə açıqlayacağımız səbəblər üzündən İslamı qəbul etmirlər. Aşağıdakı ayə də məhz bununla əlaqədar nazil olmuşdur: ***«Onlara Allah tərəfindən əllərindəkini (Tövratı) təsdiq edən bir kitab (Quran) göndərildiyi zaman (onu qəbul etmədilər). Halbuki əvvəlcə (Rəsulumdan qabaq) kafirlərə (ərəb müşriklərinə) qələbə çalmaq üçün (Tövratda adı çəkilən axirüzzaman peyğəmbər gəlib bizə yardım edəydi!-deyə Allaha) yalvarırdılar. Bildikləri (peyğəmbər) gəldikdə isə (paxıllıq edib) ona inanmırdılar. Allah kafirlərə lənət eləsin!»***[2]

***Bütpərəstliyin təməli sarsılır***

Qüreyşin ənənəvi bayram şənliklərindən birində baş vermiş hadisə bir çoxlarında artıq bütpərəstliyin təməlinin sarsılması haqqda fikir yaradır. Belə ki, bütpərəstlər bütlərin ətrafına yığılıb səcdəyə qapandıqları zaman bilikləri ilə fərqlənən dörd nəfər onların bu hərəkətini bəyənməyib bir-biri ilə pıçıldaşmağa başlayırlar. Onların danışdıqları

---

[1] Əl-İsabə, c-1, s-545; Usdul-qabə, c-2, s-224
[2] Bəqərə-89

arasında belə bir fikir də olmuşdur ki, bizim qövmümüz İbrahimin yolundan uzaqlaşaraq eşitməyən, görməyən, heç bir xeyri-ziyanı olmayan bu bütlərə sitayiş edir.[1] Bu dörd nəfər aşağıdakılar olmuşlar:

1. Bir çox araşdırmalar apardıqdan sonra xaçpərəstliyi qəbul edib əhdi-ətiqlə, əhdi-cədiddən kifayət qədər məlumat əldə etmiş Vərəqə ibn Nofəl.
2. İslamdan sonra müsəlmanlığı qəbul edərək Həbəşistana hicrət etmiş Abdullah ibn Cəhş
3. Araşdırmalardan sonra İbrahimin(ə) dinini qəbul etmiş Zeyd ibn Əmr ibn Nüfeyl
4. Sonradan Bizans imperatorluğuna gedərək xaçpərəst olmuş Osman ibn Hüveyris

Bütpərəstlikdə belə halların baş verməsi o demək deyil ki, həzrət Peyğəmbərin(s) dəvəti də məhz onların dəvətindən qaynaqlanmışdır. Onlar sadəcə bütpərəstlikdən əl çəkmişdir və Peyğəmbərin(s) cahanşümul dəvəti ilə heç bir əlaqəsi olmamışdır. Ümumiyyətlə həzrət Mühəmməd(s) peyğəmbər seçildiyi vaxt hənif dini (həzrət İbrahimin(ə) dini) Hicazda tamamilə aradan getməmişdi və az-çox bu dində qalanlar var idi. Lakin onların sayı bütün cəmiyyətə təsir edəcək həddə deyildi. Onlar Allahın təkliyinə məada inanır, bəzi əxlaqi məsələlərə önəm verirdilər. Peyğəmbər(s) dəvətinin onlardan qaynaqlandığını söyləmək sadəcə ağılsızlıq olardı.

***Qüreyşin zəifliyini göstərən başqa bir nümunə***

Həzrət Mühəmməd(s) 35 yaşında ikən Qüreyşdə böyük bir ixtilaf yaranır. Mübahisə məhz Peyğəmbərin(s) müdaxiləsindən sonra başa çatır. Bu da onu göstərir ki, o həzrət camaatın arasında böyük nüfuza, etirama malik imiş. Hadisə belə baş vermişdir ki, Məkkənin hündür dağlarından axan sel Kəbəyə xəsarət yetirir. Qüreyş onu təmir etmək qərarına gəlsə də oranı uçurmağa ehtiyat edirdi. İlk oaraq Vəlid ibn Müğeyrə əlinə külüng götürüb Kəbənin iki küncünü sökməyə başlayır. Qorxudan onun bütün bədəni lərzəyə gəlmişdi. Camaat nəsə qorxulu bir

[1] Sireyi ibn Hişam, c-1, s-222-223

hadisənin baş verəcəyini gözləyirdi. Lakin Vəlidin bütlərin qəzəbinə gəlmədiyini görüb əmin oldular ki, onun əməlinə bütlər də razıdır. Təsadüfən həmin vaxt Misirdən gələn və bizanslı bir tacirə məxsus gəmi Cəddə limanı yaxınlığında tufana düşərək xarab olmuşdu. Bundan xəbər tutan Qüreyş gəminin taxtalarını alıb Kəbənin təmirində istifadə etmək üçün Cəddəyə bir neçə adam göndərir. Taxtalar satın alındıqdan sonra Məkkədə yaşayan qibti bir dülgərə təhvil verilir.

Təmir işləri yavaş-yavaş davam etdirilir. Kəbə divarları insan boyuna çatdıqda Həcərül-əsvədi (qara daşı) yerinə qoymaq lazım gəlir. Mübahisə də məhz bu zaman yaranır. Belə ki, bu şərəfə nail olmağı dörd qəbilədən hər biri özünə arzulayırdı. Bəni-Əbdüddarla Bəni-Üdeyy bir-biri ilə saziş bağlayır ki, bu şərəfin başqa qəbiləyə nəsib olmasına imkan verməsinlər. Hətta qanla dolu bir qab gətirib əllərini qana batıraraq and da içirlər. Bu səbəbdən təmir işləri beş gün dayandırılır. Vəziyyət olduqca gərginləşmişdi. Qüreyşdən olan bütün dəstələr Məscidül-həramda toplaşıb qanlı toqquşmanı gözləyirdilər. Nəhayət Əbu Üməyyə ibn Müğeyrə Məxzumi adlı yaşlı bir kişi təklif edir ki, gəlin gözləyək görək Şəfa qapısından (bəzi mənbələrdə Salam qapısından göstərilir) içəri daxil olan şəxs kim olarsa, bu məsələdə onu hakim təyin edək. O, nə deyərsə, dediyi ilə razılaşaq. Bu təklifi hamı qəbul edir. Bu zaman Mühəmməd(s) həmin qapıdan Məscidül-harama daxil olur. Onu görcək hamı deyir ki, bu Mühəmməd-Əmindir. Biz onun deyəcəyinə razıyıq. Mühəmməd(s) mübahisəyə son qoymaq məqsədilə bir parça gətirilməsini tələb edir. Öz mübarək əlləri ilə Qara daşı parçanın arasına qoyub buyurur ki, hər dörd qəbilənin başçısı parçanın bir ucundan yapışıb qaldırsın. Sonra isə Mühəmməd(s) şəxsən özü daşı götürüb öz yerinə qoyur. Beləliklə də qanlı toqquşmaya səbəb olacaq bu mübahisəyə son qoyulur.[1]

### *Həzrət Mühəmməd(s) Əlini (ə) öz evinə aparır*

Məkkədə qəhətlik baş vermiş illərdən birində Mühəmməd(s) əmisi Əbutalibə kömək etmək qərarına gəlir. Məsələni əmisi Abbasa xəbər verib bildirir ki, Əbutalibin ailəsi böyük (və xərci çox) olduğundan,

[1] Sireyi ibn Hişam, c-1, s-212-232; Kafi, c-4, s-217

yaxşı olar hərəmiz onun uşaqlarından birini götürüb saxlayaq. Bləliklə, Abbas Cəfəri, Mühəmməd(s) isə Əlini öz evinə aparır.

Əbülfərəc İsfahani yazır: «Abbas Talibi, Həmzə Cəfəri, Mühəmməd(s) isə Əlini(ə) öz evinə aparır. Bundan sonra Peyğəmbər buyurur ki, mən Allahın mənim üçün seçdiyini seçdim[1].

Həzrət Mühəmməd(s) bu hərəkətlə məqsədi zahirdə Əbutalibə kömək etmək olsa da, əslində o başqa məqsəd güdmüşdür. O da bu idi ki, o həzrət Əlini(ə) öz qucağında böyüdüb onu öz əxlaqı ilə tərbiyələndirmək istəmişdir. Əmirəl-möminin Əli(ə) özü Nəhcül-bəlağədə bu barədə buyurur: **«Siz hamınız mənim Peyğəmbərlə necə yaxın olduğumdan xəbərdarsınız. O, məni öz qucağında böyütmüşdür. Uşaq ikən məni bağrına basar, öz yanında yatızdırardı. Mən o həzrətin xoş ətrini alırdım. O, hər gün mənə əxlaqi dəyərlərindən birini öyrədirdi»**[2]

### *Həzrət Mühəmmədin(s) peyğəmbərlikdən qabaqkı dini*

O həzrət anadan olduğu gündən vəfat edənədək bircə an da olsun Allahdan başqasına ibadət etməyib. Onu himayələrində də saxlamış Əbdülmüttəlib, Əbutalib kimi şəxslər də təkallahlıq əqidəsində olmuşlar. Xatırlayırsınızsa, Əbrəhənin ordusu Kəbəyə hücum edərkən Əbdülmüttəlib Kəbənin qapısından yapışaraq Allaha müraciətlə: «Ümidim yalnız sənədir»-demişdir. Əbutalib də qəhətlik illərində Mühəmmədin(s) əlindən tutaraq onu dağa aparmış və Allahı məhz ona and verməklə yağış istəmişdir. Elə Mühəmməd(s) özü də Busradakı xaçpərəst rahiblə danışarkən bütlərə nifrət etidyini bildirmişdir. Belə ki, rahib ona: «Səni and verirəm lat və Üzzaya, soruşacağım suallara düz cavab ver!»-deyərkən o həzrət ona: «Mənə heç vaxt Lat və Üzzaya and içdirmə! Çünki mən dünyada onlara pərəstişdən çox heç nəyə nifrət etmirəm»-deyə cavab vermişdir. Sonra rahib ona demişdir: «Səni and verirəm Allaha, soruşacaqlarım barədə mənə məlumat ver!» Mühəmməd(s) də ona: «Nə istəyirsən, soruş!»-deyə cavab vermişdir.[3]

---

[1] Məqatilut-talibin, s-26; Sireyi ibn Hişam, c-1, s-236

[2] Nəhcül-bəlağə, 190-cı xütbə

[3] Tarixul-xəmis, c-1, s-258

Bütün bunlar Mühəmmədin(s) eləcə də bütün Əbdülmüttəlib xanədanının təkallahlıq əqidəsində olduğundan xəbər verir. Bunun ən bariz nümunəsi isə həzrət Mühəmmədin(s) hələ peyğəmbər seçilməzdən öncə Həra mağarasında ibadətlə məşğul olmasıdır. Bütün tarixçilər bildirmişlər ki, həzrət Mühəmməd(s) ildə bir neçə ay Həra mağarasında ibadətlə məşğul olurmuş. Bu barədə Əli(ə) belə buyurur: **«Peyğəmbər hər il Həra mağarasında məskunlaşırdı. Məndən başqa onu heç kim görə bilmirdi.»**[1]

Həzrət Mühəmməd(s) peyğəmbər seçildiyi gün də Həra mağarasında ibadətlə məşğul imiş. Əli(ə) bu barədə buyurur: **«Peyğəmbər süddən ayrıldığı gündən etibarən Allah-taala ən böyük mələyi onun tərbiyəsi ilə məşğul olmaq üçün ayırır. Həmin mələk gecə-gündüz ona əxlaq öyrədirdi.»**[2] Ən böyük mələyin nəzarəti altında saxlanılan bir uşaq təbii ki, bir an da olsun, tövhid yolundan kənara çıxa bilməz. Bunda qətiyyən şübhə yoxdur. Məsələ burasındadır ki, o həzrət peyğəmbər seçilənə qədər İbrahim(ə) peyğəmbərin dinində olmuşdur, yoxsa İsanın(ə) dinində? Bəlkə öz şəriətinə əməl edirmiş? Bu məsələ əqaid mövzusuna aid olub tarix çərçivəsindən çıxdığı və mövzunu uzadacağı üçün bu haqda danışmırıq.

### *Həzrət Mühəmmədin(s) həzrət İsa(ə) ilə müqayisəsi*

Heç bir şübhə yoxdur ki, sonuncu peyğəmbər hər cəhətdən digər peyğəmbərlərdən üstün olmuşdur. Quran bəzi peyğəmbərlərin hələ uşaq ikən peyğəmbərliyə çatdığını açıq-aşkar söyləyir. Məsələn Yəhya(ə) haqqında buyurur: ***«Yəhya dünyaya gəldikdə ona dedik: «Ey Yəhya! Kitabdan (Tövratdan) bərk yapış!» Biz uşaq ikən ona hikmət (peyğəmbərlik) verdik.***[3] ***İsa(ə) beşikdə olarkən Bəni-İsrailin başçıları onun anası Məryəmi(s.ə) zinakarlıqda ittiham edirdilər. Həzrət Məryəm(s.ə) beşiyə işarə edərək həqiqəti beşikdəki körpədən öyrənmələrini istəyir. Bu zaman İsa(ə) Allahın izni ilə dilə gəlib buyurur: «Mən həqiqətən Allahın quluyam. O, mənə kitab (İncil) verdi; özümü də***

---

[1] Nəhcül-bəlağə, 190-cı xütbə; Feyzul-İslam, s-775

[2] Nəhcül-bəlağə, 190-cı xütbə

[3] Məryəm-19

***peyğəmbər etdi. O, harada oluramsa olum, məni mübarək etdi və mənə diri olduqca namaz qılıb zəkat verməyi tövsiyə buyurdu.»***[1] İsa(ə) hələ uşaq ikən peyğəmbər seçildiyini bildirirsə, Yəhya(ə) uşaqlıqdan peyğəmbər seçilirsə, bütün bəşəriyyətin rəhbəri, hamıdan üstün olan həzrət Mühəmməd(s) qırx yaşınadək, yəni, peyğəmbər seçilənə qədər Alallahdan qeyrisinə ibadət edərmi? İnsafən deməliyik ki, bu, sadəcə mümkünsüz olmuşdur.

[1] Məryəm 30-31

# İLK HƏQİQƏT İŞARTILARI

Əsl İslam tarixi həzrət Mühəmmədin(s) peyğəmbər seçildiyi gündən başlayır. Mühəmməd(s) Allah tərəfindən peyğəmbər seçilməklə boynuna ağır bir məsuliyyət götürmüş olur. Bu vəzifəni ondan əvvəlki peyğəmbərlər də daşımışlar. Həmin gün həzrət Müəmmədin(s) gedəcəyi yol daha aydın olur. O, həzrətin peyğəmbər seçilməsi haqqında məlumat verməzdən qabaq peyğəmbərlərin seçilməsinin lüzumu və onların bəşəriyyətin islah olunmasındakı rolu haqqında danışmaq istərdik.

Allah-taala hər bir varlıqda səadət, inkişaf, tərəqqi potensialı yaratmış və buna çatmaq üçün onu müxtəlif vasitələrlə təchiz etmişdir. Məsələn kiçik bir ağac budağını təsəvvür edin. Onun inkişaf etməsi üçün bir çox vasitələr fəaliyyət göstərir. Torpaq, günəş şüaları, budağın öz rişələri onun inkişafına xidmət edir. Və yaxud gül ləçəyini nəzərdə tutun. Gülün kasası bütün ləçəkləri əhatə edir, hər bir detal öz funksiyasını lazımi şəkildə idarə edir. Bir qədər irəli getsək, görərik ki, heyvan və insanlarda bu amillər onların inkişafı üçün daha aktiv şəkildə fəaliyyətdədir. Bütün bunları elmi şəkildə bəyan etmək istəsək, onda deməliyik ki, yaradılışdakı ən böyük nemət olan təkvini (fitri) hidayət bütün məxluqata-bitki, heyvan və insana aiddir. Quran bu fikri «***Allah hər bir varlğı yaradıb onu düz yola hidayət etdi***» ayəsi ilə bəyan edir. Bu ayə ilə Allah-taala bildirir ki, ən kiçik hissəcik olan atomdan tutmuş bütün kəhkəşanlaradək-hamısı bu İlahi mərhəmətdən faydalanır. Allah istənilən məxluqu yaratdıqdan sonra ona tərəqqi yolunu göstərmiş və bu yolda irəliləməkdən ötrü onları müxtəlif vasitələrlə təmin etmişdir. Bu, yaradılış dünyasında istisnasız olaraq hökm sürən təkvini (fitri) hidayətdir.

Bütün məxluqatın şahı sayılan insan üçün təkcə bu hidayət yetərli sayıla bilərmi? Təbii ki, yox. Çünki insanın maddi və fiziki həyatla yanaşı, həm də onun əsas həyatını təşkil edən mənəvi bir həyatı da vardır. Əgər insan da bitki və heyvanlar kimi təkcə maddi həyatdan

ibarət olsaydı, onda maddi amillər onun inkişaf və səadəti üçün yetərli olardı. Lakin insan həm maddi, həm də mənəvi həyata malik olduğundan, səadətə çatmaq üçün hər ikisi inkişaf etməli olduğundan, təkcə maddi amillər bu səadət üçün yetərli deyil.

Qədim dövrlərdə mağaralarda yaşayıb hələ çox çirkinliklərə aludə olmamış insanın ictimai şəkildə yaşayan insandan daha az tərbiyəyə ehtiyacı olardı. Lakin insan cəmiyyətə qoşulduqda cəmiyyətdəki əyriliklər, pozuntular onda öz təsirini buraxır, onun fitrətindəki amillər yanlış amillərlə yerini dəyişir. Bu yolundan azmalar da Allah-taalanı insanları haqq yola yönəltməkdən ötrü onlar üçün bələdçilər-peyğəmbərlər göndərmək məcburiyyətində qoyur ki, qoy onlar vəhy vasitəsilə insanları səadətə çatdırsın.

Heç bir şübhə yoxdur ki, ictimai həyatın müsbət cəhətləri olduğu kimi bir sıra mənfi cəhətləri də vardır. Məhz buna görə Allah azğınların qarşısını alıb cəmiyyəti imkan daxilində düz yola yönəltməkdən ötrü peyğəmbərlər göndərmişdir.

### *Cəmiyyətin islah olunmasında peyğəmbərlərin rolu*

Adətən belə təsəvvür edilir ki, peyğəmbərlər camaata təlim-tərbiyə vermək üçün Allah tərəfindən göndərilmiş müəllimlərdir. Şagird orta məktəbdə, ali məktəbdə müəllimlərdən dərs öyrəndiyi kimi, insanlar da peyğəmbərlərdən təlim almaqla təkamülə doğru irəliləyirlər. Bu fikir nə qədər doğru olsa da qeyd etmək lazımdır ki, peyğəmbərlər camaata təlim keçmir, onları tərbiyələndirirlər. Onların vəhy vasitəsilə camaata çatdırdıqları heç də təzə şeylər deyil, insan fitrətində olanları xatırlatmaqdır. Əgər insan fitrəti əyriliklərə, azğınlaşmaya məruz qalmasaydı, onda peyğəmbərlərin dedikləri aşkar şəkildə ortaya çıxardı. Əmir-əlmöminin Əli(ə) peyğəmbərlərin göndərilməsi barədə buyurur: «Allah Adəm övladları arasından peyğəmbərlər seçərək onlarla Allahın mesajını camaata çatdırmaq üçün əhd-peyman bağladı. Peyğəmbərləri göndərdi ki, camaatın unutduğu fitrəti onların yadına salsın, onları haqqa dəvət etməklə höccəti tamamlasın, fitrətlərindəki inciləri üzə çıxarsın».[1]

---

[1] Nəhcül-bəlağə, 1-ci xütbə

Gəlin sadə bir misala diqqət yetirək. Peyğəmbərlərin camaatı tərbiyələndirməkdəki rolu kiçik bir ağaca qulluq edən bağbanın roluna bənzəyir. Kiçik ağacın böyümək üçün potensial imkanı var. Onun rişələri münbit torpağa işləyib özü də gün işığı ilə lazımi şəkildə təmin olunduqda artıq o, inkişaf etməyə başlayır. Bu zaman bağbanın iki vəzifəsi var. Biri odur ki, o, ağacın inkişafı üçün lazımi şəraiti hazırlamalıdır. Digəri də odur ki, ağacı əyriliklərdən qorusun. İkinci halda bağbanın vəzifəsi ağacı yetişdirmək deyil, ağacı qorumaq və inkişafı yolundakı maneələri aradan qaldırmaqdır. Allah-taala da insanı yaratmış, onun daxilində müxtəlif qüvvələr, hisslər yerləşdirmişdir. Onda haqq-ədalət hissi, Allah axtarma hissi, insaf, mərdlik və s. kimi xislətlətlər yaratmışdır. Bu xislətlər get-gedə insanda inkişaf etməyə başlayır. Lakin istər-istəməz ictimai həyat onda müəyyən əyriliklər yaradır. Məsələn, səadət və əbədiyyət sevgisi özünü istəməyə, dünyaya bağlılığa, Allaha bəndəlik etmək isə bütpərəstliyə çevrilir. Belə bir vəziyyətdə peyğəmbərlər vəhy nuru və düzgün həyat proqramı vasitəsilə insanın səadəti üçün lazımi şəraiti hazırlayırlar. Əmirəl-möminin Əli(ə) öncə qeyd etdiyimiz kimi buyurmuşdu ki, Allah-taala yaradılışın əvvəlində insanlarla əhd-peyman bağlamışdır. Bəs bu əhd-peymandan məqsəd nədir? Məqsəd odur ki, gözəl xislətləri yaratmış Allah insanlarla əhd bağlayır ki, gözəl əxlaqa, gözəl xislətlərə yiyələnsinlər. Peyğəmbərin də vəzifəsi odur ki, insanları Allahla bağladıqları əhd-peymana sadiq qalmağa çağırsınlar və əgər bu fitri amilin üzərinə kölgə düşübsə, onu aradan qaldırsınlar. Məhz bu baxımdan səmavi şəriətlər fitrətə əsaslanır. Belə ki, peyğəmbərlər insanın daxilində pak, gözəl xislətlərin olduğunu bilir və öz dəyərli təlimləri ilə onu üzə çıxarıb fitri halına qaytarır. Fitri hissləri ona aşılamaqla onu daxilindəki xislətlərə yönəldir.

### *Həzrət Mühəmməd(s) Həra mağarasında*

Həra mağarası Məkkənin şimalında yerləşir. Yarım saat ərzində yerdən mağaraya qalxmaq mümkündür. Dağ qara daşlarla əhatə olunmuşdur. Orada heç bir həyat nişanəsi yoxdur. Mağaranın hündürlüyü təxminən insan boyu qədərdir. Mağaranın daxilində bir hissəyə gün işığı düşsə də digər hissəsi əbədi zülmətə məhkumdur. Hal-hazırda müsəlmanlar oranı bir ziyarətgah olaraq ziyarət edirlər.

Həzrət Mühəmməd(s) hələ peyğəmbər seçilməzdən qabaq müəyyən vaxtlar orada qalıb gecə-gündüz ibadətlə məşğul olardı. O, həzrət hər il bütün ramazan ayını eləcə də ilin bəzi günlərini səs-küydən uzaq bu mağarada keçirərdi.

Sevimli həyat yoldaşı onun evə gəlmədiyini gördükdə mağaraya getdiyinə əmin olurdu. Kimisə onun ardınca göndərdikdə gəlib Mühəmmədin(s) ibadət və təfəkkürlə məşğul olduğunu görərdi.

O həzrət, peyğəmbər seçilməzdən öncə əsasən iki məsələ haqqında düşünürdü. Birinci o idi ki, yer-göy haqqında fikirləşir, hər bir varlıqda Allahın nurunu, elmini, qüdrətini görür və bu yolla qeyb aləminə özü üçün yollar açırdı. İkincisi də o idi ki, boynuna qoyulacaq ağır məsuliyyət haqqında düşünürdü. O cür çirkinliklər içərisində çabalayan o dövrün cəmiyyətini islah etmək, onun üçün mümkünsüz deyildi, ancaq mümkünsüz olmadığı kimi, əziyyətsiz də deyildi. Buna görə də o həzrət məkkəlilərin çabaladığı fitnə-fəsadı görüb islah edilməsi yolları haqqında baş sındırırdı. Camaatın cansız bütlərə ibadət etməsini görüb təsirlənir, lakin hələ heç nəyi açıb-ağartmaq ixtiyarı olmadığı üçün dillənmirdi.

***Vəhyin başlanması***

Allah tərəfindən göndərilən bir mələk hidayət və səadət kitabından ayələri oxumaqla Mühəmmədi(s) peyğəmbər seçilməsindən xəbərdar etmək üçün mağaraya göndərilir. Həmin mələk Cəbrail, həmin gün isə besət (və yaxıd məbəs, yəni Mühəmmədin(s) peyğəmbər seçildiyi gün) günü idi. Bu barədə irəlidə ətraflı bəhs edəcəyik.

Şübhəsiz ki, mələklə üzləşməkdən ötrü tam hazırlıqlı olmaq lazımdır. İnsanın ruhiyyəsi böyük, qüvvətli olmasa, mələklə görüşmək, peyğəmbərlik yükünü daşımaq iqtidarında ola bilməz. Mühəmməd(s) buna mütəmadi ibadətləri, təfəkkürləri və Allahın lütfü sayəsində çatmışdı. Bir çox tarixçilərin yazdığına görə o həzrət hələ peyğəmbər seçilməzdən öncə yuxular görər, gördüyü yuxular sonradan, olduğu kimi çin çıxırdı.[1] Onun üçün ən gözəl an, təklikdə xəlvətə çəkilib ibadət

---

[1] Səhihi Buxari, c-1, elm fəsli, s-3; Biharul-ənvar, c-18, s-194

etdiyi an idi. Bu anlardan birində əlində lövhə tutmuş bir mələk gəlib onun qarşısında duraraq: «Oxu!»-deyə ona müraciət edir. Yazıb-oxumaq bilmədiyi üçün cavab verir ki, mən yazıb-oxumağı bacarmıram. Vəhy mələyi bir daha təkid edir, o da öz növbəsində həmin cavabı verir. Üçüncü dəfə vəhy mələyi daha təkidlə: «Oxu!»-dedikdə Mühəmməd(s) hiss etdi ki, mələyin əlindəki tablonu oxuya bilir. Beləliklə də ilk nazil olan aşağıdakı Quran ayələrini oxuyur: ***«(Bütün məxluqat yoxdan) yaradan Rəbbinin adı ilə oxu! O insanı laxtalanmış qandan yaratdı. Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi. (O Rəbbin ki) insana bilmədiklərini öyrətdi!»***[1]

Vəhy mələyi öz vəzifəsini yerinə yetirdikdən sonra Mühəmməd(s) Həra mağarasından çıxıb Xədicənin evinə gəlir.[2]

***Materialist nöqteyi-nəzərindən yanaşma***

Bəzi alimlər təbiət elmlərinin inkişafı nəticəsində mənəvi və təbiət elmləri çərçivəsindən kənar məsələlər haqqında düşünmək istəmirlər. Onlar belə hesab edirlər ki, dünya yalnız maddi aləmdən ibarətdir. Materialist qanunlarının açıqlaya bilmədiyi məsələlər isə mövhumatdan başqa bir şey deyil. Bu alimlər hər bir şeyi hissiyyat və təcrübə ilə əlaqələndirib vəhy və təbiətin fövqündə duran məsələləri qəbul etmirlər.

Təbii ki, belə bir yanaşma düzgün deyil. Hər hansı bir şeyi tapmamaq həmin şeyin olmaması demək deyil. Onlar müsəlman və ya ən azından Allaha inanan alimlərin qəbul etdiyi məsələləri qəbul etmədikləri üçün (elmi və təcrübi yollarla buna çatmadıqları üçün) onları inkar etmək məcburiyyətində qalmışlar. Əgər onlar bütün təəssübkeşliyi, inadkarlığı kənara qoyub Allahı qəbul edən alimlərlə dialoqa əyləşsələr, çox güman ki, bu problem aradan qalxar.

Allaha inanan alimlər Allahın varlığına dair onlarla qəti dəlil gətirmişlər. Elə təbiət elmlərinin özü də Allahın olduğunu göstərir. Bütün maddi varlıqlardakı nizam-intizam, həmin nizamın bir yaradanı olduğuna sübut deyilmi? Təbiət kor-koranə şəkildə varlıqlarda belə bir nizam yaratmaq iqtidarında deyil. Bu «varlıq aləmindəki nizam»

[1] Ələq-1-5
[2] Sireyi ibn Hişam, c-1, s-236; Səhihi Buxari, c-1, s-3

sübutudur ki, alimlər bu mövzuya onlarla kitab həsr etmişlər. Nizam sübutu cəmiyyətin bütün təbəqələri tərəfindən istifadə edilmişdir.

Mücərrəd ruh və təbiətin fövqündə duran digər məsələlərlə bağlı bir çox dəlil-sübutlar vardır ki, indi onlardan bəzisinə işarə edirik.

*Mücərrəd ruh*

Ruha inam, alimlərin diqqətini özünə cəlb etmiş mühüm məsələlərdən biridir. Hər şeyi maddi cəhətdən açıqlamağa çalışanlar mücərrəd ruhu inkar, yalnız maddi xarakter daşıyan və təbiət qanunları çərçivəsinə sığışan ruhu qəbul edirlər.

Qeyri-maddi (yəni mücərrəd) ruhun varlığı ilahiyyatçı alimlər tərəfindən kifayət qədər araşdırılmışdır. Onlar belə bir ruhun olması haqqında müxtəlif sübutlar gətirmişlər ki, diqqətlə araşdırdıqda onun varlığını qəbul etmək mümkündür. İlahiyyatçıların ruh, mələk, vəhy, ilham haqqında dedikləri, əvvəlcədən araşdırıb gəldikləri nəticələrin məhsuludur.

*Vəhy*

Vəhyə inam bütün səmavi dinlərin əsasını təşkil edir. Vəhyin bünövrəsi böyük və güclü ruha malik olmaqdır ki, onun sayəsində ya bilavasitə, ya da mələk vasitəsilə İlahi maarif əldə edilir. Alimlər vəhy haqqında belə deyirlər: «Vəhy odur ki, Allah seçilmiş bəndələrindən birinə elm və hidayət yollarını öyrədir. Lakin bu iş bəşərə məlum olmayan bir yolla baş verir.»

Məlum məsələdir ki, hər bir şəxsin həyatı məchullardan başlayır məlumlara doğru gedir. Əvvəlcə zahiri hisslər vasitəsilə bir sıra həqiqətlərə yol tapır, sonra şüur, dərrakə vasitəsilə zahiri hisslərin başa düşə bilmədiyi məsələləri anlayır. Nəticədə məntiqi bir şəxsə çevrilir. Bəzən elə nadir insanlar tapılır ki, özünəməxsus düşüncə tərzi və ilham vasitəsi ilə məntiqi qanunlarla aşkar edilməyən həqiqətlərin üstünü açırlar. Bu baxımdan alimlər bəşərin anlayışını üç hissəyə bölür:

1. Adi və əksər camaatın anlayışı
2. Dəlil-sübuta əsaslananların anlayışı
3. Ariflərin anlayışı. Başqa sözlə desək hər şeyə zahiri

hisslərlə yanaşanlar hissiyyat, dəlil-sübut tərəfdarı olanlar dəlil, ariflər isə başqa bir aləmdən ilham almaq vasitəsilə həqiqətləri dərk edirlər.

Əxlaq, fəlsəfə, irfan dahiləri etiraf edirlər ki, əldə etdikləri nailiyyətlərin əksəriyyəti ilham vasitəsilə onların zehninə gəlmiş, yalnız bundan sonra praktiki şəkildə onun icrasına başlamışlar.

***Anlayışın növləri***

Yuxarıda deyilənlərdən belə nəticə əldə etdik ki, bəşərin hər hansı məlumatı əldə etmək üçün üç yolu vardı. Birinci yoldan adi və əksər insanlar, ikinci yoldan dəlil-sübut tərəfdarları, üçüncü yoldan isə çox nadir şəxslər istifadə edirlər.

1. **Hissi və təcrübi yol**. Bura hissiyat vasitələri ilə əldə edilən məlumatlar daxildir. Məsələn görmə hissi ilə gördüklərimiz, eşitmə hissi ilə eşitdiklərimiz və s. Müasir dövrdə teleskop, mikroskop, radiyo, televizor və digər vasitələr, hissi idrakımızın əhatəsini artırmaqla bəşəriyyətə böyük kömək etmiş və uzaq yolu yaxınlaşdırmışdır.
2. **Dəlil-sübut yolu.** Mütəfəkkirlər bir sıra aksiomlardan istifadə etməklə hissiyat qüvvələrindən kənar qanunlar kəşf etmişlər. Ümumi qanunlar, fəlsəfi məsələlər, Allahın sifət və işləri ilə bağlı məsələlər, eləcə də ideoloji və məzhəbi sahədəki mövzuların hamısı məhz insan təfəkkürünün məhsuludur.
3. **İlham yolu**. Bu yol hissiyat və ağlın fövqündə durur. Bu həqiqəti tanımağın başqa bir yoludur ki, elm onu inkar edə bilməz. Düzdür, materialist yönümlü şəxs üçün bunu qəbul etmək olduqca müşkül məsələdir, lakin elmdə də onu inkar edəcək bir əsas yoxdur. Materialistlərin fikrincə anlayışın yolu yalnız ilk iki yoldur. Teoloji baxımdan isə qeyd etdiyimiz üçüncü yol da vardır və buna bir çoxları nail olmuşlar.

İnsan Allah-taala ilə fərdi şəkildə əlaqə yaratdıqda ona hissiyyat və düşüncəsini işə salmadan bir sıra həqiqətlər aşkar olur. Buna ilham və yaxud işraq deyilir. İnsanın təbiətin fövqundəki aləmlə əlaqəsi bir sıra ümumi təlimlərin əldə edilməsi ilə nəticələnərsə, buna vəhy, onu çatdırana vəhy mələyi, onu qəbul edənə isə peyğəmbər deyilir. İlhamı qəbul edən şəxs öz-özlüyündə əmin olsa da, başqalarını qane etməyə

bilər. Buna görə də alimlər ilhamı deyil, yalnız vəhyi ümumi mərifət (anlayışı) üçün məqbul hesab edirlər. Hansı ki vəhy, möcüzə və digər qəti dəlillərlə peyğəmbər olduqları sübuta yetmiş şəxslərə nazil olurdu.

### *Vəhyin növləri*

Ruh, kamillikləri nəticəsində müxtəlif yollarla ruhani aləmlə əlaqəyə girə bilər. Biz burada (məsum imamlardan nəql edilmiş) bu yolların xülasəsini nəql edirik.[1]

1. Bəzən asimani həqiqətlər ilham vasitəsilə əldə olunur. İlham yolu ilə çatdırılan bu həqiqətlər aksioma hökmünü daşıdığına görə onda heç bir şübhə yeri qalmır.
2. Bəzi cümlə və ya sözlər müxtəlif cisimlərdən, məsələn, (dağdan, ağacdan) eşidilməklə əldə olunur. Məsələn, həzrət Musa(ə) Allahın sözünü ağacdan eşitdiyi kimi.
3. Həqiqətlər yuxuda ikən gün kimi aydın olur.
4. Allahın sözlərini xüsusi olaraq çatdırmaq üçün mələk göndərilir. Quran Peyğəmbərə(s) məhz bu yolla nazil olmuşdur. Şüəra surəsində bu məsələyə işarə olunaraq deyilir: «***Şübhəsiz ki, bu (Quran) aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir. Onu Cəbrail endirdi: (Günahkarları Allahın əzabı ilə) qorxudan peyğəmbərlərdən olasan deyə, sənin qəlbinə (nazil etdi). Özü də açıq-aydın ərəb dilində***»[2]

### *Uydurma əfsanələr*

Dünya şöhrətli şəxslərin həyatını qələmə alan yazarlar mümkün olduğu qədər bütün incəlikləri qeyd etməyə çalışır, hətta bu yolda bir çox əziyyətlərə belə qatlaşırlar. Tarixdə həyatı İslam peyğəmbəri(s) qədər dəqiqliklə yazılan ikinci bir şəxs yoxdur. O həzrətin səhabələri, onu sevənlər bütün xırdalıqları diqqətdə saxlamışlar. Əlbəttə sevgidən də olsa, bəzən bu sahədə yanlış məlumatlar da yazılmışdır. Buna görə də hər hansı bir şəxsiyyətin həyatını qələmə alan müəllif onun həyatını təhlil edərkən ehtiyatı qətiyyən əldən verməməli, hadisələri dəqiq şəkildə araşdırmalıdır.

---

[1] Biharul ənvar, c-18, s-193-194, 255-256

[2] Şuəra-192-195

## *İlk vəhyin ardınca baş verənlər*

Həzrət Mühəmmədin(s) mübarək qəlbi vəhy nuru ilə işıqlandı. Vəhy mələyinin öyrətdiklərini qəlbinə həkk elədi. Vəhyin ardınca mələk ona xitab edərək buyurdu: «Ey Mühəmməd, sən Allahın elçisi, mən isə Cəbrailəm.» Bəzi mənbələrdə Peyğəmbərin(s) bu nidanı Həra dağından enərkən eşitdiyi qeyd olunmuşdur. Bu xitabdan sonra həzrət Mühəmməd(s) öhdəsinə düşən ağır məsuliyyətə görə narahatlıq hiss edirdi. Bu narahatlığı başa düşmək olar. Çünki insanın ruhiyyəsi nə qədər böyük olsa da, qeyb aləmi ilə nə qədər bağlı olsa da, yenə işin başlanğıcında heç vaxt görmədiyi mələklə dağ başında üzləşmək narahatlıq doğurmaya bilməz. Təbii ki, sonradan daha belə bir narahatlıq intizarı olmamışdır.

Son dərəcə narahat və yorğun görünən Mühəmməd(s) dağdan birbaşa Xədicənin evinə gəlir. Evə daxil olduqda mehriban həyat yoldaşı onun simasında yorğunluq, narahatlıq nişanələrini hiss edib səbəbini soruşduqda həzrət bütün baş verənləri olduğu kimi ona danışır. Xədicə onun dediklərinə diqqətlə qulaq asdıqdan sonra onun üçün dua edib buyurdu: «Allah Özü sənə kömək olacaq» Peyğəmbər(s) özündə soyuqluq hiss edib Xədicəyə: «Üstümü ört!»-deyir, Xədicə də onun üstünü örtür. Peyğəmbər(s) bir qədər yuxuya gedir.

## *Xədicə Vərəqə ibn Nofəlin yanına gedir*

Ötən səhifələrimizdə Vərəqənin ərəb bilicilərindən olduğunu, İncili uzun müddət araşdırdıqdan sonra xaçpərəstliyi qəbul etdiyini xatırlamışdıq. O, Xədicənin əmisi oğlu idi. Xədicə həyat yoldaşından eşitdiklərini əmisi oğluna xəbər vermək məqsədi ilə Vərəqənin evinə gedir. Eşitdiklərini bircə-bircə ona danışdıqdan sonra Vərəqə deyir: «Əmin oğlu düz danışır. Baş verənlər onun peyğəmbərliyinin başlanğıcıdır.»

Bunlar nəql edilmiş hədislərin xülasəsidir. Lakin bəzi mənbələrdə bu əhvalatla bağlı elə şeylər qeyd olunub ki, Peyğəmbərlə(s) qətiyyən uyğun gəlmir. Buna görə də ya onların uydurma əfsanələr olduğunu qəbul etməliyik, ya da hansısa məcazi mənaya yozmalıyıq. Təəccüblü burasıdır ki, doktor Heykəl «Həyatu Mühəmməd» əsərinin müqəddiməsində bəzilərinin ya bilməməzlikdən, ya da qərəzli şəkildə

Peyğəmbərin(s) həyatı haqqında yalan məlumatlar yazdığını qeyd etsə də özünün yazdığı bəzi məqamlar qətiyyən o həzrətin həyatı ilə uyğun gəlmir. İndi bu uydurmalardan bir neçəsini diqqətinizə çatdırırıq:

1. Peyğəmbər Xədicənin evinə daxil olduqda öz-özlüyündə fikirləşdi ki, gördükləri bəlkə səhvdir. Xədicənin ona: «Sən həmişə yetimlərin qayğısına qalıb qohumlarla yaxşı davranmısan»-deməsi şəkk-şübhəsini aradan qaldırır. Sonra Peyğəmbər iti gözlərlə ona baxıb üstünü örtməsi üçün bir şey gətirməsini istəyir[1]

2. Təbəri və digər yazıçılar yazırlar: «Peyğəmbər Cəbraildən!» «Sən Allahın elçisisən» cümləsini eşitdikdə bütün bədəni titrəyir, özünü dağdan aşağı atmaq qərarına gəlir. Lakin mələk özünü göstərməklə onu bu işdən çəkindirir.[2]

3. Həmin günün ertəsi Mühəmməd(s) Kəbəni təvaf etməyə gedir. Vərəqə deyir: «And olsun Allaha ki, sən bu ümmətin Peyğəmbərisən. Musaya nazil olan sənə də nazil olmuşdur. Bəzi insanlar səni təkzib edib incidəcək, öz yurdundan qovacaq, hətta sənə qarşı döyüşəcəklər». Mühəmməd(s) hiss etdi ki, Vərəqə düz deyir.[3]

Biz belə hesab edirik ki, bütün bunlar uydurmadan başqa bir şey deyil. Ona görə ki, əvvəla bunları araşdırarkən əvvəlki peyğəmbərlərin də həyatını nəzərdən keçirmək lazımdır. Qurani-Kərim və hədislər onların həyatını kifayət qədər açıqlamışdır. Onların heç birinin həyatında belə gülünc hadisələrə rast gəlmirik. Quranda Musa(ə) peyğəmbərə vəhy göndərilməsi təfsilatı ilə bəyan edilib. Onun barəsində vəhy zamanı heç bir qorxu, narahatlıqdan, intihar cəhdindən söhbət getmir. Halbuki ona vəhy gələn zaman daha qorxulu zaman olmuşdur. Çünki gecənin zülmətində ağacdan səs gəlmiş və onun peyğəmbər seçildiyi məlum olmuşdur. Bu zaman Musa(ə) son dərəcə təmkinli olmuşdur. Əsanın əjdahaya çevrildiyi anda qorxması isə ona görə idi ki, əjdaha zatən qorxulu, vahiməli bir heyvandır. Belə olduğu halda bütün peyğəmbərlərdən üstün olan Mühəmməd(s) mələyin səsini eşitməklə özünü dağdan aşağı atmaq istəyi necə həqiqət ola bilər? Bu fikri ağıl

---

[1] Ət-Təbəqat, c-1, s-279; Həyatu Mühəmməd, c-1, s-195

[2] Tarixi Təbəri, c-2, s-205

[3] Təfsiri Təbəri, c-30, s-161; Sireyi İbn Hişam, c-1, s-238

qəbul edərmi? Peyğəmbər(s) İlahi əmanəti tam şəkildə qəbul etməyə hazır olmayınca Allah-taala onu peyğəmbərlik məqamına yüksəldərmi? Axı peyğəmbər camaata yol göstərməlidir. Mələyin səsini eşidib qorxduğu üçün intihar etmək istəyən şəxs camaata necə rəhbərlik edə bilər?

İkincisi, necə ola bilər Musa(ə) İlahi çağırışı eşitməklə peyğəmbər seçildiyini bilib ondan daha yaxşı danışıq qabiliyyəti olan qardaşı Harunu da özünə köməkçi istəyir, lakin Mühəmməd(s) İlahi çağırışdan şəkk-şübhəyə düşür, Vərəqə ibn Nofəl onun şəkkini aradan qaldırır?

Üçüncüsü, Vərəqə ibn Nofəl xaçpərəst idi. Mühəmmədin(s) şəkk-şübhəsini aradan qaldırmaq üçün ona «Musa ibn İmrana verilən peyğəmbərlik sənə də verilmişdir»-deyir. Bundan başa düşülmürmü ki, bu, Bəni-İsrailin qondardığı uydurmalardandır? Nəyə görə Vərəqə İsa ibn Məryəmin peyğəmbərliyindən danışmır? Axı o, xaçpərəst idi.

Bütün bunlardan əlavə həzrət Peyğəmbərlə(s) əlaqədar eşitdiklərimiz də, bu deyilənlərlə uyğun gəlmir. Doktor Heykəl bu məlumatların uydurma olduğunu hardasa qismən bilirmiş. Buna görə də bəzən «belə deyirlər» ifadəsini işlətmişdir.

Bu uydurmalara qarşı məsum imamlar var qüvvələri ilə mübarizə aparmışlar. Məsələn Zürarə İmam Sadiqdən(ə) : «Həzrət Mühəmməd(s) Cəbrail nazil olarkən nə üçün qorxmamış və onu şeytan vəsvəsəsi hesab etməmişdir?»-deyə soruşduqda həzrət belə cavab verir: «Çünki Allah-taala ona arxayınlıq vermişdi və Allah tərəfindən gələni sanki öz gözləri ilə görürdü.»[1]

Bu məsələ ilə bağlı böyük təfsir alimi mərhum Təbərsi yazır: «Allah-taala vəhy göndərdiyi peyğəmbərə onun vəhy olduğuna əminlik yaradan dəlil-sübut göstərir.»[2]

---

[1] Biharul-ənvar, c-18, s-262

[2] Məcməül-bəyan, c-10, s-384

# İLK VƏHY

*İlk vəhy hansı gündə nazil olmuşdur?*

Peyğəmbər(s) anadan olduğu və vəfat etdiyi gün tarixçilər arasında dəqiq məlum olmadığı kimi, o həzrətin peyğəmbər seçildiyi gün də konkret bəlli deyil. Şiə alimləri demək olar birmənalı şəkildə o həzrətin rəcəb ayının 27-də, sünni alimləri isə ramazan ayında peyğəmbər seçildiyini bildirirlər. Şiələr özlərini Əhli-beyt ardıcılları hesab etdikləri üçün onların sözünü qəbul edir və bu barədə məsum imamların buyurduğuna əsaslanırlar. İmamlardan nəql edilmiş hədislərdə də göstərilir ki, Peyğəmbər(s) rəcəb ayında peyğəmbərliyə çatmışdır. Sünnilər isə Quranda Quranın ramazan ayında nazil oluğunu söyləyən ayələrə əsaslanırlar. Buna misal olaraq aşağdakı ayələri göstərmək olar:

1. ***«Quran ramazan ayında nazil edilmişdir…»***[1]
2. ***«Açıq-aydın kitaba and olsun ki, Biz onu mübarək bir gecədə (Qədr gecəsində) nazil etdik.»***[2]
3. ***«Biz onu (Quranı) Qədr gecəsində nazil etdik.»***[3]

Şiə alimələri bu məsələyə müxtəlif formalarda münasibət bildirmişlər.

**Birinci cavab:** Qeyd edilmiş ayələr Quranın mübarək bir gecədə-qədr gecəsində nazil olduğunu bildirsə də nazil olma yerini qeyd etmir. Heç o da başa düşülmür ki, həmin gecə Quran Peyğəmbərin(s) qəlbinə nazil olmuşdur. Ümumiyyətlə Quran bir neçə formada nazil olmuşdur. Onlardan biri Quranın tədrici şəkildə, başqa birisi isə Quranın birdəfəyə-lövhi-məhfuzdan beyti-məmura nazil olmasıdır. Belə olduğu halda nə eybi var ki, rəcəb ayının 27-də yalnız «Ələq» surəsinin bir neçə ayəsi, ramazan ayında isə bütün Quran nazil olsun? «Biz kitabı mübarək bir gecədə nazil etdik» ayəsi də bu fikri təsdiqləyir. Bu ayə aşkar şəkildə bildirir ki, Quran küll halında bütöv şəkildə mübarək gecədə, yəni, qədr

---

[1] Bəqərə-185
[2] Duxan-1-3
[3] Qədr-3

gecəsində nazil olmuşdur. Deməli bu nazil olma besət günündəki nazil olmadan fərqlidir. Çünki besət günü heç də bütün Quran nazil olmamış, yalnız bir neçə ayə göndərilmişdir. Bir sözlə Quranın ramazan ayında nazil olduğunu göstərən ayələr besət gününü də məhz ramazan ayında olduğuna dəlalət edə bilməz. Çünki ramazan ayında bütün Quran nazil olmuş, besət günündə isə vur-tut bir neçə ayə göndərilmişdir. Bu haqda sünni və şiə alimləri kifayət qədər hədis nəql etmişlər. Əl-Əzhər universitetinin professoru Məhəmməd Əbdüləzim bu hədislərə geniş yer ayırmışdır.[1]

**İkinci cavab:** Bu iddiaya verilmiş ən tutarlı cavab məhz ikinci cavabdır. Dahi təfsirçi mərhum əllamə Təbatəbai əl-Mizan təfsirində bu barədə ətraflı şəkildə bəhs edərək belə nəticəyə gəlmişdir: «Biz Quranı mübarək bir gecədə (Qədr gecəsində) nazil etdik» deyərkən Quranın Peyğəmbərin(s) qəlbinə nazil olması nəzərdə tutulur. Çünki Quranın tədricən nazil olması ilə yanaşı, həm də birdəfəyə Peyğəmbərin(s) mübarək qəlbinə nazil olması da baş vermişdir ki, bu da məhz Qədr gecəsində gerçəkləşmişdir. Peyğəmbər(s) bütün Qurandan xəbərdar olsa da tədrici nazil olma baş verməyincə onu açıqlamaqda tələsməməsi tapşırılır. Taha surəsinin 114-cü ayəsi bunu açıq şəkildə çatdırır: ***«(Ey peyğəmbərim! Cəbrail tərəfindən) sənə tamam-kamal vəhy olunmadan əvvəl Quranı oxumağa tələsmə…»*** Deməli, Quran, bir dəfə tam şəkildə nazil olmuşdur ki, bu ramazan ayında, Qədr gecəsində baş tutmuş, bir də tədricən nazil olmuşdur ki, bu da besət günündən başlayaraq Peyğəmbərin(s) ömrünün sonunadək davam etmişdir.

**Üçüncü cavab:** Həzrət Mühəmmədin(s) peyğəmbər seçilməsi ilə Quranın nazil olması həmzaman olmamışdır. Vəhy növlərindən danışarkən qeyd etdik ki, Peyğəmbərə ilk vəhy yuxuda gəlmiş, ondan sonra mələk görmədən qeybi səs eşitmiş, üçüncü dəfə isə Allahın sözlərini mələk vasitəsi ilə özü də onu görüb eşitdiyi halda qəbul etmişdi.

İnsanın ilk mərhələdə vəhyin bütün növlərini qəbul etməyə taqəti olmadığına görə bu proses tədricən baş vermişdir. Buna əsasən də deyə

---

[1] Mənahilul-irfan fi ulumil-Quran, c-1, s-37

bilərik ki, besət günündən (rəcəb ayının 27-dən) başlayaraq bir müddət Peyğəmbər(s) «Sən Allahın elçisisən» məzmunlu qeybi səslər eşitmiş, lakin həmin müddətdə bircə də olsa Quran ayəsi nazil olmamışdır. Bir qədər keçdikdən sonra isə həmin ilin ramazan ayında Quran tədricən nazil olmağa başlamışdır. Deməli Peyğəmbərin(s) rəcəb ayında peyğəmbər seçilməsi o demək deyil ki, Quran da mütləq həmin ayda nazil olmalı idi. Belə olduğu halda o həzrətin rəcəb ayında peyğəmbər seçilməsi Quranın isə ramazan ayında nazil olması mümkündür.

Bu fikir bir çox tarixi mənbələrlə uyğun gəlməsə də (çünki əksər tarixi mənbələrdə Ələq surəsinin bir neçə ayəsinin məhz besət günündə nazil olduğu göstərilir) bəzi hədislərlə üst-üstə düşür. Belə ki, həmin hədislərdə bildirilir ki, besət günü Peyğəmbər(s) yalnız qeybi səs eşitmiş, lakin heç bir ayə nazil olmamışdır. Bəzi hədislərdə isə Peyğəmbərin mələyi gördüyü, ona: «Ey Mühəmməd, sən Allahın elçisisən!» dediyini eşitməsi də vurğulanır.[1]

---

[1] Biharul-ənvar, c-18, s-184, 190,193,253; Kafi, c-2, s-460; Təfsiri Əyyaşi, c-1, s-80

# İLK İMAN GƏTİRƏNLƏR

İslam dini dünyada tədricən yayılmışdır. Quran İslamı ilk qəbul edənləri «öncüllər» adlandırmışdır. İslam dininin təzə-təzə meydana gəldiyi zaman İslamı daha tez qəbul etmək bir növ üstünlük və fəzilət hesab edilirdi. Bu baxımdan bütün təəssübkeşlikləri bir kənara qoyub İslamı ilk qəbul etmiş kişi və qadınları yaxından tanımaq lazımdır.

***Xədicə***

Xədicə Peyğəmbərə ilk iman gətirən qadın olmuşdur. Bu məsələdə qətiyyən fikir ayrılığı yoxdur.[1] Bununla əlaqədar olaraq Peyğəmbərin(s) xanımlarından birinin söylədiyi və mühüm tarixi mənbə kimi qəbul edilən bir fikri söyləyirik. Aişə deyir: «Mən Peyğəmbərin(s) xanımlarından yalnız Xədicəyə qısqanırdım. Onu heç vaxt görməmişəm. Rəsuləllah ondan yalnız xoş xatirələr danışırdı. Bir gün paxıllıq edib dedim ki, Xədicə adi bir yaşlı qadın olmuşdur, Allah indi sənə ondan daha yaxşısını nəsib edib. Bunu eşitcək Peyğəmbərin başının ön hissədəki tükləri biz-biz oldu, qəzəblənib buyurdu: «Xeyr and olsun Allaha, ondan yaxşısı mənə nəsib olmayıb. O, heç kim mənə iman gətmədiyi vaxtda iman gətirmişdi. Camaat məni yalançı hesab edərkən o məni təsdiqlədi, insanlar məndən üz döndərdikləri zaman o mənə mal-dövləti ilə yardımçı oldu. Allah ondan mənə övladlar bəxş etdiyi halda digər xanımlarım mənə uşaq vermədi.»[2]

Xədicənin ilk iman gətirən qadın olmasını təsdiqləyən başqa bir sübut vəhyin başlanması məsələsidir. Belə ki, Peyğəmbər(s) Həra mağarasından evə gəlib baş verənləri Xədicəyə danışdıqda, həyat yoldaşının cani-dildən iman gətirdiyini hiss etdi. Üstəlik Xədicə hələ çox-çox qabaq ərəb bilicilərindən Mühəmmədin(s) peyğəmbər seçiləcəyi haqqında məlumatlar əldə etmiş, məhz bu səbəbdən, eləcə də

[1] Sireyi ibn Hişam, c-1, s-240
[2] Biharul-ənvar c-16, s-8; Usdul-qabə, c-5, s-428; Səhihi Müslim c-7, s-134

Mühəmmədin(s) doğruluğuna, əminliyinə görə ona ərə getməyə razı olmuşdu.

***Əli (ə)***

İstər şiə, istərsə də sünni mənbələrində göstərilir ki, tarixçilərin fikrincə kişilər arasında Peyğəmbərə(s) ilk iman gətirən şəxs Əli(ə) olmuşdur. Lakin elə də mötəbər sayılmayan bəzi hədislərdə ilk iman gətirən kişinin Əbu Bəkr və ya Peyğəmbərin(s) oğulluğu Zeyd ibn Harisə olduğu bildirilir. Təbii ki, aşağıda qısaca olaraq qeyd edəcəyimiz dəlillər bu fikrin əksini göstərir.

***1. Əli(ə) Peyğəmbərin(s) qucağında böyümüşdür***

Əli(ə) uşaqlıq çağından Peyğəmbərin(s) evində böyümüş, Peyğəmbər(s) də onu tam bir qayğıkeş ata kimi tərbiyələndirmişdir. Tarixçilər yekdilliklə söyləyirlər: «Həzrət Mühəmməd(s) peyğəmbər seçilməzdən qabaq Məkkədə misli görünməmiş qəhətlik baş verir. Qureyşin böyüyü Əbutalibin ailəsi böyük, gəliri isə az olduğundan, ailənin dolanışığı çox çətinləşmişdi. O, qardaşı Abbas kimi elə də imkanlı deyildi. Mühəmməd(s) əmisi Abbasla məsləhətləşir ki, Əbutalibə kömək məqsədilə hər biri onun uşaqlarından birini, öz evinə aparıb saxlasın. Beləliklə də Mühəmməd(s) Əlini, Abbas isə Cəfəri himayəsinə götürür.»[1]

Əli(ə) Peyğəmbərin evinə gedərkən ən azı səkkiz yaşında olmuşdur. Çünki Peyğəmbərlə Abbasın məqsədi Əbutalibə maddi nöqteyi-nəzərdən kömək etmək idi. Səkkiz yaşından aşağı uşağı ata-anasından ayırmağın çox çətin məsələ olduğu bir yana, üstəlik azyaşlı uşaq maddi cəhətdən elə də çox xərc tələb etmir. Deməli o, nisbətən yuxarı yaşlarda olmuşdur. Belə olan halda necə ola bilər ki, Zeyd ibn Harisə kimilər vəhy mövzusundan xəbərdar olurlar, lakin Peyğəmbərə hamıdan yaxın, həmişə onunla bir yerdə olan əmisi oğlu Əli bu məsələdən xəbərsiz qalır? Peyğəmbər(s) Əlini öz evinə aparmaqla Əbutalibin onun üçün çəkdiyi zəhmətlərin əvəzini qismən də olsa çıxmaq niyyəti güdmüşdür. Onun gözündə kimisə düz və haqq yola hidayət etmək qədər sevimli

[1] Sireyi ibn Hişam, c-1, s-242

şey olmamışdır. Belə bir vəziyyətdə nəyə görə Peyğəmbər(s) pak, nəcib əmisi oğlunu bu yola dəvət etməmişdir? Yaxşısı budur bu barədə Əlinin(ə) öz dilindən eşidək. O həzrət Qasiə xütbəsində Peyğəmbərə olan münasibətini belə açıqlayır: «Mənim Peyğəmbərlə qohum olduğumu, onun yanında özünəməxsus mövqe tutduğumu çox yaxşı bilirsiniz. Bir vaxtlar o məni uşaq ikən böyüdüb yetişdirmişdir. Məni bağrına basar, öz yatağında yatızdırardı. Onun ətrini hiss edir, köşək öz anasının ardınca düşdüyü kimi mən də onun ardınca düşərdim. Hər gün mənə əxlaqi dəyərlərindən birini öyrədib ona əməl etməyimi tapşırardı. O, ildə bir müddət Həra mağarasında qalar, məndən başqa heç kəs onu görməzdi. O vaxt Peyğəmbərlə Xədicənin evindən başqa heç bir qapını İslam döyməmişdi. Mən müsəlman olan üçüncü şəxs idim. Vəhy nurunu görür nübuvvət (peyğəmbərlik) ətrini hiss edirdim.»[1]

Təbəri ibn İshaqdan belə nəql edir: «Peyğəmbərə ilk iman gətirib onu təsdiqləyən, onunla birlikdə namaz qılan şəxs Əli ibn Əbutalib olmuşdur. O vaxt onun on yaşı var idi. Allahın Əliyə bəxş etdiyi daha bir nemət (xoşbəxtlik) odur ki, İslamdan qabaq o, Peyğəmbərin qucağında böyümüşdür.»[2]

### 2. *Əli və Xədicənin Peyğəmbərlə birlikdə namaz qılması*

İbn Əsir «Usdul-qabə», İbn Həcər «əl-İsabə» və bir çox alimlər Əfif Kindidən belə nəql edirlər: «Cahiliyyət dövründə Məkkəyə getmişdim. Abbas ibn Əbdülmüttəlib məni qonaq saxlamışdı. Bir gün Kəbə kənarında oturduğumuz zaman bir kişinin gəlib Kəbə ilə üzbəüz durduğunu gördüm. Onun ardınca bir oğlan uşağı gəlib onun sağ tərəfində, daha sonra isə bir qadın gəlib onların arxasında dayandı. Sonradan gələn iki nəfər birinci şəxsin etdiyi hərəkətləri edir, rüku, səcdəyə gedirdilər. O vaxtadək rastlaşmadığım bu hadisə haqqında Abbasdan soruşduqda mənə dedi: «O kişi Mühəmməd ibn Abdullah, sağındakı oğlan əmisi oğlu Əli ibn Əbutalib, arxasındakı qadın da həyat yoldaşı Xədicədir. Qardaşım oğlu (Mühəmməd) deyir ki, bir vaxt

[1] Nəhcül-bəlağə (Əbduh), c-2, s-182
[2] Tarixi Təbəri, c-2, s-57

gələcək İran və Bizans xəzinələri onun ixtiyarında olacaq. And olsun Allaha ki, bu üç nəfərdən savayı dünyada bu dinə itaət edən başqa adam yoxdur.» (Bu arada hədisi nəql edən şəxs deyir ki,) ey kaş, mən dördüncü adam olaydım!»

Bu əhvalatı hətta Əlinin(ə) fəzilətlərini azaltmağa çalışanlar da nəql etmişlər.[1]

### *3. Mənəm siddiqi-əkbər (ən doğru danışan)*

Əmirəl-möminin Əli ibn Əbutalibin(ə) xütbələrində bəzən belə ifadələrlə rastlaşırıq: «Mən Allahın bəndəsi, Peyğəmbərin qardaşı və siddiqi-əkbərəm (ən doğru danışan, Peyğəmbəri təsdiqləyənəm). Bu sözü məndən başqa kim desə, yalançıdır. Heç kim Peyğəmbərlə birilkdə namaz qılmadığı halda mən onunla yeddi il bir yerdə namaz qılmışam. Onunla ilk namaz qılan şəxs mən olmuşam.»

Həzrət Peyğəmbərdən(s) mütəvatir yolla aşağıdakı məzmunda hədislər nəql edilmişdir: «Kövsər bulağının başında mənə qovuşacaq ilk şəxs, ilk müsəlman olmuş şəxs olacaq.»[2]

İnsan obyektiv şəkildə bu hadisələri nəzərdən keçirdikdə Əlinin ilk İslamı qəbul edən şəxs olduğu məlum olur. Səhabə və tabelərdən altmış nəfərdən çoxu Əlinin ilk müsəlman olmuş şəxs olduğunu təsdiqləyən hədislər nəql etmişlər. Hətta Təbəri də belə bir hədis nəql edir: «İbn Səid atasından soruşdu ki, ilk iman gətirən şəxs Əbu Bəkr olub? Atası cavab verir ki, xeyr, ondan qabaq əllidən artıq adam müsəlman olmuşdur, amma onun iman gətirməsi başqalarınınkından üstün olmuşdur.»[3]

### *Məmunla İshaqın dialoqu*

İbn Əbdürəbbih maraqlı bir əhvalat nəql edir: «Məmun elmi bir məclis təşkil etmişdi. Məclisin başında dövrün görkəmli alimi İshaq oturmuşdu. Əlinin başqalarından daha tez iman gətirməsi sübuta yetdikdən sonra İshaq dedi: «Əli iman gətirərkən uşaq olmuşdur, Əbu

---

[1] Əl-İsabə, c-2, s-480; Tarixi Təbəri, c-2, s-211; əl-Kamilu fit-tarix, c-2, s-37-38; Usdul-qabə, c-3, s-414

[2] Əl-Qədir, c-3, s-320, Nəcəf çapı

[3] Tarixi Təbəri, c-2, s-215

Bəkr isə yetkin bir kişi idi. Deməli onun iman gətirməsi Əlinin imanından daha üstün olmuşdur». Bunu eşidən Məmun sözə başlayıb deyir: «Əlini uşaq ikən Peyğəmbər İslama dəvət etdi, yoxsa ona İslamı qəbul etməsi ilham olunmuşdu? İlham olunduğunu demək mümkün deyil. Çünki heç Peyğəmbər özü ilhamla iman gətirməmişdi, Cəbrailin vasitəsi ilə İslama hidayət olunmuşdu. Deməli Əli də peyğəmbərin dəvəti ilə müsəlman olub. Bəs Peyğəmbər onu özündənmi İslama dəvət etmişdi, yoxsa Allahın göstərişi ilə? Təbii ki, Peyğəmbər Allahın icazəsi olmadan özbaşına iman gətirməsi ilə gətirməməsində heç bir fərq olmayan uşağı İslama dəvət etməzdi. Deməli Peyğəmbər Əlini Allahın göstərişi ilə İslama dəvət etmişdir. Allah isə əbəs iş görməz.»[1] Məlum olur ki, Əlinin iman gətirməsi heç də başqalarınınkından geri qalmayıb və: «İmanda öncül olanlar, öncül olanlar, məhz onlar Allah dərgahına daha yaxın olanlardır» ayəsinin ən bariz nümunəsi də elə Əli ibn Əbutalibdir.

***Vəhyin kəsilməsi fikri uydurmadan başqa bir şey deyil***

Həzrət Mühəmmədin(s) mübarək qəlbi vəhy nuru ilə işıqlandıqdan sonra üzərinə düşən ağır məsuliyyət haqqında fikirləşirdi. Xüsusilə ***«Ey (libasına) örtünüb bürünmüş (Peyğəmbər)! Qalx (qövmünü Allahın əzabı ilə) qorxut! Öz Rəbbini uca tut!»***[2] ayələri o həzrəti bu məsuliyyəti barədə daha çox düşündürürdü.

Tarixi mənbələrdə xüsusi ilə də uydurmalardan xali olmayan Tarixi-Təbəridə vəhyin kəsilməsi adlı bir mövzu öz əksini tapmışdır. Təbərinin fikrincə guya Peyğəmbər(s) mələyi görüb ilk Quran ayələrini eşitdikdən sonra növbəti vəhyin nazil olmasını gözləsə də, nə mələk gözə dəyir, nə də vəhy nazil olur.

Vəhy arasında əgər həqiqətən də belə bir fasilə yaranıbsa, bunu yalnız Quranın tədrici şəkildə nazil olması kimi qəbul etmək lazımdır. Allah belə məsləhət bilib ki, vəhyi tədricən nazil etsin. Peyğəmbərliyin başlanğıcında vəhyin ardıcıl deyil, fasilələrlə nazil olması kimlərdəsə

---

[1] İqdul-fərid c-3, s-43
[2] Muddəssir-1-3

vəhyin kəsildiyi fikrini yaratmışdır. Əslində isə vəhy heç zaman kəsilməmişdir.

Bəzi tarixçilər bu məsələni əldə rəhbər tutub mövzuya qərəzli şəkildə yanaşdığından, biz mövzunu elə təhlil etməyə çalışacağıq ki, qoy vəhyin kəsildiyinin həqiqət olmadığı üzə çıxsın. Əhəmiyyətli olduğunu nəzərə alıb Təbərinin yazdığını olduğu kimi qeyd edirik. Təbəri yazır: «Vəhyin ardı kəsildikdə besətin əvvəlindəki şəkk-şübhə yenidən yarandı. Xədicə də Mühəmməd(s) kimi narahat olub dedi «Deyəsən Rəbbin səninlə əlaqəni kəsib.» Mühəmməd(s) bunu eşitdikdən sonra həmişəki yerinə (Həra mağarasına) üz tutur. Bu zaman yenidən vəhy nazil olub aşağıdakı ayələr gəlir: «***And olsun səhərə! And olsun sakitləşməkdə olan gecəyə ki, (sənə bir neçə gün vəhy nazil etməməkdə) Rəbbin səni nə tərk etdi, nə də sənə acığı tutdu. Şübhəsiz ki, axirət sənin üçün dünyadan daha xeyirlidir! Həqiqətən Rəbbin sənə bəxş edəcək və Sən (Ondan) razı qalacaqsan! Məgər o səni yetim ikən tapıb sığınacaq vermədimi? Səni şaşqın vəziyyətdə tapıb yol göstərmədimi? Səni yoxsul ikən tapıb dövlətli etmədimi? Elə isə yetimə zülm etmə! Dilənçini də (qapıdan) qovma! Və (həmişə) Rəbbinin sənə olan nemətindən söhbət aç!***»[1]

Xanım Xədicənin necə əxlaqa sahib oması tarixdə öz əksini tapmışdır. Mühəmmədin(s) gözəl əxlaqı davranışı ilə munis olan, Allahı ədalətli hesab edən Xədicə necə olur ki, birdən-birə Allah və Onun peyğəmbəri haqqında pis fikrə düşür?

Peyğəmbərlik vəzifəsi böyük əxlaqı dəyərlərə malik şəxsə verilir. Əgər həzrət Mühəmməd(s) belə yüksək keyfiyyətlərə malik olmasaydı, Allah onu əsla peyğəmbər seçməzdi. Bu keyfiyyətlərin başında ismət, xatircəmlik, Allaha etimad durur. Belə keyfiyyətləri özündə birləşdirən şəxs heç vaxt bu cür yanlış fikirlərə yol verməz. Alimlər bildirmişlər ki, peyğəmbərlər təkamül yoluna elə uşaqlıqdan qədəm qoymşlar. Getgedə onlar elmi kamilliyə çatmış, sonradan gördükləri, eşitdikləri barədə qətiyyən şübhə etməmişlər. Belə xüsusiyyətləri olan şəxs onun-bunun sözü ilə şübhəyə düşməz. Zuha surəsi, xüsusilə də «Rəbbin səni nə tərk etdi, nə də sənə acığı tutdu» ayəsindən başa düşülür ki, deməli

---

[1] Zuha surəsi

kimsə Peyğəmbərə belə deyibmiş. Lakin bunu deyənin Kim olduğu, deyilən sözün Peyğəmbərə (s) nə dərəcədə təsir edəcəyi barədə məlumat verilmir. Bəzi təfsirçilər belə hesab edirlər ki, bu sözün o həzrətə bir dəstə müşrik demişdir. Belə olduğu halda deməli, surənin bütün ayələri heç də peyğəmbərliyin ilk çağlarına aid ola bilməz. Çünki peyğəmbəriliyin ilk çağlarında bu mövzudan Əli(ə) və Xədicədən başqa heç kim xəbərdar olmamışdı ki, etiraz da edəydi. Bir qədər sonra qeyd edəcəyimiz kimi o həzrətin peyğəmbərliyi üç il müddətində demək olar ki, bütün müşriklərə gizli qalmışdı. Və o həzrət «(Ya Rasulum!) Sənə əmr olunanı (Quranı) açıq-aşkar təbliğ et…»[1] ayəsi nazil olana qədər təbliğini yalnız gizli şəkildə həyata keçirmişdir.

***Tarixçilərin vəhyin kəsilməsi haqqındakı fikir ayrılığı***

Quranın heç bir yerində vəhyin kəsilməsi haqqında söhbət getmir. Bu haqda tarix və təfsir kitablarında fikir irəli sürülüb. Tarixçi və təfsirçilər bu məsələ barədə, eləcə də vəhyin kəsilməsi müddəti haqqında elə fərqli fikirlər bildirmişlər ki, onların heç birinə əsaslanmaq olmaz. Aşağıda bu ehtimallardan bir neçəsini qeyd edirik:

1. Yəhudilər Peyğəmbərdən(s) üç məsələ-Ruh, Əshabi-kəhf və Zülqərneyn haqqında sual soruşurlar. Peyğəmbər(s) «inşallah» demədən onlara sabah cavab verəcəyini bildirir. İnşallah demədiyinə görə vəhy kəsilir. Bundan xəbər tutan müşrkilər sevinib-dedilər ki, artıq Allah Mühəmməddən üz döndərib. Bu iddianın yanlış olduğunu sübut etmək üçün Zuha surəsi nazil olur.[2]

Bu ehtimala əsasən baş vermiş hadisəni besətin ilk dövrlərinə aid etmək olmaz. Çünki yəhudi alimlərinin Peyğəmbərlə(s) bu məsələlər barədə müzakirəsi təxminən besətin (peyğəmbərliyin) yeddinci ilində olmuşdur. Belə ki, Mühəmmədin(s) peyğəmbərlik iddiasını yəhudi alimləri ilə müzakirə etmək məqsədilə Qureyş müşriklərindən ibarət bir dəstə Mədinəyə getmiş, yəhudilər də onlara Mühəmməddən(s) məhz bu sualları soruşmağı tövsiyə etmişdilər.[3]

---

[1] Hicr-94
[2] Ruhul-məani, c-30, s-157; Sireyi-Hələbi, c-1, s-349-350
[3] Sireyi ibn Hişam, c-1, s-300-301

2. Peyğəmbərin(s) çarpayısının altında bir it balası ölüb qalmış, heç kimin bundan xəbəri olmamışdı. Peyğəmbər(s) evdən çıxdıqdan sonra evi təmizləyən Xulə it ölüsünü görüb çölə atır. Bu zaman Cəbrail nazil olub Zuha surəsini gətirir. Həzrət Peyğəmbər(s) ondan vəhyin nəyə görə bu qədər gecikdiyini soruşduqda o cavab verir ki, biz it olan evə gəlmirik.[1]

3. Müsəlmanlar Peyğəmbərdən(s) vəhyin gecikməsinin səbəbini soruşduqda həzrət belə cavab verir: «Siz dırnaqlarınızı, bığlarınızın ucunu qırxmadığınız halda vəhy necə gəlsin?»[2]

4. Osman, Peyğəmbər(s) üçün bir qədər üzüm, ya da xurma gətirir. Bu zaman Peyğəmbərin(s) qapısına dilənçi gəlir və həzrət onun üçün gətirilmiş hədiyyəni dilənçiyə verir. Osman onu dilənçidən satın alıb yenidən Peyğəmbərə verir, dilənçi də yenidən həzrətin qapısına gəlir. Peyğəmbər(s) yenə də hədiyyəni ona bağışlayır. Bu hal üç dəfə təkrarlandıqdan sonra Peyğəmbər(s) olduqca mülayim tərzdə dilənçiyə deyir ki, sən dilənçisən, yoxsa tacir? Dilənçi həzrətin bu sözündən narahat olur. Buna görə də vəhy kəsilir.[3]

5. Peyğəmbərin(s) xanımlarının ya da qohumlarından birinin iti Cəbrailin gəlişinə mane olurmuş.[4]

6. Peyğəmbər(s) Cəbraildən vəhyin gecikməsinin səbəbini sorşduqda o deyir ki, mənim özümdən heç bir ixtiyarım yoxdur.[5]

Həzrət Peyğəmbərin(s) qəlbində şəkk-şübhə yaranması haqqında yazmış əksər müəlliflər Təbərinin yazdığına əsaslanmışlar. Onun fikrincə Peğəmbər(s) Həra mağarasından gəldikdən sonra vəhyin ardı kəsilir. Xədicə o həzrətə deyir ki, deyəsən Allahın sənə acığı tutmuş, səndən üz döndərmişdir. Yalnız bundan sonra yeni vəhy nazil olub aşağdakı ayəni çatdırır: «Rəbbin səni nə tərk etdi, nə də sənə acığı tutdu»[6]

Bu müəlliflərin məsələyə obyektiv yanaşmadıqlarını göstərən amil odur ki, bu qədər nəzəriyyə arasından yalnız birinə əsaslanmış və həyatı

---

[1] Təfsiri Qurtəbi, c-10, s-71-83; Sireyi Hələbi, c-1, s-349
[2] Təfsiri Qurtəbi, c-10, s-71-83; Sireyi Hələbi, c-1, s-349
[3] Ruhul-məani, c-30, s-157
[4] Təfsiri Əbülfütuh, c-12, s-108
[5] Məcməul-bəyan, c-10, Zuha surəsinin təfsiri
[6] Təfsiri Təbəri, c-3, s-252

boyu şəkk-şübhəyə yol verməyən Peyğəmbər(s) kimi bir şəxsiyyətin həyatı barədə təkcə bu ehtimalı əldə rəhbər tutmuşlar. Aşağıdakıları nəzərə aldıqca bu ehtimalın əsassız olduğu üzə çıxır:

1. Xədicə ömrünün sonunadək həyat yoldaşını sevmiş, onun yolunda canından keçməyə də hazır olmuşdur. Bütün mal-dövlətini İslamın inkişafı üçün sərf etmişdir. Həzrət Mühəmməd(s) peyğəmbər seçilərkən onlar artıq on beş il idi ki ailə qurmuşdular və bu müddət ərzində Xədicə ərində paklıqdan başqa bir şey görməmişdi. Belə bir vəziyyətdə Xədicə öz əri ilə bu cür sərt şəkildə danışmazdı.

2. «Rəbbin səni nə tərk etdi, nə də sənə acığı tutdu» ayəsindən Xədicənin o həzrətə belə deməsi başa düşülmür. Düzdür ayədən məlum olur ki, kimsə Peyğəmbərə (s) belə deyirmiş, lakin həmin şəxsin kim olduğu və nəyə görə belə deməsi barədə məlumat verilmir.

3. Bu əhvalatı Xədicəyə nisbət verən şəxs onu Peyğəmbərə təsəlli verən adam ki, tanıtdırır. Hətta güya Peyğəmbər (s) intihar etmək fikrinə düşmüş, Xədicə onu bu fikirdən daşındırmışdır. Peyğəmbərə təskinlik verən bir şəxs necə olur ki, səhərisi gün ona: «Deyəsən Allahın sənə qəzəbi tutmuş, səninlə əlaqəni kəsmişdir»-deyir?

**4.** Peyğəmbərə(s) Ələq surəsinin ilk ayələri gəldikdən sonra vəhyin ardı kəsilirsə və bir müddət sonra Zuha surəsi nazil olursa, bu o deməkdir ki, deməli, nazil olma ardıcıllığına görə Zuha surəsi ikinci surə olmalıdır. Halbuki mütəxəssislər bu surəni Quranın onuncu surəsi kimi qəbul etmişlər.[1] Zuha surəsinə qədər artıq ardıcıl olaraq aşağıdakı surələr nazil olmuşdu:

1-Ələq, 2-Qələm, 3-Muzzəmmil, 4-Muddəssir, 5-Təbbət, 6-Təkvir, 7-İnşirah, 8-Əsr, 9-Fəcr, 10-Zuha. Yəqubi bu surəni Quranın üçüncü nazil olmuş surəsi hesab edir.[2] Hətta bu fikir də deyilənlərlə uyğun gəlmir.

*Vəhyin kəsilmə müddəti barədə müxtəlif fikirlər*

Vəhyin kəsilmə müddəti haqqında da müxtəlif fikirlər söylənilmişdir. Təfsir kitablarında bu müddətin dörd, on iki, on beş, on doqquz, iyirmi beş və qırx gün olduğu göstərilmişdir. Lakin Quranın

[1] Tarixul-Quran (Zəncani), s-58

[2] Tarixi-Yəqubi, c-2, s-33

tədrici şəkildə nazil olmasının fəlsəfəsini öyrəndikdə görürük ki, belə fasilələr heç də bir dəfə olmayıb. Müxtəlif zamanlarda bu cür hallar olmuş və bunu heç kim vəhyin kəsilməsi hesab etməmişdir. Ümumiyyətlə Quran elə ilk gündən etibarən bu kitabın tədricən nazil olacağını çatdırmışdır. Bir ayədə deyilir: ***«İnsanlara aramla (yavaş-yavaş) oxuyasan deyə, biz Quranı hissələrə ayırıb (ayə-ayə, surə-surə) göndərdik.»***[1] Başqa bir ayədə isə Quranın tədricən nazil olmasının səbəbi açıq şəkildə göstərilir: ***«Kafirlər: «Quran ona (Peyğəmbərə) bütöv (birdəfəlik) endirilməli idi!»-dedilər. (Ya Rəsulum!) Sənin ürəyinə səbat (qətiyyət) vermək üçün Biz onu ayə-ayə (tədriclə) nazil etdik.»***[2]

Quranın tədrici şəkildə nazil olduğunu nəzərə aldıqda onda gərək kimsə hər gün, hər saat Cəbrailin Peyğəmbərə(s) nazil olub yeni ayələr gətirməsini gözləməməlidir. Quran özü də bildirdiyi kimi, müxtəlif zamanlarda, ara-sıra fasilələrlə nazil olmuşdur. Deməli, vəhyin kəsilməsindən söhbət gedə bilməz.[3]

---

[1] İsra-106

[2] Furqan-32

[3] Quranın tədricən nazil olmasının səbəbləri haqqında ətraflı məlumat üçün bu sətirlərin müəllifinin «Quranda kamil insan surəti» əsərinə müraciət edə bilərsininz. s-140-150

## GİZLİ DƏVƏT

Həzrət Mühəmməd(s) üç il boyunca öz dəvətini yalnız gizli şəkildə həyata keçirmişdir. Dövrün tələblərinə uyğun olaraq o həzrət dəvətini hələ aşkar etməmiş, kiçik dairədə fəaliyyət göstərməklə bəzi adamları İslama dəvət etmişdir. Tarixdə onların adı qeyd olunmuşdur ki, bunlardan aşağıdakıları göstərmək olar: Xədicə, Əli ibn Əbutalib(ə), Zeyd ibn Harisə, Zübeyr ibn Əvvam, Əbdürrəhman ibn Ovf, Səd ibn Əbu Vəqqas, Təlhə ibn Übeydullah, Əbu Übeydə Cərrah, Əbu Sələmə, Ərqəm ibn Əbu Ərqəm, Qədamə ibn Məzun, Abdullah ibn Məzun, Übeydə ibn Haris, Səid ibn Zeyd, Xəbbab ibn Zeyd, Əbu Bəkr ibn Əbu Quhafə, Osman ibn Əffan və s.[1] Əlbəttə İslamı ilk qəbul edənlər təkcə bunlar olmamış və adı çəkilən on yeddi nəfərdən başqa Əbuzər kimilər də olmuşdur.[2]

Gizli dəvətin aparıldığı üç il ərzində Qureyş başbilənləri eyş-işrətlə gün keçirir, Peyğəmbərin(s) gizli fəaliyyətindən qismən xəbərdar olsalar da hər hansı bir əks addım atıb reaksiya göstərmirdilər. Bu müddət ərzində Peyğəmbər(s) bəzi səhabələrlə birlikdə Məkkənin ətraf dərələrinə çəkilib namazlarını gözdən uzaq yerdə qılırdılar. Bir gün onların namaz qıldığını görən bəzi müşriklər onlara istehza etdikdə müsəlmanlarla müşriklər arasında kiçik qarşıdurma yaranır ki, bu da Səd ibn Əbu Vəqqasın müşriklərdən birini yaralaması ilə nəticələnir.[3] Bu hadisədən sonra Peyğəmbər(s) namaz qılmaq üçün Ərqəmin evini təyin edir.[4] Peyğəmbər(s) bunu təbliğinin gizli qalması məqsədi ilə etmişdi. Əmmar Yasir, Süheyb ibn Sənan məhz həmin evdə iman gətirənlərdən olmuşlar.

---

[1] Sireyi ibn Hişam, c-1, s-245-262
[2] Usdul-qabə, c-1, s-308
[3] Tarixi Təbəri, c-2, s-61
[4] Usdul-qabə, c-4, s-44; Sireyi Dəhəlani, c-1, s-192

*Qohumları İslama dəvət etmək*

Ağıllı insanlar hər hansı işə başladıqda böyük planlar hazırlayır, lakin kiçik işdən başlayırlar. Müvəffəqiyyət qazandıqda dairəsini genişləndirməyə çalışır. Qacar hökümdarlarından biri (və ya nümayəndəsi) Böyük Britaniyaya səfəri çərçivəsində görüşdüyü dövlət başçısından onların ictimai işlərdə uğur qazanmalarının səbəbini soruşduqda belə cavab vermişdir: «Biz qərblilərlə siz şərqlilərin təfəkkür tərzi fərqlidir. Biz həmişə böyük planlarla işə girişir, lakin kiçik addımlarla irəliləyirik. Nəticə əldə etdikdə işimizi daha da genişləndiririk. Yolun yarısında səhv etdiyimizi başa düşükdə planlarımızı dəyişirik. Siz şərqlilər isə böyük çərçivədə başlayır, səhv etdiyinizi anladıqda isə artıq gec olur və işinizin törətdiyi fəsadları qəbul etməkdən başqa yolunuz qalmır. Digər tərəfdən də siz şərqlilər həddən artıq çox tələsirsiniz. Sanki tələsmək sizin qanınıza hopub. Başladığınız işin nəticəsini həmin gün görmək istəyirsiniz. Bu çox yanlış bir fikirdir və insanı nailiyyət qazanmağa qoymaz.»

Biz belə hesab edirik ki, belə düşüncə tərzi təkcə şərqlilərə aid deyil. Ümumiyyətlə ağıllı insan məhz bu yolla işə girişir və yavaş-yavaş işinin dairəsini genişləndirir. Həzrət Peyğəmbər(s) də məhz belə etmişdir. Düz üç il öz dəvətini gizli saxlamış, bu sahədə qətiyyən tələsməmişdir. Məqsədi ümumdünya hökümətini qurub bütün insanları bir bayraq-tövhid bayrağı altında birləşdirmək olduğu halda o hələ dəvətini üzə çıxarmamışdı. Heç öz qohumlarını da hələ İslama dəvət etməmişdi. Bu üç il ərzində o yalnız məsləhət gördüyü insanları İslama çağırmış və uğur da qazanmışdı.

Gizli dəvət illəri ərzində Qüreyş müşrikləri xüsusilə Məkkə fironu Əbu Süfyan Peyğəmbərin(s) dəvəti haqqında eşitdikdə buna istehza ilə yanaşır, kinayəli gülüşlərə qərq olub deyirdilər: «O da tezliklə (İncildən məlumatlar əldə edib məclislərdə xaçpərəstliyi təbliğ edən) Vərəqə və Üməyyə kimi sakitləşər.» Bu müddətdə müşriklər Peyğəmbərə(s) qətiyyən hörmətsizlik etmir, həmişə hörmətini qoruyurdular. Peyğəmbər(s) də öz növbəsində bütləri açıq şəkildə tənqid etmir, yalnız öz gizli dəvəti ilə məşğul idi. Lakin qohumları və camaatı ümumi şəkildə İslama dəvət etməyə, bütləri, müşriklərin insanlığa zidd olan əməllərini aşkar şəkildə

pisləməyə başladıqdan sonra Qüreyş müşrikləri başa düşdülər ki, onun dəvəti Vərəqə və Üməyyənin dəvətindən fərqlidir. Bu üzdən onlar da mübarizəyə başlamaq məcburiyyətində qalırlar.

Gizli dəvətin ardınca Peyğəmbər(s) aşkar olaraq ilk dəfə öz qohumlarını İslama dəvət edir. İnsanların fərdi və ictimai həyatında təsir edəcək ümumi islahatda hər şeydən öncə iki əsas qüvvə olmalıdır? Biri danışıq və nitq qabiliyyəti. Belə ki, dəvət edən şəxs öz istəyini camaata gözəl şəkildə çatdıra bilməlidir. İkincisi isə müdafiə qüvvəsi. Düşmənin əks hücumu zamanı tərəfdarları onu düşmən hücumlarından qorumalıdırlar. Əks təqdirdə islahatçının təbliğatı heç bir nəticə verməyəcək və qısa müddət ərzində dəvətin mahiyyəti unudulub gedəcək.

Peyğəmbərin danışıq tərzində qətiyyən problem yox idi. O, öz fikirlərini çox gözəl şəkildə camaata çatdırırdı. Lakin dəvətin ilk illərində elə də müdafiə qüvvəsi yox idi. Çünki üç il ərzində o həzrət təxminən qırxa qədər adamı İslama dəvət edə bilmişdi ki, şübhəsiz qırx nəfər onu müdafiə etmək üçün kifayət etməzdi. Bu baxımdan həzrət Mühəmməd(s) ümumi dəvətdən öncə öz qohumlarını İslama dəvət etməklə ikinci boşluğu da doldurmuş olur. Çünki qohumları onun dəvətini qəbul etməsəydilər də ən azından qohumluq münasibətlərinə görə onu dəstəkləyəcəkdilər. Xoşbəxtlikdən o vaxt bəzi sayılıb-seçilən adamlar da onun dəvətini qəbul etdilər. Digər tərəfdən Peyğəmbər(s) belə hesab edirdi ki, islahatlara ilk növbədə daxildən başlamaq lazımdır. İnsan öz ailəsini qohum-əqrəbasını pis işlərdən çəkindirməyincə dedikləri başqalarına təsir etməyəcək. Çünki qeyriləri şəxsin öz qohumlarını bəhanə gətirərək pis işlərindən əl çəkməyəcəklər.

Yaxın qohumların İslama dəvət edilməsi məqsədilə Allah-taala Peyğəmbərə(s) belə xitab edir: ***«Və ən yaxın qohumlarını qorxut!»***[1] Tarixçilər hamı bir nəfər kimi qeyd edirlər ki, Allah-taala Peyğəmbərə(s) öz qohumlarını İslama dəvət etməyi əmr edir. O həzrət on üç, ya da on beş yaşlı Əli ibn Əbutaliblə(ə) yemək tədarükü görməyi və yeməklə birlikdə süfrəyə süd qoymağı da tapşırır. Peyğəmbər(s) Bəni-Haşimdən

[1] Şüəra-214

45 nəfəri evinə qonaq çağırır və onları öz gizli dəvətindən xəbərdar etmək qərarına gəlir. Lakin yemək yeyilib qurtardıqdan sonra hələ Peyğəmbər(s) sözə başlamamış, həzrətin əmilərindən olan Əbu Ləhəb yersiz söhbətlərlə məclisi bir-birinə vurub əlverişli fürsəti aradan aparır. Vəziyyətin belə olduğunu görən Peyğəmbər(s) söhbətini ertəsi günə saxlamaq qərarına gəlir. Səhərisi gün yeni bir ziyafət təşkil edir. Qonaqlar yeyib qurtardıqdan dərhal sonra Peyğəmbər(s) Allaha həmd-səna edərək sözə başlayır: «Həqiqətən, bir qövmün yol göstərəni öz adamlarına heç vaxt yalan danışmaz. Ondan başqa tanrı olmayan Allaha and olsun ki, mən sizə və bütün bəşəriyyətə göndərilmiş peyğəmbərəm. Yatdığınız kimi öləcək, oyandığınız kimi diriləcəksiniz. Hamı öz əməlinə görə hesab verəcək. (Yaxşılar üçün) Allahın Cənnəti, (pislər üçün) Cəhənnəmi əbədidir. Mənim sizlərə gətirdiyimdən daha yaxşısını heç kəs öz qohumları üçün gətirməyib. Mən sizlər üçün dünya və axirət xoşbəxtliyini gətirmişəm. Allah mənə sizi Onun yoluna dəvət etməyi tapşırıb. Bu işdə kim mənə yardımçı çıxıb qardaşım və aranızdakı canişinim olar?»[1] Bu zaman bütün məclisi sükut bürümüşdü. Hamı fikrə dalmışdı. Birdən ondörd-onbeş yaşlı Əli sükutu pozaraq ayağa qalxıb cəsarətlə söylədi: «Ey Allahın rəsulu, mən sizə kömək etməyə hazıram.» Peyğəmbər ona oturmasını əmr edir. Sonra o həzrət bir daha öz sözünü təkrar etdi. Yenə də Əli(ə) ona müsbət cavab verdi. Üçüncü dəfə də Əlidən başqa kimsənin dillənmədiyini görən peyğəmbər(s), üzünü qohumlarına tutub buyurdu: «Camaat, bu gənc mənim qardaşım və sizin aranızda canişinimdir. Onun sözlərinə qulaq asıb dediklərinə tabe olun!

Məclis başa çatdı, camaat gülümsəyərək rişxəndlə Əbutalibə dedilər ki, Mühəmməd Əlini sənə başçı seçdi. Tapşırdı ki, onun sözünə qulaq asıb dediklərinə tabe olasan.[2]

### *Cinayətlər, xəyanətlər*

Tarixi həqiqətləri dəyişib təhrif etmək ən böyük cinayət və xəyanətlərdən sayılır. Bir sıra müəlliflər öz yazılarında belə təhriflərə

[1] Tarixi-Təbəri, c-2, s-62-63; əl-Kamilu fit-tarix, c-2, s-40-41; Müsnədi Əhməd, c-1, s-111

[2] Təfsiri Təbəri, c-19, s-74

yol verməklə əsərlərini qiymətdən salmışlar. Lakin zaman keçdikcə digər müəlliflər onların yalanlarının üstünü açmaqla həqiqəti üzə çıxarmışlar. İndi belə təhriflərdən bir neçəsini diqqətinizə çatdırırıq:

1. Mühəmməd ibn Cərir Təbəri (vəfat edib hicri 310-da) Peyğəmbərin(s) öz qohumlarını İslama dəvət etməsi hadisəsini öz tarixində olduğu kimi və ətraflı şəkildə qələmə alsa da təfsirində «Və ən yaxın qohumlarını qorxut!» ayəsini təfsir edərkən tarix kitabında yazdıqlarını mənbələri ilə birlikdə qeyd edir. Lakin Peyğəmbərin(s): «Bu işdə kim mənə yardımçı çıxıb qardaşım və aranızdakı canişinim olar?» cümləsini «Bu işdə kim mənə yardımçı çıxıb qardaşım və filan-filanım olar?» şəklində qeyd etmişdir. Məlum məsələdir ki, «aranızdakı canişinim» ifadəsini «filan-filan» sözləri ilə dəyişmək xəyanətdən başqa bir şey deyil və qərəzli şəkildə dəyişdirilmişdir. O, bununla kifayətlənməmiş, Peyğəmbərin(s) Əlini qardaşı və canişini təyin edərkən buyurduğu ikinci cümlədə də həmin təhrifə yol vermişdir.

Tarixçi tarixi yazarkən azad, obyektiv olmalı, hər hansı təəssübkeşlikdən uzaq durmalıdır. Təbərini bu işə vadar edən amil onun məzhəb təəssübkeşliyi olmuşdur. Çünki o, Əlini Peyğəmbərdən dərhal sonrakı xəlifə kimi qəbul etmir. Peyğəmbərin(s) bu ifadələri onun imamətinə, o həzrətdən dərhal sonra xəlifəliyinə dəlalət etdiyindən, Təbəri öz məzhəbinin mövqeyini qorumaqdan ötrü ayənin nazil olma səbəbini də təhrif etmək məcburiyyətində qalmışdır.

2. İbn Kəsir Şami (vəfat edib hicri 732-də) də həm tarix, həm də təfsirində eynilə Təbərinin getdiyi yolla getmişdir.[1] Təbii ki, İbn Kəsiri bu işinə görə heç bir vəchlə üzürlü saymaq olmaz. Onun tarix kitabının əsasını Tarixi-Təbəri təşkil etdiyi halda bu hadisəni məhz Təfsiri-Təbəridən nəql etmişdir. (Halbuki Təbəri öz tarixində əhvalatı olduğu kimi, təhrifsiz qələmə almışdır).

3. «Mühəmmədin həyatı» əsərinin müəllfi Misirin keçmiş mədəniyyət naziri doktor Heykəl də yeni nəslə həqiqəti təhrif edilmiş şəkildə təqdim etmişdir. Çox təəccüblüdür ki, o, kitabın müqqədiməsində həqiqətləri təhrif etdiklərinə görə şərqşunasları tənqid atəşinə tutduğu

---

[1] Əl-Bidayətu vən-nihayə, c-3, s-40; Təfsiri ibn Kəsir, c-3, s-351

halda özü heç də onlardan geri qalmamışdır. Belə ki, o, əvvəla adı çəkilən kitabın ilk nəşrində hadisəni yığcam şəkildə qeyd etmiş, Peyğəmbərin(s) iki cümləsindən birini «Bu işdə kim mənə yardımçı çıxıb qardaşım və aranızdakı canişinim olar?» cümləsini xatırlamaqla kifayətlənmişdir. Peyğəmbərin(s) Əli(ə) öz razılığını bildirdikdən sonra buyurduğu: «Camaat, bu gənc mənim qardaşım və aranızdakı canişinimdir….» cümləsini ümumiyyətlə qeyd etməyib. İkincisi isə kitabın ikinci və üçüncü buraxılışlarında təhrifi bir qədər də artıraraq əvvəlki cümləni də çıxarmış və bununla da həm öz şəxsiyyətinə, həm də əsərinə böyük zərbə vurmuşdur.

***Peyğəmbərliklə imamət bir-birindən ayrılmaz***

Həzrət Mühəmmədin(ə) peyğəmbərliyinin elə başlanğıcında Əlinin(ə) də imamətinin elan edilməsi onu göstərir ki, bu iki məqam bir-birindən ayrıla bilməz. Peyğəmbər camaata təqdim olunduğu gün onun canişini də tanıtdırılır. Bu da ona dəlalət edir ki, deməli, peyğəmbərliyin də, imamətin də kökü birdir və bu iki məqam zəncir halqaları kimi bir-birinə bağlıdır.

Bu hadisə Əlinin(ə) necə böyük ruhiyyəyə, şücaətə malik olduğunu göstərir. Belə ki, dünya görmüş ağsaqqalların heyrət içində sükuta qərq olduqları bir məclisdə Əli(ə) ağaya durub heç nədən çəkinmədən Peyğəmbərə(s) yardımçı olmağa hazır olduğunu bildirir. O, mühafizəkar, mal-dövlət hərisi olan siyasətçilərdən fərqli olaraq bir an tərəddüd etmədən Peyğəmbərin(s) düşmənləri ilə düşmən olduğunu elan edir. O, həmin gün yaş baxımından məclisdə iştirak edənlərin ən kiçiyi olsa da, uzun müddət peyğəmbərlə ünsiyyətdə olması onu qəbilə ağsaqqallarının qəbul etməyə tərəddüd etdikləri həqiqəti qəbul etməyə razı olmasına şərait yaratmışdı. Əbu Cəfər İskafi bu hadisəyə olduqca obyektiv münasibət bildirmişdir.[1]

---

[1] Ətraflı məlumat üçün İbn Əbilhədidin Şərhi Nəhcül-bəlağə əsərinə müraciət edə bilərsiniz. c-13, s-215-295

## ÜMUMİ DƏVƏT

Həzrət Mühəmməd(s) peyğəmbər seçildikdən üç il sonra qohum-əqrəbasını İslama dəvət etməklə ümumi dəvətə başlayır. Bu vaxta qədər o artıq kiçik bir dəstəni haqq yola hidayət edə bilmişdi. İndi isə öz dəvətini açıq şəkildə həyata keçirməli idi. Bir gün Səfa dağına qalxıb uca səslə «ya səbahə!»-deyə camaatı səsləyir. (Xatırladaq ki, bu ifadəni ərəblər təhlükə zamanı işlədirlər). Peyğəmbərin(s) çağırışı camaatın diqqətini cəlb edir. Qüreyşin müxtəlif qəbilələrindən adamlar dəstə-dəstə onun yanına tələsirlər. Camaat toplaşdıqdan sonra Peyğəmbər(s) üzünü onlara tutub buyurur: «Camaat dağın arxasında düşmən dayanıb sizə hücuma hazırlaşdığını desəm, mənə inanarsınızmı?» hamı bir ağızdan dedi ki, bəli, inanarıq. Çünki ömür boyu səndən yalan görməmişik. Həzrət buyurdu: «Ey Qüreyş camaatı özünüzü oddan xilas edin! Mən Allah qarşısında sizin üçün heç bir iş görə bilmərəm. Sizi acınacaqlı əzabdan çəkindirirəm. Mən düşməni uzaqdan görüb bu barədə öz qövmünə xəbər verən gözətçiyə bənzəyirəm.»[1]

O vaxta qədər Peyğəmbərin(s) dəvətindən az-çox xəbərdar olan qüreyşlilər bu dəfə daha çox qorxuya düşdülər. Hamı sükut içərisində dayanmışdı. Bu vaxt Əbu Ləhəb sükutu pozub dilləndi: «Vay olsun sənə! Bizi elə bundan ötrü bura yığmışdın?» Beləliklə də camaat yavaş-yavaş dağılışmağa başladı.

### *Məqsədə çatmaq uğrunda dözüm*

İnsanın müvəffəqiyyət əldə etməsi iki şeyə bağlıdır:

1. İrəlilədiyi məqsədə əqidəsi olmalıdır.
2. İrəlilədiyi məqsəd yolunda çətinliklərə dözüb səbirli olmalıdır.

Əqidə insanı məqsədinə doğru aparan çətinlikləri onun gözündə asanlaşdıran daxili qüvvədir. Başqa sözlə desək, səadətinin hər hansı

[1] Sireyi Hələbi, c-1, s-194

yolda olduğunu dərk etdikdə, əqidəsi onu istər-istəməz həmin məqsədə doğru aparacaq. Məsələn sağlamlığının acı dərmana bağlı olduğunu anlayan bir xəstə, həmin dərmanı cani-dildən qəbul edir. Ancaq əgər xəstə içəcəyi dərmanın faydasız olduğunu bilsə və ya ən azı şübhə ilə yanaşsa, onda heç dərmanı qəbul etməz, qəbul etsə də ürəkdən qəbul etməyəcək. Deməli, çətinlikləri insanın gözündə asanlaşdıran məhz əqidədir.

İnsan məqsədinə doğru irəlilədiyi yolda sözsüz ki, bir çox maneələrlə rastlaşır. Məqsədə çatmaq üçün həmin maneələri mütləq dəf etmək lazımdır. Atalar demişkən gül olan yerdə tikan da olar. Gülü dərmək istəyən şəxs onu elə dərməlidir ki, tikan əlinə batmasın. Quran bu məsələyə işarə edərək buyurur: ***«Şübhəsiz: «Rəbbimiz Allahdır!»- deyən, sonra da (sözündə) düz olan kəslərə (ölüm ayağında) mələklər nazil olub (belə deyəcəklər) «Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin!»***[1]

***Peyğəmbərin çətinliklərə müqaviməti***

Həzrət Mühəmmədin(s) ümumi dəvətdən qabaq xüsusi görüşləri, eləcə də ümumi dəvətdən sonra yorulmadan apardığı fəaliyyətlər nəticəsində müsəlmanlardan ibarət böyük bir dəstə yaranır. İslamı qəbul edib müsəlman olduqlarını gizlədən şəxslər ümumi dəvətdən sonra İslamı qəbul edənlərlə yaxından tanış olur və beləliklə də Məkkənin bütün şirk məclislərində xətər zəngi səslənir. Güclü Qüreyş üçün yeni toplaşmış bu dəstəni dağıtmaq elə də çətin iş deyil, lakin onların qorxusuna səbəb İslamı qəbul edənlərin hamısının eyni qəbilədən olmamaları idi. Onlar müxtəlif qəbilələrdən olduqlarına görə bu kiçik dəstəyə qarşı mübarizə aparmaq müşkül bir məsələyə çevrilmişdi. Qüreyş başçıları uzun müzakirələrdən sonra belə qərara gəldilər ki, dəstənin başçısını müxtəlif yollarla aradan götürsünlər. Ya onu müxtəlif vədlərlə şirnikləndirib öz tərəflərinə çəkmək, ya da hədələmək, işkəncələr verməklə yaydığı dinin qarşısını almaq lazım idi. Bütün bunlar Qüreyşin tərtib etdiyi onillik plana daxil idi. Bu planda

---

[1] Fussilət-30

gördükləri tədbirlərin heç bir nəticə verməyəcəyi təqdirdə Peyğəmbəri qətlə yetirmək də var idi ki, o həzrət yalnız Mədinəyə hicrət etməklə bu planın üstündən xətt çəkdi.

O vaxtlar Bəni-Haşimə Əbutalib başçılıq edirdi. o, çox təmiz iradəli, səxavətli insan idi. Evi yetimlərin, kimsəsizlərin ümid yeri idi. Bütün Məkkənin hakimiyyəti və Kəbəyə nəzarət onun ixtiyarında olmaqla yanaşı Ərəblər arasında böyük nüfuza malik idi. Bütün bunlarla yanaşı onun öhdəsinə ağır bir məsuliyyət də düşmüşdü. Axı Əbdülmüttəlibin vəfatından sonra Peyğəmbəri(s) o himayəsinə götürmüşdü. Məhz bu səbəbdən Qüreyş başçıları yığışıb onun hüzuruna gələrək deyirlər: «Qardaşın oğlu tanrılarımızı pisləyib dinimizi tənqid edir. Əqidəmizə istehza edib ata-babalarımızı azğın adlandırır. Ona de ki, ya bizimlə işi olmasın, ya da onu himayəndən çıxarıb bizim ixtiyarımıza burax.»[1]

Əbutalib olduqca mülayim davranıb onları nisbətən sakitləşdirir. İslam isə günbəgün ikişaf edir, müsəlmanların sayı artırdı. Bunda həzrət Peyğəmbərin(s) gözəl, şirin danışıqları, eləcə də Quranın bəlağətli ayələrinin rolu var idi. Haram aylarda Məkkəyə gələn hacıların çoxluğundan istifadə edən Peyğəmbər(s) bu fürsətdən maksimum yararlanırdı. Bu təbliğat nəticəsində bir çoxları İslamın təsiri altına düşüb müsəlman olur. Müşriklərin başçıları bir də ayılırlar ki, artıq Mühəmməd(s) ətraf qəbilələrdə özünə xeyli tərəfdar toplayıb. Buna görə də onlar yenidən Əbutalibin yanına gedib onunla danışmaq qərarına gəlirlər. Əbutaliblə görüşüb deyirlər: «Ey Əbutalib, sən yaş və şərəfinə görə bizdən üstünsən. Biz bundan qabaq da sənə demişdik ki, qardaşın oğlunu bu işlərindən çəkindir. Ancaq sən buna məhəl qoymadın. Artıq səbr kasamız dolub. Daha kiminsə tanrılarımızı, dinimizi tənqid etməsinə, bizi də ağılsız adlandırmasına dözə bilmərik. Buna görə də qardaşın oğlunu bu işlərindən çəkindir! Yoxsa ona və eləcə də himayəndə saxladığın üçün sənə qarşı mübarizə aparacağıq. Qoy bu iki dəstədən biri məhv olub aradan getsin!»

Peyğəmbərin(s) yeganə himayədarı olan Əbutalib, bu dəstəyə qarşı təmkinlə davranmağın lazım olduğunu başa düşüb onlara söz verir ki,

---

[1] Sireyi ibn Hişam, c-1, s-265

dediklərini qardaşı oğluna çatdıracaq. Əbutalib onların əsəblərini cilovlamaqdan ötrü belə cavab verir ki, sonra problemin həlli üçün daha yaxşı yollar axtarsın. Qüreyş başçıları getdikdən sonra Peyğəmbərlə(s) görüşüb müşriklərin dediklərini ona çatdırır. Əbutalib həm də qardaşı oğlunun öz məqsədi uğrunda mübarizəni davam etdirib-etdirməyəcəyini öyrənmək üçün ondan cavab gözləyirdi. Həzrət Peyğəmbərin(s) verdiyi cavab isə tarixə qızıl hərflərlə həkk olur. Peyğəmbər(s) buyurur: «Əmican, and olsun Allaha, öz məqsədimdən dönmək üçün Günəşi sağ əlimə, Ayı da sol əlimə versələr (yəni, bütün dünyanı da mənə versələr), yenə öz məqsədimdən dönən deyiləm. Mən öz məqsədimə çatana qədər qarşıya çıxan çətinliklərə qarşı mübarizə aparacaq, lazım gələrsə, bu yolda canımdan keçəcəyəm.» Bunu dedikdən sonra həzrətin gözləri yaşardı. Əmisinin hüzurundan durub otağı tərk edir. Həzrətin bu sözləri Əbutalibə elə təsir edir ki, qarşıda hansı təhlükələrin durduğunu bildiyi halda ixtiyarsız olaraq deyir: «Allaha and olsun ki, səni himayə etməkdən çəkinməyəcəyəm. Öz işini sonadək davam etdir!»[1]

***Qüreyş başçıları üçüncü dəfə Əbutalibin yanına gedirlər***

İslam dininin durmadan yayılması Qüreyş müşriklərini daha da narahat etməyə başlayır. Onlar bir daha məsləhətləşib yenidən Əbutalibin yanına getməyi lazım bilirlər. Müşriklər belə hesab edirlər ki, Əbutalib yəqin Mühəmmədi oğulluğa götürüb, ona görə də onu himayə edir. Bu səbəbdən qərara gəlirlər ki, Məkkənin ən gözəgəlimli oğlanlarından birini ona oğulluğa versinlər. Məkənin ən gözəgəlimli oğlanlarından olan Ümarə ibn Vəlid ibn Müğeyrəni də özləri ilə götürüb Əbutalibin yanına gələrək yenidən şikayət etməyə başlayırlar: «Əbutalib, Vəlidin oğlu gözəl şair, natiq və ağıllı adamdır. Biz onu sənə oğulluğa verməyə hazırıq, təki sən qardaşın oğlunu himayə etməkdən əl çəkəsən.» Qeyrəti cuşa gələn Əbutalib qəzəbli halda onlara bildirdi: «Mənə həddən artıq pis təklif etdiniz. Mən sizin uşağınızı öz qucağımda böyütdüm, siz isə mənim uşağımı, ciyərparamı qətlə yetirəsiniz?!. And olsun Allaha bu iş baş tutan

[1] Sireyi ibn Hişam, c-1, s-265-266

deyil.»[1] Mutim ibn Ədiyy ayağa qalxıb dedi ki, Qüreyş çox insaflı təklif irəli sürdü, ancaq sən buna razı olmadın. Əbutalib dedi: «Sən heç vaxt insafla davranmamısan. Mən bilirəm ki, sən mənim rüsvay olmağımı arzulayırsan. Buna görə də Qüreyşi mənə qarşı çıxarmağa çalışırsan, get nə bacarırsan elə!»

***Qüreyş Mühəmmədi(s) şirnikləndirməyə çalışır***

Qüreyş müşrikləri Əbutalibi razı sala bilməyəcəklərini anlayıb bir daha onunla danışmamaq qərarına gəldilər. Onlar çox yaxşı bilirdilər ki, o, üzdə İslama meyilli olduğunu bildirməsə də əslində qardaşı oğluna iman gətirib. İndi onlar başqa bir plan üzərində baş sındırırdılar. Bu dəfə həzrət Peyğəmbəri(s) mal-dövlət, vəzifə, qiymətli hədiyyələr, gözəl qadınlarla şirnikləndirib öz dəvətindən çəkindirmək istəyirdilər. Bu məqsədlə Əbutalibin evinə tərəf yollanırlar. Qardaşı oğlu əmisinin yanında oturmuşdu. Müşriklərin nümayəndəsi sözə başlayıb deyir: «Əbutalib, Mühəmməd sıralarımızı dağıtdı, aramıza təfriqə saldı. Bizi və bütlərimizi məsxərəyə qoydu. Əgər o, bunları imkansızlığı ucbatından edirsə, biz ona istədiyi qədər mal-dövlət verərik. Vəzifə istəyirsə, onu ən böyük vəzifəyə seçib əmrinə tabe olarıq. Xəstədirsə, ən mahir həkimləri çağırtdırıb onu müalicə etdirərik və s.»

Əbutalib, Peyğəmbərə(s) müraciətlə dedi: «Qəbilə böyüklərin gəlib səndən istəyirlər ki, bütlər haqqında pis fikirlərdən əl çəkəsən, onların da daha səninlə işi olmasın.» Peyğəmbər(s) üzünü əmisinə tutub buyurdu: «Mənim onlardan nəsə bir istəyim yoxdur. Etdikləri təkliflərin əvəzində bircə sözümü qəbul etmələrini istəyirəm. Qəbul etsələr, bütün ərəblərə ağalıq edib qeyri-ərəbləri də öz tabeçiliklərinə salarlar.» Bunu eşitcək Əbu Cəhl yerindən qalxıb deyir ki, biz nəinki bir, hətta on sözünü də qəbul etməyə hazırıq. Peyğəmbər(s) buyurdu: «Mənim bircə sözüm odur ki, Allahın təkliyini etiraf edəsiniz». Mühəmməddən(s) gözləmədikləri bu cavab onlar üçün soyuq bir duş oldu. Bütün ümidləri puç olub səssizcə qaldılar. Axırda ixtiyarsız olaraq dilə gəlib dedilər ki, 360 tanrıdan əl çəkib tək Allahamı inanaq?

---

[1] Tarixi Təbəri, c-2, s-67-68; Sireyi ibn Hişam, c-1, s-266-267

Sir-sifətlərində qəzəb nişanələri aşkar olan Qureyş müşrikləri, Əbutalibin evini tərk etdilər. Onlar hələ də öz aqibətləri haqqında düşünürdülər.[1] Aşağıdakı ayələr məhz bu hadisə ilə bağlı nazil olmuşdur: ***«Onlar öz içlərindən özlərinə (Allahın əzabı ilə) xəbərdarlıq edən (bir peyğəmbər) gəlməsinə təəccüb etdilər və kafirlər belə dedilər: «Bu yalançı bir sehrbazdır! Əcəba o, (Allahdan başqa heç bir tanrı yoxdur deməklə) tanrıların hamısını bir tanrımı edir? Bu, doğurdan da çox təəccüblü bir şeydir.» Onların əyanları (toplandıqları məclisdən) çıxıb gedərək (bir-brinə) belə dedilər: «Gedin öz tanrılarınıza (ibadətdə) möhkəm (sərbəst) olun. (Bizdən) istənilən şey budur. Biz bunu (Mühəmmədin dediklərini) sonuncu dində (xaçpərəstlikdə) də eşitmişik. Bu ancaq bir uydurmadır.»***[2]

***Qüreyş müşriklərinin işkəncələrindən nümunələr***

Peyğəmbər(s) Qüreyşin bütün təkliflərinə rədd cavabı verdikdən sonra o həzrətin həyatının ən çətin anları başlayır. O vaxta qədər müşriklər Mühəmmədin(s) ehtiramını qoruyurdular, lakin planlarının nəticə vermədiyini gördükdə hər hansı yolla olur olsun, İslamın inkişafının qarşısını almaq qərarına gəlirlər. İndi qarşıda o həzrəti hədə-qorxular, əzab-əziyyətlər, işkəncələr gözləyirdi. Bütün bəşəriyyətə rəhbərlik etmək istəyən şəxs bütün bu çətinliklərə sinə gərib dözməli idi. Peyğəmbərin(s) çətinliklərə dözərək necə səbr etdiyinə diqqət yetirməyimiz üçün Qüreyşin bir sıra fiziki və mənəvi işkəncələrinə nəzər salaq.

Peyğəmbər(s) ona daxildən kömək edən mənəvi amillə yanaşı zahiri bir amildən də faydalanırdı. Bu onu himayə edən Bəni-Haşimin dəstəyi idi. Bəni-Haşimin başında duran Əbutalib qardaşı oğlunun öz fikrindəki qətiliyini görüb bütün Bəni-Haşim nümayəndələrini toplayaraq onları Mühəmmədə(s) arxa olmağa çağırır. Bəziləri iman gətirdiyinə görə bəziləri də sırf qəbilə təəssübkeşliyi üzündən ona arxa-dayaq olacağını bildirir. Yalnız Əbu Ləhəblə digər iki nəfər buna razılıq vermir. Bəni-Haşimin Mühəmmədə(s) arxa olmasına rəğmən o həzrət yenə də bir sıra

---

[1] Tarixi Təbəri, c-2, s-66-67; Sireyi İbn Hişam, c-1, s-295-296
[2] Sad-4-7

xoşagəlməz hallarla üzləşir. Çünki müşriklər onu tək görən kimi onun üstünə hücum çəkib təzyiqlərə məruz qoyurdular.

Bir gün Əbu Cəhl, Mühəmmədi(s) Səfa dağında görüb təhqir edir. Peyğəmbər(s) ona heç nə deməyib evə gəlir. Əbu Cəhl isə Kəbə kənarında Qüreyş müşriklərinin qurduğu məclisə yollanır. Peyğəmbərin(s) əmisi və süd qardaşı Həmzə ox-kamanını belinə asıb ovdan qayıdırdı. Onun belə bir adəti var idi ki, Məkkəyə girdikdən sonra evə getməmiş əvvəl Kəbəni təvaf edər, sonra Kəbə ətrafında qurulmuş məclislərə baş çəkib ondan sonra evə dönərdi. Bu gün də adəti üzrə Kəbəni təvaf edib məclislərə baş çəkdikdən sonra evə gəlir. Əbu Cəhlin Peyğəmbəri(s) təhqir etdiyinə görə Abdullah ibn Cədanın kənizi irəli çıxıb deyir: «Əbu Ümarə (bu Həmzənin künyəsi idi), kaş bir qədər əvvəl Əbu Cəhlin qardaşın oğlunu necə təhqir etdiyini görəydin!» Kənizin sözləri Həmzəyə elə pis təsir etdi ki, heç nəyi düşünmədən Əbu Cəhldən qardaşı oğlunun qisasını almağa qərar verdi. Gəldiyi yolla geri qayıdıb Əbu Cəhli Kəbə kənarında qurulmuş bir məclisdə tapdı. Heç kiminlə bircə kəlmə də danışmadan kamanını çıxarıb Əbu Cəhlin başına elə bir zərbə endirir ki, başı yarılır. Sonra üzünü ona tərəf tutub deyir: «Mən Mühəmmədə(s) iman gətirdiyim, onun yolu ilə getdiyim halda sən onu təhqirmi edirsən? Hünərin varsa, mənimlə vuruş!» Bu zaman Bəni-Məxzum qəbiləsindən olanlar Əbu Cəhli müdafiə etmək üçün ayağa qalxırlar.

Vəziyyəti düzgün dəyərləndirməyi bacaran Əbu Cəhl qarşıdurmaya yol verməyib deyir: «Mən həqiqətən də Mühəmmədə qarşı pis davrandım, Həmzə narahat olmaqda haqlıdır.»[1]

Bu hadisə onu göstərir ki, sonradan İslamın ən böyük sərkərdəsinə çevrilən Həmzə kimi bir cəngavərin müsəlmanların sırasında olması Peyğəmbərin(s) qorunmasında və müsəlmanların güclənməsində müstəsna rol oynamışdır. Bu barədə İbn Əsir yazır: «Qüreyş müşrikləri Həmzənin müsəlman olmasını İslamın tərəqqisndə ən böyük amil hesab etmişlər.»[2]

---

[1] Sireyi ibn Hişam, c-1, s-313; Tarixi Təbəri, c-2, s-72

[2] Əl-Kamilu fit-tarix, c-2, s-56

Qüreyş müşrikləri bu dəfə daha ağır təzyiqlər barədə plan hazırlamaq niyyətində idi.

İbn Kəsir Şami[1] kimi bəzi tarixçilər Əbu Bəkrlə Ömərin müsəlman olmalarının, Həmzənin müsəlman olmasından heç də az nəticə vermədiyini göstərməyə çalışmışlar. Düzdür o vaxtlar hər bir şəxsin müsəlman olmasının təsiri olurdu. Ancaq ilk iki xəlifənin müsəlman olmasının Həmzənin müsəlman olması kimi nəticə verdiyini söyləmək olmaz. Həmzə elə bir şəxs idi ki, Qüreyş başçılarından olan Əbu Cəhlin Peyğəmbəri(s) təhqir etdiyini eşidən kimi heç kəsə bir söz demədən onun ardınca gedib qısas alır. Kimsə də ona etiraz bildirməyə cürət etmir. İbn Hişam yazır: «Bir gün Peyğəmbər(s) müşriklərin yanından keçərkən, birdən hərə bir tərəfdən onu əhatəyə alıb həzrətin bütlər, qiyamət günü haqqında dediklərinə istehza ilə yanaşı deyirlər ki, sən belə deyirsən? Peyğəmbər(s) onların cavabında: «Bəli, mən belə deyirəm» - deyə bildirir. Müşriklər onu köməksiz görüb öldürmək istəyirlər. Aralarından biri irəli çıxıb Peyğəmbərin(s) ətəyindən yapışır. Peyğəmbərin(s) yanında olan Əbu Bəkr irəli çıxıb gəlib ağlaya-ağlaya deyir: «Rəbbim Allahdır deyən bir adamımı öldürmək istəyirsiniz?» Müşriklər nədənsə Peyğəmbəri(s) öldürmək fikrindən daşınırlar. Peyğəmbər(s) öz yoluna davam edir, Əbu Bəkr isə başı partlamış halda evinə gedir.[2]

Bu əhvalat Əbu Bəkrin Peyğəmbərə(s) olan münasibətini göstərsə də eyni zamanda onun zəifliyinə dəlalət edir. Deməli o vaxt onun nə elə bir gücü var imiş, nə də cəmiyyət arasında nüfuzu. İndi Həmzə ilə Əbu Bəkrin müsəlman olmalarını yan-yana qoyduqda, hansının daha təsirli olduğu aydın olur.

Ömər də İslamı qəbul edərkən, belə bir hadisə ilə üzləşmişdir. Ömər İslamı qəbul edərkən As ibn Vail olmasaydı, onu öldürərdilər. Belə ki, As ibn Vail müsəlman olduğuna görə Öməri öldürmək istəyənlərə deyir: «Özünə din seçmiş bir şəxsimi öldürmək istəyirsiniz? Elə bilirsiz Ədiyy qəbiləsi sizdən belə rahatlıqla əl çəkəcək?»[3] Bu cümlədən başa düşmək olar ki, Ömərin qəbiləsindən qorxduqları üçün onu

---

[1] Əl-Bidayətu vən-nihayə, c-3, s-26-32

[2] Sireyi ibn Hişam, c-1, s-31; Tarixi Təbəri, c-2, s-72

[3] Sireyi ibn haşam, c-1, s-317

öldürməkdən vaz keçmişlər. Qəbilənin öz nümayəndəsini müdafiə etməsi təbii bir haldır.

Müsəlmanların sığınacaq yeri Bəni-Haşimin evi idi və bütün çətinliklər Əbutalibin öhdəsinə düşürdü. Digər müsəlman olanların isə elə də nüfuzu yox idi.

*Əbu Cəhl, Peyğəmbəri(s) güdür*

İslamın inkişaf etməsi müşrikləri rahat buraxmırdı. Elə bir gün olmurdu ki, Qüreyş tayfalarından kiminsə müsəlman olduğu xəbəri gəlməsin. Buna görə də onların qəzəbi daha da artır, səbrü-qərardan çıxırdılar. Bir gün Əbu Cəhl müşriklərin toplandığı məclisdə deyir: «Ay qüreyşlilər, Mühəmmədin dinimizi, tanrılarımızı necə təhqir etdiyini, ata-babalarımızı, özünüzü tənqid etdiyini öz gözlərinizlə görürsünüz.[1] And olsun Allaha, sabah özümlə iri bir daş götürüb onu güdəcək, Mühəmməd səcdəyə getdikdə daşı başına buraxacam.» Səhərisi gün Peyğəmbər(s) namaz qılmaq üçün Məscidül-hərama gəlir. Rükni-Yəmani ilə Həcərül-əsvədin arasında durub namaz qılmağa başlayır. Əbu Cəhlin niyyətindən xəbərdar olan bəzi müşriklər onun bu mübarizədə qalib gəlib-gəlməyəcəyi haqda düşünürdülər. Peyğəmbər(s) səcdəyə getdikdə Əbu Cəhl gizləndiyi yerdən çıxıb o həzrətə yaxınlaşır. Birdən onun bədəninə lərzə düşür, vahimə basmış halda geri qayıdır. Müşriklər onu görcək hamı bir ağızdan soruşur ki, nə oldu, Əba Həkəm? O, yavaş titrək səslə cavab verir ki, bu vaxtadək rastlaşmadığım bir mənzərə ilə rastlaşdım, buna görə də məqsədimdən daşındım.

Aydın məsələdir ki, Allahın izni ilə qeybi bir qüvvə Əbu Cəhlin önündə canlanaraq Peyğəmbərin köməyinə gəlmişdir. Necə ki, Allah-taala özü buna vəd vermişdir ki, biz səni istehza edənlərin şərrindən amanda saxlayırıq.

Tarixdə Qüreyş işkəncələri barədə xeyli nümunələr verilmişdir. İbn Əsir öz kitabında bu mövzuya ayrıca bir fəsl həsr etmiş, Peyğəmbərin(s) Məkkədəki bütün düşmənlərinin adını, etdiyi işkəncələri sadalamışdır.

[1] Sireyi ibn Hşam, c-1, s-298-299

Həzrət Mühəmməd(s) hər gün yeni əzab-əziyyətlə rastlaşırdı. Məsələn bir gün Əqəbə ibn Əbu Muit, həzrəti Kəbə ətrafında təvaf edərkən görüb söyür. Sonra Peyğəmbərin(s) əmmaməsini başından götürüb boynuna sarıyaraq məsciddən kənara çıxarır. Lakin bəziləri Bəni-Haşimin qorxusundan Peyğəmbəri(s) onun əlindən alırlar.[1]

Peyğəmbərə(s) ən çox əzab-əziyyət verən, əmisi Əbu Ləhəblə arvadı Ümmi Cəmil olmuşdur. Peyğəmbərin(s) evi onların qonşuluğunda yerləşdiyindən hər gün onun başına müxtəlif zibillər atırdılar. Hətta bir dəfə həzrətin üstünə qoyun qarnı atırlar və bu məsələ o yerə qalxır ki, axırda Həmzə də Əbu Ləhəbə qarşı eyni işi görür.

***Müsəlmanların işkəncələrə məruz qalması***

İslam dininin inkişaf etməsinin əsas amillərindən biri də Peyğəmbərin(s) və səhabələrinin çətinliklərə sinə gərib dözmələri olmuşdur. Peyğəmbərin(s) çətinliklərə dözməsi barədə az öncə danışdıq. Lakin səhabələrin də belə sınaqlar qarşısında dözüm nümayiş etdirmələri olduqca maraqlıdır. İndi bütpərəstliyin mərkəzi olmuş Məkkədə işkəncələrə məruz qalmış bir neçə şəxsin əzmkarlığına diqqət yetirək.

***1-Bilal Həbəşi***

Bilalın ata-anası Həbəşistandan əsir olaraq Ərəbistan yarmadasına gətirilmişdilər. Sonradan Peyğəmbərin(s) azan verəni seçilmiş Bilal, Üməyyə ibn Xələfin qulu idi. Üməyyə Peyğəmbərin(s) qatı düşmənlərindən sayılırdı. Bəni-Haşim Peyğəmbəri(s) müdafiə etdiyi üçün Üməyyə bütün acığını Bilalın üstünə tökürdü. Ən qızmar günlərdə onun çılpaq vəziyyətdə isti qumların üzərinə uzadıb böyük və isti bir daşı sinəsinə qoyaraq deyirdi: «Mühəmmədin Allahından əl çəkib Lat və Üzzaya pərəstiş etməyincə səndən əl çəkən deyiləm. Yoxsa bu vəziyyətdə qalıb canın çıxacaq.» Bilal bu ağır işkəncələrə dözüb Üməyyəyə yalnız ikicə kəlmə ilə cavab verir: «Əhəd, əhəd» (Yəni, Allah təkdir, təkdir. Mən bir daha bütpərəstliyə dönmərəm). Bədbəxtlər bədbəxtinin əsirinə çevrilmiş bu qaradərili qulun dözümü hamını heyrətə gətirmişdi. Hətta Vərəqə ibn Nofəl onun belə acınacaqlı vəziyyətinə təəssüflənərək Üməyyəyə demişdi ki,

[1] Biharul-ənvar, c-18, s-20

and olsun Allaha, əgər o, bu vəziyyətdə ölərsə, qəbrini ziyarətgaha çevirəcəyəm.[1] Bəzən Üməyyə, Bilala daha çox psixoloji əzab verirdi. Belə ki, Bilalın boynuna ip salıb uşaqlara verir və tapşırırdı ki, onu küçələrdə sürüsünlər.[2]

Müsəlmanlarla müşriklər arasında ilk dəfə baş verən Bədr döyüşündə Üməyyə ilə oğlu əsir düşürlər. Müsəlmanlardan bəzisi Üməyyənin öldürülməsinə etiraz etsələr də Bilal deyir ki, o, küfr başçısıdır, mütləq öldürülməlidir. Bilalaın təkidi ilə həm Üməyyə, həm də oğlu qətlə yetirilir.

***2-Əmmar Yasir və ata-anası***

İslamı erkən qəbul edənlər arasında Əmmar Yasirlə ata-anası da var idi. Onlar Peyğəmbərlə(s) səhabələri Ərqəm ibn Əbu Ərqəmin evində toplaşarkən müsəlman olmuşdular. Müşriklər onların müsəlman olduqlarını eşitdikdə işkəncələrə başladılar. İbn Əsir bu barədə yazır: «Müşriklər ən qızmar vaxtlarda onları evdən çıxarıb günün altında, səhranın isti küləyində saxlayırdılar. Bu hal o qədər təkrarlandı ki, Əmmarın atası tab gətirməyib vəfat edir. Buna görə Süməyyə Əbu Cəhlə etiraz etdikdə o, süngü ilə Süməyyəni də qətlə yetirir. Bu ər-arvadın aqibəti Peyğəmbəri(s) çox kədərləndirir. Bir dəfə onların işkəncəyə məruz qaldığını gözləri ilə görən Peyğəmbər(s) onlara buyurur: «Ey Yasir ailəsi, dözümlü olun, sizin yeriniz Cənnətdir.»[3]

Yasirlə Süməyyə şəhid olduqdan sonra müşriklər Əmmara daha çox işkəncələr verib onu da Bilal kimi incidirdilər. O, öz canını qorumaq naminə üzdə İslamdan döndüyünü bildirsə də bu əməlindən dərhal peşman olur. Ağlaya-ağlaya Peyğəmbərin(s) hüzuruna gəlib onu məsələdən xəbərdar edir. Peyğəmbər(s) ondan soruşur ki, batini imanında nəsə bir dəyişiklik olubmu? Əmmar cavab verir ki, xeyr, qəlbim imanla doludur. Peyğəmbər(s) buyurur: «Elə isə qətiyyən narahat olma, onların şərrindən yaxa qurtarmaqdan ötrü üzdə imanı gizlədə bilərsən.»[4] Aşağıdakı ayə məhz bununla əlaqədar nazil olur:

---

[1] Sireyi ibn Hişam, c-1, s-318
[2] Təbəqatu ibn Səd, c-3, s-233
[3] Əl-Kamilu fit-tarix, c-2, s-45
[4] Sireyi ibn Hişam, c-1, s-320

***«Qəlbi imanla sabit olduğu halda (küfr sözünü deməyə) məcbur edilən (dil ilə deyib ürəyində onu təsdiq etməyən) şəxs istisna olmaqla, hər kəs iman gətirdikdən sonra küfr etsə (onu bəla gözləyir).»***[1]

Əbu Cəhl Yasir ailəsinə işkəncə verməkdən ötrü od və şallaq hazırlanmasını əmr edir. Yasir, Əmmar və Süməyyəni sürüyə-sürüyə gətirirlər. Süngü, od və şallaqla onlara əzab verməyə başlayırlar. Son ana qədər Peyğəmbəri(s) tərifləyən Yasirlə Süməyyə işkəncələr altında canlarını tapşırırlar. Bu acınacaqlı mənzərənin şahidi olan Qüreyş gəncləri İslama düşmən olmalarına rəğmən Əmmarı Əbu Cəhlin işkəncələrindən qurtarırlar ki, heç olmasa ata-anasını dəfn edə bilsin.

### *3-Abdullah ibn Məsud*

Gizlində müsəlman olmuş şəxslər bir-biri ilə məsləhətləşirlər ki, müşriklər hələ Quran ayələrini eşitməyiblər. Yaxşı olar aramızdan bir nəfər gedib müşriklərin arasında uca səslə Quran oxusun. Abdullah ibn Məsud bu işi öhdəsinə götürür. Məscidul-hərama gəlib Kəbə kənarında uca və məlahətli səsi ilə ər-Rəhman surəsindən bir neçə ayə oxuyur. Cümlələrin fəsahət və bəlağəti müşrikləri heyrətə gətirib şaşqın vəziyyətdə qoyur. Quranın kimsəsiz Abdullah tərəfindən oxunulan səsini kəsmək məqsədilə hamı ayağa qalxıb onu o qədər döyürlər ki, bütün bədəni al qana boyanır. Ölümcül vəziyyətdə Peyğəmbərin(s) səhabələrinin yanına qayıdır. Ancaq səhabələr axır ki, Quranın müşriklərə çatdırıldığına görə çox xoşhal idilər.[2]

### *4-Əbuzər*

Əbuzər İslamı qəbul etmiş dörd, ya beşinci şəxs olmuşdur.[3] O, İslamı elə ilk günlərdəcə qəbul etmiş və bununla da İslamda öncüllərdən sayılmışdır. Quranın etirafına görə peyğəmbərliyin ilk dövrlərində iman gətirənlər böyük fəzilət sahibidirlər[4] və onlar Məkkənin fəthindən sonra müsəlman olanlardan bir baş üstündürlər. Quran bu məsələyə münasibət bildirərək buyurur:

---

[1] Nəhl-106
[2] Sireyi ibn Hişam, c-1, s-314
[3] Usdul-qadə, c-1, s-301; əl-İsabə, c-4, s-64; əl-İstiab, c-4, s-62
[4] Vaqiə-10-11

***«Sizlərdən (mal-dövlətini) fəthdən (Məkkənin fəthindən) əvvəl (Allah yolunda) sərf edənlər və (müşriklərə qarşı) vuruşanlar (başqaları ilə) eyni deyillər. Onlar (mallarını Allah yolunda) fəthdən sonra sərf edib döyüşənlərdən dərəcə etibarı ilə daha üstündürlər.»[1]***

*İslamın ilk çağırışı*

Əbuzər müsəlmanlğı qəbul edən zaman Peyğəmbər(s) hələ təbliğatını gizli şəkildə davam etdirirdi. Onda vur-tut beş nəfər o həzrətə iman gətirmişdi. Belə bir vəziyyətdə Əbuzərin imanını gizlədib səssizcə öz qəbiləsinə geri qayıtmaqdan başqa çıxış yolu yox idi.

Əbuzər böyük mübarizlik ruhiyyəsinə malik idi. O, sanki haqsızlığa qarşı mübarizə aparıb haqq bayrağını ucaltmaq üçün doğulmuşdu. Camaatın cansız, taxta, daş bütləri tanrı hesab edib onların qarşısında səcdəyə qapanmasından böyük haqsızlıq, azğınlıq ola bilərdimi? O, bu vəziyyətə qətiyyən dözə bilmirdi. Bir neçə gün Məkkədə qaldıqdan sonra Peyğəmbərə(s) müraciət edərək deyir: «İndi mən nə etməliyəm? Mənə nə tapşırıq verirsiniz?.» Peyğəmbər(s) buyurdu: «Sən öz qəlbində İslamı təbliğ edə bilərsən. İndi qəbilənə dön və mənim tapşırığımı gözlə!» Əbuzər deyir: «And olsun Allaha, İslamın haqq sədasını bu camaatın qulağına çatdırmayınca, öz qəbiləmə dönən deyiləm.» Bu məqsədlə o, müşriklər Məscidül-həramda toplaşan zaman içəri daxil olub uca səslə: «Əşhədu əlla ilahə illəllah və əşhədu ənnə Muhəmmədən rəsulullah»-deyir.

İslam tarixindən belə məlum olur ki, bu müşirklər arasında aşkar şəkildə deyilən ilk İslam nidası olmuşdur. Özü də onu Məkkədə heç bir hamisi, qohum-əqrəbası olmayan bir şəxs səsləndirirdi. Əbuzərin səsinin əks-sədası bütün Məscidül-həramı bürüyür. Müşriklər hərə bir tərəfdən onun üstünə axışıb huşunu itirənə qədər döydülər. Bu xəbər Peyğəmbərin(s) əmisi Abbasa çatcaq, Məscidül-hərama gəlib özünü Əbuzərin üstünə atır. Onu müşriklərin əlindən qurtara bilsin deyə çox ağıllı tədbirə əl atıb deyir: «Siz hamınız ticarət adamısınız. Ticarət karvanlarınızın yolu Qifar qəbiləsinin yaşadığı yerdən keçir. Bu gənc də Qifar qəbiləsindəndir.

[1] Əl-Hədid-10

Əgər o ölərsə, sabah Qüreyşin ticarət yolu bağlana bilər və heç bir karvan Qifar qəbiləsinin arasından keçə bilməz.» Abbasın bu sözləri öz bəhrəsini verdi və müşriklər Əbuzərdən əl çəkdilər. Lakin Əbuzər heç nədən qorxmadan və sanki heç nə baş verməyibmiş kimi səhərisi gün yenə də Məscidul-hərama gəlib İslam nidasını ucaldır. Bu dəfə də müşriklər onu ölümcül vəziyyətə salır və yenə Abbas dünənki sözlərini təkrarlamaqla onu müşriklərin əlindən qurtarır.[1] Abbas olmasaydı, çətin ki, Əbuzər sağ qalaydı. Ancaq o belə adam deyildi ki, bu tezliklə mübarizədən əl çəksin. Buna görə də bir neçə gündən sonra yenidən haqq mübarizəsinə başlayır. Belə ki, Kəbəni təvaf edərkən bir qadının Əsaf və Nailə bütləri qarşısında dayanıb öz istəklərini onlardan diləməsinin şahidi olur. Əbuzər bu qadının nadanlığından bərk narahat olub həmin iki bütün heç nəyə qadir olmadığını ona anlatmaq məqsədilə deyir ki, bu iki bütü bir-biri ilə evləndir! Qadın Əbuzərin sözündən əsəbləşib fəryad edir ki, sən sabiisən. (Müşriklər müsəlman olanları əvvəlcə sabii adlandırırdılar). Qadının fəryadı nəticəsində Qüreyş gəncləri Əbuzərin üstünə axışıb onu döyürlər. Bəni-Bəkr qəbiləsindən onun köməyinə gələnlər Əbuzəri müşriklərin çəngindən qurtarırlar.[2]

***Qifar qəbiləsinin İslamı qəbul etməsi***

Həzrəti Mühəmməd(s) yenicə müsəlman olmuş Əbuzərin haqsızlığa qarşı necə fəal mübarizə apardığının şahidi idi. Lakin mübarizə aparmağın hələ tez olduğunu anlayan peyğəmbər(s) Əbuzərə öz qəbiləsinə qayıdıb onları İslama dəvət etməsini tapşırır. Öz qəbiləsinə geri dönən Əbuzər yavaş-avaş Allah tərəfindən yeni bir peyğəmbər göndərildiyini, onun insanları tək olan Allaha ibadətə və gözəl əxlaqa dəvət etdiyini camaata bildirir.

Hamıdan qabaq Əbuzərin qardaşı ilə anası müsəlman olur. Get-gedə Qifar qəbiləsinin yarısı İslamı qəbul edir. Digər yarısı isə Peyğəmbər(s) Yəsribə (Mədinəyə) hicrət etdikdən sonra müsəlman olur. Qifar qəbiləsinə baxıb Əsləm qəbiləsi də, Peyğəmbərin(s) hüzuruna gələrək İslam dinini qəbul etdiklərini bildirirlər.

---

[1] Hilyətul-övliya, c-1, s-158-159

[2] Ət-Təbəqatul-kubra, c-4, s-223

Əbuzər yalnız Bədr və Ühüd döyüşlərindən sonra Mədinəyə gəlib Peyğəmbərə(s) qoşulur və bu şəhərdə yaşamağa başlayır.[1]

İslamın ilk çağlarında ən acınacaqlı vəziyyətdə yaşayıb məqsədlərinə çatmaq uğrunda müşriklərin əzab-əziyyətlərinə dözən müsəlmanların əzimkarlığı qeyd etdiklərimizlə bitmir. İxtisarı nəzərə alıb bunlarla kifayətlənirik.

***Peyğəmbərin(s) qatı düşmənləri***

Böyük İslam peyğəmbərinin bəzi düşmənlərini tanıtdırmaq hicrətdən sonrakı hadisələrin təhlilində lazımlı olduğu üçün qısaca olaraq onlardan bəzilərini qeyd edirik:

1. Əbu Ləhəb. O, Peyğəmbərin(s) qonşusu idi və o həzrətə, eləcə də digər müsəlmanlara işkəncə verməkdən çəkinməzdi.

2. Əsvəd ibn Əbdyəğus. O, müsəlmanlara istehza edənlərdən olmuşdur. İmkansız müsəlmanları gördükdə kinayə ilə deyirdi: «Bu bədbəxtlər özlərini yer üzünün şahları hesab edirdilər. Belə güman edirlər ki, tezliklə İran taxt-tacına da sahib çıxacaqlar.»

Təəssüflər olsun ki, əcəl ona müsəlmanların İran və Bizans torpaqlarını necə fəth etməsini öz gözləri ilə görməyə imkan vermədi.

3. Vəlid ibn Müğeyrə. O, Qüreyşin imkanlı ağsaqqallarından idi.

Növbəti səhifələrdə onun Peybəmbərlə(s) söhbətini qeyd edəcəyik.

4. Xələfin oğlanları Üməyyə ilə Übeyy. Bir gün Übeyy ibn Xələf ölülərin çürüyüb toza dönmüş sümüklərini yığıb Peyğəmbərin(s) yanına gələrək deyir: «Sənin Rəbbin bu sümükləri dirildəcək?» Allah-taala vəhy nazil edərək buyurur: ***«De: Onları ilk dəfə yoxdan yaradan dirildəcəkdir.»*** Hər iki qardaş Bədr döyüşündə öldürülmüşdür.

5. Əbülhəkəm ibn Hişam. İslama qarşı yersiz inadkarlıq və təəssübkeşliyinə görə müsəlmanlar onu Əbu Cəhl adlandırmışdılar. Bədr döyüşündə öldürülənlərdən biri də o olmuşdur.

6. As ibn Vail. O, Əmr ibn Asın atası idi və Peyğəmbəri(s) əbtər (yəni quyruğu kəsik, nəsli kəsilmiş) adlandırmışdı.

7. Əqəbə ibn Əbu Muit. O, Peyğəmbərin ən qatı düşmənlərindən biri idi. Bir an da olsun, Peyğəmbəri(s) və müsəlmanları rahat buraxmırdı.

[1] Əd-Dərəcatur-rəfiə, c-225-230

Əbu Süfyan və digər şəxslər də Peyğəmbərə(s) qarşı düşmən mövqeyində durmuşdular. Uzunçuluğa yol verməyək deyə, yalnız adı çəkilənlərlə kifayətlənirik.

***İkinci xəlifə Ömərin müsəlman olması***

Müsəlmanlardan hər birinin İslamı qəbul etməsi müəyyən bir amillə bağlıdır. Bəzən kiçik bir hadisə bir və ya bir neçə nəfərin müsəlman olması ilə nəticələnirdi. İkinci xəlifə Ömərin İslamı qəbul etməsi çox maraqlı olmuşdur. Düzdür, xronoloji ardıcıllığa görə gərək bunu müsəlmanların Həbəşistana hicrətindən sonra qeyd edəydik. Lakin söhbət Peyğəmbərin(s) tərəfdarlarından getdiyi üçün Ömərin də necə müsəlman olduğunu qeyd etmək yerinə düşər. İbn Hişam yazır: «Xəttab xanədanından yalnız qızı (Ömərin bacısı) Fatimə ilə əri Səid ibn Zeyd müsəlman olmuşdu. İslamın əvvəllərində Ömərin Peyğəmbər(s) və müsəlmanlara qarşı münasibəti həddən artıq pis olduğundan bacısı ilə yeznəsi müsəlman olduqlarını ondan gizlədirdilər. Xəbbab ibn İrt müəyyən vaxtlarda onların evinə gəlib Quran öyrədirdi.»

Məkkədə yaranmış qarışıqlıq, ikitirəlik Öməri narahat edirdi. Buna görə də o, bu təfriqəni yaradan şəxsi öldürməklə, yaranmış ikitirəliyə son qoymaq istəyirdi. Peyğəmbərin(s) Səfa bazarı yaxınlığında bir evdə olduğunu və Həmzə, Əbu Bəkr, Əli kimi qırx cəngavərin onu qoruduğunu öyrəndikdən sonra həmin evə getmək qərarına gəlir.

Ömərin yaxın dostu Nəim ibn Abdullah deyir: Ömərin qılıncını itiləyərək harasa getmək istədiyini gördüm. Hara gedəcəyini soruşduqda cavab verdi ki, Qüreyş arasında təfriqə yaratmış, onların dinini, tanrılarını tənqid edən Mühəmmədi öldürməyə gedir. Dedim ki, Ömər yaxşı fikirləş, səncə Əbdmanaf övladları səni sağ buraxarlarmı? Sən əgər sülh tərəfdarısansa, əvvəl get öz qohumlarını islah et. Bacın Fatimə ilə əri çoxdandır ki, müsəlman olub Mühəmmədin dininə qulluq edirlər. Ömər bu sözümdən bərk əsəbləşdi. Öz fikirindən dönüb yeznəsi gilə gedir. Qapıya yaxınlaşdıqda içəridən kiminsə həzin səslə Quran oxuduğunu eşidir. Fatimə ilə əri Ömərin gəlişindən xəbərdar olub tez Quran müəllimini evin bir tərəfində gizlədir, Quran ayələri yazılmış parçanı da Fatimə özündə saxlayır. Ömər salam-kalamsız içəri daxil olub soruşur ki, bu nə səs idi gəlirdi? Ona cavab verirlər ki, biz heç nə

eşitməmişik. Ömər deyir: «Mənə xəbər çatıb ki, siz müsəlman olmusunuz.» Bunu deyib əsəbi halda yeznəsinin üstünə cumur. Bacısının ərinə kömək etməyə çalışdığını görən Ömər qılıncın ucu ilə onun başını yaralayır. Başı al qana bürünən zavallı qadın deyir ki, bəli, müsəlman olmuşuq. Allaha və Onun peyğəmbərinə iman gətirmişik. Nə istəyirsən, elə! Sir-sifəti qan içində olan, özü də ağlar gözlə qardaş qarşısında dayanan bacının belə vəziyyəti Öməri yumşaldır. Öz etdiklərindən peşmançılıq hissi keçirib bacısından Quran ayələri yazılmış parçanı göstərməsini istəyir. Bacısı onun parçanı cıra biləcəyindən ehtiyat edib and içdirdikdən sonra Quran ayələrini Ömərə göstərir. Ömər parçaya baxıb aşağıdakı ayələrin yazıldığını görür: ***«Ta, ha! Biz Quranı sənə məşəqqət çəkməyin üçün nazil etmədik! (Biz onu Allahın əzabından) qorxan bir kimsəyə yalnız öyüd-nəsihət olaraq (göndərdik). O, yeri və uca göyləri yaradandan (Allahdan) nazil olmuşdur. Rəhman ərşi yaradıb hökmü altına almışdır (ərşə hakimdir). Göylərdə və yerdə, onların arasında və torpağın altında (yeddi qat yerdə) nə varsa (hamısı) onundur. (Ey insan!) sən (dua edərkən) səsini ucaltsan da (ucaltmasan da, heç bir fərqi yoxdur). Çünki Allah sirri də, sirdən daha gizli olanı da (məxfini də) bilir.»***[1] Bir neçə an əvvəl İslamın ən qatı düşmənlərindən olan Ömər bu ayələri oxuyub çox təsirlənir və İslamı qəbul etmək fikrinə düşür. Buna görə də Peyğəmbərin(s) olduğu evə gəlib qapını döyür. Səhabələrdən biri qapının deşiyindən baxıb Ömərin əlində qılınc qapıda dayandığını görür. Bu barədə gəlib Peyğəmbərə(s) xəbər verdikdə Həmzə deyir: «Qapını aç qoy gəlsin. Xoş niyyətlə gəlibsə, xoş gəlib, əks təqdirdə onu öldürərik.» Ömərin Peyğəmbərlə(s) münasibəti səhabələrin diqqətini cəlb edir. Üzündəki peşmançılıq hissindən səmimi olduğunu sezmək elə də çətin deyildi. Nəhayət, bir sıra səhabənin də iştirakı ilə Ömər Peyğəmbərin(s) hüzurunda İslamı qəbul edib müsəlmanların sırasına qoşulur.[2]

İbn Hişam, Ömərin müsəlman olmasını bir başqa formada nəql etmişdir.[3]

---

[1] Taha-1-7

[2] Sireyi ibn Hişam, c-1, s-365

[3] Sireyi ibn Hişam, c-1, s-368

## QÜREYŞ MÜŞRİKLƏRİNİN QURAN HAQQINDAKI MÜHAKİMƏLƏRİ

Ümumiyyətlə möcüzə, xüsusilə də Quranın ecazkarlığı barədə danışmaq bəhsimizin mövzusundan xaric olduğuna görə bu haqda İslam əqaidi sahəsində yazılmış kitablara müraciət etmək lazımdır. Lakin tarixi araşdırmalar göstərir ki, Qurani-Kərim İslam peyğəmbərinin(s) ən böyük silahı olmuşdur. Belə ki, dahi söz ustadları da Quranın fəsahət, bəlağət, şirinliyi, ecazı qarşısında heyran qalmış, onun bəşər kəlamı olmadığı qənaətinə gəlmişlər. Quranın elə bir cazibəsi var idi ki, hətta ən qatı düşmənləri də özünə cəlb edir, bəzən özlərindən ixtiyarsız olaraq uzun müddət yerlərindən qalxmırdılar. İndi gəlin bir neçə nümunəyə diqqət yetirək.

*Vəlid ibn Müğeyrənin mühakiməsi (fikri)*

Vəlid çox imkanlı şəxs idi. Ərəblərin bir çox problemi məhz onun vasitəsilə həll edilirdi. Qüreyş müşriklərindən bir dəstəsi Quran haqqında onun fikrini öyrənmək üçün Vəlidin yanına gəlib Quranın sehr-cadu, yaxud Mühəmmədin quraşdırdığı şer və xütbə olduğunu dəqiqləşdirməsini istəyirlər. Ərəblərin bilicisi olan Vəlid bu barədə öz fikrini bildirmək üçün onlardan möhlət alır. Sonra evdən çıxıb Məscidül-hərama gəlir, Hicri-İsmaildə əyləşmiş Peyğəmbərin(s) yanında oturub deyir: «Şerlərindən bir parça oxu görüm!» Peyğəmbər(s) buyurdu ki, oxuduqlarım şer deyil, sizləri düz yola hidayət etmək məqsədilə Allahın göndərdiyi kəlamdır. Vəlid onlardan bir neçəsini oxumasını xahiş etdikdə Peyğəmbər(s) Fusillət surəsinin ilk 13 ayəsini oxuyur. Həzrət « ***(Ya Peyğəmbər!) Əgər (Məkkə müşrikləri sənin bu sözlərindən sonra haqdan, imandan) üz döndərsələr, de: «Mən sizi Ad və Səmud ildırımı kimi bir ildırımla (bu tayfaları məhv etmiş tükürpədici bir səslə, müdhiş bir əzabla) qorxuduram!*»** ayəsinə yetişdikdə Vəlidin bədəninə lərzə düşür, tükləri biz-biz durur. Tutulmuş vəziyyətdə yerindən qalxıb evinə

gedir. Bir neçə gün evdən çölə çıxmır. Qüreyş müşrikləri onu məsxərəyə qoyub deyirlər ki, Vəlid ata-babalarının dinini atıb Mühəmmədin dinini qəbul etmişdir.[1]

Mərhum Təbərsi Yazır: «Qafir surəsi Peyğəmbərə(s) nazil olduqda o həzrət Allahın ayələrini təbliğ etmək məqsədilə onu cəlbedici səslə oxuyur. Təsadüfən Peyğəmbərin(s) yaxınlığında oturmuş Vəlid heç özü də istəmədən aşağıdakı ayələri eşidir: ***«Ha, Mim! Kitabın (Quranın) nazil edilməsi yenilməz qüvvət sahibi olan, (hər şeyi) bilən Allahdandır! Günahları bağışlayan, tövbələri qəbul edən, cəzası şiddətli, kərəmi böyük olan (Allahdandır)! Ondan başqa heç bir tanrı yoxdur. Axır dönüş də Onadır! Allahın ayələri barəsində ancaq kafirlər mübahisə edər. (Ya Peyğəmbər!) Onların (indi) şəhərlərdə gəzib dolaşmaları (ticarətdən böyük mənfəət əldə etmələri, cah-cəlal içində yaşamaları) səni aldatmasın! (Son mənzilləri mütləq Cəhənnəmdir!)»***

Vəlid bu ayələri eşidib çox təsirlənir. Bəni-Məxzumdan olanlar onun yanına gəlib Quran haqqında fikrini öyrənmək istədikdə deyir: «Bu gün Mühəmməddən elə sözlər eşitdim ki, nə bəşər kəlamıdır, nə də cin-pəri. Onun sözlərində özünəməxsus şirinlik, gözəllik vardır. Sözünün budaqları səmərəli, əsası isə bərəkətlidir. O, bütün kəlamlardan ucadır, heç bir kəlam onu üstələyə bilməz.» O, bu sözləri deyib birbaşa evinə gedir. Qüreyş müşrikləri elə təsəvvür etdilər ki, Vəlid Mühəmmədin(s) dinini qəbul etmişdir.»[2]

Əllamə Şəhristani bildirir ki, Vəlidin bu ifadəsi bəşər tərəfindən Qurana verilən ilk qiymət, ilk tərifdir. Vəlidin dediklərində bir qədər düşündükdə Quranın o dövrdə necə böyük bir möcüzə olduğu üzə çıxır və məlum olur ki, onun möcüzə olması elə özünəməxsus cazibə, lətafət, şirinliyinə görə imiş.[3]

***Digər bir nümunə***

Ütbə ibn Rəbiə Qüreyş ağsaqqallarından biri idi. Həmzə İslamı qəbul etdiyi gün Qüreyşin bütün məclislərinə qəm-qüssə hakim

---

[1] Əlamul-vəra, s-27-28; Biharul-ənvar, c-17, s-211-222

[2] Məcməül-bəyan, c-10, s-387

[3] Əl-Mucizətul-xalidə, s-66

kəsilmişdi. Müşriklər Həmzə kimilərin müsəlman olmasından çox narahat olurdular. Məclislərdən birində iştirak edən Ütbə deyir: «Mən Mühəmmədin yanına gedib ona bəzi təkliflər edəcəyəm. Bəlkə təkliflərimdən birini qəbul etməklə yeni dinindən əl çəkdi. Hamı bu fikirlə razılaşdı. Ütbə ayağa qalxıb, məscidə, Peyğəmbərin(s) yanına gəlir. Ona Məkkə başçılığını və çoxlu mal-dövlət vəd edir ki, təki o, təbliğatını dayandırsın. Peyğəmbər(s) soruşdu ki, sözlərini qurtardınmı? Ütbə: «Bəli»- dedikdə həzrət buyurdu: «Bu ayələrə diqqətlə qulaq as! Bütün cavabların burada var. ***Bismillahir rəhmanir rəhim. Ha, Mim! (Bu Quran) mərhəmətli, rəhmli (olan Allah) tərəfindən nazil edilmişdir. Ərəbcə Quran olaraq (onu) bilən bir qövm üçün ayələri müfəssəl izah edilmiş bir kitabdır. (Bu Quran) həm (möminlərə Cənnətlə) müjdə verəndir və həm də (kafirlərə cəhənnəm əzabı ilə) qorxudan. Onların (Məkkə müşriklərinin) əksəriyyəti (Qurandan) üz döndərib (onu) dinləməz. (Allah kəlamının qüdsiyyəti, hikməti haqqında düşünməz).»***[1] Peyğəmbər(s) Fusillət surəsindən bir neçə ayə oxudu. Surənin 37-ci ayəsinə çatdıqda səcdə edir. Səcdədən qalxdıqdan sonra üzünü Ütbəyə tutub buyurur: «Ey Əba Vəlid! Allahın kəlamını eşitdinmi?» Ütbə əllərinə dayaq verib Allah kəlamının ecazkarlığına bağlanmışdı. Bir qədər bu vəziyyətdə qalıb Peyğəmbərin(s) üzünə baxır. Sanki lal olmuşdu. Nəhayət, yerindən qalxıb gəldiyi məclisə qayıdır. Müşriklər onun simasından Mühəmmədin(s) sözlərinin təsiri altına düşdüyünü, məyus halda qayıtdığını anladılar. Hamının gözü Ütbəyə dikildiyi halda bir ağızdan: «Nə oldu?» - deyə soruşdular. Ütbə dedi: «Allaha and olsun ki, Mühəmməddən(s) elə sözlər eşitdim ki, bu vaxta qədər heç kimdən eşitməmişəm. Vallah o nə şerdir, nə sehrdir, nə də kahinlikdir. Belə məsləhət görürəm ki, onunla işimiz olmasın. Qoy, nə istəyir, eləsin! Əgər məqsədinə nail olub hansısa hakimiyyətə çatarsa, bu, sizin üçün də şərəf sayılar. Yox əgər məğlubiyyətə uğrayıb başqaları tərəfindən öldürülərsə, onda sizin də canınız rahatlaşar.» Müşriklər Ütbənin sözlərini məsxərəyə qoyub deyirlər ki, sən Mühəmmədin sözlərinin təsirinə düşmüsən.[2]

---

[1] Fussilət-1-4
[2] Sireyi İbn Hişam, c-1, s-293-294

*Qüreyş müşriklərinin yersiz bəhanələri*

Günlərin birində gün batdıqdan sonra Ütbə, Şeybə, Əbu Süfyan, Nəzr ibn Hərs, Əbulbuxturi, Vəlid ibn Müğeyrə, Əbu Cəhl, As ibn Vail və digər Qüreyş ağsaqqalları Kəbənin ətrafında toplaşıb belə qərara gəlirlər ki, Mühəmmədi(s) çağırtdırıb şəxsən onun özü ilə söhbət etsinlər. Bu məqsədlə bir nəfəri onun ardınca göndərirlər. Peyğəmbər(s) onları hidayət etmək məqsədilə dərhal onların yanına tələsir. Həzrət gələn kimi şikayətlər başlanır. Müşriklər Qüreyşdə yaranmış ikitirəlikdən narahat olduqlarını bildirib və buna son qoymaq üçün istənilən addımı atmağa hazır olduqlarını dilə gətirdilər. Axırda da Peyğəmbərdən(s) bir neçə şey də istədilər. İsra surəsinin 90-93-cü ayələri bu istəkləri özündə əks etdirir.[1] Onlar aşağıdakı şeylər həyata keçəcəyi təqdirdə iman gətirəcəklərini bildirdilər. (Yəni, istəkləri aşağıdakılardan ibarət idi:)

Allahdan istə ki, susuz olan Məkkədə yerdən bir bulaq çıxarsın.

Ağacları arasından şırıl-şırıl irmaqlar axan xurma və üzüm bağın olsun, bizdə ondan faydalanaq.

Göyü parça-parça edib başımıza endir.

Allahı və mələkləri açıq-aşkar qarşımıza gətir.

Qızıldan bir sarayın olsun.

Göyə qalx, oradan sənin Peyğəmbər olduğunu təsdiqləyən yazılı bir sənəd gətir.

Bu ayələrin məzmunu və Peyğəmbərin(s) müşriklərin şərtlərini qəbul etməməsi bəzi xaçpərəst şərqşünasların əlində bəhanə olduğundan, həzrət Mühəmmədin(s) bu şərtləri nə üçün qəbul etmədiyinin məntiqi səbəblərini araşdırmağa çalışacağıq.

Peyğəmbərlər heç də həmişə və istənilən zaman möcüzədən istifadə etməmişlər. Möcüzə göstərməkdən ötrü bəzi şərtlər olmalıdır ki, müşriklərin tələblərində həmin şərtlər mövcud deyildi. Çünki əvvəla qeyri-mümkün olan işlər imkan daxilindən xaricdir və Allah belə işlər görməz (nəinki edə bilməz, sadəcə görməz). Deməli, insanlar peyğəmbərlərdən bu cür işləri tələb etsələr, peyğəmbərlər də onların tələbinə

[1] Təfsiri Tibyan, c-6, s-519

müsbət cavab verməsə, bu, onların möcüzə göstərə bilməməsi kimi başa düşülməməlidir. Müşriklərin də tələbləri arasında məhz qeyri-mümkün olan işlərdən var idi. Onlar Allahı, mələkləri yaxından, gözləri ilə görmək istəyirdilər. Allahın gözlə görünməsi isə qeyri-mümkündür. Çünki Allahın gözlə görülə biləcəyi o deməkdir ki, deməli, O, zaman, məkan çərçivəsinə sığır, müəyyən formaya malik olur. Halbuki Allah-taala bütün bunlardan uzaqdır. Çünki bunlar cismin xassələrindəndir, Allah isə cism deyil.

Müşriklərin göyün parça-parça olub başlarına tökülməsinə dair üçüncü şərtlərinə gəlincə, əgər onlar göydən bir parça daş enməsini deyil, elə səmanın özünün parçalanmasını nəzərdə tutublarsa, onda bu da qeyri-mümkünlər sırasına daxildir. Çünki bu işi Allah-taala yalnız dünyanın axırında həyata keçirəcək. Bunu Peyğəmbər(s) müşriklərə də bildirmişdi.

Düzdür, günəş sisteminin dağılması öz-özlüyündə qeyri-mümkün iş deyil, lakin Allah insan nəslinin yer üzərində yaşamasını istədiyindən, təbii ki, Allahın ədalətinin tələbinə uyğun olaraq günəş sistemi mövcud olmalı və onun dağılması qeyri-mümkündür. Hikmət sahibi olan şəxs heç vaxt öz istəyinin əksinə hərəkət etməz.

İkincisi, möcüzə tələb etməkdə məqsəd odur ki, peyğəmbərin iddiası təsdiq edilib onun qeyb aləmi ilə bağlılığı sübuta yetsin. Ancaq tələb edilən möcüzə peyğəmbərin haqq olduğuna dəlalət etməzsə, onda heç möcüzə gətirməyin əhəmiyyəti də olmayacaq. Məkkə müşriklərinin bəzi tələbləri, o cümlədən yerdən bulaq qaynaması, Peyğəmbərin(s) xurma və ya üzüm bağının olması tələbləri məhz belə tələblərdən idi. Çünki yerdən bulaq qaynaması, Peyğəmbərin(s) qızıldan sarayı olması onun peyğəmbərliyini təsdiq edəcək amil sayıla bilməz. Ona görə ki, peyğəmbər olmayanlar da belə şeylərə sahib ola bilərlər. Deməli, bu tələblərin yerinə yetirilməsi peyğəmbərin peyğəmbərliyini təsdiq edəcək sübut sayılmadığına görə həmin tələbləri icra etmək mənasız olacaq. Peyğəmbər olan şəxs də heç vaxt mənasız işə əl atmaz.

Bəziləri belə hesab edirlər ki, müşriklərin üç tələbinə (bulaq, bağ və saray) cavab vermək o vaxt möcüzə sayılmaz ki, peyğəmbər onu təbii yolla icra etsin. Ancaq əgər bu tələblər qeyri-təbii yolla həyata keçirilərsə, onda bu, əsl möcüzə olar və peyğəmbərin iddiasını təsdiqləyər.

Bu fikir də səhvdir. Çünki müşriklərin bu tələblərdən məqsədi peyğəmbərlik iddiasında olan şəxsin (konkret həzrət Mühəmmədin(s) maddi cəhətdən imkanlı olması idi. Kasıb şəxsin peyğəmbər olması onların nəzərində mümkün deyildi. Onlar bunu açıq şəkildə deyirdilər: ***«Məgər bu Quran iki şəhərdən (Məkkə və Taifdən) olan böyük (imkanlı) bir adama nazil edilməli deyildimi?»***[1] Deməli, onların məqsədi maddi imkan olmuşdur, hətta təbii yolla olsa belə. Buna sübut olaraq onların: «Qızıldan bir sarayın olsun» - demələrini qeyd edə bilərik. Bir qədər sadə desək, müşriklər Peyğəmbərə(s) açıq şəkildə deyirdilər ki, şəxsən sənin qızıldan sarayın olmayınca iman gətirən deyilik. Əgər onların məqsədi bu işin qeyri-təbii yolla həyata keçməsi idisə, onda **«şəxsən sənin... olmayınca»** deməz, **«qızıldan bir saray icad etməyincə»** deməklə kifayətlənərdilər.

Üçüncüsü, möcüzə tələb edənlər peyğəmbərin möcüzə göstərəcəyi təqdirdə onu təsdiqləyib peyğəmbərliyini qəbul edərlərsə, onda möcüzə göstərmək yerinə düşər. Yox əgər möcüzə tələb edənlər inadkar adamlar olub tələblərini də sırf əylənmək xatirinə edərlərsə, onda heç onların tələblərinə cavab vermək lazım deyil. Məkkə müşriklərinin Peyğəmbərdən göyə qalxmasını və oradan peyğəmbərliyini təsdiq edəcək yazılı sənəd gətirməsini tələb etmələri o həzrətin peyğəmbərlik iddiasına inanmaqdan ötrü olmamışdır. Onlar haqq axtarışında olan adamlar olsaydılar, təkcə göyə qalxmaqla kifayətlənər və daha yazılı sənəd gətirməyi tələb etməzdilər. Bəs nə üçün bununla kifayətlənməmişlər? (Göyə qalxmaqla onsuz da möcüzə həyata keçmiş olardı. Deməli, onlar sadəcə əylənmək xatirinə belə tələblər irəli sürmüşlər). Quranın bəzi ayələrindən məlum olur ki, Peyğəmbər(s) göyə qalxıb hətta oradan yazılı sənəd gətirsəydi də, yenə müşriklər onun peyğəmbər olduğunu qəbul etməyəcəkdilər.

Bu ayəyə diqqət yetirin: ***«(Ya Rəsulum!) Əgər sənə kağız üzərində (yazılı) bir kitab (sənəd) nazil etsəydik və onlar əlləri ilə ona toxunmuş olsaydılar belə, kafirlər yenə də: «Bu, açıq-aydın bir sehrdir!» - deyərdilər.»***[2]

---

[1] Zuxruf-31
[2] Ənam-7

Dördüncüsü, möcüzə göstərməkdə məqsəd odur ki, inanmayanlar inanıb iman gətirənlərə qoşulsunlar, nəinki hamılıqla məhv olsunlar. Məkkə müşriklərinin göyün parçalanıb başlarına tökülməsi (və ya ən azından göydən başlarına daş yağması) tələbini icra etmək möcüzə göstərməkdəki məqsədə ziddir. Çünki bu möcüzənin gerçəkləşəcəyi təqdirdə müşriklər nəinki iman gətirənlərə qoşulmayacaq, əksinə, tamamilə məhv olub gedəcəkdilər.

Sonda bir məsələni qeyd etməyi də lazım bilirik. O da budur ki, Peyğəmbər(s) müşriklərin bu tələbləri qarşısında özünü heç də aciz qələmə vermir, «Rəbbim pak və müqəddəsdir! (Allah gedib-gəlmək, enib-qalxmaq kimi məxluqata aid olan xüsusiyyətlərdən uzaqdır!) Mən isə yalnız peyğəmbər olan bir insanam!»- deməklə iki məsələni onların diqqətinə çatdırır:

1. **Allah-taalanın pak və müqəddəsliyi.** Peyğəmbər(s): «Rəbbim pak və müqəddəsdir»- buyurmaqla Allahda heç bir nöqsan, acizlik, görsənmək olmadığını və hər bir işi icra etmək qabiliyyətinə malik olduğunu çatdırır.

2. **Peyğəmbərin qüdrətinin məhdudluğu.** O həzrət «Mən isə yalnız peyğəmbər olan bir insanam!» cümləsi ilə onu çatdırır ki, o, Allah tərəfindən göndərilmiş peyğəmbərdir, Allahın əmrinə tabedir və yalnız Allahın istədiyini edir. Elə deyil ki, peyğəmbər öz istəyi ilə bütün tələbləri icra edə bilsin. Başqa sözlə desək, sözügedən ayə Allahın bütün nöqsanlardan pak və müqəddəs olduğunu çatdırdıqdan sonra insan və peyğəmbərlər sözlərinin üstündə durur və başa salır ki, ey müşriklər, sizin Peyğəmbərdən istədiyiniz tələblər insan qüdrətindən xaricdir. Peyğəmbər də adi bir insan olduğu üçün ondan bu tələbləri istəməyiniz yersizdir. Yox əgər sırf o, peyğəmbərdir deyə, ondan belə tələblər edirsinizsə, bilin ki, peyğəmbərin vəzifəsi ancaq Allahın əmrlərini çatdırmaqdır, o, öz istəyi ilə heç bir iş görmək iqtidarında deyil.

### *Qüreyş ağsaqqallarının haqqı qəbul etməməkdə məqsədi*

Bu mövzu İslam tarixinin ən maraqlı bölmələrindən biridir. İnsan öz-özlüyündə fikirləşir ki, axı bütün Qüreyş həzrət Mühəmmədi(s) düz danışan adam kimi tanıyır, bu vaxtadək ondan bircə dəfə də olsun, səhv

hərəkət görməmiş, onun qəlbləri fəth edən fəsahətli, bəlağətli kəlamlarını eşitmiş, hətta ara-sıra təbii qanunlar çərçivəsindən kənar işlərini-möcüzələrini də görmüşdülər. Bəs belə olan halda nəyə görə onunla bu qədər mübarizə aparırdılar? Müşriklərin o həzrəti inkar edib ona etiraz etməsinin səbəbləri aşağıdakı amillərlə bağlıdır:

***1-Peyğəmbərə həsəd***

Qüreyş müşriklərinin bir dəstəsi həzrət Mühəmmədə(s) paxıllıqları üzündən ona iman gətirmirdi. Onlar özləri bu şərəfə nail olmaq arzusunda idilər. Təfsir alimləri «Məgər bu Quran iki şəhərdən (Məkkə və Taifdən) olan böyük (imkanlı) bir adama nazil edilməli deyildimi?» ayəsinin nazil olma səbəbi haqqında yazırlar: «Vəlid ibn Müğeyrə Peyğəmbərlə(s) görüşüb deyir ki, peyğəmbər seçilməyə mən səndən daha layiq idim. Çünki yaş, mal-dövlət, oğul-uşaq baxımından səndən üstünəm.»[1]

Üməyyə ibn Əbu Silət İslamdan öncə peyğəmbərlik haqqında çox danışır və ümid edirdi ki, nə vaxtsa özü bu məqama yüksələcək. Lakin Mühəmməd(s) peyğəmbər seçildikdən sonra o, ömrünün sonuna kimi Peyğəmbərə iman gətirmədi, əksinə camaatı onun əleyhinə qaldırırdı.

Peyğəmbərin(s) düşmənlərindən olan Əxnəs Əbu Cəhldən soruşur ki, Mühəmməd haqqında nə düşünürsən? Əbu Cəhl deyir: «Biz Əbdmanaf sülaləsi ilə şərəf yarışmasına girib onlara çatmağı bacardıq. İndi isə onlar deyirlər ki, bizim qəbilədən bir nəfərə vəhy nazil olur. And olsun Allaha, biz heç vaxt ona iman gətirmərik.»[2]

Bu nümunələr Qüreyş ağsaqqallarının Peyğəmbərə(s) olan paxıllıqlarını üzə çıxarır.

***2-Kef-damaqdan məhrum olma qorxusu***

Bu amil Qüreyşin Peyğəmbərə(s) iman gətirməməsinin ən əsas amillərindən biridir. Müşriklər eyş-işrət aludəsi olduqlarına görə həzrət Mühəmmədin(s) dəvətini öz keçmiş adət-ənənələrinə zidd görüb ona iman gətirməkdən boyun qaçırırlar. Axı o həzrətin dəvətini qəbul etməklə kef-damaqdan əl çəkmək məcburiyyətində qalmalı idilər.

[1] Sireyi İbn Hişam, c-1, s-361
[2] Sireyi İbn Hişam, c-1, s-316

### *3-Axirət əzablarının qorxusu*

Zülmkar insanları axirət əzabı ilə hədələyən ayələri eşitmək Qüreyş müşriklərini çox narahat edirdi. Peyğəmbər(s) onların ümumi məclislərində füsunkar səsi ilə axirət əzabını özündə əks etdirən ayələri oxuduqda müşriklərin canına elə vəlvələ düşürdü ki, məclis bir-birinə dəyirdi. Gözlənilən bütün təhlükələri dəf etməyə çalışan, öz dolanışığını təmin etməkdən ötrü fal oxlarından istifadə edən, quşların gediş-gəlişi ilə hadisələri yozan ərəb üçün Mühəmmədin(s) vəd verdiyi əzabları eşitmək sadəcə dözülməz idi. Buna görə də ona qarşı mübarizə aparırdılar. Aşağıdakı ayələr həmin vəhşətli anları xatırladır: ***«Nəhayət, qulaqları kar edən (o dəhşətli səs) gələndə (İsrafil surunu çalanda)-o gün insan öz qardaşından, anasından, atasından, zövcəsindən və oğullarından qaçacaq! O gün onlardan hər birinin istənilən qədər işi olacaqdır! (Hər kəs öz hayında olacaq, heç kəs heç kəsin hayından xəbər tutmayacaqdır.)»***[1]

Kəbə kənarında piyalələri şərabla doldurub başlarına çəkərkən eşitdikləri ***«onların dəriləri bişdikcə, əzabı (həmişə) dadsınlar deyə, o dəriləri başqası ilə əvəz edəcəyik»***[2] kimi ayələri eşitdikdə özlərindən asılı olmayaraq piyalə əllərindən düşür, əl-ayaqları əsməyə başlayırdı.

### *4-Digər müşrik ərəb qəbilələrindən olan qorxu*

Haris ibn Nofəl ibn Əbdmanaf Peyğəmbərin(s) hüzuruna gəlib deyir: «Biz bilirik ki, sənin dediklərinin hamısı haqdır. Lakin sənə iman gətirsək, digər müşrik ərəb qəbilələri bizi buralardan qovub çıxarарlar.» Bu məsələ ilə əlaqədar aşağıdakı ayə nazil olur: «(Qüreyşlilər) dedilər: «Əgər biz səninlə birlikdə haqq yolu (İslam dinini) tutub getsək, (əksəriyyəti təşkil edən müşriklərin əli ilə) yurdumuzdan tezliklə didərgin salınarıq. Məgər Biz onları Özümüzdən bir ruzi olaraq hər yerin meyvəsinin (hər cür meyvənin) daşınıb gətirildiyi, qorxusuz-xətərsiz (müqəddəs) bir yerdə (Məkkədə) sakin etmədikmi? Lakin onların əksəriyyəti (bunun qədrini) bilməz!»[3]

---

[1] Əbəsə-33-37

[2] Nisa-56

[3] Qəsəs-57

### *Müşriklərin etirazlarından nümunələr*

Müşriklər bəzən etiraz edərək deyirdilər ki, peyğəmbərlər həmişə Şamdan (Mesopotamiyadan) çıxıblar və bu vaxtadək bu quraqlıqdan (Məkkədən) peyğəmbər çıxmayıb. Bəzən yəhudilərdən ilham alaraq deyirdilər ki, nəyə görə Quran Mühəmmədə tədricən nazil olur? Nə üçün Tövrat və İncil kimi birdəfəyə nazil olmur? Quran onların bu etirazını olduğu kimi çatdıraraq buyurur: ***«Kafirlər: «Quran ona (Mühəmmədə) bütöv (birdəfəlik) endirilməli idi!»-dedilər. (Ya Rəsulum!) Sənin ürəyinə səbat (qətiyyət) vermək üçün Biz onu ayə-ayə (tədriclə) nazil etdik».***[1] Quran müşriklərin bu iradına məntiqi cavab verməklə həm də qərəzli şərqşünasları susdurmuşdur.

### *Quranın tədricən nazil olması*

Quranın nazilolma tarixi və həmçinin surələrdəki ayələrin məzmunundan aydın olur ki, Quran surələri tədricən nazil olmuşdur. Məkkə və Mədinə mühitlərinin xüsusiyyətlərini nəzərə almaqla Məkkədə nazil olmuş ayələri Mədinədə nazil olmuş ayələrdən asanlıqla ayırmaq mümkündür. Məsələn, Məkkədə nazil olmuş ayələrdə əsas söhbət şirk və bütpərəstliklə mübarizədən, camaatı tək olan Allaha pərəstiş etməyə dəvətdən, Qiyamət günündən getdiyi halda Mədinə ayələrində əsas müzakirə obyekti şəri hökmlər, cihada dəvətdir. Çünki Məkkədə xitab Allahın təkliyini qəbul etməyən, Qiyamət gününə inanmayan müşriklərdisə, Mədinədə isə Allahın təkliyini qəbul edən müsəlman, xaçpərəst və yəhudilərə xitab olunur. Həzrət Peyğəmbərin(s) əsas vəzifələrindən biri də camaatı cihada səsləmək olduğundan deməli, bu mövzu və şəriət məsələlərindən bəhs edən ayələr məhz Mədinədə nazil olmuşdur.

Bir çox ayələr Peyğəmbərin(s) dövründə baş verən hadisələrlə əlaqədar nazil olurdu ki, buna ayənin nazilolma səbəbi deyilir. Ayənin nazilolma səbəbini bildikdə ayənin məzmunu, mahiyyəti rahatca aydın olur.

Bəzi ayələr Peyğəmbərə(s) verilmiş sualların cavabını açıqlayır. Bəziləri isə şəriət hökmlərini, dini maarifi özündə əks etdirirdi. Bütün bunları nəzərə alaraq nəticə əldə etmək olar ki, Quran, həqiqətən,

[1] Furqan-32

tədricən nazil olmuşdur. Bəzi ayələrdə Quranın tədricən nazil olması açıq şəkildə söylənilir. Məsələn, aşağıdakı ayədə olduğu kimi: *«İnsanlara aramla (yavaş-yavaş) oxuyasan deyə, Biz Quranı hissələrə ayırıb (ayə-ayə, surə-surə) göndərdik.»*[1]

İndi qarşıya belə bir sual çıxır ki, Quran nəyə görə Tövrat və İncil kimi birdəfəyə nazil olmamışdır? Bu sual təkcə indiki dövrdə deyil, az öncə qeyd etdiyimiz kimi, Peyğəmbər(s) dövründəki camaatı da maraqlandırmışdır. Müşriklərin bir iradını iki cür araşdırmaq olar:

Əgər İslam dini və bu dinin əsas kitabı həqiqətən də səmavidirsə, onda gərək həmin kitab kamil bir kitab olub, birdəfəyə nazil ediləydi. Çünki bütün cəhətlərdən kamil olan kitabın fasilələrlə nazil olmasının nə mənası var? Əgər onda hər şey deyilibsə, daha nəyə görə 23 il ərzində müxtəlif hadisələrlə əlaqədar nazil olur? O, müxtəlif hadisələrlə, müəyyən zaman kəsiyində nazil olursa, deməli, bu din və kitab hələ təkmilləşməyib, yalnız müəyyən vaxtdan sonra təkmilləşir. Tədricən təkmilləşən din isə İlahi din ola bilməz.

Həm Quran ayələri, həm də Tövrat, İncil və Zəburun nazilolma tarixi göstərir ki, ilk səmavi kitablar yazılı lövhələr şəklində nazil olmuşdur. Bəs Quran nə üçün bu cür nazil olmayıb?

Məkkə müşrikləri Tövrat, İncil və Zəburu qəbul etmədiklərindən, eləcə də həmin kitabların hansı formada nazil olduğunu bilmədiklərindən, qətiyyətlə deyə bilərik ki, onlar bu iradı birinci variantda nəzərdə tutmuşlar.

İndi isə bu irada cavab vermək yerinə düşər.

### *Quranın tədricən nazil olmasının səbəbləri*

Quran özü müşriklərin bu iradına cavab vermişdir. İndi Quranda kiçik bir cümlə ilə ifadə olunmuş həmin cavabı araşdıraq.

1) Böyük peyğəmbərin üzərinə düşən məsuliyyətlər də böyük olur. Belə bir şəxs vəzifəsini yerinə yetirərkən olduqca böyük çətinliklərlə rastlaşır. Peyğəmbər nə qədər yüksək ruhiyyəyə malik olsa da bu çətinliklər istər-istəməz onu sarsıdır. Belə olduqda onun qeyb aləmi ilə

[1] İsra-106

əlaqəyə girib yenidən mələklə ünsiyyətdə olması ruhiyyəsini daha da yüksəldir. Bununla da o, vəzifəsini daha həvəslə davam etdirir. Quran bu həqiqəti belə açıqlayır: *«(Ya Rəsulum!) Sənin ürəyinə səbat (qətiyyət) vermək üçün Biz onu (Quranı) ayə-ayə (tədriclə) nazil etdik.»*

2) Bu cümləni digər bir həqiqətə də aid etmək olar. O da budur ki, təlim-tərbiyə məsələsi də Quranın tədricən nazil olmasını tələb edirdi. Çünki Peyğəmbər(s) ümmətin müəllimi, insanların mənəvi həkimi idi və səmavi təlimlərlə ictimai problemlərin həlli yollarını göstərmək və camaatı öyrətmək üçün Allah tərəfindən göndərilmişdi. Təlim-tərbiyənin, öyrətməyin ən gözəl metodu da odur ki, elmi məsələlər praktiki şəkildə icra edilsin. Yəni, nəzəriyyəylə kifayətlənmək olmaz.

Məsələn, tibb elmləri doktoru tələbələrə tibbi nəzəriyyələri deməklə kifayətlənərsə, bunun elə də nəticəsi olmaz. Lakin dediklərini hansısa xəstənin üzərində tətbiq edərsə, bu zaman müəllimin dedikləri əməli şəkildə gerçəkləşməklə tələbələrin zehnində daha yaxşı qalacaq. Quran ayələri də birdəfəyə nazil olsaydı (əslində o vaxt İslam cəmiyyətinin onların bir çoxuna heç ehtiyacı da olmamışdı), onda Quran indi qeyd etdiyimiz xüsusiyyətə malik olmazdı. Camaatın hələ ehtiyac duymadığı ayələri izah etmək qəlblərdə istənilən təsiri qoymayacaq, lazımı nəticəni verməyəcəkdi. Lakin hər ayəni tələb olduqda açıqlamaq, təbii ki, lazımi nəticəni verəcək, camaat da onu cani-dildən öyrənməyə, həyatlarında tətbiq etməyə çalışacaq. Bu isə nəzəriyyə ilə praktikanın uzlaşması, üst-üstə düşməsi deməkdir.

İndi də belə bir sualla qarşılaşırıq ki, Quranın tədricən nazil olduğu təqdirdə ayələrin bir-biri ilə bağlılığı qırılır və bu da insanı ondakı maarifi öyrətməyə süstləşdirir. Ancaq birdəfəyə nazil olsaydı, onda camaat həmin maarifi daha həvəslə öyrənməyə can atardı.

Quran bu irada da qısa bir cümlə ilə cavab vermişdir. Belə ki, ayələr tədricən və müəyyən hadisələrlə əlaqədar nazil olsa da bu, ayələrin bir-biri ilə əlaqəsini, bağlılığını qətiyyən pozmur. Allah-taala ayələri bir-birinə elə bağlayıb ki, insanlar onu öyrənib yadda saxlamaq iqtidarındadır. Quranın verdiyi cavab bundan ibarətdir: *«Quran ayələrinə xüsusi bir tərtib verdik.»*

3) Həzrət Mühəmməd(s) peyğəmbərliyi dövründə dünyanın yaradılışı, məad və digər əqli məsələlər haqqında müxtəlif əqidələrə sahib bütpərəst, xaçpərəst və yəhudilərlə rastlaşırdı. Bu görüşlər, sorğu-suallar yeni vəhyin nazil olmasını tələb edirdi. Belə ki, onların əqidələrini izah və ayinlərinin batil olduğunu göstərən yeni ayələr nazil olmalı idi. Özü də bu görüşlər müxtəlif vaxtlarda baş verdiyindən, onlarla bağlı ayələr təbii ki, tədricən nazil olmalı və etiraz edənlərin suallarını cavablandırmalı idi.

Bəzən bu təmaslar onları Peyğəmbəri(s) yoxlamaq məqsədilə suallar verməyə sövq edirdi. Peyğəmər(s) də öz növbəsində suallarını cavablandırırdı. Müxtəlif zamanlarda verilən sullara müxtəlif vaxtlarda da cavab verilirdi. Üstəlik Peyğəmbərin(s) həyatında bu və digər hadisələr baş verdiyindən, yeni vəhylərlə həmin hadisələrə aydınlıq gəlməli idi ki, bu da Quranın tədricən nazil olması deməkdir. Elə səhabələr də gündəlik həyatlarında müxtəlif hadisələrlə üzləşdiyi üçün Peyğəmbərə(s) üz tutub münasibət bildirməsini istəyirdilər. Bu hadisələrin hamısı bir vaxtda deyil, müxtəlif zamanlarda baş verdiyinə görə hadisələrə münasibət bildirən ayələr də sözsüz ki, müxtəlif zamanlarda, yəni, tədricən nazil olmalı idi. Quran bu barədə buyurur: ***«(Ya Rəsulum! Müşriklər) sənin yanına gəlib elə bir misal çəkməzlər ki, Biz sənə (onun) doğrusunu və (onların gətirdikləri misallardan) izahca daha yaxşısını gətirməyək.***»[1]

4) Bütün dediklərimizdən əlavə Quranın tədricən nazil olmasının daha bir səbəbi də olmuşdur ki, müşriklər ondan xəbərsiz idi. O da camaatı Qurana tərəf hidayət etmək və Quranın bəşər kəlamı olmadığını çatdırmaq olmuşdur. Quranın 23 il ərzində, özü də müxtəlif hadisələr-həm sevincli, həm kədərli hadisələrlə əlaqədar nazil olduğunu nəzərə aldıqda məlum olur ki, bu cür təzadlı hallar insanda böyük təsir qoyur və insan belə təzadlı anlarda eyni formada söz deyə bilməz. İnsanın sevincli vaxtındakı danışığı, yazısı ilə kədərli vaxtındakı danışığı, yazısı arasında fəsahət, bəlağət, söz və məna gözəlliyi baxımından yerlə göy qədər fərq olur. Quran da müxtəlif vaxtlarda nazil

---

[1] Furqan-33

olub, ancaq heç bir surənin, ayənin digəri ilə söz və ya məna baxımından qətiyyən fərqi yoxdur. Onun əvvəli ilə axırı demek olar ki, eyni formadadır. Bəlkə də aşağıdakı ayə elə bu sirri özündə əks etdirir: ***«Əgər o (Quran), Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət (ixtilaf, uyğunsuzluq) tapardılar.»***[1]

Təfsirçilər bu ayəni Quran ayələrinin məna və məzmun baxımından bir-birinə zidd olmadığı mənaya yozsalar da əslində Quran bütün ixtilaf, uyğunsuzluqdan uzaqdır.

[1] Nisa-82

## İSLAMDA İLK HİCRƏT

Müsəlmanlardan bir dəstəsinin Həbəşistana hicrət etməsi onların böyük imana malik olmasından xəbər verir. Bir qədər müsəlman Qüreyş müşriklərinin əzab-əziyyətindən qurtulmaq və Allaha rahat şəkildə ibadət etmək məqsədilə başqa bir yerə hicrət etmək qərarına gəlir. Öz iş-gücündən, yurd-yuvasından, qohum-əqrabasından əl çəkməyə hazır olan bu dəstə nə edəcəklərini, hara gedəcəklərini bilmirdilər. Çünki Ərəbistan yarımadasının demək olar hər tərəfini bütpərəstlik bürümüş və gedəcəkləri heç bir yerdə Allaha rahat şəkildə ibadət edə bilməyəcəkdilər. Buna görə də belə qərara gəldilər ki, bu məsələni Peyğəmbərin(s) özü ilə məsləhətləşsinlər. Axı Peyğəmbərin(s) dini məhz ***«Ey iman gətirən bəndələr! (Əgər hər hansı bir yerdə dini vəzifələrinizi lazımınca yerinə yetirə bilmirsinizsə, başqa şəhərlərə və ölkələrə hicrət edə bilərsiniz.) Şübhəsiz ki, Mənim yerim genişdir. Buna görə də yalnız Mənə ibadət edin!»***[1] ayəsinə əsaslanır.

Həzrət Mühəmməd(s) müsəlmanların bu acınacaqlı vəziyyətindən xəbərdar idi. Özü Bəni-Haşim gəncləri tərəfindən tam qorunsa da, səhabələr arasında qullar, kənizlər, kimsəsizlər də var idi və Qüreyş müşrikləri onlara əllərindən gələn əziyyəti verir, bir an da olsun rahat buraxmırdılar. Qəbilələrarası döyüşlər baş verməsin deyə, hər hansı qəbilədə müsəlman olan şəxsi qəbilə başçısı təzyiqlərə məruz qoyurdu. Buna görə də haqqında danışdığımız səhabələr hicrət haqqında Peyğəmbərə(s) müraciət etdikdə həzrət buyurur: «Həbəşistana getsəniz, orada çox rahat yaşaya bilərsiniz. Çünki oranın ədalətli bir hökümdarı var və kiməsə zülm edilmir. Ora çox təmiz bir ölkədir. Allah sizin üçün yeni bir qapı açana qədər Həbəşistana hicrət edin!»

Doğrudan da ədalətli hökmdar tərəfindən idarə olunan ölkə sanki Cənnətin bir parçasıdır. Səhabələrin də yeganə istəyi o idi ki, rahat şəkildə ibadət etmək üçün azad bir yer olsun.

---

[1] Ənkəbut-56

Peyğəmbərin(s) tövsiyyəsi səhabələri elə həvəsləndirir ki, onlar qısa müddət ərzində səfər tədarükü görüb müşriklərin xəbəri olmadan yola çıxırlar. Bəzilərinin miniyi olsa da qalanları elə piyadaca Cəddəyə doğru hərəkət edirlər. Dördü qadın olmaqla onların ümumi sayı on[1], ya da on beş idi.

Maraqlıdır, görəsən Peyğəmbər(s) başqa yerləri deyil, nə üçün məhz Həbəşistana hicrət etməyi tövsiyə edir? Ərəbistan yarımadasındakı və eləcə də ətraf bölgələrdəki vəziyyəti təhlil etdikdə bu sualın cavabı məlum olur. Belə ki, bütpərəst ərəblərin yaşadığı istənilən yerə hicrət etmək olduqca təhlükəli idi. Çünki digər ərazilərdə yaşayan bütpərəstlər ya Qüreyşlə səmimi münasibətlərinə görə, ya da ata-babalarının dininə hörmət əlaməti olaraq müsəlmanlara orada yaşamaq imkanı verməyəcəkdilər. Yarımadanın xaçpərəst və yəhudilər yaşayan yerlərinə köçmək də əlverişli deyildi. Ona görə ki, onlar mənəvi nüfuz baxımından onsuz da bir-biri ilə yola getmirdilər, belə bir vəziyyətdə üçüncü dəstənin meydana çıxmasının heç yeri yox idi.

Üstəlik onlar ərəblərə özlərindən aşağı təbəqə gözü ilə baxırdılar.

Yəmən İran imperiyasının nüfuz dairəsi olduğundan iranlılar müsəlmanların orada yaşamasına razı ola bilməzdilər. Hətta Peyğəmbərin(s) məktubu Xosrov Pərvizə yetişdikdə Yəmən hökmdarına xəbər göndərir ki, yeni peyda olmuş peyğəmbəri tut İrana göndər.

Hirənin də vəziyyəti Yəməndəkindən fərqli deyildi: Şam isə Məkkədən çox uzaq idi. Üstəlik Yəmənlə Şam Qüreyş tacirlərinin get-gəl yeri idi və qüreyşlilərin oranın əhalisi ilə sıx əlaqələri var idi. Müsəlmanlar ora gedəcəkləri halda Qüreyş müşriklərinin xahişini nəzərə alaraq onları oradan qovacaqdılar. Müşriklər Həbəşistan hökmdarına bu xahişlə müraciət etmişdilər, lakin hökmdar onlara rədd cavabı vermişdi.

Dənizdə səfərə çıxmaq, özü də o vaxtkı şəraitdə arvad-uşaqla birlikdə olduqca ağır səfər idi. Bu çətinliklərə dözmək də müsəlmanların dərin imanından xəbər verir.

Cəddə limanı indi də olduğu kimi ticarət limanı idi. Xoşbəxtlikdən həmin gün iki gəmi Həbəşistana səfərə hazırlaşırdı. Müsəlmanlar müş-

[1] Tarixi Təbəri, c-2, s-70

riklərin onları təqib edə biləcəyindən qorxub yarım dinar ödəməklə gəmiyə minib yola düşürlər. Müsəlmanların hicrət xəbəri Qüreyş başçılarına çatan kimi dərhal onları Məkkəyə geri qaytarmaq məqsədilə onların ardınca adam göndərirlər. Müşriklərin göndərdiyi dəstə Cəddə limanına çatdıqda gəmi artıq sahildən uzaqlaşmışdı. Bu hicrət peyğəmbərliyin beşinci ili, rəcəb ayında baş vermişdir.

Sırf öz dinlərini qorumaq məqsədilə doğma yurd-yuvalarını tərk edən bu dəstəni təqib etmək (və imkan daxilində tutub Məkkəyə geri qaytarmaq) müşriklərin əzazilliyinin bariz nümunəsidir. Mühacirlər yurd-yuvasından, iş-gücündən, qohum-əqrəbasından əl çəksələr də müşriklər onlardan əl çəkmirdilər.

Hicrət edən bu kiçik dəstənin hamısı eyni qəbilədən deyildi. Bu hicrətin ardınca Cəfər ibn Əbutalibin başçılığı altında ikinci bir dəstə hicrət edir. İkinci hicrət çox rahat şəkildə həyata keçir. Buna görə də bu dəfə hicrət edənlərin əksəriyyəti arvad-uşağını da özü ilə apara bilir. Beləliklə də Həbəşistandakı müsəlmanların sayı 83 nəfərə çatır. (Hicrət edən uşaqlar və orada dünyaya gələn uşaqlar bu rəqəmə daxil deyil).

Hicrət edənlər Həbəşistanın Peyğəmbər(s) buyurduğu kimi, azad bir yer olduğunu görürlər. Sonralar Peyğəmbərin(s) həyat yoldaşı olmaq şərəfinə nail olmuş Əbu Səlmənin xanımı Ümmü Sələmə bu barədə deyir: **«Həbəşistanda çox ədalətli bir hökmdarla üzləşdik. Orada kimsə bizə əziyyət etmir, pis söz demirdi.»** Bəzi mühacirlərin dediyi şerlərdən də məlum olur ki, Həbəşistan torpağı müsəlmanların ürəyincə olmuşdur. Nümunə üçün Abdullah ibn Hərsin şerlərindən üç beyt qeyd edirik:

Allah bəndələri Məkkədə pis vəziyyətdə yaşayır.
Biz Allahın yerini geniş gördük, O, bizi zillətdən qurtardı.
Həyatın zillətinə, rüsvay ölümə səbr etməyin!

İbn Əsir yazır: «Bu dəstə besətin beşinci ili, şəban ayında Həbəşistana hicrət etmiş, şəban və ramazan aylarını orada qalmışdır. Qüreyş müşriklərinin müsəlmanlara daha əziyyət etmədiyi xəbəri onlara çatdıqda şəvval ayında Məkkəyə qayıtmışlar. Geri döndükdən sonra vəziyyətin heç də eşitdikləri kimi olmadığını görüb yenidən Həbəşistana gedirlər.»[1]

---

[1] Əl-Kamilu fit-tarix, c-2, s-52-53; Sireyi İbn Hişam

***Qüreyş nümayəndələri Həbəşistan hökmdarının sarayında***

Müsəlmanların Həbəşistanda azad şəkildə həyat sürməsi müşrikləri narahat edirdi. Çünki indi Həbəşistan müsəlmanlar üçün əsas mərkəzə çevrilirdi. Müşriklər əsasən ona görə qorxurdular ki, birdən müsəlmanlar Həbəşistan hökmdarı Nəcaşinin sarayına yol tapıb onun özünü də İslama meylləndirər, nəticədə böyük bir ordu ilə Ərəbistan yarımadasına hücum edib bütpərəstliyin kökünü kəsərlər.

Qüreyş ağsaqqalları Darün-nüdvədə (məsləhətləşmək üçün toplandıqları yer) yığışıb belə qərara gəlirlər ki, Həbəşistan hökmdarının yanına nümayəndələr göndərsinlər. Onlar hökmdar və vəzirləri üçün xüsusi hədiyyələr də hazırlayırlar ki, bəlkə bu yolla hökmdarın nəzdində nüfuz qazanıb sonra da müsəlmanları axmaqlıqda, özlərindən yeni şəriət icad etməkdə ittiham edə biləlor. Bu məqsədlə onlar aralarından iki nəfər tədbirli və hiyləgər şəxsi seçirlər ki, biri Abdullah ibn Rəbiə, digəri də Əmr ibn As idi. (Sonuncu sonralar siyasət meydanının əsas ifaçısı olmuşdur). Darun-nüdvənin böyüyü onlara tapşırır ki, hökmdarla görüşməzdən qabaq əvvəlcə vəzirlərlə görüşüb hədiyyələrini təqdim edin və onlarla söhbətləşin ki, qoy hökmdarla görüşdüyünüz zaman sizi dəstəkləsinlər. Adı çəkilənlər Həbəşistana yola düşürlər. Həbəş vəzirlərlə görüşüb hədiyyələri təqdim etdikdən sonra deyirlər: «Bizim bir sıra gənclərimiz ata-babalarımızın dinindən çıxıb özləri üçün bizim də, sizin də dininizə zidd olan bir din icad ediblər. İndi onlar sizin ölkədə yaşayırlar. Qüreyş zadəganları möhtərəm Həbəş hökmdarından rica edirlər ki, tez bir zamanda onların ölkədən çıxarılması haqqında lazımi göstəriş versin. Yeri gəlmişkən, sizdən xahiş edirik ki, bizi hökmdarla görüşdürəsiniz. Biz öz gənclərimizi daha yaxşı tanıdığımız üçün bu barədə onların özü ilə danışmağı heç məsləhət görmürük və hökmdara bildirin ki, o da onlarla görüşməsin.» Vəzirlər onlara kömək edəcəklərinə söz verdilər. Səhərisi gün hökmdarın hüzuruna gedib təzim və Qüreyşin hədiyyələrini təqdim etdikdən və vəzirlərə dediklərini hökmdara da çatdırdıqdan sonra bildirirlər: «Möhtərəm hökmdar! Bu gənclər ölkənizdəki azadlıqdan sui-istifadə edirlər. Qəbilə başçıları sizdən acizanə şəkildə xahiş edirlər ki, onların ölkənizdən çıxarılması haqqında müvafiq göstərişlər verə-

siniz...» Nümayəndələrin sözü başa çatan kimi sarayın bir küncündə dayanmış vəzirlər onları dəstəkləməyə başlayırlar.

Ancaq ağıllı və ədalətli hökmdar vəzirləri ilə razılaşmayıb deyir: «Bu iş qeyri-mümkündür. Ölkəmə sığınmış adamları araşdırmadan bu iki nəfərə təhvil verməmərəm. Mütləq araşdırılmalıdır. Bu iki nəfərin dedikləri düz çıxarsa, onda onları ölkədən çıxarılması haqqında dərhal əmr verərəm, yox əgər dedikləri yalan olarsa, onda mən öz himayəmi onlardan əsirgəməyəcəyəm, onlara daha çox qayğı göstərəcəyəm.» Bunu deyib mühacirətdə yaşayan müsəlmanların ardınca adam göndərir. Heç nədən xəbəri olmayan müsəlmanlar saraya gətirilir. Müsəlmanlar adından söz demək hüququ Cəfər ibn Əbutalibə verilir. Mühacirlərdən bəzisi Cəfərin hökmdarla necə danışacağından narahat idi. Cəfər sözə başlayıb öz rəhbərindən, yəni, Peyğəmbərdən(s) nə eşidibsə, hamısını olduğu kimi deyəcəyini bildirir. Nəcaşi üzünü Cəfərə tutub soruşur ki, nəyə görə ata-babalarınızın dinindən əl çəkib nə bizim, nə də öz əcdadlarınızın dini ilə uyğun gəlməyən yeni bir dinə iman gətirmisiniz? Cəfər onun cavabında deyir: «Biz bir dəstə cahil və bütpərəst insanlar idik. Heç bir çirkinlikdən çəkinmir, pis-pis işlər görürdük. Qonşuların haqqını gözləmirdik, zəif güclünün əsiri olmuşdu, qohum-əqrəba ilə vuruşurduq. Günlərimizi belə keçirtdiyimiz bir vaxtda aramızdan paklığı, düzgünlüyü ilə tanınmış bir nəfər çıxıb Allahın əmri ilə bizi təkallahlığa dəvət etdi. O, bizə əmanətdar olmağı, pisliklərdən çəkinməyi, qohum-əqrəba, qonşularla xoş münasibət yaratmağı, haqsız yerə qan tökməməyi, qanunsuz işlər görməməyi, yalan şahidlik, yetimlərin malına xəyanət, qadınları əxlaqsız işlərdə ittiham etməməyi tövsiyə etdi. O, bizə tapşırdı ki, namaz qılıb oruc tutaq, gəlirimizin şəri vergisini (xums-zəkatını) ödəyək. Biz ona iman gətirib tək olan Allaha ibadət etməyə başladıq. Onun haram buyurduğunu haram, halal buyurduğunu isə halal bildik. Ancaq Qüreyş bizə qarşı çıxıb imanımızdan əl çəkərək yenidən bütlərə sitayiş edək deyə, gecə-gündüz bizə əzab verdi. Gücümüz tükənənə qədər onların zülmlərinə dözdük. Öz dinimizi, imanımızı qorumaq naminə doğma yurdumuzdan, həyatımızdan, ev-eşiyimizdən əl çəkib bura gəldik. Həbəşistan

hökmdarının ədaləti bizi maqnit kimi bura çəkib gətirdi. Biz indi də onun ədalətli qərar çıxaracağına tam əminik.»[1]

Cəfərin sözləri Nəcaşiyə o qədər təsir etdi ki, gözləri yaşarmış halda Qurandan bir neçə ayə oxumasını istəyir. Cəfər Məryəm surəsindən bəzi ayələri oxumaqla İslamın Məryəmin(s.ə) paklığına və İsanın(ə) mövqeyinə dair münasibətini bildirir. Cəfərin oxuduğu ayələr hələ başa çatmamışdı ki, hökmdar və ətrafındakı yepiskoplar ağlamağa başlayır, göz yaşları saqqal və qarşılarındakı kitabları isladır. Bir müddət məclisə səssizlik hakim kəsildi. Sonra Nəcaşi dillənərək deyir: «Bunların peyğəmbərinin dedikləri ilə İsanın dedikləri eyni mənbədən qaynaqlanır. Çıxın gedin, mən heç vaxt bunları sizə təhvil verməyəcəyəm.» Beləliklə də məclis Qüreyş nümayəndələrinin və vəzirlərin gözlədiyinin əksinə başa çatdı.

Hiyləgər və tədbirli olan Əmr ibn As axşam yoldaşı Abdullah ibn Rəbiə ilə məsləhətləşib deyir: «Sabah gərək başqa bir yol seçək. Bəlkə bu vasitə ilə nə isə edə bildik. Mən sabah hökmdara deyəcəyəm ki, müsəlmanların başçısı İsa haqqında başqa cür fikirləşir. Onun dedikləri ilə sizin dininizdə deyilənlər uyğun gəlmir. (Hökmdar bundan sonra hətta onların ölümünə də fərman verər.) Abdullah, Əmr ibn Ası bu işdən çəkindirmək istəyib bildirir ki, mühacirlər arasında onların öz qohumları da vardır. Lakin onun sözləri Əmr ibn Ası fikrindən daşındırmadı. Səhərisi gün vəzirlərin müşayiəti ilə yenidən saraya gələn nümayəndələr bu dəfə Həbəşistanın rəsmi dini olan xaçpərəstliyi sanki müdafiə edirlərmiş kimi, müsəlmanların İsa(ə) haqqındakı əqidələrini tənqid edərək deyirlər: «Bunların İsa haqqındakı əqidələri sizin əqidənizlə qətiyyən uyğun gəlmir. Belə adamların olması ölkənizin rəsmi dini üçün olduqca təhlükəlidir. İstəsəniz özlərindən də soruşa bilərsiniz.»

Həbəşistanın müdrik hökmdarı bu dəfə də məsələni araşdırmaq qərarına gəlir. Bu məqsədlə yenidən mühacirləri saraya dəvət edir. Müsəlmanlar təkrarən saraya çağırılmalarının səbəbi haqqında düşünürdülər. Sanki bu dəfə xaçpərəstlərin başçısı (yəni, İsa(ə) haqqında müsəlmanların əqidələrinin soruşulacağı üçün saraya çağırılmaları onlara

[1] Əl-Kamilu fit-tarix, c-2, s-54-55; Tarixi Təbəri, c-2, s-73

ilham edilmişdi. Bu dəfə də danışmaq hüququ Cəfərə verilir. O, dostlarına söz vermişdi ki, bu barədə yalnız Peyğəmbərdən(s) eşitdiklərini danışacaqdır.

Müsəlman mühacirlər saraya gəldikdə Nəcaşi onlardan soruşur ki, İsa barədə əqidəniz nədir? Cəfər onun cavabında deyir ki, bu barədə biz Peyğəmbərimizin dediklərinə inanırıq. Belə ki, İsa Allahın bəndəsi, peyğəmbəri və Məryəmə göndərdiyi ətası olmuşdur. Hökmdar Cəfərin sözlərindən xoşhal olub deyir: «And olsun Allaha, İsa elə sizin dediyiniz kimi olmuşdur. Vəzir-vəkillər Nəcaşinin dedikləri ilə razılaşmasa da o, müsəlmanların əqidəsini bəyənir, onlara ölkəsində tam azadlıq verir, Qüreyşin göndərdiyi hədiyyələrdən imtina edərək deyir: «Allah mənə bu məqamı verərkən məndən rüşvət almayıb, buna görə mənim də sizdən rüşvət almağım yaxşı olmaz.»[1]

***Həbəşistandan qayıdış***

Az öncə qeyd etdiyimiz kimi Həbəşistana getmiş ilk mühacirlər Qüreyşin daha müsəlmanlara əziyyət etmədiyi barədə yalan məlumat əldə etdikdən sonra Məkkəyə geri qayıdırlar. Lakin Məkkəyə çatdıqda vəziyyətin heç də deyildiyi kimi olmadığını görüb əksəriyyəti yenidən Həbəşistana gedir, bir-iki nəfər isə ya gizlicə, ya da hansısa Qüreyş böyüklərindən birinin təzminatı ilə Məkkədə qalır. Osman ibn Məzunu Vəlid ibn Müğeyrə öz himayəsinə götürərək onu əziyyətdən qoruyur.[2] Lakin Osman digər müsəlmanların müşriklər tərəfindən işgəncələrə məruz qaldığını öz gözləri ilə görüb narahat olurdu. Bu ayrıseçkiliyə dözə bilməyən Osman Vəlidə deyir ki, ümumi bir yığıncaqda məni öz himayəndən çıxardığını bildir.

Bununla o, digər müsəlmanların çəkdiyi əziyyətlərə şərik olmaq istəyirdi. Vəlid də Məscidül-həramda elan edir ki, daha Osman ibn Məzun onun himayəsində deyil. Osman da onun dediyini təsdiqləyir. Bu hadisənin ardınca ərəblərin söz ustadı Ləbid məscidə daxil olub məşhur qəsidələrindən birini oxumağa başlayır. O deyir: «Allahdan başqa bütün varlıqlar fanidir.» Osman onu təsdiqləyib düz dediyini bildirir. Ləbid

---

[1] Sireyi İbn Hişam, c-1, s-338; İmtaul-əsma, s-21

[2] Sireyi İbn Hişam, c-1, s-369

ikinci misrada deyir ki, Allahın bütün nemətləri ötəridir. Osman ona etiraz bildirib deyir: «Bu dəfə səhv dedin, çünki axirət nemətləri daimidir.» Osmanın etirazı Ləbidə pis təsir etdiyindən deyir: «Ay Qüreyş camaatı! Yaman dəyişmisiniz, bu kimdir belə danışır?» Yerdəkilərdən biri cavab verir ki, bu axmaq bizim dinimizdən çıxıb, özü kimisinin dininə qoşulub. Sən onun sözlərinə fikir vermə! Bunu dedikdən sonra qalxıb Osmanın sifətinə bir sillə vurur. Bu zaman Vəlid ibn Müğeyrə Osmana deyir: «Mənim himayəmdə qalsaydın, indi belə olmazdı.» Osman onun cavabında bildirir ki, mən böyük Allahın pənahındayam. Vəlid Osmana yenidən onu himayəyə götürməyə hazır olduğunu bildirsə də o qəbul etmir.[1]

***Xaçpərəstlərin nümayəndə heyəti Məkkəyə gəlir***

Müsəlman mühacirlərin Həbəşistandakı təbliğatı nəticəsində oranın xaçpərəst ruhani idarəsi Məkkəyə təxminən iyirmi nəfərdən ibarət nümayəndə heyəti göndərmək qərarına gəlir. Nümayəndə heyəti Məscidül-həramda Peyğəmbərlə(s) görüşüb ona bir neçə sual verir. Peyğəmbər(s) suallara cavab verib onları İslama dəvət edir, eyni zamanda onlar üçün Qurandan bir neçə ayə də oxuyur. Ayələr onlara o qədər təsir edir ki, ixtiyarsız olaraq gözlərindən yaş axmağa başlayır. Onlar, gəlməsi haqqında İncildə müjdə verilmiş peyğəmbərin bütün xüsusiyyətlərinin həzrət Mühəmməddə(s) mövcud olduğunu görürlər.

Nümayəndə heyətinin Peyğəmbərlə belə səmimi və səmərəli görüşü Əbu Cəhlə pis təsir edir. Heyətə yaxınlaşıb sərt şəkildə deyir: «Həbəşistan camaatı sizi araşdırma aparmaq üçün Məkkəyə göndərmişdir. Sizi öz ata-babalarınızın dinindən çıxasınız deyə, bura göndərməyiblər.» Məncə yer üzündə sizdən axmaq adam yoxdur. Nümayəndə heyəti qara buludlar günəş şüasının qarşısını aldığı kimi həqiqətin qarşısını almağa çalışan Əbu Cəhlin cavabında çox diplomatik bir cümlə deməklə kifayətlənir və mübahisənin böyüməsinə imkan vermirlər. Onlar deyirlər: «Biz öz dinimizdə qalaq, siz də öz dininizdə. Lakin nəyisə öz xeyrimizə görsək, onu əldən buraxmarıq.»[2]

---

[1] Sireyi İbn Hişam, c-1, s-371

[2] Sireyi İbn Hişam, c-1, s-382-392

***Qüreyş müşriklərinin nümayəndə heyəti***

Həbəşistandan Məkkəyə gəlmiş nümayəndə heyəti Qüreyş müşriklərini oyadır. Onlar da belə qərara gəlirlər ki, yəhudi alimləri ilə görüşüb Mühəmmədin(s) peyğəmbərliyini müzakirə etmək məqsədilə Haris ibn Nəsr və Əqəbə ibn Əbu Muitin başçılığı altında Yəsribə (Mədinəyə) nümayəndə heyəti göndərsinlər. Nümayəndələr yəhudi alimləri ilə görüşdükdə yəhudilər onlara deyirlər ki, Mühəmmədə(s) aşağıdakı sualları verin:

1) Ruh nədir?

2) Əshabi-kəhf haqqında məlumat ver.

3) Zülqərneyn haqqında məlumat ver.

Yəhudi alimləri Qüreyş nümayəndələrinə deyirlər ki, Mühəmməd bu suallara cavab verərsə, deməli, həqiqətən də Allahın göndərdiyi peyğəmbərdir, yox əgər cavab verə bilməsə, bilin ki, yalançıdır, onu tez bir vaxtda aradan götürmək lazımdır.

Nümayəndə heyəti sevincək halda Məkkəyə dönür. Qayıtdıqdan sonra böyük bir yığıncaq təşkil edib Peyğəmbəri(s) də ora çağırırlar. Hər üç sualı həzrətə verdikdə Peyğəmbər(s) buyurur: «Sualların cavabı üçün vəhy gəlməsini gözləyəcəyəm.»[1]

Vəhy nazil olaraq sualları cavablandırır. Ruhla bağlı cavab İsra surəsinin 85, Əshabi-kəhf və Zülqərneynlə bağlı cavablar isə müvafiq olaraq Kəhf surəsinin 9-28-ci ayələrində öz əksini tapmışdır. Bu sualların cavabları ilə bağlı ətraflı məlumat təfsir kitablarında verilmişdir.

Bir məsələni qeyd etmək lazımdır ki, yuxarıdakı suallarda ruhdan məqsəd heç də insan ruhu deyil, (sualı verənlər yəhudilər olduğundan və onların da Ruhul-əmin, yəni, Cəbraillə yaxşı münasibətləri olmadığından) Cəbraildir.

[1] Sireyi İbn Hişam, c-1, s-300-301

## KÖHNƏLMİŞ MÜBARİZƏ METODLARI

Qüreyş müşrikləri İslam dininə qarşı mübarizə üçün bütün qüvvələrini səfərbər etmişdilər. Öncə Peyğəmbəri(s) şirnikləndirməklə məqsədindən döndərməyə çalışsalar da buna nail olmadılar. Sonra o həzrətin səhabələrinə əziyyət verməyə başladılar. Lakin səhabələrin möhkəm iradəsi, dözümü, hətta öz doğma vətənlərindən ayrılıb Həbəşistana hicrət etmələri nəticəsində bu dəfə də müşriklər istəklərinə çata bilmirlər. Ancaq müşriklər İslama qarşı mübarizələrinə son qoymaq fikrində deyildilər. İndi onlar daha kəskin mübarizə metodu seçmişdilər. Bu, həzrət Mühəmmədə(s) qarşı əks təbliğat metodu idi. Düzdür müsəlmanlara əzab-əziyyət verməklə müşriklər müsəlman olmaq fikrinə düşənləri öz fikirlərindən daşındırırdılar, ancaq haram aylarda Məkkəyə ziyarətə gələn qeyri-məkkəlilər çox rahat şəkildə Peyğəmbərlə təmasa girə bilir və onun təsiri altına düşürdülər. Hətta ona iman gətirməsəydilər də ən azından bütpərəstlik əqidələri sarsılır və öz yerlərinə qayıtdıqdan sonra yeni peyğəmbərin zühur etməsindən danışırdılar ki, bu yolla da peyğəmbərin(s) adı və dini bütün Ərəbistana yayılmış olurdu. Bunun özü də bütpərəstliyə böyük bir zərbə və İslamın yayılması üçün böyük amil hesab olunurdu. Buna görə də müşriklər yeni bir mübarizə növünə əl atmaqla İslamın yayılmasının və camaatın Peyğəmbərlə(s) təmasa girməsinin qarşısını almağa çalışırdılar. Yeni mübarizə metodları aşağıdakılardan ibarət idi:

### *1-Nalayiq böhtanlar*

Kiminsə şəxsiyyətini qarşı tərəfin ona atdığı böhtanlarla, iftiralarla müəyyənləşdirmək mümkündür. Düşmən camaatı rəqibindən uzaqlaşdırmaqdan ötrü ona yalan böhtanlar, iftiralar atmaqla şərəf və ləyaqətini ləkələməyə çalışır. Düşmən bu hərəkəti ilə hamını olmasa da, ən azı sadəlövh dəstəni inandıra bilir. Özü də düşmən öz rəqibinə onun həyatı ilə uyğun gəlməyən böhtanlar atmır, çünki bu, əks təsir göstərə bilər.

Tarixi dərindən tədqiq edən şəxs düşmənin atdığı böhtanları araşdırmaqla da qarşı tərəfin şəxsiyyətini öyrənə bilər.

Qüreyş müşrikləri Peyğəmbərlə(s) hədsiz düşmənçiliklərinə və İslamı nəyin bahasına olursa olsun, aradan aparmaq istəklərinə baxmayaraq bu mübarizə metodundan da tam yararlana bilmirdilər. Onlar fikirləşirdilər ki, Mühəmmədə(s) nə böhtan atsınlar? Onu əmanətə xəyanətdə ittiham etsələr, heç kəs inanmayacaq. Çünki hal-hazırda da bir çoxu malını onun yanında əmanət qoymuşdur. Üstəlik peyğəmbərlikdən əvvəlki qırx illik həyatı onu hamının gözündə əmin, yəni, əmanətdar kimi tanıtdırmışdı. Onu şəhvətpərəstlikdə ittiham etsinlər? Buna da heç kəs inanmayacaqdı. Axı o, gənclik dövrünü nisbətən yaşı ötmüş dul bir qadınla keçirmiş və hələ də onunla davam edirdi. Qaldılar ki, bəs onu nədə ittiham etsinlər ki, camaat heç olmasa bu ittihamın bircə faiz də doğruluğuna inansın. Axırda belə qərara gəldilər ki, bu mövzunu bütün Qüreyş ağsaqqallarının müzakirəsinə buraxsınlar. Beləliklə, məclis qurulur. Vəlid sözə başlayıb bildirir ki, artıq həcc mövsümü yaxınlaşır. Mühəmməd bu fürsətdən istifadə edib öz dinini yaymağa çalışacaq. Biz gərək onun haqqında eyni fikri bildirək. Yoxsa ayrı-ayrı ittihamların heç bir nəticəsi olmayacaq. Aralarındakı bilici soruşur ki, yaxşı, ona nə ad verək? Biri deyir ki, gəlin onu kahin adlandıraq. Bilici onun fikrini bəyənməyib bildirir ki, Mühəmmədin dedikləri kahinlərin sözündən fərqlənir. Başqa birisi təklif edir ki, onun dəli olduğunu iddia edək. Vəlid bu təklifə etiraz edib deyir ki, bu vaxtacan onda dəlilik əlamətləri görünməyib. Geniş müzakirədən sonra axır belə razılığa gəldilər ki, onu sehrbaz adlandırsınlar. Çünki onun sözlərində sanki bir sehr var idi. O, birlikləri zərbülməsələ çevrilmiş məkkəlilər arasında öz Quranı ilə təfriqə yaratmışdı.[1] Təfsirçilər Muddəssir surəsinin təfsirində bu hadisəni başqa cür qeyd edərək yazırlar: «Vəlid, Fussilət surəsinin bir neçə ayəsini dinlədikdən sonra çox təsirlənir, bədəninin tükləri biz-biz olur. Evə qayıdıb bir neçə gün eşiyə çıxmır. Müşriklər ona istehza edib deyirlər ki, Vəlid Mühəmmədin dinini qəbul etmişdir. Hamılıqla onun evinə gəlib Quran barədə

[1] Sireyi İbn Hişam, c-1, s-270

münasibətini öyrənmək istəyirlər. Hərə yuxarıda qeyd edilən təkliflərdən birini versə də Vəlid hamısını rədd edib axırda deyir ki, onu məkkəlilər arasında ikitirəlik yaratdığı üçün sehirbaz, cadugar adlandırın.»[1]

Təfsirçilər «Muddəssir» surəsinin on birinci ayəsindən əllinci ayəsinə qədərin Vəlidin barəsində nazil olduğunu bildirirlər.

***Müşriklər Peyğəmbərin(s) dəli olduğunu iddia edir***

Həzrət Mühəmməd(s) hələ peyğəmbər seçilməzdən qabaq camaatın arasında düzgünlüyü, düz danışmağı ilə ad çıxarmışdı. Düşmənlər də onun gözəl əxlaqı qarşısında heyran qalmışdılar. Mühəmməd(s) peyğəmbərliyini aşkar şəkildə təbliğ etməyə başladıqdan on il sonrayadək öz qiymətli əşyalarını onun yanında əmanət qoyardılar. Lakin onun İslam dinini yayması düşmənlərə çox pis təsir edir və buna görə də müşriklər ona müxtəlif iftiralar yaxmaqla camaatın gözündən salmağa çalışırdılar. Bu zaman onlar elə böhtanlar atırdılar ki, camaatın gözündə inandırıcı görünməsi mümkün sayılırdı. Bu böhtanlardan biri də o həzrətin dəli olduğunu iddia etmələri idi. Özü də həmin böhtanı atarkən özlərini təmizqəlbli insanlar kimi göstərib riyakarlıq edirdilər. Onlar deyirdilər: ***«Görəsən, o Allaha qarşı özündən yalan uydurur, yoxsa bir dəliliyi var?»***[2] Bu, dahi şəxsləri gözdən salmaq üçün düşmənlərin işlətdiyi əsl şeytan tədbiridir. Quran bu iftiranın təkcə həzrət Mühəmmədin(s) dövrünə aid olmadığını bildirir. Keçmiş peyğəmbərlərin ümməti də onları təkzib edərkən məhz bu vasitədən istifadə edirmişlər.

Quran buyurur: ***«Ya Rəsulum! Sənin qövmün sənə şair, sehrbaz, divanə dediyi kimi) eləcə də onlardan əvvəlkilər özlərinə bir peyğəmbər gələr-gəlməz ona sehrbaz, divanə dedilər. Görəsən onlar bunu (bu dediklərini) bir-birinə vəsiyyətmi etmişlər? (Hamısı eyni şeyi deyir). Xeyr, onlar azğın bir qövmdürlər!»***[3] Bu məsələyə İncildə də toxunulur. Belə ki, İsa(ə) yəhudilərə nəsihət verdikdə onlar İsanın sayıqladığını bildirib camaatı onun sözlərinə inanmamağa səsləyirlər.[4]

---

[1] Məcməül-bəyan, c-10, s-387
[2] Səba-8
[3] Zariyat-52-53
[4] İohanın İncili, 10-cu fəsil, 20-ci cümlə

Məkkə müşrikləri ən kiçik bəhanədən də Peyğəmbərin(s) əleyhinə istifadə etməyə çalışırdılar. Məsələn, Peyğəmbər(s) bəzən Mərvə yaxınlığında Cəbr adlı xaçpərəst bir nökərlə oturub söhbət edərdi. Bunu görən müşriklər dərhal deyərdilər ki, Mühəmmədə Quranı öyrədən məhz bu xaçpərəst nökərdir. Qurani-Kərim onların bu əsassız iddiasına belə cavab verir: ***«Biz (müşriklərin): «(Quranı) ona bir insan (ara-sıra görüb danışdığı Cəbr ər-Rumi adlı xaçpərəst bir gənc) öyrədir!»- dediklərini də bilirik. Onların nəzərdə tutduqları adamın dili başqa dildir. Bu (Quranın dili) isə açıq-aşkar ərəb dilidir!»***[1]

***Dəlilik nəticəsində daxili vəhy əmələ gəlib***

Peyğəmbərlərə, xüsusilə də həzrət Mühəmmədə(s) vəhy gəldiyini inkar edənlər bildirirlər ki, peyğəmbərlərin vəhy kimi qəbul etdikləri onların öz beyninin məhsuludur. Düzdür, bu fikirdə olanlar həzrəti Mühəmmədi(s) yalançı adlandırmağa cürət etməmişdir. Ancaq belə təsəvvür edirlər ki, o, özünün həqiqətən də Allah tərəfindən göndərildiyinə inanırdı, lakin vəhy kimi başa düşdüyü əslində onun öz beyninin məhsulu olmuşdur. Belə ki, o, uzun müddət təfəkkürə qərq olduğundan, təbii ki, bu düşüncələr nə vaxtsa həyata keçməli idi.

Qeyd etmək lazımdır ki, bu iddia da təzə bir söz deyil. Hələ Peyğəmbər(s) dövründəki müşriklər də həmin iddia ilə çıxış etmişlər: ***«Onlar (müxtəlif fikirlərə düşərək) belə dedilər: «Xeyr, (bu Quran) qarma-qarışıq yuxulardır; xeyr, onu özü uydurmuşdur...»***[2] Bəli, hələ o vaxt bir çoxları Quranı Peyğəmbərin(s) xəyalları kimi qəbul edərək deyirdilər ki, o, elə bilir ona vəhy və ya mələk nazil olur. Halbuki bu, xəyaldan başqa bir şey deyil.»

Nəcm surəsində Allah-taala həzrət Mühəmmədə(s) nazil olan vəhy mövzusuna toxunaraq həqiqətin üstündən pərdə götürərək bu iddiaya tutarlı cavab verir. Orijinal quruluşa malik olan bu ayələrdə deyilir: ***«Batmaqda olan ulduza (Sürəyya ulduzuna) and olsun ki, sizin yoldaşınız (Rəsulum) nə haqq yoldan sapmış, nə də azmışdır! O, kefi istəyəni (havadan) danışmır. Bu, ancaq (Allah dərgahından) nazil olan bir***

[1] Nəhl-103
[2] Ənbiya-5

***vəhydir! Onu (Rəsuluma) çox qüvvətli olan (Cəbrail) öyrətdi. O qüvvət sahibi (Peyğəmbərə öz həqiqi şəklində) göründü. O (Cəbrail) ən uca üfüqdə idi. Sonra ona (Rəsuluma) yaxınlaşdı və aşağı endi. (Onların arasındakı məsafə) iki yay uzunluğunda, bəlkə, ondan da yaxın oldu. Sonra (Cəbrail Allahın Öz) bəndəsinə (Rəsuluma) vəhy buyurduğunu vəhy etdi. Qəlb (Peyğəmbərin qəlbi) gördüyünü yalan saymadı. (Rəsulum gözü ilə gördüyünün Cəbrail olduğuna qəlbən inandı.) Siz onunla gördüyü barəsində mübahisəmi edirsiniz? And olsun ki, (Rəsulum Cəbraili öz həqiqi surətində) başqa bir dəfə də (merac vaxtı) görmüşdü. (Yeddinci göydəki) Sidrətül-müntəhanın yanında. (Mələklər, şəhidlər və müttəqilər məskəni olan) Məva cənnəti onun yanındadır. O zaman Sidrəni nələr bürümüşdü, nələr? Göz nə (sağa-sola) yayındı, nə də uzağa getdi (hər şeyi olduğu kimi gördü). And olsun ki, (Peyğəmbər) öz Rəbbinin ən böyük qüdrət nişanələrindən (möcüzələrindən) bir qismini (Beytul-məmuru, Sidrətül-müntəhanı, Cənnəti, Cəhənnəmi, Rəfrəfi, altı yüz qanadı olan Cəbrailin həqiqi surətini və.s) gördü.»***[1]

Quran bu ayələrdə daxili vəhy məsələsini və Quranın Mühəmmədin(s) xəyallarının məhsulu olduğu iddiasını sərt şəkildə tənqid edərək bu nəzəriyyənin tərəfdarlarını inadkar adlandırır. Quran bildirir ki, Peyğəmbərin(s) qəlbi gördüyünü yalan saymamış, nə də gözü həqiqətdən yayınmamışdır. Hər iki halda söhbət həqiqi mənada görməkdən gedir. Deməli, daxili vəhy və yaxud Quranın Mühəmmədin(s) xəyallarının məhsulu olması iddiası hələ o vaxt müşriklər tərəfindən də irəli sürülübmüş.

### *Daxili vəhy dəliliyin nişanəsidir*

Qüreyş müşrikləri Peyğəmbərə(s) nazil olan vəhyi başqa cür qələmə verib o həzrəti yalançı, sehrbaz, cadugar adlandırmaqla yanaşı onu dəli və kahin olmaqda da ittiham etməyə çalışırdılar. Onların fikrincə məcnun (dəli), cin toxunması nəticəsində ağlını itirmiş adama deyilirdi. Kahin isə cinlərdən biri ilə əlaqə yaradıb qeyb aləmindən xəbər verən adam idi. Deməli, kahin və ya dəli adamın dediyi sözlər onun öz sözləri deyil, heç özü də bilmədən cinin təlqin etdiyi sözlərdir.

[1] Nəcm-1-18

Cahiliyyət ərəbləri elmdən, qərblilərin diplomatik addımlarından uzaq olduqları üçün ürəklərində sözü açıq şəkildə deyirdilər. ***Onlar Peyğəmbərlərin(s) qarşısına dikilərək deyirdilər: «(Müşriklər Peyğəmbərə) belə dedilər: «Ey özünə Kitab nazil edilən kəs! Axı sən divanəsən!»***[1]

Tarix göstərir ki, bu cür böhtanlar təkcə Peyğəmbərə atılmamışdır. Ümumiyyətlə, hər bir dövrdə islahatçı insanları dəli, ağılsız adlandırmış və bu yolla camaatı onun sözünə qulaq asmaqdan yayındırmağa çalışmışlar.

***2-Qurana qarşı söz mübarizəsi***

Müşriklərin Peyğəmbərə(s) atdığı böhtanlar istənilən nəticəni vermədi. Çünki camaat Quranın qəribə füsunkarlığa, ecaza malik olduğunu öz gözləri ilə görürdü. Onlar bu vaxtadək belə şirin kəlam eşitməmişdilər.

Böhtanların nəticə vermədiyini görən müşriklər başqa yola əl atmaq qərarına gəldilər ki, bəlkə bu vasitə ilə İslamın inkişafının qarşısını ala bilərlər.

Nəzr ibn Haris Qüreyşin tədbirli, sayılıb-seçilən adamlarından idi. O, ömrünün yarısını Hirə və İraqda keçirmiş, İran şahları, Rüstəm Zal və İsfəndiyar kimi pəhləvanlar haqqında və iranlıların xeyirlə şər barəsindəki əqidələri barədə xeyli məlumatı var idi. Qurana qarşı söz mübarizəsi aparmaq məhz ona tapşırılır. Nəzr ibn Haris camaatın toplandığı yerlərdə iranlılar haqqında dastanlar danışmaqla insanların Qurana yönəlmiş diqqətini özünə cəlb etməli idi. O, həzrət Mühəmmədi(s) və Quran ayələrini gözdən salmaq məqsədilə tez-tez deyirdi: «Camaat, mənim dediklərimlə Mühəmmədin dediklərində nə fərq var ki? O, Allahın əzabına düçar olmuşların əhvalatını danışır, mən də İlahi nemətlərə qərq olanların məcərasını danışıram.»

Qüreyşin bu planı o qədər məntiqsiz idi ki, bir neçə gündən artıq davam etmədi. Hətta müşriklərin özü də onun sözlərini eşitməkdən bezib ətrafından dağılırlar. Bu hadisə ilə bağlı bir neçə ayə nazil olmuşdur ki, onlardan birini qeyd etməklə kifayətlənirik: ***«Onlar həmçinin: «Bu, qədimlərin əfsanələridir (yalan sözlərdir). O (Mühəmməd) onları (yəhudilərə) yazdırtmışdır, (əzbərlənməsi üçün) səhər-axşam***

---

[1] Hicr-6

***özünə oxunur»-dedilər. (Ya Rəsulum!) De: «Onu (Quranı) göylərin və yerin sirrini bilən (Allah) nazil etmişdir. Həqiqətən, O, (möminləri) bağışlayandır, rəhm edəndir!»***[1]

***Peyğəmbər(s) Qüreyş başçılarının iman gətirməsində israrlıdır***

Həzrət Mühəmməd(s) müşriklərin əksəriyyətinin qəbilə başçılarını təqlid edərək bütpərəst olduğunu çox yaxşı anlayırdı. Peyğəmbər(s) bilirdi, çoxunun bütpərəstlik əqidəsi elə də möhkəm deyil. Əgər qəbilə başçılarından bir-iki nəfəri yola gətirə bilərsə, onda bir çox problemlər öz həllini tapardı. Buna görə də o həzrət, Vəlid ibn Müğeyrənin iman gətirməsi üçün əlindən gələni edirdi. (Sonralar onun oğlu Xalid ibn Vəlid böyük İslam sərkərdələrindən biri olmuşdur) Vəlid Qüreyşin ən qocaman və nüfuzlu şəxslərindən biri kimi əsas söz sahiblərindən idi və bir çox mübahisələrə məhz onun müdaxiləsindən sonra son qoyulurdu. Bir gün Peyğəmbər(s) münasib fürsət tapıb onunla söhbətə başlayır. Elə bu vaxt gözləri tutulmuş İbn Ümmi Məktum həzrətin yanına gəlib Qurandan bir neçə ayə oxumasını xahiş edir. Vəziyyətin belə alınması üçün Peyğəmbər(s) çox təəssüflənir. Çünki ərəblərin bilicisi ilə söhbətləşmək üçün bir daha belə əlverişli fürsətin ələ düşəcəyi məlum deyildi. Buna görə də Peyğəmbər(s) qaşqabağını töküb İbn Ümmi Məktuma üz çevirir. Hadisədən xeyli müddət keçsə də Peyğəmbər(s) hələ də bu məsələ haqqında düşünürdü. Bununla bağlı Əbəsə surəsinin ilk on dörd ayəsi nazil olur:[2] ***«Qaşqabağını töküb üzünü çevirdi. Yanına korun gəlməsindən dolayı. Nə bilirsən, bəlkə də o təmizlənəcəkdir! Yaxud öyüd dinləyəcək və bu öyüd ona fayda verəcəkdir! Ehtiyac hiss etməyənə gəldikdə, sən üzünü ona tərəf çevirirsən. Onun təmizlənməsindən sənə nə?! Yüyürə-yüyürə gələn və qorxan kimsəyə gəldikdə isə, sən ondan üz çevirirsən! Xeyr! Həqiqətən, bu (ayələr) bir öyüd-nəsihətdir. Kim istəsə, ondan öyüd alar. (Bu Quran Allah dərgahında) çox möhtərəm (mötəbər) səhifələrdir.»***

Şiə alimləri bu məsələni əsassız hesab edərək onu Peyğəmbərin(s) gözəl əxlaqından uzaq sayırlar. Heç ayələrdə də üz turşudanın Peyğəm-

---

[1] Furqan-5-6

[2] Sireyi İbn Hişam, c-1, s-363

bər(s) olduğuna dəlalət edən bir sübut yoxdur. İmam Sadiqdən(ə) nəql edilmiş hədisdə bildirilir ki, ayələrdə söhbət Bəni-Ümməyədən olan bir şəxsdən gedir. Belə ki, o, İbn Ümmi Məktumun Peyğəmbərin(s) yanına gəldiyini görüb ondan üz çevirir. Sözügedən ayələr də məhz onun haqqında nazil olur.[1]

*3-Müşriklər Quranı dinləməyə qadağa qoyur*

Müşriklər İslamın yayılmasının qarşısını almaq məqsədilə bir-birinin ardınca müxtəlif planlara əl atsalar da heç bir nəticə əldə edə bilmirdilər. İndi onlar Quran dinləməyi qadağan etmək fikrində idilər. Buna görə də Məkkənin müxtəlif yerlərində öz adamlarını yerləşdirirlər ki, Allah evini ziyarətə gələnlər və eləcə də tacirlər heç bir vəchlə Mühəmmədlə(s) görüşməsin və Quranı dinləməsinlər. Hətta bu məsələ ilə bağlı carçı çıxıb elan da verir. Quran buna toxunaraq buyurur: ***«Kafir olanlar (öz dostlarına): «Bu Quranı dinləməyin, o oxunduqda (eşi-dilməsin deyə) səs-küy (şuluqluq) salın ki, bəlkə, (bununla Mühəmmədə) qalib gələsiniz!- dedilər.»***[2]

Peyğəmbərin(s) qəddar düşmənin ürəyinə qorxu salmış əsas silahı məhz Qurani-Kərim idi. Qüreyş başçıları öz gözləri ilə görürdülər ki, Peyğəmbərin ən qatı düşmənlərindən olan şəxslər ona istehza etmək məqsədilə yanına gedir, Qurandan bir neçə ayə eşidən kimi tamam dəyişib dərhal iman gətirirdilər. Bütün bunların qarşısını almaq məq-sədilə müşriklər Quran dinləməyə qadağa qoyurlar.

*Müşriklər qoyduğu qanunu pozurlar*

Camaata Quran dinləməyi qadağan edən və qanunu pozanları cinayətkar adlandıran müşriklər gizlicə özləri qoyduğu qanunu pozur-dular. Belə ki, bir gecə Əbu Süfyan, Əbu Cəhl və Əxnəs ibn Şüreyq bir-birindən xəbərsiz Peyğəmbərin(s) evinin yanına gəlib səhərədək həz-rətin namazda gözəl avazla oxuduğu Quran ayələrini dinləyirlər. Hava işıqlanana yaxın başqaları xəbər tutmasın deyə, hər üçü öz evinə qayıdır. Yolda bir-biri ilə rastlaşıb məqsədlərindən xəbər tutduqda hərə

---

[1] Məcməül-bəyan, c-1, s-437; Əl-Mizan, c-20, Əbəsə surəsinin təfsiri
[2] Fussilət-26

digərini danlayıb deyir ki, bu işimizin üstü açılsa rüsvay olarıq. Səhərisi gün yenə də həmin hadisə təkrarlanır. Onlar bir-birinə deyirlər ki, gəlin bir daha bu hərəkətə yol verməyək. Sanki daxildən bir qüvvə onları Quranı dinləməyə çəkib aparırdı. Eşitdiyi ayələrdən qorxu yarandıqda deyirdilər ki, Mühəmmədin dedikləri düz çıxarsa, onda vay bizim halımıza! Səhərə yaxın evə dönərkən hər üçü yenə rastlaşıb söz verirlər ki, bir daha heç vaxt belə iş görməyəcəklər.[1]

***4- İman gətirmək istəyənlərə mane olmaq***

Müşriklər Quranı dinləməyi qadağan etməklə yanaşı, müsəlman olmaq istəyənlərə də mane olurdular. Belə ki, iman gətirməyə meylli olub yaxından-uzaqdan Məkkəyə gələnlərlə şəhərə daxil olmazdan qabaq görüşüb-danışır və müxtəlif bəhanələrlə onların müsəlman olmalarının qarşısını alırdılar. Aşağıda iki nümunəni qeyd edirik:

1) Əşa cahiliyyət dövrünün ən məşhur şairlərindən idi. Onun şerləri bütün məclislərin bəzəyinə çevrilmişdi. Ömrünün axır vaxtlarında İslam haqqında cüzi məlumatlar eşitmişdi. Yaşadığı yer Məkkədən aralı olduğu üçün peyğəmbərliyin səs-sədası oralarda elə də yaxşı yayılmamışdı. Buna baxmayaraq eşitdiyi cüzi məlumat onda bir dəyişiklik yaratmışdı və bununla əlaqədar olaraq Peyğəmbərin(s) şəninə mədhiyyə də yazmışdı. O, yazdığı mədhiyyəni Peyğəmbərin(s) hüzurunda oxumaq niyyətində idi və bunu o həzrət üçün ən böyük hədiyyə hesab edirdi. Cəmi 24 beyt olmasına rəğmən, onun şeri o vaxt Peyğəmbərin(s) şəninə yazılmış ən gözəl şerlərdən sayılır.[2]

Məkkəyə doğru gələn Əşa yolda müşriklərlə rastlaşır. Müşriklər Əşanın qadın və şərab düşkünü olduğunu çox yaxşı bilirdilər. Buna görə də onun zəif damarını tutub deyirlər ki, Əbu Bəsir, Mühəmmədin dini sənin istəklərinlə uyğun gəlmir. Əşa səbəbini soruşduqda bildirirlər ki, Mühəmmədin dinində zina haram sayılır. Əşa deyir: «Mənim artıq bu işə ehtiyacım yoxdur və ona iman gətirməyimə mane ola bilməz.» Müşriklər deyirlər: «O, şərabı da haram bilir.» Bunu eşidən Əşa bir qədər narahat olub deyir: «Mən hələ şərabdan doymamışam. Elə isə

---

[1] Sireyi İbn Hişam, c-1, s-337

[2] Divani Əşa, s-101-103

indi qayıdıb bir il də doyunca şərab içim. Bir ildən sonra gəlib iman gətirərəm.» Geri dönən Əşa elə həmin il dünyasını dəyişir.[1]

Tüfeyl ibn Əmr öz qəbiləsi arasında ad çıxarmış şair idi. Onun kimi adamın müsəlman olmasını Qüreyş müşrikləri qəbul edə bilməzdilər. O, Məkkəyə gəldikdə müşriklər onu əhatəyə alıb deyirlər: «Kəbə kənarında namaz qılan bu kişi (Mühəmməd) yeni din gətirməklə və öz sehirli sözləri ilə aramızda təfriqə salmışdır. Biz qorxuruq ki, sizin də qəbilədə pərakəndəlik yaranar. Yaxşısı budur onunla heç danışmayasan.» Bu sözlərin təsiri altına düşən Tüfeyl Peyğəmbərlə(s) danışmamaq qərarına gəlir. Onun sözlərini eşitməsin deyə, təvaf zamanı qulaqlarına pambıq tıxayır. Bir gün sübh tezdən yenə də qulaqlarına pambıq tıxayıb Məscidül-hərama gəlir. Necə olursa qulağına gözəl, şirin bir səs gəlir. Bu səsdən zövq alan Tüfeyl öz-özünə deyir ki, anan matəmində otursun axı sən söz ustasısan! Onun dediklərini eşidəndə nə olar ki?! Bir qədər dinlə, yaxşı olarsa qəbul, pis olarsa rədd et. Peyğəmbərlə açıq şəkildə təmasa girməsin deyə, bir qədər dayanıb onun məsciddən çıxmasını gözləyir. Peyğəmbər(s) məsciddən çıxıb evə getdikdə Tüfeyl də onun ardınca düşür. Həzrət evinə daxil olduqda o da icazə alıb onunla birlikdə evə girir.

Baş verənləri olduğu kimi Peyğəmbərə danışıb deyir: «Qüreyş müşrikləri sizin barənizdə cürbəcür sözlər deyirlər. Mənim sizinlə görüşmək fikrim yox idi, lakin Quran ayələrinin şirinliyi məni sənin evinə çəkib gətirdi. İndi sizdən istəyim odur ki, öz dinini mənim üçün açıqlayıb bir qədər Quran oxuyasan. Peyğəmbər(s) dinini ona açıqlayıb Qurandan bir neçə ayə oxuduqdan sonra Tüfeyl deyir: «Allaha and olsun ki, bu vaxtadək belə gözəl sözlər eşitməmiş, bu cür mülayim din görməmişəm.» Daha sonra Peyğəmbərə(s) deyir: «Mən öz qəbiləm arasında sayılıb-seçilən adamam, sizin dininizi yaymağa çalışacağam.»

İbn Hişam yazır: «Xeybər döyüşünə qədər Tüfeyl öz qəbiləsində qalıb İslam dininin təbliği ilə məşğul olur. Xeybər döyüşündə yetmiş-səksən müsəlman ailə ilə birlikdə gəlib Peyğəmbərə(s) qoşulur. Peyğəmbərin(s) rəftarından sonra, Raşidi xəlifələri dövründə Yəmamə döyüşündə şəhid olur.»[2]

---

[1] Sireyi İbn Hişam, c-1, s-386-388
[2] Sireyi İbn Hişam, c-1, s-410

## QƏRANİQ ƏFSANƏSİ

Yəhudilər xüsusilə də onların başçıları İslamın bir nömrəli düşməni olmuşlar. Onların üzdə müsəlman olmuş Kəbi Əhbar kimi nümayəndələri həmişə peyğəmbərlərin dilindən yalanlar uydurmaqla həqiqəti təhrif etməyə çalışmışlar. Bir sıra müsəlman müəlliflər də müsəlmanların hamısına eyni gözlə yanaşaraq onların qondardıqlarını da hədis və tarix sırasında qeyd etmişlər. İndi isə müsəlman tədqiqatçıların səyləri nəticəsində tarixi həqiqətləri uydurma və əfsanələrdən ayırmaq üçün müəyyən metodlar təyin olunduğuna görə, dindar bir müəllifə istənilən mənbədə gördüyü məlumatı araşdırmadan qələmə almaq yaraşmaz.

***Qəraniq əfsanəsinin mahiyyəti***

Bəzi mənbələrdə göstərilir ki, Qüreyşin Vəlid, As, Əsvəd, Üməyyə kimi ağsaqqalları Peyğəmbərlə(s) görüşüb yaranmış ixtilafı aradan qaldırmaq üçün deyirlər ki, gəlin biz də sizin Allahınızı qəbul edək, siz də bizim tanrıları qəbul edin. Onlara cavab verməkdən ötrü Kafirun surəsi nazil olur və həzrət müşriklərə belə buyurur: ***«Mən sizin ibadət etdiklərinizə (bütlərə), ibadət etmərəm! Siz də mənim ibadət etdiyimə (Allaha) ibadət etməzsiniz!»*** Bununla belə Peyğəmbər(s) müşriklərlə ortaq məxrəcə gəlmək istəyir və bunun üçün İlahi vəhy nazil olmasını arzulayırdı. Bir gün Kəbə kənarında gözəl avazla Nəcm surəsini oxumağa başlayır. ***«(Ey müşriklər!) Bir deyin görək (sizin ibadət etdiyiniz) Lat və Üzza nəyə qadirdilər? Digər üçüncü (büt) olan Mənat da həmçinin?!»***[1] ayələrinə yetişdikdə birdən şeytan o həzrətin dilinə aşağıdakı iki cümləni gətirir: «Onlar uca qəraniqlərdir. Onların şəfaət edəcəyi gözlənilir.» Daha sonra Nəcm surəsinin ayələrini oxumağa davam edir. Surənin sonunda səcdə ayəsini oxuyub həm Peyğəmbər, həm də bütün iştirakçılar-müsəlmanlar və müşriklər səcdəyə gedirlər.

[1] Nəcm surəsi, 19-20

Yalnız Vəlid qocalığı nəticəsində səcdə edə bilmir. Bundan sonra məsciddə böyük sevinc hiss olunur. Müşriklər deyirlər ki, Mühəmməd tanrılarımızı yaxşılıqla yad etdi.

Peyğəmbərin(s) müşriklərlə güya ortaq məxrəcə gəldiyi xəbəri Həbəşistanda mühacirət həyatı sürən müsəlmanlara yetişdikdə bəziləri yenidən Məkkəyə qayıdır. Lakin vəziyyətin heç də deyildiyi kimi olmadığının şahidi olurlar. Vəhy mələyi Peyğəmbərə(s) nazil olaraq yenidən müşriklərlə mübarizə aparmasını və qeyd edilən iki cümlənin onun sözləri deyil, şeytanın sözləri olduğunu çatdırır. Bununla əlaqədar olaraq Həcc surəsinin 52-54-cü ayələri nazil olur.

Qəraniq əfsanəsini Təbəri[1] və bəzi şərqşünaslar qeyd etmişlər.

***Qəraniq əfsanəsi haqqında sadə araşdırma***

Həzrət Mühəmmədin(s) hətta peyğəmbər olmadığını iddia etsək də onun ağıllı, müdrik, dahi bir şəxsiyyət olduğu inkaredilməzdir. Hansı ağıllı adam belə işə əl atar? Tərəfdarlarının get-gedə artdığını, düşmənlərinin isə günbəgün zəiflədiyini görən müdrik bir şəxs bu hərəkətə yol verməklə özünü gözdən salarmı?

Allah dininə xatir Qüreyşin bütün cəlbedici təkliflərindən imtina edən şəxs bütpərəstliyin möhkəmlənməsinə xidmət edərmi? Bunu nəinki peyğəmbər, heç adi islahatçı barədə təsəvvür etmək mümkün deyil.

***Bu əfsanəyə məntiqi yanaşma***

1) Allah tərəfindən göndərilmiş peyğəmbərlər əqlin hökmünə əsasən ismət qüvvəsi ilə bütün səhvlərdən qorunurlar. Əgər dini-əqidəvi məsələlərdə onlar da səhvə yol versələr, onda camaatın onlara inamı qalmaz. Deməli, belə əfsanələri məntiqlə araşdırıb tarixi həqiqətləri üzə çıxarmalıyıq. Mühəmmədin(s) məsum olması onun barəsində belə hadisənin yolverilməz olduğunu göstərir.

2) Bu uydurmanın kökündə belə bir iddia dayanır ki, güya Peyğəmbər(s) Allahın onun boynuna qoyduğu məsuliyyətdən yorulmuşdu. Müşriklərin azğınlığına dözə bilməyən Peyğəmbər(s) onları islah etmək üçün bir çarə axtarırdı.

---

[1] Tarixi Təbəri, c-2, s-75-76

Məntiq belə hökm edir ki, peyğəmbərlər başqalarından daha səbrli olmalı, onların çətinliklər qarşısındakı dözümü zərbül-məsələ çevrilməlidir. Əgər bu əfsanə doğrudursa, bu o deməkdir ki, həzrət Mühəmməd(s) qərarı əldən vermiş və yorulmuşdur. Bu isə məntiqin peyğəmbərlər haqqında verdiyi hökmlə, eləcə də Mühəmmədin(s) keçmiş və gələcək həyat təcrübəsi ilə qətiyyən uyğun gəlmir.

Bu əfsanəni uyduranlar Quranın onun yalan olmasına şəhadət verməsindən xəbərsiz olublar. Axı Allah-taala Peyğəmbərə müjdə vermişdi ki, batil, yalan heç vaxt Qurana yol tapa bilməz: ***«Nə öncə, nə də sonra batil ona yol tapa bilməz (Şeytan onun bir sözünü, bir hərfini belə dəyişə bilməz).»***[1] Digər bir ayədə deyilir: ***«Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu (hər cür təhrifdən, artırıb əskiltmədən) qoruyub-saxlayacağıq!»***[2] Allah-taala Peyğəmbərə(s) belə bir vəd verdiyi halda şeytan o həzrətə necə qalib gələ bilir və Allahın kitabına necə müdaxilə etməyi bacarır? Bütpərəstliklə mübarizə aparan Quran necə olur ki, birdən-birə bütpərəstliyi dəstəkləməyə başlayır?

Daha bir maraqlı məqam ondan ibarətdir ki, dastanı uyduranlar münasib olmayan yerdə tövhidə qarşı addım atıb. Axı bu iki cümlədən əvvəl Quran həmin fikri təkzib edir. Quran buyurur: ***«O, kefi istəyəni (havadan) danışmır. Bu, ancaq (Allah dərgahından) nazil olan bir vəhydir.»*** Bunu deyən Allah necə icazə verir ki, şeytan Onun Peyğəmbərinə nüfuz edə bilsin?

Bu məntiqi sübutlar həzrət Mühəmmədin(s) peyğəmbərliyini qəbul edən şəxs üçün yetərli ola bilər. Ancaq onun peyğəmbərliyini qəbul etməyən və onu gözdən salmaq üçün belə əfsanələr uyduran şəxs üçün bu sübutlar yetərli deyil və onun üçün sübutlar təqdim edilməlidir.

### *Əfsanənin digər yolla təkzib edilməsi*

Həzrət Mühəmməd(s) Kəbə kənarında Nəcm surəsini oxuyarkən başda Vəlid olmaqla əksəriyyəti söz ustadları olan Qüreyş ağsaqqalları ayələri sonadək dinləyib axırda da səcdə edirlər. Fəsahət və bəlağətdə qabaqcıllardan olan bu söz dahiləri necə olur ki, bütləri tərifləyən ikicə

[1] Fussilət-42

[2] Hicr-9

cümlə ilə kifayətlənirlər? Halbuki həmin iki cümlədən qabaq da, sonra da bütlər tənqid atəşinə tutulur. Bu ağ yalanı uyduran şəxs yoxsa onları axmaqmı zənn edib? Ana dilləri ərəb dili olan və sözü göydə tutmağı bacaran bu söz ustadları qeyd edilmiş ikicə cümlə ilə necə kifayətlənə bilərdilər? Əvvəli də, axırı da bütlərə tənqid yağdıran, sadəcə arada iki cümlə ilə bütləri mədh edən bir surədəki ayələri heç adi insanlar qəbul etməzdilər, o ki, qalsın böyük söz ustadlarına.

İndi gəlin həmin ayələri olduğu kimi yazıb aradakı iki cümlənin yerinə nöqtələr qoyaq, görün doğrudan da bu iki cümləni başdan-ayağa bütləri tənqid edən cümlələrin arasında yerləşdirmək olar, ya yox? ***«(Ey müşriklər!) Bir deyin görək Lat və Üzza nəyə qadirdirlər? Digər üçüncü (büt) olan Mənat da həmçinin?!... Məgər oğlanlar sizin, (bəyənmədiyiniz) qızlar isə Onundurmu (Allahındırmı)?! Elə isə bu ədalətsiz bölgüdür! Onlar (bütlər) sizin və atalarınızın (özlərindən uydurub) qoyduqları adlardan başqa heç bir şey deyildir! (Onların yalnız quru adı var, heç bir şeyə qadir deyillər). Allah onlara (ibadət edilməsinə) dair heç bir dəlil endirməmişdir.»*** Heç adi insan da on ildən artıq bütlərə qarşı mübarizə aparan Peyğəmbər kimi bir düşmənin bu dedikləri ilə razılaşa bilməz.

***Əfsanənin yalan olması filoloji nöqteyi-nəzərdən***

Misirin böyük alimlərindən olan Əbduh yazır: «Heç bir ərəb şerində, danışığında qəraniq sözü tanrılar haqqında işlədilməmişdir. Qəraniq «qurnuq» və ya «qirniq» sözlərinin cəmi kimi müvafiq olaraq ördək və yaraşıqlı gənc mənasını bildirir. Bu mənalardan heç biri tanrılar sözü ilə uyğun gəlmir.

Şərqşünas Ser Vilyam Mayer Qəraniq əfsanəsini tarixi həqiqət hesab edərək yazır: «Həbəşistana hicrət etmiş müsəlmanlar Nəcaşinin ölkəsində çox rahat yaşayırdılar. Hicrətdən üç ay sonra Mühəmmədin Qüreyşlə münasibətlərinin düzəldiyini eşidirlər. Belə olmasaydı, onlar yenidən Məkkəyə qayıtmazdılar. Deməli, Mühəmməd münasibətləri bərpa etmək üçün hansısa vasitəyə əl atıbmış ki, bu da elə Qəraniq əhvalatı olmuşdur.»

Bu şərqşünasdan soruşmaq lazımdır ki, hansı əsasa görə deyirsiniz ki, müsəlmanların hicrətdən qayıtması bu xəbərin düz olduğuna dəlalət

edir? Bəlkə kimlərsə bu şayiəni yaymaqla onları yenidən Məkkəyə qaytarmaq istəmişdir. Yayılan şayiyəyə bəzi mühacirlər inanaraq geri dönmüş, bəziləri isə mühacir həyatını davam etdirmişdir.

İkincisi, tutaq ki, Peyğəmbər(s) həqiqətən də Qüreyşlə sülh fikrində olmuşdur. Məgər bu o deməkdir ki, Peyğəmbər mütləq bu iki cümləni işlətmək məcburiyyətində qalmışdır? Müşriklərə onların əqidəsinə dair heç nə danışmayacağı haqda vəd verməklə də sülh yaratmaq olardı. Deməli, nə bəzi mühacirlərin geri qayıtması, nə də Peyğəmbərin sülh istəyi bu iki cümlənin deyildiyinə dəlalət edə bilməz.

Çox təəccüblüdür ki, bəzi adamlar Həcc surəsinin 52-54-cü ayələrinin məhz Qəraniq əfsanəsi ilə əlaqədar nazil olduğunu düşünür. Bu ayələr bəzi şərqşünas və tarixi təhrif edənlərin əlində bəhanəyə çevrildiyinə görə həmin ayələri qeyd edib orada məqsədin başqa şey olduğunu çatdırmağa çalışacağıq. Ayələrdə deyilir: ***«(Ya Rəsulum!) Biz səndən əvvəl də elə bir rəsul, elə bir nəbi (peyğəmbər) göndərmədik ki, o, (hər hansı bir şeyi) arzu etdikdə şeytan onun arzusuna (vəsvəsə yolu ilə) bir xələl qatmasın! Lakin Allah şeytanın vəsvəsəsini batil (yox) edər. Sonra isə Allah Öz ayələrini möhkəmlədər. Allah (hər şeyi) biləndir, hikmət sahibidir! (Allah ona görə belə edir ki,) şeytanın vəsvəsəsini qəlblərində mərəz (nifaq, şəkk mərəzi) və ürəkləri qatı (sərt) olanlar (müşriklər) üçün bir sınaq vasitəsi etsin. Şübhəsiz ki, zalımlar haqdan uzaq bir ixtilafdadırlar. Və elm verilən kəslər də bilsinlər ki, haqq (Quran) sənin Rəbbindəndir. Artıq ona inansınlar və ürəkləri ondan arxayın olsun. Şübhəsiz ki, Allah iman gətirənləri doğru yola yönəldər!»***

Birinci ayədə üç məsələyə toxunulur:

1) Peyğəmbərlərin hər hansı bir şeyi arzuladığı göstərilir.

2) Şeytanın onların arzularına xələl qatması bildirilir.

3) Allahın şeytanın vəsvəsələrini puç etdiyi qeyd olunur.

Bu üç məsələyə aydınlıq gəldikdən sonra ayələrin məzmunu da məlum olacaq.

***Peyğəmbərlərin hər hansı şeyi arzulamasında məqsəd nədir?***

Peyğəmbərlər həmişə gətirdikləri dinin yayılmasını arzulamış və bu məqsəd uğrunda planlar hazırlamış, qarşıya çıxan maneə və çətinliklərə sinə gərmişlər. Həzrət Mühəmməd(s) də bundan istisna edilmir. Quran bu məsələyə «Səndən əvvəl də elə bir rəsul, elə bir peyğəmbər göndərmədik ki, o, (hər hansı bir şeyi) arzu etdikdə...» cümləsi ilə işarə edir.

***2-Şeytanın peyğəmbərlərin arzularına xələl qatması dedikdə nə başa düşülür?***

Şeytanın bu arzulara müdaxilə etməsi iki yolla mümkündür:

Peyğəmbərlərin istəklərində şəkk-şübhə yaratmaq. Belə ki, şeytan peyğəmbərlərin öz məqsədlərinə çatması yolunda maneələr olduğunu göstərməklə onları bu məqsədə çatmaqda ümidsizləşdirməyə çalışır.

Peyğəmbərlər öz istəklərinə çatmaq üçün müəyyən şərait və müqəddimələr hazırladıqda şeytan və şeytansifətlər insanları onlara qarşı qaldırmaq və yollarında maneələr yaratmaqla peyğəmbərləri öz məqsədlərinə çatmaqdan saxlamağa çalışırlar.

Birinci ehtimal nə digər ayələrlə, nə də haqqında danışdığımız ayələrlə qətiyyən uyğun gəlmir. Digər ayələrlə ona görə uyğun gəlmir ki, Quran şeytanın Allahın əsl bəndələrinə hökm edə bilmədiyini açıq şəkildə bildirir. Məsələn, Hicr surəsinin 15 və İsra surəsinin 65-ci ayələrində deyilir: ***«Doğrusu, Mənim (mömin) bəndələrim üzərində heç bir hökmün ola bilməz.»*** Həmçinin Nəhl surəsinin 99-cu ayəsində göstərilir: ***«Həqiqətən iman gətirib öz Rəbbinə təvəkkül edənlərin üzərində şeytanın heç bir hökmü yoxdur!»***

Şeytanın Allah övliyalarına (möminlərə) nüfuz edə bilməsini birmənalı şəkildə inkar edən bu kimi ayələr ona dəlalət edir ki, deməli, şeytanın peyğəmbərlərin istəklərinə müdaxilə etməsində məqsəd birinci ehtimal (yəni, maneələr qarşısında onların ruhdan düşməsi) ola bilməz.

Birinci ehtimalın haqqında danışdığımız ayələrlə uyğun gəlməməsi isə onunla izah edilir ki, sözügedən ikinci və üçüncü ayə (Həcc-53-54) bu müdaxilənin səbəbini belə açıqlayır: «Biz bu yolla iki dəstəni sınayırıq. Biri qəlblərində nifaq mərəzi olanlar, digəri də Allaha və ayələrinə iman gətirib elmi olan şəxslərdir.» Yəni, birinci dəstədə şeytanın müdaxilə etməsi onları peyğəmbərlərə qarşı təhrik etməklə baş tutur.

İkinci dəstədə isə vəziyyət tam əksinədir və şeytanın vəsvəsələri iman gətirənlərin imanını daha da möhkəmlədir.

Şeytanın peyğəmbərlərin arzularında müdaxilə etməsinin bu iki müxtəlif təsirindən məlum olur ki, ayədə şeytan peyğəmbərlərin arzularına müdaxilə edib xələl qatır dedikdə, ikinci ehtimal (yəni, insanları peyğəmbərlərə qarşı təhrik etmək) nəzərdə tutulur, nəinki şeytan peyğəmbərlərin özünə nüfuz edib onları ruhdan salır.

***3-Allahın şeytanın vəsvəsələrini puç etməsi deyildikdə nə başa düşülür?***

Allah-taala şeytanın şərrini peyğəmbərlərdən dəf etməklə onun vəsvəsələrini puç edir və bu yolla möminlərə başa salır ki, bu, pis insanları bir növ sınamaqdır. Bu haqda Quran buyurur: ***«Şübhəsiz ki, Biz Öz peyğəmbərlərimizə və iman gətirənlərə həm dünyada, həm də şahidlərin şəhadət verəcəyi gündə (qiyamət günündə) yardım edəcəyik!»***[1]

Bir sözlə, Allah-taala bu ayələrdə peyğəmbərlər arasında İlahi ənənədən xəbər verir. Bu ənənə peyğəmbərlərin camaatın hidayət edilməsi istəyidir. Lakin bu istəklər şeytan və şeytansifətlərin maneələri ilə üzləşir. Bu zaman Allah Öz qeybi yardımları ilə həmin maneələri dəf edir. Bu, bütün dövrlərdə davam etmiş İlahi ənənə olmuşdur. Həzrət Nuh(ə), İbrahim(ə), Musa(ə), İsa(ə) kimi peyğəmbərlərin həyatında baş verənlər buna şahiddir.

[1] Qafir-51

# İQTİSADİ BLOKADA

Cəmiyyətdəki azlığı dağıtmaq üçün əksəriyyətin birləşməsi mübarizə üçün kifayət edir. Müsbət sahədə mübarizə aparmaq üçün müxtəlif vasitələr olmalıdır. Zəmanənin müasir silahı olmalı, maddi və can xəsarətləri olmalıdır ki, yalnız bundan sonra məqsədə çatmaq mümkündür. Məlum məsələdir ki, mübarizə aparmaq bir çox problemlərlə müşayiət olunur. Ağıllı rəhbər bıçaq sümüyə dirənməyənədək silahlı mübarizəyə başlamır, ən son anda bu mübarizəyə əl atılır.

Mənfi sahədəki mübarizədə bunların heç birinə ehtiyac yoxdur. Əksəriyyətin birləşməsi nəticəsində belə mübarizə aparmaq mümkündür. Hamı razılığa gəldikdə azlıq təşkil edən dəstəyə qarşı istənilən addımı atmaq olar: Onlarla alış-veriş etməmək, onlardan qız alıb qız verməmək, ictimai məsələlərdə onlarla məsləhətləşməmək və s. Belə olduqda bu genişlikdə dünya onlara dar gələcək. Bu zaman həmin dəstə ya mübarizədən əl çəkib yarı yoldan qayıdacaq, ya da sonadək mübarizəsini davam etdirəcək. Əqidə uğrunda deyil, maddi məqsəd uğrunda mübarizə aparanlar, adətən çətinliklərlə rastlaşdıqda yarı yolda mübarizələrini dayandırır, əksəriyyətin fikrinə tabe olurlar. Mübarizələrinin kökündə əqidə, iman olanlar isə nə qədər təziqlərə məruz qalsalar da öz məqsədindən dönmür, sonadək vuruşurlar. Çoxluq qarşısında azlığın mübarizə aparması üçün ən böyük stimul məhz əqidə, inamdır. Belə olan halda onlar hətta son damla qanlarına qədər mübarizəni davam etdirəcəklər.

***Qüreyş müşriklərinin bəyanatı***

Qüreyş müşrikləri İslam dininin sürətlə inkişaf etməsindən çox narahat idilər və bunun qarşısını almaq üçün çıxış yolu axtarırdılar. Həmzə kimi cəngavərlərin iman gətirməsi Qüreyşin qəlbitəmiz gənclərinin İslama meyl etməsi və Həbəşistana hicrət etmiş müsəlmanların azad yaşamaları onların narahatlığını daha da artırırdı. Bu vaxtadək

gördüyü tədbirlər bir nəticə vermədiyindən, onlar müsəlmanları iqtisadi blokadaya almaqla İslamın yayılmasının qarşısını almaq qərarına gəlirlər. Bu məqsədlə Qüreyş ağsaqqalları Mənsur ibn Əkrəmənin katibliyi ilə bir bəyanat imzalayıb Kəbədən asır və ölən günlərinə qədər ona əməl edəcəklərinə dair and içirlər. Bəyanatda aşağıdakı bəndlər əks olunmuşdur:

1) Mühəmmədin tərəfdarları ilə bütün alış-veriş qadağandır.
2) Onlarla heç bir şəkildə ünsiyyət qurulmamalıdır.
3) Müsəlmanlardan qız alıb onlara qız vermək qəti qadağandır.
4) Bütün hallarda Mühəmmədin müxalifləri dəstəklənməlidir.

Mütim ibn Ədiyy istisna olmaqla bütün qüreyşlilər bəyanatı imzalayır. Peyğəmbərin(s) yeganə hamisi Əbutalib, Bəni-Haşim və Bəni-Əbdülmüttəlibi bir araya yığıb Peyğəmbəri(s) müdafiə etmələrini və bütün qohum əqrəbanın Məkkə kənarında yerləşən və Əbutalib dərəsi kimi tanınan dərəyə köçməsini tapşırır. Orada bir neçə kiçik ev və kölgəliklər var idi. Qüreyşin qəfil hücumlarının qarşısını almaq məqsədilə dərənin müxtəlif yerlərində keşikçilər yerləşdirilir.[1]

Mühasirə üç il davam edir. Bu müddət ərzində müsəlmanlar çox əziyyət çəkməli olurlar. Bəni-Haşim körpələrinin naləsi müşriklərin qulağına çatsa da elə bir nəticə vermirdi. Kişilər gündə bir xurma yeməklə kifayətlənirdilər. Bəzən bir xurmanı iki nəfər də bölürdü. Yalnız haram aylarda (bu vaxt bütün Ərəbistan yarımadası əmin-amanlıqda olurdu) müsəlmanlar dərədən çıxa bilirdilər. Peyğəmbər(s) də ancaq bu vaxtlar İslamın təbliği ilə məşğul ola bilirdi. Haram aylarda da müşriklər onları rahat buraxmırdılar. Belə ki, müsəlmanların nəsə almaq istədiyini gördükdə dərhal özlərini ora yetirib satılan mala daha yüksək qiymət təklif etməklə qiymətləri süni şəkildə bahalaşdırır və müsəlmanların alıcılıq qabiliyyətini sıfır səviyyəsinə endirirdilər. Bu işdə Əbu Ləhəb xüsusi fəallıq göstərirdi. Bazara gəlib qışqırırdı ki, camaat, qiymətləri qaldırın, qoy Mühəmmədin tərəfdarları heç nə ala bilməsinlər. Bu səbəbdən qiymətlər olduqca bahalaşmışdı.

[1] Sireyi İbn Hişam, c-1, s-350; Tarixi Təbəri, c-2, s-78

***Bəni-Haşimin Əbutalib dərəsindəki acınacaqlı vəziyyəti***

Dərədə güclü aclıq baş vermişdi. Bu barədə Səd ibn Əbu Vəqqas deyir: «Bir gecə dərədən kənara çıxdım. Aclıqdan demək olar ki, taqətim qalmamışdı. Birdən yerdə qurumuş dəvə dərisi gözümə sataşdı. Onu götürüb yudum, ütüb döydükdən sonra azacıq su ilə xəmir yoğurdum. Üç gün onun vasitəsilə dolandım.

Qüreyş nəzarətçiləri bütün yol boyu güdürdülər ki, kimsə dərəyə ərzaq aparmasın. Bununla belə Xədicənin(s.ə) qardaşı oğlu Həkim ibn Hizam ara-sıra müsəlmanlar üçün buğda və xurma gətirirdi. Buna görə o bəzən danlanırdı. Bir gün ərzaq apardığını görən Əbu Cəhl narahat olur. Həkimi Qüreyş ağsaqqallarının yanına aparıb rüsvay edəcəyini bildirir. Aralarındakı mübahisə qızışdıqda İslam düşmənlərindən olmasına rəğmən Əbül-Buxturi Əbu Cəhli danlayaraq deyir: «O, öz bibisi üçün ərzaq aparır, ona mane olmağa ixtiyarın yoxdur.» Bununla kifayətlənməyib hətta Əbu Cəhlə bir-iki ilişdirir də.

Qüreyş müşriklərinin bu təzyiqi müsəlmanları hövsələdən çıxarmır. Axırda bu ağır vəziyyətə ürəyi acıyan bəzi müşriklər bəyannaməni imzaladığına peşman olub çıxış yolu haqda fikirləşir. Bir gün Hişam ibn Ömər Əbdülmüttəlibin qız nəvəsi olan Züheyr ibn Əbu Üməyyənin yanına gəlib deyir: «Sən ləziz yeməklər, gözəl paltarlar geydiyin halda qohumlarının ac, üryan qalmasına necə dözürsən?! Birdən Əbu Cəhlin qohumlarına qarşı belə bir tədbir görmək istəsəydin, o, heç vaxt buna razı olmazdı.»

Züheyr deyir ki, axı mən təkbaşına nə edə bilərəm? Kimsə bu işdə məni dəstəkləyərsə, mən imzalanmış bəyanatı cırmağa hazıram. Hişam deyir ki, mən də səni dəstəkləyirəm. Züheyr deyir ki, üçüncü bir adam da tap! Hişam qalxıb Mütim ibn Ədinin yanına gələrək deyir: «Mən inanmıram ki, sənin də qohum olduğun Əbdmənaf övladlarının (Bəni-Haşim) acından ölməsinə razı olasan.» Mütim deyir: «Əlbəttə ki, razı deyiləm, ancaq mənim təkbaşına əlimdən nə gələ bilər? Bu, tək adamın işi deyil.» Hişam deyir: «Bu işdə səni daha iki nəfər dəstəkləyir, biri mənəm, digəri də Züheyr.» Mütim bir neçə nəfərin də lazım olduğunu bildirir. Buna görə də Hişam Mütimlə danışdığı kimi Əbül-Buxturi və Zəmə ilə də söhbət edib belə qərara gəlirlər ki, səhər tezdən hamı məsciddə olsun.

Səhərisi gün Məscidül-həramda Züheyr və sirdaşalrının da iştirakı ilə böyük bir məclis qurulur. Sözə başlayan Züheyr deyir: «Bu gün Qüreyş bu rüsvayçılığı təmizləməlidir. Haqsızcasına imzalanmış bəyanat cırılıb atılmalıdır. Bəni-Haşim övladlarının ağır vəziyyəti hamını narahat edir.» Bunu eşidən Əbu Cəhl: «Bu iş qeyri-mümkündür»- deyə etirazını bildirir. Züheyri dəstəkləyən Zəmə də deyir ki, bəyanat mütləq cırılmalıdır. Biz heç əvvəldən də buna razı deyildik. Bəyanatın cırılmasını istəyən bir neçə şəxs də Züheyrə dəstək çıxdı. Əbu Cəhl məsələnin ciddi olduğunu və etirazçıların qabaqcadan əlbir olduğunu görüb susmaq məcburiyyətində qalır. Mütim fürsətdən istifadə edib bəyanatı cırmaq üçün getdikdə görür ki, başlanğıcdakı «bismikəllahummə» (Allahın adı ilə) ifadəsi istisna olmaqla bir qarışqa bütün bəyanatı yeyib.[1]

Baş verənləri yaxından izləyən Əbutalib məclis sona çatmasını gözləyirdi. Məclis başa çatdıqdan sonra bütün olanları Peyğəmbərə(s) danışır. Axırda Əbutalibin məsləhəti ilə müsəlmanlar dərədən ev-eşiklərinə qayıdırlar.

Bəzi mənbələrdə yazılmışdır: «Bu mühasirə ərzində Peyğəmbər(s), Əbutalib və Xədicə bütün əllərində olanları xərcləyirlər. Axırda vəhy mələyi nazil olub Qüreyşin imzaladığı bəyanatın bir qarışqa tərəfindən yeyildiyini, yalnız «bismikəllahummə» ifadəsinin qaldığını bildirir. Peyğəmbər(s) Əbutalibi hadisədən xəbərdar edir. Bir neçə nəfərin müşayiəti ilə hər ikisi dərədən gəlib Məscidül-həramda əyləşir. Bu zaman müşriklər Əbutalibi dövrəyə alıb deyirlər: «Bizimlə qohumluğunu yada salıb qardaşın oğlunu himayə etməkdən imtina etməyin vaxtı çatmayıbmı?» Əbutalib onların cavabında deyir: «Bəyanatı gətirin!» Möhürü hələ də üzərində olan bəyanatı gətirdikdə Əbutalib deyir: «Bu, hamının imzaladığı bəyanatdırmı?» Müşriklər: «Bəli»-deyə cavab verdilər.

Əbutalib: Bəyanata əl vuran olubmu?

Müşriklər: Xeyr.

Əbutalib: Allah-taala qardaşım oğluna bir məlumat vermişdir. Onun dediyi düz çıxarsa, işinizdən əl çəkərsinizmi? (Bəyanatı qüvvədən salarsınızmı?)

---

[1] Sireyi İbn Hişam, c-1, s-374; Tarixi Təbəri, c-2, s-79

Müşriklər: Bəli.

Əbutalib: Yox əgər qardaşım oğlunun yalan dediyi məlum olarsa, onu öldürməyiniz üçün sizə təhvil verəcəyəm.

Müşriklər: Çox ədalətli söz dedin.

Əbutalib: Qardaşım oğlu deyir ki, bəyanatı bir qarışqa yemişdir.

Bunu eşidən müşriklər dərhal bəyanatın möhürünü sındırıb görürlər ki, doğrudan da qarışqa Allahın adı istisna olmaqla bütün bəyanatı yemişdir.

Bu hadisə müşrikləri hidayət etmək əvəzinə inadlarını daha da artırır, Bəni-Haşim isə yenidən Əbutalib dərəsinə köçmək məcburiyyətində qalır. Bəyanat Hişam və sirdaşları tərəfindən qüvvədən salınana qədər müsəlmanlar dərədə qalırlar.[1]

Bəyanat qüvvədən salındıqdan sonra bununla bağlı Əbutalib bir neçə beyt şer demişdir ki, İbn Hişam hamısını olduğu kimi qeyd etmişdir.[2]

Bunlar Qüreyş müşriklərinin Peyğəmbərin(s) təbliğatı qarşısında həyata keçirdiyi haqsız əməllərdən nümunələr idi. Əlbəttə hadisələrin qeyd etdiyimiz xronoloji ardıcıllıqla baş verdiyini söyləyə bilmərik, lakin tarixi mənbələrə müraciət etdikdə məhz bu ardıcıllıqla üzləşirik. Sonda onu da qeyd edək ki, iqtisadi blokada besətin onuncu ili, rəcəb ayının ortalarında başa çatmışdır.

Qüreyş müşriklərinin müsəlmanlara qarşı əziyyətləri bu qeyd edilənlərlə bitmir. Onlar bu səmavi dinə qarşı bir çox planlar cızırdılar. O cümlədən Peyğəmbərin(s) şəxsiyyətini alçaltmaq məqsədilə onu əbtər (quyruğukəsik, nəsli kəsilmiş) adlandırırdılar. Peyğəmbərdən(s) söz düşən kimi As ibn Vail dərhal deyirdi: «Onun sözünü danışmayın o, sonsuz bir adamdır, ölən kimi fəaliyyəti də dayanacaq.» Bununla bağlı olaraq Kövsər surəsi nazil olub Allah-taalanın Peyğəmbərin(s) nəslini davam etdirəcəyini bildirir.

---

[1] Tarixi Yəqubi, c-2, s-19; əl-Kamilu fit-tarix, c-2, s-61; Təbəqatu İbn Səd, c-1, s-208-210

[2] Sireyi İbn Hişam, c-1, s-374-380

# ƏBUTALİBİN VƏFATI

Bu sətirləri yazarkən Səudiyyə Ərəbistanın Qətif şəhər həbsxanasında «Qüreyş mömini Əbutalib» adlı əsər[1] yazmış gənc və cəsarətli bir müəllif saxlanılır. O, Əbutalibin iman gətirdiyini mötəbər sünni mənbələrinə əsasən sübut etmişdir. Ərəbistan məhkəməsi söz və fikir azadlığı olan bir dövrdə ondan dediklərini geri götürməyi tələb etsə də o, buna razı olmadığı üçün ölüm hökmü ilə məhkum edilmişdir. İş üzrə yüngülləşdirici halların olduğunu nəzərə alan məhkəmə ölüm hökmünü ömürlük həbs cəzası ilə dəyişmiş, daha sonra isə təzyiqlər nəticəsində digər yüngülləşdirici halları da nəzərə alıb ömürlük həbs cəzasını səksən zərbə şallaqla əvəz etmişdir. O, hal-hazırda həbsxanada öz aqibətini gözləyir. Ya gərək müsəlman dövlətləri Ərəbistandan onun barəsində çıxarılmış hökmü ləğv etməsini tələb etməklə Ərəbistan dövləti ilə digər müsəlman dövlətlər arasındakı münasibətlərin korlanmamasına zəmin yaradalar, ya da bu gənc müəllif şallaq zərbələri altında həyatla vidalaşmalıdır.[2]

Qüreyş müşriklərinin müsəlmanlara tətbiq etdiyi iqtisadi blokada bir sıra xeyirxah insanların səyi nəticəsində ləğv edilir. Peyğəmbər(s) və tərəfdarları üç illik mühasirədən sonra dərədən çıxıb evlərinə qayıdırlar. Müsəlmanlarla alış-veriş azad edilir. Müsəlmanların vəziyyəti yaxşılığa doğru getdiyi bir vaxtda Peyğəmbər(s) böyük bir itki ilə üzləşir. Bu ağır hadisə zavallı müsəlmanların ruhiyyəsini sarsıdır. Bu hadisənin təsirini heç nə ilə müqayisə etmək olmaz. Çünki hər hansı bir əqidənin, ideyanın inkişafı iki amilə bağlıdır: Söz azadlığı və müdafiə vasitəsi. Müsəlmanlar söz azadlığına nail olduğu bir vaxtda ikinci amildən məhrum olurlar. Yəni, İslamın yeganə himayədarı vəfat edir.

---

[1] Beyrutda nəşr edilmiş 340 səhifəlik bu kitaba görkəmli Livan şairi Pavel Səlamə ön söz yazmışdır.

[2] Nəhayət, sözügedən şəxs haqqında çıxarılmış hökm ləğv edilir. Bu sətirlərin müəllifi ilə görüşən gənc yazdığı kitab barədə də məlumat vermişdir.

Peyğəmbər(s) səkkiz yaşından əlli yaşınadək himayəsində yaşadığı arxa-dayağını itirir. O, bu müddət ərzində pərvanə şam ətrafında dolandığı kimi Mühəmmədin(s) başına fırlanmış, qardaşı oğlunun əli çörəyə çatanadək onun xərcini öz büdcəsindən ödəmiş, hətta onu öz övladlarından üstün tutmuşdur. Peyğəmbər(s) elə bir şəxsi itirir ki, Əbdülmüttəlib ölüm ayağında olarkən ona vəsiyyət edərək: «Ey Əbdmənaf! (Bu Əbutalibin əsl adı olmuşdur) Atası kimi təkallahlı olan bir uşağın himayəçiliyi sənin öhdənə düşür.»-dedikdə o, atasına belə cavab vermişdir: «Atacan, Mühəmməd haqqında vəsiyyət etməyinə ehtiyac yoxdur. O həm mənim, həm də qardaşımın oğludur.»

Əbutalib ölüm yatağında yatarkən bəlkə də Peyğəmbər(s) onunla bağlı şirin-acı xatirələri xatırlayaraq öz-özünə belə deyirmiş:

1) Ölüm yatağında yatan bir əmim dərədə mühasirədə olduğumuz vaxt gecələr gəlib məni yatağımdan qaldırır, əlimdən tutub başqa yerə aparır, öz oğlu Əlini isə mənim yerimdə yatızdırırdı. Bunu etməkdə məqsədi o idi ki, gecə qəflətən müşriklər hücum edib məni yatağımdaca öldürmək istəsələr, qoy planları baş tutmasın və mənim yerimə oğlu Əli qurban getsin. Gecələrin birində oğlu Əli ona deyir ki, atacan, axır bir gün mən bu yataqda öləcəyəm.

O isə oğluna sərt şəkildə belə cavab verir: «Oğlum, səbr etmək ağıllı olmaq nişanəsidir. Hər bir canlı nə vaxtsa öləcək. Mən sənin səbrli olduğunu yoxlamışam. Bəlalar çox çətindir. Səni nəcib oğlu nəcibin (Mühəmmədin) sağ qalması üçün fəda edirəm.» Atasının bu sözlərinə Əli çox mülayim tərzdə cavab verib Peyğəmbər yolunda ölməyin onun üçün şərəf olduğunu bildirir.[1]

2) Bu cansız bədən məndən ötrü üç il avara olmuş, bütün qohumlara mənimlə birlikdə dərədə qalmağı tapşıran əmimindir. O, öz vəzifəsini, ağalığını, yəni, bütün dünyasını atıb məni tutdu. Qüreyşlilərə açıq şəkildə bildirdi ki, heç vaxt məndən köməyini əsirgəməyəcək. O, düşmənlərimə xitabən belə demişdi: «Ey Mühəmmədin düşmənləri! Siz elə bilirsiniz ki, biz Mühəmməddən əl çəkib onu tək qoyacağıq?! O, uzaqda da olsa, yaxında da olsa, bizim yanımızda hörmətlidir. Qüvvətli Haşimi biləkləri onu çətinlikdən qoruyacaq.»

[1] Mənaqibi İbn Şərhaşub, c-1, s-27

Peyğəmbərin(s) əmisinin vəfatı dəqiqləşdi. Əbutalibin evindən şivən səsləri eşidilirdi. Dost-düşmən, hamı evinin ətrafına toplaşıb dəfn mərasimində iştirak etmək istəyirdi. Ancaq Qüreyşin və Bəni-Haşimin böyüyü olmuş Əbutalib kimi bir şəxsiyyətin vida mərasimi bu tezliklə başa çata bilərdimi?!

***Əbutalibin hisslərindən nümunələr***

Fərdlərin bir-birinə münasibətləri adətən maddi dəyərlər, mal-dövlət əsasında formalaşır ki, bu da qısa zaman ərzində zəifləyib tamamilə aradan gedir. Lakin qohumluq münasibətləri və ya şəxsin ruhi və mənəvi özəlliklərinə görə qurulan münasibətlər bu tezliklə aradan getmir. Əbutalibin Peyğəmbərə(s) olan münasibətləri də məhz ikinci qismdən olmuşdur. O, Peyğəmbəri(s) həm insani dəyərləri özündə cəm etmiş bir fərd kimi sevir, həm də Mühəmməd(s) qardaşı oğlu idi və ona qardaşının gözü ilə baxırdı.

Əbutalib həzrət Mühəmmədin(s) paklığına o qədər inanırdı ki, quraqlıq zamanı onu özü ilə müsəllaya çıxarıb Allaha onun xatirinə and verərək camaat üçün rəhmət, mərhəmət diləyirdi. Təbii ki, duası qəbul da olurdu. Tarixçilər belə bir əhvalat nəql edirlər: «Bir il Məkkədə dəhşətli quraqlıq baş verir. Qüreyşlilər Əbutalibin yanına gələrək müsəllaya çıxıb Allahdan yağış diləməsini istəyirlər. Əbutalib kiçik Mühəmmədin əlindən tutub Kəbə divarına söykənir, üzünü göyə tutaraq deyir: «Ey mehriban Allah, (əli ilə Mühəmmədi göstərərək) bu uşağın xatirinə Öz rəhmət yağışını bizlərə göndərməklə mərhəmətini göstər!» O, bu duanı edərkən göyün üzü tər-təmiz idi və göydə bircə dənə də olsa bulud yox idi. Çox çəkmir ki, göyün üzü tamamilə buludla dolur. Göy gurultusunun səsi, şimşəyin işığı hər tərəfi lərzəyə gətirir. Güclü yağış başlayıb hər tərəfi isladır. Camaat hamı sevinirdi. Bununla əlaqədar Əbutalib bir neçə beyt şer deyir.»[1]

Qüreyş müşrikləri Mühəmmədi(s) təhvil verməsi üçün Əbutalibə təzyiqləri artırdıqda o Lamiyyə qəsidəsini deyərək onda Mühəmmədin xatirinə yağış yağması məsələsinə toxunmuşdur.

[1] Sireyi Hələbi, c-1, s-125

İbn Hişam həmin qəsidənin 94 beytini qeyd etsə də[1] İbn Kəsir onun 92 beytini yazmışdır.[2] Əbutalibin divanını toplamış Əbu Həfan Əbdi isə qəsidənin 121 beytdən ibarət olduğunu göstərərək bütün qəsidəni qeyd etmişdir. Çox güman ki, qəsidə məhz bu qədər olmuşdur.

Əbutalibin Lamiyyə qəsidəsi şirinliyi, cazibəsi və bədiiliyinə görə heç də ərəblərin fəxr etdiyi və şah əsərləri sayılan yeddi müəlləqədən geri qalmamışdır.

***Şam səfərinin proqramının dəyişdirilməsi***

Həzrət Mühəmməd(s) on iki yaşında olarkən Əbutalib Qüreyşin ticarət karvanı ilə Şama getmək qərarına gəlir. Karvan hazır olub hərəkət etmək istədikdə Mühəmməd Əbutalibin dəvəsinin ipindən yapışır, gözləri yaşarmış halda deyir: «Əmican, məni də özünlə apar!» Mühəmmədi belə vəziyyətdə görən Əbutalib özünü saxlaya bilməyib ağlamağa başlayır. Əvvəlcədən nəzərdə tutulmasa da o, Mühəmmədi də özü ilə aparmaq qərarına gəlir. Karvanda boş yer olmadığından, Əbutalib onu öz dəvəsinə mindirir və bütün səfər boyu bir an da olsun gözünü ondan çəkmir. Bu səfər çərçivəsində Əbutalib Mühəmməddən bir sıra kəramətlər görüb bu haqda qəsidə yazmışdır ki, Divani Əbutalibdə öz əksini tapmışdır.[3]

***Müqəddəs əqidənin müdafiəsi***

Heç bir qüvvə iman qüvvəsi kimi davamlı deyil. İnsanın öz həyatında irəliləməsi üçün əsas amil də məhz məqsəd, əqidədir. Belə olarsa, insan məqsədinə çatmaq üçün bütün çətinliklərə dözüb hətta ölümə də gedər. İman qüvvəsi olan döyüşçü istənilən halda qalib sayılır. Çünki o, əqidə uğrunda ölməyi də, öldürməyi də səadət hesab edir. Döyüşçü silahla təchiz olunmazdan qabaq iman qüvvəsi ilə təchiz edilməlidir, döyüşməyi də, sülh etməsi də əqidə naminə olmalıdır.

Düşüncə, əqidə insan ruhunun məhsuludur. Əslində insanın fikri onun ağlının məhsulu, övladı sayılır. İnsan öz övladını sevdiyi kimi, ağıl

---

[1] Sireyi İbn Hişam, c-2, s-286

[2] Tarixi İbn Kəsir, c-3, s-52-57

[3] Divani Əbutalib, s-33-35; Tarixi İbn Əsakir, c-1, s-84

və ruhunun övladı olan fikrini də sevməlidir. Deyərdim ki, insanın öz fikrinə olan əlaqə və sevgisi övladına olan sevgisindən daha artıqdır. Çünki insan əqidəsi uğrunda ölümə də gedər, ancaq övladı uğrunda heç də həmişə belə israrlı olmur.

İnsanın mal-dövlətə, vəzifəyə əlaqəsi məhduddur. Bunları əldə etmək üçün ölüm təhlükəsi ilə üzləşdikdə istəyindən əl çəkir, lakin əqidəsinə görə ölümün də ağuşuna gedir və əqidə uğrunda şərəflə ölməyi sağ qalmaqdan daha üstün sayır. Haqq əqidə uğrunda çalışanların əsas şüarı məhz budur: «Həyat əqidə uğrunda cihaddan ibarətdir.»

Gəlin Əbutalibin həyatına diqqət yetirək. Görəsən hansı amil onun mal-dövlətdən, vəzifədən, hətta canından keçib Mühəmmədi(s) qorumağa vadar edirdi? Bunu dəqiq deyə bilərik ki, məqsədi heç də maddi mənfəət əldə etmək olmamışdır. Çünki qardaşı oğlu maddi baxımdan həddən artıq imkansız olmuşdur. Əbutalib heç vəzifəyə çatmaq istəyində də olmamışdır. Ona görə ki, o vaxtın ən böyük vəzifəsi Məkkə rəhbərliyi onun ixtiyarında idi. Əksinə, o, Peyğəmbəri(s) müdafiə etdiyinə görə bütün bunları itirmək astanasında idi. Çünki onun Mühəmmədi(s) müdafiə etməsi qəbilə başçılarını Bəni-Haşimə, xüsusilə də Əbutalibə qarşı çıxmağa vadar etmişdi.

***Yanlış təsəvvür***

Bəlkə də kimlərsə Əbutalibin Mühəmmədi(s) qorumaq naminə səfərbər olmasını onun Peyğəmbərlə(s) qohumluq telləri ilə əlaqələndirirlər. Başqa sözlə desək, qohumluq münasibətləri səbəb olmuşdur ki, o, qardaşı oğluna görə bu addımları atsın.

Bu yanlış təsəvvür o qədər əsassızdır ki, kiçik araşdırma ilə onun səhv bir iddia olduğu üzə çıxır. Qohumluq əlaqələri heç vaxt kiməsə bu qədər bağlanmağa, öz doğma oğlunu (Əlini) qardaşı oğluna qurban verməyə hazır olduğuna səbəb ola bilməz. Düzdür, qohumluq münasibətləri qohuma görə insanı ölüm ayağına da çəkə bilər, ancaq bunun bütün qohumlar arasından yalnız bir nəfərə həsr edilməsi inandırıcı görünmür. Halbuki Əbutalib yalnız Peyğəmbər(s) üçün belə canfəşanlıq edir, Əbdülmüttəlib xanədanından daha heç kim üçün bu qədər çalışmırdı.

*Əbutalibi bu işlərə sövq edən əsas amil*

Məlum oldu ki, Əbutalib maddiyyat xatirinə Peyğəmbəri(s) müdafiə etmirmiş. Onu bu işlərə sövq edən mənəvi amil olmuşdur. Bu mənəvi amil də Mühəmmədə(s) olan güclü əqidəsi idi. Çünki o, Mühəmmədi(s) insanlığın ən kamil nümunəsi, gətirdiyi dini də ən gözəl səadət proqramı hesab edirdi. Əbutalib həqiqət tərəfdarı olduğu üçün həqiqəti müdafiə etməsi də təbii haldır. Bunu Əbutalibin şerlərindən asanlıqla başa düşmək olar. İndi onun Mühəmmədə(s) imanını əks etdirən şerlərindən bir neçə beytə nəzər salaq.

Böyük adamlar bilsinlər ki, Mühəmməd də Musa və İsa kimi peyğəmbərdir.

O da onlar kimi yolgöstərəndir. Peyğəmbərlərin hər biri Allah tərəfindən hidayət yolunu tutur, camaatı günahdan uzaqlaşdırır.

Siz onun xüsusiyyətlərini səmavi kitablarda dəqiqliklə oxumusunuz, bu bir həqiqətdir, qeybdən xəbər vermək deyil.[1]

Başqa bir qəsidəsində Əbutalib qardaşı oğluna olan imanını belə açıqlayır:

Məgər bilmirsiniz ki, biz Mühəmmədin də Musa və İsa kimi Allah peyğəmbərlərindən olduğuna inanır və onun haqqında səmavi kitablardan oxumuşuq?[2]

Bu beytlər, eləcə də Divani Əbutalibdə, tarix, hədis və təfsir kitablarında toplanılmış onlarla beyti ona dəlalət edir ki, Əbutalib Mühəmmədi(s) sırf əqidə və İslam uğrunda müdafiə etmiş və başqa heç bir amil olmamışdır.

*Əbutalibin fədakarlığından bir nümunə*

Qüreyş başçıları Əbutalibin evinə gələrək Peyğəmbərlə(s) söhbət edirlər. Heç bir nəticə əldə edilmədikdə ayağa qalxıb getmək istəyirlər. Bu vaxt Əqəbə ibn Əbu Muit uca səslə deyir: «O, heç nəyi qəbul etmir, öyüd-nəsihətin bir xeyri yoxdur. Onu öldürməkdən başqa çarə qalmayıb.» Əbutalib bunları eşidib çox narahat olur. Ancaq əlindən bir şey də gəlməzdi. Çünki müşriklər onun qonağı idilər. Peyğəmbər(s) həmin

---

[1] Məcməül-bəyan, c-7, s-37[1]

[2] Məcməül-bəyan, c-7, s-36

gün evdən çıxır, bir daha evə qayıtmır. Axşam çağı əmiləri evinə getsələr də onu görə bilmirlər. Birdən Əqəbənin dediyi sözlər Əbutalibin yadına düşür və öz-özünə deyir ki, yəqin qardaşım oğlunu öldürüblər. O, artıq işin bitdiyini zənn edib intiqam almaq qərarına gəlir. Bütün Bəni-Haşim və Bəni-Əbdülmüttəlibi evinə çağırıb deyir: «Hamınız silahlanıb Məscidül-hərama gedin! Hərəniz Qüreyş başçılarından birinin yanında dayanın! Elə ki mən: «Ey Qüreyş başçıları, Mühəmmədi sizdən tələb edirəm»-dedim, dərhal yerinizdən qalxıb hərə yanındakını qətlə yetirsin. Bununla da Mühəmmədin intiqamını almış olarıq.»

Əbutalib evdən çıxmaq istərkən Zeyd ibn Harisə gəlib onları bu vəziyyətdə gördükdə təəccüblənir. O deyir ki, Mühəmmədin başına heç nə gəlməyib və hal-hazırda müsəlmanlardan birinin evində İslamın təbliği ilə məşğuldur. Bunu deyib dərhal Peyğəmbərin(s) yanına qaçır və o həzrəti Əbutalibin məqsədindən xəbərdar edir. Peyğəmbər(s) ildırım sürəti ilə özünü evə çatdırır. Əbutalib sevimli qardaşı oğlunu görcək, sevinc göz yaşları içərisində ondan soruşur: «Harda idin qardaşoğlu? Salamatçılıqdırmı?» Peyğəmbər(s) əmisinin cavabında buyurur: «Kiminsə mənə bir zərəri dəyməyib.»

Əbutalib bütün gecəni öz-özünə fikirləşərək deyirdi ki, qardaşım oğluna bu gün heç nə olmasa da düşmən onu öldürməyincə əl çəkən deyil. Belə qərara gəlir ki, sabah Qüreyş məclisləri qızışdıqda Bəni-Haşim və Bəni-Əbdülmüttəlib gəncləri ilə birlikdə Məscidül-hərama gedib müşrikləri dünənki fikrindən xəbərdar etsin. Bəlkə bu yolla onları hədələyib Mühəmmədi öldürmək fikrindən daşındıra bildi. Səhər gün çıxdıqdan sonra məclislər təzəcə qızışmışdı ki, müşriklər Əbutalibin bir dəstə gənclə onlara tərəf gəldiyini görürlər. Hamı əl-ayağını yığıb Əbutalibin nə məqsədlə gəldiyini gözləyirdi. Əbutalib gəlib çatan kimi deyir: «Dünən Mühəmməd bir neçə saat evə gəlmədi. Mən elə zənn etdim ki, Əqəbənin sözünə əsasən siz onu qətlə yetirmisiniz. Buna görə də gördüyünüz bu gənclərə tapşırmışdım ki, hərəsi sizdən bir nəfərin yanında dayansın, mən işarə etdikdə gizli silahları ilə hərə birinizi qətlə yetirsin. Xoşbəxtlikdən Mühəmmədi sağ-salamat gördüm.» Sonra yanındakı gənclərə silahlarını üzə çıxarmağı əmr edir. Sözünü aşağıdakı

cümlə ilə başa çatdırır: «And olsun Allaha, əgər onu öldürsəydiniz, heç birinizi sağ buraxmazdım və son gücümə qədər sizinlə vuruşardım.»[1]

Əbutalib 42 il Peyğəmbəri(s) öz himayəsində saxlayır. Həzrət Mühəmmədin(s) peyğəmbərliyi ilə müşayiət edilən son on ildə o, xüsusi canfəşanlıq göstərir. Onun bu həddə Peyğəmbəri(s) himayə etməsinin əsas amili, qeyd etdiyimiz kimi, o həzrətə olan inamı, imanı, əqidəsi olmuşdur. Onun sevimli oğlu Əlinin(ə) də İslam uğrundakı fədakarlığını nəzərə alsaq, onda İbn Əbilhədidin dediyi şerlərin mənası tam aydın olar. O deyir:

Əbutaliblə oğlu olmasaydı, dindən əsər-əlamət qalmazdı.
Əbutalib Peyğəmbəri Məkkədə himayəsində saxladı, oğlu da
Yəsribdə ölümlə çarpışırdı.[2]

***Siyasiləşdirilmiş bir məsələ***

Bütün qərəzləri bir kənara qoyub tam obyektiv şəkildə Əbutalibin imanını sübut edən faktların onda birini başqa şəxs haqqında gətirsəydik, bütün müsəlmanlar həmin şəxsin iman gətirdiyini təsdiq edərdi. Belə olduğu halda bəs nəyə görə bəziləri Əbutalibin kafir olduğunu iddia edir? Hətta axirət əzabı ilə bağlı nazil olmuş ayələrin bəzisinin məhz Əbutalib haqqında gəldiyini deyənlər də var. Lakin bəzi sünni alimləri də onun iman gətirdiyini qeyd etmişdir. Bunların arasında hicri 1304-cü ildə vəfat etmiş Məkkə müftisi Zeyni Dəhəlan da vardır. Etiraf etmək lazımdır ki, bütün bu qərəzlər Əbutalib övladlarını, xüsusilə də Əmirəl-möminin Əlini(ə) gözdən salmağa xidmət edir.

Bəzi sünni müəlliflər Əbutalibin kafir olduğunu daha yaxşı sübut etmək məqsədilə məsələni bir qədər genişləndirib Peyğəmbərin(s) də ata-anasının kafir olduğunu göstərmişlər. Biz peyğəmbərin ata-anasının kafir olduğu fikrinin Cəfərilərin, Zeydilərin və sünni tədqiqatçıların mövqeyi ilə uyğun gəlmədiyini araşdırmaq fikrində deyilik, sadəcə Peyğəmbərin(s) yeganə müdafiəçisini bu sadəliklə kafir qələmə verənlərə təəccüb edirik.

---

[1] Ət-Təbəqatul-kubra, c-1, s-202-203; Təraif, s-85; Əl-Huccə, s-61
[2] Şərhi Nəhcül-bəlağə (İbn Əbilhədid), c-14, s-84

*Əbutalibin mömin olduğunu göstərən faktlar*

Kiminsə əqidəsini, düşüncə tərzini üç yolla öyrənmək olar:

1) Ondan irs qalmış elmi-ədəbi əsərlərin təhlili.

2) Onun cəmiyyətdəki davranışının təhlili.

3) Onun barəsində qərəzsiz dostlarının, yaxınlarının bildirdiyi fikirlərin təhlili.

Əbutalibin dediyi şer və qəsidələr onun imanından xəbər verir. Onun həyatının son on ilindəki fəaliyyəti də iman gətirdiyinə şahiddir. Qərəzsiz yaxınlarının fikri də budur ki, o, iman gətirmiş bir müsəlman olmuşdur. Qohumlarından heç kim onun imanının əksinə bircə kəlmə belə deməmişdir.

*Əbutalibin elmi-ədəbi irsi*

Məsələyə aydınlıq gəlsin deyə, Əbutalibin uzun-uzadı qəsidələrindən bir neçə beyt seçib nümunə üçün qeyd edirik.

Böyük adamlar bilsinlər ki, Mühəmməd də Musa və İsa kimi peyğəmbərdir.

O da onlar kimi yolgöstərəndir. Peyğəmbərlərin hər biri Allah tərəfindən hidayət yolunu tutur, camaatı günahdan uzaqlaşdırır.

Siz onu öldürməyi planlaşdırırsınız, bu istəyiniz xam xəyallardan başqa bir şey deyil.

O, bir peyğəmbərdir. Allah dərgahından ona vəyh nazil olur. Bunu deyən şəxs heç vaxt peşman olmaz.

Məgər bilmirsiniz ki, biz Mühəmmədin də Musa və İsa kimi Allah peyğəmbərlərindən olduğuna inanır və onun haqqında səmavi kitablardan oxumuşuq?

Allah bəndələri ona böyük sevgi göstərir. Sevgisi camaatın ürəyində olan şəxsə zülm edilməz.[1]

Qardaşoğlu, onlar (müşriklər) heç vaxt sənə zərər yetirə bilməz. Nə qədər ki, qəbrə qoyulmamışam, sənə kömək edəcəyəm.

Sənə tapşırılanı çatdır, heç nədən qorxma! Bəşarət verməklə gözləri işıqlandır!

[1] Divani Əbutalib, s-32; Sireyi İbn Hişam, c-1, s-373

Məni öz dininə dəvət etdin, bilirəm ki, sən nəsihət verənsən. Öz dəvətində haqq və etibarlısan.

Mən əminəm ki, Mühəmmədin gətirdiyi din, dinlər arasında ən gözəlidir.[1]

Musa və Yunis kimi peyğəmbər olan şəxsə nazil olmuş ecazkar Qurana iman gətirin![2]

Qeyd etdiyimiz bu üç parça Əbutalibin iman gətirməsindən xəbər verən uzun qəsidələrdən seçmələrdir. Bu qəsidələr onu söyləyən müəllifin iman gətirməsinə şəhadət verir. Əgər bunu Əbutalibdən qeyrisi demiş olsaydı, hamılıqla onun iman gətirdiyini təsdiq edərdik. Lakin qəsidələri Əbutalib dediyi və Əməvi və Abbasi xəlifələrinin həmişə Əbutalib xanədanına qarşı çıxdığı üçün kimlərsə bu fəziləti onun üçün təsbit etmək istəməmişdir. Digər tərəfdən Əbutalib Əlinin(ə) atası olduğundan və xəlifələr onun atasının iman gətirməsi ilə barışa bilmədiyindən, həqiqəti inkar etməyə çalışmışlar. Axı Əbutalibin iman gətirdiyi isbat edildiyi təqdirdə bu, Əli(ə) üçün daha bir fəziləti sayılardı. Necə ki, digər xəlifələrin atasının iman gətirməməsi onlar üçün mənfi hal kimi dəyərləndirilir.

Hər halda bu qəsidələrə, Əbutalibin fəaliyyətinə, mübarizəsinə baxmayaraq kimlərsə onun kafir olduğunu sübut etməyə çalışmışdır. Hətta bununla kifayətlənməyib bəzi ayələrin onun küfrü ilə bağlı nazil olduğu da iddia edilmişdir.

### *Əbutalibin iman gətirdiyini təsdiq edən başqa bir fakt*

Peyğəmbərlə(s) davranış o həzrətin yolunda əzab-əziyyət də Əbutalibin iman gətirdiyinə dəlalət edir. Çünki Əbutalib elə bir insan idi ki, qardaşı oğlunun üzülməsinə razı olmur, bütün çətinliklərə rəğmən onu özü ilə Şama aparır.

Onun qardaşı oğluna əqidəsi elə yüksək olmuşdur ki, onun özü ilə müsəllaya aparıb Allahdan onun xatirinə yağış yağdırmasını diləyir.

O, Peyğəmbəri qorumaqdan qətiyyən usanmadı. Üç il ardıcıl olaraq dərədə qalmağı Məkkə başçılığından üstün tutur. Bu müddət ərzində

---

[1] Tarixi İbn Kəsir, c-2, s-42

[2] Şərhi Nəhcül-bəlağə (İbn Əbilhədid), c-14, s-74; Divani Əbutalib, s-173

Əbutalib o qədər əldən düşür ki, mühasirə başa çatdıqdan qısa müddət sonra vəfat edir.

Əbutalibin Peyğəmbərə(s) imanı elə güclü olmuşdur ki, qardaşı oğlunun sağ qalması üçün hətta öz övladlarını da qurban verməyə hazır idi. Əlini Peyğəmbərin(s) yatağında yatızdırardı ki, o həzrətə qarşı törədilə biləcək sui-qəsdə Əli tuş gəlsin, təki qardaşı oğluna bir xətər yetişməsin. Əbutalib hətta bütün Qüreyş başçılarının öldürülməsinə də hazır idi. Təbii ki, bu, bütün Bəni-Haşimin də öldürülməsi ilə nəticələnəcəkdi.

### *Əbutalibin vəsiyyəti*

Əbutalib ömrünün son anlarında övladlarına belə vəsiyyət edir: «Sizə Mühəmmədi qorumağı tövsiyə edirəm. O, Qüreyşin əmanətdarı, ərəblərin düz danışanıdır. Bütün insani dəyərlər onda cəmlənmişdir. Gətirdiyi dini, qəlblər qəbul etmiş, dillər isə başqalarının dedi-qodusuna görə onu inkar edir. Mən görürəm ki, kimsəsizlər onu dəstəkləyir və ona iman gətirirlər. Mühəmməd onların sayəsində Qüreyş müşriklərinə qarşı qiyama qalxıb müşrikləri sarsıdır, kimsəsizləri isə camaatın gözündə yüksəldir.» O, vəsiyyətini aşağıdakı cümlələrlə bitirir: «Ay mənim qohumlarım! Onun tərəfdarlarından olun! Onun yolu ilə gedən şəxs səadətə çatar. Əcəl mənə möhlət verərsə, onu bütün çətinliklərdən qoruyaram.»[1]

Əbutalibin son sözlərində səmimi olduğuna qətiyyən şübhə etmirik. Onun son on il ərzindəki xidmətləri də deyilənləri təsdiqləyir. Əbutalib hələ peyğəmbərliyin əvvəlində həzrət Mühəmmədə(s) onu dəstəkləyəcəyinə dair vəd vermişdi. O həzrət bütün qohumlarını evinə çağırıb onları İslama dəvət edərkən Əbutalib ona belə demişdi: «Qardaşoğlu, sən işində ol! Sən çox böyük adamsan. Dinin ən gözəl dindir. Sən böyük bir kişinin oğlusan. Kim sənə pis söz deyərsə, qeyriləri sənin müdafiənə qalxıb onu susdurar. And olsun Allaha, uşaq anasına tabe olduğu kimi, ərəblər də sənə tabe olacaqlar.»[2]

---

[1] Sireyi Hələbi, c-1, s-351-352; Tarixul-xəmis, c-1, s-339

[2] Ət-Təraif, s-85

### *Əbutalibin imanını təsdiqləyən üçüncü amil*

Əbutalibin iman gətirib-gətirmədiyini ona qarşı qərəzli mövqedə olmayan qohumlarından öyrənmək olar. Çünki ev əhli evdə olanlar barədə daha məlumatlıdır.

1) Əli(ə) Əbutalibin vəfat etdiyini Peyğəmbərə(s) çatdırdıqda həzrət möhkəm ağlayır, əmisinin qüsl, kəfən və dəfn işlərini tapşırır və Allahdan onun bağışlanmasını diləyir.[1]

2) İmam Səccadın(ə) yanında Əbutalibin iman gətirib-gətirməməsi barədə söz düşdükdə həzrət buyurur: «Camaatın onun imanına nə üçün şübhə ilə yanaşdığına təəccüb edirəm. İslamı qəbul etdikdən sonra heç bir qadın kafir kişidə ərdə qalmamalıdır. Fatimə bint Əsəd Peyğəmbərə ilk iman gətirənlərdən biri olmuş və Əbutalib vəfat edən günə qədər onda ərdə olmuşdur.»

3) İmam Səccad(ə) buyurur: «Əbutalibin imanı bizim üçün bir çoxlarının imanından daha üstündür. Əmirəl-möminin tapşırıq verirdi ki, atasının əvəzinə həcc yerinə yetirsinlər.»[2]

4) İmam Sadiq(ə) buyurur: «Əbutalib eyniylə Əshabi-kəhfə bənzəyir. Qəlbən iman gətirsə də üzdə etiraf etmirdi. Buna görə də onlara ikiqat savab veriləcək.»[3]

### *Şiə alimlərinin mövqeyi*

Cəfəri və Zeydiyyə alimləri belə hesab edirlər ki, Əbutalib çox dəyərli bir şəxs olaraq vəfat edərkən iman dolu qəlblə dünyadan getmişdir. Bu barədə kitablar, traktatlar yazılmışdır. Əbutalibin imanı haqqında bu vaxtadək on yeddi kitab işıq üzü görmüşdür.[4]

---

[1] Şərhi Nəhcül-bəlağə (İbn Əbilhədid), c-14, s-76
[2] Şərhi Nəhcül-bəlağə (İbn Əbilhədid), c-14, s-69
[3] Üsuli-kafi, s-244
[4] Əl-Qədir, c-7, s-402-404

## MERAC HADİSƏSİ

***Merac - Quran, hədis və tarix baxımından***

Zülmət qaranlıq hər yanı bürümüş, hər yerə səssizlik hakim kəsilmişdi. Hamı yeni qüvvə toplayıb səhər yenidən işə başlamaq üçün istirahət edirdi. Peyğəmbər(s) də bu təbii qanundan istisna təşkil etmirdi. Birdən o həzrətin qulağına tanış bir səs gəldi. Bu, vəhy mələyi Cəbrail idi. O, Peyğəmbərə(s) bu gecə uzun bir səfərə çıxacağını, özünün də bu səfərdə onu müşayiət edcəyini və səfərə Büraq adlı göy miniyi ilə gedəcəklərini bildirir.

Peyğəmbər(s) səfərə Əbutalibin qızı Ümmi Haninin evində başlayır. Büraqla həm də Məscidül-əqsa adlanan Məscidül-hərama gedir. Qısa müddət ərzində məscidin müxtəlif yerlərini, o cümlədən İsa(ə) peyğəmbərin doğulduğu Beyt-ləhmi, bir çox peyğəmbərin məqamlarını ziyarət edir, bəzi yerlərdə iki rükət namaz da qılır. Bunun ardınca səfərin ikinci hissəsi başlayır. Peyğəmbər(s) elə oradan göylərə aparılır. Ulduzları, göy cisimlərini müşahidə edir, peyğəmbərlərin ruhları və mələklərlə söhbət edir. Cənnət və Cəhənnəmi görür. Beləliklə də yaradılışın sirləri ilə tanış, dünyanın böyüklüyü və Allah-taalanın sonsuz qüdrətindən xəbərdar olur. Sonra səfərinə davam edib Sidrətül-müntəhaya[1] çatır. Oranın büsbütün əzəmət içərisində olduğunu görür. Bununlada Peyğmbərin(s) səfəri başa çatır. Ona gəldiyi yolla geri qayıtması tapşırılır. Qayıdarkən bir daha Beytül-müqəddəsi ziyarət edir. Məkkə yolunda Qüreyşin bir ticarət karvanı ilə rastlaşır. Karvandakılar itmiş bir dəvəni axtarırdılar. Peyğəmbər(s) karvanda olan sudan bir qədər içib qalanını yerə tökür. (Bəzi mənbələrdə su kuzəsinin üstünü dəsmalla örtdüyü göstərilir.) Dan yeri sökülməmiş Büraqdan enib yenidən Ümmi Haninin evinə gəlir. İlk olaraq bu səfəri barədə məhz ona danışır. Səhər açılanda isə Qüreyş məclislərində də səfəri haqqında

[1] Sidrətül-müntəha barədə təfsir kitablarına müraciət edə bilərsiz.

məlumat verir. Müşriklərin gözündə mümkünsüz görünən bu səfər bütün məclislərin müzakirə obyektinə çevrilir və Qüreyş başçılarını daha da qıcıqlandırır. Onlar həmişə olduğu kimi bu dəfə də Peyğəmbəri(s) təkzib edərək deyirlər ki, Məkkədə Beytül-müqəddəsi görmüş şəxslər var. Dediklərin doğrudursa, de görək onun binası hansı formadadır. Peyğəmbər(s) Beytül-müqəddəsin necə quruluşunu deməklə kifayətlənməyib yolda baş verənləri də danışır: «Yolda filan qəbiləyə məxsus karvanla rastlaşdım. Onların bir dəvəsi itmişdi, onu axtarırdılar. Su ilə dolu bir kuzədən su içib üstünü örtüklə örtdüm. Başqa bir yerdə digər bir dəstə ilə rastlaşdım. Onların dəvələrindən birinin qolu sınmışdı.» Müşriklər deyirlər ki, bizə Qüreyş karvanından danış! Peyğəmbər(s) buyurdu: «Onları Tənimdə gördüm. Karvanın önündə üzərində kəcavə olan boz rəngli bir dəvə hərəkət edirdi, indi onlar Məkkəyə daxil olmalıdırlar.»

Müşriklər Peyğəmbərin(s) qətiyyətlə verdiyi bu xəbərlərdən əsəbləşib dedilər ki, indi dediklərinin doğru olub-olmadığını öyrənərik. Çox çəkmir ki, karvan Məkkəyə daxil olur. Əbu Süfyan başda olmaqla karvandakıların hamısı Peğəmbərin(s) dediklərini təsdiqlədi.

Dediklərimiz təfsir və hədis kitablarında merac haqqında deyilənlərin xülasəsi idi.[1]

### *Quran merac məsələsinə toxunurmu?*

Həzrət Peyğəmbərin(s) meraca getməsi məsələsinə Quranda iki surədə toxunulur. Biz ötəri olaraq həmin ayələrə diqqət yetirəcəyik. Allah-taala İsra surəsinin ilk ayəsində buyurur: ***«Bəzi ayələrimizi (qüdrətimizə dəlalət edən qəribəlikləri və acaiblikləri) göstərmək üçün bəndəsini (Mühəmmədi) Məscidül-həramdan ətrafını mübarək etdiyimiz (bərəkət verdiyimiz) Məscidül-əqsaya (Beytül-müqəddəsə) gecə ikən aparan Allah pak və müqəddəsdir. O, doğrudan da (hər şeyi) eşidəndir, görəndir!»***

Bu ayədən aşağıdakı məsələlər aydın olur:

1) Bu hadisənin təbii vasitələrlə deyil, qeybi vasitələrlə baş verdiyini, özü də qısa müddət ərzində həyata keçdiyini anlayaq deyə, Allah-

[1] Ətraflı məlumat üçün Biharul-ənvarda merac bölməsinə müraciət edə bilərsiniz.

taala Öz sözünə «Allah pak və müqəddəsdir» ifadəsi ilə başlayır. (Xatırladaq ki, ayənin orjinalında, yəni ərəbcə variantında həmin ifadə ayənin əvvəlində gəlmişdir.) Bu da öz növbəsində Allahın aciz olmadığına dəlalət edir. Allah-taala hətta bununla da kifayətlənməyib Peyğəmbəri məhz Özünün səfərə apardığını bildirir. Bu da ona görədir ki, qoy camaat elə bilməsin ki, bu səfər təbii vasitələrlə baş tutmuşdur və nəticədə onu inkar etməyə qalxsın.

2) Bu səfər gecə vaxtı baş tutmuşdur. Buna ayədəki «leylən» (gecə ikən) zaman zərfi ilə yanaşı, həm də «əsra» feli dəlalət edir. Ərəblər bu feli gecə seyrə çıxmaq mənasında işlədirlər.

3) Peyğəmbər(s) səfərə Əbutalibin qızı Ümmi Haninin evindən başlasa da, Allah-taala səfəri Məscidül-həramdan başladığını bildirir. Bu bəlkə də onunla əlaqədardır ki, ərəblər bütün Məkkəni Allahın hərəmi hesab edirdilər. Buna görə də bütün Məkkəni Məcsidül-həramdan qəbul edirdilər. Bəzi hədislərdə isə səfərin (meracın) konkret Məcsidül-həramdan başlandığı vurğulanır.

4) Həzrət Peyğəmbər(s) meraca təkcə ruhən deyil, həm ruhən, həm də cismən getmişdir. Ayənin orjinalındakı «biəbdihi» (Öz bəndəsini) ifadəsi məhz buna işarə edir. Əgər merac təkcə ruhən baş tutmuş olsaydı, onda «biəbdihi» deyil, «biruhihi» (Öz bəndəsinin ruhunu) ifadəsi işlədilərdi.

5) Bu səfərdən məqsəd varlıq mərhələlərini tanıtdırmaq və dünyanı göstərmək olmuşdur.

Merac hadisəsinə açıq şəkildə toxunan ikinci surə Nəcm surəsidir. Həzrət Peyğəmbər(s) müşriklərə: «Mən vəhy mələyini ilk dəfə öz surətində görmüşəm.» – dedikdə onlar o həzrətə inanmayıb onunla mübahisə etmişdilər. Quran onların etirazına cavab olaraq buyurur: ***«Siz onunla gördüyü barəsində mübahisəmi edirsiniz? And olsun ki, (Rəsulum Cəbraili öz həqiqi surətində) başqa bir dəfə də (merac vaxtı) görmüşdü. (Yeddinci göydəki) Sidrətül-müntəhanın yanında. Məva cənnəti onun yanındadır. O zaman Sidrəni nələr bürümüşdü, nələr! Göz nə yayındı, nə də uzağa getdi. And olsun ki, (Peyğəmbər) öz Rəbbinin ən böyük qüdrət nişanələrindən (möcüzələrindən) bir qismini (Beytül-***

***məmuru, Sidrətül-müntəhanı, Cənnəti, Cəhənnəmi, Rəfrəfi, altı yüz qanadı olan Cəbrailin həqiqi surətini və i.a) gördü.»***[1]

### *Meracla bağlı hadisələr*

Tarix və təfsirçilər merac haqqında bir çox hadisələr qeyd etmişlər ki, onların hamısının həqiqət olduğunu qəbul etmək mümkün deyil. Böyük təfsir alimi, mərhum əllamə Təbərsi bu hadisələri dörd dəstəyə bölür:

1) Yüz faiz doğru olan hədislər. Məsələn, meracın baş verdiyini göstərən hədislər.

2) Qəti və düzgün mənbələrlə nəql edilmiş, lakin yüzfaizlik həddə çatmayan hədislər. Bu hədislərdə deyilənlər ağıl və məntiqlə də uyğun gəlir. Məsələn, Peyğəmbərin(s) Cənnətlə Cəhənnəmi görməsi, göylərdə gəzməsi və peyğəmbərlərin ruhları ilə danışması haqqında nəql edilmiş hədislər.

3) Qəbul edilməsi mümkün olmasa da yozulmaqla qəbul edilə biləcək hədislər. Məsələn, Peyğəmbərin(s) merac zamanı Cənnət və Cəhənnəmdəkiləri görməsini onları ruhən görməsi mənasına yozmalıyıq.

4) Yalan uyduranların qondarma hədisləri. Məsələn, Peyğəmbər(s) güya meracda Allahın yanında oturmuş və Allahın qələminin səsini eşitmişdir.[2]

### *Meracın baş verdiyi tarix*

Merac hadisəsi bütün xırdalıqlarına qədər tarixə düşməyə layiq olduğu halda hadisənin müəyyən detalları haqqında müxtəlif fikirlər bildirilmişdir. Belə mübahisəli məqamlardan biri də meracın baş vediyi tarixdir. İki böyük İslam tarixçisi İbn İshaqla İbn Hişam meracın besətin onuncu ilində, Beyhəqi isə besətin on ikinci ilində baş verdiyini söyləmişlər. Meracın besətin əvvəli və ortalarında baş verdiyini söyləyənlər də olmuşdur. Bəzi tarixçilər isə bütün bu fikirləri bir araya gətirmək məqsədilə bildirmişlər ki, merac təkcə bir dəfə olmamışdır. Biz belə hesab edirik ki, gündəlik namazların vacib edildiyi merac hadisəsi yüz faiz Əbutalibin vəfatından sonra, yəni, besətin onuncu ilində baş

---

[1] Nəcm-12-18
[2] Məcməül-bəyan, c-3, s-395

vermişdir. Çünki tarix və hadisələrdə sübuta yetirilmişdir ki, gündəlik namazlar hələ vacib edilməmişdi. Belə ki, Əbutalib ölüm yatağında olarkən Qüreyş başçıları onun yanına gəlib deyirlər: «Qardaşın oğlunla aramızdakı mübahisəyə birdəfəlik son qoy! Onu öz işlərindən çəkindir, buna görə biz istədiyini ona verməyə hazırıq.» Bu zaman Peyğəmbər(s) üzünü onlara tutub buyurur: «Mən sizdən bircə şeydən başqa heç nə istəmirəm. O da budur ki, Allahın təkliyinə şəhadət verib bütlərə ibadət etməkdən əl çəkəsiniz!»[1] onda Peyğəmbər(s) qətiyyən namaz və digər vacib əməllərə toxunmur. Bu da onu göstərir ki, deməli o vaxt namaz hələ vacib edilməyibmiş.

Yoxsa dildə quruca iman gətirməyə etiraf etmək heç nəyi həll etməzdi. Peyğəmbərin(s) onların öz peyğəmbərliyinə şəhadət vermələrini tələb etməməsi isə onunla əlaqədardır ki, Allahın təkliyinə şəhadət vermək dolayısı ilə Peyğəmbərin(s) də peyğəmbərliyini təsdiqləmək deməkdir. Bundan əlavə tarixdə Tüfeyl ibn Əmr Dusi kimilərin hicrətdən az əvvəl iman gətirdiyini bildirərkən qeyd edirdilər ki, Peyğəmbər(s) ona təkcə kəlmə-şəhadəti öyrətməklə kifayətlənmiş namaz və oruc kimi əməllərdən qətiyyən danışmamışdır. Bütün bunlar onu göstərir ki, gündəlik namazın da vacib edildiyi merac hadisəsi hicrətdən bir qədər əvvəl baş vermişdir.

Meracın besətin onuncu ilindən qabaq baş verdiyini bildirənlər səhv edirlər. Çünki besətin səkkiz-onuncu illəri ərzində Peyğəmbər(s) Əbutalib dərəsində mühasirədə olmuşdur və müsəlmanların həmin dövrdəki vəziyyəti onlara gündəlik namaz kimi əməlin vacib edilməsinə imkan vermirdi. Besətin səkkizinci ilindən əvvələ gəldikdə isə bu vaxt Qüreyşin təyziqlərindən əlavə müsəlmanların sayı həddən artıq az idi belə bir şəraitdə namaz kimi gündəlik əməlin vacib edilməsi heç inandırıcı görünmür. Əmirəl-möminin Əlinin(ə) besətdən üç il qabaq Peyğəmbərlə(s) birlikdə namaz qılmağa başladığını göstərən hədislərlə bağlı isə onu qeyd etməliyik ki, həmin namazlarda məqsəd heç də gündəlik namazlar olmayıb. Bu, sadəcə müstəhəb və ya sırf ibadət xarakteri daşıyan namazlar olub.

[1] Sireyi İbn Hişam, c-2, s-27

### *Merac cismanimi olmuşdur?*

Həzrət Peyğəmbərin(s) meracı haqda müxtəlif fikirlər səsləndirilmiş, onun cismani, yoxsa ruhani olması barədə təzadlı nəzəriyyələr irəli sürülmüşdür. Quran ayələri, eləcə hədislər meracın cismani olduğunu açıq şəkildə bildirsə[1] də bir sıra elmi iradlar kimlərinsə bu həqiqəti qəbul etməməsinə, nəticədə meracın yalnız ruhani olması ilə razılaşmasına səbəb olmuşdur. Onlar belə hesab edirlər ki, meracda baş verənləri Peyğəmbər(s) ruhən izləmiş, sonra həmin ruh yenidən o həzrətin bədəninə qayıtmışdır. Bəziləri isə daha da ifrata vararaq idda etmişlər ki, güya bütün bu hadisələr yuxuda baş vermişdir. Sonuncu fikir həqiqətdən o qədər uzaqdır ki, ona gərək heç səsləndirilmiş fikirlər arasında yer verilməsin. Çünki Qüreyş müşrikləri Peyğəmbəri(s) bir gecədə qeyd olunmuş yerləri seyr etməsini eşitdikdə qıcıqlanmış və onu təkzib etmişlər. Bu söhbət bütün məclislərin müzakirə obyektinə çevrilmişdir. Əgər bütün bunlar həqiqətən də yuxuda baş vermişdisə, müşriklərin əsəbləşməsinin, Peyğəmbəri(s) təkzib etməsinin nə mənası var idi. Kiminsə belə bir yuxu görməsi mübahisəyə səbəb ola bilməz. Yuxuda qeyri- mümkün işlər də mümkünə çevrilə bilər və bunun üçün mübahisə etməyin mənası və lüzumu yoxdur. Deməli, bu fikrə elə də əhəmiyyət verilməməlidir. Ancaq təəssüflər olsun ki, Fərid Vəcdi kimi Misir alimləri bu fikri bəyənmiş və əsassız sübutlara onu dəstəkləmişlər.[2]

### *Ruhani meracın mənası*

Meracın cismani olduğunu həzm edə bilməyənlər bu barədə olan ayə və hədisləri məcazi mənaya yozaraq meracın ruhani olduğunu iddia etmişlər. Ruhani merac dedikdə Allahın yaratdıqları barədə təfəkkürə qərq olmaq nəzərdə tutulur. Yəni, insan maddi və dünyəvi amillərdən kənarlaşaraq onda elə bir mənəvi hal yaranır ki, onu dildə vəsf qeyri-mümkündür.

Ruhani meracdan məqsəd Allah-talanın əzəməti, dünyanın böyüklüyü haqda düşünməkdirsə, bu, təkcə Peyğəmbərə(s) məxsus olmuş bir vəziyyət olmayıb. Əksər peyğəmbərlərdə, hətta peyğəmbər olmayan

---

[1] Məcməul-bəyan, c-3, s-395

[2] Dairətul-məarif, c-6, s-329

övliyalarda bu xususiyyət olmuşdur. Quran isə sözügedən meracın yalnız Peyğəmbərə(s) aid olduğunu bildirir. Bundan əlavə, merac yuxarıda deyilən mənadadırsa Peyğəmbər(s) demək olar bütün gecələr Allahın əzəməti haqda düşünürmüş. Haqqında söhbət edilən meracın isə müəyyən, konkret bir gecədə baş verdiyi göstərilir.

Meracın ruhani olduğunu iddia edənləri belə bir fikir irəli sürməyə vadar edən, iki min ilə yaxın, bütün dünyaya hakim kəsilmiş Ptolomey nəzəriyyəsi olmuşdur. Bu nəzəriyyə barədə yüzlərlə kitab yazılmış, son vaxtlara qədər dünyanın qəbul etdiyi elmi həqiqətlərdən biri olmuşdur. Bu nəzəriyyənin xulasəsi belədir: «Dünyadakı varlıqlar iki növdür: Yer cismləri, fəza cismləri. Yer cismləri su, torpaq, hava və oddan ibarət əsas həyat elementləridir. Gözümüzə dəyən ilk element torpaqdır. Sonra su, ondan sonra hava, sonda isə od elementidir. Bu elementlərdən hər biri digərlərini əhatə edib və bir-birindən ayrılmazdır. Sonra fəza cismləri başlayır. Fəza cismlərindən məqsəd bir-biri ilə əlaqəsi olub ancaq birləşməyən, nə də ayrılmayan doqquz planetdir. Onlar sanki soğan pərdəsi kimi bir-biri ilə bağlıdır və heç bir cism onların arasından keçə bilməz. Çünki keçəcəyi təqdirdə bu pərdə qırılmalıdır.»

Meracın (ruhani olmaqla yanaşı həm də) cismani olması o deməkdir ki, deməli, Peyğəmbər(s) şaquli xətt üzrə yerdən göyə tərəf qalxmış, dörd elementi keçdikdən sonra fəza cismlərini də bir-bir geridə qoyaraq aralarındakı pərdəni yırtmışdır. Ptolomey nəzəriyyəsinə görə bu iş qeyri-mümkün olduğundan, Peyğəmbər də meraca cismən deyil, ruhən getmişdir.

***Bu nəzəriyyəyə cavab***

Ptolomey nəzəriyyəsi qüvvədən düşməyənə qədər yuxarıda deyilənləri haradasa qəbul etmək olardı. Ancaq indi bu nəzəriyyənin heç bir əhəmiyyəti qalmayıb və onun əsassız olduğu çoxdan sübuta yetirilib. İnsanın ayın səthinə endiyi bir dövrdə daha kimsə Ptolomey nəzəriyyəsini qəbul edə bilməz. Müasir dövrdə texnika inkişaf etmiş, insanlar göy cismləri haqda Ptolomeyin nəzəriyyəsinə deyil, qəti sübutlara əsaslanırlar. Ptolomey nəzəriyyəsinə əsaslanmağın vaxtı çoxdan arxada qalmışdır.

***Digər əsassız bir iddia***

Şeyxiyyə təriqətinin lideri Şeyx Əhməd Ehsayi Qətifiyyə traktatında hər iki nəzəriyyəni (ruhani meracla cismani merac nəzəriyyəsini) birləşdirməyə çalışmışdır. O, belə hesab edir ki, Peyğəmbər(s) Bərzəx aləminə xas olan bədənlə (bərzəx aləminə xas olan bədən san ki, yuxuda bütün işləri görə bilən bədən kimidir) meraca getmişdir. Şeyx Əhməd bu yolla həm meracın ruhani, həm də cismani olduğunu iddia edənləri razı salmağa çalışmışdır. Eyni zamanda fəza cismlərinin bir-birindən qırılması probleminin aradan qalxdığını zənn etmişdir.

Haqq axtarışında olanlar bu nəzəriyyəni də əvvəlki nəzəriyyə kimi əsassız hesab edərək onu da ayə və hədislərlə uyğun gəlmədiyini bildirmişlər. Çünki merac haqqında bəhs edilən ayədə məhz dünyəvi bədən başa düşülür, nəinki Bərzəx aləminə xas olan bədən. Axı ayədəki «əbd» sözünü ərəblər sırf dünyəvi bədənə aid edirlər. Bərzəx aləminə xas olan bədən haqda isə ərəblərin heç bir anlayışı olmayıb. Quran da həmin ərəblərə nazil edilib. (Quran camaatın başa düşə bilməyəcəyi ifadə işlətməz.)

Ptolomey nəzəriyyəsi Şeyx Əhmədin də fikrində sezilir. O, bu nəzəriyyənin lövhi-məhfuz kimi dəyişməz olduğunu güman etmişdir. Müasir şəkildə qədim nəzəriyyənin ardınca getmək olmaz. Şeyx Əhmədin nə vaxtsa belə bir fikir söylədiyinə müəyyən dərəcədə göz yummaq olar, indi isə bu fikirlə razılaşmaq olmaz.

***Müasir elmi qanunlarla meracın uyğunsuzluğu***

Bəzi alimlər meracın müasir elmi qanunlarla uyğun gəlmədiyini düşünür. Çünki:

1) Elm deyir ki, yerdən uzaqlaşmaq üçün cazibə qüvvəsini ötüb keçmək lazımdır. Nyutonun cazibə qanununa əsasən göyə atdığımız bir şey cazibə qüvvəsi nəticəsində yenidən yerə qayıdır. Əgər göyə atacağımız şeyin öz hərəkətinə davam edib yerə düşməsi üçün həmən şeyin saatda 25000 mil surətlə havaya atmalıyıq. Meracın cismani olduğunu qəbul etsək, bu, o deməkdir ki, Peyğəmbər(s) cazibə qüvvəsini ötüb keçmiş və havada qalmışdır. Onda belə bir sual yaranır ki, Peyğəmbər bu məsafəni texnika olmadan necə qət etmişdir?

2) Yerdən bir neçə kilometr yuxarıda hava ağırlaşır. Get-gedə ümumiyyətlə havasızlıq başlayır. Peyğəmbər meracda olduğu müddət ərzində oksigensiz necə qala bilmişdir?

3) Digər cismlə toqquşarkən onu məhv edən göy cismləri (məsələn, astroid və kometalar) hava qatları ilə toqquşduqda toz halına düşür və heç yerə də gəlib çatmır. Sanki bu hava qatları yer sakinləri üçün zireh rolunu oynayır. Belə olan halda Peyğəmbər həmin göy cismlərindən necə qorunmuşdur?

4) Hava sıxlığının artıb azalması insan həyatı üçün təhlükəlidir. Həyatın davam etməsi üçün müəyyən bir hava sıxlığı olmalıdır ki, yuxarıda da bu sıxlıq yoxdur.

5) Peyğəmbər meraca gedərkən sözsüz ki, işıq sürətindən də yüksək sürətlə getmişdir. İşığın saniyədə üç yüz min kilometr getdiyi bu gün elmdə sübut edilmişdir. Heç bir cismin işıq sürətindən yüksək gedə bilmədiyi də sübuta yetirildiyi halda Peyğəmbər bu məsafəni hansı sürətlə qət etmiş, sağ-salamat gedib geri qayıtmışdır?

***Suallara cavab***

Məsələni təbii qanunlara gətirib çıxarsaq, suallar daha da artar. Lakin mövzunu bu məcraya çəkənlər bununla nə demək istəyirlər. Yəni, cismən meraca getməyin qeyri-mümkün olduğunumu iddia edirlər? Əgər belədirsə, onda qeyd etməliyik ki, indi artıq şərq və qərb kosmik mərkəzləri bu işin mümkün olduğunu sübuta yetirmişdir. 1957-ci ildə ilk fəza gəmisi Sputnikin göyə göndərilməsi ilə cazibə qüvvəsini keçməyin mümükünlüyü aşkar oldu. Sonradan kosmonavtların da fəzaya getməsi ilə nə vaxtsa bəşərin göyə qalxa bilməsinin qeyri-mümkün olması fikrinin yalnış olması üzə çıxdı. İnsanlar indi elm və texnikanın inkişafı sayəsində göydə hava çatışmazlığı kimi məsələləri də həll etmişlər. Alimlər bir müddət sonra Ay və Marsda yaşayışın mümkün olacağını bildirirlər.

«Həzrət Peyğəmbərin(s) meraca gedərkən heç bir texnikadan istifadə etmədiyi halda bu işi necə həyata keçirə bilmişdir?» sualına cavab olaraq qeyd etməliyik ki, möcüzə haqqında, xüsusilə də fil süvarilərinin Kəbəyə hücumu zamanı kiçik daş zərbələri nəticəsində ölmələri barədə danışar-

kən bu məsələyə də aydınlıq gəldi. Belə ki, adi insanların təbii vasitələrlə həyata keçirə bildiyi işləri peyğəmbərlər heç bir təbii vasitədən istifadə etmədən, sırf Allahın qüdrəti sayəsində həyata keçirə bilərlər. Həzrət Mühəmməd(s) də Allahın qüdrəti və istəyi ilə meraca getmişdir. Yerə cazibə qüvvəsi, günəşə hərarət, havaya müxtəlif qatlar (hidrosfer, litosfer və s.) vermiş Allah istədiyi vaxt onlardan həmin qüvvələri almaqla Öz bəndəsini göyə aparmağa qadirdir. Yoxsa Allahın da təbii vasitələrə ehtiyacı var? O, təbii vasitələr olmadan da bəndəsini cazibə qüvvəsindən kənara çıxara bilər. Dünyanın bütün oksigenini yaratmış Allah havasızlıq mühitində ən sevimli bəndəsi üçün qısa müddətə oksigen əmələ gətirə bilməzmi? Ümumiyyətlə, möcüzəni adi bəşər işləri ilə qarışdırmaq və ya eyniləşdirmək olmaz. Allahın qüdrətini, imkanlarını özümüzünkü kimi məhdud hesab etməməliyik. Müəyyən vasitələr olmadan hansısa işi görə bilmiriksə, bu, o demək deyil ki, Allah da vasitələr olmadan hansısa işi görməkdə acizdir. Bütün səmavi kitabların təsdiqlədiyi Musanın(ə) əsasının əjdahaya çevrilməsi, İsanın(ə) ölüləri diriltməsi və Yunisin(ə) xeyli müddət balığın qarnında sağ qalması kimi məsələlər sual-cavab baxımından heç də meracdan geri qalmır. Bir sözlə bütün təbii vasitələr yenilməz qüdrət sahibi Allahın iradə və istəyinə tabedir. O, yalnız və yalnız qeyri-mümkün işləri iradə etməz. Mümkün olası bütün işlər isə Onun istəyi əsasında reallığa çevrilə bilər. İstər bəşər də onu icra etməyə qadir olsun, istər olmasın.

Bütün dediklərimiz Allahı Özünəməxsus sifətlərlə qəbul edən, Onun hər işə qadir olduğuna inanan şəxslərə aiddir.

### *Peyğəmbərin(s) meraca aparılmasında məqsəd*

Bir nəfər imam Səccadın(ə) yanına gəlib soruşur: «Allahın konkret bir yeri varmı?» İmam buyurdu ki, xeyr. Həmin şəxs bu dəfə soruşur: «Allah nəyə görə Peyğəmbəri göylərə apardı?» İmam buyurdu: «Allah məkan və zamana sığmaz. O, mələkləri və göy sakinlərini Peyğəmbərin gəlişi ilə şərəfləndirmək, Peyğəmbəri dünyanın sirlərindən xəbərdar etmək, ona heç kəsin görməyib eşitmədiyi şeyləri göstərib eşitdirmək istəmişdir ki, yerə qayıtdıqdan sonra bu barədə camaata danışsın.»[1]

---

[1] Təfsiri- Bürhan, c-2, s-400

Bəli, sonuncu peyğəmbər belə bir özəlliyə malik olmaqla Aya, Marsa getmək fikrinə düşmüş XX-XXI əsr insanına mesaj göndərməli idi ki, mən hələ yeddinci əsrdə heç bir texnikadan istifadə etmədən oralara getmişəm.

# TAİF SƏFƏRİ

Acı hadisələrlə yadda qalan besətin onuncu ili başa çatır. Həmin il Peyğəmbər(s) onu dəstəkləyən iki yaxın adamını əldən verir. Əvvəlcə Əbdülmüttəlib xanədanının böyüyü, o həzrətin yeganə müdafiəçisi Əbutalib vəfat edir. Bunun ağrı-acısı hələ unudulmamış Peyğəmbərin(s) sevimli xanımı Xədicə(s.ə) dünyadan getməklə kədər üstə kədər gəlir. Əbutalib Peyğəmbəri(s) qorumaqla onu dəstəkləyirdisə, Xədicə də bütün mal-dövlətini İslam yolunda xərcləməklə o həzrətə dəstək olurdu.

Besətin on birinci ilindən başlayaraq Peyğəmbər(s) ona qarşı kin-küdurətin hakim kəsildiyi bir mühitdə yaşayırdı. İstənilən an o həzrəti təhlükə gözləyirdi. Heç bir vəchlə İslamın təbliği ilə məşğul ola bilmirdi. İbn Hişam yazır: «Əbutalibin vəfatından sonra cəmi bir neçə gün keçdikdən sonra Qüreyş müşriklərindən biri Peyğəmbərin(s) başına torpaq tökür. Üst-başı bulaşmış Peyğəmbər(s) evə gəldikdə qızlarından biri onun vəziyyətini görüb tez su gətirir. Ağlaya-ağlaya atasının baş-gözünü yuyur. Peyğəmbər(s) qızına təsəlli verib buyurur ki, ağlama qızım, Allah atanı qoruyacaq. Daha sonra isə əlavə edir: Nə qədər ki, Əbutalib sağ idi, müşriklər mənə toxunmağa belə cürət etmirdilər.»[1]

Peyğəmbər(s) Məkkə mühitinin münasib olmadığını görüb başqa yerə getmək qərarına gəlir. O vaxt Taif ən əlverişli variant idi. Bu səbəbdən həzrət Taifə gedərək Səqif qəbiləsinin başçıları ilə danışıb onları İslama dəvət etməyi planlaşdırır. Həzrət bu yolla bəlkə uğur qazanacağına ümid edirdi. Taifə gəlib Səqif qəbiləsinin başçıları ilə görüşür, onları İslama dəvət edir. Lakin sözləri onlarda zərrəcə təsir qoymur. Onlar Peyğəmbərə(s) deyirlər: «Əgər həqiqətən də Allahın peyğəmbərisənsə, sənin sözünü inkar etmək əzab gəlməsi ilə nəticələnər, yox əgər yalan deyirsənsə, onda heç danışmağa haqqın yoxdur.» Peyğəmbər(s) onların bu məntiqsiz sözlərinin bəhanədən başqa bir şey olmadığını

[1] Sireyi İbn Hişam, c-1, s-25

anlayır. Onlardan xahiş edir ki, bu söhbət aralarında qalsın və heç kimə bu barədə bir kəlmə də deməsinlər. Çünki Səqif qəbiləsinin alçaq adamları onun qərib və tək olmasından sui-istifadə edə bilərdilər. Qəbilənin başçıları ona söz versələr də sözlərinin üstündə durmur və qəbilə sadəlövhlərini Peyğəmbərə(s) qarşı təhrik edirlər. Özünü düşmən əhatəsində görən Peyğəmbər(s) özünü güclə Ütbə və Şeybə qardaşlarının bağına çatdırır. Bu iki qardaş Qüreyşin imkanlı şəxslərindən idilər və Taifdə də bağları var idi. Peyğəmbərin(s) sir-sifətindən tər axırdı, həm də xəsarət almışdı. Həzrət üzüm tənəklərinin kölgəsində oturub aşağıdakı cümlələri dilinə gətirir: «İlahi, zəif,köməksiz olduğumu Özün görürsən! Sən rəhmli Allahsan, kimsəsizlərin Allahısan, məni kimin ümidinə buraxırsan?...» Bu, əlli il fədakar şəxslərin himayəsində şərəflə yaşamış bir şəxsin sözləridir. İndi elə bir vəziyyət yaranıb ki, o, düşmənin bağına sığınaraq öz aqibətinin nə ilə nəticələcəyini gözləyir.

Ütbə ilə Şeybənin atası Rəbiə İslamın qatı düşmənlərindən olsa da oğlanları Peyğəmbərin(s) bu halına acıyıb Əddas adlı nökərlərinə deyirlər ki, apar ona bir səbət üzüm ver, qoy yesin. Əddas üzümlə dolu səbəti gətirib Peyğəmbərin qarşısına qoyur, bir qədər həzrətin nurani simasına tamaşa edir. Bu zaman onun diqqətini maraqlı bir məqam cəlb edir. Belə ki, Peyğəmbər(s) üzümü yeyərkən «Bismillahir-rəhmanir-rəhim»-deyir. Bundan təəccüblənən Əddas sükutu pozub deyir: «Ərəbistan yarımadasının əhalisi belə bir cümlə eşitməyib, onlar hər hansı bir işi başlayarkən Lat və Üzzanın adını çəkirlər. Peyğəmbər(s) ondan haralı olduğunu və hansı dinə qulluq etdiyini soruşduqda Əddas Neynəvadan və xaçpərəst olduğunu bildirir. Bunu eşidən Peyğəmbər(s) buyurur: «Yunis ibn Mata peyğəmbərin diyarındansan.» Həzrətin bu cavabı Əddası daha da təəccübləndirir. Peyğəmbərdən soruşur ki, sən Yunis ibn Matanı haradan tanıyırsan? Peyğəmbər(s) cavabında buyurur ki, qardaşım Yunis də mənim kimi peyğəmbər olmuşdur. Həzrətin doğru olduğuna dəlalət edən sözləri Əddası olduqca təsirləndirir və ixtiyarsız Peyğəmbərin vurğununa çevrilir. Onun əl-ayağına düşərək iman gətirir. Sonra icazə alıb bağ sahiblərinin yanına qayıdır.

Xaçpərəst Əddasın tam dəyişdiyini görən Ütbə ilə Şeybə təəccüblənib soruşurlar ki, o qəriblə nə danışırdın və nəyə görə onun qarşısında

müti idin? Əddas onlara cavabında deyir: «Sizin bağınıza sığınmış bu adam bütün insanların ağasıdır. Onun mənə dediyi sözlərdən ancaq peyğəmbərlərin xəbəri var. O, gələcəyi barədə müjdə verilmiş peyğəmbərdir.» Ütbə ilə Şeybə, Əddasın dediklərini heç bəyənmədilər. Sanki onun xeyrini istəyirlərmiş kimi ona deyirlər ki, birdən o səni öz dinindən uzaqlaşdırar, sənin qulluq etdiyin din, onun dinindən daha yaxşıdır.

***Peyğəmbərin(s) Məkkəyə dönüşü***

Nə yolla olur-olsun, Peyğəmbər(s) Taifdən Məkkəyə qayıtmalı idi. Ancaq Məkkəyə qayıtmaq da elə asan iş deyildi. Çünki o həzrətin yeganə müdafiəçisi Əbutalib artıq dünyada yox idi və Məkkəyə girərkən müşriklər onu ələ keçirib öldürə bilərdilər. Peyğəmbər belə qərara gəlir ki, bir neçə gün Nəxlədə (Taiflə Məkkə arasında yer) qalıb oradan bir nəfəri ona sığınacaq vermək üçün Qüreyş başçılarından birinin yanına göndərsin. Ancaq təəssüflər olsun ki, Nəxlədə belə bir adam tapılmır. Peyğəmbər(s) Nəxlədən birbaşa Həra mağarasına gəlir. Orada bir ərəblə rastlaşıb onu Mütim ibn Ədinin yanına göndərir ki, onun üçün sığanacaq alsın. Ərəb Məkkəyə gəlib Peyğəmbərin(s) sözünü Mütimə çatdırır. Mütim bütpərəst olmasına rəğmən Peyğəmbərin(s) istəyini qəbul edib ərəbə deyir: «Mühəmmədə de ki, birbaşa mənim evimə gəlsin. Mən oğlanlarımla birlikdə onu qoruyacağam.» Peyğəmbər gecə vaxtı Məkkəyə girib düz Mütimin evinə gedir. Gecəni orada başa vurur. Səhər açıldıqda Mütim Peyğəmbərə(s) deyir: «Sənə sığınacaq verdiyimizi qüreyşlilər bilməlidir. Hamı bundan xəbərdar olsun deyə, gəl bir yerdə Məscidül-hərama gedək.» Peyğəmbər(s) bu təklifi bəyənir. Mütim öz oğlanlarına silahlanıb Mühəmmədlə birlikdə məscidə gəlmələrini tapşırır. Onların Məscidül-hərama girişi çox maraqlı alınır. Belə ki, çoxdandı Peyğəmbəri ələ keçirməyə çalışan Əbu Süfyan, Peyğəmbərin(s) Mütim və övladlarının nəzarəti altında məscidə gəldiyini görüb fikrindən daşınır. Mütim və oğlanları bir kənarda oturur, Peyğəmbər(s) isə təvaf edir. Sonra həzrət öz evinə gedir.[1]

[1] Ət-Təbəqatul-kubra, c-1, s-210-212; əl-Bidayətu vən-nihayə, c-3, s-137

Bu hadisədən bir müddət sonra Peyğəmbər(s) Mədinəyə hicrət edir. Hicrətin elə ilk ilindəcə Mütim Məkkədə vəfat edir. Onun vəfat xəbəri Mədinəyə çatdıqda Peyğəmbər(s) onun bu yaxşılığını xatırlayır. İlk İslam şairlərindən olan Həssan ibn Sabit onun bu əməli barədə bir neçə beyt şer də deyir. Peyğəmbər(s) onun yaxşılığını dəfələrlə xatırlamışdır. Hətta Bədr döyüşündə çoxsaylı müşrik əsir edildikdə Peyğəmbər(s) Mütimi xatırlayıb buyurur: «İndi Mütim sağ olub bu əsirləri azad etməyimi və ya ona bağışlamağımı istəsəydi, istəyini qəbul edərdim.»

Həzrət Peyğəmbərin(s) Taifə səfəri onun necə səbrli olmasından, İslamı təbliğ etməkdən usanmadığından xəbər verir. Mütim ibn Ədinin yaxşılığını heç vaxt unutmaması isə onun böyük əxlaqının göstəricisidir. Lakin bunların hər ikisindən də əhəmiyyətlisi Əbutalibin dəyərli xidmətini araşdırmaqdır. Mütim ibn Ədi Peyğəmbəri(s) bir neçə saat və ya ən çoxu bir neçə gün öz himayəsində saxlamışdı. Əbutalib isə bütün ömrü boyu o həzrətə himayədarlıq etmişdi. Mütim Əbutalibin çəkdiyi əzab-əziyyətin heç mində birini çəkməmişdi. Mütimin bir neçə saatlıq xidmətinin əvəzində Peyğəmbər(s) bütün Bədr əsirlərini ona bağışlamağa hazır idisə, bəs görəsən Əbutalib üçün nə edərdi? Qırx iki il Peyğəmbəri(s) müdafiə etmiş, son on ildə isə demək olar həyatı ilə oyun oynamış Əbutalibin, Peyğəmbərin yanında yəqin özünəməxsus yeri olmalıdır. Üstəlik bu iki şəxs arasında böyük fərq var. Mütim müşrik olduğu halda Əbutalib İslam dünyasının qabaqcıl simalarından biri olmuşdur.

***Peyğəmbərin məşhur ərəb bazarlarındakı çıxışları***

Həcc mövsümündə ərəblər Okaz, Mucnə, Zil-məcaz kimi müxtəlif bazarlarda toplaşır, tanınmış şair və xətiblər hündür bir yerə qalxaraq eşq, özünü öymə və s. mövzularda şer və xütbələr oxuyurdular. Əvvəlki peyğəmbərlər kimi həzrət Mühəmməd(s) də bu fürsətdən istifadə edib (həm haram aylarda kiməsə təcavüz etmək yolverilməz idi, həm də bu qədər camaatı bir daha harada tapmaq olardı!) hündür bir yerə çıxıb camaata xitabən deyirdi: «Allahın təkliyinə iman edin, səadətə çatın! Yalnız iman qüvvəsi ilə dünyaya ağalıq edə bilərsiniz. İman gətirsəniz, hamını itaətinizdə saxlaya, axirətdə də Cənnəti qazana bilərsiniz.»

### *Peyğəmbər(s) həcc mövsümündə qəbilə başçılarını İslama dəvət edir*

Peyğəmbər(s) həcc mövsümündə qəbilə başçıları ilə də təkbətək görüşüb dininin mahiyyətini onlara açıqlayır, onları İslama dəvət edirdi. Bəzən belə vaxtlarda Əbu Ləhəb özünü yetirib deyirdi: «Onun sözlərinə qulaq asmayın! O, əcdadınızın dinini qəbul etmir, dedikləri də boş sözlərdir.»

Peyğəmbərin(s) əmisinin bu hərəkəti həzrətin təbliğini təsirsiz edirdi. Belə ki, qəbilə başçıları deyirdilər: Onun dedikləri doğru olsaydı, qohumları ona qarşı çıxmazdılar.[1]

Bir gün Bəni-Amir qəbiləsindən bir dəstə adam Məkkəyə gəlir. Peyğəmbər onları İslama dəvət etdikdə onlar bir şərtlə müsəlman olacaqlarını bildirirlər. Şərtləri də o idi ki, Peyğəmbər vəfat etdikdən sonra camaata rəhbərlik edəcək şəxs mütləq bizim qəbilədən olmalıdır. Peyğəmbər(s) onlara buyurur: «Bu iş Allahın əlindədir. Kimi məsləhət bilsə, onu seçəcək.»[2] Bunu eşitdikdə Bəni-Amirdən olanlar iman gətirməkdən imtina edirlər. Öz qəbilələrinə qayıtdıqda baş verənləri müdrik bir qocaya danışırlar. Qoca bunları eşidib deyir: «O, Məkkə səmasında parlayan ulduzdur.» Bu da onu göstərir ki, imamət məsələsi Peyğəmbərin(s) və kiminsə seçimi və istəyi əsasında yox, Allah tərəfindən təyin edilən bir məsələdir.

---

[1] Ət-Təbəqatul-kubra, c-1, s-216; Sireyi İbn Hişam, c-1, s-422

[2] Sireyi İbn Hişam, c-1, s-426

## ƏQƏBƏ SÖZLƏŞMƏSİ

Qədim dövrlərdə Vadil-qura Yəmən-Şam ticarət yolu idi. Yəmən tacirləri Məkkədən keçdikdən sonra uzun bir dərə ilə xeyli gedirdilər. Bu dərə Vadil-qura adlanırdı. Dərə qurtardıqdan sonra bağlı-bağatlı yerlər gəlirdi ki, Yəsrib şəhəri də məhz orada yerləşirdi. Peyğəmbər oraya hicrət etdikdən sonra Yəsrib adı Mədinətur-Rəsul ilə əvəz edilir. Burada dördüncü əsrdən etibarən Yəmən qəhtanilərindən olan Ovs və Xəzrəc qəbilələri məskunlaşmışdı. Onlardan başqa üç yəhudi tayfası-Bəni-Qüreyzə, Bəni-Nəzir və Bəni-Qeynüqa (hər üç tayfa Ərəbistan yarımadasının şimalından köçüb Yəsribə gəlmişdi) da burada yaşayırdı.

Hər il Yəsrib ərəblərindən bir dəstəsi həcc mərasimini yerinə yetirmək üçün Məkkəyə gəlir, Peyğəmbər(s) onlarla əlaqə saxlayırdı. Həzrətin Yəsribə hicrət etməsində bu görüşlərin müstəsna rolu olmuşdur. İlk vaxtlarda bu görüşlərin elə bir faydası olmasa da, ən azından Yəsrib hacıları geri döndükdə yeni zühur etmiş peyğəmbər barəsindəki söz-söhbəti ən əsas xəbər olaraq Yəsribə yayır və camaatı bu məsələdən xəbərdar edirdilər. Əhəmiyyətli olduğunu nəzərə alaraq Besətin on bir, on iki və on üçüncü illərində baş tutmuş bu görüşlərindən bəzisini diqqətinizə çatdırmaq istəyirik. Bütün bunları nəzərə aldıqda «Peyğəmbər(s) nə üçün məhz Yəsribə hicrət etdi?» sualına aydınlıq gəlir.

1) Peyğəmbər(s) Məkkəyə gəlmə bir adamın daxil olduğunu eşitdikdə dərhal onun görüşünə gedib onu İslama dəvət edirdi. Bir gün o həzrət Süveyd ibn Samitin Məkkəyə gəldiyini eşidir. Onunla görüşüb İslama dəvət etdikdə Süveyd deyir: «Bəlkə də bu dediklərin elə Loğmanın kəlamlarıdır.» Peyğəmbər buyurdu: «Loğmanın kəlamları gözəldir, amma Allahın mənə nazil etdikləri ondan da gözəldir. Çünki onlar hidayət məşəlidir.»[1] Daha sonra həzrət onun üçün Qurandan bir

[1] Sireyi İbn Hişam, c-1, s-425

neçə ayə də oxuyur. Süveyd İslamı qəbul edib Yəsribə qayıdır, lakin Buas döyüşündə xəzrəclilər tərəfindən qətlə yetirilir.

2) Əms ibn Rafe Bəni-Əbdüləşhəl qəbiləsindən olan bir neçə gənclə Məkkəyə gəlir. Gənclər arasında Əyas ibn Məaz da var idi. Məkkəyə gəlməkdə məqsədləri xəzrəclilərə qarşı Qüreyşdən hərbi yardım almaq idi. Peyğəmbər(s) onlarla görüşüb İslama dəvət edir, Qurandan bir neçə ayə oxuyur. Şücaətli Əyas yerindən qalxıb iman gətirdiyini bildirərək deyir: «Bu din Qüreyşdən alacağımız yardımdan daha yaxşıdır.» O, İslam dininin onları bütün sahələrdə təmin edə biləcəyini çox yaxşı anlamışdı. Çünki məhz İslam sayəsində qardaş qırğını və cəmiyyətdəki fəsadlara son qoyula bilərdi. Əyasın qəbilə başçısının razılığını almadan iman gətirməsi Ənəsi qəzəbləndirir. Qəzəbini soyutmaqdan ötrü əlinə bir ovuc xırda daş götürüb Əyasın üzünə çırparaq deyir: «Kəs səsini, biz İslam dinini qəbul etmək üçün bura gəlməmişik, Qüreyşdən yardım almağa gəlmişik.» Bundan sonra Peyğəmbər(s) onlardan ayrılır. Onlar da Yəsribə qayıdırlar.

Xəzrəc və Ovs qəbilələri arasında baş vermiş Buas döyüşündə Əyas qətlə yetirilir.[1]

***Buas döyüşü***

Ovs və Xəzrəc qəbilələri arasında baş vermiş döyüşlərdən biri də Buas döyüşü olmuşdur. Bu döyüşdə Ovs qəbiləsi qalib gəlib düşmənin xurma bağlarını yandırır. Sonra ara-sıra yenə də döyüşlər baş vermişdir. Mədinə əyanlarından olan Abdullah ibn Übeyy bu döyüşdə iştirak etmədiyinə görə hər iki qəbilə yanında böyük hörmətə malik idi. Artıq hər iki qəbilə döyüşməkdən bezmiş, sülh etmək fikrinə düşmüşdü. Qəbilələr sülh bağlamağı Abdullah ibn Übeyyə həvalə etmiş hətta onun üçün xüsusi bir tac da hazırlanmışdı. Lakin Xəzrəc qəbiləsindən bir qrup şəxsin İslamı qəbul etməsi bu işə mane olur. Belə ki, artıq altı nəfər Məkkədə Peyğəmbərlə(s) görüşərək ona iman gətirmişdilər. Peyğəmbər(s) onlarla görüşərkən soruşmuşdu: «Siz yəhudilərlə müttəfiqmisiniz?» Onlar müsbət cavab verdikdə həzrət: «Əyləşin bir qədər söhbət edək»-deyə buyurmuş, xeyli söhbət edib Qurandan ayələr

---

[1] Sireyi İbn Hişam, c-1, s-427

oxumuşdu. Peyğəmbərin(s) sözlərinin təsiri nəticəsində altı nəfərin hamısı elə oradaca iman gətirir. Onların İslamı qəbul etməsində əsas rol oynayan o oldu ki, mədinəlilər yəhudilərdən tezliklə bir ərəb peyğəmbər gəlib bütpərəstliyin axırına çığacağını və təkallahlıq dinini bərpa edəcəyini eşitmişdilər. Ona görə də deyirlər ki, yəhudilərdən qabaq bu peyğəmbərə elə biz özümüz kömək edək. Onlar Peyğəmbərə(s) deyirlər: «Bizim aramızda həmişə döyüş baş verir. Ümid edirik ki, Allah taala sənin pak dinin vasitəsilə bu döyüşlərə son qoyacaq. İndi Yəsribə qayıdıb sənin dinini yayacağıq. Hamı onu qəbul edəcəyi təqdirdə bizim üçün səndən əziz adam olmayacaq.» Yəsribə qayıtdıqdan sonra bu altı nəfər İslam dininin yayılması ilə məşğul olur. Artıq Yəsribdə elə bir ev qalmamışdı ki, orada Peyğəmbər(s) barədə söhbət edilməsin.[1]

***İlk Əqəbə sözləşməsi***

Qeyd edilən altı nəfərin təbliğatı çox gözəl nəticə verir. İndi Yəsribdə iman gətirənlər təkcə o altı nəfər yox, böyük bir dəstə idi. Besətin on ikinci ilində on iki nəfərdən ibarət kiçik bir dəstə Məkkəyə gələrək Əqəbədə Peyğəmbərlə(s) görüşüb ilk sözləşmə imzalayırlar. On iki nəfər arasında ən tanınmış şəxslərdən Əsəd ibn Zürarə və Übadə ibn Samit də var idi. İman gətirdikdən sonra onlar Peyğəmbərlə(s) aşağıdakı məzmunlu bir sözləşməyə razılıq verirlər: «Aşağıdakılara dair Allahın rəsuluna söz veririk: Allaha şərik qoşmayacaq, oğurluq və zina etməyəcək, övladlarımızı öldürməyəcək, bir-birimizi (pis işlərdə) ittiham etməyəcək, bəyənilməz işlər görməyəcək və yaxşı işlər görəcəyik.»

Sözləşmə imzalandıqdan sonra Peyğəmbər(s) onlara buyurur: «Buna əməl etsəniz, yeriniz Cənnət olacaq, əməl etməsəniz, onda Allah ixtiyar sahibidir, ya günahınızdan keçər, ya da cəzalandırar.» Bu sözləşmə tarixdə «Beyətun-nisa» (yəni qadınlarla sözləşmə) kimi tanınmışdır. Çünki Peyğəmbər(s) Məkkənin fəthində qadınlarla da belə bir sözləşmə həyata keçirmişdi.

On iki nəfərdən ibarət dəstə iman dolu qəlblə Yəsribə qayıdıb İslamın təbliği ilə məşğul olur. Bir müddət sonra onlar Peyğəmbərə(s) mək-

[1] Tarixi Təbəri, c-2, s-86

tub yazıb onlara Quran öyrətmək üçün bir nəfər göndərməsini istəyirlər. Peyğəmbər(s) də Müsəb ibn Ümeyri onlara Quran öyrətmək üçün Yəsribə göndərir. Müsəbin fəaliyyəti nəticəsində müsəlmanlar Peyğəmbərin(s) iştirakı olmadan bir yerə toplaşıb birlikdə namaz qılırdılar.[1]

***İkinci Əqəbə sözləşməsi***

Yəsrib müsəlmanlarında xüsusi fəallıq hiss olunurdu. Onlar Peyğəmbərlə(s) görüşmək, ona istənilən şəkildə xidmət etməyə hazır olduqlarını bildirmək, sözləşmənin dairəsini kəmiyyət və keyfiyyət baxımından artırmaq üçün həcc mövsümünün tez gəlib çatmasını arzulayırdılar.

Yəsribdən beş yüz nəfərlik həcc karvanı yola düşür. Karvanda ikisi qadın olmaqla yetmiş üç müsəlman var idi. Qalanları isə ya bitərəf, ya da İslama meyilli idi. Yetmiş nəfərdən ibarət müsəlman dəstəsi Məkkədə Peyğəmbərlə görüşüb yeni sözləşmə üçün vaxt təyin etməsini istəyirlər. Peyğəmbər(s) onlara buyurur ki, Minada görüşərik. Zilhəccə ayının on üçü gecə camaat yatan vaxt Əqəbənin aşağı tərəfinə gələrsiniz.

Zilhəccə ayının on üçü gəlib çatır. Peyğəmbər(s) əmisi Abbasla birlikdə Əqəbəyə hamıdan qabaq gedir. Gecə yarısı olur. Müşriklər yuxuya getdikdən sonra müsəlmanlar bir-birinin ardınca yerindən qalxıb yavaşca Əqəbəyə doğru gəlirlər. Hamı toplaşdıqdan sonra Peyğəmbərin(s) əmisi Abbas sözə başlayıb deyir: «Ey xəzrəclilər! Siz artıq Mühəmmədin dinini qəbul etmisiniz. Bilin ki, o, öz qəbiləsinin ən hörmətli şəxsidir. İstər mömin olsun, istərsə kafir, bütün Bəni-Haşim onu müdafiə edir. İndi Mühəmməd sizə üstünlük verib və sizin aranızda olmaq istəyir. Sözləşmənizə əməl edib onu müdafiə edə biləcəksinizsə, o, sizin yanınıza gəlməyə hazırdır. Yox əgər çətin anlarda onu tək qoyacaqsınızsa, onda indidən ondan əl çəkin, qoyun öz qəbiləsi arasında şərəflə yaşasın.» Bu vaxt Bərra ibn Mərur ayağa qalxaraq deyir: «And olsun Allaha, ürəyimizdə dilimizdə dediyimizdən başqa bir şey yoxdur. Peyğəmbərə(s) xidmət etməkdən başqa bir fikrimiz yoxdur.» Sonra xəzrəclilər Peyğəmbərin(s) də öz fikrini bildirməsini istəyirlər. Peyğəmbər(s) Qurandan bir neçə

[1] Sireyi İbn Hişam, c-1, s-131

ayə oxuyub buyurdu: «Arvad-uşağınızı müdafiə etdiyiniz kimi, məni də müdafiə edəcəksinizsə, onda sizin yanınıza gəlməyə hazıram.» Bərra ibn Mərur yenə də qalxıb deyir: «Bizim günümüz döyüş səngərlərində keçib. Bunu ata-babalarımızdan irs aparmışıq.»

Xəzrəclilərin sevinc sədası ətrafı bürümüşdü. Abbas, Peyğəmbərin(s) əlindən tutduğu halda buyurdu: «Sözsüz ki, bizi izləyənlər var. Yavaş danışın!» Bundan sonra Bərra ibn Mərur, Əbülheysəm ibn Teyhan və Əsəd ibn Zürarə durub razılıq əlaməti olaraq Peyğəmbərə(s) beyət edir, onların ardınca digərləri də həzrətə əl uzadırlar.

Əbülheysəm Peyğəmbərə(s) beyət edərkən deyir: «Ey Allahın rəsulu! Biz yəhudilərlə sülh sazişi bağlamışdıq. İndi məcburuq ki, buna məhəl qoymayaq.» Peyğəmbər(s) buyurur: «Sizin bağladığınız sazişlərin hamısına mən hörmətlə yanaşıram. Musa ibn İmran Bəni-İsraildən on iki nəfər seçdiyi kimi, siz də aranızdan on iki nəfər seçin və mübahisəli məqamlarda yekun qərarı onlar bildirsinlər.» Beləliklə, doqquzu Xəzrəcdən, üçü də Ovsdan olmaqla on iki nümayəndənin adı Peyğəmbərə(s) təqdim edilir. (Tarixçilər onların hamısının adını qeyd etmişlər.)

Sözləşmə başa çatır, Peyğəmbər(s) yəsriblilərə söz verir ki, uyğun bir vaxtda Məkkəni tərk edib Yəsribə gələcək.[1]

### *Əqəbə sözləşməsindən sonra*

İndi qarşıya belə bir sual çıxır ki, İslamın meydana gəldiyi mühitdən xeyli uzaqda yaşayan yəsriblilər necə oldu ki, məkkəlilərdən tez iman gətirdilər? Başqa sözlə desək, necə oldu ki, yəsriblilərlə bir-iki görüş Peyğəmbərin(s) Məkkədəki on üç illik fəaliyyətindən daha səmərəli alındı? Bunun səbəbini iki şeydə axtarmaq lazımdır:

1) Yəsriblilər uzun müddət idi ki, yəhudilərlə bir yerdə yaşayır. İstər-istəməz məclislərdə bir ərəb peyğəmbərinin zühur edəcəyindən danışılırdı. Hətta yəhudilər yəsriblilərə deyirdilər ki, yeni zühur edəcək bu peyğəmbər bütpərəstliyə son qoyub yəhudiliyi (təkallahlığı) yayacaq. Yəhudilərlə aparılan bu söhbətlər yəsriblilərdə yeni gələcək peyğəmbərə qarşı böyük ruh yüksəkliyi yaratmışdı. Xəzrəc qəbiləsindən altı

---

[1] Sireyi İbn Hişam, c-1, s-438-444; ət-Təbəqatul-kubra, c-1, s-221-223

nəfərin Peyğəmbərlə(s) ilk görüşdəcə iman gətirməsi və elə o vaxt bir-birinə: «Bu, yəhudilərin intizarını çəkdiyi həmin peyğəmbərdir. Biz ona yəhudilərdən tez iman gətirməliyik.»-deməsi də deyilənləri təsdiqləyir.

Quranın yəhudilərə ünvanladığı iradlardan biri də məhz odur ki, onlar bütpərəstləri yeni bir ərəb peyğəmbərinin zühur edəcəyi ilə hədələyir və bu barədə camaata müjdə verirdilər. Hətta İncildən də onun əlamətlərini oxumuşdular. Bəs nə üçün özləri ona iman gətirmədilər? Bu barədə deyilir: «Onlara Allah tərəfindən əllərindəkini (Tövratı) təsdiq edən bir kitab (Quran) göndərildiyi zaman (onu qəbul etmədilər). Halbuki əvvəlcə (Peyğəmbərdən qabaq) kafirlərə (ərəb müşriklərinə) qələbə çalmaq üçün (Tövratda adı çəkilən axirüzzaman peyğəmbər gəlib bizə yardım edəydi!-deyə Allaha) yalvarırdılar. Bildikləri (peyğəmbər) gəldikdə isə (paxıllıq edib) ona inanmadılar. Allah kafirlərə lənət eləsin!»[1]

2) Yəsriblilərin (Ovs və Xəzrəc qəbilələri) arasındakı 120 illik müharibələrdən usanıb bezmələri də onların İslamı qəbul etməsində əsas amillərdən olmuşdur. Onlar döyüşlər nəticəsində sanki hər şeydən əl üzmüş, bütün ümid qapılarının bağlandığını zənn edirdilər. Təkcə iki qəbilə arasında baş vermiş Buas döyüşünü araşdırdıqda yəsriblilərin həyatı göz önündə canlanır. Bu döyüşdə əvvəlcə Ovs qəbiləsi məğlubiyyətə uğrayıb Nəcdə doğru qaçırlar. Qalib gəlmiş xəzrəclilərin tənəsinə dözə bilməyən Ovs başçısı Hüzeyr öz nizəsini baldırına sancıb atından yıxılır. Öz qəbiləsinin adamlarının üstünə çığıraraq deyir: «And olsun Allaha, yerdən qalxmayacağam qoy məni öldürsünlər!» Hüzeyrin bu hərəkəti məğlub qoşunda mübarizə ruhiyyəsini dirçəldir. Onlar yenidən döyüşə başlayırlar. Fədakar ordu həmişə qalibdir. Buna görə də əvvəlcə məğlubiyyətə uğramış Ovs qəbiləsi xəzrəclilərə qalib gəlib onların xurma bağlarına od vurur.

Buas döyüşündən sonra da ara-sıra döyüşlər baş verir. Hər iki qəbilə həyatını çətinliklərlə davam etdirirdi. Heç biri bu vəziyyətdən razı deyildi. Bir ümid qapısının açılacağını gözləyirdilər.

Bu səbəbdən Xəzrəcdən olan altı nəfər Peyğəmbərlə(s) görüşərkən deyirlər ki, bəlkə Allah sizin sayənizdə aramızdakı nifaqa son qoydu.

---

[1] Bəqərə-89

Bunlar yəsriblilərin İslamı məmnuniyyətlə qəbul etmələrinə səbəb olmuş amillərdəndir.

*Qüreyş müşriklərinin Əqəbə sözləşməsinə münasibəti*

Qüreyş müşrikləri sanki qəflət yuxusuna getmişdilər. İslam dininin Məkkədə elə də inkişaf etmədiyini görüb tezliklə səs-sədasının yatacağını güman edirdilər. Lakin ikinci Əqəbə sözləşməsi qüreyşlilər arasında bomba kimi partladı. Qüreyş başçıları yetmiş üç nəfərin Əqəbədə Peyğəmbərlə görüşüb onu müdafiə edəcəklərinə dair söz vermişdi. Bu xəbər onları təşvişə salır. Onlar bir-birinə deyirdilər ki, müsəlmanlar Ərəbistan yarımadasında özlərinə bir mərkəz düzəldib hamı ora yığışacaq. Sonra da bütpərəstliyə son qoymaq üçün Məkkəni hədələyəcəklər.

Baş verənləri araşdırmaq məqsədilə Qüreyş başçıları səhər tezdən xəzrəclilərlə görüşüb deyirlər: «Bizə məlumat çatıb ki, siz ötən gecə Mühəmmədlə Əqəbədə görüşərək onu müdafiə edəcəyinizi bildirmisiniz.» Xəzrəclilər and içib deyirlər ki, heç vaxt bizimlə sizin aranızda döyüş baş verməsinə razı olmarıq.

Yəsriblilərin həcc karvanı təxminən beş yüz nəfərdən ibarət idi. Onlardan yalnız yetmiş üç nəfəri Əqəbədə Peyğəmbərlə(s) sözləşmədə iştirak etmiş, qalanları isə həmin vaxt yuxuda olmuşdu və heç nədən xəbərləri yox idi. Buna görə də müsəlman olmayanlar belə bir şeyin olmadığına dair and içirlər. Bütün Yəsribin başçısı seçilməyə hazırlaşan Abdullah ibn Übeyy Xəzrəci deyir: «Belə bir şey ola bilməz. Xəzrəclilər mənimlə məsləhətləşmədən heç nə etməzlər.»

Daha dəqiq araşdırma aparmaq üçün Qüreyş başçıları onlardan ayrılırlar. Həmin görüşdə iştirak edən müsəlmanlar sirrin faş olduğunu görüb bir-birinə deyirlər: «İşin üstü açılmamış tez Məkkədən çıxıb Yəsribə yola düşmək lazımdır.»

Yəsriblilərdən bəzisinin Məkkəni tələm-tələsik tərk etməsi müşrikləri bir qədər də şübhələndirir. Onlar verilən məlumatın doğru olduğunu başa düşüb yəsribliləri təqib etməyə başlayırlar. Ancaq artıq iş-işdən keçmişdi və həcc karvanı məkkəlilərin əhatə dairəsindən uzaqlaşmışdı. Müşriklər yalnız Səd ibn Übadəni ələ keçirə bilirlər.

İbn Hişam belə hesab edir ki, müşriklər Səd ibn Übadə ilə yanaşı Münzir ibn Əmri də tuturlar. Lakin sonuncu onların əlindən qaçmağı bacarır.

Müşriklər acımadan Səd ibn Übadənin saçından yapışıb onu yerlə sürüyürdülər. Qüreyşli bir kişi onun bu halına acıyıb Sədin yanına gələrək deyir: «Məkkəlilərdən kiminləsə sözləşmən yoxdurmu?» Səd ibn Übadə Mütim ibn Ədiyy ilə bir-birini müdafiə etmələri haqqında sözləşmə bağladığını, onun ticarət karvanını Yəsribdən keçərkən qarətlərdən qoruduğunu bildirir. Sədi bu vəziyyətdən qurtarmağa çalışan qüreyşli kimi tez özünü Mütimə çatdırıb deyir: «Xəzrəclilərdən biri tutulub. Qüreyşlilər ona işkəncə verir. İndi o səndən kömək gözləyir.» Mütim ibn Ədiyy gəlib Sədi görən kimi tanıyır. Onu xilas edib Yəsribə yola salır. Səd ibn Übadənin ələ keçdiyini öyrənən müsəlmanlar geri qayıdıb onu qurtarmaq qərarına gəlirlər. Elə bu zaman Səd özünü onlara yetirir və başına gələnləri danışır.[1]

***İslamın mənəvi nüfuzu***

Bəzi şərqşünaslar İslamın qılınc gücünə inkişaf etdiyini qələmə verməyə çalışırlar. Bu fikrin nə dərəcədə doğru olub-olmadığını gələcək hadisələr göstərəcək. Nümunə üçün hələ Peyğəmbərin(s) hicrətindən qabaq Yəsribdə baş vermiş bir hadisəni qeyd etmək istəyirik. Bu hadisəni araşdırdıqda İslamın sırf cazibə sayəsində inkişaf etdiyinin şahidi oluruq.

Peyğəmbər(s) Müsəb ibn Ümeyri Əsəd ibn Zürarənin xahişi ilə Yəsribə Quran öyrətməyə göndərir. Əsəd ibn Zürarə ilə Müsəb ibn Ümeyr belə qərara gəlirlər ki, Yəsrib böyüklərini məntiq və dəlil-sübutla İslama dəvət etsinlər. Bir gün onlar bir sıra müsəlmanın oturduğu bağa gəlirlər. Bəni-Əbdüləşhəl qəbiləsinin başçılarından olan Səd ibn Məaz və Üseyd ibn Hüzeyr də orada idi. Səd ibn Məaz Üseydə deyir: «Qılıncını da götür get o iki nəfərin yanına! Onlara de ki, İslamı yaymaqdan əl çəksinlər. Öz sözləri ilə sadəlövh adamlarımızı aldatmasınlar. Əsəd ibn Zürarə xalam oğlu olduğuna görə mən özüm getməyə utanıram.»

Üseyd qılıncını əlinə götürüb qəzəbli halda adı çəkilən iki nəfərin qarşısına çıxır və Səd ibn Məazın dediklərini təkrarlayır. Təbliğ metodunu Peyğəmbərdən(s) öyrənmiş Müsəb ibn Ümeyr ona deyir: «Müm-

---

[1] Sireyi İbn Hişam, c-1, s-448-450

künsə, bir qədər əyləş, söhbət edək. Dediklərimlə razılaşmasan, gəldiyim yolla geri dönərəm.» Üseyd deyir ki, insafən, yaxşı söz dedin. Qılıncı qınına salıb bir qədər oturur. Müsəb Qurandan bir neçə ayə oxuduqda Quranın şirinliyi, cazibəsi onu elə təsirləndirir ki, Müsəbin məntiqi qarşısında susur, ixtiyarsız olaraq soruşur: «Müsəlman olmağın yolu nədir?» Müsəb deyir ki, Allahın təkliyini etiraf et, bədənini və paltarlarını suya çək və namaz qıl!

Bir qədər əvvəl Müsəblə Əsədin qanını tökməyə gələn Üseyd Allahın təkliyinə və Mühəmmədin(s) Onun elçisi olduğuna şəhadət verir, yaxınlıqdakı suda qüsl edib paltarlarını yuyur. Kəlmeyi-şəhadəti deyə-deyə Səd ibn Məazın yanına qayıdır.

Səd ibn Məaz səbirsizliklə Üseydin yolunu gözləyirdi. Onun gülərüzlə gəldiyini görüb yanındakılara deyir: «And olsun Allaha ki, Üseyd əqidəsini dəyişib. O, getdiyi işi bacarmayıb.» Üseyd gəlib baş verənləri danışdıqda Səd əsəbləşir. Ayağa qalxıb şəxsən özü Müsəblə Əsədin ardınca gedir. Ancaq Üseydin başına gələnlər Sədin də başına gəlir. O da Üseyd kimi Müsəbin məntiqi qarşısında aciz qalıb peşmanlıq hissi keçirir. İman gətirərək elə oradaca qüsl edir, paltarlarını paklayır. Sonra öz qəbiləsinin arasına qayıdıb qəbilə üzvlərini bir yerə toplayaraq deyir: «Camaat mən sizə qarşı necə adam olmuşam?» Hamı: «Sən qəbiləmizin başçısısan, hamımızın ağasısan»-deyə cavab verir. Səd deyir: «Qəbilə adamları İslamı qəbul etməyincə, mən heç kimlə kəlmə kəsməyəcəyəm.»

Qəbilə başçısının sözləri bütün qəbilə üzvlərinə çatdırılır. Çox çəkmir ki, bütün Bəni-Əbdüləşhəl hələ Peyğəmbərin(s) üzünü görməmiş müsəlman olur.[1]

İslam tarixində belə nümunələr kifayət qədərdir. Onların hər biri bəzi şərqşünasların İslamın güya qılınc gücünə inkişaf etməsi iddiasının yalan olduğunu göstərir.

Çünki bu hadisələrdə heç kimə qarşı zor tətbiq edilməyib.

Qeyd etdiyimiz nümunədə İslamı qəbul edənlər Peyğəmbəri(s) nə görmüş, nə də onunla hər hansı təmasda olmuşdular. Yalnız bir İslam təbliğatçısının məntiqinə əsasən onlar İslamı qəbul edirlər.

---

[1] Əlamul-vəra, s-37; Biharul-ənvar, c-19, s-10-11

*Qüreyş müşrikləri vəhşətə gəlir*

Yəsriblilərin müsəlmanları dəstəkləməsi, onlara arxa çıxması bir daha Qüreyş müşriklərini qəflət yuxusundan oyadır. Müşriklər yenidən müsəlmanlara işkəncələr verməklə İslamın irəliləməsinə mane olmağa çalışırdılar. Peyğəmbərin səhabələri müşriklərin işkəncələrindən şikayətlənib, o həzrətdən başqa bir yerə köçmələrinə icazə verməsini istəyirlər. Peyğəmbər(s) bir neçə gün möhlət aldıqdan sonra buyurur: «Sizin üçün ən gözəl yer Yəsribdir. Bir-bir, iki-iki, arxayınlıqla ora hicrət edə bilərsiniz.»

Mühacirət etməyə icazə verildikdən sonra müsəlmanlar müxtəlif bəhanələrlə Məkkəni tərk edib Yəsribə üz tuturlar. Müşriklər işin lap əvvəlində müsəlmanların bu planlarından xəbərdar olurlar. Belə qərara gəlirlər ki, yolda kimisə tutsalar, geri qaytarmağa çalışsınlar. Mühacirət edən şəxs ailəsi ilə gedərsə və həyat yoldaşı Qüreyşdən olarsa, arvadını aparmağa qoymasınlar. Onlar mühacirət etmək istəyənləri tutub həbs etsələr də, ona işkəncə versələr də öldürməkdən çəkinirdilər. Xoşbəxtlikdən müşriklər bu sahədə elə də uğur qazana bilmirlər.[1]

Nəhayət, çoxları Qureyş müşriklərinin cəngindən qurtarıb Yəsribə getməyə müvəffəq olur. Məkkədə Peyğəmbər(s), Əli, xəstə və ya həbs edilmiş müsəlmandan başqa digər müsəlman qalmır. Müsəlmanların Yəsribdə toplanması Qüreyş müşriklərini daha da vəhşətə gətirir. İslamı aradan aparmaq məqsədi ilə bütün qəbilə başçıları Darun-nüdvədə toplaşıb təkliflər irəli sürürlər! Onların bütün təklifləri Peyğəmbərin(s) gördüyü tədbirlər sayəsində nəticəsiz qalır.

Həzrəti Mühəmməd(s) besətin on üçüncü ili rəbiül-əvvəl ayında Məkkədən Yəsribə hicrət edir. Qüreyş müşrikləri Peyğəmbərin(s) yeni İslam mərkəzi açacağından qorxur, nə edəcəklərini bilmirdilər. Çünki planlarının heç biri baş tutmamışdı. Peyğəmbər(s) hələ özü hicrət etməzdən əvvəl Məkkədəki müsəlmanlara mühacirət edib yəsribli qardaşlarına tapşıraraq buyurmuşdu: «Allah-taala sizin üçün qardaşlar seçmiş və evlər hazırlamışdır.»

[1] Ət-Təbəqatul-kubra, c-1, s-225-226

## HİCRƏTİN BİRİNCİ İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR

### *Hicrət*

Qüreyş müşrikləri çətinliklərin həlli üçün Darun-nüdvədə toplaşır, çıxış yollarını müzakirə edirdilər. Besətin on iki və on üçüncü illərində məkkəlilər böyük çətinliklə üzləşmişdilər. Onları qorxudan müsəlmanların Yəsribdə toplaşması və yerli camaatın Mühəmmədi dəstəkləməsi idi.

Besətin on üçüncü ili rəbiül-əvvəl ayında Məkkədə müsəlmanlardan yalnız Peyğəmbər özü, Əli, azsaylı xəstə və yaşlı şəxslər qalmışdı. Onlar da Məkkəni tərk etmək ərəfəsində idi. Həmin vaxt Qüreyş başçıları çox təhlükəli bir qərar qəbul edirlər.

Müşriklər Darun-nüdvəyə toplaşırlar. Məclisi açan şəxs əvvəlcə müsəlmanların Yəsribdə toplaşmasından, Ovs və Xəzrəc qəbilələrinin sözləşmələrindən danışdı, sonra dedi: «Biz Məkkə camaatının hamının yanında hörmətimiz var idi. Ancaq Mühəmməd aramızda təfriqə yaratdı. Artıq səbr kasamız dolub. Aramızdan şücaətli bir şəxs çıxıb onu gizlicə qətlə yetirməklə bizi bu bəladan qurtarmalıdır. Əgər Bəni-Haşim ayağa qalxsa, qanbahasını ödəyərik.»

Yığıncaqda iştirak edən və özünü Nəcdli kimi qələmə verən naməlum bir qoca bu fikri bəyənməyib deyir: «Bu iş baş tutası deyil. Çünki Bəni-Haşim qanbaha ilə kifayətlənməyəcək. Onlar Mühəmmədin qatilini öldürməyincə sakitləşən deyil. Bu işi könüllü olaraq qəbul etmək istəyən şəxs ilk öncə ölümünü göz önünə gətirməlidir. Aranızda isə belə bir adam yoxdur.»

Digər Qüreyş başçısı Əbülbuxturi deyir: «Yaxşısı budur Mühəmmədi həbsə salaq, gündəlik yemək-içməyini verək ki, acından ölməsin. Bu yolla dinin yayılmasının qarşısını da almış olarıq.» Yaşlı kişi yenə etiraz edib deyir: «Xeyr, elə iş olmaz. Bəni-Haşim yenə də sizinlə döyüşə başlayacaq. Axır onu azad edəcəklər. Əgər imkanları olmasa da həcc mövsümündə qəbilələrdən yardım alıb bunu bacaracaqlar.»

Üçüncü şəxs qalxıb deyir ki, gəlin Mühəmmədi ram olunmamış bir dəvəyə mindirib hər iki qıçını da bağlayaq. Dəvə onu dağa-daşa çırpıb öldürəcək. Birdən sağ qalarsa da hansısa qəbilənin arasında yaşayacaq. Dinini gedib onların arasında yayar. Bütün qəbilələr bütpərəst olduğu üçün təbii ki, həmin qəbilə Mühəmmədə qarşı çıxıb onu öldürər, bizi də onun şərrindən qurtarar. Nəcdli qoca buna da etiraz edib deyir: «Mühəmmədin sözlərinin necə ecazkar olduğunu siz yaxşı bilirsiniz. O, şirin dili ilə digər qəbilələri özünə tabe edib sizə hücum edər.»

Məclisə sükut hakim kəsilmişdi. Birdən Əbu Cəhl (bəzi mənbələrə görə isə Nəcdli qoca) təklif irəli sürüb deyir: «Axırıncı çıxış yolumuz budur ki, hər qəbilədən bir nəfər yığışıb gecə ikən Mühəmmədi tikə-tikə doğrasınlar. Belə olan halda Bəni-Haşim bütün qəbilələrlə döyüşə bilməz.»

Bu təklifi hamı bəyənir. Hər qəbilədən bir nəfər seçilir. Belə qərara gəlirlər ki, axşam olan kimi dərhal işə başlasınlar.[1]

### *Qeybi imdadlar*

Müşriklər qurduqları planla Mühəmmədin(s) peyğəmbərliyinin başa çatdığını düşünürdülər. Digər peyğəmbərlər kimi Mühəmmədin(s) də qeybi imdadlardan faydalanacağı onların heç ağlına da gəlmirdi. Onlar inana bilməzdilər ki, bu on üç ildə İslam çırağını qoruyub saxlayan qüvvə bundan sonra da onu qoruyacaq.

Təfsirçilər deyirlər: ***«Vəhy mələyi nazil olub aşağıdakı ayə ilə Peyğəmbəri müşriklərin planından xəbərdar edir: «(Ya Rəsulum!) Yadına sal ki, bir zaman kafirlər səni həbs etmək və ya öldürmək, yaxud da (Məkkədən) çıxardıb qovmaq üçün (Darun-nüdvədə) sənə qarşı hiylə qururdular. Allah da (onların bu hiyləsinə qarşı) tədbir tökdü. Allah tədbir tökənlərin ən yaxşısıdır!»***[2]

Beləliklə, Allah tərəfindən Peyğəmbərə(s) Yəsribə hicrət etmək göstərişi verilir. Ancaq rəhmsiz bütpərəstlərin əlindən qurtulmaq, özü də belə bir gündə heç də asan məsələ deyildir. Məkkə ilə Yəsrib arasındakı məsafəni nəzərə alsaq, işin çətinliyi daha da yaxşı başa düşülür.

---

[1] Ət-Təbəqatul-kubra, c-1, s-227-228; Sireyi İbn Hişam, c-1, s-480-482

[2] Ənfal -30

Əgər Məkkədən çıxmaq üçün düzgün plan çızılmasaydı, müşriklər onu ələ keçirib qətlə yetirəcəkdilər.

Tarixçilər hicrət məsələsini müxtəlif şəkillərdə yazmışlar. Özü də bu fərqliliyə başqa hadisələrdə qətiyyən rast gəlmək olmur. Sireyi-Hələbinin müəllifi müxtəlif fikirləri müəyyən qədər bir-birilə əlaqələndirsə də bəzən ziddiyətləri aradan qaldıra bilməmişdir. Maraqlı məqam ondan ibarətdir ki, həm sünni, həm də şiyə hədisçiləri hicrətlə bağlı hadisələri nəql etdikdə Peyğəmbərin(s) hicrətini əsasən möcüzə ilə əlaqələndirib bu işin kəramət sayəsində həyata keçdiyini qeyd edirlər. Lakin hadisənin incəliklərinə diqqət yetirdikdə məlum olur ki, Peyğəmbərin(s) qurtuluşu qabaqcadan planlaşdırılmış bir sıra işlərin nəticəsində mümkün olmuşdur. Allah-taala da o həzrətin məhz təbii yolla qurtulmasını istəmişdir. Peyğəmbərin(s) Əlini öz yerində yatızdırması, özünün mağaraya çəkilməsi kimi hallar da həzrətin təbii vasitələrdən istifadə etdiyini göstərir.

***Vəhy mələyi Peyğəmbərə xəbər verir***

Allah-taala vəhy mələyinin vasitəsilə Peyğəmbəri(s) müşriklərin qurduğu plandan xəbərdar edir. İndi həzrət Yəsribə hicrət etmək məcburiyyətindədir. Ancaq izi azdırmaqdan ötrü kimsə onun yerində yatmalıdır ki, müşriklər onun hələ də yuxuda olduğunu, evdən kənara çıxmadığını zənn etsinlər, nəticədə bütün diqqətləri evin mühasirəsinə yönəltsinlər. Bu işin yeganə müsbət cəhəti o idi ki, nəzarətçilərin diqqəti Peyğəmbərin(s) evinə cəlb ediləcək, o özü isə nəzarətçilərin xəbəri olmadan başqa bir yerə gedə biləcəkdi. Bəs Peyğəmbərin(s) yerində yatmaqla öz canını təhlükəyə atan şəxs kim olacaqdı? Yəqin ki, ona ilk iman gətirən, besətin lap əvvəl günlərindən Peyğəmbərin başına pərvanə kimi dolanan şəxs bu işi görməli idi. Bəli, bu şəxs yalnız Əli idi. Buna görə də Peyğəmbər(s) Əliyə müraciət edib buyurur: «Bu gecə mənim yatağımda uzan və mən yatarkən üstümə çəkdiyim yaşıl parçanı da üstünə at! Müşriklər məni öldürmək üçün plan cızıblar. Mən bu gecə mütləq Yəsribə hicrət etməliyəm.»

Əli axşamdan etibarən Peyğəmbərin(s) yatağında uzanır. Gecə yarısı qırx nəfər müşrik həzrətin evini mühasirəyə alır. Onlar qapının

deşiyindən içəri baxıb hər şeyin qaydasında olduğunu görür, yatağdakı şəxsin Peyğəmbər olduğunu düşünürdülər. Bu zaman Peyğəmbər(s) evdən çıxmaq qərarına gəlir. Ev tamamilə mühasirədə olduğundan Allah-taala hər hansı yolla olur olsun, onu evdən çıxarmağı qət etmişdi.

Peyğəmbər(s) Yasin surəsinin ilk doqquz ayəsini oxuya-oxuya evdən çıxır. Həzrətin mühasirəni necə yardığı dəqiq məlum deyil. Böyük təfsirçi Əli ibn İbrahimin Ənfal surəsinin 30-cu ayəsinin təfsirində qeyd etdiyi bir hədisdə məlum olur ki, Peyğəmbər(s) evdən çıxarkən nəzarətçilər yuxuya gedibmiş. Onlar səhərə yaxın evə hücum etmək fikrində olmuşlar. Lakin tarixçilər bildirirlər ki, nəzarətçilər bir an da olsun mürgüləməmişlər. Peyğəmbər sadəcə möcüzə olaraq onların qarşısından keçmiş, onlar da onu görməmişlər.[1]

Belə bir möcüzənin baş verməsinə biz qətiyyən şübhə etmirik. Ancaq gəlin görək buna lüzum var idimi? Hicrətdən qabaqkı vəziyyəti araşdırdıqda məlum olur ki, Peyğəmbər(s) evi mühasirə edilməzdən qabaq müşriklərin planından xəbərdar olmuşdu. Özü üçün çəkdiyi plan da tam təbii olmuşdur. Belə ki, o, Əlini öz yatağında uzandırmaqla müşriklərin çəngindən adi yolla qurtarmaq istəmiş, bundan ötrü oturub möcüzə gözləmişdir. Deməli, Peyğəmbər(s) hələ ev mühasirə edilməzdən qabaq oradan çıxa bilərdi və möcüzəyə də ehtiyac yox idi. Ancaq Peyğəmbərin(s) mühasirəyədək evdə qalması bizə məlum olmayan bir səbəblə əlaqədar ola bilər. Hər halda Peyğəmbərin(s) mühasirədən sonra evdən çıxması birmənalı qəbul edilmir. Bəzi tarixçilər həzrətin mühasirədən qabaq evdən çıxdığını bildirmişlər.[2]

### *Müşriklərin Peyğəmbərin(s) evinə hücumu*

Kafirlər evi mühasirəyə almış, Peyğəmbəri(s) yataqdaca qətlə yetirmək üçün əmr gözləyirdilər. Bəziləri elə gecə yarısında bu işi icra etmək istəsə də Əbu Ləhəb mane olub demişdi: «Bəni-Haşim arvad uşaqları evdədir. Evə hücum edərkən onlar xəsarət ala bilərlər.» Hücumun gecikməsinin səbəbi kimi o da qeyd olunur ki, güya kafirlər Peyğəmbəri gündüz, Bəni-Haşimin gözü önündə öldürmək istəmişlər və bununla da

[1] Ət-Təbəqatul-Kubra, c-1, s- 228; Tarixi Təbəri, c-2, s-100
[2] Sireyi Hələbi, c-2, s-29

Bəni-Haşim qatilin bir adam olmadığını görsün. Axırda belə qərara gəlirlər ki, evə səhər tezdən hücum etsinlər.

Gecənin qaranlığı yavaş-yavaş çəkilir, hava açılmağa başlayırdı. Müşriklər sevincək görünürdülər. Tezliklə öz istəklərinə çatacaqlarını düşünürdülər. Əllərində qılınc evə daxil olurlar. Bu zaman Əli yataqdan qalxıb üstündəki yaşıl örtüyü kənara ataraq soyuqqanlı şəkildə nə baş verdiyini soruşur. Müşriklər ondan Mühəmmədin harada olduğunu soruşduqda deyir: «Məgər onu mənə tapşırmışdınız ki, indi də məndən soruşursunuz? Mühəmməd evdə yoxdur.» Müşriklərin sifətində qəzəb cizgiləri açıq şəkildə sezilirdi. Kəssəydin, qanları çıxmazdı. Səhərə qədər gözlədiklərinə peşman idilər. Hamı Əbu Ləhəbi qınayırdı. Çünki gecə evə girməyə məhz o mane olmuşdu. Qüreyş müşrikləri planlarının baş tutmadığına görə çox narahat olmuşdular. Bu qısa müddət ərzində Mühəmmədin Məkkədən çox da uzaqlaşa bilməyəcəyini, ya Məkkənin özündə gizləndiyini, ya da Yəsrib yolunda olduğunu anlayıb onu təqib etməyə başlayırlar.

### *Peyğəmbər(s) Sur mağarasında*

Hicrətin ilk və növbəti iki günü Peyğəmbərin(s) Əbu Bəkrlə birlikdə Məkkənin cənubunda yerləşən Sur mağarasında gizləndiyi dəqiq məlumdur. Lakin bu yoldaşlığın necə baş tutması qaranlıq qalmışdır. Bəzi tarixçilər belə hesab edirlər ki Peyğəmbər(s) Əbu Bəkrlə təsadüfən yolda rastlaşmış, onu da özü ilə aparmışdır.

Digər bir dəstə isə bu fikirdədir ki, Peyğəmbər(s) hicrət gecəsi Əbu Bəkrin evinə getmiş, gecə yarısı hər ikisi evdən çıxıb Sur mağarasına gəlmişdir. Üçüncü bir dəstə də Əbu Bəkrin Peyğəmbərin(s) evinə gəldiyini, Əlinin onu həzrətin gizləndiyi yerə göndərdiyini qeyd edir.[1] İstənilən halda bir çox tarixçilər bunu xəlifənin fəzilətlərindən hesab etməyə çalışmışdır.

### *Qüreyş müşrikləri Peyğəmbərin(s) axtarışında*

Peyğəmbər(s) Məkkədən (daha doğrusu evindən) çıxması ilə müşriklər onun axtarışına başlayırlar. Yəsribə gedən bütün yollara nəzarətçilər qoyulur. İzlər vasitəsilə insan tapmaqda ad çıxaran şəxslər işə cəlb

[1] Tarixi Təbəri, c-2, s-100

olunur. Qüreyş başçıları Mühəmmədi tapacaq şəxsə mükafat olaraq yüz dəvə veriləcəyini bildirirlər.

Qüreyşlilər əsasən Məkkənin şimal səmtini, Yəsribə gedən yolu axtarırdılar. Peyğəmbər(s) isə izi itirmək üçün Məkkənin cənubuna, Yəsriblə əks istiqamətdə yerləşən Sur dağında gizlənmişdi. Məkkənin tanınmış iz axtaranı Əbu Kirəz Peyğəmbərin(s) izini çox yaxşı tanıyırdı. O, Sur mağarasının yaxınlığına qədər gələrək demişdi: «Ayaq izləri bura qədər gəlmişdir. Ola bilər Mühəmməd mağarada gizlənib.» Mağaranı yoxlamaq üçün bir nəfəri ora göndərir. Mağaraya gələn şəxs giriş qapısında yeni toxunmuş hörümçək torunu və üstündəki göyərçin yumurtalarını[1] görüb içəri daxil olmadan geri qayıdaraq deyir: «Mağaranın girişindəki hörümçək toru içəriyə adam girmədiyindən xəbər verir.»

Qüreyşin axtarış fəaliyyəti üç gün davam edir. Üç gündən sonra hamı məyus olub axtarışı dayandırırlar.

### *Haqq yolunda fədakarlıq*

Ən mühüm məsələlərdən biri də Əlinin haqq yolundakı fədakarlığıdır. Bu, haqq aşiqlərinin xüsusiyyətidir. Malından, canından, hər şeyindən keçib yalnız haqqın dirçəlməsinə xidmət edənlər əsl haqq aşiqləri sırasına qoşulurlar. Beləlari, məqsədi yolundakı səadəti görüb müvəqqəti həyatdan əl üzüb əbədi həyata bağlanırlar.

Əlinin hicrət gecəsi Peyğəmbərin(s) yatağında yatması haqqa olan eşqindən irəli gəlir. Onun bu hərəkəti o qədər dəyərli olmuşdur ki, Allah-taala onu Quranda da tərifləmiş, Allahın razılığını qazanmaq üçün atılmış bir addım adlandırır: ***«İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda (Allah rizası üçün) öz canını fəda edər. Allah Öz bəndələrinə çox mehribandır!»***[2]

Bu əməlin fəziləti, əhəmiyyəti səbəb olub ki, İslam alimləri onu Əmirəl-möminin Əlinin ən böyük fəzilətlərindən biri hesab etmişlər. Həm tarix, həm də təfsir nümayəndələri sözügedən ayənin məhz Əli(ə) haqqında nazil olduğunu bildirmişlər.[3]

---

[1] Ət-Təbəqatul-kubra, c-1, s-229

[2] Bəqərə-207

[3] Müsnədi Əhməd, c-1, s-87; Kənzul-ummal, c-6, s-407

Heç kimə sirr deyil ki, həqiqətin üstünü müəyyən qədər örtmək mümkün olsa da gec-tez haqq öz yerini tutacaq, üstündəki pərdələr kənara çəkiləcək.

Müaviyənin Əhli-beytlə, xüsusilə Əli ilə düşmənçiliyi hamıya məlumdur. O, bəzi səhabələrə pul verib şirnikləndirməklə tarixin parlaq səhifələrini yalanlarla doldurub, ləkələmişdir. Ancaq bu məsələdə Müaviyə də heç nə bacarmır.

Peyğəmbər(s) dövründə yaşamış Səmrə ibn Cundəb ömrününü son vaxtlarında Müaviyənin sarayına üz tutur. O, ayda müəyyən qədər məvacib almaqla həqiqəti təhrif edirdi. Bir gün Müaviyə ona deyir ki, minbərə qalx və insanların eləsi də var ki.... (haqqında danışdığımız ayəni) ayəsinin Əli haqqında deyil, onun qatili Əbdürrəhman ibn Mülcəm haqqında nazil olduğunu bildir! Bu işə görə Müaviyə ona yüz min dirhəm verəcəyini vəd edir. Səmrə razılaşmır, Müaviyə də get-gedə qiyməti qaldırırdı. Dörd yüz min dirhəmə çatdıqda Səmrə razılaşır. Axmaq qoca, Peyğəmbər(s) dövründən onsuz da qara olan həyatını daha da qaraldıb həqiqəti təhrif edir. Ümumi bir yığıncaqda camaata deyir: «Bu ayə Əli barəsində yox, Əbdürrəhman ibn Mülcəm haqqında nazil olmuşdur.» Sadəlövh insanlar onun sözünü qəbul edirlər. Onlar heç fikirləşmədilər ki, Əbdürrəhman ibn Mülcəm Yəməni həmin ayə nazil olarkən axı heç Hicaz mühitində olmamış, bəlkə də heç dünyaya gəlməmişdi. Ancaq həqiqətin üstünü bununla örtmək mümkün olmadı. Atalar demişkən, yalan ayaq tutar, yeriməz. Müaviyə və sülaləsinin (Bəni-Üməyyə xanədanının) hakimiyyəti başa çatır, həqiqəti təhrif edənlər ölüb gedir, həqiqət yenidən üzə çıxır. Demək olar ki, bütün əsrlər boyu tarixçilər, haqqında danışdığımız ayənin Əlinin(ə) fədakarlığı barəsində nazil olduğunu etiraf etmişlər.[1]

### *İbn Teymiyyənin fikri*

Əhməd ibn Əbdülhəlim Hərrani Hənbəli 728-ci ildə Mərakeş zindanında vəfat etmişdir. Vəhhabi məzhəbinin əsas ideologiyasının banisi sayılan bu alim, İbn Teymiyyə adı ilə məhşur olmuşdur. Onun

[1] Şərhi Nəhcül-bəlağə (İbn Əbilhədid), c-13, s-262

Peyğəmbər(s), Əli (ə) və ümumiyyətlə Əhli-beyt haqqında özünəməxsus fikrləri var ki, onları «Minhacus-sunnə» əsərində açıqlamışdır. O, haqqında danışdığımız fəzilət haqqında öz fikrini bildirmişdir. İbn Teymiyyə deyir ki, Əlinin Peyğəmbərin yatağında yatması fəzilət sayıla bilməz. Çünki Əli iki cəhətdən bilirdi ki, Peyğəmbərin yatağında yatmaqla ona bir zərər yetişməyəcək:

1) Peyğəmbər(s) ona buyurmuşdu ki, mənim yatağımda yat, sənə heç bir zərər dəyməyəcək.

2) Peyğəmbər(s) sahiblərinə qaytarılacaq əmanətləri Əliyə verir. Sözsüz ki, Peyğəmbər(s) Əlinin öldürülməyəcəyini bilirmiş. Yoxsa əmanətləri ona verməzdi. Əli özü də bundan başa düşmüşdü ki, ona heç bir zərər dəyməyəcək.

İbn Teymiyyənin bu fikrinə cavab verməzdən öncə qeyd etməliyik ki, o, Əli üçün bir fəziləti inkar etməklə əslində başqa, özü də daha böyük bir fəziləti təsbit etmişdir. Belə ki, Əlinin Peyğəmbərin sözlərinə qarşı imanı ya adi iman olmuş, ya da güclü bir iman olmuşdur. Birinci ehtimala əsasən Əli sağ qalacağını bilirmiş, çünki Peyğəmbərin sözlərində adi imanı olanlar üçün elə də yəqinlik hasil olmur. Üzdə qəbul edən insanlar da, daxilən narahat olur, hətta onun yerində yatsa belə, hər an ölümünü gözləyən halda yatacaq.

İkinci ehtimala əsasən isə İbn Teymiyyə Əli üçün daha böyük bir fəzilət təsbit etmişdir. Belə ki, Peyğəmbərə(s) olan imanı kamil olmuş və qətiyyən şəkk-şübhəsi olmamışdır. Bu isə ən böyük fəzilət sayılır.

Cavabın izahı: Birinci dəlil barədə qeyd etməliyik ki, «sənə heç bir zərər dəyməyəcək» ifadəsi bəzi orijinal mənbələrdə qeyd edilməyib.[1] Düzdür, İbn Əsirlə[2] Təbəri[3] həmin ifadəni qeyd etmişlər. Özü də onlar güya Sireyi İbn Hişama[4] əsaslanmışlar. Biz bildiyimizə görə həmin ifadədən şiə mənbələrində əsər-əlamət yoxdur. Şeyx Məhəmməd ibn Həsən Tusu (vəfat edib hicri 460-cı ildə) özünün Əmali əsərində hicrət hadisəsinə çox geniş yer vermişdir. Ancaq orda haqqında danışılan

---

[1] Ət-Təbəqatul-kubra, c-1, s-227-228

[2] Əl-Kamilu fit-traix, c-2, s-72

[3] Tarixi Təbəri, c-2, s-99

[4] Sireyi ibn Hişam, c-1, s-483

ifadədən xəbər yoxdur. Üstəlik onun qeyd etdikləri ilə sünni mənbələrində yazılanlar arasında böyük fərq var. Şeyx Tusi qeyd edir ki, hicrətin bir və ikinci günləri axşam Əli Xədicənin oğlu Hind ibn Əbu Halə ilə birlikdə Peyğəmbərin yanına gedir. Həmin gecələrdən birində Peyğəmbər(s) Əliyə buyurur: «Bundan sonra onlar sənə bir zərər yetirə bilməzlər, ya Əli!» Bu cümlə demək olar ki, İbn Hişam, Təbəri və İbn Əsirin qeyd etdiyi cümlə ilə eynidir. Lakin Şeyx Tusinin fikrincə Peyğəmbər(s) həmin cümləni Əliyə hicrətdən bir, ya da iki gün sonra buyurmuşdur. Digər tərəfdən Əlinin(ə) öz fikri də bizim üçün gözəl sübut ola bilər. Əli(ə) hicrət gecəsindəki əməlini haqq yolunda fədakarlıq adlandırmışdır. Həzrət Əliyə mənsub olduğu bildirilən beytlərdə deyilir:

«Mən dünyaya gəlmiş ən gözəl insanı, Allahın evini və Hicri-İsmaili ən gözəl şəkildə təvaf edən şəxsi öz canımla qorumuşam.

O şəxs Mühəmməd ibn Abdullahdır.

Mən bu işi kafirlər ona qarşı plan hazırladıqları zaman həyata keçirtdim.

Allah onu kafirlərin şərrindən qorudu.

Mən gecəni səhərəcən onun yatağında uzanıb düşmənləri gözləmişəm.

Ölümə və əsirliyə hazır idim.»[1]

Belə aşkar ifadədən sonra İbn Hişam kimilərinin fikrinə qətiyyən əsaslanmaq olmaz. Ümumiyyətlə İbn Hişamın əsas məqsədi İbn İshaqın sirəsinin xülasəsini yazmaq olduğundan o, həmin cümləni qeyd etməklə kifayətlənmişdir. Ancaq Peyğəmbərin(s) həmin cümləni hicrətin bir və ya iki gün sonra buyurduğunu yazmadığına görə belə təsəvvür yaranır ki, güya həzrət o cümləni hicrətdən qabaq deyibmiş.

Dediklərimizi təsdiqləyən başqa bir sübut şiə və sünni mənbələrində qeyd edilmiş hədisdir. Hədisdə deyilir: «Hicrət gecəsi Allah-taala Cəbraillə Mikaildən soruşur ki, ikinizdən birinə ölüm yazsam, hansınız ölümü seçərsiniz? Heç biri buna razı olmur. Allah buyurur: «Ancaq Əli özünü Peyğəmbərə fəda etməklə indi ölümün pəncəsindədir.» Sonra Cəbraillə Mikailə əmr edir ki, yerə enib Əlini qorusunlar.»[2]

[1] Əl-Fusulul-muhimmə, s-48
[2] Biharul-ənvar, c-19, s-39

Peyğəmbərin(s) əmanətləri sahiblərinə qaytarmaq üçün Əliyə verməsinə və Əlinin də bundan sağ qalacağını bilməsinə gəlincə, İbn Teymiyyə hadisənin davamını qeyd etsəydi, bizə elə gəlir ki, ona da aydınlıq gələrdi.

***Peyğəmbərin(s) hicrətinin davamı***

Peyğəmbərin(s) ilk planları müsbət nəticə verir. O həzrət gecə ikən Sur mağarasına çəkilir. Həzrət qətiyyən həyəcanlanmırdı. Hətta səfər yoldaşına ara-sıra: «Narahat olma, Allah bizimlədir!»[1]deyə təsəlli verirdi. Peyğəmbər(s) üç gün mağarada qalır. Bu müddət ərzində yalnız Əli, Hind ibn Əbu Halə (Xədicənin oğlu), Abdullah ibn Əbu Bəkr və Əbu Bəkrin çobanı Amir ibn Füheyrə həzrətin yanına gedib-gəlirdi.

İbn Əsir yazır: «Əbu Bəkrin oğlu gecələr mağaraya gəlib Qüreyş müşriklərinin planları barədə atası ilə Peyğəmbərə xəbər verirdi. Əbu Bəkrin çobanı Amir isə sürünü geri qaytararkən bilərəkdən yolunu mağaranın yanından salırdı ki, Peyğəmbərlə Əbu Bəkr qoyunların südündən istifadə etsin. Sonra Amir qoyunların qabağında gedirdi ki, qoyunlar onun ayağının izini itirsin.»[2]

Şeyx Tusi Əmalidə yazır: «Hicrətdən sonrakı ilk gecələrdən birində Əli, Hindlə birlikdə Peyğəmbərin yanına gedir. Peyğəmbər(s) Əliyə tapşırır ki, onlar üçün iki dəvə hazırlasın. Bu zaman Əbu Bəkr deyir: «Mən qabaqcadan iki dəvə hazırlamışdım.» Peyğəmbər buyurdu ki, mən yalnız dəvənin pulunu verdikdən sonra ona minərəm. Sonra Əliyə dəvənin pulunu ödəməyi tapşırır.»

Peyğəmbər(s) həmin gecə Əliyə belə bir tapşırıq da verir ki, sabah hava işıqlandıqdan sonra uca səslə de: Ay camaat kimin Mühəmmədə borcu və ya əmanəti varsa, gəlib məndən alsın. Eyni zamanda Peyğəmbər(s) qızı Fatiməni, Fatimə bint Əsədi və Zübeyrin qızı Fatiməni də özü ilə gətirməyi, habelə Bəni-Haşimdən köçməyə meyilli olanlar üçün şərait hazırlanmasını tapşırır. Yalnız bundan sonra İbn Teymiyyənin əlində bayraq etdiyi cümləni buyurur: Bundan sonra onlar sənə heç bir zərər yetirə bilməyəcəklər.

---

[1] Tövbə-40

[2] Əl-Kamilu fit-tarix, c-2, s-73

Diqqət yetirirsinizsə, Peyğəmbər(s) Əliyə yalnız hicrət gecəsindən sonra, özü mağaradan yola düşməyə hazırlaşarsa əmanətləri geri qaytarması barədə tapşırıq vermişdir. Bu barədə Hələbi yazır: «Bir gecə Əli Sur mağarasında Peyğəmbərin(s) yanına getdikdə həzrət Ona tapşırır ki, borc və əmanətləri sahiblərinə qaytarsın.»[1]

Sonda qeyd etmək istəyirik ki, Şeyx Tusi kimi şəxsiyyət mötəbər mənbələrlə Peyğəmbərin(s) əmanətlərin geri qaytarılmasını hicrət gecəsindən sonra tapşırdığını sübut edərsə, daha biz kimlərisə inandırmağa çalışmamalıyıq. Sünni mənbələrində deyilənləri isə başa düşmək olar. Həmin müəlliflər sırf hadisələri qeyd etməyə önəm vermişlər. Hadisələrin baş vermə günü isə onlar üçün elə də əhəmiyyət kəsb etməmişdir.

### *Peyğəmbər(s) mağaranı tərk edir*

Əli(ə) Peyğəmbərin(s) tapşırığına əsasən hicrətin dördüncü gecəsi Üreyqit adlı bir bələdçi və üç dəvə mağaraya doğru göndərir. Peyğəmbər(s) dəvələrin və bələdçinin səsini eşidib yoldaşı ilə mağaradan çıxır. Dəvələrə minib Məkkənin aşağı tərəfi ilə sahil boyu Yəsribə doğru irəliləyirlər. Peyğəmbərin keçdiyi mənzillər Sireyi İbn Hişamda və Tarixi İbn Əsirin haşiyəsində bircə-bircə qeyd edilmişdir.[2]

### *Tarixin ilk səhifəsi*

Hava yavaş-yavaş qaralmağa doğru gedirdi. Üç gündən bəri gecə-gündüz Məkkə və ətrafını Peyğəmbərdən ötrü gəzən Qüreyşlilər yorğun halda evə dönür, Mühəmmədi(s) tutacaq şəxs üçün təyin edilmiş böyük mükafatdan (yüz baş dəvədən) məyus olurlar. Artıq Yəsrib yolunda da nəzarətçilər yox idi.[3]

Yanında üç dəvə, bir qədər də ərzaq gətirən bələdçinin səsi Peyğəmbərlə yoldaşının qulağına çatır. Bələdçi sakit səslə deyirdi: «Gecənin qaranlığından istifadə edib tez Məkkədən çıxmaq lazımdır.» O, gediş-gəlişi az olan bir yol seçir.

---

[1] Sireyi Hələbi, c-2, s-35
[2] Sireyi İbn Hişam, c-1, s-491; əl-Kamilu fit-tarix, c-2, s-75
[3] Tarixi Təbəri, c-2, s-104

Müsəlmanların tarixinin başlanğıcı məhz hicrət gecəsindən götürülür. Onlar bütün hadisələri hicri ili ilə hesablayırlar.

***Nə üçün hicrət ili tarixin başlanğıcı götürülmüşdür***

İslam dini səmavi şəriətlərin ən kamilidir. Həzrət Musa(ə) və Həzrət İsanın(ə) şəriətini daha mükəmməl formada cəmiyyətə təqdim edən məhz İslam dini olmuşdur. Həzrət İsa müsəlmanların yanında möhtərəm sayılsa da onun təvəllüdünü tarix başlanğıcı kimi qəbul etməmişlər. Çünki müsəlmanlar müstəqil bir millətdir və tarix qəbul etməkdə kiməsə tabe olmamalıdırlar.

Uzun müddət idi ki, Əbrəhənin fil süvariləri ilə Kəbəyə hücumu, ərəblər üçün tarix başlanğıcı kimi qəbul edilmişdi. Həzrət Peyğəmbər(s) də elə həmin il anadan olmuşdu. Ancaq müsəlmanlar həzrətin mövludunu tarix başlanğıcı qəbul etmirdilər. Çünki o vaxt İslam və imandan əsər-əlamət yox idi. Besət ilinin də tarixin başlanğıcı olaraq qəbul edilməməsi bununla əlaqədardır. Axı o vaxt dünyada vur-tut üç nəfər müsəlman idi. Hicrət vaxtı isə İslam sahəsində böyük uğurlar qazanılmış, müsəlmanlar pərakəndəliyə son qoyaraq Yəsribdə birləşmiş və orada İslam hökuməti qurmuşdular. Bütün bunların nəticəsi olaraq həmin il müsəlmanlar üçün tarixin başlanğıcı qəbul edilir. Hazırda Peyğəmbərin hicrətindən 1430 il keçir.

***Peyğəmbərin hicrəti, dünya müsəlmanlarının tarix başlanğıcı***

Hicrəti tarixin başlanğıcı olaraq şəxsən peyğəmbər(s) özü təyin etmişdir. Bu, o deməkdir ki, hicri tarixinin əvəzinə digər tarix seçmək Peyğəmbər sünnəsindən çıxmaq deməkdir.

Bəşəriyyətin ictimai həyatında tarixin olması labüddür. Tarix olmadan həyat hərəkət edə bilməz. Bu, bir aksiomadır və sübuta da ehtiyacı yoxdur.

Siyasi, hərbi, ticari müqavilələr, sənədlərin təhvili, vergilərin ödənilməsi, məktub yazışmaları tarix olmadan dəyərini itirər. Peyğəmbərin(s) səhabələri ayın müxtəlif formalara düşməsinin, əvvəlcə nazik, get-gedə böyük və sonra yenidən nazik olmasının səbəbini soruşduqda ayə nazil olub bunun vaxt ölçüləri olduğunu bildirir. Deməli, hamı ayın vasitəsilə tarixi müəyyən edir.

Hər millətin özünəməxsus tarixi olmalıdır. Bunda heç kimin şübhəsi yoxdur. Məsələ burasındadır ki, hansı tarixdən istifadə edilməli və hansı hadisə tarixin başlanğıcı kimi qəbul edilməlidir? Bu sulaın cavabı çox asandır. Əgər hansısa millət qədim mədəniyyətə, şanlı tarixə, elmi-siyasi şəxsiyyətlərə malikdirsə, həmin millətin tarixindəki ən əlamətdar hadisə tarixin başlanğıcı götürülməli və bütün hadisələr onunla hesablanmalıdır. İstər həmin əlamətdar hadisədən qabaq olsun, istər sonra. Beləliklə də bir millət olaraq özlərini doğrultmalı və digər millətin tarixindən istifadə etməklə onlardan asılı olmamalıdır.

***Nə üçün hicrət, tarixin başlanğıcı kimi götürüldü?***

İslam tarixində həzrət Peyğəmbərdən(s) böyük şəxsiyyət, hicrətdən də faydalı əlamətdar hadisə ola bilməz. Çünki hicrət sayəsində həm Peyğəmbər(s), həm də müsəlmanlar ədalətsizlik mühitindən azadlıq mühitinə qədəm qoyurlar. Yəsribin yerli camaatı Peyğəmbəri(s) səmimi qarşılayır, ona dəstək olur. Bu hicrət sayəsində qısa müddət ərzində Yəsribdə əsl İslam hökuməti qurulur, yavaş-yavaş bütün Ərəbistan yarımadasına, sonra isə bütün dünyaya səs salır, bəşəriyyətin görmədiyi bir mədəniyyət yaranır. Hicrət baş verməsəydi, İslam elə Məkkə mühitindəcə boğulub gedəcək, bəşəriyyət bu böyük nemətdən faydalana bilməyəcəkdi. Məhz buna görə müsəlmanlar hicrəti öz tarixinin başlanğıcı kimi qəbul etmişlər. Hazırda həmin tarixdən 1430 il keçir və müsəlman ümməti öz şanlı həyatının on beşinci əsrini davam etdirir.

***Hicrəti, tarix başlanğıcı təyin edən kim olmuşdur?***

Əksər tarixçilər hicri tarixinin əsasının Əmirəl-möminin Əlinin(s) tövsiyəsi ilə ikinci xəlifə tərəfindən qoyulduğunu bildirsələr də Peyğəmbərin(s) məktubları, imzaladığı müqavilələri göstərir ki, hicrəti ilk tarix kimi Peyğəmbər(s) özü istifadə etmiş, qəbilə başçıları, ölkə rəhbərlərinə göndərdiyi məktuba hicrətə əsasən tarix qoymuşdur. İndi həzrətin tarix qoyulmuş bəzi məktublarını diqqətinizə çatdırır, sonra isə digər dəlilləri araşdıracağıq.

***Peyğəmbərin(s) tarix qoyulmuş məktublarından nümunələr***

1) Salman, Peyğəmbərdən(s) xahiş edir ki, həm özü, həm qardaşı Mahbəndaz, həm də ailəsi üçün bir nəsihət yazsın. Peyğəmbər(s) Əlini çağırtdırıb ona bəzi şeylər diktə edir. Əli o deyənləri yazır. Axırda belə yazılır: «Əli ibn Əbutalib hicrətin doqquzuncu ili rəcəb ayında Peyğəmbərin göstərişinə əsasən yazmışdır.»[1]

2) Tanınmış tarixçi Bəlazəri, Peyğəmbərin(s) Məqna yəhudiləri ilə müqaviləsini qeyd edərək bildirir ki, müqavilənin mətnini misirli bir şəxs köhnə qırmızı parçada görüb mənim üçün oxumuşdu. Həmin müqavilənin sonunda deyilir: «Sizin üçün özünüzdən və Rəsulullahın Əhli-beytindən gözəl başçı ola bilməz. Əli ibn Əbutalib hicrətin doqquzuncu ilində yazmışdır.»[2]

3) Xalid ibn Vəlidin Dəməşq camaatı üçün yazdığı və onların mal, can və namusunun toxunulmaz olduğunu bildirən sülh məktubunun sonunda deyilir: «Hicrətin on üçüncü ilində yazılmışdır.»[3]

Dəməşq şəhəri birinci xəlifənin həyatının sonlarında fəth edilmişdir. Hicri tarixinin ikinci xəlifənin əmri ilə tarix kimi qəbul edilməsini deyənlər bu işin hicrətin on altı, ya da on yeddinci ilində olduğunu bildirirlər. Halbuki qeyd etdiyimiz sülh məktubu birinci xəlifənin dövründə yazılmış və hicri tarixi ilə tarix qoyulmuşdur.

4) Peyğəmbərin(s) göstərişi ilə Əlinin(ə) Nəcran xaspərəstlərinə yazdığı sülh məktubunda hicrətin beşinci ilində yazıldığı göstərilir. Məktubda deyilir: «Peyğəmbər, Əliyə sülh məktubunun hicrətin beşinci ilində yazılmasını göstərməsini əmr edir.»[4]

Bu cümlə aşkar şəkildə göstərir ki, hicri tarixinin əsasını Peyğəmbər(s) özü qoymuşdur.

5) Səhifeyi-Səccadiyyənin əvvəlində deyilir: «Cəbrail Peyğəmbərin(s) gördüyü yuxunu yozarkən demişdir: İslam dəyirmanı sənin hicrətindən on il sonrayadək fırlanacaq. Sonra hərəkətdən dayanacaq. Bir daha

[1] Əxbari İsfahan (Əbu Nəim), c-1, s-52-53
[2] Fütuhul-buldan, s-72
[3] Əl-Əmval, s-297
[4] Ət-Təratibul-idariyyə, c-2, s-181

hicrətin 35-ci ilində beş il ərzində yenidən hərəkətə başlayacaq. Ondan sonra isə azğınlıq baş alıb gedəcək.»[1]

6) Bəzi hədislərdə Peyğəmbərin(s) Ümmü Sələməyə: «Oğlum Hüseyn hicrətinin 60-cı ilində öldürüləcək»- deyə buyurduğu söylənilir.[2]

7) Ənəs deyir: «Peyğəmbərin səhabələri həzrətin: «Hicrətimdən yüz il keçdikdə bəzilərinizin gözü bağlanacaq.»- deyə buyurduğunu nəql etmişlər.[3]

8) Səhabələr İslam tarixindəki hadisələrə hicrətlə tarix qoyur, «filan hadisə filan ildə baş verib» demək əvəzinə «filan hadisə hicrətin filan ayında baş verib» deyirdilər. Məsələn deyirdilər ki, qiblənin Beytül-müqəddəsdən Məscidül-harama doğru dəyişməsi şəban ayında hicrətin ya on altı, ya on yeddi, ya da on səkkizinci ayında baş vermişdir.[4] Və yaxud deyirdilər ki, Ramazan ayının orucu hicrətin on səkkizinci ayının başlanğıcında vacib edildi.[5]

Peyğəmbərin göndərdiyi nümayəndə heyətinin başçısı Abdullah ibn Üneys deyir: «Hicrətin əlli dördüncü ayı Məhhərəm ayının beşi, bazar ertəsi Mədinədən çıxdım.»

Məhəmməd ibn Sələmə «Qirta» döyüşü barədə deyir: «Məhərrəmin onunda Mədinədən çıxdım. On doqquz gündən sonra, Məhərrəm ayının son gecəsində hicrətin əlli beşinci ayında Mədinəyə qayıtdım.»[6]

Bu tarixlərdən başa düşmək olar ki, beşinci ilədək müsəlmanlar hadisələri hicri ayı ilə ölçürlərmiş. Beşinci ildən etibarən Peyğəmbərin göstərişi ilə hicri ayının hicri ili ilə əvəz edirlər. (Necə ki, hicrətin beşinci ilində Nəcran xaçpərəstlərinə yazılmış məktubda hicri ayı yox, hicri ili yazılmışdır.)

9) Hədis yazarlar Zühəridən belə nəql edirlər: «Peyğəmbər Mədinəyə gələn kimi tarix təyin edilməsinə göstəriş verir. Tarix rəbiül-əvvəl (hicrətin ilk ayı) ayından təyin edilir.»[7]

---

[1] Səhifeyi-Səccadiyyə, s-15; Səfinətul-bihar, c-2, s-641
[2] Məcməüz-zəvaid, c-9, s-190
[3] Tarixul-xəmis, c-1, s-367
[4] Tarixul-xəmis, c-1, s-369
[5] Məğazi Vaqidi, c-2, s-531
[6] Məğazi Vaqidi, c-2, s-534
[7] Tarixi Təbəri, c-2, s-388

10) Hakim Neyşaburi İbn Abbasdan belə nəql edir ki, hicri tarixi Peyğəmbərin(s) Mədinəyə gəlişi ilə başladı. Abdullah ibn Zübeyr də həmin il anadan oldu.[1]

Bütün bunlar onu göstərir ki, həzrət Peyğəmbər(s) elə ilk gündən İslam tarixini təyin etmiş, hicrəti də tarixin başlanğıcı seçmişdir. Sadəcə olaraq hicrətin beşinci ilinə qədər hadisələr illə deyil, ayla tarixlənirmiş. Hicrətin beşinci ilindən etibarən hicri ili qüvvəyə minir.

***Bir sual, bir cavab***

Əgər hicrəti tarixin başlanğıcı kimi Peyğəmbər(s) özü təyin edibsə, bəs ikinci xəlifə haqqında deyilən hədisləri necə başa düşək? Həmin hədislərdə deyilir: «Bir kişi borc sənədini ikinci xəlifənin yanına gətirib borcun müddətinin şəban ayında başa çatdığını bildirir. Xəlifə soruşur ki, hansı şəban ayı nəzərdə tutulur? Bu ilin şəbanı, ya keçən ilin şəbanı, yoxsa gələn ilin şəbanı. Bu hadisədən sonra xəlifə səhabələri yığıb deyir: «Camaat üçün tarix müəyyənləşdirin ki, onunla borc vaxtlarını dəqiqləşdirə bilsinlər.» Səhabələrdən bəzisi tarix təyin etməkdə iranlıların metodunu təklif edərək bildirir ki, orada taxta çıxan yeni hökmdarın gəlişi ilə yeni tarix başlayır. Başqa bir dəstə bizanslıların tarixindən istifadə etməyi və makidoniyalı İsgəndərin tarixini tarix başlanğıcı kimi götürməyi təklif edir. Üçüncü dəstə Peyğəmbərin təvəllüdünü, dördüncü dəstə isə besəti tarix başlanğıcı kimi qəbul etməyi təklif edirlər. Lakin xəlifə bu təkliflərdən heç birini bəyənmir. Bu zaman Əli(ə) bildirir ki, gəlin Peyğəmbərin hicrətini tarix kimi qəbul edək. Çünki hicrət həm Peyğəmbərin təvəllüdündən, həm də besətindən daha əhəmiyyətli olmuşdur. İkinci xəlifə bu fikri bəyənir və hicrəti tarixin başlanğıcı kimi qəbul edir.»[2]

Yəqubi, yuxardakı hadisənin hicrətin on altıncı ilində baş verdiyini bildirir.[3]

Suala cavab olaraq qeyd etməliyik ki, bu kimi hadisələr hicri tarixinin təməlinin şəxsən Peyğəmbər tərəfindən qoyulduğunu göstərən

---

[1] Mustədrəkül-Hakim, c-3, s-13-14
[2] Əl-Bidayətu vən-nihayə, c-7, s-73-74
[3] Tarixi Yəqubi, c-2, s-145

və az öncə qeyd etdiyimiz faktlar qarşısında sübut sayıla bilməz. Bundan əlavə hicrətin əvvəllərində tarixə elə də ehtiyac olmadığı üçün tarix unudulmuş və ya rəsmən qəbul edilməmişdir. İkinci xəlifənin dövründə isə artıq həmin tarix rəsmən qəbul edilmişdir. Burada iki məsələni də diqqətinizə çatdırmağı lazım bilirik:

1) Səhabələrin ikinci xəlifəyə verdiyi təkliflər arasında miladi tarixinin əsasını təşkil edən İsanın(ə) təvəllüdünə toxunulmayıb. Diqqətinizə çatdırmaq istədiyimiz məsələ də budur ki, miladi tarixi hicrətin dördüncü əsrindən başlayaraq xaçpərəstlərin rəsmi təqviminə çevrilmişdir. O vaxta qədər isə həmin təqvimdən geniş istifadə edilmirdi.

2) Hal-hazırda müsəlman ölkələrinin vəhdətə, birliyə həmişəkindən daha çox ehtiyacı var. Birliyi yaradan amillərdən biri də İslam tarixinin qorunub saxlanılmasıdır. Buna görə də müsəlman ölkələr bütün münasibətləri, hadisələri hicri tarixi ilə hesablamalıdır. Təəssüflə qeyd etməliyik ki, bir çox müsəlman və ərəb ölkələri hicri tarixini unudub bütün icraatı miladi tarixi ilə aparırlar. Hətta sünni dünyasının başında duran əl-Əzhər universitetinin şeyxi yazdığı məktublara miladi tarixi qoyur, heç olmasa onun yanında hicri tarixini qeyd etmir.

***Səfər proqramı***

Peyğəmbərin(s) Məkkədən Yəsribə gedəcəyi yol dörd yüz kilometrdən artıq idi. O cür isti havada bu məsafəni qət etmək üçün düzgün səfər proqramı tərtib edilməli idi. Üstəlik yoldakı yolçulardan da ehtiyat etmək gərəkirdi. Çünki onlar Peyğəmbərin(s) yerini qüreyşlilərə deyə bilərdilər. Buna görə də Peyğəmbər(s) gecələr yol gedir, gündüzlər dincəlirdi. Deyilənlərə görə kimsə Peyğəmbər və yoldaşları barədə Qüreyşə xəbər veribmiş. Peyğəmbəri tutacaq şəxs üçün ayrılmış mükafatı tək qazansın deyə, Süraqə ibn Malik ibn Cəşəm Mudləci izi itirmək məqsədilə deyir ki, onlar başqa adamlar imiş. Özü isə evə gəlib yaraq-yasağını götürərək Peyğəmbərin ardınca gedir. İbn Əsir yazır: «Süraqəni gördükdə Peyğəmbərin yoldaşı (Əbu Bəkr) çox narahat olur. Həzrət ona: «Narahat olma, Allah bizimlədir!»-deyə təsəlli verir. Süraqə gücünə, silahına arxayın idi və mükafatı qazanmaq üçün heç bir maneə görmürdü. Bu vaxt Peyğəmbər(s) arxayın şəkildə dua edərək deyir:

«İlahi, bizi bu kişinin şərrindən qoru!» Çox çəkmir ki, Süraqənin atı şahə qalxıb onu yerə çırpır. Süraqə bu işdə qeybdən bir əlin olduğunu yəqin edib Mühəmmədə(s) iltimas edərək deyir: «Nökərimlə dəvəm sizin olsun, özüm də qulluğunuzda hazıram.» Peyğəmbər(s) buyurur ki, mənim sənin heç nəyinə ehtiyacım yoxdur.»[1] Mərhum Məclisinin nəql etdiyi hədisdə isə göstərilir ki, Peyğəmbər ona buyurur: «Geri dön və bizi təqib edənləri yolundan qaytar!» Buna görə də Süraqə çatan-çatana deyirdi ki, bu yolda Mühəmməddən əsər-əlamət yoxdur.[2]

Tarix yazarlar Məkkə-Yəsrib boyu Peyğəmbərdən(s) müşahidə edilmiş bəzi kəramətləri qeyd etmişlər. İndi onlardan birini diqqətinizə çatdırırıq.

Ümmi Məbəd olduqca cəsarətli qadın idi. Qəhətlik nəticəsində bütün qoyunları arıqlayıb çöpə dönmüşdü. Onun çadırının yaxınlığında bir qoyun dayanmışdı. O qədər zəif idi ki, sürüdən geri qalmışdı. Peyğəmbər(s) Ümmi Məbəddən soruşur ki, bu qoyunun südü varmı? Ümmi Məbəd deyir: «Onun süd verən halı yoxdur.» Peyğəmbər(s) dua edərək buyurur ki, ilahi, bu qoyunu bu qadın üçün bərəkətli et! Həzrətin duası sayəsində qoyunun döşündən süd axmağa başlayır. Peyğəmbər bir qab alıb qoyunu sağır. Qab südlə dolduqda içmək üçün Ümmi Məbədə verir. Sonra yol yoldaşlarına təqdim edir, axırda özü içərək buyurur: «Pay bölənə axırda pay düşər.» Sonra bir daha qoyunu sağır, südlə dolu qabı Ümmi Məbədə verib yola düşürlər.

Bu kəramət bir çox tarixi kitablarda qeyd edilib.[3] Dini nöqteyi-nəzərdən bu, mümkün olası bir işdir. Çünki dua təbiətə təsir edə biləcək bir amildir. Bu barədə kitablar yazılıb, təcrübələr sınaqdan çıxarılıb.

### *Peyğəmbərin(s) Qoba kəndinə girişi*

Qoba, Yəsribin iki fərsəxliyində yerləşir. Ora Bəni-Əmr ibn Ovf qəbiləsinin mərkəzi idi. Peyğəmbər(s) yoldaşları ilə birlikdə rəbiül-əvvəl ayının on ikisi, bazar ertəsi Qobaya yetişir. Orada olduğu müddət ərzində qəbilə başçısı Külsüm ibn əl-Hədəmin evində qalır. Mühacir və

---

[1] Əl-Kamilu fit-tarix, c-2, s-74

[2] Biharul-ənvar, c-19, s-75

[3] Ət-Təbəqatul-kubra, c-1, s-230-231; Tarixul-xəmis, c-1, s-333; Biharul-ənvar, c-19, s-99-103

ənsardan (Peyğəmbərin Yəsribdəki silahdaşları ənsar, Məkkədən köçüb gələnlər isə mühacir adlanır) bəzisi də həzrətin gəlişini Qobada gözləyirdi.

Peyğəmbər(s) o həftəni axıradək (cümə gününədək) Qobada qalır. Bu müddət ərzində Bəni-Əmr ibn Ovf qəbiləsi üçün bir məscidin təməlini də qoyur. Səhabələr Yəsribə getməyi israr etsələr də Peyğəmbər(s) əmisi oğlu Əlinin gəlişini gözləyirdi.

Peyğəmbər(s) hicrət etdikdən sonra Əli(ə) Məkkənin hündür bir yerinə qalxıb uca səslə deyir: «Mühəmməddə əmanəti olan şəxs gəlib əmanətini bizdən alsın.» Peyğəmbərdə(s) əmanəti olanlar nişanə və əlamətlərini deməklə əmanətlərini geri alırlar. Sonra da Peyğəmbərin(s) tapşırığına əsasən Əli(ə) Bəni-Haşim qadınlarını, o cümlədən Peyğəmbərin öz qızı Fatiməni, Əlinin öz anası Fatimə bint Əsədi, Zübeyrin qızı Fatiməni və o vaxtadək hicrət etməyə müvəffəq olmayanları Yəsribə aparmalı idi. Beləliklə, Əli(ə) gecə yarısı Zi-Tuva yolu ilə Yəsribə doğru hərəkətə başlayır.

Şeyx Tusi yazır: «Qüreyşlilər Əlinin gedişindən xəbər tutan kimi onu təqib etməyə başlayırlar. Zəcnam adlı yerdə ona çatırlar. Onların arasında söz mübahisəsi başlayır. Qadınların səsi ətrafı bürümüşdü. Əli müsəlmanları müdafiə etməkdən başqa çıxış yolu görməyib deyir: «Kim tikə-tikə doğranmaq istəyirsə, irəli çıxsın.» Onun üzündə qəzəb cizgilərini sezmək çətin deyildi. Müşriklər vəziyyətin gərgin olduğunu anlayıb geri dönürlər.»[1]

Əli(ə) Qobaya çatdıqda ayaqları yara bağlamışdı. Peyğəmbərə Əlinin çatdığını, lakin hüzuruna gələ bilmədiyini xəbər verdikdə həzrət dərhal onun olduğu yerə gəlir. Əlini qucaqlayıb bağrına basır. Gözü Əlinin yaralı ayaqlarına sataşdıqda mübarək gözlərindən yaş axmağa başlayır.[2]

Peyğəmbər(s) rəbiül-əvvəl ayının on ikisində Qobaya çatır, Əli isə həmin ayın ortası ona qoşulur.[3] Təbərinin yazdığı da bu fikri təsdiqləyir:

---

[1] Əmali (Şeyx Tusi), s-300
[2] Əl-Kamilu fit-tarix, c-2, s-75
[3] İmtaul-əsma, s-48

«Əli, Peyğəmbərin hicrətindən sonra Məkkədə üç gün qalır. Bu müddət ərzində Peyğəmbərin(s) əmanətlərini qaytarır.»[1]

### *Yəsribdə hökm sürən şadlıq*

Üç ildir iman gətirdikləri, gündəlik namazlarda adını çəkdiyi peyğəmbərin indi Yəsribdən iki fərsəx aralıda olduğunu və bir azdan onlara tərəf gələcəyini eşidən camaat necə sevinər?! Onların sevincinin həddi-hüdudu ola bilərmi? Bu vəziyyəti dillə vəsf etmək mümkün deyil.

İslam teşnəsi olan Yəsrib gəncləri Peyğəmbər gələnə qədər bütləri yandırmış, bacardıqları qədər küçə və bazarda bütpərəstlik nişanələrini aradan qaldırmışdılar.

Əmr ibn Cəmuh Bəni-Səlmə qəbiləsinin böyüklərindən idi. Onun evdə bir bütü var idi. Qəbilə gəncləri ona bütlərin heç nəyə qadir olmadığını başa salmaq üçün onun bütünü oğurlayıb ayaqyolu anbarına atmışdılar. Səhər yuxudan ayılıb bütünü görməyən Əmr çox axtarışdan sonra onu quyudan tapır. Yuyub təmizlədikdən sonra onu yerinə qoyur. Bu hadisə üç dəfə təkrarlanır. Sonuncu dəfə Əmr ibn Cəmuh bütün boynuna bir qılınc bağlayıb deyir: «Bu dünyada nəyəsə qadirsənsə, özünü müdafiə et!» Ancaq bunun da bir xeyri olmur. Səhərisi gün bütü həmin quyudan tapır. Boynundakı qılıncın əvəzinə it ölüsü bağlanmışdı. Əmr bu mənzərəni gördükdə insanın bütlərə ibadət etməkdən daha uca məqama layiq olduğunu anlayıb bir neçə beyt şer deyir. Aşağıdakı beytlər onun şerindən seçmələrdir:

Allaha and olsun, sən haqq tanrı olsaydın, quyuda it leşi ilə bir yerdə olmazdın.

Həmd olsun nemətlər sahibi olan Allaha! Odur ruzi verən, bağışlayan!

Qəbrin zülmətlərinə getməzdən əvvəl məni qurtaran da Odur![2]

Peyğəmbər(s) Qobadan Yəsribə yola düşür. Həzrətin dəvəsi Səniyyətül-vidadan (Mədinə yaxınlığında yer adıdır) keçib Yəsrib torpağına ayaq basdıqda müsəlmanlar, xüsusilə də gənclər həzrətin

---

[1] Tarixi Təbəri, c-1, s-106

[2] Usdul-qabə, c-4, s-99

gəlişini alqışlayır, şerlər oxuyurdular. Onlar aşağıdakı beytləri xorla oxuyurdular:

Ay Səniyyətül-vidadan bizlərə əyan oldu.

Yer üzündən Allaha bircə nəfər ibadət edən qalana qədər bizə şükür etmək vacibdir.

Ey bizi hidayət etmək üçün göndərilmiş şəxs, hamımız əmrinə tabe olmalıyıq.

Bəni-Əmr ibn Ovs qəbiləsi Peyğəmbərin(s) Qobada qalmasını israr edib, çalışqan, dözümlü olduqlarını bildirsələr də həzrət qəbul etmir. Ovs və Xəzrəc qəbilələri Peyğəmbərin(s) gəlişini eşidib silah, təzə üst-baş geyərək onun görüşünə tələsirlər. Tayfa başçıları Peyğəmbərin(s) dəvəsinin boynunun ipindən yapışaraq hərə öz məhəlləsinə çəkməyə çalışırdı. Peyğəmbər(s) isə onlara buyururdu ki, dəvənin yolunu kəsməyin, qoyun getsin! Harda yerə yatarsa, mən orada düşəcəyəm. Həzrətin dəvəsi Səhl və Süheyl adlı iki yetim uşağa məxsus sahədə dizlərini yerə vurur. Bu iki qardaşı Əsəd ibn Zürarə öhdəçiliyinə götürmüşdü. Dəvənin yatdığı sahədə isə xurma və digər əkin məhsulları qurudulurdu. Oranın yaxınlığında Əbu Əyyubun evi yerləşirdi. Onun anası fürsətdən istifadə edib Peyğəmbərin yükünü öz evinə aparır. Bu vaxt Peyğəmbəri aparmaq üçün mübahisə yaranır. Hamı bu şərəfə nail olmaq istəsədə həzrət mübahisəyə son qoyaraq buyurur: «Mənim yüküm hardadır?» Cavab verirlər ki, yükünüzü Əbu Əyyubun anası evlərinə apardı. Peyğəmbər(s) buyurdu: «Kişinin yükü hardadırsa, özü də orada olmalıdır.» Əsəd ibn Zürarə də Peyğəmbərin dəvəsini öz evinə aparır.

### *Nifaqın kökləri*

Ovs və Xəzrəc qəbilələri Peyğəmbərlə(s) sözləşmədən qabaq belə qərara gəlmişdilər ki, münafiqlərin başçısı Abdullah ibn Übeyyi Mədinə hakimi seçsinlər. Lakin Peyğəmbərlə(s) sözləşmədən sonra bu qərar öz-özünə ləğv edilir. Buna görə də Abdullah ibn Übeyy elə ilk gündən Peyğəmbərə(s) nifrət edir və ölənə qədər iman gətirmir. O, Peyğəmbəri mədinəlilər tərəfdən mehriban qarşılandığını görüb həsədini göstərən cümləni deməkdən özünü saxlaya bilmir. Üzünü Peyğəmbərə(s) tutub

deyir: «Səni aldadıb bura çağıranların yanına get! Öz yurdumuzda bizə kələk gəlmə!»[1]

Səd ibn Übadə Peyğəmbər(s) onun sözünə inanmasın və ürəyinə salmasın deyə, Abdullahın əvəzinə üzrxahlıq edib deyir: «O, bu sözü ədavət və hiylə üzündən deyir. O, Mədinənin hakimi seçilməyə hazırlaşırdı. İndi sizin gəlişinizlə bu iş daha baş tutmayacaq.»

Tarixçilər yazırlar ki, Peyğəmbər(s) cümə günü Mədinəyə daxil olmuş və Bəni-Səlim qəbiləsinə məxsus yerdə səhabələrlə birlikdə cümə namazı qılmışdır. O vaxtadək camaatın eşitmədiyi bir xütbə oxumuşdur. Xütbə camaatda həddən artıq təsir qoymuşdur. Həmin xütbənin mətnini İbn Hişam və mərhum Məclisi nəql etmişdir.[2] lakin İbn Hişamın nəql etdiyi mətnlə Məclisinin nəql etdiyi mətn arasında fərq var.

[1] Biharul-ənvar, c-19, s-108

[2] Sireyi İbn Hişam, c-1, s-500-501; Biharul-ənvar, c-19, s-126

# İLK CƏHDLƏR

***Məscid inşası***

Yəsriblilərin Peyğəmbəri(s) gülər üzlə, səmimi şəkildə qarşılaması həzrəti hər şeydən əvvəl ibadət, təhsil və siyasət məsələlərinin həll edilməsi üçün bir məscid tikməyə sövq edir. Peyğəmbərin(s) təbliğatının əsasını təkallahlıq ideyaları təşkil etdiyindən müsəlmanlar üçün gün ərzində Allaha ibadət etməyə bir yer lazım idi. Məscid olacağı təqdirdə bütün müsəlmanlar həftənin müəyyən günü ora toplaşıb İslamın mənafeyi naminə məsləhətlərini verəcəklər. Bundan əlavə il ərzində iki dəfə orada bayram namazları qılınacaq.

Məscid təkcə ibadət yeri deyildi. Bütün dini, elmi məsələlər, hətta yazıb-oxumağı öyrənmək də məsciddə aparılırdı. Hicri dördüncü əsrə qədər məscidlər namaz vaxtlarından sonra demək olar ki, mədrəsəyə çevrilirdi.[1]

Mədinə məscidi bəzi vaxtlar ədəbi mərkəzə çevrilirdi. Şerləri İslam ruhuna uyğun gələn söz ustadları Peyğəmbərin(s) hüzurunda şer demək şərəfinə nail olurdular. Necə ki, görkəmli şair Kəb ibn Züheyr Peyğəmbərin(s) şəninə yazılmış: «Suad məni tərk etdi» (Bənət Suad) adlı məşhur qəsidəsini məsciddə Peyğəmbərin(s) hüzurunda oxumuş və o həzrətdən böyük mükafat almışdır. Öz şerləri ilə İslamın müdafiəsinə qalxmış Həssan ibn Sabit də şerlərini məsciddə oxuyarmış.

Peyğəmbər dövründə məsciddə təhsillə məşğul olmaq kütləvi hal almışdı. Səqif qəbiləsinin nümayəndələri bu vəziyyəti gördükdə müsəlmanların təhsilə maraq göstərməsindən heyrətlənmişdilər.

Ədliyyə və məhkəmə işləri də məsciddə aparılırdı. Məscidi o dövr üçün həm də məhkəmə saymaq olardı. Peyğəmbər(s) cihadla bağlı xütbələri məsciddə oxuyardı.

[1] Səhihi Buxari, c-1, elm fəsli

Bəlkə də dini və elmi işlərin məsciddə cəmlənməsinin səbəbi o olmuşdur ki, Peyğəmbər(s) elmlə imanın sintez təşkil etdiyini praktiki şəkildə göstərmək istəyirmiş. Harada iman varsa, orada elm də olmalıdır. Məhkəmə və cihada aid işlərin məsciddə həll edilməsi isə onunla əlaqədardır ki, camaat elə fikirləşməsin ki, İslam dünyanı unudub təkcə axirətə maraq göstərir. Xeyr, İslam həm axirəti, həm də dünyanı maraq dairəsində saxlayır.

Müsəlman ölkələrində indi də bu adət-ənənə qorunub saxlanır. Mədrəsələr məhz məscid yaxınlığında inşa edilir və bununla da camaata çatdırılır ki, bu iki xoşbəxtlik amili (iman və elm) bir-birindən ayrılmaz.

*Əmmar Yasirin sərgüzəşti*

Peyğəmbərin(s) dəvəsinin yatdığı yer məscid tikilməsi üçün on dinara satın alınır. Məscidin inşasında bütün müsəlmanlar çalışırdılar. Hətta Peyğəmbər özü də başqaları kimi ətrafdan daş gətirirdi. Üseyd ibn Hüzeyr həzrətin qarşısını kəsib deyir ki, ya Rəsuləllah, icazə verin daşları mən götürüm. Peyğəmbər isə buyurur ki, sən də get bir başqasını götür! O həzrət bu yolla camaata başa salmaq istəyirdi ki, mən, söz adamı deyiləm, əməl adamıyam. Bu zaman müsəlmanlardan biri belə bir şer deyir: «Peyğəmbər işlədiyi halda biz otursaq, bu bizim üçün azğınlıqdan beşbetərdir.»

Peyğəmbər(s) və müsəlmanlar işləyərkən aşağıdakı cümlələri deyirdilər:

«Əsl həyat axirət həyatıdır. İlahi! ənsar və mühacirlərə rəhm elə!»

Osman ibn Əffan üst-başının təmiz olması ilə ad çıxarmış şəxs idi. O, pal-paltarını toz-torpaqdan qoruyur, buna görə də məscidin tikintisində işdən qaçırdı. Əmmar Yasir Əlidən öyrəndiyi və paltarlarının bulaşmaması üçün toz-torpaqdan qaçanlara aid bir şeri Osmanın barəsində oxuyaraq deyir: «Dayanmadan məscidin tikintisində çalışan şəxslə Allah yolunda paltarlarının toz-torpağa bulaşmasına razı olmayan şəxs bərabər ola bilməz.»[1]

---

[1] Sireyi İbn Hişam, c-1, s-496

Bunu eşidən Osman narahat olub deyir: «İndi görərsən səni bu əsa ilə necə əzişdirirəm.» Onların arasındakı mübahisə Peyğəmbərə(s) çatdıqda buyurur: «Əmmarla nə işiniz var? Əmmar onları Cənnətə, onlar isə onu Cəhənnəmə dəvət edirlər.»

Əmmar çox güclü bir gənc idi. Bir neçə daşı birdən aparırdı. Bəziləri onun bu sadəlövhlüyündən sui-istifadə edib onu daha çox yükləyirdilər. Əmmar deyirdi ki, daşlardan birini öz adıma, digərini də Peyğəmbərin adına aparıram. Bir dəfə Peyğəmbər(s) onu belə bir vəziyyətdə görür. Əmmar şikayətlənib deyir ki, ya Rəsuləllah, səhabələriniz mənim qəsdimə durublar. Özləri daşları bir-bir apardığı halda mənə üç-üç yükləyirlər. Peyğəmbər(s) onun toz-torpağını təmizləyib tarixi bir cümlə buyurur: «Onlar səni öldürməzlər. Sən öyüd-nəsihət edib haqqa çağıracağın halda səni azğın (zalım) dəstə öldürəcək.»[1]

Bu qeybi xəbər Peyğəmbərin(s) peyğəmbərliyini təsdiqləyən amillərdən biridir. Həqiqətən də o həzrətin buyurduğu baş verir. Əmmar doxsan yaşında Əmirəl-möminin Əlinin(ə) qoşununda Siffeyn döyüşündə Müaviyənin ordusu tərəfindən qətlə yetirilir.

Müsəlmanlar bu qeybi xəbəri Əmmarın sağlığında haqq meyarı qərar vermişdilər. Mübahisəli məqamlarda Əmmarın qoşulduğu dəstə haqq hesab edilirdi. O döyüş meydanında qətlə yetirildikdə Müaviyənin qoşununda çaxnaşma düşür. Müaviyə və Əmr ibn Asın hiyləgər təbliğatı nəticəsində Əlinin(ə) haqq olduğunda tərəddüd edənlər həqiqətdən xəbərdar olurlar. Əlinin(ə) qoşununda döyüşə gəlib lakin döyüşüb-döyüşməməsində tərəddüd edən Hüzeymə ibn Sabit Əmmarın ölümündən sonra qılınc çəkib şamlılara hücum edir.[2]

Müaviyənin qoşununun iyirmi min nəfərini Zül-kila Himyərinin qəbiləsi təşkil edirdi. Müaviyə əsasən onlara arxalanırdı. O, Zil-kilanın döyüşə qatılacağına arxayın olmayınca döyüşmək qərarına gəlməmişdi. Aldadılmış bu sərkərdə Əmmar Yasirin, Əlinin(ə) qoşununda olduğunu eşitdikdə bərk narahat olur. Müaviyənin təbliğatçıları: «Əmmar hara, döyüş hara?» kimi sözlərlə onun fikrini yayındırmağa çalışsalar da o

---

[1] Sireyi Hələbi, c-2, s-76-77

[2] Mustədrəkul-Hakim, c-3, s-385

razılaşmayıb Əmr ibn Asa deyir: «Peyğəmbər Əmmar Yasir haqqında belə bir cümlə buyurubmu?» Əmr As deyir ki, bəli buyurub. Ancaq Əmmar Əlinin qoşununda deyil. Zül-kila deyir ki, gərək mən özüm araşdıram. Buna görə də bir neçə nəfəri araşdırmağa göndərir. Vəziyyətin belə olduğunu görən Müaviyə ilə Əmr As fikirləşirlər ki, Zül-kila Əmmar Yasirin Əlinin qoşununda olmasından xəbər tutsa, Şam ordusunda böyük boşluq yaranacaq. Bu səbəbdən tanınmış sərkərdə müəammalı şəkildə qətlə yetirilir.

Bu hədis həm sünni, həm də şiə mənbələrində o qədər geniş yayılıb ki, hər hansı mənbə qeyd etməyə də lüzum görmürük. Əhməd ibn Həmbəl yazır[1]: «Əmmar Siffeyn döyüşündə öldürüldükdə Əmr ibn Həzm, Əmr Asın yanına gəlib Əmmarın öldürüldüyünü və Peyğəmbərin(s) onun haqqında: «Onu azğın (zalım) dəstə öldürəcək»- deyə buyurduğunu bildirir. Əmr As ağlayaraq: «İnna lillah və inna iləyhi raciun» deyərək Müaviyəni də məsələdən xəbərdar edir. Müaviyə deyir ki, Əmmarın qatili biz deyilik. Onu Əli və tərafdarları qətlə yetirmişdir. Əmmarı gətirməsəydilər, o öldürülməzdi.

Məlum məsələdir ki, Müaviyənin bu sözü bəhanədən başqa bir şey deyil. Bunu heç kim qəbul etməz. Ağıllı olan adam buna inanmaz. Bu, Peyğəmbərin(s) aşkar kəlamı qarşısında əllaməlik etməkdir. Bir çoxlarının cinayətlərinin üstü də məhz belə əllaməlik nəticəsində örtülmüşdür.

### *Anadan mehriban dayə*

Hicri səkkizinci əsr tarixçisi, «Əl-Bidayətu vən-nihayə» əsərinin müəllifi, İbn Kəsir Şaminin əsl şəxsiyyətini tanıtdırmaq üçün başlıqda verdiyimiz ifadədən gözəl bir ifadə tapmadıq. O, Müaviyəni dəstəkləyərək yazır: «Peyğəmbərin(s) Əmmarın qatillərini zalım adlandırması o demək deyil ki, onlar kafir olublar. Düzdür, onlar Əliyə qarşı çıxmaqla səhv etmişlər, lakin öz fikirlərinin əslində doğru olduğunu düşünürdülər. Buna görə də onları qınamaq və ya kafir adlandırmaq olmaz.»

[1] Musnədi Əhməd, c-4, s-198

Peyğəmbərin: «Əmmarın onları Cənnətə, onlar isə Əmmarı Cəhənnəmə çağırırlar»- deməkdə məqsədi odur ki, Əmmar onları vəhdətə, birliyə çağırır, onun qatilləri isə Müaviyəni Əlidən üstün tutmaqla müsəlmanlar arasında boşluq yaratmaq istəmişlər ki, bu da əsl Cəhənnəmdir.»[1]

Biz bu yozuma nə qədər çalışsaq da təhrifdən başqa ad verə bilmədik. Əmr As kimilər də heç bu həqiqəti təhrif edə bilməmişdi. İbn Kəsir isə zalım dəstəni anadan da mehriban deyə kimi müdafiə edərək həqiqəti təhrif etmişdir.

Əhməd ibn Hənbəl deyir: «İki nəfər Müaviyənin yanına gəlib hər ikisi Əmmarı öldürdüyünü iddia edir. Əmr Asın oğlu Abdullah onlara deyir ki, ikinizdən biri öz iddiasından vaz keçsin. Mən Peyğəmbərdən eşitmişəm ki, Əmmarı zalım dəstə qətlə yetirəcək. Bu zaman Müaviyə Abdullaha deyir: «Əgər biz zalım dəstəyiksə, bəs sən niyə bizə qoşulmusan?» Abdullah cavab verir: «Bir gün atam mənim əlimdən Peyğəmbərə şikayət edir. Peyğəmbər mənə atama tabe olmağı tapşırır. Buna görə də mən sizinləyəm, ancaq döyüşmürəm.»[2]

Əmr Asın oğlu Abdullahın gətirdiyi bəhanə də İbn Kəsirinkindən geri qalmır. İbn Kəsir deyirdi ki, Müaviyə Əliyə qarşı döyüşməyi haqq bilirdi. Sadəcə öz fikrində yanılmışdır. Ataya tabe olmaq da o yerə qədərdir ki, atanın hərəkəti şəriətə zidd olmasın. Bu barədə Quran buyurur: ***«Əgər (valideynlərin) bilmədiyin bir şeyi mənə şərik qoşmağına cəhd göstərsələr, onlara itaət etmə...»***[3] Hər hansı bir qərarı qəbul etmək də o vaxt məqbul sayılır ki, Peyğəmbər(s) həmin məsələyə heç bir münasibət bildirməmiş olsun. Peyğəmbərin(s) sözü qarşısında müaviyələrin, əmrasların qərar qəbul etməyə, fikir bildirməyə nə haqqı var? Onlar da öz əməllərinin haqq olduğunu düşünürdülər. Onda gərək deyək ki, Yezid də haqlı olub və hətta törətdiyi cinayətə görə savab da almalıdır.

Sonda yenidən mövzuya qayıdıb qeyd etmək istəyirik ki, beləliklə, məscidin tikintisi başa çatır. Demək olar ki, ildən ilə məscidin ərazisi

---

[1] Əl-bidayətu vən-nihayə, c-2, s-218

[2] Musnədi Əhməd, c-2, s-164-165

[3] Ənkəbut-8

böyüdülürdü. Məscidin kənarında kimsəsizlər üçün bir yerdə hazırlanır. Übadə ibn Samit onlara yazıb-oxumaq öyrətməyə başlayır.

***İslamda qardaşlıq və yaxud əsl vəhdət tərənnümü***

Müsəlmanların Mədinədə toplaşması Peyğəmbərin(s) həyatında yeni bir səhifə açır. O həzrət Mədinəyə gəlməzdən qabaq təkcə İslamın təbliği ilə məşğul idisə, indi püxtələşmiş siyasətçi kimi həm özünün, həm də tərəfdarlarının varlığını qorumaqla yanaşı daxili və xarici düşmənlərin nüfuzunun qarşısını almalı idi. Bu zaman Peyğəmbər(s) əsasən üç müşküllə üz-üzə idi:

1) Qüreyşin, ümumiyyətlə bütün yarımada bütpərəstlərinin təhlükəsi

2) Mədinənin daxilində və xaricində yaşayan və maddi sarıdan böyük imkanlara malik yəhudilərin təhlükəsi

3) Ovs və Xəzrəc qəbilələri və onlarla məkkəlilər (mühacirlər) arasındakı ixtilaflar

Mühacirlərlə ənsar iki müxtəlif mühitə öyrəşdiyindən onların tərzi-təfəkküründə böyük fərqlər var idi. Digər tərəfdən ənsarın əsasını təşkil edən Ovs və Xəzrəc qəbilələri 120 ildən artıq idi ki, bir-biri ilə döyüşürdü. İndi belə bir vəziyyətdə dini-siyasi həyatı bir yerdə davam etdirmək demək olar mümkünsüz idi. Ancaq Peyğəmbər(s) bu problemləri çox ağıllı şəkildə çözdü. İlk iki məsələ ilə bağlı konkret addımlar atır. (Bu barədə növbəti fəsillərdə ətraflı bəhs edəcəyik.) Səhabələr arasındakı ixtilaf problemini isə özünəməxsus formada həll edir.

Belə ki, Allah tərəfindən mühacirlərlə ənsarı bir-biri ilə qardaş etmək tapşırığı verilir. Bu məqsədlə ümumi bir toplantıda səhabələrə müraciət edərək buyurur: «Bir-birinizlə iki-iki qardaş olun!» bir çox müəlliflər, o cümlədən İbn Hişam kimlərin bir-biri ilə qardaş olduğunu qeyd etmişdir.[1]

Peyğəmbər(s) bu yolla müsəlmanların siyasi-mənəvi vəhdətini qorumuş olur. Bunun nəticəsi olaraq ilk iki problem haqqında da çıxış yolları axtarılır.

***İki böyük fəzilət***

[1] Sireyi İbn Hişam, c-2, s-123-126

Tarixin bu məqamında əksər tarixçilər və hədis alimləri iki böyük fəzilət haqqında məlumat vermişdir: «Peyğəmbər(s) üç yüz mühacirlə ənsarı bir-biri ilə qardaş edir. Həzrət konkret olaraq buyururdu ki, filankəs, filankəslə qardaş ol!

Qardaşlıq mərasimi başa çatır. Bu an Əli gözləri yaşarmış halda Peyğəmbərə müraciət edərək deyir ki, hamını bir-biri ilə qardaş etdin, ancaq mənimlə heç kim qardaş olmadı. Peyğəmbər onun cavabında buyurur: «Sən dünya və axirətdə mənim qardaşımsan.»

Qunduzi Hənəfi bu hadisəni daha geniş şəkildə qeyd edərək deyir ki, Peyğəmbər(s) Əlinin cavabında buyurur: «And olsun məni camaatı hidayət etmək üçün göndərmiş Allaha! Sənin qardaşlıq məsələni ona görə axıra saxladım ki, özüm səninlə qardaş olmaq istəyirdim. Sənin mənə olan münasibətin eynilə Harunun Musaya olan münasibəti kimidir. Bircə fərq odur ki, məndən sonra peyğəmbər gəlməyəcək. Sən mənim qardaşım və varisimsən (canişinimsən).»[1]

İbn Kəsir isə bu məsələyə şübhə ilə yanaşmışdır.[2]

İkinci fəzilət aşağıdakından ibarətdir: Məscidin tikintisi başa çatır. Məscidin ətrafında Peyğəmbər(s) və səhabələr üçün evlər tikilir və hər evdə birbaşa məcsidin içərisinə açılan bir qapı qoyulur. Bir qədər keçdikdən sonra Peyğəmbərlə Əlinin qapısı istisna olmaqla məscidə açılan bütün qapıların bağlanması Allah tərəfindən əmr edilir. Səbt ibn Couzi yazır: «Bəzi səhabələr buna etiraz etdi. Elə bilirdilər ki, Əlinin qapısının saxlanılması Peyğəmbərlə arasındakı şəxsi münasibətə görədir. Peyğəmbər(s) həqiqəti camaata çatdırmaq üçün bir xütbə oxuyur. Xütbə əsnasında buyurur: «Hansısa qapının açıq qalıb hansınınsa bağlanmasına mən əmr verməmişəm. Bu, Allahın əmri idi və mən də ona itaət etməli idim.»[3]

Beləliklə, İslam qardaşlığı sayəsində üç problemdən biri öz həllini tapır.

### *Müsəlmanlarla Mədinə yəhudiləri arasında bağlanmış müdafiə sazişi*

[1] Yənabiül-məvəddət, s-56
[2] Əl-Bidayətu vən-nihayə, c-2, s-226
[3] Təzkirətul-xəvass, s-46

Mədinə yəhudilərinin məsələsi ikinci problem idi. Onlar Mədinənin daxilində və xaricində yaşayır və ticarətin demək olar bütün sahələrini öz əllərində cəmləmişdilər.

Həzrət Peyğəmbər(s) çox yaxşı anlayırdı ki, daxili sabitlik olmasa, yəhudiləri özünə müttəfiq etməsə, Mədinədə yeni qurulmuş İslam hökumətini qorumaq mümkün olmayacaq. Belə olduğu halda üçüncü problemi, yəni, yarımadadakı bütpərəstlər, xüsusilə də Qüreyşə vaxt sərf etmək mümkün olmayacaq. Başqa sözlə desək, daxili düşməndən arxayınlaşmayınca, xarici düşmənə baş qoşmaq olmaz.

Peyğəmər(s) Mədinəyə gəldiyi ilk günlərdə müsəlmanlarla yəhudilər müəyyən səbəblərə görə yaxşı anlaşırdılar. Çünki hər iki dəstə təkallah idi, bütpərəstliyə qarşı çıxırdı. Yəhudilər elə təsəvvür edirdilər ki, İslamın güclənməsi ilə bizanslıların hücumlarından qurtulacaqlar. Üstəlik yəhudilərin Ovs və Xəzrəc qəbilələri ilə çoxdandır ki, anlaşmaları var idi. Bütün bunları nəzərə alaraq Peyğəmbər(s) mühacirlərlə ənsarın vəhdətinə dair bir nizamnamə hazırlayır, Mədinə yəhudiləri də onu imzalayırlar. (Burada yəhudilər dedikdə Ovs və Xəzrəc qəbilələrinin yəhudiləri nəzərdə tutulur.) Həmin nizamnamədə yəhudilərin din və mal-dövlətlərinə müəyyən şərtlər çərçivəsində toxunulmazlıq hüququ verilir. Nizamnamənin tam mətni tarix kitabalrında öz əksini tapmışdır. Bu nizamnamə tarixi sənəd olduğu, Peyğəmbərin(s) ədalətə, bərabərliyə, demokratiyaya necə əməl etməsinə şahid olması üçün onun əsas bəndlərini diqqətinizə çatdırırıq. Bu, o dövrdə yeni qurulmuş İslam dövləti üçün böyük siyasi uğur olmuşdur.

***Ən böyük tarixi sənəd***

Bismillahir-rəhmanir-rəhim

Allahın elçisi Mühəmmədin Qüreyş və Yəsrib müsəlmanları və eləcə də onlara tabe olub birlikdə cihada qalxan şəxslər arasında bağlanmış müqavilə.

**Birinci bənd:**

1. Bu müqaviləni imzalayanlar vahid millət sayılır. Qüreyş mühacirləri qan bahasını ödəməkdə İslamdan qabaqkı adət-ənənəyə sadiq

qalırlar. Onlardan kimsə bir nəfəri öldürərsə və ya əsir düşərsə, başqaları da qan bahasını və ya əsirlik pulunu ödəməkdə ona kömək etməlidir.

2. Ənsardan olan Bəni-Ovf qəbiləsi də öz həyat tərzini Qüreyş mühacirləri kimi davama etdirə bilər. Qan bahasını və əsirlik pulunu birlikdə ödəyə bilərlər. (Sonra ənsarın digər qəbilələri-Bəni-Saidə, Bəni-Haris, Bəni-Cuşəm, Bəni-Nəccar, Bəni-Əmr ibn Ovf, Bəni-Nəbit və Bəni-Ovs da maddəyə əlavə edilir və onlara da qan bahasını və əsirlik pulunu bir yerdə ödəyə bilmələri hüququ verilir.)

3. Müsəlmanlar kimsəsiz və yoxsullara kömək etməlidirlər. Onun qan bahası və əsirlik pulu kimi ağır xərclərində yardımçı olmalıdırlar.

4. Möminlər günahkar (cinayətkar) şəxsə qarşı birləşməlidirlər. Cinayətkar hətta onlardan hansınınsa övladı olsa belə.

5. Müsəlman şəxsin uşağı və ya nökəri ilə atasının (və ya ağasının) razılığı olmadan kimsə müqavilə bağlaya bilməz.

6. Kafiri öldürdüyünə görə müsəlman şəxsi heç bir müsəlman öldürə bilməz. Ümumiyyətlə müsəlmana qarşı çıxmış kafirə kömək edilməməlidir.

7. Bütün müsəlmanlar Allah dərgahında bərabərdir. Bu baxımdan ən yoxsul müsəlman da kafirlər qarşısında hansısa öhdəçiliyi boynuna götürə bilər.

8. Müsəlmanlar bir-birinin dostu və dayağıdır.

9. İslamı qəbul edəcək istənilən yəhudi bizim malik olduğumuz bütün hüquqlara malik olacaq. Onun digər müsəlmanlarla heç bir fərqi olmayacaq. Kiminsə ona zülm etməyə, başqasını onun əleyhinə qaldırmağa və yaxud onun düşməninə kömək etməyə haqqı yoxdur.

10. Sülh bağlanarkən müsəlmanlar bir olmalıdır. Hər hansı bir müsəlmanın digər müsəlmanların nəzərini cəlb etmədən sülh bağlamaq hüququ yoxdur.

11. Müsəlman dəstələri cihada dəstə ilə getməlidir ki, Allah yolunda şəhid olduqda qoy hamıdan bərabər şəhid getsin.

12. Müsəlmanların dini ən gözəl dindir.

13. Mədinə müşriklərinin Qüreyş müşriklərinin malını, canını öhdəçiliyə götürməyə və ya onlardan kimisə tutmaqda hər hansı müsəlmana mane olmağa haqqı yoxdur.

14. Bir müsəlman digərini səbəbsiz yerə öldürərsə və cinayəti şəri sübutlarla təsdiq edilərsə, cinayətkar edam edilməlidir. Zərərçəkmiş tərəf qatildən keçəcəyi təqdirdə edam hökmü qüvvədən düşər. Hər iki halda müsəlmanlar qatilə qarşı bir olmalıdır.

15. Bu müqaviləni qəbul edib Allaha və Peyğəmbərinə iman gətirən şəxsin hər hansı bidətçi və ya cinayətkarı dəstəkləmək hüququ yoxdur. Bidətçi və ya cinayətkara sığınacaq verəcək şəxsə Allah lənət eləsin! (Axirətdə) onun heç bir üzrü qəbul edilməyəcək.

16. Mübahisəli məqamlarda son söz Allahın və Mühəmmədindir.

**İkinci bənd:**

17. Müsəlmanlar Mədinə uğrunda döyüşdükləri qədər yəhudilər də paylarına düşən döyüş xərcini ödəməlidir.

18. Bəni-Ovf qəbiləsinin yəhudiləri müsəlmanlarla eyni hüquqa malikdir. Müsəlmanlar da, yəhudilər də öz dinlərində azaddırlar. Bu maddə onların nökərlərinə də şamil edilir. Cinayətkarlar bu maddədən istisna edilir.

19. Bəni-Nəccar, Bəni-Haris, Bəni-Saidə, Bəni-Cuşəm, Bəni-Ovs, Bəni-Sələbə və Bəni-Şüteybə yəhudiləri də Bəni-Ovf yəhudiləri ilə eyni hüquqa malikdirlər.

20. Bu müqaviləni imzalayanların yaxşı işləri pis işlərindən çox olmalıdır.

21. Bəni-Sələbə ilə müttəfiq olanlar da onların özü ilə eyni hüquqa malikdir.

22. Yəhudilərlə müttəfiq olanlar da onların özü ilə eyni hüquqa malikdir.

23. Mühəmmədin icazəsi olmadan heç kimin bu müqaviləni pozmağa haqqı yoxdur.

24. Bu müqaviləni imzalayanalrın hər birinin toxunulmazlıq hüququ var. Kimsə onlardan birini yaralayarsa (və ya öldürərsə), ona qarşı qisas tətbiq ediləcək. Zülmə məruz qalmış cinayətkar bu maddədən istisna edilir.

25. Yəhudilərlə müsəlmanların çiyin-çiyinə vuruşduğu döyüşlərdə hər dəstə öz xərcini ödəməlidir. Bu müqavilədə göstərilən müttəfiqlərlə çiyin-çiyinə vuruşanlar da öz xərcini ödəməlidir.

26. Müqaviləni imzalayanlar arasındakı münasibətlər yaxşılıqla həll edilməlidir.

27. Müqaviləni bağlayanların bir-birinə zülm etmək haqqı yoxdur. Kimsə zülm edərsə, məzluma kömək edilməlidir.

28. Mədinə şəhəri müqaviləni imzalayanlar üçün toxunulmaz ərazi hesab edir.

29. Qonşulara, öhdəçiliyə götürülmüş şəxslərə kimsə zülm edə bilməz.

30. Qohumlarının icazəsi olmadan heç bir qadın himayəyə götürülə bilməz.

31. Qarşıya çıxacaq hər hansı mübahisəli məsələyə Mühəmməd son qoyacaq. Allah bu müqaviləyə daha hörmətlə yanaşan şəxslədir.

32. Qüreyşliləri və onların müttəfiqlərini heç kim öhdəçiliyə götürə bilməz.

**Üçüncü bənd:**

33. Bu müqaviləni imzalayanlar Mədinəni müştərək şəkildə qorumağa borcludurlar.

34. Müsəlmanlar düşmənlə sülh bağlayarkən yəhudiləri dəvət etdikdə yəhudilər qəbul etməlidir. Həmçinin yəhudilər də düşmənlə sülh bağlayarkən müsəlmanları dəvət etdikdə müsəlmanlar qəbul etməlidir. İslam dini və onun yayılması ilə barışmayan düşmən istisna edilir.

35. Bu müqavilənin məzmunu Ovs yəhudilərinə də (istər ağa olsun, istər nökər) aiddir.

**Dördüncü bənd:**

36. Bu müqaviləyə əsasən zalım və cinayətkarı dəstəkləmək olmaz.

37. Bu müqaviləni imzalayanlar cinayət törətmədiyi təqdirdə Mədinənin həm daxilində, həm də xaricində amandadırlar.

Müqavilə «Allah təqvalı və yaxşı insanlara aman verir və Mühəmməd Allahın elçisidir.» cümləsi ilə başa çatır.[1]

Bəzi hissələrini qeyd etdiyimiz bu siyasi müqavilə İslamda əqidə azadlığı, ictimai asayiş və həmkarlığın lüzumunu göstərir. Bunlardan

---

[1] Sireyi İbn Hişam, c-1, s-503-504; əl-Əmval, s-125, 202

daha önəmlisi isə odur ki, müqavilə İslam rəhbərinin və onu imzalayanların hüquq və səlahiyyətlərini müəyyən edir.

Bu müqavilə imzalanarkən müsəlmanlarla yanaşı Ovs və Xəzrəcdən olan yəhudilər də iştirak edirlər. Bir qədər sonra isə Peyğəmbər(s) Bəni-Qüreyzə, Bəni-Nəzir və Bəni-Qeynüqa yəhudiləri ilə də müqavilələr imzalamışdır. Həmin müqavilələrin məzmunu aşağıdakı formada olmuşdur: «Bu müqaviləyə əsasən, qeyd edilən üç qəbilənin yəhudiləri Peyğəmər və səhabələrinə qarşı hər hansı mənfi iş görməyəcək, onlara nə fiziki, nə maddi, nə psixoloji zərər yetirməyəcək, müsəlmanların düşmənlərinə silah və minik köməkləri etməyəcəklər. Yəhudilər bu müqavilənin şərtlərini pozacağı təqdirdə Peyğəmbərin onların qanını tökmək, mal-dövlətini müsadirə, arvad-uşaqlarını əsir etmək hüququ vardır.»

Bəni-Nəzir tərəfdən Hüyeyy ibn Əxtəb, Bəni-Qüreyzə tərəfdən Kəb ibn Əsəd, Bəni-Qeynüqadan isə Müxeyriq müqaviləni imzalayırlar.[1]

Beləliklə, ətrafı da daxil olmaqla Mədinə toxunulmazlıq, əmin-amanlıq yurduna çevrilir. Bax indi Peyğəmbər(s) ilk problem, yəni Qüreyş bütpərəstləri barədə düşünə bilərdi. Bu düşmən yolun qarşısını kəsdikcə Peyğəmbər(s) İslamı yaymağa nail ola bilməzdi.

***Yəhudilərin vəfasızlığı***

İslamın təlimləri və eləcə də Peyğəmbərin(s) gözəl əxlaqı günbəgün müsəlmanların sayının artması ilə nəticələnirdi. İslamın bu cür inkişaf etməsi yəhudiləri narahat etməyə başlayır. Çünki onlar Peyğəmbərin bir qədər güclənməsi ilə onu öz tərəflərinə çəkməyi düşünürdülər. Ancaq ağıllarına da gəlməzdi ki, o həzrətin qüdrəti yəhudiləri də vurub keçəcək. Buna görə də onlar vəfasızlıq etməyə, hiyləyə əl atırlar. Dolaşıq suallar verməklə Peyğəmbəri müsəlmanların gözündən salmağa çalışırlar.

Yəhudilərin bu planları müsəlmanlara qətiyyən təsir etmir. Bu elmi mübahisələr haqqında Bəqərə və Nisa surələrində geniş şəkildə danışılmışdır. Bu barədə olan ayələri diqqətlə araşdırdıqda yəhudilərin necə inadkar olduğu üzə çıxır. Verdiyi suallara ətraflı şəkildə cavab alsalar da

---

[1] Biharul-ənvar, c-19, s-110-111

öz inadlarından dönmür, Peyğəmbərin: «Elə isə iman gətirin!»-müraciətinə cavab olaraq: «Bizim qəlblərimiz örtülüdür, pərdəlidir.»[1]-deyirdilər.

***Abdullah ibn Səllamın iman gətirməsi***

Belə elmi mübahisələr yəhudilərin inadını artırsa da, bəzən kimlərinsə iman gətirməsi ilə də nəticələnirdi. Abdullah ibn Səllam yəhudi alimlərindən idi. O, Peyğəmbərlə uzun söhbətdən sonra iman gətirir.[2] Bir qədər sonra digər yəhudi alimi Müxeyriq də İslamı qəbul edir.

Abdullah ibn Səllam bilirdi ki, qəbiləsi onun iman gətirdiyindən xəbər tutsa, danlamağa başlayacaq. Buna görə də Peyğəmbərdən(s) xahiş edir ki, onun iman gətirdiyini bildirməsin. Həm də yəhudilərdən onun necə adam olduğunu soruşduqdan sonra iman gətirdiyini bildirsin. Peyğəmbər(s) belə də edir. Yəhudilərdən İbn Səllamın necə adam olduğunu soruşduqda hamı: «O, bizim böyüyümüz, alimimizdir.» – deyə cavab verir. Bundan sonra Abdullah ibn Səllam qəbiləsinə dönüb müsəlman olduğunu bildirir. İslamı qəbul etməsi yəhudilərdə ona qarşı böyük nifrət yaradır. Bir neçə saat bundan qabaq onun gözəl insan, alim olduğunu deyənlər indi onu axmaq, cahil, nadan adlandırırdılar.[3]

***İslam hökumətini yıxmaq üçün hazırlanmış plan***

Yəhudilərin verdiyi dolaşıq suallar nəinki Peyğəmbərin(s) nüfuzunu azaltmır, əksinə, hamı o həzrətin verdiyi qeybi xəbərlərlə yaxından tanış olurdu. Bu elmi müzakirələr nəticəsində dəstə-dəstə bütpərəst, yəhudi İslamı qəbul edirdi. Bu səbəbdən yəhudilər müsəlmanlar arasında daxili çəkişmə yaratmaq fikrinə düşürlər. Onlar belə qərara gəlirlər ki, Ovs və Xəzrəc arasında İslam sayəsində unudulmuş döyüşləri xatırlamaqla bu iki qəbiləni yenidən bir-birinə düşmən etsinlər. Bir gün ovslularla xəzrəclilərin bir yerdə olduğunu görən yəhudi Şas planları həyata keçirməyə başlayır. Yaxınlıqda olan gənc yəhudiyə işarə edir ki, hərəkətə keçsin. O da iki qəbilə arasında baş vermiş döyüşləri,

[1] Bəqərə-88
[2] Sireyi İbn Hişam, c-1, s-534-572; Biharul-ənvar, c-19, s-131
[3] Sireyi İbn Hişam, c-1, s-516

Ovs qəbiləsinin qələbəsi ilə nəticələnmiş 120 illik Buas döyüşünü xatırlayaraq hamını qıcıqlandırır.

O, bu döyüşləri elə incəliklərinə qədər şərh verir ki, müsəlmanlar mübahisəyə başlayırlar. Az qalmışdı ki, iki dəstə arasında yenidən döyüş başlasın. Peyğəmbərə xəbər çatcaq, bunun yəhudilərin işi olduğunu bilir və dərhal hadisə yerinə gəlir. İslamın əsas məqsədini bir daha açıqlayaraq buyurur: «İslam sayəsində bir-birinizlə qardaş oldunuz, keçmiş ədavətlər, kin-kudurətlər unuduldu.» Peyğəmbər(s) onlara bir qədər nəsihət verib bunun yəhudilərin hiyləsi olduğunu anladır. Səhabələr səhvlərini anlayırlar. Qardaşlıq tellərinin daha da möhkəmlənməsi məqsədilə bir-birini bağrına basıb qucaqlaşır, Allahdan bağışlanmalarını diləyirlər.[1]

Yəhudilərin hiylə-kələkləri, xəyanətləri bununla bitmir, onlar getgedə daha böyük cinayətlərə əl atmağa başlayırlar. Ovs və Xəzrəcdən olan bütpərəstlərlə, imanı zəif olanlarla gizli əlaqələr qurur, müsəlmanlarla Qüreyş müşrikləri arasındakı döyüşlərdə bütpərəstlərə açıq və gizli şəkildə kömək edirlər. Onalrın Qüreyş müşriklərinə aşkar və gizli yardımları müsəlmanlarla yəhudilər arasında baş vermiş döyüşlərlə nəticələnir. Bu döyüşlərdən sonra Mədinə şəhəri tamamilə yəhudilərdən təmizlənir. Bu barədə hicrətin üç və dördüncü ilində baş vermiş hadisələrdən danışarkən ətraflı məlumat verəcəyik.

Həzrət Peyğəmbər(s) Mədinəyə çatdığı gündən başlayaraq hicrətin ikinci ilini səfər ayınadək məscidin və ətraf evlərin tikintisini başa çatdırır. Bu müddət ərzində Ovs və Xəzrəc qəbilələrinin nadir qolları bütpərəstlikdə qalır. Digər qolların hamısı İslamı qəbul edir. Bədr döyüşündən sonra isə bütpərəstlikdə qalanlar da müsəlman olurlar.[2]

---

[1] Sirey-İbn Hişam, c-1, s-555-556

[2] Sireyi İbn Hişam, c-1, s-500

## HİCRƏTİN İKİNCİ İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR

***Hərbi manevrlər, kəşfiyyatlar***

Hicrətin səkkizinci ayından başlayaraq ikinci ilin Ramazan ayına qədər Peyğəmbər(s) müsəlmanları bir sıra kəşfiyyatlara göndərir.

Bu hadisələr barədə dəqiq fikir yürütmək üçün baş verənləri tarixi mənbələrdən[1] olduğu kimi qeyd etməliyik.

1) Peyğəmbərin(s) hicrətindən səkkiz ay sonra həzrət İslamın ilk bayrağını şücaətli sərkərdə Həmzə ibn Əbdülmüttəlibə verib otuz mühacirin müşayiəti ilə onları Qüreyş karvanının yolu olan Qırmızı dəniz sahillərinə göndərir. Həmzə Eys adlı yerdə Əbu Cəhlin başçılıq etdiyi üç yüz nəfərlik Qüreyş karvanı ilə rastlaşır. Heç bir qarşıdurma baş vermədən tərəflər Məcdi ibn Əmrin vasitəsilə bir-birindən ayrılır. Bununla da Həmzənin başçılıq elədiyi dəstə Mədinəyə qayıdır.

Hicrətin ilk ili geridə qalır. Hicrətin ikinci ili bir çox əlamətdar hadisələrlə müşayiət olunur ki, onların ən əsası qiblənin dəyişməsi və Bədr döyüşü olmuşdur.

Bədr döyüşünün baş vermə səbəbləri aydın olsun deyə, döyüşdən qabaq gerçəkləşmiş bəzi hadisələri diqqətinizə çatdırmaq istəyirik. Bu hadisələrdən biri hicrətin birinci və ikinci ilində həyata keçirilmiş hərbi manevrlər, kəşfiyyatlar olmuşdur. Peyğəmbər(s) Qüreyşin ticarət yoluna tərəf ara-sıra kiçik dəstələr göndərmişdir. Görəsən Peyğəmbərin(s) bu işdə məqsədi nə imiş?

Tarixçilər İslam döyüşlərindən danışarkən iki fərqli ifadə işlədirlər. Bunlardan biri qəzvə, digəri isə səriyyədir. (Azərbaycan dilinə hər iki söz döyüş kimi tərcümə edilir.) Qəzvə deyildikdə o döyüşlər nəzərdə tutulur ki, Peyğəmbər(s) özü şəxsən onda iştirak etmişdir. Səriyyədən məqsəd isə o döyüşlərdir ki, Peyğəmbər özü şəxsən onda iştirak

---

[1] Sireyi İbn Hişam, c-2, s-222; Biharul-ənvar, c-19, s-186-190; İmtaul-əsma, s-51; əl-kamilu fit-tarix, c-2, s-77-78; Məğazi Vaqidi, c-1, s-9-19

etməmiş, kimisə sərkərdə təyin etmişdir. Həzrətin dövründə baş vermiş qəzvələrin sayı 26 və ya 27 göstərilir. Bu fərq də onunla əlaqədardır ki, bəzi tarixçilər ard-arda baş vermiş Xeybər və Vadil-qura döyüşlərini bir döyüş saydıqları halda digər dəstə onları iki döyüş hesab etmişdir.[1]

Peyğəmbərin dövründə baş vermiş səriyyələrin də sayında fərq var. Onların sayının 35, 36, 48, hətta 66 olduğunu deyənlər də vardır. Buradakı fərq də ondan irəli gəlir ki, bəzi səriyyələrdə həddən atrıq az adam iştirak etdiyi üçün bəzi tarixçilər onu səriyyə hesab etməmişdir. Hicrətin ilk illərində baş vermiş bəzi səriyyələrin Bədr döyüşünün baş verməsində təsiri olmuşdur.

2) Peyğəmbər(s) ilk dəstədən bir qədər sonra Übeydə ibn Haris ibn Əbdülmüttəlibin başçılığı ilə altmış və ya səksən nəfərlik mühacir dəstəsini Qüreyş karvanına doğru göndərir. Übeydənin dəstəsi Əbu Süfyanın başçılıq və iki yüz nəfərin mühafizə etdiyi Qüreyş karvanı ilə Səniyyətül-məzrədə görüşür. Tərəflər heç bir toqquşma baş vermədən bir-birindən ayrılır. Sadəcə Səd ibn Əbu Vəqqas bircə ox atır və Qüreyş karvanındakı iki müsəlman Übeydənin dəstəsinə qoşulur.

3) Peyğəmbər hicrətin ilk ilində, zil-qədə ayında Səd ibn Əbu Vəqqasın başçılığı altında səkkiz nəfər mühaciri Qüreyş karvanını izləmək üçün Mədinədən kənara yollayır. Bu kiçik dəstə Xərrar adlı yerə qədər getsə də heç kəslə rastlaşmayıb geri dönür.

4) Hicrətin ikinci ilinin səfər ayında Peyğəmbər(s) Səd ibn Übadəni Mədinədə öz yerinə qoyub özü isə mühacir və ənsarın müşayiəti ilə Qüreyş karvanını təqib etməyə və Bəni-Zəmrə qəbiləsi ilə müqavilə bağlamağa gedir. Həzrətin başçılıq etdiyi dəstə Əbva adlı məntəqəyə qədər irəliləsə də Qüreyş karvanı ilə rastlaşmır, lakin adı çəkilən qəbilə ilə müqavilə bağlayıb geri dönür.

5) Hicrətin ikinci ili, rəbiül-əvvəl ayında Peyğəmbər(s) Saib ibn Osman və ya Səd ibn Məazı öz yerində qoyub özü iki yüz nəfərlik dəstə ilə Qüreyş karvanının təqibinə çıxır. Bəbata qədər (təxminən Mədinənin 90 kilometrliyi) irəliləsələr də Üməyyə ibn Xələfin başçılıq etdiyi yüz nəfərlik Qüreyş karvanını görə bilmirlər.

---

[1] Mürucuz-zəhəb, c-2, s-287-288

6) Hicrətin ikinci ili, cəmadil-əvvəl ayının ortasında Peyğəmbərə(s) Qüreyş karvanının Əbu Süfyanın başçılığı ilə Məkkədən Şama çıxdığı barədə məlumat verilir. Peyğəmbər(s) Əbu Sələməni Mədinədə başçı qoyub özü Qüreyş karvanını təqib etmək üçün bir dəstə ilə yola çıxır.

Üşeyrə məntəqəsinə qədər irəliləsələr də karvanla rastlaşmırlar. Bu səfər müddətində Bəni-Mədləc qəbiləsi ilə müqavilə bağlanır.[1] (Xatırladaq ki, bu səfər cəmadil-axir ayının əvvəllərinədək davam etmişdir.

İbn Əsir yazır: «Peyğəmbərlə(s) səhabələrin oturaq saldığı yerdə bir gün Peyğəmbər(s) Əli ilə Əmmarın yanına gəlir. Yatdıqları üçün həzrət onları oyadır. Bu zaman Əlinin sir-sifətinə toz-torpaq yapışdığını görüb buyurur: «Nə olub ey Əbu Turab (toz-torpağa bulaşmış)!» O gündən etibarən müsəlmanlar Əlini Əbu Turab kimi çağırmağa başlayırlar. Sonra Peyğəmbər(s) deyir ki, istəyirsinizmi sizə dünyanın ən bədbəxt adamını tanıtdırım? Əli ilə Əmmar: «Tanıtdır, ya rəsuləllah!»-deyə cavab verdikdə həzrət buyurur: «Dünyanın ən bədbəxt adamı iki nəfərdir. Biri Saleh peyğəmbərin dəvəsini öldürən şəxsdir biri də (Əliyə işarə edərək) sənin başına qılınc endirib saqqalını qanına boyayacaq şəxs.»[2]

7) Peyğəmbər(s) Qüreyş karvanı ilə rastlaşacağına ümidini itirib Mədinəyə qayıdır. Mədinəyə gəlişindən heç on gün keçməmiş ki, Kərəz ibn Cabirin Mədinə sürüsünü oğurladığı xəbəri gəlir. Onu təqib etmək məqsədi ilə Peyğəmbər(s) Bədr quyularına qədər gəlir, heç bir nəticə əldə etmədən dəstəni geri qaytarır və şəban ayının sonunadək Mədinədə qalır.[3]

8) Hicrətin ikinci ili rəcəb ayında Peyğəmbər(s) səksən nəfərlik mühacir dəstəsini Abdullah ibn Cəhşin başçılığı ilə Qüreyş karvanını təqib etməyə göndərir. Dəstə hərəkət edərkən Peyğəmbər(s) Abdullaha bir məktub verib deyir: «İki gün yol getdikdən sonra bu məktubu açıb oxuyar, onda deyilənə əməl edərsən. Adamlarından da heç birini nəyəsə məcbur etmə!» Abdullah ibn Cəhş iki gün yol getdikdən sonra məktubu açır, görür ki, onda belə yazılıb: «Məktubumu oxuduqdan sonra yoluna davam et! Məkkə ilə Taif arasında yerləşən Nəxlədə dayanarsınız.

---

[1] Tarixul-xəmis, c-1, s-363
[2] Əl-Kamilu fit-tarix, c-2, s-112; Mustədrəkul-Hakim, c-3, s-140-141
[3] Sireyi İbn Hişam, c-1, s-601

Orada Qüreyşin karvanını gözləyin və onların barəsində məlumat toplayın!»

Abdullah məktubda deyilənə əməl edir. Yaxındakılar da ona tabe olub deyilən yerə gəlirlər. Həmin vaxt Əmr Xəzrəminin başçılığı ilə Qüreyş karvanı Taifdən Məkkəyə qayıdırdı. Karvana yaxın bir yerdə oturaq salmış müsəlmanlar məqsədləri aşkar olmasın deyə, başlarını qırxırlar ki, müşriklər onların ziyarətə getdiyini düşünsünlər. Qüreyşlilər onları görcək deyirlər ki, bunlar ümrə ziyarətinə gedirlər, bizimlə işləri yoxdur.

Bu zaman müsəlmanlar nə edəcəkləri barədə məlsəhətləşmə aparırlar. Belə qərara gəlirlər ki, haram ay olan rəcəbin qurtarmasına bir gün qalır. Onun başa çatmasını gözləsələr, Qüreyş karvanı həmin gün hərəkət edib hərəm ərazisinə daxil olacaq ki, orada da döyüşmək haramdır. Yaxşısı budur hərəm ərazisində döyüşməkdənsə haram ayda döyüşsünlər.

Düşməni qəfil yaxalayıb karvanın başçısı Əmr Həzrəmini oxla vurub öldürür, onun iki köməkçisi Osman ibn Abdullahla Həkəm ibn Keysanı da əsir tuturlar. Abdullah ibn Cəhş iki əsirlə birlikdə karvanın yükünü də Mədinəyə gətirir.

Dəstə başçısının əmrdən kənara çıxdığı və haram ayda döyüşdüyü üçün Peyğəmbər(s) çox narahat olub buyurur: «Mən haram ayda döyüşməyi sizə əmr etməmişdim.»

Qüreyş müşrikləri müsəlmanların bu hərəkətini bəhanə edərək hamıya yayırlar ki, Mühəmməd haram ayın hörmətini pozmuşdur. Yəhudilər də bunu pis yerə yozub fitnə-fəsad törətməyə çalışırlar. Müsəlmanlar Abdullah və dəstəsindəkiləri qınayırdılar. Digər tərəfdən də Peyğəmbər(s) onların gətirdiyi qənimətə əl vurmayıb Allahın əmrini gözləyirdi. Bu zaman Cəbrail nazil olur. Aşağıdakı ayəni gətirir: ***«(Ya Rəsulum!) Haram olan ayda döyüş haqda səndən soruşanlara söylə: «O ayda döyüşmək böyük günahdır, lakin Allah yolunu (insanların üzünə) qapamaq, onu inkar etmək, Məscidül-harama girməyə mane olmaq və oradakıları kənara çıxarmaq Allah yanında daha böyük günahdır. (Din naminə) fitnə salmaq isə (həmin ayda) vuruşmaqdan daha betərdir!»***[1]

[1] Bəqərə-217

Bu isə o demək idi ki, düzdür, müsəlmanların haram ayda vuruşması səhv və günah işdir, siz qüreyşlilər isə daha böyük günah işlədirsiniz. O da budur ki, müsəlmanları öz ev-eşiklərindən uzaqlaşdırmısınız, fitnə-fəsad törətmisiniz. Bu günahınıza görə sizin etiraz etməyə haqqınız yoxdur.

Bu ayənin nazil olması ilə sanki müsəlmanlara yeni bir ruh gəldi. Peyğəmbər(s) də qənimətləri bölüşdürdü. Qüreyşlilər öz əsirlərini almaq istəyirdilər. Peyğəmbər(s) xəbər göndərdi ki bizdən əsir götürdüyünüz iki müsəlmanı buraxın, biz də sizin əsirlərinizi azad edək. Yox əgər onları öldürsəniz, biz də əsirlərinizi öldürəcəyik.

Beləliklə, əsirlər dəyişdirilir. Xoşbəxtlikdən Qüreyş əsirlərindən biri İslamı qəbul edib Mədinədə qalır.

***Hərbi yürüşlərdə məqsəd nə idi?***

Hərbi yürüşlərdə və Qüreyşin ticarət yolunda yerləşən qəbilələrlə müqavilələr imzalamaqdan məqsəd Qüreyşi müsəlmanların gücündən xəbərdar etmək olmuşdur. Bu yolla Peyğəmbər(s), məkkəlilərə başa salmaq istəyirdi ki, bütün ticarət yollarınız bizim əlimizdədir, istədiyimiz vaxt yolunuzu kəsə bilərik.

Ticarət məkkəlilər üçün həyati önəm daşıyırdı. Məkkə iqtisadiyyatının əsasını təşkil edən mallar Taif və Şama aparılıb orada satılırdı. Əgər ticarət yolları müsəlmanlar və ya müttəfiqləri tərəfindən bağlanardısa, məkkəlilərin həyatı alt-üst olardı. Peyğəmbər(s) də hərbi yürüşlər həyata keçirməklə Qüreyşə başa salırdı ki, öz inadkarlığında qalıb İslamın yayılmasının qarşısını almağa, Məkkədəki müsəlmanlara əziyyət verməyə çalışsalar, bütün ticarət yolları kəsiləcək. Bir sözlə, Qüreyş ayılmalı, müsəlmanlara azadlıq verməlidirlər.

Danışan şəxs nə qədər güclü, səmimi olsa da azad mühit olmayınca istədiyi kimi təbliğ edə bilməyəcək. İslamın irəliləməsi üçün ən böyük maneə də məhz qüreyşlilərin yaratdığı əlverişsiz mühit idi. Bu maneəni aradan qaldırmağın yeganə yolu məhz onları ticarət yollarının bağlanması ilə hədələmək idi. Peyğəmbər(s) də hərbi yürüşlərlə bunu həyata keçirirdi.

***Şərqşünasların mövqeyi***

Hərbi yürüşlərlə bağlı bəzi şərqşünaslar səhvə yol vermiş, tarixi faktlarla qətiyyən uyğun gəlməyən fikirlər söyləmişlər.

Onlar belə hesab edirlər ki, Peyğəmbərin bu manevr və yürüşlərdən məqsədi o idi ki, Qüreyş karvanlarını müsadirə etməklə güclərini artırsınlar. Bu fikir Mədinə camaatının təbiəti ilə əsla uyğun gəlmir. Çünki qarətçilik əsasən mədəniyyətdən uzaq kəndlilərin işi idi. Mədinə camaatı isə əkinçiliklə məşğul olurdu. Onlar bircə dəfə də olsun, karvan qarət etməmişdilər. Ovs və Xəzrəc arasındakı döyüşə gəlincə, bu, daxili münaqişə olsa da, bu işdə də yəhudilərin əli var idi. Onlar ərəblər dirçəlməsin deyə, onları bir-birinə qarşı çıxarırdılar.

Bütün əmlakı qüreyşlilər tərəfindən müsadirə edilmiş mühacirlər də əvəz çıxmaq fikrində olmamışlar. Çünki Bədr döyüşündən sonra daha Qüreyş karvanları təqib edilmir. Deməli, bu yürüşlərin əksəriyyəti Qüreyş haqqında məlumat toplamaq olmuşdur. Hər iki yüz, üç yüz mühafizəçi ilə qorunan karvanı qarət etmək istəyən şəxs özü ilə səkkiz, altmış və ya səksən nəfər adam aparmazdı.

Bu yürüşlərdə məqsəd doğrudan da qarət idisə, bəs nəyə görə başqa karvanlara hücum edilmir, yalnız Qüreyş karvanları hücuma məruz qalırdı? Nəyə görə ancaq mühacirlər bu yürüşlərdə iştirak edirdilər?

Bəziləri belə hesab edirlər ki, yürüşlərdə məqsəd Qüreyşdən intiqam olmaq olmuşdur. Çünki Peyğəmbər və səhabələri məkkəlilərin işgəncələrini xatırlayır, onlardan intiqam almaq istəyirdilər.

Bu fikir də əvvəlki fikir kimi əsassızdır. Tarixi faktlar bunun əksini deyir. Aşağıdakı dəlillər göstərir ki, yürüşlərdə məqsəd intiqam almaq olmayıb:

1) Yürüşlərdə məqsəd döyüşmək, qənimət əldə etmək olsaydı, Peyğəmbər(s) yürüşdə iştirak edənlərin sayını artırardı. Halbuki Həmzə otuz, Übeydə altmış, Səd ibn Əbu Vəqqas isə vur-tut səkkiz nəfərlik dəstə ilə yürüşə çıxmışdır. Qüreyş karvanını mühafizə edənlərin sayı isə dəfələrlə çox olmuşdur. Əgər həqiqətən də müsəlmanların döyüşmək fikri olubsa, bəs nəyə görə əksər yürüşlərdə bir damcı belə qan axıdılmadan tərəflər ayrılmışlar?

2) Peyğəmbərin(s) Abdullah ibn Cəhşə verdiyi məktub göstərir ki, yürüşlərdə məqsəd döyüşmək deyilmiş. Məktubda deyilirdi: «Məkkə ilə Taif arasında yerləşən Nəxlədə dayanarsınız. Orada Qüreyşin karvanını gözləyin və onların barəsində məlumat toplayın!» Məktubda qətiyyən döyüşmək əmri verilmir. Abdullah ibn Cəhşin dəstəsi öz aralarında məsləhətləşdikdən sonra döyüşürlər. Peyğəmbər(s) əsla onlara belə bir göstəriş verməmişdi. Döyüşdüklərinə görə hətta həzrət onları danlayır da.

Məlum məsələdir ki, bu yürüşlərin hamısı olmasa da, əksəriyyəti eyni məqsədə xidmət etmişdir. Həmzənin otuz nəfərlik dəstə ilə döyüşə getdiyini dediyimiz halda Abdullah ibn Cəhşin Həmzənin dəstəsindən təxminən üç dəfə atrıq bir dəstə ilə kəşfiyyata göndərildiyini iddia etmək gülüncdür. Deməli, əvvəlki yürüşlər də sırf kəşfiyyat xarakteri daşımışdır. Yürüşdə ancaq mühacirlərin iştirak etməsinə gəldikdə isə qeyd etməliyik ki, Mədinə müsəlmanları Peyğəmbərlə(s) Əqəbə sözləşməsində onu müdafiə edəcəklərinə söz vermişdilər. Buna görə də Peyğəmbər(s) müdafiə xarakteri daşımayan yürüşlərə mədinəliləri qatmaq istəmirdi. Özünün şəxsən iştirak etdiyi yürüşlərdə isə mədinəliləri də aparması müsəlmanlar arasında birliyi möhkəmləndirməyə görə olmuşdur. Bu səbəbdən Bəvat və Zatul-əşirə yürüşlərində mədinəlilər (ənsar) də iştirak etmişdir.

Bəzi şərqşünasların qərəzli fikirlərinin əsassız olduğu bir daha təsdiqini tapır. Belə ki, onlar yürüşlərdə yalnız mühacirlərin iştirak etdiyini bildirirdilər. Halbuki bəzi yürüşlərdə ənsar da Peyğəmbəri müşayiət etmişdir. Əgər yürüşlərdə məqsəd döyüşmək idisə, bəs nəyə görə Peyğəmbəri müdafiə edəcəklərinə söz vermiş ənsar da həmin yürüşlərdə iştirak etmişdir? Axı yürüşlər müdafiə xarakteri daşımırdı. Dediklərimizi Bədr döyüşü də təsdiqləyir. Belə ki, ənsar döyüşməyə razılıq verməyincə Peyğəmbər(s) döyüş qərarı qəbul etməmişdi. Mədinəlilər döyüşə getməyə razılıq verdikdən sonra həzrət döyüş əmri vermişdir.

### *Qiblənin dəyişməsi*

Peyğəmbərin(s) Mədinəyə hicrətindən bir neçə ay keçməmişdi ki, yəhudilərin etiraz sədaları, dedi-qoduları baş qaldırır. Hicrətin on

yeddinci ayında[1] müsəlmanların qibləsinin bundan sonra Kəbə olacağı haqqında vəhy nazil olur. İndi müsəlmanlar namazda üzlərini Məscidül-hərama doğru tutmalıdırlar.

Həzrət Peyğəmbər(s) Məkkədə düz on üç il üzü Beytül-müqəddəsə doğru namaz qılmışdı. Hicrətin ilk aylarında da İlahi göstəriş belə olmuşdu ki, müsəlmanlar da yəhudilərin durduğu qibləyə durub namaz qılmalıdır.

Bu, əslində köhnə və yeni dinləri bir-birinə yaxınlaşmaqdan başqa bir şey deyildi. Lakin müsəlmanların günbəgün artması, İslamın inkişafı yəhudiləri qorxudur. Onlar qısa müddət ərzində bütün yarmadanı İslamın bürüyəcəyini, bununla da yəhudiliyin aradan getməsini sanki görürdülər. Buna görə də müsəlmanlara qarşı hiylələrə əl atmağa, dedi-qodular yaratmağa başlayırlar. Müxtəlif vasitələrlə Peyğəmbəri(s) və müsəlmanları incidirlər. O cümlədən, müsəlmanların Beytül-müqəddəsə doğru namaz qılmasına toxunaraq deyirlər: «Mühəmməd yeni din gətirdiyini iddia edir. Özü də deyir ki, onun dini əvvəlki dinləri qüvvədən salmışdır. Bununla belə onun hələ ki, müstəqil qibləsi yoxdur və yəhudilərin qibləsinə doğru namaz qılır.»

Yəhudilərin bu sözləri Peyğəmbərə(s) pis təsir edir. Gecələr evdən çıxıb göyə baxır, bu barədə vəhy nazil olacağını gözləyirdi. Aşağıdakı ayə bu məsələyə işarə edir: ***«(Ya Rəsulum!) biz sənin üzünü göyə tərəf çevirdiyini görürük, ona görə də səni razı olduğun qibləyə tərəf döndərəcəyik.»***[2]

Quran ayələrindən belə məlum olur ki, qiblənin dəyişməsini yəhudilərin etirazından başqa da səbəbi olubmuş. O da müsəlmanları sınamaq imiş. Namaz vaxtı gələn yeni əmrə tabe olmaq həqiqi imanın nişanəsidir. Bundan boyun qaçırıb tərəddüd edənlərin isə həqiqi mömin olmadığı üzə çıxacaq və Peyğəmbər(s) onları daha yaxşı tanıyacaqdı. Quran bu barədə buyurur: ***«(Ya Rəsulum!) indi yönəldiyin qibləni (Kəbəni) yalnız Peyğəmbərə tabe olanlarla ondan üz çevirənləri bir-birindən ayırd etmək üçün (qiblə) təyin etdik. Bu (qibləni dəyişmək) ağır***

---

[1] Ət-Təbəqatul-kubra, c-1, s-241-242; Əlamul-vəra, s-81-82; Sireyi İbn Hişam, c-1, s-606; əl-Kamilu fit-tarix, c-2, s-80

[2] Bəqərə- 144

***görünsə də, ancaq Allahın doğru yola yönəltdiyi şəxslər üçün ağır deyildir.***»[1]

İslam tarixini, eləcə də Ərəbistan yarımadasının mövqeyini dərindən araşdırdıqda digər səbəblər də ortaya çıxır:

1) Tövhid qəhramanı həzrət İbrahim(ə) tərəfindən təmir edilmiş Kəbəyə bütün ərəblər hörmət bəsləyirdi. Kəbənin qiblə təyin edilməsi bütün ərəbləri razı salacaq və onların İslamı qəbul etməsi üçün münasib zəmin yaradacaqdı. İnadkar ərəblərin İslamı qəbul etməsindən və onların sayəsində İslamın bütün dünyaya yayılmasından böyük istək nə ola bilərdi?!

2) İman gətirəcəklərinə qətiyyən ümid qalmayan yəhudilərdən mütləq uzaqlaşmaq lazım idi. Çünki onlar hər an yeni bir hiyləyə əl atır, boş-boş suallarla Peyğəmbərin(s) vaxtını alırdılar. Güya nəyisə öyrənmək istəyirdilər. Qiblənin dəyişməsi də yəhudilərdən uzaqlaşmağın bir nümunəsi olmuşdur. Aşura günündə oruc tutmağın ləğv edilməsi də bu səbəbdən idi. Axı İslamdan qabaq yəhudilər Məhhərəm ayının 10-cu gününü oruc tuturdular. Müsəlmanlar da həmin günü oruc tutmağa başlamışdılar. Ramazan ayının orucunun vacib olması ilə Məhərrəm ayının 10-cu gününün orucu qüvvədən düşür.

Qiblə dəyişdikdən sonra bəzi müsəlmanlar bu vaxtadək qıldığı namazların batil olduğunu düşünür. Ayə nazil olub namazlarının düzgün olduğunu bildirir: «***Allah sizin imanınızı (bundan əvvəl Beytülmüqəddəsə üz tutaraq qıldığınız namazlarınızı) əvəzsiz buraxmaz. Allah insanlara qarşı, əlbəttə, mehribandır, mərhəmətlidir.***»[2]

Peyğəmbər(s) zöhr namazının ilk iki rükətini qılmışdı. Bu zaman Cəbrail nazil olub o həzrətə üzünü Məscidül-harama doğru çevirməsini əmr edir. Bəzi hədislərdə göstərilir ki, Cəbaril Peyğəmbərin(s) əlindən tutaraq üzünü Məscidül-harama tərəf döndərir. Peyğəmbərlə birlikdə namaz qılanlar da o həzrət kimi edirlər. O gündən etibarən Kəbə müsəlmanların müstəqil qibləsi olur.

---

[1] Bəqərə- 143
[2] Bəqərə- 143

***Peyğəmbərdən(s) elmi bir kəramət***

Keçmiş alimlər Mədinə şəhərinin $25^0$ coğrafi endə, $75^0$ 20 dəqiqə uzunluqda yerləşdiyini bildirirdilər. Bu hesablamaya əsasən Peyğəmbərin(s) namazda dəyişdiyi qiblə (Zül-qibləteyn məscidində) Kəbə ilə uyğun gəlmirdi. Bu da alimlər arasında müəyyən mübahisələrə səbəb olurdu. Lakin son zamanlarda görkəmli alim Sərdar Kabili dəqiq müasir hesablamalara əsasən Mədinə şəhərinin 25 deyil $24^0$ 75 dəqiqə coğrafi endə və $39^0$ 59 dəqiqə uzunluqda yerləşdiyini sübut etmişdir.[1] Bu hesablamaya əsasən, Mədinə şəhərinin qibləsi Cənub nöqtəsindən vurtut 45 dəqiqə əyridir. Bu da Peyğəmbərin(s) namaz əsnasında üzünü çevirdiyi qiblə ilə tam uyğun gəlir. Təsəvvür edin Peyğəmbər(s) elmi-texniki vasitələrin olmadığı, namaz əsnasında heç bir hesablama aparmadan qibləyə elə çevrilir ki, zərrə qədər də uyğunsuzluq yaranmır.[2] Bir daha qeyd edirik ki, bəzi hədislərdə Cəbrailin Peyğəmbərin(s) əlindən tutub üzü Kəbəyə çevirdiyi bildirilir.[3]

***Bədr döyüşü***

İslam tarixində baş verən ən böyük döyüşlərdən biri Bədr döyüşü olmuşdur. Bu döyüşdə iştirak edənlər xüsusi fəzilətə malik idilər. Müəyyən mübahisəli məqamlarda tərəflərdən hansının tərkibində Bədr iştirakçısı olsaydı üstünlük onun tərəfinə verilirdi. Bədr döyüşündə iştirak edənlər Bədrilər adlanırdı.

Bir qədər əvvəl qeyd etdiyimiz kimi hicrətin ikinci ili cəmədil-əvvəl ayının ortası Əbu Süfyanın başçılığı ilə Qüreyş karvanının Məkkədən Şama gedəcəyi barədə Peyğəmbərə(s) məlumat verilir. Həzrət karvanı təqib etmək məqsədilə Zatul-əşirə məntəqəsinə qədər gedib növbəti ayın əvvəlinədək gözləsə də bir nəticə əldə edilmir. Karvanın qayıdacağı vaxt məlum idi. Çünki Qüreyş karvanları Şamdan Məkkəyə payızın əvvələrində qayıdırdı.

Hər hansı döyüşdən məlumat əldə etmək qələbənin ilk şərtidir. Ordu başçısı düşmənin yerləşdiyi mövqe, döyüşçülərin sayı, hazırlığı

---

[1] Tuhfətul-əcilləti fi mərifətil-qiblə, s-71
[2] Mən la yəhzuruhul-fəqih, c-1, s-88
[3] Vəsailuş- şiə, c-3, s-218

barədə məlumat toplaya bilməsə, məğlubiyyətə bir addım yaxınlaşır. Peyğəmbər(s) də hər döyüş öncəsi düşmən haqqında kifayət qədər məlumat toplaya bilirdi. Mərhum  Məclisinin dediyinə görə Peyğəmbər(s) Üdeyyi, doktor Heykəlin fikrincə isə Təlhə ibn Ubeydullahla Səid ibn Zübeyri məlumat toplamaq üçün Qüreyş karvanına doğru göndərir. Əldə edilən məlumatlar aşağıdakılardan ibarət idi:

1) Çox böyük bir karvandır. Demək olar məkkəlilərin hamısının karvanda malı var.

2) Karvana Əbu Süfyan başçılıq edir və təxminən qırx nəfər mühafizəçi karvanı qoruyur.

3) Karvan min dəvədən ibarətdir və bütün malların dəyəri təxminən əlli min dinardır.

Mühacirlərin bütün əmlakı məkkəlilər tərəfindən müsadirə edildiyi üçün yeri var idi ki, müsəlmanlar da Qüreyşin karvanını ələ keçirsin. Əgər məkkəlilər müsəlmanlardan müsadirə etdiklərini geri qaytarmasalar, müsəlmanlar da karvandakı malları qənimət olaraq öz aralarında bölüşdürərlər. Bu baxımdan Peyğəmbər(s) səhabələrə müraciət edərək buyurur: «Camaat, Qüreyşin karvanı gəlir. Mədinədən çıxıb onu ələ keçirə bilərsiniz. Ola bilsin Allah sizə qənimət versin.»[1]

Beləliklə, Peyğəmbər(s) hicrətin ikinci ili ramazan ayının səkkizində Abdullah ibn Ümmi Məktumu dini, Əbu Lübabəni isə siyasi işlər üçün öz yerində təyin edib 313 nəfərlə Qüreyş karvanını ələ keçirmək məqsədilə Mədinədən çıxır.

### *Peyğəmbər(s) Zəfrana doğru irəliləyir*

Peyğəmbər(s) Qüreyş karvanını təqib etmək məqsədilə hicrətin ikinci ili ramazan ayının səkkizi həftənin bazar ertəsi Mədinədən çıxıb Qüreyş karvanının getdiyi Zəfrana doğru irəliləyir. Bir bayraq Müsəbə, bir bayraq da Əli ibn Əbutalibə verir. 313 nəfərlik müsəlman ordusunun 82 nəfəri mühacir, 170 nəfəri Xəzrəc, 61 nəfəri isə Ovs qəbiləsindən idi. Onların ümumilikdə üç atı, yetmiş dəvəsi var idi.

---

[1] Məğazi Vaqidi, c-1, s-20

İslam yolunda şəhid olmaq ruhiyyəsi müsəlmanlarda elə yüksək səviyyədə idi ki, hətta həddi-büluğa çatmayanlar da orduya qoşulmuş, lakin Peyğəmbər(s) onları Mədinəyə geri qaytarmışdır.[1]

Peyğəmbərin(s) müsəlmanlara buyurduğu sözlər maddi rifah ümidi yaradırdı. Bunu Qüreyş karvanını ələ keçirməklə gerçəkləşdirmək mümkün idi. Müsəlmanların buna haqqı da çatırdı çünki, qüreyşlilər mühacirlərin Məkkədəki bütün olan-olmazını zəbt etmiş və müsəlmanlara gedib əmlakını götürməyə icazə vermirdilər. Məlum məsələdir ki, ağıllı insan düşmənlə onun öz davrandığı kimi davranmalıdır. Ümumiyyətlə müsəlmanların Qüreyş karvanına hücum etməsinin əsas səbəbi də elə müsəlmanların zülmə məruz qalmaları olmuşdur. Quran da buna toxunaraq müsəlmanlara hücum icazəsi vermisdir: ***«Zülmə məruz qaldıqlarına görə vuruşanlara (kafirlərə qarşı Allah yolunda döyüşməyə) izn verilmişdir. Allah onlara kömək etməyə, əlbəttə, qadirdir!»***[2]

Əbu Süfyan hələ Şama gedərkən Peyğəmbərin karvanı təqib etməsini duymuşdu. Buna görə də qayıdarkən yolda rastlaşdığı karvanlardan Mühəmmədin ticarət yollarını tutub-tutmadığını maraqlanır. Karvanlardan biri ona belə cavab verir: «Mühəmməd öz səhabələri ilə Mədinədən çıxıb Qüreyş karvanını təqib edir. İndi Bəqrin iki mənzilliyində (ölçü vahididir) yerləşən Zəfranda qərarlaşıb.»

Bunu eşidən Əbu Süfyan karvanın irəliləməsinin qarşısını alır. Bu barədə Qüreyşə xəbər verməkdən başqa çıxış yolu görmür. Bu məqsədlə Zəmzəm ibn Əmr Qifari adlı iti çaparı Məkkəyə göndərərək ona deyir: «Özünü tez Məkkəyə yetir, Qüreyş cəngavərlərinə və mal sahiblərinə xəbər ver ki, karvanı müsəlmanların hücumundan qurtarmaq üçün hərəkətə keçsinlər.» Zəmzəm tez bir vaxtda Məkkəyə yetişib camaata deyir: «Camaat mallarınızı gətirən karvan təhlükədədir. Mühəmməd səhabələri ilə birlikdə mallarınızı müsadirə etmək istəyir. İnanmıram karvan sizə gəlib çata bilə. Tələsin köməyə tələsin!»[3] Məkkəlilərin qanı cuşa gəlib köməyə tələsirlər. Yalnız Əbu Ləhəb bu döyüşdə iştirak etmir. O, As ibn Hişama dörd min dirhəm ödəməklə onu öz yerinə

[1] İmtaul-əsma, s-62-63
[2] Həcc-39
[3] Əl-Kamilu fit-tarix, c-2, s-81

döyüşə göndərir. Üməyyə ibn Xələf də müəyyən səbəblərə görə bu döyüşdə iştirak etmək istəmirdi. Çünki Peyğəmbərin: «Üməyyə müsəlmanlar tərəfindən qətlə yetiriləcək» - deyə buyurduğunu ona çatdırmışdılar. Qüreyş başçıları Üməyyə kimi bir şəxsin (o özü də Qüreyş başçılarından idi) döyüşdə iştirak etməməsinin qəbilə üçün böyük zərbə olacağını görürlər. Buna görə də Üməyyə Məscidül-həramda bir dəstə insanın əhatəsində olduğu zaman, döyüşə getməyə hazırlaşan iki nəfər əllərində məcməi və sürməqabı tutmuş halda onun yanına gəlib deyirlər: «Üməyyə indi ki, mal-dövlətini, ağalığını qorumaq istəməyib qadınlar kimi kənara çəkilirsən, onda qadınlar kimi sürmə çək, adını da kişilər sırasından çıxart!» bu sözlər Üməyyəyə elə təsir edir ki, dərhal ayağa qalxıb səfər tədarükü görərək orduya qoşulur.[1]

*Qüreyşin üzləşdiyi problem*

Qüreyş ordusunun hərəkət edəcəyi vaxt müəyyənləşir. Lakin Qüreyş başçılarını Bəni-Bəkr qəbiləsi narahat edirdi. Onlar Qüreyşə arxadan hücum edə bilərdilər. Qüreyşlə Bəni-Bəkr arasında qan davası var idi. (İbn Hişam bu barədə ətraflı məlumat vermişdir.)[2] Ancaq Bəni-Bəkrin bir qolu olan Bəni-Kənanənin başçılarından olan Surəqə ibn Malik Qüreyşliləri arxayın edir ki, Bəni-Bəkr sizə heç vaxt arxadan hücum etməz.

Zəfranda Qüreyş karvanının yolunu gözləyən müsəlmanlar yeni bir məlumat əldə edirlər. Məkkəlilər, karvanı qorumaq üçün Məkkədən çıxmış və bu yaxınlarda məskunlaşıblar. İndi Peyğəmbər(s) iki yol ayrıcında qalıb. Bir tərəfdən onlar Qüreyş karvanını müsadirə etmək üçün Mədinədən çıxmışlar, amma nə say cəhətdən, nə də silah-sursat baxımından, böyük bir ordu ilə ayaqlaşmaq iqtidarında deyillər. İkinci tərəfdən də əgər gəldikləri yolla geri dönsələr, hərbi yürüşlər nəticəsində qazandıqları reytinqi itirəcəkdilər. Hətta düşmən Mədinəyə qədər də irəliləyə bilərdi. Buna görə də Peyğəmbər(s) belə məsləhət görür ki, qətiyyən geri çəkilmək olmaz. Əlindəki imkanlarla sonadək mübarizə aparmaq lazımdır.

---

[1] Tarixi Təbəri, c-2, s-138; əl-kamilu fit-tarix, c-2, s-82

[2] Sireyi İbn Hişam, c-2, s-248-249

Diqqət yetiriləsi başqa məqam da ondan ibarətdir ki, İslam ordusunun əksəriyyətini mədinəlilər təşkil edirdi. 313 nəfərdən cəmi 84 nəfəri Məkkə mühacirləri idi.

Mədinəlilər də Peyğəmbərlə onu Mədinə daxilində qoruyacaqlarına dair sözləşmə imzalamışdılar. Mədinədən kənarda onu qoruyacaqlarına söz verməmişdilər. Belə bir vəziyyətdə Peyğəmbər(s) nə etməli idi? Həzrət ümumi bir şura təşkil verib camaatın fikrini öyrənməkdən başqa çıxış yolu görmür.

***Ümumi şura***

Peyğəmbər(s) səhabələrə müraciət edərək buyurur: «Bu barədə (döyüşmək və ya geri qayıtmaq barədə) sizin fikriniz nədir?» İlk olaraq Əbu Bəkr ayağa qalxıb deyir: «Qüreyşin bütün cəngavərləri döyüşə gəlir. Onlar heç bir dinə iman gətirməyiblər. Həmişə üstün olublar, heç vaxt alçalmayıblar. Üstəlik biz Mədinədən lazimi hazırlıqla çıxmamışıq.»[1] (Əbu Bəkr dolayısı ilə Mədinəyə qayıtmağı təklif edir.) Peyğəmbər onu yerinə otuzdurduqdan sonra Ömər qalxıb elə Əbu Bəkrin dediklərini təkrar edir. Peyğəmbər(s) onu da otuzdurur. Ömərin ardınca Miqdad qalxıb deyir: «Ey Allahın Rəsulu, qəlblərimiz sizinlədir. Allah sənə nəyi əmr edibsə, ona əməl et! And olsun Allaha biz heç vaxt Bəni-İsrailin Musaya dediyini sənə demərik. Musa onları cihada dəvət etdikdə onlar: «Sən və Rəbbin gedib onlarla vuruşun. Biz isə burada oturacağıq.»-deyə cavab vermişdilər. Ancaq biz sənə bunun əksini deyirik. Allahın köməyi ilə cihada get. Biz də səninlə birlikdə cihada gedirik.»[2] Peyğəmbər(s) Miqdadın sözlərini dinlədikdən sonra sevinib onun barəsində dua etdi.

***Həqiqətin üstünü örtmək***

Qərəz, təəssübkeşlik, həqiqəti gizlətmək bütün qələm əlhi üçün pisdir, tarixçilər üçün isə daha pisdir. Tarix insanların sifətini göstərən bir güzgüdür. Tarixçi bu güzgünü hər bir ləkədən təmizləyib qorumağa

---

[1] Məğazi Vaqidi, c-1, s-48

[2] Maidə-24

çalışmalıdır. İbn Hişam[1], Muqrizi[2] və Təbəri[3] Peyğəmbərin səhabələrlə müşavirə keçirdiyini qeyd etmişlər. Müşavirədə Səd ibn Məazla Miqdadın təklifləri olduğu kimi verilsə də, Əbu Bəkrlə Ömərin təklifləri tam şəkildə verilməmiş, qısaca olaraq: «Bu iki nəfər (Əbu Bəkr və Ömər) qalxıb fikir bildirdilər və yaxşı danışdılar.»-ifadəsi ilə kifayətlənilmişdir. Bu tarixçilərdən soruşmaq lazımdır ki, Əbu Bəkrlə Ömər yaxşı danışmışdılarsa, bəs nəyə görə dedikləri olduğu kimi qeyd edilməyib? Biz yuxarıda Əbu Bəkrin fikrini tam şəkildə qeyd etdik. Adı çəkilən tarixçilər sadəcə olaraq həqiqətin üstünü örtməyə çalışmışlar. Ancaq digər tarixçilər ilk iki xəlifənin fikirlərini olduğu kimi qeyd etmişlər.[4] Əbu Bəkrlə Ömər ağız açıb danışan ilk şəxslər olmuş, sonra isə Səd ibn Məazla Miqdad fikir bildirmişlər. Təbəri Abdullah ibn Məsudun belə dediyini nəql edir: «Mən Bədr günü Miqdadın yerində olmaq istərdim. Çünki o, Peyğəmbər(s) narahat olduğu vaxt (bunu həzrətin üzündən hiss etmək çətin deyildi) söhbətə başladı. Onun sözləri Peyğəmbərin(s) sevincinə səbəb oldu, üzü açıldı. Kaş bu şərəf (həzrətin narahatlığını aradan qaldırıb onu sevindirmək) mənə nəsib olaydı.»[5] Düzdür, şura ümumi bir şura idi və hərə öz fikrini bildirməkdə azad olmuşdur. Lakin sonrakı hadisələr göstərir ki, Miqdad öz fikrində haqqa Əbu Bəkrlə Ömərdən daha yaxın olmuş və yanılmamışdır.

### *Şuranın qəti fikri və yaxud ənsarın başçısının son sözü*

Bu vaxtadək verilmiş təkliflər fərdi xarakter daşıyır. Şura çağrılmasından əsas məqsəd isə ənsarın (yəni, mədinəlilərin) fikrini öyrənmək idi. Əvvəlki təklif verənlərin hamısı Məkkədən idi. Mədinəlilər öz fikirlərini bildirməyincə heç bir addım atmaq olmazdı. Buna görə də Peyğəmbər(s) bir daha: «Hamı öz fikrini bildirsin»-deyə səhabələrə müraciət edir. Bu zaman Səd ibn Məaz ayağa qalxıb deyir: «Deyəsən bizi nəzərdə tutursunuz?» Peyğəmbər: «Bəli»-dedikdə Səd bildirir: «Ey

[1] Sireyi İbn Hişam, c-1, s-615
[2] İmtaul-əsma, s-74
[3] Tarixi Təbəri, c-2, s-140
[4] Məğazi Vaqidi, c-1, s-248; Sireyi Hələbi, c-2, s-160; Biharul-ənvar, c-19, s-217
[5] Tarixi Təbəri, c-2, s-140

Allahın rəsulu, biz sənə iman gətirib dininin haqq olduğunu təsdiqləmişik. Bu barədə sözləşmələrimiz də olub. Sən nə desən, nə etsən, biz sənə tabe olacağıq. And olsun səni peyğəmbər göndərmiş Allaha, (Qırmızı dənizə işarə edərək) bu dənizə də girsən, biz də arxanca dənizə girəcək və bircə nəfər də olsun, əmrindən çıxmayacaq. Biz düşmənlə üzbəüz gəlməkdən qətiyyən çəkinmirik. Bəlkə də biz sizi sevindirəcək, fədakarlıq göstərəcəyik. Allahın əmri ilə hara məsləhət bilirsinizsə, bizi oraya aparın!»

Səd ibn Məazın sözləri Peyğəmbəri elə sevindirdi ki, bütün narahatlığı, ümidsizliyi sevincə, ümidə çevrildi. Həzrət dərhal hərəkət əmri verərək buyurur: «Hərəkət edin! Gözünüz aydın olsun! Ya karvanla rastlaşıb mallarını ələ keçirəcəksiniz, ya da karvanın köməyinə gələn qoşunla döyüşəcəksiniz. Sanki indi Qüreyşin necə məğlubiyyətə uğrayıb böyük itki verdiyini gözlərimlə görürəm.»

İslam ordusu Peyğəmbərin(s) başçılığı ilə hərəkət edib Bədr quyuları yaxınlığında mövqe tutur.[1]

***Düşmən haqqında məlumat toplamaq***

Müasir dövrlə qədim dövrün döyüş taktikaları, texnikaları dəyişsə də düşmən haqqında məlumat toplamaq, kəşfiyyat elə qabaq da olub indi də var. Hətta müasir dövrdə kəşfiyyat, əks- kəşfiyyat, cəsusluqdan ötrü xüsusi məktəblər, kurslar vardır. Böyük ölkələr məhz əks kəşfiyyat sayəsində uğur qazanıb düşmənin planlarından xəbərdar olur.

İslam ordusu məxfilik qaydalarına riayət etsin deyə, olduqca əlverişli mövqe seçir. Müxtəlif qruplar kəşfiyyata çıxıb düşmən haqqında məlumat əldə etməyə başlayır. Əldə edilmiş məlumatlar aşağıdakılardan ibarət idi:

1) Əvvəlcə Peyğəmbər(s) özü bir səhabə ilə irəliləyib bir qəbilə başçısına rast gəlir. Ondan soruşurlar ki, Qüreyş və Mühəmməddən nə xəbər var? Qəbilə başçısı deyir: «Mənə çatan məlumata görə Mühəmməd səhabələri ilə filan gün Mədinədən çıxmışdır. Verilən məlumat doğrudursa, onlar indi filan yerdə olmalıdırlar. (Düz müsəlmanların dayan-

---

[1] Məğazi Vaqidi, c-1, s-48; Sireyi ibn Hişam, c-1, s-615

dığı mövqeyi göstərir.) Mənə belə bir xəbər də çatıb ki, qüreyşlilər filan vaxt Məkkədən çıxıblar. Məlumat düzdürsə, indi onlar da filan yerdə olmalıdırlar. (Düz müşrik ordusunun yerləşdiyi mövqeyi göstərir.)»

2) Əlinin(ə) başçılığı ilə Zübeyr ibn Əvvam və Səd ibn Əbu Vəqqasın da iştirak etdiyi kiçik bir kəşfiyyat dəstəsi məlumat toplamaq üçün Bədr quyularına doğru gedirlər. Onlar quyunun başında Qüreyşə mənsub iki nökərin su çəkdiyini görürlər. Hər ikisini tutub Peyğəmbərin(s) hüzuruna gətirirlər. Araşdırmadan sonra nökərlərdən birinin Bəni-Həccac, digərinin isə Bəni-As tayfalarına mənsub olduğu və qüreyşlilər üçün su aparmaq istədikləri aydın olur. Peyğəmbər(s) onlardan Qüreyşin harada mövqe tutduğunu soruşduqda, nökərlər müşriklərin çölün yuxarı tərəfindəki dağın arxasında olduğunu bildirirlər.

– Sayları neçə nəfərdir?

– Dəqiq bilmirik.

– Gündə neçə dəvə kəsib yeyirlər?

– Bir gün on, növbəti gün doqquz dəvə.

Peyğəmbər(s) müşriklərin sayını doqquz yüzlə min nəfər arasında olduğunu söyləyir.

– Qüreyş başçılarından kimlər iştirak edir?

– Ütbə ibn Rəbiə, Şeybə ibn Rəbiə, Əbul-Buxturi ibn Hişam, Əbu Cəhl ibn Hişam, Hükeym ibn Həzam, Üməyyə ibn Xələf və başqaları orduya qatılıb.

Peyğəmbər(s) səhabələrinə üzünü tutub buyurur: «Məkkə öz ciyərparalarını yola salıb.»[1] Sonra həmin iki nəfərin həbs edilib kəş–fiyyatın davam etdirilməsini əmr edir.

3) İki nəfər Qüreyş karvanı haqqında məlumat toplamaq üçün Bədr kəndinə göndərilir. Onlar suya yaxın bir təpədə dəvədən düşüb özlərini susamış kimi göstərib su içməyə gəldiklərini deyirlər. Quyunun başında iki qadın bir-biri ilə mübahisə edirdi. Biri o birisinə: «Borcunu niyə qaytarmırsan? Bilirsən ki, özümün ehtiyacım var.»-dedikdə digər qadın ona belə cavab verir: «Sabah, ya da birisi gün karvan gələcək. Karvan üçün işləyib borcunu ödəyərəm.» Yaxınlıqda olan Məcdi ibn Əmr qadının dediklərini təsdiqləyib onları bir-birindən ayırır.

[1] Sireyi İbn Hişam, c-1, s-617

Kəşfiyyata gəlmiş hər iki müsəlman bu xəbəri eşidib sevinirlər. Konspirasiya qaydalarına riayər edərək İslam ordusunun düşərgəsinə qayıdıb eşitdiklərini Peyğəmbər(s) çatdırırlar.

Artıq Qüreyş karvanın gələcəyi vaxtı və düşmən ordusunun mövqeyini öyrənən Peyğəmbər(s) indi konkret addım atmalı idi.

***Əbu Süfyan karvanı müsəlmanların hücumundan qurtarır***

Qüreyş karvanının başçısı Əbu Süfyan hələ Şama gedərkən müsəlmanlarla üzləşdiyinə görə geri qayıdan zaman mütləq müsəlmanların hücumuna məruz qalacağını bilirdi. Karvan İslam ordusunun yerləşdiyi mövqeyə yaxınlaşdıqda Əbu Süfyan karvanı dayandırır, özü isə məlumat əldə etmək məqsədilə Bədr kəndinə gəlir. Orada Məcdi ibn Əmrlə görüşüb soruşur ki, bu yaxınlıqda şübhələndiyin adam görməmisən? Məcdi deyir ki, xeyr, kimdənsə şübhələnməmişəm, ancaq iki nəfər gəlmişdi, dəvələrini təpənin başında saxlayıb özləri gəlib su içərək qayıtdılar. Əbu Süfyan tez təpənin başına qalxır. Dəvələrin saldığı peyinləri yoxlayıb arasındakı xurma çəyirdəyindən, gələn şəxslərin mədinəli olduğunu öyrənir. Dərhal karvana tərəf qayıdır, karvanın yolunu dəyişir və iki mənzili fasiləsiz gedir. Beləliklə də karvanı müsəlmanların hücumundan qurtarır. O, bir nəfəri Qüreyşə tərəf göndərib karvanın sağ-salamat olduğunu, müsəlmanların əlindən qurtardığını onlara çatdırmasını tapşırır. Həm də bildirir ki, onlara de geri qayıtsınlar və Mühəmmədə baş qoşmasınlar.

***Karvanın aradan çıxması xəbəri müsəlmanlara çatır***

Karvandakı mallara göz dikənlər bundan narahat olurlar. Allahtaala onların qəlbini rahatlaşdırmaqdan ötrü aşağıdakı ayəni nazil edir: ***«O zaman Allah sizə iki dəstədən birinin (Şamdan qayıdan karvanın və ya Məkkədən çıxıb onların köməyinə gələn Qüreyş döyüşçülərinin) sizin olmasını vəd edirdi. Siz silahsız (qüvvətsiz) karvanın sizin olmasını arzu edirdiniz. Allah sizə Öz sözləri (bu barədə nazil etdiyi ayə) ilə haqqı (İslamı) bərqərar etmək və kafirlərin kökünü kəsmək istəyirdi.»***[1]

---

[1] Ənfal-7

### *Qüreyş ordusunda ikitirəlik*

Əbu Süfyanın göndərdiyi qasid, karvanın qurtulması xəbərini müşriklərə çatdırdıqda aralarında mübahisə və ikitirəlik yaranır. Bəni-Zöhrə və Bəni-Əxnəs ibn Şüreyq tayfaları Bəni-Zöhrənin karvandakı mallarını qorumaqdan ötrü gəldiyini və indi isə heç bir təhlükə olmadığını əsas gətirib müttəfiqləri ilə birlikdə gəldikləri yolla geri qayıdırlar. Əbutalibin məcburi şəkildə gətirilmiş oğlu Talib də Məkkəyə qayıdır. Əbu Cəhl isə Əbu Süfyandan fərqli olaraq Bədrə doğru gedib üç gün orada qalmağı, yeyib-içməyi, əylənməyi və bununla da onların qüdrətinin bütün ərəblərə catmasını təklif edir. Onun təklifi ilə müşriklər öz mövqeyini tərk edib irəliləyir, səhranın hündür yerində, bir dağın arxasında dayanırlar. Güclü yağış yağır və addım atmağı müşriklərə çətinləşdirir. Onlar daha bundan artıq irəliləyə bilmirlər. Səhranın aşağı hissəsində-müsəlmanların dayandığı yerdə isə yağış elə də güclü deyildi.

Bədr çox geniş bir məntəqə idi. Cənub səmti hündür, şimalı isə alçaq idi. Orada çoxlu su quyuları var idi. Buna görə də bütün karvanlar yolunu oradan salıb istirahət edirdi.

Böyük döyüş təcrübəsi olan Həbbab ibn Münzir Peyğəmbərdən soruşur ki, ya Rəsuləllah, burada dayanmağımız Allahın əmrinə əsasəndir, yoxsa ozünüz məsləhət gördünüz? Həzrət buyurur ki, xeyr, bu barədə heç bir vəhy nazil olmayıb. Əgər daha münasib yer məsləhət bilirsənsə, oraya gedək. Həbbab deyir: «Məsləhətdir ki, düşmən yaxın olan quyuların yanında mövqe seçək. Oradakı quyuların köməyi ilə bir hovuz düzəldək, həm özümüz, həm də heyvanlarımız üçün həmişə suyumuz olsun.» Peyğəmbər(s) onun təklifini bəyənib irəliləmək əmri verir. Bu da onu göstərir ki, Peyğəmbər(s) ictimai işlərdə camaatın fikrinə son dərəcə önəm verirmiş.[1]

### *Komandanlıq qülləsi Üreyş*

Səd ibn Məaz Peyğəmbərə(s) deyir: «Yaxşı olar ki, sizin üçün bütün döyüş meydanını oradan görə biləcəyiniz bir yer düzəldək. Ora

[1] Sireyi İbn Hişam, c-1, s-620; Tarixi Təbəri, c-2, s-144

nəzarətçilər də qoyaq, sizin tapşırıqlarınızı camaata çatdırsınlar. Bundan da əsası odur ki, əgər biz bu döyüşdə qalib gəlsək, nə gözəl! Yox əgər məğlub olsaq, siz nəzarətçilərlə birlikdə itigedən dəvələrlə özünüzü Mədinəyə çatdırasınız. Orada vəziyyətimizdən xəbərsiz olan çoxlu sayda müsəlman var. Vəziyyətdən xəbərdar olsalar, sizi müdafiə edib söz verdikləri kimi qoruyarlar.» Peyğəmbər(s) Səd ibn Məaz üçün dua edərək göstəriş verir ki, döyüş meydanını görə biləcək bir ərazidə yer hazırlansın.

Peyğəmbər(s) üçün döyüş meydanından bir qədər aralıda yer tikilməsi və Səd ibn Məazın başçılığı ilə bir qrup ənsar gəncinin oranı mühafizə etməsini Təbəri, İbn İshaqa istinadən nəql etmişdir.[1] Lakin aşağıdakı səbəblərə görə, bu fikir həqiqətə uyğun deyil.

1) Peyğəmbərin(s) belə edəcəyi İslam mücahidlərinin ruhiyyəsini azaldar, onlara mənfi təsir göstərər. Yalnız öz canını güdən, döyüşçülərinin qeydinə qalmayan ordu başçısı döyüşçülərini özünə tabe edə bilməz.

2) Bu fikir Peyğəmbərin(s) qeybi vasitələrlə camaata verdiyi müjdə ilə də uyğun gəlmir. Belə ki, Peyğəmbər(s) hələ Qüreyş qoşunu ilə görüşməzdən qabaq Qüreyş karvanının, ya da köməyə gələn ordunun müsəlmanlara məğlub olacağı haqda xəbər və müjdə vermişdi. O həzrət üçün döyüş meydanından kənarda yer düzələrkən karvan artıq aradan çıxmışdı. İndi təkcə Qüreyş ordusu irəlidə idi. Həzrətin verdiyi qeybi xəbərə əsasən, müsəlmanlar qalib gələcəklərini qabaqcadan bilirdilər. Belə olan halda hansı məğlubiyyətdən danışmaq olar? İbn Səd Ömər ibn Xəttabdan belə nəql edir: ***«(Bədr vuruşunda) bu dəstə mütləq məğlub olacaq və arxa çevirib qaçacaqdır!»***[2] ayəsi nazil olduqda mən özlüyümdə fikirləşirdim ki, görəsən məğlubiyyəti qəti şəkildə bildirilən bu dəstə hansı dəstədir? Bədr günü Peyğəmbərin zireh geyib bu ayəni təkrarladığını gördüm. Onda bildim ki, bu ayə Qüreyş ordusu haqqındadır.»[3] Bu tarixi faktı nəzərə aldıqda Peyğəmbər və səhabələrin məğlubiyyət barədə düşündüyünə inanmaq olarmı?

---

[1] Tarixi Təbəri, c-2, s-145; Sireyi İbn Hişam, c-1, s-620

[2] Qəmər - 45

[3] Ət-Təbəqatul-kubra, c-2, s-25

3) Əli(ə) Peyğəmbər(s) haqqında buyurur: **«Döyüş meydanında ən çətin anlarda hamımız Peyğəmbərə sığınardıq. Aramızda düşmənə ondan yaxın adam olmazdı.»**[1] Sizcə Əlinin belə vəsf etdiyi Peyğəmbər müsəlmanların ilk döyüşündə döyüşdən qaçmaq planı haqda düşünərmi? Biz belə hesab edirik ki, döyüş meydanından bir qədər kənarda Peyğəmbər(s) üçün yer düzəldilməsi sırf komandanlıq nöqteyi-nəzərindən olmuşdur. Çünki döyüş meydanını yaxşı görə bilməyən ordu başçısı, ordunu lazımi şəkildə idarə edə bilməz.

*Qüreyş ordusu hərəkətə keçir*

Hicrətin ikinci ili ramazan ayının on yeddisi səhər tezdən Qüreyş ordusu dayandığı təpənin arxasından Bədr quyularına doğru hərəkət edir. Peyğəmbərin(s) gözü onlara sataşdıqda üzünü göyə tutub buyurur: «İlahi, Qüreyş çox özündən razı şəkildə sənin döyüşünə, Peyğəmbərini təkzib etməyə gəlir! Allahım, mənə verdiyin kömək vədəsini bu gün gerçəkləşdir və onları məhv elə!»

Düşmən ordusu Bədr yaxınlığında dayanır. Müsəlmanların sayı barədə heç bir məlumatları olmadığı üçün Ümeyr ibn Vəhəbi kəşfiyyata göndərirlər. Ümeyr çox cəngavər adam idi. O, atına minib İslam ordusunun ətrafına dolanır. Qayıdıb deyir ki, Mühəmmədin tərəfdarlarının sayı təxminən üç yüz nəfərdir. Ancaq bilmək olmaz arxada əlavə köməkləri var, ya yox. Ümeyr bir daha atına minib bütün ətrafı, təpələrin arxasını gəzib qayıdır, deyir: «Əlavə köməkləri də yoxdur. Ancaq sizin üçün ölümü ərməğan gətirən dəvələr gördüm. Bir dəstə adam da gördüm ki, qılıncdan başqa heç nələri yox idi. Onların hər biri sizdən bir nəfər öldürməyincə özləri ölən deyil. Öz sayları qədər sizdən öldürdükdən sonra daha yaşamağın nə mənası var? İndi son fikrinizi bildirin!»[2]

Mərhum əllamə Məclisi və Vaqidi yuxarıdakılara daha bir neçə cümlə əlavə etmişlər: «Görmürsünüz ki, heç dinib danışmırlar. Nə edəcəkləri simalarından bəllidir. Əfi ilanlar kimi dillərini ağızlarında o tərəf-bu tərəfə çevirirlər.»[3]

---

[1] Nəhcül-bəlağə (Əbduh), qısa kəlamlar - 214
[2] Sireyi İbn Hişam, c-1, s-622
[3] Məğazi Vaqidi, c-1, s-62; Biharul-ənvar, c-19, s-234

### *Qüreyş ordusunda parçalanma*

Ümeyr ibn Vəhəbin sözləri Qüreyş ordusunu təşvişə salır. Orduda möhkəm qorxu yaranır. Hükeym ibn Həzam, Ütbənin yanına gedib deyir: «Ütbə, sən Qüreyş əyanlarındansan. Biz karvanı qorumaqdan ötrü Məkkədən çıxmışdıq. Karvan da artıq qurtulub. İndi qalır bircə Əmr Həzrəminin qan bahasının ödənilməsi. Sən gəl onun qan bahasını ödə, Mühəmmədlə döyüşməkdən vaz keçək.» Hükeymin sözləri Ütbənin ağlına batır. Camaatın yanına gedib bir xütbə oxuyaraq deyir: «Mühəmmədə baş qoşmayın! Qoyun başqaları onunla maraqlansın. Əgər onun dininin qarşısını ala bilsələr, biz də rahat olarıq. Yox əgər bacarmasalar, Mühəmməddən bizə ziyan dəyməz. Çünki biz güclü olduğumuz halda onunla döyüşməkdən vaz keçərik. Yaxşısı budur Məkkəyə qayıdaq.» Əbu Cəhl zireh geyinərkən Hükeym onun yanına gəlib Ütbənin dediklərini ona çatdırır. Əbu Cəhl çox narahat olur. Bir nəfəri Əmr Həzrəminin qardaşı Amir Həzrəminin yanına göndərib deyir ki, get Amirə söylə: «Sənin müttəfiqin (Ütbə) camaatı qardaşının qisasını almaqdan yayındırır. Qardaşının qanı sənin gözünün qabağından getməyib. Get Qüreyşlilərə qardaşınla bağladıqları əhd-peymanı xatırlat, qardaşının ölümünə ağla!» Amir camaatın içinə gəlib ağlamağa, şivən etməyə başlayır. Bu vəziyyəti görən müşriklər yenidən döyüşmək qərarına gəlirlər, Ütbənin sözləri unudulur. Ütbə özü də camaatın təsiri altına düşür. Bir qədər əvvəl camaatı döyüşdən yayındıran Ütbə artıq döyüş zirehini geyinirdi.[1]

### *Döyüşün başlanması*

Əsvəd Məxzumi olduqca inadkar adam idi. Gözü müsəlmanların düzəltdiyi hovuza düşdükdə söz verir ki, ya hovuzun suyundan içəcək, ya onu sökəcək, ya da bu yolda öldürüləcək. Müşriklərin cərgəsindən çıxıb hovuzun yaxınlığında böyük İslam sərkərdəsi Həmzə ilə üz-üzə gəlir. Aralarında döyüş başlayan kimi Həmzə bir zərbə ilə onun ayağını üzür. Əsvəd verdiyi sözə əməl etsin deyə, sudan içmək üçün sürünə-sürünə hovuzun kənarına gəlir. Həmzə ikinci zərbə ilə onu vurub

---

[1] Sireyi İbn Hişam, c-1, s-623; Biharul-ənvar, c-19, s-224

hovuzun içinə atır. Bu hadisədən sonra tərəflər arasında döyüşün başlanacağı qətiləşir. Çünki camaatı qıcıqlandırmaq üçün qan tökülməsindən güclü amil ola bilməz. İndi müşriklərin əlinə gözəl bəhanə düşmüşdü.[1]

***Təkbətək döyüşlər***

Ərəblərin adətinə görə əvvəlcə təkbətək döyüşlər olmalı idi. Yalnız bundan sonra ümumi hücum başlanırdı. Əsvəd Məxzuminin öldürülməsinin ardınca Qüreyş cəngavərlərindən üçü-Ütbə və Şeybə qardaşları, bir də Ütbənin oğlu Vəlid irəli çıxıb rəqib tələb edirlər. Onlar silahlanıb ata minərək meydan oxuyurdular. Dərhal ənsar gənclərindən Ovf, Müəvvər və Abdullah Rəvahə onlarla döyüşmək üçün irəli atılırlar. Ütbə onların Mədinəli olduğunu bildikdə deyir ki, bizim sizinlə işimiz yoxdur. Bu zaman müşriklərdən biri fəryad edərək deyir: «Mühəmməd, bizimlə döyüşmək üçün öz qəbiləmizdən layiqli adamlar göndər!» Peyğəmbər(s) üzünü Übeydə, Həmzə və Əliyə tutub buyurur ki, qalxın! İslamın bu üç mücahidi döyüş meydanına yollanıb özlərini təqdim edirlər. Ütbə onların üçünü də bəyənib deyir ki, hə, siz bizimlə döyüşməyə layiqsiniz. Bəzi tarixçilər belə hesab edirlər ki, İslam mücahidlərinin hər biri yaşca özünə uyğun gələni rəqib seçir. Bu fikrə əsasən ilk üç mücahidin ən gənci Əli Müaviyənin dayısı Vəlidlə, ortancılı Həmzə Müaviyənin babası (Hindin atası) Ütbə ilə, yaşlısı Übeydə isə Şeybə ilə vuruşmağa başlayır. İbn Hişamın fikrincə isə Həmzə Şeybə ilə, Übeydə Ütbə ilə, Əli də Vəlidlə vuruşmuşdur. Görəsən bu iki nəzəriyyədən hansı doğrudur? Aşağıdakı iki məsələyə diqqət yetirməklə həqiqət üzə çıxır:

1) Tarixçilərin əksəriyyəti bu fikirdədirlər ki, Əli ilə Həmzə ilk cəhddə rəqiblərini qətlə yetirib, sonra da Übeydənin köməyinə tələsirlər.[2]

2) Əmirəl-möminin Əli(ə) Müaviyəyə göndərdiyi məktubda yazır: «Bir gündə həm baban Ütbəyə, həm dayın Vəlidə, həm də qardaşın

---

[1] Tarixi Təbəri, c-2, s-147-148

[2] Tarixi Təbəri, c-2, s-148; Sireyi İbn Hişam, c-1, s-625

Hənzələyə endirdiyim qılınc indi də məndədir. İndi də həmin silahla silahlanmışam.»[1]

Bu məktubdan aşkar şəkildə başa düşülür ki, Əli(ə) Müaviyənin babası Ütbənin qətlində iştirak etmişdir. Digər tərəfdən o da məlumdur ki, Əli(ə) ilə Həmzə rəqiblərini dərhal öldürmüşlər. Əgər Həmzə Ütbə ilə vuruşmuşdusa, onda Əli(ə) deməzdi ki, ey Müaviyə, baban Ütbəni öldürdüyüm qılınc indi də məndədir. Deməli, Həmzə Şeybə ilə vuruşmuş, Übeydənin rəqibi isə Ütbə olmuşdur ki, Əli ilə Həmzə öz tərəf müqabillərini öldürdükdən sonra Übeydənin köməyinə tələsib Ütbəni də qətlə yetirmişlər.

***Ümumi hücum başlanır***

Qüreyş cəngavərlərinin ölümü ilə ümumi hücumlar başlanır. Müşriklər dəstə-dəstə hücuma keçirlər. Peyğəmbər(s) komandanlıq qərargahından göstəriş verir ki, hücumu saxlayıb oxatanları önə çəksinlər ki, müşriklərin irəliləməsinin qarşısını alsınlar. Sonra həzrət özü qərargahdan aşağı enib əlindəki təlim çubuğu ilə mücahidlərin sıralarını düzəldir. Bu vaxt Səvvad ibn Əziyyə sıradan bir addım öndə olduğuna görə Peyğəmbər(s) əlindəki çubuqla yavaşca onun qarnına vurub deyir ki, sıradan qabağa çıxma![2] Səvvad deyir ki, məni nahaq yerə vurdun, mən qisas tələb edirəm. Peyğəmbər(s) dərhal köynəyini qaldırıb deyir ki, qisasını al! Müsəlmanlar hamısı həzrətin bu əməlinə baxırdılar. Səvvad Peyğəmbərin(s) sinəsindən öpüb onu qucaqlayaraq deyir: «Məqsədim o idi ki, ömrümün axır vaxtlarında mübarək sinənizdən öpüm.» Bundan sonra Peyğəmbər komandanlıq qərərgahına qayıdır. İman dolu qəlblə üzünü Allah dərgahına tutub buyurur: «İlahi, əgər bu dəstə öldürülərsə, daha yer üzündə sənə ibadət edən kimsə qalmaz.»[3]

Ümumi hücumlar haqqında tarixi mənbələrdə müəyyən qədər məlumat verilmişdir. O dəqiq məlumdur ki, Peyğəmbər(s) ara-sıra qərargahdan çıxıb müsəlmanları Allah yolunda döyüşməyə həvəslən-

---

[1] Nəhcül-bəlağə, 64-cü məktub

[2] Sireyi İbn Hişam, c-1, s-626

[3] Tarixi Təbəri, c-2, s-149

dirirdi. Hətta bir dəfə uca səslə demişdi: «And olsun Mühəmmədin canı əlində olan Allaha! Bu gün kim Allah rizası üçün döyüşüb şəhid olarsa, Allah onu Cənnətə aparacaq.»

Peyğəmbərin(s) bu sözü müsəlman mücahidlərinə elə təsir edir ki, bəziləri tez şəhid olmaq naminə əynindən zirehini çıxarıb döyüşürdü. Ümeyr Həmmam Peyğəmbərdən(s) soruşur ki, mənimlə Cənnət arasında nə qədər məsafə var? Həzrət cavab verir ki, aranızdakı məsafə qarşındakı müşrik başçılarıdır. Ümeyr əlindəki xurmaları kənara atıb döyüşməyə başlayır.

Döyüş əsnasında Peyğəmbər(s) yerdən bir ovuc torpaq götürüb müşrüklərə tərəf ataraq buyurur: «Üzünüz qara olsun!»[1] Çox çəkmir ki, müsəlmanlar arasında qələbə ab-havası hökm sürməyə başlayır. Düşmən dəhşətə gəlib qaçmağa üz qoymuşdu. Ölməyin də öldürməyin də səadət olduğunu bilən İslam mücahidləri heç nədən çəkinmir, irəliləməkdə davam edirdilər.

Müşriklərin ordusunda iştirak edən iki dəstə xüsusilə nəzərə alınmalı idi. Biri, vaxtilə Məkkədə müsəlmanlara yaxşılıq edənlər idi. Məsələn, iqtisadi mühasirə zamanı Əbül-Buxturi mühasirənin aradan qaldırılması üçün əlindən gələni etmişdi. İkinci dəstə isə səmimiqəlbdən İslamı və Peyğəmbəri(s) dəstəkləyib, lakin Məkkədə qalan müşriklər tərəfindən döyüşə güclə gətirilənlər idi. Məsələn, Peyğəmbərin(s) əmisi Abbas və Bəni-Haşimin əksər üzvləri belələrindən olmuşdur. İslam Peyğəmbəri bütün aləmlərə mərhəmət olaraq göndərildiyi üçün bu iki dəstənin qanının axıdılmasını qəti şəkildə qadağan etmişdi.

### *Üməyyə ibn Xələfin qətli*

Üməyyə ibn Xələf və oğlunu Əbdurrəhman ibn Ovf əsir almışdı. Üməyyə ilə Əbdürrəhman arasında dostluq münasibətləri olduğundan, sonuncu onu döyüş meydanından diri çıxartmaq istəyirdi.

Bilal Həbəşi əvvəllər Üməyyənin nökəri olmuşdur. O, nökər olduğu zaman İslamı qəbul etdiyi üçün Üməyyə ona işkəncə verirdi. Qızmar yay günlərində Bilalı isti qumlar üstündə uzadıb sinəsinin üstünə agır

[1] Sireyi İbn Hişam, c-1, s-628

daş parçası qoyurdu ki, İslamdan dönsün. Lakin Bilal bütün əziyyətlərə rəğmən «Əhəd, Əhəd» (yəni, Allah təkdir) deyə İslamdan dönməyəcəyini bildirirdi.

Bədr döyüşündə Bilal, Əbdürrəhmanın Üməyyəni müdafiə etdiyini görüb uca səslə deyir: «Ey Allahın dostları, Üməyyə küfr başçılarındandır, onu sağ buraxmaq olmaz.»[1] Müsəlmanlar hər tərəfdən Üməyyəni əhatəyə alıb həm özünü həm də oğlunu qətlə yetirirlər.

Peyğəmbər(s) göstəriş vermişdi ki, Məkkədə iqtisadi mühasirə dövründə Bəni-Haşimə çox kömək etmiş Əbül-Buxturi öldürülməsin.[2] Təsadüfən Müczir adlı mücahid onu əsir almışdı. O, çox çalışırdı ki, Əbül-Buxturini Peyğəmbərin(s) hüzuruna sağ aparsın, lakin buna müvəffəq olmur və Əbül-Buxturi qətlə yetirilir.

***İtki və dəymiş ziyanlar barədə statistik məlumat***

Bədr döyüşündə müsəlmanlardan on dörd nəfər şəhid olur. Kafirlərdən isə yetmiş nəfər öldürülür, yetmiş nəfər də əsir düşür. Əsir düşənlər arasında Qüreyş ağsaqqallarından Nəzr ibn Haris, Əqəbə ibn Əbu Muit, Əbu Qərrə, Süheyl ibn Əmr, Abbas və Əbul - As da var idi.[3]

Bədr şəhidləri döyüş meydanının bir küncündə dəfn edilir. Halhazırda da qəbirləri mövcuddur. Sonra isə Peyğəmbər(s) əmr edir ki, müşriklərin meyyitlərini yığıb bir quyuya töksünlər. Əqəbin nəşini gətirdikdə oğlu Hüzeyfənin gözü atasının cənazəsinə sataşıb rəngi solur. Bunu görən Peyğəmbər(s) soruşur ki, nəsə şübhənmi var? Əbu Hüzeyfə deyir: «Xeyr, mən atamı ağıllı, savadlı adam kimi tanıyırdım. Bunların onu İslama sövq edəcəyini düşünürdüm. İndi isə səhv düşündüyümü anlayıram.»

Muşriklərin meyitləri quyuya atıldıqdan sonra Peyğəmbər(s) onları bir-bir adları ilə çağırıb deyir: «Ütbə, Şeybə, Üməyyə, Əbu Cəhl… Allahınızın sizə vəd verdiklərinin gerçəkmi olduğunu gördünüz? Mən öz Rəbbimin verdiyi vədi haqq gördüm.» Bu vaxt müsəlmanlardan bəzisi Peyğəmbərdən(s) soruşurlar ki, ya Rəsuləllah, ölülərləmi danışır-

[1] Sireyi İbn Hişam, c-1, s-632
[2] Ət-Təbəqatul-Kubra, c-2, s-23
[3] Sireyi İbn Hişam, c-1, s-706-708; Məğazi Vaqidi, c-1, s-138-173

sınız? Həzrət buyurur: «Siz heç də onlardan daha yaxşı eşitmirsiniz. (Və yaxud onlar sizdən heç də pis eşitmirlər), sadəcə cavab vermək iqtidarında deyillər.» İbn Hişam, Peyğəmbərin(s) belə buyurduğunu nəql edir: «Peyğəmbəriniz üçün nə pis qohumlar oldunuz! Başqaları isə məni təsdiq etdi. Siz məni öz yurd-yuvamdan qovdunuz, başqaları isə mənə yer verdi. Siz mənimlə döyüşə qalxdınız, başqaları isə məni müdafiə etdi. Allahın vəd verdiyinin haqq olduğunu gördünüzmü?»

İslam dövrünün ilk şairlərindən olan Həssan ibn Sabit şer deməklə İslam və müsəlmanlara kömək edirdi. Artıq onun divanı işıq üzü də görmüşdür. Onun Bədr döyüşü haqqında da şeirləri vardır. Bir neçə beytinə diqqət yetirək:

Onları quyuya atdıqda Peyğəmbər(s) buyurdu:

Dediklərimin haqq olduğunu ğördünüzmü?

Allahın əmri qəlblərə hakim olur. Ancaq onlar ağızlarını açıb dinmədilər.

Əgər danışsaydılar, deyərdilər ki, sənin dediklərin doğru imiş.

Peyğəmbərin(s) müsəlmanlara: «Siz onlardan heç də daha yaxşı eşitmirsiniz, sadəcə onlar cavab vermək iqtidarında deyillər»-cümləsindən gözəl ifadə ola bilməz. Həzrətin onları bir-bir adları ilə çağırması, onlarla sağlıqlarındakı kimi danışması çox diqqətçəkən məqamlardandır. Kimsə: «Mənim ağlım bunu kəsmir. Belə ola bilməz»-deyib bunu inkar edə bilməz. Haşiyədə verdiyimiz mənbələrə müraciət edərək Peyğəmbərin(s) sözlərinin orijinalını oxumaqla həzrətin necə obrazlı şəkildə danışdığını görə bilərsiniz.[1]

### *Döyüşdən sonra*

Əksər tarixçilər belə hesab edirlər ki, Bədr döyüşü günortayadək davam etmiş, müşriklərin qaçması və bəzilərinin əsir düşməsi ilə günbatan vaxtı başa çatmışdır. Peyğəmbər(s) şəhidlərə meyit namazı qıldıqdan sonra elə oradaca əsr namazını qılmış, gün batmamış döyüş meydanını tərk etmişdir.

---

[1] Səhihi Buxari, c-5, s-97-98, 110; Səhihi Müslim, c-4, s-77; Sünəni Nisai, c-4, s-89-90; Musnədi Əhməd, c-2, s-131; Sireyi İbn Hişam, c-1, s-639; Məğazi Vaqidi, c-1, Bədr döyüşü əhvalatı; Biharul-ənvar, c-19, s-346

Bədr döyüşündə Peyğəmbər(s) ilk dəfə olaraq qənimət bölgüsündə səhabələrin mübahisəsinin şahidi olur. Hamı özünə daha çox qənimət qötürmək istəyir və buna layiq olduğunu bildirirdi. Komandanlıq qərargahını mühafizə edənlər deyirdilər ki, biz Peyğəmbəri qoruyurduq, bundan böyük iş ola bilərmi? Qənimət toplayanlar onlara daha çox qənimət düşməsini tələb edirdi. Düşməni mümkün olana qədər qovub qənimət toplayanlar üçün qənimət toplamağa şərait yaradanlar özlərini qənimətə daha layiq hesab edirdilər.

Ordu sıralarında ixtilaf və ikitirəlik yaranmasından böyük bədbəxtlik ola bilməz. Peyğəmbər(s) mübahisəyə və maddi istəklərə son qoymaq məqsədilə bütün qənimətləri Abdullah ibn Kəbə tapşırır və bir necə nəfəri ona köməkçi verir ki, qənimətləri daşımaqda yardım etsinlər. Qənimət bölgüsü haqda son qərarı özü verəcəyini bildirir.

Ədalət və insaf prinsipinə əsasən qənimət bütün ordu arasında bərabər bölünməli idi. Çünki qələbədə hamının payı var idi. Buna görə də Peyğəmbər(s) yolda qənimətləri mücahidlər arasında bərabər bölür. Hətta şəhid olanlar üçün də pay ayrılıb ailələrinə çatdırılır.

Qənimətlərin bərabər bölünməsindən narazı qalan Səd ibn Əbu Vəqqas Peyğəmbərə(s) deyir: «Bəni-Zöhrə əyanlardan olan mənim kimisini Yəsrib bağbanları ilə eynimi tutursan?» Peyğəmbər(s) bunu eşitdikdə çox narahat olub buyurur: «Mənim bu döyüşdə məqsədim güclülər qarşısında zəifləri müdafiə etməkdi. Mən boş-boş dəyərləri üstünlükləri aradan qaldırmaq və camaat arasında bərabərliyi, ədaləti bərqərar etmək üçün peyğəmbər göndərilmişəm.

Xums ayəsinin (Ənfal surəsi, 41-ci ayə) tələbinə müvafiq olaraq döyüş qənimətinin beşdə biri Allah, Peyğəmbər(s) və qohumlarının, Əhli-beytdən (seyyid) olan yetimlər, kimsəsizlər və pulu qurtarıb yolda qalanların payına düşməlidir. Ancaq Peyğəmbər bu döyüşdə qənimətin xumsunu da döyüşçülərin arasında bölür. Ola bilsin o vaxt xums ayəsi hələ nazil olmayıbmış. Və yaxud da Peyğəmbər əlində olan ixtiyarətə əsasən, döyüşçülərin payına çox qənimət düşsün deyə, bu dəfə qənimətin xumsunu çıxmamışdır.

***İki əsirin yolda öldürülməsi***

Yoldakı dayanacaqların birində əsirləri Peyğəmbərin(s) qarşısından keçirirlər. Səfra məntəqəsində Peyğəmbərin(s) qatı düşmənlərindən olan Nəzr ibn Haris, İrqun-nətbiyə məntəqəsində isə Əqəbə ibn Əbu Muit edam edilir.[1] İndi qarşıya belə bir sual çıxır ki, İslamın göstərişinə əsasən döyüş zamanı əsir alınmış şəxslər müsəlman döyüşçülərinin nökəri olduğu və istənilən satıla biləcəyi halda nəyə görə Peyğəmbər bu iki nəfərin haqqında ölüm hökmü verir?

Axı o həzrət özü müsəlmanlara əsirlərlə yaxşı davranmağı tövsiyə edirdi.[2]

Bədr döyüşündə Qüreyşin bayrağını tutmuş Əbu Əziz deyir: «Mühəmməd əsirlərlə yaxşı davranılmasını tövsiyə etdikdən sonra müsəlmanlar bizə qarşı olduqca mehriban davranırdılar. Bizi doyuzdurmayınca özləri yeməyə əl uzatmazdılar. «Bunları nəzərə aldıqda məlum olur ki, yuxarda adı çəkilən iki əsirin öldürülməsi Peyğəmbərin(s) şəxsən intiqam niyyətinə görə deyil, İslamın ümumi mənafeyi naminə olmuşdur. Belə ki, bu iki şəxs küfr başçılarından olaraq İslamın ziddinə planlar cızmaqda yaxından iştirak edir, qəbilələri müsəlmanlara qarşı təhrik edirdi. Çox güman Peyğəmbər(s) bilirmiş ki, onları azad edəcəyi təqdirdə yenə də belə pis işlərlə məşğul olacaqlar.

***Peyğəmbərin(s) Mədinəyə göndərdiyi qasidlər***

Peygəmbər(s) Abdullah ibn Rəvahə ilə Zeyd ibn Harisəni Mədinəyə göndərir ki, dərhal özlərini şəhərə yetirib İslam ordusunun qalib gəldiyini və Ütbə, Şeybə, Əbu Cəhl, Zəmə, Əbül-Buxturi, Üməyyə, Nəbih, Münəbbih kimi küfr başçılarının qətlə yetirildiyini camaata müjdə versinlər. Qasidlər Mədinəyə çatdıqda, müsəlmanlar Peyğəmbərin(s) qızı, Osmanın həyat yoldaşının dəfnindən qayıdırlar. Qələbə sevinci ilə Peyğəmbərin qızının vəfatının kədəri bir-birinə qarışır. Müsəlmanların qələbəsi nəticəsində Mədinədəki müşrik, yəhudi və münafiqləri vəhşət bürüyür. Onlar təsəvvür belə etməzdilər ki, müsəlmanlar qələbə qazanacaq. Buna görə də qasidlərin gətirdiyi

---

[1] Sireyi İbn Hişam, c-2, s-245

[2] Sireyi İbn Hişam, c-1, s-645

xəbərin yalan olduğunu başa salmağa çalışırdılar. Ancaq müsəlmanların və Qüreyş əsirlərinin Mədinəyə gəlişi ilə həqiqət aydın olur.

### *Məkkəlilər öz başçılarının ölümündən xəbərdar olurlar*

Məğlub Qüreyş ordusunda Məkkəyə ilk daxil olan şəxs Heysiman Xüzai idi. O, camaatı baş verən hadisələrdən, qəbilə başçılarının qətlə yetirilməsindən xəbərdar edir. Abbasın nökəri və sonralar Peyğəmbərlə Əlinin ən yaxın dostlarından olan Əbu Rafe deyir: «O vaxt İslam nuru Abbasın evini bürümüşdü. Abbas, həyat yoldaşı Ümmi Fəzl və mən İslamı qəbul etmişdik, ancaq mühitin qorxusundan müsəlman olduğumuzu gizli saxlayırdıq. İslam düşmənlərinin ölüm xəbəri Məkkəyə çatdıqda biz son dərəcə xoşhal, qüreyşlilər isə narahat oldular.

Bədr döyüşündə iştirak etməyən Əbu Ləhəb Zəmzəm quyusunun başında oturmuşdu. Əbu Süfyanın gəldiyini eşitdikdə ona xəbər göndərir ki, tez yanıma gəl. Əbu Süfyan gəlib baş verənləri Əbu Ləhəbə danışdıqca qorxu onun bədəninə lərzə salır. Yeddi gün yüksək hərarətdə qalan Əbu Ləhəb müəmmalı xəstəlik nəticəsində Cəhənnəmə vasil olur.

Peygəmbərin əmisi Abbasın Bədr döyüşündə iştirak etməsi bir qədər qarışıq məsələlərdəndir. O, hətta əsir də alınır. Abbas bir tərəfdən Bədr döyüşündə iştirak edir, digər tərəfdən Əqəbə sözləşməsində mədinəlilərə Peyğəmbəri(s) müdafiə etməyi tapşırır. Bu təzadın həll yolu elə Əbu Rafenin dediyidir. Yəni, Abbas qardaşı Əbutalib kimi Mühəmmədin(s) peyğəmbərliyini qəbul edir, lakin zamanın tələb və məsləhətinə uyğun olaraq imanını gizlətməli və bu yolla Peyğəmbərə kömək etməli idi. O, Qüreyşin planları barədə vaxtı-vaxtında qardaşı oğluna xəbər göndərirdi. Ühüd döyüşündə də o bunu edərək Peyğəmbəri(s) Qüreyşin hərəkət etməsindən xəbərdar etmiş ilk şəxs olmuşdur. Qüreyş başçılarından yetmişinin ölüm xəbərinin yayılması ilə Məkkənin bütün evlərində əyləncə yığışır, hamı matəmə qərq olur.[1]

### *Ölənlərə ağlamaq qadağan edilir*

Müşriklərin qəzəbi soyumasın və həmişə intiqam hissi ilə yaşasınlar deyə, Əbu Süfyan ölənlərə ağlamağı, şivən etməyi qadağan edir. Çünki

---

[1] Fihrisu Nəcaşi, s-5

ağlamaq intiqam hissini azaldır və düşmənlərin tənəsinə səbəb olur. O, camaatı daha da qıcıqlandırmaq üçün bildirir ki, ölənlərin intiqamını almayınca heç bir qadınla yatağa girməyəcək.

Bədr döyüşündə Əsvəd Müttəlibin üç oğlu qətlə yetirilmişdi. İçərisi od tutub yansa da ağlamaq qadağan edildiyinə görə yas saxlaya bilmirdi. Birdən onun qulağına bir qadının ağlamaq səsi gəlir. Əsvəd ağlamağın azad edildiyini düşünüb sevinməyə başlayır. Bir nəfəri xəbər gətirməyə göndərir. Şəxs geri qayıdıb bildirir ki, qadının dəvəsi itdiyi üçün ağlayır. Buna görə ağlamaq isə qadağan edilməyib. Əsvəd narahat olub bir neçə beyt şer deyir:

O qadın dəvəsi itdiyi üçünmü ağlayıb gecə-gündüz nalə edir?

Əslində ölümləri ilə əzəmətin, vüqarın da getdiyi şəxslərə ağlamaq lazımdır.[1]

### *Əsirlər haqqında son qərar*

Döyüş başa çatdıqdan sonra elan edilir ki, savadlı əsirlərdən hər biri on müsəlman uşağına yazıb-oxumaq öyrətməklə azad ediləcək. Digər əsirlər də min dirhəmdən dörd min dirhəmədək fidyə ödəməklə əsirlikdən qurtara bilər. İmkansız əsirlər isə fidyə ödəmədən azadlığa buraxılırlar.

Bu xəbər Məkkədə əsirlərin qohumları arasında sevincə səbəb olur. Hər əsirin qohum-əqrəbası özü ilə pul götürüb Mədinəyə yollanır. Süheyl ibn Əmr azad edildikdə müsəlmanlardan biri Peyğəmbərə deyir ki, icazə ver bunun qabaq dişlərini çıxardım, daha İslamın əleyhinə söz deyə bilməsin. Həzrət buyurur ki, İslamda bu işə yol verilmir.

Peyğəmbərin kürəkəni Əbül-As Məkkənin sayılıb-seçilən tacirlərindən idi. O, Həzrətin qızı Zeynəblə cahiliyyət dövründə evlənmiş, besətdən sonra da xanımından fərqli olaraq iman gətirməmişdi. Bədr döyüşündəki əsirlər arasında o da var idi. Yoldaşı Zeynəb o vaxt hələ Məkkədə yaşayırdı. Ərinin azad edilməsi üçün anası Xədicənin toy gecəsində ona bağışladığı qızıl boyunbağını Mədinəyə göndərir. Birdən Peyğəmbərin(s) gözü boyunbağıya sataşır. Həzrət qəhərlənib ağlamağa

---

[1] Sireyi İbn Hişam, c-1, s-648

başlayır. Çünki ən çətin anlarda mal-dövlətini İslam yolunda xərcləmiş Xədicə yadına düşür. Peyğəmbər(s) müsəlmanların mallarının hörməti qorunsun deyə, səhabələrinə buyurur: «Bu boyunbağı sizin malınız sayılır, ixtiyarı sizdədir. Əgər narazılığınız yoxdursa, onu geri qaytaraq və Əbül-Ası da fidyə almadan azad edək.» Səhabələr Peyğəmbərin(s) təklifini qəbul edirlər. Həzrət isə Zeynəbi Mədinəyə buraxacağına dair Əbül-Asdan söz alır. Məkkəyə qayıtdıqdan sonra o, verdiyi sözə əməl edir, özü də müsəlman olur.[1]

***İbn Əbülhədiddən açıqlama***

İbn Əbülhədid yazır: «Peyğəmbərin(s) qızı Zeynəbin əhvalatını ustadım Əbu Cəfər Bəsri Ələviyə danışdıqda təstiqləyib dedi: «Fatimənin məqamı Zeynəbdən daha yüksək deyildimi? Hətta Fədək bağının müsəlmanların olduğunu qəbul etsək belə xəlifələr onu Fatiməyə bağışlamaqla razılığını cəlb edə bilməzdilərmi? «Biz peyğəmbərlər özümüzdən sonra irs qoymarıq» hədisinə əsasən Fədək müsəlmanların mülki idi. Xəlifələr müsəlmanların malını Fatiməyə necə verə bilərdilər? Ustadım dedi ki, məgər Zeynəbin ərinin azad edilməsi üçün göndərdiyi boyunbağı müsəlmanların malı deyildi? Mən cavab verdim ki, Peyğəmbər(s) şəriət sahibi idi, hökm vermək səlahiyyəti var idi, ancaq xəlifələrin belə bir ixtiyarı olmayıb. Ustadım dedi: «Mən demirəm ki, xəlifələr Fədəyi müsəlmanlardan zorla alıb Fatiməyə verəydilər. Deməyim odur ki, xəlifələr müsəlmanları bu işə razı sala bilərdilər, ancaq bunu etmədilər. Nə üçün müsəlmanlara demədilər ki, camaat, Fatimə Peyğəmbərin qızıdır, o, atasının sağlığında olduğu kimi indi də Fədəyin onun ixtiyarına verilməsini istəyir. Fədəyin ona verilməsinə razısınızmı? «Mən ustadımın bu sözləri qarşısında heç nə deyə bilmədim. Bircə onu bildirdim ki, Əbülhəsən Əbdülcabbar da, xəlifələrdə belə bir irad tutaraq demişdir: Onların hərəkəti şəriətə uyğun olsa da, Fatimənin hörmətini qorumayıblar.»[2]

---

[1] Sireyi İbn Hişam, c-1, s-651-658

[2] Şərhi Nəchul-bəlağə (İbn Əbilhədid), c-14, s-191

### *Xanımlar xanımı ərə gedir*

Müəyyən yaş həddinə çatdıqda insanın ehtirasları üzə çıxır. Bəzən ailənin düzgün tərbiyə verməməsi nəticəsində yetkinlik həddinə çatmış şəxs cinsi fəsadlara uğrayır və arzuolunmaz hallar baş verir.

İsmətin, abır-həyanın qorunmasının ən gözəl yolu evlənməkdir. İslam dini də kişi və qadını (oğlanı və qızı) müəyyən şəraitə malik olduqda evlənməyə dəvət edir. Quran bu barədə buyurur: ***«(Ey mömin-lər!) Aranızda olan subay kişiləri və ərsiz qadınları (yaxud evlənməyə qabil) kölə və cariyələrinizi evləndirin. Əgər onlar yoxsuldurlarsa, Allah Öz lütfü ilə onları dövlətli edər.»***[1]

Evlənməklə bağlı Peyğəmbər(s) buyurmuşdur: «Allahın qarşısına təmiz ruhla çıxmaq istəyən şəxs evlənməlidir.»[2] Həmçinin buyurur: «Qiyamət günü mən digər ümmətlər qarşısında öz ümmətimin sayının çoxluğu ilə fəxr edəcəyəm.»

Çağdaş dövrümüzdə evlənmək bir çox problemlərlə üzləşir. Bəzi oğlanlar və qızlar əlverişli şərait olmadığına görə evlənməkdən yayınırlar.

Müsəlman ölkələrindəki statistik məlumatlar göstərir ki, bəzi gənclər evlənərkən həqiqi səadət axtarışında deyil, mal-dövlət naminə ailə qururlar. (Müsəlman olmayan ölkələrdə vəziyyət daha acınacaqlıdır.) İsmət, iffəti çox az insan diqqətdə saxlayır. Bəzi namuslu, ancaq maddi baxımdan imkansız qızlar var ki, kasıbdır deyə, heç elçiliyinə də gələn olmur. Ancaq mənəviyyatı, əxlaqı çox aşağı səviyyədə qızlar var ki, dövlətli, imkanlı ailədən olduqlarına görə oğlanlar onlarla ailə qurmağa can atır.

Bəzən qız tərəfin tələb etdiyi yüksək məbləğdə başlıq (mehriyyə) da oğlanlar üçün ailə qurmaqda problem yaradır. Bu da gənclərin ailə qura bilməyib pis yollara düşməsinə səbəb olan amillərdən biridir.

Qeyd edilənlər hər bir cəmiyyətdə, hər bir vaxtda mövcud olmuşdur. Peyğəmbərin(s) dövründə də belə hallar baş vermişdir. Zadəgan ərəblər öz qızlarını sayılıb-seçilən, tanınmış qəbilənin oglanla-

---

[1] Nur-32

[2] Mən la yəhzuruhul-fəqih, c-3, s-410

rına ərə verir, elçi özlərinə uyğun olmadığı təqdirdə isə ona rədd cavabı verilirdi. Bu adət-ənənəyə əsasən bir çox əyanlar, qəbilə ağsaqqalları Peyğəmbərin(s) qızı Fatiməyə elçilik edirlər. Onlar bilirdilər ki, Peyğəmbər(s) qızını ərə verəcək şəxsi maddi cəhətdən çox sıxmayacaq. Çünkü həzrət digər qızları Rüqəyyə və Zeynəbi ərə verərkən də belə etmişdi. Ancaq Fatiməyə elcilik edənlər onun digər qızlardan fərqləndiyini heç ağıllarına da gətirmirdilər. Ancaq Mübahilə ayəsinə (Ali-İmran surəsi, 61-ci ayə) əsasən Fatimə çox böyük məqama sahib idi. (Mübahilə hadisəsi haqqında hicrətin onuncu ilində baş vermiş hadisələrdən danışarkən ətraflı məlumat verəcəyik.)

Fatiməyə elçilik edənlər səhvə yol verirdilər. Onlar Fatimənin ərə gedəcəyi şəxsin fəzilət, iman, təqva baxımından ən azı Fatimənin özünə bərabər olmalı olduğunu bilmirdilər. Təthir ayəsinə əsasən Fatimə günahdan məsum sayılırdısa, onunla evlənəcək şəxs də məsum olmalı idi.

Ərlə-arvadın bir-birinə uyğun olmasının şərti maddiyyat deyil. Düzdür, İslamda qızı ərə verərkən özü ilə ayaqlaşan şəxsi seçməyi məsləhət görür. Lakin ayaqlaşmaq iman nöqteyi-nəzərindəndir. Peyğəmbər(s) elçiliyə gələnlərə Fatimənin ərə verilməsində Allahın əmrini gözlədiyini bildirir. İndi artıq səhabələr anlayırdılar ki, Fatimə ilə evlənmək elə də asan məsələ deyil. Maddi cəhətdən yaxşı imkana malik olmaq bunun üçün yetərli deyil. Fatimə ilə iman, təqva baxımından yalnız Peyğəmbərdən geri qalan şəxs evlənə bilər. Belə bir özəllik isə Əlidən başqa heç kəsdə yox idi. Səhabələr Əliyə tövsiyə edirlər ki, Fatiməyə elçilik etsin.[1] Öz ürəyindən də keçən Əli bu təklifi qəbul edir. O, elçilik üçün münasib bir fürsət gözləyirdi. Bir gün şəxsən özü Peyğəmbərin(s) hüzuruna gəlir. Bütün varlığını həya bürüyən Əli fikrini açıb deməyə utanırdı. Axır Peyğəmbər özü onu dilləndirməyə məcbur olur. Əli utana-utana bir neçə cümlə ilə sözünü deyir. Belə elçilik əsl səmimiyyətdən xəbər verirdi. Hələ indiki zamanda da əxlaq məktəbləri elçilik edən gənclərə təqva ilə bərabər azadlıq aşılaya bilməmişdir.

Peyğəmbər(s) Əlinin istəyinə ilkin razılığını verib buyurur: «Bir qədər gözlə, qoy qızım Fatimənin özünə də deyim.» Həzrət məsələni

[1] Biharul-ənvar, c-43, s-93

qızına bildirdikdə Fatimə sükuta qərq olur. Peyğəmbər ayağa qalxaraq deyir: «Allahu əkbər, Fatimənin sükutu razılıq əlamətidir.»[1]

O vaxt Əlinin olan-qalan bir zireh, bir də qılıncdan başqa heç nəyi yox idi. O, zirehini satıb toy üçün lazımı hazırlıq görmək məcburiyyətində qalır. Zirehi satıb bütün pulunu Peyğəmbərin(s) hüzuruna gətirir. Peyğəmbər saymadan pulun bir qədərini götürüb Bilala verir ki, Fatimə üçün bir qədər ətir alsın. Pulun qalanını isə bəylə gəlin üçün lazimi avadanlıq almaq üçün Əbu Bəkrlə Əmmarə verib onları Mədinə bazarına göndərir. Onlar da gedib Fatimə üçün nəzərdə tutulan cehizləri alaraq Peyğəmbərin(s) hüzuruna gətirirlər.

***Peyğəmbər qızının cehizlərinin siyahısı***

1) 7 dirhəmlik gəlinlik paltarı
2) 1 dirhəmlik baş örtüyü
3) 1 ədəd qara qətifə
4) Taxta və xurma ağacının liflərindən hazırlanmış 1 ədəd ərəb taxtı
5) Biri yundan, digəri isə xurma lifindən olan və Misir kətanı ilə tikilmiş iki ədəd döşək.
6) İkisi yundan, ikisi də xurma lifindən olmaqla 4 ədəd balış
7) Pərdə
8) Həcəri həsiri
9) Əl-üz dəsmalı
10) Bir ədəd su tuluğu
11) Bir ədəd taxtadan hazırlanmış süd kasası
12) Bir ədəd dəridən olan su qabı
13) Bir ədəd yaşıl rəngli dolça
14) Bir neçə saxsı kuzə
15) İki ədəd gümüş qolbaq
16) Bir ədəd mis qab

Peyğəmbərin gözü alınan əşyalara sataşdıqda buyurur: **«İlahi! qablarının çoxu saxsıdan olan adamların həyatını mübarək et!»**[2]

---

[1] Biharul-ənvar, c-43, s-93
[2] Biharul-ənvar, c-43, s-94; Kəşful-qümmə, c-1, s-359

Peyğəmbər qızının başlıq parası diqqəti cəlb edir. Bu məbləğ vur-tut beş yüz dirhəm təşkil edirdi.[1] Bu başlıq parasının çoxluğundan şikayətlənən gənclər üçün əsl bir örnək olmalıdır. Ümumiyyətlə ailə həyatının əsasını məhəbbət, səmimilik, vəfa təşkil etməlidir. Başlıq parası nə qədər çox olsa da həyatda elə bir önəm daşımır.

***Toy mərasimi***

Əli kiçik bir ziyafət təşkil edib həm oğlan, həm də qız tərəfdən bir neçə nəfəri qonaq çağırır. Nahardan sonra Peyğəmbər(s) Fatiməni yanına çağırtdırır. Fatimə utana-utana atasının hüzuruna gəlir. Onu xəcalət təri bürümüşdü.Gözü atasına sataşdıqca ayağı büdrəyir, az qalır ki, yerə yıxılsın. Peyğəmbər(s) tez qızının əlindən tutub onun haqqında belə dua edir: «Allah səni bütün büdrəmələrdən qorusun.»[2] Sonra Fatimənin üzündən örtüyü götürür, gəlinlə bəyin əlini bir-birinə verərək buyurur: «Rəsuləllahın qızı sənə mübarək olsun! Əli, Fatimə nə gözəl xanımdır!» Daha sonra üzünü Fatiməyə tutaraq buyurur: «Əli nə gözəl ərdir!»

Peyğəmbər(s) o gün əsl səmimiyyət göstərir. Çağdaş dövrümüz nə qədər inkişaf etsə də belə səmimiyyətdən əsər-əlamət yoxdur. Peyğəmbər(s) qızı ilə kürəkəninin əlini bir-birinə verib Əli üçün Fatimənin, Fatimə üçün də Əlinin fəzilətlərindən danışır. Fatiməyə bildirir ki, əgər Əli olmasaydı, dünyada ona ər tapılmazdı. Bundan sonra ev işlərini gəlinlə bəy arasında bölüşdürür. Evin daxili işləri Fatimənin, evdən kənar işlər isə Əlinin boynuna düşür.

Bəzi tarixçilərin yazdığına görə Peyğəmbər(s) bəzi mühacir və ənsar qadınlarına tapşırır ki, Fatiməni aparan dəvənin ətrafını dövrəyə alıb onu ər evinə çatdırsınlar. Beləliklə xanımlar xanımının toy mərasimi başa çatır.

Bəzi mənbələrdə göstərilir ki, Peyğəmbər(s) dəvənin ovsarından yapışıb çəkməyi ən yaxın səhabələrindən olan Salman Farsiyə tapşırır. Diqqət cəlb edən məqamlardan biri də Əli ilə Fatimənin bəy otağına getməsi olmuşdur. Utandıqlarından hər ikisi başlarını yerə dikmişdilər. Peyğəmbər içəri daxil olub əlinə bir qab su götürür, xoş niyyətlə qızının

---

[1] Vəsailuş-şiə, c-15, s-8

[2] Biharul-ənvar, c-43, s-96

üst-başına su çiləyir. Çünki su aydınlıqdır, həyat rəmzidir. Sonra da bəylə gəlin üçün belə dua edir: « İlahi bu, mənim qızım və dünyada ən sevimli adamımdır! Bu da qardaşım və dünyada ən sevimli adamımdır! İlahi onların bir-birinə məhəbbətini möhkəm et!….»[1]

Aşağıda qeyd edəcəyimiz hədis Peyğəmbər qızının necə böyük bir məqama sahib olduğunu göstərir. Ənəs ibn Malik deyir, «Peyğəmbər düz altı ay sübh namazı vaxtı evindən çıxıb məscidə gələrdi. Gələrkən Fatimənin evinin qarşısında ayaq saxlayıb buyurardı: **Namazdır, ey mənim Əhli-beytim! Həqiqətən Allah siz Əhli-beytdən bütün çirkinlikləri uzaqlaşdırıb sizi tər-təmiz, pak etmək istəyir.**[2] [3]

*Bəni-Qeynüqa yəhudilərinin cinayəti*

Bədr döyüşü Ərəbistan yarımadasında bütpərəstliyə qarşı əsən bir külək oldu. Qüreyş ordusunun pərən-pərən düşməsi bütün yarımadaya səs salır. Bu qələbədən sonra müsəlmanlar arasında vəhşətlə qarışıq bir arxayınlıq hökm sürürdü. Buna səbəb isə yarımadanın gələcək vəziyyəti haqqında düşünmək idi.

Bütpərəst qəbilələr, eləcə də Mədinə, Xeybər və Vadil-qurada yaşayan imkanlı yəhudilər yeni qurulmuş İslam dövlətinin günbəgün artan inkişafından narahat olur, öz varlıqlarını təhlükə astanasında görürdülər. Çünki onlar Peyğəmbərin(s) bu qədər irəli gedib Qüreyşi məğlub edəcəyini gözləmirdilər. Mədinədə yaşayan və şəhərin iqtisadi sahələrini öz əlində cəmləmiş Qeynüqa yahudiləri başqalarından daha çox narahat idi. Ona görə ki, onlar müsəlmanlarla bir yerdə yaşayır və vəziyyətləri Mədinədən kənarda qalan Xeybər və Vadil-qura yəhudilərindən fərqli idi. Bu səbəbdən Bəni-Qeynüqa yəhudiləri müsəlmanlara qarşı soyuq müharibəyə başlayır, kəskin tənqidi şerlər deyirlər. Beləliklə də Peyğəmbərlə(s) imzaladıqları müqaviləni rəsmən pozurlar.

Bu soyuq müharibə müsəlmanlara dərhal silaha əl atmağa əsas vermirdi. Çünki qan axıdılmadan həll edilə biləcək münaqişəni sülhlə yoluna qoymaq lazımdır. Üstəlik Mədinənin siyası sabitliyi Peyğəmbər üçün olduqda vacib idi.

---

[1] Biharul-ənvar, c-43, s-96
[2] Əhzab-33
[3] Musnədi Əhməd, c-2, s-259

Peyğəmbər(s) son sözünü demək məqsədilə Bəni-Qeynüqa bazarında böyük bir toplantı təşkil edir. Yəhudilərə ünvanlanmış çıxışında həzrət buyurur: «Qüreyşin başına gələnlər sizə ibrət olmalıdır. Qorxuram ki, Qüreyşin başına gələnlər sizin də başınıza gəlsin. Aranızda çoxlu din alimləri var. Onlardan soruşsanız, açıq şəkildə sizə deyərlər ki, mən Allahın elçisiyəm. Bu, sizin səmavi kitabınızda (Tövratda) da göstərilmişdir.»

İnadkar və dikbaş yəhudilər Peyğəmbərin(s) sözləri qarşısında nəinki sakit durmur, hətta sərt şəkildə həzrətə cavab da qaytararaq dedilər: «Elə bilirsiniz ki, biz zəif və qüreyşlilər kimi döyüş taktikalarından xəbərsizik? Siz döyüş haqqında məlumatı olmayan dəstə ilə vuruşmusuz. Qeynüqa övladlarının nəyə qadir olduğunu döyüş meydanında görərsiniz.»[1]

Qeynüqa övladlarının etik qaydalardan kənar hərəkətləri, onların şişirdilmiş qəhrəmanlarının mənəm-mənəm deməsi müsəlmanları qətiyyən narahat etmir. Artıq onlara son xəbərdarlıq da edilir və bu dəfə başqa vasitəyə əl atmaq lazım gələcək. Yoxsa günbəgün onların cürəti, təcavüzü artacaq, həddlərini aşacaqdılar. İndi onları sərt cəzalandırmaq üçün Peyğəmbər(s) fürsət axtarırdı.

### *Kiçik bir hadisə döyüşə səbəb olur*

Bəzən ən kiçik hadisə belə, ardınca böyük nəticələr, hətta fəsadlar gətirir. Məsələn, bəşər tarixinin ən böyük hadisələrindən olan birinci dünya müharibəsi çox kiçik bir hadisə nəticəsində başlamışdır. Belə ki, Avstriya dövlətinin vəliəhdi qətlə yetirilir və bu da müharibənin başlamasına gətirib çıxarır. Vəliəhd Ferdinand 28 iyunda qətlə yetirilir, bir ay altı gündən sonra, yəni avqustun 3-də Almaniyanın Belçikaya hücumu ilə birinci dünya müharibəsi başlanır ki, on milyon insanın ölümü və iyirmi milyonun yaralanması ilə nəticələnir.

Müsəlmanlar Bəni-Qeynüqa yəhudilərinin özbaşınalıqlarından bezmiş, onların işini bitirmək üçün bəhanə gözləyirdilər.

Təsadüfən bir ərəb qadını Bəni-Qeynüqa bazarında yəhudi zərgər dükanının qarşısında durub alver edirdi. Kimsə onun üzünü görməsin

---

[1] Məğazi Vaqidi, c-1, s-176

deyə, qadın bərk-möhkəm çadrasına bürünmüşdü. Qeynüqa yəhudiləri onun çadrasını açmağa çalışsalar da istəklərinə nail ola bilmirdilər. Bundan əsəbləşən yəhudi zərgər dükanından çıxıb qadının çadrasının ətəyini arxadan belinə tikir. Bir qədər sonra qadın ayağa qalxmaq istədikdə bədəninin bir hissəsi görünür. Bunu görən Qeynüqa yəhudiləri qadını ələ salmağa başlayırlar.

Bütün cəmiyyətlərdə böyük əhəmiyyət kəsb edən namus məsələsinə ərəblər daha çox önəm verir. Xüsusilə bədəvi ərəblər namus məsələsində qanlar töküblər.

Zavallı qadının halına acıyan bir müsəlmanın qeyrəti cuşa gəlir. Dərhal əlini silaha atıb yəhudi zərgəri qətlə yetirir. Məlum məsələdir ki, onun bu hərəkəti, özü də yəhudilərin toplaşdığı yerdə əvəzsiz qala bilməzdi. Bazardakı yəhudilər də qadının namusunu qorumaq üçün yəhudi zərgəri qətlə yetirən müsəlmanın üstünə tökülüb onu öldürürlər.

Biz müsəlman kişinin yəhudi zərgəri öldürməkdə haqlı olub-olmadığına qarışmırıq, ancaq onlarla yəhudinin bir nəfərin üstünə tökülüb öldürməsi düzgün iş deyildi. Köməksiz bir müsəlmanın yəhudilər tərəfindən acınacaqlı şəkildə qətlə yetirilməsi müsəlmanların səbr kasasını daşdırır. Buna görə də yəhudilərin işini birdəfəlik bitirmək qərarına gəlirlər.

Bəni-Qeynüqanın mənəm-mənəm deyən igidləri vəziyyətin gərgin olduğunu anlayıb daha Mədinə küçə və bazarında alver etməyin məsləhət olmadığını başa düşürlər. Belə məsləhət görürlər ki, hündür və möhkəm qalalardakı evlərinə çəkilsinlər.

Yəhudilər bu planlarında səhvə yol verirlər. Əgər onlar etdiklərindən peşman olub üzr istəsəydilər, sözsüz ki, Peyğəmbər(s) və müsəlmanlar onları bağışlayardılar. Ancaq qalaya çəkilmək əməlli-başlı müharibə elan etmək idi.

Peyğəmbər(s) müsəlmanlara əmr edir ki, yəhudilərin qalalarını mühasirəyə alıb içəri hər hansı bir şeyin keçirilməsinə və kənar şəxslərlə görüşməyə icazə verməsinlər. Mühasirə nəticəsində yəhudilər təslim olmaq məcburiyyətində qalır və Peyğəmbərin çıxaracağı istənilən hökmə tabe olacaqlarını bildirirlər. Peyğəmbər(s) onlara daha sərt cəza tətbiq etmək istəsə də Mədinə münafiqlərindən olan Abdullah ibn

Übeyyin xahişi ilə fikrindən dönür. Belə qərar qəbul edilir ki, Bəni-Qeynüqa yəhudiləri bütün əmlakı müsadirə olunmaqla Mədinəni tərk etsinlər. Beləliklə, Qeynüqa övladları Mədinədən Vadil-quraya, oradan da Mesopotamiya ərazisində yerləşən Əzrüata köçmək məcburiyyətində qalırlar.

Bəni-Qeynüqanın Mədinədən çıxarılması ilə şəhərdə siyasi vəhdət, sabitlik yaranır. İndi Mədinədə demək olar ki, hamısı müsəlman idi. Cüzi miqdarda bütpərəst və münafiq isə müsəlman əksəriyyətinin yanında heç hiss olunmurdu.[1]

***Mədinəyə yeni xəbərlər çatır***

Elə də böyük olmayan yerlərdə hər hansı bir xəbər tez yayılır. Bu baxımdan Mədinə də istisna edilmirdi. İslama qarşı planlar ya yoldan ötənlər, ya da İslama meylli olanlar tərəfindən Mədinəyə çatdırılırdı. Üstəlik Peyğəmbər(s) özü də bu sahədə çox diqqətli olmuşdur.

Bu səbəbdən də İslama qarşı yönəlmiş əksər planların elə yerindəcə qarşısı alınırdı. Hansısa qəbilənin müsəlmanlara qarşı ordu, silah-sursat toplaması xəbərini eşidən Peyğəmbər dərhal oraya qoşun yürüdürdü. İndi hicrətin ikinci ilində baş vermiş bir neçə belə hadisəyə diqqət yetirək:

1) **Kədir yürüşü.** Kədir məntəqəsi Bəni-Səlim qəbiləsinin məskunlaşdığı ərazi olmuşdur. Adı çəkilən qəbilənin müsəlmanlara qarşı silah toplaması barədə Mədinəyə məlumat daxil olur. Peyğəmbər(s) İbn Ümmi Məktumu öz yerində qoyub özü ordu ilə birlikdə Kədirə tərəf yola düşür. İslam ordusu çatana qədər düşmən dağılıb getmişdi. Heç bir döyüş baş vermədən Peyğəmbər(s) Mədinəyə qayıdır. Arxayın olmaq üçün Qalib ibn Abdullahın başçılığı altında kiçik bir qrupu bir daha həmin əraziyə göndərir. Bu dəstə üç şəhid verərək qələbə ilə geri dönür.[2]

2) **Səviq yürüşü.** Cahiliyyət dövr ərəbləri bəzən çox qəribə nəzirlər edirdilər. Məsələn, Bədr döyüşündən sonra Əbu Süfyan nəzir etmişdi ki, Qüreyşdən ölənlərin intiqamını müsəlmanlardan almayınca heç bir qadınla yatağa girməyəcək. O, sözünün üstündə durmaqdan ötrü

---

[1] Məğazi Vaqidi, c-1, s-177-179; ət-Təbəqatul-kubra, c-2, s-38-39

[2] Məğazi Vaqidi, c-1, s-182; ət-Təbəqatul-kubra, c-2, s-30

hücum etmək məcburiyyətində idi. Mədinədən kənarda məskunlaşmış Bəni-Nəzir yəhudilərinin başçısı Səllam ibn Müşkəmin bələdçiliyi və iki yüz nəfərlik ordunun müşayiəti ilə Üreyz məntəqəsində bir xurma bağına od vurub bir nəfər müsəlmanı da qətlə yetirir. Hadisədən xəbər tutan bir nəfər dərhal Mədinəyə məlumat göndərir. Peyğəmbər(s) dərhal Mədinədən çıxıb düşməni təqib edir. Lakin Əbu Süfyanın qoşunu müsəlmanların əlindən qaçıb qurtara bilir. Düşmən yol boyu səviqlə dolu (un və xurmadan hazırlanmış yemək növü) kisələri atıb qaçmışdı. Müsəlmanlar kisələri də yığıb Mədinəyə qayıdırlar. Buna görə yürüşü Səviq yürüşü adlandırmışlar.[1]

***Zil-Əmr döyüşü***

Mədinəyə xəbər çatır ki, Qətəfan qəbiləsi Mədinəyə hücuma hazırlaşır. Bundan xəbər tutan Peyğəmbər(s) 450 nəfərlik bir ordu ilə düşmənin üstünə gedir. Müsəlmanların gəlişindən qorxuya düşən düşmən dağlara çəkilir. Bu zaman güclü yağış yağmağa başlayır. Paltarları tamamilə islanmış Peyğəmbər(s) ordudan bir qədər aralanıb xəlvət yerdə paltarlarını soyunub yaxınlıqdakı ağacın budaqlarına sərir, özü də kölgəlikdə uzanır. Düşmən dağın təpəsindən həzrəti izləyirmiş. Düşmən ordusundakı pəhləvanlardan biri fürsətdən istifadə edib dağdan enərək Peyğəmbərin(s) başı üstündə qılıncını çəkib deyir: «İndi səni mənim qılıncımdan kim qoruya bilər?» Peyğəmbər(s) uca səslə: «Allah » - deyə cavab verir. Bu cavab pəhləvana o qədər təsir edir ki, bədəninə lərzə salır. İxtiyarsız olaraq qılınc əlindən düşür. Peyğəmbər(s) dərhal yerindən qalxıb qılıncı götürür, pəhləvanın üstünə şığıyıb deyir: «Bəs səni kim məndən qoruyacaq?» O, müşrük olsa da taxtadan, palçıqdan düzəlmiş bütlərin onu bu anda qorumaq iqtidarında olmadığını anlayıb cavab verir ki, heç kim.

Tarixçilər qeyd edirlər ki, o, həmin an İslamı qəbul edir. Özü də ölüm qorxusundan deyil, səmimi-qəlbdən müsəlman olur. Çünki sonralar da müsəlman olaraq qalmışdır. Sadəcə olaraq həmin an onun fitrəti oyanır. Belə ki, o, gözlənilməz və ağılagəlməz şəkildə məğlub olduğunu

---

[1] Məğazi Vaqidi, c-1, s-181

görüb başa düşür ki, Peyğəmbərin digər bir aləmlə əlaqəsi vardır. İslamı qəbul etdiyi üçün Peyğəmbər(s) onu bağışlayır, qılıncını da özünə qaytarır.

O isə bir neçə addım atdıqdan sonra geri dönüb Peyğəmbərdən(s) üzr istəyir, qılıncını da o həzrətə bağışlayaraq deyir: «Sizin kimi islahatçı bir rəhbər bu qılınca daha layiqdir.»[1]

### *Qüreyş ticarət yolunu dəyişir*

Qırmızı dəniz sahilləri müsəlmanlar və onların müttəfiqləri tərəfindən təhlükədə idi. Qüreyş müşrikləri bir daha toplantı təşkil edib öz vəziyyətlərini araşdırırlar. Onlar belə hesab edirlər ki, ticarəti dayandırsalar, yavaş-yavaş bütün sərmayələri tükənəcək, nəticədə müsəlmanlara təslim olmaq məcburiyyətində qalacaqlar. Ticarəti davam etdirəcəkləri təqdirdə isə yol müsəlmanlar tərəfindən təhlükədədir. Yəni, onlar istənilən vaxt hücum edib karvanı müsadirə edə bilərdilər. Bir nəfər ayağa qalxıb bundan sonra Şama İraq yolu ilə getməyi təklif edir. Hamı onun təklifini bəyənir.

Karvan hərəkət üçün hazır vəziyyətə gəlir. Karvana Əbu Süfyanla Səfvan ibn Üməyyə başçılıq, Bəni-Bəkrdən olan Furat ibn Həyyan isə bələdçilik edirdi.

Muqrizi yazır: «Bu söhbəti mədinəli bir kişi eşidir. Mədinəyə qayıtdıqdan sonra bu haqda öz dostuna danışır. Çox çəkmir ki, Peyğəmbər də xəbərdar olur. Zeyd ibn Harisənin başçılığı altında bir dəstəni karvanı təqib etməyə göndərir. Bu dəstə bir əsir alıb malları müsadirə, karvanı da geri qayıtmağa məcbur edir.»[2]

---

[1] Məğazi Vaqidi, c-1, s-194-196; Mənaqibi İbn Şəhraşub, c-1, s-164

[2] İmtaul-əsma, s-112

## HİCRƏTİN ÜÇÜNCÜ İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR

### *Ühüd döyüşü*

Hicrətin üçüncü ili, baş vermiş hadisələrə görə heç də ikinci ildən geri qalmır. İkinci ildə Bədr döyüşü baş vermişdisə, üçüncü ildə Ühüd döyüşü baş verir ki, hər ikisi İslamın ən böyük döyüşlərindən sayılır. Üçüncü ildə təkcə Ühüd döyüşü deyil, həm də Bəhran, Həmraul-əsəd döyüşləri, habelə bəzi yürüşlər baş vermişdir. Bunlardan yalnız bir yürüş və iki döyüşə toxunacağıq.

### *Məhəmməd ibn Məsləmənin yürüşü*

Bədr döyüşündə müsəlmanlar qalib gəldikdən sonra iki müsəlman döyüşçüsü zəfər xəbərini Mədinəyə çatdırır. Müsəlman ordusu hələ Mədinəyə qayıtmamış ana tərəfdən yəhudi olan Kəb Əşrəf bu qələbədən narahat olub şayiə yolu ilə Mədinədə xoşagəlməz bir xəbər yayır. Bədr döyüşündən də qabaq öz şeirləri ilə Peyğəmbər(s) barədə pis sözlər deyən Kəb müsəlmanların qalib gəldiyini eşidib deyir: «Yerin altı yerin üstündən daha yaxşıdır.» O, Məkkəyə gedib şeir deməklə Qüreyşi müsəlmanlara qarşı təhrik edir. Mədinəyə qayıtdıqda müsəlmanlara qarşı hörmətsizlik etməyə başlayır. Həddini aşıb şeirlərində müsəlman qadınlarına da sataşmağa başlayır. Fitnəkarlığın bariz nümunəsi olan bu şəxsin qarşısı alınmalı idi. Axırda Peyğəmbər(s) onun ölümünə hökm verir və bu işi Məhəmməd ibn Məsləməyə tapşırır. Məhəmməd ibn Məsləmə Kəbi aradan qaldırmaq üçün gözəl bir plan cızır. Kəbin süd qardaşı Əbu Nailə də daxil olmaqla bir neçə nəfəri bu işə cəlb edir. Kəbin qardaşı onun yanına gedir, bir qədər şeir deyişməsindən sonra Əbu Nailə Kəbə deyir: «Sənə demək istədiyim bir sirrim var. Ancaq onu gizli saxlamaq lazımdır. Bu kişi (Mühəmməd) gələndən bəri ərəblər bizə düşmən kəsilib, hamı bizə qarşı çıxıb. İndi ailələrimiz çox pis vəziyyətdə yaşayır.» Kəb qardaşının sözlərini təsdiqləyərək deyir: «Bunu mən sizə daha əvvəllər demişdim. İndi məndən istəyin nədir?» Əbu Nailə deyir

ki, səndən bir qədər ərzaq almağa gəlmişəm. Nəqd pulum olmadığına görə nəyisə girov qoyum. Kəb deyir ki, arvadlarını girov qoya bilərsənmi?

Əbu Nailə: Sən Yəsribin gözəl və cavan kişisi olduğun halda mən arvadlarımı sənin yanında necə girov qoya bilərəm?

Kəb: Onda oğlanlarını girov qoy!

Əbu Nailə: Sən məni rusvay etmək istəyirsən? Ərzaq almaq istəyən təkcə mən deyiləm. Mənim kimi başqaları da var, səndən alacağımız ərzaq müqabilində öz silahlarımızı girov qoyacaq, pulunu gətirdikdə silahlarımızı götürəcəyik.

Kəb: Etirazım yoxdur.

Silahların girov qoyulmasından məqsəd o idi ki, növbəti dəfə silahlı dəstə görəndə qorxmasın, elə bilsin ki, onlar da silahlarını girov qoyub ərzaq almağa gəlib.

Əbu Nailə qardaşından ayrılıb müsəlmanların yanına gəlir. Gecə vaxtı Məhəmməd ibn Məsləmənin dəstəsi Kəbin evinə getmək istəyir. Onun evi qalada yerləşirdi. Əbu Nailə qala qapısının arxasından qardaşını səsləyir. Kəb qapını açmaq üçün çıxmaq istədikdə gənc xanımı onun qarşısını kəsməyə çalışıb deyirki, mən bu səsdən təhlükə hiss edirəm. Kəb onun sözlərinə məhəl qoymayıb qapını açır. Qapıdakıların ərzaq almağa gəldiyini düşünüb söhbətə başlayır. Müxtəlif sahələrdən söhbət etməklə məclis qızışır. Bu zaman Əbu Nailə deyir ki, gəlin söhbətimizin ardını Şəbul-əsasda (qoca qarı dərəsində) davam etdirək. Hamı dərəyə doğru yollanır. Yolda Əbu Nailə əlləri ilə qardaşının saçlarını sığallayıb deyir ki, bu vaxtadək belə gözəl ətir iyi qoxumamışdım. O, bir daha həmin hərəkəti təkrar edir. Üçüncü dəfə də əlini qardaşının saçlarına çəkdikdə möhkəmcə onun saçlarını dartaraq müsəlmanlara deyir ki, öldürün, Allahın düşmənini öldürün! Bu an qılınclar o fitnəkarın bədəninə sancılır. Kəbin fəryadlarının bir xeyri olmadı. Əbu Nailə də əlindəki bıçaqla Kəbin qarnına bir zərbə endirib onu yerə sərir. Sonra da öz yollarına davam edir. Bəqi qəbristanlığına çatdıqda hamı «Allahu əkbər» deyir. Onlar bu yolla planlarının baş tutduğuna işarə edirdilər. Beləliklə, fitnəkar ünsür müsəlmanların yolunun üstündən götürülür.[1]

---

[1] Sireyi İbnHişam, c-2, s-51-58; Məğazi Vaqidi,c-1, s-184-190

Casusluqda, kafirləri müsəlmanlara qarşı təhrik etməkdə Kəbdən geri qalmayan Əbu Rafe də bir qədər sonra qətlə yetirilir. İbn Əsir onun əhvalatını ətraflı şəkildə vermişdir.[1] Bu iki hadisə və həmçinin digər amillər Ühüd döyüşünün baş verməsinə gətirib çıxarır. İndi gəlin bu tarixi hadisəni araşdıraq.

***Qüreyşlilər döyüş büdcəsi hazırlayır***

Məkkəlilər intiqam hissi ilə alışıb yanırdılar. Bədrdə ölənlərə ağlamağın qadağan edilməsi bu hissi daha da artırırdı. Qüreyşin ticarət yolunun bağlanması hamını narahat etmişdi. Kəb Əşrəfin ölümü isə bu narahatlığı son həddə çatdırmışdı. Bu səbəbdən Səfvan ibn Üməyyə və Əkrəmə ibn Əbu Cəhl Əbu Süfyanın yanına gəlib təklif edirlər ki, Bədrdə öldürülənlər karvanı qorumaq naminə canlarından keçdiyi üçün həmin karvanda kimin malı olubsa, döyüş büdcəsi üçün müəyyən məbləğdə pul verməlidir. Əbu Süfyan bu təklifi bəyənib dərhal icra etməyə başlayır.

Müsəlmanların gücünə bələd olan sağ qalmış Qüreyş başçıları bu dəfə daha təşkilatlanmış bir ordu ilə Mühəmmədlə döyüşə çıxmağın və bütün qəbilə cəngavərlərinin bu döyüşdə iştirak etməsinin vacib olduğunu anlayırlar. Əmr Asla daha bir neçə nəfər Kənanə və Səqif qəbilələrinə gedib onlardan canlı yardım istəyir, döyüşün bütün xərclərinin Qüreyş tərəfindən ödəniləcəyini bildirirlər. Onlar Kənanə və Təhamə qəbilələrindən döyüşçülər toplamağa müvəffəq olur. Beləliklə dörd min nəfərlik bir ordu təşkil edilir. Bu, yalnız döyüşdə iştirak edən kişilərin sayı idi. Qadınları da bura əlavə etsək, qeyd edilən rəqəm də artar. Adətən ərəblər qadınları döyüşə aparmazdılar. Ancaq bu dəfə Qüreyşin bütpərəst qadınları da kişilərlə çiyin-çiyinə döyüşə gəlirlər. Qadınların vəzifəsi o idi ki, təbil vurmaqla kişiləri döyüşə təhrik etsin və şerlər oxumaqla qaçmaq istəyənləri bu fikrindən döndərsinlər. Çünki kişilərin döyüşdən qaçması arvad-uşağının, qız-gəlininin əsir düşməsi demək idi. Ərəblər isə buna heç bir vəchlə razı olmazdılar.

Qüreyş ordusunda eyni zamanda çoxlu sayda nökər də iştirak edirdi. Onlara qələbə qazanılacağı təqdirdə müxtəlif vədlər verilmişdi.

[1] Əl-Kamilu fit-tarix, c-2, s-101

Məsələn, nizə atmaqda xüsusi bacarığı olan Mütimin nökəri Vəhşi ibn Hərbə vəd verilmişdi ki, Mühəmməd, Əli və ya Həmzədən birini qətlə yetirəcəyi təqdirdə azad ediləcək.

Böyük çətinliklə də olsa Qüreyş yeddi yüz zirehli, üç min dəvə və iki yüz at süvarisi və bir qədər də piyadadan ibarət böyük bir ordu hazırlaya bilir.

*Peyğəmbərin(s) xəbər mənbəyinin məlumatları*

Üzdə büruzə verməsə də, həqiqi müsəlman olan Peyğəmbərin əmisi Abbas, Peyğəmbəri(s) Qüreyşin döyüş niyyətindən xəbərdar edir.

Abbas öz xətti və möhrü ilə məktub yazıb onu Bəni-Qifardan olan bir qasidə verir və üç gün ərzində onu Peyğəmbərə çatdırmasına dair öhdəlik alır. Peyğəmbər(s) Mədinə kənarındakı bağlarda istirahət edən zaman qasid məktubu çatdırır. Ədəblə salam verdikdən sonra bağlı məktubu həzrətə təqdim edir. Peyğəmbər(s) məktubu oxusa da, bu barədə səhabələrinə heç nə demir.[1]

Mərhum əllamə Məclisi İmam Sadiqdən(ə) nəql edir ki, Peyğəmbər(s) yazmağı bacarmasa da oxumağı bacarırdı. Məlum məsələdir ki, o həzrət tez bu barədə səhabələrini məlumatlandırmalı idi. Buna görə də şəhərə qayıdan kimi məktub hamı üçün oxunur.

*Qüreyş ordusu hərəkətə başlayır*

Qüreyş ordusu Məkkədən çıxıb Mədinəyə doğru hərəkət edir. Peyğəmbər(s), anası Aminənin dəfn olunduğu Əbva məntəqəsinə yetişdikdə, ağılsız gənc qüreyşlilər təklif edirlər ki, Mühəmmədin anasının qəbrini açıb sümüklərini çıxartsınlar. Lakin dünyagörmüş ağsaqqalları bu fikri qətiyyətlə pisləyib deyirlər ki, buna yol vermək olmaz. Yoxsa sonradan bu, adət halını alar, Bəni-Bəkr və Bəni-Xüzaə də bizim ölülərimizi qəbirdən çıxarar.

Hicrətin üçüncü ili şəvval ayının beşi, həftənin çərşənbə günü Peyğəmbər(s) Fəzalənin oğlanları Ənəslə Munisi Qüreyş ordusu barədə məlumat toplamaqdan ötrü Mədinədən kənara yollayır. Bu iki qardaş xəbər gətirir ki, müşriklər artıq şəhərə yaxınlaşır. Hazırda dəvələrini

---

[1] Məğazi Vaqidi, c-1, s-203

Mədinə otlaqlarına buraxıblar. Sonra Həbbab ibn Münzir xəbər gətirir ki, ordunun qabağı Mədinənin lap yaxınlığındadır. Cümə axşamı Qüreyş ordusu artıq Ühüd dağı ətrafında mövqe tutmuşdu. Müsəlmanlar gecə ikən müşriklərin hücuma keçib Peyğəmbərə(s) zərər verə biləcəyindən narahat idilər. Bu səbəbdən Ovs və Xəzrəc başçıları gecəni məsciddə, Peyğəmbərin(s) evinin yanında və Mədinənin giriş qapılarında silahla puskuda dururlar. Onlar səbirsizliklə səhər açılmasını gözləyirdilər.

### *Ühüdün coğrafi mövqeyi*

Şamla Yəmən arasındakı ticarət yolunu birləşdirən böyük və uzun dərə Vadil-qura adlanırdı. Bu dərə boyu harada yaşamaq üçün əlverişli şərait var idisə, müxtəlif ərəb və yəhudi qəbilələri gəlib orada məskən salırdı. Buna görə də həmin dərədə bir çox kənd (və ya kənd tipli qəsəbə, şəhər) salınmışdı ki, bunların da ən böyüyü sonradan Mədinətur-Rəsul (yəni, Peyğəmbər şəhəri) adlandırılan Yəsrib idi.

Məkkədən Mədinəyə gəlmək istəyən şəxs mütləq şəhərin cənub səmtindən daxil olmaq məcburiyyətində idi. Ancaq ora daşlıq ərazi olduğundan ordunun hərəkəti çətinləşirdi. Bu səbəbdən Qüreyş ordusu Mədinəyə yaxınlaşdıqda yolunu dəyişib Mədinənin şimal hissəsində, Əqiq vadisində Ühüd dağının ətəyində qərarlaşır. Ora xurmalıq olmadığı və yer səthinin hamar olması baxımından hərbi fəaliyyət üçün olduqca əlverişli bir ərazi idi. Oradan Mədinəyə daha çox zərbə dəyə bilərdi. Çünki yolda elə də maneələr yox idi. Qüreyş ordusu cümə axşamı günortadan sonra Ühüd dağı ətəyində mövqe tutur.

Peyğəmbər(s) isə cümə axşamını Mədinədə qalır. Cümə günü hərbi məsləhət şürası təşkil edilir. Peyğəmbər(s) sərkərdələrlə müdafiə taktikası barədə məsləhətləşirdi.

### *Müdafiə taktikası barədə məsləhətləşmə*

Allah-taala Peyğəmbərə(s) əmr etmişdir ki, hərbi və s. işlərdə səhabələrlə məsləhətləşsin. Bu, həm də müsəlmanlara əsl demokratiyanı aşılayırdı. Peyğəmbər səhabələrin fikirlərindən istifadə edirdimi, etmirdimi, bu sualın cavabını əqaid sahəsinin nümayəndələrinin

əsərlərində axtarmaq lazımdır. Bu məsləhətləşmələr Peyğəmbərdən müsəlmanlara miras qalmışdır. Belə ki, həzrətin vəfatından sonra xəlifələr də müsəlmanların, xüsusilə Əmirəl-möminin Əlinin(ə) fikirlərindən hərbi və ictimai sahədə faydalanmışlar.[1]

Bütün müsəlman sərkərdələrinin iştirak etdyi böyük bir toplantıda Peyğəmbər(s) uca səslə buyurur: «Qüreyş ordusu tərəfindən təhdid edilən dinimizin müdafiəsi haqqında hərə öz fikrini bildirsin.» Mədinə münafiqlərindən olan Abdullah ibn Übeyy təklif edir ki, Mədinədən kənara çıxmayıb düşməni şəhərin daxilində qarşılasınlar. Kişilər küçələrdə düşmənlə vuruşsun, qadınlar da damların üstündən onları daşqalaq etsinlər. O, sözünə belə başlayır: «Biz keçmişdə bu üsuldan istifadə edirdik. Qadınlar damların üstündən bizə kömək edirdilər. Buna görə də Yəsrib bu vaxtadək heç vaxt təslim olmayıb. Biz nə vaxt bu taktikadan istifadə etmişiksə, qalib gəlmişik. Ona sadiq qalmadıqda isə məğlubiyyətə uğramışıq.»

Yaşlı müsəlmanlar bu fikirlə razılaşsalar da gənclər və ortayaşlılar, xüsusilə də Bədr döyüşündə iştirak edə bilməyənlər verilən təklifi qəbul etməyib deyirlər: «Bu müdafiyə taktikası düşməni cəsarətləndirər və Bədrdə qazandığımız izzət, şövkəti itirərik. Cəngavərlərimizin evdə oturub düşmənin ağzına qədər gəlməsinə razı olması eyb deyilmi? Bədrdə gücümüz indikindən qat-qat az idi. Buna baxmayaraq qələbə qazanmağı bacardıq. Biz çoxdandır belə bir fürsət gözləyirik, indi həmin fürsət özü gəlib çıxıb.»

Böyük İslam sərkərdəsi Həmzə deyir: «And olsun Quranı nazil edən Allaha, bu gün şəhərdən kənarda düşmənlə qarşılaşmayınca yemək yeməyəcəyəm. Mütləq şəhərdən kənara çıxıb düşmənlə kişi kimi vuruşmalıyıq.»[2]

### *Şəhid olmaqdan ötrü atılan püşk*

Məsləhətləşmə zamanı Xüseymə adlı yaşlı bir kişi ayağa qalxıb deyir: «Ya Rəsuləllah! Qüreyş düz bir ildir ki, bu döyüşə hazırlaşıb. İndi bütün qəbilələri yığıb üstümüzə gətirib. Biz onları şəhərdən kənarda

---

[1] Nəhcür-Bəlağə, 1-ci xütbə

[2] Məğazi Vaqidi, c-1, s-211

qarşılamasaq, onlar yəqin ki Mədinəni mühasirə edəcəklər. Bəlkə də mühasirədən nə vaxtsa əl çəkib, döyüşmədən geri dönələr. Ancaq bu, onları növbəti döyüşlərdə daha da cürətləndirəcək və biz Məkkə sarıdan heç vaxt arxayın olmayacağıq. Mən Bədr döyüşündə iştirak edə bilmədiyimə görə çox təəssüflənirəm. Döyüşə getməyə görə oğlumla aramda mübahisə düşdü. Hər ikimiz getməyə can atırdıq, lakin Bədrdə iştirak etmək ona nəsib oldu.

Mən dedim ki, oğlum, sən hələ gəncsən, arzuların var, gəncliyini gələcəkdə də Allah yolunda sərf edə bilərsən. Mənim ömrüm isə artıq geridə qalıb, gördüyümü görmüşəm. Qoy cihada mən gedim, şəhid də olsam, ailəyə sən baxarsan. Oğlum dediklərimlə razılaşmadı, döyüşə getmək istədiyini bildirdi. Axırda belə qərara gəldik ki, kimin döyüşə getməsi üçün püşk ataq. Püşk oğlumun üzünə güldü və o Bədrdə iştirak edib şəhidlik zirvəsinə yüksəldi. Dünən Mədinənin hər yerində Qüreyş hücumundan danışırdılar. Mən də bu fikirlə yuxuya gedim. Yuxuda oğlumun Cənnətdə gəzdiyini, oranın gözəl nemətlərindən yediyini gördüm. Çox mehriban bir səslə mənə dedi ki, atacan, sənin yolunu gözləyirəm.

«Ya Rəsuləllah! Artıq mənim saç-saqqalım ağarıb, sümüklərim boşalıb. Xahiş edirəm Allahdan mənim üçün şəhadət diləyin!»[1]

İslam tarixində belə cəsur, fədakar şəxslərə çox rast gəlmək olar. Axirət gününə inamı və imanı olmayan məktəblərdə çətin ki, Xüseymə kimilərə rast gələk. Haqq uğrunda canından keçməyə böyük həvəslə can atmaq yalnız peyğəmbərlərin məktəbində mümkündür. Hal-hazırda, qabaqcıl ölkələrdə, ordu generallarının həyatına böyük önəm verilir. Çünki onların əsas məqsədi həyatdır. Peyğəmbərlərin məktəbində isə əsas məqsəd Allahın rizasını cəlb etməkdir. Bu, hətta ölümlə başa gəlsə belə, şəxs qorxmadan, çəkinmədən ölümün qucağına gedəcək ki, təki Allah razı qalsın.

Həzrət Peyğəmbər(s) hamının fikrini öyrəndikdən sonra əksəriyyətin verdiyi təkliflə razılaşır, Mədinədən çıxmağı şəhərdə qalmaqdan üstün tutur. Həmzə, Səd ibn Übadə və digər böyük

---

[1] Biharul-ənvar, c-2, s-125

sərkərdələrin fikrini münafiqlərdən olan Abdullah ibn Übeyyin təklifinə qurban vermək, əlbəttə ki, olmazdı. Üstəlik Mədinədə qalıb düşməni şəhərdə qarşılamaq, qadınları da döyüşə qatmaq müsəlmanların zəif olduğuna dəlalət edəcəkdi və Bədrdəki qəhrəmanlıqla əsla uyğun gəlməzdi. Bu həm də müsəlmanların ruhiyyəsini zəiflədər, onlarda döyüş ruhunu öldürərdi. Çox güman ki, Abdullah ibn Übeyy Peyğəmbəri gözü götürmədiyinə görə belə bir təklif vermişdi.

Mədinədən çıxıb düşməni kənarda qarşılamaq barədə qərar qəbul edildikdən sonra Peyğəmbər(s) evinə getdi. Əyninə zireh geyib qılıncını götürür, kürəyinə qalxan, çiyninə də ox-kaman atıb evdən çıxdı. Bu səhnəni görən müsəlmanlardan bəzisi narahat oldu. Çünki onlar elə bilirdilər ki, Mədinədən kənara çıxmaq fikrini Peyğəmbər bəyənməyib, sadəcə, məcbur qalıb qəbul etmişdir. Buna görə səhvlərini düzəltmək məqsədilə həzrətə deyirlər: «Müdafiə taktikası barədə biz sizə tabeyik. Şəhərdən kənara çıxmaq məsləhət deyilsə, onda Mədinədə qalaq.» Həzrət buyurdu: «Peyğəmbər zireh geyibsə, düşmənlə vuruşmadan onu əynindən çıxarması yaramaz.»[1]

***İslam ordusu şəhərdən çıxır***

Peyğəmbər(s) cümə namazını qılıb təxminən min nəfərlik bir ordu ilə Mədinədən Ühüdə doğru irəliləyir. Həzrət, Üsamə, Zeyd ibn Harisə və Abdullah ibn Ömər kimi azyaşlıların döyüşə getməsinə icazə vermir. Yalnız Səmrə və Rafe adlı iki yeniyetmə döyüşə gedir. Onların təxminən on beş yaşı olsa da, mahir oxatan olduqlarına görə Peyğəmbər onlara döyüşə getməyə icazə verir.

Ordu hərəkət edərkən münafiq Abdullah ibn Übeyy ilə müttəfiq olan bir dəstə yəhudi də döyüşə getmək istədiyini bildirdi. Lakin müəyyən səbəblərə görə Peyğəmbər(s) onların döyüşə getməsinə razı olmadı. Ordu Şut adlı yerə çatdıqda Abdullah ibn Übeyy Peyğəmbərin(s) onun təklifini qəbul etmədiyini bəhanə gətirib yarı yoldan qayıdır. Onunla eyni qəbilədən olan 300 «Ovslu» da ordudan

---

[1] Məğazi Vaqidi, c-1, s-214; ət-Təbəqatul-kubra, c-2, s-38

ayrılır. Bununla da Ühüd döyüşündə nə münafiqlər nə də yəhudilər iştirak etmir.

Peyğəmbər(s) və eləcə də ordu kəsə yolla döyüş bölgəsinə çatmaq istəyirdi. Buna görə də Mürəbbə adlı bir yəhudinin bağından keçmək məcburiyyətində qalırlar. Yəhudi müsəlmanların onun bağına girməsinə çox narahat olur, hətta Peyğəmbəri(s) təhqir də edir. Müsəlmanlar onu öldürmək istəsələr də həzrət icazə verməyib buyurur: «Bu inadkar, cahil adamla işiniz olmasın!»[1]

***İki fədakar döyüşçü***

Ühüd dağına çatmamış Peyğəmbər(s) ordunu saxlayır. Sıraya düzüb nizam-intizamına fikir verir. Müsəlmanlarda böyük ruh yüksəkliyi müşahidə edilirdi. Orduda müxtəlif yaş qruplarından olan müsəlmanlar iştirak edirdi. Burada onbeş yaşlı yeniyetmədən tutmuş saç-saqqalı ağarmış qocaya belə rast gəlmək olardı. Onların hamısı müqəddəs din uğrunda cihada gəlmişdi. Hamı böyük həvəslə orduya qoşulmuşdu. Aşağıdakı iki nümunə buna sübut ola bilər:

1) Əmr ibn Cəmuh əldən düşmüş, beli bükülmüş bir qoca idi. Bir ayağı da axsaq idi. Onun dörd oğlu da özü ilə birlikdə cihada gəlmişdi. Buna görə o həddən artıq sevinir və Allahından razı idi. O, özlüyündə fikirləşir ki, mənim cihada getməməyim heç insafdan deyil. Nəyə görə belə bir səadəti əldən verməliyəm? Qohum-əqrabası onun döyüşə getməsinə mane olmağa çalışsa da özü gedəcəyinə israr edirdi. Peyğəmbərin(s) hüzuruna gəlib deyir ki, ya Rəsuləllah, qohumlarım cihada getməyimə mane olurlar, siz nə buyurursunuz? Mən şəhid olmaq istəyirəm, Cənnətə qovuşmaq arzusundayam. Həzrət ona buyurur ki, Allah sizə cihadı vacib etməyib,(qoca olduğuna görə) üzrlüsən.» Əmr ibn Cəmuhun cihada getməkdə israrlı olduğunu görən Peyğəmbər(s) onun qohumlarına buyurur ki, ona mane olmayın, qoyun İslam uğrunda şəhadət şərbətini dadsın!

Əmr ibn Cəmuh evindən çıxarkən dua edərək deyir: «İlahi, Sənin yolunda ölməyi mənə nəsib elə və məni bir daha evimə qaytarma!» O,

---

[1] Sireyi İbn Hişam, c-2, s-65

Ühüd döyüşündə böyük canfəşanlıq göstərir. Axsaya-axsaya hücuma keçib deyirdi ki, mən Cənnət arzusundayam. Oğlanlarından biri daim onun ardınca hərəkət edirdi. Ata-bala şəhid olana qədər döyüşürlər. Üstəlik Əmrin Abdullah adlı digər bir oğlu da şəhid olur.[1]

Hənzələ 23-25 yaşlarında gənc bir oğlan idi. Atası Əbu Amir, Peyğəmbərin(s) qatı düşmənlərindən idi. Ühüd döyüşündə Qüreyş ordusunda iştirak edirdi. Müşrikləri Peyğəmbərə qarşı təhrik edənlərdən olmuşdur. Ömrünün sonuna kimi İslama qarşı düşmənçiliyindən əl çəkməmişdir. Zirar məscidinin təməlini qoyanlardan biri olmuşdur.

Atasının düşmən sıralarında olması Hənzələni cihada getməkdən yayındırmır. Təsadifən müsəlmanların Ühüdə gedən gün Hənzələnin toyu idi. O, Abdullah ibn Übeyyin qızını almışdı. Carçı müsəlmanları cihada səslədikdə Hənzələ çıxılmaz vəziyyətdə qalır. Heç olmasa toy gecəsini gərdəkdə qalmaq üçün Peyğəmbərdən(s) icazə almaq istəyir. Əllamə Məclisinin nəql etdiyinə əsasən aşağıdakı ayə məhz Hənzələnin barəsində nazil olmuşdur: «Həqiqətən, möminlər ancaq Allaha və Onun Peyğəmbərinə iman gətirən ümumi bir iş (cihad, məsləhət-məşvərət) üçün Peyğəmbərlə bir yerdə olduqda ondan izn almamış bir yerə getməyən kimsələrdir! (Ya Rəsulum!) səndən izn istəyənlər-məhz beləleri Allaha və Onun Peyğəmbərinə inananlardır. Əgər onlar bəzi işlər üçün səndən izn istəsələr, onlardan özün istədiyinə (yanından getməyə) izn ver və onlar üçün Allahdan bağışlanma dilə. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!»[2] [3]

Peyğəmbər(s) toy gecəsini Mədinədə qalmaq üçün Hənzələyə bir günlük icazə verir. Səhər tezdən Hənzələ bəy otağından çıxıb heç cənabət qüslü də almadan döyüş meydanına tələsir. Evdən çıxarkən təzə gəlinin gözləri dolur, qollarını ərinin boynuna salıb bir qədər yubanmasını xahiş edir. Gəlin tez gedib müəyyən səbəblər üzündən Mədinədə qalmış dörd kişi çağıraraq onlara deyir: «Şahid olun ki, dünən gecə ərim mənimlə yaxınlıq etmişdir.» (Onun məqsədi bu idi ki,

[1] Sireyi İbn Hişam, c-2, s-9
[2] Nur-62
[3] Biharul-ənvar, c-20, s-57

əri şəhid olarsa və özü hamilə qalarsa, onu zinakarlıqda ittiham etməsinlər.)

Hənzələ evdən çıxan kimi həyat yoldaşı dörd nəfər şahidə deyir: «Axşam yuxuda gördüm ki, göy aralanır, ərim oraya daxil olur. Sonra göy yenidən birləşir. Ürəyimə damıb ki, ərim şəhadət şərbətini dadacaq və ruhu göyə yüksələcək.»

Hənzələ orduya qoşulub döyüşə başlayır. Döyüşün qızğın çağında birdən gözü Əbu Süfyana sataşır. O, hücuma keçib bir zərbə endirsə də qılıncı atın belinə dəyir və Əbu Süfyan atdan yıxılır. Qüreyş ordusundan tez bir nəfər irəli şığıyıb nizəsini Hənzələnin qarnına sancır. Hənzələ nizəni bədənindən çıxartmamış onu təqib edib qətlə yetirir. Sonra həmin nizə nəticəsində özü də şəhid olur. Döyüşdən sonra Peyğəmbər(s) onun barəsində belə buyurur: «Mələklərin Hənzələyə qüsl verdiyini gördüm.» Buna görə də o «qəsilül-məlaikə» yəni, mələklərin qüsl verdiyi şəxs adlandırılır.

Ovs qəbiləsindən olanlar öz üstünlüklərini sayarkən onu da əlavə edib deyirdilər ki, mələklərin qüsl verdiyi Hənzələ də bizdəndir.

Əbu Süfyan deyərmiş ki, müsəlmanlar Bədr döyüşündə oğlum Hənzəlini öldürsələr də biz də Ühüddə onların Hənzəlisini öldürdük.

Bir günlük bu ərlə-arvadın vəziyyəti çox maraqlı olmuşdur. Belə ki, özləri haqq yolunun fədailəri olduqları halda ataları İslam düşmənlərindən olmuşlar. Bəyin atası Əbu Amir Cahiliyyət dövründə rahiblik etmiş, Peyğəmbər(s) Mədinəyə hicrət etdikdən sonra Məkkə müşriklərinə qoşulmuş, hətta Bizans imperatoru Heraklı İslama qarşı təhrik etmişdir.[1]

### *Müsəlman və müşrik ordusunun qarşılaşması*

Şəvval ayının yeddisi səhər tezdən İslam ordusu təcavüzkar Qüreyş ordusunun qarşısında dayanır. Müsəlmanlar elə bir yerdə mövqe seçirlər ki, Ühüd dağı arxada qalır. Bu, təbii bir üstünlük sayılırdı. Lakin dağın ortasında bir yarıq var idi və düşmən dağı fırlanıb həmin yarıqdan keçərək müsəlmanlara arxadan hücum edə bilərdi. Bu

[1] Usdul-qabə, c-2, s-59; Biharul-ənvar, c-20, s-57

təhlükənin qarşısını almaq məqsədilə Peyğəmbər(s) iki oxatan dəstəsi təyin edib onları həmin yarığın qarşısındakı təpənin üstündə yerləşdirir. Oxatanların başçısı Abdullah ibn Cübeyrə buyurur: «Buraya yaxınlaşacağı təqdirdə düşmənə ox atmaqla onları buradan uzaqlaşdırın. Qoymayın arxadan bizə hücum etsinlər. Döyüşün gedişatında biz qalib gəlsək də, məğlub olsaq da, siz yerinizdən tərpənməyin!»

Döyüş başladıqdan sonra həmin yarığın çox əhəmiyyətli bir dəhliz olduğu məlum olur. Müsəlmanların qazanılmış qələbəni əldən verməsinin də səbəbi məhz bu idi ki, oxatanlar həmin mövqeyi boşaldırlar. Məğlubiyyətə uğrayan düşmən isə Ühüd dağını fırlanaraq həmin mövqedən keçib müsəlmanları arxadan yaxalayır.

Peyğəmbərin(s) oxatanlara dağdakı yarığı boş qoymamalarına təhrik etməsi o həzrətin döyüş taktikalarına çox gözəl şəkildə bələd olmasından xəbər verir. Döyüşü qalib bitirməyin ən əsas şərti isə komandanın döyüş taktikalarını bilməsi yox, döyüşçülərə verilən tapşırığın öhdəsindən gəlməkdir.

***Döyüşçülərdə mübarizə ruhiyyəsini yüksəltmək***

Peyğəmbər(s) döyüşlərdə döyüşçülərin psixoloji durumunu həmişə diqqət mərkəzində saxlayırdı. Bu baxımdan Ühüd döyüşü də istisna edilmir. 3000 nəfərə qarşı döyüşən 700 nəfərlik ordu üçün Peyğəmbər(s) xütbə oxumaqla onların ruhiyyəsini yüksəldir. Böyük İslam tarixçisi Vaqidi yazır: «Peyğəmbər(s) Eyneyn dəhlizinə 50 oxatan yerləşdirir. Ühüd dağı müsəlmanların arxasında, Mədinə isə qarşılarında qalmışdı. Bütün sərkərdələrin yerini təyin etdi. Bəzi dəstələri önə, bəzilərini geriyə çəkir. O, sıraları tənzimləyərkən o qədər dəqiq idi ki, döyüşçülərdən birinin çiyni bir qədər irəli çıxsaydı, onu geriyə çəkirdi. Peyğəmbər(s) sıraları nizamladıqdan sonra buyurur: «Sizi Allahın mənə əmr etdiyinə dəvət edirəm: Allaha itaət edin, ona asi çıxmayın.» Düşmənlə vuruşmaq çətindir, zəhmət tələb edir. Çox az adam düşmənə müqavimət göstərə bilir. Allahın hidayət etdiyi şəxslər düşmənə müqavimət göstərir. Çünki Allah ona itaət edənlərlədir. Şeytan isə Allaha asi çıxanlarladır. Hər şeydən çox cihadda dözümlü olmaq

lazımdır. Bu yolla Allahın sizin üçün nəzərdə tutduğu səadətə çatın! Cəbrail mənə xəbər verib ki, bu dünyada heç kəs onun üçün nəzərdə tutulan son ruzini yemədən ölməz… Döyüş əmri verilməyincə kimsə hücüma keçməsin!»[1]

***Düşmən ordusunun hazırlığı***

Əbu Süfyan ordunu üç hissəyə bölür. Bir hissəsi zirehli piyadalar. Onlar ordunun düz ortasında yerləşdirilir. İkinci hissə –ordunun sağ tərəfi Xalid ibn Vəlidə, üçüncü hissə-ordunun sol tərəfi isə Əkrəməyə tapşırılır. Xüsusi bir dəstə isə ordunun lap önündə gedənlər idi. Onların işi bayraq tutmaq idi. Bayraq tutanların hamısı Bəni-Əbdüddar tayfasından idi. Əbu Süfyan onlara deyir: «Ordunun ayaq üstə qalması sizin dözümünüzdən asılıdır. Biz Bədrdə bu sahədə uduzduq. İndi əgər Bəni-Əbdüddarlılar bayrağı saxlamağı bacarmasalar, bundan sonra bu şərəf başqa tayfaya nəsib olacaq.» Əbu Süfyanın bu sözü Qüreyşin ilk bayraqdarı olan Təlhə ibn Əbu Təlhəyə çox pis təsir etdiyindən, o, irəli çıxıb döyüşçü tələb edir.

***Psixoloji sahədə ruhlandırma***

Döyüş başlamazdan qabaq Peyğəmbər(s) əlinə bir qılınc alıb döyüşçüləri həvəsləndirmək üçün buyurur ki, bu qılıncın haqqını kim ödəyə bilər? Bir neçə nəfər ayağa qalxsa da həzrət qılıncı onlara vermir. Sonra Əbu Dəcanə ayağa qalxaraq soruşur ki, ya Rəsuləllah, bu qılıncın haqqı nədir və həmin haqqı necə ödəmək olar? Həzrət buyurur: «Onun haqqı odur ki, qılınc əyilənədək vuruşasan.» Əbu Dəcanə bildirir ki, mən onun haqqını ödəməyə hazıram. O, «ölüm dəsmalı» adlandırdığı qırmızı dəsmalını alnına bağlayıb qılıncı Peyğəmbərdən(s) alır. O, nə vaxt bu dəsmalı bağlayardısa, o demək idi ki, deməli, nə qədər bədənində can var, vuruşacaq. Əbu Dəcanə məğrur pələng kimi yol gedir, ona nəsib olmuş şərəfdən çox məmnun idi. Alnındakı qırmızı dəsmal isə əzəmətini daha da artırırdı.[2]

Haqq uğrunda mübarizə aparan bir ordu üçün bundan gözəl həvəsləndirici amil ola bilməz. Peyğəmbər(s) bu hərəkəti ilə təkcə Əbu

---

[1] Məğazi Vaqidi, c-1, s-221-222

[2] Sireyi İbn Hişam, c-2, s-66

Dəcanəni deyil, bütün döyüşçüləri ruhlandırır və onlara başa salır ki, hamı bu şərəfə nail olmağa can atmalıdır. Zübeyr ibn Əvvam çox cəsarətli döyüşçülərdən biri idi. Peyğəmbər(s) qılıncı ona vermədiyi üçün narahat olan Zübeyr Əbu Dəcanənin hərəkətlərini izləmək məqsədilə onu təqib etməyə başlayır. O deyir: «Meydanda Əbu Dəcanənin ardınca düşmüşdüm. Heç kim onun qarşısına çıxa bilmirdi. Bütün rəqiblərini yerə sərirdi. Kafirlərdən bir nəfər sürətlə müsəlman yaralılarının başını bədənindən ayırırdı. Mən bu hadisədən çox əndişələndim. Xoşbəxtlikdən Əbu Dəcanə onunla üz-üzə gəldi. Bir neçə qarşılıqlı zərbədən sonra həmin kafir Cəhənnəmə vasil olur.» Əbu Dəcanə deyir: «Qüreyş ordusunu vuruşmağa təhrik edən bir nəfəri gördüm. Dərhal ona doğru tələsdim. Qılıncımı başı üzərində hiss etdikdə möhkəm qışqırdı. Birdən onun Əbu Süfyanın arvadı Hind olduğunu sezdim. Peyğəmbər(s) verdiyi qılıncı onun kimi alçaq adamın qanına bulaşmağa rəva görmədim.»[1]

***Döyüşün başlanması***

Döyüşü Mədinədən köçüb Məkkə müşriklərinə qoşulmuş Əbu Amir (Hənzələnin atası) başlayır. O, Ovs qəbiləsindən idi və İslam dininə olan düşmənçiliyinə görə Məkkəyə köçür. Gedərkən on beş nəfər də ona qoşulur. O, belə təsəvvür edirdi ki, Ovs qəbiləsindən olanlar döyüşdə onu görsələr, Mühəmmədi müdafiə etməkdən əl çəkərlər. Buna görə də döyüşü ilk olaraq o başlayır. Ancaq müsəlmanlarla üzləşdikdə onların tənə-tənqidlərinə tuş gəlir. Bir qədər döyüşdükdən sonra döyüş meydanından uzaqlaşır.[2]

Ühüd döyüşündə bir neçə döyüşçünün fəallığını tarixçilər xüsusi vurğulamışlar. Onların da arasında Əlinin(ə) canfəşanlığı daha çox təqdirəlayiqdir. İbn Abbas deyir: «Bütün döyüşlərdə İslam ordusunun bayrağını Əli tuturdu. Ümumiyyətlə bayrağı həmişə igid və cəsarətli adama verirdilər. Əksər tarixçilər bildirirlər ki, Ühüd döyüşündə də ilk bayraqdar Müsəb ibn Ümeyrin şəhid olmasından sonra Peğəmbər(s) bayrağı Əliyə verir. Bayrağın daha öncə Müsəbə verilməsi isə onun da

---

[1] Sireyi İbn Hişam, c-2, s-68-69

[2] Sireyi İbn Hişam, c-2, s-12

Qüreyş ordusunun bayraqdarları kimi Bəni-Əbdüddar tayfasından olması ilə əlaqədardır.[1]

Qüreyş ordusunda bayraqdar olan Təlhə ibn Əbu Təlhə (onu döyüş meydanının qoçu adlandırırdılar) irəli çıxıb deyir: «Ey Mühəmmədin tərəfdarları! Siz deyirsiniz ki, bizim ölənlərimiz Cəhənnəmə, sizinkilər isə Cənnətə gedir. Aranızdan kimisə Cənnətə göndərməyimi arzulayan varmı? Və yaxud kimsə məni Cəhənnəmə göndərmək istəyirmi?» Onun səsi əks-səda verərək bütün döyüş meydanına yayılırdı. Əli(ə) irəli çıxıb onunla döyüşməyə başlayır. Bir qədər sonra Təlhə, Əlinın qılıncının zərbəsi nəticəsində yerdə çabalayırdı.

Təlhədən sonra Qüreyş bayrağını ardıcıl olaraq onun iki qardaşı götürür və hər ikisi  Asim ibn Sabitin atdığı oxlarla qətlə yetirilir.

İkinci xəlifənin ölümündən sonra təşkil edilmiş şurada Əmirəl-möminin Əlinin(ə) buyurduqlarından belə başa düşülür ki, Ühüd döyüşündə Qüreyş ordusunun bayrağını götürmək doqquz nəfərə tapşırılmışdı. Onlar bir-birinin ardınca bayrağı qorumalı idilər. Onların hamısı Bəni-Əbdüddardan idilər. Doqquz bayraqdarın doqquzunu da Əli qətlə yetirir. Son bayraqdar da öldükdən sonra iri əndamlı qara qul Səvəb Həbəşi bayrağı əlinə götürüb rəqib tələb edir. Əli(ə) onu da Cəhənnəmə vasil edir.

Əli(ə) böyük səhabələrin də iştirak etdiyi yığıncaqda onlara müraciət edərək buyurur: «Yadınızdadırmı Ühüd döyüşündə Qüreyş bayrağını bir-birinin ardınca götürüb rəqib tələb edən və hamısı Bəni-Əbdüddardan olan doqquz cəngavəri qətlə yetirdim.?» Məclisdəkilərin hamısı o həzrəti təsdiq edir. Həzrət yenidən buyurur: «O da yadınıza gəlirmi ki, həmin doqquz nəfərin ardınca Səvəb Həbəşi bayrağı götürüb irəli çıxır? Onun Peyğəmbəri öldürməkdən başqa məqsədi yox idi. O qədər əsəbləşmişdi ki, ağzı köpüklənmiş, gözləri qızarmışdı. Onu gördükdə hamınız qorxub geri çəkildiniz, mən isə irəli çıxıb ona möhkəm bir zərbə endirərək qətlə yetirdim. Bunları xatırlayırsınızmı?» Məclisdəkilər bir daha onu təsdiqləyir.[2]

---

[1] Əl-İrşad, s-43

[2] Biharul-ənvar, c-20, s- 51

***Şəhvani istəkləri uğrunda döyüşən ordu***

Hind və digər qadınlar Qüreyş ordusunu həvəsləndirmək üçün mahnılar, şerlər oxuyur, dəf çalırdılar. Onların oxuduqlarından məlum olur ki, Qüreyş ordusu mənəviyyat, əqidə, azadlıq, əxlaqi dəyərlər üçün vuruşmurdu. Onlar yalnız və yalnız maddi, şəhvani istəkləri üçün döyüşürdü. Qadınlar döyüşçülərin cərgəsi arasında dayanıb oxuyurdular:

**Biz qiymətli xalçalar üzərində gəzən Tariq qızlarıyıq**
**Düşmənlə vuruşsanız, sizinlə yatağa girəcək,**
**Düşmənə arxa çevirsəniz, sizdən üz döndərəcəyik**

Məlum məsələdir ki, sırf şəhvət hissləri xatirinə döyüşən ordunu mənəviyyat, müqəddəs amal uğrunda meydana girən ordu ilə müqayisə etmək doğru olmaz. İki müxtəlif əqidəli ordu arasındakı bu fərq nəticəsində çox çəkmir ki, İslam ordusunun Əli, Həmzə, Əbu Dəcanə, Zübeyr və s. sərkərdələrin sayəsində Qüreyş ordusu bütün azuqəsini atıb qaçmağa başlayır. Beləliklə də İslam ordusu daha bir iftixar qazanır.[1]

***İtirilmiş qələbə***

İslam ordusu ona görə qalib gəldi ki, döyüşçülərin Allah yolunda cihad etməkdən başqa fikirləri yox idi. Qələbədən sonra məğlubiyyətə uğramalarının səbəbi isə o oldu ki, əksər müsəlman döyüşçülərin niyyəti dəyişir, qaçmaqda olan Qüreyş döyüşçülərinin qoyub getdiyi qəniməti toplamaq həvəsi müsəlmanları cihad fikrindən yayındırır. Vəziyyət o yerə gəlib çatır ki, Peyğəmbərin(s) də sözünə məhəl qoyulmur.

Ühüd məntəqəsinin coğrafi mövqeyi haqqında danışarkən qeyd etdik ki, Ühüd dağının ortasında bir dəhliz var idi. Peyğəmbər(s) hələ döyüş başlamazdan qabaq Abbullah ibn Cübeyrin başçılığı altında 50 nəfər oxatana həmin dəhlizi qorumağı tapşıraraq buyurur ki, biz qalib də gəlsək, məğlub da olsaq, buranı tərk etməyin. Döyüşün qızğın çağında düşmən bir neçə dəfə həmin dəhlizdən keçməyə cəhd göstərmiş, lakin oxatanların müqaviməti ilə rastlaşmışdı.

---

[1] Sireyi İbn Hişam, c-2, s-68; Tarixi Təbəri, c-2, s-194

Qüreyş ordusu silah-sursatını atıb qaçmağa başladıqda çox nadir sayda müsəlman döyüşçüsü onları izləyir. Əksəriyyəti isə döyüş qəniməti toplamaqla məşğul olur. Onlar artıq döyüşün başa çatdığını düşünürdülər.

Dağdakı dəhlizi qoruyanlar da fürsətdən istifadə edib qənimət toplamağa enmək istəyirlər. Onlar deyirlər ki, bizim burada qalmağımızın daha heç bir mənası yoxdur, yaxşısı budur aşağı enib biz də qənimət toplayaq. Başçıları onlara Peyğəmbərin(s) sözünü xatırladaraq deyir ki, müsəlmanlar qalib də gəlsə, məğlub da olsa biz buranı tərk etməməliyik.

Oxatanların əksəriyyəti Abdullah ibn Cübeyrin dediklərinə məhəl qoymayıb bildirir ki, onsuz da burada qalmağımız mənasızdır. Peyğəmbərin(s) məqsədi o idi ki, biz döyüş vaxtı buranı tərk etməyək. İndi isə döyüş artıq başa çatıb. Bunu deyib əlli oxatandan qırxı yerini tərk edir. Dəhlizin başında cəmi on nəfər qalır.

Böyük sərkərdələrdən sayılan Xalid ibn Vəlid çox yaxşı bilirdi ki, dağdakı dəhliz qələbənin açarıdır. Bir neçə dəfə oradan keçmək istəsə də oxatanların səyi nəticəsində geri çəkilməyə məcbur olmuşdu. İndi isə dəhlizdəki oxatanların azlığından istifadə edərək döyüşçülərini dəhlizə doğru gətirir. Hücum edib müsəlmanların arxasına keçir. Dəhlizdə qalan on oxatanın müqaviməti bir fayda vermir. Xalid ibn Vəlidlə Əkrəmə ibn Əbu Cəhlin döyüşçüləri on nəfərin hamısı qətlə yetirir. Çox çəkmir ki, silahsız müsəlmanlar arxadan silahlı düşmənin hücumuna məruz qalır.

Xalid ibn Vəlid əsas strateji nöqtəni ələ keçirdikdən sonra qaçmaqda olan məğlub Qüreyş ordusunu yenidən döyüşə dəvət edir. Fəryad, nərə çəkməklə onlara ruh yüksəkliyi aşılayır.

Bu məğlubiyyətin səbəbkarı dünya malından ötrü döyüş səngərini boşaldıb heç özləri də bilmədən düşmənə yol açan şəxslər idilər. Belə ki, dəhlizin boşalması nəticəsində Xalid ibn Vəlidin tabeçiliyində olan Qüreyş süvariləri müsəlmanları arxadan yaxalayır.

Xalid ibn Vəlidə Əkrəmə ibn Əbu Cəhl də dəstək verir. Həmin anda müsəlmanlar arasında misli görünməmiş pərakəndəlik yaranmışdı. Müsəlmanlar müxtəlif dəstələrə bölünüb müdafiə olunmaqdan başqa

çıxış yolu görmürlər. Lakin baş komandanlıqla əlaqə kəsildiyinə görə bunun da elə bir faydası olmur. Müsəlmanlar böyük itkilərlə üzləşir. Hətta bir neçə müsəlman döyüşçüsü diqqətsizlik üzündən elə müsəlmanlar tərəfindən qətlə yetirilir.

Xalidlə Əkrəmənin hücumları Qüreyş ordusuna inamı qaytarır. Qaçmaqda olan ordu indi yenidən hücuma keçmişdi. İndi müsəlmanlar hər tərəfdən qüreyşlilərin əhatəsində idi və bir çoxları artıq qətlə yetirilmişdi.

***Peyğəmbərin(s) öldürülməsi şayiəsi***

Qüreyş cəngavərlərindən olan Leysi İslam ordusunun bayraqdarı Müsəb ibn Ümeyrə hücum edir. Aralarındakı gərgin döyüşdən sonra Müsəb şəhid olur. Döyüşdə müsəlman döyüşçülərin üzü örtülü olduğundan, Leysi qətlə yetirdiyi şəxsin Mühəmməd(s) olduğunu düşünüb ixtiyarsız olaraq fəryad edir ki, Mühəmməd öldürüldü. Bu şayiə Qüreyş ordusunda ağızdan ağıza gəzir. Qüreyş başçıları o qədər sevincək olmuşdular ki, səsləri bütün meydanı bürümüşdü. Hamı bir ağızdan: «Mühəmməd öldürüldü»-deyə fəryad edirdi.

Bu əsassız şayiənin yayılması Qüreyş ordusunu coşdurub hərəkətə gətirir. Hamı Mühəmmədin əzalarını kəsməyə can atır və bu yolla şirk dünyasında adını tarixə salmaq istəyirdi.

Peyğəmbərin(s) öldürülməsi şayiəsi müşriklərin ruhiyyəsini yüksəltdisə, müsəlmanların da ruhiyyəsini zəiflədir. İndi müsəlmanların böyük əksəriyyəti döyüşdən kənarlaşıb dağa çəkilmişdi. Yalnız cüzi sayda müsəlman döyüş meydanında qalmışdı.

***Bəzilərinin döyüş meydanından qaçmasını inkar etmək olmaz***

Müsəlman ordusunda bəzi səhabələrin döyüşdən qaçması inkar olunmaz bir həqiqətdir.

Onların sonradan müsəlmanlar arasında yüksək vəzifələrə yüksəlməsi də bu acı tarixi həqiqəti inkar etməyə əsas vermir. Böyük İslam tarixçisi İbn Hişam yazır: «Ənəs ibn Malikin əmisi Ənəs ibn Nəzr deyir ki, müsəlmanlar Qüreyşin hücumuna məruz qalib Peyğəmbərin(s) öldürüldüyü şayiəsi yayıldıqda müsəlmanların çoxu öz canının hayına

qalmış və hərə bir tərəfə çəkilmişdi. Bir dəstə mühacirlə ənsarın bir kənarda oturub özlərini fikirləşdiyini gördüm. Açıqlı şəkildə onlardan soruşdum ki, nəyə görə burada oturmusunuz? Cavab verdilər ki, Peyğəmbər öldürülüb, daha döyüşməyin mənası yoxdur. Dedim ki, Peyğəmbər öldürülüb və daha heç yaşamağın da mənası yoxdur. Qalxın siz də onun öldürüldüyü əqidə uğrunda şəhid olun!»[1]

Bir çox tarixçilər Ənəs ibn Nəzrin həmin vaxt belə dediyini yazmışdır: «Mühəmməd öldürülsə də Mühəmmədin Allahı ki sağdır. Sözümün onlara təsir etmədiyini görüb özüm əlimə silah götürərək döyüşməyə başladım.»

İbn Hişam yazır: «Ühüd döyüşündə Ənəsə yetmiş yerdən zərbə dəyir. Onun nəşini bacısından başqa heç kəs tanımır. Müsəlmanlardan bəzisi o qədər yorulmuşdu ki, canını qurtarmaqdan ötrü Abdullah ibn Übeyyə sığınmaq istəyirdi ki, Əbü Süfyandan onun üçün aman alsın.»[2]

***Quran bəzi həqiqətləri üzə çıxarır***

Qurani-Kərim cəhalət və təəssübkeşlik pərdələrini yırtaraq açıq şəkildə bildirir ki, bəzi səhabələr Peyğəmbərin(s) qələbə barədə verdiyi vədlərin əsassız olduğunu düşünürdülər. Onların barəsində Quran belə buyurur: ***«O biri qisminiz isə ancaq öz canlarının harayına qalaraq: «Bu işdə bizim üçün bir şey (xeyir) varmı?»-deyə Allaha qarşı haqsız yerə, cahiliyyətə xas olan düşüncələrə qapıldılar…»***[3]

Ali-İmran surəsinin 121-180-ci ayələri Ühüd döyüşü ilə bağlı bir çox həqiqətlərə aydınlıq gətirir. Ayələr şiə məzhəbinin səhabələr haqqındakı fikrinin doğru olduğunu göstərir. Şiələr belə hesab edirlər ki, Peyğəmbərin(s) heç də bütün səhabələri sidq ürəkdən mömin olmamış, aralarında zəif əqidəli, hətta münafiqlər də olmuşdur. Lakin bir çox müəlliflər Ühüd döyüşündə baş vermiş faktlar kimi bəzi həqiqətlərin üstünü örtməyə çalışaraq bütün səhabələrin üstün olduğunu qələmə vermək istəyir. Ancaq bir şeyi yaddan çıxarmamalıyıq ki, biz istəsək də, istəməsək də fakt faktlığında qalır. Məsələn, aşağıdakı ayənin

[1] Sireyi İbn Hişam, c-2, s-83
[2] Əl-Kamilu fit-tarix, c-2, s-109
[3] Ali - İmran-154

məzmununu kim dəyişə bilər: ***«Siz (düşməndən qaçaraq dağa) qalxdınız və Peyğəmbər arxa tərəfdən sizi çağırarkən heç kəsə baxmadığınız zaman Allah sizi qəminizin üstünə qəm qoymaqla cəzalandırdı…»***[1] Bu ayə Ənəs ibn Nəzrin öz gözləri ilə qaçaraq bir kənarda oturub gələcəklərini düşündüklərini görən kəslər haqqında nazil olmuşdur. Aşağıdakı ayə daha açıq şəkildə buyurur: «(Ühüd müharibəsində) iki ordu qarşılaşdığı gün sizdən üz döndərənləri şeytan yalnız etdikləri bəzi əməllərlə (Peyğəmbərin əmrinə asi olmaqla) yoldan çıxmağa məcbur etdi. Allah artıq onları bağışladı. Həqiqətən, Allah bağışlayandır, həlimdir!»[2] Digər bir ayə isə Peyğəmbərin(s) öldürülməsi şayiəsini bəhanə edib döyüşdən əl çəkən və Abdulah ibn Übeyyin vasitəsilə Əbu Süfyandan aman almaq fikrində olanları danlayır: ***«Mühəmməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib getmişlər. Əgər o ölsə və ya öldürülsə, siz gerimi dönəcəksiniz? (Dininizdən dönəcək və ya döyüşdən qaçacaqsınız?) Halbuki, geri dönən şəxs Allaha heç bir zərər yetirməz. Lakin Allah şükr edənlərə mükafat verər.»***[3]

*Acı xatirələr*

Ühüd döyüşündə baş verən hadisələri mütaliə etdikdə acılı-şirinli xatirələrin, təcrübələrin şahidi oluruq və bir dəstənin son ana qədər sabitqədəm olduğunu, digər dəstənin isə sonadək vuruşmayıb döyüş meydanından qaçdığını öyrənirik. Bu tarixi hadisələrə diqqət yetirdikdə məlum olur ki, bütün müsəlmanları Peyğəmbərin(s) səhabəsi olub deyə, eyni tuta və təqvalı, ədalətli hesab edə bilmərik. Dağdakı dəhlizi buraxıb qənimət ardınca gedənlər də, ən çətin məqamda Peyğəmbəri atıb dağın başına qalxan, həzrətin çağırışlarına məhəl qoymayanlar da səhabə idi: Böyük İslam tarixçisi Vaqidi yazır: «Ühüd günü cəmi səkkiz nəfər Peyğəmbəri son ana qədər qorudu. Onlardan üçü mücahir (Əli, Təlhə, Zübeyr), beşi isə ənsardan idi. Səkkiz nəfərdən başqa hamı qaçmışdı.»

İbn Əbilhədid yazır: «Hicri 608-ci ildə Bağdadda Vaqidinin əl-Məğazi kitabını böyük ustad Məhəmməd ibn Muidd Ələvinin yanında

---

[1] Ali-İmran-153
[2] Ali-İmran-155
[3] Ali-İmran-144

oxuyurdum. Orada belə bir yerə çatdıq ki, Məhəmməd ibn Məsləmə açıq şəkildə belə nəql edir: «Ühüd günü öz gözlərimlə gördüm ki, müsəlmanlar qaçıb dağa qalxırdılar. Peyğəmbər(s) onları adları ilə çağırıb deyirdi ki, filankəs, bura gəl. Lakin heç biri o həzrətin çağırışına müsbət cavab vermirdi.»[1]

Bir qədər sonra İslamın fədakar qadınlarından olan Nüseybənin döyüş meydanında Peyğəmbəri(s) necə müdafiə etməsi barədə danışacağıq. Onun barəsində həzrətin buyurduğu cümlə dolayısı ilə də olsa, qaçanların şəxsiyyətini alçaldır. Biz Peyğəmbərin hansısa səhabəsinə qarşı şəxsi-qərəzlik etmək fikrində deyilik. Sadəcə olaraq həqiqəti olduğu kimi çatdırmağa çalışırıq. Döyüş meydanından qaçanların hərəkətini pislədiyimiz kimi, sonadək meydanda qalıb döyüşənlərin də cəsarətini alqışlayırıq.

*Peyğəmbərin öldürülməsinə söz verilir*

Müsəlmanlar pərən-pərən düşüb dağılışdığı zaman Qüreyş ordusunun beş cəngavəri söz verirlər ki, nəyin bahasına olursa olsun, Peyğəmbəri öldürəcəklər. Bu beş nəfər aşağıdakılar olmuşdur.

1) Peyğəmbərin alnını yaralayan Abdullah ibn Şəhab

2) Dörd daş ataraq Peyğəmbərin sağ tərəfdəki azı dişini sındıran Ütbə ibn Əbu Vəqqas

3) İbn Qəmiə Leysi. Onun Peyğəmbərə(s) vurduğu zərbə nəticəsində həzrətin başındakı dəbilqənin halqaları üzünə girir. Onları Əbu Übeydə Cərrah dişləri ilə dartıb çıxarır. Həmin vaxt Əbu Übeydənin dörd dişi sınır.

4) Abdullah ibn Həmid. O, hücüm edən zaman Əbu Dəcanə tərəfindən öldürülür.

5) Übeyy ibn Xələf. O hücuma keçsə də Peyğəmbər(s) onun özünü öldürür. Belə ki, Peyğəmbər(s) artıq özünü dərəyə yetirmişdi. Səhabələrdən bir neçəsi həzrəti tanıyıb əhatəyə almışdı. Bu zaman Übeyy ibn Xələf həzrətə hücum edir. Peyğəmbər(s) tez Haris ibn Simmədən nizəsini alıb Übeyyin boynuna sancaraq onu atdan salır. Onun yarası

[1] Şərhi Nəhcül-bəlağə (İbn Əbilhədd), c-15, s-23-24

elə də ciddi deyildi. Dostları ona təskinlik versə də sakitləşmir və deyirdi: «Mən Məkkədə olan vaxt Mühəmmədə demişdim ki, səni öldürəcəyəm. O isə mənə demişdi ki, yox, mən səni öldürəcəyəm. O, heç vaxt yalan danışmaz.» Doğrudan da Peyğəmbərin(s) vurduğu yüngül yara öz işini görür və Übeyy yolda ikən canını tapşırır.[1]

Görün Qüreyş müşrikləri necə axmaq, necə alçaq adamlar olublar ki, Peyğəmbərin düz danışan, heç vaxt yalan danışmayan olduğunu bildikləri halda yenə də ona qarşı çıxıb qanını tökmək istəyirdilər.

Peyğəmbər(s) həm dinini, həm də canını qoruyaraq meydanda dağ kimi dayanmışdı. Düşmənin məhz onun üstünə gəldiyini bildiyi və ölümün bir addımlığında olduğu halda qətiyyən təşvişə düşmür, qorxu, narahatlıq hiss edilən bircə kəlmə də işlətmir. Yalnız bircə dəfə alnının qanını silərkən təəssüf hissi ilə buyurur: «Öz peyğəmbərləri onları Allaha doğru çağırdığı halda onu qanına bulaşdıran camaat necə səadətə çata bilər?» Diqqət yetirin, Peyğəmbər(s) düşmənin də halına təəssüflənir və onların səadətə çatmasını arzulayır.

Əmirəl-möminin Əli(ə) buyurur: «Peyğəmbər(s) döyüş meydanında düşmənə hamımızdan yaxın idi. İşimiz dara düşən kimi ona sığınırdıq.» Deməli, Peyğəmbərin(s) sağ qalmasında əsas rolu özü oynamışdır. Düzdür, çox az sayda səhabələr də o həzrəti son ana qədər qorumuş və ölümün çəngindən qurtarmışdır.

Peyğəmbər(s) Ühüd günü çox vuruşur. Əlindəki bütün oxlarını atır, hətta kamanı və zirehi də sınır.[2]

Peyğəmbəri qoruyan səhabələr elə də çox olmamışdır.[3] Tarixdə yalnız cüzi sayda şəxsin o həzrəti qoruduğu öz əksini tapmışdır ki, indi mövzunu məhz bu barədə davam etdiririk.

### *Növbəti qələbəni gətirən uğurlu müdafiə*

İslam tarixinin bu hissəsini başlıqdakı kimi adlandırsaq, yanılmarıq. Növbəti qələbə dedikdə kafirlərin düşündüyündən fərqli olaraq müsəlmanların Peyğəmbəri(s) ölümdən qoruya bilmələri nəzərdə

---

[1] Sireyi ibn Hişam, c-2, s-84; Məğazi Vaqidi, c-1, s-244
[2] Əl-Kamilu fit-tarix, c-2, s-107
[3] Şərhi Nəhcül-bəlağə, (İbn Əbilhədid), c-15, s-21

tutulur. Bu, sözün əsl mənasında qələbə demək idi. Bu qələbəni bütün orduya aid etməyimiz İslam mücahidlərinin hörmətini qorumaq naminədir. Əslində isə bu məsuliyyətin ağırlığı bir neçə nəfərin çiyninə düşmüşdür. Peyğəmbərin sağ qalıb İslam dövlətinin yaşamasının səbəbkarı canlarından keçmiş aşağıda adları çəkilənlər olmuşdur:

1) Döyüşdə son ana qədər vuruşan, çətin məqamlarda qorxub qaçmayan 26 yaşlı bu böyük sərkərdə uşaqlığından başlayaraq Peyğəmbərin(s) vəfatınadək onun yanında olmuşdur. Bu, Əmirəl-möminin Əli ibn Əbutalib idi. Onu İslamın inkişafı yolunda göstərdiyi fədakarlıqlar tarix səhifələrinin bəzəyinə çevrilmişdir. Döyüşün əvvəlində olduğu kimi sonra da Əli böyük qəhrəmanlıq nümayiş etdirir. Döyüşün əvvəlində Qüreyş ordusunun qaçmasının səbəbi o idi ki, bayraqdarları bir-birinin ardınca Əlinin zərbəsi ilə yerə sərilirdi. Bundan dəhşətə gələn müşriklər meydanda qalmağa özlərində güc tapmayıb qaçmağa başlayırlar.

Müasir Misir yazıçıları (söhbət İslam tarixi sahəsindən gedir) Əlinin haqqını layiqincəsinə ödəməmişlər. Onlar Əlinin igidliyini başqalarından heç fərqləndirməmişlər. Buna görə də Əlinin bəzi qəhrəmanlıqlarını qeyd etməyi lazım bilirik.

a) İbn Əsir yazır: «Müşriklər hər tərəfdən Peyğəmbərə hücüm edirlər. Həzrətin əmri ilə Əli hücüm çəkən dəstəyə tərəf yönəlib onları dağıdırdı. Bu hadisə Ühüddə bir neçə dəfə təkrarlanır. Bu zaman Cəbrail nazil olub Əlinin göstərdiyi qəhrəmanlığı tərifləyərək deyir ki, Əli son dərəcə igidlik göstərir. Peyğəmbər(s) Cəbrailin dediyini təstiqləyərək buyurur: «Mən Əlidənəm Əli də məndəndir.» Sonra döyüş meydanında belə bir səs eşidilirdi: «Zülfüqardan başqa qılınc, Əlidən başqa igid yoxdur.»[1]

İbn Əbilhədid yuxarıdakı əhvalatı daha ətraflı nəql edərək yazır: «Peyğəmbəri öldürmək üçün hücuma keçən hər dəstədə 50 nəfər var idi. Əli piyada olmasına baxmayaraq onları uzaqlaşdırırdı.» Cəbrailin nazil olmasını qeyd etdikdən sonra əlavə edir: «Bəli, bu tarixi bir faktdır. Mən Məhəmməd ibn İshaqın «Qəzəvat» (Döyüşlər) əsərində Cəbrailin nazil olduğunu özüm oxumuşam. Hətta bir gün ustadım Əbdülvəhhab

[1] Əl-Kamilu fit-tarix, c-2, s-107

Sükeynədən bu məsələnin doğru olub-olmadığını soruşdum. Bildirdi ki, bəli doğrudur. Dedim bəs onda nə üçün Səhih müəllifləri onu qeyd etməyiblər? Cavabında dedi ki, bir çox səhih hədislərimiz var ki, Səhih müəllifləri onlardan xəbərsizdir.»[1]

b) Əmirəl-möminin Əli(ə) səhabələrinin də iştirakı ilə yəhudilərin başçısı ilə etdiyi sohbətdə öz igidliyinə işarə edərək buyurur: «…Qüreyş ordusu hücuma keçərkən mühacir və ənsarın əksəriyyəti evlərinə doğru üz aldığı vaxt mən yetmiş yerdən yaralandığım halda Peyğəmbəri müdafiə etməyə başladım. Sonra o həzrət əlini yeri qalmış yaralarımın üstünə çəkdi.»[2]

Mərhum Şeyx Səduqun «İləluş-şəraye» kitabında yazdığına əsasən Əli(ə) Peyğəmbəri(s) müdafiə edərkən o qədər canfəşanlıq göstərir ki, qılıncı sınır. Peyğəmbər(s) öz qılıncı Zülfüqarı ona verir ki, cihadı davam etdirsin.

İbn Hişam Ühüd döyüşündə müşriklərdən 22 nəfərin öldüyünü yazaraq onlardan on ikisinin məhz Əli tərəfindən qətlə yetirildiyini bildirir. Qalan on nəfər isə digər müsəlmanlar tərəfindən öldürülmüşdür.[3]

Əlinin göstərdiyi igidliklər bununla bitmir və biz digər kitablarda, xüsusilə də Biharul-ənvarda[4] olduğu qədər bu məsələyə yer ayırmadıq. Lakin onu qeyd etməliyik ki, tarix və hədis mənbələrini araşdırdıqda Ühüd döyüşündə heç kimin Əli qədər sabitqədəm olmadığı məlum olur.

2) Əbu Dəcanə. Əlidən sonra Peyğəmbəri qoruyan ikinci şəxs məhz o olmuşdur. O, özünü Peyğəmbərə qalxan etmiş, oxlar kürəyinə dəyərək həzrətdən yan keçmişdir. Mərhum Sepehr Nasixut-təvarix əsərində onun barəsində bir əhvalat qeyd etmişdir. Biz həmin hadisənin mənbəyini tapmasaq da olduğu kimi qeyd edirik. Mərhum Sepehr yazır: «Peyğəmbərlə Əli müşriklərin mühasirəsinə düşdükdə Peyğəmbərin gözü Əbu Dəcanəyə sataşır. Həzrət ona buyurur: «Əbu Dəcanə, mən öz beyətimi səndən götürdüm, ancaq onu bil ki, Əli məndəndir, mən də

[1] Şərhi Nəhcül-Bəlağə (İbn Əbilhədid), c-14, s-251
[2] Əl-Xisal, c-1, s-368
[3] Sireyi İbn Hişam, c-2, s-81
[4] Biharul-ənvar, c-20 s-84

Əlidənəm.» Əbu Dəcanə hönkürtü ilə ağlamağa başlayıb deyir: «Başımı götürüb hara gedim? Arvadımın yanınamı gedim? Onsuz da öləcək. Evimə doğrumu gedim? Onsuz da dağılacaq. Mal-dövlət ardıncamı gedim? Onsuz da yox olub gedəcək. Yoxsa ölümdənmi qaçım? Gec-tez gəlib çatacaq. Peyğəmbər(s) Əbu Dəcanənin ağladığını görüb döyüşmək üçün ona icazə verir. O, Əli ilə birlikdə Peyğəmbəri(s) müşriklərin hücumlarından qoruyur.»[1]

Bəzi mənbələrdə Asim ibn Sabit, Səhl ibn Hüneyf, Təlhə ibn Übeydullah və qeyrilərinin də adı Peyğəmbəri qoruyanlar sırasında qeyd edilib. Hətta bəziləri həmin şəxslərin 36 nəfər olduğunu bildirmişdir. Lakin tarixdə qəti olan Əli, Əbu Dəcanə, Həmzə və Nüseybə (Ümmi Amir) adlı bir qadının həzrəti qorumasıdır.

3) Həmzə ibn Əbdülmüttəlib. Peyğəmbərin(s) əmisi Həmzə tanınmış ərəb və İslam cəngavərlərindən olmuşdur. O, Ühüd döyüşündə müsəlmanların Mədinədən çıxıb düşməni şəhərdən kənarda qarşılamağa təkid edirdi. Hələ hicrətdən qabaq Məkkədə ən çətin məqamlarda Peyğəmbəri dəstləkləyirdi. Peyğəmbəri(s) təhqir etdiyi üçün Əbu Cəhli sərt şəkildə danlayaraq başını yarmışdı. Onun qarşısına çıxmağa heç kim cürət etməzdi. Bədr döyüşündə Qüreyş qəhrəmanı Şeybə daxil bir neçə nəfəri cəhənnəmə vasil edən, bir o qədərini də yaralayan məhz Həmzə olmuşdur. Onun məqsədi yalnız və yalnız haqq uğrunda mübarizə idi.

Ütbənin qızı və Əbu Süfyanın arvadı Hindin ürəyində Həmzəyə qarşı böyük nifrət hissi var idi. O, nəyin bahasına olursa olsun, müsəlmanlardan atasının qisasını almağı planlaşdırırdı.

Cübeyr ibn Mütəmin nökəri Vəhşi, Hindin arzusunu icra etmək üçün nəzərdə tutulmuşdu. Hind Vəhşiyə demişdi ki, atasının qisasını almaq üçün Mühəmməd, Əli, ya da Həmzədən birini öldürməlidir. Vəhşi ona demişdi: «Mühəmmədə heç cür yaxınlaşa bilmərəm, çünki səhabələri onu hər tərəfdən əhatəyə alıb qoruyur. Əli də döyüş meydanında çox diqqətlidir. Həmzə isə döyüşərkən o qədər əsəbləşir ki, sağ-solunu görmür. Bir hiylə işlədib bəlkə onu öldürə bildim.» Hind buna razı olub Vəhşiyə söz verir ki, dediyini bacarsa, onu azad edəcək.

[1] Nasixut-təvarix, c-1, s-357

Bəzi tarixçilər isə belə hesab edirlər ki, Vəhşinin azad ediləcəyini söz verən şəxs Cübeyr (Vəhşinin öz ağası) olmuşdur. Çünki Cübeyrin əmisi də Bədrdə öldürülmüşdü.

Vəhşi deyir: «Ühüd günü Qüreyş hücum edən zaman mənim gözüm Həmzədə idi. O, şir kimi nərə çəkib özünü qoşunun arasına salır, qarşısına çıxanı qılıncdan keçirirdi. Özümü ağacların, qaya parçalarının arxasında gizlədirdim ki, məni görməsin. Başı döyüşə qarışdığı vaxt pusqudan çıxdım. Həbəş olduğuma görə atdığım nizələr nadir halda hədəfdən yayınırdı. Bir qədər də yaxınlaşıb nizəmi Həmzəyə tərəf tulladım. Nizə onun qarnından sancıldı. Mənə tərəf hücum etməyə çalışsa da nizənin ağrısından bacarmadı. Eləcə yıxılıb yerdə qaldı. Ehtiyatla ona tərəf getdim, nizəmi çıxarıb ordumuza doğru qayıdaraq azad ediləcəyimi gözləməyə başladım.

Müsəlmanlar Məkkəni fəth edənə qədər orada qaldım. Məkkənin fəthindən sonra Taifə getdim. Çox çəkmir ora da müsəlmanların əlinə keçir. Eşitmişdim ki, günahından, törətdiyi cinayətdən asılı olmayaraq tövbə edən şəxsi Peyğəmbər əfv edir. Kəlməyi-şəhadəti deyə-deyə Peyğəmbərin hüzuruna gəldim. Məni görəndə soruşdu ki, Vəhşi sənsənmi? Cavab verdim ki, bəli. Buyurdu: «Həmzəni necə öldürdün?» Hadisəni olduğu kimi ona danışdım. Çox kədərləndi, sonra da mənə buyurdu: «Nə qədər sağsan, gözümə görünmə! Çünki əmimi faciəli şəkildə qətlə yetirən sən olmusan.»

Peyğəmbər(s) onlarla əsasa görə Vəhşini edam edə biləcəyi halda onu bağışlayır. Bu, onun böyük ruhundan irəli gəlir. Böyük İslam peyğəmbəri belə bir ruhiyyəyə malik olmuşdur. Vəhşi deyir: «Nə qədər ki, peyğəmbər sağ idi, onun gözünə görünmədim. Onun vəfatından sonra Müseyləmeyi-Kəzzaba qarşı döyüşdə İslam ordusunda iştirak etdim. Həmzəni öldürdüyüm nizədən onun da ölümündə istifadə edib ənsardan bir nəfərin köməyi ilə Müseyləməni qətlə yetirdim. O nizə ilə ən yaxşı insanlardan olan Həmzəni öldürmüşdümsə, ən pis adam Müseyləməni də həlak etmişəm.»

Müseyləmeyi-Kəzzaba qarşı döyüşdə Vəhşinin iştirak etdiyini o özü iddia edir. İbn Hişam isə bunun tam əksini deyir. O yazır: «Vəhşi ömrünün sonlarında qara qarğaya oxşayırdı. Həddən artıq şərab

içdiyinə görə hamı ona nifrət edir və mütəmadi olaraq şərab cəzasi ilə cəzalandırılırdı. Pis əməllərinə görə adını ordu siyahısından da çıxartmışdılar. Ömər ibn Xəttab deyirdi ki, Həmzənin qatili axirətdə xoşbəxt olmamalıdır.»[1]

4) Nüseybə-Ümmi Amir. Hücum xarakterli cihad qadınlar üçün haramdır. Bu səbəbdən Mədinə qadınları tərəfdən bir nümayəndə Peyğəmbərin(s) hüzuruna gəlib bu hökmün fəlsəfəsi haqqında soruşur və etiraz edərək deyir ki, biz qadınlar ərlərimiz üçün hər şərait hazırlayırıq, onlar cihada gedə bilir, biz isə bu böyük savabdan məhrum oluruq. Peyğəmbər(s) onun simasında bütün qadınlara çatdıraraq buyurur: «Siz müəyyən ictimai və fitri səbəblərə görə cihadda iştirak etməkdən məhrum olsanız da, ərinizin qulluğunda durmaqla cihad savabını qazanmış olarsınız. Ərə layiqincə qulluq etmək Allah yolunda cihad etməyə bərabərdir.» Bununla belə bəzən təcrübəli qadınlar da İslam ordusuna qoşulurdu. Onlar su paylamaq, döyüşçülərin paltarlarını yumaq, yaralıların yarasını sarımaq kimi işləri görməklə müsəlmanlara kömək edir, qələbədə pay sahibi olurdular.

Nüseybə deyir: «Mən Ühüd günü döyüşçülərə su paylayırdım. Müsəlmanlar qələbənin bir addımlığında idi. Birdən vəziyyət tamam dəyişir, müsəlmanlar qaçmağa başlayırlar. Peyğəmbər təhlükə ilə üzbəüz idi. Onu müdafiə etməyi özümə borc bildim. Su tuluğunu yerə qoyub əlimə bir qılınc aldım. Döyüşə-döyüşə düşmən hücumlarını dəf edirdim. Bəzən qılıncı kənara qoyub ox atmağa başlayırdım. O an birdən çiynimdə ağrı hiss etdim. Müsəlmanların döyüşdən qaçdığı bir vaxtda Peyğəmbər(s) bir nəfərə deyir ki, indi ki qaçırsan, onda qalxanını qoy get. O da qalxanını yerə atıb qaçır. Mən onun qalxanını götürüb istifadə etdim. Bir də gördüm ki, İbn Qəmiə adlı bir kafir: «Mühəmməd haradadır?»-deyə fəryad edir. Peyğəmbəri tanıyıb dərhal üstünə hücum edir. Mən və Müsəb onun hücumunun qarşısını almağa çalışırdıq. Məni kənara itələmək üçün çiynimə ağır bir zərbə endirdi. Mən ona bir neçə zərbə vursam da təsir etmirdi. Sonra məlum oldu ki, əynində iki zirehi var imiş. Ancaq onun vurduğu zərbənin yeri bir il çiynimdə qaldı.

[1] Sireyi İbn Hişam, c-2, s-69-72

Çiynimdən aldığım yara çox ciddi idi. Qanımın axdığını görən Peyğəmbər(s) tez oğlanlarımdan bırini çağırtdırıb deyir ki, ananın yarasını bağla. Oğlum yaramı bağladıqdan sonra yenidən döyüşməyə başladım. Birdən oğlanlarımdan birinin yaralandığını gördüm. Dərhal yaralıların yarasını sarımaq üçün götürdüyüm parçalardan çıxarıb oğlumun yarasını bağladım. Həmin an Peyğəmbər(s) təhlükə ilə üz-üzə idi. Onu qorumaq üçün oğluma dedim ki, qalx döyüşü davam etdir!»

Peyğəmbər(s) bu qadının cəsarətinə heyran qalmışdı. Oğlunu yaralayan şəxsi görcək onu Nüseybəyə göstərir. Pərvanə kimi Peyğəmbərin(s) başına dolanan ana şir kimi onun üstünə hücum edib qıçına bir zərbə endirir. Peyğəmbər(s) onun cəsarətinə daha da heyrətlənir və elə gülür ki, arxa dişləri də görünür. Sonra da Nüseybəyə buyurur ki, sən oğlunun qisasını aldın!

Səhərisi gün Peyğəmbər(s) ordunu Həmraul-əsəd məntəqəsinə çəkib apararkən Nüseybə də gəlmək istəyir, lakin aldığı yaralar nəticəsində orduya qoşula bilmir. Həzrət Həmraul-əsəddən qayıdan kimi Nüseybənin vəziyyətini öyrənmək üçün bir nəfəri onun evinə göndərir. Onun sağ-salamat olduğunu öyrəndikdə xoşhal olur. Bütün bu fədakarlıqların qarşılığı olaraq Nüseybə Peyğəmbərdən(s) xahiş edir ki, Allahdan onun Cənnətdə həzrətlə dost olmasını diləsin. Peyğəmbər(s) də onun xahişini qəbul edib dua edir.

Nüseybənin döyüşdəki fəallığı Peyğəmbəri o qədər xoşhal etmişdi ki, onun barəsində buyurur: «Nüseybə bint Kəbin fədakarlığı bu gün filankəsdən, filankəsdən üstündür.»

İbn Əbilhədid yazır: «Bu hədisi nəql edən şəxs Peyğəmbərə xəyanət etmişdir. Çünki Peyğəmbər o şəxslərin adlarını çəkib, hədisi nəql edən isə adları çəkməyib. Mən belə hesab edirəm ki, hədisi nəql edən şəxs onların adını çəkməkdən ehtiyat etmişdir.»[1]

### *Hadisələrin sonrakı gedişatı*

Cüzi sayda müsəlmanın fədakarlığı nəticəsində həzrət Peyğəmbər(s) yüzfaizlik təhlükədən qurtarır. Xoşbəxtlikdən düşmənin böyük bir hissəsi həzrətin öldürüldüyünü zənn edərək onun nəşini

---

[1] Şərhi Nəhcül-bəlağə, (İbn Əbilhədid), c-14, s-265-267; Usdul-qabə, c-5, s-555

axtarırdı. Onun sağ qaldığını bilib hücüma keçənləri isə Əli, Əbu Dəcanə və qeyriləri zərərsizləşdirirdilər. Onda belə məsləhət görülür ki, Peyğəmbərin ölüm şayiəsinin üstü açılmasın və o həzrət ətrafındakı bir neçə müsəlmanla dərəyə tərəf çəkilir. Yolda Peyğəmbər(s) Əbu Amirin müsəlmanların düşməsi üçün qazdığı quyuya düşür. Əli(ə) dərhal həzrətin əlindən tutub yuxarı dartır. Müsəlmanlardan Peyğəmbəri görüb ilk tanıyan şəxs Kəb ibn Malik olur. O, həzrətin gözlərini dəbilqənin altından görüb tanıyır. Dərhal çığırır ki, ay müsəlmanlar, Peyğəmbər buradadır, o sağdır. Allah onu düşmənin şərrindən qorumuşdur. Həzrətin sağ olması xəbəri yayılacağı təqdirdə yeni hücumların başlanmasına səbəb ola bilərdi. Buna görə də həzrət Kəb ibn Malikə sakit qalmasını tapşırır, o da sakit qalır.

Peyğəmbər dərəyə çatır. Ətrafda olan müsəlmanlar Peyğəmbərin(s) sağ olduğunu bilib sevindilər. Döyüşdən qaçdıqlarına görə həzrətdən utanıb başlarını aşağı saldılar. Əbu Übeydə Cərrah, Peyğəmbərin üzünə batmış dəbilqə halqalarını dartıb çıxarır, Əli(ə) də qalxanını su ilə doldurur. Peyğəmbər əl-üzünü yuduqdan sonra buyurur: «Öz peyğəmbərinin sifətini qana bulaşdıran camaata Allahın qəzəbi daha da artdı.»

***Düşmən fürsət axtarışında***

Müsəlmanlar məğlubiyyətə uğradığı bir vaxtda fürsət axtaran düşmən öz əqidələrini diktə etmək üçün gözəl şans əldə edir. Onlar İslama, tövhidə zidd şüarlar səsləndirməklə sadəlövh müsəlmanları təsir altına salır. Müasir yazıçılardan biri demişkən, hansısa bir cəmiyyətə öz əqidəni yeritmək üçün ən gözəl fürsət onların məğlub olduğu vaxtdır. Çətinliklər zamanı camaatın ruhiyyəsi elə zəifləyir ki, ağılları da başdan çıxır. Məhz belə bir vaxtda əks təbliğat öz bəhrəsini verir.

Əbu Süfyanla Əkrəmə ibn Əbu Cəhl ən böyük bütləri əllərinə götürüb sevincək halda deyirdilər: «Var olsun Hübəl, var olsun Hübəl!»

Bununla onu demək istəyirdilər ki, qələbəmiz bütpərəstliyimizin sayəsindədir. Əgər təkallahlıq haqq olsaydı, müsəlmanlar məğlub olmazdılar.

Peyğəmbər(s) düşmənin əks təbliğata keçdiyini başa düşüb hər şeyi unudaraq Əli və digər müsəlmanlara göstəriş verir ki, desinlər Allah daha böyük, daha ucadır! Yəni, bu məğlubiyyətimizin təkallahlığa aidiyyatı yoxdur. Məğlubiyyətimizin səbəbi komandanımızın tapşırıqlarına əməl etməməyimizdir.

Əbu Süfyan əks təbliğatına davam edib deyir: «Bizim Üzza kimi bütümüz var, sizin isə Üzzanız yoxdu.» Peyğəmbər(s) də müsəlmanlara öyrədir ki, belə deyin: «Allah bizim mövlamızdır, sizin isə mövlanız yoxdur!» Yəni, əgər siz taxtadan və ya daşdan olan bir bütə arxalanırsınızsa, bizim arxamız, pənahımız yenilməz qüdrət sahibi olan Allahdır.

Əbu Süfyan üçüncü dəfə belə deyir: «Bu gün Bədrin əvəzini çıxdıq.» Müsəlmanlar bu dəfə də onu cavabsız qoymur və Peyğəmbərin göstərişinə əsasən deyirlər: «Bu iki gün (Ühüdlə Bədr günləri) heç vaxt bir ola bilməz. Bizdən ölənlər Cənnətdə, sizdən ölənlər isə Cəhənnəmdədir.»

Yüzlərlə müsəlmanın bir ağızdan dediyi bu tutarlı cavablar Əbu Süfyanı narahat edir. O, «Bizimlə sizinki qalsın gələn ilə!»- deməklə meydanı tərk edib Məkkəyə doğru irəliləyir.[1] Müsəlmanları isə yetmiş ölü və yüzlərlə yaralı gözləsə də onlar hər şeydən öncə İlahi borcu ödəməli-zöhr və əsr namazlarını qılmalı idilər.

***Döyüşün sonu***

Ühüd döyüşü başa çatır. İki dəstə bir-birindən ayrılır. Müsəlmanlar müşriklərdən üçqat artıq itki vermişdilər. İndi onların pak nəşlərini dəfn etmək lazım idi.

Qüreyş ordusu qələbə qazandığı zaman onların özləri ilə gətirdiyi qadınlar müsəlman ölülərinin başına oyun açırlar. Dünyanın hər yerində düşmən qoşunundan ölənlərin toxunulmazlıq hüququ var. Lakin Qüreyş qadınları zahiri qələbə ilə kifayətlənməyib müsəlman ölülərinin burun, qulaq və s. əzalarını kəsməyə başlayırlar. Əbu Süfyanın arvadı Hind müsəlmanların bədən üzvlərindən özü üçün

[1] Biharul-ənvar, c-20, s-44-45

boyunbağı, sırğa düzəldir. Böyük İslam sərkərdəsi Həmzənin qarnını yarıb ciyərini çıxardıb, nə qədər onu yeməyə çalışsa da bacarmır. Onun bu alçaq hərəkəti barədə Əbu Süfyan belə deyir: «Mən bu hərəkətə nifrət edirəm. Axı belə bir əmr verməmişdim, hərçənd çox narahat da deyiləm.»

Hindin bu hərəkəti onun müsəlmanlar arasında ciyəryeyən Hind kimi tanınmasına səbəb olur. Hətta onun övladlarına da ciyəryeyənin oğlu deyilirdi.

Müsəlmanlar Peyğəmbərlə(s) birlikdə yenidən döyüş meydanına qayıdıb şəhidləri dəfn etmək istəyirlər. Peyğəmbərin gözü əmisinin nəşinə sataşdıqda onun pis vəziyyətə salınmış bədəni həzrəti həddən artıq narahat edir.

Həzrət bu mənzərədən o qədər əsəbləşir ki, buyurur mən heç ömrümdə bu dərəcədə əsəbləşməmişdim.

Tarixçi və təfsirçilər yazırlar: «Müsəlmanlar əhd edirlər ki, (bəzi mənbələrdə Peyğəmbərin də əhd etdiyi göstərilir) nə vaxtsa müşrikləri tutsalar, onların öz başına bu oyunu acacaqlar. Bir müsəlmanın əvəzinə otuz müşrikin bədən üzvlərini kəsəcəklər. Onların bu fikrinin üstündən çox çəkmir ki, Cəbrail aşağıdakı ayəni nazil edir: ***«(Ey möminlər! İntiqam almaq məqsədilə birinə) cəza verəcək olsanız, sizə nə cəza verilibsə, eyni həmin cəzanı verin. Əgər (onlardan intiqam almayıb) səbr etsəniz, bu səbr edənlər üçün daha xeyirlidir.»***[1]

Bu ayə bir daha göstərir ki, İslam dini intiqam dini deyil. Hətta insanın bütün vücudunu qəzəb bürüdüyü vaxtda da ədalət unudulmamalıdır.

Həmzənin bacısı Səfiyyə (Peyğəmbərin bibisi) qardaşının nəşini görməyə israr edir, oğlu Zübeyr isə ona mane olurdu. Səfiyyə oğluna deyir ki, eşitmişəm qardaşımın əzalarını kəsiblər. And olsun Allaha, qardaşımı görsəm, özümdən çıxmayacağam və bu müsibətə Allaha xatir dözəcəyəm. O, vüqarla qardaşının nəşinə yaxınlaşır, ona meyyit namazı qılır və Allahdan bağışlanmasını diləyir. Doğrudan da iman çox böyük

[1] Nəhl-126

qüvvədir. Ən çətin anlarda da insanı cilovlayıb ona vüqar, əzəmət bəxş edir.

Peyğəmbər(s) Ühüd şəhidlərinə meyyit namazı qılır, onları tək-tək və ya iki-iki basdırır. Həzrət göstəriş verir ki, Əmr ibn Cəmuhla Abdullah ibn Əmri bir yerdə dəfn edin. Çünki onlar dünyada dost idilər, qoy ölüm vaxtında da bir yerdə olsunlar.[1]

***Səd ibn Rəbinin son sözləri***

Səd ibn Rəbi Peyğəmbərin(s) vəfalı və imanlı səhabələrindən olmuşdur. Ühüd döyüşündə on iki yerdən yaralandıqdan sonra yerə yıxılır. Bir nəfər onun yanından keçərkən deyir ki, deyirlər Mühəmməd(s) öldürülüb. Səd deyir: «Mühəmməd(s) öldürülsə də Allahı ki, sağdır. Biz Allahın dini uğrunda cihad edirik.»

Döyüş başa çatdıqdan sonra Peyğəmbər(s) Səd ibn Rəbini xatırlayıb səhabələrə deyir ki, mənim üçün Səd barədə kim xəbər gətirə bilər? Zeyd ibn Sabit ayağa qalxıb Sədin ya ölüsü, ya da dirisi barədə dəqiq xəbər gətirəcəyini bildirir. O, Sədi ölülər arasında tapıb deyir: «Peyğəmbər sənin barəndə xəbər öyrənmək üçün məni göndərib.» Səd deyir: «Peyğəmbərə salamımı yetir və de ki, Sədin ömrünün son anlarıdır. Ey Allahın rəsulu, Allah sənə peyğəmbərlərə layiq ən gözəl mükafatı versin! Ənsarla mühacirlərə də salamımı çatdır! Onlara de ki, siz sağ ola-ola Peyğəmbərin başına bir iş gəlsə, Allah dərgahında üzrünüz qəbul olmayacaq.»

Zeyd ibn Sabit, Sədin yanından kənarlaşmamış o, canını tapşırır.[2]

İnsanın özünə qarşı sevgisi o dərəcədədir ki, heç vaxt özünü unutmur. Ancaq iman bundan da təsirli bir qüvvədir. Tarixdən görürük ki, ölüm astanasında olan Səd ibn Rəbi özünü unudaraq Peyğəmbərin qorunmasını tövsiyə edir. Bunu ən böyük amal hesab edir.

***Peyğəmbərin Mədinəyə dönüşü***

Günəş batmağa doğru gedirdi. Ühüd məntəqəsinə sanki ölüm sükutu çökmüşdü. İndi böyük itki vermiş və xeyli sayda yaralısı olan

---

[1] Sireyi İbn Hişam, c-2, s-498; Biharul-ənvar, c-20, s-131

[2] Sireyi İbn Hişam, c-2, s-95

müsəlmanlar yaralıların müalicəsi və eləcədə dincəlmək üçün evlərinə qayıtmalı idilər. Peyğəmbər(s) Mədinəyə qayıtmaq əmri verir və döyüşdə iştirak etmiş səhabələrin müşayiəti ilə şəhərə daxil olur. Mədinənin demək olar bütün evlərindən şivən səsi ucalırdı.

Peyğəmbər(s) Bəni-Əbdüləşhəl tayfasının evlərindən gələn şivən səslərini eşitdikdə halı dəyişir, mübarək gözlərindən yaş axmağa başlayır və dodağının altında yavaşca deyir: «Heyif ki, Həmzənin ağlayanı yoxdur!»[1] Səd ibn Məaz və bir neçə başqa şəxs Peyğəmbərin(s) məqsədini anlayır. Bir qrup qadına tapşırırlar ki, Həmzə üçün ağlayıb mərsiyə oxusunlar. Bundan xəbər tutan Peyğəmbər(s) qadınlar üçün dua edib buyurur: «Mən həmişə ənsarin maddi və mənəvi köməyindən faydalanmışam.» Sonra da Həmzə üçün mərsiyə deyən qadınların evə qayıtmasını tapşırır.

***İmanlı bir qadının həyəcan dolu xatirələri***

İslam tarixində imanlı qadınların başına gələnlərlə yalnız fəxr etmək olar. Ən azından ona görə ki, belələrinə çağdaş dövrümüzdə çox nadir halda rast gəlmək olar.

Bəni-Dinar tayfasından olan, həm ərini, həm atasını, həm də qardaşını itirən bir qadın digər qadınlar arasında oturub ağlayır, başqaları da mərsiyə oxuyurdu. Təsadüfən Peyğəmbər(s) onların yaxınlığından keçir. Böyük müsibətlə üzləşmiş qadın yanındakılardan Peyğəmbəri soruşur. Ona cavab verirlər ki, Peyğəmbərin vəziyyəti yaxşıdır. Bəni-Dinardan olan qadın deyir ki, həzrəti özüm şəxsən görmək istəyirəm. Peyğəmbərin(s) dayandığı yer oradan çox da uzaq deyildi. Həzrəti ona göstərirlər. Qadının gözü ona sataşcaq bütün dərd-qəmini unudub uca səslə deyir: «Ya Rəsuləllah! Sizin yolunuzda bütün çətinliklər asan olur. Bizə nə faciə üz versə dözərik, təki siz sağ olasınız!»

Afərin belə müsəlmana! Eşq olsun bütün çətinlikləri insanın gözündə kiçildən imana![2]

---

[1] Sireyi İbn Hişam, c-2, s-99
[2] Sireyi İbn Hişam, c-2, s-99

***Fədakar qadınlardan digər bir nümunə***

Ötən səhifələrdə Əmr ibn Cəmuh barədə qısaca da olsa məlumat vermişdik. Bir ayağının axsaq olduğuna görə cihadın ona vacib olmamasına baxmayaraq israr edib Peyğəmbərdən döyüşə getməyə icazə almasını, özünün, oğlu Xəlladın və qaynı Abdullah ibn Əmrin-hər üçünün şəhid olduğunu qeyd etmişdik. Onun arvadı Hind, Əmr ibn Həzamın qızı və Cabir ibn Abdullah Ənsarinin bibisi idi. O, Ühüdə gəlib əzizlərinin (ərinin, oğlunun və qardaşının nəşini dəvəyə mindirib Mədinəyə yollanır.

Mədinədə Peyğəmbərin(s) öldürüldüyü şayiəsi yayılmışdı. Qadınlar o həzrət haqqında doğru məlumat əldə etmək məqsədilə Ühüdə sarı gəlirdilər. Hind yolda Peyğəmbərin(s) xanımları ilə rastlaşır. Ondan Peyğəmbər barədə soruşduqda sanki heç nə baş verməyibmiş kimi sevincək halda deyir: «Sizə şad xəbərim var, Peyğəmbər sağ-salamatdır. Bu nemətin qarşısında bütün çətinliklər asanlaşır. Bir xəbər də odur ki, kafirlər əsəbi halda yenidən döyüşü davam etdirirlər.»[1] Qadınlar dəvənin üstündəki cənazələrin kimə məxsus olduğunu soruşduqda deyir ki, onların hamısı özümə məxsusdur. Biri oğlum, biri qardaşım, digəri də ərimdir. Dəfn etmək üçün onları Mədinəyə aparıram.

Bu əhvalatdan da imanın insanı hansı mərhələyə yüksəltdiyinin, iman sayəsində bütün çətinliklərin asanlaşdığının şahidi oluruq. Materialist yönümlü məktəblər heç vaxt belə şəxslər yetişdirə bilməmişdir. Məsələ burasındadır ki, belə şəxslər maddi məqsədlər uğrunda deyil, müqəddəs amal uğrunda döyüşürlər.

Hindin əhvalatının davamı daha maraqlıdır və maddi əsaslarla qətiyyən uyğun gəlmir. Yalnız haqqa inananlar əhvalatın ardını təhlil və qəbul edə bilərlər.

Hind dəvənin ovsarından yapışıb Mədinəyə doğru çəksə də dəvə çox çətinliklə yeriyirdi. Peyğəmbərin(s) xanımlarından biri deyir ki, yəqin dəvənin yükü ağırdır, ona görə çəkə bilmir. Hind onun cavabında deyir: «Xeyr, bu, çox güclü bir dəvədir, iki dəvənin yükünü çəkə bilir. Bu işin başqa bir səbəbi var. Dəvəni Ühüdə sarı çevirdikdə çox rahat yeriyir, ancaq

---

[1] Şərhi Nəhcül-bəlağə (İbn Əbilhədid) c-14, s-262

Mədinəyə tərəf çevirdikdə çətinliklə yeriyir, ya da ümumiyyətlə getmir.» O, belə qərara gəlir ki, Ühüdə qayıdıb macəranı Peyğəmbərə(s) danışsın. Cənazələrlə birlikdə dəvəni də sürüb Ühüdə gətirir. Baş verənləri həzrətə danışdıqda Peyğəmbər(s) soruşur: «Ərin döyüşə gələrkən Allahdan nəsə istəmişdimi?» Hind cavab verir ki, ərim evdən çıxarkən əlini Allah dərgahına qaldırıb deyir: «İlahi, məni bir daha evimə qaytarma!» Peyğəmbər(s) buyurur: «Ərinin duası qəbul olub. Allah bu nəşin bir daha Əmrin evinə qayıtmasını istəmir. Onların hər üçünü elə burada-Ühüddə dəfn et. Onu da bil ki, bu üç nəfər axirətdə də bir yerdə olacaqlar.»

Gözlərindən yaş sel kimi axan Hind, Peyğəmbərdən xahiş edir ki, Allahdan onun da əzizləri ilə bir yerdə olmasını istəsin.[1]

Peyğəmbər(s) Mədinəyə qayıdıb evə girir. Əziz qızı Fatimənin gözü atasının yaralı sifətinə sataşdıqda ağlamağa başlayır. Peyğəmbər(s) qılıncı yumaq üçün qızına verir.

Hicri yeddinci əsr tarixçisi İrbili yazır: «Peyğəmbər(s) üzünün qanını yusun deyə, Əli(ə) su gətirir. O, su tökür, Fatimə həzrətin üz-gözündəki qanı yuyurdu. Peyğəmbərin(s) üzündəki yara dərin olduğu üçün qan kəsilmir. Məcbur olub bir həsir parçası yandırır və külünü yaranın üstünə basaraq qanı dayandırırlar.»[2]

### *Düşmənin təqib edilməsi*

Müsəlmanların Ühüddən qayıdıb Mədinədə yatdıqları ilk gecə çox həssas bir gecə olmuşdur. Mədinədəki yəhudilər, münafiqlər və Abdullah ibn Übeyyin tərəfdarları Ühüddə baş verənlərə həddən artıq sevinmişdilər. Əksər evlərdən şivən səsi gəlirdi. Hər şeydən əsas isə o idi ki, münafiqlərlə yəhudilər müsəlmanlara qarşı qiyam edə və ya ən azı yeni qurulmuş hökümətdə sabitliyi poza bilərdilər.

Daxili çəkişmələrin vurduğu ziyan xarici düşmənin hücumlarından qat-qat artıq olur. Buna görə də daxili düşmənlərə barmaq silkələyib hədələmək lazım idi. Onlara başa salmaq lazım idi ki, İslam ordusunda heç bir hərc-mərclik yoxdur, İslama qarşı çıxanlar beşikdəcə boğulacaqlar.

---

[1] Məğazi Vaqidi, c-1, s-265

[2] Kəşful-qummə, c-1, s-189; İmtaul-əsma, c-1, s-137-138

Həzrət Peyğəmbər(s) həmin gecənin səhərisi düşməni təqib etmək qərarına gəlir. Bu məqsədlə bütün Mədinəyə carçı salıb bildirir ki, dünən Ühüddə olanlar sabah düşməni təqib etməyə çıxmalıdır. Ühüddə olmayanların isə orduya qoşulmağa haqqı yoxdur.[1]

Ühüddə iştirak etməyənlərə orduya qoşulmaq icazəsi verilməməsi müəyyən səbəblər üzündən idi ki, bunlar əsasən aşağıdakılar olmuşdur:

1) Bu, Ühüddə iştirak etməyənlərə bir növ etiraz idi. Peyğəmbər(s) bununla onlara başa salır ki, sizin cihadda iştirak etməyə ləyaqətiniz yoxdur.

2) Ühüddə iştirak edənləri tənbeh etmək. Çünki məhz onların diqqətsizliyi, tabesizliyi üzündən müsəlmanlar məğlubiyyətə uğramışdılar. İndi də bunun əvəzini onlar özü çıxmalı idilər ki, bir daha belə səhlənkarlığa yol verməsinlər.

Carçının səsi Bəni-Əbdüləşhəl tayfasından olan bir gəncin qulağına çatır. O, qardaşıyla birlikdə döyüşdə yaralanmışdı. İndi isə carçının səsini eşidib bir-birinə deyirlər ki, Peyğəmbər cihada getdiyi halda bizim evdə qalmağımız heç yaxşı iş deyil. İkisi bir atı növbə ilə sürə-sürə gəlib arxadan İslam ordusuna qoşulurlar.[2]

***Həmraul-Əsəd yürüşü***

Peyğəmbər İbn Ümmi Məktumu Mədinədə öz yerinə təyin edib ordu ilə birlikdə şəhərdən çıxır. İslam ordusu Mədinədən səkkiz mil aralıda yerləşən Həmraul-əsəd adlı yerdə mövqe seçir. Müşrik olmasına baxmayaraq Xüzaə qəbiləsinin başçısı Məbəd Xüzai, Peyğəmbərə başsağlığı verir. Ümumiyyətlə Xüzaə qəbiləsinin bütün üzvləri həmişə İslamı dəstəkləmişlər. Məbəd, Peyğəmbərin göstərişi ilə Həmraul-əsəddən Qüreyş ordusunun qərarlaşdığı Rəvhaya gələrək Əbu Süfyanla görüşür. Onun Mədinəyə qayıdıb müsəlmanların olan-qalan gücünü də tar-mar etmək istəyini öyrəndikdə Məbəd onu fikrindən daşındıraraq deyir: «Əbu Süfyan, Mühəmməd hal-hazırda böyük bir ordu ilə Həmraul-əsəddə dayanıb. Dünən döyüşə gəlməyənlər də bu gün ona qoşulublar. Mən onların arasında olduqca qeyzli simalar gördüm. Bu

[1] Sireyi İbn Hişam, c-2, s-101
[2] Sireyi İbn Hişam, c-2, s-101

vaxtadək ömrümdə elə simalar görməmişdim. Müsəlmanlar dünənki intizamsızlıqlarına görə çox narahat olublar.» Məbəd müsəlmanların gücündən, ruh yüksəkliyindən o qədər danışır ki, Əbu Süfyanı yenidən Mədinəyə hücum etmək fikrindən yayındırır.

Peyğəmbər bütün gecəni Həmraul-əsəddə keçirir və döyüşçülərə göstəriş verir ki, çölün müxtəlif yerlərində tonqal qalasınlar. Qoy düşmən onların sayının Ühüddəkindən qat-qat artıq olduğunu zənn etsin.

Böyük bir ərazidə müsəlmanların tonqal qaladığını görən Səfvan ibn Üməyyə Əbu Süfyana deyir: «Müsəlmanlar çox qəzəblidirlər. Mənə elə gəlir ki, bununla kifayətlənib Məkkəyə qayıtmaq lazımdır.»[1]

***Mömin bir dəfə səhv edər***

Başlıqdakı ifadə Peyğəmbərin(s) buyurduğu xütbənin xülasəsidir. Həzrət bu cümləni Əbu Ərrə Cəmhi ondan azadlığa buraxılmasını xahiş etdikdə buyurmuşdur. O, Bədr döyüşündə əsir düşmüşdü. Həzrət Peyğəmbər(s) onu azad edərək tapşırmışdı ki, bir daha müsəlmanlara qarşı müşriklərlə əlbir olmasın. O isə sözündə durmayıb yenidən Ühüd döyüşündə iştirak edir. Təsadüfən müsəlmanlar Həmraul-əsəddən qayıdarkən yolda onunla rastlaşıb əsir tuturlar. O, bu dəfə də Peyğəmbərdən(s) azadlığa buraxılmasını xahiş edir. Ancaq həzrət onun xahişinə məhəl qoymur və «mömin eyni səhvi bir dəfə edər»-deməklə onun edam hökmünü verir. Beləliklə də başdan-ayağa ibrət dərsi olan Ühüd döyüşü başa çatır.[2] Bu döyüşdə müsəlmanlardan 70, ya da 74 (bəzi mənbələrdə 82) nəfər şəhid olur. Müşriklərdən ölənlərin sayı isə cəmi 22 nəfər olmuşdur. Hicrətin üçüncü ili şəvval ayının yeddisi, həftənin şənbə günü başlayan Ühüd döyüşü Həmraul-əsəd yürüşü də daxil olmaqla növbəti həftənin cümə günü şəvval ayının on dördündə başa çatır.

Hicrətin üçüncü ilində baş vermiş ən əlamətdar hadisələrdən biri də ikinci imam həzrət Həsən Müctəbanın anadan olmasıdır. O həzrət hicrətin üçüncü ili ramazan ayının on beşi dünyaya gəlmişdir.

---

[1] Ət-Təbəqatul-kubra, c-2, s-49
[2] Sireyi İbn Hişam, c-2, s-104

## HİCRƏTİN DÖRDÜNCÜ İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR

***Təbliğat qrupunun faciəsi***

Ühüd döyüşündən sonra müsəlmanların məğlubiyyətinin təsiri hiss olunurdu. İslam ordusu düşmənə sonadək müqavimət göstərib onların yeni hücumunun qarşısını alsa da, Ühüddən sonra İslamı aradan aparmaq üçün daxili və xarici təhriklər baş qaldırır. Mədinədəki yəhudi və münafiqlər, eləcə də şəhərdən kənarda yaşayan bütpərəstlər cürətlənib müsəlmanlara qarşı ordu, silah toplamağa başlayırlar.

Peyğəmbər(s) belələrinə qarşı çox məharətlə mübarizə aparır, Mədinədən kənardakıların üstünə mücahid dəstələri göndərməklə onları dağıdırdı. O vaxtlarda Bəni-Əsəd tayfasının Mədinəyə hücum etmək istəyi xəbəri yayılır. Peyğəmbər(s) dərhal Əbu Sələmənin başçılığı altında 150 nəfərlik bir dəstəni onların üstünə göndərir. Peyğəmbər(s) Əbu Sələməyə tapşırır ki, dəstənin məqsədindən heç kim xəbər tutmasın. Buna görə də gecələr hərəkət et, gündüzlər dincəl. O, həzrətin tapşırığına əməl edib Bəni-Əsəd tayfasını gecə ikən mühasirəyə almaqla təhlükənin qarşısını yerindəcə alır. Müsəlman dəstəsi bir qədər qənimətlə qalib halda Mədinəyə qayıdır. Bu hadisə hicrətin otuz beşinci ayında baş vermişdir.[1] (Xatırladaq ki, Peyğəmbər(s) hicri ilinin üçüncü ayının ilk günü hicrət etdiyi üçün birinci il on ay çəkmişdir və buna görə də otuz beşinci ayda dördüncü il başlamışdır.)

Həzrət Peyğəmbər(s) bir tərəfdən hərbi dəstələr göndərməklə düşmənlərin planlarını pozurdusa, digər tərəfdən də ətraf qəbilələrə, tayfalara təbliğat qrupları göndərərək bitərəfləri İslam maarifi ilə tanış edirdi. Quranı və Peyğəmbər kəlamlarını əzbər bilən təbliğat qrupları İslam ideologiyasını cani-dildən camaata başa salırdı.

Peyğəmbər(s) hərbi və təbliğat dəstələri göndərməklə iki mühüm vəzifəni yerinə yetirirdi. Əslində hərbi dəstələri göndərməklə o həzrət təbliğat qrupları üçün əlverişli şərait hazırlayırdı. Ancaq təəssüflər

---

[1] Məğazi Vaqidi, c-1, s-340-346

olsun ki, bəzi vəhşi, alçaq tayfalar İslamın mənəvi gücü sayılan təbliğat qruplarına qarşı hiylə işlədib onları acınacaqlı şəkildə qətlə yetirirdi. İndi İbn Hişamın[1] dediyinə görə altı, İbn Sədin[2] fikrincə isə on nəfərdən ibarət bir təbliğat qrupunun başına gəlmiş faciəni diqqətinizə çatdırırıq.

Əzul və Qarrə tayfalarının nümayəndələri kələk işlədib Peyğəmbərin(s) hüzuruna gələrək deyirlər: «Ey Allahın rəsulu, bizdə İslama meyl yaranıb, mühitimizdə İslam dinini qəbul etmək üçün gözəl şərait var. Öz adamlarınızdan bizimlə göndərin qoy onlar bizə Quran, İslam maarifi öyrətsinlər.»[3] Peyğəmbər(s) onların istəyinə müsbət cavab verməyə borclu idi.

Çünki onlar çox böyük tayfaların nümayəndələri idi və müsəlmanlar nəyin bahasına olursa olsun, bu fürsətdən istifadə etməli idilər. Buna görə də Peyğəmbər(s) Mursəd adlı səhabənin başçılığı ilə bir qrup təbliğatçını adıçəkilən tayfanın nümayəndələrinə qoşur.

Təbliğat qrupu nümayəndələrlə birlikdə Mədinədən çıxır. Rəci adlı su hövzəsinə yetişdikdə Əzul və Qarrə tayfalarının nümayəndələri öz çirkin niyyətlərini açaraq təbliğat qrupunu öldürməkdən ötrü Hüzeyl tayfasından kömək istəyirlər.

Silahlı dəstənin əhatəsində qalan müsəlmanlar qılınca əl atmaqdan başqa çıxış yolu görmürlər. Hamı qılınca əl atıb özlərini müdafiə etməyə hazırlaşır. Əzul və Qarrə tayfalarının nümayəndələri and içib bildirirlər ki, sizi öldürmək fikrində deyilik. Məqsədimiz sizi əsir götürüb qüreyşlilərə təhvil vermək və bunun qarşılığı olaraq onlardan müəyyən məbləğdə pul almaqdır. Müsəlmanlar bir-birinə baxıb döyüşmək qərarına gəlirlər və deyirlər ki, biz müşrikin, bütpərəstin andına inanmırıq. Üç nəfər istisna olmaqla qalanları İslam uğrunda vuruşub şəhid olur. Sağ qalanlar-Zeyd ibn Disnə, Xübeyb ibn Ədiyy və Abdullah isə qılıncları qınına salıb təslim olurlar. Yolda Abdullah təslim olduğuna peşman olub qılınca əl atır. Bir qədər müqavimət göstərsə də düşmən onu daşqalaq edərək qətlə yetirir. Digər iki əsir Məkkə müşriklərinə təhvil verilir, əvəzində müsəlmanları tutanların tayfasından olan iki əsir azad edilir.

---

[1] Sireyi İbn Hişam, c-2, s-169
[2] Ət-Təbəqatul-kubra, c-2, s-39
[3] Məğazi Vaqidi, c-1, s-354

Atası Bədr döyüşündə öldürülmüş Səfvan ibn Üməyyə Zeydi pulla alır ki, heç olmasa bir müsəlman təbliğatçısını öldürməklə atasının intiqamını alsın. Belə qərar qoyulur ki, Zeydi təntənəli bir mərasimdə dara çəksinlər. Tənimdə dar ağacı qurulur. Qüreyş müşrikləri, müttəfiqlər hamı tamaşaya yığılmışdı. Ömrünün sonuna bir neçə dəqiqədən artıq qalmayan Zeyd isə dar ağacının kənarında dayanmışdı. Ya bilavasitə, ya da dolayısı ilə bütün işlərdə əli olan Məkkə fironu Əbu Süfyan Zeydə deyir: Səni and verirəm inandığın Allaha, sənin əvəzinə Mühəmmədin öldürülüb özünün azad edilməyini istərdinmi? Zeyd soyuqqanlı şəkildə cavab verir: «Azad edilməyim üçün Peyğəmbərin(s) ayağına heç tikan batmasına da razı olmaram.» Zeydin bu cavabı Əbu Süfyanı narahat edir. Peyğəmbərə(s) səhabələrin son dərəcə əlaqəsindən təəccüblənərək deyir: «Ömrümdə Mühəmmədin dostları kimi vəfalı dostlar görməmişəm.» Beləliklə də Zeyd haqq uğrunda dara çəkilir.

Müsəlman təbliğatçılarından digər məhbus Xübeyb uzun müddət həbsdə saxlanıldıqdan sonra onun da Tənimdə dara çəkilməsi qərara alınır. O, dar ağacının kənarında iki rikət namaz qılmaq üçün Qüreyş başçılarından icazə alır. Namazı qısa şəkildə qılıb müşriklərə deyir: «Ölümdən qorxduğum üçün namaz qıldığımı düşünməsəydiniz, daha çox namaz qılar,[1] rüku və səcdələri daha çox uzadardım.» Sonra başını göyə qaldırıb deyir: «İlahi, biz Peyğəmbərin göndərdiyi işi yerinə yetirdik.» Bu zaman edam hökmü verilir və Xübeyb dara çəkilir. O, hələ canı çıxmamış dar ağacının başında deyirdi: «İlahi, görürsən ki, salamımı Peyğəmbərə çatdırmaq üçün ətrafımda bircə dost da yoxdur. Allahım, salamımı peyğəmbərə sən özün çatdır!» Xübeybin bu sözlərindən əsəbləşən Əbu Əqəbə irəli gəlib ona bir zərbə vuraraq qətlə yetirir.

İbn Hişam yazır ki, Xübeyb dar ağacının başında bir neçə beyt şer də demişdir. Aşağıdakı iki beytini diqqətinizə çatdırırıq:

And olsun Allaha ki, müsəlman olaraq ölsəm, harada basdırılacağımın fərqi yoxdur. Mənim ölümüm Allah yolundadır, əgər o istəsə, bunu mənim tikə-tikə doğranmış üzvlərimə də mübarək edər.[2]

---

[1] Məğazi Vaqidi, c-1, s-359

[2] Sireyi İbn Hişam, c-2, s-17

Bu hadisədən xəbər tutan Peyğəmbər(s) və bütün müsəlmanlar çox narahat olurlar. Böyük İslam şairi Həssan ibn Sabit bu barədə qəmli şerlər yazır. (İbn Hişam onun şerlərini qeyd etmişdir.) Peyğəmbər(s) daha çox ondan nigaran idi ki, belə hadisələrin sayı artar və çətinliklər bahasına təşkil olunmuş təbliğat qrupları tayfaların məkirli niyyətlərinin qurbanına çevrilər.

Zeydlə Xübeybin nəşi bir müddət dardan asılı qalır və ətrafında gözətçilər dayanır. Yalnız Peyğəmbərin(s) göstərişindən sonra iki cəsarətli müsəlman gecə ikən onların nəşini gətirib dəfn edir.[1]

***Birri-Məunə faciəsi***

Hicrətin dördüncü ili səfər ayında Peyğəmbər(s) hələ İslam təbliğatçılarının Rəci məntəqəsindəki faciəsindən xəbər tutmamış Amir ibn Malik ibn Cəfər Mədinəyə gəlib həzrətlə görüşür. Peyğəmbər(s) onu İslama dəvət etsə də qəbul etmir. O, Peyğəmbərə deyir ki, Nəcdə böyük bir təbliğatçı qrupu göndərsən, oranın əhalisi iman gətirər. Çünki onlar İslama meyillidirlər. Peyğəmbər(s) Nəcd əhalisinin hiyləyə əl ata biləcəyindən ehtiyatlandığını bildirdikdə Amir deyir: «Təbliğat qrupu mənim himayəmdədir. Mən sizə söz verirəm ki, onlara heç bir xətər dəyməyəcək.»

Peyğəmbər(s) Münzirin başçılığı altında Quranı əzbər bilən 40 nəfərlik bir təbliğat qrupunu Nəcdə göndərir. Təbliğatçılar gəlib Birri-Məunə məntəqəsində məskən salırlar. Peyğəmbərin(s) İslama dəvətlə bağlı Nəcd başçılarından olan Amir ibn Tüfeylə yazdığı məktubu müsəlmanlardan biri ona çatdırır. O, nəinki Peyğəmbərin(s) məktubunu oxumur, hətta məktubu gətirəni qətlə yetirdir. Sonra da öz qəbiləsini təbliğatçılara qarşı təhrik edir. Qəbilə üzvləri etiraz edib deyirlər ki, qəbilə başçımız Amir ibn Malik təbliğatçılara aman verərək onları öz himayəsinə götürmüşdür. İbn Tüfeyl məcbur qalıb ətraf qəbilələrdən kömək istəyir. Onlar İslam təbliğatçılarının yerləşdiyi ərazini gecə mühasirəyə alırlar.

Təbliğat qrupunun üzvləri dini məsələləri bildiyi kimi həm də cəsur döyüşçülər idilər. Düşmənə təslim olmağı ar bilib vuruşmağa başlayırlar.

---

[1] Səfinətül-bihar, c-1, s-372

Bir qədər vuruşduqdan sonra Kəb ibn Zeyd istisna olmaqla hamı şəhid olur. Kəb isə yaralı halda özünü birtəhər Mədinəyə yetirib, Peyğəmbəri hadisədən xəbərdar edir.[1] Bu böyük faciə bütün müsəlmanları narahat edir. Peyğəmbər(s) uzun müddət Birri-Məunə şəhidlərini unutmur.

Həm Rəci, həm də Birri-Məunə faciəsi Ühüd döyüşünün mənfi nəticəsinin təsiri idi. Belə ki, ətraf qəbilələr müsəlmanlara qarşı özündə cəsarət tapmışdı.

### *Qərəzli şərqşünaslar*

Hansısa müşrikin cüzi zədələnməsinə irad tutan bəzi şəqşünaslar İslam və müsəlmanları tənqid atəşinə tutaraq deyirlər ki, İslam dini qılınc gücünə inkişaf edib. Lakin həmin şəqşünaslar bu iki hadisəyə qətiyyən münasibət bildirməmiş, ağızlarına su alıb oturmuşlar. Dünyanın harasında görünüb ki, elmi nümayəndə heyəti qətlə yetirilsin? Əgər İslam dini doğrudan da sırf qılınc gücünə inkişaf edibsə, bəs onda bu iki faciədə öldürülənlər nəyə görə əzab-əziyyətə qatlaşıb İslamı təbliğ etməyə gedirlərmiş? Doğrudan da bu iki faciədə öyrəniləsi çox məqamlar var. İman, fədakarlıq, cəsarət-bütün bunlar ibrət alası dərslərdir.

Xeyli sayda müsəlman təbliğatçısının ölmü ilə nəticələnmiş Rəci və Birri-Məunə faciələri bütün müsəlmanları kədərləndirir. Sanki hamı qəm dəryasına batır. Burada belə bir sual irəli çıxa bilər ki, Rəci faciəsi baş verdiyi və Peyğəmbər belə bir acı təcrübəyə malik olduğu halda nə üçün ikinci təbliğat qrupunu Birri-Məunəyə göndərir. Məgər o həzrət özü buyurmayıb ki, mömin eyni səhvi bir dəfədən artıq buraxmaz?

Tarixi mənbələrə müraciət etdikdə bu sualın cavabına aydınlıq gəlir. Belə ki, ikinci qrup Bəni-Amir tayfasının başçısı Amir ibn Malik ibn Cəfərin onları himayəsinə götürməsinə zəmanət verilməsindən sonra ezam edilir. Onun tayfası isə başçılarının əleyhinə heç bir iş görməzdi. Arxayınlıq yaransın deyə, təbliğat qrupu qayıdana qədər Amir özü Mədinədə qalmaq qərarına gəlir. Hər halda Peyğəmbər(s) səhf addım atmır, çünki Birri-Məunəyə göndərilən təbliğat qrupu Əbu Amirin tayfası tərəfindən qətlə yetirilmir. Düzdür, onun qardaşı oğlu

---

[1] Məğazi Vaqidi, c-1, s-364-369

Amir ibn Tüfeyl tayfanı təbliğatçılara qarşı təhrik etmişdi, lakin tayfadan heç kim onunla razılaşmır. Axırda məcbur qalıb Səlim və Zəkvan qəbilələrindən kömək alaraq İslam təbliğatçılarını qətlə yetirir.

Təbliğat qrupu Birri-Məunədə məskunlaşdıqdan sonra aralarında Əmr ibn Üməyyə ilə Haris ibn Siməni dəvələri otarmaq üçün ayırırlar. Onlar dəvələri otlağa aparıb otaran zaman Amir ibn Tüfeyl onlara da hücum edib Haris ibn Siməni öldürür. Əmr ibn Üməyyə isə sağ qalır. O, Mədinəyə qayıdarkən yolda iki nəfərlə rastlaşır və onların da təbliğatçıları öldürən tayfadan olduğunu zənn edir. Buna görə də onlar yatan vaxt Əmr ibn Üməyyə hər ikisinin başını kəsib Mədinəyə gətirir. O, öz zənnində yanılmışdı. Çünki öldürdüyü adamlar Bəni-Amirdən idilər və İslam təbliğatçılarına qarşı vuruşmaqdan imtina etmişdilər.

Bu hadisə Peyğəmbəri(s) daha da kədərləndirir və belə qərara gəlir ki, öldürülən iki nəfərin qan bahası ödənilsin.

Ət-Təbəqatul-kubra əsərinin müəllifi İbn Sədin fikri daha doğru cavaba oxşayır. O, belə hesab edir ki, hər iki faciənin xəbəri Peyğəmbərə(s) eyni gündə çatır. İkinci qrup göndərilən zaman hələ birinci qrupdan bir xəbər yox idi.[1]

***Bəni-Nəzir döyüşü***

Ühüd döyüşünün ardınca İslam təbliğatçılarının faciələrinə də sevinən Mədinə yəhudi və münafiqləri şəhərdə qiyam qaldırıb ətraf qəbilələrə müsəlmanların zəiflədiyini başa salmaq üçün fürsət axtarırdılar.

Peyğəmbər(s) Bəni-Nəzir yəhudilərinin mövqeyini öyrənmək məqsədilə kiçik bir dəstə ilə onların yerləşdiyi qala şəhərciyinə gedir. Peyğəmbər(s) üzdə özünü elə göstərir ki, güya gəlişində məqsəd Bəni-Amirdən öldürülmüş iki nəfərin qan bahasını ödəmək üçün onlardan (yəhudilərdən) kömək istəməkdir. Bəni-Nəzir qəbiləsi həm müsəlmanlarla, həm də Bəni-Amir tayfası ilə müttəfiq olduğu üçün bu kimi işlərdə yaxından iştirak etməli idi.

Peyğəmbər(s) qalanın qapısına çatıb məqsədini açıqlayır. Yəhudi başbilənləri həzrətin sözünü üzdə məmnuniyyətlə qəbul edir və diyə

---

[1] Ət-Təbəqatul-kubra, c-2, s-52-53

(qan bahası) ödənilməsində yardımçı olacaqlarına söz verirlər. Onlar Peyğəmbərdən qalaya daxil olmasını istəsələr də həzrət qala divarlarının kölgəsində oturub gözləməyə üstünlük verir. O həzrət yəhudilərin belə şirin münasibətinin arxasında hansısa bir hiylə gizləndiyini anlamışdı. Digər tərəfdən Peyğəmbərin(s) oturduğu yer get-gəl yolu olduğundan və həmçinin yəhudilərin bir-biri ilə pıçıltıları şəkk-şübhəni bir qədər də artırırdı. Sən demə yəhudilər Peyğəmbəri qəfil yaxalayıb öldürmək barədə plan cızırlarmış. Əmr ibn Cəhhaş qala divarının üstünə qalxıb yekə bir daşı həzrətin üstünə atmağa hazırlaşırdı. Xoşbəxtlikdən onların planının üstü açılır. Vaqidinin fikrincə isə Cəbrail nazil olub Peyğəmbəri xəbərdar edir. Bundan sonra həzrət yerindən qalxıb heç kimə bir söz demədən bir başa Mədinəyə gəlir. Yəhudilər elə başa düşürlər ki, o harasa gedib yenidən qayıdacaq.

Onlar nə qədər gözləsə də Peyğəmbər qayıdıb gəlmir.

Bəni-Nəzir yəhudiləri təşvişdə idilər. Bir tərəfdən fikirləşirdilər ki, bəlkə Peyğəmbər onların planından xəbərdar olub. Onda onları böyük cəza gözləyirdi. Digər tərəfdən də deyirdilər ki, indi ki, Mühəmməd əlimizdən çıxıb, heç olmasa sahabələrindən heyfimizi çıxaq. Ancaq çox yaxşı bilirdilər ki, belə olarsa, Peyğəmbər mütləq onlardan intiqam alacaq. Onlar bu fikirdə ikən həzrətlə gələnlər Peyğəmbərin ardınca getməyə qalxırlar. Qaladan elə də çox aralanmamışdılar ki, Mədinədən gələn bir kişi ilə rastlaşırlar. Ondan Peyğəmbərin(s) Mədinəyə gəldiyini eşitcək tez həzrətin hüzuruna tələsirlər. Peyğəmbər(s) onları da yəhudilərin hiyləsindən xəbərdar edir.

İndi Peyğəmbər(s) Bəni-Nəzir yəhudilərinə qarşı nə etməli idi? İslam hökümətində yaşayan, həzrət Mühəmmədin(s) bütün nişanələrini öz səmavi kitablarında oxuyan, onu qəbul etmək əvəzinə xaincəsinə ölüm planını cızanlara qarşı ədalət nə tələb edir? Bu kimi halların təkrarlanmaması üçün nə etmək lazım idi? Ən doğru və məntiqi yol elə Peyğəmbərin(s) tutduğu yol idi. Belə ki, mücahidlərə hazırlaşmaq göstərişi verir. Sonra da Məhəmməd ibn Məsləməni çağırıb Bəni-Nəzir yəhudilərinə doğru göndərir. Məhəmməd ibn Məsləmə yəhudilərin yanına gəlib Peyğəmbərin(s) tapşırığını çatdırır: «On gün ərzində buraları

tərk edin. Çünki öz əhdinizi (müqavilənin şərtlərini) pozub hiylə işlətmisiniz. On gün ərzində buradan çıxıb getməsəniz, qanınız axıdılacaq.»

Bu xəbərdarlıqdan narahat olan yəhudilər bir-birini günahkar çıxarmağa başlayır. Başçılardan biri belə təklif edir ki, gəlin hamılıqla İslamı qəbul edək. Ancaq əksəriyyəti onun fikrini bəyənmir. İndi onlar nə edəcəklərini bilmirlər. Məhəmməd ibn Məsləməyə üz tutub deyirlər: «Ey Məhəmməd, sən Ovs qəbiləsindənsən, İslam peyğəmbəri Mədinəyə gəlməzdən qabaq bizim sizinlə müdafiə sazişimiz var idi. İndi nəyə görə bizimlə döyüşmək istəyirsən?» Məhəmməd çox soyuqqanlı şəkildə cavab verir ki, o günlər keçdi, indi qəlblər tamam dəyişib.

Peyğəmbərin(s) qəbul etdiyi bu qərar Peyğəmbər(s) Mədinəyə yeni gələrkən yəhudi tayfaları ilə bağladığı müqaviləyə tam uyğundur. Həmin müqaviləni Bəni-Nəzir yəhudiləri tərəfindən Hüyeyy ibn Əxtəb imzalamışdı. Bir daha həmin müqavilənin xülasəsini diqqətinizə çatdırırıq: «Bu Müqaviləyə əsasən Bəni-Nəzir, Bəni-Qeynüqa və Bəni-Qüreyzə yəhudiləri Peyğəmbər və onun tərəfdarlarına qarşı nə sözlə, nə hərəkətlə heç bir pis iş görməyəcəklər. Bu üç qəbilədən hər hansı müqavilənin şərtlərini pozarsa, Peyğəmbərin onların qanını tökmək, əmlakını müsadirə etmək və arvad-uşaqlarını əsir almaq hüququ vardır.»[1]

Bu məsələdə də qərəzli şərqşünaslar cinayətkar Bəni-Nəzir yəhudilərinin tərəfini tutaraq, Peyğəmbəri(s) ədalətsiz qərar çıxarmaqda ittiham etmişlər. Əslində Peyğəmbər(s) onların barəsində çox yüngül cəza çıxarmışdır. Müqaviləyə əsasən onlara daha ağır cəza tətbiq edilə bilərdi.

### *Münafiqlərin planı*

Münafiqlərin təhlükəsi yəhudilərin təhlükəsindən daha böyük idi. Çünki onlar özlərini üzdə dost kimi göstərib altdan öz işlərini görürdülər. Münafiqlərin başçısı əsasən Abdullah ibn Übeylə Malik ibn Übeyy idi. Yəhudilərə xəbərdarlıq edildiyini eşidən kimi onlara xəbər göndərirlər ki, heç yerə getməyin. Biz iki min nəfərlik ordu ilə sizə köməyə gələcəyik. Dindaşlarınız olan Bəni-Qüreyzə və Qətəfan yəhudiləri də sizi tək qoymayacaq.

---

[1] Biharul-ənvar, c-19, s-110-111

Bu yalan vədlər Bəni-Nəzir yəhudilərini cürətləndirir. Əvvəlcə təslim olmaq qərarına gəlmişdilərsə, indi müqavimət göstərmək fikrinə düşürlər. Döyüş sürsatı ilə silahlanıb qala qapılarını bağlayırlar. Müqavimət göstərmədən ev-eşiklərini, bağ-bağatlarını müsəlmanların ixtiyarında qoymaq istəmirlər.

Bəni-Nəzir başçılarından olan Səllam ibn Müşkəm Abdullah ibn Übeyyin verdiyi vədin yalan olduğunu bildirib deyir ki, yaxşısı budur gəlin buralardan köçək. Lakin Hüyeyy ibn Əxtəb camaatı müqavimətə səsləyir.

Abdullah ibn Übeyyin yəhudilərə verdiyi kömək və dindən xəbər tutan Peyğəmbər(s) İbn Ümmi Məktumu Mədinədə öz yerinə təyin edib ordu ilə birlikdə təkbir (Allahu Əkbər) deyə-deyə Bəni-Nəzir qalasına doğru irəliləyir. Ordunu Bəni-Nəzirlə Bəni-Qüreyzə arasındakı ərazidə yerləşdirməklə bu iki qəbilənin əlaqəsini kəsir. İbn Hişamın[1] dediyinə görə altı, qeyrilərinin dediyinə görə isə on beş gün qalanın mühasirəsi davam edir. Bu müddət ərzində yəhudilər daha da güclü müqavimət göstərirlər. Peyğəmbər(s) müsəlmanlara əmr edir ki, qalaətrafı xurma ağaclarını kəsin, qoy yəhudilər buradan əl çəkib getsinlər. Ağaclarının kəsildiyini görən yəhudilər qaladan fəryad edərək deyirlər ki, ey Əbülqasim, (bu, Peyğəmbərin künyəsidir) sən həmişə döyüşçülərinə ağacları kəsməyi qadağan edirdin, bəs indi nə üçün ağacları kəsirsən?

Nəhayət, yəhudilər təslim olub daşınan əmlakı aparmaq şərtilə köçməyə razılıq verirlər. Peyğəmbər(s) də silahdan başqa istədiklərini aparmağa onlara icazə verir. Onlar bütün əşyalarını, hətta qapı-pəncərələri də haşiyələri ilə birlikdə yerindən qoparır. Evin quru divarlarını da öz əlləri ilə söküb bəzisi Xeybərə, bəzisi də Şama köçür. Onlardan yalnız ikicə nəfər İslam dinini qəbul edir.

Rüsvay olmuş yəhudilər dəf çala-çala, mahnı oxuya-oxuya Mədinəni tərk edirlər. Onlar bununla özlərini elə qələmə vermək istəyirdilər ki, güya Mədinəni tərk etdiklərinə görə çox da narahat deyillər.

---

[1] Sireyi İbn Hişam, c-2, s-191

***Bəni-Nəzirin əkin sahələrinin mühacirlər arasında bölüşdürülməsi***

Quranın hökmünə əsasən (Həşr surəsi, 6-cı ayə) İslam ordusunun döyüşsüz olaraq əldə etdiyi qənimət həzrət Peyğəmbərə məxsusdur. O, necə məsləhət bilərsə, elə də hərəkət edər. Həzrət belə qərara gəlir ki, Bəni-Nəzirin əkin sahələrini, bağlarını, su arxlarını mühacirlər arasında bölüşdürsün. Çünki onlar hicrət edərkən bütün əmlakını qoyub Mədinəyə gəlmişdilər. Demək olar ki, bu müddət ərzində onlar ənsarın (Mədinə müsəlmanlarının) qonağı idilər. Peyğəmbərin(s) bu fikrini Səd ibn Məazla Səd ibn Übadə də təsdiqləyir. Beləliklə əldə edilmiş ərazi mühacirlər arasında bölüşdürülür. Mədinəlilərdən yalnız həddən artıq imkansız olan Səhl ibn Hüneyflə Əbu Dəcanəyə pay düşür. Bəni-Nəzir başçılarından birinin çox qiymətli qılıncı isə Səd ibn Məaza verilir. Bununla da bütün müsəlmanların maddi baxımdan imkanları xeyli düzəlir.

Bu hadisə hicrətin dördüncü ili rəbiül-əvvəl ayında baş verir. Həşr surəsi də məhz bununla əlaqədar nazil olur.

Əksər tarixçilər belə hesab edirlər ki, bu döyüşdə qan axıdılmır. Mərhum Şeyx Mufid isə yazır: «Çox qısa bir döyüş oldu. On yəhudinin ölümündən sonra Bəni-Nəzir təslim olmaq məcburiyyətində qalır.»[1]

***Spirtli içkilərin haram buyurulması***

Şərab (spirtli içkilər nəzərdə tutulur) cəmiyyətdə böyük fəsadlar törədən ən böyük bəlalardan biridir. Onun mənfi cəhətlərini sadalayarkən təkcə onu qeyd etmək kifayətdir ki, şərab insanı digər məxluqlardan fərqləndirən qüvvəni, yəni, ağlı aradan aparır. İnsan yalnız ağlı sayəsində səadətə çata bilər. İnsanı heyvanlardan fərqləndirən cəhət də məhz ağıldır. Şərab isə ağlın bir nömrəli düşmənidir. Bu baxımdan şəraba qarşı mübarizə hər bir peyğəmbərin proqramına daxil olmuş və bütün dinlərdə qadağan (haram) edilmişdir.

Ərəbistan yarımadasında şərab içmək geniş yayılaraq ümumi bir bəlaya çevrilmişdi. Ona qarşı mübarizə aparmaq üçün zamana ehtiyac var idi. Mühit və camaatın vəziyyəti şərabın birdəfəyə haram edilməsinə imkan vermirdi. Buna görə də Peyğəmbər(s) bir doktor kimi

[1] Əl-İrşad, s-47-48

onu tədricən qadağan etməli idi. Məhz bu səbəbdən şərabla bağlı nazil olmuş dörd müxtəlif ayənin bir-biri ilə uzlaşmadığını görürük. Belə ki, həmin ayələrdə şərabın haram sayılması (qadağan edilməsi) üçün tədricən şərait yaradılır. Həmin ayələrə diqqət yetirdikdə Peyğəmbərin(s) təbliğ metodu məlum olur. İctimai fəsadlara qarşı mübarizədə məhz bu təbliğ metodundan istifadə etmək lazımdır.

Bəyənilməz işlərə qarşı mübarizənin birinci şərti ilk olaraq cəmiyyətin diqqətini onun (bəyənilməz işin) fəsadlarına, ziyanlarına yönəltmək lazımdır. Cəmiyyətin özündə həmin fəsadlara qarşı mübarizə ruhu yaranmayınca heç bir mübarizədən danışmağa dəyməz. Bunu nəzərə alaraq Quran bütün ərəblərin şəraba aludə olduğu bir vaxtda xurma və üzümdən şərab düzəltməyi gözəl ruzidən fərqləndirərək onu gözəl ruzi hesab etməmiş, bununla da yatmışları oyatmağa çalışmışdır: ***«Siz xurma ağaclarının meyvəsindən və üzümlərdən şərab və gözəl ruzi (kişmiş, mövüc, bəhməz və.s) düzəldirsiniz...»***[1]

Quran ilk dəfə şərab haqqında ayə nazil edərək bildirir ki, şərab gözəl ruzi deyil. Gözəl ruzi odur ki, xurma və üzümü olduğu kimi istifadə edəsiniz. Bundan sonra camaat nisbətən ayılır, Peyğəmbər(s) isə növbəti fikrini daha kəskin şəkildə çatdıraraq bildirir ki, şərabla qumarın cüzi faydası onların ziyanı ilə müqayisədə heç nədir. Ayəyə diqqət yetirək: ***«(Ya Rəsulum!) Səndən içki və qumar haqqında sual edənlərə söylə: «Onlarda həm böyük günah, həm də insanlar üçün mənfəət (dünya mənfəəti) vardır. Lakin günahları mənfəətlərindən daha böyükdür!»***[2]

Məlum məsələdir ki, ziyanla xeyrin müqayisəsində ziyanın artıq olması yalnız çox ağıllı adamların həmin şeyə nifrət etməsinə kifayət edir. Camaatın əksəriyyəti isə həmin şey qəti olaraq qadağan (haram) edilməyincə ondan əl çəkən deyil. Yuxarıda qeyd etdiyimiz iki ayənin nazil olmasına baxmayaraq Əbdürrəhman ibn Ovf təşkil etdiyi ziyafətdə süfrəyə şərab da düzür. Ziyafətdə iştirak edənlər yeyib-içdikdən sonra namaz qılmağa başlayırlar. Onlardan biri namazda Kafirun surəsini oxuyarkən: «Mən sizin ibadət etdiklərinizə (bütlərə) ibadət etmərəm!» ayəsini «Mən

---

[1] Nəhl-67

[2] Bəqərə-219

sizin ibadət etdiklərinizə (bütlərə) ibadət edərəm!» kimi deyir. Bu isə əsl bütpərəstlik demək idi.

Bu hadisə ona səbəb olur ki, şərab içmək ən azı müəyyən vaxtlarda haram sayılsın. Buna görə də ayə nazil olur ki, heç kim məst halda namaz qıla bilməz: ***«Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlamayana qədər... namaza yaxınlaşmayın (namaz qılmayın)!»***[1]

Bu ayə elə təsirli olur ki, bəzi müsəlmanlar nəinki təkcə namaz vaxtı, ümumiyyətlə şərabı birdəfəlik tərgidərək deyirlər: «İnsanın namazına xələl gətirən şeydən tamam uzaqlaşmaq lazımdır.» Lakin hələ də əksəriyyət içkidən istifadə edirdi. Hətta ənsardan bir nəfər ziyafət verərkən süfrəyə şərab da qoyur. Qonaqlar yeyib-içdikdən sonra bir-birinin canına düşüb qırğın salırlar. Söhbət Peyğəmbərə(s) gedib çatır. İndi artıq şərabın tam qadağan edilməsi üçün lazımı şərait hazır idi.

Buna görə şərabın haram olduğunu bildirən aşağıdakı ayə nazil olur: ***«Ey iman gətirənlər! Şərab da (içki də) qumar da, bütlər də, fal oxları da şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız!»***[2]

Bu ayənin nazil olması ilə o vaxtadək qəti bir söz deyilməməsi bəhanəsi ilə hələ şərab içən şəxslər şərab içməyi tərgidirlər. Sünni və şiə mənbələrində göstərilir ki, ikinci xəlifə yuxarıdakı ayəni eşitdikdən sonra deyir: «İlahi, daha son qoyduq!»[3] Nəhayət, sonuncu ayə nazil olub məsələyə nöqtə qoyur. Təəssüflər olsun müasir dövrümüzdə kimlərsə şərabla bağlı ayələrin heç birini onun haram sayılması üçün qaneedici saymır. Onlar belə hesab edirlər ki, şərabın haram edilməsi üçün mütləq «haram sözündən istifadə edilməli idi. Əks təqdirdə onun haram edildiyi aydın olmaz.»

Həvayi-nəfsə tabe olan və bəhanə axtaran belə adamlar şərab aludəsi olduğundan ondan əl çəkə bilmir və bu səbəbdən əsassız bəhanələrə əl atırlar. Ancaq belələrinin diqqətinə çatdırmaq istərdik ki, Quran dolayısı yolla da olsa, «haram» sözünü işlədib. Belə ki, bir ayədə: «Lakin günahları mənfəətlərindən daha böyükdür!»-deyən Allah başqa bir

---

[1] Nisa-43

[2] Maidə-90

[3] Ruhul-məani, c-7, s-15

ayədə bütün günahların haram edildiyini bildirir: ***«De: «Rəbbim yalnız aşkar və gizli alçaq işlərin, hər cür günahı... haram buyurmuşdur.»***[1]

Məgər bu iki ayədən şərabın haram olduğunu başa düşmək olmaz? Sadəcə olaraq qərblilər daha açıq bəyan gözləyirlərmiş. Bizim əlavə heç bir sübuta ehtiyacımız yoxdur. Şərabı murdar, çirkinlik, şeytan əməli, səadətin ziddi və qumara tay və düşmənçiliyə səbəb olan vasitə hesab edən dörd ayə onun haram olduğunu çatdırmaq üçün kifayət edir. Peyğəmbər(s) də öz mühitini bu dörd ayə vasitəsilə şərabdan təmizləyə bildi. Qərb dünyası isə əlindəki geniş imkanata rəğmən bu sahədə hələ heç bir uğurlu addım ata bilməmişdir. Gördüyü tədbirlər də nəticəsiz qalmışdır. 1933-1935-ci illərdə ABŞ-ın spirtli içkilərə qarşı mübarizə proqramının uğursuzluğa düçar olmasını bütün dünya görmüşdü.

### *Zatur-ruqa döyüşü*

Döyüşün belə adlandırılmasının səbəbi odur ki, döyüş məntəqəsi enişli-yoxuşlu dağ olubmuş. Bəzi mənbələrdə isə bu döyüşdə müsəlmanlar piyada getdiklərinə görə ayaqlarına köhnə parçalar doladığından belə adlandırıldığı göstərilir.

Zatul-ruqa döyüşü müdafiə xarakterli bir döyüş olmuşdur. Belə ki, Peyğəmbər(s) Qətfan qəbiləsinin Bəni-Məharib və Bəni-Sələbə tayfalarının qarşısını almağa çalışmışdır. Belə ki, Peyğəmbər(s) məntəqə haqqında məlumat toplamaq məqsədilə ara-sıra ətrafa kəşfiyyatçılar göndərirdi. Bir dəfə də belə məlumat çatır ki, adı çəkilən tayfalar ordu toplayıb Mədinəyə hücuma hazırlaşır. Peyğəmbər(s) ordunu hazır vəziyyətə gətirib Nəcd istiqamətinə doğru irəliləyir. Fədakarlığı, cəsarəti bütün yarımadaya səs salmış İslam ordusunun gəlişindən xəbər tutan düşmən geri çəkilməyə məcbur olub dağın başına qalxır.

Bu yürüşdə Peyğəmbərin(s) müsəlman döyüşçülərlə birlikdə vacib namazı qorxu namazı şəklində qılmasından və Nisa surəsinin 102-ci ayəsinə əsasən bu namazı müsəlmanlara öyrətməsindən məlum olur ki, düşmən kifayət qədər təhlükəli və vəziyyət olduqca gərgin imiş. Lakin sonda qələbə qazanan tərəf müsəlmanlar olur.

---

[1] Mustədrək, c-4, s-143

Tarixçi və təfsirçilər, o cümlədən İbn Hişamla[1] mərhum Təbərsi[2] bu döyüşlə bağlı bir əhvalat qeyd etmişlər ki, Peyğəmbərin(s) düşmənə olan mülayim rəftarından xəbər verir. Ona bənzər başqa bir hadisəni biz Zi-əmr yürüşündə qeyd etmişdik.[3]

***Dözümlü nəzarətçilər***

İslam ordusu vuruşmadan geri dönsə də, müəyyən qədər qənimət əldə edir. Müsəlmanlar gecəni böyük bir dərədə gecələməli olurlar. Peyğəmbər(s) dərənin girişində iki nəfər nəzarətçi qoyur. Übadla Əmmar hərəsi gecənin bir hissəsini növbə çəkməli olur. İlk olaraq Übad pusquda durmalı idi.

Qətfan qəbiləsindən olan bir kişi müsəlmanlara zərər yetirmək üçün onları təqib edirdi. O, gecənin qaranlığından istifadə edib namaz qılan Übadı oxla vurur. Ox onun ayağına dəysə də başı namaza qarışdığından ağrını hiss etmir. Bu hadisə üç dəfə təkrar olur. Sonuncu dəfə oxun ağrısından Übad namazı tələsik bitirib digər gözətçi Əmmarı oyadır. Übadın yaralandığını görən Əmmar ona etiraz edərək deyir ki, nəyə görə məni əvvəlcədən oyatmamısan? Übad onun cavabında deyir: «İlk iki oxda Allahımla münacatımı (namazımı) kəsmədim. Üçüncü oxda isə məcbur qalıb namazı bitirdim. Əgər Peyğəmbər(s) məni buraya gözətçi təyin etməsəydi, heç üçüncü oxda da namazımı kəsməz və elə namaz qıla-qıla canımı tapşırardım.»[4]

***İkinci Bədr***

Ühüd döyüşünün sonunda Əbu Sufyan müsəlmanlara müraciət edərək deyir ki, gələn il bu vaxt Bədrdə görüşərik.

Növbəti il çatdıqda (xatırladaq ki, Ühüd döyüşü hicrətin üçüncü ilində baş vermiş və artıq üstündən bir il keçmişdir.) Peyğəmbər(s) ordunu hazır vəziyyətə gətirir. Lakin Əbu Süfyan döyüşə hazır deyildi.

---

[1] Sireyi İbn Hişam, c-2, s-205
[2] Məcməül-bəyan, c-3, s-103
[3] Sireyi İbn Hişam, c-1, s-534
[4] Sireyi İbn Hişam, c-1, s-208-209

Qüreyş bir çox problemlərlə üzləşmişdi. Həm müsəlmanlar, həm də müşriklərlə səmimi münasibəti olan Nəim ibn Məsud Məkkəyə gəldikdə Əbu Süfyan ondan xahiş edir ki, dərhal Mədinəyə qayıdıb Mühəmmədi döyüşə gəlməkdən çəkindirsin. Onu da bildirir ki, Qüreyş bu il döyüşə hazır deyil və Mühəmmədin bütün ərəblərin ticarət mərkəzi sayılan Bədr ərazisindəki hərbi manevrləri bizim ziyanımıza nəticələnər.

Nəim ibn Məsud Mədinəyə gəlib Əbu Süfyanın sözünü Peyğəmbərə çatdırır. Lakin həzrət onun dediklərinə məhəl qoymayıb 1500 nəfərlik ordu və bir qədər ticarət yükü ilə zilqədə ayının əvvəli Bədr məntəqəsinə gəlir. Müsəlmanlar səkkiz gün orada qalırlar. Ticarət vaxtı olduğu üçün öz mallarını satıb xeyli qazanc götürürlər. Bazara gələnlərin hamısı çıxıb getsə də, müsəlmanlar hələ də Bədrdə idilər.

Müsəlmanların Bədrə gəlməsi xəbəri Məkkəyə çatdıqda Qüreyş başçıları öz hörmətlərini qoruyub saxlamaq üçün şəhərdən çıxmaqdan başqa çarə görmürlər. Bədr adı ilə çıxsalar da, Qüreyş ordusu Mərruz-zəhran ərazisinə çatdıqda Əbu Süfyan qəhətliyi bəhanə gətirib geri dönür. Müşriklərin geri qayıtması o qədər pis nəticə verir ki, Səfvan ibn Üməyyə Əbu Süfyana etiraz edərək deyir: «Bu geriləmə ilə bütün hörmətimizi itirdik. Sən keçən il döyüş vədəsi verməsəydin, indi belə rüsvayçılıqla qarşılaşmazdıq.»[1]

Hicrətin üçüncü ilindəki ən əlamətdar hadisələrdən biri də Şəban ayının üçü Peyğəmbərin(s) ikinci nəvəsi həzrət Hüseynin(ə) anadan olmasıdır.[2]

Əmirəl-möminin Əli ibn Əbutalibin(ə) anası Fatimə bin Əsədin vəfatı[3] və eləcə də Peyğəmbərin(s) göstərişi ilə Zeyd ibn Sabitin yəhudilərdən siryani xəttini öyrənməsi də hicrətin dördüncü ilində baş vermişdir.[4]

[1] Məğazi Vaqidi, c-1, s-390, 484
[2] Tarixul-xəmis, c-1, s-467
[3] Tarixul-xəmis, c-1, s-467
[4] İmtaul-əsma, s-187; Tarixul-xəmis, c-1, s-464

# HİCRƏTİN BEŞİNCİ İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR

Hicri beşinci ildə baş vermiş ən mühüm hadisələr Xəndək (Əhzab) döyüşü, Bəni-Qüreyzə macərası və Peyğəmbərin(s) Cəhşin qızı Zeynəblə evlənməsi olmuşdur. Tarixçilərin yazdığına görə həzrətin Zeynəblə evlənməsi beşinci ilin ilk yadda qalan hadisəsidir. Quran bu məsələyə Əhzab surəsinin 4, 6 və 36-40-cı ayələrində toxunaraq qərəzli şərqşünasların əsasız iddialarını rədd etmişdir. İndi biz də məsələni ən mötəbər mənbə olan Quran baxımından araşdırdıqdan sonra şərqşünasların fikirlərinə münasibət bildirəcəyik.

***Zeyd ibn Harisə kim idi?***

Zeydi uşaq vaxtlarında bədəvi ərəblər bir karvandan oğurlayaraq Məkkədəki Okaz bazarında qul kimi satmışdılar. Həkim ibn Həzam onu bibisi Xədicə üçün alır. Xədicə də həzrət Mühəmmədə(s) ərə getdikdən sonra Zeydi ona bağışlayır.

Mühəmməd(s) hələ peyğəmbər seçilməzdən qabaq Zeyd onun gözəl əxlaqının vurğunu olur. Vəziyyət elə bir həddə gəlib çatır ki, Zeydin atası onun ardınca gəlib özü ilə aparmaq istədikdə o razı olmur. Peyğəmbər(s) ona getməklə qalmaq arasında ixtiyar verdikdə Zeyd ata-anasını, yurd-yuvasını Peyğəmbərə qurban verib onun yanından ayrılmır.

Zeydin Peyğəmbərə(s) olan sevgisi qarşılıqlı idi. Zeyd həzrəti sevirdisə, Peyğəmbər(s) də ona bağlanmışdı, onu oğulluğa götürmüşdü. Camaat ona Zeyd ibn Harisə demək əvəzinə, Zeyd ibn Mühəmməd deyirdi. Peyğəmbər(s) bu oğulluğu rəsmiləşdirmək məqsədilə bir gün Zeydin əlindən tutub qüreyşlilərə müraciət edərək deyir: «Camaat, bu, mənim oğlumdur. Biz, bir-birimizdən irs aparırıq.» Bu qarşılıqlı sevgi, Zeydin Mutə döyüşündə şəhid olamasınadək davam etmişdir. Onun şəhadətində Peyğəmbər(s) öz oğlunun ölümü kimi narahat olur.[1]

---

[1] Usdul-qabə; əl-İstiabu vəl-isabə

***Zeydin Peyğəmbərin(s) bibisi qızı ilə evlənməsi***

Həzrət Peyğəmbərin(s) əsas məqsədlərindən biri də cəmiyyətdəki təbəqələşməni aradan qaldırmaq və insanlığın yalnız əxlaqi dəyərlər əsasında ölçülməsini çatdırmaq idi. Bunun üçün də ilk olaraq Cahiliyyət dövrünün pis adət-ənənələrini (məsələn, əsilzadə qızını yalnız əsilzadə ala bilər) yığışdırmaq lazım idi. Yaxşı olardı ki, bu işi hamıdan qabaq öz qohum-əqrəbasından başlasın. Bu məqsədlə Peyğəmbər(s) öz bibisi qızı Zeynəbi (Əbdülmüttəlibin nəvəsini) vaxtilə qul olmuş Zeydə almaq və bununla da Cahiliyyət adətlərinin tezliklə aradan qaldırılmalı olduğunu camaata çatdırmaq istəyir.

Camaat bilməli idi ki, Peyğəmbər: «Üstünlük təqva ilə ölçülür», «Müsəlman qadın yalnız müsəlman kişiyə layiqdir»- dedikdə bu qanuna ilk növbədə əməl edir.

Yalnış adət-ənənəni aradan qaldırmaq məqsədilə Peyğəmbər(s) Zeynəbin evinə gedib ona Zeyd üçün elçilik edir. Əvvəlcə Zeynəblə qardaşı Abdullah buna razı olmaq istəmirlər. Çünki hələ cahiliyyət fikirləri başlarından tam çıxmamışdı. Digər tərəfdən isə Peyğəmbərə(s) rədd cavabı vermək onları narahat etdiyi üçün Zeydin əvvəllər qul olduğunu bəhanə gətirirlər.

Bu hadisədən dərhal sonra Cəbrail nazil olub Zeynəblə qardaşının hərəkətini pisləyən ayəni gətirir: ***«Allah və Peyğəmbəri bir işi hökm etdiyi (məsləhət bildiyi) zaman heç bir mömin kişiyə və qadına işlərində başqa yol seçmək yaraşmaz. Allaha və Onun Peyğəmbərinə asi olan kəs, şübhəsiz ki, (haqq yoldan) açıq-aydın azmışdır!»***[1]

Peyğəmbər(s) dərhal ayəni oxuyur. Zeynəblə qardaşı Abdullahın Peyğəmbərə(s) olan imanı Zeynəbin ərə getməyə razılıq verməsinə səbəb olur. Beləliklə, əsilzadə bir qız vaxtilə qul olmuş bir oğlana ərə gedir. Bununla da İslamın bəzi amalı həyata keçir.

***Zeydlə Zeynəbin boşanması***

Bu evliliyin axırı müəyyən səbəblərə görə boşanma ilə nəticələnir. Bəzi tarixçilər qeyd edirlər ki, boşanmanın səbəbkarı Zeynəb olmuşdur.

---

[1] Əhzab-36

Çünki o, dəfələrlə özünün məhşur bir ailədən olmasını, Zeydin isə keçmişdə qul olduğunu dilə gətirməklə münasibətləri korlayır. Ancaq belə bir ehtimal da var ki, Zeyd özü arvadı ilə yola getmədiyindən boşanmışdır. Bunu Zeydin dəfələrlə evlənib ayrılması da təsdiqləyir. Bu ardıcıl boşanmalar göstərir ki, deməli, problem Zeyddə imiş.

Zeydin də bu məsələdə günahkar olduğunu göstərən digər bir sübut Peyğəmbərin(s) ona sərt xitab etməsidir. Belə ki, həzrət oğulluğunun boşanmaq istədiyini eşitdikdə narahat olub Zeydə sərt şəkildə deyir: «Arvadını boşama, Allahdan qorx!»[1] Əgər boşanmadan Zeydin günahı olmasaydı, Peyğəmbər(s) onu belə sərt şəkildə danlamazdı. Hər halda Zeydlə Zeynəb arasındakı evlilik telləri qırılır.

***Peyğəmbər(s) daha bir yalnış adəti aradan qaldırmaqdan ötrü Zeynəblə evlənir***

Bu evlənmənin əsas səbəbini araşdırmazdan qabaq cəmiyyətin təməlini təşkil edən nəsəb-qohumluq əlaqələri barədə məlumat vermək məcburiyyətindəyik. Başqa sözlə desək, həqiqi oğulla oğulluq arasındakı fərqi, əsas fərqi diqqətinizə çatdırmaq istəyirik.

Həqiqi oğul atanın belindən gələrək valideynlərinin cismani və mənəvi varisi sayılır.

Bu qan qohumluğu nəticəsində oğulla ata bir-birinin mal-dövlətini irs apara bilər və kəbin-təlaq məsələsində xüsusi hökm daşıyırlar. Bunu sözlə demək, sadəcə mümkünsüzdür. Yəni, birinin başqa birisini oğlu olmadığı halda: «Bu, mənim oğlumdur»-deməsi həmin şəxsi doğrudan da onun oğlu edə bilməz. İnsanın oğulluğu onun həqiqi oğlu ola bilməz, bir-birindən irs apara bilməzlər. Həqiqi oğlun yoldaşı qaynatasına haramdır. Hətta oğul öldükdən sonra da qaynata onun yoldaşı ilə evlənə bilməz. Ancaq bu hökmü oğulluğun arvadına aid etmək olmaz. Bir sözlə oğulluq həqiqi oğulla eyni deyil.

İki nəfərin bir-biri ilə qan qohumu olması insanın həll edə biləcəyi bir məsələ deyil. Yəni, belə deyil ki, istədikdə kimisə kiməsə qan qohumu edək.

Orta əsrlərdə (İslamdan qabaq və ilkin İslam dövründə) ərəblər oğulluğu həqiqi oğul kimi qəbul edirdilər. Peyğəmbər(s) oğulluğu

[1] Əhzab-37

Zeydin sabiq arvadı Zeynəblə evlənməyə qərar verməklə daha bir yanlış fikri düzəltmək, səhv adəti aradan qaldırmaq istəyir. Bu evliliyin bundan başqa bir səbəbi olmamışdır. Peyğəmbər(s) bilirdi ki, bu yanlış adəti aradan qaldırmaq üçün heç kəs ilk olaraq bir addımı atmağa cürət etməyəcək. Buna görə də Allah-taala bu addımı atmağı Peyğəmbərin özünə əmr edir: ***«Zeyd zövcəsi ilə əlaqəsini kəsdikdə (Zeynəbi boşadıqda) səni onunla evləndirdik ki, oğulluqları övrətlərini (arvadlarını) boşadıqları zaman onlarla evlənməkdə möminlərə heç bir çətinlik (günah) olmasın! (Bu işdən möminlərə heç bir günah gəlmədiyini bildirmək üçün belə bir qadınla birinci səni evləndirib bütün müsəlmanlara nümunə etdik.) Allahın hökmü mütləq yerinə yetər!»***[1]

Bu izdivac yanlış bir adətə son qoymaqla yanaşı həm də cəmiyyətdə bərabərliyin ən böyük nümunəsi idi. Belə ki, Peyğəmbər(s) keçmişdə bir qula getmiş xanımla evlənirdi. Bu isə o vaxt qəbuledilməz bir iş sayılırdı. Təbii ki, Peyğəmbərin(s) bu cəsarətli addımı dardüşüncəlilər, xüsusilə də münafiqlər tərəfindən böyük etirazla qarşılanır. Artıq hər yerdə söz-söhbət dolaşır ki, Mühəmməd öz oğulluğunun arvadı (öz gəlini) ilə evlənib. Allah-taala bu yersiz söz-söhbətə birdəfəlik son qoymaq məqsədilə aşağıdakı ayəni nazil edir: ***«Mühəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. (Oğul odur ki, kişinin öz belindən əmələ gələ!) Lakin o, Allahın elçisi və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir!»***[2] Bununla da Allah-taala camaata başa salır ki, Zeyd Peyğəmbərin oğlu, Zeynəb isə onun gəlini deyil. Allah bununla kifayətlənməyib Əhzab surəsinin 38-39-cu ayələrində Peyğəmbəri(s) Onun əmrlərini heç kəsdən qorxmadan icra etdiyinə görə tərifləyir.

İndi isə gəlin qərəzli şərqşünasların bu izdivac haqqındakı fikirlərinə diqqət yetirək.

***Şərqşünasların Peyğəmbərlə Zeynəbin evlənməsinə münasibətləri***

Peyğəmbərin(s) Zeyd ibn Harisənin sabiq həyat yoldaşı Zeynəblə evlənməsi çox sadə bir məsələdir və burada hər hansı qaranlıq məsələ yoxdur. Lakin bəzi şərqşünaslar bunun vasitəsilə sadəlövh insanları

---

[1] Əhzab-37
[2] Əhzab-40

Peyğəmbərə(s) qarşı bədbin etdiyi üçün onların əsassız iddialarını qeyd edib cavabını vermək məcburiyyətindəyik.

Bəzi şərqşünaslar Cahiliyyət adət-ənənəsinin aradan qaldırılmasına xidmət edən bir izdivaca eşq-məhəbbət donu geydirməklə roman müəllifləri onu bəzəməyə çalışmış və dünyanın ən pak insanını eşq-məhəbbət macərasında suçlamışlar. Belə ki, güya bir gün Peyğəmbərin(s) gözü ixtiyarsız olaraq Zeydin arvadı Zeynəbə sataşır.[1] Zeyd həzrətin Zeynəbə vurulduğunu hiss edir. O, Peyğəmbəri(s) həddən artıq çox istədiyindən onun yanına gəlib Zeynəbi boşamaq istədiyini bildirir. O, əslində bununla Peyğəmbərin Zeynəblə evlənməsinə şərait yaradırdı. Peyğəmbər(s) Zeydi bu fikrindən yayındırmağa çalışsa da o, arvadını boşayır. Bundan sonra Peyğəmbər də Zeynəblə evlənir.

Bu fikirdə olan şərqşünaslar həmin hadisənin tarixi sənədini, mənbəyini araşdırmaq əvəzinə bu uydurma hadisəni daha da bəzəyib min bir gecə əfsanələrinə oxşatmışlar. Məlum məsələdir ki, Peyğəmbərin(s) həyatı ilə yaxından tanış olanlar bu hadisənin uydurma olduğunu, onun həzrətin həyatı ilə uyğun gəlmədiyini çox yaxşı anlayırlar. Hətta Fəxr Razi, Alusi kimi liberal müəlliflər də belə bir əhvalatın baş verdiyini təkzib edərək bildirirlər ki, onu İslam düşmənləri uydurararaq müsəlman müəllifləri arasında yaymışlar.[2]

Sözügedən şərqşünaslar bu əhvəlatı Təbəri və İbn Əsirin nəql etdiyini söyləyirlər. Axı bu iki görkəmli tarixçi bunun əksinə dəlalət edən onlarla dəlil-sübut nəql etdikləri halda belə bir şeyi necə söyləyə bilərlər? Hər halda aşağıdakı faktlara əsasən bu əhvalatın uydurma olduğunu anlamaq elə də çətin məsələ deyil:

1) Bu əhvalat İslami mənbələrlə heç cür uyğun gəlmir. Çünki Əhzab surəsinin 37-ci ayəsində açıq-aşkar göstərilir ki, Peyğəmbər(s) Zeynəblə məhz Cahiliyyət adət-ənənəsini aradan qaldırmaq məqsədilə evlənmişdir. Belə ki, o vaxtkı ərəblərin fikrincə oğulluğun arvadı ilə oğulluq onu boşadıqdan sonra evlənmək olmazdı. Ancaq bu, səhv bir adət olmuşdur və Peyğəmbər(s) bu səhvi camaata başa salmaq üçün

[1] Əl-Kamilu fit-tarix, c-2, s-121
[2] Məfatihul-qeyb, c-25, s-212; Ruhul-məani, c-22, s-23-24

Allahın əmri ilə Zeynəbi almışdır. Burada hər hansı eşq-məhəbbət macərasından söhbət gedə bilməz.

Əgər Quranın buyurduğu düz olmasaydı, yəhudi, xaçpərəst və münafiqlər dərhal etiraz edib Quranda səhv olduğunu deyərdilər. Halbuki onlar belə bir şey dilə gətirməyiblər.

2) Zeynəb Zeydə ərə getməzdən qabaq Peyğəmbərin(s) özünə ərə getməyə hazır olduğunu bildirmişdi. Lakin onun istəyinə rəğmən həzrət onun Zeydə ərə getməsini tövsiyə etmişdi. Əgər həqiqətən də Peyğəmbərin(s) Zeynəblə evlənmək fikri var idisə, bəs nəyə görə elə o vaxt bu işi görmür? Onda ki onunla evlənməyə heç bir maneə yox idi. Deməli, bu, yalandan, uydurmadan başqa bir şey deyil. Əlli yaşına qədər özündən 15-20 yaş böyük bir qadınla yaşamış Peyğəmbər(s) heç vaxt belə bir addım atmaz.

Mövzunu bu barədə nazil olmuş və iki cümləsi kimlər üçünsə şübhə yaradan ayəni izah etməklə başa çatdırırıq. Ayədə deyilir: ***«(Ya Peyğəmbər!) Xatırla ki, bir zaman Allahın (İslam dininə yönəltməklə) nemət verdiyi və sənin özünün (köləlikdən azad etməklə) nemət verdiyin şəxsə (Zeyd ibn Harisəyə): «Zövcəni saxla (boşama), Allahdan qorx!»- deyir...»*** Ayənin bu hissəsində heç bir anlaşılmazlıq yoxdur. Əsas şübhə doğuran aşağıdakı iki hissədir:

1) «Allahın aşkar etdiyi şeyi (Zeynəbin boşanacağı təqdirdə onu almağın haqda sənə nazil olan vəhyi) ürəyində gizli saxlayır...»

Görəsən Peyğəmbərin(s) gizli saxladığı nə imiş? Yoxsa o həzrət üzdə Zeydə arvadını boşamamağı israr etsə də, ürəyində onun boşanmasını və özünün onunla evlənməsini arzulayırmış? Bu, doğru fikir deyil. Çünki belə olsaydı, Allah onu açıb deyərdi. Axı Allah Özü buyurur ki, sənin gizlətdiyin şeyi Allah aşkar edəcək.

Təfsirçilər ayənin bu hissəsi ilə bağlı deyirlər: «Peyğəmbərin(s) gizli saxladığı şey Allahın ona etdiyi vəhy idi. Allah o həzrətə vəhy etmişdi ki, Zeyd Zeynəbi boşayacaq, sən isə «oğulluğun arvadı ilə evlənmək olmaz» fikrinin yanlış olmasını aşkar etmək üçün onunla evlənməlisən. Buna görə də Peyğəmbər(s) Zeydə boşanmamasını tövsiyə edərkən həmin vəhy yadına düşür. Lakin onu Zeyd və qeyrilərindən gizlədirdi. Allah isə yuxarıdakı cümlə ilə bildirir ki, onu gizlətmək lazım deyil,

onsuz da Allah Özü onu aşkar edəcək. Elə belə də olur. Allah-taala həmin ayənin tərkibində Zeynəblə evlənməyi Peyğəmbərə vəhy edir. Deməli, Peyğəmbərin(s) gizlətdiyi şey Cahiliyyət adətlərindən birinin aradan qaldırılmasına dair nazil edilmiş vəhy olmuşdur. O da bu idi ki, həzrət oğulluğu Zeydin boşadığı Zeynəblə evlənməli idi.

2) «Adamlardan (onların-Peyğəmbər oğulluğunun boşadığı qadınla evlənir-deyəcəklərindən) qorxurdun. Halbuki əslində sənin qorxmalı olduğuna ən çox layiq olan Allahdır.» Bu cümlədəki anlaşılmazlıq əvvəlki cümlədəkindən qat-qat azdır. Peyğəmbərin(s) narahatlığı ona görə idi ki, Cahiliyyət fikirləri başında qalanlar deyəcəkdilər ki, Peyğəmbər öz oğulluğunun boşadığı qadınla evlənir. Cəmiyyətdə uzun müddətdən bəri pis sayılan işi görmək təbii ki, narahatlıq doğurmaya bilməz.

Hicrətin beşinci ilində bir neçə döyüş və bir neçə də yürüş baş tutmuşdur ki, bunların arasında Xəndək döyüşünün xüsusi yeri vardır. İndi hicri beşinci ildə baş vermiş döyüş və yürüşləri hörmətli oxucuların diqqətinə çatdıracağıq.

### *Domətul-cəndəl yürüşü*

Mədinəyə belə bir xəbər çatır ki, Domətul-cəndəl ərazisində böyük bir dəstə toplaşıb yoldan keçənlərə əziyyət edir və tezliklə Mədinəyə hücum etmək fikrindədirlər. Peyğəmbər(s) onları dağıtmaq məqsədilə min nəfərlik ordu yığıb Mədinədən çıxır. Müsəlmanlar gecələri yol gedir, gündüzləri dincəlirdilər. Müsəlmanların gəlişindən xəbər tutan düşmən dağılışır. Peyğəmbər(s) bir neçə gün orada qalıb ətrafa kəşfiyyatçılar göndərir. Rəbiül-əvvəl ayının iyirmisi Peyğəmbər(s) Mədinəyə qayıdır. Qayıdarkən yolda Fəzar qəbiləsindən olan bir nəfərlə müqavilə bağlayır. Müqaviləyə əsasən Fəzar qəbiləsində baş vermiş qəhətliyə görə həmin şəxs Mədinə otlaqlarından istifadə edə bilərdi.[1]

### *Xəndək döyüşü*

Ötən səhifələrdə qeyd etdiyimiz kimi hicrətin dördüncü ili Bəni-Nəzir yəhudiləri Peyğəmbərlə(s) bağladığı müqavilənin şərtlərini pozduğuna görə Mədinədən çıxarılır, əmlakının bir qismi müsadirə

[1] Ət-Təbəqatul-kubra, c-2, s-44; Sireyi İbn Hişam, c-2, s-213

edilir. Onların bir dəstəsi Xeybərə, bir dəstəsi də Şama köçmək məcburiyyətində qalır. Peyğəmbərin(s) bu hərəkəti tərəflər arasında bağlanmış müqaviləyə tam uyğun idi. Bu hadisə səbəb olur ki, Bəni-Nəzir başçıları Məkkəyə gedib Qüreyşi yenidən Mühəmmədə(s) qarşı təhrik etsinlər.

Bu döyüşdə bütün müşrik və yəhudi qəbilələri İslama qarşı səfərbər olur. Onlar həddən artıq böyük, qüvvətli, təchizatlı ordu ilə Mədinəni təxminən bir ayadək mühasirədə saxlayırlar. Bu döyüşdə müxtəlif dəstələr iştirak etdiyinə və eləcə də müsəlmanlar düşmənin irəliləməsinin qarşısını almaqdan ötrü Mədinənin ətrafında başdan-başa xəndək qazdıqlarına görə döyüş Əhzab (dəstələr) və ya Xəndək döyüşü kimi tanınmışdır.

Bir daha xatırladırıq ki, Bəni-Nəzir və Bəni-Vail başçıları bu döyüşün başlanmasına səbəb olur. Belə ki, yəhudilər Mədinədən çıxarıldıqdan sonra İslamı birdəfəlik aradan aparmaq üçün plan hazırlayırlar. Qeyd etməliyik ki, planları həqiqətən də böyük idi. Demək olar ki, bütün qəbilələri müsəlmanlara qarşı ayağa qaldırırlar. O vaxtadək ərəb tarixində belə bir hal baş verməmişdi.

Bu döyüşdə müxtəlif ərəb qəbilələri yəhudilərin maddi dəstəyindən yararlanır. Ordunun bütün təminatı yəhudilərin öhdəsində idi.

Yəhudilərin hazırladığı plan ondan ibarət idi ki, Bəni-Nəzir başçılarından Səllam ibn Əbülhüqeyq və Hüyeyy ibn Əxtəb kiçik bir heyətlə Məkkəyə gedib Qüreyş başçıları ilə görüşərək onlara deyirlər: «Mühəmməd sizinlə bizi düşmən götürüb Bəni-Qeynüqa və Bəni-Nəzir yəhudilərini Mədinədən çıxarıb. Siz qüreyşlilər müttəfiqlərinizlə birlikdə ayağa qalxın, Mədinə yaxınlığındakı yeddi yüz nəfər Bəni-Qüreyzə döyüşçüsü də sizə köməyə gələcək. Onların Mühəmmədlə müqaviləsi olsa da, biz onları müqaviləni pozmağa vadar edərik.»[1]

Yəhudilərin sözləri müsəlmanlarla döyüşməkdən təngə gəlmiş müşriklərdə təsir qoyur. Bu fikri bəyənib döyüşə hazır olduqlarını bildirirlər. Ancaq hazırlığa gəlməzdən qabaq yəhudilərə belə bir sual verirlər: «Siz kitab əhlisiniz, səmavi kitabınız var, haqla batil şəriətləri

---

[1] Məğazi Vaqidi, c-2, s-441

bir-birindən yaxşı ayırd edə bilirsiniz. Bilirsiniz ki, bizim Mühəmmədlə düşmənçiliyimizin yeganə səbəbi gətirdiyi dinin bizim adətlərimizlə uyğun gəlməməsidir. Yəhudilər utanmadan cavab verirlər ki, bütpərəstlik Mühəmmədin dinindən daha yaxşıdır. Siz öz dininizdə qalın və onun dininə qətiyyən meyl göstərməyin!»[1] Onlar bu cavabla özlərinə böyük bir ləkə vuraraq yəhudilərin qara tarixini daha da qaraldırlar. Bu cavab o qədər bağışlanılmazdır ki, hətta yəhudi müəllifləri də bundan son dərəcə narahat olmuşlar. Doktor İsrail «Ərəbistan və yəhudi tarixi» əsərində yazır: «Yəhudilərin belə bir səhvə yol verməyə qəti haqqı yox idi. Düzdü, Qüreyş böyükləri cavab mənfi olacağı təqdirdə onlara müsbət cavab verməyəcəkdi, ancaq hər halda yəhudilər müşriklərə müraciət etməməli idilər. Çünki bu, Tövratın təlimlərinə ziddir.»[2]

Bəni-Nəzir yəhudilərinin o vaxtkı hərəkəti çağdaş dövrümüzün siyasət nümayəndələrinin fikri ilə üst-üstə düşür. İndi siyasət adamları deyirlər ki, məqsədə çatmaq üçün istənilən addımı atmaq olar. Nə edirsən et, təki məqsədə çatasan. Bu nəzəriyyənin banisi Makyavel demişdir: «Məqsəd bütün vasitələrə bəraət qazandırır.»

Yəhudilərin bütpərəstliyi daha yaxşı din hesab etməsinə dair Quran belə buyurur: ***«(Ya Rəsulum!) Kitabdan (Tövratdan) bir pay (az bir şey) verilənləri (yəhudiləri) görmürsənmi? Onlar Cibt və Tağuta (bu adda iki bütə, yaxud Cibt adlı bütə və Tağut deyilən şeytana) inanır və kafirlər üçün də: «Bunlar möminlərdən daha doğru yoldadırlar»-deyirlər.»***[3]

Özlərini alim kimi qələmə verən yəhudilərin sözləri müşriklərə təsir edir. Döyüşə hazır olduqlarını bildirib Mədinəyə hərəkət vaxtını təyin edirlər.

Bəni-Nəzir başçıları sevincək halda Məkkəni tərk edib Nəcdə doğru gəlirlər ki, İslamla qəti düşmən olan Qətəfan qəbiləsini də döyüşə təhrik etsinlər. Qətəfan qəbiləsindən Bəni-Fəzarə, Bəni-Mürrə və Bəni-Əşcə tayfaları qələbədən sonra Xeybərin bir illik məhsulunun onlara çatacağı şərti ilə yəhudilərə müsbət cavab verir. Digər tərəfdən Qüreyş də öz

---

[1] Sireyi İbn Hişam, c-2, s-214; Tarixi Təbəri, c-2, s-233
[2] Həyatu Muhəmməd, s-297
[3] Nisa-51

müttəfiqləri Bəni-Səlimlə, Qətəfan da müttəfiqi Bəni-Əsədi bu döyüşdə iştirak etməyə razı salır.

Bütün müttəfiqlər təyin olunmuş gündə Mədinəni ələ keçirmək məqsədi ilə hərəkət edir.[1]

***Peyğəmbərə(s) çatdırılan məlumatlar***

Peyğəmbər(s) Mədinəyə hicrət etdikdən sonra mütəmadi olaraq ətrafa kəşfiyyatçılar göndərir, onlar da öz növbəsində lazımi məlumatı həzrətə çatdırırdılar. Müxtəlif qəbilə və tayfaların Mədinəyə hücum etmək məqsədi Peyğəmbərə çatdırıldıqda həzrət dərhal ümumi şura təşkil edir ki, Ühüdün acı təcrübələrindən nəticə çıxarılsın.

Ühüd döyüşündə olduğu kimi bu dəfə də bəziləri düşməni şəhərdə qarşılamağı təklif edir. Lakin bu müdafiə taktikası yetərli ola bilməzdi. Çünki bu dəfəki qoşun həddən artıq böyük idi və şəhər qısa müddət ərzində təslim ola bilərdi. İndi elə bir iş görmək lazım idi ki, düşmən Mədinəyə yaxınlaşa bilməsin.

İran döyüşlərindəki taktikalara çox yaxşı bələd olan Salman Farsi ayağa qalxıb belə təklif edir: «İranda hansısa düşmən hücuma keçdikdə şəhərin ətrafında böyük xəndək qazılır və bununla da düşmənin irəliləməsinin qarşısı alınır. İndi biz də Mədinənin ətrafında böyük bir xəndək qazmaqla düşmənin qarşısını ala bilərik. Düşmən xəndəyi keçə bilməsin deyə, ətrafında nəzarətçilər qoyar, özümüz də şəhər divarının müdafiə-müşahidə dəliklərindən düşmənə ox, daş atmaqla xəndəyi keçməkdə onlara mane ola bilərik.»[2]

Salmanın verdiyi təklifi bütün müsəlmanlar bəyənir. Bu təklif İslamın və müsəlmanların qorunmasında olduqca önəmli rol oynayır. Peyğəmbər(s) özü Mədinənin ətrafına dolanaraq xəndəyin qazılacağı yerə xətt çəkir. Belə qərara alınır ki, Ühüddən Raticə qədər xəndək qazılsın. Qazıntı zamanı hamı bərabər çalışsın deyə, hər qırx ziranın qazılması on nəfərə tapşırılır. İlk külüngü Peyğəmbər(s) özü yerə vurub xəndəyi qazmağa başlayır. Həzrət qazır, Əli(ə) isə torpağı kənara atırdı.

---

[1] Məğazi Vaqidi, c-2, s-443

[2] Tarixi Təbəri, c-2, s-234

Peyğəmbər xəndəyi qaza-qaza üz-gözündən tər axdığı halda deyirdi: «Əsl həyat axirət həyatıdır. İlahi mühacir və ənsarın günahını bağışla!»

Peyğəmbər(s) özü yerə ilk külüngü vurmaqla bir daha müsəlmanlara başa salır ki, ordu başçısı özünü kənara çəkməməli, işdən qorxub qaçmamalıdır. Həzrətin bu hərəkəti müsəlmanları olduqca fəallaşdırır və istisnasız olaraq hamı xəndək qazmağa başlayır. Hətta müsəlmanlarla müttəfiq olan Bəni-Qüreyzə yəhudiləri də avadanlıq, qazıntı alətləri verməklə işin gedişatına yardım edirlər.[1]

Xəndək qazılan zaman yemək-içmək baxımından müsəlmanların vəziyyəti elə də ürəkaçan deyildi. Ancaq bununla belə Mədinənin imkanlı ailələri müsəlmanlara yardım edirdi. Qazıntı zamanı qaya parçaları çıxdıqda müsəlmanlar Peyğəmbərə(s) xəbər verir, həzrət gəlib güclü zərbələrlə qayanı parçalayırdı.

İşçilərin sayını nəzərə almaqla xəndəyin ölçüsünü də müəyyən etmək mümkündür. Belə ki, o vaxt döyüşmək qabiliyyəti olan 3000 müsəlman var idi.[2] Hər qırx ziranın qazılmasının on nəfərə tapşırıldığını nəzərə alsaq, onda xəndəyin uzunluğu on iki min zira, yəni, təxminən beş kilometr yarım olmuşdur. Onu da belə təxmin etmək olar ki, xəndəyin eni və hündürlüyü beş metr olmuşdur.

Xəndəyin qazılması üçün müsəlmanların on nəfərlik işçi qruplarına bölünməsi zamanı hamı Salman Farsinin onların qrupuna düşməsini istəyir. Bunun üçün hətta mübahisə də yaranır. Bu zaman Peyğəmbər(s): «Salman biz Əhli-beytdəndir!»[3]-deməklə mübahisəyə son qoyur.

Xəndək hazır olana qədər Peyğəmbər(s) gecə-gündüz oradan ayrılmırdı. Münafiqlər müxtəlif bəhanələrlə işləməkdən boyun qaçırsa, istədikləri vaxt icazəsiz olaraq çıxıb getsələr də, möminlər böyük həvəslə işləyir, üzürlü məqamlarda Peyğəmbərdən(s) icazə alaraq öz işlərinin ardınca gedib yenidən xəndəyə qayıdırdılar.[4]

### *Mədinənin müşrik və yəhudi ordusu tərəfindən mühasirəsi*

---

[1] Məğazi Vaqidi, c-2, s-445
[2] Sireyi İbn Hişam, c-2, s-220; Məğazi Vaqidi, c-2, s-453
[3] Sireyi İbn Hişam, c-2, s-224; Məğazi Vaqidi, c-2, s-446
[4] Nur-62-63

Müşrik ordusu altı gün əvvəl qazılıb başa çatmış böyük xəndəyin ətrafında dayanmalı olur. Onlar İslam ordusu ilə yenə də Ühüd dağının ətəyində rastlaşacaqlarını güman edirdilər. Ancaq oraya çatdıqda müsəlmanlardan əsər-əlamət görməyib irəliləməyə davam edir və gəlib xəndəyə yetişirlər. Bütün Mədinə ətrafında böyük xəndək qazıldığından təəccüblənən müşriklər deyirlər ki, bu müdafiə taktikasını Mühəmməd hansısa iranlıdan öyrənib, yoxsa ərəblərdə belə bir şey olmayıb.

***Hər iki ordu haqqında statistik məlumat***

Düşmən ordusunun sayı on min nəfərdən artıq idi. Xəndəyin arxa tərəfindən onların qılınclarının parıltısı gözləri qamaşdırırdı. Muqrizinin İmtaul-əsmada yazdığına əsasən təkcə Qüreyş 4000 döyüşçü, 300 at, 1500 dəvə ilə bu döyüşə qoşulmuşdu. Qüreyşin müttəfiqi olan Bəni-Səlim qəbiləsi 700 döyüşçü ilə Mərruz-zəhranda onlara qoşulur. Bəni-Fəzarə tayfası 1000, Bəni-Əşcə və Bəni-Mürrə tayfalarının hər biri 400, digər tayfa və qəbilələr isə 3500 döyüşçü ilə bu döyüşə gəlmişdilər ki, düşmənin ümumi sayı 10.000 nəfəri keçirdi.

Müsəlmanların sayı üç mindən artıq deyildi. Onlar nisbətən hündür ərazi olan Səl dağının ətəyində mövqe seçmişdilər. Oradan bütün xəndəyi və düşmənin hərəkətlərini müşahidə etmək mümkün idi. Müsəlmanlardan bəzisi xəndəyin müxtəlif hissələrində nəzarətdə dayanıb düşmənin xəndəyi keçmək istəyinə mane olurdular. Düşmən ordusu təxminən bir ay xəndəyin arxa tərəfində qalsa da bu müddət ərzində çox az adam xəndəkdən keçməyə müvəffəq olur. Xəndəkdən keçməyə çalışanlar müsəlmanların atdığı daş parçaları ilə istəklərinə çata bilmir, geri çəkilmək məcburiyyətində qalırdılar. Bu müddət ərzində müsəlman döyüşçüləri ilə düşmən döyüşçüləri arasında bir çox maraqlı əhvalatlar baş vermişdir.[1]

***Düşmən ordusunda ərzaq çatışmazlığı***

Xəndək döyüşü baş verən zaman qış fəsli olsa da Mədinədə quraqlıq hökm sürürdü. Düşmən ordusunun ərzaq tədarükü o qədər deyildi ki, istədikləri qədər Mədinə kənarında qalsınlar. Onlar heç təsəvvür etməzdilər ki, bir ay Mədinədə qalacaqlar. Belə güman

[1] Sireyi İbn Hişam, c-2, s-238

edirdilər ki, güclü bir hücumla bütün müsəlmanları qılıncdan keçirib İslamın axırına çıxacaqlar.

Döyüşün səbəbkarları (yəhudilər) artıq mühasirənin ilk günlərində bu məsələni başa düşürlər. Onlar anlayırlar ki, zaman keçdikcə ordunun gücü, iradəsi, ərzaqı azalacaq. Buna görə də belə qərara gəlirlər ki, Mədinədəki Bəni-Qüreyzə yəhudilərindən kömək istəsinlər. Mədinə daxilində vəziyyət gərginləşərdisə, onda düşmən ordusu da zəfər qazana bilərdi.

***Hüyeyy ibn Əxtəb Bəni-Qüreyzə qalasına gəlir***

Bəni-Qüreyzə Mədinədə müsəlmanlarla sülh şəraitində yaşayan yeganə yəhudi qəbiləsi idi. Peyğəmbərlə(s) bağladıqları müqaviləyə hörmətlə yanaşır, müqavilənin şərtlərinə riayət edirdilər.

Hüyeyy ibn Əxtəb qələbənin yalnız Mədinədəki daxili vəziyyəti gərginləşdirməklə mümkün olduğunu görüb, Bəni-Qüreyzə yəhudilərini Peyğəmbərlə(s) bağladıqları müqaviləni pozmağa təhrik etmək fikrinə düşür.

Bu məqsədlə özünü Bəni-Qüreyzə qalasına yetirib qapını döyərək özünü təqdim edir. Bəni-Qüreyzə başçısı Kəb göstəriş verir ki, qapını açmasınlar. Ancaq Hüyeyy ibn Əxtəb israr edərək deyir: «Bir az çörəyini yeyəcəyimdənmi qorxub qapını açmırsan?» Hüyeyyin bu sözü Kəbə təsir etdiyindən qapının açılmasını əmr edir. Hüyeyy ibn Əxtəb qalaya daxil olur, dindaşı Kəbin yanında oturub deyir: «Sənə bütün dünya xoşbəxtliyini gətirmişəm. Qüreyş ordusu, yəhudi qəbilələri-hamısı müştərək düşmənimizi (Mühəmmədi) aradan götürmək üçün birləşmişdir. İndi xəndəyin o biri tərəfindədirlər. Mənə söz veriblər ki, Mühəmmədlə müsəlmanların axırına çıxmayınca buradan gedən deyillər.» Kəb onun cavabında deyir: «Allaha and olsun ki, sən bir dünya xoşbəxtlik yox, bədbəxtlik gətirmisən. Mühəmmədlə döyüşə gəlmiş ordu mənim gözümdə yağışsız buluda bənzəyir. Guruldayır, ancaq bir damcı da yağış yağdırmır. Ey Əxtəbin oğlu, ey döyüşə səbəb olan şəxs, bizdən əlini üz! Mühəmmədin üstün cəhətləri onunla müqaviləmizi pozmağa mane olur. Biz onda düzgünlük, təmizlikdən başqa bir şey görməmişik. Ona niyə xəyanət etməliyik?» Hüyeyy ibn

Əxtəb şirin dilini işə salıb o qədər yağlı vədlər verir ki, axırda Kəbi müqaviləni pozmağa razı salır. Digər yəhudi başçılarını da dinləyib müqaviləni pozurlar.[1] Zübeyr Bata adlı yaşlı bir qoca deyir: «Mən Tövratda oxumuşam ki, Məkkədən bir peyğəmbər çıxıb Mədinəyə hicrət edəcək, dini bütün dünyanı bürüyəcək. Heç bir ordu da ona müqavimət göstərə bilməyəcək. Əgər həmin peyğəmbər Mühəmməddirsə, bu ordu çətin ki, ona qalib gəlsin.» Hüyeyy ibn Əxtəb dərhal deyir ki, xeyr, o peyğəmbər Bəni-İsraildən çıxacaq. Mühəmməd isə İsmail övladlarındandır.

Nəhayət, Bəni-Qüreyzə yəhudiləri Peyğəmbərlə(s) bağladığı müqaviləni pozmağa razı olur. Hüyeyy həmin müqaviləni cıraraq deyir ki, məsələ bitmişdir, döyüşə hazır olun![2]

***Peyğəmbər(s) Bəni-Qüreyzənin müqaviləni pozmasından xəbər tutur***

Peyğəmbər(s) gizli xəfiyyələri vasitəsilə Bəni-Qüreyzənin müqaviləni pozduğundan xəbərdar olur. Bundan narahat olan Peyğəmbər(s) dərhal Səd ibn Məazla Səd ibn Übadəni (onlar müvafiq olaraq Ovs və Xəzrəc qəbilələrinin başçıları idilər) Mədinəyə göndərir ki, dəqiq məlumat öyrənsinlər. Həzrət onlara tapşırır ki, deyilənlər doğru olarsa, qayıdarkən bunu «Əzul və Qarrə» (İslam təbliğatçılarının adıdır) deməklə çatdırsınlar. Yox əgər deyilənlər yalan olarsa, bunu açıq şəkildə bildirsinlər. Onlar Bəni-Qüreyzə qalasının qapısına yaxınlaşıb Kəblə danışmaq istədikdə o, ağzını açan kimi Peyğəmbəri də, nümayəndələri də söyməyə başlayır. Səd sanki gələcəyi görürmüş kimi deyir: «And olsun Allaha, bu ordu öz yurduna geri dönəcək, Peyğəmbər(s) isə bu qalanı mühasirə edib sənin başını vuracaq, qəbilənizi pis günə qoyacaq.»

Sonra Peyğəmbərin(s) hüzuruna qayıdıb «Əzul və Qarrə» deməklə kifayətlənirlər. Peyğəmbər(s) uca səslə deyir: «Allahu Əkbər, ey müsəlmanlar, qələbə yaxındadır.» Peyğəmbər(s) bu cümlə ilə

---

[1] Məğazi Vaqidi, c-2, s-455-456

[2] Biharul-ənvar, c-20, s-223

müsəlmanların ruhiyyəsini yüksəldir və qoymur ki, Bəni-Qüreyzənin xəyanətini eşitdikdə ruh düşkünlüyünə uğrasınlar.[1]

*Bəni-Qüreyzənin ilk təcavüzləri*

Bəni-Qüreyzənin ilk planı bu olur ki, Mədinəni qarət edib müsəlman arvad-uşaqlarını qorxutsunlar. Onlar yavaş-yavaş bu planı icra etməyə başlayırlar. Gecə ikən şəhərdə soyğunçuluqla məşğul olurlar. Peyğəmbərin(s) bibisi Səfiyyə bu barədə deyir: «Mən Həssan ibn Sabitin evində idim. O özü də arvad-uşağı ilə evdə idi. Birdən hasarın ətrafında üz-gözünü örtüb gəzən bir kişi gördüm. Həssana dedim ki, bunun heç yaxşı niyyəti yoxdur, dur get onu buradan uzaqlaşdır.

Həssan cavab verdi: «Ey Əbdülmüttəlibin qızı, mənim onu öldürməyə hünərim yoxdur. Qorxuram ki, çölə çıxaram, başıma bir iş gələr.» Məcbur qalıb əlimə bir parça dəmir aldım, çölə çıxıb yəhudi kişinin başına bir zərbə vurmaqla onu öldürdüm.»

Peyğəmbərə(s) xəbər verilir ki, Mədinəni qarət etmək üçün Bəni-Qüreyzə Qüreyşdən iki min döyüşçü istəyib. Peyğəmbər(s) dərhal Zeyd ibn Harisə və Məsləmə ibn Əsləmi beş yüz mücahidlə şəhərə göndərir. Onlara tapşırır ki, şəhərdə gəzib təkbir deyərək Bəni-Qüreyzənin təcavüzünün qarşısını alsınlar. Həm də qadınlarla uşaqlar təkbir səslərini eşidib rahat olsunlar.[2]

*İmanla küfrün qarşılaşması*

Xəndək döyüşünə qədər müsəlmanların müşrik və yəhudilərlə başqa döyüşləri də olmuşdu. Ancaq o döyüşlərdə düşmən konkret bir qəbilə idi. İndi isə bütün Ərəbistan yarımadası əlbir olub İslama qarşı döyüşə gəlmişdi. İndi onlar İslamın axırına çıxıb işini birdəfəlik etmək istəyirdilər. Müsəlmanlar lazımı və düzgün müdafiə taktikası seçməsəydilər, yəqin ki, düşmən arzuladığı qələbəni əldə edəcəkdi.

Böyük ərəb cəngavəri Əmr ibn Əbdəvüd də bu döyüşə gəlməklə düşmənlərin gücünə güc qatmışdı. Demək olar ki, bu döyüş imanla küfrün qarşıdurması idi.

---

[1] Məğazi Vaqidi, c-2, s-458-459

[2] Sireyi Hələbi, c-2, s-315

Düşmən ordusunun qalib gələ bilməməsinin ən əsas amillərindən biri müsəlmanların qazdığı böyük xəndək idi. Düşmən gecə-gündüz xəndəyi keçməyə cəhd etsə də müsəlman gözətçilərin təzyiqi və şəxsən Peyğəmbərin tədbirləri nəticəsində geri çəkilmək məcburiyyətində qalırdı. Digər tərəfdən ordudakı ərzaq çatışmazlığı, heyvanatın yeminin azlığı da narahatlıq doğuran səbəblərdən olmuşdur.

Döyüşün səbəbkarı Hüyeyy ibn Əxtəb Bəni-Qüreyzə yəhudilərindən iki dəvə yükü xurma alsa da, gətirərkən müsəlmanlar xurmaları ələ keçirirlər.[1]

Bir gün Əbu Süfyan Peyğəmbərə(s) belə bir məktub yazır: «İslamı məhv etmək üçün böyük bir ordu ilə gəlmişəm. Ancaq neynəyə bilərəm ki, sən bizimlə döyüşmək istəmirsən. Aramızda xəndək qazmaqla fasilə yaratmısan. Mən bilmirəm sən bu taktikanı kimdən öyrənmisən, ancaq onu deyə bilərəm ki, Ühüd kimi qanlı bir qırğın törətməyincə qayıdan deyiləm.»

Peyğəmbərin(s) Əbu Süfyana yazdığı cavab məktubu isə belə olur: «Allahın elçisi Mühəmməddən Əbu Süfyan ibn Hərbə! Nə vaxtdır özünə arxayınlaşıb elə düşünürsən ki, İslama son qoya biləcəksən. Ancaq onu bil ki, sən bunu bacarmayacaqsan. Tezliklə məğlub olub geri dönəcəksən. Mən isə Qüreyşin böyük bütlərini sənin gözünün qabağında sındıracağam.»[2]

Məktubun məzmunu onu yazanın öz fikrində ciddi olduğundan xəbər verirdi. Bu, Əbu Süfyanın ürəyinə ox kimi sancılır. Mühəmmədin(s) doğru danışan olduğuna inanan qüreyşlilərin ruhiyyəsi bu məktubdan sonra xeyli sarsılır, lakin yenə də öz fikirlərindən əl çəkmirlər.

Bir gecə Xalid ibn Vəlid xəndəkdən keçməyə çalışsa da Üseyd ibn Hüzeyrin başçılıq etdiyi 200 nəfərlik mühafizə dəstəsi onu geri çəkilməyə məcbur edirlər.

Peyğəmbər(s) mücahidlərin psixoloji hazırlığını qətiyyən diqqətdən kənarda qoymazdı. Öz odlu çıxışları ilə onlara ruh yüksəkliyi aşılayırdı. Bir gün böyük izdiham qarşısında Allaha həmd-səna etdikdən sonra buyurur: «Ey müsəlman mücahidləri, düşmən qarşısında dözümlü

---

[1] Sireyi Hələbi, c-2, s-323

[2] İmtaul-əsma, s-240

olun. Onu da bilin ki, Cənnət haqq uğrunda çalınan qılıncların kölgəsində gizlənib.»[1]

*Düşmən cəngavərlərinin xəndəkdən keçməsi*

Düşmənin beş cəngavəri xəndəkdən keçməyə müvəffəq olur. Bunlar Əmr ibn Əbdəvüd, Əkrəmə ibn Əbu Cəhl, Hübeyrə ibn Vəhəb, Nofəl ibn Abdullah və Zirar ibn Xəttab idilər. Adı çəkilənlər döyüş paltarı geyib qürurla Bəni-Kənanə döyüşçüləri qarşısında dayanıb deyirlər: «Döyüşə hazır olun! Bu gün görəcəksiniz ki, əsl qəhrəmanlar kimlərdir.» Sonra da atlarını çapıb xəndəyin ən dar yerindən tullanaraq digər tərəfə keçirlər. Onlar müsəlman oxatanlarının hədəfindən yayınsalar da nəzarətçilər onlardan başqasının xəndəyi keçməsinə imkan vermirlər.

Təkbətək döyüş üçün gəlmiş bu beş nəfər Xəndəklə Səl dağı arasındakı ərazidə dayanır, atları ilə meydanda cövlan edərək özlərinə rəqib tələb edirlər.[2] Bu beş nəfərin arasında hamıdan güclü olan Əmr ibn Əbdəvüd bir qədər də irəli çıxıb nərə çəkərək deyirdi: «Döyüşmək istəyən varmı?» Onun səsi bütün ərazidə eşidilir, müsəlmanların bədəninə lərzə salırdı. Müsəlmanlardan səs çıxmadığını görüb daha da cəsarətlənir və deyirdi: «Siz müsəlmanlar demirsiniz ki, bizim ölülər Cəhənnəmə, sizinkilər isə Cənnətə gedir? Məni Cəhənnəmə göndərmək istəyən yoxdurmu? Və yaxud kimsə istəmirmi onu Cənnətə göndərim? Rəqib tələb etməkdən boğazım tutuldu.» O, bu cümlələri rəcəz oxuya-oxuya deyirdi.

İslam ordusunda sükut hökm sürürdü. Peyğəmbər(s): «Bir nəfər qalxıb bunun şərrini aradan qaldırsın»- deyə buyursa da Əlidən(ə) başqa heç kim döyüşməyə cürət etmir.[3] Axırda elə Əli onun döyüşünə getməli olur. Peyğəmbər(s) öz qılıncını Əliyə verir, əmmaməsini onun başına qoyaraq belə dua edir: «İlahi, Əlini pisliklərdən qoru! Allahım Bədrdə Übeydə ibn Harisi, Ühüddə də Həmzəni məndən almışdın.

[1] Sireyi Հələbi, c-2, s-323
[2] Tarixi Təbəri, c-2, s-239; Ət-Təbəqatul-kubra, c-2, s-68
[3] Məğazi Vaqidi, c-2, s-470

İlahi, özün Əlini düşmən şərrindən qoru!» Sonra da bu ayəni oxuyur: «Ey Rəbbim! Məni tək buraxma!»[1]-[2]

Əli(s) çox yubanmasın deyə, meydana doğru irəliləyir. Bu zaman Peyğəmbər(s) öz tarixi cümləsini buyurur: «İmanla şirk üz-üzə gəlir.»

Əli(s) Əmr ibn Əbdəvüdün rəcəzinə uyğun qafiyədən bir rəcəz oxuyaraq deyir: «Tələsmə, sənin qarşına güclü döyüşçü gəlib.» Əli(s) başdan ayağa silahlanmış, əyninə dəmir zireh, başına dəbilqə qoymuşdu. Dəbilqənin dəliklərindən yalnız gözləri görsənirdi. Əmr ibn Əbdəvüd rəqibinin kim olduğunu öyrənmək istədikdə Əli(ə) buyurur ki, mən Əli ibn Əbutalibəm. Əmr deyir: «Səni qanına qəltan etmək istəmərəm. Çünki atanla dost olmuşam. Sənin əmin oğluna (Mühəmmədə) təəccüb edirəm ki, səni hansı ağılla mənim döyüşümə göndərib! Səni nizənin ucunda qaldırıb göydə elə saxlayaram ki, nə ölü olarsan, nə də diri.»

İbn Əbilhədid deyir: «Tarix ustadım Əbülxeyr bu hadisəni şərh edərkən həmişə deyərdi ki, Əmr ibn Əbdəvüd əslində Əlidən qorxurdu. Çünki o, Bədr və Ühüd döyüşlərində Əlinin igidliyini görmüşdü. Buna görə Əli ilə döyüşmək istəmirdi.»

Əli(ə) Əmr ibn Əbdəvüdün cavabında deyir: «Sən mənə görə narahat olma! Mən hər iki halda (ölsəm də, öldürsəm də) xoşbəxtəm və yerim Cənnət olacaq. Sən isə hər iki halda cəhənnəmliksən.» Əmr ibn Əbdəvüd gülümsəyərək deyir ki, Əli, bu bölgü heç ədalətli olmadı, qoy Cənnət də, Cəhənnəm də hər ikisi səninki olsun. Bu zaman Əli(ə) ona bir əhdini xatırladaraq deyir: «Sən Kəbənin pərdəsindən tutub əhd etmişdin ki, döyüş meydanında düşmənin üç istəyindən birini qəbul edəcəksən. Mənim birinci istəyin odur ki, İslamı qəbul edəsən.»

Əmr deyir: Əli, bundan keç, bu, baş tutası şey deyil.

Əli: Döyüşmək fikrindən vaz keç, çıx get burdan.

Əmr: Bunu qəbul etsəm, rüsvay olaram. Şairlər məni həcv edərlər. Camaat elə bilər ki, mən qorxub döyüşdən qaçmışam.

---

[1] Ənbiya-89

[2] Kənzul-fəvaid, s-137

Əli: Elə isə indi sənin rəqibin piyadadır, ancaq sən atlısan, atdan yerə en, piyada döyüşək.

Əmr: Əli, bu, çox kiçik bir istəkdir. Heç inanmazdım kimsə məndən belə bir şey diləsin.[1]

*İki qəhrəmanın döyüşü*

Əli(ə) ilə Əmr ibn Əbdəvüd arasında döyüş başlayır. Toz-duman havaya qalxıb ətrafı bürüyür. Kənardakılar onların döyüşünü izləyə bilmirdilər. Yalnız qalxanlara dəyən qılınc zərbələrinin səsi eşidilirdi. Bir qədər döyüşdükdən sonra Əmr qılıncını Əlinin başına endirir. Əli(ə) qalxanını başına sipər edərək zərbənin qarşısını alır, ancaq buna baxmayaraq zərbə həzrətin başına da işləyir. O, fürsətdən istifadə edib Əmrin qıçlarına qüvvətli bir zərbə vuraraq bir, ya da hər iki qıçını üzür, Əmr yerə sərələnir.

Toz-torpaq arasından Əlinin qələbə qazandığını bildirən təkbir (Allahu əkbər) nidası ucalır. Əmrin yerə sərilməsi onun arxasındakı cəngavərləri elə qorxudur ki, geri dönüb qaçmağa başlayırlar. Üçü xəndəyin digər tərəfinə keçə bilsə də Nofəl atı ilə qarışıq xəndəyə yıxılır. Xəndəyə nəzarət edən müsəlmanlar tez onu daşqalaq etməyə başlayırlar. Bunu görən Nofəl uca səslə deyir: «Belə adam öldürməzlər. Bu, insafdan uzaqdır. Aranızdan biri gəlsin, təkbətək döyüşək.» Əli(ə) irəli gedib onu da qətlə yetirir.

Düşmən qoşununu vahimə bürüyür. Hamıdan çox Əbu Süfyan heyrət içində idi. O, müsəlmanların Həmzənin qisasını almaqdan ötrü Nofəlin bədən üzvülərini (burun-qulağını) kəsəcəklərini güman edirdi. Buna görə də on min dinar göndərib onun nəşini satın almaq istəyir. Peyğəmbər(s) pulu qəbul etməyib buyurur ki, nəşi verin aparsınlar, İslamda ölünü satmaq haramdır.

*Əlinin zərbəsinin dəyəri*

İlk baxışda Əli(ə) adi bir döyüşçü öldürmüşdü. Əslində isə Əmr ibn Əbdəvüdün nərə səslərində canına lərzə düşən İslam ordusunu diriltmiş, on minlik düşmən ordusunu isə vahiməyə salmışdı. Əgər

[1] Biharul-ənvar, c-20, s-227

həmin döyüşdə Əmr qələbə qazansaydı, onda Əlinin igidliyinin dəyəri məlum olardı.

Əli(ə) Peyğəmbərin(s) hüzuruna qayıtdıqda onun vurduğu zərbəyə ən layiqli qiyməti Peyğəmbər özü verir. Həzrət buyurur: «Əlinin vurduğu zərbə bütün insanlar və cinlərin ibadətindən üstündür.» Çünki düşmənin ən böyük pəhləvanının öldürülməsi ilə bütün müsəlmanlar izzətə çatır, kafirlər isə xar olur.[1]

Əmr ibn Əbdəvüdün əynində çox qiymətli zireh olsa da Əli(ə) gözütoxluğundan ona əl vurmur. Əmrin bacısı bu hadisəni eşitdikdə deyir: «Qardaşımın ölümünə qətiyyən kədərlənmirəm. Çünki o gözütox və kəramətli şəxs (mərd adam) tərəfindən qətlə yetirilib. Əgər belə olmasaydı, ömrümün sonunadək onun üçün ağlayardım.»[2]

***Düşmən ordusunun dağılması***

Düşmən ordusundakı müxtəlif dəstələrin hamısı döyüşə eyni məqsədlə gəlməmişdi. Yəhudilər İslamın artan inkişafından narahat olduğu üçün döyüşürdü. Qüreyş müşrikləri İslam və müsəlmanlarla köhnə ədavətlərinə görə vuruşurdu. Qətəfan, Fəzarə və digər qəbilələr isə Xeybər məhsulunun tamahı ucbatından döyüşə gəlmişdi. Deməli, sonuncular sırf maddi məqsəd üçün kafirlərə qoşulmuşdular. Əgər bu məqsəd müsəlmanlar tərəfindən də təmin edilsəydi, onlar məqsədinə çatdığına görə qoşundan ayrılıb öz ev-eşiklərinə dönərdilər. Onu da nəzərə almaq lazımdır ki, qışın olduqca sərt keçməsi, mühasirənin uzanması və heyvanatın otunun tükənməsi də onları narahat edirdi.

Maddi məqsədə görə düşmənə qoşulmuş qəbilələri qoşundan ayırmaqdan ötrü Peyğəmbər(s) onların başçılarının yanına nümayəndələr göndərərək bildirir ki, qoşundan ayrılacaqları təqdirdə müsəlmanlar Mədinə məhsulunun üçdə birini sizə verməyə hazırdılar. Nümayəndələr adı çəkilən qəbilə başçıları ilə hətta müqavilə də tərtib edib imzalamaq üçün Peyğəmbərin hüzuruna gətirirlər. Peyğəmbər(s) müqavilə haqqında Ovs və Xəzrəc başçıları Səd ibn Məazla Səd ibn Übadəyə danışdıqda deyirlər: «Əgər bu, Allahın əmridirsə, bizim heç bir

[1] Mustədrəki Hakim, c-30, s-32; Biharul-ənvar, c-20, s-216
[2] Müstədrəki Hakim, c-30, s-33

etirazımız yoxdur. Yox əgər sizin öz fikrinizdirsə və bizim də fikrimizi öyrənmək istəyirsinizsə, biz deyərdik ki, müqavilə elə burada dayandırılsın və imzalanmasın. Çünki biz tarix boyu bu qəbilələrə bac verməmişik. Onlardan kiminsə cürəti çatmazdı ki, zorla bizim xurmalardan bir dənəsini belə götürsün. İndi Allahın lütfü və sizin rəhbərliyiniz sayəsində daha da əziz və hörmətli olmuşuq. And olsun Allaha, biz onların tələblərinə ancaq qılıncla cavab verəcəyik. Qoy Allah Özü işimizi başa çatdırsın!» Peyğəmbər(s) buyurur: «Mənim belə bir müqavilə bağlamaqda məqsədim o idi ki, gördüm bütün qəbilələr hər tərəfdən üstünüzə hücuma keçir. Dedim bəlkə bu yolla düşməni parçalamaq olar. İndi ki, sizin cəsarətinizi gördüm, artıq müqaviləni ləğv edib sizə deyirəm (və dediyimə inanıram) ki, Allah heç vaxt Öz Peyğəmbərini xar, rüsvay etməz, verdiyi qələbə müjdəsi mütləq doğru çıxacaq.» Bu zaman həzrətin icazəsi ilə Səd ibn Məaz müqavilədə yazılanları pozaraq deyir ki, kafirlər nə istəyirsə eləsinlər, biz kiməsə bac verən deyilik.[1]

***Düşmən ordusunun dağılmasına səbəb olan amillər***

Düşmənin məğlub olmasına səbəb olmuş ilk amil Peyğəmbərin(s) Qətəfan və Fəzarə başçıları ilə apardığı danışıqlar olur. Belə ki, müqavilə imzalanmasa da qəbul edilməməsi də rəsmən elan olunmur. Bunun nəticəsində adı çəkilən qəbilələr öz müttəfiqləri ilə ikili standartlar yürüdür və hər gün müqavilənin imzalanacağını gözləyirdilər. Ordu başçıları onların hücuma keçməsini istədikdə müqavilənin imzalanacağı ümidi ilə müxtəlif bəhanələrlə hücumdan imtina edirdilər.

2) Düşmən ordusunun bel bağladığı Əmr ibn Əbdəvüdün öldürülməsi və onun ardınca digər qəhramanaların döyüş meydanından qaçması da məğlubiyyətdə önəmli amillərdən olmuşdur.

3) Yenicə müsəlman olmuş Nüeym ibn Məsud düşmən ordusunu parçalanmağında müstəsna rol oynayır. O, mahir bir cəsus kimi düşmən sıralarına nüfuz edib onları parçalayır. Nüeym Peyğəmbərin(s) hüzuruna gəlib deyir: «Mən yeni müsəlman olmuş bir adamam. Düşmən ordusundakı bütün dəstələrlə də yaxşı münasibətim var. Onlar hələ mənim müsəlman olduğumu bilmirlər. Nəsə əmriniz varsa, yerinə

---

[1] Sireyi İbn Hişam, c-2, s-223; Biharul-ənvar, c-20, s-252

yetirməyə hazıram.» Həzrət buyurur ki: «Elə bir iş gör ki, bu qoşun dağılsın.» Nüeym bir qədər fikirləşib düşmənin ehtiyat qüvvəsi sayılan və müsəlmanları təhdid edən Bəni-Qüreyzə qalasına gedir. Başçıları ilə oturub söhbətləşir, onlara xeyirxahlıq məqsədilə gəldiyini bildirərək etimadlarını qazanır. Sonra deyir: «Sizin vəziyyətinizlə bu qoşundakıların vəziyyəti fərq edir. Çünki sizin yaşayış yeriniz Mədinədir və buradan başqa ümid yeriniz yoxdur. Mühəmmədin döyüşünə gəlmiş dəstələrin yaşayış yeri isə Mədinədən çox uzaqdadır. Əgər bu döyüşdə onlar qalib gəlsələr, istəklərinə çatacaqlar, yox əgər məğlub olsalar, dərhal öz yurd-yuvalarına qaçıb sizi burada tənha qoyacaqlar. Sözsüz ki, Mühəmməd də sizi rahat buraxmayacaq. Buna görə də məsləhət görürəm ki, siz döyüşə gələn dəstələrlə iş birliyinizi davam etdirin, ancaq onların başçılarından bir neçəsini girov olaraq öz yanınızda saxlayın ki, qüreyşlilərlə qətafanlılar dar gündə sizi tək qoyub qaçmasınlar. Başçıları sizin yanınızda olduğu halda onlar sonadək mübarizə aparmaq məcburiyyətində qalacaqlar.»

Nüeymin təklifini Bəni-Qüreyzə yəhudiləri yekdilliklə qəbul edirlər. Nüeym isə qaladan çıxıb düşmənin düşərgəsinə doğru gedir. Qüreyşlilərlə dostluq münasibətrləri olan Nüeym onlara deyir: «Bəni-Qureyzə Mühəmmədlə müqaviləni pozduğu üçün çox narahatdır. İndi bir vasitə ilə bunu aradan qaldırmağa çalışırlar. Onlar sizin başçılarınızdan bir neçəsini girov götürüb Mühəmmədə təhvil vermək niyyətindədirlər. Bu yolla Mühəmmədə olan sədaqətini bir daha nümayiş etdirmiş olacaqlar. Mühəmməd də sözsüz ki, tutulanları dərhal qətlə yetirəcək. Onlar bu haqda Mühəmmədlə razılığa gəliblər. İndi əgər onlar sizdən bir neçə nəfəri aparıb öz qalalarında girov saxlamağı təklif etsələr, məbada razılaşasınız. Bilin ki, bunun axırı ölümdür. Dediklərimə inanmırsınızsa, onlara tapşırın sabah arxadan hücuma keçsinlər, onda görəcəksiniz ki, siz deyəni qəbul etmir və şərtlər irəli sürürlər.»

Daha sonra Bəni-Qətafanın düşərgəsinə gedib özünə məxsus tərzdə sözə başlayır: «Mənim əsl-kökürn də Bəni-Qətəfandandır. İnanmıram kimsə dediyimi təkzib etsin. Sizə deyəcəklərim var, ancaq xahiş edirəm bundan heç kimin xəbəri olmasın.» Onun səmimiyyətinə heç kəs şübhə etmədi. Nüeym də Qüreyş böyüklərinə dediklərini onlara da təkrar edir.

Nüeym öhdəsinə düşən vəzifəni layiqincə yerinə yetirib gizlicə müsəlmanların düşərgəsinə qayıdır. Bəni-Qüreyzə yəhudilərinin düşmən başçılarından girov götürmək istəyi haqqındakı şayiəni müsəlmanlar arasında da yayır ki, qoy söz-söhbət düşmən ordusuna da gedib çatsın.

***Qüreyş nümayəndələri Bəni-Qüreyzə qalasında***

Əbu Süfyan cümə günü axşam məsələyə birdəfəlik son qoymaq qərarına gəlir. Bu məqsədlə Qüreyş və Qətəfan başçıları Bəni-Qüreyzə qalasına nümayəndələr göndərib deyirlər ki, buralar bizim yaşayış yerimiz deyil. Heyvanatımız qırılmaq ərəfəsindədir. Sabah hücuma keçməyə hazırlaşırıq, siz də arxadan hücum edin, işə birdəfəlik son qoyaq. Bəni-Qüreyzə başçısı nümayəndələrin cavabında deyir: «Sabah şənbə günüdür və şənbə günü biz yəhudilər heç bir iş görmərik. Çünki keçmişdə əcdadlarımız şənbə günü iş görmüş, nəticədə Allahın bəlasına tuş gəlmişlər. Üstəlik biz yalnız o vaxt döyüşə başlayarıq ki, sizin başçılarınızdan bir neçəsi qalamızda girov qalsın. Bunu ona görə istəyirik ki, yarı yolda bizi tək qoymayıb sonadək döyüşəsiniz.»

Qüreyş və Qətəfan nümayəndələri qayıdıb Bəni-Qüreyzənin cavabını öz başçılarına çatdırırlar. Hamı Nüeymin dediklərinin doğru olduğunu anlayır. Nümayəndələr bir daha Bəni-Qüreyzə qalasına qayıdıb bildirirlər ki, biz nəinki başçılarımızı, heç adi bir döyüşçümüzü də burada girov qoymarıq. İstəyirsinizsə, sabah hücuma keçin, biz də sizə kömək edərik.

Nümayəndələrin bu sözləri Bəni-Qüreyzə yəhudilərində Nüeymin dediklərinin doğru olmasında heç bir şübhə yeri qoymur. Hamı bir ağızdan deyir ki, Nüeym haqlı imiş, Qüreyş ancaq özünü fikirləşir. Bu döyüşdə qalib gələ bilməsələr, qaçıb aradan çıxaraq öz yerlərinə qayıdacaq, bizi isə burada müsəlmanların çəngində qoyacaqlar.[1]

4) Düşmən ordusunun dağılmasına səbəb olan digər bir amil isə qeybi kömək olmuşdur. Belə ki, gözlənilmədən tufan qalxır, hava həddən artıq soyuyur. Külək elə güclü əsirdi ki, çadırları yerindən qoparır, ocaqların üstündəki iri yemək qazanlarını ağzı üstə çevirirdi. Ocaqları söndürüb közləri çölə səpələyirdi. Bu zaman Peyğəmbər(s) Hüzeyfəyə tapşırır ki, xəndəkdən keçib düşmən düşərgəsində nələr baş

[1] Sireyi İbn Hişam, c-2, s-229-231; Tarixi Təbəri, c-2, s-242-243

verdiyi haqda məlumat toplasın. Hüzeyfə deyir: «Mən Əbu Süfyanın lap yaxınlığınadək gedib çıxmışdım. O, qoşunun ortasında durub belə deyirdi: «Buralar bizim yaşayış yerimiz deyil. Heyvanlarımız qırılmaq təhlükəsindədir. Güclü tufan çadırlarımızı, ocaqlarımızı dağıdıb. Bəni-Qüreyzə də bizə kömək etməkdən boyun qaçırdı. Məsləhət görürəm ki, buralardan çıxıb gedək.» Sonra ayaqlarını bağladığı dəvəsinə minib onu hərəkətə gətirmək istəsə də dəvə yerindən tərpənmədi. Əbu Süfyan başını o qədər itirmişdi ki, dəvənin ayaqlarını bağladığını unutmuşdu. Artıq səhər açılanda düşmən ordusundan bircə nəfər də xəndəyin ətrafında qalmamışdı.»[1]

Beləliklə, hicrətin beşinci ili zilqədə ayının iyirmi dördündə Xəndək döyüşü başa çatır.

***Sonuncu fəsad yuvası***

Peyğəmbər(s) Mədinəyə hicrət etdiyi ilk ildəcə daxili münaqişələrə son qoymaq məqsədilə bir müqavilə hazırlayır və bütün qəbilələr onu imzalayır. Müqaviləyə əsasən Ovs və Xəzrəc qəbilələri, xüsusilə də həmin qəbilələrin yəhudiləri Mədinəni qorumağa borclu idilər. Bu müqavilə (nizamnamə) ötən fəsillərdə oxucuların diqqətinə təqdim edilmişdi. Bundan əlavə Peyğəmbər(s) Mədinədəki üç yəhudi qəbiləsi ilə xüsusi bir müqavilə də imzalayır. Həmin müqaviləyə uyğun olaraq üç yəhudi qəbiləsindən hər biri Peyğəmbərə və ya müsəlmanlara zərər yetirərsə, yaxud müsəlmanların düşməninə silah-sursatla, minik vasitəsilə kömək edərsə, onda Peyğəmbərin(s) onların barəsində ölüm hökmü çıxarmağa, əmlakını müsadirə və arvad-uşaqlarını əsir etməyə haqqı olduğu bildirilirdi. Zaman keçdikcə hər üç qəbilə müqaviləni müxtəlif formalarda pozur. Bəni-Qeynüqa qəbiləsi bir nəfər müsəlmanı öldürür, Bəni-Nəzir qəbiləsi Peyğəmbəri(s) öldürməyə cəhd edir. Buna görə də Peyğəmbər(s) onları Mədinədən sürgün edərək uzaqlaşdırır. Bəni-Qüreyzə də müşrik və yəhudi ordusu ilə əlbir olub İslama zərbə vurmaq istəyirdi. Bu səbəbdən Peyğəmbər(s) onları da cəzalandırmaq qərarına gəlir.

Səhər açıldıqda xəndəyin qarşı tərəfindəki düşmən ordusunda heç kəs gözə dəymirdi. Müsəlmanların üzündəki yorğunluğu hiss etmək elə

---

[1] Tarixi Təbəri, c-2, s-244

də çətin deyildi. Bununla belə Peyğəmbər(s) Allahın əmri ilə Bəni-Qüreyzə ilə hesablaşmalı olur. Azan verən azan deyir. Peyğəmbər(s) zöhr namazını müsəlmanlarla birlikdə qılır. Sonra həzrətin göstərişi ilə azan verən əsr namazının Bəni-Qüreyzə məhəlləsində qılınacağını bildirir. Peyğəmbər(s) ordunun bayrağını Əliyə(ə) verir, cəsur və fateh İslam əsgərləri də Əlinin ardınca Bəni-Qüreyzə qalasına doğru hərəkət edirlər. Müsəlmanların qalaya yaxınlaşdığını görən qala gözətçiləri içəri məlumat verən kimi qala qapıları bağlanır. Qala müsəlmanlar tərəfindən tamamilə mühasirə edilir. Həmin andan etibarən soyuq müharibə başlayır. Bəni-Qüreyzə yəhudiləri qaladakı bacalardan Peyğəmbəri və müsəlmanları söyüb təhqir etməyə başlayırlar. Peyğəmbər(s) yəhudilərin təhqirlərini eşitməsin deyə, İslam bayraqdarı, Əmirəl-möminin Əli(ə) Mədinəyə doğru irəliləyib həzrətin qarşısını kəsməyə çalışır. Lakin Peyğəmbər(s) ona buyurur ki, Əli, yəhudilər məni gördükdə daha söyüş söyməzlər. Həzrət qalanın qarşısına gəlib yəhudilərə deyir: «Allah sizi zəlil və xar etmədimi?» Yəhudilər Peyğəmbərin(s) heç vaxt belə sərt olduğunu görməmişdilər. Həzrəti yumşaltmaq məqsədi ilə deyirlər ki, ey Əbülqasim, axı sən belə sərt adam deyildin! Yəhudilərin bu sözü Peyğəmbəri(s) o qədər yumşaldır ki, ixtiyarsız olaraq geri çəkilir və əbası çiynindən düşür.[1]

***Yəhudilərin müşavirəsi***

Bəni-Qüreyzə yəhudiləri qalaya sığınıb məsləhətləşməyə başlayırlar. Qüreyş ordusu çıxıb getdikdən sonra döyüşün səbəbkarı Hüyeyy ibn Əxtəb Xeybərə getməyib Bəni-Qüreyzə qalasına gəlir. Qaladakı şurada o da iştirak edirdi. Bəni-Qüreyzə başçısı üç təklif irəli sürür:

1) Hamımız İslamı qəbul edək. Çünki Mühəmmədin haqq peyğəmbər olması hamımıza məlumdur. Bunu Tövrat da təsdiqləyir.

2) Arvad-uşağı öldürüb özümüz kişi kimi döyüşək. Ölsək gözümüz arxamızca qalmayacaq, yox əgər qalib gəlsək, yenidən arvad-uşaq sahibi ola bilərik.

3) Bu gün şənbə günüdür. Mühəmməd və tərəfdarları çox yaxşı bilirlər ki, yəhudilər şənbə günü heç bir iş görmürlər. Buna görə gecə hücuma keçib onları qəfil yaxalayaq.

---

[1] Sireyi İbn Hişam, c-2, s-234; Tarixi Təbəri, c-2, s-245-246

Qəbilə başçısının heç bir təklifi qəbul edilmir. Şura üzvləri deyirlər: «Biz heç vaxt öz dinimizdən əl çəkən deyilik. Arvad-uşaqlardan sonra həyatın ləzzəti də olmayacaq. Üçüncü təklif də dini əqidəmizlə uyğun gəlmir. Çünki əcdadlarımız kimi biz də Allahın qəzəbinə tuş gələ bilərik.»[1]

Şura üzvlərinin ruhiyyəsini öyrənmək üçün ən gözəl vasitə onların öz söhbətləridir. Qəbilə başçısının ilk təklifinin rədd edilməsi yəhudilərin necə də inadkar, təəssübkeş bir millət olduğunu göstərir. Başçılarının da dediyi kimi Peyğəmbərin(s) haqq olduğunu bildikləri halda yenə də iman gətirməmələrinə, ona qarşı çıxmalarına inadkarlıqdan başqa nə ad vermək olar? İkinci təklifin qəbul edilməməsi onu göstərir ki, yəhudilər çox rəhimsiz, daşürəkli adamlar olmuşlar. Çünki arvad-uşağı öldürmək üçün yalnız belə olmaq lazımdır. Diqqət yetirirsinizsə, şura ikinci təklifi rədd edərkən ona əsaslanırlar ki, arvad-uşaqdan sonra həyatın ləzzəti olmayacaq. Bir nəfər durub demir ki, axı bu arvad-uşağın nə günahı var ki, onları öldürək? Hətta Mühəmməd də onları ələ keçirsə, heç öldürməz, bəs biz nəyə görə öldürək?

Üçüncü təklifin rədd edilməsi isə ona dəlalət edir ki, onlar Peyğəmbərin(s) hərbi taktikalarını, müdafiə metodlarını düzgün dəyərləndirə bilməyiblər. Onlar elə bilirdilər ki, Peyğəmbər(s) şənbə günü yəhudilər heç bir iş görməz deyə, ehtiyatı əldən verəcəkmiş. Özü də hiyləgərlikdə ad çıxarmış bir düşmənə qarşı!

Xəndək döyüşünü dərindən təhlil etdikdə görürük ki, Bəni-Qüreyzə qəbiləsində düşüncəli, uzaqgörən adamlar çox az imiş. Belə olmasaydı, onlar öz varlıqlarını qoruyub saxlaya bilər və Mədinədə də qalardılar. Onlar Xəndək döyüşündə bitərəf qalmaqla bunu həyata keçirə bilərdilər. Ancaq bədbəxtlikdən Hüyəyy ibn Əxtəbin hiylələrinə uyub düşmən ordusuna qoşulurlar. Bir ay həmkarlıqdan sonra Nüeym ibn Məsudun qurduğu ssenari əsasında Qüreyş ordusuna köməkdən imtina etməklə özlərini daha da bədbəxt etdilər. Onlar heç fikirləşmədilər ki, onsuz da artıq Mühəmmədlə(s) aranı vurublar, digər tərəfdən Qüreyşə kömək etməməklə onları qələbədən məhrum edirlər.

[1] Sireyi İbn Hişam, c-2, s-235

Belə olan halda Bəni-Qüreyzə Mühəmmədlə(s) üz-üzə qalacaq. Əgər onlar düzgün plan qursaydılar, Qüreyşə köməkdən imtina etdikdən dərhal sonra Peyğəmbərlə(s) müqaviləni pozduqlarına görə səmimi-qəlbdən peşman olub həzrətdən üzr istəyərdilər və müsəlmanlar qalib gələcəyi təqdirdə heç bir təhlükə ilə üzləşməzdilər. Onlar o vaxt bədbəxt oldular ki, Qüreyş ordusundan qırıldılar, ancaq müsəlmanlara da qoşulmadılar.

Peyğəmbər(s) Qüreyş ordusu və müttəfiqləri getdikdən sonra Bəni-Qüreyzəni diqqətdən kənar qoya bilməzdi. Çünki Xəndək döyüşünə gəlmiş ordu daha əlverişli bir vaxtda yenidən Mədinəyə hücuma keçib qələbənin açarı olan Bəni-Qüreyzənin köməyindən istifadə edə bilərdi. Buna görə də daxili düşmənin məsələsini mütləq həll etmək lazım idi.

***Əbu Lübabənin xəyanəti***

Bəni-Qüreyzə qalası mühasirə edildikdən sonra yəhudilər Peyğəmbərdən(s) istəyirlər ki, danışıqlar aparması üçün Əbu Lübabəni qalaya göndərsin. Yəhudilərin məhz Əbu Lübabəni istəməsi təsadüfi deyildi, onun Bəni-Qüreyzə ilə İslamdan əvvəl dostluq müqaviləsi var idi. Əbu Lübabə qalaya daxil olan kimi yəhudi kişi və qadınları onun başına yığışıb ağlaşmağa başlayır və deyirlər ki, heç nədən axı nəyə görə təslim olmalıyıq? Əbu Lübabə: «Bəli, təslim olmalısınız.»-deyə barmağı ilə boğazına işarə edir. Yəni, əgər təslim olmasanız, hamınız öldürüləcəksiniz. O, çox yaxşı bilirdi ki, Peyğəmbər(s) İslamın ən təhlükəli düşməni olan yəhudilərin Mədinədə qalması ilə razılaşmayacaq.

Əbu Lübabə bu hərəkəti ilə İslama və müsəlmanlara xəyanət etdiyini başa düşüb çox narahat olur, kədərli halda qaladan çıxıb birbaşa məscidə gedir. Özünü məsciddəki sütunlardan birinə bağlayıb Allahla əhd edir ki, Allah onun təqsirindən keçməyincə ömrünün axırına qədər də olsa, bu vəziyyətdə qalacaq. Təfsirçilərin dediyinə görə aşağıdakı ayə məhz onun xəyanəti haqqında nazil olmuşdur: ***«Ey iman gətirənlər! Bilə-bilə Allaha, Peyğəmbərə və aranızdakı əmanətlərə xəyanət etməyin!»***[1]

---

[1] Ənfal-27

Əbu Lübabənin xəyanət etdiyi Peyğəmbərə(s) çatdıqda buyurur ki, məscidə getməzdən qabaq mənim yanıma gəlsəydi, Allahdan onun bağışlanmasını diləyərdim, Allah da onu bağışlayardı. İndi isə Allah onu bağışlayanadək məsciddə qalmalıdır.

Əbu Lübabənin həyat yoldaşı hər gün namaz vaxtları gəlib onu açır, namaz qıldıqdan sonra yenidən bağlayırdı.

Altı gün keçir. Peyğəmbər(s) Ümmi Sələmənin evində olarkən sübh tezdən Cəbrail gəlib Əbu Lübabənin bağışlandığını çatdıran aşağıdakı ayəni nazil edir: «Bir qismi də günahlarını etiraf etdi. Onlar yaxşı bir əməllə pis bir əməli bir-birinə qarışdırmışlar.

Ola bilsin ki, Allah onların tövbələrini qəbul etsin. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!»[1]

Ümmi Sələmə Peyğəmbərin gülümsədiyini gördükdə həzrət buyurur: «Allah-taala Əbu Lübabənin təqsirindən keçdi, get hamıya xəbər ver!» Ümmi Sələmə bunu camaata xəbər vercək hamı Əbu Lübabənin üstünə axışır ki, kəndiri açsın. Ancaq Əbu Lübabə icazə vermir və deyir ki, kəndiri Peyğəmbər açmalıdır. Peyğəmbər(s) sübh namazını qılmaq üçün məscidə gəldikdə Əbu Lübabənin bağlandığı kəndiri öz mübarək əlləri ilə açır.[2]

Sonda onu da qeyd edək ki, Əbu Lübabə heç nədən xəyanət etmişdi. Yəhudi kişi və qadınlarının ağladığına yazığı gəlib müsəlmanların sirrini faş etmişdi. Lakin iman qüvvəsi onu məcbur edir ki, özünü sütuna bağlayıb bağışlanılmasını gözləsin və bir daha belə səhvə yol verməsin.

***Bəni-Qüreyzə yəhudilərinin aqibəti***

Mühasirə günlərindən birində Şas ibn Qeys Bəni-Qüreyzə yəhudilərinin nümayəndəsi olaraq qaladan çıxıb Peyğəmbərin(s) hüzuruna gəlib xahiş edir ki, həzrət Bəni-Qüreyzəyə də digər yəhudilər kimi daşınan əmlakını da götürüb Mədinəni tərk etməyə icazə versin. Peyğəmbər(s) Şasın bu xahişini rədd etdikdə o başqa bir təklif edir. Deyir ki, onda onların əmlakını müsadirə edin, ancaq özlərinə icazə

[1] Tövbə-102

[2] Sireyi İbn Hişam, c-2, s-237

verin Mədinəni tərk etsinlər. Həzrət bunu da qəbul etməyib hər iki halda cavab verir ki, Bəni-Qüreyzə qeyd-şərtsiz təslim olmalıdır.[1]

Burada belə bir sual irəli çıxır ki, Peyğəmbər(s) nəyə görə Bəni-Qüreyzə nümayəndəsinin təkliflərini qəbul etmədi? Cavab məlumdur. Çünki onların da Bəni-Nəzir yəhudiləri kimi Mədinədən çıxdıqdan sonra bütpərəst ərəb qəbilələrini İslama və müsəlmanlara qarşı təhrik edib döyüşə gətirmələri istisna edilmirdi. Məhz bu səbəbdən Peyğəmbər(s) onların təklifini qəbul etmir. Şas ibn Qeys qalaya qayıdıb nəticəni qəbilə başçılarına çatdırır. Bəni-Qüreyzə belə qərara gəlir ki, qeyd-şərtsiz təslim olsunlar. Bəzi mənbələrdə isə göstərilir ki, yəhudilər onların barəsində Ovs qəbiləsinin başçısı Səd ibn Məazın qərar çıxaracağı təqdirdə təslim olmağa razılıq verirlər. (Bəni-Qüreyzə ilə Səd ibn Məaz arasında İslamdan qabaq dostluq müqaviləsi bağlanmışdı.) Beləlikə, qala qapıları açılır, Əmirəl-möminin Əlinin(ə) başçılığı ilə böyük bir dəstə içəri daxil olub yəhudiləri tərkisilah edirlər. Yəhudilər qaladan çıxarılıb barələrində hökm verilənə qədər Bəni-Nəccar tayfasına məxsus evlərdə saxlanırlar.

Bir-iki il əvvəl müsəlmanlar Bəni-Qeynüqa yəhudilərini də mühasirəyə alıb əsir tutmuşdular, lakin onda xəzrəclilərin, xüsusilə də Abdullah ibn Übeyyin müdaxiləsindən sonra Peyğəmbər(s) onların qanını axıtmaqdan vaz keçmiş və yalnız Mədinədən sürgünlə kifayətlənmişdi. İndi də ovslular sanki xəzrəclilərlə rəqabətə girirlərmiş kimi Peyğəmbərdən(s) xahiş edirlər ki, aralarındakı müqaviləyə ehtiram əlaməti olaraq Bəni-Qüreyzəni əhv etsin.

Peyğəmbər buyurur ki, bu barədə son sözü qəbilə başçınız Səd ibn Məaz deyəcək. O, nə qərar çıxartsa, mən qəbul edəcəyəm.

Peyğəmbərin(s) bu sözünü hamı sevinclə qarşılayır. Yəhudilər də məhz Sədin hökm çıxarmasını istəyirdilər. Hətta İbn Hişam və Şeyx Mufidin nəql etdiyinə əsasən Bəni-Qüreyzə yəhudiləri təslim olmazdan qabaq Peyğəmbərə(s) belə xəbər göndərmişdilər ki, barəmizdə Səd ibn Məaz hökm çıxararsa, təslim olmağa hazırıq.[2]

---

[1] Məğazi Vaqidi, c-2, s-501

[2] Əl-İrşad, s-50

Həmin vaxt Səd ibn Məazın əlinə ox batdığı üçün ox yarasını sağaltmaqda mahir olan Feydə adlı bir qadının yanında müalicə olunurdu. Ara-sıra Peyğəmbər(s) ona dəyməyə də gedirdi. Ovs gəncləri gedib qəbilə başçısını hörmət-izzətlə Peyğəmbərin(s) hüzuruna gətirirlər. Səd məclisə daxil olduqda həzrət buyurur ki, Sədə hörmət əlaməti olaraq hamı ayağa qalxsın. Sədi gətirənlər yolda dəfələrlə ondan xahiş edirlər ki, Bəni-Qüreyzə haqqında yüngül qərar çıxartsın. Lakin Səd hamının gözlədiyinin əksinə olaraq belə qərar çıxarır ki, Bəni-Qüreyzə kişiləri edam, arvad-uşaqları əsir, əmlakı da müsadirə olunmalıdır.[1]

***Səd ibn Məazın hökm çıxararkən əsaslandığı sübutlar***

Məlum məsələdir ki, hakimin şəxsi hissləri ağlına, məntiqinə güc gələrsə, onda məhkəmə sistemi yararsız hala düşər, nəticədə cəmiyyətin əsası bir-birinə dəyər. Ümumiyyətlə hisslər yalançı iştah kimi bir şeydir. Bəzən zərərli bir şeyi faydalı kimi qələmə verə bilər. Belə olduqda həm fərdin, həm də cəmiyyətin mənafeyi təhlükə altına düşür. Bütün bunları nəzərə aldıqda həbsdə saxlanılan yəhudilərin aqibəti, arvad-uşaqlarının ah-naləsi və eləcə də bütün ovsluların hakiminin (yəni, Səd ibn Məazın) yəhudiləri əfv etmək istəyi- bunların hamısı Sədi kiçik bir dəstənin (yəhudilərin) mənafeyinin böyük bir dəstənin (müsəlmanların) mənafeyindən üstün tutmaq məcburiyyətində qoyurdu. Bu isə Bəni-Qüreyzə yəhudilərinə ya bəraət, ya da ən yüngül cəza verilməsi demək idi. Lakin hakimin ağıl və məntiqi ona hisslərinə təslim olmağa imkan vermir və aşağıdakı sübutlara əsasən kişilərin öldürülməsi, arvad-uşağın əsir, əmlakın isə müsadirə olunmasına dair hökm verir:

1) Bəni-Qüreyzə yəhudilərinin Peyğəmbərlə(s) imzalandığı müqaviləyə əsasən onlar İslama, müsəlmanlara qarşı hər hansı bir addım atarsa və ya düşmənləri müsəlmanlara qarşı təhrik edərsə, müsəlmanların onları öldürməyə ixtiyarı çatır. Səd ibn Məaz fikirləşir ki, yəhudiləri həmin müqaviləyə uyğun olaraq cəzalandırsam, ədalətdən kənara çıxmaram.

2) Yəhudilər qısa müddət ərzində Mədinədəki sabitliyi pozaraq şəhərdə qorxu yaratmış, müsəlmanların evlərinə soxularaq

[1] Sireyi İbn Hişam, c-2, s-240; Məğazi Vaqidi, c-2, s-510

soyğunçuluq, qarətlə məşğul olmuşdular. Əgər Peyğəmbər(s) vaxtında şəhərə canlı qüvvə göndərməsəydi, çox güman ki, yəhudilər öz istəklərinə çatardılar. Müsəlman kişilərini öldürər, arvad uşağı əsir alıb əmlakı da müsadirə edərdilər. Səd ibn Məaz fikirləşir ki, onların barəsində bu hökmü çıxartsa, ədalətsizlik etmiş olmaz.

3) Səd ibn Məaz Bəni-Qüreyzə yəhudiləri ilə yaxın münasibətdə olduğundan çox güman ki, onların cəza qanunlarından xəbərdar imiş. Tövratda bu cəza barədə deyilir: «Döyüş məqsədilə bir şəhərə getdikdə əvvəlcə oranın əhalisini sülhə dəvət et! Qəbul etməsələr, şəhəri mühasirəyə al! Şəhəri ələ keçirdikdən sonra kişiləri öldür, arvad-uşaqla əmlak isə sənin qənimətin sayılır.»[1]

Səd ibn Məaz özlüyündə fikirləşir ki, mən hər iki tərəfin qəbul etdiyi hakiməm. Cinayətkarları öz dini qanunlarına müvafiq olaraq cəzalandırsam, ədalətdən kənara çıxmaram.

4) Bizə elə gəlir Səd ibn Məazın bu hökmü çıxarmasının əsas səbəbi əvvəlki yəhudi qəbilələri ilə bağlı həyat təcrübəsi olmuşdur. Belə ki, o, öz gözü ilə görmüşdü ki, Peyğəmbər(s) xəzrəclilərin xahişi əsasında Bəni-Qeynüqa yəhudilərini bağışlayır, onlar isə hələ Mədinəni doğru-dürüst tərk etməmiş Kəb ibn Əşrəf Məkkəyə gedib Qüreyş başçılarını təhrik edərək Ühüd döyüşünün başlanmasına səbəb olur ki, bu da yetmiş müsəlmanın şəhid olması ilə nəticələnir. Habelə Bəni-Nəzir yəhudiləri də əfv edilir. Ancaq onlar da düşmənləri təhrik etməklə Xəndək döyüşünün başlanmasına şərait yaradırlar. Peyğəmbər(s) və müsəlmanlar lazımı tədbir görməsəydilər, İslam tamamilə məhv olub gedər, minlərlə insan qırılardı.

Səd ibn Məaz bütün bunları nəzərindən keçirir. Keçmiş təcrübələr ona hisslərinə qapılmağa, minlərlə insanın mənafeyini kiçik bir dəstə ilə dostluq münasibətlərinə görə onların mənafeyinə qurban etməyə imkan vermirdi. O, yaxşı bilirdi ki, Bəni-Qüreyzə yəhudiləri əfv ediləcəyi təqdirdə onlar da sakit oturmayıb müsəlmanlara qarşı təbliğat aparacaqlar. Bu baxımdan o, bu dəstənin varlığını yüz faiz İslamın

[1] Tövrat, Təsniyə səfəri, 20-ci fəsil

əleyhinə hiss edir və onların müsəlmanlar üçün daha böyük təhlükələr yaradacağına əmin olur.

Bu faktorlar olmasaydı, əksəriyyətin nəzərini cəlb etmək Səd ibn Məaz üçün olduqca əhəmiyyətli idi. Bir millətin başçısı ilk növbədə məhz millətə arxalanmalıdır və bunun üçün təbii ki, milləti razı salmaq lazımdır. Millətin istəyinə qarşı çıxmaq rəhbərə böyük bir zərbədir. Lakin Səd ibn Məaz öz qəbiləsinin istəyini bütün müsəlmanların mənafeyinə zidd bilib onların istəyini qəbul etmir və ağlın qərarına əsaslanaraq düzgün hökm çıxarır.

Səd ibn Məazın çıxardığı hökmün düzgünlüyünü yəhudiləri edama apararkən ürək sözlərini açıb deməl𝑒rindən də başa düşmək olar. Belə ki, Xəndək döyüşünün səbəbkarı Hüyeyy ibn Əxtəbin gözü edamdan qabaq Peyğəmbərə(s) sataşdıqda deyir: «Sənə qarşı düşmənçiliyimə görə qəti peşman deyiləm. Ancaq Allah istədiyini xar edər.»[1] Sonra da üzünü camaata tutaraq deyir: «Allahın hökmünə görə narahat olmayın! Onsuz da Allah Bəni-İsraili mütləq xar edəcək.»

Yəhudi kişiləri ilə yanaşı qadınlardan da bir nəfər qətlə yetirilir. Çünki o, dəyirman daşı ilə bir müsəlmanı öldürmüşdü. Kişilərdən isə Zübeyr Bata adlı bir nəfər Sabit ibn Qeysin vasitəçiliyi əsasında bağışlanılır, arvad-uşağı azad edilir, əmlakı da özünə qaytarılır. Yəhudilərdən dörd nəfəri İslamı qəbul edir.

Yəhudilərdən əldə edilmiş qənimətin xumsu çıxarıldıqdan sonra müsəlmanlar arasında bölüşdürülür. Süvarilərə üç, piyadalara isə bir pay verilir. Qənimətdən ayrılmış xumsu Peyğəmbər(s) Zeydə verib silah-sursat, minik almaq üçün Nəcdə göndərir.

Beləliklə, hicrətin beşinci ili zilhəccə ayının on doqquzunda Bəni-Qüreyzə yürüşü də başa çatır. Əhzab surəsinin 26-27-ci ayələri məhz bu hadisə ilə bağlı nazil olmuşdur. Xəndək döyüşündə yaralanmış Səd ibn Məaz isə Bəni-Qüreyzə yürüşündən sonra aldığı həmin yara nəticəsində şəhid olur.[2]

---

[1] Tarixi Təbəri, c-2, s-250

[2] Sireyi İbn Hişam, c-2, s-250-254

## HİCRƏTİN ALTINCI İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR

### *İslam düşmənlərinin aradan götürülməsi*

Hicrətin beşinci ilinin sonlarında artıq Mədinə və ətraf bölgələr müsəlmanların tam nəzarəti altında idi. Gənc İslam dövlətində nisbi sabitlik hökm sürürdü. Ancaq bu sabitlik hər an pozula bilərdi. Buna görə də  həzrət Peyğəmbər(s) düşmənlərdən həmişə göz-qulaq olmalı, onları daim nəzarətdə saxlamalı, hər hansı bir təhlükəni yerindəcə yatırmalı idi.

Mədinədəki nisbi sabitlik Xəndək döyüşünün səbəbkarlarını cəzalandırmaq üçün gözəl fürsət idi. Döyüşün başlanmasına səbəb olanlardan Hüyeyy ibn Əxtəb Bəni-Qüreyzə döyüşündə öldürülsə də onun yaxın dostu və Xəndək döyüşünün digər səbəbkarı Səllam ibn Əbülhüqeyq hələ sağ idi və Xeybərdə yaşayırdı. Sözsüz ki, o, heç vaxt sakit oturmayacaq, düşmənləri yenə də İslama qarşı təhrik edəcəkdi. Bütpərəst ərəb qəbilələrinin istənilən zaman İslama qarşı döyüşə hazır olduğunu, lakin maddi baxımdan lazımi vəsaitin olmadığını nəzərə alsaq, deməli, lazımi vəsait ödəniləcəyi təqdirdə onlar döyüşə başlayardılar. Bütün bunları nəzərə alan Peyğəmbər(s) Xəzrəc qəbiləsinin bir neçə cəngavərinə tapşırır ki, arvad-uşağına toxunmamaq şərti ilə Səllam ibn Əbülhüqeyqi aradan götürsünlər. Xəzrəclilər gecə gizlicə Xeybərə daxil olub Səllamın qonşuluğundakı qapıları arxadan bağlayırlar ki, səs-küy qalxarsa, qonşular köməyə gələ  bilməsinlər. Sonra Səllamın qapısını döyürlər. Arvadı qapıdakıların kim olduğunu soruşduqda cavab verirlər  ki, xurma-kişmiş almağa gəlmişik. Səllamın arvadı onlara inanıb qapını açır, onları Səllam olan otağa aparır. Xəzrəclilər dərhal otağa girib qapını bağlayır. Çoxdan bəri müsəlmanları narahatlıq içində saxlayan bir fitnəkarın həyatına son qoyurlar. Tez evi tərk edib qaladan kənarda yerləşən su anbarında gizlənirlər.

Səllamın arvadının səs-küyünə toplaşanlar əllərində çıraq ətrafı gəzsələr də, heç kimi görməyib evlərinə qayıdırlar. Səllamı qətlə yetirənlərdən biri isə könüllü olaraq gizli şəkildə yəhudilərin yanına

qayıdıb onun ölüb-ölmədiyini öyrənməyi boynuna götürür. O, evə gəldikdə görür ki, Səllamın arvadı baş verənləri ətrafdakılara danışır. Bu an Səllamın üzünə baxan arvadı fəryad edərək deyir ki, o öldü. Xəbər öyrənməyə gəlmiş müsəlman geri qayıdıb yoldaşlarını da hadisədən xəbərdar edir. Onlar hamısı gizləndikləri yerdən çıxıb Mədinəyə gələrək gördükləri işi Peyğəmbərə(s) danışırlar.[1]

***Qüreyş uzaq görənləri Həbəşistan sarayında***

İslam dininin günbəgün inkişafından narahat olan Qüreyş uzaqgörənlərindən bir dəstəsi Həbəşistana hicrət edib orada yaşamaq qərarına gəlirlər. Onlar belə fikirləşirlər ki, Mühəmməd(s) bütün Ərəbistan yarımadasını ələ keçirsə də, Həbəşistana əli çatmayacaq və beləliklə də müşriklər onun təhlükəsindən amanda qalacaqlar. Yox əgər Mühəmməd(s) uğur qazanmazsa, onda yenidən Məkkəyə qayıda bilərlər.

Həbəşistana gedənlər arasında Əmr ibn As da var idi. O, Həbəş hökmdarı üçün qiymətli hədiyyələr aparmışdı. Qüreyşlilər Həbəşistana o vaxt çatırlar ki, Peyğəmbərin(s) Nəcaşinin sarayına göndərdiyi nümayəndəsi Əmr ibn Üməyyə Zəmri də orada idi. (Xatırladaq ki, o, Peyğəmbərin(s) Həbəşistandakı müsəlman mühacirlərin geri qaytarılması ilə bağlı məktubunu hökmdara gətirmişdi). Əmr ibn As hökmdara yaltaqlanmaq məqsədilə Məkkədən gətirdiyi hədiyyələri də götürüb saraya gəlir. Hökmdara təzim edir. Nəcaşi onu görcək soruşur ki, mənim üçün yenəmi hədiyyələr gətirmisən? Əmr ibn As deyir: «Bəli, hökmdar. Diqqətinizə çatdırmaq istəyirəm ki, indi hüzurunuzdan çıxan adam bizim böyüklərimizi, cəngavərlərimizi qətlə yetirmiş şəxsin nümayəndəsidir. İcazə versəniz, biz intiqam məqsədilə onun boynunu vurardıq. Bununla bizə böyük sevinc bəxş etmiş olarsınız.»

Əmr ibn Asın sözləri Nəcaşini elə qəzəbləndirir ki, ixtiyarsız olaraq öz üzünə bərk şapalaq çəkir, az qalır burnu sınsın. Sonra da elə qəzəbli halda deyir: «Vəhy mələyinin Musaya nazil olduğu kimi ona da nazil olan bir şəxsin nümayəndəsini tutub sizə təhvil verim ki, qətlə yetirəsiniz? Allaha and olsun ki, o, haqdır və öz düşmənlərinə qalib gələcək.» Əmr ibn As deyir: «Mən bu sözləri eşitdikdən sonra

[1] Sireyi İbn Hişam, c-2, s-274-275

Mühəmmədin dininə meylləndim, ancaq bunu dostlarımdan gizli saxladım.»[1]

***Xoşagəlməz hadisələrin qarşısını almaq məqsədilə görülən təhlükəsizlik tədbirləri***

Bəni-Lehyan qəbiləsinin Əzul və Qarrə tayfalarının İslam təbliğatçılarına qarşı törətdiyi Rəci faciəsi müsəlmanların ürəyinə böyük dağ vurmuş və təbliğ işini demək olar dayandırmışdı. (Xatırladaq ki, həmin faciə nəticəsində müsəlman təbliğatçılar namərdcəsinə qətlə yetirilmiş, hətta onlardan ikisi diri-diri Qüreyş böyüklərinə satılmış, müşriklər də hər iki əsiri dara çəkmişdilər.)

Mədinədəki nisbi sakitlikdən istifadə edən Peyğəmbər(s) digər qəbilələrə ibrət olsun və kimsə müsəlman təbliğatçılarını incitməsin deyə, Bəni-Lehyan qəbiləsini cəzalandırmaq qərarına gəlir.

Bu məqsədlə o həzrət hicrətin altıncı ili cəmadil-əvvəl ayında İbn Ümmi Məktumu Mədinədə öz yerinə təyin edərək məqsədini də heç kimə bildirmədən ordunu hərəkətə gətirir. Peyğəmbər(s) Qüreyş və Bəni-Lehyan onun məqsədindən xəbərdar olmasın deyə, belə edir. Buna görə də həzrət orduya Şama doğru istiqamət verir. Bir xeyli irəlilədikdən sonra yolu dəyişib Bəni-Lehyana məxsus Qərran adlı yerdə ordunu dayandırır. Lakin düşmən artıq müsəlmanların gəlişindən xəbər tutub dağlara çəkilmişdi. Buna baxmayaraq bu yürüş öz təsirini göstərir və düşməni qorxuya salır.

Peyğəmbər(s) yürüşü davam etdirib hərbi manevrlərə əl atır. Şəxsən özü iki yüz nəfərlik dəstə ilə Qərrandan Məkkə yaxınlığındakı Əsəfana qədər irəliləyir. Sonra on nəfəri Məkkənin ətrafına kəşfiyyata yollayır. Qüreyş müşrikləri İslam ordusunun bu manevrini öz gözləri ilə görürdülər. Bir qədər sonra Peyğəmbər(s) Mədinəyə geri dönməyi əmr edir. Cabir ibn Abdullah deyir ki, Peyğəmbər(s) bu yürüşdən qayıtdıqdan sonra buyurdu: «Səfər yorğunluğundan, get-gəlin çətinliyindən və həyatdakı acı hadisələrdən Allaha pənah aparıram.»[2]

---

[1] Sireyi İbn Hişam, c-2, s-276-277

[2] Tarixi Təbəri, c-2, s-254; Məğazi Vaqidi, c-2, s-535

### *Zi-Qirəd döyüşü*

Peyğəmbərin(s) Mədinəyə qayıdışından bir neçə gün sonra Üyeynə ibn Hisən Fəzəri Qətəfan qəbiləsindən olan bir neçə nəfərin köməyi ilə Şam istiqamətində yerləşən və Mədinə əhalisinə məxsus Qabə otlağından bir sürü dəvəni oğurlayır, gözətçini öldürür, bir müsəlman qadını da əsir alır. Mədinədən ov məqsədilə çıxmış Səlmə Əsləmi bu hadisəni görüb tez özünü Səl təpəsinə çatdıraraq müsəlmanları köməyə çağırır. Onun səsini ilk olaraq Peyğəmbər(s) eşidir. Həzrət də camaatı köməyə səsləyir. Bir dəstə atlı özünü həzrətə yetirir. Peyğəmbər(s) onları Səld ibn Zeydin başçılığı ilə düşmənin ardınca göndərir və özü də onların arxasınca gedir. Qısa vuruşdan sonra müsəlmanlardan iki, düşməndən isə üç nəfər ölür. Dəvələrin böyük əksəriyyəti və əsir götürülmüş qadın azad edilsə də, düşmən Qətəfan qəbiləsinə doğru qaçıb aradan çıxır.

Peyğəmbər(s) bir gecə Zi-Qirəd adlı yerdə qalır. (Mədinə süvariləri israr etsə də) həzrət düşməni təqib etməyi məsləhət görməyib Mədinəyə geri dönür.[1]

Əsirlikdən azad edilmiş qadın Peyğəmbərin(s) hüzuruna gələrək deyir: «(Peyğəmbərin dəvəsinə işarə edərək) Məni bu dəvə ilə apararkən nəzir etdim ki, azad olsam, bu dəvəni qurban kəsərəm.» Peyğəmbər(s) gülümsəyərək buyurur ki, dəvə üçün nə pis şey arzulamısan! O, səni ölümdən qurtarır, sən isə onu öldürmək istəyirsən? Sonra həzrət ciddi şəkildə buyurur: «Günah işi və ya malik olmadığın bir şeyi nəzir etmək düzgün deyil. Sən də özününkü olmayan dəvəni nəzir etmisən, buna görə də sənə heç nə vacib deyil.»[2]

### *Bəni-Müstəliq döyüşü*

Hicrətin altıncı ilində müsəlmanların qüdrəti artıq xeyli artmışdı. Elə bir vəziyyət yaranmışdı ki, bəzi müsəlman dəstələri çox rahat şəkildə Məkkə yaxınlığına qədər gedib çıxa bilirdi. Əgər müşriklər müsəlmanları təzyiqlərə məruz qoymasaydı, İslamın təbliğinin qarşısını almasaydılar, Peyğəmbər(s) heç vaxt silahlı mübarizəyə əl atmazdı.

[1] Tarixi Təbəri c-2, s-255; Məğazi Vaqidi, c-2, s-537-549

[2] Sireyi İbn Hişam, c-2, s-281-289; ət-Təbəqatul-kubra, c-2, s-133

Lakin İslam və müsəlmanlar mütamadi olaraq düşmənlərin hədəfinə tuş gəldiyindən, Peyğəmbər(s) də silah-sursat toplayaraq İslam ordusunu gücləndirmək, məntiqə uyğun olaraq lazım gəldikdə düşmənlə vuruşmaq məcburiyyətində qalırdı.

İslam uğrunda baş vermiş döyüşləri əsasən aşağıdakı amillərlə əlaqələndirmək lazımdır:

1) Bədr və Ühüd döyüşlərində olduğu kimi müşriklərin hücumlarının qarşısını almaq

2) İslam və müsəlmanları hədələyib müsəlman təbliğatçılarını uzaq bölgələrdə qətlə yetirən və yaxud müsəlmanlarla dostluq müqavilələrini pozanları cəzalandırmaq məqsədilə onlara layiqli cavab vermək

3) Mədinəyə hücum edib müsəlmanları qırmaqdan ötrü ordu toplayan qəbilələrin təhlükəsinin qarşısını yerindəcə almaq

Əksər döyüşlərin baş vermə səbəbi məhz bu amillərlə bağlı olmuşdur.

Bəni-Müstəliq tayfası Qüreyşin qonşuluğunda yaşayan Xüzaə qəbiləsinin bir qolu idi. Tayfa başçısı Haris ibn Əbu Zirarın Mədinəyə hücum etmək məqsədilə ordu yığması haqqında Peyğəmbərə(s) çatan məlumatlara müvafiq olaraq həzrət onların hücumunun qarşısını yerindəcə almaq qərarına gəlir. Verilmiş məlumatın doğru olub-olmadığını yoxlamaqdan ötrü Peyğəmbər(s) Büreydə adlı səhabəni adı çəkilən tayfaya yollayır. O, naməlum şəkildə tayfa başçısının yanına gəlib onun həqiqətən də Mədinəyə hücum etmək fikrində olduğunu öyrənir. Mədinəyə qayıdıb bu haqda məlumat verdikdə Peyğəmbər(s) İslam ordusu ilə Bəni-Müstəliq tayfasının üstünə gedir. Müreyşi quyusunun başında qarşılaşan iki dəstə arasında döyüş başlayır. Müsəlman mücahidlərin fəallığı nəticəsində bir qədər döyüşdükdən sonra düşmən geriləmək məcburiyyətində qalır. Düşmən ordusundan on, müsəlmanlardan isə cəmi bir nəfər (o da səhvən) öldürülür. Müsəlmanlar düşmənin bütün əmlakını qənimət olaraq ələ keçirib arvad-uşağı da əsir götürürlər.[1] Bu döyüşdə ilk dəfə olaraq mühacirlərlə ənsar arasında mübahisə yaranır. Peyğəmbər(s) vaxtında müdaxilə etməsəydi, müsəlmanlar arasında böyük qırğın düşərdi. Mübahisənin

[1] Tarixi Təbəri, c-2, s-260

yaranmasına səbəb Bəni-Müstəliqlə döyüş başa çatdıqdan sonra mühacirlərdən olan Cəhcah ibn Məsudla ənsardan olan Sinan Cəhəni arasında su üstündə yaranan anlaşılmazlıq olur.

Nəticədə hər iki şəxs öz qəbilə adamlarını köməyə çağırır və mübahisə böyüyür. Peyğəmbər(s) hadisədən xəbər tutduqda buyurur: «Onlarla işiniz olmasın. Sizi köməyə çağırmaları necə də iyrənc və Cahiliyyət adət-ənənələrindəndir! Cahiliyyət qalıqları hələ onların beynindən dağılmayıb. Onlar İslamın müsəlmanları bir-birinə qardaş olmağa çağırdığından hələ xəbərsizdirlər. İslam təfriqəyə səbəb olan hər bir çağırışı pisləyir.» Bu sözləri ilə münaqişənin böyüməsinə imkan verməyən Peyğəmbər(s) iki dəstəni bir-birindər ayırır. Lakin İslamı görən gözü olmayan, Mədinə münafiqlərinin başçısı cihadda sırf qənimət əldə etmək məqsədilə iştirak edən Abdullah ibn Übeyy söz-söhbəti daha da şişirtməyə çalışaraq ətrafında olanlara deyir: «Bizə hələ bu da azdır! Biz mədinəlilər mühacirləri düşmən şərrindən qoruyub onlara yer verdik, ancaq indi onlar özümüzə qarşı çıxırlar. Necə deyərlər, yersiz gəldi, yerli qaç! Bundan sonra Mühəmmədin ətrafındakılara kömək etməyin, qoy hamı dağılışıb getsin. And olsun Allaha, Mədinəyə qayıdan kimi ən güclülər, ən şərəflilər ən zəifləri oradan çıxartmalıdır!»

Abdullah ibn Übeyyin sözləri nifaq rişələri və təəssübkeşlik hissləri hələ ürəklərindən çıxmayanlarda pis təsir qoyur. Müsəlmanlar arasındakı birlik parçalanma təhlükəsi ilə üzləşir. Xoşbəxtlikdən İslamı yeni qəbul etmiş gənc Zeyd ibn Ərqəm də Abdullah ibn Übeyyin ətrafında oturanlar arasında idi. O, Abdullahın bu sözlərinə dərhal cavab verərək deyir: «Allaha and olsun ki, zəif, zəlil elə sən özünsən! Qohum-əqrabası yanında hörməti olmayan da sənsən. Mühəmməd(s) isə bütün müsəlmanların gözündə hörmətlidir, hamının ona böyük sevgisi vardır.» Bunu deyib Peyğəmbərin(s) yanına gələrək həzrəti Abdullahın dediklərindən xəbərdar edir. Vəziyyət daha da gərginləşməsin deyə, Peyğəmbər(s) Zeydin sözlərini üç dəfə inkar edərək buyurur ki, bəlkə sən səhv eşitmisən, bəlkə ona olan kin-küdurətin səni belə deməyə vadar edir? Ancaq hər üç dəfədə öz dediyini təkrar edərək Abdullahın müsəlmanlar arasında təfriqə

yaratmaq fikrində olduğunu bildirir. Bu vaxt Ömər ibn Xəttab Abdullah ibn Übeyyi öldürmək üçün Peyğəmbərdən(s) icazə istəsə də həzrət buyurur ki, olmaz, sonra camaat deyər ki, Mühəmməd öz adamlarını öldürür.

Zeyd ibn Ərqəmlə Peyğəmbərin(s) söhbətindən xəbər tutan Abdullah ibn Übeyy tez həzrətin yanına gəlib deyir ki, mənim heç vaxt belə bir fikrim olmayıb. Məsələnin böyüməməsini istəyən bəzi müsəlmanlar da onun tərəfini tutub deyirlər ki, yəqin Zeyd nəyisə səhv eşidib.

İlk baxışda söz-söhbət səngisə də yaranmış fitnə altdan öz işini görürdü. Buna görə də məsələyə birdəfəlik son qoymaq üçün Peyğəmbər(s) nəsə tədbir görməli idi. Bu məqsədlə istirahət vaxtı olmasına baxmayaraq Peyğəmbər(s) hərəkət əmri verir. Üseyd ibn Hüzeyr Peyğəmbərin(s) hüzuruna gəlib soruşur ki, istirahət zamanı hərəkət əmri verməyinizin səbəbi nədir? Həzrət buyurur ki, məgər Abdullah ibn Übeyyin yaratdığı fitnədən xəbərin yoxdur? Üseyd baş verənlərdən xəbərsiz olduğunu bildirərək deyir: «Ey əziz Peyğəmbər, ixtiyar sənin əlindədir, istəsəniz, onu aramızdan qova bilərsiniz. Siz əziz, o isə zəlildir. Onu yola verin getsin. Siz Mədinəyə hicrət etməzdən əvvəl ovslularla xəzrəclilər onu başçı seçməyə hazırlaşırdı. Onun başına qoymaq üçün tac da hazırlanırdı. Lakin İslamın gəlişi ilə vəziyyət tamam dəyişdi və camaat onun ətrafından dağıldı. O isə bunun günahını sizdə görür.»

Hərəkət əmri verilir. Müsəlmanlar dayanmadan düz iyirmi dörd saat yol gedirlər. Bu müddət ərzində yalnız namaz qılmaq üçün dayanırlar. Növbəti gün hava həddən artıq isti idi. Artıq heç kimin yeriməyə taqəti qalmamışdı. İstirahət etməyə icazə verilən kimi hamı yorğunluqdan yuxuya gedir. Bununla da Peyğəmbərin(s) tədbiri nəticəsində yaranmış mübahisəyə son qoyulur.[1]

Atasının münafiq olmasına baxmayaraq Abdullahın ibn Übeyyin oğlu təmiz qəlbli müsəlman gənclərindən idi. İslam dininin təlimlərinə uyğun olaraq o, münafiq atasına qarşı olduqca mehriban idi. Atasının yaratdığı fitnədən xəbərdar olduqda elə güman edir ki, Peyğəmbər(s)

---

[1] Tarix Təbəri, c-2, s-261-262; Məcməül-bəyan, c-10, s-292-295

onun qətlinə fərman verəcək. Buna görə də həzrətin hüzuruna gəlib deyir: «Əgər atam öldürüləcəksə, onda xahiş edirəm bu işi mənim özümə tapşırın! Çünki qorxuram bu əmri başqası yerinə yetirəcəyi təqdirdə, atamın qatili olduğuna görə əlimdən bir xəta çıxar və nəticədə əlim müsəlman qanına bulaşar.»

Abdullahın oğlunun bu sözləri onun necə böyük imana sahib olmasından xəbər verir. O, Peyğəmbərdən(s) heç də xahiş etmir ki, atasının təqsirindən keçsin. Çünki o, həzrətin gördüyü bütün işlərin sırf Allahın göstərişi ilə həyata keçirdiyini bilirdi. Lakin bir tərəfdən atasına olan sevgi, digər tərəfdən isə iman hissi arasında qalmışdı. Atasının başqası tərəfindən qətlə yetiriləcəyi təqdirdə ata sevgisi onu intiqam almağa sürükləyir, eyni zamanda İslam mühitində sabitliyin pozulmasına görə atasının qətlə yetirilməsi tələb olunur. Belə çıxılmaz vəziyyətdə qalan oğul üçüncü bir yolu seçərək həm İslamın mənafeyini qorumağa, həm də əlinin müsəlman qanına bulaşmamasına çalışır. Buna görə də atasını şəxsən özü öldürməyə hazır olduğunu bildirir. Bu, nə qədər ağır, çətin bir iş olsa da, Allaha olan imanı onu bu addımı atmağa məcbur edir. Lakin mehriban Peyğəmbər(s) ona buyurur ki, atanı öldürmək fikrimiz yoxdur. Onu yola vermək lazımdır.

Peyğəmbərin(s) böyük ruha sahib olduğunu göstərən bu əməl hamını təəccübləndirir. Eyni zamanda camaatda Abdullah ibn Übeyyə qarşı böyük nifrət yaranır. O, camaatın gözündən elə düşür ki, daha heç kəs ona etina etmir.

Bu kimi hərəkətləri ilə müsəlmanlara örnək olan Peyğəmbər(s) İslamın düzgün siyasətini yürütmüş olur. Belə ki, bundan sonra Abdullah ibn Übeyyin sözünü heç kim qəbul etmir.

Həmin hadisədən xeyli keçdikdən sonra bir gün Peyğəmbər(s) Ömərə deyir: «O vaxt mən Abdullah ibn Übeyyi öldürmək üçün sənə icazə versəydim, çoxları onu himayə edəcəkdi. İndi isə hamı ona nifrət edir. Bu saat onun öldürülməsinə əmr versəm, heç kim tərəddüd etmədən əmrimi icra edər.

***Xeyir-bərəkətli evlənmə***

Bəni-Müstəliq döyüşündə əsir götürülənlər arasında tayfa başçısı Haris ibn Əbu Ziraрın qızı da var idi. Haris qızını azad etmək üçün fidyə ilə Mədinəyə gəlir. Əqiq vadisinə yetişdikdə fidyə olaraq gətirdiyi dəvələrdən ikisini dərədə gizlədir. Peyğəmbərin hüzuruna gəlib fidyə ödəyərək qızını azad etmək istədiyini bildirdikdə həzrət ondan soruşur: «Dərədə gizlətdiyin iki dəvə necə olacaq?» Peyğəmbərdən(s) belə bir qeybi xəbəri eşitməklə heyrətlənən Haris yanındakı iki oğlu ilə birlikdə İslamı qəbul edir. Dərhal adam göndərib dərədə gizlətdiyi iki dəvəni də gətizdirir. Beləliklə, müsəlman olmuş Harisin qızı da əsirlikdən azad edilir. Sonra Peyğəmbər(s) onun qızına elçilik edir. Atası da dörd yüz dirhəm mehriyyə müqabilində qızını həzrətə ərə verir.

Peyğəmbərin Bəni-Müstəliq tayfası ilə qohum olması xəbəri müsəlmanlar arasında yayılır. Bu mübarək evlilik Bəni-Müstəliq tayfasından əsir götürülmüş yüz ailənin azad edilməsinə səbəb olur. Sonradan həmişə dillərdə deyilirdi ki, heç bir tayfa üçün belə xeyir-bərəkətli evlilik olmamışdır. Axırda Bəni-Müstəliqdən bütün əsirlər azad edilərək öz tayfalarına qayıdırlar.[1]

***Bir fasiqin rüsvay edilməsi***

Bəni-Müstəliq tayfasından əsir götürülənlər əsirlik müddətində yaxşılıqdan başqa bir şey görmədiklərinə və az sonra müxtəlif bəhanələrlə azad edilmələrinə görə hamı səmimi qəlbdən iman gətirir. Peyğəmbər(s) Vəlid ibn Üqbəni zəkat vergisini yığmaq üçün Bəni-Müstəliq tayfasına göndərir. Tayfa üzvləri Peyğəmbərin(s) nümayəndəsini qarşılamaq üçün onun qabağına çıxdıqda Vəlid onların onu qətlə yetirmək üçün gəldiyini düşünüb dərhal Mədinəyə qayıdır, özündən bir yalan uydurараq Peyğəmbərə(s) deyir ki, Bəni-Müstəliq tayfası zəkat ödəməkdən imtina edib məni öldürmək istəyirdi. Vəlidin bu sözü müsəlmanlar arasında yayıldıqda hamı narahat olur. Çünki heç kəs hadisələrin bu cür davam edəcəyini gözləmirdi. Hadisədən dərhal sonra Bəni-Müstəliq tayfasının nümayəndələri Peyğəmbərin(s) hüzuruna gəlib deyirlər:

«Biz Vəlidi qarşılamağa çıxdıq. Onu hörmət-izzətlə qarşılayıb zəkat ödəmək fikrində olsaq da, o, uzaqdan bizi görən kimi Mədinəyə qayıdır.

[1] Sireyi ibn Hişam, c-2, s-295; Təfsiri Qummi, s-681; Tarixi Təbəri, c-2,s-264

Eşitdiyimizə görə sizə də başqa məlumat vermişdir.» Bu zaman Hucurat surəsinin altıncı ayəsi nazil olaraq Vəlidin yalan danışdığını və sözünə əhəmiyyət verilməməsini çatdırır: ***«Ey iman gətirənlər! Əgər bir fasiq sizə bir xəbər gətirsə, dərhal (onun doğruluğunu) yoxlayın, yoxsa bilmədən bir qövmə pislik edər, sonra da etdiyinizə peşman olarsınız.»***

***Böhtan hadisəsi***

Mədinə münafiqlərinin başçısı hələ Cahiliyyət dövründən başlayaraq insan alveri ilə məşğul olur, bu yolla qazanc əldə edirdi. Zinanın haram olduğunu çatdıran ayələr nazil olduqda o, yenə də öz işindən əl çəkmir, aldığı kənizləri güclə əxlaqsızlığa vadar edirdi. Mənəvi cəhətdən əziyyət çəkən kənizlər Peyğəmbərə(s) şikayət edərək deyirlər ki, biz təmiz yaşamaq istəsək də Abdullah ibn Übeyy həyatımızı ləkələyir, bizi zinakarlığa məcbur edir. Aşağıdakı ayə məhz Abdullahın tənqidi ilə bağlı nazil olur: ***«Əgər cariyələriniz (kənizləriniz) ismətlərini qoruyub saxlamaq istəsələr, fani dünya malı əldə etmək xatirinə onları zinaya məcbur etməyin.»***[1]

İnsanların namusu ilə bu cür oyun oynayan Abdullah ibn Übeyy İslam cəmiyyətində özünəməxsus yeri olan bir xanımın da ismətinə toxunub onu zinakarlıqda ittiham etmək istəyirdi. Bəni-Müstəliq döyüşündən sonra Abdullahın necə rüsvay olduğu hamıya bəllidir. Belə ki, öz doğma oğlu da onun şəhərə girməsinə mane olmağa çalışırdı. Axırda Peyğəmbərin(s) vasitəçiliyi ilə Mədinəyə qayıdır. Gör necə bir vəziyyət yaranır ki, özünü hamıdan üstün hesab edən şəxsi indi öz oğlu şəhərə buraxmaq istəmirdi. Məlum məsələdir ki, belə bir şəxs hər işə əl atar, istədiyi sözü danışar. Müsəlmanlardan intiqam almaq üçün hətta kiməsə böhtan atıb şayiə də yayar. Axı düşmən açıq hücumdan məyus olduqda məhz belə işlərə əl atır ki, bəlkə bu yolla öz istəyinə çata bildi. Təmiz adamı ləkələyib camaatı onun ətrafından dağıtmaq üçün böhtan ən güclü vasitədir.

Böhtan hadisəsi ilə bağlı nazil olmuş ayələrdən belə məlum olur ki, münafiqlər namuslu bir qadını namussuzluqda ittiham etmişlər. Özü də həmin qadın İslam cəmiyyətində sadə bir qadın deyil, olduqca böyük mövqeyə malik olmuşdur. Bu böhtanla İslam cəmiyyətinə böyük bir

---

[1] Məcməül-bəyan, c-4, s-141; əd-Durrul-mənsur, c-5, s-46

zərbə vurmağa çalışan münafiqləri hadisə ilə bağlı nazil olan ayələr öz yerinə otuzdurur. Bəs görəsən haqqında söhbət gedən, münafiqlərin hədəfinə tuş gəlmiş bu qadın kim olmuşdur? Bu barədə təfsirçilər arasında müxtəlif fikirlər olsa da əksəriyyəti söhbətin Peyğəmbərin(s) xanımı Aişədən getdiyini bildirir. Digər bir dəstə isə müzakirə obyektinin həzrətin digər xanımı Mariya olduğunu söyləmişdir. Hər halda ayələrlə bağlı verilmiş təfsirlərdə müəyyən xətalar da mövcuddur.

İndi isə gəlin ayələrin Aişə ilə bağlı olduğunu söyləyən təfsirə diqqət yetirib doğru və yanlış cəhətlərini üzə çıxaraq.

***Birinci variant***

Bir çox təfsirçi və hədis nümayəndələri böhtan hadisəsi ilə əlaqədar nazil olmuş ayələrin Aişə ilə bağlı olduğunu bildirmişlər. Onlar bu haqda uzun bir əhvalat da nəql etmişlər ki, onun bəzi məqamları Peyğəmbərin(s) məsum olması ilə qətiyyən uyğun gəlmir. Buna görə də bu təfsirin tam şəkildə doğru olduğunu qəbul edə bilmərik. Lakin təfsirin həqiqətə uyğun hissəsini oxucuların diqqətinə çatdırıb sonra hadisə ilə bağlı ayələri qeyd edəcək, sonda əhvalatın Peyğəmbərin(s) məsum olması ilə uyğun gəlməyən hissəsini də təhlil etməyə çalışacağıq.

Haqqında danışılan əhvalatla bağlı nazil olmuş ayələrin təfsiri Aişənin öz dilindən nəql edilmişdir. O deyir: «Peyğəmbər(s) hər dəfə səfərə çıxdıqda püşk vasitəsilə xanımlarından birini özü ilə aparacağını müəyyənləşdirirdi. Bəni-Müstəliq döyüşünə gedərkən püşk mənim üzümə güldü və mən o həzrətlə səfərə çıxmaq şərəfinə nail oldum. Düşməni məğlub edib Mədinəyə qayıtmaq əmri verildi. Qayıdarkən gecə vaxtı Mədinə yaxınlığında istirahət edirdik. Təbii ehtiyacımı ödəmək üçün kəcavədən düşüb bir qədər kənara getmişdim. Bu zaman hərəkət əmri verilir. Tez kəcavəmə tərəf qayıtdım. Birdən anladım ki, Yəmən daşlarından olan boyunbağım açılıb. Onu axtarmağa başladım. Boyunbağını tapıb qayıtdıqda gördüm ki, artıq ordu gedib. Tək-tənha çöldə qaldım. Ancaq bilirdim ki, növbəti dayanacaqda məni kəcavədə görməyib ardımca gələcəklər. Xoşbəxtlikdən müsəlmanlardan Səfvan adlı bir nəfər də ordudan geri qalıbmış. Səhər açılarkən uzaqdan məni

görüb yaxına gəlir. Tanıyan kimi heç bircə kəlmə də kəsmədən: «Biz Allaha məxsusuq və Onun hüzuruna qayıdacağıq!»-deyib dəvəsini yerə yatızdırır. Mən dəvəyə mindim, o isə dəvənin ovsarından tutub irəlidə hərəkət etməyə başladı. Nəhayət, gəlib İslam ordusuna çatdıq. Münafiqlər, xüsusilə də başçıları bu məsələdən xəbər tutduqda mənə böhtan atıb şayiə yaymağa başladılar. Mədinənin bütün məclislərində məndən danışılırdı. İş o yerə gəlib çatmışdı ki, artıq bəzi müsəlmanlar da mənim haqqımda pis fikirləşirdi. Axır ki, Allahın ayələri nazil olub məni bu əzabdan qurtarır.

Böyük bir əhvalatdan xülasə etdiyimiz bu təfsir Nur surəsinin 11-16-cı ayələri ilə uyğun gəlir və onda Peyğəmbərin(s) məsum olmasına zidd heç nə yoxdur. İndi gəlin hadisə ilə əlaqədar ayələrə diqqət yetirək.

***«Həqiqətən, (Aişə barəsində) yalan xəbər gətirənlər öz içərinizdə olan bir zümrədir (münafiqlərdir). Onu (o xəbəri) pis bir şey zənn etməyin. O, bəlkə də sizin üçün xeyirlidir. O zümrədən olan hər bir şəxsin qazandığı günahın cəzası vardır. Onlardan günahın böyüyünü öz üstünə götürəni (Abdullah ibn Übeyyi) isə (qiyamət günü) çox böyük (şiddətli) bir əzab gözləyir! Məgər o yalan sözü eşitdiyiniz zaman mömin kişilər və qadınlar öz ürəklərində yaxşı fikirdə olub: «Bu, açıq-aydın bir böhtandır!» - deməli deyildilərmi? (Aişəyə iftira yaxanlar) nə üçün özlərinin doğru olduqlarını təsdiq edəcək dörd şahid gətirmədilər? Madam ki, şahid gətirmədilər, deməli, onlar Allah yanında əsl yalançıdırlar! Əgər Allahın dünyada və axirətdə sizə neməti və mərhəməti olmasaydı, o yalan sözünüzə görə sizə şiddətli bir əzab toxunardı. O zaman ki, siz (münafiqlərin) yalanı dilinizə gətirir, bilmədiyiniz sözü ağzınıza alır və onu yüngül bir şey sanırdınız. Halbuki bu, Allahın yanında çox böyük günahdır! Məgər siz onu eşitdiyiniz zaman: «Bizə bunu (bu yalanı) danışmaq yaraşmaz. Aman (Allah)! Bu, çox böyük bir böhtandır!»-deməli deyildinizmi?»***

*Ayələrdəki bəzi məqamlar*

Aşağıdakı cəhətlərdən məlum olur ki, bu böhtanı yayanlar münafiqlər olmuşdur:

1) «Onlardan günahın böyüyünü öz üstünə götürəni» ifadəsindən məqsədin münafiqlərin başçısı Abdullah ibn Übeyy olduğu bildirilir.

2) On birinci ayədə böhtan atanların bir zümrə, bir dəstə olduğu göstərilir. Ərəbcə variantında işlədilmiş «usbə» (dəstə, zümrə) sözü əlbir, həmfikir olan dəstə haqqında işlədilir. O vaxt artıq müsəlmanlar arasında münafiqlərdən başqa heç bir dəstənin olmadığını nəzərə alsaq, böhtanın məhz münafiqlər tərəfindən atıldığı məlum olur.

3) Bəni-Müstəliq döyüşündən qayıdarkən camaat Abdullah ibn Übeyyin Mədinəyə girməsinə etiraz etdikdə o, şəhərin giriş qapısında dayanmalı olur. Aişənin Səfvanın dəvəsi ilə şəhərə gəldiyini gördükdə ona böhtan ataraq deyir ki, Peyğəmbərin xanımı gecəni başqa kişi ilə keçirib. And olsun Allaha, onların hər ikisi (həm Aişə, həm Səfvan) günaha batıb.

4) On birinci ayədə qeyd olunur ki, onu (o xəbəri) pis bir şey zənn etməyin. O, bəlkə də sizin üçün xeyirlidir. Bəs görəsən namuslu bir müsəlman xanımını ləkələyib ona böhtan atmaq müsəlmanlar üçün necə xeyir ola bilər? Bunun səbəbi odur ki, bu hadisə nəticəsində münafiqlərin iç üzü aşkar olub ortaya çıxır. Üstəlik bu hadisə müsəlmanlar üçün yaxşı ibrət dərsi oldu.

Böhtan hadisəsi ilə bağlı burayadək qeyd etdiklərimiz Quranla tam uyğun gəlir və Peyğəmbərin(s) məsum olması ilə heç bir ziddiyyəti yoxdur. Lakin əhvalatla bağlı bəzi müəlliflər, xüsusilə də Buxari bəzi məqamlar qeyd etmişlər ki, onlarda iki əsas irad nəzərə çarpır:

1) Qeyd olunanlar Peyğəmbərin(s) məsum olması ilə uyğun gəlmir. Buxari Aişədən belə nəql edir: «Mən səfərdən qayıdarkən xəstələnmişdim. Peyğəmbər(s) görüşümə gəlsə də əvvəlki mehribanlığını hiss etmədim. Danışılanlar haqqında da məlumatım yox idi. Sağalıb evdən çölə çıxdıqda münafiqlərin yaydığı şayiə qulağıma çatdı. Bunları eşidib yenidən xəstələndim. Halım get-gedə pisləşirdi. Peyğəmbərdən(s) icazə alıb atam evinə getdim. Anamdan mənim haqqımda deyilənlər barədə soruşduqda cavab verdi ki, sayılıb-seçilən qadın üçün camaat çox şey deyər.

Peyğəmbər(s) bu barədə Üsamə ilə danışdı. O, mənim günahsız olduğumu bildirdi. Əli ilə də danışdı. Əli dedi ki, bu barədə ən yaxşısını

Aişənin kənizi bilər. Həzrət kənizimi çağırtdırıb məsələni soruşdu. Kənizim cavab verdi ki, and olsun səni peyğəmbər seçmiş Allaha, mən ondan heç bir pis iş görməmişəm.»[1]

Bu hədis Peyğəmbərin(s) məsum olması ilə heç cür uyğun gəlmir. Çünki buradan aşkar şəkildə görünür ki, Peyğəmbər(s) şayələrin təsiri altına düşərək Aişəyə olan münasibətini dəyişmiş və hətta bu barədə səhabələrlə də məsləhətləşmişdir. Əleyhinə heç bir dəlil-sübut olmayan müttəhimə qarşı belə davranış nəinki məsum Peyğəmbərə(s) heç adi müsəlmana da yaraşmır. Şayiə hər hansı bir müsəlmanın düşüncələrinə təsir etsə də, əməlində heç bir təsir qoymamalıdır. Qeyd edilmiş ayələrdə (on iki və on dördüncü ayələrdə) Allah-taala şayiənin təsiri altına düşən müsəlmanları çox sərt şəkildə tənqid edir.

Buxarinin qeyd etdiyi hədis doğrudursa, onda şayiələrin təsiri altına düşmüş şəxsləri tənqid edən ayələrin Peyğəmbərə(s) də aid olduğunu qeyd etmək məcburiyyətində qalacağıq. Halbuki bu, Peyğəmbərin(s) məsum olması ilə uyğun gəlmir. Deməli, bu hədisi doğru hesab etmək olmaz.

2) Səd ibn Məaz bu hadisədən qabaq vəfat etmişdir. Buxari hədisin davamında Aişənin dilindən belə nəql edir: «Peyğəmbər(s) kənizim Büreyrə ilə danışdıqdan sonra minbərə qalxıb buyurur: «Yaxşılıqlarından savayı heç nə görmədiyim bir kişi və bir qadını ittiham edən bir şəxsi ədəbləndirmək (cəzalandırmaq) istəsəm, məni üzrlü sayarsınızmı?» Bu zaman Səd ibn Məaz ayağa qalxaraq deyir: «Ey Allahın rəsulu, mən sizi üzrlü sayaram. Əgər həmin şəxs Ovs qəbiləsindəndirsə, onun boynunu vurarıq. Yox əgər Xəzrəcdəndirsə, sənin əmrinə tabe olar (və onun da boynunu vurarıq.) Bu söz Xəzrəc qəbiləsinin başçısı Səd ibn Übadəyə pis təsir edir. Qalxıb Səd ibn Məazın üstünə qışqıraraq deyir ki, and olsun Allaha, yalan deyirsən, sən onun boynunu vura bilməzsən. Dərhal Səd ibn Məazın əmisi oğlu Üseyd ibn Hüzeyr yerindən qalxır, Səd ibn Übadənin üstünə qışqıraraq deyir: «Allaha and olsun ki, biz öldürərik. Sən münafiqsən, münafiqləri də müdafiə edirsən.» Peyğəmbər(s) minbərdə oturduğu halda hər iki

[1] Səhihi Buxari, c-6; Nur surəsinin təfsiri, s-102-103; Səhihi Buxari, c-5, s-118

qəbilənin adamları az qalmışdı ki, bir-birinin üstünə hücum çəksinlər. Nəhayət, Peyğəmbərin(s) əmri ilə hamı sakitləşib öz yerinə keçir.»[1]

Hədisin bu hissəsi tarixlə uyğun gəlmir. Çünki Səd ibn Məaz Xəndək döyüşündə ağır yaralanmış, Bəni-Qüreyzə yəhudiləri haqqında hökm çıxardıqdan sonra, aldığı yara nəticəsində vəfat etmişdir. Bunu Buxari özü də qeyd etmişdir. (Səhih, c-5, s- 113). Belə olan halda Səd ibn Məaz Bəni-Qüreyzə döyüşündən bir neçə ay sonra baş vermiş böhtan hadisəsində necə iştirak edə bilərdi? Yoxsa öldükdən sonra dirilib gəlmiş və Səd ibn Übadə ilə mübahisə etmişdir? Tarixçilər yekdilliklə qeyd etmişlər ki, Xəndək döyüşündən dərhal sonra baş vermiş Bəni-Qüreyzə döyüşü hicrətin beşinci ilinin şəvval ayında olmuş və elə həmin ilin zilhəccə ayının on doqquzunda başa çatmışdır. Səd ibn Məaz da Xəndək döyüşündə aldığı yaradan açılan güclü qanaxma nəticəsində Bəni-Qüreyzə döyüşü başa çatan kimi vəfat etmişdir.[2] Bəni-Müstəliq döyüşü isə hicrətin altıncı ilinin şəban ayında (Səd ibn Məazın vəfatından təxminən yeddi-səkkiz ay sonra) baş vermişdir.

Mühüm olan odur ki, münafiqlərin cəmiyyətdə özünəməxsus mövqeyi olan ismətli bir qadını namussuzluqda ittiham etməklə müsəlmanların ruhiyyəsini zəiflətməyə çalışdığını bilək. Şayiəni isə münafiqlərin başçısı Abdullah ibn Übeyy yaymışdır.

Nur surəsinin böhtan hadisəsi ilə əlaqədar 11-16-cı ayələrinin nazil olma səbəbi haqqında başqa bir ehtimal da odur ki, guya sözügedən ayələr Peyğəmbərin(s) digər xanımı Mariya barəsində nazil olmuşdur. Belə ki, Peyğəmbər(s) Mariyadan olan oğlu İbrahim vəfat etdikdə həzrət çox kədərlənir. Xanımlarından biri ona deyir ki, nə üçün bu qədər kədərlənirsən? O ki, sənin oğlun deyildi, o, İbn Cərihdən olmuşdu. Bunu eşidən Peyğəmbər(s) Əlini(ə) İbn Cərihin ardınca yollayır ki, gedib onu öldürsün. Əli, İbn Cərihin işlədiyi bağa gedir. İbn Cərih, Əlinin(ə) qəzəbli halda, özü də qılıncla gəldiyini görüb qapını açmır. Əli qapının üstündən bağa daxil olur. Vəziyyətin belə olduğunu görən İbn Cərih tez qaçıb bir xurma ağacına dırmanır. Əli də onun ardınca ağaca

[1] Sireyi İbn Hişam, c-2, s-300
[2] Sireyi İbn Hişam, c-2, s-250

qalxır. Bu vaxt İbn Cərih qorxudan özünü ağacın başından yerə atır və birdən paltarı əynindən çıxdıqda məlum olur ki, onun ümumiyyətlə heç kişilik aləti yox imiş. Əli(ə) Peyğəmbərin(s) hüzuruna gəlib bu haqda ona məlumat verir.

Mühəddis Bəhreyni[1] və Hüveyzinin[2] nəql etdiyi bu hədis zəifdir və qəbul edilə bilməz.

***Dini-siyasi bir xəbər***

Hicrətin altıncı ili get-gedə başa çatmaq üzrə idi. O ərəfədə Peyğəmbər(s) yuxuda müsəlmanların həcc ziyarətinə gedib Məscidül-həramda Kəbəni təvaf etdiyini görür. Həzrət yüxusunu səhabələrinə danışıb onu yaxşı mənaya yozur, müsəlmanların tezliklə çoxdankı ziyarət (və eyni zamanda mühacirlərin vətən) həsrətinə son qoyulacağını bildirir.[3]

Yuxunu görməsindən bir qədər sonra Peyğəmbər(s) müsəlmanlara ümrə ziyarətinə (həcc mövsümü olmayan vaxtda edilən Məkkə ziyarəti ümrə ziyarəti adlanır) hazırlaşmalarını tapşırır. Hətta hələ İslamı qəbul etməmiş ətraf qəbilələr də bu səfərdə iştirak etməyə dəvət edilir. Buna görə də müsəlmanların zilqədə ayında ümrə ziyarətinə gedəcəyi xəbəri demək olar bütün Ərəbistan yarımadasına yayılır.

Bu ziyarət səfəri mənəvi özəllikləri ilə yanaşı bir sıra ictimai-siyasi cəhətləri də özündə əks etdirirdi. Belə ki, müsəlmanların Ərəbistan yarımadasında nüfüzunun artmasına və İslamın daha da yayılmasına səbəb olacaqdı. Bunu aşağıdakılarla əlaqələndirmək olar:

1) Müşrik ərəb qəbilələri belə təsəvvür edirdilər ki, Peyğəmbər(s) onların bütün adət-ənənələri, hətta əcdadlarından yadigar qalmış həcc ayini ilə də müxalifdir. Bu baxımdan ona və dininə biganə gözü ilə baxırdılar. Peyğəmbər(s) və müsəlmanların istər həcc, istərsə də ümrə ziyarətində iştirakı bu yanlış fikri aradan qaldıracaq, faktiki və praktiki olaraq onlara başa salacaqdı ki, İslam dini nəinki həcc və ümrə ayını ilə zidd deyil, əksinə, onu vacib bir əməl hesab edir.

---

[1] Təfsiri Bürhan, c-2, s-126-127

[2] Təfsiri Nurus-səqələyn, c-2, s-581-582

[3] Məcməül-bəyan, c-9, s-126

Belə olan halda müşrik ərəb qəbilələri Mühəmmədin(s) ərəblərin atası həzrət İsmail(ə) kimi həcc və ümrə əməllərinin icra edilməsində maraqlı olduğunu dərk edəcəkdi. Nəticədə qorxub çəkindikləri İslama qarşı onlarda meyl yaranacaqdı.

2) Minlərlə müşrikin iştirak etdiyi ümrə ziyarətinə müsəlmanların da qatılması İslam dininin başqa bir cəhətdən də təbliğinə xidmət edəcəkdi. Belə ki, müxtəlif bölgələrdən Məkkəyə axışıb gələn ərəblər öz yerlərinə qayıtdıqda müsəlmanlar və onların dini barəsində danışdıqda yerli camaatda təzə dinə qarşı maraq yaranacaq və beləliklə də İslamın səsi o vaxtadək gedib çatmadığı bölgələrə də gedib çatacaqdı. Sözsüz ki, bu da müəyyən müsbət nəticəni verəcəkdi.

3) Peyğəmbər(s) hələ səfərə çıxmazdan qabaq müsəlmanlara: «Biz yalnız ziyarət üçün Məkkəyə gedirik.»-deməklə, haram ayların hörmətinin qorunmasının lazımlığını çatdırmış və bu səfərdə hər bir müsafirin özü ilə götürdüyü qılınc istisna olmaqla heç bir silah götürməməyi tapşırmışdı. Bunun özü də bəzi qeyri müsəlmanlarda İslama rəğbət yaradacaqdı. Çünki Qüreyş müşrikləri İslamda haram ayların hörmətinin qorunmamasını təbliğ etmişdi.

İndi isə camaat öz gözü ilə bunun əksinin şahidi olacaqdı. Belə olduqda onlar İslamda da haram ayların qüvvədə qaldığını dərk edəcəkdilər.

Peyğəmbər(s) çox yaxşı başa düşürdü ki, bu ziyarət səfəri baş tutarsa, müsəlmanlar çoxdankı arzusuna çataraq, eyni zamanda altı-yeddi il doğma vətənindən, ev-eşiklərindən, qohum-əqrəbasından uzaq düşmüş mühacirlərin həsrətinə son qoyulacaqdı. Ancaq bu məsələnin yalnız bir tərəfi idi. Məsələnin digər tərəfi isə ondan ibarət idi ki, müşriklər onların Məkkəyə girməsinə mane olacağı təqdirdə qazandıqları hörmət-izzəti, reytinqi itirəcəkdi. Çünki bitərəf olan qəbilələr Məkkənin bütün ərəblərə məxsus olduğu halda Qüreyşin silahsız müsəlmanlarla neçə davrandığını görüb onların barəsində ən azı pis fikrə düşəcəkdilər. Belə olduqda müsəlmanların haqq, Qüreyşin isə nahaq olması daha qabarıq şəkildə özünü göstərəcəkdi. Çünki Qüreyş minlərlə zəvvarın gözü qarşısında müsəlmanları öz qanuni haqlarından məhrum etmiş olacaqdı.

Bütün bu cəhətləri nəzərə alıb araşdıran Peyğəmbər(s) hərəkət əmri verir. Özü başda olmaqla min dörd yüz[1] (bəzi mənbələrdə min altı yüz[2], hətta min səkkiz yüz[3]) müsəlman Zülhüleyfə adlı yerdə ehram bağlayır. Özləri ilə götürdükləri yetmiş baş qurbanlıq dəvə onların səfərindən xəbərdar olmayanlara da müsəlmanların ziyarətə getdiyini anladırdı.

Peyğəmbər(s) kiçik bir dəstəni qabaqcadan göndərir ki, yolda düşmənlə rastlaşsalar, dərhal bu barədə ona məlumat versinlər. Əsəfan adlı yerdə Xüzaə qəbiləsindən olan və Peyğəmbərə(s) xəbər gətirən bir kişi həzrətin hüzuruna yetişib deyir: «Qüreyş sizin gəlişinizdən xəbər tutmuşdur. Bütün qüvvələrini səfərbər edib Lat və Üzzaya (müşriklərin ən böyük bütləri) and içmişlər ki, sizi Məkkəyə buraxmayacaqlar. Nüfuzlu şəxslərin hamısı Məkkə yaxınlığındakı Zi-Tivada toplaşıblar. Sizin Məkkəyə girişinizə mane olmaq üçün cəsur sərkərdə Xalid ibn Vəlidi iki yüz atlı ilə Kuraul-qəmimə göndəriblər.[4] Onlar da söz veriblər ki, ya sizi Məkkəyə buraxmayacaq, ya da bu yolda öldürüləcəklər.» Qasidin xəbərlərini dinləyən Peyğəmbər(s) buyurur: «Qüreyşə əfsuslar olsun! Döyüşmək onların axırına çıxdı. Kaş mənimlə işləri olmayaydı. Qoy başqa qəbilələr mənimlə vuruşaydı. Qalib gəlsəydilər, Qüreyş də öz istəyinə çatacaqdı, yox əgər məğlub olsaydılar, onda ya İslamı qəbul edər, ya da yeni qüvvə toplayardılar. And olsun Allaha, təkallahlıq (İslam) dininin təbliği yolunda o qədər çalışacağam ki, ya İslam bütün dinlərə qalib gələcək, ya da bu yolda can verəcəyəm.» Peyğəmbər(s) Xalid ibn Vəlidin dəstəsi ilə üzləşməsin deyə, yaxşı bir bələdçi çağırtdırır. Bələdçi müsəlmanları çox çətin keçilən dərələrlə aparıb Hüdeybiyyə adlı məntəqəyə çatdırır. Orada Peyğəmbərin(s) dəvəsi yerə yatır. Bunu gördükdə həzrət buyurur ki, bu heyvan Allahın əmri ilə yerə yatıb ki, məsələyə aydınlıq gəlsin. Sonra da hamıya otraq edib çadırları qurmağı əmr edir.

Xalid ibn Vəlidin başçılıq etdiyi iki yüz nəfərlik süvari dəstə müsəlmanların hansı yolla getdiyini öyrənən kimi tez özünü onların

---

[1] Sireyi ibn Hişam, c-2,s-309

[2] Rozeyi-kafi, s-322

[3] Məcməül-bəyan, c-2, s-488

[4] Biharul-ənvar, c-20, s-330

yaxınlığına çatdırır. Peyğəmbər(s) hərəkətə davam etsəydi, onda Qüreyş süvarilərinin cənazəsi üstündən keçmək məcburiyyətində qalacaqdı. Halbuki hamı o həzrətin Mədinədən sırf ziyarət məqsədilə çıxdığını bilirdi. Digər tərəfdən bu hərəkət Peyğəmbərin(s) sülhməramlı ideyalarına xələl gətirərdi. Həm də iki yüz nəfərlik süvari dəstəni qırmaqla məsələ həll olunmayacaq və Qüreyşin yardımçı qüvvələri bir-birinin ardınca gələcəkdi ki, onda da müsəlmanlar məqsəddən tamamilə yayınacaqdılar. Üstəlik, müsəlmanların səfər qılıncından başqa silahları da yox idi və belə bir vəziyyətdə döyüşmək heç də optimal variant deyildi. Deməli, məsələni danışıqlar yolu ilə həll etmək zərurəti yaranırdı. Bütün bu amillərə əsaslanan Peyğəmbər(s) səhabələrinə xitabən buyurur: «Bu gün Qüreyş məndən qohumluq əlaqələrinin möhkəmlənməsinə səbəb olacaq bir şey istəsə, qəbul edib sülh yolunu seçəcəyəm.»[1]

Sözsüz ki, düşmən də Peyğəmbərin(s) bu sözündən xəbərdar olur. Buna görə də həzrətin son fikrini öyrənmək üçün Qüreyş başçıları Peyğəmbərin(s) hüzuruna nümayəndə heyəti göndərir.

***Qüreyş nümayəndələri ilə Peyğəmbərin(s) görüşü***

Qüreyş başçıları Peyğəmbərin (s) hansı məqsədlə Məkkəyə gəlməsini dəqiqləşdirmək məqsədilə bir neçə dəfə həzrətin hüzuruna nümayəndə göndərir. İlk olaraq Büdeyl Xüzai Xüzaə qəbiləsindən bir neçə nəfərlə Peyğəmbərin hüzuruna gəlir. Həzrət onlara Məkkəyə döyüşə gəlmədiyini, gəlişindən məqsədin sırf ziyarət olduğunu bildirir. Nümayəndələr geri qayıdıb Peyğəmbərin(s) dediklərini müşriklərə çatdırırlar. Lakin Qüreyş başçıları onların sözünə inanmayıb deyirlər ki, and olsun Allaha, ziyarət məqsədilə gəlmiş olsa da, Mühəmmədin Məkkəyə girişinə mane olacağıq.

İkinci dəfə Mükriz adlı şəxs qüreyşlilər tərəfindən nümayəndə göndərilir. Peyğəmbər(s) ona da eyni cavabı verir. Mükriz qayıdıb Büdeylin dediklərini təkrarlayır. Lakin Qüreyş başçıları ona da inanmırlar. Bu dəfə ərəblərin ən mahir oxatanı Hüleys ibn Əlqəməni nümayəndə kimi göndərirlər. Peyğəmbər(s) onu uzaqdan görcək buyurur: «Bu kişi çox təmiz və Allah tanıyan bir qəbilədəndir.

[1] Tarixi Təbəri, c-2, s-270-272

Qurbanlıq gətirdiyimiz dəvələri bir qədər qabağa çəkin, qoy görsün ki, doğrudan da biz ziyarətə gəlmişik və döyüşmək fikrimiz yoxdur. «Hüleysin gözü acından bir-birinin yununu yeyən yetmiş baş dəvəyə sataşdıqda daha Peyğəmbərlə(s) görüşməyib geri qayıdır. Qəzəbli halda Qüreyş başçılarının yanına gələrək deyir: «Biz Allah evinin zəvvarlarına mane olmaq üçün sizinlə müttəfiq olmamışıq. Mühəmmədin də ziyarətdən başqa məqsədi yoxdur. And olsun canım əlində olan Allaha, Mühəmmədin Məkkəyə girməsinə mane olsanız, ox atmaqda ad çıxarmış qəbilə üzvlərimlə birlikdə sizə hücum edib kökünüzü kəsəcəyik.» Hüleysin sözlərindən narahat olan Qüreyş başçıları onun bu etirazından ehtiyat edərək deyirlər ki, arxayın ol, bizim seçəcəyimiz yol səni qane edəcək.

Nəhayət, dördüncü dəfə Ürvə ibn Məsud Səqəfi nümayəndə olaraq Peyğəmbərin(s) hüzuruna gəlir. O, əvvəlcə nümayəndə seçilməsini istəmirdi. Çünki qüreyşlilərin əvvəlki nümayəndələrə etimad etmədiyini görürdü. Lakin onun sözünü qəbul edəcəklərinə dair söz verdikdən sonra Ürvə də nümayəndə seçilməsinə razılıq verir. Peyğəmbərin(s) hüzuruna gələrək deyir: «Mühəmməd, müxtəlif dəstələri başına toplayaraq doğma vətənin Məkkəyə hücum etmək istəyirsən. Lakin Qüreyş qəbiləsi sənin Məkkəyə girişinə icazə verməyəcək. Mən ondan qorxuram ki, axırda ətrafındakı adamlar qaçıb səni tək qoyarlar.» Bunu dedikdə Peyğəmbərin(s) başı üstündə dayanan Əbu Bəkr ona deyir: «Səhvin var, Peyğəmbərin(s) səhabələri onu heç vaxt tək qoymazlar.»

Peyğəmbərin(s) və səhabələrinin ruhiyyəsini zəiflətməyə çalışan Ürvə çox diplomatik şəkildə danışırdı. O danışarkən təhqir əlaməti olaraq ara-sıra əlini Peyğəmbərin(s) saqqalına uzadırdı. Bu zaman Müğeyrə ibn Şöbə onun əlinin üstünə vuraraq deyirdi ki, ədəbli ol, Peyğəmbərə(s) qarşı tərbiyəsizlik etmə! Müğeyrənin üzü bağlı olduğu üçün Ürvə onun kim olduğunu soruşduqda Peyğəmbər(s) buyurur ki, o, qardaşın oğlu Müğeyrədir. Bunu eşidən Ürvə narahat olub deyir: «Ay hiyləgər, dünən səni ölümdən mən qurtarmadımmı? Müsəlman olmazdan qabaq Bəni-Səqifdən on üç nəfəri öldürdün, mən isə qırğının qarşısını alıb öldürülənlərin qan bahasını ödəmədimmi?» Peyğəmbər(s) Ürvənin sözünü kəsib Məkkəyə gəlişinin məqsədini açıqlayır. Sonra da

ayağa qalxıb dəstəmaz almağa başlayır. Həzrət dəstəmaz alarkən səhabələr onun üzündən, əl-qolundan daman damcıları yerə düşməyə qoymur və hər bir damcını təbərrük olaraq götürürdülər.

Peyğəmbərin(s) hüzurundan ayrılan Ürvə ibn Məsud Qüreyşin məclisinə gələrək deyir: «Mən bu vaxtadək çox şahlar görmüşəm, İran hökmdarının[1], Bizans imperatorunun, Həbəşistan hökmdarının sarayında çox olmuşam. Onların heç biri Mühəmmədə çatmaz. Mən onun kimisini heç görməmişəm. Öz gözlərimlə gördüm ki, Mühəmməd dəstəmaz alarkən səhabələri bircə damcı suyun da yerə düşməsinə imkan vermədilər, hər bir damcını təbərrük kimi götürdülər. Buna görə də Qüreyş başçıları bu haqda yaxşı düşünməlidirlər.»

***Peyğəmbərin(s) nümayəndəsinin Qüreyş başçıları ilə görüşü***

Qüreyş nümayəndələrinin Peyğəmbərlə(s) görüşləri heç bir nəticə vermir. Peyğəmbər(s) belə təsəvvür edir ki, bəlkə də nümayəndələr qorxduqları üçün onun fikrini olduğu kimi çatdırmayıblar. Buna görə də qərara gəlir ki, məqsədini müşriklərə doğru-dürüst çatdırmaq üçün özü onların yanına nümayəndə göndərsin. Bu məsuliyyət Xüzaə qəbiləsindən olan Xərraş ibn Üməyyəyə tapşırılır. Qüreyş başçılarının yanına gələn Xəraş, Peyğəmbərin məqsədini onlara çatdırır. Lakin gözlənilənlərin əksinə olaraq müşriklər nümayəndəni qəbul etmirlər. Hətta dəvəsinin qıçlarını kəsib az qala özünü də öldürəcəkdilər. Fəqət bir dəstə mahir oxatanın müdaxiləsindən sonra Xərraş ölümdən qurtarır. Müşriklərin bu yaramaz hərəkəti bir daha sübut etdi ki, onlar sülh etmək niyyətində deyil. Bu hadisənin ardınca Qüreyş başçıları əlli gənc süvarini müsəlmanların qərarlaşdığı yerə göndərərək onlara tapşırırlar ki, mümkün olarsa müsəlmanların əmlakından qarət edib bir neçə nəfəri də əsir götürsünlər. Ancaq onların bu planı baş tutmadı. Hələ bu azmış kimi özləri də müsəlmanlara əsir düşdülər. Lakin Peyğəmbər(s) onların hamısını azad etməklə bir daha sülh tərəfdarı olduğunu sübut edir.[2]

Nəyin bahasına olursa olsun, məsələni danışıqlar yolu ilə həll etmək istəyən Peyğəmbər(s) növbəti nümayəndə göndərmək qərarına gəlir. Bu

[1] Sireyi ibn Hişam, c-2, s-314; Tarixi Təbəri, c-2, s-274-275
[2] Tarixi Təbəri, c-2, s-278

dəfə elə bir şəxs seçilməli idi ki, bu vaxtadək bircə nəfər də olsun, Qüreyşdən heç kəsi öldürmüş olmayaydı. Buna görə də Peyğəmbər(s) Ömər ibn Xəttabı nümayəndə göndərmək istəyir. Lakin Ömər belə deyir: «Osman bu işin öhdəsindən daha yaxşı gələr. Çünki o, Əbu Süfyanla qohumdur. O, sizin sözünüzü qüreyşlilərə çatdıra bilər.» Nümayəndə seçilən Osman Məkkəyə gəlir. Yolda, Əban ibn Səid ibn Asla rastlaşıb onun zəmanəti ilə şəhərə daxil olur. Müşriklər Peyğəmbərin(s) nümayəndəsinin cavabında deyirlər ki, biz Mühəmmədi Məkkəyə buraxmayacağımıza dair and içmişik. Belə bir vəziyyətdə daha danışıqlar aparmağın mənası yoxdur.

Müşriklər Osmana Kəbəni təvaf etməyə icazə versələr də, o Peyğəmbərə(s) hörmət əlaməti olaraq təvaf etməkdən imtina edir. Lakin müşriklər Osmana geri qayıtmağa imkan vermirlər. Bəlkə də onu bir-iki gün yubatmaqla nəsə bir çıxış yolu axtarırdılar.[1]

***Müsəlmanların Peyğəmbərə(s) yeni beyəti***

Osmanın gecikməsi müsəlmanlarda narahatlıq yaradır. Onun öldürüldüyü barədə yalan məlumat yayıldıqda müsəlmanlar hiddətə gəlib intiqam almaq fikrinə düşürlər. Peyğəmbər(s) də öz növbəsində onların ruhiyyəsini gücləndirmək məqsədilə buyurur ki, bu məsələyə birdəfəlik son qoymayınca buradan gedən deyiləm.

Müsəlmanlar döyüş məqsədilə Mədinədən çıxmadıqları üçün təbii ki, lazımi hazırlıq görməmişdilər. Belə bir gərgin vəziyyətdə Peyğəmbər(s) müsəlmanlarla beyətini təzələmək fikrinə düşür. Buna görə də yaxınlıqdakı ağacın altında əyləşir, müsəlmanlar da bir-bir gəlib həzrətin əlini sıxmaqla öz beyətlərini təzələyir, son nəfəslərinədək İslamın keşiyində duracaqlarını bildirirlər. Quran bu hadisəyə toxunaraq buyurur: ***«(Ya Rəsuləllah!) And olsun ki, (Hüdeybiyyədə) ağac altında sənə beyət etdikləri zaman Allah möminlərdən razı oldu. (Allah) onların ürəklərində olanı (sənə sadiq qalacaqlarını, əhdə vəfa edəcəklərini bildi, onlara (Öz dərgahından) arxayınlıq göndərdi və onları yaxın gələcəkdə qazanılacaq bir qələbə (Xeybərin və ya Məkkənin fəthi) ilə mükafatlandırdı.»***[2]

---

[1] Tarixi Təbəri, c-2, s-278-279
[2] Fəth-18

Bu beyətdən sonra nə ediləcəyi artıq bəlli idi. Müsəlmanlar ya Məkkəyə daxil olub Allah evini ziyarət etməli, ya da müşriklərə qarşı döyüşməli idilər. Peyğəmbər(s) və müsəlmanlar bu fikirdə ikən Osmanın uzaqdan gəldiyi gözə dəyir. Bu isə Peyğəmbərin arzuladığı sülhün başlanğıcı idi. Osman baş verənləri həzrətə çatdırıb deyir ki, müşriklərin bizi Məkkəyə buraxmasında əsas problem and içmələridir. Onlar andlarından keçə bilmədiklərinə görə bizi Məkkəyə buraxmırlar. Hər hansı bir çıxış yolu haqqında müzakirə etməkdən ötrü hazırda Qüreyş nümayəndəsi hüzurunuza gəlməkdədir.

***Süheyl ibn Əmrlə Peyğəmbərin(s) söhbəti***

Beşinci dəfə olaraq Qüreyş başçıları Süheyl ibn Əmri xüsusi tapşırıqlarla Peyğəmbərin(s) hüzuruna göndərirlər. Peyğəmbər(s) Süheyli uzaqdan gördükdə buyurur ki, o bizimlə Qüreyş arasında sülh müqaviləsi imzalamağa gəlib. Süheyl gəlib müxtəlif məsələlər haqqında danışır, Peyğəmbərlə(s) olduqca mehriban davranır. Sözə başlayan Süheyl deyir: «Ey Əbülqasim, biz Məkkə sayəsində hörmət qazanmışıq. Sənin bizimlə döyüşdüyünü bütün ərəblər bilir. Sən indiki vəziyyətdə Məkkəyə daxil olsan, bizim zəiflədiyimizi hamı biləcək, sonra hər yerindən duran üstümüzə hücum çəkəcək. Səni and veririk bizimlə olan qohumluğuna və sənin də vətənin olan Məkkənin hörmətinə…» Bu zaman Peyğəmbər(s) Süheylin sözünü kəsərək buyurur: «Əsas mətləbə keç!» Süheyl deyir: «Qüreyş başçıları istəyirlər ki, bu il elə buradan Mədinəyə geri qayıdasınız.

Gələn ildən etibarən isə bütün ərəb qəbilələri kimi müsəlmanlar da həcc ziyarətində iştirak edə bilərlər. Bu şərtlə ki, Məkkədə üç gün qalmasın və gələrkən özləri ilə müsafir silahından başqa silah götürməsinlər.»

Aparılan danışıqlar müsəlmanlarla Qüreyş müşrikləri arasında sülh müqaviləsi bağlanması ilə nəticələnir. Müqavilənin bəndləri yazılarkən Süheyl Qüreyşin mənafeyinə üstünlük versə də, Peyğəmbər heç bir etiraz etmir. İki nüsxədə hazırlanan müqavilə tərəflərin imzası ilə təsdiqlənir və hər bir nüsxəsi tərəflərdə saxlanılır.

Bütün tarixçilərin qeyd etdiyinə görə müqavilənin hazırlanması üçün Peyğəmbər(s) Əlini(ə) çağırıb ona aşağdakı məzmunda müqavilə yazmağı tapşırır: «Yaz mehriban və bağışlayan Allahın adı ilə!» Bu

zaman Süheyl etiraz edərək deyir ki, mənim belə bir cümlə haqqında anlayışım yoxdur. Mən mehriban və bağışlayan Allahı tanımıram. «Allahın adı ilə!» cümləsini yazın. Peyğəmbər(s) onun dediyi ilə razılaşıb müqavilədə də məhz belə yazılmasını əmr edir. Daha sonra Əliyə də belə yazmasını bildirir: «Bu, Allahın elçisi Mühəmmədlə Qüreyş nümayəndəsi Süheyl arasında bağlanan bir müqavilədir.» Bu dəfə də Süheyl etiraz edərək deyir ki, biz sənin Peyğəmbər olduğunu qəbul etmirik. Peyğəmbər olduğunu qəbul etsəydik, səninlə döyüşməzdik. Müqavilədə öz adını və atanın adını yazmalı, «Allahın elçisi» ifadəsini isə çıxarmalısan. Müsəlmanlar bununla razılaşmaq istəmirlər, lakin Peyğəmbər(s) İslamın mənafeyi naminə bu şərti də qəbul edərək «Allahın elçisi» ifadəsini müqavilənin mətnindən çıxarılmasını tapşırır. Əli(ə) buyurur ki, ya Rəsuləllah, bu ifadəni silməyə əlim gəlməz. Buna görə də Peyğəmbər(s) ifadəni öz mübarək əli ilə silir.[1]

Müqavilə imzalanarkən Peyğəmbərin(s) bu qədər güzəştə getdiyi hamını heyrətə gətirir. O həzrət maddi hisslərə qapılmadığına görə bilirdi ki, hər hansı həqiqət yazılıb-yazılmamaqla dəyişən deyil. Bu baxımdan müqavilə imzalanarkən Süheylin tutduğu sərt mövqeyə rəğmən Peyğəmbər(s) sülhün bərqərar olunmasında israrlı idi və qarşı tərəfin bütün tələblərini qəbul edir.

### *Tarixin təkrarı*

Peyğəmbərin(s) ən nümunəvi səhabəsi Əli(ə) də həyatında belə bir analoji hadisə ilə üzləşir. Onun sülh müqavilələrindən Allahın elçisi ifadəsini silməyə əli gəlmədiyi zaman Peyğəmbər(s) Əliyə müraciət edərək buyurur: «Əli, vaxt gələcək bunların övladları səni də belə bir işə məcbur edəcəklər. Sən də çarəsiz qalıb ona razı olacaqsan.»[2] Peyğəmbərin(s) bu cümləsini Əli(ə) heç vaxt unutmurdu. Nəhayət, Siffeyn döyüşü baş verir. Qələbənin bir addımlığında olan Əlinin(ə) sadəlövh əskərləri Müaviyə və Əmr Asın hiylələrinə uyub sülh bağlanmasını tələb edirlər. Sülh müqaviləsinin mətninin yazılması üçün Əlinin(ə) dəstəsindən Abdullah ibn Əbu Rafe katib seçilir. O, müqavilənin lap başlanğıcında «Bu, Əmilər-

---

[1] Əl-İrşad, s-60; Əlamul-vəra, s-106; Biharul-ənvar, c-20, s-368

[2] Əl-Kamilu fit-tarix, c-2, s-138; Biharul-ənvar, c-20, s-353

mömünin Əli ibn Əbutaliblə Müaviyə ibn Əbu Süfyan arasında bağlanmış bir sülh müqaviləsidir» yazdıqda Müaviyənin nümayəndəsi katibə deyir ki, Əlinin adı və atasının adı qalsın, Əmirəl-möminin ifadəsini müqavilədən çıxart. Biz Əlini Əmirəl-möminin kimi qəbul etsəydik, ona qarşı döyüşməzdik.» Bu barədə bir qədər mübahisə yaranır və tərəflərin heç biri digərinin şərtini qəbul etmək istəmir.

Axırda Əli(ə) özü Əmirəl-möminin ifadəsinin müqavilənin mətnindən çıxarılmasına razılıq verərək buyurur: «Allahu əkbər, necə də Peyğəmbərin(s) üzləşdiyi hadisəyə oxşayır!» Sonra da Hüdeybiyyə sülhündə baş verənləri camaata danışır.[1]

***Hüdeybiyyə sülh müqaviləsinin mətni***

Peyğəmbərlə(s) Süheyl müqavilənin bəndləri haqqında razılığa gəldikdən sonra aşağıdakı şəkildə Hüdeybiyyə sülh müqaviləsi bağlanır:

1) Ərəbistan yarımadasında sabitlik pozulmasın deyə, Qüreyş və müsəlmanlar on il müddətində bir-biri ilə döyüşməyəcəklər.

2) Qüreyş gənclərindən kimsə böyüyündən icazəsiz Mədinəyə qaçıb İslamı qəbul edərsə, Mühəmməd onu Məkkəyə qaytarmağa borcludur. Lakin müsəlmanlardan kimsə Məkkəyə gələrsə, müşriklər onu geri qartarmaq məcburiyyətində deyil.

3) Həm müsəlmanlar, həm də Qüreyş istədikləri qəbilə ilə dostluq müqaviləsi bağlaya bilər.

4) Bu il Mühəmmədlə səhabələri Məkkəyə girmədən Hüdeybiyyədən geri qayıdır, gələn ildən etibarən isə Məkkədə üç gündən artıq qalmamaq və gələrkən özləri ilə müsafir silahından başqa silah götürməmək şərti ilə azad şəkildə ziyarətə gələ bilərlər.[2]

5) Bu müqaviləyə uyğun olaraq Məkkədə yaşayan müsəlmanlar öz dini ayinlərini rahat şəkildə yerinə yetirə bilər, qüreyşlilərin onları ələ salmaq, incitmək, öz dinlərindən döndərmək haqqı yoxdur.[3]

6) Tərəflər bir-birinin əmlakına xəyanət etməməli, bir-birinə qarşı qəlbində kin saxlamamalıdır.

---

[1] Əl-Kamilu fit-tarix, c-3, s-162
[2] Sireyi Hələbi, c-3, s-24
[3] Biharul-ənvar, c-20, s-353

7) Mədinədən Məkkəyə gələn müsəlmanların həm özlərinin, həm də əmlakının toxunulmazlıq hüququ vardır.[1]

Müqavilənin mətni həm Qüreyş, həm də müsəlmanlardan bir neçə nəfərin şahidliyi ilə iki nüsxədə hazırlanır, biri Peyğəmbərə(s), digəri isə Süheylə təqdim edilir.[2]

***Azadlıq səadəti***

Müqavilənin bəndlərini incələyən hər bir şəxs ondakı azadlığı hiss etməyə bilməz. Müqavilənin hər bir maddəsi təqdirəlayiqdir. Lakin o vaxt müsəlmanları narahat etmiş ikinci maddə diqqəti daha çox cəlb edir. Müqavilə imzalanan gün ikinci maddəyə öz etirazını bildirən müsəlmanların Peyğəmbərin(s) sözünün üstündən söz demələri yersiz idi. Həmin maddədə həzrətin iradə, əqidə azadlığına necə böyük önəm verdiyini hiss etmək elə də çətin deyil. Həmin maddəyə etiraz edən müsəlmanlara Peyğəmbər(s) belə cavab verir: «İslam bayrağı altından çıxıb şirkə doğru gedən, müşrikləri müsəlmanlardan üstün tutan şəxsin bu hərəkəti onu göstərir ki, deməli, o, İslamı səmimi-qəlbdən qəbul etməyibmiş. Bizə belə bir müsəlman lazım deyil. Müşriklərdən Mədinəyə qaçıb gələni təhvil verməyimiz isə ona görədir ki, Allahın gec, ya tez onu azad edəcəyinə inanırıq.»[3]

Bu maddə ilə bağlı Peyğəmbər(s) sırf ağıla, məntiqə əsaslanırdı. Zaman keçdikdə bu həqiqət daha qabarıq şəkildə üzə çıxır. Belə ki, zaman keçdikcə bu maddə nəticəsində Qüreyşin üzləşdiyi xoşagəlməz hallar nəticəsində onlar özü ikinci maddənin müqavilədən çıxarılmasını israr edirlər.

Müqavilədə öz əksini tapmış ikinci maddə İslamın qılınc gücünə inkişaf etdiyini iddia edən qərəzli şərqşünaslara tutarlı bir cavabdır. Onlar İslamın azad şəkildə yayılması ilə barışa bilmədiyindən, guya qılınc gücünə, zor gücünə inkişaf etdiyini iddia etmişlər. Halbuki, minlərlə insanın gözü qabağında bağlanan bu müqavilə heç də onların dediyini təsdiq etmir.

---

[1] Məcməül-bəyan, c-9, s-117

[2] Sireyi Hələbi, c-3, s-25-26

[3] Sireyi Hələbi, c-3, s-12; Biharul-ənvar, c-20, s-312

Hüdeybiyyə sülhü bağlandıqdan sonra sülh müqaviləsinə müvafiq olaraq Xüzaə qəbiləsi ilə müsəlmanlar, Xüzaə qəbiləsinin tarixi düşməni Kənanə qəbiləsi ilə də Qüreyş arasında dostluq müqavilələri imzalanır.

***Sülhün qorunması üçün daha bir cəhd***

Bağlanmış sülh müqaviləsinin mətnindən də görünür ki, müşriklər müqaviləni öz istədikləri kimi tərtib edirlər. Peyğəmbərin(s) müqavilənin mətnindən Allahın elçisi ifadəsini çıxartması, müqavilənin «Bağışlayan və mehriban Allahın adı ilə!» deyil, Cahiliyyət dövrünün yazılarında olduğu kimi «Allahın adı ilə !» ifadəsi ilə başlaması, ikinci maddənin tələbinə uyğun olaraq müşriklərdən hər hansı bir şəxsin qaçıb Mədinəyə gəldiyi təqdirdə müsəlmanların onu Məkkəyə geri qaytarmalı olduqları və s. hallar göstərir ki Peyğəmbər(s) də sülh bağlanılmasında israrlı imiş.

Əgər o həzrət Süheylin tələblərini qəbul etməsəydi, danışıqlar dayandırılacaq və sülh baş tutmayacaqdı. Belə olduqda isə sülh nəticəsində gələcəkdə əldə edilən uğurlara nail olmaq mümkün olmayacaqdı. Bunun üçün də Peyğəmbər(s) Süheylin bütün tələblərini, şərtlərini qəbul etmək məcburiyyətində qalır ki, təki qarşıdakı böyük məqsədlərə nail olsun.

Peyğəmbər(s) müqavilə imzalanarkən müsəlmanların fikrini üstün tutmağa çalışır, Süheyl isə hansısa tələbi irəli sürməklə həzrətə təzyiq göstərirdi. Aşağıda qeyd edəcəyimiz əhvalat dediklərimizin bariz nümunəsidir.

Müqavilənin bütün maddələri müzakirə edilib başa çatır. İndi onun qüvvəyə minməsi üçün yazılıb tərəflərin imzası ilə təsdiqlənməsi qalmışdı. Elə bu vaxt Süheylin oğlu Əbu Cündəl ayaqları zəncirlənmiş halda nümayəndələrin oturduğu çadıra daxil olur. Onun gəlişini hamı təəccüblə qarşılayır. Çünki İslamı qəbul etdiyi üçün atası onu uzun müddət idi ki, həbs etmişdi. Saxlandığı yerdə müsəlmanların Hüdeybiyyədə olduğunu öyrənmiş, çətinliklə də olsa birtəhər qaçıb özünü müsəlmanlara çatdırmışdı. Süheyl oğlunu görcək elə qəzəblənir ki, yerindən qalxıb ona möhkəm şapalaq ilişdirir. Sonra da üzünü Peyğəmbərə(s) tutub deyir: «Müqavilənin ikinci bəndinə müvafiq olaraq

bu, Məkkəyə qaytarılacaq ilk şəxsdir.» Süheylin bu sözü tamamilə əsassız idi. Çünki müqavilə hələ imzalanmamış, qüvvəyə minməmişdi. Qüvvəyə minməyən bir müqaviləyə kim əsaslanar? Bina görə də Peyğəmbər(s) Süheylə buyurur ki, axı biz hələ müqaviləni imzalamamışıq. Süheyl deyir: «Onda mən bütün danışıqları əsassız sayıb müqaviləni ləğv edirəm.» Süheyl sözündə o qədər israrlı idi ki, onunla gələnlərdən Mükriz və Hüveytib tez qalxıb Əbu Cündəli atasının əlindən alaraq başqa bir çadıra aparır, Peyğəmbərə(s) də deyirlər ki, qoy hələlik sənin himayəndə qalsın. Bununla mübahisəyə son qoymağa çalışsalar da, Süheylin israrı onların cəhdini nəticəsiz qoyur. O, israr edərək deyir ki, biz müqavilənin bütün detallarını incələyib razılaşmışdıq. Axırda Peyğəmbər(s) məcbur qalıb sülh baş tutsun deyə, onun bu tələbini də qəbul edir. Atası ilə yenidən Məkkəyə qayıtmaq məcburiyyətində qalan Əbu Cündələ isə toxtaxlıq verərək buyurur: «Səbirli ol, Əbu Cündəl! Biz atanın səni xoşluqla burada saxlamasını istəyirdik. Təəssüflər olsun ki, o, buna razı olmadı. Narahat olma, dözümlü ol və yəqin bil ki, Allah sənin kimilər üçün mütləq bir yol açacaq.»

Danışıqlar başa çatır. İki nüsxədə hazırlanmış sülh müqaviləsini hər iki tərəf imzalayır. Süheyl yoldaşlarının müşayiəti ilə oğlunu da götürüb Məkkəyə qayıdır. Peyğəmbər(s) isə elə oradaca qurbanlıq dəvəsini kəsib başını qırxaraq ehramdan çıxır. Əksər müsəlmanlar da o həzrətə baxıb onun əməlini təkrarlayır.[1]

***Hüdeybiyyə sülhünün təhlili***

Həzrət Mühəmməd(s) Məkkə bütpərəstləri ilə sülh müqaviləsi bağlayıb üst-üstə on doqquz gün Hüdeybiyyədə qaldıqdan sonra müsəlmanlar Mədinəyə, Məkkə nümayəndələri isə Məkkəyə qayıdırlar. Müqavilə imzalandıqdan sonra səhabələr arasında bir sıra mübahisələr yaranır.

Bəziləri sülh müqaviləsinin İslamın mənafeyinə uyğun gəldiyini iddia etsə də azsaylı səhabə isə bu müqavilənin İslam mənafeyinin

[1] Tarixi Təbəri, c-2, s-281; Biharul-ənvar,c-20, s-353; Sireyi ibn Hişam, c-2, s-318

ziddinə olduğunu düşünürdü. Həmin müqavilənin imzalanmasından on dörd əsrdən də artıq bir vaxt keçdiyi bir dövrdə müqaviləni təhlil edib səhabələr arasında yaranmış fikir ayrılığına işarə edəcəyik. Bəri başdan onu da qeyd edək ki, bu sülh müqaviləsi İslamın mənafeyinə tam uyğun olmuş və az sonra bütün Ərəbistan yarımadasında İslamın qalib gəlməsinə əlverişli zəmin yaradır.

1) Qüreyş müşriklərinin ardıcıl hücumları, digər qəbilələri müsəlmanlara qarşı təhrik etməsi Peyğəmbərə(s) İslam dinini Ərəbistan yarımadası mühitindən kənarda təbliğ etməyə imkan vermirdi. Peyğəmbərin(s) peyğəmbərlik dönəmindəki əsas diqqəti məhz daxili hücumların qarşısını almağa yönəlmişdi. Lakin Hüdeybiyyə sülhünün bağlanması ilə artıq müsəlmanların Cənub istiqamətindən (Məkkədən) heç bir narahatçılığı yox idi və belə olan halda İslamın digər bölgələrdə təbliği üçün gözəl fürsət yaranırdı. Sülhdən sonrakı sabitliyin nəticəsi iki ildən sonra daha qabarıq şəkildə özünü büruzə verir. Belə ki, Hüdeybiyyə sülhündə Peyğəmbəri(s) 1400 səhabə müşayiət etdiyi halda Məkkənin fəthində bu rəqəm on minə qalxmışdı. Müqayisə edilməz bu fərq məhz Hüdeybiyyə sülhünün nəticəsi idi. Sülh bağlanmazdan qabaq bir çoxları Məkkə müşriklərinin qorxusundan müsəlmanlara qoşulmağa cürət etmirdi, lakin sülh müqaviləsi imzalandıqdan sonra digər qəbilələr özlərini sərbəst görüb sərbəst şəkildə müsəlmanlara qoşulur.

2) Sülh müqaviləsindən əldə edilən ikinci nəticə o idi ki, müşriklərin qeyri-müsəlmanlarla müsəlmanlar arasındakı ünsiyyətə qoyulan qadağa aradan qaldırılır. İndi artıq hər bir şəxs rahat şəkildə Mədinəyə gedib-gələ, Mədinədə olduğu müddət ərzində müsəlmanlarla təmasda olub dəyərli İslam prinsipləri ilə yaxından tanış ola bilərdi:

Müsəlmanlar arasındakı nizam-intizam, səmimiyyət, qeyd-şərtsiz olaraq Peyğəmbərə(s) tabeçiliyi, namaz vaxtı dəstamazlı olub sıx şəkildə sıraya düzülmələri, Peyğəmbərin(s) şirin kəlamları, fəsahət və bəlağətin kuliminasiya nöqtəsində olan Quran ayələri Mədinəyə gələn qeyri-müsəlmanları heyran qoyur, onlarda İslama maraq yaradırdı. Digər tərəfdən sülh müqaviləsi imzalandıqdan sonra müsəlmanlar da öz növbəsində müxtəlif səbəblərlə əlaqədar Məkkəyə gedir, qohum-əqrəbaları, yaxınları ilə görüşdükdə İslamın təbliği ilə məşğul olurdular.

Bu təbliğat nəticəsində hətta Xalid ibn Vəlid və Əmr ibn As kimi bütpərəst sərkərdələri Məkkənin fəthindən qabaq İslamı qəbul edərək müsəlmanların sırasına qoşulurlar. Bütün bunlar isə Məkkənin fəthi zamanı Məkkə şəhərinin müqavimət göstərilmədən təslim olmasına gətirib çıxarır. Təbii ki, bu böyük zəfər məhz İslam dininin təbliğinin azad edilməsinin, camaatdakı qorxu-vəhşətin aradan getməsinin nəticəsi idi.

3) Hüdeybiyyə sülhünü imzalayan bəzi bütpərəst başçılarının əqidəsində də Peyğəmbərlə(s) təmasda olarkən müəyyən dəyişikliklər yaranır.

Belə ki, onlar həzrətin gözəl əxlaqının, humanistliyinin şahidi olur, müqavilənin imzalandığı vaxt Peyğəmbərin(s) nə qədər güzəştə getməsini öz gözləri ilə görürlər. Onlar başa düşürlər ki, Mühəmməd(s) həqiqətən də humanist, mehriban bir insandır, müharibə, qarət tərəfdarı deyil. Elə sülh imzalanan vaxt Məkkəyə hücum etmək iqtidarında olmasına rəğmən sülhə üstünlük verməsi dediklərimizin bariz nümunəsidir. Quran da təsdiqləyir ki, Peyğəmbər(s) həmin gün Məkkəyə hücum etsəydi, mütləq qalib gələcəkdi. (Fəth-22) Bununla belə o həzrət sülh bağlayaraq ona qarşı aparılmış mənfi təbliğatı aradan qaldırır. Bütün bunları nəzərə aldıqda İmam Sadiqin(ə): «Hüdeybiyyə sülhü kimi xeyir-bərəkətli hadisə olmamışdır.»-deyə buyurduğu hədisin mənasını anlamaq elə də çətin olmur.

Sülhdən sonra baş verənlər sübut edir ki, Ömər ibn Xəttab başda olmaqla bəzi səhabələrin sülh bağlanılmasına etiraz etməsi tamamilə əsassız olmuşdur. (Bu barədə ətraflı məlumat üçün «Sireyi İbn Hişam» əsərinə müraciət edə bilərsiniz.)

Beləliklə də Hüdeybiyyə sülhünün necə böyük əhəmiyyətə malik olduğu anlaşılır. Müsəlmanlar hələ Mədinəyə çatmamış Fəth surəsi nazil olub Peyğəmbərə daha böyük bir müjdə-Məkkənin fəth ediləcəyi haqqında xəbər verir. Deməli, Məkkənin fəthinə gedən yol Hüdeybiyyədən keçirmiş.

### *Sülh müqaviləsindəki maddələrdən biri ləğv olunur*

Sülh müqaviləsi bağlandıqdan sonra baş verən bir sıra arzuolunmaz hallar müşriklərin Peyğəmbərdən(s) müqavilədəki

maddələrdən birinin ləğv edilməsini istəmələrinə gətirib çıxarır. Müqavilənin ikinci maddəsinə əsasən Məkkədən qaçıb Mədinəyə gələn şəxs geri qaytarılmalı idi, ancaq Mədinədən Məkkəyə qaçan şəxs geri qaytarılmaq məcburiyyətində deyildi. Müqavilə imzalanarkən səhabələrin böyük etirazına baxmayaraq həzrət bu ədalətsiz maddəni də qəbul etmişdi. Qəlbən buna razı olmasa da, buyurmuşdu ki, Allah zəiflər üçün mütləq bir çıxış yolu açacaqdır.

İkinci maddənin ləğv edilməsinə səbəb aşağıdakı hadisə olur. Əbu Bəsir adlı bir müsəlman uzun müddət müşriklərin əsarətində qaldıqdan sonra axır ki, birtəhər canını qurtarıb Mədinəyə qaçmağa müvəffəq olur. Müşriklərin nüfuzlu şəxslərindən olan Əzhər və Əxnəs Peyğəmbərə(s) məktub yazıb öz nökərləri və Bəni-Amir qəbiləsindən olan bir kişi ilə Mədinəyə göndərirlər. Məktubda bildirilirdi ki, müqavilənin ikinci maddəsinə əsasən Əbu Bəsir Məkkəyə qaytarılmalıdır.

Peyğəmbər(s) məktubu aldıqda Əbu Bəsirə buyurur ki, sən öz qohumlarının yanına qayıtmalısan, müqaviləni pozmağımız əsla rəva deyil. Ancaq mən əminəm ki, Allah-taala sənin və sənin kimilər üçün mütləq bir yol açacaqdır. Əbu Bəsir həzrətə deyir ki, məni müşriklərə təhvil verirsiniz ki, Allahın dinindən döndərsinlər? Həzrət bir daha əvvəlki cümləni təkrarlayaraq onu Məkkəyə yola salır. Məkkədən gələnlərlə Əbu Bəsir Zülhüleyfə məntəqəsinə yetişdikdə yorulduqlarına görə Əbu Bəsir bir divara söykənib istirahət edir. Sonra da mehribancasına yanındakı şəxsə (Bən-Amir qəbiləsindən olan kişiyə) deyir ki, qılıncı ver bir az baxım. Qılıncı alan kimi dərhal onu qınından çıxarıb yanındakını öldürür. Bunu görcək nökər qaçıb Mədinəyə gəlir, Əbu Bəsirin Bəni-Amirdən olan kişini qətlə yetirdiyini Peyğəmbərə(s) xəbər verir. Bir qədər sonra Əbu Bəsir özü də Mədinəyə çatır. Başına gələni danışıb deyir: «Ya Rəsuləllah, sən öz əhdinə vəfa etdin, ancaq mən dinimlə oynayanların yanına qayıdan deyiləm.»

Bunu deyib Qüreyş karvanlarının ticarət yolu olan dəniz sahilinə doğru gedir. Gəlib Eys adlı yerdə məskən salır. Məkkə müsəlmanları Əbu Bəsirin əhvalatından xəbər tutduqda Qüreyşin əzab-əziyyətindən usanmış təxminən yetmiş nəfər Məkkədən qaçıb ona qoşulur. Onlar belə qərara gəlirlər ki, Qüreyş karvanlarını qarət edib əllərinə keçən

adamlarını da qətlə yetirsinlər. Onların bu hərəkəti qüreyşlilərin sülh müqaviləsindən ikinci maddənin çıxarılmasına razı olmalarına səbəb olur. Beləliklə də Peyğəmbər(s) hər iki tərəfin razılığı ilə ikinci maddəni müqavilədən ləğv edir, Eysdə məskunlaşmış müsəlmanları da Mədinəyə çağırır.[1] Qüreyş müşrikləri anladılar ki, imanlı şəxsi əsarətdə saxlasan da, onu əqidəsindən döndərmək olmaz. Onun həbs edilməsi azad olmasından daha təhlükəlidir. Çünki nə vaxtsa qaçmağa imkan tapsalar, qəlblərində kin-küdurət coşub daşacaq.

Hüdeybiyyə sülhü imzalandıqdan sonra Ümmi Külsüm adlı müsəlman bir qadın Məkkədən qaçıb Mədinəyə gəlir. Qardaşları Ümarə və Vəlid Peyğəmbərə(s) məktub yazıb bacılarının geri qaytarılmasını istəyirlər. Peyğəmbər(s) isə onların cavabında bildirir ki, müqavilənin ikinci maddəsində nəzərdə tutulmuş şərt qadınlara aid deyil.[2] Mumtəhənə surəsinin onuncu ayəsi də bu məsələni təstiqləyir. Hüdeybiyyə sülhündən sonra Peyğəmbər(s) ətraf qəbilələrə, eləcə də digər ölkə başçılarına məktub göndərərək onları İslama dəvət edib öz peyğəmbərliyini elan edir.

---

[1] Məğazi Vaqidi, c-2, s-624; Tarixi Təbəri, c-2, s-284
[2] Sireyi İbn Hişam, c-2, s-323

## HİCRƏTİN YEDDİNCİ İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR

***Həzrət Mühəmməd(s) öz peyğəmbərliyini bütün dünyaya çatdırır***

Hüdeybiyyə sülhündən sonra Peyğəmbərin(s) cənub (Məkkə) tərəfdən heç bir narahatçılığı yox idi. İndi artıq bir çox ərəb böyükləri İslamı qəbul etmişdilər. Peyğəmbər(s) bu fürsətdən faydalanaraq o dövrün hökmdarlarına, imperatorlarına, qəbilə başçılarına və eləcədə xaçpərəst liderlərə məktub göndərərək onları İslama dəvət edir. Bu yolla o həzrət bütün bəşəriyyəti tövhid bayrağı altında birləşməyə çağırırdı.

Bu, peyğəmbərin(s) inadkar Qüreyş müşrikləri ilə apardığı on doqquz illik mübarizədən sonra atdığı ilk addım idi. O vaxtadək həzrətin başı daxili çəkişmələrə qarışmasaydı, yəqin ki, Peyğəmbər(s) bu addımı daha tez atardı. Lakin Qüreyş müşriklərinin aramsız hücumları onu neçə il bu mübarizəyə məşğul olmaq məcburiyyətində qoymuşdu.

Peyğəmbər(s) hökmdar və qəbilə başçılarına, dini-siyasi liderlərə yazdığı məktublar o həzrətin onları İslama dəvət etmə metodunu göstərir. Tarixçilər Peyğəmbərin(s) İslama dəvət məqsədilə göndərdiyi 185 məktub və ya bağladığı müqavilə toplayıb qeydə almışlar. Bütün bu məktublar göstərir ki, İslamın mübarizəsi qılınc gücünə deyil, məntiqə əsaslanmışdır.

Həzrət Mühəmməd(s) Qüreyşlə sülh bağladıqdan sonra məktub və qasidlər göndərməklə bütün dünyanı İslama çağırır. Bu məktubların mətni, onlarda vurğulanan məsələlər, Peyğəmbərin(s) əcnəbilərlə bağladığı müqavilələrdəki mülayimliyi, nəsihətləri-hamısı İslamın qılınc gücünə irəliləməsini göstərən şərqşünasların dediklərinin əksinə dəlalət edir. Ümüd edirik ki, nə vaxtsa bütün bu məktublarla əlaqədər hadisələri üzə çıxarmaqla İslamın həqiqətən necə inkişaf etdiyini bütün dünyaya çatdıraq.

***Həzrət Mühəmməd(s) ümumbəşər peyğəmbər olmuşdur***

Bəzi dardüşüncəli insanlar həzrət Mühəmmədin(s) ümumbəşər peyğəmbər olmasına şübhə ilə yanaşırlar. Onların başçılarından olan şərqşünas Ser Vilyam Mayer deyir: «Mühəmmədin ümumbəşər

peyğəmbər olması məsələsi sonradan ortalığa atılmışdır. Əslində isə o, peyğəmbər seçildiyi gündən vəfatınadək yalnız ərəbləri İslama dəvət etmiş və Ərəbistan yarımadasından başqa bir yer tanımamışdır.»

Bu müəllif öz ingilis əcdadlarının yolunu tutaraq bir çox Quran ayələrinin həzrət Mühəmmədi(s) ümümbəşər peyğəmbər hesab etdiyi halda onun yalnız Ərəbistan yarımadası üçün göndərildiyini iddia edir. Gəlin həzrət Mühəmmədin(s) ümumbəşər peyğəmbər olduğunu göstərən bəzi ayələrə diqqət yetirək:

**1)** ***«(Ya Rəsulum!) De: «Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş peyğəmbəriyəm.»***[1] Ayədən də göründüyü kimi Peyğəmbər(s) heç də təkcə Ərəbistan yarımadası əhalisinə deyil, bütün insanlara xitab etmişdir.

**2)** ***«(Ya Rəsulum!) Biz səni (təkcə öz qövmünə deyil) bütün insanlara (möminlərə Cənnətlə) müjdə verən, (kafirləri isə Cəhənnəm əzabı ilə) qorxudan bir peyğəmbər göndərdik.»***[2]

***3) «Halbuki bu (Quran) aləmlərə (insanlara və cinlərə) ancaq bir öyüd-nəsihətdir!»***[3]

***4) «Onunla (Quranla) diri olanları qorxutsun (Allahın əzabından çəkindirsin...)»***[4]

**5)** ***«Müşriklərin xoşuna gəlməsə də, onu (İslamı) bütün dinlərin fövqündə (bütün dinlərdən üstün) etmək üçün Öz Peyğəmbərini doğru yolla və haqq dinlə göndərən Odur!»***[5]

İndi üzümüzü ingilis şərqşünasa tutub soruşuruq ki, bu ayələr həzrət Mühəmmədin(s) ümümbəşər bir peyğəmbər olduğunu bildirdiyi halda siz nəyə əsasən onun ümumbəşər peyğəmbər olmadığını iddia edirsiniz?

Və yaxud hansı əsasla deyirsiniz ki, onun ümumbəşər peyğəmbər olması məsələsi sonradan ortaya atılıb? Bu ayələrin olduğu, eləcə də Peyğəmbərin Ərəbistan yarımadasından çox-çox uzaqlara qasidlər,

---

[1] Əraf-158
[2] Səba-28
[3] Qələm-52
[4] Yasin-70
[5] Tövbə-33

məktublar göndərdiyi (hətta bu məktublardan bəzisi hal-hazırda dünya muzeylərində saxlanılır) bir halda onun ümumbəşər peyğəmbər olmasına şübhə etməyə dəyərmi?

Sözügedən müəllif utanmadan yazır ki, Mühəmməd Ərəbistan yarımadasından başqa yer tanımamışdır. Halbuki peyğəmbər(s) hələ on altı yaşında ikən əmisi ilə birlikdə Şama səfər etmiş, gənclik illərində Xədicənin ticarət karvanını aparıb gətirərdi.

Açığı, biz tarixdə bir yunan gəncinin-Makedoniyalı İskəndərin və ya Napoleonun bütün dünyaya ağalıq etmək istədiyini oxuduqda heç də təəccüblənmirik. Bəzi şərqşünaslar isə İslam peyğəmbərinin Allahın əmri ilə öz qövmünün də geniş ticarət əlaqələri qurduğu dövrün iki böyük dövləti-İran və Bizans imperiyalarına məktub göndərib onları İslama dəvət etməsini eşitdikdə bunu əsassız və qeyri-mümkün hesab edirlər.

***Peyğəmbər(s) uzaq bölgələrə qasid göndərir***

Həzrət Peyğəmbər(s) digər mühüm məsələlər kimi uzaq bölgələrə qasid göndərib onları İslama dəvət etmək fikrini də geniş müzakirəyə çıxarır. O, bir gün səhabələrinə buyurur ki, sabah hamı yığışsın, mühüm bir məsələni müzakirə edəcəyik. Səhərisi gün sübh namazını qıldıqdan sonra üzünü səhabələrə tutub buyurur: «Allah bəndələrinə nəsihət verin! Camaata başçılıq edib onların haqq yola yönəlməsinə çalışmayan şəxsə Allah Cənnəti haram etmişdir. Qalxın və uzaq bölgələrə gedərək haqq carçısı olun, tövhid səsini bütün dünyaya çatdırın! Ancaq İsanın şagirdləri kimi heç vaxt mənə etiraz etməyin!» Səhabələr soruşdular ki, İsanın şagirdləri ona nə etiraz etmişdilər? Həzrət buyurdu: « O da mənim kimi öz səhabələrinə bölgələrə getməyi tapşırır. Yolu yaxın olanlar qəbul edir, yolu uzaq olanlar isə əmrinə tabe olmurlar.» Sonra Peyğəmbər(s) ən ürəkli səhabələrindən altısına (özünün ümümbəşər peyğəmbər olduğunu əks etdirən) məktub verib müxtəlif bölgələrə göndərir. Beləliklə, altı qasid eyni gündə ətraf bölgələrə-İran, Bizans, Həbəşistan, Misir, Yəmamə, Bəhreyn və Hirəyə (İordaniyaya) hərəkət edir.[1]

Məktublar yazılıb başa çatdıqdan sonra saraylar haqqında məlumatı olan şəxslər Peyğəmbərə(s) bildirdilər ki, məktublar mütləq

[1] Sireyi İbn Hişam, c-2, s-606; Sireyi Hələbi, c-2, s-240

möhürlənməlidir. Çünki hökmdarlar imzasız (o vaxt imzanı möhür əvəz edirdi) məktubları oxumurdular. Buna görə də Peyğəmbər(s) üçün üzərində üç sətirdə «Mühəmməd Rəsulullah» ifadəsi həkk olunmuş bir üzük hazırlanır. Bu möhürün saxtasından istifadə olunmasın deyə, ifadəni aşağıdan yuxarıya doğru həkk edirlər. Yəni, aşağıda Mühəmməd, ortada Rəsul, yuxarıda isə Allah sözü həkk olunmuşdu. Məktub möhürləndikdən sonra zərfə qoyulur, zərfin üstü mumyalanır, üzərinə də möhür vurulur.[1]

***Qasidlərin göndərildiyi vaxt dünyadakı mövcud durum***

O vaxt dünyada iki əsas dövlət-İran və Bizans imperiyaları ağalıq edir və aralarında mütamadi döyüşlər gedirdi. İranla Bizans arasındakı döyüşlər Əhəmənilər dövründən başlayaraq Sasanilər dövrünədək davam etmişdir. Dünyanın Şərq bölgəsi, eləcə də İraq, Yəmən və Kiçik Asiyanın bir hissəsi İranın nəzarəti altında idi. Bizans imperiyası isə o vaxtlar Şərqi və Qərbi olmaq üzrə iki hissəyə bölünmüşdü. 359-cu ildə Roma imperiyasının imperatoru Teodor ölkəni iki oğlu arasında bölmüşdü. Qərbi Roma imperiyasına 476-cı ildə Avropanın Şimalında yaşayan bərbərlər son qoymuşdur. Mərkəzi, Konstantinopol olan Şərqi Bizans imperiyası isə İslamın meydana gəldiyi zaman Şam (Mesopotamiya) və Misiri də əhatə etməklə dünyanın əsas siyasi xəttini müəyyənləşdirirdi. Nəhayət, 1453-cü ildə Konstantinopol sultan Mühəmməd Fateh tərəfindən fəth edilərək Bizans imperiyası da süquta uğrayır.

Ərəbistan yarımadası bu iki böyük imperiyanın arasında yerləşirdi. Yarımadanın ərazisi münbit olmadığından imperiyalardan heç biri oranı ələ keçirməyə can atmırdı.

Bu iki imperiyalardakı daxili və xarici çəkişmələr, cərəyan edən hadisələr onları Ərəbistan yarımadasında baş verənlərdən xəbərsiz qoymuşdu. Onlar ağıllarına da gətirmirdilər ki, mədəniyyətdən geri qalan ərəblər nə vaxtsa imanları sayəsində onların hakimiyyətlərinə son qoyacaq. Onlar İslamın yaranmasından tamamilə məlumatsız idilər. Yoxsa onun elə əvvəl günlərindəcə qarşısını alardılar.

[1] Ət-Təbəqatul-kubra, c-1, s-285; Sireyi Hələbi, c-3, s-271

***Peyğəmbərin(s) qasidi Bizans ərazisində***

Bizans imperatoru nəzir etmişdi ki, İranla döyüşdə qalib gələcəyi təqdirdə Beytül-müqəddəsə piyada ziyarətə gedəcək. Qələbə çaldıqdan sonra o öz nəzrini yerinə yetirir.

Peyğəmbərin(s) məktubunu Bizans imperatoruna aparmaq Dehyətul-Kəlbiyə havalə edilmişdi. O, daha əvvəllər Şama çox səfərlər etmiş və oranı beş barmağı kimi tanıyırdı. Onun gözəl görkəmi, xoş əxlaqı bu vəzifəni yerinə yetirməyə tam uyğun idi. O, Şamdan Konstantinopola çıxmazdan qabaq Busra məntəqəsində imperatorun Beytül-müqəddəsə ziyarətə getdiyini öyrənir. Buna görə də Dehyətül-Kəlbi özünü Busra valisi Haris ibn Əbu Şimrə çatdıraraq ona həvalə edilmiş tapşırıq barədə valiyə məlumat verir. Ət-Təbəqatul-kubra əsərinin müəllifi yazır: «Peyğəmbər(s) Dehyətül-Kəlbiyə tapşırmışdı ki, məktubu Busra valisinə çatdır, o özü imperatora təqdim edər. Bəlkə də Peyğəmbər(s) imperatorun ziyarət səfərindən xəbərdar imiş və buna görə Dehyətül-Kəlbiyə belə tapşırıq veribmiş. Yaxud da ola bilər Konstontinopola getmək Dehyətül-Kəlbi üçün problemlər törədəcəyindən ona belə tapşırıq verilibmiş. Hər halda Peyğəmbərin(s) qasidi Busra valisi ilə görüşür məktub barədə ona xəbər verir. Vali də öz növbəsində Ədiyy ibn Hatəmi çağırtdırıb tapşırır ki, qasidlə birlikdə gedib məktubu imperatora çatdırsın. Dehyətül-Kəlbi Homs şəhərində imperatorla görüşür. Onun hüzuruna getmək istədikdə imperatorun ətrafındakılar Dehyətül-Kəlbiyə bildirirlər ki, imperatorun qarşısında səcdə etməlidir. Əks təqdirdə imperator onu nə qəbul edəcək, nə də məktubunu oxuyacaq. Dehyətül-Kəlbi deyir: «Mən bu qədər yolu qət etmişəm ki, yanlış adət-ənənələr aradan qaldırılsın. Mühəmməd(s) peyğəmbər tərəfindən imperatora insanlara ibadət edilməməsi, yalnız tək olan Allaha ibadət edilməli olduğunu əks etdirən məktub gətirmişəm. Bu əqidə ilə Allahdan qeyrisi qarşısında necə səcdə edə bilərəm? Saray adamları qasidin bu məntiqi qarşısında heyran qaldılar. Axırda xeyirxah bir saray işçisi deyir ki, onda sən məktubunu imperatora məxsus masanın üzərinə qoy, masanın üzərindəki məktubları imperatorun özündən başqa kimsə oxuya bilməz. İmperator məktubu oxuduqda mütləq sizi hüzuruna çağırtdıracaq. Dehyətül-Kəlbi bu məsləhətinə görə ona təşəkkür edib məktubunu masanın üstünə qoyur.

İmperator məktubu açır. Məktubun «Bismillah» ifadəsi ilə başlamasi onun diqqətini cəlb edir. İmperator deyir ki, mən Süleyman(ə) peyğəmbərdən sonra belə məktub yazıldığını görməyib eşitməmişəm. Ərəb dilindən tərcüməçi çağırtdırıb məktubu oxutdurur.

Məktubda yazılmışdı: «Mühəmməd ibn Abdullahdan böyük Bizans imperatoruna! Haqq yolunun yolçularına salam olsun! Mən sizi İslama dəvət edirəm. Müsəlman ol amanda qal! İslamı qəbul etsən, Allah sənə ikiqat (həm özünə görə, həm də rəiyyətinə görə) savab verər. Yox əgər İslamdan üz döndərsən, bütün ərislərin[1] günahı sənə yazılar. «Ey kitab əhli! Biz sizi malik olduğumuz eyni əqidəyə-Allahdan qeyrisinə ibadət etməməyə, Ona şərik qoşmamağa səsləyirik. (Ey Mühəmməd!) Onlar haqdan üz döndərsələr, onda de: Şahid olun ki, biz təslim (müsəlman) olanlardanıq!»

***Bizans imperatoru Peyğəmbər(s) haqqında maraqlanır***

Bizans imperatoru məktubun Tövrat və İncildə peyğəmbərliyi barədə məlumat verilmiş Mühəmməd olduğunu anlayır. Buna görə də onun barəsində ətraflı məlumat toplamaq qərarına gəlir. Bu məqsədlə o, bir nəfəri çağırtdırıb tapşırır ki, bütün Şamı gəz, Mühəmmədin qohumlarından və ya onun haqqında xəbərdar olan kimsə tapsan, dərhal bura gətir! Xoşbəxtlikdən həmin vaxt Əbu Süfyan kiçik bir karvanla Şama ticarətə gəlmişdi. İmperatorun elçisi onlarla görüşüb hamısını Beytül-müqəddəsə gətirir. İmperator onlarla görüşüb soruşur ki, aranızda Mühəmmədlə qohumluq əlaqəsi olan varmı? Əbu Süfyan dillənərək deyir: Bəli, biz onunla eyni tayfadanıq. Dördüncü babamız (Əbdmanaf) eyni adamdır. İmperator Əbu Süfyanın qabaqda, digərlərinin isə onun arxasında durmasını və sual-cavab zamanı Əbu Süfyanın yalan və ya səhv deyəcəyi təqdirdə işarə etmələrini tapşırır. Beləliklə, imperatorla Əbu Süfyan arasında sual-cavab başlayır:

İmperator: Mühəmməd necə nəsildəndir?

Əbu Süfyan: Çox nəcib nəsildəndir.

- Ata-babaları arasında hakimiyyətdə olanı olmuşdurmu?

---

[1] Əris sözünün saray adamları, əkinçilər və Bizansda yaşayan bir qəbilə olduğu halda müxtəlif fikirlər vardır.

- Xeyr.
- Peyğəmbərlik iddiası etməzdən qabaq yalan danışırdımı?
- Mühəmməd həmişə düz danışan olub.
- Camaatın əsasən hansı təbəqəsi ona iman gətirib dinini qəbul etmişdir?
- Zadəganlar ona qarşı çıxıb, orta və aşağı təbəqə isə onu dəstəkləyir.
- Onun tərəfdarları get-gedə artırmı?
- Bəli.
- Ona iman gətirənlərdən kimsə bu vaxtadək dinindən dönübmü?
- Xeyr.
- O, müxaliflərlə mübarizədə qalib gəlir, yoxsa məğlub olur?
- Bəzən qalib gəlir, bəzən də məğlub olur.

Bu sual-cavabdan sonra Bizans imperatoru üzünü tərcüməçiyə tutub deyir: «Əbu Süfyan və yanındakılara de ki, əgər verdiyiniz cavablar doğrudursa, deməli o, həqiqətən də sonuncu peyğəmbərdir. Mən belə bir peyğəmbərin gələcəyini bilirdim, ancaq onun Qüreyşdən çıxacağından xəbərim yox idi. Bununla belə mən ona tabe olmağa, hörmət əlaməti olaraq ayaqlarını yumağa hazıram. Tezliklə onun şöhrəti, qüdrəti bütün Bizansa yayılacaq.» İmperatorun qardaşı oğlu ona: «Mühəmməd məktubda öz adını səndən qabaq yazmışdır» - deyə bildirdikdə o, qardaşı oğluna acıqlanıb deyir: «Vəhy mələyinin nazil olduğu şəxsin adı mənim adımdan qabaq yazılmalıdır.»

Əbu Süfyan deyir: «İmperatorun Mühəmmədi ciddi şəkildə dəstəkləməsi sarayda böyük narazılığa səbəb oldu. Mən belə gedərsə, bizanslıların Mühəmməddən qorxacağından narahat idim. Sual-cavab zamanı onu imperatorun gözündə kiçiltməyə çalışıb deyirdim ki, Mühəmməd siz fikirləşdiyiniz qədər də böyük adam deyil. Ancaq imperator sözümü kəsərək dedi ki, sən mənim suallarıma cavab ver!»[1]

### *Peyğəmbərin(s) məktubunun imperatora təsiri*

İmperator Əbu Süfyanın dedikləri ilə kifayətlənməyib Bizans alimlərindən birinə məktub göndərərək məsələni onunla müzakirə edir. Alim imperatorun cavabında yazır: «Bu şəxs bütün dünyanın onun intizarında

[1] Tarixi Təbəri, c-2, s-290; Biharul-ənvar, c-20, s-378-380

olduğu peyğəmbərdir.» İmperator bu məsələ ilə bağlı Bizans ağsaqqallarının fikrini öyrənmək məqsədilə kilsələrdən birində böyük toplantı təşkil edib Peyğəmbərin(s) məktubunu oxuduqdan sonra deyir: «Onun dinini qəbul etməyə hazırsınızmı?» Bu vaxt məclisdə böyük səs-küy yaranır. Canının qorxusundan imperator oturduğu yerdən ayağa qalxıb deyir: «Bu təkliflə mən sizi yoxlamaq istəyirdim. Xaçpərəstliyə olan inamınız təqdirəlayiqdir.» Bundan sonra imperator Dehyətül-Kəlbini çağırıb ona ehtiram göstərir, Peyğəmbərə(s) qarşı səmimi olduğunu əks etdirən cavab məktubu yazaraq hədiyyələrlə birlikdə geri göndərir.[1]

***Peyğəmbərin(s) qasidi İran sarayında***

Həzrət Peyğəmbər(s) İrana məktub göndərən zaman İran hökmdarı Xosrov Pərviz idi. O, Ənuşirəvandan sonra İranda 32 il hakimiyyətdə olmuş ikinci hökmdar idi. Bu müddət ərzində o, bir çox şirin-acı hadisələrlə üzləşmişdi. Onun hakimiyyəti dövründə işlər qaydasında gedirdi. İran Kiçik Asiyanı ələ keçirmiş, Konstantinopola qədər irəliləmişdi. Ən müqəddəs şey hesab edilən İsanın(ə) xaçı Tisfona (Mədainə) gətirilmişdi. Bizans imperatoru İrana sülh təklifi edir, beləliklə də İran sərhədləri Əhəmənilər dövründəki kimi təyin edilir. Lakin sonralar hakimiyyət başında olanların səriştəsizliyi ucbatından İran imperiyası süqut astanasına gəlib çıxmışdı. Fəth edilmiş ərazilər bir-birinin ardınca İranın əlindən çıxır, Bizans ordusu ölkənin paytaxtı Mədainə qədər gəlib çıxır. İş o yerə gəlib çatır ki, Xosrov Pərviz bizanslıların qorxusundan qaçır. Onun bu alçaq hərəkəti camaatı olduqca qəzəbləndirir. Nəhayət, Xosrov Pərviz oğlu Şiruyə tərəfindən qətlə yetirilir.

Tarixçilər İranın tənəzzülə uğramasının əsas səbəbini hökmdarın məğrurluğunda, eyş-işrətə aludə olmasında görürlər. Əgər o bizanslıların sülh təklifini qəbul etsəydi, İran öz əzəmətini qoruyub saxlayardı. Peyğəmbərin(s) Xosrov Pərvizə təsir etməməsi, Peyğəmbərin(s) və ya qasidin təqsiri deyil. Sadəcə, Xosrov Pərviz məktubu sonadək dinləməyə bir neçə dəqiqə vaxt ayırmır. Tərcüməçi hələ məktubu sona çatdırmamış Xosrov Pərviz qışqırıb məktubu ondan olaraq cırıb tullayır.

---

[1] Ət-Təbəqatul-kubra, c-1, s-259; Sireyi Hələbi, c-2, s-277; əl-Kamilu fit-tarix, c-2, s-114; Biharul-ənvar, c-20, s-379

Hicrətin yeddinci ilinin başlanğıcında Peyğəmbər(s) Xosrov Pərvizi İslama dəvət etmək məqsədilə səhabələrdən olan Abdullah Həzafə Səhmi Qürəşiyə məktub verib onu İrana göndərir. Peyğəmbərin(s) məktubunun mətni aşağıdakı şəkildə olmuşdur: «Bağışlayan və mehriban Allahın adı ilə! Allahın elçisi Mühəmməddən böyük İran Hökmdarına! Həqiqət axtarışında olub Allah və Peyğəmbərinə iman gətirənlərə salam olsun!

Mən Allahın əmri ilə səni Allah yoluna dəvət edirəm. Allah məni göndərib ki, bütün insanları Onun əzabı ilə qorxudub, kafirlərə höccəti tamamlayam. İman gətirməkdən imtina etsən, bütün atəşpərəstlərin günahı sənin boynuna olacaq.»[1]

Peyğəmbərin(s) qasidi saraya daxil olur. Xosrov Pərviz məktubun alınmasını tapşırsa da qasid məktubu şəxsən təqdim etmək istədiyini bildirir. Məktub ona təqdim edildikdə Xosrov Pərviz tərcüməçi çağırtdırır. Tərcüməçi məktubu açıb birinci cümləni oxuyan kimi Xosrov Pərviz fəryad edib məktubu ondan alaraq deyir: «Buna bax, öz adını mənim adımdan qabaq yazıb.» O, Abdullahın saraydan çıxarılmasına əmr edir. Abdullah saraydan çıxıb miniyinə minərək Mədinəyə qayıdır. Baş verənləri Peyğəmbərə danışdıqda həzrət bərk narahat olur. Əsəbləşdiyi sifət cizgilərindən də hiss olunduğu halda belə dua edir: «İlahi, onun hökümətini dağıt!»[2]

***Yəqubinin mövqeyi***

İbn Vazeh Yəqubi bütün tarixçilərdən fərqli olaraq yazır: «Xosrov Pərviz Peyğəmbərin(s) məktubunu oxuyur, hətta hörmət əlaməti olaraq həzrət üçün bir qədər müşk və ipək də yollayır. Peyğəmbər(s) müşkü bölüşdürür, ipəyin isə kişilərə yaraşmadığını bildirir. Daha sonra buyurur ki, İslam tezliklə onun ölkəsinə də daxil olacaq.»[3]

Tarixçilərdən heç birinin fikri Yəqubinin mövqeyi ilə üst-üstə düşmür. Yalnız Əhməd ibn Hənbəl Xosrov Pərvizin Peyğəmbərə(s) hədiyyə yolladığını qeyd edir.[4]

---

[1] Tarixi Təbəri, c-2, s-295-296, Əl-Kamilu fit-tarix, c-2, s-145

[2] Ət-Təbəqatul-kubra, c-1, s-260

[3] Tarixi Yəqubi, c-2, s-62

[4] Müsnədi Əhməd, c-1, s-96

*Xosrov Pərvizin Yəmən hökmdarına tapşırığı*

Çox münbit olan Yəmən Məkkədən cənubda yerləşir və oranın hökmdarları həmişə Sasanilər tərəfindən təyin edilirdi. Peyğəmbər Xosrov Pərvizə məktub göndərən vaxt Yəməndə Bazan hökmdar idi. Xosrov Pərviz Peyğəmbərin(s) məktubunun təsirindən Bazana aşağıdakı məzmunda bir məktub göndərir: «Mənə xəbər çatıb ki, Məkkədə Qüreyş qəbiləsindən bir nəfər peyğəmbərlik iddiasındadır. Adamlarından iki nəfər göndər, onu tutub hüzuruma gətirsinlər.»[1]

İbn Həcərin əl-İsabə kitabında yazdığına əsasən, Bazan adamlarına tapşırır ki, onu (Peyğəmbəri) öz əcdadının dininə qayıtmağa vadar etsinlər, əks təqdirdə başını bədənindən ayırıb hüzuruna gətirsinlər.

Bu məktub Xosrov Pərvizin hər şeydən xəbərsiz olduğunu göstərir. Gör o nə qədər xəbərsiz imiş ki, Peyğəmbərin(s) neçə il qabaq peyğəmbərlik iddiası etdiyini və altı il öncə Məkkədən Mədinəyə köçdüyünü eşitməyibmiş. Üstəlik, peyğəmbərlik iddiası edən bu şəxs gör nə qədər nüfuz qazanıb ki, hətta İran hökmdarına məktub da göndərir. Belə bir şəxsi iki nəfər tutub Yəmənə apara bilərdimi?

Yəmən hökmdarı ona verilmiş tapşırığa əsasən Firuz və Xərxəsrə adlı iki adamını Hicaza göndərir. Göndərilən şəxslər əvvəlcə Taifdə Qüreyşli bir kişi ilə görüşüb öyrənirlər ki, axtardıqları şəxs hal-hazırda Mədinədə yaşayır. Mədinəyə yola düşüb Peyğəmbərin(s) hüzuruna yetişirlər. Bazanın məktubunu həzrətə təqdim edib deyirlər: «Biz mərkəzi hökümətinin Yəmən hökmdarına verdiyi tapşırığa əsasən sizi Yəmənə aparmaq məcburiyyətindəyik. Güman edirik ki, Bazan Xosrov Pərvizə məktub yazıb sizin əfv edilməyinizi istəyər. Əks təqdirdə aramızda qanlı toqquşmalar başlayacaq və Sasanilər dövləti evlərinizi başınıza uçuracaq, kişilərinizi öldürəcək və s.»

Peyğəmbər(s) olduqca soyuqqanlı şəkildə onları dinləyir, cavab verməzdən öncə İslama dəvət edir. Peyğəmbər(s) onların həddən artıq uzun bığını bəyənmir. Həzrətin əzəməti, soyuqqanlılığı qasidləri elə qorxutmuşdu ki, Peyğəmbər(s) onları İslama dəvət edərkən bədənləri titrəyirdi. Peyğəmbər(s) onlara buyurdu: «Bu gün gedin, sabah

[1] Sireyi Hələbi, c-3, s-278

gələrsiniz, danışarıq, öz fikrimi bildirərəm. Bu vaxt vəhy mələyi nazil olub Xosrov Pərvizin qətlə yetirildiyini xəbər verir. Səhərisi gün qasidlər gəldikdə Peyğəmbər(s) onlara buyurur: «Allahım mənə xəbər verdi ki, dünən gecə Şiruyə atası Xosrov Pərvizi öldürüb taxta əyləşmişdir.» Peyğəmbərin(s) verdiyi xəbər hicrətin yeddinci ili, cəmadil-əvvəl ayının onu, həftənin çərşənbə axşamına təsadüf edirdi.[1]

Bu xəbərdən dəhşətə gələn Bazanın qasidləri deyirlər ki, bu sözün məsuliyyəti peyğəmbərlik iddiası etməyinizdən daha ağırdır. Biz bu haqda Bazana xəbər verməliyik. Peyğəmbər(s) buyurur: «Bu xəbəri Bazana çatdıracağınızdan xoşhal olaram. Eyni zamanda mənim dinim də itigedən miniklərin gedə biləcəyi yerlərə gedib çatar. Əgər o iman gətirərsə, hakimiyyətdə olduğu ölkənin başında qalar.» Sonra Peyğəmbər(s) bəzi qəbilə başçılarının ona hədiyyə verdiyi qızıl-gümüşlə işlənmiş kəməri Bazanın qasidlərinə bağışlayır. Qasidlər razı halda həzrətin hüzurundan çıxıb Yəmənə qayıdır və Bazanı Peyğəmbərin(s) verdiyi məlumatdan xəbərdar edirlər. Bazan deyir ki, əgər verdiyi xəbər doğru çıxarsa, o həqiqətən də peyğəmbərdir və ona tabe olmaq lazımdır. Çox çəkmir ki, Şiruyədən Bazana aşağıdakı məzmunda bir məktub gəlir:

«Bil ki, mən Xosrov Pərvizi qətlə yetirdim. Camaatın qəzəbi onu öldürməyimə səbəb oldu. Çünki o, fars zadəganlarını öldürüb qalanlarını da dağıtdı. Məktubum sənə çatan kimi camaatı mənim hakimiyyətimə tabe et! Növbəti məktubum sənə yetişməyincə peyğəmbərlik iddiası edən və atam onun barəsində tapşırıq verən şəxslə də işin olmasın!» Şiruyənin bu məktubu Bazan və hamı İran əsilli olan saray adamlarının müsəlman olması ilə nəticələnir. Bazan, Peyğəmbərə(s) məktub yazaraq özünün və saray adamlarının iman gətirdiyi barədə xəbər verir.

### *İslam qasidi Misir torpağında*

Misir qədim mədəniyyət beşiyi, fironlar ölkəsi və qibtilərin hakimiyyətdə olduğu bir ölkə idi. İslam dini meydana gələrkən Misirin əvvəlki əzəmətindən əsər-əlamət qalmamışdı. İldə on doqquz milyon

[1] Ət-Təbəqatül-kubra, c-1, s-260; Biharul-ənvar, c-20, s-382

dinar ödəmək şərti ilə Meqoqes Bizans imperatoru tərəfindən oranın hökmdarı təyin edilmişdi.

Hatib ibn Əbu Bəltəə olduqca çevik bir adam idi. İslam tarixində onunla bağlı məşhur bir hadisə baş vermişdir ki, hicrətin səkkizinci ilində baş verən hadisələrdən danışarkən qeyd edəcəyik. Hatib, Peyğəmbərin(s) məktublarını o vaxtın böyük dövlətlərinin başçılarına çatdırmaq üçün təyin olunmuş altı qasiddən biri olmuşdur. O, Peyğəmbərin(s) məktubunu Misir hökmdarı Meqoqesə çatdırmalı idi. Məktubda deyilirdi: «Bağışlayan və mehriban Allahın adı ilə! Mühəmməd ibn Abdullahdan Misir hökmdarı Meqoqesə! Salam olsun haqq yolunun yolçularına! Səni İslama dəvət edirəm. İslamı qəbul et, (Allahın əzabından) amanda qal! İslamı qəbul etsən, Allah sənə ikiqat savab verəcək, imtina etsən, bütün qibtilərin günahı sənin boynuna olacaq. Ey kitab əhli, biz sizi aramızda müştərək olan bir əqidəyə dəvət edirik-Allahdan qeyrisinə ibadət etməyək, kimisə Ona şərik qoşmayaq, bir-birimizi tanrı kimi qəbul etməyək. (Ey Mühəmməd!) Onlar haqdan üz döndərsələr, de: Bilin ki, biz haqqa təslim olanlarıq!»[1]

Peyğəmbərin(s) qasidi Misirə yola düşür. Misirə yetişdikdə hökmdarın İsgəndəriyyədə dəniz kənarındakı sarayda olduğunu öyrənir. Özünü Mequqesin İsgəndəriyyədəki sarayına çatdıran Hatibi, hökmdar qəbul edir. Mequqes məktubu oxuyub bir qədər fikrə getdikdən sonra başını qaldırıb Peyğəmbərin(s) qasidinə deyir: «Əgər həqiqətən də Mühəmməd Allah tərəfindən göndərilmiş peyğəmbərdirsə, bəs nəyə görə düşmənləri onu öz vətənindən qovub çıxara bildilər? Nəyə görə o, Allahdan düşmənlərin məhv olmasını istəmədi?» Qasid onun sualına sualla cavab verərək deyir: «İsa həqiqətən də Allahın peyğəmbəri idi və siz ona iman gətirmişdiniz. Bəni-İsrail onu qətlə yetirmək istərkən nə üçün o, Allahdan düşmənlərinin məhv edilməsini istəmir?» Qasiddən belə tutarlı cavab gözləməyən Mequqes onun bu məntiqi qarşısında heyran qalıb deyir: «Afərin sənə! Sən çox müdrik adamsan və müdrik adam tərəfindən göndərilmisən!»[2]

---

[1] Sireyi Hələbi, c-3, s-249; Əd-Durrul-mənsur, c-2, s-40

[2] Usdul-qabə, c-1, s-362

Peyğəmbərin(s) qasidi Misir hökmdarının bu sözlərindən sonra özündə cürət tapıb deyir: «Sizdən çox-çox qabaq burada özünü camaata tanrı kimi qələmə verən şəxs (Firon) hökmranlıq edirdi. Allah onu məhv elədi ki, həyatı sizin üçün ibrət olsun. Siz də çalışmalısınız ki, başqalarına (müsbət cəhətdən) ibrət olasınız.

Bizim peyğəmbər camaatı pak dinə dəvət edirdi. Qüreyş müşrikləri və həmçinin yəhudilər ona qarşı çıxdılar. Onunla ən yaxşı münasibətdə olanlar xaçpərəstlər idilər. Canıma and olsun ki, Musa peyğəmbər İsanın gələcəyi barədə müjdə verdiyi kimi İsa da Mühəmmədin gələcəyi barədə müjdə vermişdir. Siz, yəhudiləri xaçpərəstliyə dəvət etdiyiniz kimi, biz də sizi İslama dəvət edirik. Hər hansı peyğəmbərin dəvətini eşidən şəxs ona iman gətirməlidir. Mən də öz peyğəmbərimizin mesajını sizə çatdırdım. Yaxşı olar ki, siz bütün Misir xalqı ilə birlikdə İslamı qəbul edəsiniz. Əlbəttə sizi İsanın dinindən qətiyyən çəkindirmirəm, ancaq demək istəyirəm ki, İsanın dininin ən kamil forması məhz İslamdır.»[1]

Peyğəmbərin(s) qasidi Misir hökmdarı ilə söhbətini başa çatdırdı. Mequqes ona qəti bir cavab vermədi. Buna görə də Hatib bir qədər gözləməli idi ki, Peyğəmbərin məktubunun cavabını alsın. Bir gün Mequqes Hatibi saraya çağırtdırıb onunla baş-başa söhbət edərək Peyğəmbərin dini haqqında ətraflı sörğu-sual etdi. Qasid onun cavabında belə dedi: «Peyğəmbərimiz insanları tək Allaha ibadət etməyə, gün ərzində beş dəfə namaz qılmağa, ramazan ayında oruc tutmağa, Allah evini ziyarət etməyə, öz əhd-peymanlarına sadiq qalmağa, haram yeməklərdən çəkinməyə dəvət edir…» O, sözlərini Peyğəmbərin xüsusiyyətlərini deməklə başa çatdırır. Mequqes onu dinlədikdən sonra deyir: «Dediklərin onun həqiqətən də peyğəmbər olduğunu göstərir. Mən sonuncu peyğəmbərin hələ gəlmədiyini bilirdim. Ancaq elə təsəvvür edirdim ki, o da əksər peyğəmbərlərin zühur etdiyi Şamdan çıxacaq. Ey Mühəmmədin qasidi! Bil və xəbərdar ol ki, mən ona iman gətirsəm, qibtilər (misirlilər) mənə tabe olmazlar. Ancaq ümid edirəm ki, nə vaxtsa onun qüdrəti Misirə də gəlib çıxacaq,

---

[1] Sireyi Hələbi, c-3, s-250

yerli əqidələri aradan qaldıracaq. Xahiş edirəm bu söhbətimiz gizli qalsın və qibtilər bundan xəbər tutmasın.»[1]

***Misir hökmdarı Mequqesin Peyğəmbərə(s) məktubu***

Misir hökmdarı ərəb dilində yazan katibini çağırtdırıb Peyğəmbərə(s) aşağıdakı məzmunda bir məktub yazdırır: «Mühəmməd ibn Abdullaha Misir hökmdarı Mequqesdən! Salam olsun sizə! Məktubunuzu oxuyub həqiqətdən xəbərdar oldum. Bilirdim ki, nə vaxtsa sonuncu peyğəmbər zühur edəcək, lakin onun Şamdan çıxacağını təsəvvür edirdim. Göndərdiyiniz qasidə necə lazım idisə, hörmət etdim.» O, məktubda Peyğəmbərə(s) göndərdiyi hədiyyələrə də toxunur. Məktubu bir daha «salam olsun sənə!» cümləsi ilə bitirir.[2]

Mequqesin məktubda Peyğəmbərin adını öz adından qabaq yazması, o həzrət üçün qiymətli hədiyyələr göndərməsi və göndərdiyi qasidə layiqincə hörmət etməsi, bütün bunlar onun Peyğəmbərə batində iman gətirməsindən xəbər verir. Sadəcə hakimiyyətə meylli olduğundan, iman gətirdiyini biruzə vermək istəmirdi.

Peyğəmbərin(s) qasidi məktubu götürüb Mequqesin nəzarətçilərinin müşayiəti ilə Şama gəlir. Sonra nəzarətçilərdən ayrılıb Mədinəyə gedən karvana qoşulur. Misir hökmdarının məktubunu Peyğəmbərə(s) çatdırıb aralarındakı söhbəti də danışır. Peyğəmbər(s) buyurur: «O, hakimiyyəti itirmək qorxusundan İslamı qəbul etməmişdir, ancaq onun hakimiyyəti tezliklə başa çatacaq.»

***Müğeyrə ibn Şöbə Misir sarayında***

Müğeyrə ibn Şöbə (sonradan o siyasət meydanının əsas simalarından birinə çevrilmişdi.) Səqif qəbiləsindən bir neçə nəfərlə birlikdə Misir sarayına yollanır. Mequqes müsəlmanların onların yolunu tutduğu halda Misirə necə gəldiklərini soruşduqda dəniz yolu ilə gəldiklərini bildirirlər. Mequqes soruşur: «Səqif qəbiləsi Mühəmmədin dəvətinə necə münasibət göstərdi?» Müğeyrə deyir: «Bizim qəbilədən heç kim Mühəmmədə iman gətirməyib.

---

[1] Sireyi Zeyni Dəhəlan, c-3, s-71
[2] Ət-Təbəqatul-kubra, c-1, s-260

Mequqes: Bəs Mühəmmədin öz qəbiləsi onunla necə davrandı?

Müğeyrə: Qüreyş gəncləri ona bağlanıblar, yaşlılar isə etiraz edir.

Mequqes: Onun dini haqda qısa məlumat verə bilərsənmi?

Müğeyrə: O, bizi tək Allaha ibadət etməyə, gündə namaz qılmağa, xums-zəkat verməyə, qohumlarla yaxşı münasibətdə olmağa, əhd-peymanlarımıza sadiq qalmağa, zina, şərab, sələmdən uzaq olmağa səsləyir…

Mequqes onun sözünü kəsib deyir: «Səqiflilər bilməlidirlər ki, Mühəmməd həqiqətən də peyğəmbərdir, camaatı haqqa hidayət etmək üçün göndərilib. Əgər o buralara gəlib çıxarsa, biz hamımız ona tabe olacağıq. Belə bir peyğəmbərə tabe olmağı İsa bizə tapşırıb. Onun dini haqqında dedikləriniz sırf peyğəmbərlərin proqramıdır. Əvvəl-axır onun qüdrəti hər yeri əhatə edəcək və kimsə ona qarşı mübarizə aparmağa cürət etməyəcək.»

Mequqesin dedikləri müşrikləri narahat edir və utanmadan deyirlər: «Bütün dünya da ona iman gətirsə, biz iman gətirməyəcəyik.» Mequqes isə başını aşağı salaraq onlara sadəcə belə deyir: «Bu, əsl uşaq fikridir.»[1]

Yuxarıda deyilənlər digər tarixi mənbələrlə qətiyyən uyğun gəlmir. Çünki Peyğəmbər(s) ölkə başçılarına hicrətin yeddinci ilində məktub göndərdiyi halda Müğeyrə ibn Şöbə Xəndək döyüşündə artıq iman gətirmiş, Hüdeybiyyə sülhündə müsəlmanların sırasında olmuşdur. Hətta Hüdeybiyyə sülhü imzalanarkən Peyğəmbərin(s) hüzurunda Qüreyş nümayəndəsi Ürvə ibn Məsud Səqəfi ilə mübahisə də etmişdir. Yuxarıda qeyd edilənlər həqiqətə uyğun olsa da, Müğeyrənin Misirə gedənlər arasında olmadığını qeyd etmək məcburiyyətindəyik.

Sonda onu da qeyd etmək lazımdır ki, Vaqidi, Peyğəmbərin(s) Misir hökmdarına məktubunu başqa məzmunda nəql etmişdir. Lakin onun qeyd etdiyi məktubun həqiqət olmadığı aydınlaşır. Çünki güya Peyğəmbər(s) yazdığı məktubda Misir hökmdarını döyüşlə hədələyərək demişdir: «Allah mənə təbliğ etməyi əmr buyurub. Qəbul etməyəcəyiniz təqdirdə sizinlə döyüşməyi mənə əmr etmişdir.»[2]

---

[1] Sireyi Zeyni Dəhəlan, c-3, s-70

[2] Fütuhuş-Şam, c-2, s-23

Belə bir məktub heç bir vəchlə düzgün ola bilməz. Çünki o vaxt müsəlmanlar heç məkkəlilərlə döyüşmək iqtidarında olmamışlar, o ki ola uzaq Misirə qarşı döyüşələr. Üstəlik bəşəriyyətin bir nömrəli şəxsinin ilk dəvətdəcə belə bir addım atması inandırıcı görünmür.

***Peyğəmbərin(s) qasidi xatirələr diyarı Həbəşistanda***

Həbəşistan (hazırkı Efiopiya) Şərqi Afrikanın ucqar nöqtəsində yerləşir. Ərazisi 18000 km$^2$-dir. Hal-hazırda ölkənin paytaxtı Əddis-Əbəbə şəhəridir.

Şərq xalqları bu ölkə ilə hələ İslamdan bir əsr əvvəl tanış olmuşdular. İlk tanışlıq Ənuşirəvanın başçılığı ilə İran ordusunun hücumu zamanı olmuş, daha sonra isə müsəlmanların oraya hicrəti nəticəsində genişlənmişdi.

Peyğəmbərin(s) Həbəşistan hökmdarına məktubunu çatdırmaq Əmr ibn Üməyyə Zəmriyə tapşırılır. Bu, həzrətin Həbəş hökmdarına ilk məktubu deyildi, ondan əvvəl müsəlmanlar Həbəşistana hicrət edərkən də oranın hökmdarına bir məktub yollamış və həmin məktubda hökmdara mühacirlər üçün əlindən gələn köməyi əsirgəməməsini tapşırmışdı. Həmin məktubun mətni də tarixi mənbələrdə öz əksini tapmışdır.[1]

Peyğəmbər(s) Həbəşistan hökmdarına ikinci məktubu göndərərkən (həzrət bu məktubda onu İslama dəvət edirdi) oraya mühacirət etmiş müsəlmanlardan bir dəstəsi Mədinəyə qayıtsa da bəzisi hələ də orada yaşayırdı. Hətta hicrətdən qayıdanlar da Həbəşistanı yalnız xoş xatirələrlə xatırlayırdılar. Buna görə də Həbəşistan müsəlmanlar üçün xatirələr diyarı sayılırdı və oranın hökmdarının ədaləti dillər əzbərinə çevrilmişdir. Peyğəmbər(s) onun bu xüsusiyyətini bildiyi üçün məktubda onunla çox səmimi danışmışdır. Həzrət digər hökmdarlara göndərdiyi məktublarda onları Allahın əzabı ilə qorxudurdu. Həbəşistan hökmdarına göndərdiyi məktubda isə belə bir ifadə ilə rastlaşmırıq. Peyğəmbərin(s) göndərdiyi məktubun mətni aşağıdakı kimi olmuşdur: «Bağışlayan və mehriban Allahın adı ilə! Allahın elçisi Mühəmməddən Həbəşistan hökmdarı Nəcaşiyə! Salam olsun sizə! Mən

[1] Tarixi Təbəri, c-2, s-249

heç bir şəriki olmayan, bütün eyb və nöqsanlardan uzaq olan, itaətkar bəndələrin (Onun əzabından) amanda qaldığı Allaha sitayiş edirəm. O, bəndələrin bütün əməllərinə şahiddir. Şəhadət verirəm (etiraf edirəm) ki, İsa ibn Məryəm Allahdan bir ruh və kəlmə olaraq anasının bətnində yerləşdirilmişdir. Allah-təala Adəmi ata-anasız yaratdığı kimi, onu da atasız olaraq yaratmışdır.

Sizi şəriksiz olan Allaha sitayiş etməyə, Onun müti bəndəsi olmağa, mənim dinimə tabe olmağa dəvət edirəm. Məni peyğəmbər göndərən Allaha iman gətir! Mən Allah tərəfindən göndərilmiş bir peyğəmbərəm. Səni və bütün rəiyyətini uca Allahın yoluna dəvət edirəm. Bu məktub və göndərəcəyim qasidlə boynuma düşən vəzifəni yerinə yetirib sizə öyüd-nəsihət verdim. Salam olsun haqq yolunun yolçularına!»[1]

Peyğəmbər(s) məktubun əvvəlində Nəcaşiyə şəxsən salam göndərir, digər məktublarda isə İran, Bizans, Misir hökmdarlarına şəxsən salam göndərməmişdi. Bu da həzrətin Həbəşistan hökmdarını digər hökmdarlardan fərqləndirməsi kimi başa düşülür. Məktubda həmçinin Allahın paklığına dəlalət edən bir sıra vəsflər öz əksini tapmışdır. Daha sonra kilsənin təbliğatı nəticəsində İsanın(ə) allahlığı məsələsinə toxunulur və Qurandan ilham olaraq bu fikir inkar edilir. Eyni zamanda Peyğəmbər(s) İsanın dünyaya gəlişini Adəmin(ə) dünyaya gəlişi ilə müqayisə edərək bildirir ki, atasız olaraq dünyaya gəlmək doğulan şəxsin Allah və ya onun övladı deməkdirsə, Adəm də bu xüsusiyyətə malikdir. Halbuki onun haqqında heç kəs belə bir iddia etməmişdir.

Məktubun sonunda Peyğəmbər(s) öz dəvətini öyüd-nəsihət kimi qələmə verərək özünü böyük kimi göstərməkdən çəkinmişdir.

***Peyğəmbərin(s) qasidinin Həbəşistan hökmdarı ilə söhbəti***

Peyğəmbərin(s) qasidi ədəb-ərkanla Nəcaşinin hüzuruna gəlib deyir: «Mən rəhbərimin məktubunu sizə gətirmişəm və sizin gözəl əxlaqınız sayəsində sözlərimi dinləyəcəyinizi düşünürəm. Ey Həbəşistan hökmdarı! Sizin bura hicrət etmiş müsəlmanlara göstərdiyiniz qayğını heç vaxt unutmarıq. Sizin bu hərəkətiniz səbəb olub ki, sizi özümüzdən biri kimi qəbul, özümüzü sizin tərəfdarlarınızdan hesab edək. Səmavi kitabınız İncil

[1] Sireyi Hələbi, c-3, s-279; ət-Təbəqatul-kubra, c-1, s-259

inkar edilməz bir sübutdur. O, əsl ədalət kitabıdır. Bu ədalətli şahid (yəni, İncil) açıq şəkildə bizim peyğəmbərimiz barədə xəbər verir. Əgər bu böyük və sonuncu peyğəmbəri qəbul etsəniz, əbədi səadətə nail olarsınız. Əks təqdirdə siz Musanın(ə) dinini qüvvədən salan İsanın(ə) dinini inkar edən yəhudilərə bənzəyəcəksiniz. İslam dini bütün dinlərin təkmilləşmiş formasıdır.»

Ədalətli Həbəş hökmdarı Peyğəmbərin(ə) qasidinə deyir: «Mən Mühəmmədin kitab əhlinin, intizarında olduğu peyğəmbər olmasına əminəm. Musa İsanın əlamətləri haqqında xəbər verdiyi kimi, İsa da Mühəmmədin gəlişi haqda xəbər vermişdir. Mən onun peyğəmbərliyini hamıya elan etməyə hazıram. Lakin hal-hazırda bu iş üçün əlverişli şərait olmadığından bunu etmək məsləhət deyil. İndi camaatı ona tərəf meylləndirmək lazımdır. İmkanım olsaydı, mən bu saat peyğəmbərinizin hüzuruna gedərdim.»[1]

***Nəcaşinin peyğəmbərə(s) cavab məktubu***

«Bağışlayan və mehriban Allahın adı ilə. Allahın elçisi Mühəmmədə Nəcaşidən! Ondan başqa tanrı olmayan Allaha, məni İslama dəvət edən şəxsə salam olsun! İsanın peyğəmbər və bəşər olması haqqında yazdığınız məktubu oxudum. And olsun yerin-göyün Allahına, dediklərinizin hamısı həqiqətdir və qəti etirazım yoxdur. Dininiz barədə də xəbərdar oldum. Buradakı mühacir müsəlmanlarla bağlı əlimdən gələni etdim. İndi bu məktub vasitəsilə sizin doğru danışan və səmavi kitabların da təstiqlədiyi peyğəmbər olduğunuzu etiraf edirəm. İslama dəvət etmə mərasimini əminiz oğlunun (Cəfər ibn Əbutalibin) hüzurunda yerinə yetirdim. Müsəlman olub sizi qəbul etməyimi təsdiqləməyim üçün oğlum Rarhanı hüzurunuza göndərirəm. Ancaq onu da bildirim ki, mən özümdən başqa kiməsə zamin deyiləm. Əmr etsəniz, özüm də dərhal hüzurunuza gələrəm. Salam olsun sizə, ey Allahın elçisi!»[2]

Nəcaşi Peyğəmbər(s) üçün xüsusi hədiyyələr də göndərir. Peyğəmbər(s) ona sonra daha iki məktub göndərmişdir.

---

[1] Sireyi Hələbi, c-3, s-279; ət-Təbəqatul-kubra, c-1, s-259

[2] Tarixi Təbəri, c-2, s-294; Biharul-ənvar, c-20, s-392

***Peyğəmbərin(s) o vaxtkı ölkə başçılarına məktub göndərməsinin dəyərləndirilməsi***

Bəlkə də o vaxtın siyasi xadimləri üçün Peyğəmbərin(s) bu məktubları göndərməsi bir qədər qeyri-adi görünür. Lakin zaman keçdikcə məlum oldu ki, o həzrətin boynuna düşən vəzifə məhz bu imiş. Əvvəla eyni gündə altı ölkəyə məktub göndərmək həzrət Mühəmmədin(s) peyğəmbərliyinin cahanşümul olmasına irad tutanlara əsaslı bir sübutdur. İndi heç kim onun peyğəmbərliyinin cahanşümul olmadığını iddia edə bilməz. Bu barədə nazil olmuş ayələr bir kənara, altı ölkəyə qasid göndərmək də buna dəlalət edir. İkincisi, təkəbbürlü Xosrov Pərviz istisna olmaqla digər ölkə başçıları Peyğəmbərin(s) məktubundan təsirlənir, onun qasidlərinə son dərəcə hörmətlə yanaşırlar. Eləcə də bütün məclislərdə bir ərəb peyğəmbərin zühur etməsindən danışılırdı. Bu məktublar yatanları ayıltdı, o dövrün mütərəqqi xalqlarını və eləcə də qərəzsiz rahib, yepiskopları Tövrat və İncildə vəd verilmiş peyğəmbər barədə araşdırmalar aparmağa vadar edir. Elə bu səbəbdən Peyğəmbərin(s) ömrünün sonlarında, hətta vəfatından sonra da Mədinəyə müxtəlif dini nümayəndələr gəlib İslam dini haqqında araşdırmalar aparmış və yaxından tanış olmuşlar.

***Peyğəmbərin(s) məktubunun Nəcaşiyə təsiri***

Nəcaşi Peyğəmbərin(s) qasidinə hədiyyələr təqdim edib yola saldıqdan sonra Həbəşistanın otuz ən mötəbər keşişini də Mədinəyə göndərir ki, qoy gedib Peyğəmbərin sadə həyat tərzi ilə tanış olsunlar və onun hökmdarlar kimi təmtəraqlı, dəbdəbəli yaşadığını zənn etməsinlər. Nəcaşinin nümayəndələri Peyğəmbərin(s) hüzuruna gəlib İsa barədə münasibət bildirməsini istəyirlər. Həzrət, İsa(ə) barədə Maidə surəsindən bircə ayə oxumaqla öz fikrini bildirir: ***«(Ya Rəsulum!) Xatırla ki, o gün (qiyamət günü) Allah (İsaya) belə buyuracaq: «Ey Məryəm oğlu İsa! Sənə və anana nemətimi yadına sal. O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən beşikdə olanda da, yetkin çağında da adamlarla danışırdın. Sənə kitabı, hikməti, Tövratı və İncili öyrətmişdim. O zaman sən Mənim iznimlə palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürürdün, o da Mənim iznimlə quş olurdu. Sən Mənim***

***iznimlə anadangəlmə kora və cüzamlı xəstəyə şəfa verir və Mənim iznimlə ölüləri (qəbirdən çıxardıb) dirildirdin. Sən İsrail oğullarının yanına açıq möcüzələrlə gəldiyin zaman Mən (onların bəlasını) səndən dəf etmişdim (səni öldürmək istədikdə onlara mane olmuşdum). Onlardan küfrə batanlar isə belə demişdilər: «Bu, açıq-aydın sehrdən başqa bir şey deyildir!»***[1]

Onlar ayəni dinləyə-dinləyə elə təsirlənirlər ki, ixtiyarsız olaraq gözlərindən yaş axmağa başlayır. Peyğəmbər(s) haqqında dəqiq və ətraflı məlumat toplayıb Həbəşistana qayıdırlar. Öyrəndiklərini hökmdara danışdıqda, o da ixtiyarsız olaraq ağlamağa başlayır.[2]

İbn Əsir Mədinəyə göndərilmiş nümayəndələr haqqında başqa fikir bildirir. O, nümayəndələrin dənizdə boğulduğunu qeyd edir.[3]

İbn Əsir Həbəşistan hökmdarının məktubunun Peyğəmbərə(s) çatmasından xəbər verir. Deməli, məktubu aparan həmin nümayəndə heyəti deyil, Nəcaşinin öz oğlu Ərs ibn Əshəm (Rarha) olmuşdur.

***Peyğəmbərin(s) Qəssanilər dövlətinin başçısına məktubu***

Qəssanilər Yəməndə yaşamış Qəhtanilərin Əzd qəbiləsinin bir qolu olmuşdur. Onların yaşadığı ərazi Mərəb bəndindən istifadə edirdi. Bənd dağıldıqdan sonra onlar Şama köçmək məcburiyyətində qalmışlar. Qəssanilər oradakı yerli qəbilələri öz təsiri altına salıb Qəssanilər dövlətinin təməlini qoyurlar.

Qəssanilər dövləti bilavasitə Bizans imperiyasının nəzarəti ilə idarə olunurdu. İslam ordusu oranı fəth edənədək Cövlan, Yərmik və Dəməşqdə otuz iki Qəssani hökmdarı hakimiyyət taxtında oturmuşdu.

Peyğəmbərin(s) Qəssanilər dövlətinin başçısına yazdığı məktubu Şüca ibn Vəhəb aparır. O, məktubu Qəssani hökmdarı Haris ibn Əbu Şimrə, Bəuzə adlı məntəqədə çatdırır. Şüca ibn Vəhəb Qəssanilər ərazisinə yetişdikdə hökmdarın Bizans imperatorunu qarşılamaq üçün hazırlaşdığını eşidir. Xatırladaq ki, imperator iranlılar üzərindəki qələbəsi ilə əlaqədar Beytül-müqəddəsə piyada gedəcəyini nəzir etmişdi.

---

[1] Maidə-110
[2] Əlamul-vəra, s-31
[3] Usdul-qabə, c-1, s-62

Peyğəmbərin(s) qasidi hökmdarla görüşmək üçün bir qədər gözləməli olur. Bu müddət ərzində o, saray adamlarından biri ilə dostlaşıb Peyğəmbər(s) və dini haqqında ona ətraflı danışır. Onun sözlərini dinləyən şəxs o qədər təsirlənir ki, ixtiyarsız gözündən yaş axa-axa deyir: «Mən İncili çox diqqətlə oxuyub dediyin peyğəmbər haqqında da məlumat əldə etmişəm. İndi ona səmimi-qəlbdən iman gətirirəm. Ancaq qorxuram ki, birdən Haris (hökmdar) məni öldürər. O özü də imperatordan qorxur, sözlərini qəbul etsə də, imperatorun qorxusundan biruzə verə bilməyəcək. Çünki onlarının nəslinin hamısı imperator tərəfindən hökmdar təyin edilir.

Qasid hökmdarın hüzuruna gəldikdə o, taxtda oturmuş, başında tacı var idi. Peyğəmbərin(s) məktubu ona təqdim edilir: «Bağışlayan və mehriban Allahın adı ilə! Allahın elçisi Mühəmməddən Haris ibn Əbu Şimrə. Salam olsun haqq yolunun yolçularına və həqiqi möminlərə! Səni şəriki olmayan Allahın yoluna dəvət edirəm. İslamı qəbul etsən, hakimiyyətin davam edəcək.»

Məktubun son cümləsi Harisi həddən artıq narahat edir. Deyir ki, heç kim hakimiyyətimi əlimdən ala bilməz. Mən peyğəmbərlik iddiası edən bu şəxsi tutub ələ keçirməliyəm. Qasidi qorxutmaq məqsədilə əmr edir ki, ordu onun qarşısında manevr etsin. Həmçinin Bizans imperatoruna da bir məktub göndərib onu öz məqsədindən xəbərdar edir. Harisin məktubu, Bizans imperatoru Peyğəmbərin(s) digər qasidi Dehyətül-Kəlbini qəbul edən zaman ona gəlib çatır. İmperator Qəssani hökmdarının bu ifratından narahat olub ona belə bir cavab məktubu yazır: «Öz fikrindən yayın və İlya şəhərində görüşümə gəl!»

İmperatordan cavab məktubu alan hökmdar, Peyğəmbərin(s) qasidinə qarşı mülayimləşib ona xələt verir, Mədinəyə yola salaraq deyir: «Peyğəmbərə salamımı yetir və de ki, mən onun ardıcıllarındanam.» Peyğəmbər(s) onun bu diplomatik cavabının səmimi olmadığını bilib buyurur ki, tezliklə onun hakimiyyəti başa çatacaq. Beləliklə də Haris hicrətin səkkizinci ilində, yəni, bir ildən sonra ölür.[1]

[1] Sireyi Hələbi, c-3, s-286; ət-Təbəqatul-kubra, c-1, s-261

***Peyğəmbərin(s) qasidi Yəmamə diyarında***

Peyğəmbərin(s) sonuncu qasidi Nəcdlə Bəhreyn arasında yerləşən Yəmamə hökmdarı Huzə ibn Əli əl-Hənəfiyə məktub aparır. Məktubda deyilir: «Bağışlayan və mehriban Allahın adı ilə! Salam olsun haqq yolunun yolçularına! Mənim dinim ən sürətli miniklərin gedə bildiyi yerlərə (həm Şərqə, həm Qərbə) gedib çıxacaq. İslamı qəbul etsən, hakimiyyətin davam edəcək, özün də amanda qalacaqsan.»

Yəmamə hökmdarı xaçpərəst olduğu üçün Peyğəmbər(s) oraya uzun müddət Həbəşistanda yaşayıb xaçpərəstlərin adət-ənənəsindən xəbərdar olan Süleyt ibn Əmri qasid göndərir. O, bütpərəstlərin təzyiqləri nəticəsində Məkkədən Həbəşistana hicrət etmişdi. O, İslam təlimləri nəticəsində şücaətli, məntiqli bir şəxsə çevrilmişdi.

Süleyt öz məntiqli sözləri ilə Yəmamə hökmdarını təsiri altına almağı bacarır. O, hökmdara deyir: «Böyük şəxsiyyət o insandır ki, imanın ləzzətini dadsın. Sənin sayəndə səadətə çatacaq millət heç vaxt pis aqibətlə üzləşməz. Mən sizi ən gözəl şeyə dəvət edib ən pis şeydən çəkindirirəm. Sizi Allaha ibadət etməyə, şeytan ibadətindən uzaq olmağa çağırıram. Allaha ibadətin nəticəsi Cənnət, şeytana ibadətin axırı isə Cəhənnəmdir. Mən dediyimdən başqasına tabe olsan, səbr elə, qoy həqiqət üzə çıxsın!»

Yəmamə hökmdarının zahiri görkəmindən qasidin sözlərinin onda müsbət təsir qoyduğu hiss olunurdu. O, qasiddən bir iki gün möhlət istəyir. Təsadüfən həmin vaxt Bizans yepiskoplarından biri Yəmaməyə gəlir. Yəmamə hökmdarı onunla söhbət zamanı Peyğəmbər mövzusuna toxunduqda yepiskop deyir: «Ona tabe olmaqdan nə üçün imtina etdin?»

Hökmdar deyir ki, mən hakimiyyətimi itirəcəyimdən qorxuram. Yepiskop deyir: «Ona tabe olmağın məsləhətdir. O, İsanın xəbər verdiyi ərəb peyğəmbərdir. Onun Allahın elçisi olduğu İncildə də yazılmışdır.»

Yepiskopun nəsihətindən nəticə çıxaran hökmdar Peyğəmbərin qasidini çağırtdırır və həzrətə aşağıdakı məzmunda cavab məktubu yazdırır: «Məni ən gözəl dinə dəvət etdiniz. Mən öz xalqımın şairi, söz ustadıyam. Ərəblər arasında böyük nüfuza malikəm. Mən sizin dininizə

tabe olmağa hazıram. Bu şərtlə ki, bəzi işlərdə (məsələn canişinlik məsələsində) məni şərikiniz edəsiniz.»

Hökmdar Mədinəyə getmək üçün kiçik bir nümayəndə heyəti təyin edir. Nümayəndə heyətinə Mücaə ibn Mürarə başçılıq edir. Hökmdarın məktubunu da götürüb Mədinəyə gəlir. Özləri qeyd- şərtsiz iman gətirsələr də hökmdarın şərtini Peyğəmbərə çatdırırlar: «Sizin vəfatınızdan sonra dini rəhbərlik mənə həvalə edilərsə, İslam dinini qəbul etməyə hazıram. Əks təqdirdə mən sizinlə döyüşəcəyəm.» Peyğəmbər(s) hökmdarın cavabında buyurur: «O, qeyd-şərtlə iman gətirirsə, hakimiyyətə layiq deyil. Allah məni onun şərrindən qoruyacaq.»[1]

***Peyğəmbərin(s) digər məktubları***

Peyğəmbərin(s) ölkə başçılarına, hökmdarlara göndərdiyi məktublar qeyd edilənlərlə bitmir. Tədqiqatçılar Peyğəmbərin(s) İslama dəvətlə əlaqədar 29 məktubunu qeyd etmişlər. Biz isə yuxarıda qeyd etdiklərimizlə kifayətlənirik.

***Alınmaz Xeybər qalası***

Mədinədə İslam ulduzu parlayanda yəhudilər Qüreyş müşriklərindən daha çox narahat olurlar. Onlar bütün qüvvələrini İslamı məhv etmək üçün səfərbər etməyə başlayırlar.

Mədinə və ətrafda yaşayan yəhudilər öz yaramaz əməllərinin cəzasına çatırlar. Onların bəzisi edam edilir, Bəni-Qeynüqa və Bəni-Nəzir kimi tayfaları da Mədinədən qovurlar. Mədinədən kənarlaşdırılanlar Xeybər, Vadil-qura və Şamın Əzruat ərazisində yerləşirlər.

Xeybər məntəqəsi Mədinənin 32 fərsəxliyində, Şimalda yerləşirdi. Peyğəmbərin(s) besətindən qabaq yəhudilər mühafizə məqsədilə orada yeddi qala tikmişdilər. Oranın bol suyu və torpağının münbit olduğuna görə yəhudilər əkinçiliklə məşğul olur, qazandığı pulla silah-sursat alıb toplayırdılar. Xeybərdə təxminən iyirmi min yəhudi yaşayırdı. Onların arasında çox igid pəhləvanlar var idi.[2]

---

[1] Əl-Kamilu fit-tarix, c-2, s-146; ət-Təbəqatul-kubra, c-1, s-262

[2] Sireyi Hələbi, c-3, s-36; Tarixi Yəqubi, c-2, s-46

Xeybər yəhudilərinin ən böyük günahı o idi ki, ərəb qəbilələrini İslama qarşı təhrik edirdilər. Xəndək döyüşündə müşriklər məhz Xeybər yəhudilərinin maddi dəstəyi sayəsində Mədinənin kənarına qədər gəlib çıxmışdılar. Lakin Peyğəmbərin(s) və səhabələrinin tədbirləri nəticəsində bir xəndəyin o tərəfində qalıb, axırda öz yerlərinə qayıtmalı olurlar. Həmin döyüşdə Xeybər yəhudiləri də iştirak etmişdilər.

Xeybər yəhudilərinin bu hərəkətlərinə görə Peyğəmbər(s) onları tərki-silah etmək qərarına gəlir. Çünki onlar külli miqdarda pul xərcləyib yenidən ərəb qəbilələrini müsəlmanlara qarşı ayağa qaldıra bilərdilər ki, bu da Xəndək döyüşünün təkrarlanması demək olardı. Üstəlik yəhudilərin öz dinlərinə olan təəssübkeşliyi bütpərəstlərin inad və təəssübündən daha çox idi. Məhz bunun nəticəsi olaraq minlərlə müşrik iman gətirir, ancaq bir yəhudi iman gətirmirdi.

Peyğəmbəri(s) Xeybər yəhudilərinə qarşı ayağa qaldıran digər bir amil də o idi ki, həzrət o vaxt əksər ölkə başçılarına məktub göndərərək onları İslama dəvət etmiş, hətta müəyyən qədər də hədələmişdi. İndi ola bilərdi ki, İran və ya Bizans imperatorları yəhudilərdən İslama qarşı istifadə, yaxud da yəhudilər imperatorları İslama qarşı təhrik edə bilərdilər. Necə ki, onlar artıq bir dəfə müşrikləri müsəlmanlara qarşı ayağa qaldırmışdılar. Onu da nəzərə almaq lazımdır ki, yəhudilər İranla Bizans arasındakı döyüşlərdə iki dövlətdən birinin tərəfində olurdular. Buna görə də Peyğəmbər(s) tezliklə Xeybər yəhudilərinə qarşı lazımı tədbir görməyi labüd hesab edir. Bunun üçün bundan gözəl fürsət ola bilməzdi. Belə ki, Hüdeybiyyə sülhündən sonra artıq Peyğəmbərin(s) Cənub tərəfdən (Qüreyşdən) heç bir narahatlığı yox idi. Hətta müsəlmanlar yəhudilərə qarşı müharibə etsəydilər də müşriklər yəhudilərin köməyinə gəlməyəcəkdilər. Peyğəmbər həmçinin Şimalda yaşayan və Xeybər yəhudiləri ilə xoş münasibətdə olan Qətəfan qəbilələri kimi qəbilələr haqqında da müəyyən tədbirlər fikirləşir.

Bütün bunlardan sonra Peyğəmbər(s) Ərəbistan yarımadasındakı son yəhudi mərkəzinə hücuma keçmək üçün müsəlmanlara hazırlaşmağı tapşıraraq buyurur: Yalnız Hüdeybiyyə sülhündə iştirak edən şəxslər bu döyüşə gedə bilərlər. Hüdeybiyyədə olmayanlar da könüllü olaraq iştirak edə bilərdilər, ancaq onlara döyüş qənimətindən pay çatmayacaqdı.

Peyğəmbər(s) Qiylə Leysini Mədinədə öz yerinə qoyub ağ bayrağı Əliyə verərək hərəkət əmri verir. Ordu məqsədə daha tez çatsın deyə, Peyğəmbər(s) karvanı çəkib aparan Amir ibn Əkvəyə dəvələri sürüb apararkən şer oxumağa icazə verir. Amir aşağıdakı şeirləri oxuyurdu:

And olsun Allaha, Allahın mərhəməti olmasaydı,
biz haqqa hidayət olmaz, namaz qılmazdıq.
Biz elə bir qövmük ki, bizə zülm edənlərə tabe olmarıq
İlahi, bizə arxayınlıq nəsib et və bu yolda hamımızı sabit-qədəm elə!

Şeirin məzmunu döyüşün məqsədini çox gözəl şəkildə bəyan edir. Yəhudilər müsəlmanlara qarşı zülm, fitnə-fəsad törətdikləri üçün müsəlmanlar da onlara qarşı döyüşə qalxıblar.

Bu şerləri eşitdikdə Peyğəmbər(s) o qədər razı qalıb sevinir ki, Amir haqqında dua edir. Amir məhz Xeybər döyüşündə şəhadət şərbətini dadır.

Peyğəmbər(s) orduya hərəkət əmri verdikdə məqsədini tam şəkildə açıqlamır. O istəyirdi ki, düşməni qəfil yaxalasın. Həm də düşmənlə müttəfiq olanlara qarşı hərəkətə keçdiyini düşünüb evlərində otursunlar və nəticədə bir yerə toplaşa bilməsinlər. Bəlkə də kimlərsə müsəlmanların Xəndək döyüşündə müşriklərlə əlbir olmuş Qətəfan və Fəzarə qəbilələrinə hücuma keçdiyini düşünürdü. Lakin İslam ordusu Rəci çölünə yetişdikdə Peyğəmbər(s) hərəkət istiqamətini Xeybərə doğru dəyişir. Bununla da o həzrət adı çəkilən iki yəhudi qəbiləsinin Xeybər yəhudilərinə köməyə gəlməsinin qarşısını almış olur. Xeybərin mühasirəsi bir ayadək davam etsə də Qətəfan və Fəzarə yəhudiləri öz dindaşlarına heç cür kömək edə bilmirlər.[1]

Peyğəmbər(s) iki yüzü süvari olmaqla 1600 nəfərlik ordu ilə Xeybərə doğru irəliləyir.[2] Xeybərə yaxınlaşdıqda Peyğəmbər(s) pak niyyətindən xəbər verən aşağıdakı duanı edir:

«İlahi, Sən göylərin və altındakıların, yerin və üstündəkilərin Allahısan. Mən bu yerin, onun əhalisinin və orada olan şeylərin yaxşısını Səndən istəyir, oranın, əhalisinin və orada olan şeylərin pisliyindən Sənə pənah gətirirəm.»[3]

---

[1] Sireyi İbn Hişam, c-2, s-330
[2] Əmali Tusi, s-164
[3] Ət-Kamilu fit-tarix, c-2, s-147

1600 mücahidin gözü qarşısında edilən bu dua onu göstərir ki, Peyğəmbər(s) Xeybərə hücum edərkən intiqam və ya mal-dövlət məqsədi güdməyib. Həzrətin məqsədi o olmuşdur ki, istənilən zaman bütpərəstlərə yardımçı ola biləcək qalaları fəth edərək İslamın təhlükəsizliyini təmin etsin.

***Strateji yerlər və yollar gecə ikən tutulur***

Xeybərdəki yeddi qalanın hər birinin öz adı var idi. Bunlar ardıcıl olaraq Naim, Qəmus, Kətibə, Nəstat, Şəqq, Vətih və Səlalim. Bu qalalardan bəzisi qala başçısının adı ilə adlandırılırdı. Məsələn, deyirdilər Mərhəb qalası və s.

Qaladan kənarda baş verənləri izləmək üçün qala divarlarının üstündə müşahidə-mühafizə dəlikləri qoyulmuşdu. Bu dəliklər vasitəsilə qaladakılar ətrafı tamamilə müşahidə və müxtəlif vasitələrlə müdafiə edə bilərdilər.[1]

İyirmi minlik Xeybər yəhudisi arasında iki min nəfər sırf döyüşçü idi. Onların yemək-içmək tədarük görməkdə heç bir rolu yox idi, ancaq döyüş zamanı öz məharətlərini göstərirdilər. Qalalar o qədər möhkəm idi ki, onları sökmək, deşmək, zədələmək mümkün deyildi. Qalaya yaxınlaşmaq istəyənlər isə mühafizə dəliklərindən atılan daş ox və s. ilə yaralanır, ya da ölürdülər. Qalalar Xeybər yəhudilərinin əsl səngəri sayılırdı.

Güclü düşmən qarşısında dayanmış müsəlmanlar qalaları ələ keçirmək üçün son dərəcə döyüş bacarığı göstərməli idilər. Müsəlman döyüşçülərinin həyata keçirdiyi ilk tədbir strateji yerlərin və yolların tutulması oldu.

Onlar bu işi elə tez və gizli şəkildə icra etdilər ki, heç qala mühafizəçilərinin də xəbəri olmadı. Səhər tezdən yəhudilər əkin sahələrinə getmək məqsədilə qalalardan çıxdıqda müsəlman döyüşçülərinin bütün yolları tutub əllərində silah dayandığını görürlər. Bir addım da irəli gedən şəxs sözsüz ki, yaxalanacaqdı. Bu hadisədən o qədər heyrətlənib qorxurlar ki, hamı qaçaraq deyir: «Mühəmməd öz

---

[1] Sireyi Hələbi, c-3, s-38

əsgərləri ilə bura gəlib.» Dərhal qala qapıları bağlanır. Qalada döyüş haqqında müşavirə keçirilir.

Peyğəmbərin(s) gözü bel, külüng kimi alətlərə sataşdıqda bunu yaxşı mənaya yozur, müsəlman döyüşçülərə ruh yüksəkliyi aşılamaq məqsədilə buyurur: «Allahu əkbər! Xaraba qalsın Xeybər!

Biz hər hansı qövmün üstünə getdiyimiz zaman qorxudulanların aqibəti nə pis olur!»

Yəhudilər məsləhətləşdikdən sonra belə qərara gəlirlər ki, arvad-uşağı bir qalaya, yemək-içməyi də başqa qalaya yığsınlar. Hər qalanın döyüşçüləri qalanın üstündən ox, daş və digər vasitələrlə qalanı müdafiə etsinlər. Həmçinin tanınmış pəhləvanlar növbə ilə qaladan eşiyə çıxıb müsəlman döyüşçülərlə döyüşsünlər. Yəhudi döyüşçüləri döyüşün sonunadək bu plana sadiq qalırlar. Bu səbəbdən təxminən bir ay müqavimət göstərə bilirlər. Müsəlmanlar bəzən hansısa qalanı ələ keçirməkdən ötrü hətta on gündən çox vaxt sərf edir, ancaq bir nəticəyə çatmırdılar.

***Yəhudi qalaları süqut edir***

Xeybər qalalarına yaxınlaşarkən İslam ordusu elə də əlverişli mövqe seçmir. Belə ki, onların dayandığı yeri yəhudilər çox rahat şəkildə görür və müsəlmanlara ox, daş və s. ata bilərdilər. Hansısa qorunacaq ev, xurmalıq olmadığından müsəlmanlar müdafiə oluna bilməyəcəkdilər. Buna görə də istedadlı müsəlman döyüşçülərindən olan Həbbab ibn Münzir Peyğəmbərin(s) hüzuruna gəlib deyir: «Bu yeri seçməyiniz Allahın əmrinə əsasən olubsa, mənim heç bir sözüm yoxdur. Çünki Allahın əmrindən üstün söz ola bilməz. Yox əgər siz özünüz bu yeri seçmisinizsə və başqalarının da fikrini nəzərə ala bilərsinizsə, onda icazə verin qeyd edim ki, dayandığımız yeri düşmən rahatlıqla görə bilir. Çünki düz Nəstat qalasının qarşısında dayanmışıq və burada ev, xurmalıq və s. olmadığından düşmən oxatanları bizi rahat şəkildə hədəfə ala bilərlər.»

Peyğəmbər(s) başqalarının fikrini nəzərə almağın lazım olduğunu bildiyi üçün buyurur: «Əgər daha yaxşı yer tanıyırsansa, de, oraya gedək.» Həbbab Xeybərin ətrafını gəzib xurmalıqlar arxasında yerləşən

bir mövqe seçir. Beləliklə, müsəlmanlar həmin yerə köçürlər. Peyğəmbər(s) özü də daxil olmaqla müsəlmanlar Xeybər mühasirədə olduğu müddət ərzində qalalara tərəf gedir, axşam yenidən qərargaha qayıdırdılar.[1]

Xeybər döyüşünün gedişatı barədə konkret bir söz deyə bilmərik. Ancaq tarixi mənbələrdən məlum olur ki, İslam ordusu qalaları tək-tək mühasirə edir, mühasirə edilmiş qalanın digər qalalarla əlaqəsini kəsdikdən sonra onu ələ keçirir, növbəti qalanın mühasirəsinə başlayırdılar. Bir-biri ilə yeraltı keçidi olan və ya döyüşçüləri tərəfindən ciddi müqavimət göstərilən qalaların fəth edilməsi olduqca ləng gedirdi.

Ətrafla əlaqəsi tamam kəsilmiş və ya döyüşçüləri vahiməyə düşən qalalar isə çox tez fəth edilir, demək olar ki, elə də ciddi müqavimət göstərilmirdi.

Bəzi tarixçilər belə hesab edirlər ki, böyük çətinliklərdən sonra müsəlmanların fəth edə bildiyi ilk qala Naim qalası olmuşdur. Bu, böyük İslam sərkərdələrindən Mahmud ibn Məsləmə Ənsarinin qətli və əlli döyüşçünün yaralanması bahasına başa gəlir. Adı çəkilən sərkərdə yuxarıdan başına atılan iri daş parçası nəticəsində yerindəcə şəhid olur. İbn Əsir isə onun üç gün yaralı qalıb sonra şəhid olduğunu qeyd edir.[2] Yaralanan döyüşçülər qərargahda ayrılmış xüsusi yerə gətizdirilib müalicə alırlar.[3] Peyğəmbərin(s) icazəsi ilə Xeybərə gəlmiş Bəni-Qifar qəbiləsinin bəzi qadınları yaralıların sarınmasında və digər işlərdə çox fəal iştirak edirdilər.[4]

Müsəlmanlarla məsləhətləşdikdən sonra Peyğəmbər(s) Naim qalasının ardınca Qəmus qalasını mühasirə etməyi əmr edir. Qəmus qalasına Əbül-Hüqeyq övladları başçılıq edirdi. Bir qədər sonra müsəlman döyüşçülərinin fəallığı nəticəsində o qala da fəth edilir və sonralar Peyğəmbərin(s) xanımı olmaq şərəfinə nail olmuş Səfiyyə bint Hüyeyy əsir düşür. İki qalanın alınması müsəlmanlarda böyük ruh yüksəkliyi yaradır. Yəhudilərdə isə əksinə, qorxu, vahimə baş

---

[1] Sireyi Hələbi, c-3, s-39
[2] Usdul-qabə, c-4, s-334
[3] Sireyi Hələbi, c-3, s-40
[4] Sireyi İbn Hişam, c-3, s-342

qaldırmışdı. Müsəlmanlar arasında ərzaq problemi yaranmışdı. Vəziyyət o yerə gəlib çatmışdı ki, yeyilməsi məkruh olan bəzi heyvanların ətindən istifadə edirdilər. Yəhudilərin ərzaq anbarı sayılan qala hələ ki, fəth edilməmişdi.

### *Çətinlik vaxtında pəhrizkarlıq*

Müsəlmanlar arasında güclü aclıq baş verdiyi bir vaxtda yəhudilərin qoyunlarını otaran qaradərili bir çoban, Peyğəmbərin(s) hüzuruna gəlib İslam haqqında məlumat istəyir. Peyğəmbərin(s) sözlərinin təsiri olaraq elə oradaca iman gətirən çoban deyir ki, bu qoyunları yəhudilər mənə əmanət edirdilər. İndi mənim qoyun sahibləri ilə əlaqəm kəsilib, nə etməliyəm? Peyğəmbər(s) yüzlərlə ac əsgərin qarşısında açıq şəkildə buyurur: «Bizim dinimizdə əmanətə xəyanət etmək ən böyük günahlardan biridir. Qoyunları qala qapısına apar və sahiblərinə təhvil ver!»

Çoban Peyğəmbərin(s) buyurduğuna əməl edib sonra da İslam ordusuna qoşulur və həmin döyüşdə şəhid olur.[1]

Həzrət Mühəmməd(s) təkcə gəncliyində deyil, bütün ömrü boyu əmanətdar olmuşdur. Xeybər mühasirədə olduğu müddət ərzində yəhudilərin sürüsü hər gün səhər tezdən otlamağa buraxılırdı. Müsəlmanlardan biri də sürüyə xəyanət əli uzatmırdı. Çünki öz rəhbərlərinin ali təlimləri nəticəsində onlar da əmanətdar olmuşdular. Yalnız bircə dəfə müsəlmanlar aclığa tab gətirə bilmədikdə Peyğəmbər(s) sürüdən iki qoyun tutub kəsməyi, qalan qoyunları isə qalaya ötürməyi tapşırır. Əgər aclıq olmasaydı, heç o iki dənə də götürülməyəcəkdi. Həzrət hər dəfə öz döyüşçülərinin aclıqdan şikayətləndiyini eşitdikdə əlini qaldırıb deyərdi: «İlahi, ərzaq toplanmış qalanı müsəlmanların üzünə aç!» O həzrət qələbə qazanılmadan bir nəfərə də icazə verməzdi ki, kiminsə malına əl uzatsın.[2]

Yuxarıda deyilənləri nəzərə aldıqda bir daha bəzi şərqşünasların qərəzli yalanlarının üstü açılır. Belə ki, onların fikrincə güya müsəlmanlar qarət məqsədilə döyüşlərə atılır və döyüş zamanı haqq-ədalətə qətiyyən riayət etmirlərmiş. Lakin tarixdə öz əksini tapmış bu və

[1] Sireyi İbn Hişam, c-3, s-345
[2] Sireyi İbn Hişam, c-3, s-332-350

digər hadisələr bu iddiaların yalan olduğuna dair gözəl sübutdur. Peyğəmbər(s) müsəlman döyüşçülərin ölüm və aclıqla çarpışdığı vaxt da çobanın yəhudi sürüsünə xəyanət etməsinə icazə vermir. Halbuki həzrət hətta bütün sürünü də müsadirə edə bilərdi.

***Qalalar bir-birinin ardınca fəth edilir***

İlk iki qaladan sonra müsəlmanlar Vətih və Səlalim qalalarını mühasirəyə alırlar. Bu dəfə müsəlmanlar daha güclü müqavimətlə rastlaşırlar. İslam ordusu nə qədər çalışsa da, on gündən artıq hücuma keçsə də, ağır itkilər verib nəticəsiz geri dönür. Bir gün Əbu Bəkr müsəlmanların bayrağını götürüb bir dəstə ilə hücuma keçir. Bir qədər sonra nəticə əldə etmədən geri qayıdır. Növbəti gün hücuma keçən dəstəyə Ömər başçılıq edir. O da nəticəsiz qayıdır. Peyğəmbər(s) və sərkərdələr bundan çox narahat olurlar. Həzrət sərkərdə və döyüşçüləri bir yerə toplayaraq buyurur: «Sabah bayrağı elə bir adama verəcəyəm ki, Allahı və Peyğəmbəri sevir, Allah və Peyğəmbər də onu sevir. Allah bu qalanı onun əli ilə açacaq. O, elə bir adamdır ki, düşmənə heç vaxt arxa çevirməyib və heç vaxt döyüş meydanından qaçmayıb.»[1]

Mərhum Təbərsi və Hələbi, Peyğəmbərin(s) aşağıdakı cümləni də buyurduğunu qeyd etmişlər: «O, düşmənə hücum edər, ancaq düşməndən qaçmaz.»

Peyğəmbərin(s) bu sözləri qalanı fəth edəcək sərkərdənin mənəvi üstünlüyündən, fəzilətindən xəbər verirdi. Eyni zamanda bu sözlər orduda həyəcanla qarışıq bir sevinc yaratmışdı. Hamı bu böyük şərəfin ona nəsib olmasını arzulayırdı.

Gecənin zülməti hər tərəfi bürüyür. İslam mücahidləri istirahət üçün öz yataqlarına çəkilirlər. Gözətçilər düşməni güdmək üçün öz mövqelərini tuturlar. Səhər açıldıqda bütün sərkərdələr Peyğəmbərin(s) yanına gəlir. Əvvəlki iki gündə məğlubiyyətlə üzləşmiş sərkərdələr də boynubükük şəkildə yeni təyin olunacaq sərkərdənin kim olacağını səbirsizliklə gözləyirdilər. Camaatın sükutunu Peyğəmbər pozaraq soruşur ki, Əli

[1] Məcməül-bəyan, c-9, s-120; Sireyi Hələbi, c-2, s-37; Sireyi İbn Hişam, c-3, s-334

haradadır? Həzrətə cavab verilir ki, onun gözü ağrıdığına görə bir kənara çəkilib istirahət edir. Peyğəmbər(s) Əlini gətizdirməyi əmr edir.

Təbəri yazır: «Əlini bir dəvəyə mindirib Peyğəmbərin çadırının qarşısına gətirirlər.» Bu cümlədən məlum olur ki, Əlinin göz ağrısı həddən artıq şiddətli olmuşdur. Peyğəmbər(s) mübarək əlini onun gözlərinə çəkib Əli üçün dua edir. Həzrətin duası və əl sürtməsi elə təsirli olur ki, ömrünün sonuna qədər Əlinin gözləri bir daha ağrımır. Bundan sonra Peyğəmbər(s) Əliyə hücum əmri verərək tapşırır ki, döyüşdən qabaq qaladakıları İslama dəvət etsin. Əgər qəbul etməsələr, cizyə (qeyri-müsəlmanların can vergisi) ödəməklə İslam bayrağı altında yaşaya biləcəklərini çatdır.[1] Yox əgər buna da razı olmasalar, onda onlara qarşı vuruş! Peyğəmbərin(s) Əlini yola salarkən buyurduğu son cümlə belə olur: «Allah sənin vasitənlə bir nəfər hidayət etsə, bu, qırmızıyunlu dəvələrə sahib olmağından daha yaxşıdır.»[2]

Peyğəmbərin(s) son sözündən bir daha məlum olur ki, o həzrətin bütün döyüşlərdə məqsədi insanları haqqa yönəltməkdən başqa şey olmayıb.

***Böyük Xeybər zəfəri***

Peyğəmbər(s) Əliyə hücum əmri verdikdə o, əvvəlki iki gündə sərkərdələrin ala bilmədiyi və döyüş meydanından qaçmaqla müsəlmanların şərəfinin alçalmasına səbəb olmuş Vətih və Səlalim qalalarına doğru irəliləyir. Əyninə möhkəm zireh geyib zülfüqarını ələ alır, qəhrəmanlara xas şəkildə qalalara yaxınlaşıb İslam bayrağını yerə sancır.

Bu zaman Xeybərin qapısı açılır və yəhudi cəngavərləri eşiyə çıxırlar. İlk olaraq Mərhəbin qardaşı Haris döyüşə atılır. O, elə güclü nərə çəkir ki, Əlinin(ə) arxasındakı döyüşçülər ixtiyarsız olaraq geri çəkilirlər. Əli isə dağ kimi yerində dayanır. Çox çəkmədən Harisin ruhsuz bədəni yerə sərilir.

Qardaşının ölümü Mərhəbi çox narahat edir. Silahlanmış, daşdan yonulmuş dəbilqəni başına qoymuş halda irəli çıxıb adətə uyğun olaraq rəcəz oxuyur:

---

[1] Biharul-ənvar, c-21, s-28

[2] Səhihi Müslim, c-5, s-195; Səhihi Buxari, c-5, s-18

Xeybərin daş-divarı da bilir ki, mən silahlanmış, tərcrübəli pəhləvan Mərhəbəm.

Zəmanə qalibdirsə, mən də qalibəm. Mənimlə üzbəüz gəlmiş döyüşçülər qanlarına bulaşıblar.

Əli(ə) də Mərhəbdən geri qalmayıb öz növbəsində aşağıdakı rəcəzi oxuyur:

Mən anamın Heydər (şir) adlandırdığı şəxsəm. Mən meşə şiri və qəhrəman adamam.

Güclü pəncələrim, qüvvətli boynum var. Döyüş meydanlarında cəngəllik şiri kimi qorxulu heybətim var.

Rəcəzlər başa çatan kimi iki qəhrəmanın döyüşü başlayır. Müsəlman və yəhudi igidlərinin qılınc səsləri yaxınlıqdakıları dəhşətə gətirirdi. Birdən Əlinin(ə) qılıncı Mərhəbin qalxanını, dəbilqəsini, dəbilqənin altındakı daş parçasını və başını dişlərinə qədər iki parça edir. Əlinin bu zərbəsindən bağrı yarılan yəhudi döyüşçülərinin çoxu qaçıb qalaya girir, qalanlar da onunla təkbətək döyüşüb Cəhənnəmə vasil olur. Qaçan yəhudiləri Əli(ə) qalayadək təqib edir. Bu zaman yəhudi döyüşçülərindən biri o həzrətə qılınc zərbəsi endirir. Nəticədə qalxan onun əlindən düşür. Gözü qala qapısına sataşan Əli(ə) yaxınlaşıb qapını yerindən qoparır və döyüşün sonunadək onu qalxan kimi istifadə edir. Qapını yerə atdıqdan sonra güclü müsəlman döyüşçülərindən səkkizi, o cümlədən Əbu Rafe qapını o tərəfdən bu tərəfə çevirmək istəsə də bacarmırlar.[1] Beləliklə də on gün ərzində alına bilməyən qala qısa müddət ərzində fəth edilir.

Yəqubi yazır: «Qalanın qapısı daşdan, hündürlüyü dörd dirsək, eni isə iki dirsək olmuşdur.»[2]

Mərhum Şeyx Mufid əl-İrşad əsərində Xeybər qapısının yerindən qoparılmasını Əlinin(ə) öz dilindən belə nəql edir: «Xeybər qapısını yerindən qoparıb başımın üstində qalxan kimi tutdum. Döyüş başa çatdıqdan sonra onu yəhudilərin qazdığı xəndəyin üstünə körpü kimi atdım. Sonra da qapını xəndəyin içinə tulladım. Bir nəfər soruşdu ki,

---

[1] Tarixi Təbəri, c-2, s-94; Sireyi ibn Hişam, c-3, s-349

[2] Tarixi Yəqubi, c-2, s-46

onun ağırlığını hiss etdinmi? Dedim ki, elə bil başımda öz qalxanımı tutmuşdum.»[1]

Tarixçilər Əlinin(ə) Xeybər qapısını qoparması və eləcə də bu döyüşdə göstərdiyi igidliyi barədə çox şeylər yazmışlar. Əlbəttə o həzrətin gördüyü işlər adi bəşər gücü ilə uyğun gəlmir. Bunu Əli(ə) özü də bildirmiş və bu haqda bütün şəkk-şübhələri aradan qaldırmışdır: «Mən onu (qalanın qapısını) adi bəşər gücü ilə yerindən qoparmadım. Allahıma arxayın şəkildə İlahi bir qüvvə ilə qapını yerindən çıxartdım.»

***Həqiqətin təhrif edilməsi***

İbn Hişam və Təbəri digər tarixçilər kimi Əlinin(ə) Xeybərdəki igidliyini bütün incəlikləri ilə qeyd etmişdir. Lakin adi çəkilən iki müəllif mövzunun sonunda Mərhəbin guya Məhəmməd ibn Məsləmə tərəfindən öldürülməsi ehtimalına toxunaraq yazır: «Bəziləri belə hesab edirlər ki, Mərhəbi Məhəmməd ibn Məsləmə qətlə yetirmişdir. Onu Naim qalası alınarkən qətlə yetirilmiş qardaşının intiqamını almaq üçün Peyğəmbər göndərmişdi.» Bu əsassız iddia tarixi faktlarla qətiyyən uyğun gəlmir.

Təbəri və İbn Hişam bu əfsanəni böyük səhabə Cabir ibn Abdullah-dan nəql etmişlər.[2] Halbuki Cabirin iştirak etmədiyi yeganə döyüş məhz Xeybər döyüşü olmuşdur. Bundan başqa bu iddiaya aşağıdakı iradlar aiddir:

1) Məhəmməd ibn Məsləmə elə də sücaətli şəxs deyildi ki, Xeybəri fəth edə bilsin. O, ömrü boyu cəmi bir yürüşdə sərkərdəlik etmişdir. Hicrətin üçüncü ili Bədr döyüşündən sonra müşrikləri yenidən müsəlmanlara qarşı təhrik edən yəhudi Kəb ibn Əşrəfi öldürmək məhz ona tapşırılmışdı. O, qorxudan üç gün-üç gecə dilinə yemək-içmək vurmur. Peyğəmbər(s) ona etiraz etdikdə, o peyğəmbərin cavabında belə deyir: «Bilmirəm bu işdə müvəffəq olacam ya yox.» Peyğəmbər bunu görüb, ona daha dörd nəfər köməkçi qoşur. Kəbi öldürərkən Məhəmməd ibn Məsləmə qorxudan özünü elə itirmişdi ki, hətta öz

[1] Əl-İrşad, s-59
[2] Sireyi İbn Hişam, c-3, s-348; Tarixi Təbəri, c-2, s-299

yoldaşlarından birini yaralayır.[1] Belə ruhiyyəyə malik şəxs təbii ki, Xeybərin fatehi ola bilməz.

2) Mərhəbin qatili təkcə Mərhəblə deyil, digər yəhudi pəhləvanları ilə də vuruşmuşdur. Mərhəbin qətlindən sonra aşağıda adı çəkilənlər də Əli ilə təkbətək vuruşmuşlar:

Davud ibn Qabus, Rəbi ibn Əbülhüqeyd, Əbülbait, Mərrə ibn Mərvan, Yasir Xeybəri və Zəsis Xeybəri. Bu altı nəfərin hər biri Xeybər pəhləvanlarından sayılırdı və qalanın fəth edilməsində ən böyük maneələrdən olmuşdur. Onlar bir-birinin ardınca Əlinin(ə) qarşısına çıxmış və hamısı yerə sərilmişdi. Belə bir vəziyyətdə sizcə Mərhəbi öldürən, Xeybəri fəth edən kim ola bilər? Əgər Mərhəbi Məhəmməd ibn Məsləmə öldürmüşdüsə, o, dərhal müsəlmanların düşərgəsinə qayıda bilməzdi. Çünki adı çəkilən yəhudi cəngavərləri onu belə asanlıqla buraxmazdılar. Tarixçilər də yekdilliklə bildirmişlər ki, adı çəkilənlər yalnız Əli ilə döyüşüb qətlə yetirilmişlər.

3) Bu uydurma əfsanə Peyğəmbərdən(s) nəql edilmiş mütəvatir hədislə də uyğun gəlmir. Belə ki, həzrət qalanın fəthindən bir gün əvvəl: «Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, Allah qalanı onun vasitəsi ilə fəth edəcək» - deyə buyurmuşdu. Qalanın fəth edilməsindəki ən başlıca problem isə Mərhəb idi. Əgər Mərhəbi həqiqətən də Məhəmməd ibn Məsləmə öldürmüşdüsə, onda gərək Peyğəmbər(s) yuxarıdakı cümləni Əli(ə) barədə yox, Məhəmməd ibn Məsləmə barədə deyəydi.

Tanınmış tarixçi Hələbi yazır: «Mərhəbin Əli tərəfindən qətlə yetirilməsində heç kimin şübhəsi yoxdur.»[2] Həmçinin İbn Əsir yazır: «Hədis söyləyənlər və tarixçilərin hamısı Mərhəbin Əli tərəfindən qətlə yetirildiyini bildirirlər.» Təbəri ilə İbn Hişam öz əsərlərində bir qədər səhvə yol verib fəthdən əvvəlki iki gündə sərkərdələrin əliboş geri qayıtmalarını elə qələmə vermişlər ki, Peyğəmbərin(s) Əli barədə buyurduğu cümlə ilə uyğun gəlmir. Belə ki, Peyğəmbər(s) Əli barədə belə buyurmuşdu: «O, düşmənə hücum edər, düşməndən heç vaxt qaçmaz.» Təbəri ilə İbn Hişam isə həmin iki sərkərdənin qayıdışını

---

[1] Sireyi İbn Hişam, c-2, s-65

[2] Sireyi Hələbi, c-3, s-38

normal qəbul etmiş və bildirmişlər ki, onlar qalanı fəth edə bilməyib sakitcə geri dönmüşlər.[1]

### *Əlinin həyatındakı üç parlaq məqam*

Xeybərin fatehi Əli(ə) haqqında üç fəziləti qeyd etməklə mövzunu bitiririk. Bir gün Müaviyə Səd ibn Əbu Vəqqasa etiraz edərək deyir ki, nəyə görə Əli ilə yola getmirsən? Səd ibn Əbu Vəqqas onun cavabında deyir: «Mən hər dəfə Əlinin üç fəzilətini yadıma salanda arzulamışam ki, kaş həmin fəzilətlərdən biri məndə olaydı. Bu üç fəzilət bunlardır:

1) Peyğəmbər(s) Təbuk döyüşünə gedərkən Əlini(ə) Mədinədə öz yerində qoyaraq buyurur: Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir. Sadəcə olaraq məndən sonra peyğəmbər gəlməyəcək.

2) Xeybər döyüşündə Peyğəmbər(s) buyurdu: «Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, Allahı və Peyğəmbəri sevir, Allah və Peyğəmbər də onu sevir.» Bütün sərkərdələr arzulayırdılar ki, kaş bu şərəf ona nəsib olaydı. Səhərisi gün Peyğəmbər(s) Əlini çağırıb bayrağı ona verir. Allah Əlinin sayəsində bizə böyük zəfər bəxş etdi.

3) Peyğəmbər(s) Nəcran xaçpərəstləri ilə mübahiləyə gələrkən Əli, Fatimə, Həsən və Hüseynin əlindən tutub buyurmuşdu ki, İlahi, bunlardır mənim əhli-beytim!»[2]

### *Qələbəyə səbəb olmuş amillər*

Xeybərin bütün qalaları fəth edilib yəhudilər əsir götürülür. Lakin gəlin görək bu qələbəyə hansı amillər səbəb olmuşdur. Bu amillər əsasən aşağıdakılardan ibarət olmuşdur:

1) Müsəlmanların yürütdüyü hərbi taktika
2) Düşmən haqqında lazımi məlumat əldə edə bilmək
3) Əmirəl-möminin Əlinin(ə) böyük fədakarlığı

### *1-Müsəlmanların yürütdüyü hərbi taktika*

---

[1] Sireyi İbn Hişam, c-3, s-349
[2] Səhihi Müslim, c-7, s-120

Müsəlmanlar Xeybər döyüşünə gəldikdə elə mövqe seçirlər ki, Xeybər yəhudiləri ilə yaxınlıqda yerləşən müttəfiqləri (Qətəfan yəhudiləri) ilə əlaqəsini kəsirlər. Sözsüz ki, Qətəfan qəbiləsində çoxlu sayda döyüşçülər olmuşdur və əgər onlar Xeybər yəhudilərinin köməyinə gəlsəydilər, müsəlmanlar qələbə qazana bilməzdilər. Qətəfanlılar İslam ordusunun hərəkətindən xəbər tutduqda dərhal öz müttəfiq və dindaşlarının köməyinə tələsirlər. Bir qədər irəlilədikdən sonra aralarında belə bir şayiə yayılır ki, İslam ordusu başqa bir yolla onların qəbiləsinə hücuma keçir.

Bunu eşitcək dərhal öz yerlərinə qayıdır və Xeybər döyüşünün sonunadək oradan tərpənmirlər.

Tarixçilər bu şayiəni qeybdən gələn bir səslə əlaqələndirirlər. Ancaq o da ola bilər ki, Qətəfan qəbiləsidən müsəlman olanlar belə bir şayiə yaymışlar. Çox güman ki, onlar İslamı qəbul etsələr də müsəlman olduqlarını bildirmir və üzdə özlərini kafir kimi göstərirdilər. Bu şayiəni də güman ki, Peyğəmbərin(s) tapşırığı əsasında yaymışlar. Xəndək döyüşündə də biz belə bir şayiənin şahidi olmuşduq. Onda da məhz Qətəfan qəbiləsindən olan Nüeym ibn Məsud düşmən arasında şayiə yaymaqla onların dağılmasına səbəb olmuşdu.

***2-Düşmən haqqında lazımı məlumat əldə edə bilmək***

Peyğəmbər(s) cihadda düşmən barədə məlumat toplanılmasına xüsusi əhəmiyyət verirdi. Xeybər döyüşündən qabaq həzrət, Übad ibn Bişrin başçılığı ilə iyirmi döyüşçünü Xeybər qalalarına doğru göndərir. Onlar Xeybər yaxınlığında bir yəhudi ilə rastlaşırlar. Übad onunla söhbətləşdikdə onun yəhudilərin başbilənlərindən olduğunu anlayır. Dərhal onu həbs edib Peyğəmbərin(s) hüzuruna gətirirlər. Ölümlə hədələndikdə yəhudilərin bütün sirlərini açıb ortaya qoyur. Məlum olur ki, Mədinə münafiqlərinin başçısı Abdullah ibn Übeyyin verdiyi məlumatdan sonra yəhudilərin ruhiyyəsi zəifləyib və bu vaxtacan Qətəfan qəbiləsindən Xeybərə heç bir kömək gəlməyib.

Düşmən haqqında məlumat əldə etməklə bağlı digər bir nümunə ondan ibarətdir ki, Xeybər döyüşünün altıncı günü müsəlmanlar bir yəhudi tutub Peyğəmbərin(s) hüzuruna gətirirlər. Həzrət ondan yəhudilərin

vəziyyəti haqqında soruşduqda cavab verir ki, öldürülməyəcəyimi zəmanət versəniz, deyərəm. Onun təhlükəsizliyinə zəmanət verildikdən sonra deyir: «Bu gecə Xeybər döyüşçüləri müdafiəni davam etdirmək məqsədilə Nəstat qalasından Şəqq qalasına köçəcəklər. Ey Əbülqasim, siz sabah Nəstat qalasını fəth edəcəksiniz. (Peyğəmbər(s) buyurur ki, inşallah.) Onun zirzəmilərində çoxlu sapand daşları, döyüş arabaları, qılınc və digər avadanlıqlar var. Onlardan istifadə etməklə Şəqq qalasını daşa basa bilərsiniz.»[1] Peyğəmbər(s) bu dağıdıcı vasitələrdən istifadə etməsə də, həbs edilmiş yəhudinin verdiyi məlumatdan faydalanır. Həzrət bilir ki, sabah Nəstat qalasının alınması üçün elə də böyük qüvvəyə ehtiyac olmayacaq. Əsas qüvvəni Şəqq qalasına hücüm üçün saxlamaq lazımdır.

Digər bir nümunə isə ondan ibarətdir ki, qalalardan birinin alınması yubanarkən üç gündən sonra bir yəhudi (bəlkə də canının qorxusundan) Peyğəmbərin(s) hüzuruna gəlib deyir: «Bir ay da burada qalsanız, yenə qalanı fəth edə bilməyəcəksiniz. Mən qalaya gedən su mənbəyinin yerini sizə göstərərəm. Siz suyun qarşısını kəsməklə yəhudiləri təslim edə bilərsiniz.» Hədislərdən birində göstərilir ki, Peyğəmbər(s) suyun qarşısının kəsilməsini qəbul etməyib buyurur ki, mən kimsə susuzluqdan ölsün deyə, onun üzünə suyu bağlamaram.[2] Lakin digər bir hədisdə qeyd olunur ki, düşmənin müqavimətini qırmaq üçün Peyğəmbər(s) müvəqqəti olaraq suyun bağlanılmasını əmr edir. Suyun bağlanılması yəhudilərə elə təsir edir ki, azacıq müqavimətdən sonra təslim olmaq məcburiyyətində qalırlar.[3]

### *3-Əmirəl-möminin Əlinin(ə) böyük fədakarlığı*

Bu barədə Əli(ə) özü buyurur: «Xeybər qalaları və döyüşçüləri ilə qarşı-qarşıya durduqda yəhudi pəhləvanları hər gün qaladan çıxıb rəqib tələb edir, qarşılarına çıxanı qətlə yetirirdilər. Peyğəmbər(s) mənə əmr etdi ki, qalaya doğru gedim. Onların pəhləvanları ilə üzləşib bəzisini qətlə yetirdim, bəzisini də geri çəkilməyə məcbur etdim. Onlar qalaya çəkilib qapını bağladılar. Mən qapını yerindən çıxarıb təkbaşına qalaya

---

[1] Sireyi Hələbi, c-3, s-35
[2] Nasixut-təvarix, c-2, s-299
[3] Sireyi Hələbi, c-3, s-40

daxil oldum. Kimsə mənə müqavimət göstərə bilmirdi. O vaxt mənim Allahdan başqa köməyim yox idi.»[1]

***Döyüş meydanında mehribanlıq***

Qəmus qalası fəth edildikdə Hüyeyy ibn Əxtəbin qızı Səfiyyə digər bir qadınla əsir düşür. Bilal onları yəhudi ölülərinin yanından keçirib Peyğəmbərin(s) hüzuruna gətirir. Peyğəmbər(s) Səfiyyənin kim olduğunu (qəbilə başçısının qızı) bildikdə hörmət əlaməti olaraq yerindən qalxıb əbasını onun çiyninə atır, istirahət etməsi üçün yer göstərir. Sonra isə sərt şəkildə Bilala etiraz edərək deyir: «Sənin ürəyində heç insaf yoxdur ki, bunu əzizlərinin ölüsünün yanından keçirtdin?» Həzrət Səfiyyəni digər əsirlərdən ayırıb onunla rəsmən evlənir və bu yolla onun ruhi sarsıntısını aradan qaldırır. Peyğəmbərin(s) bu mehribanlığı Səfiyyədə çox müsbət təsir qoyur. Belə ki, o, sonralar Peyğəmbərin(s) ən vəfalı qadınlarından biri olur və həzrət ölüm yatağında olarkən o, digər xanımlardan daha çox ağlayırdı.[2]

***Kənanə ibn Rəbinin öldürülməsi***

Bəni-Nəzir yəhudiləri Mədinədən qovulub Xeybərdə məskunlaşdıqdan sonra ümumi işlər, döyüş büdcəsi və qəbilə üzvləri tərəfindən qəsdən olmadan qətlə yetirilmiş şəxslərin qan bahasını ödəmək məqsədilə ümumi bir büdcə təşkil edilmişdi və hamı vaxtı-vaxtında oraya müəyyən məbləğ köçürürdü. Peyğəmbərə(s) məlumat çatmışdı ki, toplanılan pulları Səfiyyənin əri Kənanə ibn Rəbi saxlayır. Həzrət Kənanəni çağırtdırıb pulların yerini soruşur. Kənanə isə nəinki pulların yerini demir, ümumiyyətlə belə bir şey olduğunu inkar edir. Müsəlmanlar toplanılan pulları axtarmağa başlayırlar. Axırda bir nəfər deyir ki, məncə pullar filan yerdə (xarabalıqda) saxlanılır. Çünki döyüş vaxtı Kənanənin tez-tez oraya baş çəkdiyini görürdüm.

Peyğəmbər(s) yenidən Kənanəni çağırtdırıb deyir: «Deyirlər ki, pullar filan yerdədir. Doğrudurmu? İnkar edəcəyin təqdirdə oradan pul aşkar edilərsə, sən öldürüləcəksən.» Kənanə bu dəfə də inkar edib, boynuna almır.

---

[1] Əl-Xisal, s-369

[2] Tarixi Təbəri, c-3, s-302

Həzrətin tapşırığı ilə deyilən yerdə qazıntı aparılır və Bəni-Nəzirin büdcəsi aşkar edilir. İndi Kənanə cəzasına çatmalı idi. O, yalan danışması ilə yanaşı İslam döyüşçülərindən Mahmud ibn Məsləmənin başına böyük bir daş atmaqla onu qətlə yetirmişdi. Peyğəmbər(s) onun intiqamını almaq və digər yəhudilərə ibrət məqsədilə Kənanəni Mahmudun qardaşına təhvil verir, o da Kənanəni öldürərək qardaşının qisasını alır.[1] Kənanə ibn Rəbi İslam sərkərdəsini öldürdüyünə görə qətlə yetirilən sonuncu şəxs idi.

***Qənimət bölgüsü***

Düşmən qalaları fəth və döyüşçülər tərksilah edildikdən sonra Peyğəmbər(s) bütün qənimətlərin bir yerə toplanılmasını əmr edir. Həzrətin göstərişi ilə bir nəfər bütün müsəlman döyüşçüləri arasında elan edir ki, kim nə qənimət ələ keçiribsə (hətta iynə-sap da olsa) beytül-mala təhvil versin. Kim beytül-mala xəyanət edərsə, axirət odunu qazanmış olur.

Peyğəmbər(s) və məsum imamlar əmanət məsələsində həddən artıq radikal olmuş, hətta əmanətin geri qaytarılmasını imanın, əmanətə xəyanəti isə münafiqliyin nişanəsi hesab etmişlər.[2] Buna görə də vəfat etmiş bir müsəlman döyüşçüsünün əmlakı arasında oğurluq bir mal aşkar edildikdə Peyğəmbər(s) onun cənazəsinə namaz qılmır.

Xeybərdən hərəkət edərkən Peyğəmbərin(s) kəcavələrini bağlayan nökərə qəflətən bir ox dəyir və o, yerindəcə vəfat edir. Müsəlmanlar oxu kimin atdığını axtarsalar da, bir nəticəyə çata bilmirlər. Hamı nökərin cənnətlik olduğunu deyərkən Peyğəmbər onlara buyurur ki, mən sizinlə razılaşmıram. Onun əynindəki əba döyüş qənimətlərindən idi, onu oğurlamışdı. Qiyamət günü o əba od olub onun yaxasına yapışacaq. Bu zaman Peyğəmbərin(s) səhabələrindən biri deyir ki, mən icazəsiz olaraq qənimətin arasından bir cüt ayaqqabı bağı götürmüşəm. Həzrət buyurur ki, geri qaytar, yoxsa Qiyamət günü od olub ayağına dolaşacaq.[3]

Bu hadisələr bir daha bəzi şərqşünasların İslama qarşı qərəzli mövqe tutduğunu göstərir. Belə ki, onlar İslam döyüşlərinin sırf qarət

---

[1] Tarixi Təbəri, c-3, s-302

[2] Vəsailuş-şiə

[3] Sireyi İbn Hişam, c-3, s-339

xarakteri daşıdığını və mənəvi məqsəd güdmədiyini bildirirlər. Qarətçi bir millət oğurladığı ayaqqabı bağını da geri qaytarılmasını imanın nişanəsi hesab etməz, öz əsgərlərini bu ruhiyyədə yetişdirməz.

***Xatirələr diyarından gələn karvan***

İslam ordusu Xeybərə doğru hərəkət etməzdən qabaq Peyğəmbər(s), Əmr ibn Üməyyəni Həbəşistana göndərir. O, Həbəşistana gedərək Peyğəmbərin(s) məktubunu Həbəş hökmdarı Nəcaşiyə çatdırır. (Məktub Həbəşistandakı mühacirlərin Mədinəyə göndərilməsi ilə əlaqədar idi.) Nəcaşi iki gəmi ayırıb müsəlmanları yola salır. Gəmilər Mədinə yaxınlığında lövbər salır. Həbəşistandan qayıdan mühacirlər Peyğəmbərin(s) Xeybərə doğru getdiyini eşitdikdə onlar da Xeybərə gedirlər. Mühacirlər Xeybərə çatdıqda İslam ordusu artıq bütün qalaları fəth etmişdi. Peyğəmbər(s) Cəfəri qarşılamaqdan ötrü on altı addım irəli gəlir, onun alnından öpərək buyurur: «Heç bilmirəm hansına daha çox sevinim! Uzun müddətdən sonra yenidən sizi görməyiməmi, yoxsa Allahın, qardaşın Əlinin vasitəsilə qalaları üzümüzə açdığınamı?»

Daha sonra buyurur ki, bu gün sənə bir şey hədiyyə etmək istəyirəm. Camaat elə bilir ki, həzrət ona maddi bir hədiyyə bağışlayacaq. Lakin Peyğəmbər(s) sonradan Cəfər Təyyar adı ilə məşhur olmuş namazı ona öyrədir.[1]

Xeybər döyüşündə müsəlmanlardan şəhid olanların sayı iyirmidən artıq deyildi, yəhudilər isə daha çox itki vermişdi. Onlardan doxsan üçünün adı tarixdə əks edilmişdir.[2]

***Qələbədən sonrakı mərhəmət***

Allah adamları qələbə zamanı düşmənə qarşı çox mülayim, mehriban olmuşlar. Düşmən təslim olduqda onlara qayğı göstərir, heç vaxt intiqam fikrində olmurlar. Həzrət Peyğəmbər(s) də Xeybərin fəthindən sonra onlara qarşı mehriban davranaraq yəhudilərin xahişini qəbul edir. Onlar həzrətdən xahiş edirlər ki, Xeybərdə qalıb öz işləri, əkin-biçinləri ilə məşğul

---

[1] Əl-Xisal, c-2, s-86; Fürui-kafi, c-1, s-129

[2] Biharul-ənvar, c-21, s-32

olsunlar və illik məhsulun tən yarısını müsəlmanlara ödəsinlər.[1] Hətta İbn Hişam nəql edir ki, bunu Peyğəmbər(s) özü yəhudilərə təklif edir.[2]

Peyğəmbər(s) yəhudilərin hamısını qətlə yetirə və ya Mədinədən kənarlaşdıra da bilərdi. Ancaq qərəzli şərqşünasların «İslam qılınc gücünə inkişaf edib» fikrinin əksinə olaraq həzrət belə etmir, yəhudiləri öz dinlərində azad buraxır. Onlara qarşı döyüşməkdə isə Peyğəmbər(s) məcbur idi. Çünki Xeybər yəhudiləri müşriklərlə əlbir olub İslam dövlətini hədələyirdilər. Buna görə də onları mütləq tərksilah etməli idi. Yalnız bundan sonra yəhudilər İslam bayrağı altında öz dinlərində qala bilərdilər. Əks təqdirdə İslamın inkişafı mümkün olmayacaqdı.

Yəhudilərin İslam dövlətinə can vergisi (cizyə) ödəməsinin səbəbi o idi ki, onlar dövlətin sabitliyindən faydalanır, müsəlmanlar onların malını, canını qoruyurdu. Hesablamalara görə hər bir müsəlman illik ödədiyi verginin miqdarı xaçpərəst və yəhudinin illik ödədiyi cizyədən artıq olmuşdur. Çünki müsəlmanlar xums, zəkat ödəyirdilər, qeyri-müsəlmanlar isə bu vergilərdən azad idilər. Üstəlik xums-zəkatdan əlavə bəzən dövlət büdcəsinin formalaşması üçün əlavə vergilər də ödənilirdi ki, bunda müsəlmanla qeyri-müsəlman arasında fərq yox idi. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, cizyəni bacla qarışdırmamalıyıq.

Hər il Xeybər məhsulunun yarısını almaq üçün Peyğəmbərin(s) göndərdiyi nümayəndə çox ədalətli şəxs idi. Onun ədaləti yəhudiləri heyrətə gətirirdi. Bu şəxs sonradan Mütə döyüşündə şəhid olmuş Abdullah ibn Rəvahə olmuşdur. O, müsəlmanlara çatacaq məhsulu təxmini hesablayıb yəhudilərə deyirdi. Bəzən yəhudilər onun səhv hesabladığını bildirdikdə Abdullah deyirdi ki, mən təyin etdiyim məbləği ödəyib həmin məhsulu götürməyə hazıram. Belə olduqda yəhudilər deyirdilər ki, yer-göy məhz belə ədalətin sayəsində bərqərar olub.[3]

Müsəlmanların ələ keçirdiyi qənimətlər arasından Tövratın bir hissəsi də aşkar edilir. Yəhudilər Peyğəmbərdən(s) onun geri qaytarılmasını xahiş edirlər. Peyğəmbər həmin hissənin yəhudilərə qaytarılmasını əmr edir.

---

[1] Sireyi ibn Hişam, c-1, s-331

[2] Sireyi ibn Hişam, c-1, s-356

[3] Sireyi ibn Hişam, c-3, s-345; Fürui-kafi, c-1, s-405

***Yəhudi fırıldaqları***

Həzrət Peyğəmbərin(s) yəhudilərə qarşı belə mülayim, mehriban davranışlarına rəğmən onlar həzrətə və səhabələrinə qarşı hiylələr qururdular. Aşağıda belə hallardan iki nümunə qeyd edirik.

1) Yəhudilərdən bir dəstəsi Zeynəb adlı bir yəhudi əyanının xanımını təhrik edirlər ki, Peyğəmbərə(s) zəhərli yemək versin. O, həzrətin səhabələrindən soruşur ki, Peyğəmbər qoyunun hansı hissəsini daha çox xoşlayır. Həzrətin qoyunun ən çox qol ətini xoşladığını öyrəndikdə gəlib bir qoyun qızardır, bütün ətə zəhər qatır, qol hissəsini isə digər yerlərdən artıq zəhərləyir. Qızardılmış qoyunu Peyğəmbərin(s) hüzuruna gətirir. Həzrət ilk tikəni ağzına qoyan kimi ətin zəhərli olduğunu anlayıb onu ağzından çıxarır. Lakin onunla birlikdə süfrəyə əyləşmiş Bişr ibn Bərra Mərir isə bilmədən bir neçə tikə yediyi üçün qısa müddət sonra zəhərlənib ölür. Peyğəmbər(s) Zeynəbi çağırtdırıb bu işin səbəbini soruşduqda o, məntiqsiz bir cavab verir: «Sən qəbiləmizi bir-birinə vurdun. Mən özlüyümdə fikirləşdim ki, sən də digər hökmdarlar kimisənsə, zəhərli əti yeməklə öləcəksən, yox əgər həqiqətən də peyğəmbərsənsə, onda ətin zəhərli olduğunu bilib ondan yeməyəcəksən.» Həzrət Zeynəbin təqsirindən keçib onu bağışlayır, lakin Zeynəbi bu işə təhrik edənlərin izinə düşür. Şübhəsiz, əgər bu hadisə hər hansı hökmdarın başına gəlsəydi, o, onlarla adamı öldürər, bir o qədərini də həbs edərdi.

Yəhudi qadının Peyğəmbərə(s) bu sui-qəsdi, bəzi səhabələri, həzrətin xanımlarından olan və vaxtilə yəhudi olmuş Səfiyyəyə qarşı bədbin edir. Onlar elə fikirləşirlər ki, Səfiyyə də gecə fürsətdən istifadə edib həzrətə zərər yetirə bilər. Buna görə də Əbu Əyyub Ənsari bütün yol boyu Peyğəmbərin xəbəri olmadan onun çadırına nəzarət edirdi. Səhər tezdən həzrət çadırdan çölə çıxdıqda Əbu Əyyubu əlində qılınc çadırın ətrafında gezişdiyini görür. Səbəbini soruşduqda o deyir: «Artıq xanımınız olmuş Səfiyyənin qəlbindən küfrün təmizləndiyinə arxayın deyiləm, ona görə çadıra nəzarət edirəm.» Peyğəmbər(s) Əbu Əyyubun bu qayğıkeşliyindən məmnun qalıb, onun üçün dua edir.[1]

2) Xeybərin fəthindən bir neçə il sonra Peyğəmbərin(s) nümayəndəsi Abdullah ibn Səhl, Xeybər məhsullarının müsəlmanlara

---

[1] Sireyi İbn Hişam, c-2, s-339; Biharul-ənvar, c-21, s-33

çatacaq hissəsini almaq üçün yəhudilərin yanına getdikdə bir qrup naməlum yəhudi Abdullahı boynundan yaralayır və aldığı yara nəticəsində o, hadisə yerində vəfat edir. Qatillər onun nəşini bir bulaq başına atırlar. Yəhudi başçıları Peyğəmbərin(s) hüzuruna nümayəndə göndərib onu Abdullahın müəmmalı ölümündən xəbərdar edirlər. Abdullahın qardaşı Əbdürrəhman ibn Səhl əmisi oğlanları ilə birlikdə Peyğəmbərin(s) hüzuruna gəlib intiqam almaq istədiklərini bildirir. O, yaşca digərlərindən kiçik olduğuna görə sözə başlayarkən həzrət İslamın ictimai qayda-qanunlarına toxunaraq buyurur ki, icazə ver qoy səndən böyüklər danışsınlar. Uzun söz-söhbətdən sonra Peyğəmbər(s) buyurur: «Əgər Abdullahın qatilini tanıyırsınızsa, həqiqətən də onun qatil olduğuna and için, mən onu sizə təhvil verim.»

Abdullahın qohumları bildirdilər ki, xeyr, biz qatili tanımırıq. Həzrət buyurur: «Yəhudilər and içsələr ki, Abdullahı biz öldürməmişik və qatili də tanımırıq, onlara inanarsınızmı?» Cavab verirlər ki, biz yəhudilərin andına da inanmarıq. Bu zaman Peyğəmbər(s) yəhudi başçılarına belə bir məktub göndərilməsini əmr edir ki, sizin ərazinizdən bir müsəlman meyiti aşkar edilib, onun qan bahasını da siz ödəməlisiniz. Yəhudilər həzrətin məktubuna cavab olaraq bildirirlər ki, biz heç kimi öldürməmişik və onu öldürəni də tanımırıq. Peyğəmbər(s) vəziyyətin heç də ürəkaçan olmadığını görüb Abdullahın qan bahasını şəxsən özü ödəyir.[1] Bununla da həzrət münaqişənin qarşısını alır, yəhudilərə də başa salır ki, o, dava-dalaş adamı deyil. Əgər o, adi bir siyasətçi olsaydı, Abdullahın ölümünü bəhanə edib bir qrup yəhudinin həyatına son qoyardı. Lakin Quranın da buyurduğu kimi, o həzrət aləmlərə mərhəmət olaraq göndərilmişdir və bıçaq sümüyə dirənməyincə qılınca əl atmaz.

### *Məsləhətli yalan*

Müsəlmanlar Xeybəri fəth edərkən Həccac ibn Əllat adlı bir tacir də orada idi. O, Peyğəmbərin(s) yəhudilərə göstərdiyi mərhəmətin təsiri altına düşüb İslamı qəbul edir. Onun məkkəlilərdə çoxlu borcu var idi. Borclarını

---

[1] Sireyi ibn Hişam, c-3, s-369-370

geri almaq məqsədilə Məkkəyə gəlir. Borcunu almaq üçün bir plan da hazırlayır. O, Məkkəyə gircək Xeybərin aqibətindən xəbərsiz olan Qüreyş başçıları onun dəvəsini dövrəyə alıb məlumat əldə etməyə çalışırlar. Həccac deyir: «Mühəmməd elə məğlub oldu ki, bu vaxtadək onun kimisini eşitməmisiniz.

Tərəfdarlarından da öldürülənlər öldürüldü, sağ qalanlar da əsir alındı. Özü də əsirlər arasındadır. Xeybər başçıları belə qərara gəlirlər ki, onu Məkkəyə gətirib qüreyşlilərin gözü qarşısında edam etsinlər.»

Həccacın bu yalan məlumatı müşrikləri həddən artıq sevindirir. O, dərhal onu da əlavə edir ki, bu xoş xəbərə görə xahiş edirəm borclarımı tez qaytarın, qoy mən başqalarından qabaq Xeybərə gedib əsirləri alım. Onun yalanına uymuş müşriklər sevincək olub qısa müddət ərzində borclarını ödəyirlər.

Peyğəmbərin(s) müşriklərin arasında yaşayan əmisi Abbas bu xəbərdən bərk narahat olur. Həccacla görüşmək istədikdə Həccac dediklərinin yalan olduğunu qaş-gözlə ona başa salır. O, Məkkədən çıxmazdan qabaq Abbasla görüşüb deyir: «Mən İslamı qəbul etmişəm. Bu planı da borclarımı geri almaqdan ötrü hazırlamışdım. Həqiqət isə budur ki, mən Xeybərdən çıxdığım gün oradakı bütün qalalar müsəlmanlar tərəfindən artıq fəth edilmişdi. Peyğəmbər(s) yəhudi başçılarından Hüyeyy ibn Əxtəbin qızı Səfiyyə ilə evləndi. Mən çıxdıqdan üç gün sonra bu xəbəri bütün camaata çatdır!» Üç gündən sonra Abbas ən gözəl geyimini geyib ən qiymətli ətir vurur, əlinə əsa götürüb Məscidül-hərama gəlir. Kəbəni təvaf edərkən müşriklər onun belə xoşhal olmasından təəccüblənirlər. Axı qardaşı oğlunun başına gələnlərə görə o gərək matəm libası geyəydi! Abbas aşağıdakı sözləri ilə camaatın təəccübünə son qoyur: «Həccacın sizə dediklərinin hamısı yalan imiş. O, borclarını almaqdan ötrü belə plan hazırlayıbmış. O, İslamı qəbul etmişdir və Xeybərdən buraya gələrkən müsəlmanlar ən böyük zəfərə nail olublar. Xeybər yəhudiləri tərksilah edilmiş, bəziləri öldürülmüş, bəziləri də əsir götürülmüşdür.» Qüreyş başçıları bunu eşitdikdə həddən artıq narahat olurlar. Çox çəkmir ki, müsəlmanların Xeybəri fəth etməsi xəbəri qulaqlarına çatır.[1]

[1] Biharul-ənvar, c-21, s-34; Zadul-məad, c-2, s-140

***Fədək bağı***

Fədək Xeybər yaxınlığında yerləşən münbit bir ərazi idi. Mədinədən yüz qırx kilometr aralıda yerləşən bu bağ yəhudilərin Xeybər qalalarından sonrakı ümid yeri olmuşdur. Müsəlmanlar Xeybər, Vadil-qura və Teyma yəhudilərini məğlubiyyətə uğratdıqdan sonra Peyğəmbər(s) Ərəbistan yarımadasında yəhudi təhlükəsini tamamilə aradan qaldırmaqdan ötrü Muhit adlı səhabəni Fədək yəhudilərinin yanına nümayəndə göndərir. Fədək başçısı Yuşə ibn Nun sülhü döyüşdən üstün tutub hər il Fədək məhsulunun tən yarısını Peyğəmbərə ödəməklə İslam bayrağı altında yaşamağı qəbul edir. Əvəzində müsəlmanlar da onların ərazisini qorumağa borclu idilər.

İslam ordusunun döyüşərək ələ keçirdiyi torpaqlar, ərazilər qənimət olaraq bütün müsəlmanlara məxsusdur. Lakin döyüşmədən, ordu yürütmədən əldə edilən ərazilər yalnız Peyğəmbərin(s) özünə, ondan sonra da onun canişini olan məsum imama məxsusdur. Peyğəmbər (və ya imam) həmin ərazini kimə istəsə pay, icarə və s. verə bilər. Eyni zamanda o həzrət həmin ərazinin gəliri ilə yaxın qohumlarının tələbatını ödəyə bilər. Məhz bu baxımdan Peyğəmbər(s) Fədək bağını (yaxud da ondan gələn illik qazancı) qızı Fatiməyə(s. ə) bağışlayır. Faktlardan belə məlum olur ki, Peyğəmbərin(s) bu işdə məqsədi iki şey olub:

1) Peyğəmbər(s) özü dəfələrlə buyurduğu kimi vəfatından sonra müsəlmanlara Əli(ə) başçılıq etməli idi. Belə böyük bir vəzifənin isə külli miqdarda vəsaitə ehtiyacı var idi. Əli(ə) Fədəkdən əldə olunan gəlirlə bu ehtiyacı lazımi şəkildə ödəyə bilərdi. Çox güman ki, xəlifələr bundan duyuq düşüb Peyğəmbərin(s) vəfatından dərhal sonra Fədək bağını həzrətin ailəsindən geri alırlar.

2) Peyğəmbərin(s) şərəfi qorunsun deyə, ailəsi (yeganə qızı Fatimə və onun balaları Həsənlə Hüseyn) onun vəfatından sonra şərəflə yaşamalı, kiməsə möhtac olmamalı idi. Bu səbəbdən də Peyğəmbər(s) Fədəyi qızına bağışlamışdı.

Bütün şiə təfsirçi və hədis alimləri, eləcə də bəzi sünni alimləri bildirirlər ki, «Qohum-əqrəbaya da, miskinə də, (pulu qurtarıb yolda qalan) müsafirə də haqqını ver!»[1] ayəsi nazil olduqda Peyğəmbər qızı

---

[1] İsra-26

Fatiməni çağırtdırıb Fədək bağını ona bağışlayır.[1] Bu hədisi Peyğəmbər səhabəsi Əbu Səid Xidri nəql etmişdir.

Məzhəbindən asılı olmayaraq bütün müsəlmanlar təsdiq edirlər ki, bu ayə Peyğəmbərin(s) qohumları barəsində nazil olmuşdur. O həzrətin ən yaxın qohumu isə sözsüz ki, qızı idi. Hətta Kərbəla faciəsindən sonra imam Zeynül-abidin(ə) Şamda olarkən bir qoca ona: «Özünü tanıtdır!»- dedikdə həzrət onun cavabında məhz bu ayəni oxuyur.

Deməli, bu məsələ bütün müsəlmanlar arasında yayılıbmış. Şamlı qoca təsdiq əlaməti olaraq başını yelləyərək deyir ki, Peyğəmbərlə olan qohumluq münasibətinizə görə Allah-taala o həzrətə sizin haqqınızı ödəməyi əmr buyurmuşdu.[2]

Abbasi xəlifəsi Məmun müəyyən səbəblər üzündən Fədək bağını Fatimə övladlarına qaytarmaq qərarına gəlir. Dövrün tanınmış hədis alimlərindən Abdullah ibn Musaya məktub yazaraq bu işdə ona məsləhət verməsini istəyir. Abdullah xəlifənin cavabında ayənin nazil olma səbəbini göstərən hədisi yazır, Məmun da Fədəyi Fatimə övladlarına qaytarır.[3] O, Mədinə valisinə yazır: «Peyğəmbər(s) Fədək bağını qızı Fatiməyə bağışlamışdı. Bunda heç kimin şübhəsi olmayıb. Heç Fatimə balaları da bu məsələdə mübahisə etməzlər.»[4]

Məmun camaatın şikayətlərini dinləmək üçün divan kürsüsünə əyləşdikdə əlinə gələn ilk məktubu oxuyub görür ki, məktubu yazan şəxs özünü həzrət Fatimənin(s.ə) müdafiəçisi kimi qələmə verib. Bir qədər ağlayıb soruşur ki, o həzrətin müdafiəçisi kimdir? Yaşlı bir kişi ayağa qalxıb özünü təqdim edir. Onların şikayətlə bağlı söhbəti elmi müzakirəyə çevrilir. Axırda qocanın sübutları qarşısında Məmun ağ bayraq qaldıraraq divanın katibinə «Fədək bağının geri qaytarılması haqqında» Mədinə valisinə məktub yazmağı əmr edir. Məktub yazılıb Məmunun xüsusi möhürü ilə möhürləndikdə məclisdə iştirak edən Dibəl bədahətən aşağıdakı beyti deyir:

---

[1] Məcməül-bəyan, c-3, s-411; Şərhi Nəhcül-bəlağə (İbn Əbilhədid), c-16, s-268

[2] Əd-Durrul-mənsur, c-4, s-176

[3] Məcməül-bəyan, c-2, s-411; Fütuhul-büldan, s-46

[4] Şərhi Nəhcül-bəlağə (İbn Əbilhədid), c-16, s-217

Məmunun Fədək bağını Bəni-Haşim övladlarına qaytarılması ilə axır ki, zəmanənin də üzü güldü.[1]

Əslində bu mənbələrin heç birinə ehtiyac yoxdur. Çünki Əmirəl-möminin Əli ibn Əbutalib(ə) Bəsrə valisi Osman ibn Hüneyfə yazdığı məktubda Fədək bağına sahib olduqlarını açıq-aşkar söyləyir. Həzrət buyurur: «Bu dünya malından yalnız Fədək bizim ixtiyarımızda idi. Bəziləri ona da tamah salıb paxıllıq etdi, biz də məsləhət naminə ondan vaz keçdik. Allah necə də gözəl hakimdir!»[2]

Əli(ə) kimi bir şəxsiyyət bu məsələni etiraf etdiyi halda yenə də ona şübhə etməyin yeri varmı?

Peyğəmbərin(s) vəfatından sonra Fatimə(s.ə) siyasi səbəblər üzündən öz qanuni haqqından məhrum edilir. Fatimə öz haqqını qanuni yolla bərpa etmək qərarına gəlir.

Necə də qəribə səslənir! Fədək bağı Fatiməyə məxsus olsa da, birinci xəlifə İslam məhkəmə sisteminə zidd olaraq onun mülkiyyəti barədə şahid tələb edir.

Dünyanın heç bir yerində görünməyib ki, insandan malik olduğu şeyin özününkü olmasına dair şahid tələb edilsin. Fatimə(s.ə.) məcbur qalıb Əli kimi bir şəxsiyyəti və Peyğəmbərin(s) Cənnət qadınlarından olmasına etiraf etdiyi Ümmi Əyməni[3] (Bəlazərinin fikrincə isə Peyğəmbərin(s) köləlikdən azad etdiyi Ribahı[4]) şahid göstərir. Tarixçilər belə hesab edirlər ki, birinci xəlifə axırda məcbur qalıb Fatimənin iddiasını qəbul edir, Fədək bağının ona məxsus olduğunu göstərən yazılı bir sənəd verir.

İbn Əbilhədid yazır: «Şiə sxolastiklərindən olan Əli ibn Nəqiyə dedim ki, axı Fədək bağı elə də böyük olmayıb ki, Fatimənin müxalifləri ona tamah salsınlar. O isə mənim cavabımda dedi: «Xeyr, səhvin var. Oradakı xurma ağacları hazırki Kufənin xurma ağaclarından çox olub. Peyğəmbər xanədanını oradan ona görə məhrum etdilər ki, birdən Əli(ə) onun qazancından xəlifəyə qarşı istifadə edib qiyama əl atardı.

---

[1] Şərhi Nəhcül-bəlağə (İbn Əbilhədid), c-16, s-217

[2] Nəhcül - bəlağə, 45-ci məktub

[3] Əl-İsabə, c-4, s-416

[4] Fütuhul-büldan, s-44

Buna görə də Fatiməni Fədəkdən məhrum etməklə yanaşı, hətta bütün Bəni-Haşim üzvlərini bütün müsəlmanlara verilən qənimət payından da məhrum edirlər.» Məlum məsələdir ki, dolanışığı dalınca gedən insanlar heç vaxt mübarizə aparmaq fikrinə düşməzlər.»[1]

İbn Əbilhədid digər bir yerdə yazır: «Bağdadın Qərb mədrəsəsinin böyük ustadlarından olan Əli ibn Fariqiyə dedim ki, Fatimə öz iddiasında haqq idi? Cavab verdi ki, bəli. Soruşdum: Xəlifə onun düz danışan qadın olduğunu bilirdimi? Cavab verdi ki, əlbəttə bildirdi. Dedim: Bəs nəyə görə onun haqqını (Fədək bağını) özünə qaytarmadı? Ustad gülümsəyərək dedi: «Xəlifə Fatimənin iddiasını düz danışan qadın olduğuna görə qəbul edib ondan şahid istəməsəydi, sabah gəlib ərinin də haqqını xəlifəlik postunu tələb edəcəkdi. Onda xəlifə onu da qəbul edib xəlifə kürsüsünü Əliyə təhvil verməli idi. Çünki, Fatiməni düz danışan qadın kimi qəbul edirdi. Lakin xəlifə bunun qarşısını almaqdan ötrü Fatiməni öz haqqından da məhrum edir.»[2]

Əmirəl-möminin Əlinin(ə) vəfatından sonra Müaviyə Fədək bağını üç nəfər-Mərvan, Əmr ibn Osman və öz oğlu Yezid arasında bölüşdürür. Mərvanin xəlifəliyi dövründə bütün səhmlər ona məxsus idi və o, Fədəyi oğlu Əbdüləzizə, sonuncu da öz oğlu Ömər ibn Əbdüləzizə bağışlayır. O, Bəni-Üməyyə xəlifələri arasında ədalətli olması ilə ad çıxartdığına görə Fədək bağını Fatimə övladlarına qaytarır. Onun vəfatından sonra növbəti xəlifələr Fədəyi yenidən onlardan geri alır və Bəni-Üməyyə hakimiyyətinin sonunadək bir daha qaytarmırlar.

Bəni-Abbas xəlifələrinin hakimiyyəti dövründə Fədək bağı mütəmadi olaraq Fatimə övladlarına qaytarılıb təzədən geri alınırdı. Məsələn, xəlifə Səffah onu (Fatimə balası) Abdullah ibn Həsənə qaytarsa da Mənsur Dəvaniqi geri alır, oğlu Mehdi isə yenidən onu əsl sahiblərinə qaytarır. Sonra Musa və Harun ər-Rəşid siyasi amillər üzündən Fədəyi yenidən geri alırlar. Məmun təntənəli bir məclisdə onu sahiblərinə qaytarır. Məmundan sonra Fədək gah sahiblərinə qaytarılır, gah da onlardan geri alınır. Ümumiyyətlə istər Bəni-Üməyyə, istərsə də

---

[1] Şərhi Nəhcül-bəlağə (İbn Əbilhədid), c-16, s-236
[2] Şərhi Nəhcül-bəlağə (İbn Əbilhədid), c-16, s-284

Bəni-Abbas xəlifələri dövründə Fədək məsələsi iqtisadi məsələdən çox siyasi məsələyə çevrilmişdi.

Raşidi xəlifələrinin Fədəkdən gələn qazanca ehtiyacları olsa da, Bəni-Üməyyə və eləcə də Bəni-Abbas xəlifələrinin o qədər pulu var idi ki, Fədəyin qazancına qətiyyən ehtiyacları yox idi. Bu baxımdan Ömər ibn Əbdüləziz Fədəyi əsl sahiblərinə qaytararkən Bəni-Üməyyə ağsaqqalları onu danlayıb deyirlər ki, sən bu hərəkətinlə ilk iki xəlifəni rüsvay edirsən. Buna görə onu məcbur edirlər ki, Fədəkdən gələn gəliri Fatimə övladları arasında bölüşdürsə də mülkiyyət hüququnu özündə saxlasın.[1]

Fədək bağının Fatimədən(s.ə) alınmasına obyektiv yanaşdıqda məlum olur ki, Peyğəmbərin(s) qızı öz qanuni haqqından sırf siyasi səbəblərə görə məhrum edilmişdir. Bu, elə bir məsələ deyildi ki, xəlifəyə müəmmalı qalsın. Həzrət Fatimə(s.ə) (Peyğəmbərlərdən irs aparılmasını ona irad tutanlara qarşı) öz odlu çıxışında belə buyurur: «Canlı və ədalətli hakim olan Allah kitabı (Quran) buyurur ki, Zəkəriyya Allahdan ona övlad verməsini, həmin övladın həm ondan, həm də Yəqub ailəsindən irs aparmasını diləyir.[2] Həmçinin bildirir ki, Süleyman Davuddan irs aparmışdır.[3] Allah-tala öz kitabında hərəyə çatan payı müəyyən etmiş, bəzi əməlləri vacib buyurmuşdur.»[4] Quran ayələrindən görünür ki, deməli, peyğəmbərlərin övladları onlardan irs apara bilər.

### *Vadil-Quraya yürüş*

Peyğəmbər(s) Xeybəri fəth etməklə kifayətlənməyib digər yəhudi ocağı Vadil-Quraya da yürüş etməyi, oradakı yəhudiləri də zərərsizləşdirməyi lazım bilir. Bir neçə günlük mühasirədən sonra Peyğəmbər(s) Xeybər yəhudiləri ilə bağladığı müqavilənin oxşarını Vadil-Qura yəhudiləri ilə də bağlayaraq bütün Hicazı yəhudi fitnəsindən təmizləyir.

---

[1] Şərhi Nəhcül-bəlağə (İbn Əbilhədid), c-16, s-278
[2] Məryəm-6
[3] Nəml-16
[4] Əl-Ehticac, c-1, s-145

Onları tərksilah etməklə İslam bayrağı altında (yəhudi olaraq) yaşamağa vadar edir.[1]

***Ümrə həccinin qəzası***

Müsəlmanlarla müşriklər arasında bağlanmış Hüdeybiyyə müqaviləsinə əsasən, müqavilə bağlanan tarixdən bir il sonra müsəlmanlar Məkkəyə gəlib üç gün orada qalaraq ümrə həccini yerinə yetirə bilərdilər. Özü də Məkkəyə gələrkən mütləq silahsız olmalı idilər. Müqavilədən tam bir il ötdükdən sonra Peyğəmbər(s) ümrə ziyarətinə getmək istəyənlərin səfərə hazırlaşmasını tapşırır. Bu xəbər bütün müsəlmanlarda, xüsusilə də yeddi il vətəndən uzaq düşmüş, din naminə hər şeyini qurban vermiş mühacirlərdə böyük sevinc hissi yaradır. Gözlərdən sevinc yaşları axır. İndi yeddi illik həsrətə son qoymağın vaxtı gəlib çatmışdı.

Müsəlmanlar həddən artıq sevinirdilər. Keçən il ziyarətə getmək istəyənlərin sayı 1300 nəfər idisə indi artıq bu rəqəm 2000-ə yüksəlmişdi. Onların arasında Peyğəmbəri(s) kölgə kimi izləyən böyük səhabələr var idi. Allah evinin zəvvarları üzləri qurbanlıq əlaməti ilə nişanlanmış altmış baş dəvə də götürmüşdülər.

Peyğəmbər(s) Mədinə məscidində ehram bağlayır. Səhabələr də o həzrətə baxıb orada ehram bağlayırlar. Ehram geymiş iki min zəvvar «ləbbeyk» deyə-deyə Məkkəyə doğru irəliləyir. Bu karvanın əzəməti bir çox müşrikləri İslam mənəviyyatına cəzb edir. Bu səfərin əslində təbliğat xarakteri daşıdığını qeyd etsək, yanılmarıq. Belə ki, onun nəticəsi tezliklə bəhrəsini verir və İslamın ən qatı düşmənlərindən olan, Ühüd döyüşünün qəhrəmanı Xalid ibn Vəlid və müşriklərin bir nömrəli siyasətçisi Əmr ibn As İslamı qəbul edir.

Həzrət Mühəmməd(s) bu səfərdə Qüreyş müşriklərinin dinc oturacaqlarından arxayın deyildi. O, qorxurdu ki, birdən müşriklər müsəlmanları qəfil yaxalayıb müqaviləni pozarlar. Üstəlik müsəlmanların Məkkəyə silahsız girməsi də narahatlığa əsas verirdi. Bu narahatlığa son qoymaq məqsədilə Peyğəmbər(s) sərkərdələrdən birini-

---

[1] Əl-Kamilu fit-tarix, c-2, s-150

Məhəmməd ibn Məsləməni iki yüz nəfərlik bir dəstə ilə karvandan qabaq Məkkəyə doğru göndərir. Həzrət ona tapşırır ki, özləri ilə çoxlu sayda əlavə silah-sursat götürüb Məkkə yaxınlığında yerləşən Mərrüz-zəhranda onu gözləsin.

Müsəlmanların hərəkətini izləyən Qüreyş casusları iki yüz nəfərlik dəstənin xeyli silah-sursatla Mərrüz-zəhranda qərarlaşdığını öyrənib Qüreyş başçılarına məlumat verirlər. Onlar da öz növbəsində Mükriz ibn Həfsi nümayəndə olaraq Peyğəmbərin hüzuruna göndərirlər. Mükriz həzrətə Qüreyş başçılarının etirazını çatdırdıqda Peyğəmbər(s) buyurur: «Nə mən, nə də səhabələrim müqaviləyə zidd olan heç bir iş görməmişik. Hamımız Məkkəyə silahsız daxil olacağıq. Silah-sursat aparmış iki yüz nəfərlik dəstə isə Mərrüz-zəhranda qalacaq və bir addım da irəli gəlməyəcək.» Peyğəmbər(s) son cümləsi ilə Qüreyş nümayəndəsinə eşitdirir ki, əgər müşriklər bizə hücum etmək fikrindədirlərsə, biz də sakit oturmayacağıq. Onlar bizim silahsız olmağımızdan istifadə etməyə çalışmasınlar. Hücum etmək fikirləri olsa, onda iki yüz nəfərlik dəstə də köməyimizə gəlib bizə lazimi silah-sursatı çatdıracaq. Qüreyş başçıları Peyğəmbərin(s) bu uzaqgörənliyini görüb Məkkə şəhərinin qapılarını müsəlmanların üzünə açır, özləri isə həzrət və səhabələri ilə üzləşməsin və müsəlmanların bütün hərəkətlərinə nəzarət edə bilsin deyə, şəhəri tərk edib ətraf dağlara çəkilirlər.

***Yeddi illik həsrətin sonu***

Peyğəmbər(s) öz dəvəsinə mindiyi halda ləbbeyk sədası bütün ərazini bürümüş iki min nəfərin müşayiəti ilə Məkkəyə daxil olur. Bu azsaylı cəmiyyətin ürəyəyatan ləbbeyk sədası o qədər cəlbedici idi ki, bütün məkkəliləri təsirləndirir və onlarda müsəlmanlara qarşı xüsusi rəğbət yaradır. Eyni zamanda müsəlmanlar arasındakı birlik kafirləri qorxuya salır. Müsəlmanlar ləbbeyk deyib qurtardıqdan sonra Abdullah ibn Rəvahə Peyğəmbərin(s) dəvəsinin ovsarından tutub uca səslə aşağıdakı beytləri deyir:

Ey kafirlər, Peyğəmbərin yolunu açın və bilin ki, xeyir-bərəkət onu qəbul etməkdədir.

İlahi, mən onun dediklərini qəbul edir və Sənin əmrinə əsasən ona iman gətirmişəm.[1]

Peyğəmbər(s) elə dəvədə ikən Kəbəni təvaf edir. Sonra da Abdullah ibn Rəvahəyə tapşırır ki, məlahətli səsi ilə aşağıdakı cümlələri desin, camaat da onunla birlikdə təkrarlasın: «Allahdan başqa tanrı yoxdur, o, təkdir, yeganədir. (Müsəlmanların tezliklə Kəbəni ziyarət edəcəklərinə dair verdiyi) vədəsinə əməl, bəndəsinə (Peyğəmbərə) kömək, İslam ordusunu üstün, küfr və şirk ordusunu isə məğlub etdi.»

Həmin gün Məkkədəki bütün müqəddəs ocaqlar – Kəbə, Səfa və Mərvə müsəlmanların ixtiyarında idi.

Uzun illərdən bəri şirk mərkəzi hesab edilən bir yerdə belə dini şüarlar səsləndirmək müşrik başçılarını təsəvvüredilməz dərəcədə sarsıdır və onlar Mühəmmədin(s) tezliklə bütün Ərəbistan yarımadasında qalib gələcəyinə əmin olurlar.

Günorta vaxtı yetişir Peyğəmbər(s) başda olmaqla hamı zöhr namazını qılmalı idi. Sözsüz ki, bundan ötrü azan verilməli idi. Müsəlman olduğuna görə bir neçə il işgəncələrə məruz qaldığı bir şəhərdə indi Peyğəmbərin(s) əmri ilə Bilal Kəbənin üstünə qalxıb əllərini qulaqlarının üstünə qoyaraq azan çəkməyə başlayır. Necə də maraqlı səhnədir! Allahın təkliyini və Mühəmmədin(s) peyğəmbərliyinin etiraf edilməsi böyük cinayət sayılan mühitdə indi uca səslə Allah tək, şəriksiz və Mühəmmədin də Onun elçisi olduğu səsləndirilir.

Hər cümləsini eşidərkən mənəvi əzab çəkən müşriklərin qərarı yox idi. Gör onlar necə narahat idilər ki, Xalid ibn Üseydlə Səfvan ibn Üməyyə deyir: «Allaha şükürlər olsun ki, ata-babalarımız bu qaradərili qulun səsini eşitmədən ölüb gediblər.» Süheyl ibn Əmr Bilalın azan dediyini eşitdikdə üzünü dəsmalla örtür. O, bunu Bilalın səsindən narahat olduğuna görə deyil, azandakı cümlələrin öz əqidələri ilə uyğun gəlmədiyinə və onlara mənəvi əzab verdiyinə görə edir.

Kəbəni təvaf etdikdən sonra Peyğəmbər(s), ardınca da müsəlmanlar Səfa və Mərvə təpələri arasında səy etməyə (yeddi dəfə o tərəf-bu tərəfə getməyə) başlayırlar. Münafiqlər və müşriklər şayiə yayırlar ki,

---

[1] Sireyi ibn Hişam, c-2, s-37

Mədinənin əlverişli havası indi Məkkədə müsəlmanları yorub, buna görə də yavaş-yavaş hərəkət edirlər. Bunu eşidən Peyğəmbər(s) bir qədər məsafəni iti addımlarla gedir, müsəlmanlar da ona baxıb iti gedirlər. (Hazırda həmin yerə yaşıl işıqlarla əlamət qoyulmuşdur.) Səy əməli başa çatdıqdan sonra özləri ilə gətirdikləri qurbanlıq dəvələri kəsir və başlarının tükündən azacıq azaltmaqla ehramdan çıxırlar. Bu zaman Peyğəmbər(s) Məhəmməd ibn Məsləmənin başçılıq etdiyi iki yüz nəfərlik dəstə də ziyarət etsin deyə, iki yüz nəfəri onları əvəz etməyə göndərir.

Ümrə ziyarəti başa çatır. Mühacirlər Məkkədəki evlərinə gedib qohum-əqrəbaları ilə görüşürlər. Onlar ənsardan olan bəzi adamları da özləri ilə qonaq aparırlar ki, heç olmasa onların neçə illik əziyyətinin bir qədərini ödəmiş olsunlar.

Müsəlmanlarla bağlı möhtəşəm görüntülər Məkkə camaatını həddən artıq təsirləndirir. Qüreyş başçıları Peyğəmbər və səhabələrinin Məkkədə daha çox qalacaqları təqdirdə müşriklərin iradəsinin zəifləyəcəyini və müsəlmanlara qarşı rəğbət yaranacağını anlayıb Hüveytib adlı bir nəfəri Peyğəmbərin(s) yanına göndərirlər. Qüreyş nümayəndəsi həzrətə deyir: «Məkkədə qalmağınız üçün müqavilədə nəzərdə tutulmuş müddət başa çatdı. İndi isə bizim yurdumuzu dərhal tərk edin!» Bəzi səhabələr onun bu sərtliyindən əsəbləşsə də, Peyğəmbər(s) müqaviləni pozacaq bir şəxsiyyət deyildi. Buna görə də dərhal hərəkət əmri verir.

Abbasın baldızı Meymunə müsəlmanların əzəmətinə heyran qaldığı üçün bacısının əri (Peyğəmbərin əmisi) Abbasa bildirir ki, mən Peyğəmbərə ərə getməyi özümə şərəf bilərəm. Abbas onun sözünü qardaşı oğluna çatdırdıqda həzrət qəbul edir. Beləliklə, Qüreyşlə əlaqələr daha da möhkəmləndirilir.

Aralarında böyük yaş fərqinə baxmayaraq gənc bir qızın yaşlı kişiyə ərə getməsi, doğurdan da onun mənəvi nüfuzundan xəbər verir. Peyğəmbər(s) Qüreyş nümayəndəsindən toy mərasimində Qüreyş başçıları da iştirak etsin deyə, mərasimin Məkkədə keçirilməsini istəyir. Ancaq o razi olmayıb deyir ki, bizə sənin verəcəyin yemək lazım deyil.

Peyğəmbər(s) bütün müsəlmanların günün birinci yarısında Məkkəni tərk etməsini tapşırır. Yalnız öz nökəri Əbu Rafeni saxlayır ki, axşam Meymunəni gətirsin.[1]

Müsəlmanlar Məkkəni tərk etdikdən sonra İslam düşmənləri Meymunənin üstünə düşüb onu danlasalar da bir xeyri olmur. O, Peyğəmbərə(s) elə bağlanmışdı ki, ona ərə getmək fikrindən daşınmır.

Beləliklə, Allah-taalanın bir il öncə Peyğəmbərə(s) yuxuda verdiyi vədə gerçəkləşir və bununla əlaqədar olaraq bir qədər sonra (hətta bir ildən də az) Məkkənin fəth ediləcəyini də çatdıran aşağıdakı ayə nazil olur: ***«And olsun ki, Allah-taala Öz Peyğəmbərinin röyasının çin olduğunu təstiq etdi. (Ey möminlər!) Siz, əmin-amanlıqla (bəziniz) başınızı qırxdırmış, (bəziniz saçınızı) qısaltmış halda və (müşriklərdən) qorxmadan Məscidül-hərama daxil olacaqsınız. (Allah) sizin bilmədiklərinizi bilir. O bundan əlavə (sizə) tezliklə bir qələbə (Məkkənin fəthini) də bəxş edəcəkdir.»***[2]

---

[1] Sireyi İbn Hişam, c-3, s-12-14; Tarixul-xəmis, c-2, s-62-65

[2] Fəth-27

## HİCRƏTİN SƏKKİZİNCİ İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR

Yeddi illik ayrılıqdan sonra məhz hicrətin yeddinci ilində mühacirlər yenidən Məkkəyə daxil olmağa müvəffəq olurlar. Peyğəmbərin(s) iki minlik dəstə ilə Məkkəyə ümrə həccinə getməsi Xalid ibn Vəlid, Əmr ibn As və Osman ibn Təlhə kimi Qüreyş sərkərdələrinin qəlbində İslama qarşı məhəbbət yaradır. Bununla da hicrətin yeddinci ili başa çatır.

Hicrətin səkkizinci ilinin əvvəllərində yuxarıda adı çəkilən sərkərdələr Məkkə müşriklərinin çökməkdə olan hakimiyyətinə üz çevirib Mədinəyə gələrək İslamı qəbul edirlər.[1] Bəzi mənbələrdə Xalid ibn Vəlid, ya da Əmr ibn Asın hicrətin beşinci ilində müsəlman olduğu göstərilir. Ancaq həqiqət heç də belə deyil. Çünki Xalid ibn Vəlid hicrətin altıncı ilində baş tutmuş Hüdeybiyyə sülhündə Qüreyş ordusunun bir dəstəsinə başçılıq etmişdir. Deməli, o, hicrətin beşinci ilində hələ iman gətirməyibmiş. Əmr As da Xalidlə demək olar eyni vaxta İslamı qəbul etmişdir.

Səkkizinci ilin əvvəllərində artıq Hicazın əksər bölgələrində nisbi sakitlik hökm sürürdü. İslamın nidası bir çox yerlərə gedib çatmışdı. Daha Şimaldan yəhudilərin, Cənubdan da Qüreyşin hücumları müsəlmanları qorxutmurdu. Buna görə də Peyğəmbər(s) belə qərara gəlir ki, Şam sərhədləri istiqamətinə elçi göndərərək İslamın haqq çağırışını Bizans imperiyasına tabe bölgələrə də çatdırsın. Bu məqsədlə o həzrət Haris ibn Ümeyrə məktub verib Şam hökmdarının sarayına göndərir. O vaxt Şam hökmdarı Haris ibn Əbu Şimr Qəssani idi. Peyğəmbərin(s) qasidi Şam sərhədlərini keçən kimi, o ərazinin hakimi Şərhəbil onun gəlişindən xəbər tutur. Onun əmri ilə qasid Mutə kəndində saxlanılıb hüzuruna gətirilir. Haris ibn Ümeyrin üzərinə baxış keçirildikdən sonra o, Peyğəmbərin(s) məktubunun onda olduğunu etiraf edir. Dünyanın hər bir yerində qasidin toxunulmazlıq hüququ

[1] Ət-Təbəqatul-kubra, c-4, s-251-261

olsa da Şərhəbil buna məhəl qoymayıb Peyğəmbərin(s) qasidini öldürtdürür.

Peyğəmbər(s) Şərhəbilin bu hərəkətindən xəbər tutduqda çox narahat olur. Bu haqda müsəlmanları da xəbərdar edərək Haris ibn Ümeyrin intiqamını almaq məqsədilə onları səfərbər edir.

Peyğəmbərin(s) qasidinin qətlə yetirilməsi ilə eyni vaxtda daha bir acınacaqlı hadisə baş verir və bu, həzrətin İslam təbliğatçılarının fəaliyyətinə mane olan Şam bölgəsinin əhalisini cəzalandırmaq fikrini daha da ciddiləşdirir.

Belə ki, hicrətin səkkizinci ilinin rəbiül-əvvəl ayında Kəb ibn Ümeyr Qifari, Peyğəmbərin(s) göstərişinə əsasən on beş nəfərlik təbliğat qrupu ilə Vadil-quranın arxa tərəfində yerləşən Zutu-ətlah adlı məntəqəyə getməli olur. Müsəlman təbliğatçıları qeyd olunan yerə gəlib əhalisini İslama dəvət etdikdə camaatın etirazı ilə qarşılaşırlar. Hətta yerli əhali təbliğatçıların üstünə hücum da çəkir. Müsəlmanlar bacardığı qədər özlərini müdafiə etsələr də axırda hamısı şəhid olur. Yalnız bir nəfər sağ qalır. O da yaralı vəziyyətdə ölülərin arasında yıxılıb qalır. Gecə yarısı özünü toplayıb Mədinəyə gələrək baş verənləri Peyğəmbərə çatdırır.

Günahsız qasidlə təbliğat qrupunun öldürülməsi cəmadil-əvvəl ayında cihad əmrinin verilməsi ilə nəticələnir. Kafirlərə qarşı üç min nəfərlik müsəlman ordusu hazır vəziyyətə gətirilir.[1] Peyğəmbər(s) şəxsən özü ordunun qarşısında dayanıb buyurur: «İndi İslam qasidinin (Haris ibn Ümeyrin) öldürüldüyü torpağa gedirsiniz. Gedin oranın əhalisini bir daha İslama dəvət edin. Əgər qəbul etsələr, intiqam fikrindən daşının, əks təqdirdə Allahdan kömək diləyib onlara qarşı vuruşun.»

Ey müsəlman döyüşçüləri! Allaha xatir cihad edin və Şamdakı düşmənlərinizi etdikləri işə görə cəzalandırın. Cəmiyyətdən uzaqlaşıb məbədlərdə gün keçirən rahib və rahibələrə toxunmayın. Şeytan yuvalarını bu qılınclarınızla dağıdın. Qadın, uşaq və yaşlılara toxunmayın. Heç bir evi uçurmayın, heç bir ağacı kəsməyin![2]

---

[1] Ət-Təbəqatul-kubra, c-2, s-128

[2] Məğazi Vaqidi, c-2, s-557-558

Ey müsəlman döyüşçüləri! Orduya əmim oğlu Cəfər ibn Əbutalib başçılıq edəcək. Onun başına bir iş gələrsə, bayrağı Zeyd ibn Harisə tutacaq, əgər ona da bir şey olarsa, onda orduya Abdullah ibn Rəvahə rəhbərlik edəcək. Ondan sonra isə özünüz bir başçı seçərsiniz.

Peyğəmbər(s) sözlərini başa çatdıran kimi hərəkət əmri verilir. Həzrət ordunu Səniyyətül-vida ərazisinə qədər müşayiət edib oradan ayrılır. Həzrətlə birlikdə geri dönənlər İslam mücahidləri üçün dua edib deyirlər: «Allah düşmənin şərrini sizdən uzaq eləsin! Sizi sağ-salamat, çoxlu qənimətlə geri qaytarsın!» Ordunun üçüncü komandanı seçilmiş Abdullah ibn Rəvahə isə cavab olaraq aşağıdakı beyti deyir:

Mən Allahdan bağışlanmağı diləyir, qan damcılayan biləklərin qılınc zərbələrini arzulayıram.[1]

Bu beyt Abdullah ibn Rəvahənin Allah yolunda şəhid olmağa nə dərəcədə meyilli olduğunu göstərir. Bu zaman müsəlmanlar Abdullahın ağladığını görürlər. Səbəbini soruşduqda belə cavab verir: «Mənim dünya ilə qətiyyən əlaqəm yoxdur. Ancaq Peyğəmbər(s) buyurdu ki: «Sizdən belə bir kəs olmaz, oraya (Cəhənnəmə) daxil olmasın. Bu, Rəbbinin (əzəldən) buyurduğu vacib bir hökmdür.»[2] Deməli, mənim Cəhənnəmə gedəcəyimdə şübhə yoxdur, ancaq oraya girdikdən sonra oradan çıxıb-çıxmayacağım məlum deyil. ( Ağlamağımın da səbəbi budur ).»[3]

Peyğəmbərin(s) orduya ilk olaraq kimi başçı təyin etməsi tarixçilər arasında kiçik mübahisəyə səbəb olmuşdur. Bəziləri belə hesab edirlər ki, orduya rəhbərlik etmək öncə Zeyd ibn Harisəyə, onun başına bir iş gələcəyi təqdirdə isə ardıcıl olaraq Cəfərlə Abdullaha tapşırılır. Lakin şiə tədqiqatçılarının fikrincə Peyğəmbər(s) Cəfər ibn Əbutalibi, ondan sonra isə ardıcıl olaraq Zeydlə Abdullahı başçı təyin edir. Görəsən bu iki fikirdən hansı həqiqətə uyğun gəlir? Bunu öyrənməyin iki yolu vardır.

1) Zeyd ibn Harisənin cəmiyyətdəki mövqeyi, təqvası, elmi Cəfərlə eyni səviyyədə deyildi. İbn Əsir, Cəfər barədə yazır: «Cəfər əxlaq, boy-buxun, zahiri görkəmi baxımından Peyğəmbərə(s) oxşayırdı. O, Əlidən az sonra iman gətirmişdir. Bir gün Əbutalib oğlu Əlinin Peyğəmbərin(s)

[1] Biharul-ənvar, c-21, s-60; ət-Təbəqatul-kubra, c-2, s-128
[2] Məryəm-71
[3] Sireyi İbn Hişam, c-2, s-374

sağ tərəfində durub namaz qıldığını gördükdə digər oğlu Cəfərə deyir ki, sən də onun (Peyğəmbərin) sol tərəfində namaz qıl!

Cəfər dinini qorumaq məqsədilə yurd-yuvasını atıb Həbəşistana hicrət etmiş dəstənin başçısı idi. O, güclü məntiqi ilə, Qurandan İsa və anası Məryəm haqqında bir neçə ayə oxumaqla Həbəşistan hökmdarı Nəcaşidə mühacirlərə qarşı rəğbət və müsəlmanları Məkkəyə qaytarmaq məqsədilə Nəcaşinin sarayına gəlmiş Qüreyş nümayəndələrinin saraydan qovulmasına şərait yaradır.»[1]

Cəfər elə bir şəxsiyyət idi ki, müsəlmanlar Xeybər döyüşündə olarkən o, hicrətdən qayıtmış, Peyğəmbər(s) şəxsən özü on altı addım onun qarşısına çıxmış, onu qucaqlayıb alnından öpmüş, sevindiyindən ağlamış və ona: «Heç bilmirəm hansına sevinim? Sənin gəlişinəmi, yoxsa qardaşın Əlinin qəhrəmanlığı nəticəsində Xeybərin fəthinə?»-deyə buyurmuşdu.

Cəfər şəhid olduqdan sonra qardaşı Əli(ə) onun şücaətinə toxunmuşdur. Əli(ə) xəlifə olan zaman Əmr ibn Asın Müaviyəyə beyət etdiyini və Əliyə qalib gələcəkləri təqdirdə Misir hökumətinin Əmr ibn Asın ixtiyarına veriləcəyinə dair razılığa gəldiklərini eşitdikdə buyurur ki, əmim Həmzə ilə qardaşım Cəfər sağ olsaydı, çoxdan mənim ulduzum parlamışdı.

Cəfər bu özəlliklərə malik olduğu halda necə ola bilər ki, o qala-qala Peyğəmbər(s) Zeydi ondan qabaq ordu başçısı təyin etsin?

2) Adı çəkilmiş sərkərdələrin şəhid olması ilə bağlı tanınmış müsəlman şairlərinin yazdığı şeirlər də ilk olaraq Cəfərin ordu başçısı təyin edildiyindən xəbər verir. İslam sərkərdələrinin şəhid olması xəbəri yetişdikdə Həssan ibn Sabit yazdığı şeirdə deyir:

Mutə döyüşündə Cəfər, Zeyd və Abdullah kimi sərkərdələr Allahın rəhmətinə qərq oldular.

Onlar bir-birinin ardınca ölümün qucağına getdilər.

İbn Hişam Həssan ibn Sabitin şeirinin bütün beyitlərini qeyd etmişdir.

Kəb ibn Malikin Mutə şəhidlərinin şəninə yazdığı qəsidə Cəfərin ilk ordu başçısı olduğuna tam aydınlıq gətirir.

Peyğəmbərin(s) ilk olaraq Cəfəri orduya başçı təyin etdiyinin şahidi olmuş şair deyir:

---

[1] Usdul-qabə, c-1, s-287

Siz də xatırlayırsınız ki, müsəlman mücahidlər ilk ordu başçısı Cəfərin bayrağı altında cihada getdilər.

Mutə döyüşü ərəfəsində, ya da döyüşdən dərhal sonra yazılmış və təhrifdən də uzaq qalmış bu şeirlər göstərir ki, bəzi mənbələrdə qeyd olunanlar həqiqətə uyğun deyil. Bunları nəql edən hədis adamları müəyyən səbəblər üzündən bu şəkildə nəql etmiş tarixçilər də heç araşdırmadan onları öz kitablarında yerləşdirmişlər. Təəccüblüsü odur ki, İbn Hişam bu şer və qəsidələri öz kitabında qeyd etdiyi halda yenə də Cəfəri Zeyddən sonrakı ordu başçısı hesab edir.[1]

***Mutə döyüşü***

Bizans imperiyasında İranla gedən mütəmadi döyüşlər nəticəsində hərc-mərclik hökm sürürdü. Dəfələrlə İran ordusuna qalib gəlmiş bizanslılar bir neçə dəfə qələbə əldə etmiş müsəlman döyüşçüləri haqqında da çox şey eşitmişdilər. Buna görə də Bizans imperatoru Herakl, İslam ordusunun hərəkətə keçdiyini eşitdikdə Şam hökmdarının köməyi ilə çox böyük bir ordu təşkil edir. Təkcə Şam valilərindən olan Şərhəbil yüz minlik ordu çıxarır. Buna baxmayaraq imperator da əlavə yüz min döyüşçü ilə Bilqa şəhərinin Məab məntəqəsində mövqe seçir. Lazım gələcəyi təqdirdə o, ikinci qüvvə ilə köməyə çalışacaqdı.[2]

Üç min nəfərlik İslam ordusuna qarşı bu böyüklükdə ordu çıxarmağın səbəbi Bizanslıların müsəlmanların qələbələri, döyüşkən olmaları haqqında eşitdikləri məlumatlar idi. Lakin üç minlik ordu nə qədər güclü olsa belə, onlara qarşı həmin ordunun onda birini çıxarmaq kifayət edərdi. İki ordunun döyüş təcrübəsi, lazımı şəraitə malik olması baxımından da onları müqayisə etmək olmaz. Çünki Bizanslılar İranlılarla döyüşlərdə kifayət qədər təcrübə toplamışdılar, gənc İslam ordusu isə döyüş taktikalarını təzə-təzə öyrənirdi. İki ordunun malik olduğu döyüş sursatını isə ümumiyyətlə, müqayisə etməyə dəyməz. Digər tərəfdən onu da nəzərə almaq lazımdır ki, İslam ordusu bu döyüşdə hücum edən tərəf sayılırdı və məntəqəni lazımı şəkildə tanımırdı.

[1] Sireyi İbn Hişam, c-2, s-384-387

[2] Məğazi Vaqidi, c-2, s-760; Sireyi İbn Hişam, c-2, s-375

Bizanslılar isə öz yerlərində olduğuna görə əraziyə kifayət qədər bələd və lazımı şəraitə malik idilər. Bütün bunlara rəğmən İslam ordusunun sərkərdələri döyüşü qaçmaqdan üstün tutub mübarizə aparırlar.

Müsəlmanlar Şam torpaqlarına daxil olduqdan sonra Bizanslıların mübarizəyə tam hazır olduğunu eşitcək dərhal döyüş taktikasını müzakirə etməyə başlayırlar. Bəziləri belə təklif edir ki, qasid göndərərək Peyğəmbəri(s) hadisədən xəbərdar edib ondan məsləhət alsınlar. Demək olar ki, hamı bu fikirlə razılaşdığı bir məqamda (Mədinədən çıxarkən Allahdan şəhid olmasını diləmiş) Abdullah ibn Rəvahə odlu bir çıxış edərək deyir: «Allaha and olsun ki, biz heç vaxt düşmənlə silah-sursatımızın çox olmasına görə döyüşməmişik. Bədr və Ühüddə sayımız da, silah-sursatımız da, miniyimiz də indikindən qat-qat az idi. Biz Allaha olan imanımız sayəsində düşmənə qarşı mübarizə aparmışıq. Qalxın Allah yolunda cihad edin! Bizi iki aqibətdən biri gözləyir. Ya onlara qalib gələcəyik, bu, Allahın və Peyğəmbərin verdiyi vəddir və onun vədəsində yalan ola bilməz, ya da şəhid olacağıq ki, onda da öz qardaşlarımıza qovuşacağıq.»

Abdullah ibn Rəvahənin sözlərindən ruhlanan mücahidlər öz yollarına davam edib Şarif adlı yerdə düşmən qoşunu ilə rastlaşırlar. Lakin müəyyən taktiki səbəblərə görə İslam ordusu bir qədər geriləyib Mutə məntəqəsində mövqe seçir. Orduya başçılıq edən Cəfər ibn Əbutalib mücahidləri müxtəlif dəstələrə bölüb hərəyə bir başçı təyin edir.

Təkbətək döyüş başlayır. Cəfər İslam bayrağını əlində tutaraq öz döyüşçülərinə məsləhətlərini verməli, eyni zamanda özü də vuruşmalı, düşmən hücumlarını da dəf etməli idi. Cəfərin döyüş vaxtı oxuduğu rəcəzlər onun ruh yüksəkliyindən, haqq uğrunda mübarizə istəyindən xəbər verirdi. Düşmənə hücum edərkən deyirdi: «Vədə verilmiş Cənnətin bu qədər yaxın olduğuna xoşhalam. Orada necə də gözəl nemətlər vardır! Eyni zamanda tövhid dinini qəbul etməyən Bizanslıların həlak olmasına da az qalıb. Onlarla üzləşən kimi qılıncımı başlarına endirəcəyəm.»[1]

Cəfər ibn Əbutalib düşmənə hücum edərək böyük həvəslə vuruşur. Düşmənin onu mühasirəyə aldığını gördükdə şəhid olacağını qət edir.

---

[1] Sireyi İbn Hişam, c-2, s-378

Düşmən onun atından istifadə etməsin və onlara dünyadan əl üzdüyünü başa salsın deyə, atdan enib heyvana güclü bir zərbə vuraraq onu yararsız hala salır. Döyüşün qızğın çağında Cəfərin sağ əli biləkdən kəsilir. Peyğəmbərin(s) verdiyi bayrağın yerə düşməməsi üçün Cəfər bayrağı sol əlinə alır. Sol əli də kəsildikdə bayrağı dirsəkləri ilə tutur. Axırda səksəndən çox yara alaraq şəhid olur.

Zeyd ibn Harisə orduya başçılıq etməyə başlayır. O, bayrağı çiyninə alaraq misli görünməmiş bir rəşadətlə döyüşməyə başlayır. Nəhayət, o da nizə zərbələri altında canını tapşırır. Onun ardınca Abdullah ibn Rəvahə bayrağı əlinə alaraq rəcəz oxuya-oxuya döyüşməyə başlayır. Döyüşün gedişatında Abdullah möhkəm acır. Döyüşçülər ona bir qədər yemək verirlər. Yeməyi təzəcə ağzına qoymuşdu ki, düşmən hücuma keçir. Abdullah dərhal yeməyi bir kənara qoyub düşməni qarşılayır, xeyli döyüşdükdən sonra şəhid olur.

Peyğəmbərin(s) ardıcıl olaraq təyin etdiyi üç ordu başçısının üçü də şəhid olur. İndi müsəlmanlar özləri yeni bir başçı təyin etməli idilər.

Bu zaman Sabit ibn Ərqəm İslamın yerə düşmüş bayrağını götürüb deyir ki, ay müsəlmanlar, gəlin özümüzə bir başçı təyin edək. Hamı bir ağızdan onun özünün başçı olmasını istəsə də Sabit deyir ki, mən heç vaxt buna razı olmaram, başqasını seçin. Buna görə də İslamı təzəcə qəbul etmiş Xalid ibn Vəlid ordu başçısı seçilir.

Xalid ibn Vəlid orduya başçı seçilərkən çox çətin anlar idi. Müsəlman ordusunda vahimə hökm sürürdü. Lakin yeni sərkərdənin taktiki gedişi vəziyyəti düzəldir. Xalid o vaxtadək döyüşlərdə istifadə edilməmiş bir plan hazırlayır. Belə ki, gecə yarısı ordunun sağ cinahı ilə sol cinahının, ön cəhbə ilə arxa cəbhənin yerini dəyişir. Xeyli döyüşçünün də uzağa gedib səhər açıldıqda «La ilahə illəllah» şüarını deyə-deyə yenidən müsəlmanlara qoşulmasını tapşırır ki, qoy düşmən əlavə qüvvənin gəldiyini zənn etsin. Xoşbəxtlikdən düşmən ordusu elə belə də fikirləşir. Onlar bir-birinə deyirlər ki, bu ordu əlavə qüvvə gəlmədən belə vuruşurdusa, görək yardımçı qüvvə yetişdikdən sonra necə döyüşəcək.

Bizans ordusunun hücumlarının səngiməsi müsəlmanların geri qayıtmasına əla fürsət yaradır. Müsəlmanların da ən böyük uğuru məhz

bu böyük ordu ilə bir, ya da üç gün döyüşdükdən sonra sağ-salamat geri dönməsi olur. Yeni sərkərdə Xalid ibn Vəlidin tətbiq etdiyi yeni taktiki gediş müsəlmanları ölümdən qurtardığına görə təqdirəlayiqdir.[1]

Mutə döyüşündə Bizans ordusunun da başçısı müsəlmanlar tərəfindən qətlə yetirilir.[2]

### *İslam ordusunun Mədinəyə dönüşü*

İslam ordusu hələ Mədinəyə qayıtmazdan qabaq döyüş və müsəlmanların geriləməsi barədə şəhərə müəyyən məlumatlar gəlib çatmışdır. Mücahidlər Mədinəyə çatdıqda onları qarşılamağa xeyli adam gəlmişdi. Xalid ibn Vəlidin tətbiq etdiyi taktika ağıllı və məntiqli çıxış yolu olsa da, müsəlmanların qələbə ruhiyyəsinə zidd olduğundan ordunun geriləməsi yaxşı qarşılanmır. Buna görə də onları qarşılamağa gələnlər: «Ey fərarilər, nə üçün döyüşdən qaçıb cihad etmədiniz» kimi sözlər deyir, döyüşçülərin başına kül səpirdilər. Döyüşçülərə qarşı camaatda elə pis münasibət yaranmışdı ki, döyüşdə iştirak edənlərin çoxu bir neçə gün evdən çıxmayıb aranın sakitləşməsini gözləyirdi. Evdən çıxdıqda camaat onları barmaqla göstərib: «Bu da döyüşdən qaçanlardandır»-deyirdi.[3]

Mədinədə qalmış müsəlmanların döyüşdə haqlı olaraq geriləmiş orduya münasibəti Allaha və axirət gününə olan böyük inamdan irəli gəlir. Gör onlar Allaha və axirətə necə inanırlarmış ki, Allah yolunda şəhid olmağı bu cür geriləməkdən üstün tuturlarmış.

### *Peyğəmbər(s) Cəfərin matəmində*

Peyğəmbər(s) əmisi oğlu Cəfər ibn Əbutalibin(ə) şəhid olduğunu eşitdikdə möhkəm ağlayır. Cəfərin həyat yoldaşı Əsma bint Ümeysi hadisədən xəbərdar etmək məqsədilə onların evinə getdikdə Əsmaya müraciət edərək soruşur ki, mənim balalarım haradadır? Əsma Cəfərin oğlanları Abdullah, Ovn və Məhəmmədi həzrətin hüzuruna gətirir. O, Peyğəmbərin(s) onun balaları ilə davranışından anlayır ki, həyat yoldaşı

---

[1] Məğazi Vaqidi, c-2, s-763

[2] Sireyi İbn Hişam, c-2, s-381-389

[3] Sireyi İbn Hişam, c-2, s-382-383; Sireyi Hələbi, c-2, s-79

şəhid olub. Məsələni dəqiqləşdirmək üçün həzrətə deyir ki, balalarımla yetimlər kimi davranırsınız, yoxsa uşaqlarım yetim qalıb? Bu zaman Peyğəmbər(s) hönkürtü ilə ağlamağa başlayır. Həzrət elə ağlayırdı ki, göz yaşları mübarək saqqalından yerə süzülürdü. Sonra qızı Fatiməyə yemək hazırlamağı tapşırır. Həzrət üç gün Cəfərin ailəsinə yemək verir. Cəfərlə Zeydin dağı həmişəlik olaraq Peyğəmbərin(s) ürəyində qalır. Həzrət nə vaxt evə girərdisə, onları yad edib ağlayardı.[1]

***Zatus-səlasil döyüşü***

Məlum olduğu kimi Peyğəmbər(s) Mədinəyə hicrət etdityi gündən etibarən İslam düşmənlərinin fəaliyyəti haqqında məlumat əldə etmək məqsədilə ətrafa kəşfiyyat dəstələri yollayır, bu yolla bir çox təhlükələrin qarşısını yerindəcə alırdı. Müsəlmanların Ühüd döyüşündə düşmən Mədinəyə çatmazdan qabaq şəhərdən çıxmaları və yaxud Xəndək döyüşündə kafirlərin gəlişindən qabaq Mədinə ətrafında başdan-başa Xəndək qazılması məhz Peyğəmbərin(s) bu hərəkətinin nəticəsi idi. Əgər o həzrət kəşfiyyatçılar göndərib düşmən barədə vaxtında məlumat əldə etməsəydi, heç bir uğur da qazana bilməzdi. Bu baxımdan Zatus-səlasil döyüşü də istisna olunmur. Belə ki, lazımı vaxtda əldə edilən məlumat nəticəsində İslam böyük bir təhlükəni adlayır. Əks təqdirdə İslama dəyəcək ziyanı aradan qaldırmaq olmayacaqdı.

Peyğəmbərin(s) kəşfiyyata göndərdiyi dəstə məlumat çatdırır ki, «Yabis» vadisində minlərlə insan birləşib İslamı məhv etmək qərarına gəliblər. Onlar söz veriblər ki, ya bu yolda öləcək, ya da Mühəmmədlə(s) böyük qəhrəman Əlini qətlə yetirəcəklər.

Əli ibn İbrahim Qummi yazır: «Bu barədə Peyğəmbərə(s) Cəbrail məlumat verir.»[2] Lakin böyük alim Şeyx Mufid belə hesab edir ki, məlumatı Peyğəmbərə(s) müsəlmanlardan biri çatdırmış, düşmənin toplandığı yerin Vadir-rəml olduğunu və gecə ikən Mədinəyə hücum etmək niyyətində olduqlarını bildirmişdir.[3]

---

[1] Biharul-ənvar, c-21, s-54-55; Məğazi Vaqidi, c-2, s-766

[2] Təfsiri Əli ibn İbrahim, c-2, s-434

[3] Əl-İrşad, s-86

Peyğəmbər(s) məlumatı əldə edən kimi onu müsəlmanlara da çatdırmağı lazım bilir. Camaat məsciddə toplaşdıqda həzrət minbərə qalxıb buyurur: «Allah düşmənləri sizi yaxalamaq istəyir. Gecə Mədinəyə hücum edib işinizi bitirmək fikrindədirlər. Gərək bu təhlükənin qarşısını alaq.» Düşmənin üzərinə getmək üçün bir dəstə təyin edirlər və həmin dəstəyə Əbu Bəkr başçı seçilir. Bu dəstə Bəni-Səlim qəbiləsinə doğru hərəkət edir. Müsəlmanların keçdiyi ərazi daşlıq sahə idi və Bəni-Səlim qəbiləsi də həmin ərazidə yerləşən böyük bir dərədə yaşayırdı. Müsəlman əsgərləri dərəyə yaxınlaşıb aşağı enmək istədikdə Bəni-Səlimin müqaviməti ilə üzləşir və dəstə başçısının göstərişi ilə gəldikləri yolla geri qayıtmaq məcburiyyətində qalırlar.[1] Əli ibn İbrahim bu barədə yazır: «Bəni-Səlim qəbiləsinin başçıları Əbu Bəkrdən gəlişinin məqsədini soruşduqda cavab verir ki, Peyğəmbər(s) məni buraya sizi İslama dəvət etmək üçün göndərib. Əgər qəbul etməsəniz, sizinlə döyüşəcəyəm. Bunu eşidən qəbilə başçıları öz adamlarının daha çox olduğunu Əbu Bəkrə bildirirlər. Bunu görən Əbu Bəkr orduya Mədinəyə qayıtmağı əmr verir.

Müsəlmanların geri qayıtmasından narahat olan Peyğəmbər(s) bu dəfə orduya Ömər ibn Xəttabı başçı təyin edir. Bu dəfə düşmən daha ayıq-sayıq idi, dərədə daşların, ağacların arxasında gizlənmişdilər. Müsəlmanlar yaxınlaşdıqda gizləndikləri yerdən çıxıb döyüşməyə başlayırlar. Ömər isə ordunu geri çəkməkdən başqa çarə görmür.

O vaxt təzəcə müsəlman olmuş ərəb siyasətçisi Əmr ibn As Peyğəmbərin(s) hüzuruna gələrək deyir ki, döyüşdə qalib gəlmək üçün təkcə qəhrəmanlıq göstərmək kifayət deyil, bir az hiyləyə də əl atmaq lazımdır. Bu dəfə ordunu mənə tapşırsanız, məsələni həll edərəm. Peyğəmbər(s) müəyyən səbəblərə görə onunla razılaşsa da Əmr ibn As da əvvəlki ordu başçılarının aqibəti ilə üzləşir.»

### *Orduya başçılıq etmək Əliyə(ə) tapşırılır*

Ardıcıl gerilələr müsəlmanların ruhiyyəsini zəiflədir. Axırda Peyğəmbər(s) Əlini(ə) orduya başçı təyin edib bayrağı ona təhvil verir.

---

[1] Əl-İrşad, s-84

Əli(ə) evə gəlib sevimli həyat yoldaşı Fatimədən(s.ə) ən çətin anlarda başına bağladığı parçanı istəyir. Əli(ə) parçanı bağladıqda Fatimə(s.ə) ərinin çox çətin iş ardınca getdiyini anlayıb ağlamağa başlayır. Peyğəmbər(s) ona toxtaqlıq verib göz yaşlarını silir. Peyğəmbər(s) Əlini Xəndək məscidinə qədər müşayiət edir. Əli(ə) əyninə Yəmən paltarı geyir, hind nizəsi götürüb bərk qaçan bir ata minərək yola düşür. O, tamamilə başqa istiqamətə doğru irəliləyir. Döyüşçülər onun İraqa doğru getdiyini zənn etsələr də, bir qədər getdikdən sonra yolunu dəyişib Bəni-Səlim qəbiləsinə tərəf irəliləyir.

Peyğəmbər(s) Əlini(ə) yola salan kimi ardınca buyurur ki, o, düşmənə hücum edər, ancaq onlara arxa çevirib qaçmaz.

***Əlinin(ə) qələbə qazanmasının səbəbləri***

Əmirəl-möminin Əlinin(ə) bu döyüşdə qazandığı qələbəni aşağıdakı üç amillə əlaqələndirmək olar:

1) Düşmən onun hərəkətindən xəbərdar olmur. Az öncə qeyd etdiyimiz kimi Əli(ə) İraq səmtinə hərəkət edir və bir qədər getdikdən sonra yolunu dəyişir ki, qoy bədəvi ərəblər onların gəlişini düşmənə çatdırmasınlar.

2) Əli(ə) döyüşə gedərkən əsl hərbi taktikadan istifadə edir. Belə ki, gecələr yol gedib gündüzlər dincəlir. Dərəyə çatmamış bütün əsgərlərə istirahət etməyi, düşmən onların yaxınlaşdığını bilməmək üçün atların ağzını bağlamağı tapşırır ki, qoy düşmən atların kişnəməsini eşitməsin. Sübh namazını döyüşçülərlə birlikdə qılıb müsəlmanlara dərənin arxasındakı dağa qalxıb oradan da dərəyə enməyi əmr edir. İslam ordusu Əli(ə) kimi qəhrəman bir sərkərdənin başçılığı ilə ildırım sürəti ilə yuxulu düşmənə hücum edir. Qaça bilənlər canlarını qurtarsa da, bir çoxu müsəlmanlara əsir düşür.

3) Düşmənin müqavimət göstərməyə cəhd edən yeddi pəhlivanını qətlə yetirən Əlinin(ə) hünəri onlarda elə qorxu yaradır ki, daha müqavimətə tab gətirə bilmir, böyük həcmdə qənimət qoyub aradan çıxırlar.[1]

---

[1] Təfsiri Furat, s-222-226; Məcməül-bəyan, c-10, s-528

Əmirəl-möminin Əli(ə) böyük qələbə və çoxlu qənimətlə Mədinəyə dönür. Peyğəmbər(s) səhabələrlə birlikdə fateh ordunun pişvazına çıxır. Əli(ə) Peyğəmbəri(s) görcək dərhal atdan yerə enir. Peyğəmbər(s) əlini onun kürəyinə vuraraq buyurur ki, min atına, Allah da, Peyğəmbər də səndən razıdır. Bu zaman Əlinin(ə) gözləri sevincdən yaşarır. Peyğəmbər(s) isə Əli(ə) şənində tarixi bir cümlə buyurur: «Xaçpərəstlərin İsa barəsində dediklərini (İsanın tanrı olduğunu demələrini) ümmətimin sənin barəndə deyəcəyindən qorxmasaydım sənin haqqında elə bir söz deyərdim ki, getdiyin hər yerdə ayağının altındakı torpağı təbərrük götürərdilər.»[1]

Əlinin(ə) bu döyüşdəki fədakarlığı o qədər əhəmiyyətli olmuşdur ki, Quranın «Adiyat» surəsi məhz bununla bağlı nazil olmuşdur. Surədəki obrazlı andlar İslam mücahidlərinin qəhrəmanlığına həsr edilmişdir: ***«And olsun cihad zamanı tövşüyə-tövşüyə qaçan atlara! And olsun (dırnaqları ilə daşdan) qığılcım qoparan atlara! And olsun sübh çağı hücum edən atlara! And olsun o vaxt (və ya o yerdə) toz-duman qopardan atlara! Sonra da onunla (tozanaqla) dəstəyə (düşmən dəstəsinə) təpinən atlara!...»***[2]

***Bir sual, bir cavab***

Hələ sovetlər birliyi dövründə Marksizm ideyalarını təbliğ və İslam maarifini inkar edən bir nəfər bu sətirlərin müəllifindən «Adiyat» surəsindəki (yuxarıda qeyd etdiyimiz) andların səbəbini soruşur. Onun sualı vermə tonundan belə şeylərin onun üçün əhəmiyyətsiz olduğu anlaşılırdı. Çünki bir qədər də istehza şəkildə ağzını büzüb deyirdi ki, atlara and içməyin nə mənası ola bilər axı! Onun cavabında qeyd etdim ki, haqq uğrunda mübarizə aparanların atlarına and içmək cihadın əhəmiyyətindən xəbər verir. Gör cihad necə müqəddəs, necə əhəmiyyətli məsələdir ki, cihad edən şəxsin özündən əlavə, hələ onun atı da şərəflidir.

Quran mücahidlərin minik vasitələrini də müqəddəs saymaqla müsəlmanları haqsızlığa, İslam düşmənlərinə qarşı mübarizəyə dəvət edir.

---

[1] Əl-İrşad, s-84-86
[2] Adiyat-1-5

Zatus-səlasil döyüşü barədə deyəcəklərimiz bundan ibarət idi. Lakin təəssüflər olsun ki, Təbəri[1] kimi bəzi müəlliflər hadisəni tamam başqa cür şərh etmişlər. O da ola bilər ki, Zatus-səlasil iki müxtəlif döyüşün adı olmuş və hər dəstə bunlardan birini şərh etməklə kifayətlənmişdir.

*Məkkənin fəthi*

Məkkənin fəth edilməsi İslam tarixinin ən şanlı, maraqlı səhifələrindən biridir. Eyni zamanda bu hadisə sayəsində Peyğəmbərin(s) gözəl əxlaqı ilə bir daha yaxından tanış olmaq imkanı qazanırıq. Həmçinin müsəlmanlarla Məkkə müşrikləri arasında bağlanmış «Hüdeybiyyə» sülh müqaviləsi Peyğəmbər(s) və səhabələrinin necə vəfalı, doğru danışan, müşriklərin isə xain, yalançı olduğunu üzə çıxarır.

Peyğəmbərin(s) son maneəni də dəf edərək Məkkənin döyüşsüz-filansız fəth etməsi o həzrətin sanki hansı hərbi akademiyada bütün hərbi sirlərə yiyələnməsi haqqda təsəvvür yaradır. Bütün çətinlikləri aşıb Məkkəni fəth etdikdə isə ömür boyu İslama, o həzrətin özünə və müsəlmanlara əzab-əziyyət edən kafirlərə qarşı necə mehriban davrandığı, ümumi əfv qərarı çıxardığı isə onun əsl məqsədindən xəbər verir.

Hicrətin altıncı ilində Qüreyş başçıları ilə Peyğəmbər(s) arasında bağlanmış «Hüdeybiyyə» sülh müqaviləsinin üçüncü maddəsinə əsasən həm müsəlmanlar, həm də Qüreyş istədikləri qəbilə ilə müqavilə bağlayıb müttəfiq ola bilər. Bu maddəyə müvafiq olaraq müsəlmanlar Xüzaə qəbiləsi ilə dostluq müqaviləsi imzalayır. Digər tərəfdən də Xüzaə qəbiləsi ilə düşmən olan və qonşuluğunda yerləşən Bəni-Kənanə qəbiləsi də Qüreyşlə müqavilə bağlayır. Bütün bunlar müsəlmanlarla müşriklər arasında on illik sülhü nəzərdə tutan və demək olar bütün Ərəbistan yarımadasında sabitliyi təmin edən «Hüdeybiyyə» müqaviləsinin imzalanmasından sonra baş tutur.

«Hüdeybiyyə» sülh müqaviləsinə əsasən tərəflər bir-birinə və yaxud bir-birinin müttəfiqlərinə hücum edə bilməzdi. Müqavilənin bağlanmasından iki il keçsə də tərəflər onu qətiyyən pozmur, hörmətlə

[1] Tarixi Təbəri, c-3, s-30; Sireyi Hələbi, c-3, s-190-191; Məğazi Vaqidi, c-2, s-769-774

yanaşırdılar. Müqavilə bağlandıqdan bir il sonra müsəlmanlar azad şəkildə Məkkəyə gedib minlərlə müşrikin gözü qarşısında müqəddəs həcc əməllərini yerinə yetirirlər.

Hicrətin səkkizinci ili cəmadil-əvvəl ayında baş vermiş Mutə döyüşündə müsəlmanların uğursuzluğundan cəsarətlənən Qüreyş başçıları elə təsəvvür edirlər ki, müsəlmanların gücü tükənib. Buna görə də bölgədəki sabitliyi pozaraq müqaviləyə məhəl qoymamaq qərarına gəlirlər. Bu məqsədlə onlar əvvəlcə Bəni-Kənanə qəbiləsinin Bəni-Bəkr tayfasına silah paylayır, onlara tapşırırlar ki, gecə ikən müsəlmanlarla müttəfiq olan Xüzaə qəbiləsinə basqın edib bəzilərini öldürsün, bəzilərini də əsir alsınlar. Bu azmış kimi, hələ bəzi qüreyşlilərin özü də bu basqında iştirak edir. Beləliklə də «Hüdeybiyyə» sülh müqaviləsini pozaraq iki illik sabitliyə son qoyurlar. Basqın nəticəsində gecə istirahətdə və ya ibadətdə olan Xüzaəlilərin bəzisi ölür, bəzisi də əsir götürülür. Qalanları da ev-eşiklərini tərk edib ərəblər üçün təhlükəsiz, toxunulmaz yer hesab edilən Məkkəyə gəlirlər. Onlar Məkkədə evi olan Xüzaə ağsaqqalı Büdeyl ibn Vərqanın evinə sığınaraq başlarına gələni ona danışırlar. Bu zavallılar öz məzlumiyyətini Peyğəmbərə(s) çatdırmaq məqsədilə qəbilə başçısı Əmr ibn Salimi Mədinəyə göndərirlər. Mədinəyə gələn Əmr birbaşa məscidə gedib camaatın arasında yanıqlı səslə qəbiləsinin başına gələnləri danışır. Peyğəmbəri(s) Xüzaə qəbiləsi ilə bağladığı müqavilənin hörmətinə and verib ölənlərin qisasını almağı xahiş edir. Sonda sözünü bu cümlə ilə bitirir: «Ey Allahın elçisi! Sülh müqaviləsi bağlamış Qüreyş müşrikləri bəzilərimiz yuxuda, bəzilərimiz də rükuda, səcdədə olarkən gecə bizə basqın edib camaatı qırdılar.» O: «Müsəlman olduğumuz halda bizi qırdılar» cümləsini dəfələrlə təkrar edərək müsəlmanları təhrik edirdi.

Qəbilə başçısının sözləri öz təsirini qoyur. Peyğəmbər(s) camaatın gözü qabağında Əmrə deyir ki, sənə mütləq kömək edəcəyik. Peyğəmbərin(s) kömək vədəsi Əmri rahatlaşdırır. O, Peyğəmbərin(s) cinayətin əsl səbəbkarı olan Qüreyşdən intiqam alacağına əmin olsa da Məkkəni fəth edilərək müşriklərin hökmranlığına son qoyulacağını heç ağlına belə gətirmir.

Əmr ibn Salimlə Peyğəmbərin(s) görüşünün ardınca çox çəkmir ki, Büdeyl ibn Vərqa da bir neçə Xüzaəli ilə Mədinəyə gəlib müşriklərin Xüzaə gənclərini öldürülməsindən şikayətlənir.

Törətdiyi cinayətlə sülh müqaviləsini pozduğuna peşman olan Qüreyş müşrikləri belə qərara gəlirlər ki, Peyğəmbərin(s) qəzəbini soyudub sülh müqaviləsini qüvvədə saxlamaq (hətta bəzi mənbələrin göstərdiyinə görə müqavilənin müddətini uzatmaq[1]) barədə danışıqlar aparmaq üçün qəbilə başçısı Əbu Süfyanı Mədinəyə göndərsinlər. Mədinəyə doğru gələn Əbu Süfyan, Əsəfan adlı yerdə (Mədinənin bir neçə kilometrliyində yerləşir) Xüzaə ağsaqqalı Büdeyllə rastlaşır. Ondan Mədinəyə gedib baş verənləri danışb-danışmadığını soruşduqda Büdeyl Mədinəyə getmədiyini, öz qəbiləsinə baş çəkməkdən ötrü buralara gəldiyini söyləyir. Lakin Büdeyl uzaqlaşdıqdan sonra Əbu Süfyan onun dəvəsinin peyninin arasında Mədinə xurmasının tumundan onun yalan danışdığını və Mədinəyə getdiyini anlayır.

Mədinəyə daxil olan Əbu Süfyan birbaşa öz qızı, Peyğəmbərin(s) xanımlarından olan Ümmi Həbibənin evinə gedir. İçəri daxil olub Peyğəmbərin(s) döşəyində oturmaq istədikdə qızı dərhal döşəyi kənara çəkir. Əbu Süfyan qızından soruşur ki, məni döşəyə layiq görmədin, yoxsa döşəyi mənə? Ümmi Həbibə cavab verir ki, bu döşək Peyğəmbərə məxsusdur, sən isə kafir bir şəxssən. Kafir bir adamın Peyğəmbərin döşəyində oturmasına razı ola bilmərəm. Əcəba, görün qız atasına necə cavab verir! Bu, iyirmi il hər an İslama zərbə vurmağa çalışan bir kişinin qızının məntiqidir! Atası İslamın bir nömrəli düşmənlərindən olsa da qızı daxildən gələn iman hissini atalıq hissindən üstün tutur.

Mədinədəki yeganə ümidi qızının bu hərəkətindən narahat olan Əbu Süfyan evi tərk edib Peyğəmbərin(s) hüzuruna gedir. Həzrətlə müqavilə müddətinin uzadılması haqqında danışsa da, Peyğəmbər(s) dillənmir, onun sözlərinə əhəmiyyət vermirdi. Sonra bir neçə səhabə ilə görüşür ki, bəlkə onlar nəsə edə bildilər. Ancaq bunun da bir nəticəsi olmur. Axırda Əmirəl-möminin Əlinin(ə) evinə gələrək deyir: «Siz bu şəhərdə (qızımdan sonra) mənə ən yaxın adamlarsınız. Aramızda

[1] Məğazi Vaqidi, c-2, s-792

qohumluq əlaqəsi var. Xahiş edirəm mənim üçün Peyğəmbərin yanında vasitəçilik edəsən!» Əli(ə) onun cavabında buyurur ki, biz Peyğəmbərin(s) verdiyi qərara müdaxilə etmirik. Əlidən(ə) də ümidini kəsən Əbu Süfyanın diqqətini Peyğəmbərin(s) qızı Fatimə(s.ə) cəlb edir. O görür ki, Həsənlə Hüseyn Fatimənin yanında oynayır. Fatimənin razılığını cəlb etmək məqsədilə deyir ki, ey Peyğəmbərin qızı, balalarına deyə bilərsənmi ki, Məkkə camaatına aman versinlər! Əgər bunu etsələr, yer-göy durduqca balaların ərəblərin ağası olacaq. Əbu Süfyanın məqsədindən xəbərdar olan Fatimə(s.ə) onun cavabında buyurur ki, bu məsələ Peyğəmbərin(s) səlahiyyətindədir, balalarımın hələ ki, belə bir ixtiyarı yoxdur.

Hər yerdən əli üzülən Əbu Süfyan bir daha Əliyə(ə) müraciət edərək deyir ki, mənə bu işdə bir yol göstər! Əli(ə) də ona buyurur: «Fikrimə bircə o gəlir ki, məscidə gedib bütün müsəlmanlara aman verəsən.» Əbu Süfyan deyir ki, bunu etməyimin bir xeyri olarmı? Əli(ə) cavab verir ki, elə də yox, ancaq başqa çıxış yolu da yoxdur.

Əlinin(ə) səmimiliyinə, düzgünlüyünə qətiyyən şübhə etməyən Əbu Süfyan Əlinin(ə) dediyi kimi edir. Sonra da məsciddən çıxıb Məkkəyə qayıdır. Məkkəyə çatan kimi Qüreyş başçıları ondan nəticə barədə soruşduqda cavab verir ki, Əlinin göstərişi ilə məscidə gedib müsəlmanlara aman verdim. Müşriklər dərhal soruşurlar ki, Mühəmməd qəbul etdimi? Əbu Süfyanın cavabı mənfi olduqda deyirlər ki, onda Əli səninlə zarafat edib. Mühəmməd sənin verdiyin amanı qəbul etməyibsə, bunun heç bir faydası yoxdur. Sonra da Peyğəmbəri(s) razı salmaq üçün başqa çıxış yolları axtarmağa başlayırlar.[1]

### *Bir casusun yaxalanması*

Peyğəmbərin(s) həyatı ilə tanış olduqda görürük ki, o həzrət heç vaxt intiqam hissi ilə yaşamamış, düşmənin haqqı qəbul etməsini istəmişdir. Baş vermiş döyüşlərdə əsas məqsəd düşməni dağıtmaq, onları bir-birindən ayırmaq olmuşdur. O, çox gözəl bilirdi ki, qarşıdakı maneələr götürüləcəyi təqdirdə İslam inkişaf edib bütün yarımadaya, hətta

---

[1] Məğazi Vaqidi, c-2, s-780-794

onun hüdudlarından kənara çıxacaq. Sadəcə olaraq İslamın təbliğinin qarşısını alan müşriklərə döyüşmədən qalib gəlmək lazım idi. Belə olan təqdirdə onların özü də bütün şəxsiqərəzliyi kənara qoyub İslamın güclü məntiqi qarşısında susar, nəticədə müsəlman olardılar. Bu artıq praktiki cəhətdən sübuta yetirilmişdi. İslamla düşmənçilik mövqeyindən çıxış edən bir çox qəbilələr sonradan İslamın əsl tərəfdarlarına çevrilir. Haqqında danışdığımız Məkkə fəthi də bu baxımdan istisna edilmir. Peyğəmbər(s) bilirdi ki, Məkkəni döyüşmədən ələ keçirərsə, indiki düşmən qüreyşlilər çox çəkməz İslam müdafiəçilərinə çevrilərlər. Bunun üçün düşməni məğlub etmək lazım idi, ancaq onları məhv etmək olmazdı. Bu məqsədə nail olmaqdan ötrü düşməni mütləq qəfil yaxalamaq vacib idi. Düşməni də o vaxt qəfil yaxalamaq mümkündür ki, onlar müsəlmanların sirrindən xəbərdar olmasınlar, Peyğəmbərin heç Məkkəyə hücum etmək fikrində olduğunu da bilməsinlər. Hətta bundan xəbər tutsalar da, ən azı hücumun vaxtını, istiqamətini bilməməlidirlər. Əks təqdirdə məqsədə çatmaq sadəcə mümkünsüz olacaq.

Peyğəmbər(s) İslam üçün ən təhlükəli düşmən hesab edilən Qüreyş səddini aşmaq üçün ümumi səfərbərlik elan edir. Allah-taaladan da diləyir ki, Qüreyş casusları müsəlmanların hərəkətindən xəbər tutmasın. Hicrətin səkkizinci ili ramazan ayında Mədinə və ətraf bölgələrdən böyük bir ordu toplanır. Tarixçilər orduda iştirak edənləri aşağıdakı kimi qeyd etmişlər.

1) Dörd min döyüşçüdən ibarət Ənsar dəstəsi. Onların beş yüz baş atı, çoxlu bayrağı var idi.

2) Yeddi yüz nəfərlik Mühacir dəstəsi. Onların üç yüz baş atı, üç də bayrağı var idi.

3) Min döyüşçü, yüz baş at, yüz zireh və üç bayraqla Müzeynə qəbiləsi.

4) Dörd yüz döyüşçü, otuz baş at və iki bayraqla Bəni-Əsləm qəbiləsi.

5) Səkkiz yüz döyüşçü, əlli baş at və dörd bayraqla Cüheynə qəbiləsi.

6) Beş yüz döyüşçü və üç bayraqla Bəni-Kəb qəbiləsi.

Ordunun qalan hissəsini isə Qifar, Əşcə və Bəni-Səlim qəbilələri təşkil edirdi.[1]

---

[1] Məğazi Vaqidi, c-2, s-779-800

İbn Hişam İslam ordusunun on min nəfərdən ibarət olduğunu qeyd edərək yazır: «Məkkənin fəthində Bəni-Səlim qəbiləsi yeddi yüz (bəzi mənbələrə görə isə min), Bəni-Qifar qəbiləsi ilə Bəni-Əsləm qəbiləsi hərəyə dörd yüz, Müzeynə qəbiləsi min üç yüz nəfərlə təmsil olunurdu. Ordunun qalan hissəsini isə Ənsarla Mühacirlər və Ənsarla müttəfiq olan Təmim, Qeys və Əsəd qəbilələri təşkil edirdilər.»

Peyğəmbər(s) məqsədini icra etməkdən ötrü Məkkəyə gedən bütün yolları nəzarətdə saxlayır. Hələ İslam ordusu hərəkət etməmiş Cəbrail nazil olub sadəlövh bir müsəlmanın müşriklərə məktub yazıb onları məsələdən xəbərdar etdiyini Peyğəmbərə xəbər verir və bildirir ki, məktubu Sara adlı bir qadın müəyyən məbləğ müqabilində Məkkəyə çatdırmağı boynuna götürmüşdür. Sara Məkkənin ifaçı qadınlarından idi. Ara-sıra yas məclislərində mərsiyələr də oxuyurdu. Bədr döyüşündən sonra onun gəliri zəifləyir. Buna səbəb isə Qüreyş başçılarının bir neçəsinin döyüşdə öldürülməsi olur. Buna görə də Məkkədən bütün eyş-işrət, əyləncə məclisləri yığışdırılır, yas məclislərində isə mərsiyə oxumaq qadağan edilir. Bu səbəbdən Sara Bədrdən iki il sonra Mədinəyə gəlir. Peyğəmbər(s) ondan İslamı qəbul edib etmədiyini soruşduqda belə cavab verir: «Xeyr, İslamı qəbul etməmişəm, buraya gəlişimin səbəbi də odur ki, mənim əsl-nəsəbim Qüreyşdəndir. Onların (Qüreyşlilərin) bəzisi döyüşdə öldürülüb, bəzisi də buraya hicrət edib. Bədr döyüşündən sonra işim yaxşı getmədiyinə görə ehtiyac məni buraya çəkib gətirdi.» Peyğəmbər(s) dərhal ona yemək və geyim verilməsini tapşırır.[1]

Peyğəmbərin(s) vaxtı-vaxtında onu yemək və geyimlə təmin etməsinə baxmayaraq Sara Hatib ibn Əbu Bəltəədən on dinar almaqla onun yazdığı məktubu Məkkəyə çatdırmağa razılıq verir. Məktubda müsəlmanların Məkkəyə hücum edib oranı ələ keçirmək istəyinə işarə olunurdu.

Cəbrail(ə) nazil olub Peyğəmbəri(s) bu əhvalatdan xəbər edən kimi həzrət üç İslam mücahidi-Əli, Zübeyr və Miqdadı onun ardınca göndərərək qadını yaxalamalarını tapşırır. Onlar yola düşüb Rovzətu-xax (İbn Hişamın dediyinə görə isə Xuleyqə) adlı yerdə Saraya yetişirlər. Qadını nə qədər axtarsalar da məktubu tapa bilmirlər. Digər tərəfdən Sara özü də məktub

[1] Biharul-ənvar, c-21, s-136

apardığını təkzib edir. Vəziyyətin belə olduğunu görən Əli(ə) buyurur: «And olsun Allaha, Peyğəmbər(s) əsla yalan danışmaz. Nəyin bahasına olursa olsun məktubu səndən almalıyıq.» Sara Əlinin(ə) Peyğəmbərin(s) tapşırığını yerinə yetirməyəcək bir şəxs olmadığını görüb məktubu təhvil vermək məcburiyyətində qalır. Uzun hörüklərinin arasından kiçik bir məktub çıxarıb Əliyə(ə) təhvil verir.

Peyğəmbər(s) uzun müddətdən bəri İslamı qəbul etmiş (hətta İslamın ən çətin anlarında dinə kömək etməkdən boyun qaçırmamış) Hatib ibn Əbu Bəltəənin bu hərəkətindən narahat olub dərhal onu çağırtdıraraq məktub yazmasının səbəbini soruşur. Hatib Allaha və Peyğəmbərə and içərək deyir. «Mənim imanımda, əqidəmdə qətiyyən dəyişiklik baş verməyib. Ancaq özünüz də bilirsiniz ki, mən Mədinədə tək-tənhayam. Bütün qohum-əqrabam, ailə üzvlərim Məkkədədir. Müşriklər onlara işkəncələr verirlər. Məktub yazmaqda da məqsədim o idi ki, müşriklər qohumlarıma işkəncəni azaltsınlar.»

Hatibin bəhanəsindən məlum olur ki, Qüreyş müşrikləri müsəlmanların Məkkədə olan qohumlarını təzyiqlərə məruz qoymaqla müsəlmanların sirlərindən xəbərdar olmağa çalışırlarmış. Hatibin bəhanəsi üzrlü olmasa da müəyyən səbəblərə görə o cümlədən İslamı çoxdan qəbul etdiyi üçün Peyğəmbər(s) onu bağışlayır. Ömər etiraz edib Hatibin boynunun vurulmasını istədikdə Peyğəmbər(s) buyurur ki, o, bir vaxt Bədr döyüşündə iştirak etməklə Allahın mərhəmətinə şamil olub. Buna görə də onu əfv edirəm.

Müsəlmanlar arasında bir daha belə hal baş verməsin deyə Mumtəhənə surəsinin ilk doqquz ayəsi bu barədə nazil olur: ***«Ey iman gətirənlər! Nə mənim düşmənimi, nə də öz düşməninizi dost tutmayın. Onlar (kafirlər) sizə gələn haqqı (Quranı və Peyğəmbəri) inkar etdikləri halda siz onlarla dostluq edirsiniz. Siz Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi (Məkkədən) çıxardırlar... Sizdən kim (bir daha) bunu etsə, (düşmənlərlə dostluq edib sirr versə) o, şübhəsiz ki, haqq yolundan azmışdır!»***[1]

[1] Sireyi İbn Hişam, c-2, s-399; Məcməül-bəyan, c-9, s-269-270

***İslam ordusunun hərəkətə başlaması***

Düşməni qəfil yaxalamaqdan ötrü Peyğəmbər(s) oraya hərəkət əmri verənə qədər hərəkət vaxtı, hərəkət istiqaməti və hərəkətin məqsədi heç kimə məlum deyildi. Peyğəmbər(s) ramazan ayının onunda oraya hərəkət əmri verir. O vaxta qədər isə Mədinə və ətrafda hamı hazır vəziyyətdə idi.

Peyğəmbər(s) Mədinəni tərk edərkən Əbu Rihəm Qifarini öz yerində qoyur. Həzrət Mədinə kənarında bir daha ordunu nəzərdən keçirir. Mədinədən bir qədər aralandıqda Kədid adlı yerdə Peyğəmbər(s) bir az su içib orucunu açır və bütün müsəlmanlara da orucu açmağı əmr edir. Əksəriyyəti orucunu açsa da bəziləri hələ təsəvvür edirlər ki, oruc halda cihad etməyin savabı daha çoxdur, buna görə də oruc açmaqdan imtina edirlər. O bədbəxtlər başa düşmürlər ki, onlara orucu açmağı əmr edən şəxs elə ramazan ayında oruc tutmağın vacib olduğunu başa salan həmin peyğəmbərdir. Əgər o, doğrudan da haqq peyğəmbərdirsə, onun həm əmrinə, həm də qadağasına tabe olmaq lazımdır. Peyğəmbər(s) orucunu açmayanların hərəkətindən narahat olub onları günahkar adlandırır.[1]

Sadə bir müsəlmanın özünü Peyğəmbərdən(s) üstün tutması (Peyğəmbərin(s) orucunu açdığı halda onun orucu açmaması) onun haqdan uzaq düşməsi və tam şəkildə iman gətirməməsindən xəbər verir. Məhz buna görə də Allah-taala belələrini danlayaraq buyurur: ***«Ey iman gətirənlər! (sözləriniz və hərəkətlərinizlə) Allahın və Peyğəmbərinin önünə keçməyin!»***

Peyğəmbərin(s) əmisi Abbas ibn Əbdülmüttəlib Məkkə müsəlmanlarından olaraq həzrətin göstərişi ilə orada qalıb Qüreyş müşrikləri barədə mütamadi olaraq Mədinəyə məlumat göndərirdi. Xeybər döyüşündən sonra müsəlman olduğunu aşkar etsə də Qüreyş müşrikləri ilə münasibətlərini də pozmur. Axırda o da Məkkəni tərk edib Mədinəyə köçmək qərarına gəlir. Peyğəmbər(s) İslam ordusu ilə Məkkəyə doğru irəlilədiyi bir vaxtda Abbas da Məkkədən Mədinəyə çıxır. Cöhfə adlı yerdə Peyğəmbərlə rastlaşıb yenidən Məkkəyə

[1] Hucurat-1

qayıtmaq əmri alır. Məkkə fəth edilərkən Abbasın orda olması hər iki tərəf üçün həddən artıq faydalı olur. Əgər həmin vaxt o Məkkədə olmasaydı, bəlkə də Məkkənin müqavimətsiz fəth edilməsi mümkün olmayacaqdı. Bu baxımdan ehtimal etmək olar ki, Abbas Məkkədən də elə Peyğəmbərin(s) göstərişi ilə çıxmış ki, yarı yoldan qayıdaraq sülhməramlı rolunu ifa etsin.

Həzrəti Mühəmmədin(s) parlaq keçmişi, onun gözəl əxlaqı, ömür boyu yalan danışmadığı bütün qohum-əqrabasına bəlli idi. Hamı bilirdi ki, o, həyatı boyu bircə dəfə də olsun, günah girdabına girməyib. Buna görə də Bəni-Haşim üzvlərinin əksəriyyəti onu elə peyğəmbərliyinin ilk günlərindəcə qəbul edir. İnsaflı şərqşünaslardan biri (Karlayl) bu məsələni Peyğəmbərin(s) paklığına dəlalət edən amil kimi qələmə verərək yazır: «İnsan nə qədər mühafizəkar olsa da həyatda baş verənləri öz qohum-əqrabasından gizlədə bilməz. Əgər Mühəmmədin pis işləri olmuş olsaydı, heç kim bilməsə də, qohumları mütləq bilər, belə olduqda isə bu tezlikdə ona iman gətirməzdilər.»

Bəni-Haşimdən Peyğəmbərə(s) yalnız Əbu Ləhəb iman gətirmir. Ümumiyyətlə qohumlar arasından Əbu Ləhəbdən sonra ona iman gətirməyən yalnız iki nəfərin adını çəkə bilərik. Bunlar Əbu Süfyan ibn Haris ibn Əbdülmüttəlib və Abdullah ibn Üməyyə idi. Adı çəkilənlər iman gətirməməklə kifayətlənməmiş, həm də Peyğəmbərə(s) həddən artıq əziyyət edirlər. Əbu Süfyan, Peyğəmbərin(s) əmisi oğlu, eləcə də süd qardaşı idi. Besətdən qabaq həzrətlə çoxlu yaxın münasibətdə olmuş, peyğəmbər seçildikdən sonra yollarını ayırmışdır. Abdullah isə Ümmi Sələmənin qardaşı və Peyğəmbərin(s) bibisi Atikənin oğlu olmuşdur.

İslam dini Ərəbistan yarımadasının əksər bölgələrində yayıldıqda Əbu Süfyan ibn Harislə Abdullah ibn Əbu Üməyyə Məkkəni tərk edib müsəlmanlara qoşulmaq qərarına gəlirlər. Səniyyətül-uqab (ya da Nəbqul-uqab) adlı yerdə İslam ordusu ilə rastlaşırlar. Peyğəmbərlə(s) görüşməyə israr etmələrinə baxmayaraq həzrət onlara görüş icazəsi vermir. Hətta Ümmi Sələmə də Peyğəmbərdən onlara görüş icazəsi verməsini xahiş edir, lakin həzrət qəbul etməyib buyurur: «Əbu Süfyan əmim oğlu olsa da, məni çox incidib. Abdullah da məndən yersiz şeylər istəyən, başqalarının iman gətirməsinə mane olan şəxs olub.»

Peyğəmbəri(s) necə yola gətirməyi çox yaxşı bilən Əli(ə) Abdullahla Əbu Süfyana deyir: «Gedin Peyğəmbərin qarşısında dayanın, Yusif peyğəmbərin qardaşlarının ona dediyi cümləni siz də Peyğəmbərə deyin.» Yusifin qardaşları ona belə demişdilər: ***«Allah səni bizdən üstün etmişdir. Biz isə (sənin barəndə), sözsüz ki, günah etmişik.»***[1] Yusif onların bu sözünü eşitdikdə belə cavab verir: ***«Bu gün sizə (etdiklərinizə görə) heç bir məzəmmət yoxdur.»***[2] Siz ilk cümləni dedikdə sözsüz ki, o da sizə ikinci cümlə ilə cavab verəcək. Çünki o, heç vaxt razı olmaz ki, kimsə ondan daha mərhəmətli danışsın.» Abdullahla Əbu Süfyan Əlinin(ə) dediyi kimi edir, Yusif peyğəmbər(s) qardaşlarını əfv etdiyi kimi Peyğəmbər(s) də onların təqsirindən keçir. Beləliklə onların hər ikisi İslamı qəbul edib müsəlmanlara qoşulur. Həmin an Əbu Süfyan bədahətən aşağıdakı beytləri deyir:

Canına and olsun, Lat ordusu ilə (müşriklər) Mühəmməd ordusuna (müsəlmanlara) qalib gəlmək üçün bayrağı çiynimə aldığım gün gecə yol gedən adam kimi sərgərdan qalmışdım.

İndi isə artıq hidayət olmağın vaxtı gəlib çatıb.[3]

İbn Hişam yazır: «Əbu Süfyan ibn Haris, Peyğəmbərə(s) belə bir məktub göndərir ki, əgər mənim təqsirimdən keçməsən, az yaşlı uşağımın əlindən tutub səhraya çəkiləcəyəm.»[4]

Ümmi Sələmə Peyğəmbəri(s) yola gətirmək məqsədilə deyir: «Bizə dəfələrlə buyurmusunuz ki, İslam, olub keçənləri unudur.» Buna görə də Peyğəmbər(s) hər iki şəxsin təqsirindən keçir.[5]

### *İslam ordusunun gözəl taktikası*

Mərruz-zəhran Məkkənin bir neçə kilometrliyində yerləşir. Peyğəmbər(s) on min nəfərlik İslam orusunu Qüreyş casuslarının xəbəri olmadan Məkkə yaxınlığına qədər gətirə bilir. Məkkə camaatında qorxu yaratmaq, şəhəri müqavimətsiz ələ keçirmək məqsədilə həzrət müsəlmanlara tapşırır ki, gecə ətraf dağlara səpələnib hər nəfər bir tonqal qalasın.

---

[1] Yusif-91
[2] Yusif-92
[3] Əl-İsabə, c-4, s-90
[4] Sireyi İbn Hişam, c-2, s-402
[5] Biharul-ənvar, c-21, s-114

Qüreyş müşrikləri və onların müttəfiqləri sanki qəflət yuxusuna getmişdilər. Ancaq ətraf dağlarda qalanmış, ilk baxışdan böyük yanğına bənzəyən və Məkkə evlərini işıqlandıran tonqallar Məkkə camaatının diqqətini cəlb edir. Əbu Süfyan ibn Hərb və Hükeym ibn Hizam kimi Qüreyş başçıları məlumat öyrənmək üçün Məkkədən kənara çıxırlar.

Cöhvə məntəqəsində Peyğəmbərə(s) qoşulub Məkkəyə geri qayıdan Abbas ibn Əbdülmüttəlib öz-özünə fikirləşir ki, əgər Qüreyş müşrikləri müqavimət göstərərsə, böyük tələfat olacaq. Yaxşısı budur hər iki tərəfin də xeyrinə olan bir vasitəçilik edərək Qüreyşi təslim olmağa vadar etsin. Bu məqsədlə Abbas, Peyğəmbərin(s) ağrəngli qatırına minib Məkkəyə yollanır ki, şəhərin müsəlmanlar tərəfindən mühasirəyə alındığını, İslam ordusunun sayının çoxluğunu və müşriklərin təslim olmaqdan başqa çarələri olmadığını Məkkəlilərə çatdırsın. O, uzaqdan Əbu Süfyanla Büdeyl ibn Vərqanın aşağıdakı dialoqunu eşidir:

Əbu Süfyan: Mən bu vaxtadək belə böyük ordu və bu qədər tonqal görməmişəm.

Büdeyl: Yəqin ki, onlar Xüzaə qəbiləsinin adamlarıdır, döyüşməyə gəlirlər.

Əbu Süfyan: Xüzaə qəbiləsinin adamları bu qədər ola bilməz.

Bu zaman Abbas onların söhbətini yarımçıq kəsib Əbu Süfyanı çağırır. Əbu Süfyan da dərhal Abbasın səsini tanıyıb nə istədiyini soruşur. Abbas deyir: «And olsun Allaha ki, bu gələnlər Mühəmmədin ordusudur. O, misli görünməmiş bir ordu ilə bura gəlib. Qüreyşdə belə orduya müqavimət göstərməyə heç vaxt güc olmayıb.»

Abbasın sözlərindən vahiməyə düşən Əbu Süfyan bədəni titrəyə-titrəyə, dişləri bir-birinə dəyə-dəyə deyir ki, atam-anam sənə qurban, bəs onda biz neyləyək? Abbas belə cavab verir: «Yeganə çıxış yolu odur ki, mənimlə birlikdə Mühəmmədin hüzuruna gəlib ondan aman istəyəsən. Yoxsa bütün Məkkəlilərin canı təhlükədə olacaq.» Bunu deyib Əbu Süfyanı qatıra mindirərək Peyğəmbərin(s) hüzuruna gətirir. Əbu Süfyanla bir qədər əvvəl söhbət edən Büdeyl ibn Vərqa ilə Hükeym ibn Hizam isə şəhərə qayıdır.

Abbas ibn Əbdülmüttəlibin planı müsəlmanların xeyrinə nəticələnir. Qüreyşin düşünən beyni, döyünən ürəyi olan Əbu Süfyan

İslam ordusunu lap yaxından gördükdə canına elə qorxu düşür ki, ağlına təslim olmaqdan başqa fikir gəlmir. Abbas onun Məkkəyə qayıtmasına da imkan verməyib onu dərhal İslam ordusunun toplandığı yerə aparır. Əgər Əbu Süfyan Məkkəyə qayıtsaydı, bəlkə də radikal müşriklərin təsiri altına düşüb bir neçə saatlıq da olsa müqavimət göstərmək qərarına gələrdi.

***Əbu Süfyan, Peyğəmbərin(s) hüzurunda***

Abbas, Əbu Süfyanı müsəlmanların qaladığı tonqalların arasından keçirib Peyğəmbərin(s) hüzuruna gətirir. Yolda Ömərin gözü Əbu Süfyana sataşdıqda onu qətlə yetirmək istəyir. Lakin Abbas ona aman verdiyindən toxunulmazlıq hüququ var idi. Peyğəmbərin(s) çadırına yaxınlaşdıqda hər ikisi qatırdan enərək həzrətin çadırına daxil olur. Peyğəmbərin(s) hüzurunda da Ömərlə Əbu Süfyan mübahisə edir. Ömər Əbu Süfyanı öldürməyə israr edir, Abbas isə ona aman verdiyini və verdiyi amana hörmət qoyulmasının lazım olduğunu bildirirdi. Peyğəmbər(s) Əbu Süfyanın səhərə qədər xüsusi bir çadırda saxlanılmasını tapşırmaqla yaranmış mübahisəyə son qoyur.

Səhər açılan kimi Abbas Əbu Süfyanı Peyğəmbərin(s) hüzuruna gətirir. Mühacir və Ənsar həzrəti dövrəyə almışdılar. Həzrətin gözü Əbu Süfyana sataşdıqda buyurur: «Allahdan başqa tanrı olmadığını qəbul etməyin vaxtı gəlib çatmayıbmı?» Əbu Süfyan həzrətin cavabında deyir: «Atam-anam sənə qurban, necə alicənab, öz qohumlarınla mehribansan! Mən indi başa düşdüm ki, Allahdan başqa tanrı olsaydı, bu vaxtadək bizim xeyrimizə nəsə bir iş görərdi.» Əbu Süfyan Allahın təkliyini etiraf etdikdən sonra həzrət buyurur: «Mənim də peyğəmbər olduğumu qəbul etməyin vaxtı çatmayıbmı?» Əbu Süfyan əvvəlki cümləsini bir daha təkrarlayaraq deyir: «Sənin peyğəmbər olduğun barədə düşünürəm.» Abbas Əbu Süfyanın tərəddüd etməsindən narahat olub deyir: «İslamı qəbul etməsən, canın təhlükədədir. Tez Allahın təkliyini və Mühəmmədin(s) peyğəmbər olduğunu qəbul et!» Yalnız bundan sonra Əbu Süfyan İslamı qəbul edərək müsəlmanların sırasına qoşulur.

Əbu Süfyan qorxduğuna görə iman gətirmişdir və Peyğəmbər(s) bu cür imanı arzulamazdı. Lakin müəyyən səbəblərə görə Əbu Süfyanın

müsəlmanlara qoşulması lazım idi ki, Məkkə camaatının iman gətirməsinin qarşısında duran əsas maneə aradan qaldırılsın. Çünki Əbu Süfyan, Əbu Cəhl, Əkrəmə, Səffan ibn Üməyyə kimilər camaat arasında elə vahimə yaratmışdılar ki, heç kim İslam haqqında düşünməyə cürət etmirdi. Üzdə iman gətirməsinin Əbu Süfyanın özü üçün heç bir faydası olmasa da, Peyğəmbər(s) və müsəlmanlar üçün çox faydalı idi.

Məkkə fəth edilməyənə qədər Əbu Süfyanın fitnəsindən arxayın olmadığı üçün Peyğəmbər(s) onu sərbəst buraxmır. Abbas isə Əbu Süfyanın həmişə hörmət sahibi olduğunu bildirərək həzrətə deyir ki, yaxşı olar onun hörmətini qoruyaq. İyirmi ildə ən böyük zərbələri vurmasına baxmayaraq Peyğəmbər(s) müəyyən səbəblərə görə onun hörmətini saxlayıb buyurur: «Əbu Süfyan camaata çatdırsın ki, Məhcidül-hərama pənah gətirən və ya silahını yerə qoyan, evinin qapısını bağlayan, yaxud bitərəf olduğunu bildirən, ya da Əbu Süfyanın evinə sığınan (bəzi mənbələrdə Hükeym ibn Həzamın evinə sığınan qeyd olunub) hər bir şəxs amanda qalacaqdır.»[1]

*Məkkənin müqavimətsiz ələ keçirilməsi*

İslam ordusu Məkkənin bir neçə kilometrliyinədək yaxınlaşmışdı. Peyğəmbər(s) şəhərin müqavimətsiz olaraq ələ keçirilməsini, düşmənin qeyd-şərtsiz təslim olmasını arzulayırdı. Bu istəyin reallaşmasına səbəb olan amillərdən biri də o oldu ki, Abbas xeyirxaxlıq məqsədilə Məkkəyə girib Əbu Süfyanı müsəlmanların düşərgəsinə gətirir. Qüreyiş böyükləri Əbu Süfyansız heç bir iş görə bilməz, qərar qəbul etməzdilər. O, məcburiyyət qarşısında olsa da İslamı qəbul etdikdə Peyğəmbər(s) ondan maksimum istifadə etməyə çalışır. Buna görə də İslam ordusunu onun gözləri qarşısından keçirir ki, qoy müsəlmanların gücünü yaxından görsün, Məkkəyə qayıtdıqda camaatı qorxutsun və nəticədə məkkəlilər müqavimət göstərmədən təslim olsunlar.

İslam ordusunda əsasən aşağıdakı dəstələr yer almışdı:

1) Xalid ibn Vəlidin başçılığı ilə Bəni-Səlim qəbiləsindən min nəfərlik dəstə. Onların iki bayrağı var idi. Birini Abbas ibn Mərdas, digərini isə Miqdad götürmüşdü.

---

[1] Sireyi İbn Hişam, c-2, s-400-404; Məğazi Vaqidi, c-2, s-816-818

2) Zübeyr ibn Əvvamın başçılığı altında beş yüz nəfərlik bir dəstə. Əksəriyyəti mühacirlərdən təşkil olunmuş bu dəstənin qara bayrağı var idi.

3) Əbuzərin başçılıq etdiyi Bəni-Qifar qəbiləsindən üç yüz nəfərlik bir dəstə.

4) Yezid ibn Xüseybin başçılıq etdiyi Bəni-Əsləm qəbiləsindən dörd yüz nəfərlik bir dəstə.

5) Bişr ibn Süfyanın başçılıq etdiyi Bəni-Kəb qəbiləsindən beş yüz nəfərlik bir dəstə.

6) Müzeynə tayfasından min nəfərlik bir dəstə. Onların üç bayrağı var idi. Birini Noman ibn Muqrin, digərini Bilal ibn Haris, üçüncüsü isə Abdullah ibn Əmr götürmüşdü.

7) Cüheynə tayfasından səkkiz yüz nəfərlik bir dəstə. Dörd bayrağı olan bu dəstənin bayraqlarından biri Mubid ibn Xaliddə, biri Süveyd ibn Səxrədə, biri Rafe ibn Mükeysdə, sonuncusu da Abdullah ibn Bədrdə idi.

8) Əbu Vaqid Leysinin rəhbərliyi ilə Bəni-Kənanə, Bəni-Leys və Bəni-Zəmrə tayfalarından dörd yüz nəfərlik bir dəstə.

9) Bəni-Əşcə tayfasından üç yüz nəfərlik bir dəstə. Onların iki bayrağı var idi. Birini Məqəl ibn Sənan, digərini isə Nüeym ibn Məsud götürmüşdü.

Qeyd olunan dəstələr Əbu Süfyanın qarşısından keçdikdə o, hər bir dəstə haqqında Abbasdan bəzi suallar soruşur, Abbas da cavab verirdi. Ən maraqlısı isə o idi ki, hər bir dəstə Əbu Süfyanın qarşısından keçərkən dəstə başçısı onun qarşısında dayanıb üç dəfə «Allahu əkbər» deyir, dəstə üzvləri də başçının dediyini təkrarlayırdı. Bu təkbir səsləri Məkkənin dağ-dərələrində elə əks-səda verirdi ki, müsəlmanlarda qürur, düşmənlərdə isə qorxu hissi yaradırdı.

Əbu Süfyan böyük səbirsizliklə Peyğəmbərin(s) yer aldığı dəstənin gəlişini gözləyirdi. Hər bir dəstə keçdikdə Əbu Süfyan Abbasdan Peyğəmbərin(s) həmin dəstənin tərkibində olub-olmadığını soruşur, Abbas isə ona mənfi cavab verirdi. Bu vaxt iki min nəfəri zireh geymiş, müəyyən fasilələrlə bayraqlar götürmüş beş min nəfərlik böyük bir dəstə Əbu Süfyanla Abbasın diqqətini cəlb edir. Başdan-ayağa silahla təchiz edilmiş bu dəstənin adı yaşıl ordu idi. Dəstədə yer alan müsəlmanların

gözlərindən başqa heç bir yeri görünmürdü. Bu dəstədə çoxlu sayda iti qaçan atlar və qırmızıyunlu dəvələr var idi. Peyğəmbər(s) öz dəvəsi ilə dəstənin düz ortasında qərar tutmuşdu. Mühacir və Ənsarın sayılıb-seçilən adamları da həzrəti əhatəyə almışdılar. Bu dəstənin əzəmətindən heyrətə gələn (və eyni zamanda qorxuya düşən) Əbu Süfyan ixtiyarsız olaraq Abbasa deyir ki, bunların qarşısında heç bir ordu tab gətirə bilməz. Abbas, qardaşın oğlunun hakimiyyəti həddən artıq möhkəmlənib. Abbas isə üzünü turşudaraq ona deyir: «Mənim qardaşım oğlu yalnız Allah tərəfindən ona verilmiş peyğəmbərlik iddiasında olub və onun qüdrətini zahiri, maddi qüdrətlərlə qarışdırmaq olmaz.»

***Əbu Süfyanın Məkkəyə qayıdışı***

Bura qədər Abbas öhdəsinə düşən məsuliyyətin öhdəsindən layiqincə gələrək Əbu Süfyanda qorxu, vahimə yarada bilir. Peyğəmbər(s) belə məsləhət görür ki, Əbu Süfyanı azad edib Məkkəyə qaytarsın və o, müsəlmanlar şəhərə daxil olmazdan qabaq gedib əhaliyə çıxış yolunu başa salsın. Çünki camaatı qorxutmaqla məsələ həll olunmurdu, çıxış yolunu da onlara göstərmək lazım idi.

Əbu Süfyan Məkkəyə qayıdır. Bütün gecəni qorxudan gözlərinə yuxu getməyən camaat dərhal onun ətrafına toplaşır. Əbu Süfyan rəngi qaçmış halda, bədəni titrəyə-titrəyə, Mədinəyə sarı işarə edərək camaata deyir: «Heç bir ordunun müqavimət göstərə bilməyəcəyi İslam ordusu şəhəri mühasirəyə alıb. Bir qədər sonra şəhərə daxil olacaqlar. Mühəmməd mənə söz verdi ki, Məscidül-hərama daxil olan, silahını yerə qoyub evinin qapısını bağlayan, yaxud mənim və ya Hükeym ibn Həzamın evinə sığınan hər bir şəxs amandadır. Onların nə canına, nə də malına toxunulmayacaqdır.»

Peyğəmbər(s) Məkkəyə daxil olduqdan sonra toxunulmazlıq hüququ verilmiş yerlərdən əlavə Abdullah Xüsəmiyə bir bayraq verərək deyir ki, uca səslə de: «Hər kim bu bayrağın ətrafına gələrsə, heç kim ona toxunmayacaq.»[1]

Əbu Süfyanın sözlərindən sonra müqavimət göstərmək fikrində olanlar da fikirlərindən daşınır. Beləliklə də Abbasın gördüyü tədbir öz

---

[1] İmtaul-əsma, c-1, s-379

bəhrəsini verir və Məkkə şəhəri müqavimətsiz olaraq ələ keçirilir. Məkkə əhalisi hərə bir yerə sığınır. İslamın bir nömrəli düşməni bu hərəkəti ilə İslama böyük xidmət göstərmiş oldu. Ərindən fərqli olaraq Əbu Süfyanın arvadı Hind camaatı müqavimət göstərməyə səsləyirdi. Ancaq iş-işdən keçmişdi. Artıq gec idi. Səfvan ibn Üməyyə, Əkrəmə ibn Əbu Cəhl, Süheyl ibn Əmr kimi radikal müşriklər müsəlmanları şəhərə buraxmayacaqlarına dair and içirlər. Bəzi sadəlövhlər də onlara qoşulub Məkkəyə daxil olan ilk müsəlman dəstəsinə müqavimət göstərirlər.

***İslam ordusunun Məkkəyə daxil olması***

İslam ordusu Məkkəyə daxil olmazdan qabaq Peyğəmbər(s) bütün sərkərdələri bir yerə toplayıb onlara buyurur: «Mənim istəyim odur ki, Məkkə müqavimətsiz, qan tökülmədən təslim olsun. Buna görə də maneçilik törətməyənlərlə qətiyyən işiniz olmasın.» Lakin Əkrəmə ibn Əbu Cəhl, Həbbar ibn Əsvəd, Abdullah ibn Səd ibn Əbu Sərh, Miqeys Hübabə Leysi, Hüveyris ibn Nüqeyz, Abdullah ibn Xətəl, Səfvan ibn Üməyyə, Vəhşi ibn Hərb (Həmzənin qatili), Abdullah ibn Zübeyri və Haris ibn Təlatilə və həmçinin cinayətlər törətmiş və ya döyüşlərin başlamasına səbəb olmuş dörd qadını harada tutularsa, dərhal edam edilməsini tapşırır.[1] Sərkərdələr Peyğəmbərin(s) bu tapşırığını bütün müsəlmanlara çatdırırlar.

Peyğəmbər(s) Məkkə əhalisinin vəziyyətinin nə yerdə olduğunu bilsə də, buna baxmayaraq yenə ehtiyatını əldən vermir. Müsəlmanlar hamılıqla Zu-tuva adlı yerə gəlib (oradan Məkkənin bütün evləri, Məscidül-həram, Kəbə çox rahat görünürdü) ən hündür yerdə toplaşırlar. Həzrət Məkkə evlərini gördükdə sevinc göz yaşlarını saxlaya bilmir. Şəhəri müqavimətsiz ələ keçirdiyinə görə şükr əlaməti olaraq o qədər əyilir ki, saqqalı dəvənin belinə dəyir. Peyğəmbər(s) ehtiyatlı davranaraq müsəlmanları müxtəlif dəstələrə bölüb bir hissəsini Məkkənin yuxarı, digər hissəsini isə aşağı tərəfindən şəhərə göndərir. Bununla da kifayətlənməyib şəhərə gedib çıxan bütün yollara kiçik dəstələr göndərir. Əkrəmə, Səfvan və Süheylin təhriki ilə müqavimət göstərməyə çalışan Xalid ibn Vəlidin dəstəsi ilə üzləşən

[1] Sireyi İbn Hişam, c-2, s-409; Tarixul-xəmis, c-2, s-90-94

müsəlman dəstəsi istisna olmaqla, bütün müsəlmanlar Məkkəyə müqavimətsiz daxil olurlar. Xalid ibn Vəlidin dəstəsi də on iki-on üç ölü verdikdən sonra müqaviməti dayandırır.[1] Bu zaman Əbu Süfyan heç özü də bilmədən İslama böyük bir xeyir verir. Belə ki, müqavimət göstərənlərə xitab edərək deyir ki, ay qüreyşlilər, döyüşməyin mənası yoxdur, canınıza heyfiniz gəlsin. Mühəmmədin ordusu qabağında heç kəs tab gətirə bilməz. Silahlarınızı atın, gedin evlərinizə, ya da Məscidül-hərama! Belə etsəniz, heç kim sizə dəyib dolaşmaz.

Əbu Süfyanın bu müraciəti öz təsirini göstərir. Əksər müşriklər silahları yerə atıb ya evlərinə, ya da Məscidül-hərama gedirlər.

Məkkənin ən hündür nöqtəsi olan Əzaxirdən Xalidin dəstəsinin müqavimət göstərdiyini görən Peyğəmbər(s) buyurur ki, Allah bilən məsləhətdir. Bir qədər sonra həzrət misli görünməmiş bir izdihamla, hörmət-izzətlə Məkkəyə daxil olur. Əmisi Əbutalibin qəbri yaxınlığında – «Hücunda» çadır qurulur ki, Peyğəmbər(s) bir qədər istirahət etsin. Həzrəti evə aparmaq istəyənlər nə qədər israr etsələr də, o, burada qalmağa üstünlük verir.

***Bütlərin sındırılması, Kəbənin yuyulması***

Uzun illərdən bəri bütpərəstlik mərkəzinə çevrilmiş Məkkə indi İslam ordusunun ixtiyarında idi. Peyğəmbər(s) onun üçün hazırlanmış çadırda bir qədər istirahət etdikdən sonra dəvəyə minərək Məscidül-hərama ziyarətə, Kəbəni təvaf etməyə gəlir. Əynində zireh, əlində dəbilqə tutmuş Peyğəmbəri(s) böyük bir izdiham müşayiət edirdi. Dəvənin ovsarını Məhəmməd ibn Məsləmə tutmuşdu. Yol boyu müsəlman və müşrik dəstələri düzülmüşdü. Kimisi qorxu, kimisi də sevinc içərisində idi. Müəyyən səbəblərə görə Peyğəmbər(s) dəvədən düşmədən Məscidül-hərama daxil olub «Qara daşın» qarşısında dayanır. «Qara daşa» əlini sürtmək əvəzinə əlindəki əsa ilə daşa işarə edərək (Allahu əkbər) deyir. Pərvanə kimi həzrətin başına dolanan səhabələr də uca səslə təkbir deyirlər. Onların səsi evlərinə, dağlara çəkilmiş məkkəlilərin qulağına çatır. Məscidül-həramda böyük bir coşqu var idi. İzdiham Peyğəmbərin(s) təvaf etməsinə də mane olurdu.

[1] Sireyi İbn Hişam, c-2, s-408; Məğazi Vaqidi, c-2, s-825-826

Buna görə də həzrət camaata işarə edərək sakit olmalarını istəyir. Çox çəkmir ki, bütün məscidə sükut hakim kəsilir. Bütün diqqətlər Peyğəmbərə(s) yönəlmişdi. Həzrət təvaf edərkən elə birinci dövrədə gözü Kəbənin qapısının üstünə düzülmüş Hübəl, Əsaf və Nailə adlı böyük bütlərə sataşır. Əlindəki nizəsi ilə onlara möhkəm bir zərbə vuraraq üçünü də yerə atır. Dərhal da aşağıdakı ayəni oxuyur: ***«Haqq gəldi, batil (nahaq) getdi, doğrudan da batil gedəsidir.»***

Peyğəmbərin(s) əmri ilə Hübəl müşriklərin gözü qabağında sındırılır. Zübeyr istehzalı şəkildə Əbu Süfyana deyir ki, Hübəl sındırıldı. Əbu Süfyan narahat olaraq ona belə cavab verir: «Bəsdir, bizimlə işin olmasın. Hübəlin əlindən bir şey gəlsəydi, indi vəziyyətimiz belə olmazdı.»

Peyğəmbər(s) təvafı bitirib məscidin bir küncündə əyləşir. Sonra da Bilalı çağırıb Kəbənin açarını almaq üçün Osman ibn Təlhənin evinə göndərir. Kəbənin açarı nəsilbənəsil onlarda saxlanılırdı. Bilal Peyğəmbərin(s) sözünü Osmana çatdırdıqda anası etiraz edərək deyir: «Kəbənin açarını saxlamaq bizim nəslin şərəfidir. Biz bu şərəfi itirə bilmərik.» Bu vaxt Osman ibn Təlhə anasının əlindən tutub onu yan otağa apararaq deyir ki, anacan, açarı xoşluqla verməsək də güclə alacaqlar.[1]

Osman Kəbənin qapısını açır. Peyğəmbər(s), ardınca da Üsamə ibn Zeyd, Bilal və Osmanın özü içəri daxil olur və həzrətin göstərişi ilə qapı arxadan bağlanır. Xalid ibn Vəlid Kəbə qapısının ağzında dayanıb izdihamın qarşısını almağa çalışırdı. Kəbə divarları içəridən peyğəmbərlərin şəkilləri ilə dolu idi. İçəridəkilər Zəmzəm suyu ilə divarları yuyub şəkilləri pozurlar.

### *Əli(ə) Peyğəmbərin(s) çiynində*

Tarixçi və hədis nəql edənlər yazırlar: «Kəbənin daxilində və xaricində olan bəzi bütləri Əli(ə) sındırır. Peyğəmbər(s) Əliyə(ə) buyurur ki, əyil, mən sənin çiyninə qalxıb bütləri sındırım. Əli, aşağı əyilir, Peyğəmbər(s) də onun çiyninə qalxır. Lakin bu zaman Əli(ə)

---

[1] Məğazi Vaqidi, c-2, s-833

həddən artıq ağırlıq hiss edir. Bundan xəbər tutan Peyğəmbər(s) Əlinin(ə) çiynindən yerə düşüb ona buyurur ki, sən mənim çiynimə qalx. Əli(ə) də həzrətin çiyninə qalxıb öncə misdən düzəlmiş böyük bütü, ardınca da digər bütləri yerə ataraq sındırır.»[1]

Hicri doqquzuncu əsr şairlərindən olan İbn Ərəndis Hilli bu böyük fəzilət haqqında yazdığı qəsidəsində deyir: «Əlinin Əhmədin çiyninə qalxması onun üçün olduqca böyük fəzilətdir. Bu qohumluq və səhabəlikdən də üstündür.»

Peyğəmbərin(s) əmri ilə Kəbənin qapısı açılır, həzrət əllərini qapının haşiyəsinə dirəyərək camaata üz tutub buyurur: «Öz vədəsinə əməl edərək bəndəsinə kömək edən və düşməni təkbaşına dağıdan Allaha həmd olsun!» Həqiqətən də Allah-taala Peyğəmbəri(s) öz yurduna qaytaracağına dair vəd verərək buyurmuşdu: ***«Quranın çatdırılmasını sənə vacib edən Allah səni mütləq öz yurduna qaytaracaq.»***[2]

Bu cümlə ilə Peyğəmbər(s) bir daha yalançı olmadığını sübut edib verilən vədənin gerçəkləşdiyini çatdırır.

Məscidül-həramı sükut bürümüşdü. Hərənin beynində müxtəlif fikirlər dolaşırdı. Məkkə müşrikləri Peyğəmbərə(s) etdikləri zülm, haqsızlıqları yada salıb arzuolunmaz aqibətlə üzləşəcəklərini düşünürdülər. Həzrətlə müharibəyə qalxıb yaxınlarını qətlə yetirənlər, hətta özünü də öldürmək istəyənlər indi onun sərəncamında idilər. İndi Peyğəmbər(s) onlardan istədiyi kimi intiqam almaq iqtidarında idi. Müşriklər bu acı xatirələri xatırlayaraq bir-birinə deyirdilər ki, yəqin Mühəmməd hamımızı öldürəcək, ya da kimlərisə öldürüb, kimlərisə əsir götürəcək. Onlar bu şeytani fikirlərə qərq olduğu bir halda Peyğəmbər(s) aşağıdakı sözləri ilə sükutu pozub dilləndi: «Nə deyirsiniz? Nə düşünürsünüz?» Heyrət içərisində çaş-baş qalmış müşriklər titrək səslə cavab verdilər ki, biz sənin barəndə yaxşılıqdan başqa bir şey düşünmürük. Səni öz böyük qardaşımız, böyük qardaşımızın oğlu sayırıq. Onsuz da səmimi olan Peyğəmbər(s) onların belə mehriban davranışından təsirlənib buyurdu ki, bu gün mən də sizə Yusif peyğəmbərin öz

[1] Bu tarixi hadisənin mənbələri haqqında əl-Qədir kitabına (c-7, s-10-13) müraciət edə bilərsiniz.
[2] Qəsəs-85

qardaşlarına buyurduğu sözü deyirəm: «Bu gün sizə heç bir günah yoxdur. Allah sizi bağışlayar, O, çox rəhimlidir.»

Məkkə müşrikləri bu ana qədər də nisbətən arxayınlaşıb Peyğəmbərin(s) onlara güzəştə gedəcəyini təxmin etmişdilər. Belə ki, müsəlman sərkərdələrindən biri Məkkəyə daxil olarkən: «Bu gün döyüş günüdür. Bu gün sizin canınız da, malınız da bizə halaldır.»-məzmunlu bir beyt oxuduqda Peyğəmbər(s) ona öz etirazını bildirmiş və etiraz əlaməti olaraq onu sərkərdəlik vəzifəsindən azad etməklə bayrağı ondan geri almışdı. Bəzi mənbələrdə Əlinin(ə), bəzi mənbələrdə isə onun öz oğlu sərkərdə seçilərək atasından bayrağı geri aldığı göstərilir. Həmin sərkərdə Xəzrəc qəbiləsinin başçısı Səd ibn Übadə olmuşdur. Təbii ki, Peyğəmbərin(s) belə davranışı məkkəliləri ümidləndirməyə bilməzdi. Belə olan halda müşriklər əfv ediləcəklərini gözləyirdilər. Üstəlik Əbu Süfyan da Məscidül-hərama və yaxud onun evinə sığınanlara, yaxud öz evində oturub qapısını bağlayanlara aman vermişdi.[1]

Hamı səbirsizliklə Peyğəmbərin(s) hansı qərar qəbul edəcəyini gözləyirdi. Həzrət aşağıdakı cümlələrlə ümumi əfv qərarı çıxarır: «Siz mənə çox pis həmvətənlər oldunuz. Peyğəmbər olduğumu inkar edib məni öz yurd-yuvamdan qovdunuz. Sığındığım yerdə də rahat buraxmayıb üstümə döyüşə gəldiniz. Bütün bunlara rəğmən mən yenə də sizi bağışlayır və üzümü sizə tutub deyirəm ki, çıxın gedin, siz azad olunmuşlarsınız.»[2]

### *Bilalın Kəbədə azan verməsi*

Zöhr namazının vaxtı çatmışdı. İslamın ilk azançısı Bilal Kəbə damına qalxıb uca səslə azan oxumağa başlayır. İnadkar müşriklər azan səsini eşitdikdə müxtəlif sözlər deyirdilər. Kimisi deyirdi ki, xoş filankəsin halına, bu səsi eşitmədən ölüb getdi. Əbu Süfyan isə bu haqda fikir bildirməyərək deyir: «Mən heçnə deməyəcəyəm. Çünki Mühəmmədə xəbər çatdıranlar elə məharətlə işləyirlər ki, qorxuram məscidin daşları da ona işləsin.» Ömrünün sonunadək əsl İslam nuru qəlbinə saçmayan bu nadan qoca qeyblə əlaqəni xəbərçilikdən ayırd edə bilmirdi.

---

[1] Məğazi Vaqidi, c-2, s-835; Biharul-ənvar, c-21, s-107, 132

[2] Biharul-ənvar, c-21, s-107

Zöhr namazını qıldıqdan sonra Peyğəmbər(s) Osman ibn Təlhəni çağırtdıraraq Kəbənin açarlarını ona təhvil verib buyurur: «Bu vəzifə (Kəbə açarlarını saxlamaq) sizin ailəyə məxsusdur və onu heç kəs sizdən ala bilməz.» Allah-taalanın: «Allah əmanətləri sahiblərinə qaytarmağı sizə əmr edir»[1]-deyə buyurduğu bir halda Peyğəmbərdən(s) də məhz bu gözlənilirdi. Əmanətləri sahibinə qaytarmaqda Peyğəmbər(s) başqalarına örnək olmalı idi. Buna görə rəsmən camaata elan edir ki, Kəbənin açarlarını saxlamaq vəzifəsi Osman ibn Təlhənin ailəsinə məxsusdur və bu vəzifəni heç kim onlardan ala bilməz. Yeri gəlmişkən qeyd etməliyik ki, Peyğəmbər(s) Kəbənin açarlarının saxlanılması, Kəbə üçün örtük hazırlanılması və zəvvarlara su paylanılması vəzifələri istisna olmaqla Kəbə ilə bağlı Cahiliyyət dövründən qalmış digər vəzifələri ləğv edir.

### *Peyğəmbərin(s) öz qohumları ilə söhbəti*

Peyğəmbərin(s) qohumları o həzrətlə qohum olduqlarına görə başqalarından fərqləndiklərini, xüsusi üstünlüyə malik olduqlarını düşünməsinlər deyə, Peyğəmbər(s) onlarla görüşüb bir xütbə oxuyur və onlara başa salır ki, ona qohum olmaları bundan sui-istifadə etmələrinə səbəb olmamalıdır. Ədalət və bərabərliyin qaçılmaz olduğunu bildirən Peyğəmbər(s) buyurur: «Ey Bəni-Haşim və Əbdülmüttəlib övladları! Mən başqalarına olduğu kimi sizə də Allahın göndərilmiş peyğəmbəriyəm. Bizim aramızdakı qohumluq telləri qırılmazdı. Ancaq elə təsəvvür etməyin ki, mənimlə qohumluğunuz sizi axirət günündən asudə edə bilər. Bunu hamı bilməlidir ki, mənim dostum yalnız təqvalı olan, Allahdan qorxan şəxsdir. Günahkar insanlarla mənim dostluğum baş tutmaz. Mən qiyamətdə onun üçün heç nə edə bilmərəm. Mən öz əməllərimə, siz də öz əməllərinizə görə məsuliyyət daşıyırsınız.»[2]

### *Peyğəmbərin(s) Məscidül-həramdakı tarixi xütbəsi*

Kəbə ətrafında böyük izdiham var idi. Müsəlman və müşrik, dost-düşmən-hamı bir araya gəlmişdi. İslamın və Peyğəmbərin(s) əzəməti hər tərəfi bürümüşdü. Peyğəmbərin(s) öz dəvətinin əsl mahiyyətini açıqlamaq üçün çox gözəl fürsət idi. Təxminən iyirmi il öncə başlayıb

---

[1] Nisa-58

[2] Biharul-ənvar, c-21, s-111

müşriklərin inadkarlığı üzündən açıqlaya bilmədiyi dəvəti indi bəyan etməyin vaxtı idi.

Peyğəmbər(s) özü də məkkəli olduğundan, təbii ki, məkkəlilərin dərdini və bu dərdlərin dərmanını çox yaxşı bilirdi. O, Məkkə camaatının haqdan uzaq düşmələrinin əsl səbəbini yaxşı anlayırdı. Buna görə də bu dərdlərə məlhəm qoymaq qərarına gəlir. İndi həzrətin buyurduğu xütbədən bəzi məqamları diqqətinizə çatdırırıq.

***1) Əsl-nəsəblə öyünmə***

Əsl-nəsəblə öyünüb fəxr etmək ərəblərin ən ümdə problemlərindən biri olmuşdur. Ərəblər arasında ən böyük şərəf, fəxr edilə biləcək ən əsas amil sayılıb-seçilən hansısa bir qəbiləyə mənsub olmaları idi. Peyğəmbər(s) bu yanlış fikri aradan qaldırmaq məqsədilə buyurur: «Ay camaat, Allah-taala İslam sayəsində Cahiliyyət adət-ənənələrini aradan qaldırmışdır. Heç kim ata-babası (əsl-nəsəbi) ilə fəxr etməsin. Hamınız Adəmdən, Adəm isə torpaqdan yaradılmışdır. Ən yaxşı insan təqvalı olan, Allahdan qorxan şəxsdir.» Həzrət üstünlüyün yalnız təqva əsasında olduğunu daha qabarıq şəkildə çatdırmaq üçün öz xütbəsində insanları iki dəstəyə bölür və yalnız təqvanın üstünlük meyarı olduğunu söyləməklə digər özəlliklərin üstündən xətt çəkərək buyurur: «Allah dərgahında insanlar iki dəstəyə bölünür. Bir dəstə Allahdan qorxub təqvalı olanlar, digəri isə Allaha asi çıxıb günah edənlər. Birinci dəstə Allahın nəzdində hörmətli, ikinci dəstə isə xardır.»

***2) Ərəb olmaqla öyünmə***

Peyğəmbər(s) çox yaxşı bilirdi ki, bu millət ərəb olduğu üçün özünü başqalarından üstün hesab edir. Bu fikir onların qanına qarışmışdı. Bu fikrin də yanlış olduğunu çatdırmaq məqsədilə həzrət belə buyurur: «Ərəb olmağın heç bir özəlliyi, üstünlüyü yoxdur. Öhdəsinə düşən məsuliyyəti yerinə yetirməkdə səhlənkarlıq edən şəxsə əsl-nəsəbi, milliyəti heç nə ilə kömək edə bilməz.»

***3) İnsanlar arasındakı bərabərlik***

Peyğəmbər(s) millətindən, irqindən asılı olmayaraq bütün insanların bərabər olduğunu söyləyərək buyurur: «Adəmin dövründən

bu günümüzədək bütün insanlar daraq dişləri kimi bərabər olmuşlar. Ərəbin qeyri-ərəbdən, qırmızıdərilinin qaradərilidən heç bir fərqi yoxdur. Üstünlük yalnız və yalnız təqva əsasındadır.»

Peyğəmbər(s) hələ yeddinci əsrdə insanlar arasındakı bərabərliyi, hüquqları açıqlayaraq irqçiliyə qarşı mübarizə aparmışdır.

***4) Yüz illik müharibələr və köhnə ədavət***

Uzun-uzadı döyüşlər, qarətlər nəticəsində ərəblər olduqca kinli, ədavətli bir millətə çevrilmişdi. Çox cüzi səbəblər böyük döyüşlərin başlanmasına səbəb olurdu. Bütün Ərəbistan yarımadasına hakim kəsilən Peyğəmbər(s) indi belə böyük bir problemlə üzləşmişdi və buna mütləq bir çarə qılmaq tələb olunurdu. Peyğəmbər(s) çıxış yolunu bunda görür ki, Cahiliyyət dövründə baş vermiş qırğınların hamısı unudulsun. Məhz bu yolla sabitliyi qoruyub saxlamaq mümkün olardı. Buna görə də həzrət buyurur: «Ay camaat, Cahiliyyət dövründəki mal-dövlət iddiası, döyüşlər və öyünmələr qüvvədən düşür, bu gündən etibarən onların hamısı etibarsız sayılır.»

***5) İslam qardaşlığı***

Peyğəmbərin(s) buyurduğu xütbənin bir hissəsi müsəlmanın digər müsəlmanın boynundakı hüquqlarına həsr olunmuşdu. Həzrət bu kimi sözlərlə qeyri-müsəlmanlarda İslama maraq yaratmaq və bu yolla onları da İslama cəlb etmək məqsədi güdürdü. Bu məqsədlə Peyğəmbər(s) belə buyurur: «Müsəlman müsəlmanın qardaşıdır. Bütün müsəlmanlar bir-biri ilə qardaşdırlar. Qeyri-müsəlmanlarla münasibətdə onlar bir ələ bənzəyirlər. Hamının hüququ bərabərdir. Ən kiçik müsəlman belə bütün müsəlmanlar adından aman verə bilər.»[1]

***Cinayətkarların yaxalanması***

Peyğəmbərin(s) mehriban, səmimi, güzəştə gedən olmasında qətiyyən şübhə yoxdur. Bəzi səhabələrin etirazına rəğmən, o həzrət ümumi əfv qərarı verir. Ancaq buna baxmayaraq bir neçə nəfər var idi ki, onların əfv edilməsi əsla məsləhət deyildi. Çünki onların törətdiyi

[1] Sireyi İbn Hişam, c-2, s-412; Biharul-ənvar, c-21, s-105

cinayətlərə göz yumub əfv ediləcəkləri təqdirdə yenə də həmin cinayətlərə əl ata bilərdilər. Buna görə də müsəlmanlar onların bəzisini küçədə, bazarda, hətta məsciddə yaxalayıb qətlə yetirirlər. İki nəfər isə[1] Əmirəl-möminin Əlinin(ə) bacısı Ümmi Haninin evinə sığınır. Əli(ə) bundan xəbər tutduqda silahlanmış halda bacısının evini mühasirəyə alır. Ümmi Hani evdən çıxdıqda tanımadığı bir sərkərdə ilə üzləşir. Dərhal özünü təqdim edərək deyir ki, mən müsəlman bir qadın olaraq bu iki nəfərə aman vermişəm. Müsəlman qadının verdiyi aman da müsəlman kişinin verdiyi aman kimi etibarlı olmalıdır. Bu zaman Əli(ə) özünü tanıtdırmaq üçün dəbilqəni başından çıxarır. Ümmi Hani qardaşını görcək tanıyır. Taleyin uzun illər ayrı saldığı bacı-qardaş qol-boyun olub qucaqlaşırlar. Hər ikisinin gözündən sevinc yaşları axır. Hər ikisi Peyğəmbərin(s) hüzuruna gəldikdə həzrət, Ümmi Haninin verdiyi amanın qüvvədə qaldığını bildirir.

Öldürülməsi barədə əmr verilmiş on nəfərdən biri də əvvəlcə İslamı qəbul edib yenidən kafir olmuş Abdullah ibn Səd ibn Əbu Sərh idi. Lakin o da Osmanın vasitəçiliyi ilə canını ölümdən qurtarır.

Bədr döyüşündən sonrakı döyüşlərin əsas səbəbkarlarından olan Əkrəmə ibn Əbu Cəhl Yəmənə qaçsa da sonradan həyat yoldaşının vasitəçiliyi ilə o da əfv edilir.

Bədr döyüşündə qətlə yetirilmiş Üməyyənin oğlu Səfvan da ölüm hökmü verilənlər arasında idi. O, günün günorta çağı bir müsəlmanı atasının qisası adı ilə dara çəkməklə yanaşı bir sıra digər cinayətlər də törətmişdi. Öldürüləcəyini qət etdikdə dəniz yolu ilə Hicazı tərk etmək qərarına gəlir. Ümeyr ibn Vəhəb Peyğəmbərdən(s) onu əfv etməsini xahiş etdikdə həzrət onun sözünü yerə salmır, Səfvanı əfv edir. Ümeyr Cəddə limanına gəlib Səfvanın əfv edildiyini ona çatdırır və hər ikisi Məkkəyə dönür. Peyğəmbərin(s) gözü zəmanənin ən böyük cinayətkarlarından olan Səfvana sataşdıqda son dərəcə mehribanlıqla buyurur ki, sənin canın da, malın da toxunulmazdır, lakin yaxşı olar İslamı qəbul edəsən. O, bu barədə düşünüb qərar vermək üçün iki ay möhlət istəyir. Peyğəmbər(s)

[1] İbn Hişam bu iki nəfərin Haris ibn Hişam və Züheyr ibn Əbu Üməyyə olduğunu qeyd etmişdir.

isə daha yaxşı düşünüb-daşınmaq və İslamı cani-dildən qəbul etməsi üçün ona dörd ay möhlət verir. Dörd ay başa çatmamış Səfvan İslamı qəbul edərək müsəlmanların sırasına qoşulur.[1]

Bu kimi hadisələri obyektiv şəkildə araşdırdıqda məlum olur ki, qərəzli şərqşünasların söylədiyinin əksinə olaraq müşrik başçıları İslamı qəbul etməkdə tam sərbəst olmuş və hər hansı məcburiyyətdən söhbət gedə bilməz. Onlar nəinki məcbur edilməmiş, hətta səy göstərilmişdir ki, İslamı düşünüb şüurlu şəkildə qəbul etsinlər.

İndi isə diqqət çəkən iki məqama toxunmağı məqsədəuyğun hesab edirik.

***Məkkə qadınlarının Peyğəmbərə(s) beyəti***

Əqəbə beyətindən sonra[2] Peyğəmbər(s) ilk dəfə olaraq aşağıdakı işlərlə əlaqədar qadınlarla beyət edir:

1) Allaha şərik qoşmasınlar.
2) Oğurluq etməsinlər.
3) Pozğunluq etməsinlər.
4) Uşaqlarını öldürməsinlər.
5) Başqa kişilərdən olan uşaqları öz ərlərinə nisbət verməsinlər.
6) Yaxşı işlərdə Peyğəmbərə(s) qarşı çıxmasınlar.

Beyət mərasiminin keçirilməsi üçün Peyğəmbər(s) su ilə dolu bir qab gətirilməsini əmr edir. Sonra da suya bir qədər ətir səpib mübarək əlini onun içinə salıb yuxarıda deyilənləri ehtiva edən ayəni (Mumtəhənə-12) oxuyur. Bunun ardınca yerindən qalxıb buyurur: «Dediklərimlə razılaşıb mənə beyət etmək istəyənlər əlini suya salıb çıxartsın.»

Peyğəmbərin(s) bu hərəkətinin səbəbi o idi ki, Məkkə qadınları arasında xeyli sayda pozğun şəxslər var idi. Onlardan bir daha belə işlər görməmələrinə dair əhd alınmasaydı, sonralar yenə də öz çirkin əməllərinə davam edəcəkləri mümkün idi. Belə qadınlardan biri də Əbu Süfyanın arvadı, Müaviyənin anası haqqında heç bir xoş söz demək mümkün olmayan Hind idi. O, öz fikirlərini ərinə diktə etməklə Əbu Süfyanı da yoldan çıxarırdı. Hətta Əbu Süfyan sülh etmək fikrinə

---

[1] Sireyi İbn Hişam, c-2, s-417
[2] Hicrətdən əvvəl baş tutmuş Əqəbə beyətində yetmişdən artıq kişi və üç qadın iştirak etmişdi.

düşdüyü vaxtlarda Hind camaatı düşmənçiliyə, döyüşə təhrik edirdi. Ühüd döyüşünün əsas səbəbkarlarından biri məhz Hind olmuşdur. Həmin döyüşdə yetmiş müsəlman, o cümlədən Peyğəmbərin(s) əmisi Həmzə şəhid oldu. Bu insafsız qadın elə bir vəhşilik həddinə çatır ki, Həmzənin ciyərini çıxarıb dişləyir.

Peyğəmbərin(s) Hind və onun kimilərdən bütün camaatın gözü qarşısında beyət almaqdan başqa yolu yox idi. Həzrət yuxarıda söylədiyimiz bəndləri buyurarkən «oğurluq etməsinlər» bəndini söylədikdə sir-sifətini örtmüş Hind ayağa qalxaraq deyir: «Ey Peyğəmbər, qadınları oğurluq etməməyə səsləyirsən. Bəs mən nə edim? Ərim çox xəsis olub və bu səbəbdən mən ara-sıra ondan oğurluq etmişəm.» Bu zaman Əbu Süfyan yerindən qalxıb deyir ki, keçmişi mən halal edirəm, sən söz ver ki, bundan sonra oğurluq etməyəcəksən. Peyğəmbər(s) Əbu Süfyanın sözündən Hindi tanıyaraq soruşur ki, sən Ütbənin qızısan? Hind cavab verir: «Bəli, ey Peyğəmbər. Bizim günahımızdan keç, Allah da sənə mərhəmət etsin!» Peyğəmbər(s) digər bəndi buyurub «pozğunluq etməsinlər» söylədikdə Hind yenə də ayağa qalxıb özünə bəraət qazandırmaqdan ötrü deyir ki, heç azad qadın da belə bir iş görər?! O, bu cümlə ilə özünə bəraət qazandırmaq istədiyi halda əksinə, özünü daha da rüsvay edir. Hətta orada olanlar arasında Cahiliyyət dövründə Hindlə pozğun işlər görənlər onun bu sözünü təəccüblə qarşılayıb gülümsəyirlər.[1]

### *Məkkə və ətrafdakı bütxanaların dağıdılması*

Məkkə ətrafında müxtəlif qəbilələrin məbədi hesab edilən çoxlu bütxana var idi. Peyğəmbər(s) həmin bütxanaları dağıtmaq məqsədi ilə müxtəlif istiqamətlərə dəstələr göndərir. Eyni zamanda Məkkədə də elan edilir ki, kimin evində büt varsa, sındırıb məhv etsin.[2] Yeri gəlmişkən qeyd edək ki, Suva bütünü sındırmaq Əmr ibn Asa, Mənat bütünü sındırmaq da Səd ibn Zeydə tapşırılır.

«Cüzeymə ibn Amir» qəbiləsini İslama dəvət edib «Üzza» bütünü sındırmaq məqsədilə Xalid ibn Vəlid bir dəstənin müşayiəti ilə qəbilənin yaşadığı əraziyə yollanır. Peyğəmbər(s) ona qan tökməməyi, döyüşə

---

[1] Məcməül-bəyan, c-5, s-276

[2] Biharul-ənvar, c-21, s-140

girişməməyi tapşıraraq Əbdürrəhman ibn Ovfu da onun köməkçisi təyin edir.

Cahiliyyət dövründə Bəni-Cüzeymə qəbiləsi Xalidin əmisi ilə Əbdürrəhmanın atasını Yəməndən qayıdarkən qətlə yetirdiyindən, Xalidin onlara qarşı ədavəti var idi. Bəni-Cüzeymənin yaşadığı əraziyə çatdıqda bütün qəbilə üzvülərinin silahlandığını görən Xalid onlara deyir ki, silahlarınızı yerə atın, bütpərəstlik dövrü arxada qaldı. İndi bütün Məkkə İslam ordusunun tabeçiliyindədir. Qəbilə başçıları silahı yerə qoyub təslim olmaq qərarına gəlirlər. Lakin aralarından bir nəfər Xalidin hiylə işlətdiyini duyub deyir ki, təslim olacağımız təqdirdə əsir düşüb sonra da ölümə məhkum olacağıq. Xalid isə öz növbəsində İslam əsaslarına uyğun olmayaraq bütün qəbilə üzvülərinin əl-qolunun bağlanmasını əmr edir. Sonra da onların bir dəstəsi Xalidin əmri ilə qətlə yetirilir, qalanları isə azad edilir.

Xalidin bu özbaşınalığı Peyğəmbərə(s) çatdıqda çox narahat olur. Dərhal Əliyə(ə) göstəriş verir ki, həmin qəbilənin yanına gedib onlara dəymiş bütün ziyanı, eləcə də öldürülənlərin qan bahasını ödəsin. Əli(ə) Peyğəmbərin(s) göstərişinin icrası zamanı elə dəqiq işləyir ki, hətta itlərin su içdiyi və Xalidin hücumu zamanı sınmış taxta su qabının da pulunu ödəyir. Sonra da bütün zərərçəkmişlərdən soruşur ki, dəymiş ziyan tamamilə ödənildimi? Hamı bir ağızdan: «Bəli»-deyə cavab verir. Əli(ə) arxayınlıq yaransın deyə, onlara bir qədər də əlavə pul verib buyurur ki, birdən elə bir şey olar ki, heç xəbəriniz olmaz. Məkkəyə qayıdıb gördüyü işlər barədə Peyğəmbərə(s) məlumat verdikdə həzrət onun hərəkətini alqışlayır, sonra isə ayağa qalxıb üzü qibləyə dayanaraq əllərini yuxarı qaldırdığı halda buyurur: «İlahi, Xalid ibn Vəlidin törətdiyi cinayətdən Sənə pənah aparıram! Mən ona belə bir göstəriş verməmişdim.»[1]

Əmirəl-möminin Əli(ə) zərərçəkənlərə maddi ziyanlarla yanaşı mənəvi ziyanların da əvəzini ödəyir. Belə ki, Xalidin hücumundan qorxanlara da bir miqdar pul verərək onlardan hal-əhval tutur. Peyğəmbər(s) Əlinin(ə) bu ədalətli hərəkətindən xəbərdar olduqda

[1] Sireyi İbn Hişam, c-2, s-430

buyurur: «Əli, mən sənin bu hərəkətini çoxsaylı qırmızı tüklü dəvələrlə də dəyişmərəm.[1] Əli, sən mənim razılığımı cəlb etdin, Allah səndən razı olsun! Əli, sən müsəlmanların rəhbəri, bələdçisisən! Xoşbəxt o adamdır ki, səninlə dost olub sənin yolunla getsin. Bədbəxt də o adamdır ki, sənə düşmən olub sənin yolundan çıxsın. Sənin mənə olan münasibətin eynilə Harunun Musaya olan münasibəti kimidir.[2] Bircə fərq odur ki, məndən sonra Peyğəmbər olmayacaq.»[3]

[1] Əl-Xisal, c-2, s-125
[2] Əmali (Şeyx Tusi), s-318
[3] Əmali (Şeyx Səduq), s-105

## HÜNEYN DÖYÜŞÜ

Həzrət Peyğəmbər(s) harasa səfər etdikdə orada olduğu müddət ərzində vəziyyətə şəxsən özü nəzarət edir, siyasi və dini işləri özü idarə edirdi. Oranı tərk etdikdə isə yerinə münasib gördüyü şəxslər təyin etməklə onlara müxtəlif vəzifələr tapşırırdı. Çünki fəth edilmiş yeni məntəqələrin əhalisi yeni strukturla tanış deyildi. Üstəlik İslam dini siyasi, ictimai, dini, mənəvi cəhətləri özündə əks etdirən bir nizam olduğundan, yerli əhalini təzə qanunlara alışdırmaq üçün püxtələşmiş şəxslərə ehtiyac duyulurdu. Peyğəmbər(s) Məkkədən çıxıb Həvazən və Səqif qəbilələrinə doğru yürüşə çıxmaq (döyüşə getmək) istədikdə Məaz ibn Cəbəli dini işlər üzrə təyin edib öz yerində qoyur. Şəhərin idarəçiliyini və eləcə də məsciddə pişnamazlığı isə Üttab ibn Üseydə tapşırır. Beləliklə, on beş gün qaldıqdan sonra Peyğəmbər(s) Məkkədən çıxıb Həvazən qəbiləsinə doğru hərəkət edir.[1]

Bu yürüş zamanı Peyğəmbərin(s) sərəncamında on iki minlik böyük bir ordu var idi. Bunun on mini Peyğəmbəri(s) Mədinədən müşayiət etdiyi halda iki mini İslamı təzəcə qəbul etmiş Qüreyş gəncləri idi. Onlara Əbu Süfyan başçılıq edirdi. O dövrdə belə bir orduya nadir halda təsadüf edilərdi. Lakin təəssüf hissi ilə qeyd etməliyik ki, məhz bu say çoxluğu döyüşün əvvəlində müsəlmanların üstünlüyü əldən verməsi və müvəqqəti məğlubiyyətinə səbəb oldu. Çünki əvvəlki döyüşlərdən fərqli olaraq bu döyüşdə müsəlmanlar öz çoxluqları ilə öyündülər. Nəticədə arxayınlaşıb hərbi taktikalara barmaqarası yanaşdılar. Əbu Bəkr orduya nəzər salıb deyir ki, sayımız az deyil, bu ordu ilə biz heç vaxt məğlub olmarıq. Biz düşməndən neçə qat artığıq.[2] Lakin o unutmuşdu ki, qələbənin açarı say çoxluğunda deyil. Bu məsələyə Quran da öz münasibətini bildirmişdir: ***«Allah sizə bir çox yerlərdə, həmçinin Hüneyn (vuruşu) günündə kömək etdi. O gün çox***

---

[1] Ət-Təbəqatul-kubra, c-2, s-137

[2] Ət-Təbəqatul-kubra, c-2, s-150

***olmağınız sizi valeh etsə də, bir faydası olmadı, gen dünya sizə dar oldu, sonra dönüb qaçdınız.»***[1]

Məkkə fəth edildikdən sonra Həvazən və Səqif qəbilələrində bir canlanma müşahidə olunurdu. Bu iki qəbilə arasında get-gəllər artır. Bu əlaqənin yaranmasında Malik ibn Ovf Nəsri adlı bir gəncin böyük rolu oldu. İki qəbilə arasındakı müzakirələrdən sonra belə qərara gəlirlər ki, müsəlmanlar onların üstünə gəlməzdən qabaq onlar müsəlmanlara doğru gedib hərbi hiylələrdən istifadə edərək İslam ordusuna hücum etsinlər. Onlar otuz yaşlı Maliki özlərinə başçı seçirlər. Onun göstərişi ilə bütün döyüşçülər arvad-uşaqlarını da özləri ilə götürürlər. Qadınlar və uşaqlar ordunun arxa hissəsində yerləşdirilir. Bunun səbəbini soruşduqda Malik cavab verir ki, döyüşçülər arvad-uşaqlarını görüb heç vaxt düşmənə arxa çevirməz və son ana qədər mübarizə aparарlar.[2] Böyük döyüş təcrübəsinə malik olan ağsaqqal Düreyd ibn Səmmə arvad-uşağın ah-naləsini eşitdikdə Malikə etiraz edib bu işin düzgün olmadığını bildirərək deyir ki, məğlub olacağımız təqdirdə bütün qadınları, əmlakı müsəlmanların ixtiyarına buraxacağıq. Malik isə onun sözünə məhəl qoymayıb deyir: «Sən artıq qocalmısan və döyüş məlumatlarını da unutmusan.» Lakin hadisələrin növbəti gedişatı ağsaqqal qocanın haqlı olduğunu sübut edir və məlum olur ki, arvad-uşağın döyüşə gətirilməsi yalnız mənfi nəticə verir.

Peyğəmbər(s) düşmən haqqında məlumat əldə etmək məqsədi ilə Abdullah Əsləmini naməlum şəkildə onlara doğru göndərir. O, düşmən haqqında lazımı məlumatı əldə edib geri qayıdır. Düşmən də öz növbəsində bunu cavabsız qoymur. Malik üç nəfəri müsəlmanlar haqqında bilgi toplamaq üçün onlara doğru göndərir. Hər üç şəxs həyəcan və təşviş içərisində geri qayıdıb gördükləri barədə məlumat verir.

Malik öz ordusunun azlığını və döyüşçülərinin ruh düşkünlüyünü aldadıcı hərbi taktikalarla aradan qaldırmağa çalışırdı. O, müsəlmanlara qəfil hücum etməklə onlara zərbə endirmək istəyirdi. Bu məqsədlə o, ordunu Hüneyn məntəqəsinə doğru uzanan dərənin axırına çəkir. Əmr

---

[1] Tövbə-25

[2] Məğazi Vaqidi, c-3, s-897

edir ki, bütün döyüşçülər qayaların arxasında gizlənsin. Müsəlmanlar dərəyə çatan kimi hamı gizləndiyi yerdən çıxıb onları daşa basıb ox yağışına tutsunlar. Sonra da onun göstərişi ilə yuxarıda pusquda durmuş köməkçi qüvvə hücuma keçib müsəlmanlara sarsıdıcı zərbə vursun.

Peyğəmbər(s) düşmənin inadkarlığı və gücünə bələd idi. Hələ Məkkədən çıxmazdan qabaq Səfvan ibn Üməyyədən yüz ədəd zireh icarəyə götürür. Özü şəxsən əyninə iki zireh geyib başına dəbilqə qoyur, ona bağışlanılmış ağ qatıra minib ordunun arxasınca hərəkət edir.

İslam ordusu gecəni dərənin ağzında istirahət edir. Səhər hava hələ tam işıqlanmamış Bəni-Səlim qəbiləsi Xalid ibn Vəlidin başçılığı ilə Hüneynə gedən keçidə daxil olur. Müsəlmanların əksəriyyəti dərədə ikən atılan oxların və qayaların arxasında gizlənmiş düşmən əsgərlərinin səsi onları vahiməyə salır. Oxlar göydən yağış kimi tökülürdü. Bu azmış kimi düşmən böyük qüvvə ilə müsəlmanlara hücum edir. Onların qəfil hücumu müsəlmanları həddən artıq vahiməyə salır. Bu səbəbdən ixtiyarsız olaraq müsəlmanlar geri qaçmağa başlayırlar. Bu da onların sıralarının pozulmasına səbəb olur. İslam ordusundakı münafiqlər bunu görüb sevinməyə başlayırlar. Əbu Süfyan deyir ki, bu gedişlə müsəlmanlar dəniz sahilinə qədər qaçacaqlar. Digər bir münafiq isə deyir ki, axır ki sehr sındı. O qarışıq vəziyyətdə hətta Peyğəmbəri(s) qətlə yetirmək istəyənlər də oldu.

### *Peyğəmbər(s) və fədakar mücahidlərin müqaviməti*

Müsəlmanların təşvişə düşərək qorxub qaçması Peyğəmbəri(s) çox narahat edir. Peyğəmbər(s) hiss etdi ki, lazımı tədbir görməzsə, müsəlmanlar arzuolunmaz aqibətlə üzləşəcək, nəticədə kafir ordusu müsəlman ordusuna qalib gələcək. Buna görə də dərhal miniyinin üstündən səslənərək uca səslə deyir: «Ey Allahın və Peyğəmbərin tərəfdarları, mən Allahın bəndəsi və Peyğəmbəriyəm.» Bunu deyib Malikin döyüşçülərinin cövlan etdiyi döyüş meydanına yollanır. Döyüşün əvvəlindən bir an da olsun o həzrəti tək qoymayan Əli(ə), Abbas, Fəzl ibn Abbas, Üsamə və Əbu Süfyan ibn Haris kimi fədakar mücahidlər də onun ardınca döyüş meydanına doğru hərəkət edirlər.[1] Peyğəmbər(s) əmisi Abbasa buyurur ki,

---

[1] Məğazi Vaqidi, c-3, s-602

uca səslə müsəlmanlara belə xitab etsin: «Ay Peyğəmbərə kömək etmiş ənsar, ay ağac altında Peyğəmbərə beyət edənlər, hara qaçırsınız? Peyğəmbər buradadır.» Abbasın çağırışını eşidən müsəlmanların qeyrəti cuşa gəlib hamı «ləbbeyk» deyərək yenidən döyüş meydanına qayıdır.

Peyğəmbərin(s) sağ olduğunu bildirməklə dəfələrlə müsəlmanları döyüşə səsləyən Abbasın səsini eşidənlər peşman olmuş halda geri dönürlər. Peyğəmbərin(s) göstərişi ilə, həm də döyüşdən qaçmaq ləkəsini üzərindən qaldırmaq məqsədi ilə müsəlmanlar hər tərəfdən düşmənə hücum edir və qısa müddət ərzində onları geriləmək və axırda da qaçmaq məcburiyyətində qoyurlar. Döyüş əsnasında Peyğəmbər(s) müsəlmanları ruhlandırmaqdan ötrü ara-sıra buyururdu: «Mən Allahın Peyğəmbəriyəm, heç vaxt yalan danışmaram. Allah-taala mənə qələbə müjdəsi vermişdir.»

Müsəlmanların hər tərəfdən hücuma keçməsi Həvazən və Səqif döyüşçülərinin arvad-uşaqlarını atıb Ovtas, Nəxlə və Taif qalalarına qaçması ilə nəticələnir.

Müsəlmanlar bu döyüşdə səkkiz şəhid verdiyi halda düşməndən altı min əsir, 24 min baş dəvə, 40 min baş qoyun 852 kiloqram gümüş qənimət götürür. Peyğəmbərin(s) göstərişi ilə bütün əsirlər və toplanılmış qənimət Cəirranə quyusunun ətrafına gətirilir. Əsirlər onlar üçün ayrılmış xüsusi evlərdə saxlanılır. Bir neçə nəfər onların üstündə gözətçi saxlanılır, ordu isə Peyğəmbərlə(s) birlikdə düşməni təqib etməyə başlayır.

### *Taif döyüşü*

Taif Hicazın ən məhsuldar və yaylaq şəhərlərindən biri olaraq Məkkənin on iki fərsəxliyində və dəniz səviyyəsindən min metr yüksəkdə yerləşir. Bu şəhərin əlverişli və münasib iqlimi olduğundan, Hicaz əyyaşlarının mərkəzi sayılırdı. Ən güclü ərəb qəbilələrindən olan Səqif qəbiləsi də məhz Taifdə yaşayırdı. Səqiflilər Hüneyn döyüşündə müsəlmanlara qarşı vuruşsalar da, məğlubiyyətə uğrayıb öz qalalarına dönmüşdülər.

Peyğəmbər(s) qələbəni tam rəsmiləşdirmək məqsədilə qaçanların təqib edilməsini tapşırır. Ovtasa qaçanları izləmək Əbu Amir Əşəri və Əbu Musa Əşərinin başçılığı ilə böyük bir dəstəyə tapşırılır. Düşmənlə yenidən üzləşdikdə Əbu Amir Əşəri şəhid olur. Əbu Musa Əşəri isə

düşməni tar-mar edib[1] qoşunla birlikdə Taifə qayıdır.[2] Qayıdarkən Hüneyn döyüşünün əsas səbəbkarı Malik ibn Ovf Nəsrinin qalası da yerlə yeksan edilir.

İslam ordusunun əsasını təşkil edən dəstələr Taifə çatıb möhtəşəm Taif qalasını mühasirəyə alır. Hələ qala tam mühasirə edilməmiş düşmən qala divarlarından ox atmağa başlayır. Nəticədə bir neçə müsəlman şəhid olur.[3] Bunu görən Peyğəmbər(s) orduya geri çəkilməyi əmr edərək tapşırır ki, oxatanların hədəfindən uzaq bir yerdə düşərgə salınsın.[4] Xəndək döyüşündə verdiyi məsləhətdən müsbət nəticə əldə edilən Salman Farsi indi məsləhət görür ki, kənardan böyük sapand daşlarından istifadə etməklə qalanı daşa bassınlar. Onun göstərişi ilə sapand daşları müəyyən nöqtələrdə quraşdırılıb 20 gün ardıcıl qala daşqalaq edilir.[5] Lakin düşmən də bu müddət ərzində sakit oturmayıb ox atmaqla müsəlmanlara müəyyən xəsarətlər yetirir.

Bəs görəsən belə bir vəziyyətdə müsəlmanlar sapand daşlarını necə və hansı yolla əldə etdilər? Bəzi mənbələrdə göstərilir ki, Salman Farsi şəxsən özü sapand daşı hazırlayıb ondan istifadə qaydasını müsəlmanlara öyrədir. Digər mənbələrdə isə müsəlmanların Xeybər döyüşündə sapand daşını da qənimət olaraq əldə etdikləri və onu özləri ilə Taifə gətirdikləri bildirilir.[6] Lakin mənbələrdən o da məlum olur ki, müsəlmanların ixtiyarında təkcə Xeybərdən əldə edilmiş sapand daşı olmayıbmış, ondan başqa da sapand daşları var imiş. Belə ki, Peyğəmbər(s) Hüneyn və Taif döyüşləri ilə eyni vaxtda Tüfeyl ibn Əmr Dusini Dus qəbiləsinin bütxanasını sökməyə göndərir. O, hamısı öz qəbiləsindən olan dörd yüz döyüşçü ilə fateh şəkildə geri döndükdə bir döyüş arabası, bir də sapand daşı gətirir. Düşməndən qənimət olaraq əldə edilmiş bu döyüş alətlərindən Taif döyüşündə də istifadə edilir.[7]

---

[1] Məğazi Vaqidi, c-3, s-915-916
[2] Biharul-ənvar, c-21, s-162
[3] Sireyi Hələbi, c-3, s-132
[4] Ət-Təbəqatul-kubra, c-2, s-158
[5] Sireyi İbn Hişam, c-4, s-126
[6] Sireyi Hələbi, c-3, s-134
[7] Ət-Təbəqatul-kubra, c-2, s-157

Düşmənin təslim olması üçün hər tərəfdən hücuma keçmək lazım idi. Sapand daşlarından istifadə etməklə yanaşı həm də döyüş arabası vasitəsilə qala divarlarını sökmək qərara alındı. Lakin qala divarını sökmək elə də asan iş deyildi. Çünki qalanın müşahidə və mühafizə dəliklərindən oxlar yağış kimi yağırdı. Belə olan vəziyyətdə kimsə qalaya yaxınlaşmağa cürət etmirdi. Bu işin ən gözəl yolu döyüş arabasından istifadə etmək idi. Belə ki, bir neçə nəfər arabaya minib üstünü qalın dəri parçası ilə örtür, arabanı qalaya tərəf sürüb divarı deşməyə başlayır. Ancaq düşmən qaladan qızdırılmış dəmir parçaları atmaqla arabanın üst örtüyünü yandırır və arabadakılara ciddi xəsarət yetirir. Beləliklə də bu vasitədən istifadə etmək də bir nəticə vermir. Müsəlmanlar bir neçə şəhid və yaralı verməklə arabanı geri çəkirlər.[1]

***İqtisadi və psixoloji təzyiqlər***

Döyüşdə qələbə qazanmaq təkcə hərbi taktikalara bağlı deyil. Ordu başçısının tədbirləri sayəsində düşmənə iqtisadi və psixoloji təzyiqlərlə də ağır zərbə vurmaq mümkündür. Bəzən bu təzyiqlər hərbi taktikalardan daha təsirli olur. Taif şəhəri əsasən xurmalıq və üzümlüklərdən ibarət idi. Yerli əhalinin əsas məşğuliyyəti məhz xurma və üzüm əkinçiliyi olduğuna görə onlar bu sahədə həddən artıq əziyyət çəkmişdilər. Peyğəmbər(s) qalaya sığınanları hədələmək məqsədilə onlara xəbərdarlıq edir ki, müqaviməti dayandırıb təslim olmayacaqları təqdirdə xurma və üzüm bağları məhv ediləcək. Düşmən bu xəbərdarlığa da məhəl qoymur. Çünki Peyğəmbərin(s) olduqca mehriban, səmimi, rəhimli bir şəxs olduğunu bilir və bu işə əl atacağını qətiyyən təsəvvür etmirdilər. Birdən xurma və üzüm bağlarının dağıdılmağa başlanılmasının şahidi olurlar. Dərhal şivən qoparıb yalvar-yaxar etməyə başlayır və Peyğəmbərdən(s) onlarla olan qohumluq əlaqələrinə görə bu işdən vaz keçməsini xahiş edirlər.

Taif qalasına sığınanlar Hüneyn və Taif döyüşlərinin əsas səbəbkarları idi və bu iki döyüş Peyğəmbərə(s) çox baha başa gəlmişdi. Ancaq buna baxmayaraq həzrət yenə də onların xahişini qəbul edib bağların dağıdılmasını saxlatdırır.

---

[1] Məğazi Vaqidi, c-3, s-928

Peyğəmbərin(s) düşmənlə davranışı haqqında olan əvvəlki məlumatlarımıza əsasən qətiyyətlə deyə bilərik ki, həzrət əvvəlcə bağların dağıdılmasına əmr etməklə sırf düşməni hədələmək məqsədi güdmüşdür. Əgər bu üsul nəticə verməsəydi, sözsüz ki, dərhal ondan vaz keçəcəkdi.

***Qalanın alınması üçün son cəhd***

Səqif qəbiləsi maddi cəhətdən olduqca imkanlı idi. Onların xeyli sayda qul-qaravaşları var idi. Peyğəmbər(s) qalanın içərisindəki vəziyyət barədə məlumat əldə etmək məqsədi ilə elan edir ki, qaladan çıxan hər bir qul azad ediləcək. Təxminən iyirmiyədək qul-qaravaş məharətlə qaladan çıxıb müsəlmanlara qoşulur. Peyğəmbər(s) qalanın vəziyyəti haqqında onlardan soruşduqda cavab verirlər ki, qaladakıların təslim olmaq fikri yoxdur. Mühasirə hətta bir il də davam etsə, içəridə kifayət qədər yemək-içmək var və azuqə sarıdan onların heç bir çətinliyi olmayacaq.

***İslam ordusunun Mədinəyə dönüşü***

Peyğəmbər(s) bu döyüşdə bütün taktikalardan istifadə etsə də, təcrübə göstərdi ki, qalanın alınmasının daha çox vaxta ehtiyacı var. Digər tərəfdən isə İslam ordusunun imkanatı orada bundan artıq qalmağa icazə vermirdi. Çünki:

Əvvəla mühasirə müddətində səkkizi Qüreyşdən, dördü ənsardan, biri də digər qəbilədən olmaqla on üç müsəlman şəhid olmuşdu. Hüneyn döyüşündə də düşmənin qəfil hücumu nəticəsində bir neçə nəfər (səkkiz nəfər) şəhidlik zirvəsinə ucalır. Buna görə də artıq müsəlmanlarda bir qədər yorğunluq hiss olunurdu.

İkincisi artıq şəvval ayı başa çatır, zilqədə ayı yaxınlaşmaq üzrə idi. Zilqədə ayında da hələ Cahiliyyət dövründə vuruşmaq haram sayılırdı. İslam dini də bu adəti qüvvədə saxlayır. Buna görə də mühasirədən əl çəkmək lazım idi ki, qoy sonradan Səqif qəbiləsi Peyğəmbərin(s) haram ayda vuruşduğunu bəhanə etməsin. Digər tərəfdən həcc mövsümü də yaxınlaşmaqda idi. Bu ildən etibarən həcc işlərinə müsəlmanlar nəzarət etməli idi. Ərəbistan yarımadasının hər bir yerindən toplaşacaq izdihamda Peyğəmbər(s) bu vaxtadək ona müyəssər olmadığı dəvətini

istədiyi kimi həyata keçirər, camaatı İslamın əsl mahiyyəti ilə tanış edə bilərdi. Təbii ki, belə bir fürsətdən maksimum yararlanmaq lazım idi. Bunun əhəmiyyəti Taif qalasından qat-qat artıq idi. Bütün bunları nəzərə alaraq Peyğəmbər(s) Taif qalasının mühasirəsindən əl çəkib ordu ilə birlikdə Hüneyn döyüşünün əsirləri və əldə edilmiş qənimətin saxlanıldığı Cəirranə məntəqəsinə gəlir.

*Döyüşdən sonra baş verənlər*

Hüneyn və Taif döyüşləri başa çatır. Peyğəmbər(s) qəti bir nəticə əldə etmədən Hüneyn döyüşündən əldə edilmiş qənimətləri bölmək üçün Cəirranə məntəqəsinə gəlir. Bu vaxtadək müsəlmanların qalib gəldiyi heç bir döyüşdə bu qədər qənimət əldə edilməmişdi. Bu döyüşdən əldə edilmiş qənimətlə İslam ordusu üçün tələb olunan büdcənin bir hissəsini təmin etmək olardı.

Peyğəmbər(s) on üç gün Cəirranədə qalıb qənimətləri xüsusi bir formada bölüşdürür. Eyni zamanda əsirlərdən bəzisi də azad edilir. Peyğəmbər(s) Hüneyn döyüşünün bir nömrəli səbəbkarı Malik ibn Ovfun müsəlman olması üçün də tədbir hazırlayırdı. Həzrət döyüşdə xidmət göstərmiş hər bir şəxsə təşəkkürünü bildirməklə qeyri-müsəlmanların İslama rəğbətini artırır. Ənsarla arasında baş vermiş anlaşılmazlığa da maraqlı bir xütbə ilə son qoyur.

*İnsanların haqqını ödəmək*

Peyğəmbərin(s) ən gözəl xüsusiyyətlərindən biri də o idi ki, insanların ən kiçik haqqını, hətta ona cüzi yaxşılıq edənin haqqını ödəməklə onun əvəzini artıqlaması ilə çıxırdı. Məlum olduğu kimi Peyğəmbər(s) uşaqlıq illərini Həvazən qəbiləsinin bir qolu olan Bəni-Səd tayfasında keçirmişdi. Həlimə adlı qadın həzrətə süd verərək beş il ona dayəlik etmişdi.

Müsəlmanlara qarşı döyüşdə iştirak edib bir sıra qadın və uşaqları əsir düşən Bəni-Səd tayfası tutduğu əməldən çox peşman olmuşdu. Onlar Mühəmmədin(s) uşaqlıq illərinin Bəni-Səd tayfasında keçdiyini, Həlimənin ona süd verdiyini, digər tərəfdən də həzrətin yaxşılığı itirməyən bir adam olduğunu bilib yaxşı anlayırdılar ki, söhbəti bu

məcrada davam etdirərlərsə, Peyğəmbər(s) tərəddüd etmədən tayfanın bütün əsirlərini azad edib sərbəst buraxar. Bu məqsədlə tayfa ağsaqqallarından on dörd nəfər, o cümlədən Züheyr ibn Sürəd və Peyğəmbərin(s) süd əmisi (qeyd etməliyik ki, on dörd nəfərin hamısı İslamı qəbul etmişdi) həzrətin hüzuruna gələrək deyir: «Əsirlər arasında sizin süd bibiləriniz, süd xalalarınız, süd bacılarınız və sizə uşaqlıq illərinizdə xidmət etmiş şəxslər də vardır. Bəzi tayfa qadınlarımızın sizin boynunuzda olan haqqına xatir, yaxşı olar ki, bütün əsirlərimizi azad edəsiniz. Biz İraq və Şam hökmdarları Noman ibn Münzir və Haris ibn Əbu Şimrdən belə bir xahiş etsəydik, yəqin ki, qəbul edərdilər. Siz mərhəmət, mehribanlıq nümunəsisiniz, sizdən onlardan gözlədiyimizin artığını gözləyirik.» Peyğəmbər(s) onların cavabında buyurur: «Arvad-uşağınızı çox istəyirsiniz, yoxsa mal-dövlətinizi?» Cavab verirlər ki, arvad-uşağımızdan artıq heç nə ola bilməz. Həzrət buyurur: «Elə isə mən özümün və Əbdülmüttəlib övladlarının payına düşəni özünüzə qaytarıram. Ancaq Mühacir və Ənsarın payına düşənə onlar özləri icazə verməlidirlər. Mən zöhr namazını qılıb qurtardıqda siz yerinizdən qalxıb deyin ki, biz Peyğəmbəri(s) müsəlmanların, müsəlmanları da Peyğəmbərin(s) yanında vasitəçi qərar verib xahiş edirik ki, tayfamızdan əsir düşmüş arvad-uşağı əsirlikdən azad edəsiniz. Bu vaxt mən qalxıb özümə və Əbdülmüttəlib övladlarının payına düşəni sizə bağışlayacaq, başqalarından da xahiş edəcəyəm ki, onlar da öz paylarını bağışlasınlar.»

Bəni-Səd tayfasından olan on dörd nəfər zöhr namazından sonra həzrətin buyurduğu kimi edir. Peyğəmbər(s) öz payını onlara bağışlayır, digər müsəlmanlar da Peyğəmbərə(s) baxıb paylarına düşəni onlara bağışlayırlar. Yalnız Əqrə ibn Habislə Üyeynə ibn Hisən payını bağışlamır. Peyğəmbər(s) onlara buyurur ki, siz payınıza düşən əsirlərinizi onlara bağışlasanız (azad etsəniz), söz verirəm ki, növbəti ilk döyüşdən əldə edəcəyimiz qənimətdən hər bir əsirinizin əvəzinə sizə altı əsir verəcəyəm.[1]

Peyğəmbərin(s) bu gözəl hərəkəti Üyeynənin payına düşən bir qadın istisna olmaqla bütün Həvazən əsirlərinin azad edilməsi ilə nəticələnir. Beləliklə də təxminən altmış il öncə Həlimənin Bəni-Səd

---

[1] Məğazi Vaqidi, c-3, s-949-953

tayfasında əkdiyi yaxşılıq ağacı bu gün öz bəhrəsini verir[1] və onun sayəsində bütün əsirlər azadlığa buraxılır.

Əsirlər azad edildikdən sonra Peyğəmbər(s) süd bacısı Şeymanı yanına çağıtdırır. Çiynindəki əbasını yerə salıb bacısını onun üstündə otuzdurur. Onun və ailəsinin vəziyyəti barədə maraqlanır.

Peyğəmbər(s) Həvazən qəbiləsinin əsirlərini azad etməklə onların İslama olan marağını ikiqat artırır və bütün qəbilə üzvləri səmimi-qəlbdən İslamı qəbul edir. Beləliklə, Səqif qəbiləsi sonuncu müttəfiqini də itirir.

***Malik ibn Ovfun İslamı qəbul etməsi***

Həzrət Peyğəmbər(s) yaranmış fürsətdən istifadə edərək Bəni-Səd nümayəndələri vasitəsilə Maliki İslama dəvət etmək qərarına gəlir. Bu məqsədlə onun haqqında maraqlandıqda həzrətə cavab verirlər ki, Malik Taifə qaçıb Səqif qəbiləsində yaşayır. Peyğəmbər(s) nümayəndələrə buyurur: «Gedin mənim adımdan ona deyin ki, İslamı qəbul edərsə, onun əsir düşmüş bütün adamlarını azad edəcək, üstəlik özünə də yüz baş dəvə bağışlayacağam.» Nümayəndələr Peyğəmbərin(s) sözünü Malikə çatdırırlar. Səqif qəbiləsinin vəziyyətinin elə də yaxşı olmadığını və həmçinin müsəlmanların da günbəgün gücləndiyinin şahidi olan Malik İslamı qəbul edib müsəlmanlara qoşulmaq qərarına gəlir. Lakin Səqif qəbiləsinin onun bu məqsədindən agah olacağından qorxub bu haqda kiməsə bir söz demir. Fikrini icra etməkdən ötrü nümayəndələrə tapşırır ki, Taifdən xeyli aralıda onun üçün bir kəcavə hazırlasınlar. Özü də gizlicə Taifdən çıxıb həmin kəcavə ilə Cəirranəyə gələrək İslamı qəbul edir. Peyğəmbər(s) də öz növbəsində ona verdiyi vədə əməl edir, üstəlik onu Nəsr, Səmalə və Sələmə qəbilələrindən olan müsəlmanların başçısı təyin edir.

Malik təbiətcə məğrur olduğuna, həm də Peyğəmbərin(s) ona verdiyi vəzifədən sui-istifadə edərək Səqif qəbiləsini təzyiqlərə məruz qoymaqla onları iqtisadi sıxıntıda saxlayır. O, bu məqama gəlib çatmasında özünü Peyğəmbərə(s) borclu bilib həzrətin şənində bir mədhiyyə yazır. Mədhiyyənin ilk beyti belədir:

---

[1] Ət-Təbəqatul-kubra, c-2, s-153-154; Sireyi İbn Hişam, c-2, s-490

«Mən ömrümdə Məhəmməd kimisini nə görmüş, nə də eşitmişəm.»[1]

*Döyüş qənimətlərinin bölüşdürülməsi*

Səhabələr qənimətin tezliklə bölüşdürülməsini istəyirdilər. Peyğəmbər(s) heç bir fikir bildirmədən bir dəvənin yanında dayanıb dəvənin yunundan bir qədərini iki barmağının arasında tutaraq camaata buyurur: «Mənim qənimətlərdən olan payım yalnız onun xumsudur. Heç onu da özümə götürməyib sizə paylayacağam. Kimdə hər nə qənimət varsa, hətta iynə-sap da olsa, ortalığa qoysun ki, qoy tam ədalətlə bölüşdürülsün.»

Peyğəmbər(s) bütün beytül-malı səhabələr arasında bərabər bölüşdürdü. Qənimətin ona məxsus xumsunu isə dünənədək İslamın ən qatı düşmənlərindən olub təzəcə müsəlman olmuş şəxlər arasında paylayır. Beləliklə, Əbu Süfyan, Müaviyə, Hükeym ibn Həzam, Haris ibn Haris, Haris ibn Hişam, Süheyl ibn Əmr, Hüveytib ibn Əbdülüzza və Əla ibn Cariyənin hər birinə yüz baş, nisbətən zəif mövqeyi olanlara isə əlli baş dəvə verir. Onlar bu böyük bəxşişə görə İslama daha çox bağlanırlar. İslam fiqhində belə şəxslərə «müəlləfətül-qülub» (yəni, İslama daha çox meyllənmələri üçün zəkat verilən şəxslər) deyilir. Zəkat ödənilməsi düzgün sayılan dəstədən biri də məhz onlardır.[2]

İbn Səd öz əsərində qeyd edir ki, bu bəxşişin hamısı şəxsən Peyğəmbərin özünə çatacaq xumsdan verilmişdi və onda başqalarının haqqından bircə dinar da olmamışdır.[3]

Peyğəmbərin(s) bəzi şəxslərə belə böyük bəxşiş verməsini bir sıra müsəlman həzm edə bilmir. Peyğəmbərin(s) bu işi nə məqsədlə gördüyünü anlamayanlar onun öz qəbiləsinə üstünlük verdiyini güman edirlər. Hətta Bəni-Təmimdən olan Zül-Xüveysirə adlı bir şəxs Peyğəmbərə deyir ki, bu gün mən sizin bütün hərəkətlərinizə fikir verirdim, qənimət bölgüsündə ədalətə riayət etmədin. Onun sözündən bərk narahat olan Peyğəmbər(s) buyurur: «Vay olsun sənə! Ədalət

---

[1] Sireyi İbn Hişam, c-2, s-491

[2] Sireyi İbn Hişam, c-3, s-493

[3] Ət-Təbəqatul-kubra, c-3, s-153

mənim yanımda olmayıb kimin yanında olacaq?!» Ömər ibn Xəttab onu öldürmək üçün Peyğəmbərdən(s) icazə istəsə də, həzrət razı olmayıb buyurur: «Onunla işiniz olmasın. Ox kamandan çıxdığı kimi gələcəkdə o da dindən çıxacaq.»[1] Tarix Peyğəmbərin(s) haqlı olduğunu sübut edir. Belə ki o, Əmirəl-möminin Əlinin(ə) hakimiyyəti dövründə xaricilər firqəsinin başçısı olur. Lakin İslam qanunlarına əsasən cinayətkarı cinayətdən qabaq cəzalandırmaq düzgün olmadığı üçün Peyğəmbər(s) də onun cəzalandırılmasına icazə vermir.

Səd ibn Übadə də bütün Ənsar adından onların etirazını Peyğəmbərə(s) çatdırır. Həzrət ona buyurur ki, Ənsarın hamısını bir yerə topla, özüm onlarla söhbət edim. Ənsar bir yerə toplaşdıqda Peyğəmbər(s) də onların yanına gəlib buyurur: «Siz yolunuzu azmış insanlar idiniz, mənim vasitəmlə haqqa qovuşdunuz. İmkansız idiniz, imkanınız yaxşılaşdı, bir-birinizlə düşmən idiniz, dost oldunuz.» Bu vaxt Ənsar həzrətin sözünü təsdiqləyərək hamı bir ağızdan: «Doğrudur, ey Allahın Peyğəmbəri!»-deyə cavab verir. Peyğəmbər(s) daha sonra buyurur: «Siz mənə başqa cür də cavab verə və boynumda olan haqqınızı dilə gətirə bilərdiniz. Deyə bilərdiniz ki, ey Allahın rəsulu, Qüreyş səni təkzib etdiyi zaman biz səni təsdiqləyib qəbul etdik, Qüreyş sənə kömək etmədikdə biz kömək etdik, onlar səni qovdu, biz isə sənə yer verdik. İmkansız olduğun vaxt sənə əl tutduq. Ey Ənsar! İmanları möhkəmlənsin deyə, Qüreyşə verdiyim mal-dövlət üçün nəyə görə narahat olursunuz? Razı deyilsiniz ki, onlar özləri ilə qoyun, dəvə aparsınlar, siz isə Peyğəmbəri aparasınız? And olsun Allaha, bütün camaat bir tərəfə getsə, Ənsar isə başqa tərəfə, mən Ənsarın getdiyi yolla gedərəm.» Bunları buyurub ənsar və övladları üçün Allahdan mərhəmət diləyir. Peyğəmbərin(s) bu sözləri ənsarı elə kövrəldir ki, hamı ağlaya-ağlaya deyir: «Ey Allahın rəsulu, biz öz qismətimizə razıyıq və heç bir şikayətimiz yoxdur.»

Peyğəmbər(s) döyüş qənimətlərini böldükdən sonra Məkkəyə qayıdıb ümrə ziyarəti edir. Zilqədə ayının sonu, ya da zilhəccə ayının əvvəlində isə Mədinəyə qayıdır.

---

[1] Sireyi İbn Hişam, c-2, s-496

*Bir gəncin Məkkə valisi təyin edilməsi*

Hicrətin səkkizinci ili sona yaxınlaşmaq üzrə idi. Qarşıdan böyük həcc mövsümü gəlirdi. İlk dəfə olaraq həcc mərasiminə müsəlmanlar başçılıq edəcəkdi. Belə bir mərasimdə Peyğəmbərin(s) iştirakı ona əlavə stimul verəcəkdi. Digər tərəfdən isə Mədinədə də Peyğəmbərin(s) kifayət qədər işi var idi. Artıq üç ay idi ki, həzrət Mədinədən çıxmışdı. Bəzi işlər var idi ki, Peyğəmbər(s) onları şəxsən özü icra etməli idi. Həzrət bütün cəhətləri götür-qoy etdikdən sonra belə qərara gəlir ki, ümrə ziyarəti ilə kifayətlənib tezliklə Mədinəyə qayıtsın. Yeni fəth edilmiş Məkkədə siyasi və dini işlərə nəzarət etmək üçün də nümayəndələr təyin etmək lazım idi. Bu baxımdan Peyğəmbər(s) iyirmi yaşlı gənc, tədbirli, zəkalı Üttab ibn Üseydi Məkkə valisi seçərək onun üçün aylıq bir dirhəm maaş təyin edir. Peyğəmbər(s) tanınmış ağsaqqallar qala-qala iyirmi yaşlı bir gənci vali təyin etməklə bütün fikirləri, ehtimalları alt-üst edir. O həzrət bununla sübut edir ki, yüksək mövqelərə sahib olmaq üçün yaş çoxluğu şərt deyil. Bu işə yalnız layiq olan şəxs seçilməlidir, hərçənd yaşı az olsa belə.

Məkkə valisi böyük bir yığıncaqda camaata xitab edərək deyir: «Bu işimə görə Peyğəmbər(s) mənim üçün maaş təyin edib. Buna görə də sizin hədiyyələrinizə, köməyinizə heç bir ehtiyacım yoxdur...»[1]

Peyğəmbər(s) eyni zamanda Məaz ibn Cəbəli də dini işlər üzrə nümayəndə təyin edir. O, səhabələr arasında Quran hökmlərini gözəl bilməsi ilə ad çıxarmışdı. Peyğəmbər(s) bir dəfə onu hökm vermək üçün Yəmənə göndərərkən ondan soruşmuşdu ki, mübahisələri həll edərkən nəyə əsaslanacaqsan? Məaz: «Qurana»-deyə cavab vermişdi. Həzrət yenidən soruşmuşdu ki, birdən üzləşdiyin məsələ Quranda açıq şəkildə bildirilməsə, onda nəyə əsaslanacaqsan? Məaz belə cavab verir: «Onda Allahın rəsulunun hökmlərinə əsaslanacağam. Mən sizin verdiyiniz bütün hökmləri yadımda saxlamışam. Üzləşdiyim mübahisəli məsələlər sizin verdiyiniz hökmlərlə uyğun gələrsə, mən də həmin hökmü verəcəyəm.» Peyğəmbər(s) üçüncü dəfə soruşur ki, birdən elə bir mübahisəli məsələ ilə rastlaşdın ki, o barədə Quranda açıq şəkildə heç nə deyilməyib və mənim verdiyim hökmlərlə də uyğun gəlmədi, onda

---

[1] Sireyi İbn Hişam, c-2, s-500

neyləyəcəksən? Məaz cavab verir ki, belə olan halda ictihad edib ədalətə, insafa, məntiqə uyğun hökm çıxaracağam. Bunu eşitdikdə Peyğəmbər(s) buyurur: «Allaha şükür olsun ki, çıxaracağı hökmlə Allahı razı salacaq bir şəxs seçmişəm.»[1]

***Kəb ibn Züheyr ibn Əbu Səlmanın əhvalatı və məşhur qəsidəsi***

Züheyr ibn Əbu Səlma Cahiliyyət dövr ərəblərinin ən tanınmış şairlərindən və yeddi müəlləqə müəlliflərindən biri olmuşdur. Onun da yazdığı müəlləqə daxil olmaqla bu yeddi müəlləqə uzun illər Kəbə divarından asılmış və ərəb ədəbiyyatının şah əsərləri sayılmışdır. Züheyr həzrət Mühəmməd(s) peyğəmbər seçilməzdən qabaq vəfat etmişdir. Onun Büceyr və Kəb adlı iki oğlu var idi. Büceyr İslamı qəbul edib Peyğəmbərin(s) səhabəsi olsa da, qardaşı Kəb, həzrətlə düşmənçilik edirdi. İrsən böyük təbə malik Kəb ibn Züheyr öz qəsidələrində Peyğəmbəri(s) tənqid edərək camaatı ona qarşı təhrik edirdi.

Hicrətin səkkizinci ili zilqədə ayının 24-də Peyğmbər(s) Mədinəyə çatır. Kəb ibn Züheyrin qardaşı Büceyr Məkkənin fəthi, Taifin mühasirəsi boyunca Peyğəmbəri(s) müşayiət etmişdi. O, öz gözləri ilə görmüşdü ki, Peyğəmbər(s) ona qarşı şeir yazanları təhdid edir, onların qətlinə fərman verirdi. Hətta belə şairlərdən biri qətlə də yetirilir, ikisi isə qaçıb didərgin düşür.

Büceyr məktub vasitəsilə qardaşına bu haqda xəbərdarlıq edir. Məktubun sonunda onu da yazır ki, Peyğəmbərlə(s) düşmənçiliyə davam edərsə, gec-tez yaxalanıb öldürüləcək. Ancaq həzrətin hüzuruna gəlib peşmançılıq hissi keçirdiyini bildirərsə, Peyğəmbər(s) onun təqsirindən keçib bağışlayar.

Qardaşına bütün varlığı ilə inanan Kəb etdiklərindən peşman olub Mədinəyə gəlir. Məscidə gəldikdə Peyğəmbər(s) sübh namazını qılmağa hazırlaşırdı. İlk dəfə olaraq Peyğəmbərlə birlikdə namaz qılır. Namazdan sonra həzrətin yanında oturub əlini onun əlinin üstünə qoyaraq deyir: «Ey Allahın rəsulu, Kəb ibn Züheyr öz əməllərindən peşman olub. Əgər indi şəxsən sizin hüzurunuza gəlib İslamı qəbul etdiyini bildirərsə, onu

[1] Ət-Təbəqatul-kubra, c-2, s-347

bağışlayacaqsınızmı?» Peyğəmbər(s) buyurur ki, bəli, bağışlayaram. Bu zaman Kəb deyir ki, Kəb ibn Züheyr mən özüməm.

Kəb əvvəlki səhvlərini aradan qaldırmaq məqsədilə qabaqcadan Peyğəmbərin(s) mədhinə yazdığı qəsidəsini həzrətin hüzurunda oxuyur.[1] Bu qəsidə Kəb ibn Züheyrin ən gözəl qəsidələrindən biridir. O, bu qəsidəni Peyğəmbərin(s) hüzurunda oxuduğu gündən etibarən səhabələr onu əzbərləməyə başlayırlar. Müsəlman alimlər tərəfindən ona çoxlu şərhlər də yazılmışdır. Ərəb ədəbiyyatında «Bənət Suad» adı ilə məşhur olan 58 beytlik bu qəsidə lamiyyə (beytlərin sonu «ləm» (l) hərfi ilə bitən şeir növü) qismindəndir.

Ənənəvi ərəb ədəbiyyatında şairlər öz şeirlərini ya məşuqələrinə xitab, ya da tərk edilmiş obaya xitabla başladığı kimi Kəb ibn Züheyr də qəsidəyə onu tərk etmiş məşuqəsi-öz əmisi qızı Suadla başlayır. Nəhayət, etdiyi əməllərinə görə peşmançılıq hissi keçirərək deyir:

Peyğəmbərin məni təhdid etdiyi qulağıma çatdı.
Ancaq Peyğəmbərdən yalnız əfv və mərhəmət gözlənilir.
Peyğəmbər elə bir nurdur ki, insanlar onun sayəsində haqqa çatır.
O, Allahın elə bir qılıncıdır ki, hər yerdə qalib gəlir.

***Sevinc və kədərin bir-birinə qarışması***

Hicrətin səkkizinci ilinin sonunda Peyğəmbərin(s) böyük qızı Zeynəb vəfat edir. O, hələ besətdən öncə xalası oğlu Əbül Asla ailə qurmuşdu. Atası peyğəmbər seçildikdən dərhal sonra ona iman gətirir. Əri isə müşrik olaraq qalır. Əbül As Bədr döyüşündə müsəlmanlara qarşı iştirak edib əsir düşür. Peyğəmbər(s) onu azad edib tapşırır ki, həyat yoldaşını (yəni, Peyğəmbərin qızını) dərhal Mədinəyə göndərsin. O da Peyğəmbərə söz verir ki, onu mütləq Mədinəyə göndərəcək. Məkkəyə qayıtdıqda verdiyi sözə əməl edərək Zeynəbi Mədinəyə yola salır. Bundan xəbər tutan Məkkə müşrikləri onu geri qaytarmaq üçün bir nəfəri ardınca göndərirlər. Onun ardınca gələn şəxs yolda ona çatıb nizəni kəcavəyə batırır. Qorxudan Zeynəbin bətnindəki uşaq elə

[1] Sireyi Hələbi, c-3, s-242

oradaca düşür. Lakin Mədinəyə getmək fikrindən dönmür. Nəhayət, yorğun-arğın özünü Mədinəyə çatdırıb ömrünün sonunadək xəstə yatır.

Bu kədər hissinə bir sevinc hissi qatılır. Belə ki, həmin ilin sonunda Peyğəmbərin(s) Misir hökmdarı Mequqesin onun üçün hədiyyə göndərdiyi kənizdən-Mariyadan bir oğlu olur. Uşağın adını İbrahim qoyurlar. Mamaça Peyğəmbərə(s) oğlu olduğu barədə müjdə verdikdə həzrət ona böyük bir ənam bağışlayır. İbrahimin anadan olmasının yeddinci günündə Peyğəmbər(s) bir qoyun kəsir, uşağın saçını qırxdırıb tükün ağırlığı qədər gümüşü Allah yolunda sədəqə verir.[1]

[1] Tarixul-xəmis, c-2, s-131

## HİCRƏTİN DOQQUZUNCU İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR

Ən böyük şirk mərkəzi olan Məkkənin müsəlmanlar tərəfindən fəth edilməsindən sonra inadkar ərəb qəbilələri yavaş-yavaş İslama meyl etməyə başlayırlar. Müsəlmanların Məkkəni fəth edəcəyini təsəvvür edə bilməyən bu qəbilələr müsəlmanlara yaxınlaşmaqdan başqa çıxış yolu görmür. Bu baxımdan mütəmadi olaraq müxtəlif dəstələr qəbilə başçıları ilə birlikdə Peyğəmbərin(s) hüzuruna gəlib İslamı qəbul etdiklərini bildirirlər. Hicrətin doqquzuncu ilində Mədinəyə gələn belə dəstələrin sayı o qədər çox olmuşdur ki, həmin ili «nümayəndələr ili» adlandırmışlar.

Zeyd əl-Xeylin başçılığı ilə Teyy qəbiləsinin nümayəndə heyəti Mədinəyə gəldikdə qəbilə başçısı söhbət edərkən Peyğəmbər(s) onun mətanətinə, iradəsinə heyran qalıb buyurur: «Mən tanınmış adamlarla çox rastlaşmışam, onları eşitdiyimdən aşağı görmüşəm. Ancaq Zeydin eşitdiyimdən də artıq olduğunu gördüm. Yaxşı olar ki, bundan sonra onu Zeyd əl-Xeyl yox, Zeyd əl-Xeyr çağıraq.»[1]

Mədinəyə gələn nümayəndə heyətlərinin macərasi və onların Peyğəmbərlə(s) söhbətlərini dəqiqliklə araşdırdıqda məlum olur ki, Ərəbistan yarımadasında İslam dini əsasən təbliğ və məntiqi dəvət vasitəsilə yayılmışdır. Düzdür dinin yayılmasının qarşısını almağa çalışan Əbu Süfyan, Əbu Cəhl kimi fitnəkarlar da olmuşdur və Peyğəmbər(s) məhz bu fitnəkarların fitnəsini yatırmaqdan ötrü döyüşmək məcburiyyətində qalırdı. Heç bir din qarşısındakı bu maneələri aradan qaldırmadan inkişaf edib yayıla bilməz. Buna görə də təkcə İslam peyğəmbəri deyil, bütün peyğəmbərlər hər şeydən qabaq məhz bu maneələri aradan qaldırmağa çalışmışlar.

Hicrətin doqquzuncu ilində Mədinəyə gələn nümayəndə heyətləri ilə bağlı Quran da öz münasibətini bildirmişdir: «***Allahın köməyi və o (böyük) zəfər (Məkkənin fəthi və digər zəfərlər) gəldiyi zaman,***

[1] Sireyi İbn Hişam, c-2, s-577

***insanların dəstə-dəstə Allahın dininə daxil olduqları zaman Rəbbinə həmd-səna etməklə bərabər Onu zikr et, Ondan bağışlanmaq dilə. O, həqiqətən, daim nəzər yetirən və tövbələri qəbul edəndir.»***[1]

Hicrətin doqquzuncu ilində müxtəlif nümayəndə heyətlərinin Mədinəyə gəlişi ilə yanaşı, həm də bir sıra yürüş və kiçik döyüşlər baş vermişdir ki, Peyğəmbər(s) bunlardan yalnız birində - Təbuk döyüşündə şəxsən iştirak etmişdir. Bu yürüşlər əsasən bəzi qəbilələrdə hələ də pərəstiş edilən bütləri məhv etmək xarakteri daşımışdır.

### *Bütxanaların dağıdılması*

Peyğəmbərin(s) ən başlıca vəzifəsi insanlar arasında təkallahlığı yayıb bütpərəstliyə, çoxallahlığa son qoymaq idi. O, haqdan uzaq düşənləri ilk növbədə məntiqlə, dəlil-sübutla haqqa dəvət edir, yanlış yolda olduqlarını başa salmağa çalışırdı. Dediklərinin onlara təsir etmədiyini gördükdə isə onlara qarşı zor tətbiq etmək məcburiyyətində qalırdı. Necə ki, infeksion xəstəliyin yayılmaması üçün insanlara vaksin vurarkən kimsə vaksin qəbul etməkdən imtina etdikdə ona məcburi şəkildə vaksin vurulur, Peyğəmbər(s) də bütpərəstliyin, çoxallahlığın keçici bir xəstəlik olduğunu bildiyi üçün yeri gəldikdə camaatı ondan zorla uzaqlaşdırmağa səy göstərirdi. Çünki Allah-taala tərəfindən vəhy vasitəsi ilə ona məlum idi ki, bütpərəstlik cəmiyyətdə bütün mənəvi dəyərləri aradan aparır. Buna görə də Allah onu bu xəstəliyi aradan qaldırmağa göndərmişdi. Bu yolda kimsə ona etiraz edərdisə, ona qarşı istənilən formada mübarizə aparırdı.

İslam ordusunun get-gedə artan nüfuzu Peyğəmbərə(s) bu imkanı yaradır ki, Hicaz ətrafındakı bütxanaları dağıtmaqdan ötrü ətraf bölgələrə hərbi dəstələr ezam etməklə bütpərəstliyin kökünü kəssin. Belə dəstələrdən biri də Əlinin(ə) başçılığı ilə Teyy qəbiləsinə göndərilmiş dəstə olmuşdur.

### *Əli(ə) Teyy qəbiləsində*

Həzrət Peyğəmbərə(s) məlumat çatmışdı ki, Teyy qəbiləsində hələ də böyük bir bütə sitayiş edilir. Bütxananı dağıtmaq məqsədilə Peyğəmbər(s) Əlini(ə) 150 atlı ilə Teyy qəbiləsinə göndərir. Əli(ə)

---

[1] Nəsr-1-3

qəbilənin müsəlmanlara müqavimət göstərəcəyini bilirdi. Buna görə də bütxanaya səhər tezdən hücum edir. Bütxananı dağıdıb bütü sındırır, müqavimət göstərmiş bir neçə nəfəri də əsir götürüb Mədinəyə qayıdır. Bu hücum zamanı səxavəti dillər əzbəri olmuş Hatəm Tayinin (Teyy qəbiləsindən olduğu üçün məhz Tayi adlandırılmışdır) oğlu, atasından sonra qəbiləyə başçılıq etmiş və sonradan ən fədakar müsəlmanlardan birinə çevrilmiş Ədiyy ibn Hatəm qaçıb Şama gedir. O, bu haqda deyir: «İslamı qəbul etməzdən qabaq mən xaçpərəst idim. Peyğəmbər haqqında aparılmış mənfi təbliğat nəticəsində qəlbimdə ona qarşı böyük nifrət hissi var idi. Onun Hicazdakı nailiyyətlərindən xəbərdar idim və bilirdim ki, nə vaxtsa müsəlmanlar mənim də qəbiləmin üstünə gələcəklər. Öz dinimdən dönməmək və eləcə də müsəlmanların əlinə düşməmək üçün nökərlərimə tapşırmışdım ki, itigedən dəvələri hazır saxlasınlar. Nə vaxtsa müsəlmanlar buraya hücum etsələr, dərhal dəvəyə minib Şama qaça bilim. Yollarda da gözətçilər qoymuşdum ki, müsəlmanlar hücum etdikdə məni tez xəbərdar etsinlər. Bir gün gözətçilərdən biri gəlib müsəlmanların qəbiləyə hücuma keçdiyini bildirir. Arvad-uşağımı da götürüb dərhal Şama hərəkət etdim. O vaxtlar Şam, Şərqdə xaçpərəstliyin əsas mərkəzi sayılırdı. Ancaq bacım qəbilədə qaldığı üçün əsir düşdü. Bacımı digər əsirlərlə birlikdə Mədinəyə aparıb Peyğəmbər məscidinin yaxınlığında əsirlər üçün nəzərdə tutulmuş evdə saxlayırlar. O, əsirlik müddətində başına gələnləri belə nəql edir: «Bir gün Peyğəmbər(s) namaz qılmaq üçün məscidə gələrkən əsirlərin saxlanıldığı evin qarşısından keçirdi. Mən fürsətdən istifadə edib onun qabağına çıxaraq dedim ki, ya Rəsuləllah, atam vəfat edib, qəyyumum da çıxıb gedib. Mənə minnət qoyaraq azad et çıxım gedim. Allah sənin köməyin olsun! Peyğəmbər soruşdu ki, qəyyumun kim idi? Cavab verdim ki, qardaşım Ədiyy ibn Hatəm. Həzrət buyurdu: «Allahdan və Peyğəmbərindən qaçıb Şama sığınan Ədiyyimi deyirsən?» Bunu deyib məscidə doğru gedir. Səhərisi gün də həmin hadisə baş verdi, lakin yenə bir nəticəsi olmadı. Növbəti gün isə artıq Peyğəmbərə bu barədə də heç nə demək fikrim yox idi. Lakin Peyğəmbər(s) yenə də həmin yerdən keçəndə arxasında olan bir gənc mənə işarə etdi ki, dünənki sözlərimi yenə də təkrarlayım. O gəncin

işarəsi məni ümidləndirdi və qalxıb ilk iki gündə dediklərimi yenə təkrarladım. Peyğəmbər(s) cavabımda buyurdu: «Getmək üçün tələsmə. Mən səni etibarlı bir adamla öz vətəninə göndərmək istəyirəm. Hələlik belə bir şərait yoxdur.» Peyğəmbərin(s) arxasında olan o gənc Əli ibn Əbutalib imiş.»

Bir gün qohumlarımdan birinin də içərsində olduğu karvan Mədinədən Şama gedirdi. Bacım Peyğəmbərdən xahiş edir ki, həmin karvanla Şama-mənim yanıma getməsinə icazə versin. Peyğəmbər onun xahişini qəbul edir, səfər üçün ona minik, geyim və bir qədər də pul verir. Mən Şamda öz otağımda oturduğum vaxt birdən qapının ağzında üzərində kəcavə olan bir dəvənin dayandığını gördüm. Baxıb gördüm ki, gələn bacımdır. Onu kəcavədən düşürüb evə apardım. Bir qədər istirahətdən sonra bacım gileylənməyə başlayıb onu qəbilədə tək qoyduğum, özüm isə Şama gəldiyim üçün etirazını bildirdi.

Bacım çox ağıllı qadın idi. Bir gün onunla Peyğəmbər haqqında söhbət edərkən soruşdum ki, onun barəsində ağlın nə kəsir? Cavab verdi ki, onun çox yüksək dəyərlərə sahib olduğunu gördüm. Məsləhət görürəm ki, tezliklə onunla dostluq əlaqəsi yaradasan. Əgər o həqiqətən də peyğəmbərdirsə, onda ona iman gətirən şəxs səadətə çatar. Yox əgər o, adi bir hökmdardırsa, bunun da sənə heç bir ziyanı dəyməz. Əksinə, onun imkanlarından faydalanarsan.»

### *Ədiyy ibn Hatəmin Mədinəyə gəlişi*

Ədiyy ibn Hatəm deyir: «Bacımın dedikləri ağlıma batdı. Buna görə də Mədinəyə getmək qərarına gəldim. Mədinəyə çatdıqda birbaşa məscidə-Peyğəmbərin yanına getdim. Məni tanıdıqda yerindən qalxıb əlimdən tutaraq evinə apardı. Yolda qoca bir qarı onunla rastlaşıb söhbər etməyə başladı. Gördüm ki, Peyğəmbər onunla çox mehribancasına rəftar edib təmkinlə sözlərini dinləyir. Onun gözəl əxlaqı məni heyran qoymuşdu. Özlüyümdə onun adi bir hökmdar olmadığı qənaətinə gəldim. Evinə daxil olduqda sadə həyat tərzi diqqətimi cəlb etdi. Xurma ağacının liflərindən hazırlanmış döşəyi mənə tərəf çəkib üstündə oturmağımı bildirdi. Özü isə həsir, ya da quru yerin üstündə əyləşdi. Onun təvazökarlığı məni heyran etmişdi. Onun bütün insanlara, hətta ən adi şəxsə hörmət etməsindən

anladım ki, o, adi hökmdar deyil. Sonra Peyğəmbər üzünü mənə tutub həyatımda baş verənlər, mənə aid xüsusiyyətlər barədə məlumat verib buyurdu: «Məgər sən xaçpərəst deyilsən?» Cavab verdim ki, əlbəttə xaçpərəstəm. Dedi: «Bəs onda nəyə görə qəbilənin gəlirinin dörddə birini özünə aid edirsən? Məgər sizin din buna icazə verir?» Cavab verdim ki, xeyr. Mən onun bu qeybi xəbərlərindən peyğəmbər olduğunu yəqin etdim. Elə bu fikirdə ikən daha bir sözü diqqətimi cəlb etdi. Buyurdu ki, müsəlmanların maddi cəhətdən imkansız olması İslamı qəbul etməyinə mane olmasın. Bir vaxt gələr ki, dünyanın bütün mal-dövləti müsəlmanlara nəsib olar və heç kəs onu sayıb qurtara bilməz. Yox əgər düşmənlərin çoxluğu, müsəlmanların isə azlığı İslamı qəbul etməyinə mane olursa, and olsun Allaha, bir vaxt gələcək İslam hər tərəfə yayılacaq və kimsəsiz qadınlar da Qadisiyyədən durub Allahın evinə ziyarətə gələcəklər. Heç kəs də onlara dəyib dolaşmayacaq. Bu gün hakimiyyət başında başqalarını görürsənsə, sənə söz verirəm ki, vaxt gələcək müsəlmanlar Kəsra saraylarını, Babili də fəth edəcəklər.»

Ədiyy ibn Hatəm əlavə edərək deyir: «Mən Peyğəmbərdən(s) sonra xeyli yaşayıb gördüm ki, doğrudan da ən ucqar nöqtələrdən kimsəsiz qadınlar Kəbəyə ziyarətə gəlir və heç kim də onlara dəyib dolaşmır. Onu da gördüm ki, müsəlmanlar Babili fəth edib Kəsra taxt-tacına sahib çıxdılar. Ümid edirəm ki, dünyanın bütün sərvətinin müsəlmanlara doğru axıb gəlməsini də görəm.»[1]

Mərhum Təbərsi, «Onlar Allahın əvəzinə öz keşiş və rahiblərini tanrılığa qəbul etdilər»[2] ayəsinin təfsirində Peyğəmbərlə(s) Ədiyy ibn Hatəmin görüşünü qeyd edərək yazır: «O, Peyğəmbərin(s) hüzuruna gələrkən həzrət qeyd olunan ayəni oxuyurdu. Ayəni bitirdikdən sonra Ədiyy həzrətə etirazını bildirib deyir ki, biz keşiş və rahibələrimizə ibadət etmirik. Nəyə görə siz bizə belə bir əməli nisbət verirsiniz? Peyğəmbər(s) buyurur: «Keşiş və rahibləriniz Allahın halalını haram, haramını isə halal etsələr, onlara tabe olarsınızmı?» Ədiyy: «Bəli»-deyə cavab verdikdə həzrət

---

[1] Məğazi Vaqidi, c-3, s-988-989; Sireyi İbn Hişam, c-2, s-578-581

[2] Tövbə-31

buyurur: «Bu, o deməkdir ki, deməli, siz onları tanrılar kimi qəbul etmisiniz.»[1]

[1] Məcməül-bəyan, c-3, s-24

# TƏBUK DÖYÜŞÜ

Suriya sərhədi ilə Hicr və Şam (indiki Dəməşq nəzərdə tutulmur) yolları arasında yerləşən və bulaq başında tikilmiş bir qala Təbuk adlanırdı. O vaxt ki Suriya, mərkəzi Konstantinopol olan Şərqi Bizans imperiyasının tabeçiliyində idi. Şam sərhədlərində yaşayan əhalinin hamısı xaçpərəsət idi. Ətraf əraziyə başçılıq edən şəxslər Şam hökmdarı tərəfindən təyin edilir, Şam hökmdarının özü isə bilavasitə Bizans imperatoru tərəfindən seçilirdi.

İslam dininin Ərəbistan yarımadasında sürətlə inkişafı və müsəlmanların bölgədəki qələbələri xəbəri o dövrün müxtəlif vasitələri ilə yarımadadan kənarda yayılır və düşmənləri çarə fikirləşməyə məcbur edirdi.

Məkkənin müsəlmanlar tərəfindən fəth edilməsi, İslam mücahidlərinin döyüş cəbhələrindəki əzmkarlığı Bizans imperatorunu böyük bir ordu ilə müsəlmanlara hücum etmək fikrinə gətirir. Çünki İslamın artan sürətlə inkişaf etməsini öz hökumətinin zəifləməsi ilə nəticələnəcəyini düşünürdü.

O vaxtkı Bizans imperiyası İran imperiyasının qarşısında duruş gətirə bilən yeganə dövlət idi. Bizanslılar İran üzərindəki qələbələrdən sonra çox məğrur olmuşdular. Müsəlmanlara hücum etmək məqsədilə dövrün ən müasir silahları ilə təchiz edilmiş qırx minlik Bizans ordusu Şam sərhədlərinə qədər irəliləyir. Orada ətraf qəbilələr, o cümlədən «Ləxim», «Amilə», «Qəssan» və «Cəzzam» qəbilələri də onlara qoşulur. Ordunun ön sırası Bəlqayadək gəlib çıxır.[1]

Hicazdan Şama get-gəl edən ticarət karvanları Şam sərhədlərində Bizans əsgərlərinin toplandığını Peyğəmbərə çatdırır. Peyğəmbər(s) çıxış yolunu yalnız böyük bir ordu ilə onların qarşısına çıxmaqda görür. Şəhidlərin qanı və Peyğəmbərin(s) əziyyətləri bahasına qurulmuş və

[1] Ət-Təbəqatul-kubra, c-2, s-165

demək olar bütün Ərəbistan yarımadasına yayılmış İslam dinini nəyin bahasına olursa olsun, qorumaq lazım idi.

Bizans ordusunun hücuma keçməsi xəbəri Mədinəyə o vaxt gəlib çatır ki, camaat hələ məhsulu yığmamışdı. Xurmalar yavaş-yavaş yetişirdi. Mədinəyə bir növ qəhətlik üz vermişdi. Lakin mömin insanlar üçün mənəvi həyat uğrunda, Allah yolunda cihad etmək hər şeydən üstündür.

### *Ordu təşkil edilməsi və döyüş büdcəsinin hazırlanması*

Peyğəmbər(s) Bizans ordusunun gücünə nisbətən bələd idi. Buna görə də belə hesab edirdi ki, bu cihadda qələbə qazanmaq üçün mənəvi amillə (Allaha inam və Allah xatirinə döyüşmək) yanaşı eyni zamanda mütəşəkkil orduya da ehtiyac vardır. Bu məqsədlə Peyğəmbər(s) Məkkəyə və Mədinənin ətrafına qasidlər göndərir ki, müsəlmanları döyüşə çağırsın. Eyni zamanda imkanlı şəxslərdən zəkat ödəməklə döyüş büdcəsinin təşkil edilməsi də tələb olunur. Beləliklə, on min nəfəri süvari, iyirmi mini isə piyada olmaqla otuz min nəfərlik bir ordu Mədinə düşərgəsində-Səniyyətül-vidada hazır vəziyyətə gətirilir. Döyüş büdcəsi də demək olar ki, təmin edilir. Peyğəmbər(s) hər qəbiləyə bir bayraq götürmək tapşırığını da verir.[1] Tövbə surəsinin bir neçə ayəsi məhz bu məsələ ilə bağlı nazil olmuşdur.

### *Mədinədə casus şəbəkəsinin aşkar edilməsi*

Həzrət Peyğəmbər(s) məlumat toplamağa böyük önəm verirdi. Qazanılmış qələbələrin yarısı bu amilin nəticəsi olmuşdur. Buna görə də bir çox məkrli planların qarşısı elə yerindəcə alınırdı.

Təbuk döyüşünə çıxmazdan qabaq Peyğəmbərə(s) belə bir məlumat verilir ki, yəhudi Süveylimin evində toplaşan münafiqlər müsəlmanları döyüşdə iştirak etməkdən yayındırmaq məqsədilə plan hazırlayırlar. Peyğəmbər(s) onları qorxudub bir daha belə fikrə düşməsinlər deyə, Təlhə ibn Übeydullaha tapşırır ki, bir neçə nəfərlə birlikdə münafiqlər orada toplaşan zaman evə od vurub yandırsın. Qoy bu hal başqalarına da ibrət olsun. Təlhə Peyğəmbərin(s) buyurduğu kimi edir. Münafiqlər evdə müzakirə apararkən Təlhə evə od vurub yandırır. Münafiqlər çətinliklə

---

[1] Ət-Təbəqatul-kubra, c-2, s-166

də olsa, alovların arasından qaçıb çölə çıxa bilirlər və yalnız bir nəfərin ayağı sınır.[1]

***Orduya qoşulmaqdan imtina edənlər***

Təbuk döyüşü əsl möminləri mömin cildinə girənlərdən ayırd etmək üçün ən gözəl fürsət idi. Belə ki, ümumi səfərbərlik elan edilən zaman olduqca isti günlər keçirdi və camaat məhsul yığımına hazırlaşırdı. Bəzi şəxslərin müxtəlif bəhanələrlə döyüşə getməkdən boyun qaçırması onların əsl simasını üzə çıxarır. Tövbə surəsinin bir neçə ayəsi məhz bu məsələ ilə bağlı nazil olmuşdur.

Təbuk döyüşündə bir neçə qrup aşağıdakı səbəblərə görə iştirak edə bilməmişdir:

1) Şəhvətpərəstlər: Peyğəmbər(s) Cədd ibn Qeysə döyüşdə iştirak təklifi etdikdə o, belə cavab verir: «Mənim qadına böyük istəyim var. Qorxuram ki, döyüşə gəlib bizanslı qadınlara gözüm sataşar, nəticədə fitnə-fəsada düşərəm.» Peyğəmbər(s) onun bu məntiqsiz və gülünc bəhanəsinə görə daha onu döyüşə aparmaq fikrindən daşınır. Aşağıdakı ayə nazil olub Cədd ibn Qeysi danlayır: ***«Onlardan (münafiqlərdən): «Mənə (döyüşə getməməyə) izn ver, məni fitnəyə salma!»-deyənlər də var. Bilin ki, onlar (özləri) fitnəyə düşmüşlər. Şübhəsiz ki, Cəhənnəm kafirləri bürüyəcəkdir!»***[2]

2) Münafiqlər: Qəlbən İslamı qəbul etməyən üzdə özünü müsəlman kimi göstərənlərin özlərinin döyüşə getməmələri azmış kimi, hələ başqalarını da döyüşə getməkdən yayındırmağa çalışırdılar. Bəzən bunu havanın həddən artıq isti olması ilə əlaqələndirirdilər. Quran isə onların bu bəhanəsinə belə cavab verir: ***«(Döyüşə getməyən münafiqlər) dedilər: «Bu istidə döyüşə çıxmayın!» (Ya Rəsuləllah!) De: «Cəhənnəm odu daha istidir!» Kaş biləydilər!»***[3]

Bəzi münafiqlər də möminləri qorxudaraq deyirdilər ki, ərəblərin bizanslılarla döyüşməyə gücü yetməz. Çox çəkməz hamınız əsir alınıb bazarda qul kimi satılarsınız.[4]

---

[1] Sireyi İbn Hişam, c-2, s-517
[2] Tövbə-49
[3] Tövbə-81
[4] Məğazi Vaqidi, c-3, s-1003

3) Ağlayanlar: «Döyüşdə iştirak etmək əzmində olan bəzi səhabələr Peyğəmbərin(s) hüzuruna gəlib onlara minik vasitəsi verməsini xahiş edirlər. Peyğəmbər(s) onlara mənfi cavab verdikdə (minməyə heç bir vasitə olmadığını söylədikdə) onlar narahat olub ağlamağa başlayırlar. Peyğəmbərin(s) səhabələri arasında hiyləgər, bəhanə gətirən, vəfasız şəxslər var idisə, əvəzində cihada gedə bilmədiklərinə görə narahat olub göz yaşı tökənlər də olmuşdur. İslam tarixində bu qrup «ağlayanlar» adı ilə tanınmışdır və Allah-taala onların imanını yüksək qiymətləndirərək buyurur:

***«(Döyüşə getməyə minikdən ötrü) yanına gəldikdə: «Sizin minməyiniz üçün bir heyvan tapmıram»-deyərkən (cihad yolunda) sərf etməyə bir şey tapa bilmədikləri üçün kədərdən gözlərindən yaş axa-axa geri dönənlərə də heç bir günah yoxdur!»***[1]

4) Məhsul yığanlar: İslam və cihada qəlbən bağlanmış Kəb, Hilal, Mərarə kimi bəzi səhabələr məhsullarını toplamadıqları üçün belə qərara gəlirlər ki, məhsulu toplayıb qurtaran kimi Mədinədən çıxıb orduya qoşulsunlar. Quran (Tövbə surəsi, 118-ci ayə) onların bu hərəkətini qətiyyətlə pisləyir. Döyüşdən qayıtdıqdan sonra Peyğəmbər(s) də onları ciddi tənbeh edir. Həzrətin bu hərəkəti başqalarına da böyük ibrət dərsi olur.

5) Fədakar möminlər: Döyüş üçün əllərindən gələni edib hətta orduya da qoşulmaq istəyən bəzi şəxslər də var idi ki, bu və digər səbəbdən döyüşə gedə bilmirlər. Lakin onlar ordu toplanılmasında olduqca əzmkarlıq göstərmişdilər.

### *Əli(ə) Təbuk döyüşündə iştirak etmir*

Əmirəl-möminin Əli ibn Əbutalibin(ə) üstünlüklərindən biri də o idi ki, bu vaxtadək bütün döyüşlərdə Peyğəmbərlə(s) birlikdə olmuş və ordunun əsas bayrağını götürmək şərəfinə çatmışdır. Təbuk döyüşündə isə Peyğəmbərin(s) göstərişi ilə Əli(ə) Mədinədə qalır. Çünki Peyğəmbər(s) çox yaxşı bilirdi ki, bəzi münafiqlər Peyğəmbər(s) Mədinədə olmadığı vaxt fürsətdən istifadə edib Mədinədəki sabitliyi

---

[1] Tövbə-92

pozmaq və yeni qurulmuş İslam hökumətini devirməyə can atarlar. Bu da yalnız o vaxt mümkün ola bilərdi ki, Peyğəmbər(s) və səhabələr uzaq səfərə çıxmış olsunlar. Həzrətin getdiyi döyüşlər arasında Təbuk ən uzaqda baş verəni idi. Peyğəmbər(s) Məhəmməd ibn Məsləməni Mədinədə öz canişini təyin etsə də, Əliyə(ə) buyurur ki, sən burada mənim Əhli-beytimin və eləcə də mühacirlərin ailələrinin qəyyumusan. Buna mən və səndən daha layiqli şəxs yoxdur.

Əmirəl-möminin Əlinin(ə) Mədinədə qalması münafiqləri çox narahat edir. O, olan yerdə onlar öz məqsədlərinə çata bilməzdilər. Buna görə də Əlini bir vasitə ilə Mədinədən uzaqlaşdırmaqdan ötrü şayiə yayırlar ki, Peyğəmbər Əlini döyüşə aparmaq istəsə də, o, havanın isti və yolun uzaq olduğunu bəhanə edib döyüşə getməkdən boyun qaçırdı. Əli(ə) də öz növbəsində bunun şayiə olduğunu sübut etmək üçün dərhal Peyğəmbərin(s) hüzuruna gəlib deyilənləri ona çatdırır. Peyğəmbər(s) də Əlinin o həzrətdən bilavasitə sonra imamətinə dəlalət edən tarixi cümləsini buyurur: «Qardaşım, Mədinəyə qayıt! Mədinənin işlərinə nəzarət etməyə mən və səndən başqa layiqli şəxs yoxdur. Sən mənim qohumlarım arasında qəyyumumsan... İstəmirsənmi mənə olan münasibətin Harunun Musaya olan münasibəti kimi olsun? Bircə fərq odur ki, məndən sonra peyğəmbər gəlməyəcək. Harun Musadan bilavasitə sonra onun canişini olduğu kimi sən də ümmətim arasında mənim bilavasitə canişinimsən.»[1]

Peyğəmbər(s) harasa döyüşə gedərkən adətən bu barədə səhabələrə dəqiq məlumat vermir, onları başqa yolla aparırdı ki, qoy düşmən onların hərəkətindən xəbər tutmasın.[2] Təbuk döyüşündə isə vəziyyət tamam fərqli idi. Səfərbərlik elan olunduğu ilk gündən məqsədin Təbuk olduğu hamıya bildirilmişdi ki, hamı yolun uzaqlığını, çətinlikləri nəzərə alıb lazımı tədarük görə bilsin. Digər tərəfdən Peyğəmbər(s) ordunu daha gücləndirmək məqsədilə Mədinədən kənarda olan Təmim, Qətəfan, Teyy qəbilələrindən, həmçinin Məkkədən də canlı qüvvə götürmək niyyətində idi. Bu məqsədlə o həzrət adı çəkilən qəbilə başçılarına, habelə Məkkənin gənc valisi Üttab ibn Üseydə məktub

---

[1] Sireyi İbn Hişam, c-2, s-520; Biharul-ənvar, c-21, s-207
[2] Məğazi Vaqidi, c-3, s-990

göndərərək onlara cihadda iştirak etmək üçün qüvvə toplamalarını tapşırır.[1] Belə bir dəvət zamanı əsl məqsədi gizlətmək mümkün deyil. Çünki hazırlaşan dəstələr yolun yaxın və ya uzaqlığını nəzərə alıb hazırlığı ona əsasən tutmalı idilər.

İslam ordusunun hərəkət edəcəyi gün gəlib çatır. Yola düşməzdən qabaq ordu Peyğəmbərin(s) hüzurundan təntənəli keçidlə ötüb gedir. Bütün həyata göz yumub ölümün pəncəsinə doğru gedən İslam ordusunun bu keçidini izləmək doğrudan da qürurverici idi. Son anda Peyğəmbər(s) döyüşçülərin ruhiyyəsini qaldırmaq məqsədilə bir xütbə oxuyub səfərin məqsədini bir daha açıqlayır. Xütbəni bitirdikdən sonra hərəkət əmri verilir və beləliklə də İslam ordusu Təbuka doğru hərəkət edir.

***Malik ibn Qeysin macərası***

İslam ordusu hərəkət etdikdən sonra səfərdə olan Malik ibn Qeys (Əbu Xeysəmə) çox isti bir gündə Mədinəyə qayıdır. Şəhərin xəlvət olduğunu görüb müsəlmanların döyüşə getdiyinə əmin olur. Bağına daxil olduqda həyat yoldaşının onun üçün gözəl yeməklər hazırlayıb kölgəlik qurduğunun şahidi olur. Bir anlıq yoldaşının gözəl simasına, onun üçün hazırladığı yemək-içməyə baxıb sonra da Peyğəmbərin(s) və səmimi səhabələrinin indi nələr çəkdiyini düşünməyə başlayır. Dərhal da bu qərara gəlir ki, tez özünü Peyğəmbərə(s) çatdırıb orduya qoşulmalıdır. Buna görə də yerindən qalxaraq həyat yoldaşına deyir: «Mənim kölgəlikdə xanımımın yanında dincəlməyim, bu cür gözəl yemək-içməkdən istifadə etməyim heç insafdan deyil. Peyğəmbərim, başımın tacı qızmar günəş altında döyüşə tələsdiyi halda vicdanım mənə burada qalmağa icazə verməz.» Bunu deyib bir qədər yol tədarükü görərək ordunun ardınca gedir. Yolda ordudan geri qalmış Ömər ibn Vəhəblə rastlaşır. Hər ikisi Peyğəmbər(s) Təbuka daxil olan gün həzrətə çatır.[2]

Malik ibn Qeys səfərin başlanğıcından Peyğəmbəri(s) müşayiət etmək şərəfinə nail olmasa da, sonda təqdirəlayiq əzmkarlığı sayəsində bu böyük xoşbəxtliyə çatır. O, xoşbəxtlik qapısının kandarına qədər

---

[1] Biharul-ənvar, c-21, s-244
[2] Sireyi İbn Hişam, c-2, s-520

gəldiyi halda ondan üz çevirən şəxslər kimi hərəkət etmir. Çünki o şəxslər xoşbəxtliyə çatmağa layiq olmamışlar. Malikin vəziyyəti isə tam əksinə idi. O, özünə icazə vermir ki, bu xoşbəxtlikdən məhrum olsun. Məsələn, münafiqlərin başçısı Abdullah ibn Übeyy Mədinədən Peyğəmbərlə(s) birlikdə çıxmışdı. Döyüşdə iştirak etmək istəyirdi. Ancaq ordu hərəkət edən anda öz fikrini dəyişərək orduda təfriqə yaratmaqdan ötrü tərəfdarları ilə birlikdə Mədinəyə geri dönür. Peyğəmbər(s) onun münafiq, ikiüzlü olduğunu bildiyi üçün onun dönüşünə heç əhəmiyyət də vermir. Onsuz da onun döyüşdə iştirak etməsinin faydasız olduğunu bilirdi.

Müsəlmanlar Mədinədən Təbuka gedərkən yolboyu çoxlu çətinliklərlə üzləşirlər. Məhz bu səbəbdən bu döyüşə gedən ordu «çətinliklər ordusu» adlandırılır. Lakin bütün bunlara baxmayaraq müsəlman mücahidlərin imanı istənilən çətinliyi arxada qoyur. Müsəlmanlar vaxtilə Səmud qövmünün yaşadığı ərazidən keçərkən əsən isti külək nəticəsində Peyğəmbər(s) üzünü parça ilə örtür. Səmud qövmünün evlərinin kənarından sürətlə keçərək səhabələrə buyurur: «Allaha itaətsizliklərinə görə Səmud qövmünün tuş gəldiyi İlahi əzab barədə düşünün. İmanı olan heç kəs belə bir aqibətlə üzləşməyəcəyini yəqin etməsin. Ölüm sükutu bürümüş bu ərazi, bu evlər, digər qövmlər üçün ibrət dərsi olmalıdır.» Sonra isə həzrət səhabələrə tapşırır ki, buranın suyundan içməsinlər, ondan xəmir yoğurmasınlar, yemək hazırlamasınlar, heç dəstəmaz da almasınlar. Əgər bu vaxtadək həmin su ilə kimsə xəmir yoğurmuş və ya xörək bişirmişdirsə, onu heyvanlara yedizdirsin, özü ondan qətiyyən istifadə etməsin.

Müsəlmanlar Peyğəmbərin(s) göstərişinə əsasən hərəkətə davam edirlər. Gecədən bir qədər keçdikdə Saleh(ə) peyğəmbərin dəvəsinin su içdiyi quyunun başına çatırlar. Yalnız orada Peyğəmbər(s) istirahət etməyə icazə verir.

Peyğəmbər(s) Səmud diyarının güclü tufanlarından xəbərdar idi. Bilirdi ki, güclü səhra küləyi insanı miniyi qarışıq qumların altında basdırmaq iqtidarına malikdir. Buna görə də ehtiyatı əldən verməyib tapşırır ki, dəvələrin qıçlarını bağlasınlar, heç kəs gecə yarısı təkbaşına yerindən uzaqlaşmasın. Səhər açıldıqda Peyğəmbərin(s) ehtiyat

tədbirlərinin nə qədər faydalı olduğu məlum olur. Belə ki, gecə yarısı Bəni-Saidə qəbiləsindən iki nəfər təklikdə öz yerlərindən uzaqlaşmış, nəticədə külək birini quma batırmış, digərini isə qayalıqlara çırpmışdır. Beləliklə, Peyğəmbərin(s) tapşırıqlarına məhəl qoymayan hər iki şəxs həlak olur. Bundan narahat olan Peyğəmbər(s) bir daha döyüşçüləri nizam-intizama dəvət edir.[1]

Ordunun mühafizə qrupuna başçılıq edən Übbad ibn Büşeyr Peyğəmbərə(s) su ehtiyatlarının tükəndiyini bildirir. Susuzluqdan kimlərsə qiymətli dəvəsini kəsib onun qarnındakı suyu içir, kimlərsə də susuz qalıb Allahın mərhəmətinə ümid edirdi. Peyğəmbərə(s) qələbə müjdəsi vermiş Allah bu dəfə də müsəlmanları çətinlikdən qurtarır. Yağan güclü yağış nəticəsində hamı susuzluğunu aradan qaldırıb istədiyi qədər su ehtiyatı götürür.

***Peyğəmbərin(s) verdiyi qeybi xəbər***

Quranın da etiraf etdiyi kimi (Cinn surəsi, 27-ci ayə) həzrət Peyğəmbərin(s) qeyb aləmindən xəbərdar olmasında qətiyyən şübhə yoxdur. Lakin o həzrətin də elmi məhduddur və bildiklərinin hamısını Allah ona öyrədir. Bu baxımdan bəzən ən sadə şeyləri də bilməyə bilər. Məsələn, nəyisə harasa qoyub sonradan unuda, bəzən də ən müəmmalı məsələlərin üstünü açmaqla ağılları heyran qoya bilər. Deməli, Allah istədiyi vaxt o, qeybdən xəbər verə bilər, Allah istəmədikdə isə o da adi bir bəşər kimi yalnız öz bildikləri ilə kifayətlənəcək.

İslam ordusu hələ Təbuka çatmamış yolda Peyğəmbərin(s) dəvəsi itir. Səhabələrdən bəzisi dəvəni axtardığı vaxt münafiqlərdən biri deyir ki, buna bax, özünü peyğəmbər adlandırıb qeyb aləmi ilə əlaqəsi olduğunu iddia edir, ancaq öz dəvəsinin yerini bilmir. Bu söz Peyğəmbərin(s) qulağına çatdıqda buyurur: «Mənim bildiklərimin hamısını Allah öyrədir. Elə indicə Allah mənə xəbər verdi ki, dəvə filan dərədədir. Ovsarı bir ağaca dolaşıb. Gedin dəvəni gətirin.»[2] Dərhal bir neçə nəfər Peyğəmbərin(s) buyurduğu yerə gedib dəvənin ovsarının həqiqətən də ağaca dolaşdığını görür.

---

[1] Sireyi İbn Hişam, c-3, s-152
[2] Sireyi İbn Hişam, c-2, s-523

***Peyğəmbərin(s) verdiyi daha bir qeybi xəbər***

Müsəlmanlar Təbuka gedərkən Əbuzər ordudan geri qalır. Çox çalışsa da dəvəsini hərəkətə gətirə bilmir. Məcbur olub piyada getmək qərarına gəlir. Ordu Peyğəmbərin(s) göstərişi ilə istirahət etdiyi zaman uzaqdan ağır yüklə gələn bir şəxs görünür. Bir nəfərin yaxınlaşması barədə Peyğəmbərə(s) məlumat verdikdə həzrət buyurur: «Gələn Əbuzərdir. Allah ona kömək olsun! O, tək-tənha yol gedir, tək-tənha öləcək, tək-tənha da diriləcək.»[1]

Gələcək hadisələr Peyğəmbərin(s) buyurduğunun doğru olduğunu sübut edir. Belə ki, o, ömrünün sonunu Rəbəzədə həyat yoldaşı və qızı ilə birlikdə keçirib cəmiyyətdən uzaqda vəfat edir.[2] Peyğəmbərin(s) Təbuk döyüşü ərəfəsində verdiyi bu xəbər 23 ildən sonra gerçəkləşir. Haqqı dediyinə, ədalət tələb etdiyinə görə Rəbəzəyə sürgün edilən Əbuzər get-gedə zəifləyib yatağa düşür. Ömrünün son anlarında arvadı onun solğun simasına baxaraq ağlayır, alnındakı təri silirdi. Əbuzər ağlamasının səbəbini soruşduqda deyir: «Sən öldükdən sonra səni kəfənləmək üçün heç nəyimin olmadığına ağlayıram.» Əbuzər gülümsəyərək cavab verir ki, sakit ol, ağlama. Bir gün bir neçə səhabə ilə birlikdə Peyğəmbərin(s) hüzurunda idik. Həzrət bizə buyurdu: «Sizdən biriniz cəmiyyətdən uzaqda, heç kəsin olmadığı yerdə vəfat edəcək. Onu bir dəstə mömin dəfn edəcək.» Orada olanların hamısı cəmiyyətin arasında vəfat edib, təkcə mən qalmışam. Deməli, o şəxs də elə mənəm. Ona görə də canımı tapşıran kimi get İraq hacılarının yolunun üstündə otur. Çox çəkməz bir dəstə mömin gələr, onları görcək mənim öldüyümü xəbər ver. Əbuzərin arvadı bunu eşitdikdə cavab verir ki, axı karvanların gəlmə vaxtı artıq çoxdan keçib. Əbuzər: «Sən onun fikrini çəkmə. And olsun Allaha, nə eşitdiyim yalan olub, nə də dediyim»-deyib canını tapşırır.[3]

Əbuzər, dediyində həqiqətən də haqlı imiş. Çox çəkmir ki, içərisində Abdullah ibn Məsud, Hücr ibn Ədiyy və Malik Əştər kimi tanınmış şəxslərin də olduğu bir karvan gəlib çıxır. Abdullah ibn Məsud bir qadınla

---

[1] Sireyi İbn Hişam, c-2, s-525
[2] Məğazi Vaqidi, c-3, s-1000
[3] Usdul-qabə, c-1, s-302; ət-Təbəqatul-kubra, c-4, s-223

bir qız uşağının bir cənazənin kənarında ağladığını uzaqdan görür. Miniyini onlara tərəf döndərdikdə karvandakılar da onun ardınca hərəkət edir. Yaxınlaşdıqda vəfat edən şəxsin, əziz dostu, din qardaşı Əbuzər olduğunu görən Abdullah ibn Məsudun gözləri dolur. Onun başı üzərində dayanaraq Peyğəmbərin(s) Təbuka gedərkən Əbuzər haqqında buyurduğu sözləri xatırlayıb deyir: «Peyğəmbər(s) düz buyurubmuş ki, sən tək yol gedir, tək-tənha öləcək və tək-tənha diriləcəksən.» Bunu deyib Əbuzərin cənazəsinə meyyit namazı qılaraq (bəzi mənbələrdə meyyit namazının Malik Əştərin qıldığı göstərilir) onu dəfn edirlər. Dəfn başa çatdıqdan sonra Malik Əştər Əbuzərin qəbri kənarında durub deyir: «İlahi, Əbuzər Peyğəmbərə kömək edərək bir ömür Sənə ibadət etdi. Sənin yolunda kafirlərlə cihad etdi. Haqq yolundan bir an da olsun uzaqlaşmadı. Haqq ədalət tələb etdiyinə görə ona qarşı böyük haqsızlıq oldu. Buraya sürgün edildi, axırda qürbətdə canını tapşırdı.»

### *İslam ordusu Təbuk diyarında*

Müsəlmanlar hicrətin doqquzuncu ili şəban ayının əvvəli Təbuk məntəqəsinə çatırlar. Lakin orada Bizans ordusundan qətiyyən əsər-əlamət görmürlər. Çox güman ki, bizanslılar İslam ordusunun çoxluğu və əzmkarlığından (bizanslılar artıq Mutə döyüşündə müsəlmanların əzmkarlığını görmüşdülər) çəkinib geri qayıtmış və şayiə də yaymışdılar ki, onların heç müsəlmanlarla vuruşmaq niyyəti olmayıb. Vəziyyətin belə olduğunu görən Peyğəmbər(s) «onlarla məsləhətləş» ayəsinə müvafiq olaraq düşmən torpaqlarına hücuma keçib, yoxsa Mədinəyə geri qayıtmaq barədə səhabələrlə məsləhətləşir. Belə məsləhət görülür ki, ordu yol yorğunluğunu çıxarmaq üçün Mədinəyə geri qayıtsın. Onu da nəzərə almaq lazımdır ki, onsuz da müsəlmanlar öz istəklərinə çatmışdılar. Çünki onların əsas məqsədi düşmən ordusunu dağıdıb onlarda vahimə yaratmaq idi. İndi isə artıq bu, öz-özünə baş vermişdi. Bizanslılar çətin ki, tezliklə bir daha müsəlmanlara hücum etmək fikrinə düşəydilər. Bu isə müsəlmanları Şimal istiqamətindən müəyyən qədər arxayın edirdi.

Səhabələr öz fikirlərini bildirdikdən sonra Peyğəmbərin(s) son söz sahibi olduğunu çatdırmaqdan ötrü onu da əlavə edirlər ki, əgər Allah

tərəfindən döyüşmək əmri verilibsə, biz əmrinizə tabeyik.[1] Bunu eşidən Peyğəmbər(s) buyurur: «Xeyr, bu barədə Allahdan heç bir əmr gəlməyib. Əgər Allahdan əmr gəlmiş olsaydı, heç sizinlə məsləhətləşməzdim. Buna görə də sizin fikrinizə hörmətlə yanaşıb Mədinəyə qayıtmaq qərarını verirəm.»

Hicazla Suriya arasındakı ərazilərin hökmdarlarının hamısı xaçpərəst olduğu üçün nə vaxtsa Bizans imperiyası onlarla müttəfiq olub müsəlmanlara qarşı hücuma keçə bilərdi. Bunun qarşısını almaqdan ötrü onlarla dostluq müqaviləsi bağlamaq zərurəti yaranmışdı. Belə olan halda ehtimal olunan təhlükə aradan qalxardı. Bu məqsədlə Peyğəmbər(s) Təbuk ətrafında yaşayan hökmdarlarla şəxsən görüşüb söhbət edir və müəyyən şərtlərlə müqavilə imzalayır. Həzrət «İlə», «Əzrə» və «Cərba» valiləri ilə şəxsən müqavilə bağlayır. «İlə» Qırmızı dəniz sahillərində yerləşən və Şamdan elə də uzaq olmayan bir şəhər idi. Oranın valisi Yuhənna (İohan) ibn Rubə boynuna qızıldan xaç asdığı halda şəxsən Peyğəmbərin(s) hüzuruna gələrək həzrətə ağ rəngli bir qatır bağışlayır. Peyğəmbər(s) də öz növbəsində onun bu addımını yüksək qiymətləndirib ona hədiyyə verir. Şəhər valisi xaçpərəstlikdə qalmaqla illik üç yüz dinar cizyə (qeyri-müsəlmanların can vergisi) ödəməyə razılıq verir. «İlə»yə gələn hər bir müsəlman üçün toxunulmazlıq hüququ da nəzərdə tutulur. Peyğəmbər(s) «İlə» valisi ilə aşağıdakı məzmunda müqavilə imzalayır: «Allahın peyğəmbəri ilə «İlə» hökmdarı arasında bağlanan bu müqaviləyə əsasən «İlə» sakinləri, onların Şam, Yəməndən olan müttəfiqləri müsəlmanlar tərəfindən azaddırlar. Ancaq onlardan kimsə qanundan kənar hərəkət edərsə, cəzalandırılacaqdır. Bütün quru və su yolları onların üzünə açıqdır. İstədikləri vaxt oradan istifadə edə bilərlər.»[2]

Bu müqavilə bir daha sübut edir ki, müsəlmanlara qarşı məkirli niyyəti olmayanlarla müsəlmanların heç bir işi yoxdur. Oxşar müqavilələr «Əzrə» və «Cərba» valiləri ilə də imzalanır. Beləliklə müsəlmanların təhlükəsizliyi daha da artırılır.

---

[1] Sireyi Hələbi, c-3, s-161

[2] Sireyi İbn Hişam, c-2, s-526; Sireyi Hələbi, c-3, s-160; Biharul-ənvar, c-21, s-160

### *Xalid ibn Vəlidin Domətül-cəndələ göndərilməsi*

Münbit torpağa, gözəl bağlara, axar bulaqlara malik Domətül-cəndəl məntəqəsi Şamdan təxminən əlli fərsəx aralıda yerləşirdi. O vaxtlar oranın valisi xaçpərəst Əkidər ibn Əbdülməlik idi. Peyğəmbər(s) onun da Bizans imperatoru ilə müttəfiq olmasının qarşısını almaq məqsədilə Xalid ibn Vəlidi böyük bir dəstə ilə Domətül-cəndələ ezam edir ki, oranın da əhalisini öz tabeçiliyinə salsın. Xalid ixtiyarındakı süvarilərlə Domətül-cəndəldəki qalanın yaxınlığınadək irəliləyir. Aylı bir gecədə şəhər valisi Əkidər qardaşı Həssanla ova çıxmışdı. Qaladan elə də uzaqlaşmamışdılar ki, Xalidin başçılıq etdiyi dəstə ilə rastlaşırlar. Valinin ətrafındakılarla Xalidin döyüşçüləri arasında baş vermiş qarşıdurma nəticəsində Əkidərin qardaşı Həssan qətlə yetirilir. Əkidər yaxalansa da ətrafındakılar qaçıb qalaya daxil olurlar. Xalid, Əkidərə söz verir ki, qaladakılar qapıları açıb silahlarını təhvil versələr, onun təqsirindən keçib Peyğəmbərin hüzuruna aparacaq. Əkidər müsəlmanların öz sözündə yalançı olmadığını bilirdi. Buna görə də əmr edir ki, qalanın qapılarını açıb silahları təhvil versinlər. Xalid 400 zireh, 400 nizə, 500 qılıncı qənimət olaraq götürüb Əkidərin müşayiəti ilə Mədinəyə qayıdır. Şəhərə daxil olmazdan qabaq Əkidərin zərli xalatını Peyğəmbərə(s) göndərir.

Dünya malına aludə olan bəzi səhabələr xalatı gördükdə heyran qalır. Peyğəmbər(s) isə ona etinasız yanaşaraq buyurur ki, Cənnətdəki geyimlər bundan da gözəl olacaq.

Əkidər, Peyğəmbərin(s) hüzuruna gəldikdə İslamı qəbul etməkdən imtina edir, lakin cizyə verməyə razı olur. Peyğəmbər(s) bu barədə onunla müqavilə imzalayır, sonra da ona qiymətli hədiyyə bağışlayaraq geri qayıtmasına izn verir. Übbad ibn Bişrə tapşırır ki, Əkidəri sağ-salamat Domətül-cəndələ çatdırsın.[1]

### *Təbuk səfərinin təhlili*

Çətin və əziyyətli Təbuk səfərində Peyğəmbər(s) düşmənlə rastlaşmasa da bu səfəri aşağıdakı cəhətlərinə görə müsbət və əhəmiyyətli xarakterizə etmək olar:

---

[1] Ət-Təbəqatul-kubra, c-2, s-164; Biharul-ənvar, c-21, s-264

1) Bu səfər nəticəsində İslam ordusunun mövqeyi daha da möhkəmlənir. Dost da, düşmən də anlayır ki, müsəlmanlar indi ən böyük imperiyalarla da mübarizə aparmaq iqtidarındadırlar. Bundan vahiməyə düşən və hələ o vaxtadək İslamı qəbul etməyən ərəb qəbilələri daha öz inadlarından əl çəkib Mədinəyə gələrək İslamı qəbul etdiklərini bildirirlər.

2) Müsəlmanlar Təbukdan qayıdarkən imzaladıqları bəzi müqavilələrlə Şam sərhədlərində yaşayan xaçpərəstlərlə də münasibətləri düzəldib özlərini sığortalayırlar.

3) Çətin olmasına rəğmən Peyğəmbər(s) bu səfərdə sərkərdələri getdikləri ərazilərin çətinlikləri ilə tanış edir, o dövrün ən böyük qoşunlarına qarşı necə mübarizə aparmağın, özü vəfat etdikdən sonra oraları necə fəth etməyin yolunu öyrədir. Təsadüfi deyil ki, həzrətin vəfatından sonra müsəlmanların fəth etdiyi ilk yer məhz Şam və Suriya olmuşdur.

4) Bu səfərdə möminlə münafiq bir-birindən seçilir.

***Münafiqlərin Peyğəmbəri(s) öldürmək cəhdi***

Peyğəmbər(s) on gün Təbukda qalıb Xalid ibn Vəlidi Domətül-cəndələ ezam etdikdən sonra Mədinəyə qayıdır.[1] Qayıdarkən səkkizi Qüreyşdən, dördü isə mədinəlilərdən olmaqla on iki münafiq Peyğəmbərin mindiyi dəvəni Mədinə ilə Şam arasındakı yüksəklikdən üzüaşağı yuvarladaraq həzrəti qətlə yetirmək istəyirlər. Müsəlmanlar həmin yüksəkliyə çatdıqda Peyğəmbər(s) buyurur ki, kim istəyirsə, aşağı düşüb düzənliklə gedə bilər. Lakin həzrət özü yüksəkliklə getməyə davam edir. Onun dəvəsinin ovsarını Əmmar ibn Yasir çəkir, dəvəni isə Hüzeyfə sürürdü. Dəvə lap yüksəkliyə qalxarkən Peyğəmbər(s) çevrilib arxasına baxır. Aylı gecədə bir neçə nəfərin özünü örtərək onun ardınca gəldiyini və bir-biri ilə nəsə pıçıldadığını görüb narahat olur. Onların üstünə qışqıraraq Hüzeyfəyə əmr edir ki, əsası ilə onların dəvələrini geri qaytarsın. Həzrətin onların üstünə qışqırması münafiqləri qorxuya salır. Onlar anlayırlar ki, Peyğəmbər(s) hiylələrindən xəbər tutub. Buna görə də dərhal geri qayıdırlar.

[1] Sireyi İbn Hişam, c-3, s-527

Hüzeyfə deyir: «Mən dəvələrin nişanəsindən onları tanımışdım. Peyğəmbərə(s) dedim ki, onları cəzalandırmaq istəyirsinizsə, kim olduqlarını deyə bilərəm. Həzrət isə mehriban bir tərzdə cavab verdi ki, onalrın adını çəkməyim, sirlərinin üstünü açmayım, bəlkə tövbə etdilər. Onu da əlavə etdi ki, əgər mən onları cəzalandırsam, qeyri-müsəlmanlar deyəcəklər ki, Mühəmmədin qüdrəti artdıqdan sonra öz adamlarını öldürməyə başlayıb.»[1]

***Niyyət əməlin əvəzləyicisidir***

Qalib ordunun vətənə qayıtmasından gözəl mənzərə, qalib mücahidlərin keçirdiyi hisslərdən gözəl hiss ola bilməz. Xoşbəxtlikdən İslam ordusu Mədinəyə qayıdarkən hər iki amil müşahidə olunurdu.

İslam ordusu böyük qururla, alnıaçıq şəkildə Mədinəyə yaxınlaşmaqda idi. Müsəlman döyüşçülər sevincdən dərilərinə sığmırdılar. Sevinclərini danışıqlarından da sezmək mümkün idi. Bu, təbii bir haldır. Öz əzəli rəqibi olan İran imperiyasını diz çökdürən Bizans ordusunda vahimə yaradaraq onları geri çəkilmək məcburiyyətində qoymağın və ətraf bölgələrin valilərini öz tabeçiliyinə salmağın özü də böyük uğur idi. Buna görə də Mədinəyə qayıdan ordunun qalib olmasında qətiyyən şübhə yeri yoxdur və ordudakı mücahidlərin yürüşdə iştirak etməyənlər qarşısında fəxr etməyə tam haqqı çatırdı. Lakin bu qürur hissi bəzi şəxslərdə təkəbbürə gətirib çıxara və üzürlü səbəbdən yürüşə gedə bilməyənləri alçalda bilərdi. Buna görə də Mədinənin lap yaxınlığında ordu istirahət edən zaman Peyğəmbər(s) buyurur: «Mədinədə qalan bəzi adamlar bu yürüşdə sizinlə eyni dərəcədədirlər. Demək olar ki, onlar da bu yürüşdə sizi addım-addım izləyiblər.» Bəzi səhabələr: «Onlar Mədinədə qala-qala bizi necə müşayiət edə bilərlər?»-deyə soruşduqda həzrət buyurur: «Onlar məmnuniyyətlə cihada getməyə hazır idilər. Ancaq üzrlü səbəblərə görə orduya qoşula bilmədilər.»

Peyğəmbər(s) bu qısa və konkret fikri ilə İslamın əsas qayələrindən birini açıqlayaraq başa salır ki, önəmli olan insanın niyyətidir. Müəyyən üzürlü səbəblərə görə cihada gedə bilməyən, lakin getmək istəyən şəxslər də bu zəfərdə şərikdirlər. Yəni, yaxşı işdə niyyət əməlin əvəzləyicisidir.

---

[1] Məğazi Vaqidi, c-3, s-1042-1043; Sireyi Hələbi, c-3, s-162; Biharul-ənvar, c-21, s-247

İslam dini insanı zahiri cəhətdən islah etməyə çalışırsa, batini islaha daha çox diqqət yetirir. Çünki önəmli olan da elə insanın batinidir və hər bir əməl insanın niyyətinə bağlıdır.

Peyğəmbər(s) bu kəlamı ilə mücahidlərin yersiz qürurunu azaldır, eyni zamanda üzürlü səbəbdən cihada gedə bilməyənlərin alçalmasının, psixoloji əzab çəkməsinin qarşısını alır. Lakin o həzrət üzürsüz səbəbdən döyüşə getməyənləri də ciddi tənbeh etmək qərarına gəlir.

Həzrət Peyğəmbər(s) döyüşə getməzdən qabaq Mədinədə ümumi səfərbərlik elan edən zaman Hilal, Kəb və Mərarə adlı üç müsəlman hələ məhsullarını topladıqlarını əsas gətirib döyüşə getməməkdən ötrü həzrətdən icazə istəmişdilər. Ancaq Peyğəmbərə(s) söz vermişdilər ki, bir neçə günə məhsulu toplayıb orduya qoşulacaqlar. Maddiyyatla mənəviyyata eyni gözlə baxan belə şəxslər olduqca dar düşüncəlidirlər və mühüm məsələlərə səthi yanaşırlar. Yeri gəldikdə maddiyatı mənəviyyatdan üstün də tuturlar. Döyüşdən qayıdan Peyğəmbər(s) onları mütləq tənbeh etməli idi ki, başqalarına da ibrət dərsi olsun. Adı çəkilən şəxslərin döyüşə getməmələri azmış kimi, hələ üstəlik verdikləri sözə də əməl etməyib Mədinədə qalırlar. Onlar öz işləri ilə məşğul ikən müsəlmanların geri qayıtması xəbəri gəlib çatır. Bu üç nəfər Peyğəmbəri(s) və ordunu qarşılamaqdan ötrü onların pişvazına çıxırlar. Lakin Peyğəmbər(s) onları gördükdə üz çevirib etinasız yanaşır. Mədinəyə çatdıqda böyük izdihamın qarşısında çıxış edən Peyğəmbərin(s) ilk sözləri belə olur: «Camaat, bu üç nəfər İslamın hökmünə əhəmiyyət verməyib sözlərinin üstündə durmadı. Dünya malını axirətdən üstün tutdular. Buna görə də bu gündən etibarən onlarla bütün əlaqələrinizi kəsin.»

Döyüşə getməyənlərin ümumi sayı doxsan nəfərə yaxın olsa da, onların əksəriyyəti münafiqlər olduğu üçün onların cihada getməyəcəkləri qabaqcadan məlum idi və buna heç kəs əhəmiyyət vermirdi. Bu səbəbdən Peyğəmbər(s) əsas diqqəti məhz həmin üç nəfərin üstünə yönəldir. Adı çəkilənlərdən Mərarə ilə Hilal Bədr döyüşündə iştirak etməklə nüfuz da qazanmışdı.

Peyğəmbərin(s) bu gözəl tədbiri öz bəhrəsini verir. Üç nəfərin alış-verişi tamamilə dayanır, topladıqları məhsulu alan olmur, hətta ən

yaxın adamları da onlarla əlaqələrini kəsirlər. Camaatın bu hərəkəti onlara elə psixoloji təzyiq göstərir ki, dünya bu genişliyi ilə onlara dar gəlir. Onlar başa düşürlər ki, İslam mühitində əsl müsəlman kimi yaşamaq lazımdır, dünya həyatını axirətdən üstün tutmaq olmaz. Digər tərəfdən vicdanları da onları narahat edir. Bütün bunları nəzərə alaraq səmimi-qəlbdən tövbə edib peşmançılıq hissi keçirirlər. Allah-taala onların tövbəsini qəbul edir. Bunu Öz peyğəmbərinə də çatdırır. Peyğəmbər(s) də dərhal səhabələrə çatdırır ki, həmin şəxslərlə əlaqələrini yenidən bərpa etsinlər.[1]

***Zirar məscidinin macərası***

Ərəbistan yarımadasında xaçpərəst və yəhudilərin iki əsas mərkəzi var idi. Bunlardan biri Mədinə, digəri isə Nəcd olmuşdur. Bu səbəbdən Ovs və Xəzrəc qəbiləsindən olan bəzi ərəblər də xaçpərəstlik və yəhudiliyi qəbul etmişdilər. Ühüd döyüşündə şəhid olmuş Hənzələnin atası Əbu Amir Cahiliyyət dövründə xaçpərəstliyə meyilli olub o dinə sitayiş etməyə başlayır. Peyğəmbərin(s) Mədinəyə hicrət edib dini azlıqları öz tərəfinə çəkməsindən narahat olan Əbu Amir Ovs və Xəzrəcdən olan münafiqlərə qoşulur. Peyğəmbər(s) onun məkirli planlarından xəbərdar olduğundan onu tutmaq istəsə də, Əbu Amir Məkkəyə, oradan Taifə, nəhayət Şama qaçıb oradan Mədinədəki münafiq şəbəkəsini idarə etməyə başlayır. Tərəfdarlarına yazdığı məktublardan birində deyir: «Qoba ərazisində siz də bir məscid tikin. Namaz vaxtlarında oraya toplaşıb güya namaz qılırsınızmış kimi, öz planlarınızı müzakirə edin.» O, bu günkü İslam düşmənləri kimi başa düşmüşdü ki, dinin yayıldığı bir yerdə elə dinin öz adından istifadə edərək ona zərbə endirmək olar. Başqa sözlə desək, münafiqlər öz məkirli planlarını din adı altında həyata keçirməli idilər. Əbu Amir çox yaxşı bilirdi ki, Peyğəmbər(s) münafiqlərə toplanmaları üçün yer düzəltməyə icazə verməyəcək. Bu niyyətlərinə yalnız dini rəng qatmaqla çata bilərdilər.

Peyğəmbər(s) Təbuka doğru hərəkət etmək istədikdə münafiqlərdən bir neçəsi hüzuruna gəlib gecələr yaşlıların Qoba məscidinə gələ bilmədiklərini əsas gətirərək bir qədər aralıda digər bir məscid tikmək

---

[1] Sireyi Hələbi, c-3, s-165; Biharul-ənvar, c-10, s-119

üçün onlara icazə verməsini xahiş edirlər. Peyğəmbər(s) onların cavabında bildirir ki, bu haqda son qərarı döyüşdən qayıtdıqdan sonra verəcəkdir.[1] Peyğəmbər(s) Mədinədə olmadığı müddət ərzində münafiqlər fürsətdən istifadə edib tez bir vaxtda məscidi tikib qurtarırlar. Həzrət Mədinəyə qayıtdıqda ondan xahiş edirlər ki, məscidin açılışını edərək ilk namazı məhz özü qılsın. Bu zaman Allah-taala vəhy mələyi vasitəsilə Peyğəmbəri(s) macəradan xəbərdar edərək oranın Zirar məscidi olduğunu və müsəlmanlar arasında təfriqə salmaq məqsədilə inşa edildiyini bildirir. Buna görə də Peyğəmbər(s) onun yerlə yeksan edilməsinə, dirəklərinin də yandırılmasına və bir müddət oradan zibillik kimi istifadə edilməsinə əmr verir.[2]

Zirar məscidinin dağıdılması münafiqlər üçün böyük bir zərbə olur. Bundan sonra münafiq şəbəkəsi dağılır və başçıları Abdullah ibn Übeyy də Təbuk döyüşündən iki ay sonra ölür.

Təbuk döyüşü Peyğəmbərin(s) iştirak etdiyi sonuncu döyüş (yürüş) olur. Ondan sonra həzrət heç bir döyüşdə iştirak etmir.

### *Bəni-Səqif nümayəndələrinin Mədinəyə gəlişi*

Təbukdan yorğun-arğın qayıdan müsəlman ordusu heç bir qənimət əldə etmədən qayıtdığına görə bəzi sadəlövh səhabələr bu yürüşün əhəmiyyətsiz olduğunu düşünür. Lakin onlar bu yürüşün bilavasitə olmasa da verdiyi nəticələrdən xəbərsiz idilər. Belə ki, məhz Təbuk yürüşündən sonra heç bir vəchlə İslamı qəbul etmək istəməyən bəzi ərəb qəbilələri, müsəlmanların o dövrün ən böyük iki əsas imperiyalarından olan Bizans ordusu ilə də döyüşə getməsindən vahiməyə düşüb müsəlmanlara qoşularaq İslamı qəbul etmək qərarına gəlir. Bu məqsədlə onlar Mədinəyə nümayəndə heyətləri göndərirlər.

Məsələlərə səthi yanaşan şəxslər dərhal gözə görünən nəticələri gördükdə həmin hadisəni uğurlu hesab edirlər. Məsələn, müsəlmanlar Təbuk yürüşündə hansısa düşmənlə rastlaşıb onu məğlub edərdisə bir çoxları bunu uğurlu nəticə kimi qələmə verəcəkdi. Məsələlərə hər tərəfdən, dərindən yanaşan şəxslər isə bütün cəhətləri ölçüb-biçir, əsas

---

[1] Məğazi Vaqidi, c-3, s-1046

[2] Sireyi İbn Hişam, c-2, s-530; Biharul-ənvar, c-20, s-253

məqsədə xidmət edən hadisələrin hamısını uğurlu hesab edirlər. Xoşbəxtlikdən Təbuk yürüşü də insanların İslama yönəlməsində müstəsna rol oynayır. Belə ki, böyük Bizans imperiyasının İslam ordusundan qorxub çəkinməsi xəbəri bütün Hicaza yayılır ki, bu da ən inadkar ərəb qəbilələrinin İslama üz tutması ilə nəticələnir. Həmin qəbilələr İslamı qəbul edərək mənəvi qazanc əldə etməklə yanaşı artıq özlərini İran və Bizans imperiyaları kimi böyük dövlətlərin hücumlarından sığortalamış olurlar.

Bəni-Səqif qəbiləsi ərəblər arasında öz inadkarlığı ilə ad çıxarmışdı. Təsadüfi deyil ki, onlar alınmaz Taif qalasına sığınaraq bir aya yaxın müsəlmanların mühasirəsində qalmalarına baxmayaraq təslim olmurlar. Qəbilə başçılarından olan Ürvə ibn Məsud Səqəfi müsəlmanların Təbuk yürüşündən alnıaçıq döndüyünü eşitdikdə İslam ordusu hələ Mədinəyə çatmazdan qabaq özünü Peyğəmbərin hüzuruna yetirib İslamı qəbul edir. Qəbilə üzvlərini də İslama dəvət etməkdən ötrü Peyğəmbərdən(s) Taif qalasına getmək üçün izn istədikdə həzrət buyurur ki, qorxuram bu iş sənin canın bahasına başa gəlsin. Ürvə isə Peyğəmbərə(s) narahat olmamasını və qəbilə üzvlərinin onu göz bəbəyi kimi sevdiklərini bildirir. Təəssüflər olsun ki, Bəni-Səqifin digər böyükləri və eləcə də qəbilə üzvləri Ürvənin başa düşdüyünü hələ anlaya bilməmişdilər və öz inadkarlıqlarından əl çəkmək fikirləri yox idi. Buna görə də Ürvə onları İslama dəvət etdikdə onu qətlə yetirirlər. Vəfat edərkən Ürvə Peyğəmbərin(s) öncədən xəbər verdiyi bu ölümün onun üçün xoş olduğunu söyləyir.

Ürvənin qətlindən sonra Səqif qəbiləsi çox peşman olur. Hər guşəsində İslam bayrağı dalğalanan Hicazda belə vəziyyətdə yaşamağın qeyri-mümkün olduğunu anlayıb Peyğəmbərin(s) hüzuruna nümayəndə göndərməklə İslamı qəbul etmək istədiklərini bildirmək qərarına gəlirlər. Mədinəyə getmək üçün Əbdyəlil adlı tanınmış bir şəxs seçilir. Lakin o, nümayəndə seçilməsinə etiraz edərək deyir: «Ola bilər mənim gedişimdən sonra fikriniz dəyişə və qayıtdıqda mən də Ürvənin aqibəti ilə üzləşəm. Təklifinizi yalnız o vaxt qəbul edərəm ki, qəbilənin tanınmış adamlarından beş nəfər də mənə qoşulsun və bu məsuliyyəti altımız da birlikdə daşıyaq.» Əbdyəlilin təklifi qəbul edilir və altı

nəfərdən ibarət nümayəndə heyəti Taifdən çıxıb Mədinə istiqamətinə hərəkət edir. Mədinəyə yaxınlaşdıqda bir bulaq başında dayanırlar. Səhabələrin ilxısını otarmağa çıxarmış Müğeyrə ibn Şöbə Səqəfi öz qəbilə başçılarını uzaqdan görcək tanıyır. Dərhal onlara yaxınlaşıb gəlişlərinin məqsədini xəbər alır. Mədinəyə nədən ötrü gəldiklərini bildikdə ilxını onlara tapşırıb özü bu barədə Peyğəmbərə(s) xəbər verməyə gedir. Yolda Əbu Bəkrlə rastlaşan Müğeyrə əhvalatı danışdıqda Əbu Bəkr ondan xahiş edir ki, qoy bu şad xəbəri Peyğəmbərə(s) o versin. Elə belə də olur. Əbu Bəkr Peyğəmbərin(s) hüzuruna gəlib Bəni-Səqif nümayəndələrinin gəldiyini və İslamı qəbul etmək istədiklərini xəbər verir. Peyğəmbər(s) nümayəndə heyətinin qarşılanması və onlarla görüş keçirilməsi üçün məscidin yaxınlığında bir çadır qurulmasını tapşırır. Bu işlər Müğeyrə və Xalid ibn Səidə tapşırılır.

Bəni-Səqif nümayəndələri Peyğəmbərin(s) hüzuruna gəlirlər. Müğeyrə qabaqcadan onlara xəbərdarlıq etsə də, onlar içəri daxil olduqda Cahiliyyət adət-ənənələrinə uyğun salam verirlər. Ardınca isə qəbilənin İslamı qəbul etməyə hazır olduqlarını bildirirlər. Ancaq onu da qeyd edirlər ki, müəyyən şərtlərlə müsəlman olmağa razıdırlar.

Bəni-Səqif nümayəndələrinin müzakirələri bir neçə gün davam edir və onların dediklərini Xalid Peyğəmbərə(s) çatdırırdı.

Peyğəmbər(s) onların əksər şərtlərini qəbul edir. Hətta Taif və taiflilərin təhlükəsizliyinə də təminat verir. Ancaq onların irəli sürdüyü bəzi şərtlər Peyğəmbəri(s) narahat edir. Belə şərtlərdən biri də o idi ki, Taifin böyük bütxanasına üç il ərzində əl vurulmasın və yerli əhali qəbilənin Lat adlı bütünə sitayiş etsin. Lakin nümayəndə heyəti Peyğəmbərin(s) bu şərtlə razılaşmadığını və narahat olduğunu görüb müddəti bir aya endirir. Əsas məqsədi təkallahlığı yayıb bütxanaları və bütləri dağıtmaq olan Peyğəmbərin(s) qarşısında belə bir şərt qoymaq çox gülünc idi. Bu, onu göstərir ki, Bəni-Səqif qəbiləsi onların mənafeyi və batini istəklərinə uyğun gələn bir İslamı qəbul etmək istəyirdi. Əks təqdirdə onlar müsəlman olmaq qərarına gəlməzdilər. Bu şərtin də qəbul edilmədiyini görən nümayəndə heyəti öz istəklərinə don geyindirməkdən ötrü bildirirlər ki, biz bu şərti qəbilə qadınlarının və nadanların ağzını

yummaqdan ötrü irəli sürdük. İndi ki, onunla razılaşmırsınız, onda qəbilədəki bütləri sındırmağı bizim özümüzə deyil, başqa adamlara tapşırın. Peyğəmbər(s) bununla razılaşır. Çünki, mühüm olan bütlərin sındırılması idi. Onların kimlər tərəfindən sındırılması isə heç bir önəm daşımırdı.

Nümayəndə heyətinin irəli sürdüyü digər bir şərt o idi ki, Peyğəmbər(s) onlara namaz qılmamağa icazə versin. Onlar elə zənn edirdilər ki, həzrət Allahın hökmlərində müdaxilə edə bilər. Bir daha məlum olur ki, Bəni-Səqif qəbiləsi hələ İslamı tam şəkildə qəbul etməyə hazır deyildi. İslamın bütün qanunları bərabərdir və bəzisini icra edib bəzisindən boyun qaçırmaq olmaz. Onlar bunu hələ dərk etməmişdilər. Peyğəmbər(s) onların bu şərtinə belə cavab verir: «Namazı olmayan dinin heç bir faydası olmaz.» Bəli, gecə-gündüz Allahını yad edib Onun qarşısında təzim etməyən şəxs əsl müsəlman ola bilməz.

Nəhayət, tərəflər arasında razılıq əldə edildikdən sonra saziş imzalanır. Peyğəmbər(s) nümayəndə heyətinə öz qəbilələrinə dönməyi tapşırır. Altı nəfərdən ibarət heyətdə yaşca ən kiçiyi və Mədinədə olduğu müddət ərzində Quran və İslam maarifini öyrənməyə böyük maraq göstərən şəxsi də qəbilə arasında öz nümayəndəsi təyin edir. Həzrət ona tapşırır ki, camaat namazlarında yaşlıların və xəstələrin vəziyyətini nəzərə alıb namazı çox da uzatmasın. Eyni zamanda Peyğəmbər(s) Müğeyrə ilə Əbu Süfyanı da nümayəndə heyətinə qoşur ki, gedib Taifdəki bütləri sındırsınlar. Dünənə qədər bütlərin uğrunda canfəşanlıq, döyüşlərə başçılıq edən Əbu Süfyan indi əlinə bel, külüng alıb bütləri sındırır. Bütlərin üzərində olan zinət əşyalarını da satıb Peyğəmbərin(s) göstərişi ilə Ürvə və qardaşı Əsvədin borclarını ödəyir.[1]

### *Minada oxunulmuş qətnamə*

Hicrətin doqquzuncu ilinin sonlarında Allah-taala Tövbə surəsindən bir neçə ayə nazil edərək Peyğəmbərə(s) əmr edir ki, həmin ayələri dörd maddədən ibarət qətnamə ilə birlikdə həcc mövsümündə müşriklərə çatdırmaq üçün Məkkəyə bir nəfər adam yollasın. Bu

[1] Sireyi İbn Hişam, c-2, s-542-544; Sireyi Hələbi, c-3, s-243

ayələrdə müşriklərə verilmiş möhlətin başa çatdığı və bağlanılmış (və müşriklər tərəfindən pozulmuş) bütün müqavilələrin ləğv edildiyi bildirilir. Müşriklərə o da çatdırılmalı idi ki, dörd ay ərzində bütpərəstlikdən əl çəkməyəcəkləri təqdirdə onların təhlükəsizliyinə təminat verilməyəcək.

İslam dininə qarşı qərəzli mövqe tutan şərqşünaslar tarixin bu səhifəsinə çatdıqda İslamı tənqid atəşinə tutaraq bu dinin əqidə azadlığına zidd olduğunu iddia edirlər. Lakin qeyd etməliyik ki, onlar İslam tarixini obyektiv şəkildə təhlil edib sözügedən ayələri diqqətlə incələsələr, bu işin əqidə azadlığı ilə qətiyyən zidd olmadığını etiraf edərlər.

Müşriklərə qarşı sözügedən qətnamənin qəbul edilməsinə aşağıdakılar səbəb olmuşdur:

1) Cahiliyyət dövrünün ənənələrinə uyğun olaraq Kəbəni təvaf edən şəxs əynindəki paltarı təvaf bitdikdən sonra imkansızlara bağışlamalı idi. Əgər birdən yalnız bircə paltarı olsaydı, onda təvaf üçün başqasından bir paltar götürür və təvafdan sonra yenidən sahibinə qaytarırdı. Təkcə bir paltarı olub başqasından da paltar götürə bilməyən şəxs isə çılpaq vəziyyətdə təvaf edirdi. Bir gün gözəl bir qadın Məscidül-hərama daxil olub çılpaq vəziyyətdə təvaf etməyə başlayır. Məlum məsələdir ki, onda necə arzuolunmaz və rüsvayçı vəziyyət yaranır.

2) Sözügedən ayələr nazil olarkən artıq həzrət Mühəmmədin(s) peyğəmbərliyindən iyirmi il ötürdü. Bu müddət ərzində müşriklər İslamın bütpərəstliyə qarşı çıxdığını öyrənmişdilər. O vaxtadək bütpərəstlikdən əl çəkməmələri isə yalnız inadkarlıqdan irəli gəlirdi. Buna görə də indi Peyğəmbərin(s) onları zor gücünə bu işdən çəkindirməyin vaxtı gəlib çatmışdı. Təəssüflər olsun ki, qərəzli şərqşünaslar bu addımı əqidə azadlığına zidd hesab edirlər. Onlar bilməlidirlər ki, əqidə azadlığı İslamın kökündə durur. Əqidə azadlığı o vaxtadək məqbul sayılır ki, fərd və cəmiyyətin ziyanına olmasın. Əks təqdirdə ona qarşı mütləq mübarizə aparılmalıdır. Bütpərəstlik də ardınca saysız fəsadlar gətirən möhvumatdan başqa bir şey deyil. Peyğəmbər(s) müşrikləri iyirmi il boyunca xoşluqla başa salmağa çalışmışdı. Nəticə vermədikdə isə son variantdan-silahlı mübarizədən istifadə edilməli idi.

3) Həcc ziyarəti İslam dininin ən böyük ayinlərindən biri olmuş və olmaqdadır. Tövbə surəsi nazil olana qədər müsəlmanlarla kafirlər arasında baş vermiş döyüşlər Peyğəmbərə(s) həcc əməllərini müsəlmanlara doğru-dürüst anlatmağa imkan verməmişdi. Bunun üçün Peyğəmbərin(s) bu müqəddəs ziyarətdə şəxsən iştirak edib əməlləri müsəlmanlara öyrətməsi zərurəti yaranmışdı. Bu isə Allah evinin və ətrafı müşriklərdən tamamilə təmizlənməsindən və Məscidül-həramın sırf müsəlmanların sərəncamında olmasından sonra mümkün ola bilərdi.

4) Peyğəmbərin(s) mübarizəsinin əqidə azadlığı ilə heç bir ziddiyəti yox idi. Əqidəni zorla dəyişmək onsuz da mümkün deyil. Əqidə insanın daxilindən gəlir. Əqidənin formalaşmasında müəyyən amillərin də rolu olur. Deməli, əqidənin zor gücü ilə dəyişdirilməsi qeyri-mümkündür. Zahirdə əqidəsinin dəyişildiyini göstərənlər də əslində öz əvvəlki əqidələrində qalırlar. Peyğəmbər(s) sadəcə bütpərəstliyə qarşı mübarizə aparırdı. Buna görə də bütxanaları dağıdaraq bütləri sındırırdı. Daxilən əqidələrin dəyişilməsini isə zamanın ixtiyarına buraxır.

Bu dörd cəhəti nəzərə alan Peyğəmbər(s) Əbu Bəkri yanına çağırtdırıb Tövbə surəsinin bununla əlaqədar ayələrini ona öyrədir, sonra da qırx nəfərlə birlikdə Məkkəyə göndərir ki, Allahın müşriklərə nifrət etdiyini əks etdirən ayələri Qurban bayramında camaata oxusun. Peyğəmbərin(s) göstərişinə uyğun olaraq Əbu Bəkr Məkkəyə doğru hərəkət edir. Onun gedişindən sonra vəhy mələyi nazil olaraq bildirir ki, ayələri ya Peyğəmbər özü, ya da Əhli-beytindən olan bir şəxs oxumalıdır.[1] Buna görə də Peyğəmbər(s) dərhal Əlini(ə) yanına çağırıb onu məsələdən xəbərdar edir. Tapşırır ki, tez özünü Əbu Bəkrə çatdırıb ayələri ondan alsın, Məkkəyə gedib özü oxusun.

Qeyd edilən ayələri oxumaqla yanaşı eyni zamanda aşağıdakı maddələri əks etdirən qətnamə də oxunmalı idi:

1) Bütpərəstlərin Allahın evinə daxil olmağa haqqı yoxdur.

2) Çılpaq vəziyyətdə təvaf etmək qadağandır.

3) Bundan sonra bütpərəstlər həcc ziyarətində iştirak edə bilməzlər.

[1] Sireyi İbn Hişam, c-6, s-545; Biharul-ənvar, c-21, s-267

4) Peyğəmbərlə dostluq (bir-birinə hücum etməməyə dair) müqaviləsi bağlayanların canı da, malı da toxunulmazdır. Lakin o həzrətlə müqaviləsi olmayanlar və yaxud müqavilə bağladıqdan sonra onu pozanlar bu gündən etibarən dörd ay müddətinədək öz vəziyyətlərinə aydınlıq gətirib mövqelərini açıqlamalıdırlar. Ya İslamı qəbul edərək müsəlmanlara qoşulmalı, ya da döyüşə hazır olmalıdırlar.[1]

Əmirəl-möminin Əli ibn Əbutalib(ə) Cabir ibn Abdullah da daxil olmaqla bir neçə nəfərin müşayiəti ilə Məkkəyə doğru hərəkət edib Cöhfə adlı yerdə Əbu Bəkrə çatır. Peyğəmbərin(s) əmrini ona çatdırır, Əbu Bəkr də ayələri Əliyə təhvil verir.

Əksər hədis alimləri nəql edirlər ki, Əli(ə) Əbu Bəkrə buyurur: «Peyğəmbər(s) mənimlə birlikdə Məkkəyə getməklə Mədinəyə qayıtmaq arasındakı seçimi sənin öz ixtiyarına buraxıb. Əbu Bəkr Mədinəyə qayıtmağa üstünlük verir.

Peyğəmbərin(s) hüzuruna gəldikdə deyir: «Sən mənə hamının həsəd aparacağı bir iş tapşırdın. Lakin mən yolda ikən ardımca Əlini göndərib məni bu şərəfdən məhrum etdin. Bu barədə Allah dərgahından bir vəhymi nazil oldu?» Peyğəmbər(s) çox mehribancasına cavab verir: «Cəbrail nazil olub dedi ki, ayələri ya mən özüm, ya da məndən olan birisi oxuya bilər.»[2] Bəzi mənbələrdə isə göstərilir ki, Əbu Bəkr Məkkəyə göndərilən dəstəyə başçı təyin edilmişdi, ayələri oxumaq isə Əliyə tapşırılmışdı.[3]

Əmirəl-möminin Məkkəyə çatıb Qurban bayramı günü şeytana daş atılan yerdə (Minada) Tövbə surəsinin ilk on üç ayəsini oxuyur. Eyni zamanda Peyğəmbərin(s) qətnaməsini də uca səslə, özü də böyük həvəslə oxuyur ki, hamı eşidə bilsin. Bunun nəticəsi olaraq hələ dörd ay keçməmiş müşriklər dəstə-dəstə gəlib İslamı qəbul edirlər. Beləliklə də hicrətin onuncu ilinin ortalarında Ərəbistan yarımadasında bütpərəstliyin kökü kəsilir.

Tövbə surəsinin ilk ayələrini və qətnaməni müşriklərə çatdırmaq üçün Peyğəmbərin(s) əvvəlcə Əbu Bəkri Məkkəyə göndərməsi, sonra isə

---

[1] Kafi, c-1, s-326

[2] Əl-İrşad, s-33

[3] Sireyi İbn Hişam, c-2, s-546

Allahın əmri ilə bu işi Əliyə(ə) həvalə etməsi, sözsüz ki, Əli(ə) üçün inkar edilməz bir fəzilət və üstünlükdür. Təəssüflər olsun ki, bəzi təəssübkeş müəlliflər bu hadisəni təhlil edərkən xətaya yol vermişlər. Alusi Bağdadi öz təfsirində yazır: «Əbu Bəkr olduqca mülayim, şəfqətli, cəsarətli idi. Tövbə surəsinin ilk ayələrini müşriklərə çatdırmaq həddən artıq cəsarət tələb etdiyindən, bu vəzifə Əbu Bəkrdən alınıb Əliyə həvalə edilir.»[1]

Təəssübkeşlikdən irəli gələn bu təhlil Peyğəmbərin(s) kəlamı ilə qətiyyən uyğun gəlmir. Belə ki, Peyğəmbər(s) Əbu Bəkrin cavabında: «Allah bu ayələrin ya özümün, ya da məndən olan bir şəxsin oxumasını əmr etmişdir.»-deyə buyurur. Deməli, ayələri oxumaq üçün iki nəfərdən-Peyğəmbər və Əlidən başqa heç kəsin səlahiyyəti olmamışdır və bu məsələdə cəsarətdən, şəfqətdən söhbət gedə bilməz. Digər tərəfdən onu da nəzərə almaq lazımdır ki, Peyğəmbər(s) özü Əbu Bəkrdən də şəfqətli olmuşdur. Əgər ortada şəfqət məsələsi var idisə, bəs onda nəyə görə Allah-taala buyurdu ki, ayələri ya Peyğəmbər özü, ya da ondan olan bir şəxs oxumalıdır? Peyğəmbər(s) şəfqətli olduğu halda bu ayələri necə oxuya bilərdi?

Bəzi müəlliflər də məsələyə tamam başqa bir cəhətdən yanaşaraq bildirmişlər ki, ərəblərin adət-ənənəsinə görə hər hansı bir müqavilənin pozulmasını ya müqavilə imzalayan şəxsin özü, ya da qohumlarından biri elan etməli idi. Əks təqdirdə müqavilə hələ də qüvvədə qalırdı. Əli də Peyğəmbərin(s) ən yaxın qohumlarından olduğu üçün ayələrin oxunulması məhz ona tapşırılır. Lakin bu fərziyyə də həqiqətə uyğun deyil. Əgər məsələ qohumluq məsələsi idisə, nəyə görə Peyğəmbər(s) bu işi Abbasa həvalə etmir? Əli Peyğəmbərin(s) əmisi oğlu idisə, Abbas əmisi idi və qohumluq baxımından Peyğəmbərə(s) Əlidən də bir addım yaxın idi.

Bu tarixi hadisəyə obyektiv yanaşıb təəssübkeşliyi bir kənara qoysaq, görərik ki, bu işin Əliyə tapşırılması nə onun cəsarətli, nə də Peyğəmbərə qohum olmasına görə deyil, sırf o səbəbdəndir ki, qoy camaat idarəçilik işlərində Əlinin ən layiqli şəxs olduğunu görsün. Bu iş üçün ondan layiqli şəxs ola bilməz.

---

[1] Ruhul-məani, Tövbə surəsinin təfsiri

## HİCRƏTİN ONUNCU İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR

### *Peyğəmbərin(s) oğlu İbrahimin vəfatı*

«Sevimli İbrahim! Biz sənin üçün heç nə edə bilmərik. Allahın yazısına pozu yoxdur. Sənin yasında gözlərim ağlasa da, qəlbim kədərlənsə də, dilimə Allahın razı olmadığı bircə kəlmə belə gətirmərəm. Bizim də bir vaxt sənə qoşulacağımıza dair Allahın vədəsi olmasaydı, sənin ayrılığına daha çox ağlayar, daha çox kədərlənərdim.»[1] Peyğəmbər(s) bu sözləri əziz oğlu İbrahim atasının qucağında can verərkən buyurmuşdur. Sözlərindən kədərləndiyi aşkar şəkildə hiss olunan Peyğəmbər(s) Allahın qəzavü-qədəri ilə də barışır. Övlad sevgisi insan ruhuna xas olan və ruhun təmiz olduğunu göstərən ən ülvi hisslərdəndir. Peyğəmbər(s) dəfələrlə: «Övladlarınıza sevgi göstərin!»[2] - deyə buyurmuşdur. Həzrətin ən üstün cəhətlərindən biri də məhz uşaqları sevmək, onlara nəvaziş etmək olmuşdur.[3]

Son illərdə Peyğəmbər(s) Qasim, Tahir və Təyyib[4] adlı üç oğlunun, Zeynəb, Rüqəyyə və Ümmi Külsüm adlı üç qızının itkisi ilə üzləşmiş, onların ayrılığına son dərəcə kədərlənmişdi. Həzrətin yalnız Xədicədən(s.ə) olan qızı Fatimə sağ qalmışdı. Hicrətin altıncı ilində Ərəbistan yarımadası hüdudlarından kənarda yerləşən ölkə başçılarına məktub göndərən Peyğəmbər(s) Misir hökmdarını da yaddan çıxartmır. Həzrətin İslama dəvətlə bağlı məktubuna müsbət cavab verməyən Misir hökmdarı Peyğəmbərin məktubuna və göndərdiyi qasidə hörmətlə yanaşır, Mariya adlı kəniz də daxil olmaqla Peyğəmbər üçün hədiyyələr göndərir. Sonradan Peyğəmbərlə(s) ailə qurmaq şərəfinə nail olan Mariya həzrət üçün İbrahim adlı bir oğlan uşağı dünyaya gətirir. Peyğəmbər(s) İbrahimi həddən artıq çox sevir və altı övladının itkisindən irəli gəlmiş kədəri nisbətən azalır. Təəssüflər olsun ki, bu sevinc cəmi on səkkiz ay davam edir. Hansısa işdən

---

[1] Sireyi Hələbi, c-3, s-347; Biharul-ənvar, c-22, s-157

[2] Biharul-ənvar, c-23, s-114

[3] Əl-Muhəccətül-beyza, c-3, s-366

[4] Biharul-ənvar, c-22, s-166

ötrü evdən çıxmış Peyğəmbər(s) İbrahimin vəziyyətinin ağırlaşdığını eşidən kimi dərhal evə qayıdır. Uşağı anasının qucağından alaraq yuxarıda qeyd etdiyimiz sözləri («Sevimli İbrahim...») buyurur. Həzrətin övlad itkisində ağlaması, narahat olması onun insanlara, övlada olan sevgisindən xəbər verir. Bir ata kimi övladının belə bir vəziyyətdə olmasına özündən asılı olmayaraq kədərlənir. Lakin bircə kəlmə də olsun, Allahın razı qalmayacağı sözü dilinə gətirmir. Onsuz da qaçılmaz olan Allahın qəzavü-qədəri ilə barışması isə böyük imanından xəbər verir.

Peyğəmbərin(s) ağladığını görüb təəccüblənən Əbdürrəhman ibn Ovf həzrətə irad tutaraq deyir: «Sən bizi ölənlər üçün ağlamamağa çağırdığın halda özün oğlunun ölümünə göz yaşı tökürsən.» O, İslam maarifinə dərindən bələd olmadığı kimi, insanda təbiətən yaradılmış insani duyğulardan da xəbərsiz idi. İnsandakı bütün duyğular müəyyən səbəblərə görə yaradılmışdır və hər birindən öz yerində və zamanında istifadə edilməlidir. Əzizlərinin ayrılığına göz yaşı tökməyən şəxslə bir daş parçasında qətiyyən fərq yoxdur, beləsini insan adlandırmaq çox çətindir.

Əbdürrəhman ibn Ovfun Peyğəmbərə iradı yersiz və əsassız olsa da, yeni qurulmuş İslam cəmiyyətindəki mövcud demokratiya və azadlıqdan xəbər verir. Görün onda necə azadlıq hökm sürürmüş ki, adi bir vətəndaş cəmiyyətin bir nömrəli şəxsinə iradını bildirir və ondan da normal cavab alır. Peyğəmbər(s) onun cavabında buyurur: «Mən heç vaxt sizə deməmişəm əzizlərinizin ölümünə ağlamayın. Onlar üçün ağlamaq mərhəmətdən irəli gəlir. Başqalarına qarşı mərhəmətli olmayan şəxsin özünə də mərhəmət edilməz.[1] Mən sizə onu demişəm ki, əzizlərinizin ölümündə ah-nalə edərək Allahın razı olmadığı sözlər dilə gətirməyin, bəyənilməyəcək sözlər deməyin və ağlayaraq üz-gözünüzü, paltarlarınızı cırmayın!»[2]

Peyğəmbərin(s) tapşırığı ilə İbrahimi Əmirəl-möminin Əli(ə)[3] qüsl verib kəfənləyir. Sonra da bir qrup səhabənin iştirakı ilə cənazə Bəqi qəbristanlığına aparılıb torpağa tapşırılır. Peyğəmbər(s) İbrahimin

---

[1] Biharul-ənvar, c-22, s-151
[2] Sireyi Hələbi, c-3, s-348
[3] Biharul-ənvar, c-22, s-156

qəbrinə baxarkən qəbrin bir küncündə kiçik çala görür. Çalanı doldurub qəbri hamarlaşdırmaqdan ötrü yerə əyilir. Çalanı doldurduqdan sonra buyurur: «Hər hansı bir iş gördükdə onu kamil şəkildə yerinə yetirin.»[1]

***Mövhumata qarşı mübarizə***

İbrahim vəfat edən gün təsadüfən gün tutulur. Dünyanın təbiət hadisələrindən xəbərsiz olan bəzi səhabələr Günəşin məhz Peyğəmbərin(s) oğlunun vəfatı ilə əlaqədar tutulduğunu güman edir. Bu düşüncə təbii ki, yanlış və əsassız idi, lakin eyni zamanda zahiri baxımdan Peyğəmbərin(s) lehinə nəticələnirdi. Peyğəmbər(s) adi bir hökmdar olsaydı, bundan öz mənafeyi naminə istifadə etməyə çalışaraq cəmiyyətdəki mövqeyini daha da gücləndirərdi. Ancaq o həzrət bunun əksinə olaraq camaata xitabən buyurur: «Ey müsəlmanlar! Günəş və Ay Allahın əmrinə tabe olan iki böyük nişanədir. Kiminsə ölümünə və ya doğulmasına görə tutulmaz. Belə bir hadisə baş verdikdə hər bir müsəlmanın borcudur ki, ayət namazı qılsın.»[2]

Camaatın nadanlığından istifadə edərək hadisələri öz mənafeyinə yazmağa çalışanlardan fərqli olaraq Peyğəmbər(s) belə bir iş görmür. Əgər Peyğəmbər(s) o vaxt camaatın nadanlığından istifadə etməklə ayın tutulmasından öz mənafeyinə faydalansaydı, Günəş və Ay tutulmalarının səbəbinin elmi cəhətdən aşkar edildiyi müasir dövrümüzdə özünün ümumdünyəvi peyğəmbər olduğunu sübut edə bilməzdi. Çünki onun yalançı olduğu üzə çıxardı. Peyğəmbər(s) təkcə ərəblər və o dövr üçün göndərilməyib. O, dövrün cahil insanlarının peyğəmbəri olduğu kimi elmin sürətlə inkişaf etdiyi müasir cəmiyyətin də peyğəmbəridir. Onun orta əsrlərdə buyurduğu bir çox kəlamların mənası elm və texnikanın irəlilədiyi müasir dövrdə üzə çıxır.

***Nəcran nümayəndələrinin Mədinəyə gəlişi***

Yetmiş kəndi özündə birləşdirən Nəcran əyaləti Hicazla Yəmən sərhədlərində yerləşirdi. İslam dininin meydana gəldiyi zaman Nəcran əyaləti Ərəbistan yarımadasında xaçpərəst dininə sitayiş edilən yeganə yer

---

[1] Biharul-ənvar, c-22, s-157
[2] Əl-Məhasin, s-313; Sireyi Hələbi, c-3, s-348

olmuşdur. Oranın əhalisi müəyyən səbəblərə görə bütpərəstlikdən əl çəkib xristianlığı qəbul etmişdi.

Peyğəmbər(s) ətraf ölkələrin rəhbərlərinə məktub göndərdiyi vaxt Nəcranın baş yepiskopu Əbu Harisəyə də məktub göndərərək nəcranlıları İslama dəvət edir. Həzrətin göndərdiyi məktub aşağıdakı məzmunda olmuşdur: «İbrahim, İshaq və Yəqubun Allahının adı ilə! Allahın elçisi Mühəmməddən Nəcran yepiskopuna! İbrahim, İshaq və Yəqubun Allahına həmd edərək sizi bəndələrin itaətindən Allahın itaətinə səsləyirəm. Dəvətimi qəbul etmədiyiniz təqdirdə onda gərək İslam hökumətinə cizyə (can vergisi) ödəyəsiniz. Bununla da razılaşmasanız, onda sizə qarşı döyüşə başlayacağıq.»[1]

Bəzi mənbələrdə xaçpərəst və yəhudilərin Allaha sitayişə dəvət edilməsini əks etdirən ayənin (Ali-İmran surəsi, 64-cü ayə) də məktubda yazıldığı qeyd olunmuşdur.[2]

Peyğəmbərin(s) nümayəndələri Nəcrana gedib məktubu yepiskopa çatdırırlar. Yepiskop diqqətlə məktubu oxuduqdan sonra Nəcranın dini və mötəbər şəxslərindən ibarət bir şura çağırır. Şurada iştirak edən və öz dəyərli məsləhətləri ilə seçilən Şərhəbil adlı şəxs qalxıb deyir: «Mənim elə də dini məlumatım yoxdur. Ancaq onu demək istəyirəm ki, biz öz dini liderlərimizdən peyğəmbərliyin nə vaxtsa İshaq övladlarından İbrahim övladlarına keçəcəyini dəfələrlə eşitmişik. İsmail övladlarından olan Mühəmmədin də məhz belə bir peyğəmbər olması mümkündür.»

Təşkil edilmiş şura belə qərara gəlir ki, Mühəmmədlə yaxından təmas qurub onun peyğəmbər olub-olmadığını dəqiqləşdirmək məqsədilə Nəcrandan Mədinəyə nümayəndə heyəti göndərilsin. Beləliklə, altmış nəfərdən ibarət nümayəndə heyəti təyin edilir. Nümayəndə heyətinin tərkibində aşağıda adları çəkilmiş üç dini lider də var idi:

1) Nəcranın baş yepiskopu Əbu Harisə ibn Əlqəmə. O, Hicazdakı Bizans kilsələrinin rəsmi nümayəndəsi idi.

2) Əbdülməsih. Dəyərli məsləhətləri və tədbirli olması ilə seçilən bu şəxs nümayəndə heyətinə başçılıq edirdi.

3) Bütün nəcranlıların rəğbətini qazanmış Əyhəm adlı yaşlı bir qoca.[1]

---

[1] Biharul-ənvar, c-21, s-285
[2] Biharul-ənvar, c-21, s-287

Nümayəndə heyəti gözəl ipək paltarlar geymiş, barmaqlarına qızıl üzüklər taxmış və boyunlarından xaç asmış halda günortadan sonra Mədinə məscidinə daxil olub Peyğəmbərə salam verir. Onların məscidə bu cür gəlişinə Peyğəmbər(s) çox narahat olur. Həzrətin narahat olduğunu hiss etsələr də, bunun səbəbini anlaya bilmirlər. Bu haqda əvvəlcədən tanıdıqları Osman ibn Əffan və Əbdürrəhman ibn Ovfdan soruşduqda adı çəkilənlər cavab verirlər ki, bunun səbəbini yalnız Əli İbn Əbutalib bilər. Əliyə(ə) müraciət etdikdə buyurur: «Siz məscidə bu cür təmtəraqla girməməli idiniz. Gedin geyiminizi dəyişin və Peyğəmbərin(s) hüzuruna sadə geyimdə gəlin. Onda o sizə mütləq hörmət edəcək.»

Nümayəndə heyəti qızıl üzükləri çıxarıb sadə geyimdə Peyğəmbərin(s) hüzuruna gələrək ona salam verir. Həzrət böyük hörmətlə onların salamını cavablayır, gətirdikləri bəzi hədiyyələri qəbul edir. Söhbətə başlamazdan qabaq namaz qılmaq istədiklərini bildirdikdə Peyğəmbər(s) onlara məsciddə, özü də üzü günçıxana (Beytül-müqəddəsə) doğru namaz qılmağa icazə verir.[2]

***Nümayəndə heyəti ilə Peyğəmbərin(s) müzakirəsi***

Nəcrandan gəlmiş nümayəndə heyəti ilə Peyğəmbərin(s) müzakirəsini qeyd etmiş tarixçilər arasında Seyyid ibn Tavus müzakirənin və mübahilə hadisəsinin bütün detallarını xırdalıqlarına qədər göstərmişdir. Burada həmin xırdalıqları oxucuların diqqətinə çatdırmaq mümkün olmadığından, müzakirənin yalnız bəzi məqamlarına toxunacağıq.[3]

Tərəflər söhbətə başlayan kimi Peyğəmbər(s): «Sizi tövhid dininə, tək olan Allaha ibadətə dəvət edirəm»-deyə Qurandan bir neçə ayə oxuyur.

Nümayəndə heyəti: Tövhid və İslamı qəbul etməkdə məqsəd dünyanın tək Allahına ibadət etməkdirsə, biz onsuz da Ona ibadət edir, əmrlərini yerinə yetiririk.

Peyğəmbər(s): Həqiqi İslamın (təkallahlığın) bəzi əlamətləri vardır və o əlamətlər göstərir ki, siz hələ əsl təkallahlıq dininə tabe olmamısınız.

---

[1] Tarixi Yəqubi, c-2, s-66
[2] Sireyi Hələbi, c-3, s-239
[3] Sireyi Hələbi, c-3, s-239

Xaça pərəstiş etdiyiniz, donuz əti yediyiniz və Allahın oğlu olduğunu iddia etdiyiniz halda necə «Biz Allaha ibadət edirik»-deyirsiniz?

-Biz onu (Allahın oğlunu-İsanı) Allah hesab edirik. Çünki o, ölüləri dirildir, sağalmaz xəstələri sağaldır və palçıqdan quşabənzər bir şey düzəldərək ona üfürməklə onu cana gətirirdi. Bütün bunlar onu göstərir ki, deməli, o, doğrudan da Allahdır.

-Xeyr, o, Allahın bəndəsi idi. Allah onu anası Məryəmin bətnində xəlq etmişdir. Sadəcə olaraq ona dediyiniz işləri icra etmək qüdrəti vermişdi.

Nümayəndə heyətindən bir nəfər: Bəli, o, həqiqətən də Allahın bəndəsi idi. Çünki Məryəm ərə getmədiyi halda Allah onun bətnində İsanı xəlq etdi. Onda onun atası məhz Allah özü olub.

Bu zaman Cəbrail nazil olub Peyğəmbərə(s) bildirir ki, bu baxımdan İsa eynilə Adəmə bənzəyir. İsa atasız olaraq yaradılmışdısa, Adəm həm atasız, həm də anasız olaraq xəlq edilmişdi. Allah-taala onların hər ikisini Öz qüdrəti ilə xəlq etmişdir. (Ali-İmran surəsi, 59-cu ayə) İsanın atasının olmaması onun Allahın oğlu olduğuna dəlalət edirsə, Adəm buna İsadan da daha layiqdir. Çünki onun heç anası da olmayıb. (Peyğəmbər(s) də Cəbrailin dediklərini olduğu kimi nümayəndə heyətinə çatdırır.)

Nümayəndə heyəti: Sizin dedikləriniz bizi qane etmir. Yeganə çıxış yolu odur ki, müəyyən bir vaxtda mübahiləyə (yəni, qarşılıqlı qarğışa) toplaşaraq və yalançıya Allahın lənətini, Allahın bəlasına gəlməsini diləyək.[1]

Bu vaxt yenə də Cəbrail nazil olub mübahilə ayəsini (Ali-İmran-61) gətirir. Beləliklə, Peyğəmbərə(s) haqqı qəbul etməyənləri qarşılıqlı qarğışa dəvət və yalançıya Allahın bəlasının nazil olmasını diləmək əmr edilir. Ayədə deyilir: ***«(İsanın Allahın bəndəsi və peyğəmbəri olması barədə) sənə göndərilən bilikdən (məlumatdan) sonra buna (İsanın əhvalatına) dair səninlə mübahisə edənlər olsa, onlara de: «Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də***

[1] Biharul-ənvar, c-21, s-32

***qadınlarınızı; biz də özümüzü, siz də özünüzü (bura) çağıraq! Sonra (Allaha) yalvarıb yalançılara Allahın lənət etməsini diləyək!»***

Tərəflər məsələyə son qoymaq məqsədilə səhərisi gün mübahiləyə gəlmələri haqda razılığa gəlirlər.

Peyğəmbərin(s) Nəcran xristianları ilə mübahiləyə getməsi İslam tarixinin ən maraqlı hadisələrindən biridir. Bəzi tarixçi və təfsirçilər hadisənin xırdalıqlarını qeyd etməsə də, Zəməxşəri əl-Kəşşaf[1], İmam Razi Məfatihül-qeyb[2], İbn Əsir əl-Kamilu fit-tarix[3] əsərində baş verənləri təfsilatı ilə nəql etmişdir. Zəməxşəri yazır: «Mübahilə üçün təyin edilmiş vaxt gəlib çatır. Qabaqcadan əldə edilmiş razılığa əsasən Peyğəmbərlə(s) Nəcran xristianları Mədinədən kənarda-yaşayış olmayan bir yerdə mübahilə etməli idilər. Peyğəmbər(s) mübahiləyə gedərkən müsəlmanlar arasından yalnız dörd nəfəri-Əli ibn Əbutalibi, qızı Fatiməni, bir də Həsənlə Hüseyni özü ilə aparır. Çünki müsəlmanlar arasında adı çəkilənlərdən pak, imanlı şəxs yox idi. Özü də Peyğəmbər(s) evdən mübahilə üçün təyin olunmuş yerə qədər olan məsafəni özünəməxsus şəkildə qət edir. Belə ki, Hüseyni qucağına alıb Həsənin əlindən tutmuş, qızı Fatimə arxasınca, Əli də onun ardınca addımlayırdı. Nəzərdə tutulan yerə çatmazdan öncə yanındakılara buyurur ki, mən dua etdikdə siz də amin deyərsiniz.

Nəcranın nümayəndə heyəti mübahilədən öncə bir-biri ilə söhbətləşərək deyirdilər ki, Məhəmməd ordu başçıları, sərkərdələrlə gələrsə, deməli, öz iddiasında yalançıdır və dediklərinə əmin deyil. Yox əgər öz əzizləri və övladları ilə gələrsə, deməli, o, iddiasında haqdır və peyğəmbər olduğuna arxayındır. Yoxsa özü ilə yanaşı ən istəkli adamlarının həlak olmasına razı olmaz.

Nəcran xristianları bu fikirdə ikən birdən Peyğəmbər(s) adı çəkilən dörd nəfərlə birlikdə mübahilə meydanına yaxınlaşır. Onun ən istəkli adamları, məsum şəxslərlə, yeganə övladı Fatimə ilə birlikdə mübahiləyə gəldiyini görən xristianlar heyrətdən donub yerlərində qalırlar. Məhəmmədin öz iddiasında haqq olduğuna yəqin edirlər. Bunu görən

---

[1] Əl-Kəşşaf, c-1, s-282-283

[2] Məfatihul-qeyb, c-2, s-471-472

[3] Əl-Kamilu fit-tarix, c-2, s-112

baş yepiskop deyir: «Mən elə simalar görürəm ki, Allahdan ən yüksək dağların yerindən qopmasını istəsələr, duaları qəbul edilər. Bu nurani şəxslərlə mübahilə etmək olmaz. Yoxsa hamımız məhv olarıq. Hətta təkcə biz yox, bütün xristianlar da həlak ola bilər. Nəticədə yer üzündə bircə nəfər də xristian qalmaz.» Beləliklə, Nəcran xristianları mübahilə etmək fikrindən daşınır, hər il İslam hökumətinə cizyə ödəmək qərarına gəlirlər. Əvəzində İslam hökuməti də onların təhlükəsizliyini təmin etməyi öz öhdəsinə götürür. Peyğəmbər(s) buyurur: «Nəcran nümayəndələri bəlanın bir addımlığında idi. Əgər mübahilə etsəydilər, hamı külə dönəcək və bu bəla Nəcrana da gedib çıxacaqdı.»

Aişədən nəql edilmiş hədisdə göstərilir ki, Peyğəmbər(s) mübahilə günü öz qara əbasını Əli, Fatimə, Həsən və Hüseynin üstünə ataraq: «Siz ey ev əhli! Allah bütün çirkinlikləri sizdən uzaqlaşdırıb sizi pak-pakizə etmək istər!»-ayəsini oxuyurdu.»

Zəməxşəri daha sonra mübahilə ayəsi ilə bağlı bəzi məqamlara toxunaraq yazır: «Mübahilə hadisəsi və onunla bağlı nazil olmuş ayə adı çəkilən şəxslərin fəzilətini sübut edən ən böyük sübut olmaqla yanaşı İslam dininin də haqq olduğunu göstərir.»

***Peyğəmbərlə(s) Nəcran xristianları arasında bağlanmış müqavilə***

Nəcran nümayəndə heyəti təyin edilmiş cizyənin məbləği və İslam hökumətinin Nəcran və nəcranlıların təhlükəsizliyini öhdəsinə götürməsinə dair müqavilə yazılmasını xahiş etdikdə Peyğəmbər(s) Əmirəl-möminin Əliyə(ə) aşağıdakı məzmunda bir müqavilə yazdırır: «Bağışlayan və mehriban Allahın adı ilə! Allahın elçisi Mühəmmədlə nəcranlılar arasında bağlanmış bu müqaviləyə əsasən Nəcran əhalisi İslam hökumətinə ildə iki min paltar (hər birinin qiyməti qırx dirhəmdən baha olmamaq şərti ilə) verməlidir. Onlar bunun yarısını səfər ayında, qalan yarısını isə rəcəb ayında ödəyə bilərlər. (Yəni, vergini birdəfə ödəyə bilməsələr, iki dəfəyə ödəyə bilərlər.) Nə vaxtsa Yəmən hökmdarı müsəlmanlara qarşı döyüşə qalxsa, nəcranlılar İslam ordusuna otuz zireh, otuz at və otuz baş dəvə icarəyə verməlidirlər. Döyüş müddəti ərzində nəcranlılar müsəlmanları bir ay qonaq kimi qəbul etməli, nə vaxtsa Peyğəmbərin(s) nümayndəsi Nəcrana gələrsə, onu da layiqincəsinə

qarşılamalıdırlar. Bunun əvəzində nəcranlıların canı, malı, torpaqları, məbədləri Allah və Onun elçisi tərəfindən toxunulmazlıq hüququ əldə edir. Bu şərtlə ki, bu gündən etibarən Nəcranda sələmçilik aradan qaldırılsın. Əks təqdirdə müqavilə qüvvədən düşmüş sayılır, Nəcran və nəcranlıların təhlükəsizliyinə heç br təminat verilmir.»[1]

Müqavilə bir parça qırmızı dərinin üzərinə yazılır və səhabələrdən ikisi şahid olaraq onu imzalayır. Sonra da Peyğəmbərin(s) möhürü ilə möhürlənən müqavilə Nəcran nümayəndə heyətinə təhvil verilir.

Tərtib edilmiş müqavilə Peyğəmbərin(s) necə də ədalətli olduğunu göstərir. O həzrət, hegemonluq edən dövlət başçıları kimi qarşı tərəfin zəif olmasından istifadə edib onlara ağır vergilər yükləmir. Həmişə ədalət prinsiplərinə əsaslanan Peyğəmbər(s) bu müqavilə bağlanarkən də öz ənənəsinə sadiq qalır.

***Böyük bir iftixar***

Mübahilə hadisəsi və onunla əlaqədar nazil olmuş ayə tarix boyu Əli, Fatimə, Həsən və Hüseyn üçün böyük bir fəzilət olaraq təsbit edilmişdir. Hadisə ilə bağlı nazil olmuş ayədə Peyğəmbəri(s) müşayiət edən şəxslərin necə böyük fəzilətə malik olduğu öz əksini tapmışdır. Ayədə Həsənlə Hüseyn, Peyğəmbərin övladları olaraq qələmə verilməklə yanaşı Əli o həzrətin özü, canı, ruhu kimi təqdim edilmişdir. Bir insan üçün Peyğəmbərin canı, ruhu olmaqdan böyük şərəf ola bilərmi? Bu, Əmirəl-möminin Əlinin hər bir müsəlmandan üstün olmasına dəlalət etmirmi? İslam sxolastikası və imamətlə bağlı məsələlərdə mövqeyi hamıya bəlli olan Fəxr Razi kimi bir şəxs də bu sahədə Əlinin fəzilətini tutarlı dəlillərlə sübuta yetirmişdir.

Məsum imamlardan nəql edilmiş hədislərdə o da göstərilir ki, mübahilə etmək təkcə Peyğəmbərə xas olan bir məsələ deyil. Hər bir müsəlman dini məsələlərdə həqiqəti inkar edən şəxsi mübahiləyə dəvət etməklə yalançıya Allahdan lənət və bəla diləyə bilər. Mərhum Əllamə Təbətəbai bu mövzuda yazdığı traktatında deyir: «Mübahilə etmək İslamın davam edən möcüzələrindən biridir. Peyğəmbərin(s) hərəkətinə müvafiq olaraq, imanı olan istənilən şəxs, İslam həqiqətlərindən hər

[1] Fütuhul-buldan, s-76

hansı birini isbat etmək üçün öz müxaliflərini mübahiləyə dəvət edə bilər.»

***Mübahilə hadisəsinin baş verdiyi gün, ay, il***

«Məkatibur-rəsul» əsərinin müəllifi yazır: «Mübahilə hadisəsinin hicrətin onuncu ilində baş verməsində qətiyyən şübhə yoxdur. Çünki nəcranlılarla Peyğəmbər arasında bağlanmış müqavilə hicrtəin onuncu ilində imzalanmışdır. Deməli, mübahilə hadisəsi də məhz həmin ildə baş vermişdir. Ona görə ki, müqavilənin imzalanması hadisədən sonra gerçəkləşmişdir.»

Hadisənin baş verdiyi gün və aya gəlincə, ən mötəbər sayıla biləcək ehtimala əsasən, mübahilə hadisəsi zilhəccə ayının 25-də baş vermişdir. Mərhum Şeyx Tusi isə hadisənin zilhəccənin 24-də baş verdiyini və hadisə ilə bağlı bir dua da qeyd etmişdir.[1]

Mərhum Seyyid ibn Tavus mübahilə hadisəsi ilə bağlı üç fərziyyə irəli sürərək bildirir: «Səhih hədislərə istinadən mübahilə hadisəsi zilhəccə ayının 24-də baş vermişdir. Bəziləri zilhəccənin iyirmi birini, digər bir dəstə isə zilhəccənin iyirmi yeddisini mübahilə günü kimi qəbul etmişdir.»[2]

Bu sətirlərin müəllifinin fikrincə mübahilə hadisəsinin baş verdiyi tarixlə əlaqədar yuxarıda qeyd olunanlar bəzi tarixi hadisələrlə (onların bir sırası tarix baxımından danılmazdır) aşağıdakı sübutlara əsasən uyğun gəlmir:

1) Peyğəmbərin(s) Nəcran yepiskopuna yazdığı məktubda: «İslamı qəbul etməyəcəyiniz təqdirdə cizyə ödəməlisiniz» cümləsi işlədilmişdir. Cizyə sözü Quranda ilk dəfə olaraq Tövbə surəsində işlədilmiş və Peyğəmbər(s) də məhz həmin ayəyə istinadən məktubda həmin sözdən istifadə etmişdir. Tövbə surəsinin Təbuk döyüşündən bir qədər əvvəl nazil olduğunu, Təbuk döyüşünün də hicrətin doqquzuncu ilinin rəcəb ayından sonra baş verdiyini nəzərə aldıqda nəcranlıların Peyğəmbərin(s) məktubuna cavab olaraq il yarım sonra Mədinəyə nümayəndə heyəti

---

[1] Misbahul-mutəhəccid, s-704

[2] İqbalul-əmal, s-743

göndərməsi elə də inandırıcı görünmür. Deməli, nümayəndə heyətinin gəlişi həqiqətən də hicrətin onuncu ilində baş vermişdir.

2) Tarixçilər qətiyyətlə bildirmişlər ki, Peyğəmbər(s) Əlini(ə) Quran öyrətmək və dini məsələləri həll etmək üçün Yəmənə göndərmişdi. Əli bir qədər orada qaldıqdan sonra Peyğəmbərin(s) həcc ziyarəti məqsədilə Məkkəyə getdiyini öyrənib bir dəstə ilə özü də Məkkəyə gəlir. Gələrkən Nəcrandan yığdığı min geyimlik parçanı da cizyə olaraq Peyğəmbərə(s) təhvil verir.[1] Buradan belə məlum olur ki, mübahilə hadisəsi və nəcranlılarla Peyğəmbərin müqavilə imzalaması hicrətin onuncu ilində baş verməyib. Çünki müqaviləyə əsasən nəcranlılar ildə iki min geyim (və yaxud iki min geyimlik parça) cizyə ödəməli idilər. Bunun yarısını rəcəb, yarısını da səfər ayında ödəyə bilərdilər.[2] Müqavilənin həqiqətən də zilhəccə ayında imzalandığını qəbul etsək, onda hicrətin onuncu ili deyil, əvvəlki ilin zilhəccə ayı olduğunu etiraf etməliyik. Çünki zilhəccənin hicri ilinin sonuncu ayı olduğunu nəzərə alsaq, həm müqavilənin imzalanmasının onuncu ildə, həm də Əlinin(ə) cizyə toplamasının həmin ildə baş verməsi bir-biri ilə uyğun gələ bilməz. Müqavilə zilhəccə ayında bağlandığı halda Əlinin(ə) rəcəb ayında (müqavilədən dörd-beş ay qabaq) cizyə toplaması hansı məntiqə uyğun gəlir? Beləliklə, Əlinin(ə) hicrətin onuncu ilinin rəcəb ayında Nəcrandan cizyə topladığının danılmaz bir fakt olduğu üzə çıxdıqdan sonra ya gərək mübahilə əhvalatının hicrətin onuncu ilində, lakin zilhəccədən başqa ayda, ya da hadisənin zilhəccə ayında, lakin onuncu ildən qabaq (məsələn, doqquzuncu ildə) baş verdiyini söyləməliyik.

Daha yaxşı olar ki, mübahilə hadisəsinin tarixini o ərəfədə baş vermiş digər hadisələrlə paralel təhlil edib dəqiqləşdirək. Hadisəni digər hadisələrlə uzlaşdırdıqda mübahilənin hicrətin onuncu ilinin zilhəccə ayında baş vermədiyi dəqiqləşir. Belə ki, hicrətin onuncu ili Peyğəmbər(s) həcc mərasimində şəxsən iştirak edib həcc ayinlərini camaata doğru-dürüst öyrətməkdən ötrü Məkkəyə getmiş, zilhəccə ayının on səkkizində Cöhfə yaxınlığındakı Qədir adlı yerdə Qədir-xum hadisəsi baş vermişdir. Bu hadisədən dərhal sonra peyğəmbər Əliyə(ə)

[1] Sireyi İbn Hişam, c-2, s-602-603; əl-İrşad, s-89
[2] Ət-Təbəqatul-kubra, c-1, s-358; Ət-Təbəqatul-kubra, c-1, s-87

göstəriş verir ki, bir çadır qurub onun içərisində əyləşsin. Müsəlmanlar da üç-üç gəlib Əlini təbrik edirlər. Təbriketmə mərasimi zilhəccənin ondoqquzu axşamadək davam etmiş, ən son olaraq Peyğəmbərin(s) xanımları Əliyə öz təbriklərini demişlər. Deməli, Peyğəmbər(s) heç zilhəccənin on doqquzu da Qədir ərazisini tərk etməmişdir. Xüsusilə də nəzərə almaq lazımdır ki, həmin ərazi Mədinə, İraq və Yəmən zəvvarlarının ayrılma nöqtəsi idi və müxtəlif istiqamətlərə gedəcək şəxslər Peyğəmbərlə(s) vidalaşmalı idi. Təbii ki, vidalaşmaq üçün də Peyğəmbərin(s) bir xeyli orada qalması lazım idi. Hətta Peyğəmbərin Qədir ərazisini zilhəccə ayının on doqquzunda tərk etməsi ilə razılaşsaq da, oradan Mədinəyə qədər olan məsafəni zilhəccənin 24 və ya 25-dək qət edib mübahiləyə yetişməsi mümkün idimi? Məlumdur ki, bu, qeyri-mümkün idi. Gəlin görək o vaxtkı karvanlar Məkkədən Mədinəyə (və ya Cöhfədən Mədinəyə) neçə günə gedirlərmiş? Bu haqda Peyğəmbərin(s) öz səfərlərindən başqa əldə dəqiq bir məlumat yoxdur. Peyğəmbərin(s) öz səfərlərinə gəldikdə hicrət zamanı həzrət bu məsafəni doqquz, Məkkənin fəthindən sonra isə on bir günə qət etmişdir.[1] Birinci səfər Peyğəmbəri(s) iki nəfər müşayiət etdiyi halda, ikinci səfərdə onu on min nəfərlik bir ordu müşayiət etmişdir. Üstəlik ilk səfər zamanı həzrət Qüreyş müşrikləri tərəfindən təqib edildiyi üçün daha sürətlə hərəkət etmişdir. Sonuncu səfərə gəldikdə Peyğəmbər(s) Cöhfədən ən tez zilhəccənin iyirmi dördündə qayıda bilərdi. Belə olan halda həmin gün və ya iki-üç gün sonra mübahilə hadisəsinin baş verdiyini söyləmək nə dərəcədə həqiqətə uyğundur? Axı hələ mübahilədən öncə Peyğəmbərlə(s) nəcranlıların müzakirəsi üç-dörd gün davam etmiş, axırda isə mübahilə etmək qərarına gəlmişlər. Deməli, mübahilə hadisəsi hicrətin onuncu ilinin zilhəccə ayında (nə iyirmi birində, nə iyirmi dördündə, nə iyirmi beşində, nə də iyirmi yeddisində) baş verməmişdir. Üstəlik onu da nəzərə almaq lazımdır ki, Nəcran şəhəri Hicazla Yəmənin sərhədində yerləşirdi və karvanların gediş-gəlişi nəticəsində Nəcran əhalisi Mədinədə baş verənlərdən xəbər tuturdu. Peyğəmbərin(s) Məkkəyə həcc ziyarətinə getdiyini bildikləri halda o həzrətin Mədinəyə qayıtmasından xəbərdar olmayınca çətin ki, nəcranlılar Peyğəmbərin(s) görüşünə gələydilər. Bəs onda bu əlamətdar hadisə nə vaxt baş vermişdir? Bəlkə də mübahilə

[1] Biharul-ənvar, c-22, s-19

hadisəsi həqiqətən zilhəccə ayında olmuş, lakin hicrətin onuncu deyil, doqquzuncu ilində baş vermişdir. Bəzi tarixçilər məhz bu fərziyyəyə üstünlük vermişdir. Ancaq tarixi araşdırmalar bu fikrin də həqiqətə uyğun olmadığını üzə çıxarır. Belə ki, mübahilə hadisəsinin əsas qəhrəmanlarından və müqaviləni yazan Əli ibn Əbutalib(ə) hicrətin doqquzuncu ili zilhəccə ayında Peyğəmbərin(s) göstərişi ilə Tövbə surəsinin ilk ayələrini müşriklərə çatdırmaqdan ötrü Məkkəyə-həcc ziyarətində iştirak etməyə getmişdi. Həmin il həcc ziyarətinə ikinci dəfə idi ki, müsəlmanlar başçılıq edirdilər və Əli də müsəlman zəvvarların başçısı olaraq Məkkəyə getmişdi. Həcc mövsümü zilhəccə ayının on ikisində başa çatsa da Məkkədə xeyli sayda qohumları olan Əli(ə) təbii ki, onlarla görüşüb qonaq qalmış və Məkkəni həcc əməlləri başa çatdıqdan dərhal sonra tərk etməmişdir. Onun həcc karvanının başçısı olduğunu və o vaxt həccə gedənlərin tək-tək deyil, karvanla birlikdə yola çıxdığını nəzərə aldıqda Əlinin(ə) zilhəccənin iyirmi dördündən tez Mədinəyə çatmasının mümkün olmadığı üzə çıxır. Belə olduğu təqdirdə həmin gün Nəcran xristianlarına Peyğəmbərin(s) onları nə üçün soyuq şəkildə qarşılandığını onlara necə çatdıra bilərdi? Bütün bunlar onu göstərir ki, mübahilə hadisəsinin tarixi haqqında qəbul edilmiş əsas nəzəriyyə də mötəbər deyil və Quranın danılmaz faktlardan olduğunu göstərdiyi bu hadisənin tarixinin dəqiqləşdirilməsi üçün daha çox araşdırma aparılmalıdır.

Burada belə bir sual irəli çıxar ki, əgər hadisənin tarixi mötəbər deyilsə, bəs əksər alimlər nəyə görə bu fikri qəbul etmişdir? Sualın cavabında qeyd etməliyik ki, mərhum Şeyx Tusinin hadisənin tarixinə dair əsaslandığı hədisin ravilər (hədisi nəql edənlər) silsiləsində hədisyazarların avtobioqrafiyasını araşdıran alimlərin nəzdində söylədiyi hədisləri məqbul sayılmayan aşağıdakı şəxslər mövcud olmuşdur:

1) Məhəmməd ibn Əhməd ibn Məxzum. Onun hədisləri elə də mötəbər hesab edilmir.

2) Həsən ibn Əli Ədəvi. Bəzi hədis alimləri onun da hədislərinin qeyri-mötəbər olduğunu bildirmişlər.[1]

---

[1] Tənqihül-məqal, c-1, s-294

3) Məhəmməd ibn Sədəqə Ənbəri. Şeyx Tusi onun etibar edilməyəcək şəxs olduğunu söyləmişdir.[1] Bir sözlə, mübahilə hadisəsinin tarixi ilə bağlı söylənilmiş hədislərə etibar etmək üçün əlimizdə heç bir əsas yoxdur.

### *Əmirəl-möminin Əlinin(ə) Minada oxuduğu qətnamənin nəticəsi*

Hicrətin doqquzuncu ili həcc mövsümündə Peyğəmbərin(s) göstərişi ilə Əlinin(ə) Minada oxuduğu qətnamə qısa müddət ərzində öz bəhrəsini verir. Qətnamənin məzmunu olduqca sərt idi. Belə ki, müşriklər qarşıdakı dörd ay ərzində konkret bir qərar qəbul etməli idilər. Ya bütpərəstlikdən tamamilə əl çəkib İslamı qəbul etməli, ya da demək olar bütün Ərəbistan yarımadasını əhatə etmiş müsəlmanlarla döyüşə hazırlaşmalı idilər. Qeyd etdiyimiz kimi bu qətnamə tezliklə öz müsbət nəticəsini verir və o vaxtadək inadkarlıqlarından əl çəkməyən bəzi qəbilələr Mədinəyə nümayəndə heyətləri göndərməklə İslamı qəbul etdiklərini bildirirlər. İbn Səd «ət-Təbəqatul-kubra» əsərində (c-2, s-230-291) belə nümayəndə heyətlərinin yetmiş ikisi barədə məlumat vermişdir. Nümayəndə heyətlərinin Mədinəyə axını onu göstərir ki, artıq hicrətin doqquzuncu ilində müşrik ərəblərin etibarlı bir sığınacaq yeri qalmamışdır. Əks təqdirdə hamı oraya toplaşıb müsəlmanlara müqavimət göstərərdi.

Minada oxunmuş qətnamədən dörd ay keçməmiş bütün Hicaz əhalisi İslam bayrağı altında birləşir. Hicazın heç bir yerində bircə dənə də olsun bütxana qalmır. Hətta Yəmən, Bəhreyn və Yəmamə əhalisinin də bir hissəsi İslamı qəbul edir.

### *Peyğəmbərə(s) sui-qəsd cəhdi*

Ərəb qəbilələri arasında Bəni-Amir qəbiləsi də öz inadkarlığı ilə seçilirdi. Qəbilə başçılarından Amir, Ərbəd və Cabbar adlı üç nəfər qəbilənin nümayəndə heyəti tərkibində Mədinəyə gedərək Peyğəmbəri(s) qətlə yetirmək qərarına gəlirlər. Hazırlanmış plana əsasən Amir, Peyğəmbərlə(s) söhbət edən zaman Ərbəd, qılıncla o həzrətə zərbə endirməli idi. Nümayəndə heyətinin digər üzvlərinin

---

[1] Ricali Tusi, s-39

bundan qətiyyən xəbərləri yox idi. Onlar Peyğəmbərə(s) öz sədaqətlərini göstərsələr də Amir heç bir vəchlə buna razı olmur və ara-sıra həzrətə deyirdi ki, mən səninlə təklikdə danışmaq istəyirəm. Bu cümləni deyərkən dərhal Ərbədə baxırdı. Lakin Ərbədin heç bir reaksiya göstərmədiyini görürdü. Peyğəmbər(s) isə öz növbəsində ona buyururdu ki, sən İslamı qəbul etməyincə istəyinlə razılaşan deyiləm. Hazırlanmış planın Ərbəd tərəfindən icra ediləcəyindən ümidini kəsən Amir işin baş tutmayacağına əmin olur. Sanki Ərbəd hər dəfə Peyğəmbərə(s) qılınc qaldırmaq istədikdə həzrətin əzəməti vahiməsi onu bu işi görməkdən yayındırırdı. Axırda Amir yerindən qalxıb Peyğəmbərə(s) olan düşmənçiliyini büruzə verərək deyir ki, Mədinəni sənə qarşı çıxanlarla dolduracağam. Peyğəmbər(s) Amirin bu sözünü özünəməxsus həlimliklə qarşılayıb ona heç nə demir. Allahdan o iki nəfərin şərrini ondan uzaq etməsini diləyir. Xoşbəxtlikdən elə belə də olur. Çox çəkmir ki, Amir geri dönərkən yolda taun xəstəliyinə tutularaq Bəni-Səlluldan olan bir qadının evində canını tapşırır. Ərbədi isə yolda şimşək yandırır. Bu iki bədbəxt hadisə Peyğəmbərin(s) düşmənlərinə ibrət dərsi olur və Bəni-Amirin Peyğəmbərə(s) olan münasibətini səmimiləşdirir.[1]

### *Əmirəl-möminin Əlinin(ə) Yəmənə ezam edilməsi*

Hicaz əhalisinin İslamı qəbul etməsilə Peyğəmbər(s) ərəb qəbilələri sarıdan arxayınlaşır. Bundan istifadə edib Hicazla qonşu olan ölkələrin əhalisini də İslama cəlb etmək məqsədilə Peyğəmbər(s) ilk dəfə olaraq seçilmiş səhabələrindən Məaz ibn Cəbəli Yəmənə göndərir ki, gedib orada İslamı təbliğ etsin. Həzrət Məaza öz tövsiyələrini verərkən buyurur: «Camaata qarşı çox sərt olma! Allahın imanlı şəxslərə verdiyi müjdələri onlara çatdır. Yəmən-xaçpərəst və yəhudiləri səndən Cənnətin açarının nədə olduğunu soruşduqda de ki, Cənnətin açarı Allahın təkliyinə və şəriki olmadığını etiraf etməkdədir.»

Məaz ibn Cəbəl Quran hökmlərini çox yaxşı bilməsinə rəğmən ondan ərin arvad üzərindəki hüquqları barədə soruşulmuş suala qane

[1] Sireyi İbn Hişam, c-2, s-568-569

edici cavab verə bilmədiyinə görə[1] Peyğəmbər(s) ən seçilmiş səhabəsi Əlini(ə) oraya göndərmək qərarına gəlir. Əlinin(ə) Yəmənə ezam edilməsindən bir qədər qabaq Xalid ibn Vəlid də bir dəstə ilə Yəmənə göndərilmişdi.[2] Lakin Yəməndə olduğu müddət ərzində Xalid heç nə ilə yadda qalmamışdı. Buna görə də Peyğəmbər(s) Əlini(ə) yanına çağırıb buyurur ki, Əli, səni Yəmənə göndərirəm. Get Allahın hökmlərini, halal-haramını oranın əhalisinə başa sal! Mədinəyə qayıdarkən Nəcran əhalisinin ödəməli olduğu cizyəni də topla gətir! Əli(ə) bunu eşitdikdə son dərəcə təvazökarlıqla cavab verir ki, mən ömrümdə bu vaxtadək hakimlik etməmişəm. Peyğəmbər(s) əlini onun sinəsinə qoyaraq: «İlahi, Əlinin qəlbini həmişə haqqa yönəlt, sözünün kəsərini artır!»-deyə dua edərək buyurur: «Çalış kiməsə qarşı zordan istifadə etməyəsən, camaatı məntiqlə, dəlil-sübutla haqqa yönəlt. And olsun Allaha, sənin vasitənlə bir nəfərin haqqa qovuşması dünyada olan hər şeydən üstündür.» Sonda Peyğəmbər(s) Əliyə(ə) dörd dəyərli məsləhət verir:

1) Heç vaxt dua etməyi unutma. Çünki əksər dualar qəbul edilir.

2) İstənilən halda şükr et. Çünki şükr etmək nemətlərin artmasına səbəb olur.

3) Kiminləsə əhd-peyman bağladıqda ona sadiq qal.

4) Camaata qarşı hiylə işlətməkdən uzaq ol. Çünki hiyləgərin hiyləsi onun özünə qayıdır.

Əli(ə) Yəməndə olduğu müddət ərzində çox maraqlı mühakimələr yürütmüşdür ki, bir çoxu tarix və hədis kitablarında öz əksini tapmışdır.

Peyğəmbər(s) Əlini Yəmənə ezam edərkən ona bir məktub da verib buyurur ki, onu yəmənlilər üçün oxuyarsan. Yəməndə Əlini(ə) addım-addım müşayiət etmiş Bərra ibn Azib deyir: «Əli Yəmən torpağına qədəm basdıqda Xalid ibn Vəlidin tabeçiliyində olan İslam əsgərlərinin sıralarını səliqə-sahmana salır. Sübh namazını onlarla birlikdə qılır. Sonra Peyğəmbərin(s) məktubunu dinləmək üçün Yəmənin ən böyük qəbiləsi olan Həmdan qəbiləsinin adamlarını bir yerə toplayır. Allaha həmd-səna edib Peyğəmbərin(s) məktubunu oxuyur. Peyğəmbərin sözlərindəki

[1] Sireyi İbn Hişam, c-2, s-590

[2] Səhihi Buxari, c-5, s-163

əzəmət, Əlinin gözəl bəyanı Həmdan qəbiləsini elə təsirləndirir ki, həmin gün hamı İslamı qəbul edir. Əli(ə) bu barədə məktub yazıb Peyğəmbəri(s) xəbərdar edir. Bundan xəbər tutan Peyğəmbər(s) həddən artıq sevinib şükr səcdəsi yerinə yetirir. Səcdədən başını qaldırıb buyurur ki, eşq olsun Yəmən xalqına!»

Həmdan qəbiləsinin İslamı qəbul etməsi tədricən bütün yəmənlilərin müsəlman olmasına gətirib çıxarır.[1]

***Peyğəmbərin(s) vida həcci***

İslam ayinləri arasında kollektiv şəkildə icra edilən ən böyük ayin həcc mərasimidir. Çünki ildə bir dəfə keçirilən bu mərasim müsəlmanların vəhdəti, birləşməsi üçün ən gözəl fürsətdir. Biz müsəlmanların indi bu fürsətdən layiqincə yararlana bilməməyimiz qanunun qüsuru deyil, müsəlmanların öz qüsurudur.

İbrahim(ə) peyğəmbər Kəbəni yenidən tikib başa çatdırdıqdan sonra ora həmişə ibadət edənlərin ziyarətgahına çevrilmişdir. Hər il Ərəbistan yarımadasının müxtəlif bölgələrindən Məkkəyə axışan camaat İbrahimdən(ə) yadigar qalan həcc əməllərini yerinə yetirmişlər. Lakin bəzi səbəblər-Qüreyş qəbiləsinin təkəbbürü, Hicaz əhalisinin uzun müddət peyğəmbərsiz qalması, camaatın bütlərə ibadət etməsi üzündən həcc əməlləri müəyyən təhriflərə uğramış, əsl mahiyyətindən uzaq düşmüşdü. Məhz bu amillərə görə Allahın əmri ilə hicrətin onuncu ilində Peyğəmbər(s) həcc ziyarətində şəxsən iştirak etmək qərarına gəlir ki, təhrifə məruz qalmış əməlləri camaata doğru-dürüst, özü də əyani şəkildə başa salsın. Deməli, Peyğəmbərin(s) bu səfəri siyasi-ictimai xarakterdən daha çox maarifləndirmə xarakteri daşımışdır.

Peyğəmbərin(s) göstərişi ilə hicrətin onuncu ili, zilqədə ayında Mədinə və ətraf bölgələrdə elan edilir ki, bu il Peyğəmbər həcc ziyarətində iştirak edəcək. Bu xəbərdən həvəslənən minlərlə müsəlman Mədinə ətrafında çadır qurub həzrətin hərəkət etməsini gözləməyə başlayır.[2] Peyğəmbər(s) Mədinədə Əbu Dəcanəni öz yerinə canişin təyin edib zilqədə ayının 26-da altmış başdan artıq qurbanlıqla Məkkəyə

---

[1] Əl-Kamilu fit-tarix, c-2, s-305; Biharul-ənvar, c-21, s-360-363

[2] Sireyi Hələbi, c-3, s-289

doğru hərəkət edir. Zülhüleyfə məntəqəsinə yetişdikdə Şəcərə məscidində ehram bağlayır. Ehramı bağlayan kimi ehram duasını (ləbbeyk, əllahummə ləbbeyk...) oxuyur. Hər hansı bir süvari ilə rastlaşdıqda, enişdən enib yoxuşa qalxdıqda bir daha ləbbeyk deyirdi. Məkkəyə yaxınlaşdıqda daha həmin duanı oxumur. Zilhəccə ayının dördündə Məkkəyə daxil olub birbaşa Məscidül-hərama gedir. Allaha həmd-səna edərək və İbrahimə(ə) salam göndərərək Bəni-Şeybə qapısından Məscidül-hərama daxil olur. Təvaf etməyə başlamazdan öncə Həcərül-əsvədin (Qara daşın) qarşısında dayanıb əlini ona sürtür. Sonra Kəbənin ətrafına yeddi dəfə fırlanır. Təvafı bitirib Məqami-İbrahimin arxa tərəfində iki rükət təvaf namazı qılır. Sonra Səfa və Mərvə arasında yeddi dəfə o tərəf-bu tərəfə gedib-gəlməklə səy əməlini yerinə yetirir. Sonra üzünü səhabələrə tutub buyurur: «Özü ilə qurbanlıq gətirməyənlər, başının tükündən və ya dırnağından bir qədər qısaltmaqla ehramdan çıxsınlar. Ehramda olarkən haram sayılan bütün işlər onlar üçün halal olur. Özü ilə qurbanlıq gətirənlər isə qurbanı kəsənədək ehramda qalmalıdırlar.» Peyğəmbərin(s) bu sözü bəzi səhabələrə ağır gəlir. Onlar deyirlər ki, Peyğəmbər(s) ehramda ola-ola bizim ehramdan çıxmağımız, bəzi şeylərin Peyğəmbərə haram olduğu halda bizə halal olması yaramaz. Daha sonra Peyğəmbər(s) bəzi səhabələrin ehramdan çıxmaqdan ötrü tərəddüd etməsindən narahat olub buyurur: «Gələcəkdə nə olacağını bilsəydim, sizin dediklərimə bu cür tərəddüd edəcəyinizdən xəbərdar olsaydım, Mədinədən çıxarkən sizin kimi mən də özümlə qurbanlıq götürməzdim. Ancaq nə edim ki, qurbanlıq götürmüşəm və Allahın əmrinə əsasən Minada qurbanı kəsənədək ehramda qalmalıyam. Lakin özü ilə qurbanlıq gətirməyənlər ehramdan çıxsınlar. Onların bu əməli ümrə sayılır, böyük həcc üçün yenidən ehram bağlayarlar.»[1]

### *Əlinin(ə) Yəməndən geri qayıtması*

Peyğəmbərin(s) həcc ziyarətinə getməsindən xəbər tutan Əli(ə) digər müsəlmanlarla birlikdə, özü də 34 baş qurbanlıq heyvanla həcc ziyarətində iştirak etmək üçün geri qayıdır. Yolda nəcranlılardan cizyəni də toplayıb Mədinəyə doğru irəliləyir. Yarı yolda Əli(ə) dəstə başçılığını

---

[1] Biharul-ənvar, c-21, s-319

sərkərdələrdən birinə tapşırıb özü sürətlə Məkkəyə gedir. Məkkənin lap yaxınlığında Peyğəmbərə(s) çatır. Peyğəmbər(s) Əlini gördükdə çox sevinir və ondan hansı niyyətlə ehram bağladığını soruşur. Əli(ə) cavab verir ki, ehram bağlayarkən sizin bağladığınız niyyətlə ehram bağladım.[1] Özümlə qurbanlıq heyvanlar da gətirmişəm. Peyğəmbər(s) buyurur ki, onda sən də mənim kimi qurbanları kəsməyincə ehramda qalmalısan. Sonra da Əliyə(ə) göstəriş verir ki, geri qayıdıb öz dəstəsini də Məkkəyə gətirsin.

Əli(ə) dəstənin yanına qayıtdıqda görür ki, öz yerinə təyin etdiyi dəstə başçısı nəcranlıların verdiyi parçaların hamısını bölüşdürüb. Döyüşçülər də parçaları ehram adı ilə özlərinə bükmüşlər. Bundan narahat olan Əli(ə) dəstə başçısından soruşur ki, parçaları Peyğəmbərə(s) təhvil verməmiş nəyə görə onları döyüşçülər arasında bölüşdürmüsən? Dəstə başçısı cavab verir ki, döyüşçülər ehram bağlamaqdan ötrü parçaları müvəqqəti olaraq onlara verməyimi, ziyarətdən sonra yenidən geri almağımı xahiş etdilər. Əli(ə) onun belə bir ixtiyarı olmadığını bildirib parçaları hamıdan geri alır, səliqə ilə hamısını bir yerə toplayıb Məkkədə Peyğəmbərə(s) təhvil verir.

Ədalət tərəfdarı olmayıb hər şeyin öz istəkləri əsasında bölüşdürülməsini arzulayanlar Əlinin(ə) bu hərəkətindən Peyğəmbərə(s) şikayət edirlər. Peyğəmbər(s) isə səhabələrdən birinin vasitəsilə onlara çatdırır ki, Əli barədə pis söz deməyin. O, Allahın əmrini icra etmiş və bu işdə heç kəsdən çəkinməz, heç kimə yaltaqlanmaz.[2]

Ümrə əməlləri başa çatdıqdan sonra böyük həcc əməlləri başlayanadək Peyğəmbər(s) heç kəsin evində qalmaq istəmədiyi üçün Məkkənin kənarında onun üçün çadır qurulmasını tapşırır. Zilhəccə ayının səkkizi (həmin gün hacılar Məkkədən çıxıb Ərəfata gedirlər) Peyğəmbər(s) Ərəfata yola düşür. Lakin ayın doqquzu gün çıxanadək Minada qalır, gün çıxdıqdan sonra dəvəsini minib Ərəfata gəlib çadırının qurulduğu Nəmrə adlı yerdə dayanır. Elə dəvənin üstündə ikən tarixi xütbəsini oxuyur.

### *Peyğəmbərin(s) vida həccində buyurduğu xütbə*

---

[1] Əl-İrşad, s-92
[2] Biharul-ənvar, c-21, s-385

O gün Ərəfat çölü misli görünməmiş bir izdihamın şahidi idi. Hicaz əhalisi o vaxtadək belə izdiham görməmişdi. Hər tərəfdən tövhid sədaları ucalırdı. Bir-iki il bundan qabağadək müşriklərin mərkəzi sayılan yer əbədi olaraq müsəlmanların sərəncamına verilmişdi. Peyğəmbər(s) zöhr və əsr namazlarını yüz min səhabə ilə birlikdə qılır. Sonra dəvənin belinə qalxıb tarixi bir xütbə oxuyur. Səhabələrdən uca səsi olan bir nəfər Peyğəmbərin(s) sözlərini uzaqda olanlara çatdırırdı. Peyğəmbər(s) xütbəyə başlayıb buyurur: «Camaat! Dediklərimi yaxşı dinləyin, ola bilsin bir daha sizinlə burada görüşməyəm. Camaat! Qiyamət gününədək canınız, malınız bir-birinizə haramdır. (Yəni bir-birinizi öldürə, malını qarət edə bilməzsiniz.)» Həzrət dediklərini bir daha aydınlaşdırmaq üçün Rəbiə ibn Üməyyəyə buyurur: «Camaatdan soruş gör bu ay hansı aydır?» Hamı bir ağızdan cavab verir ki, bu ay haram aydır, bu ayda qan tökmək haram və qəti qadağandır. Həzrət, Rəbiəyə buyurur: «Onlara de ki, bu ay haram olduğu kimi canınız, malınız da əbədi olaraq bir-birinizə haramdır. Onlardan soruş gör bu yer nə yerdir?» Hamı bir ağızdan: «Bura qan tökməyin haram olduğu bir yerdir»-deyə cavab verdikdə həzrət, Rəbiəyə buyurur: «Onlara çatdır ki, bu yerdə qan tökmək haram olduğu kimi canınız və malınız da bir-birinizə haramdır. Onlardan soruş gör bu gün hansı gündür?» Hamı yenə də bir ağızdan: «Bu gün böyük həcc günüdür»-deyə cavab verdikdə Peyğəmbər(s) Rəbiəyə buyurur: «Onlara çatdır ki, bu günün toxunulmazlığı olduğu kimi canınız və malınız da toxunulmazdır.

Camaat! Cahiliyyət dövründə axıdılmış qanlar unudulmalıdır. Hətta İbn Rəbiənin (Peyğəmbərin qohumlarından biri) də qanı unudulmalıdır. Tezliklə hamınız Allahın hüzuruna qayıdacaq, orada yaxşı və pis əməllərinizə baxılacaqdır. Kimdə əmanət varsa, onu mütləq sahibinə çatdırmalıdır.

Ay camaat! İslam dinində sələm qəti qadağandır. Sələmçiliklə məşğul olanlar yalnız öz sərmayəsini geri ala bilər, nə artıq, nə də əskik almamalıdır. Abbasın İslamdan qabaq borclulardan artıq aldığı pul bu gün qüvvədən düşür. Ona artıq borcu olanların da borcu ləğv edilir.

Camaat! Şeytan burada itaət edilməsindən ümidini üzüb, kiçik və sadə işlərdə onun yolu ilə gedib şeytanı sevindirməyin. Şeytana itaətdən

çəkinin. Haram ayları artırıb-azaltmaq küfrdən başqa bir şey deyil. Haram ayı bir ildə haram, digər ildə isə halal saymaq Allahın halalını haram, haramını da halal etmək deməkdir. Allah dərgahında on iki ay vardır. Bunlardan dördü haramdır. Haram aylar zilqədə, zilhəccə məhərrəm və rəcəb aylarıdır.

Camaat! Qadınların kişilərin, kişilərin də qadınların boynunda haqqı vardır. Kişinin qadının boynunda haqqı odur ki, ərin razılığı olmadan evə kimisə buraxmasın və pis iş görməsin (pozğunluq eləməsin). Əks təqdirdə Allah sizə icazə verib ki, yataqlarınızı onlardan ayırıb onları ədəbləndirəsiniz. Səhvlərini başa düşdükdə yenidən yataqlarınızı birləşdirin.

Qadınlarla yaxşı davranmağı sizə tövsiyə edirəm. Onlar Allahın sizdə olan əmanətləridir. Onlar Allahın qanunları sayəsində sizə halal edilmişdir.

Ay Camaat! Dediklərimi yaxşı fikirləşin. Mən aranızda iki böyük əmanət qoyub gedirəm. Biri Allahın kitabı, digəri isə öz sünnəmdir. (Başqa hədislərdə Peyğəmbər(s) Əhli-beyti də əlavə etmişdir.) Bu iki şeydən möhkəm yapışsanız, heç vaxt yolunuzu azmazsınız.

Camaat! Dediklərimi dinləyib yaxşı-yaxşı düşünün. Müsəlman müsəlmanın qardaşıdır. Dünyadakı bütün müsəlmanlar bir-biri ilə qardaşdır. Müsəlmanın malı özü xoşluqla verməyincə digər müsəlmana haramdır.[1] Sözlərimi burada olmayanlara da çatdırın. Məndən sonra bir daha peyğəmbər gəlməyəcək. Siz müsəlmanlardan yaxşı ümmət yoxdur.[2]

Camaat, bu gündən etibarən Cahiliyyət dövründən qalmış ənənələr etibardan düşür.»[3]

Peyğəmbər(s) sözlərini bitirib şəhadət barmağı ilə göyə tərəf tutaraq buyurur ki, İlahi, Sənin dediklərini camaata çatdırdım. Sonra da «İlahi, Özün şahid ol!»-deyib xütbəni başa çatdırır.

Peyğəmbər(s) zilhəccənin doqquzu gün batana qədər Ərəfatda qalır. Günəş batıb hava bir qədər qaraldıqda dəvəsinə minib gecənin bir hissəsini Müzdəlifədə, digər hissəsini isə Məşərül-həramda keçirir.

---

[1] Sireyi İbn Hişam, c-2, s-605

[2] Əl-Xisal, c-2, s-84

[3] Biharul-ənvar, c-21, s-405

Onuncu gün (Qurban bayramı günü) Minaya daxil olur. Şeytanı daşlayıb qurban kəsdikdən sonra başının tükünü qısaldır. Həcc ziyarətinin digər əməllərini yerinə yetirmək üçün yenidən Məkkəyə qayıdır. Beləliklə də Peyğəmbər(s) həcc əməllərini camaata olduğu kimi öyrədir. Bəzi mənbələrdə Peyğəmbərin(s) bu səfəri vida həcci, bəzilərində təbliğ həcci, bəzilərində də İslam həcci adlandırılmışdır.

Sonda onu da qeyd etmək istərdik ki, ən mötəbər nəzəriyyəyə görə Peyğəmbər(s) yuxarıdakı xütbəni Ərəfə günündə buyurmuşdur. Bəzi mənbələrdə isə xütbənin Qurban bayramı günü oxunulduğu göstərilir.[1]

### *Dinin kamilləşməsi*

Şiə alimlərinin fikrincə xəlifəlik, imamət ən layiqli, ən bilikli, ən fəzilətli şəxsə verilən İlahi bir məqamdır. Peyğəmbər şəriət və kitab sahibi olduğu, ona vəhy gəldiyi halda imamda bu xüsusiyyətlər yoxdur. Lakin cəmiyyətə rəhbərlik etməklə yanaşı münasib fürsət olmadığı üçün Peyğəmbərin(s) açıqlamağa imkan tapmadığı məsələləri camaata açıqlamaq da məhz imamın öhdəsinə düşür. Deməli, İslam hökumətinə başçılıq etmək öz yerində, şəriətin qaranlıq qalan məsələlərini aydınlaşdırmaq da imamın vəzifəsidir. Lakin sünni məzhəbindən olan alimlər belə hesab edirlər ki, xəlifəlik məqamı adi bir vəzifədir. Siyasi, ictimai, iqtisadi işlərin idarə edilməsi üçün xəlifə camaat tərəfindən seçilir. Peyğəmbərin(s) dövründə açıqlamağa imkan olmayan məsələlərin həlli isə İslam alimlərinin öhdəsinə düşür. Məhz bu fikir ayrılığı müsəlmanların iki hissəyə parçalanmasına gətirib çıxarır və təəssüflər olsun ki, bu ayrılıq indiyədək davam edir. Birinci fikrə (yəni, şiələrin fikrinə) əsasən imam bəzi cəhətlərdə peyğəmbərlə şərikdir. Bunlar aşağıdakılardır:

1) Peyğəmbər mütləq məsum olmalıdır. Yəni, həyatı boyu günaha düşməməli, dini qanunları camaata çatdırarkən, insanların suallarına cavab verərkən xətaya yol verməməlidir. Bu baxımdan imam da mütləq bu xüsusiyyətə malik olmalıdır.

2) Peyğəmbər şəriəti hamıdan gözəl bilməli, şəriətin heç bir məsələsi ona qaranlıq qalmamalıdır. İmam da peyğəmbərin davamçısı olduğu üçün mütləq belə olmalıdır.

---

[1] Ət-Təbəqatul-kubra, c-2, s-184

3) Peyğəmbərlik vəzifəsinə seçilən şəxs Allah tərəfindən təyin edilməlidir. Çünki insanın məsum-günahsız olub-olmadığını yalnız Allah bilər. Və eləcə də şəriətin bütün sahələrini kimin yaxşı bildiyini yalnız Allah bilə bilər.

Bu üç şərtin hər üçü peyğəmbərdə olduğu kimi, imamda da mövcud olmalıdır. Bəzi məzhəblərə görə isə peyğəmbərlik üçün tələb olunan şərtlərin heç biri xəlifəlikdə tələb olunmur. Onun Allah tərəfindən təyin edilməsi də önəmli deyil. İslam hökumətini qorumaq, ölkənin təhlükəsizliyini təmin etmək, lazım gəldikdə yeni fəthlər üçün cihad əmri verməkdə xəlifənin öz düşüncələrinə əsaslanması və yeri gəldikdə müsəlmanlarla məsləhətləşməsi kifayət edər.

Biz imam və xəlifənin Allah tərəfindən təyin edilib-edilməməsinin, Peyğəmbərin(s) canişinini təyin etməyin o həzrətin öz öhdəsindəmi, yoxsa camaatın səlahiyyətində olub-olmadığını bir sıra ictimai hesablamalara əsasən araşdırmağa çalışacağıq. Ondan sonra aşkar şəkildə görəcəyik ki, mövcud şərait Peyğəmbərdən(s) sonra canişin təyin edilməsinin elə Peyğəmbərin(s) sağlığında həll olunmasını və bu işin ümmətin ixtiyarına buraxılmamasını tələb edirdi.

***Canişinlik məsələsində ictimai araşdırma***

İslam dininin ümumbəşər və sonuncu din olmasında qətiyyən şübhə yoxdur. Peyğəmbər(s) özü sağ olduğu müddət ərzində müsəlmanlara şəxsən başçılıq etmişdir. Onun vəfatından sonra isə rəhbərlik ən layiqli şəxsə tapşırılmalıdır. Peyğəmbərdən(s) sonra müsəlmanlara rəhbərlik edəcək şəxsin Allah tərəfindənmi təyin edilməsinin, yoxsa camaat tərəfindən seçilməsinin doğru olmasında iki müxtəlif fikir mövcud olduğunu qeyd etdik. Bir daha xatırladaq ki, şiələrin fikrincə Peyğəmbərdən sonra ümmətə rəhbərlik edəcək şəxs Allah tərəfindən təyin edilməlidir. Sünnilər isə belə hesab edirlər ki, başçını camaat özü seçməlidir. Peyğəmbərin(s) ömrünün son vaxtlarındakı şəraiti təhlil edərkən bu fikirdən birinin düzgün olduğu ortaya çıxır.

Peyğəmbər dönəmində İslam hökumətinin daxili və xarici siyasəti Peyğəmbərin(s) vasitəsilə Allah tərəfindən o həzrətdən sonra layiqli

canişin təyin edilməsini tələb edirdi. Çünki həmin ərəfədə təzəcə qurulmuş İslam dövləti üç müxtəlif istiqamətdən-Bizans və İran imperiyaları, eləcə də münafiqlər tərəfindən təhlükə ilə üzbəüz idi. Müsəlmanlar arasında parçalanma yaranmasın və onlar üç əsas düşmənə qarşı vahid hakimiyyət altında birləşsinlər deyə, onlar üçün dini-siyasi lider təyin edilməsi zəruri idi. Məhz belə olan halda müsəlmanlar onlara yönəlmiş təhlükələri dəf edə bilərdilər.

Müsəlmanları hədələyən təhlükələrdən biri də Bizans imperiyası idi. Ərəbistan yarımadasından Şimalda yerləşən bu imperiya Peyğəmbəri(s) həmişə qayğılandırırdı. O həzrət ömrünün son anınadək bu haqda fikirləşmişdir. Müsəlmanlarla xaçpərəst bizanslılar arasında ilk qarşıdurma hicrətin səkkizinci ilində Fələstin torpaqlarında baş vermişdir. Həmin döyüş (Mutə döyüşü) İslam ordusunun üç böyük sərkərdəsi-Cəfər Təyyar, Zeyd ibn Harisə və Abdullah ibn Rəvahənin şəhid, müsəlmanların arzuolunmaz məğlubiyyəti ilə nəticələnmişdi. Bu döyüşdə müsəlmanların geriləməsi Bizans ordusunu cürətləndirmişdi. Onların istənilən an İslam mərkəzinə-Mədinəyə hücum etməsi mümkün idi. Buna görə də Peyğəmbər(s) hicrətin doqquzuncu ilində böyük bir ordu ilə Şam sərhədlərinə doğru yürüşə çıxır. Böyük çətinliklərlə müşayiət olunan bu yürüş müsəlmanların siyasi nüfuzunu özünə qaytarır. Bu nisbi üstünlük Peyğəmbəri(s) qane edə bilməzdi. Buna görə də həzrət vəfatından bir neçə gün qabaq İslam ordusunu Üsamə ibn Zeydin başçılığı ilə Şam sərhədlərinə doğru göndərir.

İslam dövlətini hədələyən ikinci təhlükə İran imperiyası tərəfindən idi. Sasani imperatoru Xosrov Pərviz hələ ilk gündən Peyğəmbərə(s) qarşı öz ədavətini biruzə vermiş, həzrətin ona göndərdiyi məktubu cıraraq qasidi də təhqiramiz şəkildə saraydan qovmuşdu. Yəmən valisinə də məktub yazaraq tapşırmışdı ki, Peyğəmbəri həbs etsin, təslim olmaq istəmədiyi halda qətlə yetirsin.

Xosrov Pərviz, Peyğəmbərin(s) vaxtında ölsə də, növbəti Sasani hökmdarları uzun müddət müstəmləkələrində olmuş Yəmənin İslam dövlətinin tabeçiliyinə keçməsi ilə razılaşa bilməzdilər.

İslam dövlətini hədələyən üçüncü təhlükə isə müsəlmanların öz içərisində idi. Yəqin ki, söhbətin münafiqlərdən getdiyi məlumdur.

Onlar təhlükə baxımından heç də xarici düşmənlərdən geri qalmırdılar. Hətta Təbukdan Mədinəyə qayıdarkən Peyğəmbərə(s) qarşı sui-qəsd də törədəcəkdilər. Peyğəmbərin(s) ömrünün son anlarında onlardan bəzisi bir-birinə deyirdi ki, Peyğəmbərin ölümü ilə hər şey alt-üst olacaq və hamımızın canı dincələcək.[1]

Peyğəmbərin(s) vəfatından sonra Əbu Süfyan hiyləyə əl atır. Belə ki, Əliyə(ə) beyət etmək fikri ilə müsəlmanları parçalamaq istəyir. Ancaq Əli(ə) onun bu hiyləsini çox yaxşı anlayır, onun beyətini qəbul etməyərək buyurur: «And olsun Allaha, sənin fitnə yaratmaqdan başqa məqsədin yoxdur. Bu fikrin indinin işi deyil, sən həmişə bu fikirdə olmusan. Mənim sənin beyətinə ehtiyacım yoxdur.»[2]

Quran, münafiqlərin mənfur niyyətləri barədə Ali-İmran, Nisa, Maidə, Ənfal, Tövbə, Ənkəbut, Əhzab, Mühəmməd, Fəth, Mücadələ, Hədid, Munafiqun və Həşr surələrində məlumat vermişdir.

Belə təhlükəli düşmənlərin olduğu bir vaxtda Peyğəmbərin(s) özündən sonra yeni qurulmuş hökumət üçün bir başçı təyin etməməsini qəbul etmək olarmı? Bütün bunlar onu göstərir ki, müsəlmanları düşmən qarşısında birləşdirmək üçün Peyğəmbər özündən sonra mütləq canişin təyin etməli idi. Məhz bu yolla özündən sonra baş verə biləcək hərc-mərcliyin qarşısını almaq olardı.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, deməli, Peyğəmbərin(s) canişinini seçmək hüququ xalqın ixtiyarında olmamışdır. Bəlkə də elə buna görə Peyğəmbər(s) hələ peyğəmbərliyin ilk günlərindən başlayaraq ömrünün sonuna kimi müxtəlif vaxtlarda özündən sonrakı canişin məsələsinə toxunmuşdur.

### *1 Peyğəmbərliklə imamət bir-birindən ayrılmaz*

Peyğəmbərdən(s) bizə gəlib çatmış hədislər də İslam ümmətinə rəhbərlik edəcək şəxs barədə şiələrin nəzəriyyəsinin doğru olduğunu təsdiqləyir. O həzrət dəfələrlə canişinlik məsələsinə toxunmuş, özündən sonra canişini olacaq şəxsi cəmiyyətə təqdim etməklə bu işin camaatın seçimindən kənar olduğunu çatdırmışdır. O, bunu yalnız ömrünün

[1] Tur surəsi, ayə-30

[2] Əl-Kamilu fit-tarix, c-2, s-220; əl-İqdul-fərid, c-2, s-249

sonlarında deyil, hətta peyğəmbərliyə təzə başladığı vaxtda da çatdırmışdır. Onda hələ o həzrətə iman gətirənlərin sayı yüzü keçməmişdi. Allah-taala Peyğəmbərə(s) yaxın qohumlarını İslama dəvət etməsini əmr etdikdə həzrət Bəni-Haşimdən olan 45 nüfuzlu şəxsin iştirak etdiyi məclisdə buyurmuşdu ki, aranızdan məni dəstəkləyəcək ilk şəxs canişinim olacaq. Əli(ə) bu çağrışa müsbət cavab verdikdə Peyğəmbər(s) buyurur ki, bu gənc mənim qardaşım və canişinimdir.[1]

Bu hədis təfsir və hədis nümayəndələri arasında Yəvmud-dar hədisi kimi tanınmışdır.

Bu sahədə xeyli sayda hədislər arasında daha əhəmiyyətlisi Qədir-xum hədisidir.

### *2 Qədir-xum əhvalatı*

Həcc mövsümü başa çatır. Həcc əməllərini Peyğəmbərdən(s) öyrənib ziyarəti başa vuran müsəlmanlar öz vətənlərinə qayıtmağa hazırlaşırlar. Təbii ki, Peyğəmbər(s) də Mədinəyə dönmək qərarına gəlir. Karvan hərəkətə gəlir. Cöhfə yaxınlığındakı Qədir-xum (Rabiğ) adlı yerdə Cəbrail nazil olub aşağıdakı ayəni Peyğəmbərə(s) çatdırır: ***«Ey Peyğəmbər, Rəbbin tərəfindən sənə nazil olanı çatdır! Əgər (bunu) etməsən, (elə bil ki,) Onun (heç bir) tapşırığını çatdırmamısan. Allah səni insanlardan (onların fitnə və şərindən) qoruyacaq. Şübhəsiz, Allah kafirlərin dəstəsini hidayət etməz.»***[2]

Ayənin məzmunundan məlum olur ki, Allah-taala bu ayədə çox məsuliyyətli bir işi Peyğəmbərə(s) əmr edir. Doğrudan da yüz min nəfərin gözü qabağında Əli ibn Əbutalibi canişin olaraq təyin etmək həddən artıq məsuliyyətli bir işdir. Cəbrail(ə) nazil olan kimi Peyğəmbər(s) karvanın dayanmasını əmr edir. İrəli gedənlər geri qaytarılır, geridə qalanlar isə gəlib çatırlar. Günorta hava həddən artıq isti idi. Camaat əbasının yarısını altına sərmiş, yarısı ilə də başı üzərində kölgəlik qurmuşdu. Camaatla birlikdə günorta namazını qılan Peyğəmbər(s) dəvələrin kəcavəsindən qurulmuş minbərə qalxıb uca səslə xütbə oxudu.

### *Peyğəmbərin(s) Qədir-xumda buyurduğu xütbə*

---

[1] Tarixi Təbəri, c-2, s-216

[2] Maidə-67

«Həmd-səna Allaha məxsusdur. Yalnız Ondan kömək diləyir, imanımız, təvəkkülümüz yalnız Onadır. Bütün pis əməllərdən Ona sığınırıq. Allahın hidayət etdiyi şəxsi heç kim yolundan azdıra bilməz. Etiraf edirəm ki, Ondan başqa tanrı yoxdur və Mühəmməd də Onun bəndəsi, elçisidir.

Camaat, tezliklə mən sizdən ayrılıb Allahın dərgahına qovuşacağam. Əməllərimə görə mən də məsuliyyət daşıyıram, siz də öz əməllərinizə görə məsuliyyət daşıyırsınız. Mənim barəmdə nə fikirləşirsiniz?» Bu vaxt hamı bir ağızdan: «Sənin öz vəzifəni layiqincə yerinə yetirdiyinə şahidik. Allah sənə xeyir versin!»-deyə cavab verir. Peyğəmbər(s) buyurur: «Allahın təkliyinə, Mühəmmədin Onun bəndəsi və peyğəmbəri olduğuna, Cənnət və Cəhənnəmin, axirət dünyasının olmasına etiraf edirsinizmi?» Hamı bir ağızdan: «Bəli, etiraf edirik.»-deyə cavab verir. Həzrət buyurur: «Mən sizin aranızda iki dəyərli əmanət qoyub gedirəm. Görüm məndən sonra o iki əmanətlə necə davranacaqsınız.» Bu vaxt səhabələrdən biri uca səslə soruşur ki, ya Rəsuləllah, bu əmanətdən məqsədiniz nədir? Həzrət buyurur: «Onlardan biri Allahın kitabı, digəri isə mənim Əhli-beytimdir. Allah bu iki şeyin bir-birindən ayrılmayacağını mənə xəbər vermişdir.

Camaat! Heç vaxt Quran və Əhli-beytimdən qabağa keçməyin, onların yolundan da kənara çıxmayın, yoxsa məhv olarsınız.» Bunu deyən Peyğəmbər(s) Əli ibn Əbutalibin qolundan tutub o qədər qaldırır ki, hər ikisinin qoltuğunun altı görünür. Sonra camaatdan soruşur ki, möminlərə özlərindən də daha yaxın olan kimdir? Hamı: «Allah və Peyğəmbəri daha yaxşı bilər»-deyə cavab verir. Peyğəmbər(s) buyurur: «Allah mənim mövlam, mən də möminlərin mövlasıyam. Mən möminlərə özlərindən daha yaxınam. Camaat, mən kimin mövlasıyamsa, bu Əli də onun mövlasıdır! İlahi, Əli ilə dost olana dost, düşmən olana düşmən ol! Onu sevəni sev, ona nifrət edənə nifrət et! Ona kömək edənə kömək, onu xar edəni xar et! Onu həmişə haqqın ətrafında qərar ver!»

Qədir-xum hadisəsi tarixə əbədi olaraq həkk edilmişdir. Çünki Allah-taala onun həmişə yaşamasını istəmişdir. Məhz bunun nəticəsidir ki, təfsir, tarix, sxolastika və digər sahələrdə əsərlər yazan müəlliflər bu hadisəyə geniş yer verir, natiqlər öz çıxışlarında onun barəsində uzun-uzadı danışırlar. Hətta bundan ilham alan şairlər də hadisə ilə bağlı şeir deməklə imamət məktəbinə olan sədaqətini nümayiş etdirirlər. Tarixdə müxtəlif

xalqların nümayəndələrinin Qədir-xum hadisəsinə diqqət yetirdiyi qədər çox az hadisəyə rast gəlmək olar. Hadisəyə bu qədər önəm verilməsinin və həmçinin onun əbədi olaraq tarixin yaddaşına düşməsinin əsas səbəblərindən biri onunla əlaqədar iki Quran ayəsinin nazil olmasıdır.[1] Quran yaşadıqca Qədir-xum hadisəsi də yaşayacaqdır. Müsəlman xalqlarının, xüsusilə də şiələrin Qədir-xum gününü bayram günü kimi qeyd etməsi isə həmin günə daha da rəng qatır ki, bu da onun heç vaxt yaddaşlardan silinməyəcəyini göstərir.

Tarixə müraciət etdikdə zilhəccə ayının on səkkizinin Qədir-xum günü kimi tanındığının şahidi oluruq. İbn Xəlikan yazır ki, Müstəla ibn Müstənsər hicrətin 487-ci ili, Qədir-xum günündə xilafət kürsüsünə yiyələnir.[2]

Müstənsər Billah əl-Übeydi haqqında isə yazır ki, o, hicrətin 487-ci ili, Qədir-xum günündə vəfat etmişdir.[3]

Əbu Reyhan Biruni əl-Asarul-baqiyə əsərində Qədir-xum bayramını müsəlmanların əsas dini bayramlarından olduğunu qeyd etmişdir.[4] Səalibi də Qədir-xum gününü bütün müsəlmanların bayramı olduğunu bildirmişdir.[5]

Qədir-xum günündə Peyğəmbər(s) bütün səhabələrə, eləcə də öz xanımlarına göstəriş verir ki, Əlinin yanına gedib onu canişin seçilməsi münasibəti ilə təbrik etsinlər. Zeyd ibn Ərqəm deyir: «Müsəlmanlar dəstə-dəstə gəlib, Əliyə beyət edib ona təbrik deyirlər. Beyət mərasimi günbatanadək davam edir.»

Qədir-xum hadisəsinin əhəmiyyətini artıran məqamlardan biri də odur ki, hadisə 110 səhabənin dilindən nəql edilmişdir. Bu rəqəm yalnız sünni mənbələrində adı çəkilən səhabələrə aiddir. Hadisə baş verən zaman orada iştirak edən minlərlə səhabə də var idi ki, Hicazın müxtəlif bölgələrində yaşadığı üçün onlardan hədis nəql edilməmişdir. Bəziləri

---

[1] Maidə surəsinin 3 və 67-ci ayələri
[2] Vəfəyatül-əyan, c-1, s-60
[3] Vəfəyatül-əyan, c-2, s-223
[4] əl-Asarul-baqiyə, s-395
[5] Simarul-qulub, s-511

isə hədisi nəql etsə də tarixdə öz əksini tapmamışdır. Tarixdə yazılıbsa da sonrakı nəsillərə gəlib çatmamışdır.

Hicrətin ikinci əsrində Qədir-xum hədisini səksən doqquz nəfər nəql etmişdir. Sonrakı əsrlərdə isə Qədir-xum hədisini nəql edənlərin hamısı sünni alimləri olmuşdur. Onlardan 360 nəfəri həmin hədisi öz əsərlərində qeyd etmiş, bir çoxları da hədisin düzgünlüyünü etiraf edərək onu təsdiqləmişdir.

Hicri üçüncü əsrdə 92, dördüncü əsrdə 43, beşinci əsrdə 24, altıncı əsrdə 20, yeddinci əsrdə 21, səkkizinci əsrdə 18, doqquzuncu əsrdə 16, onuncu əsrdə 14, on birinci əsrdə 12, on ikinci əsrdə 13, on üçüncü əsrdə 12, on dördüncü əsrdə isə 20 alim Qədir-xum hədisini öz əsərlərində nəql etmişdir.

Bəzi alimlər təkcə hədisi nəql etməklə kifayətlənməmiş, eyni zamanda hədisin mənbəyi və məzmunu haqqında da ətraflı araşdırma aparmış, bu haqda ayrıca kitab yazmışdır. Böyük İslam tarixçisi Təbəri bununla əlaqədar olaraq «əl-Vilayətu fi turuqi hədisil-Qədir» adlı bir kitab yazmış və Qədir-xum hədisini 72 müxtəlif vasitə ilə Peyğəmbərə(s) isnad etmişdir. İbn Üqdə Kufi Vilayət adlı traktatında haqqında danışılan hədisi 105, Əbu Bəkr Məhəmməd ibn Ömər Bağdadi isə 25 mənbədən qeyd etmişdir.

Hədis toplayanlardan Əhməd ibn Hənbəl Şeybani bu hədisi 40, İbn Həcər Əsqəlani 25, Cəzəri Şafei 80, Əbu Səid Sicistani 120, Əmir Məhəmməd Yəməni 40, Nisai 250, Əbu Əla Həmədani 100, Əbu İrfan Həbban isə 30 mənbəyə istinadən nəql etmişdir.

Qədir-xum hadisəsi barədə 26 nəfər ayrıca kitab yazmışdır.[1]

Şiə müəllifləri də bu hadisə ilə bağlı çox dəyərli əsərlər yazmışlar ki, onlardan mərhum Əllamə Əmininin qələmə aldığı əl-Qədir kitabı xüsusi əhəmiyyətə malikdir.

Peyğəmbər(s) Əlini(ə) canişin olaraq camaata təqdim etdikdən sonra buyurur: «Camaat! Elə indicə vəhy mələyi nazil olub mənə bu ayəni gətirdi: ***«Bu gün sizin dininizi tamamlayıb sizə olan nemətimi kamilləşdirdim və sizin üçün din olaraq İslamı bəyənib seçdim.»***[2]»

---

[1] Bütün statistik rəqəmlər əl-Qədir kitabının 1-ci cildindən götürülmüşdür.

[2] Maidə-3

Ayəni bitirib təkbir (Allahu əkbər) deyən Peyğəmbər(s) daha sonra buyurur: «Dinini tamamlayıb nemətini kamilləşdirdiyi, Əli ibn Əbutalibin məndən sonra canişin seçilməsinə razı olduğu üçün Allaha şükürlər olsun!» Bütün bunları çatdırdıqdan sonra Peyğəmbər(s) qalxdığı minbərdən aşağı enərək Əliyə tapşırır ki, müsəlmanların beyət və təbriklərini qəbul etmək üçün xüsusi bir çadırda əyləşsin. Fürsətdən istifadə edən Həssan ibn Sabit, Peyğəmbərdən(s) icazə alıb bu münasibətlə bir neçə beyt şeir deyir. Həssanın şeirindən iki beytini nümunə olaraq diqqətinizə çatdırırıq:

Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır.
Onu səmimi-qəlbdən sevib ardıcıllarından olun!

Qədir-xum hadisəsi və hədisi tarixdə Əli ibn Əbutalibin bütün səhabələrdən üstün olduğunu göstərən bir faktdır. Bunu Əli(ə) ikinci xəlifənin vəfatından sonra yeni xəlifə seçmək üçün təşkil edilmiş şurada özü də vurğulamışdır. Bir çox tanınmış səhabələr də məhz bu hədislə Əlinin(ə) haqqını inkar edənləri susdurmuşdur.

***Peyğəmbərlik iddiası edənlər***

Qədir-xum məntəqəsində Əli ibn Əbutalibin(ə) canişinliyə təyin edilməsi mərasimi başa çatdıqdan sonra karvanda olan misirli və şamlı zəvvarlar Peyğəmbərlə(s) vidalaşıb öz vətənlərinə yola düşürlər. Həzrəmovt və Yəməndən gəlmiş zəvvarlar da artıq karvandan ayrılıb öz yerlərinə qayıtmaqda idilər. Peyğəmbəri(s) müşayiət edən on min mədinəli isə həzrətlə birlikdə geri dönüb zilhəccə ayı başa çatmamış Mədinəyə yetişirlər.

İslam dininin bütün Ərəbistan yarımadasında yayılmasına, bütpərəstliyin yarımadadan tamamilə aradan qaldırılmasına görə Peyğəmbər(s) və müsəlmanlar çox xoşhal idilər.

Hicrətin onuncu ilinin son günlərində Yəmamədən iki nəfər Mədinəyə gəlib Kəzzab (yalançı) ləqəbi ilə tanınmış Müseyləmə adlı bir şəxsdən Peyğəmbərə(s) məktub gətirir. Peyğəmbərin(s) katiblərindən biri məktubu oxuyur. Məlum olur ki, Yəmamədə Müseyləmə adlı şəxs peyğəmbərlik iddiası edir. Məktubu göndərməkdə məqsədi də həzrət Mühəmmədi(s) öz peyğəmbərlik iddiasından xəbərdar etmək idi. Müseyləmənin məktubunun mətni tarixi mənbələrdə olduğu kimi öz əksini tapmışdır. Məktubda işlədilmiş cümlələrdən məlum olur ki, Müseyləmə Quranın metodundan

istifadə etməyə çalışmışdır. Lakin yalandan peyğəmbərlik iddiası etməsi təbii ki, onun cümlələrinin də dəyərini azaltmışdır. Müseyləmə Peyğəmbərə(s) göndərdiyi məktubda yazır: «Mən peyğəmbərlik missiyasında səninlə şərikəm. Yer kürəsinin yarısı bizə, yarısı isə Qüreyşə məxsusdur. Ancaq Qüreyş tayfası heç də ədalətli rəftar etmir.» (Yəni, yer kürəsinin yarısında mən, digər yarısında isə sən peyğəmbərlik etməli olduğun halda sən özünü bütün dünyanın peyğəmbəri adlandırmaqla mənim haqqımı pozursan.)

Peyğəmbər(s) məktubun məzmunu ilə tanış olduqda üzünü qasidlərə tutaraq buyurur: «Heyf ki, siz qasidsiniz, yoxsa dərhal qətlinizə fərman verərdim. Çünki siz əvvəlcə İslamı qəbul etdiyiniz halda indi Müseyləməni peyğəmbər kimi qəbul edirsiniz. Hansı əsasla belə ağılsız bir adamı dəstəkləyib İslamdan üz çevirmisiniz?» Peyğəmbər(s) katiblərdən birinə yığcam, lakin kəskin bir cavab məktubu yazdırır. Məktubda deyilirdi: «Bağışlayan və Mehriban Allahın adı ilə! Allahın elçisi Mühəmməddən yalançı Müseyləməyə! Salam olsun haqq yolunun yolçularına! Bil ki, yer kürəsinin hər tərəfi Allahındır. Allah onu istədiyi bəndəsinə verər. Gözəl sonluq isə yalnız təqvalı şəxslərə məxsusdur.»[1]

***Müseyləmənin həyatı barədə qısa məlumat***

Müseyləmə hicrətin onuncu ilində Mədinəyə gəlib İslamı qəbul edir. Lakin öz vətəninə qayıtdıqdan sonra peyğəmbərlik iddiası etməyə başlayır. Bir sıra nadan və eləcə də təəssübkeş adamlar da onu peyğəmbər kimi qəbul edib çağırışına ləbbeyk deyirlər. Yəmamədə onun geniş bir təqəbəni öz ətrafına toplaya bilməsi Müseyləmənin şəxsi nüfuzu ilə əlaqədar olmamışdır. Sadəcə olaraq yerli adamlar onun yalançı olduğunu bildikləri halda yenə də ətrafına toplaşmaları sırf təəssübkeşliyin nəticəsi idi. Onların məntiqi bu idi ki, Yəmamənin yalançısı Hicazın düz danışanından üstündür. Bu cümləni Müseyləmənin tərəfdarlarından biri işlətmişdir. Belə ki, o, Müseyləmədən: «Sənə mələk nazil olurmu?»-deyə soruşduqda Müseyləmə cavab verir ki, bəli, mənə Rəhman adlı bir mələk nazil olur. Həmin şəxs yenidən soruşur ki, o mələk nurdadır, yoxsa zülmətdə? Müseyləmə: «Zülmətdədir»- deyə cavab verdikdə həmin şəxs deyir: «Sənin

[1] Sireyi İbn Hişam, c-2, s-600-601

yalançı olduğuna heç bir şübhəm yoxdur, bununla belə Yəmamədəki Rəbiə qəbiləsinin yalançısı Hicazdakı Muzirr qəbiləsinin düz danışanından üstündür.» Beləliklə, Müseyləmə peyğəmbərlik iddiası edib ətrafına müəyyən bir dəstə toplamağa müvəffəq olur. Lakin onun Quranın müqabilində işlətdiyi cümlələr özünə məxsus ola bilməz.

Müseyləmə ilə yanaşı Yəməndə Əsvəd İbn Kəb əl-Ənsa da peyğəmbərlik iddiasında olmuş[1] və cəmiyyətdə özlərinə nüfuz qazanmağa çalışmışlar. Hər iki şəxsin işlətdiyi cümlələr isə sadəcə olaraq Quran ayələri ilə müqayisə edilməzdir. Çünki Quranın fəsahət və bəlağəti qarşısında kimsə ona bənzər sözlər deməyə cürət etməz. Hər bir ərəb Quran ayələrinin ecazkarlığı qarşısında diz çöküb, onun bəşər kəlamı olmadığını etiraf edir.

Peyğəmbərin(s) vəfatından sonra İslam xilafətinin gördüyü ilk tədbir peyğəmbərlik iddiası edənlərə qarşı mübarizə olmuşdur. Buna görə də Müseyləmənin yaşadığı ərazi müsəlmanlar tərəfindən mühasirəyə alınır. Müseyləmənin tərəfdarları vəziyyətin çıxılmaz olduğunu gördükdə ondan soruşurlar ki, bəs hanı bizə vəd etdiyin qeybi kömək? Müseyləmə onların cavabında bildirir ki, heç bir din və qeybi kömək yoxdur. Dediklərimin hamısı yalan idi. Çalışın özünüzü müdafiə edin.

Müsəlmanlar Müseyləmə və tərəfdarlarını bir bağın yaxınlığında qətlə yetirərək onun peyğəmbərlik iddiasına son qoyurlar.

### *Peyğəmbərin(s) bizanslılara qarşı tədbiri*

Ərəbistan yarımadasının müxtəlif bölgələrində yalandan peyğəmbərlik iddiası edənlərin olması təhlükə olsa da, Peyğəmbər(s) əsas diqqətini bizanslıların üzərində cəmləşdirmişdi. Çünki həzrət Yəmən və Yəmamə hökmdarlarının peyğəmbərlik iddiası edənlərin öhdəsindən gələcəyinə əmin idi. Təsadüfi deyil ki, peyğəmbərlik iddiası edən Əsvəd Ənsa Peyğəmbərin(s) göstərişi ilə həzrətin vəfatından bir gün qabaq məhz Yəmən hökmdarının tədbiri nəticəsində qətlə yetirilir.

Peyğəmbər(s) bildirir ki, İslamın günbəgün inkişafının şahidi olan güclü Bizans dövləti həzrətin Ərəbistan yarımadasından yəhudiləri sıxışdırıb çıxarmasından bəzi xaçpərəstlərə cizyə vergisi tətbiq etməsindən olduqca

[1] Sireyi İbn Hişam, c-1, s-599

narahatdır. Peyğəmbər(s) bizanslıların təhlükəsini həmişə diqqət mərkəzində saxlayırdı. Elə bunun nəticəsi idi ki, hicrətin səkkizinci ilində böyük bir ordunu Bizans torpaqlarına göndərir. Lakin təəssüflər olsun ki, bu döyüşdə (Mutə döyüşündə) İslam ordusunun üç böyük sərkərdəsi- Cəfər ibn Əbutalib, Zeyd ibn Harisə və Abdullah ibn Rəvahə şəhid olur, Xalid ibn Vəlidin tədbirləri nəticəsində İslam ordusu daha böyük itki vermədən geri çəkilir. Hicrətin doqquzuncu ilində bizanslıların Hicaza hücum etməyə hazırlaşması xəbəri Peyğəmbərə(s) yetişdikdə həzrət şəxsən özü otuz minlik ordu ilə Təbuk məntəqəsinə gedir, lakin heç bir qarşıdurma baş vermədən Mədinəyə qayıdır. Bu baxımdan Bizans ordusunun istənilən an hücum etmək təhlükəsi var idi.

Peyğəmbər(s) həcc ziyarətindən qayıtdıqdan sonra Peyğəmbər(s) Əbu Bəkr, Ömər, Əbu Übeydə, Səd ibn Əbu Vəqqas kimi tanınmış səhabələrin də daxil olduğu böyük bir ordu təşkil edir. Peyğəmbər(s) Mədinəyə ilk hicrət etmiş mühacirlərin də orduya qoşulmasını tapşırır.[1] Hətta mücahidlərin psixoloji əhval-ruhiyyəsini yüksəltmək məqsədilə Peyğəmbər(s) Üsamə ibn Zeyd üçün özü bir bayraq düzəldib buyurur: «Allahın düşmənlərinə qarşı Allaha xatir vuruş! Sübh tezdən Ünba əhalisinə qarşı hücuma keç. Aradakı məsafəni elə sürətlə qət et ki, hücuma keçmə xəbəriniz oraya çatmazdan qabaq özünüz oraya çatasınız.»

Üsamə bayrağı Büreydəyə verib Curf adlı yeri ordunun toplanacağı yer təyin edir, müxtəlif dəstələrin gəlişini gözləyir ki, ordu birlikdə hərəkət etsin.

Orduda sayılıb-seçilən səhabələrin olmasına rəğmən Peyğəmbərin(s) məhz gənc Üsaməni ordu başçısı təyin etməkdə iki məqsədi var idi. Birincisi o idi ki, Üsamənin atası Zeyd ibn Harisə Mutə döyüşündə (bizanslılara qarşı döyüşdə) şəhid olmuşdu və indi onu ordu başçısı təyin etməklə ona üz vermiş müsibəti unutdurmağa çalışırdı. İkincisi də o idi ki, Peyğəmbər(s) şəxslərin yaşa görə deyil, bacarıq və ləyaqətə görə vəzifəyə layiq olduğunu göstərməyə çalışırdı.

Əsl İslam Allahın qanunları qarşısında birmənalı şəkildə təslim olmaqdan ibarətdir. İslamı səmimi qəlbdən qəbul etmiş müsəlman da o şəxsdir ki, dinin bütün qanunlarına tabe olsun, istər öz şəxsi maraqlarına uyğun gəlsin istərsə də yox. Əmirəl-möminin Əli(ə) də öz kəlamlarında bu

[1] Sireyi İbn Hişam, c-2, s-642; ən-Nəssu vəl-ictihad, s-12

məsələyə toxunaraq buyurur: «İslam dini məhz haqqa təslim olmaq deməkdir.»[1]

İslam dininin bəzi qanunlarının şəxsi maraqları ilə uyğun gəlmədiyi üçün icrasında səhlənkarlıq edənlər bu və ya digər yolla məsuliyyəti boynundan atmağa çalışanları əsl müsəlman adlandırmaq olmaz. İyirmi yaşlı gənc Üsamə ibn Zeydin ordu başçısı seçilməsinə etiraz edənlər dediklərimizin bariz nümunəsidir. Yaşca ondan bir neçə qat böyük olan bəzi səhabələr Üsamənin ordu başçısı seçilməsi ilə barışa bilməyib etiraz edirlər ki, bu da onların haqq qarşısında birmənalı şəkildə təslim olmamasından, baş komandan Peyğəmbərin(s) əmrindən çıxmasından xəbər verir. Onların bəhanəsi o idi ki, sayılıb-seçilən səhabələr qala-qala Peyğəmbər nəyə görə məhz gənc Üsaməni ordu başçısı seçir.[2] Təbii ki, onlar bu işin əsas cəhətlərindən xəbərsiz idilər və hər şeyi öz düşüncələri əsasında ölçüb-biçirdilər.

Peyğəmbər(s) ordunun təşkil edilməsi üçün əlindən gələni etməyə çalışsa da sanki hansısa mənfur qüvvələr ordunun hərəkətinin qarşısını almağa səy edirdi. Peyğəmbər(s) Üsamə üçün bayraq düzəldib ona təhvil verdiyi günün səhərisi özündə möhkəm başağrı və qızdırma hiss edib yatağa düşür. Həzrətin bu xəstəliyi bir neçə gündən artıq çəkmir, məhz bunun nəticəsində dünyasını dəyişir. Xəstə yatarkən bəzi səhabələrin Üsamənin ordu başçısı olmasına etiraz etdiyini eşitdikdə həddən artıq qəzəblənir. Çiynində dəsmal başı sarığlı halda məscidə gəlir ki, ordudan yayınanları şəxsən tənbeh etsin. Yüksək hərarəti olmasına rəğmən minbərə qalxıb Allaha həmd-səna etdikdən sonra buyurur: «Camaat, ordunun hələ də hərəkət etməməsinə görə mən çox narahatam. Deyəsən kimlərsə Üsamənin ordu başçısı olmasından narazıdır. Bu narazılığınız birinci dəfə deyil, o vaxt onun atası Zeydin də ordu başçısı seçilməsindən narazılıq edirdiniz. And olsun Allaha, Üsamənin atası da bu vəzifəyə layiq idi, özü də mən Üsaməni çox istəyirəm. Camaat, onunla yaxşı rəftar edin, başqalarını da ona qarşı yaxşı davranmağa səsləyin, çünki o özü aranızdakı ən yaxşı adamlardan biridir.» Peyğəmbər sözlərini bitirib minbərdən aşağı enir. Yüksək hərarətlə yenidən yatağa düşür. Lakin ona baş çəkməyə gələn

---

[1] Nəhcül-bəlağə, qısa kəlamlar, 125-ci kəlam
[2] Ət-Təbəqatul-kubra, c-2, s-12

böyük səhabələrə təkidlə buyururdu ki, Üsamənin ordusunu yola salsınlar.[1] Peyğəmbər(s) Üsamənin ordusunun yola düşməsində o qədər israrlı idi ki, ordudan ayrılıb Mədinədə qalmaq istəyənləri lənətləyirdi.[2] Ordunun tezliklə yola düşməsində Peyğəmbərin bu qədər israrlı olduğunu görən səhabələr həzrətlə vidalaşıb Üsamənin Curf məntəqəsində toplanmış ordusuna qoşulmaq məcburiyyətində qalırlar. Üsamə ordunun təchizatı ilə məşğul olduğu iki-üç gün ərzində Peyğəmbərin(s) vəziyyətinin ağırlaşdığı xəbəri orduya çatır. Bunun nəticəsində ordunun yola düşməsi bir qədər də yubanır. Nəhayət, həftənin bazar ertəsi Üsamə özü Peyğəmbərlə vidalaşmaq üçün həzrətin hüzuruna gəlir və vəziyyətinin nisbətən yaxşılaşdığının şahidi olur. Peyğəmbər(s) Üsaməyə buyurur ki, dərhal məqsədə doğru hərəkət et. Düşərgəyə qayıdan Üsamə orduya hərəkət əmri verir. Müsəlmanlar düşərgədən təzəcə aralanmışdı ki, Peyğəmbərin ölüm ayağında olduğu xəbəri gəlib çatır. Müxtəlif bəhanələrlə ordunun hərəkət etməsini on altı gün yubadan bəzi şəxslər bu dəfə də Peyğəmbərin vəziyyətinin ağırlaşdığını bəhanə edib Mədinəyə qayıdırlar. Onların ardınca da bütün ordu geri qayıdır. Beləliklə də Peyğəmbərin əmri bəzi səhabələrin laqeydliyi ucbatından həzrət hələ həyatda ikən icra edilmir.[3]

***Peyğəmbərin(s) Bəqi qəbristanlığındakı ölülər üçün bağışlanma diləməsi***

Bəzi tarixçilərin yazdığına görə Peyğəmbər(s) yüksək hərarətlə yatağa düşdüyü gün gecə yarısı öz xidmətçisi Əbu Müveyhibə ilə birlikdə Bəqi qəbristanlığına gəlib orada yatan ölülər üçün Allahdan bağışlanma diləyir. Digər bir dəstə tarixçilər isə belə hesab edirlər ki, Peyğəmbər(s) Əli də daxil olmaqla bəzi səhabələrlə birlikdə Bəqi qəbristanlığına gedir. Həzrət onu müşayiət edənlərə buyurur ki, Allah-taala mənə Bəqidəki ölülər üçün bağışlanmalarını diləməyi əmr etmişdir. Peyğəmbər(s) Bəqi qəbristanlığına çatdıqda orada yatan ölülərə salam verərək buyurur: «Salam olsun sizə, ey torpaq altında yatanlar! Düşdüyünüz bu vəziyyət sizlərə xoş olsun! Fitnələr gecənin zülməti kimi üstümüzə hücum çəkmişdir.» Bunu deyib ölülərin bağışlanması üçün dua edir, sonra isə üzünü Əliyə tutaraq buyurur: «Mənə

---

[1] Ət-Təbəqatul-kubra, c-2, s-190
[2] Şərhi Nəhcül-bəlağə (İbn Əbilhədid), c-2, s-20
[3] Ət-Təbəqatul-kubra, c-2, s-190

dünya xəzinələrinin açarı və dünyanın əbədi həyatı ilə Allahın hüzuruna qovuşub Cənnətə daxil olmağın arasında seçim hüququ verilib. Mən Allahın hüzuruna gedərək Cənnətə daxil olmağa üstünlük vermişəm. Vəhy mələyi mənə ildə bir dəfə Quranı nazil edərdi, bu il isə onu mənə iki dəfə nazil etmişdir. Bu da onu göstərir ki, deməli, əcəlim gəlib çatmışdır.»[1]

Həyata yalnız materialist nöqteyi-nəzərdən yanaşanlar bunu başa düşməkdə çətinlik çəkə bilərlər. Onlar fikirləşə bilərlər ki, axı insanın da ruhlarla danışması, öz ölümünün vaxtını bilməsi mümkündürmü? Lakin həyata təkcə materialist çərçivədən yanaşmayanlar insanın ruhlarla əlaqəyə girməsindən heç də təəccüblənmirlər. Onların fikrincə vəhy və maddi aləmin fövqündə duran mücərrəd aləmlə əlaqədə olan Peyğəmbərin Allahın izni ilə öz əcəlinin vaxtını bilməsi mümkündür.

[1] Ət-Təbəqatul-kubra, c-2, s-204; Biharul-ənvar, c-22, s-466

## HİCRƏTİN ON BİRİNCİ İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR

### *Yazılmamış məktub*

Həzrət Peyğəmbərin(s) həyatının son günləri İslam tarixinin ən əsas fəsillərindən biridir. O vaxtlar müsəlmanlar çox həssas günlərini yaşayırdılar. Bəzi səhabələrin Üsamənin ordusundan yayınaraq Mədinədə qalmağa səy göstərməsi onların Peyğəmbərin(s) vəfatından sonra hakimiyyəti ələ keçirmə və Qədir-xumda təyin edilmiş canişini öz haqqından məhrum etmə cəhdlərindən xəbər verir. Peyğəmbər(s) onların bu məqsədindən qismən də olsa xəbərdar idi. Bunun qarşısını almaqdan ötrü çalışırdı ki, bütün səhabələr Üsamənin ordusuna qoşulub bizanslılara qarşı döyüşə getsinlər. Lakin siyasət meydanının iştirakçıları müəyən bəhanələrlə orduya qoşulmaqdan imtina edir, hələ bu azmış kimi ordunun da hərəkət etməsini Peyğəmbərin(s) vəfatınadək yubadırlar. On altı gün yubanan ordu axırda Peyğəmbərin(s) vəfat xəbərini eşidib Mədinəyə qayıdır. Peyğəmbər(s) çalışırdı ki, vəfat edərkən siyasət meydanının iştirakçıları Mədinədə olmasınlar. Ancaq təəssüflər olsun ki, həzrətin bu istəyi baş tutmur. Peyğəmbərin(s) Mədinədə olmalarını istəmədiyi şəxslər nəinki Mədinəni tərk etmir, hətta Əmirəl-möminin Əli ibn Əbutalibin(ə) canişinliyini möhkəmlədəcək hər hansı addımın qarşısını almağa da çalışır və buna müvəffəq olurlar. Belə ki, Peyğəmbər(s) hər dəfə bu məsələyə qayıtmaq istədikdə onlar müxtəlif bəhanələrlə mövzunu dəyişərək söhbəti başqa məcraya yönəldirlər.

Peyğəmbər(s) öz məqsədindən, bu yöndəki səylərindən, həmçinin öz xanımlarından bəzilərinin onlarla həmkarlıq etməsindən xəbər tutduqda ağır vəziyyətdə olmasına baxmayaraq çətinliklə də olsa məscidə gəlir, minbərin kənarında durub uca səslə (Peyğəmbərin(s) səsi məscidin kənarından da eşidilirdi) buyurur: «Camaat, fitnə atəşi baş qaldırıb, fitnələr gecənin zülməti kimi ətrafımızı bürüyüb. Mənə qarşı əlinizdə heç bir bəhanəniz ola bilməz. Mən sizə Quranın halal etdiyindən başqa bir şeyi halal, haram etdiyindən başqa bir şeyi də haram etməmişəm.»[1]

---

[1] Sireyi İbn Hişam, c-2, s-654; ət-Təbəqatul-kubra, c-2, s-216

Bu cümlələr Peyğəmbərin(s) İslam ümmətinin onun vəfatından sonra arzuolunmaz aqibəti üçün narahat olduğundan xəbər verir. Peyğəmbər(s): «Fitnə alovu baş qaldırıb»-dedikdə görəsən nəyi nəzərdə tuturmuş? Müsəlmanlar arasında yaranmış və bu günədək də davam edən parçalanmadan böyük fitnə nə ola bilər?

Peyğəmbər(s) bəzi səhabələrin xəlifəliyə can atmasından xəbərdar idi. Bu məqsədlə tanınmış səhabələr həzrətə baş çəkməyə gəldikdə Peyğəmbər(s) bir qədər fikirləşərək buyurur: «Mənə kağız (dəri) və mürəkkəb gətirin. İstəyirəm sizin üçün elə bir şey yazım ki, daha məndən sonra heç vaxt yolunuzu azmayasınız.» Məclisə sükut hakim kəsilmişdi. Səhabələrdən biri məclisdəki sükutu pozaraq deyir ki, Peyğəmbərin(s) vəziyyəti ağırlaşıb, o sayıqlayır. Quran bizə yetər. (Daha başqa yazıya nə ehtiyac var?) Bu vaxt səhabələr arasında mübahisə yaranır. Yaranmış mübahisədən narahat olub əsəbləşən Peyğəmbər(s) buyurur ki, qalxın evi tərk edin!

Bu cümləni deyən şəxsin kimliyindən asılı olmayaraq üzrü qəbul edilə bilməz. Çünki Quran Peyğəmbərin(s) istənilən xəta və nöqsandan uzaq olduğunu bildirir. Onun bütün dedikləri yalnız vəhydən ibarət olmuşdur.

Bu hadisəni nəql edən İbn Abbas daha sonra deyir: «İslamın ən böyük müsibəti o oldu ki, səhabələrin kağız və mürəkkəb gətirilməsi haqqında mübahisə etməsi nəticəsində Peyğəmbər(s) istədiyi şeyi yazdıra bilmədi.»[1]

Bu tarixi hadisəni bir çox şiə və sünni tarixçi və hədis alimləri qeyd etmiş, hədis elmi baxımından onun mötəbər və səhih hədis olduğunu bildirmişlər.

Səhabələrin məsum Peyğəmbərin(s) hüzurunda onun əmri ilə bağlı mübahisə etmələri elə bir həddə gəlib çatmışdı ki, həzrətin pərdə arxasında olan bəzi xanımları narazı halda deyirlər ki, nəyə görə Peyğəmbərin(s) əmrinə tabe olmursunuz?[2]

Bəzi təəssübkeş insanlar peyğəmbərə qarşı işlənilən bu nalayiq ifadəni müəyyən bəhanələrlə yozmağa çalışsalar da, ancaq onun

---

[1] Səhihi Buxari, c-1, s-22; c-2, s-14; Səhihi Müslim, c-2, s-14; Müsnədi Əhməd, c-1, s-325

[2] Kənzül-ümmal, c-3, s-138; ət-Təbəqatul-kubra, c-2, s-244

«Quran bizə yetər» fikrinin yanlış olduğunu qeyd etmişlər. Çünki onların da fikrincə İslamın ən əsas mənbələrindən biri məhz Peyğəmbərin(s) sünnəsi, kəlamlarıdır. Quranın olması Peyğəmbərin(s) nəsə deməsinin qarşısını almır.

Çox təəccüblü haldır ki, «Həyatu Muhəmməd» əsərinin müəllifi doktor Heykəl bu şəxsi müdafiə edərək yazır: «Hadisədən sonra İbn Abbas belə hesab edirdi ki, Peyğəmbərin(s) istədiyi şeyin yazılmadığına görə müsəlmanlar çox şeydən məhrum oldular. O isə öz fikrində israrlı idi. Çünki Allah-taala Quranda buyurur: ***«Biz Kitabda heç nəyi unutmadıq.»***»[1]

Doktor Heykəl ayənin əvvəlinə və axırına diqqət yetirsəydi, onda ayəni bu cür təfsir etməz və xəlifəni müdafiə etməyə çalışmazdı. Ona görə ki, ayədə Kitabdan məqsəd Quran yox, lövhi-məhfuzdur. Ayəyə tam olaraq nəzər salaq: ***«Yerdə gəzən elə bir heyvan, qanadları ilə uçan elə bir quş yoxdur ki, sizin kimi ümmətlər olmasın. Biz Kitabda (lövhi-məhfuzda) heç bir şeyi nəzərdən qaçırmadıq. Sonra onlar (bütün məxluqat) Rəbbinin hüzuruna cəm ediləcəkdir.»***[2] Ayənin əvvəlində heyvanlardan, quşlardan, sonunda isə bütün məxluqatın Qiyamətdə Allahın hüzuruna toplanacağından danışıldığı üçün qətiyyətlə deyə bilərik ki, ayədə işlədilmiş Kitab sözündən məqsəd məhz lövhi-məhfuzdur, nəinki Quran. Hətta Kitabdan məqsədin Quran olduğunu desək də, yenə Quranın Peyğəmbərin açıqlamasına ehtiyacı var. Yəni, Quranı olduğu kimi başa düşmək üçün mütləq Peyğəmbər(s) açıqlama verməlidir. Bunu Quran özü buyurur: ***«...Sənə də Quranı nazil etdik ki, insanlara onlara göndəriləni izah edəsən.»***[3] Diqqət yetirmək lazımdır ki, Allah-taala bu ayədə «onlara göndəriləni oxuyasan» deyil, «onlara göndəriləni izah edəsən»-deyə buyurur. Buna görə də müsəlmanlara Quran yetsə də, bununla belə yenə Peyğəmbərin(s) açıqlamalarına böyük ehtiyac vardır. Əgər müsəlmanların Peyğəmbərin(s) məktubuna (vəsiyyətnaməsinə) ehtiyacı yox idisə, bəs onda niyə böyük alim İbn Abbas gözlərindən mirvari dənələri kimi yaş axa-axa: «O cümə axşamı,

---

[1] Həyatu Muhəmməd, s-475
[2] Ənam-38
[3] Nəhl-44

necə də ağır bir gün idi! Peyğəmbər(s) buyurdu ki, mənə sümük parçası (və ya kağız) və mürəkkəb gətirin, məndən sonra yolunuzu azmayasınız deyə, sizin üçün bir şey yazmaq istəyirəm. Ancaq bəziləri dedi ki, Peyğəmbər(s) ...»[1]

Peyğəmbər(s) məktub yazmaqda israrlı olduğu halda Quranın müsəlmanlar üçün yetərli olmasını və Peyğəmbərin məktubuna ehtiyac olmamasını necə deyə bilərik?!

Təəssüflər olsun ki, Peyğəmbər(s) istədiyini yazdıra bilmədi. Ancaq həzrətin nə yazdırmaq istədiyini təxmin etmək olar.

***Məktubun yazılmasında məqsəd nə idi?***

Quranın nazil olduğu dövrdən başlayaraq bu günədək davam edən təfsir sahəsində təfsirçilər hər hansı ayənin mənasında çətinliklə üzləşdikdə həmin mövzuya dəlalət edən digər ayənin vasitəsilə çətinliyi aradan qaldırırlar. Başqa sözlə desək, ayəni ayə ilə təfsir edirlər. Bu məsələ təkcə Quranın təfsirinə aid deyil. Hədis aləmində də bu metodu tətbiq etmək olar. Beləki, başa düşülməsi müəyyən çətinlik yaradan bu və digər hədisi həmin məzmunda olan başqa bir hədislə izah edib həqiqəti anlamaq mümkündür. Eyni mövzuda elə hədislər var ki, nəzərdə tutulmuş məna bəzisində aşkar şəkildə söylənildiyi halda digər bir qismində üstüörtülü şəkildə söylənilir.

Az öncə qeyd etdiyimiz kimi Peyğəmbər(s) son anlarında nəsə yazdırmaq üçün kağız və mürəkkəb istəmiş və yazdıracağı şeyin nəticəsində müsəlmanların heç vaxt yolunu azmayacağını bildirmişdir. Lakin həzrətin yanındakı səhabələr arasında mübahisə yarandığından Peyğəmbər(s) istədiyi şeyi yazdırmaq fikrindən daşınır. Burada belə bir sual irəli çıxır ki, görəsən Peyğəmbərin(s) yazdırmaq istədiyi şey nə barədə imiş? Bu sualın cavabı aydındır. Həm şiə, həm də sünni alimlərinin qəbul etdiyi Səqəleyn hədisinin vasitəsi ilə bu qənaətə gəlmək mümkündür. Belə ki, Peyğəmbər(s) kağız və mürəkkəb istəyərkən: «Sizin üçün elə bir şey yazmaq istəyirəm ki, məndən sonra heç vaxt yolunuzu azmayasınız.»-deyə buyurur. Peyğəmbər(s) Səqəleyn hədisində də eyni ilə həmin ifadəni işlətmiş, Quran və Əhli-beytə tabe

---

[1] Müsnədi Əhməd, c-1, s-355

olmağın vacibliyini müsəlmanların onlara tabe olacağı təqdirdə heç vaxt yollarını azmayacaqları ilə əlaqələndirmişdir. Səqəleyn hədisində deyilir: **«Mən sizin aranızda iki dəyərli əmanət qoyub gedirəm. Onlardan möhkəm yapışsanız, heç vaxt yolunuzu azmazsınız. O iki əmanətdən biri Allahın kitabı Quran, digəri isə mənim Əhli-beytimdir.»** Bununla da belə nəticəyə gəlirik ki, Peyğəmbərin(s) kağız və mürəkkəb istəməkdə məqsədi məhz özündən bilavasitə sonra Əlinin(ə) xəlifəliyi mövzusunda vəsiyyət yazmaq olmuşdur.

Qarşıya çıxan digər bir sual isə ondan ibarətdir ki, səhabələrin etirazına rəğmən axı Peyğəmbər(s) yenə də istədiyi şeyi yazdıra, kağız və mürəkkəb gətizdirə bilərdi. Bəs nəyə görə bunu etmədi? Bu sualın da cavabı aydındır. Hətta sonradan bəzi səhabələr kağız və mürəkkəb gətirməyə hazır olduqlarını bildirdikdə Peyğəmbər(s) əsəbi halda buyurur ki, bu qədər mübahisədən sonramı kağız-mürəkkəb gətirmək istəyirsiniz? Lazım deyil, bircə onu deyirəm ki, məndən sonra Əhli-beytimlə yaxşı rəftar edin! Bunu deyib səhabələrdən üz çevirir. Sonra da Əli, Abbas və Fəzl istisna olmaqla orada olanların hamısı otağı tərk edir.[1]

Bəzi səhabələrin kağız və mürəkkəb gətirilməsinə etirazı Peyğəmbəri(s) öz fikrindən daşındırsa da, həzrət yazmaq istədiyini başqa yolla camaata çatdırır. Ağır vəziyyətdə olmasına baxmayaraq bir qolunu Əlinin, digər qolunu Meymunənin boynuna salıb çətinliklə də olsa məscidə gələn Peyğəmbər(s) böyük əziyyətdən sonra minbərə qalxır. Hamının gözü yaşla dolmuş, məscidə sükut hakim kəsilmişdi. Camaat Peyğəmbərin(s) son sözlərini, vəsiyyətlərini dinləməyə hazır idi. Peyğəmbər(s) sükutu pozaraq buyurur: «Sizin aranızda iki əmanət qoyub gedirəm.» Bu vaxt bir nəfər qalxıb soruşur ki, nədir o iki əmanət? Peyğəmbər(s) üzünü turşudaraq buyurur: «Özüm deyirəm, soruşmağa gərək yoxdur. Onlardan biri Quran, digəri isə Əhli-beytimdir.»[2]

İbn Həcər Əsqəlani bu hadisəni bir fərqli şəkildə qeyd etmişdir, lakin nəticə və məzmun eynidir. O yazır: «Peyğəmbər(s) xəstə yatdığı günlərdən birində ətrafını əhatə etmiş səhabələrə müraciət edərək buyurur: **«Camaat, mənim əcəlim artıq gəlib çatmışdır. Tezliklə**

[1] Biharul-ənvar, c-22, s-469
[2] Biharul-ənvar, c-22, s-476

**aranızdan köçüb gedəcəyəm. Ancaq aranızda Allahın kitabını və Əhli-beytimi qoyub gedirəm.»**

Sonra da Əlinin(ə) əlindən tutub qaldıraraq buyurur: **«Əli Quranla, Quran da Əli ilədir. Qiyamət gününə qədər onlar bir-birindən ayrılmaz.»**[1]

Peyğəmbər(s) Səqəleyn hədisini hələ xəstələnməzdən qabaq dəfələrlə buyurmuş, camaata bu iki əmanətin nə dərəcədə əhəmiyyətli olduğunu çatdırmışdı. Bununla belə ölüm ayağında olarkən Quranla Əhli-beytin bir-birinə bağlılığını bir daha vurğulaması (özü də kağız və mürəkkəb gətirilməsinə etiraz edənlərin gözü qabağında) onu göstərir ki, deməli, Peyğəmbərin(s) bu hədisi təkrarlamaqda məqsədi yazdıra bilmədiyi vəsiyyətnaməni heç olmasa şifahi şəkildə çatdırmaq olmuşdur.

***Beytül-malda qalmış pulların bölgüsü***

Peyğəmbər(s) beytül-mala toplanılmış pulları çox saxlamaz, onları dərhal ehtiyacı olanlar arasında bölüşdürərdi. Xəstə yatarkən beytül-malda bir neçə dirhəmin qaldığını və xanımlarından birində olduğunu xatırladıqda dərhal həmin pulların gətirilməsini əmr edir. Dinarlar gətirildikdə həzrət onları əlinə götürüb buyurur: «Yoxsa Mühəmməd bunları bölüşdürmədənmi Allahın hüzuruna getmək istəyir?» Dərhal Əliyə(ə) tapşırır ki, onları yoxsulların arasında bölüşdürsün.[2]

***Peyğəmbərin(s) ona verilən dərmana görə narahat olması***

Peyğəmbərin(s) xanımlarından Meymunənin yaxın qohumu olan Əsma bint Ümeys Həbəşistanda mühacir həyatı sürərkən bitkilərdən hazırlanan bir dərmanın hazırlanma qaydasını öyrənmişdi. Peyğəmbərin(s) vəziyyəti ağırlaşıb huşunu itirdikdə Əsma hazırladığı dərmandan bir qədər həzrətə içirdir. Peyğəmbər(s) özünə gəlib baş verənlərdən xəbərdar olduqda narahat olub buyurur ki, Allah-taala Öz peyğəmbərini heç vaxt elə bir xəstəliyə düçar etməz.

[1] Əs-Səvaiqul-muhriqə, 9-cu bölmə, s-57; Kəşful-qummə, s-43
[2] Ət-Təbəqatul-kubra, c-2, s-238

### *Peyğəmbərin(s) səhabələrlə vidalaşması*

Peyğəmbər(s) xəstə yatdığı müddət ərzində ara-sıra məscidə gəlib camaatla birlikdə namaz qılır, səhabələri maraqlandıran məsələlərə toxunurdu. Belə günlərdən birində başını parça ilə sarıdığı, Əli ilə Fəzl ibn Abbasın qoluna girdiyi halda ayaqları yerlə sürünə-sürünə məscidə gəlib çətinliklə minbərə qalxır. Camaata müraciət edərək buyurur: «Camaat, artıq sizlərdən ayrılmağımın vaxtı gəlib çatmışdır. Kiməsə hər hansı vəd vermişəmsə, yerinə yetirməyə hazıram, kiminsə məndən alacağı varsa, desin, ödəyim.» Bu vaxt bir kişi ayağa qalxıb deyir: «Bir qədər bundan əvvəl mənə söz vermişdiniz ki, evlənəndə mənə bir az pul verəcəksiniz.» Peyğəmbər(s) dərhal Fəzl ibn Abbasa göstəriş verir ki, lazımı məbləği ona ödəsin.

Vəfatından üç gün qabaq, həftənin cümə günü bir daha məscidə gəlib minbərə qalxaraq danışmağa başlayır. Söhbət əsnasında buyurur ki, camaat, kimin mənim boynumda haqqı varsa, gəlib tələb etsin, qisasını alsın. Bu dünyanın qisası axirət qisasından çox asandır. Bu zaman Səvadə ibn Qeys yerindən qalxıb deyir: «Ya, Rəsuləllah, Taif döyüşündən qayıdarkən qamçını qaldırıb dəvəyə vurmaq istədikdə təsadüfən qamçı mənim qarnıma toxundu. İndi mən sizdən qisas tələb edirəm.» Peyğəmbər(s) bu sözləri boş-boşuna demirdi. O, camaatın diqqət yetirmədiyi ən sadə məsələləri də diqqət mərkəzində saxlayırdı. Buna görə də adam göndərib həmin qamçını gətizdirir. Səvadə ibn Qeys öz qisasını alsın deyə, Peyğəmbər(s) köynəyini də yuxarı qaldırır. Səhabələr gözü yaşlı, boynu bükük vəziyyətdə bu işin necə nəticələnəcəyini gözləyirdilər. Hamı fikirləşirdi ki, görəsən Səvadə doğrudanmı Peyğəmbərdən(s) qisas alacaq? Bir də görürlər ki, Səvadə ixtiyarsız olaraq Peyğəmbərin(s) mübarək qarnını, sinəsini öpməyə başladı. Peyğəmbər(s) də öz növbəsində onun üçün dua edərək buyurur ki, İlahi, Səvadə məni bağışladığı kimi, Sən də onu bağışla![1]

### *Peyğəmbərin(s) son saatları*

Bütün Mədinə şəhəri qəm dəryasına batmışdı. Peyğəmbərin(s) səhabələri boynu bükük həzrətin evinin qarşısında dayanmışdılar ki,

[1] Mənaqibi Ali Əbutalib, c-1, s-164

vəziyyətdən xəbərdar olsunlar. Evdən gələn xəbərlər heç də yaxşı deyildi. Demək olar ki, Peyğəmbərin sağalacağına bütün ümidlər kəsilmişdi. İndi o həzrəti bu dünyaya yalnız bir neçə saat bağlayırdı.

Səhabələrdən bəzisi evə daxil olub Peyğəmbəri(s) yaxından görmək istəsə də, həzrətin vəziyyətinin ağır olması ilə əlaqədar yanına yalnız ailə üzvləri girib çıxa bilərdi.

Peyğəmbərin(s) yeganə yadigarı Fatimə(s.ə) atasının yatağının kənarında əyləşmişdi. Atasının nurani üzünə baxıb alnında ölüm tərinin muncuqlandığını müşahidə edirdi. Fatimə(s.ə) gözü yaşlı, tutqun səslə aşağıdakı beyti oxumağa başlayır:

**Bu mübarək simanın üzünə Allahdan yağış dilənir.**
**O, yetimlərin və dul qadınların ümidi idi.**

Bu vaxt Peyğəmbər(s) gözlərini açıb yavaşcadan qızına buyurur: «Bu, Əbutalibin mənim haqqımda dediyi şerdir. Ancaq yaxşı olar ki, onun əvəzinə bu ayə oxunsun: ***«Mühəmməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib getmişlər. Əgər o ölsə və ya öldürülsə, siz gerimi dönəcəksiniz? (Dininizdən dönəcək və ya döyüşdən qaçacaqsınız?) Halbuki, geri dönən şəxs Allaha heç bir zərər yetirməz. Lakin Allah şükr edənlərə mükafat verər.»»***[1]-[2]

***Peyğəmbərin(s) öz qızı ilə söhbəti***

Təcrübə göstərir ki, dahi şəxslər ictimai işlərə həddən artıq aludə olduğundan öz övladlarına daha az qayğı göstərmək məcburiyyətində qalırlar. Çünki onlar ictimai işlərlə məşğul olduqları üçün öz övladlarına lazımi şəkildə vaxt sərf edə bilmirlər. Böyük mənəviyyata malik olan şəxslər isə bundan istisnadır. Onlar cəmiyyətdə qarşılarına ən böyük məqsədləri qoyub o yolda səy göstərmələrinə rəğmən övladlarına da lazımi şəkildə vaxt sərf edir, əsl ata qayğısı, ata nəvazişi göstərirlər. Başqa sözlə desək, ictimai iş də onları şəxsi işlərindən saxlamır.

Həzrət Peyğəmbərin öz qızına olan münasibəti bir ata üçün mümkün olan ən böyük, ən ülvi münasibət olmuşdur. Belə ki, Peyğəmbər(s) qızı Fatimə(s.ə) ilə vidalaşmadan heç bir səfərə çıxmazdı.

---

[1] Ali-İmran-144
[2] Əl-İrşad, s-98

Hər hansı səfərdən qayıtdıqda isə hamıdan qabaq məhz öz qızının görüşünə gedərdi. Öz zövcələrinin yanında Fatiməyə(s.ə) layiqli hörmət göstərər, səhabələrinə buyurardı: **«Fatimə mənim ciyərparamdır. Onun sevinci mənim sevincim, onun qəzəbi mənim qəzəbimdir.»**[1]

Həzrət Fatimə(s.ə) Peyğəmbərə(s) həyat yoldaşının müqəddəs amalı naminə hər bir çətinliyə sinə gərən, bütün mal-dövlətini bu yolda xərcləyən Xədicəni(s.ə) xatırladırdı. Peyğəmbər(s) xəstə yatdığı günlərdə Fatimə bir an da olsun atasının yanından ayrılmırdı. Son günlərin birisində Peyğəmbər qızı ilə danışmaq üçün ona aşağı əyilməsinə işarə edir. Fatimə başını aşağı salıb lap atasına yaxınlaşdırır. Peyğəmbər astadan nə isə danışır. Ətrafdakılar həzrətin nə dediyini eşidə bilmirlər. Peyğəmbərin sözü başa çatan kimi Fatimə ucadan ağlamağa başlayır. Elə həmin an atası yenə də nə isə deyir, lakin bu dəfə Fatimə sevincək olub gülümsəyir. Bir anın içində Fatimənin ağladıqdan sonra gülümsəməsi ətrafdakıları təəccübləndirir. Onlar Peyğəmbərin Fatiməyə nə dediyini və onun bir anın içində həm ağlayıb, həm də gülməsinin səbəbini öyrənməyə çalışsalar da Fatimə buyurur ki, mən Peyğəmbərin sirrinin üstünü açmaram.

Peyğəmbərin vəfatından sonra Aişənin israrı nəticəsində Fatimə bu sirrin üstünü açmaq məcburiyyətində qalıb buyurur: «Atam öncə xəstəlikdən sağalmayacağını, elə həmin xəstəlik nəticəsində vəfat edəcəyini mənə bildirdi. Buna görə də mən ağlamağa başladım. Lakin sonra bildirdi ki, ailə üzvlərindən ona ən tez qoşulacaq şəxs mən olacağam. Bu xəbər məni çox sevindirdi, ona görə də gülümsədim. Mən başa düşdüm ki, atamdan bir qədər sonra ona qovuşacağam.»[2]

Peyğəmbər(s) hər gecə yatmazdan qabaq və eləcə də yuxudan oyandıqdan dərhal sonra dişlərini Ərak çubuğu (misvakı) ilə fırçalayırdı. Bir gün Aişənin qardaşı Əbdürrəhman, Peyğəmbərə baş çəkməyə gəlir. Peyğəmbərin gözü onun əlindəki təzə misvaka sataşır. Aişə həzrətin baxışlarından başa düşür ki, həmin misvakla dişlərini fırçalamaq istəyir.

[1] Səhihi-Buxari, c-5, s-21
[2] Ət-Təbəqatul-kubra, c-2, s-247; Əl-Kamilu fit-tarix, c-2, s-219

Buna görə də tez misvakı qardaşından alıb Peyğəmbərə təqdim edir, Peyğəmbər də dərhal dişlərini fırçalamağa başlayır.[1]

***Peyğəmbərin son vəsiyyəti***

Peyğəmbər(s) xəstəliyi dövründə əhəmiyyətli məsələlərlə bağlı öz tövsiyələrini verirdi. Son günlərində namaz və qullarla yaxşı rəftar edilməsinə dair xüsusi tövsiyələr verərək buyurur: «Qullarınızla yaxşı davranın, onların yemək-içməyinə və geyiminə fikir verin. Onlara qarşı xoş münasibətdə olun.»

Bir gün Kəb Əhbar ikinci xəlifədən soruşur ki, Peyğəmbər ömrünün son anlarında nə buyurdu? Xəlifə məclisdə iştirak edən Əlini(ə) Kəb Əhbara göstərərək deyir ki, bu sualı ondan soruş. Bu vaxt Əli(ə) cavab verərək buyurur: «Peyğəmbər, başı mənim qucağımda ikən buyurdu: «Namaz, namaz.»» Kəb Əhbar bunu eşitdikdə əlavə edir ki, ondan qabaqkı peyğəmbərlər də eyniylə belə etmişlər.[2]

Peyğəmbər son anlarında gözlərini açıb buyurur ki, qardaşımı çağırın gəlib yanımda otursun. Peyğəmbərin məqsədinin Əli olduğunu hamı başa düşür. Əli həzrətin yanında oturduqda onun qalxmaq istədiyini hiss edir, buna görə də onu yataqdan qaldırıb başını öz sinəsinə söykəyir.[3] Çox çəkmir ki, həzrətin üzündə ölüm nişanələri peyda olur.

Bir nəfər İbn Abbasdan Peyğəmbərin kimin qucağında can verməsi haqqında soruşduqda o: «Peyğəmbər can verərkən başı Əlinin qucağında idi»-deyə cavab verir. Həmin şəxs deyir ki, Aişənin iddiasına görə Peyğəmbər onun qucağında ikən canını tapşırmışdır. İbn Abbas onun sözünü təkzib edərək deyir: «Xeyr, Peyğəmbər Əlinin qucağında canını tapşırmışdır. Ona qüslü də Əli ilə qardaşım Fəzl vermişdir.»[4] Əmirəl-möminin Əli ibn Əbutalib(ə) özü də xütbələrindən birində bu fakta işarə edərək buyurur: «Peyğəmbərin mübarək başı mənim qucağımda ikən canını tapşırdı. Mən mələklərin köməyi ilə ona qüsl verdim.»[5]

---

[1] Ət-Təbəqatul-kubra, c-2, s-234; Sireyi İbn Hişam, c-2, s-654
[2] Ət-Təbəqatul-kubra, c-2, s-254
[3] Ət-Təbəqatul-kubra, c-2, s-263
[4] Ət-Təbəqatul-kubra, c-2, s-263
[5] Nəhcül-bəlağə

Bəzi hədis alimlərinin qeyd etdiyinə görə Peyğəmbərin(s) həyatda son sözü: «Xeyr, böyük dostun dərgahına gedirəm.» cümləsi olmuşdur. Deyilənə görə Əzrail, Peyğəmbərin(s) canını almaq istədikdə Cəbrail Allah tərəfindən dünya həyatını davam etmək və ya axirət həyatını seçmək arasında həzrətə seçim ixtiyarı verdikdə Peyğəmbər(s) qeyd etdiyimiz cümləni buyurmaqla ***«Allaha və Peyğəmbərə itaət edənlər (axirətdə) Allahın nemətlər verdiyi nəbilər (peyğəmbərlər), siddiqlər, şəhidlər və salehlərlə bir yerdə olacaqlar. Onlar necə də gözəl yoldaşlardır!»***[1] ayəsində deyilən şəxslərə qoşulmaq, axirəti seçmək niyyətində olduğunu bildirmişdir. Bunu deyib gözləri yumulur.[2]

***Peyğəmbərin(s) vəfat günü***

Həzrət Peyğəmbər(s) hicrətin on birinci ili, səfər ayının 28-də, bazar ertəsi günorta saatlarında vəfat edir. Həzrətin mübarək nəşinin üstünə Yəmən parçası örtülür, nəşi bir qədər vəfat etdiyi otaqda qalır. Həzrətin qohumlarının, xanımlarının şivən səsindən eşikdə olanlar onun vəfat etdiyini anlayırlar. Bir qədər sonra artıq bütün şəhərdə Peyğəmbərin(s) vəfat etməsi xəbəri yayılır.

Peyğəmbərə(s) Əmirəl-möminin Əli(ə) qüsl verib kəfənə tutur. Çünki Peyğəmbər(s) özü vəsiyyət etmişdi ki, mənə ən yaxın adamım qüsl-kəfən versin.[3] Bu isə Əlidən(ə) başqa bir şəxs deyildi. Əli(ə) parçanı Peyğəmbərin(s) üzündən götürdükdə ağlaya-ağlaya deyirdi: «Atam-anam sənə qurban, sənin vəfatınla peyğəmbərliyə, vəhyə son qoyuldu. Əgər müsibətlərə qarşı səbr etməyi tapşırmasaydın, sənin ayrılığında göz yaşlarım quruyanadək ağlayardım. Bu yolda qəm-qüssə, kədər bizim üçün həmişəlikdir. Sənin üçün bundan da artıq ağlamaq lazımdır, ancaq nə etmək olar, əlimizdən nə gələ bilər?! Atam-anam sənə qurban, axirətdə bizi yaddan çıxartma!»

Peyğəmbərə(s) ilk meyyit namazı qılan şəxs də Əli ibn Əbutalib(ə) olur. Sonra isə səhabələr dəstə-dəstə gəlib həzrətə meyyit namazı qılırlar. Bu vəziyyət düz bir gün davam edir. Səhabələr belə qərara

---

[1] Nisa-69

[2] Əlamul-vəra, s-83

[3] Nəhcül-bəlağə, 23-cü xütbə

gəlirlər ki, Peyğəmbəri(s) vəfat etdiyi otaqda dəfn etsinlər. Həzrətin qəbrini Əbu Übeydə Cərrahla Zeyd ibn Səhl qazır. Əli(ə) isə Fəzl və Abbasın köməyi ilə Peyğəmbəri(s) qəbr evinə qoyur. Beləliklə, bütün çətinliklərə dözüb bəşəriyyətin müqəddəratını dəyişən, mədəniyyət aləmində yeni parlaq səhifələr açan Peyğəmbərin(s) ulduzu sönür. Onun vəfatı ilə böyük məqsədlərə çatmaq yolunda bir sıra problemlər yaranır ki, bunun da ən bariz nümunəsi xəlifəlik məsələsi olmuşdur. Bu sahədə hələ Peyğəmbərin(s) vəfatından qabaq da mübahisələr yaranırdı. Bu mövzu Peyğəmbərin(s) həyatının təhlilinə aid olmadığı üçün ona toxunmur, sözümüzü burada başa çatdırır və Allah-taalaya bu işdə bizə yardımçı olduğuna görə şükr edirik.

**S O N**

# MÜNDƏRİCAT

**ÖN SÖZ** ........ 3
**ƏRƏBİSTAN YARIMADASI**
**VƏ YAXUD İSLAM MƏDƏNİYYƏTİNİN BEŞİYİ** ........ 4
*Müqəddəs Məkkə şəhəri* ........ 5
*Məkkə şəhərinin tarixi* ........ 5
*Müqəddəs Mədinə şəhəri* ........ 6
**ƏRƏBLƏRİN İSLAMDAN QABAQKI VƏZİYYƏTİ** ........ 9
*Ərəblərin ümumi əxlaqı* ........ 10
*Cahiliyyət dövr ərəblərinin mədəniyyəti olmuşdurmu?* ........ 11
*Ərəbistanda din* ........ 15
*Ərəblərin insanın ölümdən sonrakı həyatı barədə düşüncələri* ........ 17
*Bir millətin psixologiyasını əks etdirən ədəbiyyat* ........ 18
*Ərəblər arasında qadının mövqeyi* ........ 19
*Ərəblər arasında qadının ictimai mövqeyi* ........ 20
*Kiçik bir müqayisə* ........ 21
*Ərəblərin cəngavərliyi* ........ 21
*Cahiliyyət dövründəki ərəblərin ümumi əxlaqı* ........ 23
*Ərəblərin mövhumat və əfsanələrə meylliliyi* ........ 23
*Cahiliyyət dövr ərəblərinin xurafi əqidələri* ........ 25
*1. Yağış yağmaqdan ötrü od qalamaq* ........ 26
*2. Dişi inək su içmədikdə öküz döyülürdü* ........ 26
*3. Xəstə dəvənin sağalması üçün sağlam dəvə dağlanırdı* ........ 26
*4. Ölmüş şəxs qiyamətə piyada gəlməsin deyə, onun qəbri kənarında bir dəvə saxlanılırdı* ........ 26
*5. Qəbir kənarında dəvə kəsmək* ........ 26
*İslam dini bu mövhümata qarşı necə mübarizə aparmışdır?* ........ 27
*6. Xəstələri müalicə üsulu* ........ 27
*İslamın bu mövhumatlara qarşı mübarizəsi* ........ 28
*7-Digər mövhumatlar* ........ 29
*İslamın gəlişi ərəfəsində Ərəbistanda ictimai vəziyyət* ........ 29
*Hirə və Qəssam dövlətləri* ........ 31
*Hicazda yayılmış din* ........ 32
*Hicazda elm* ........ 33
**İRAN VƏ BİZANS İMPERİYALARININ DURUMU** ........ 34
*Bizans imperiyasında gündəmdə olan müxtəlif mövzular* ........ 35
*O dövrün mədəniyyət beşiyi sayılan İran* ........ 36
*İslam dininin ərsəyə gəldiyi zaman İranın ümumi vəziyyəti* ........ 36
*Sasanilərin bər-bəzəyə meyilli olması* ........ 37
*İranın ictimai vəziyyəti* ........ 38
*Təhsil yalnız xüsusi təbəqələrə aid idi* ........ 39
*Xosrov Pərviz cinayətlərindən bir nümunə* ........ 41
*Sasani hökmdarlarına qarşı tarixin mühakiməsi* ........ 42
*Sasani dövlətindəki qarışıqlıq* ........ 43

*Sasanilər dövlətində dini sahədə fikir ayrılığı* .......... 44
*İran-Bizans müharibələri* .......... 45
**İSLAM PEYĞƏMBƏRİNİN ƏCDADI** .......... 48
*1. Tövhid qəhrəmanı Həzrət İbrahim(ə)* .......... 48
*2. Qüseyy ibn Kilab* .......... 64
*3. Əbdmanaf ibn Quseyy* .......... 65
*4. Haşim ibn Əbdmanaf* .......... 65
*Üməyyə ibn Əbdşəmsin paxıllığı* .......... 67
*Haşimin evlənməsi* .......... 68
*5. Əbdülmüttəlib ibn Haşim* .......... 69
*Zəmzəm quyusunun qazılması* .......... 70
*Əbdülmüttəlibin öz əhdinə sadiq qalması* .......... 72
*Amul-fil hadisəsi* .......... 74
*6. Həzrət peyğəmbərin atası Abdullah* .......... 84
*İslam tarixindəki təhrif izləri* .......... 85
*Fatimə Xüsemiyə dastanı* .......... 85
*Dastanın saxta olduğunu göstərən dəlillər* .......... 86
*«Peyğəmbər» kitabına bir baxış* .......... 87
*Abdullahın vəfatı* .......... 87
**HƏZRƏT MÜHƏMMƏDİN(S) ANADAN OLMASI** .......... 89
*Dahi şəxslərin uşaqlıq dövrü* .......... 89
*Həzrət Mühəmmədin(s) anadan olduğu il, ay, gün* .......... 92
*Aminənin Peyğəmbərə hamilə qalması* .......... 93
*İslam peyğəmbərinin(s) ad qoyma mərasimi* .......... 95
*Şərqşünasların səhvi* .......... 95
*«Əhməd» İslam peyğəmbərinin(s) ən məşhur adlarından olmuşdur* .......... 96
*Həzrət peyğəmbərin(s) südəmərlik dövrü* .......... 97
**PEYĞƏMBƏRİN (S) UŞAQLIQ DÖVRÜ** .......... 99
*Beş il səhrada* .......... 101
**HƏZRƏT MÜHƏMMƏDİN(S) AİLƏYƏ QAYIDIŞI** .......... 103
*Yəsrib səfəri* .......... 104
*Əbdülmüttəlibin vəfatı* .......... 105
*Əbutalibin himayəsində* .......... 105
*Şam səfəri* .......... 105
*Şərqşünasların uydurması* .......... 106
*Hazırkı Tövrata ötəri baxış* .......... 109
*Hazırki İncilə ötəri baxış* .......... 110
**HƏZRƏT MÜHƏMMƏDİN(S) GƏNCLİK DÖVRÜ** .......... 111
*Həzrət Mühəmmədin(s) böyük ruhiyyəsi* .......... 111
*Ficar döyüşləri* .......... 112
*Haqsızlığa qarşı ittifaq* .......... 113
**ÇOBANLIQDAN TİCARƏTƏDƏK** .......... 116
*Əbutalibin təklifi* .......... 117
*İslam xanımı Xədicə* .......... 119
*Həzrət Mühəmmədlə(s) Xədicənin evlənməsinin zahiri və mənəvi amilləri* .......... 121

*Əbutalibin Xədicədən elçiliyi* ........ 122
EVLƏNMƏKDƏN PEYĞƏMBƏRLİYƏDƏK ........ 124
*Həzrət Peyğəmbərin gənclik dövrü* ........ 124
*Peyğəmbərin(s) gənclik hissləri* ........ 124
*Peyğəmbərin Xədicədən olan uşaqları* ........ 125
*Əsassız bir iddia* ........ 125
*Həzrət Mühəmmədin(s) oğulluğu* ........ 126
*Bütpərəstlər arasında fikir ayrılığı* ........ 127
*Bütpərəstliyin təməli sarsılır* ........ 127
*Qüreyşin zəifliyini göstərən başqa bir nümunə* ........ 128
*Həzrət Mühəmməd(s) Əlini (ə) öz evinə aparır* ........ 129
*Həzrət Mühəmmədin(s) peyğəmbərlikdən qabaqkı dini* ........ 130
*Həzrət Mühəmmədin(s) həzrət İsa(ə) ilə müqayisəsi* ........ 131
İLK HƏQİQƏT İŞARTILARI ........ 133
*Cəmiyyətin islah olunmasında peyğəmbərlərin rolu* ........ 134
*Həzrət Mühəmməd(s) Həra mağarasında* ........ 135
*Vəhyin başlanması* ........ 136
*Materialist nöqteyi-nəzərindən yanaşma* ........ 137
*Mücərrəd ruh* ........ 138
*Vəhy* ........ 138
*Anlayışın növləri* ........ 139
*Vəhyin növləri* ........ 140
*Uydurma əfsanələr* ........ 140
*İlk vəhyin ardınca baş verənlər* ........ 141
*Xədicə Vərəqə ibn Nofəlin yanına gedir* ........ 141
İLK VƏHY ........ 144
*İlk vəhy hansı gündə nazil olmuşdur?* ........ 144
İLK İMAN GƏTİRƏNLƏR ........ 147
*Xədicə* ........ 147
*Əli (ə)* ........ 148
GİZLİ DƏVƏT ........ 157
*Qohumları İslama dəvət etmək* ........ 158
*Cinayətlər, xəyanətlər* ........ 160
*Peyğəmbərliklə imamət bir-birindən ayrılmaz* ........ 162
ÜMUMİ DƏVƏT ........ 163
*Məqsədə çatmaq uğrunda dözüm* ........ 163
*Peyğəmbərin çətinliklərə müqaviməti* ........ 164
*Qüreyş başçıları üçüncü dəfə Əbutalibin yanına gedirlər* ........ 166
*Qüreyş Mühəmmədi(s) şirnikləndirməyə çalışır* ........ 167
*Qüreyş müşriklərinin işkəncələrindən nümunələr* ........ 168
*Əbu Cəhl Peyğməbəri(s) güdür* ........ 171
*Müsəlmanların işkəncələrə məruz qalması* ........ 172
*1-Bilal Həbəşi* ........ 173
*2-Əmmar Yasir və ata-anası* ........ 173
*3-Abdullah ibn Məsud* ........ 174
*4-Əbuzər* ........ 174

*İslamın ilk çağırışı* ... 175
*Qifar qəbiləsinin İslamı qəbul etməsi* ... 176
*Peyğəmbərin(s) qatı düşmənləri* ... 177
*İkinci xəlifə Ömərin müsəlman olması* ... 178
**QÜREYŞ MÜŞRİKLƏRİNİN QURAN HAQQINDAKI MÜHAKİMƏLƏRİ** .. 180
**İSLAMDA İLK HİCRƏT** ... 181
*Qüreyş nümayəndələri Həbəşistan hökmdarının sarayında* ... 197
*Həbəşistandan qayıdış* ... 200
*Xaçpərəstlərin nümayəndə heyəti Məkkəyə gəlir* ... 201
*Qüreyş müşriklərinin nümayəndə heyəti* ... 202
**KÖHNƏLMİŞ MÜBARİZƏ METODLARI** ... 203
*1-Nalayiq böhtanlar* ... 203
*Müşriklər Peyğəmbərin(s) dəli olduğunu iddia edir* ... 205
*Dəlilik nəticəsində daxili vəhy əmələ gəlib* ... 206
*Daxili vəhy dəliliyin nişanəsidir* ... 207
*2-Qurana qarşı söz mübarizəsi* ... 208
*Peyğəmbər(s) Qüreyş başçılarının iman gətirməsində israrlıdır* ... 209
*3-Müşriklər Quranı dinləməyə qadağa qoyur* ... 210
*Müşriklər qoyduğu qanunu pozurlar* ... 210
*4- İman gətirmək istəyənlərə mane olmaq* ... 211
**QƏRANİQ ƏFSANƏSİ** ... 213
*Qəraniq əfsanəsinin mahiyyəti* ... 213
*Qəraniq əfsanəsi haqqında sadə araşdırma* ... 214
*Bu əfsanəyə məntiqi yanaşma* ... 214
*Əfsanənin digər yolla təkzib edilməsi* ... 215
*Əfsanənin yalan olması filoloji nöqteyi-nəzərdən* ... 216
*Peyğəmbərlərin hər hansı şeyi arzulamasında məqsəd nədir?* ... 218
*2-Şeytanın peyğəmbərlərin arzularına xələl qatması dedikdə nə başa düşülür?* ... 218
*3-Allahın şeytanın vəsvəsələrini puç etməsi deyildikdə nə başa düşülür?* ... 219
**İQTİSADİ BLOKADA** ... 220
*Qüreyş müşriklərinin bəyanatı* ... 220
*Bəni-Haşimin Əbutalib dərəsindəki acınacaqlı vəziyyəti* ... 222
**ƏBUTALİBİN VƏFATI** ... 225
*Əbutalibin hisslərindən nümunələr* ... 227
*Şam səfərinin proqramının dəyişdirilməsi* ... 228
*Müqəddəs əqidənin müdafiəsi* ... 228
*Yanlış təsəvvür* ... 229
*Əbutalibi bu işlərə sövq edən əsas amil* ... 230
*Əbutalibin fədakarlığından bir nümunə* ... 230
*Siyasiləşdirilmiş bir məsələ* ... 232
*Əbutalibin mömin olduğunu göstərən faktlar* ... 233
*Əbutalibin elmi-ədəbi irsi* ... 233
*Əbutalibin iman gətirdiyini təsdiq edən başqa bir fakt* ... 234
*Əbutalibin vəsiyyəti* ... 235

*Əbutalibin imanını təsdiqləyən üçüncü amil* ........ 236
*Şiə alimlərinin mövqeyi* ........ 236
**MERAC HADİSƏSİ** ........ 237
*Merac Quran, hədis və tarix baxımından* ........ 237
*Quran merac məsələsinə toxunurmu?* ........ 238
*Meracla bağlı hadisələr* ........ 240
*Meracın baş verdiyi tarix* ........ 240
*Merac cismanimi olmuşdur?* ........ 242
*Ruhani meracın mənası* ........ 242
*Bu nəzəriyyəyə cavab* ........ 243
*Digər əsassız bir iddia* ........ 244
*Müasir elmi qanunlarla meracın uyğunsuzluğu* ........ 244
*Suallara cavab* ........ 245
*Peyğəmbərin(s) meraca aparılmasında məqsəd* ........ 246
**TAİF SƏFƏRİ** ........ 248
*Peyğəmbərin(s) Məkkəyə dönüşü* ........ 250
*Peyğəmbərin məşhur ərəb bazarlarındakı çıxışları* ........ 251
*Peyğəmbər(s) həcc mövsümündə qəbilə başçılarını İslama dəvət edir* ........ 252
*Buas döyüşü* ........ 254
*İlk Əqəbə sözləşməsi* ........ 255
*İkinci Əqəbə sözləşməsi* ........ 256
*Əqəbə sözləşməsindən sonra* ........ 257
*Qüreyş müşriklərinin Əqəbə sözləşməsinə münasibəti* ........ 259
*İslamın mənəvi nüfuzu* ........ 260
*Qüreyş müşrikləri vəhşətə gəlir* ........ 262
**HİCRƏTİN BİRİNCİ İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR** ........ 263
*Qeybi imdadlar* ........ 265
*Müşriklərin Peyğəmbərin(s) evinə hücumu* ........ 266
*Peyğəmbər(s) Sur mağarasında* ........ 267
*Qüreyş müşrikləri Peyğəmbərin(s) axtarışında* ........ 267
*Haqq yolunda fədakarlıq* ........ 268
*İbn Teymiyyənin fikri* ........ 269
*Peyğəmbərin(s) hicrətinin davamı* ........ 272
*Peyğəmbər(s) mağaranı tərk edir* ........ 273
*Tarixin ilk səhifəsi* ........ 273
*Nə üçün hicrət ili tarixin başlanğıcı götürülmüşdür* ........ 274
*Peyğəmbərin hicrəti-dünya müsəlmanlarının tarix başlanğıcı* ........ 274
*Nə üçün hicrət tarixin başlanğıcı kimi götürüldü?* ........ 275
*Hicrəti tarix başlanğıcı təyin edən kim olmuşdur?* ........ 275
*Peyğəmbərin(s) tarix qoyulmuş məktublarından nümunələr* ........ 276
*Bir sual, bir cavab* ........ 278
*Səfər proqramı* ........ 279
*Peyğəmbərin(s) Qoba kəndinə girişi* ........ 280
*Yəsribdə hökm sürən şadlıq* ........ 282
*Nifaqın kökləri* ........ 283
**İLK CƏHDLƏR** ........ 285

*Məscid inşası* ... 285
*Əmmar Yasirin sərgüzəşti* ... 286
*Anadan mehriban dayə* ... 288
*İslamda qardaşlıq və yaxud əsl vəhdət tərənnümü* ... 290
*İki böyük fəzilət* ... 290
*Müsəlmanlarla Mədinə yəhudiləri arasında bağlanmış müdafiə sazişi* ... 291
*Ən böyük tarixi sənəd* ... 292
*Yəhudilərin vəfasızlığı* ... 296
*Abdullah ibn Səllamın iman gətirməsi* ... 296
*İslam hökumətini yıxmaq üçün hazırlanmış plan* ... 297
**HİCRƏTİN İKİNCİ İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR** ... 299
*Hərbi manevrlər, kəşfiyyatlar* ... 299
*Hərbi yürüşlərdə məqsəd nə idi?* ... 303
*Şərqünasların mövqeyi* ... 304
*Qiblənin dəyişməsi* ... 305
*Peyğəmbərdən(s) elmi bir kəramət* ... 308
*Bədr döyüşü* ... 308
*Peyğəmbər(s) Zəfrana doğru irəliləyir* ... 309
*Qüreyşin üzləşdiyi problem* ... 311
*Ümumi şura* ... 312
*Həqiqətin üstünü örtmək* ... 312
*Şuranın qəti fikri və yaxud ənsarın başçısının son sözü* ... 313
*Düşmən haqqında məlumat toplamaq* ... 314
*Əbu Süfyan karvanı müsəlmanların hücumundan qurtarır* ... 316
*Karvanın aradan çıxması xəbəri müsəlmanlara çatır* ... 316
*Qüreyş ordusunda ikitirəlik* ... 317
*Komandanlıq qülləsi Üreyş* ... 317
*Qüreyş ordusu hərəkətə keçir* ... 319
*Qüreyş ordusunda parçalanma* ... 320
*Döyüşün başlanması* ... 320
*Təkbətək döyüşlər* ... 321
*Ümumi hücum başlanır* ... 322
*Üməyyə ibn Xələfin qətli* ... 323
*İtki və dəymiş ziyanlar barədə statistik məlumat* ... 324
*Döyüşdən sonra* ... 325
*İki əsirin yolda öldürülməsi* ... 327
*Peyğəmbərin(s) Mədinəyə göndərdiyi qasidlər* ... 327
*Məkkəlilər öz başçılarının ölümündən xəbərdar olurlar* ... 328
*Ölənlərə ağlamaq qadağan edilir* ... 328
*Əsirlər haqqında son qərar* ... 329
*İbn Əbülhədiddən açıqlama* ... 330
*Xanımlar xanımı ərə gedir* ... 331
*Peyğəmbər qızının cehizlərinin siyahısı* ... 333
*Toy mərasimi* ... 334
*Bəni-Qeynüqa yəhudilərinin cinayəti* ... 335
*Kiçik bir hadisə döyüşə səbəb olur* ... 336

*Mədinəyə yeni xəbərlər çatır* ........ 338
*Zil-Əmr döyüşü* ........ 339
*Qüreyş ticarət yolunu dəyişir* ........ 340
**HİCRƏTİN ÜÇÜNCÜ İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR** ........ 341
*Ühüd döyüşü* ........ 341
*Məhəmməd ibn Məsləmənin yürüşü* ........ 341
*Qüreyşlilər döyüş büdcəsi hazırlayır* ........ 343
*Peyğəmbərin(s) xəbər mənbəyinin məlumatları* ........ 344
*Qüreyş ordusu hərəkətə başlayır* ........ 344
*Ühüdün coğrafi mövqeyi* ........ 345
*Müdafiə taktikası barədə məsləhətləşmə* ........ 345
*Şəhid olmaqdan ötrü atılan püşk* ........ 346
*İslam ordusu şəhərdən çıxır* ........ 348
*İki fədakar döyüşçü* ........ 349
*Müsəlman və müşrik ordusunun qarşılaşması* ........ 351
*Döyüşçülərdə mübarizə ruhiyyəsini yüksəltmək* ........ 352
*Düşmən ordusunun hazırlığı* ........ 353
*Psixoloji sahədə ruhlandırma* ........ 353
*Döyüşün başlanması* ........ 354
*Şəhvani istəkləri uğrunda döyüşən ordu* ........ 356
*İtirilmiş qələbə* ........ 356
*Peyğəmbərin(s) öldürülməsi şayiəsi* ........ 358
*Bəzilərinin döyüş meydanından qaçmasını inkar etmək olmaz* ........ 358
*Quran bəzi həqiqətləri üzə çıxarır* ........ 359
*Acı xatirələr* ........ 360
*Peyğəmbərin öldürülməsinə söz verilir* ........ 361
*Növbəti qələbəni gətirən uğurlu müdafiə* ........ 363
*Hadisələrin sonrakı gedişatı* ........ 369
*Düşmən fürsət axtarışında* ........ 369
*Döyüşün sonu* ........ 370
*Səd ibn Rəbinin son sözləri* ........ 372
*Peyğəmbərin Mədinəyə dönüşü* ........ 373
*İmanlı bir qadının həyəcan dolu xatirələri* ........ 373
*Fədakar qadınlardan digər bir nümunə* ........ 374
*Düşmənin təqib edilməsi* ........ 375
*Həmraul-Əsəd yürüşü* ........ 376
*Mömin bir dəfə səhv edər* ........ 377
**HİCRƏTİN DÖRDÜNCÜ İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR** ........ 379
*Təbliğat qrupunun faciəsi* ........ 379
*Biri-Məunə faciəsi* ........ 382
*Qərəzli şərqşünaslar* ........ 383
*Bəni-Nəzir döyüşü* ........ 384
*Münafiqlərin planı* ........ 386
*Bəni-Nəzrin əkin sahələrinin mühacirlər arasında bölüşdürülməsi* ........ 388
*Spirtli içkilərin haram buyurulması* ........ 388
*Zatur-ruqa döyüşü* ........ 391

*Dözümlü nəzarətçilər* ........ 392
*İkinci Bədr* ........ 392
**HİCRƏTİN BEŞİNCİ İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR** ........ 394
*Zeyd ibn Harisə kim idi?* ........ 394
*Zeydin Peyğəmbərin(s) bibisi qızı ilə evlənməsi* ........ 395
*Zeydlə Zeynəbin boşanması* ........ 395
*Peyğəmbər(s) daha bir yanlış adəti aradan qaldırmaqdan ötrü Zeynəblə evlənir* ........ 396
*Şərqşünasların Peyğəmbərlə Zeynəbin evlənməsinə münasibətləri* ........ 397
*Domətul-cəndəl yürüşü* ........ 400
*Xəndək döyüşü* ........ 400
*Peyğəmbərə(s) çatdırılan məlumatlar* ........ 403
*Mədinənin müşrik və yəhudi ordusu tərəfindən mühasirəsi* ........ 405
*Hər iki ordu haqqında statistik məlumat* ........ 405
*Düşmən ordusunda ərzaq çatışmazlığı* ........ 405
*Hüyeyy ibn Əxtəb Bəni-Qüreyzə qalasına gəlir* ........ 406
*Peyğəmbər(s) Bəni-Qüreyzənin müqaviləni pozmasından xəbər tutur* ........ 407
*Bəni-Qüreyzənin ilk təcavüzləri* ........ 408
*İmanla küfrün qarşılaşması* ........ 408
*Düşmən cəngavərlərinin xəndəkdən keçməsi* ........ 410
*İki qəhrəmanın döyüşü* ........ 412
*Əlinin zərbəsinin dəyəri* ........ 412
*Düşmən ordusunun dağılması* ........ 413
*Düşmən ordusunun dağılmasına səbəb olan amillər* ........ 414
*Qüreyş nümayəndələri Bəni-Qüreyzə qalasında* ........ 416
*Sonuncu fəsad yuvası* ........ 417
*Yəhudilərin müşavirəsi* ........ 418
*Əbu Lübabənin xəyanəti* ........ 420
*Bəni-Qüreyzə yəhudilərinin aqibəti* ........ 421
*Səd ibn Məazın hökm çıxararkən əsaslandığı sübutlar* ........ 423
**HİCRƏTİN ALTINCI İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR** ........ 426
*İslam düşmənlərinin aradan götürülməsi* ........ 426
*Qüreyş uzaq görənləri Həbəsistan sarayında* ........ 427
*Xoşagəlməz hadisələrin qarşısını almaq məqsədilə görülən təhlükəsizlik tədbirləri* ........ 428
*Zi-Qirəd döyüşü* ........ 429
*Bəni-Müstəliq döyüşü* ........ 429
*Xeyir-bərəkətli evlənmə* ........ 433
*Bir fasiqin rüsvay edilməsi* ........ 434
*Böhtan hadisəsi* ........ 435
*Ayələrdəki bəzi məqamlar* ........ 437
*Dini-siyasi bir xəbər* ........ 441
*Qüreyş nümayəndələri ilə Peyğəmbərin(s) görüşü* ........ 444
*Peyğəmbərin(s) nümayəndəsinin Qüreyş başçıları ilə görüşü* ........ 446
*Müsəlmanların Peyğəmbərə(s) yeni beyəti* ........ 447
*Süheyl ibn Əmrlə Peyğəmbərin(s) söhbəti* ........ 448

*Tarixin təkrarı* ........ 449
*Hüdeybiyyə sülh müqaviləsinin mətni* ........ 450
*Azadlıq səadəti* ........ 451
*Sülhün qorunması üçün daha bir cəhd* ........ 452
*Hüdeybiyyə sülhünün təhlili* ........ 453
*Sülh müqaviləsindəki maddələrdən biri ləğv olunur* ........ 455
**HİCRƏTİN YEDDİNCİ İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR** ........ 458
*Həzrət Mühəmməd(s) öz peyğəmbərliyini bütün dünyaya çatdırır* ........ 458
*Həzrət Mühəmməd(s) ümumbəşər peyğəmbər olmuşdur* ........ 458
*Peyğəmbər(s) uzaq bölgələrə qasid göndərir* ........ 460
*Qasidlərin göndərildiyi vaxt dünyadakı mövcud durum* ........ 461
*Peyğəmbərin(s) qasidi Bizans ərazisində* ........ 462
*Bizans imperatoru Peyğəmbər(s) haqqında maraqlanır* ........ 463
*Peyğəmbərin(s) məktubunun imperatora təsiri* ........ 464
*Peyğəmbərin(s) qasidi İran sarayında* ........ 465
*Yəqubinin mövqeyi* ........ 466
*Xosrov Pərvizin Yəmən hökmdarına tapşırığı* ........ 467
*İslam qasidi Misir torpağında* ........ 468
*Misir hökmdarı Mequqesin Peyğəmbərə(s) məktubu* ........ 471
*Müğeyrə ibn Şöbə Misir sarayında* ........ 471
*Peyğəmbərin(s) qasidi xatirələr diyarı Həbəşistanda* ........ 473
*Peyğəmbərin(s) qasidinin Həbəşistan hökmdarı ilə söhbəti* ........ 474
*Nəcaşinin peyğəmbərə(s) cavab məktubu* ........ 475
*Peyğəmbərin(s) o vaxtkı ölkə başçılarına məktub göndərməsinin dəyərləndirilməsi* ........ 476
*Peyğəmbərin(s) məktubunun Nəcaşiyə təsiri* ........ 476
*Peyğəmbərin(s) Qəssanilər dövlətinin başçısına məktubu* ........ 477
*Peyğəmbərin(s) qasidi Yəmamə diyarında* ........ 479
*Peyğəmbərin(s) digər məktubları* ........ 480
*Alınmaz Xeybər qalası* ........ 480
*Strateji yerlər və yollar gecə ikən tutulur* ........ 483
*Yəhudi qalaları süqut edir* ........ 484
*Çətinlik vaxtında pəhrizkarlıq* ........ 486
*Qalalar bir-birinin ardınca fəth edilir* ........ 487
*Böyük Xeybər zəfəri* ........ 488
*Həqiqətin təhrif edilməsi* ........ 490
*Əlinin həyatındakı üç parlaq məqam* ........ 492
*Qələbəyə səbəb olmuş amillər* ........ 492
*1-Müsəlmanların yürütdüyü hərbi taktika* ........ 492
*2-Düşmən haqqında lazımı məlumat əldə edə bilmək* ........ 493
*3-Əmirəlmöminin Əlinin(ə) böyük fədakarlığı* ........ 494
*Döyüş meydanında mehribanlıq* ........ 495
*Kənanə ibn Rəbinin öldürülməsi* ........ 495
*Qənimət bölgüsü* ........ 496
*Xatirələr diyarından gələn karvan* ........ 497
*Qələbədən sonrakı mərhəmət* ........ 497

*Yəhudi fırıldaqları* ... 499
*Məsləhətli yalan* ... 500
*Fədək bağı* ... 502
*Vadil-Quraya yürüş* ... 506
*Ümrə həccinin qəzası* ... 507
*Yeddi illik həsrətin sonu* ... 508
HİCRƏTİN SƏKKİZİNCİ İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR ... 512
*Mutə döyüşü* ... 516
*İslam ordusunun Mədinəyə dönüşü* ... 519
*Peyğəmbər(s) Cəfərin matəmində* ... 519
*Zatus-səlasil döyüşü* ... 520
*Orduya başçılıq etmək Əliyə(ə) tapşırılır* ... 521
*Əlinin(ə) qələbə qazanmasının səbəbləri* ... 522
*Bir sual, bir cavab* ... 523
*Məkkənin fəthi* ... 524
*Bilalın Kəbədə azan verməsi* ... 543
*Peyğəmbərin(s) öz qohumları ilə söhbəti* ... 544
*Peyğəmbərin(s) Məscidül-həramdakı tarixi xütbəsi* ... 544
*1) Əsl-nəsəblə öyünmə* ... 545
*2) Ərəb olmaqla öyünmə* ... 545
*3) İnsanlar arasındakı bərabərlik* ... 545
*4) Yüz illik müharibələr və köhnə ədavət* ... 546
*5) İslam qardaşlığı* ... 546
*Cinayətkarların yaxalanması* ... 546
*Məkkə qadınlarının Peyğəmbərə(s) beyəti* ... 548
*Məkkə və ətrafdakı bütxanaların dağıdılması* ... 549
HÜNEYN DÖYÜŞÜ ... 552
*Peyğəmbər(s) və fədakar mücahidlərin müqaviməti* ... 554
*Taif döyüşü* ... 555
*İqtisadi və psixoloji təzyiqlər* ... 557
*Qalanın alınması üçün son cəhd* ... 558
*İslam ordusunun Mədinəyə dönüşü* ... 558
*Döyüşdən sonra baş verənlər* ... 559
*İnsanların haqqını ödəmək* ... 559
*Malik ibn Ovfun İslamı qəbul etməsi* ... 561
*Döyüş qənimətlərinin bölüşdürülməsi* ... 562
*Bir gəncin Məkkə valisi təyin edilməsi* ... 564
*Kəb ibn Züheyr ibn Əbu Səlmanın əhvalatı və məşhur qəsidəsi* ... 565
*Sevinc və kədərin bir-birinə qarışması* ... 566
HİCRƏTİN DOQQUZUNCU İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR ... 568
*Bütxanaların dağıdılması* ... 569
*Əli(ə) Teyy qəbiləsində* ... 569
*Ədiyy ibn Hatəmin Mədinəyə gəlişi* ... 571
TƏBUK DÖYÜŞÜ ... 573
*Ordu təşkil edilməsi və döyüş büdcəsinin hazırlanması* ... 574
*Mədinədə cəsus şəbəkəsinin aşkar edilməsi* ... 574

*Orduya qoşulmaqdan imtina edənlər* ........ 575
*Əli(ə) Təbuk döyüşündə iştirak etmir* ........ 576
*Malik ibn Qeysin macərası* ........ 578
*Peyğəmbərin(s) verdiyi qeybi xəbər* ........ 580
*Peyğəmbərin(s) verdiyi daha bir qeybi xəbər* ........ 581
*İslam ordusu Təbuk diyarında* ........ 582
*Zirar məscidinin macərası* ........ 588
*Bəni-Səqif nümayəndələrinin Mədinəyə gəlişi* ........ 589
*Minada oxunulmuş qətnamə* ........ 592
**HİCRƏTİN ONUNCU İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR** ........ 597
*Peyğəmbərin(s) oğlu İbrahimin vəfatı* ........ 597
*Mövhumata qarşı mübarizə* ........ 599
*Nəcran nümayəndələrinin Mədinəyə gəlişi* ........ 599
*Nümayəndə heyəti ilə Peyğəmbərin(s) müzakirəsi* ........ 601
*Peyğəmbərlə(s) Nəcran xristianları arasında bağlanmış müqavilə* ........ 604
*Böyük bir iftixar* ........ 605
*Mübahilə hadisəsinin baş verdiyi gün, ay, il* ........ 606
*Əmirəl-möminin Əlinin(ə) Minada oxuduğu qətnamənin nəticəsi* ........ 610
*Peyğəmbərə(s) sui-qəsd cəhdi* ........ 610
*Əmirəl-möminin Əlinin(ə) Yəmənə ezam edilməsi* ........ 611
*Peyğəmbərin(s) vida həcci* ........ 613
*Əlinin(ə) Yəməndən geri qayıtması* ........ 614
*Peyğəmbərin(s) vida həccində buyurduğu xütbə* ........ 615
*Dinin kamilləşməsi* ........ 618
*Canişinlik məsələsində ictimai araşdırma* ........ 619
*1 Peyğəmbərliklə imamət bir-birindən ayrılmaz* ........ 621
*2 Qədir-xum əhvalatı* ........ 622
*Peyğəmbərin(s) Qədir-xumda buyurduğu xütbə* ........ 622
*Peyğəmbərlik iddiası edənlər* ........ 626
*Müseyləmənin həyatı barədə qısa məlumat* ........ 627
*Peyğəmbərin(s) bizanslılara qarşı tədbiri* ........ 628
*Peyğəmbərin(s) Bəqi qəbristanlığındakı ölülər üçün bağışlanma diləməsi* ........ 631
**HİCRƏTİN ON BİRİNCİ İLİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR** ........ 633
*Yazılmamış məktub* ........ 633
*Məktubun yazılmasında məqsəd nə idi?* ........ 636
*Beytül-malda qalmış pulların bölgüsü* ........ 638
*Peyğəmbərin(s) ona verilən dərmana görə narahat olması* ........ 638
*Peyğəmbərin(s) səhabələrlə vidalaşması* ........ 639
*Peyğəmbərin(s) son saatları* ........ 639
*Peyğəmbərin(s) öz qızı ilə söhbəti* ........ 640
*Peyğəmbərin son vəsiyyəti* ........ 642
*Peyğəmbərin(s) vəfat günü* ........ 643

# HƏZRƏT .
# MUHƏMMƏD
## İSLAM PEYĞƏMBƏRİNİN HƏYATI BARƏDƏ MÜKƏMMƏL ARAŞDIRMA

Çapa imzalanmışdır 25.02.2010. Formatı 70×100 $^{1}/_{16}$.
Ofset kağızı. Ofset çapı. Fiziki çap vərəqi 41.
Sifariş 28. Tiraj 1000.

«Şərq-Qərb» ASC-nin mətbəəsində çap olunmuşdur.
Bakı şəhəri, Aşıq Ələsgər küçəsi, 17.

Tel.: (+994 12) 374-75-62
(+994 12) 374-83-43
(+994 12) 374-73-84
Faks: (+994 12) 370-18-49
e-mail: sharq.qarb@gmail.com